ISSN 2221-8432
E-ISSN 3005-8929
DOI: 10.62021

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Elmi məqalələr məcmuəsi

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Collection of scientific articles

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Сборник научных статей

№2

2025

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 4 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125/139b
Tel.: 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2025

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **Məmmədov Nəsirağa**
filol. e. d., prof. **Veysəlli Fəxrəddin**
filol. e. d., prof. **Cahangirov Fikrət**
filol. e. d., prof. **Nurqali Kadişa (*Qazaxstan*)**
filol. e. d., prof. **Qurbanova Fidan**
filol. e. d., prof. **Cəfərov Mikayıl**
filol. f. d. dos. **Babaşova Xalidə**
filol. f. d. **Korotışev Aleksandr (*Rusiya*)**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **Qocayev Məmməd**
filol. e. d., prof. **Novruzov Rafiq**
filol. e. d., prof. **Xəlilli Şahin**
filol. e. d., prof. **Qeybullayeva Rəhilə**
filol. e. d., prof. **Rəsulov Rüstəm**
filol. e. d., prof. **Travnikov Serqey (*Rusiya*)**
filol. f. d., dos. **Ağamirzəyev Əliş**
filol. f. d., dos. **Carçıyeva İlahə**
filol. f. d., dos. **Hacıyev Kamran**

Pedaqogika
ped. e. d., prof. **Abbasov Akif**
ped. e. d., prof. **Tağıyev Şahin**
ped. e. d., prof. **Xəlilov Vidadi**
ped. e. d., prof. **Cəbrayılov İntiqam**
ped. e. d., prof. **Quliyeva Ellada**
ped. f. d., dos. **Səmədov Oktay**
ped. e. f. d., dos. **Tağıyeva Ellada**

İctimai elmlər
tarix e. d., prof.,
AMEA-nın müxbir üzvü **Qasımlı Musa**
tarix e. d., prof. **İbrahimli Fəzail**
fəlsəfə e. d. **Məmmədov Cahangir**
tarix e. d., prof. **Əmrahov Mais**
fəlsəfə e. d., prof. **Əliyev Məmməd**
tarix e. d., prof. **Məmmədov Habil**
tarix f. d., dos. **Əhməd Əsgər**
siyasi elmlər f. d. **Abdullayev Natiq**

Redaksiya şurasının sədri,
buraxılışa məsul: filol. e. d., prof. **Cəfərov Telman**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Elmi məqalələr məcmuəsi. **№ 2/2025. – Bakı: Mütərcim, 2025. – 496 səh.**

:10.62021

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

© Məqalə müəllifləri, 2025
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsinin redaksiyası, 2025

The actual problems of study of humanities
Quarterly scientific publication

Editorial Board:

Linguistics
D. of Philol., Prof. **Mammadov Nasiragha**
D. of Philol., Prof. **Veysalli Fakhraddin**
D. of Philol., Prof. **Jahanghirov Fikrat**
D. of Philol., Prof. **Nurgali Kadisha *(Kazakhstan)***
D. of Philol., Prof. **Gurbanova Fidan**
D. of Philol., Prof. **Jafarov Mikayil**
PhD in Philol., Assoc. Prof. **Babashova Khalida**
PhD in Philol. **Korotishev Aleksandr (*Russia*)**

History and criticism of literature
D. of Philol., Prof. **Gojayev Mammad**
D. of Philol., Prof. **Novruzov Rafiq**
D. of Philol., Prof. **Khalilli Shahin**
D. of Philol., Prof. **Geybullayeva Rahila**
D. of Philol., Prof. **Rasulov Rustam**
D. of Philol., Prof. **Travnikov Sergey (*Russia*)**
PhD in Philol., Assoc. Prof. **Aghamirzayev Alish**
Phd in Philol., Assoc. Prof. **Jarchiyeva Ilaha**
PhD in Philol., Assoc. Prof. **Hajiyev Kamran**

Pedagogics
D. of Pedag., Prof. **Abbasov Akif**
D. of Pedag., Prof. **Taghiyev Shahin**
D. of Pedag., Prof. **Khalilov Vidadi**
D. of Pedag., Prof. **Jabrayilov Intigam**
D. of Pedag., Prof. **Guliyeva Ellada**
PhD in Pedag., Assoc. Prof. **Samadov Oktay**
PhD in Pedag., Assoc. Prof. **Taghiyeva Ellada**

Social science
D. of Hist. S., Prof., Cor.-Mem. of NASA **Gasimli Musa**
D. of Hist. S., Prof. **Ibrahimli Fazail**
D. of Philos. in Philos. **Mammadov Jahanghir**
D. of Hist. S., Prof. **Amrahov Mais**
D. of Philos. in Philos. **Aliyev Mammad**
D. of Hist. S., Prof. **Mammadov Habil**
PhD in Hist. S., Assoc. Prof. **Ahmad Asgar**
PhD in Pol. S. **Abdullayev Natig**

Chairman of the Editorial Board,
Managing Editor: D. of Philol., Prof. **Jafarov Telman**

The actual problems of study of humanities. Collection of scientific articles. **№ 2/2025. – Baku: Mutarjim, 2025. – p. 496.**

:10.62021

The collection is included in the list recommended by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan, scientific journals in which the main scientific results of dissertations should be published.

© Authors of the articles, 2025
© "The actual problems of study of humanities" edition of the collection, 2025

Актуальные проблемы изучения гуманитарных наук
Квартальное научное издание

Редакционная коллегия:

Лингвистика
д.н. по филол.н. **Мамедов Насирага**
д.н. по филол.н. **Вейсалли Фахраддин**
д.н. по филол.н. **Джахангиров Фикрет**
д.н. по филол.н. **Нургали Кадиша (*Казахстан*)**
д.н. по филол.н. **Гурбанова Фидан**
д.н. по филол.н. **Джафаров Микаил**
д.филос.по филол. н., доц. **Бабашова Халида**
д.философии по филол. н.
Коротышев Александр (*Россия*)

Литературоведение
д.н. по филол.н. **Годжаев Мамед**
д.н. по филол.н. **Новрузов Рафиг**
д.н. по филол.н. **Халилли Шахин**
д.н. по филол.н. **Гейбуллаева Рахиля**
д.н. по филол.н. **Расулов Рустам**
д.н. по филол.н. **Травников Сергей (*Россия*)**
д.филос. по филол.н., доц. **Агамирзоев Алиш**
д. филос. по фил.н., доц. **Джарчиева Илаха**
д. филос. по фил.н., доц. **Гаджиев Камран**

Педагогика
д.н. по пед.н. Аббасов Акиф
д.н. по пед.н. Тагиев Шахин
д.н. по пед.н. Халилов Видади
д.н. по пед.н. Джабраилов Интигам
д.н. по пед.н. Гулиева Эллада
д. филос. по пед.н., доц. Самедов Октай
д. филос. по пед.н., доц. Тагиева Эллада

Общественные науки
д.н. по ист. н., проф., член-корр. НАНА
Гасымлы Муса
д.н. по ист. н., проф. **Ибрагимли Фазаил**
д.н. по ист. н., проф. **Мамедов Джахангир**
д.н. по ист. н., проф. **Амрахов Маис**
д.н. по филос. н., проф. **Алиев Мамед**
д.н. по ист. н., проф. **Мамедов Хабиль**
д.филос. по ист. Н. **Ахмед Аскер**
д. филос. по полит. н. **Абдуллаев Натиг**

Председатель редакционного совета,
ответственный редактор: д.н. по филол. н., проф. **Джафаров Тельман**

Актуальные проблемы изучения гуманитарных наук. Сборник научных статей. **№2/2025. – Баку: Мутарджим, 2025. – 496 стр.**

:10.62021

Сборник включен в Перечень рекомендуемых Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций.

© Авторы статей, 2025
© Редакция сборника «Актуальные проблемы изучения гуманитарных наук», 2025

G.B.BƏŞİROVA
e-mail: gulbani.bashirova@mail.ru
:https://orcid.org/0009-0004-9160-3743

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

QLOBALLAŞMANIN İNGİLİS DİLİNİN LÜĞƏT FONDUNA TƏSİRİ

Xülasə. *Məqalədə qloballaşmanın ingilis dilinin lüğət fonduna təsirindən söhbət açılır. Aydındır ki, dil inkişafda olan bir prosesdir, müəyyən prinsiplər əsasında inkişaf edir və bəlli məqsədlərə görə işlədilir. Məlumdur ki, bəlli tarixi şərait, mədəni əlaqələr, iqtisadi qloballaşma və digər faktorlar yetəri qədər söz və ifadələrin ingilis dilinin lüğət ehtiyatına nüfuz etməsinə səbəb olmuşdur.*

Açar sözlər: *qloballaşma, linqvistik faktorlar, iqtisadi qloballaşma, sivilizasiya*

Son illər qloballaşmanın bütün dünyada tüğyan etməsi bu mövzunun geniş şəkildə müzakirəsini aktuallaşdırmışdır. Dünya dövlətlərinin sivilizasiya mərhələsinə qədəm qoyması qloballaşmanın daha da sürətlənməsinə səbəb olmuşdur.

Hal-hazırda sosioloji dilçiliyin araşdırdığı aktual problemlər sırasına qloballaşmanın ingilis dilinin lüğət fonduna təsirini müəyyənləşdirməkdir.

Məlumdur ki, XXI əsrdən etibarən qloballaşmanın pik həddinə çatması sosial həyatın müxtəlif sferalarına da təsir göstərməsidir. Qloballaşma prosesinin dünyanın dil xəritəsinə təsiri qlobal dil probleminin, beynəlxalq ünsiyyət dilinin olması zərurətini ortaya qoyur. Qeyd edək ki, qlobal dil probleminin araşdırılması və müəyyənləşdirilməsi müasir dilçiliyin qarşısında duran məsələlərdən biridir və nəzəri-praktik əhəmiyyət kəsb edir.

Dilin lüğət fondunda özünü göstərən dəyişikliklər cəmiyyət həyatında baş verən dəyişikliklərdən irəli gəlir. İngilis dilinin lüğət fondunun genişlənməsində sosioloji faktorların təsirini vurğulamaq vacib məqamdır. Dilin insan cəmiyyətindən xaricdə təsəvvür edilməsi mümkün deyildir və cəmiyyətin dəyişməsi ilə dil də paralel olaraq modifikasiyalara uğrayır. Dilin lüğət fondunda söz və ifadələrin, eləcə də onların semantikasının ardıcıl olaraq dəyişikliklərə uğraması bilavasitə sosial faktorlarla bağlıdır [1, s.104].

Dünya dövlətlərinin bir-biri ilə müxtəlif sahələr üzrə əlaqələri, siyasi və diplomatik əlaqələr, azad bazar münasibətləri, iqtisadi, ticari və mədəni əlaqələrin qurulması, ekstralinqvistik faktorlar və s. dilin lüğət fondunun zənginləşməsində öz təsirini göstərir. Bəlli səbəblərin və fərqli tarixi şəraitin mövcudluğu hər hansı bir dilin sözlərinin digərinə nüfuz etməsini gücləndirir.

Yuxarıda qeyd olunduğu kimi, qloballaşma ingilis dilinin lüğət fondunun zənginləşməsində əhəmiyyətli rol oynayır. Qloballaşma nədir?

Qloballaşma prosesində fərqli qurumlar, mədəniyyətlər, iqtisadi sahələr və s. bir-birinə inteqrasiya olunur. Qloballaşma prosesinə isə təkan verən dünya ticarəti, yüksək kapital qoyuluşu və müasir texnologiyalardır. Qloballaşmanın növlərini sxematik olaraq aşağıdakı kimi göstərmək olar:



Aydındır ki, qloballaşmanı müasir məfhum kimi qəbul etmək bir o qədər də düzgün deyildir. Ta qədim zamanlardan xalq və millətlər bir-biri ilə ticarət əlaqələri qururdular. Erkən vaxtlarda təkcə ərazicə bir-birinə yaxın dövlətlər ticarət dövriyyəsi edirdilər. Bu isə nəqliyyatın məhdud olması səbəbindən irəli gəlirdi. Müasir nəqliyyat vasitələri bu sahədə əlaqələri intensivləşdirdi və müxtəlif coğrafi ərazilər də daxil olmaqla qloballaşmanın genişlənməsinə təkan verdi. İnformasiya-kommunikasiya texnologiyalarının intensiv inkişafı, telefon rabitəsinin mövcudluğu beynəlxalq kommunikasiyanın daha da genişlənməsinə şərait yaratdı.

Yer kürəsində yaşayan insanların bir-biri ilə əlaqəsinin dərinləşməsində vacib rol oynayan vasitələrdən biri də telefondur. Zaman keçdikcə telefon aparatının kəşfi insanların operativ və rahat ünsiyyətinə təkan verdi və nəticədə yaşadığımız dünyanın konseptual həcminin maksimum dərəcədə minimuma enməsi müşahidə olunmağa başladı. Bundan əlavə, internetin insan həyatına daxil olması kommunikasiyanın intensiv qurulmasına böyük təsir göstərdi. Bu kommunikasiya vasitəsi isə müxtəlif elmi mənbələrin, lazımi biliklərin əldə olunması və elmi araşdırmaların aparılması xeyli sürətləndi və yüngülləşdi. İnternet həm də ticarətin genişlənməsinə effektiv təsir göstərdi.

İqtisadi, mədəni və siyasi sahələrin inkişafı ilə, adı çəkilən sahələr üzrə əlaqələrin və kommunikasiyanın qurulması qloballaşma çərçivəsində cərəyan etməklə bəlli bir dilin coğrafi arealını genişləndirməklə qlobal dil kimi meydana çıxmasına intensiv təsir göstərməyə başladı.

Artıq yuxarıda vurğuladığımız ki, qədim zamanlardan bu günə qədər dil insanlar arasında qarşılıqlı ünsiyyət vasitəsi olmuşdur və hələ də inkişaf etməkdədir. Bu baxımdan dil sosial hadisə hesab olunur. İctimai tələbatdan doğan dil insan cəmiyyətində mühüm kommunikativ vasitədir. Zaman keçdikcə dillərin inkişafı onların şaxələnməsinə səbəb olmuşdur. Dillərin təkamül tarixinin müəyyənləşdirilməsi bütün dillər üçün ortaq olan kök dilin xüsusiyyətlərini aydınlaşdırmadan mümkün deyil. Ortaq kök dildən yaranan bir qrup dilləri vahid dil ailəsi kimi qəbul etmək olar. Cəmiyyətdə sosial, iqtisadi, mədəni proseslərin meydana çıxması və inkişafı leksik terminologiyanın genişlənməsinə təkan verir, ümumiyyətlə dilin leksik fondu dəyişikliklərə uğrayır.

Yaşadığımız müasir dövr öz qloballığı ilə seçilir. Elm və texnologiyanın yüksək səviyyədə inkişafı xalqlar və dövlətlərin elmi və mədəni əlaqələrinin dərinləşməsinə və bir-birindən faydalanmasına, onların yaxınlaşmasına gətirib çıxarmışdır. Belə bir inteqrasiyanı yaradan əl-

bəttə ki, dildir. Sözsüz ki, bu tərzdə inteqrasiya birdən-birə baş vermir. Adı çəkilən proses müəyyən hədəfləri ortaya qoyur və o hədəflərə çatmaq məqsədyönlü şəkildə icra olunmalıdır. Qloballaşma ölkələrin davamlı inkişafına, sabitliyin qorunub saxlanmasına, iqtisadi əlaqələrdə meydana çıxan fərqlərin ləğv edilməsinə, insanların həyat tərzinin, yaşayış səviyyəsinin müsbətə doğru istiqamətlənməsinə təkan verir.

Qloballaşma ilə bağlı kifayət sayda nöqteyi-nəzərlər irəli sürülmüşdür. Bir qrup alimlərin fikrincə, bu proses nəinki mədəniyyətin pozulması, o cümlədən müstəqilliyin inkar olunması ideyasını təbliğ edir.

Digər qrup alimlərin fikrincə, bu proses ABŞ-ın bütün dünyada dominant dövlətə çevrilməsinə imkan verir. Bu baxımdan qloballaşma siyasi, mədəni, ticari və s. münasibətlərə təsir etdiyi kimi iqtisadi münasibətlərə də təsir göstərir.

Hal-hazırda ingilis dili qlobal dil kimi özünü göstərir və bu dil siyasi, iqtisadi, mədəni sahələrdə, o cümlədən elmi sferada dünya aviasiya və dəniz nəqliyyatında geniş şəkildə işlədilir. Avropa, ABŞ, Avstraliya, Atlantik və Sakit okean ölkələri və s. ingilis dilindən istifadə edir. Demək olar ki, dünyanın altmış ölkəsində ingilis dili hegemon dil olaraq özünü göstərir və təxminən 380 milyon əhali bu dili ana dili kimi işlədir və təqribən o qədər sayda əhalinin bu dildən 2-ci xarici dil olaraq istifadə olunması məlumdur. Onu da qeyd edək ki, hal-hazırda beynəlxalq ünsiyyət dili kimi təxminən 2,3 milyon insan Esperanto dilindən istifadə edir. Bu dili XIX əsrin əvvəllərində L.Zamenqof işləyib hazırlamışdır. İngilis dilindən yer kürəsi əhalisinin orta hesabla 1/5 hissəsi istifadə edir.

Birləşmiş Krallıqda, Amerikada, Yeni Zelandiyada və s. ölkələrdə əsas dil kimi, Afrikada, Nigeriyada, Pakistanda, Yeni Qvineyada və s.-də 2-ci dil olaraq işlədilir [5].

Beynəlxalq dil kimi ingilis dili eyni zamanda beynəlxalq münasibətlər quran dil hesab olunur, əsasən iqtisadi və siyasi sferada daha çox istifadə edilir. Beynəlxalq qurumların işçi dili sayılan ingilis dili, həmçinin pop janrının və filmlərin dili kimi özünü göstərir. XVIII əsrin sonu XIX əsrin əvvəllərindən başlayaraq ingilis dili qlobal dil kimi özünü göstərməyə başladı. 19-cu əsrin əvvəllərindən etibarən İngiltərənin dünyanın əsas sənaye dövləti kimi meydana çıxmasında ingilis dilinin böyük rolu olmuşdur. 20-ci əsrdən başlayaraq bu dilin arealı genişlənmə xətti götürdü. Bunun isə əsas səbəbi Amerikanın iqtisadi və sənaye qüdrətinin yüksəlməsi ilə bağlı idi. ABŞ-ın iqtisadi yüksəlişi digər dövlətlərlə iqtisadi sferada əlaqələrin güclənməsinə əsaslı şərait yaratdı və sözsüz ki, bu prosesdə ingilis dili böyük təsirə malik idi. İndiki zamanda kommunikasiyanın, internetin və kompüter sənayesinin intensiv inkişafı ingilis dilinin qlobal dil kimi nüfuz qazanmasına gətirib çıxardı.

Qloballaşmada lokal xarakterli hadisə və proseslər qlobal xarakterli hadisə və proseslərə çevrilir, bir-biri ilə vəhdətdə təzahür edir. Belə ki, texnoloji tərəqqi yerli iqtisadiyyatın dünya iqtisadiyyatına tərəqqi etməsinə təkan verir və bu isə dildən təsirsiz ötüşmür. Məsələn, müasir ingilis dilinin qrammatikası digər başqa dillərin qrammtikası ilə müqayisədə daha fərqli şəkildə özünü göstərir. Sosil şəbəkələrdə də insanlar ingilis dilinin köməyi ilə kommunikasiya yaradırlar. Qloballaşma dövründə ingilis dilinin leksik ehtiyatı yeni sözlərlə, ifadələrlə və terminlərlə zənginləşir ki, bu da insanlar arasında ünsiyyətin qurulmasında önəmli funksiyanı yerinə yetirir.

İngilis dilinin geniş tutumlu leksik fondunun köməyi ilə insanlar obyekt və hadisələri, müxtəlif proseslərin gedişini öz düşüncə və ideyalarını fərqli şəkildə və daha ətraflı izah edirlər. Bir sözlə, qloballaşmanın təiri ilə bütün yer kürəsi bir-biri ilə ünsiyyət və əlaqə yaradır və hamı ingilis dilindən istifadə edir. Müasir dövrdə ingilis dili digər dövlətlərdən daha intensiv inkişaf xətti götürmüşdür. İnsanların söz bazası sürətlə genişlənir və rəngarəngliyi ilə fərqlənir və bu dilin lüğət fondu zənginləşməyə başlayır. Qloballaşma prosesinin təsiri ilə müxtəlif məna çalarları olan sözlər, ixtiraçılar, alimlər tərəfindən irəli sürülən sözlər, ictimai, iqtisadi, texnoloji və mədəni tərəqqinin baş verməsi ilə yaranan sözlər ingilis dilinin lüğət ehtiyatına nüfuz edir. İnsanlar internet vasitəsilə yeni söz və ifadələrə yiyələnir, slenqlərlə, arqo sözlərlə ta-

nış olurlar, yeni semantik çalar daşıyan sözləri öyrənirlər. Bu kimi proseslər bəşəriyyətin daim inkişaf etdiyini və bu inkişafın heç vaxt dayanmayacağını bir daha sübut edir.

Aydındır ki, qısa zaman çərçivəsində bir çox terminlər ingilis dilinin lüğət fonduna daxil olmuşdur və əksər insanların çox tez qavramadıqları bir qrup sözlər onların diqqətini cəlb edir. Misal üçün, ***mic drop*** terminini cümlədə nəzərdən keçirək.

John's performance drew every one's attention. I thought that was the perfect *mic drop*.

Cümlədə verilən bu termin mükəmməl, maraq doğuran bir çıxışdan sonra mikrofonun bilərəkdən yerə salınmasıdır.

Həqiqi məna ilə yanaşı ***mic drop*** termini məcaziliyi də ifadə edir. Hər hansı söhbətin yaxud debatın qələbə ilə bitməsi, eləcə də prosesin tərki kimi başa düşülür.

Misal üçün, ***dark web*** terminini nəzərdən keçirək:

Verilən termin internetin elə bir şəbəkəsidir ki, server və müştərinin qarşılıqlı əlaqəsini və fəaliyyətini təmin edir. Məsələn,

Sam probably has got a secret. He seems to have connected with dark webs.

Qeyd edək ki, qloballaşmanın təsirindən çoxlu sayda söz və ifadələr ingilis dilinin lüğət fonduna daxil olmuşdur. Misal üçün:

The Conservative Party was against the session and boycotted it.

Burada *boycot* sözü aşağıdakı kimi izah edilir:

A boycot (as a noun) – is a kind of protest against country, people, or organization

To boycot (as a verb) – to ban or veto on relations with some organizations, parties, etc.

İngilis dilində də "boycot" sözü həm isim, həm də feil kimi işlənir.

İngilis dilinin lüğət fondunun zənginləşməsində tarixi faktorlar da aparıcı rol oynamışdır. Tarixdən məlum olduğu kimi, b.e.ə. təxminən 500 il əvvəl Britaniya alman tayfaları tərəfindən işğal olundu. Təqribən b.e.yeddi yüz il qabaq keltlərin İngiltərədə məskunlaşması ilə qədim ingilis dilinin cənuba doğru yayılması müşahidə olundu.

1066-cı ildə Britaniyanın Norman tayfaları tərəfindən istilası onun lüğət ehtiyatına fransız mənşəli sözlərin daxil olmasına səbəb oldu. Həmin dövrdə hərbi sahə ilə yanaşı hüquqi sahədə işlənən xeyli sözlər və terminlər ingilis dilinin lüğət fonduna daxil oldu: judge, defendant, attorney, state, religion, saint və s.

Qeyd edək ki, ingilis dilinin leksik fonduna daxil olan fransız sözlərinin sayı orta hesabla 10.000 civarındadır. O dövrdə ingilis dilinin İngiltərədə yayılıb işlənməsinə baxmayaraq yalnız aşağı təbəqənin nümayəndələri tərəfindən istifadə olunurdu və zaman keçdikcə fransız dili mədəniyyət, məhkəmə və dövlətçilik dili kimi işlədilməyə başladı.

XV-XVIII əsrlər isə ingilis dilinin formalaşması dövrü kimi xarakterizə olunur. 16-cı əsrin əvvəllərindən başlayaraq Britaniya İmperiyasının güclənməsi, texniki tərəqqi və dirçəliş dövrünə qədəm qoyması onun lüğət fondunun genişlənməsinə səbəb olmuşdur. Eyni zamanda orfoqrafiya və orfoepiyanı əks etdirən iri həcmli lüğətlər nəşr olunmağa başladı. Bundan əlavə, texniki və elmi tərəqqinin inkişafı çox sayda Latın və Yunan mənşəli neologizmlərin ingilis dilinin lüğət ehtiyatına nüfuz etməsinə təkan verdi.


Müasir dövrdə ingilis dilinin öyrənilməsi bir o qədər də asan deyil və bu dili bütün dünyada daha çox istifadə olunan 3-cü dil kimi qəbul etmək məqbul hesab oluna bilər. Təkcə Londonda təqribən 400 dilin işlənməsi London ingiliscəsi kimi bir variantın formalaşmasını labüd edir. Bu variantda danışıq nitqi ilə yanaşı bəzi ingilis ünsürlərini əhatə edən dil modelləri mövcuddur. İnternet şəbəkəsində, eləcə də digər sosial şəbəkələrdə istifadə olunan bir çox söz və ifadələr, o cümlədən akronimlər, ixtisarlar bizim nitqimizdə ümumişləklik qazandığına görə gələcəkdə də ingilis dilinin hansı formatda çıxış edəcəyini göstərəcək.

İngilis dilinin lüğət fonduna effektiv təsir göstərən digər faktor mədəniyyətlərarası əlaqələrdir. Məlumdur ki, mədəniyyətlərin inteqrasiyası istənilən dilin lüğət fondunun zənginləşdirməyə meyilli olur, çünki mədəniyyətlərlə paralel olaraq dillərin də dəyişməsi əlaqələrin dərinləşməsinə gətirib çıxarır. Bu prosesə qoşulan istənilən dilin lüğət fondunda əhəmiyyətli də-

yişikliklər baş verir, yəni ilk öncə alınmalar dilin lüğət fondunda daxil olur. Alınmalar digər dillərdən alınmış, hədəf dildə tərcüməsi mümkün olmayan leksik vahidlərdir. Bəzən alınmaların müxtəlif şəkildə yazılışına və tələffüzünə rast gəlirik. Lakin müəyyən zaman kəsiyindən sonra onlar dil sisteminin vacib ünsürlərinə çevrilirlər və dil sistemində əhəmiyyətli qatı təmsil edirlər.

Yuxarıda qeyd olunduğu kimi, german tayfaları olan anqllar və saksonların Britaniyada məskunlaşmasından qabaq Latın və germandilli xalqlarla əlaqələri mövcud olmuşdur. Bununla yanaşı romalı sərkərdələr hərbi əməliyyatlar zamanı german tayfalarını da öz sıralarına çağırırdılar. Bir qrup german tayfaları romalı əsgərlərə qoşularaq Britaniyaya gəlib çıxmışdılar.

Belə bir fakt bir daha sübut edir ki, adı çəkilən german tayfaları romalılarla daim əlaqə saxlamış və əlbəttə dilə nüfuz etmiş sözlərin köməyi ilə ingilis dilinin lüğət fondunu zənginləşdirmişdir. Yəni çox sayda latın mənşəli sözlər ingilis dilinin leksik ehtiyatını genişləndirmişdir. Bu sözlər aşağıdakılardır:



Səkkizinci əsrin əvvəllərində Britaniyanın vikinqlər tərəfindən istilası və həmin tayfaların yerli əhaliyə qaynayıb-qarışması xeyli sözlərin ingilis dilinin leksik fonduna nüfuz etməsinə gətirib çıxardı: score, hit, window, call və s.

XX əsrin sonu, XXI əsrin əvvəllərindən başlayaraq dünya dövlətləri arasında beynəlxalq münasibətlərin dərinləşməsi, İKT-nın yüksəlişi və nəqliyyat sahəsində irəliləyişlər özünü göstərdi və belə bir hal fərqli mədəniyyətlərin qovuşmasına və mədəni münasibətlərin genişlənməsinə yol açdı.

Qloballaşmaya qarşı çıxanlar isə iddia edirlər ki, qloballaşma bütün dünyada dominantlığın bərqərarı üçün bilə-bilə işlənib hazırlanmış bir mexanizm olub əsasən üç sferada biri digərini tamamlamağa xidmət edir. Bu üç formadan biri olan iqtisadi qloballaşma milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyasına, o cümlədən iqtisadi münasibətlərin formalaşmasına təkan verir. İqtisadi qloballaşmanın əsasında isə dünya dövlətlətlərinin bir-birinə inteqrasiyası dayanır.

Bir faktı da vurğulayaq ki, müxtəlif illərdə fərqli sözlər dilin lüğət fonduna nüfuz etmişdir. Onu aşağıdakı cədvəldə təqdim edək:

SÖZLƏR	İNGİLİS DİLİNİN LÜĞƏT EHTİYATINA DAXİL OLDUĞU İL
Anorak	1924
Bikini	1948
Bistro	1906
Cappuccino	1948

Chuddies	1990
Espresso	1945
Latte	1990
Karaoke	1979
Karate	1955
King fu	1966
Lego	1954

[5, en.wikipedia.org.]

Universal dil saylan ingilis dili dünyəvi rəqabəti reallaşdırmaq üçün aparıcı dildir. İngilis dilinin dominant dilə çevrilməsində ABŞ-ın güclü iqtisadiyyatı və Britaniyanın digər ölkələri fəthi, eləcə də tarixi faktorlar böyük rol oynamışdır. İngilis dilini öyrənənlər uğurlu insanlardır və həmin dilin sayəsində insanların ətrafları ilə sıx əlaqə saxlaması mümkün olur.

Qeyd etmək lazımdır ki, iqtisadi qloballaşma yetəri qədər söz və ifadələrin ingilis dilinin lüğət ehtiyatına nüfuz etməsinə səbəb olmuşdur. Bunu cədvəl şəklində göstərək:

İQTİSADİ TERMİNLƏR	TERMİNLƏRİN İZAHI
To export goods	Başqa ölkələrə mal ixrac etmək
To import goods	Ölkəyə mal idxalı
A boycott	Boykot, etiraz
To boycott	Hər hansı məhsula, mala imtina etmək
Domestic production	Daxili istehsal
To break down trade barriers	Ticarətdə əngəllərin aradan götürülməsi
To outsource	İstehsal prosesinin digər ölkəyə köçürülməsi
Deregulation	Milli bazarın dünya bazarına daxil olması
Sweatshop	İşçilərin istismar olunduğu mağaza
To earn a subsistence wage	Yaşamaq üçün kifayət qədər pul qazanmaq
Supply and demand	Tələb və təklif
Outsider	Kənar faktorlar

Bir faktı da vurğulamaq yerinə düşər ki, əksər dillərin inkişafı başlıca olaraq həmin dilin daxili imkanları hesabına reallaşır. Dilin daxili imkanları onun lüğət fondunun zənginləşməsində aparıcı funksiyanı yerinə yetirir. Bu hal dilin müstəqilliyinə şərait yaradan vacib faktorlardan biri hesab olunur.

İqtisadi əlaqələrin qurulması dövlətlər arasında birgə səmərəlilik şəraitində fəaliyyət göstərməsinə, elmi və digər əlaqələrin dərinləşməsinə təkan verir. Belə qarşılıqlı münasibətlərin nəticəsi olaraq ölkələr öz iqtisadi qüdrətini bərpa edir, insanların yaşayış səviyyəsi, rifah halı yüksəlməyə başlayır.

Eyni zamanda Amerikanın iqtisadi dirçəliş dövrünə qədəm qoyması və tərəqqi etməsi böyük kütlənin Amerikaya istiqamətlənməsinə təkan verdi. Beləliklə də, Amerika Birləşmiş Ştatları fərqli mədəniyyətlərin toplaşdığı bir ölkə kimi özünü göstərməyə başladı. Belə bir prosesdə ingilis dili mədəniyyətlərarası əlaqələr üçün bir anlaşma vasitəsi oldu. 20-ci əsrdə ingilis dilinin lüğət fondu söz və ifadələrlə zənginləşdi.

Bilirik ki, ingilis dilinin lüğət fondu onun intensiv inkişaf edən qatı sayılır. İstənilən dilin leksik ehtiyatı həmin dilin daşıyıcısı olan şəxslərin həm maddi, həm də mənəvi dəyərlərinə uyğun olaraq zənginləşməyə başlayır [2, s.18] . Belə ki, ingilis ədəbi dilinin leksik fondunun zənginləşməsində yeni söz və ifadələrlə yanaşı, eyni zamanda müxtəlif ləhcələrdə işlənən sözlərin və frazaların rolu böyükdür.

Göründüyü kimi, ingilis dilinin qlobal dil statusu qazanmasına təsir göstərən amillər 9-cu əsrdə Britaniyanın, 21-ci əsrdə ABŞ-ın bir çox sahələrində yüksəlişi və çiçəklənməsi olmuşdur.

Hal-hazırda İngiltərə və Amerika Birləşmiş Ştatları hərbisi və ticarət dövriyyəsinin güclü olması ilə seçilir. Hər 2 super qüvvə qlobal dünyanın fəthinə nail olmaqla, bir çox ölkələri öz müstəmləkələrinə çevirməklə, mədəniyyətlərinin, adət-ənənələrinin geniş təbliğatına imkan yaratmışdılar. İngilis dilinin qloballaşmasına səbəb olan digər amil yuxarıda qeyd edildiyi kimi iqtisadiyyatdır. Müasir dövrümüzdə Amerika iqtisadi qüdrətinə görə dünyanın əksər ölkələri ilə ticarət və iqtisadi əlaqələrini genişləndirməkdədir. Məhz bu səbəbdən dünyanın əksər ölkələrində ingilis dili vacib bir fənn kimi tədris olunur. Akademik dil kimi bu dilin vacibliyi əksər insanların işində uğurun açarı hesab olunur. Bu baxımdan insanların digər xarici dillərlə yanaşı ingilis dilini də öyrənməsi və bu dilə böyük maraq göstərməsi müsbət haldır.

Qloballaşma dövründə ingilis dilinin leksik ehtiyatı yeni sözlərlə, ifadələrlə və terminlərlə zənginləşir ki, bu da insanlar arasında ünsiyyətin qurulmasında önəmli funksiyanı yerinə yetirir.

Dil əsas ünsiyyət vasitəsi olduğu üçün hər baxımdan üstünlüyü ilə fərqlənir. Bildiyimiz kimi, bütün elektronika avadanlıqlarında ingilis dilində təlimat verilir. Asiya qitəsinin demək olar ki, bütün ölkələrində ingilis dilindən istifadə olunur və

2-ci ana dili kimi qəbul olunur. "Lingua Franca" sayılan ingilis dili qlobal dünyanın müsbətə doğru gedişatı üçün böyük əhəmiyyət daşıyır. Ünsiyyət vasitəsi kimi dil zəruri tələblərin qavranılmasında, əldə olunmuş uğurların, bilik və məlumatların nəsildən-nəslə ötürülməsində böyük rol oynayır. Dil işarələr sistemi olub istənilən mesajın digərinə ötürülməsində əhəmiyyətli rol oynayır.

Elmi nəticə. Yuxarıda deyilənlərdən belə nəticəyə gəlirik ki, müəyyən tarixi şərait, ictimai-siyasi və mədəni faktorların təsiri ilə dilin lüğət fondu dəyişikliklərə məruz qalır. Bununla yanaşı, estetik, tarixi, sosial, dini və s. kimi ekstralinqvistik faktorlar dilin inkişafında spesifik rol oynayır. İstənilən dilin zənginliyi onun daxili strukturu, leksik ehtiyatının tutduğu həcmlə ölçülür. İngilis dilinin leksik ehtiyatının genişlənməsində iqtisadi fatorların da önəmli olması qənaətinə gəldik, yəni iqtisadiyyat dilin bu layına yetəri qədər söz bəxş edir. İqtisadi inkişaf yeni leksik vahidləri və terminləri ingilis dilinin lüğət fonduna bəxş etsə də, köhnə söz və terminlər dilin leksik qatından zaman-zaman uzaqlaşır.

Elmi yenilik. Qloballaşma səbəbindən ekstralinqvistik faktorların ingilis dilinin leksik qatına effektiv şəkildə təsirinin öyrənilməsi və bununla bağlı bir çox nüansların işıqlandırılması nəzəri əhəmiyyət kəsb edir. Bu məqalədə qloballaşma amilinin ingilis dilinin leksik qatına hansı şəkildə təsir göstərməsi araşdırılır və dil faktları ilə izah olunur.

İşin praktik əhəmiyyəti. Bu mövzuda yazılmış məqalədən leksikologiya üzrə seminar və mühazirələrin aparılmasında, eyni zamanda dillə bağlı bir sıra fənlərin tədrisində də istifadə oluna bilər.

Ədəbiyyat

1. Anderson, J. Language change / J.Anderson, – Cambridge University Press, – 2002, – 210 p.
2. Aslanova, R. Qloballaşma və mədəni müxtəliflik / R.Aslanova, – Bakı: Elm, – 2004, – 264 s.
3. Paşayev, N. İqtisadiyyat terminləri / N.Paşayev, M.Allahverdiyev. – Bakı: Elm, – 1997.
4. Nuriyev, M. İngiliscə-Azərbaycanca terminlər lüğəti / M.Nuriyev, – Bakı, –2012, – 150 s.
5. wikipedia.org/wiki/English language.

G.B.Bashirova

The Impact of Globalization on the Vocabulary of the English Language

Summary

The article discusses the impact of globalization on the vocabulary of the English language. It is clear that language is a developing process, developing on the basis of certain principles and being processed for certain purposes. It is known that certain historical conditions, cultural relations, economic globalization and other factors have led to the penetration of a sufficient number of words and expressions into the vocabulary of the English language.

Key words: *globalization, linguistic factors, economic globalization, civilization*

Г.Б.Баширова

Влияние глобализации на словарный запас английского языка

Резюме

В статье рассматривается влияние глобализации на словарный состав английского языка. Очевидно, что язык – это развивающийся процесс, развивающийся на основе определенных принципов и обрабатываемый для определенных целей. Известно, что определенные исторические обстоятельство, культурные связи, экономическая глобализация и другие факторы привели к вхождению в словарный состав английского языка значительного количества слов и выражений.

Ключевые слова: *глобализация, лингвистические факторы, экономическая глобализация, цивилизация*

Rəyçi: prof. Ç.Qaraşarlı

Redaksiyaya daxil olub: 14.05.2025

T.Z.CABBARLI
baş müəllim
e-mail: cabbarliterane@gmail.com
:https://orcid.org/0009-0008-6638-5499

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS RABİTƏLİ NİTQİNDƏ SƏSLƏRİN KOMBİNATOR ƏVƏZLƏNMƏSİ

Xülasə. *İngilis rabitəli nitqində ünsiyyət zamanı bir sıra fonetik proseslərə, səs dəyişmələri, səs düşümü, fonemlər arasına yeni səslərin daxil olması, qonşu səslərin bir-birinə təsir edərək, onu dəyişdirməsi və s. bu kimi koartikulyasiya hadisələrinə rast gəlinir. Bu proseslərin hər biri danışıq zamanı istifadə olunan düzgün anlama və ünsiyyəti təmin edən vasitələrdir. Nitq zamanı fonetik hadisələrə riayət olunmaması nitqin anlaşılmazlığına səbəb olur, bu da ünsiyyətin baş tutmamasına gətirib çıxarır. Davamlı nitqin qavranılması dinləmə anlama prosesi ilə sıx əlaqəlidir. Koartikulyasiya proseslərinin danışıq səslərinə, fonemlərə təsiri kombinator əvəzlənmələrin, fonem variantlarının yaranmasına səbəb olub. Bu variantların rabitəli nitqdə yerli-yerində işlədilməsi üçün ingilis dilinin intonativ xüsusiyyətlərini araşdırmaq vacibdir.*

Açar sözlər: *fonemlər, variantlar, fonetik hadisələr, koartikulyasiya, səs düşümü*

Rabitəli nitqdə istifadə olunan sözlər tək-tək deyilən (sitat və yaxud lüğət formalarında) həmin sözlərdən xeyli fərqli səslənir. Davamlı nitqdə sözlərin tələffüzü bəzi növ əlaqələrdə olduğu kimi, sait və samit səsləri nisbətən toxunulmaz qoya bilər və ya tələffüzdə dəyişikliklərə səbəb ola bilər ki, bunlar da olduqca əhəmiyyətlidir. Səslərin digər səslərlə dəyişdirilməsi, qonşu səslərin bir-birinə təsir göstərməsi,bəzi fonemlərin əlavə olunması, yaxud ixtisara düşməsi və s. proseslər danışıq zamanı qaçılmaz olan hallardandır. Bir söz digər sözlərlə yanaşı işləndikdə onun tələffüzü müxtəlif proseslərə məruz qala bilər. Adətən, nitq üslubu nə qədər rəsmi və qeyri-rəsmi olarsa, sözlərin sitat formaları da bir o qədər dəyişə bilər. Nəticədə rabitəli nitqin tələffüzü anlaşıqlılıq üçün əhəmiyyətli bir problemə çevrilər.

Həm dildaşıyıcı olmayan dinləyicilər üçün ana dilində olan nitqin anlaşıqlılığı, həm də ana dilində olan dinləyicilər üçün doğma olmayan nitqin anlaşıqlılığı baxımından fərqlər çətinlik yaradır. Rabitəli davamlı nitq, bəlkə də ingilis dili tələffüzünün digər xüsusiyyətlərindən daha çox, dinləmə anlayışında anlaşıqlılığın əhəmiyyətini göstərir. Bu halda dildaşıyıcı olmayanlar ingilis dilli mətnlərə qulaq asanda, yaxud xaricilərlə söhbət edəndə bu çətinliyi hiss edirlər. Bu baryerləri dəf etmək üçün rabitəli nitqdə olan fonetik hadisələri, dəyişmələri, fonemlərin variativliyini ətraflı öyrənməli, onu danışıq zamanı tətbiq etmələri vacib məsələlərdən biridir. Ünsiyyət zamanı qarşılıqlı anlaşmanın yaranması üçün nitq proseslərini öyrənmək əsas şərtdir.

Biz nitq proseslərini altı əsas kateqoriyaya bölə bilərik: əlaqələndirmə, silinmə, əlavə etmə, dəyişmə, azalma və çoxalma yaradan proseslər. Birinci kateqoriya olan əlaqələndirmə, sözlərin seqmentlərinin dəyişməsini nəzərdə tutmayan yeganə kateqoriyadır. Onun davamlı nitqdəki funksiyası, sözlərin mənasını dəyişdirmədən iki sözü bir söz kimi səsləndirməkdir. Məsələn, “some_of” [sʌm əv]. Bu birləşmənin bitişik tələffüz olunması ikinci sözün vurğusuz mövqedə qısa zəif, reduksiya olunmuş tələffüzünün nəticəsidir.

Əlaqələndirmə – seqmentlərin yenidən hecalanmasına və ya seqmentlərin bəzi hallarda uzanmasına, uzun tələffüz olunmasına səbəb ola bilər. Biz əlaqələndirməni bir sözün son səsi ilə növbəti sözün başlanğıc səsinin birləşdiyi, lakin seqmentlərin xarakterində dəyişiklik olmadığı hallarla məhdudlaşdırırıq. Digər əlaqələndirmə növlərinə dəyişikliklər daxildir və biz onları fərqli kateqoriyalara aid edə bilərik. Məsələn, “hat band” ifadəsindəki /t/ qırtlaq qapanması (glottal stop) kimi reallaşacaq və [t] fonemi kimi xüsusiyyətini itirəcək, yəni [hæʔbænd].

Bundan əlavə, “so awful” ifadəsində əlaqələndirici [w] sürüşməsi tələffüzə nəzərəçarpan şəkildə bir seqment əlavə edir, yəni [sow ɔ:fəł]. Biz bunu əlavələr kateqoriyasına daxil edirik. Bu əlavələri biz yalnız sürətli nitq prosesində müşahidə edirik. Yazılı formada bu cür dəyişikliyin işlənməsi yolverilməzdir.

İkinci kateqoriya olan silinmə, səslərin itirildiyi dəyişiklikləri əhatə edir. Silinmələr davamlı nitqdə geniş yayılmışdır. Məsələn, bəzi növ qeyri-rəsmi nitqdə “see it” ifadəsindəki ikinci saitin potensial itirilməsi [si:t] kimi tələffüzü nümunə verə bilərik. Belə hallara biz əvəzliklərdə, köməkçi feillərdə [h] səslərinin itirilməsində də rast gəlirik; Their friends have already left. / ð eə 'f r e n d z ə v ɔ: l 'r e d i 'l e f t //

Novlu sürtünən udlaq /h/ səsinin eliziyası da tez-tez müşahidə olunan haldır. Şəxs və yiyəlik əvəzliklərinin önündə gələn /h/ fonemi (him, his), köməkçi feil "have"(has, had) sözünün əvvəlindəki /h/ səsinin vurğusuz mövqedə düşməsi eliziyanın bariz nümunəsidir.

Is he doing his hometask? – 'ɪ z h i 'd u: ɪ ŋ h ɪ z ˈh oʊ m t ɑ: s k //əvəzinə

'ɪ z i 'd u: ɪ ŋ ɪ z ˈh oʊ m t ɑ: s k // kimi tələffüz olunur – *o ev tapşırıqlarını edir?*

'w eə h ə v j u 's i:n h ɜ ˌl e t ə z// əvəzinə 'w eə ə v j u 's i:n ɜ ˌl e t ə z// kimi – *onun məktublarını harada görmüsən?*

Şəxs və yiyəlik əvəzliklərində /h/ səsinin düşməsi təkcə cümlənin ortasında deyil, həm də sonunda da müşahidə olunur. Lakin köməkçi feillərdə bu cür səsdüşümü yolverilməzdir. “To have” köməkçi feilinin cümlənin sonunda işləndiyi zaman /h/ səsini itirmək nitqdə anlaşılmazlıq yaradar. Müqayisə edək:

Did you recognize him? – 'd ɪ d j u ˈr e k ə g n aɪ z h ɪ m //–

'd ɪ d j u 'r e k ə g n aɪ z ɪ m // *onu tanıdın ?*

I know,I have – aɪ 'noʊ/ aɪ 'h æ v // ifadəsində /h/ səsinin itirilməsi yolverilməzdir.

Digər nümunə kimi mürəkkəb samit qruplarında, yəni samit səslərin ardıcıl işləndiyi ifadələrdə ortadakı samit səslərinin silinməsini göstərə bilərik. Məsələn, “the best gift”/ ðə best gıft /əvəzinə /ðə bes gıft/ kimi; “old times”/ oʊld taımz/ əvəzinə ol taımz/ kimi səslənmələr, bəzi növ qısaltmalar da bu kateqoriyaya daxildir. Belə məqamları biz sait səslərin də qısaldılmasında müşahidə edə bilərik, əsasən bir və ya daha çox səsin qısaltma ilə silindiyi hallar: məsələn, “can not” ifadəsi “can’t”/ka:nt/ olur.

Üçüncü kateqoriya əlavə etmədir. Bu, səslərin əlavə edildiyi dəyişiklikləri əhatə edir. Məsələn, iki saitin yanaşı işləndiyi sözlərdə saitlər arasında birləşdirilmə üçün bağlayıcı (linking) səslərin istifadə olunması. Məsələn, air /eə/ əvəzinə /eıə/ deyilməsi.

Britaniya ingiliscəsinə xarakterik olan yalançı (intrusive) /r/ səsinin işlədilməsi prosesi. Məsələn, “The idea of” ifadəsi “The idea(r) of”/ ði aı'dıə əv/ əvəzinə / ði aı'dıər əv/ kimi tələffüz olunmasını nümunə göstərə bilərik. Bu birləşmədə ”idea” sözü /r/ səsi ilə bitməməsinə baxmayaraq, sözün sonuna bu səsin artırılması yalançı /r/(intrusive) foneminin yaranmasına səbəb olub.

Linking(birləşdirici) /r/ səsi isə Britaniya ingilis variantında sonu “r” hərfi ilə bitən sözlərdə /r/ səsinin tələffüz olunması bu səsdən sonra saitlə başlanan sözlərin dayanması ilə əlaqədardır. Bu halda /r/ səsi tələffüz olunaraq iki saiti birləşdirmək funksiyası daşıyır və “linking /r/” adlanır. Məsələn, the door is open-ðə'dɔ:r ız 'oʊpn //

Dördüncü kateqoriya dəyişmədir. Bura assimilyasiya hadisəsini nümunə göstərə bilərik. Bu, bir fonemin digər fonemlərlə əvəz olunduğu tələffüz dəyişikliklərini əhatə edir. Başqa sözlə desək, qonşu fonemlərin birinin digərinə təsir edərək, onu öz tələffüz məxrəcinə uyğunlaşdırmasıdır. Burada təsir edən fonemlərin xüsusiyyətlərindən asılı olaraq, təsir irəliyə (progressive), geriyə (regressive) və qarşılıqlı (reciprical) ola bilər. Dəyişmə (bəzən bunu koartikulyasiya hadisəsi də adlandırırlar) prosesinə müxtəlif seqmentlərin birləşərkən, yaxud ayrılarkən artikulyasiya vəziyyətinin dəyişməsi kimi də baxmaq olar. Bu fonetik hadisəyə çoxlu yanaşmalar mövcuddur. Bəzi fonetistlər dəyişmə proseslərini akkomadasiya ilə, bəziləri assimilyasiya ilə, bəziləri digər fonetik hadisə kimi qiymətləndirirlər. R.Hammarberg koartikulyasiyaya

belə bir tərif verir. Bu elə bir proses hesab olunur ki, orada seqmentlik xüsusiyyətlər qonşu seqmentlərin təsiri nəticəsində dəyişir, yaxud digər xüsusiyyətlərlə əvəz olunur [5, s. 576].

J.Laver isə qeyd edir ki, dəyişmə zamanı qonşu seqmentlərin artikulyasiya xüsusiyyətləri arasında görünülə bilən dərəcədə uyğunlaşma, yəni akkomadasiya baş verir. Müəyyən kontekstin mövcud olması ilə əlaqədar qonşu seqmentlər öz artikulyator xüsusiyyətlərini dəyişə bilər. O bunu "feature-sharing" – yəni "xüsusiyyətlərin paylaşması" prosesi adlandırır və bu anda artikulyasiya xüsusiyyətlərinin akkomadasiya olunaraq, yayılması hadisəsini o, koartikulyasiya adlandırır [10, s.153]. Koartikulyasiya zamanı demək olar ki, bir seqmentin (fonemin) xüsusiyyətləri qonşu seqmentin fonetik oxşarlığı ilə uzlaşaraq, bir sıra dəyişikliklərə məruz qalır. Nümunələrə nəzər salsaq, dodaqlanan saitin təsirindən samitin dodaqda tələffüz olunmasını müşahidə edə bilərik. Məsələn:

Saw [sɔ:] gördü; Sue [su:] yalvarmaq; təqib etmək.

Lakin yumşaq damaq (velyar) samitin qonşuluqdakı saitin təsirindən yerini dəyişməsini koartikulyasiya hesab etmirlər. Bu fonetik hadisəni J.Klark akkomadasiya, yaxud adoptasiya adlandırır [4, s. 86].

Qeyd etdiyimiz kimi, təsiretmə irəli, geri və qarşılıqlı ola bilər. Geriyə təsir dedikdə, əvvəlki seqmentin sonrakı səsin təsirindən dəyişməsi nəzərdə tutulur. Bu hadisə bəzən "regressive" termini ilə də tanınır. Məsələn, "ski" – sürüşmək ifadəsində sait [i] foneminin təsirindən dil kütləsi önə çəkilir və [k] səsini dilönündə tələffüz etməyə məcbur edir. Başqa bir nümunə: velyar-dilarxası səslər , yaxud udlaq səsi arxa sıra saitləri(back vowel) ilə yanaşı gəldikdə, geriçəkilmiş (retracted) vəziyyət alır. Məsələn:

school [s k u: l] məktəb; horse [h ɔ: s] at

Saitlər də öz növbəsində geriyə (regressive) təsir göstərə bilər. Saitlər burun samitləri ilə yanaşı gəldikləri anda burunda tələffüz olunmağa meyilli olur. Məsələn:

Moon [m u: n] ay; dean [d i: n] dekanlıq

Qeyd etmək yerinə düşər ki, bir səs eyni anda müxtəlif koartikulyasiya təsirlərinə məruz qala bilər. Bu təsiredən səsin artikulyasiya xüsusiyyətindən asılı olur. Məsələn, "tool" sözündə iki müxtəlif koartikulyasiya effekti var: geri çəkilmə və dodaqlanma. Geri çəkilmə (retracted) [u:] foneminin arxa sıra (back vowel) saiti olmağından, dodaqlanma isə onun dodaqlanan (rounded) sait olması baxımından yaranan təsirdir.

İrəli (perseverative – progressive) təsir istiqaməti səslərin danışıq prosesində özündən sonra gələn qonşu səslərə göstərdiyi təsirdir. Bunlara nümunə kimi sonorların (sonorous) qonşu kar plozivlərin (plosives) təsirindən karlaşması halını göstərə bilərik. Məsələn, "play" [p l eı] "oyun" sözündə kar ploziv [p] samitinin təsirindən [l] sonorunun qismən karlaşmasını buna misaldır. Burada təsir irəliyədir.

Sait və samitlərin hər ikisinin bir-birinə təsiri – yəni V-to-C saitdən samitə doğru təsir nəzərdə tutulur. Məsələn, "food" sözündə [u:] fonemi [f] seqmentinə təsir göstərərək onu dodaqlaşdırır, yəni dodaqda tələffüz etməyə məcbur edir. Burada saitin samitə təsiridir: V-C; digəri isə samitin saitə təsiridir, yəni C-to-V. Buna nümunə olaraq isə, səslərin burunda tələffüz olunmasını göstərdik.

Daha bir diqqəti cəlb edən məqam saitin saitə V-to-V təsiridir. VCV ardıcıllığında samit kipləşən – partlayışlı (occlusive-plosive) səs olarsa, sonuncu saitin təsiri də güclü olur. Qısa saitlərin diftonqa bənzər uzunluqda, yəni uzun saitlərlə eyni zaman kəsiyində tələffüz olması meydana çıxır.

Digər hal isə C-to-C samitin samitə təsir effektidir. Buna misal kimi "middle ['m ɪ d l] "orta" sözündə [l]samitinin [d] səsinə təsirini göstərə bilərik. Bu mövqedə [l] samitinin təsirindən kipləşən – partlayışlı [d] samiti öz məxrəcində deyil, dilin yanlarından partlayışla xaric olunur [8, s. 253]. Bu mövqedə "lateral plosion" adlanan fonetik hadisə meydana çıxır. Bu fonetik hadisə kipləşən – partlayışlı samitlərin /l/ fonemi ilə yanaşı işləndiyi hallarda rast gəlinir.

Lateral /l/ səsi dilyanı tələffüz xüsusiyyəti daşıdığındam özündən əvvəl gələn plozivləri dil yanında tələffüz olunmağa məcbur edir və plozivlərin partlayışı da dilin yanlarında baş verir.

Palatalizasiya (yumşalma) hadisəsinə göstərilən nümunələri allofonik variativliyi əks etdirən assimilyasiya hadisəsindən daha aydın seçmək olur.“Tune”/t j u: n / ifadəsinə nəzər yetirsək, palatal(damaq)/j/ səsinin təsirindən /t/ fonemi yumşalaraq yuvaqda deyil, damaqda tələffüz olunmağa meyilli olur və yumşaq səslənir.

Dəyişikliklərə nümunə kimi yerinə, tərzinə və ya səs tellərinin vəziyyətinə təsir edən assimilyasiya hadisələrini göstərə bilərik. Məsələn, “on point” ifadəsində /n/ qoşadodaq-bilabial /p/ səsinin təsirindən qapanmadan əvvəl [m] kimi tələffüz olur; flapping – məsələn, “sit around” və ya “went outside”, burada alveolar – yuvaq kipləşən səslər və ya kipləşən burun samitləri digər samit birləşmələri ilə tez-tez alveolar oral-ağız yuvaq səsləri kimi və ya burun fləpləri (flapping) olaraq tələffüz edilir; və qlotallaşma(glottal), burada burun səsləri qarşısında və ya qapanma öncəsi /t/ səsləri aydın şəkildə qırtlaq(qlotal) artikulyasiyası ilə tələffüz edilir. Məsələn, “can’t make it”, “that car” ifadələrinin [ka:nʔmekıt] və [ðæʔkɑ:] olaraq tələffüz edilməsini göstərə bilərik.

Beşinci kateqoriya zəifləmə, qısalmadır. Bu hadisə əsasən ingilis dilində saitləri əhatə edir. Bunları başqa sözlə reduksiya adlandırırlar. Belə ki, qısaldılmış, zəifləmiş saitlər vurğulanmayan hecalarla, yəni vurğu daşımayan hecalarla leksik əlaqəlidir. Belə sözlər diskursda deyiləndə, xüsusilə də bir hecalı əvəzliklər, ön sözlər (sözönülər), artikllar, bağlayıcılar və köməkçi feillər kimi funksional sözlər reduksiya olunmuş, qısaldılmış saitlərə sahib ola bilər.

İngilis dilində reduksiya hadisəsi əsasən köməkçi nitq hissələrinin vurğusuz halını əhatə edir. Lakin qeyd etmək lazımdır ki, funksional sözlərlə yanaşı, əsas məna daşıyan sözlər də vurğusuz mövqedə, yaxud vurğu daşımayan hecalar reduksiyaya uğrayaraq, neytral /ə/ səsə, yaxud /ı, u/ səslərinə çevrilə bilir. Məsələn, father/ 'f a: ð ə / ata sözündə birinci heca vurğulu olduğundan qüvvətli səslənir. İkinci hecadakı sait vurğu daşımadığından zəifləyərək neytral /ə/ səsə çevrilib.

Reduksiya hadisəsi vurğusuz vəziyyətdə saitlərin zəifləməsi prosesidir. Onun 3 kateqoriyası vardır: kəmiyyət, keyfiyyət, sıfır reduksiya. Kəmiyyət (quantitative) dedikdə uzun saitlərin qısaldılması, keyfiyyət reduksiyası (qualitative) dedikdə saitlərin neytral səsə /ə/ çevrilməsi, sıfır redukisiya isə saitin tamamilə düşməsini nəzərdə tutur. Reduksiya saitlərə məxsus olduğundan, samitlərdə səs düşümü hadisəsi eliziya adlanır.

Məsələn, “bad boy”/ b æ d b ɔı / əvəzinə / b æ b ɔı/ ifadəsində /d/ səsləri üçün qapanmanın açılmaması, yəni /d/ səsinin itməsi buna nümunə ola bilər. Amma bu səsdüşümü cəld danışıq dilində özünü göstərir. Bu nümunə eliziya hadisısini göstərir, reduksiyanı yox. Çünki reduksiya dedikdə, yalnız saitlərin itirilməsi, yaxud zəifləməsi nəzərdə tutulur. Saitlərdə reduksiya hadisəsini nümunələr üzərində müşahidə edək: Me /m i:- m i/; can / k æ n - k ə n/; I am / aı æ m- aı ə m - aı m /

Son kateqoriya bir necə fonetik hadisələrin birləşmə hallarını əhatə edir. Bunları eyni cümlədə, yaxud bir ifadədə bir neçə hadisənin işləndiyini göstərən nümunələr üzərində müşahidə etmək olar. “What do you do./What are you” ifadələrinə nəzər salaq. Burada qlotalizasiya, reduksiya, akkomadasiya hadisələri bir ifadədə cəmləşib.

Görünür ki, müəyyən sosial və dil mühiti rabitəli nitq proseslərinin tezliyinə, keyfiyyətinə və onların yaratdığı kontekslərə təsir edir. R.Lass bunu yaxın fonem mühiti, nitq sürəti, nitq vəziyyətinin rəsmi olması və sosial məsafə kimi digər sosial amillərlə əlaqələndirir. Əksər tədqiqatçılar iki nitq üslubunu fərqləndirirlər: gündəlik qeyri-rəsmi üslub və təqdimatlar – yəni müəyyən rəsmi hallar üçün istifadə edilən diqqətli nitq. A.Hieke fikrincə isə, qeyri-rəsmi spontan nitqdə danışanlar sözlərini tam tələffüz etməyə daha az diqqət yetirir, buna görə də onları birləşdirərkən səslərin fərqləndirici xüsusiyyətlərini azaldır [8, s. 353]. Bənzər şəkildə, ingilis dilinin ana dili olanlar və ana dili olmayanlar üçün əlaqələndirmə prosesi araşdırılarkən, üslub dəyişikliklərinin danışanların sözlərini necə əlaqələndirdiyinə təsir etdiyi aşkar olu-

nub. Onların tədqiqatında göstərilir ki, spontan nitq tapşırıqlarında, formal cümlə oxumaq tələb olunanlardan daha çox əlaqələndirmə həyata keçirilir.

Bununla belə, digər tədqiqatlar göstərib ki, ssenariləşdirilmiş və ssenarisiz nitq (planlaşdırılmamış) böyük fonoloji oxşarlıq nümayiş etdirir [14, s.15]. Eyni proseslər hər iki üsluba və demək olar ki, eyni dərəcədə tətbiq edilir. Ana dildə danışanlar nitq istehsal etdiklərinin fərqində olmadığından, bu nitq sitat formasından fərqlənir. Dildaşıyıcı olan və olmayanlar arasında əlaqələndirmə performansında əhəmiyyətli fərqlər yoxdur, bu da nitq üslubundakı dəyişikliklərin əlaqələndirmə tezliyinə dəyişiklik gətirmədiyini göstərir. L.Şoki qeyd edir ki, bir çox nitq prosesləri həm sürətli, həm də yavaş nitqdə baş verir, buna görə də əgər "eggs and bacon" ifadəsini yavaş-yavaş desəniz, "and" sözünü yəqin ki, hələ də [m] kimi tələffüz edəcəksiniz, çünki bu adi haldır – yəni nəticəniz sürət və ya inersiya deyil, vərdişlə müəyyən edilir" [14, s. 13].

Kembric Universitetində rabitəli nitq prosesləri üzrə geniş bir tədqiqat aparılmışdır. Nəticələr göstərdi ki, əksər proseslər ikili nəticə verməkdən daha çox bir ardıcıllıq yaradır. Məsələn, əgər qısaltma prosesi "do not" ifadəsinin "don't"/d oʊ n t / olaraq azaldılmasını təklif edirsə, biz çox vaxt fonetik olaraq gözlənilən variantların hər iki halda və asanlıqla qulaq tərəfindən aşkar edilə bilən aralıq mərhələlərin bir xəritəsi olduğunu görərik.

Müxtəlif tədqiqatlar ana dilində danışanların nitqində rabitəli nitq proseslərinin müxtəlif cəhətlərini araşdırmış və onların xüsusiyyətlərini ölçməyə cəhd etmişdir. Bu tədqiqatlar assimilyasiya və palatalizasiya, eliziya, reduksiya, əlaqələndirmə və burunlaşdırma(nazalizasiya) kimi prosesləri əhatə edir.

Davamlı nitqin qavranılması dinləmə anlama prosesi ilə sıx əlaqəlidir. Danışıq dilində, ünsiyyətdə müəyyən anlaşılmazlıqlar yarana bilər, çünki ana dili ingilis dili olanların danışığında digərlərin anlayamayacağı nitq üslubu olur. İkinci dil kimi ingilis dilini öyrənənlərinin xarici nitqi açmaqda çətinlik çəkməsinin səbəbi ondan ibarətdir ki, onlar dinləmə bacarıqlarını uyğunlaşdırılmış(normaya salınmış) "İngilis danışıq üslubları" əsasında inkişaf etdirirlər. Bundan əlavə, onlar tez-tez sitat formaları ilə rabitəli nitqdəki dəyişikliklər arasındakı fərqlərdən xəbərsiz olurlar [14. s. 13]. Davamlı nitqdəki qısaldılmış formalar dinləmə qavrayışı və anlamaqda çətinliklərə səbəb olduğuna görə, qavrayış təlimi ilə hansı reduksiya növlərinin effektiv şəkildə öyrənilə biləcəyi və ya hansıların dinləyicilər üçün daha çətin olduğu da nəzərə alınmalıdır.

İşin elmi nəticəsi: İngilis rabitəli nitqində səslərin kombinator əvəzlənmələri adlı məqalədə koartikulyasiya prosesinə yeni yanaşmalardan söhbər açılır. Fonetik hadisələrin təsiri nəticəsində yeni variantların əmələ gəlməsi və onların mövqedən asılı olaraq, düzgün tələffüz olunması davamlı nitqin baş tutması üçün vacib amillərindən biridir. Bu allafonların, fonem birləşmələrinin onset və autset mövqelərdə fərqli tələffüzü, işlənməsi dildaşıyıcı olmayanlar üçün bir sıra çətinliklərə səbəb olur. Fonem variantlarının intonasiya xüsusiyyətlərinin öyrənilməsi və nitqdə onlardan düzgün istifadə olunması mühüm əhəmiyyət daşıyır. Məqalədə fonem birləşmələrinin dərindən təhlil olunması bu dilin intonativ xüsusiyyətlərinin öyrənilməsinin vacibliyini ortaya qoyur.

İşin elmi yeniliyi: Məqalədə koartikulyasiya proseslərinə yeni yanaşmalardan söhbət açılır. Kombinator fonem variantlarının tələffüzündə olan fərqlər, dəyişmələr nümunələr üzərində təhlil olunub. Sosial məsafə kimi digər amillər də bu cür proseslərin nitqdə nə qədər tez-tez baş verdiyini müəyyən etməkdə rol oynayır. Danışan və dinləyici eyni sosial qrupa aid olduqda və oxşar nitq məlumatlarını paylaşdıqda, dinləyicilərin başa düşmə yükü azalır, onlara fərqli artikulyasiyaya daha az diqqət yetirməyə imkan verir.

İşin tətbiqi əhəmiyyəti: Rabitəli nitqin daha dərin tədqiqi fonetik hadisələrin və nitq proseslərinin ingilis dilinin tələffüzünə daha çox təsir etdiyini göstərir və onu nəzərə almaq vacibdir. Dildaşıyıcı olmayanlar bu dili öyrənərkən onun fonetik proseslərini və intonasiya xüsusiyyətlərini diqqətlə araşdırmalıdırlar. Nitqin anlaşıqlı olması və ünsiyyətin baş tutması düzgün tələffüz olunan cümlələrdən başlayır.

Ədəbiyyat

1. Ashby, P. Understanding Phonetics / P.Ashby, – London: Hodder Education, – 2011.
2. Allerton, D. Articulatory inertia vs “systemzwang”: Changes in liaison phenomena in recent British English. English studies 6 / D.Allerton, – pp. 574-581.
3. Chomsky, N. The Sound Patterns of English / N.Chomsky, M.Halle, – New York, – 1968.
4. Clark J. An Introduction to Phonetics and Phonology. 3rd ed. / J.Clark C.Yallop, J.Fletcher. – Oxford: Blackwell Publishing, – 2006.
5. Daniloff, R. And Hammarberg R. On defining coarticulation // Journal of Phonetics, 1, pp. 239, 48. – 1973.
6. Farnetani, E., Recasens, D. Coarticulation and Connected Speech Processes. In Hardcastle. The Handbook of Phonetic Sciencies. –Oxford: Wiley-Blackwell, – 2013.
7. Hardcastle, W. Assimilation of Alveolar Stops and Nasals in Connected Speech. Studies in General and English Phonetics / W.Hardcastle, – London, Routledge, – 1995, – pp 49-67.
8. Hieke, A.E. Linking as a marker of fluent speech. Language and Speech. 27 / A.E.Hieke, –1984, – pp. 343-354.
9. Ladefoged, P. Johnson K. A. Course of Phonetics. 6th ed / P.Ladefoged, – Wadsworth; Cengage Learning, – 2010.
10. Laver, J. Linguistic Phonetics. In Aronoff M, Rees- Miller J. The Handbook of Linguistics / J. Laver, –Oxford: Blackwell publishing, – 2013, – pp.150-179.
11. Laver, J. Principles of Phonetics / J.Laver, – Cambridge: Cambridge University Press, – 1994.
12. Lass, R. Phonology / R.Lass, – Cambridge: Cambridge University Press, – 1984.
13. Roach, P. English Phonetics and Phonology. A Practical Course.3rd. ed / P.Roach, – Cambridge: Cambridge University Press. – 2000.
14. Shockley, L. Sound Patterns of Spoken English / L.Shockley, – Oxford, Blackwell, – 2003.
15. Zeynalov, F. Practical English Phonetics. Book 1 / F.Zeynalov, –Bakı, –2022.

T.Z.Jabbarly

Combinatory Alternation of Sounds in Connected Speech in English

Summary

During communication in connected English speech, various phonetic processes occur, such as sound changes, elision (sound omission), insertion of new sounds between phonemes, and the influence of neighboring sounds on one another, all of which are phonetic phenomena. Each of these processes plays a crucial role in ensuring proper comprehension and effective communication in spoken language. Failure to adhere to these phonetic phenomena during speech can lead to misunderstandings, disrupting in communication. The perception of connected speech is closely linked to the process of listening comprehension. The impact of coarticulation processes on speech sounds and phonemes leads to the importance of combination substitutions and phoneme variants. To ensure the appropriate use of these variants in connected speech, it is important to study the intonative features of the English language.

Key words: *phonemes, variants, phonetic phenomena, coagulation, Sound Dro*

Т.З.Джаббарлы

Комбинаторные чередования звуков в связной английской речи

Резюме

В процессе общения на английском языке в связной речи происходят различные фонетические явления: изменения звуков, выпадение звуков, вставка новых звуков между фонемами, влияние соседних звуков друг на друга и т. д. Все эти процессы относятся к явлениям коартикуляции. Каждый из этих процессов играет важную роль в обеспечении правильного восприятия и эффективной коммуникации. Несоблюдение этих фонетических закономерностей в

устной речи может привести к её непониманию и, как следствие, к нарушению коммуникации. Восприятие связной речи тесно связано с процессом аудирования и понимания. Воздействие коартикуляционных процессов на звуки и фонемы приводит к возникновению комбинаторных чередований и вариантов фонем. Для правильного использования этих вариантов в связной речи необходимо изучить интонационные особенности английского языка.

Ключевые слова: *фонемы, варианты, фонетические явления, коартикуляция, звуковое мышление*

Rəyçi: f.f.d., dos. C.H.Yaqubova

Redaksiyaya daxil olub: 15.05.2025

A.S.CƏFƏROVA
müəllim
e-mail: aynurcfrova47@gmail.com
:https://orcid.org/0009-0009-7246-2638

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNDƏ ÖN SIRA SAİT FONEMLƏRİNİN FONETİK-FONOLOJİ XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Bu məqalədə ingilis dilində [i:, e, æ] ön sıra saitlərinin fonetik-fonoloji xüsusiyyətlərindən bəhs edilmiş, hər bir fonemin tələffüz qaydası, işlənmə yeri, hər biri fonemi ifadə edən qrafemlər haqda bir sıra dünya ədəbiyyatlarından istifadə edərək ətraflı məlumat verilmişdir. Buradan belə nəticəyə gəlinir ki, fonemlərin düzgün tələffüz edilməsi üçün həmin fonemi ifadə edən qrafemlər öyrənilməli və danışıqda tətbiq edilməlidir. İngilis dilində yalnış tələffüz fonetik-fonoloji səhvlərə və anlaşılmazlıqlara gətirib çıxarır.*

Açar sözlər: *fonem, qrafem, sait səslər, samit səslər, ön sıra saitlər*

Dil səsləri dilin mövcudluq formasıdır. Danışıqda və ünsiyyət prosesində artikulator-akustik cəhətdən sayca çoxlu müxtəlif çalarlı səslər tələffüz edilir. Danışıqda sayca çoxluq təşkil edən belə səslər səs və ya fon adlanır. Səslər konkret situasiya ilə bağlı olsalar da, onların hər birinin işlənməsi fonetik amillərdən asılı olur. Səslərin müxtəlif fonetik mövqelərdə müxtəlif artikulator-akustik formalarda təzahürü variant və allofon adlanır. Variant və allofonların sayı fonlara nisbətən azdır. Dildə sözləri, söz formalarını, qrammatik formalar da daxil olmaqla bir-birindən fərqləndirən belə səslər fonem adlanır. İngilis dilində 44 fonem vardır.

Dilin yazılı formasında danışıq prosesində tələffüz edilən bütün səslər deyil, yalnız bir qrup səslər (fonemlər) işarə edilib yazılır. Sözlərin yazılı formalarında hər bir fonem, bir hərf və ya hərf birləşmələri ilə göstərilir. Yazıda hər bir fonemin göstəricisi olan hərf və hərf birləşmələri qrafem adlanır.

İngilis dilində 20 sait fonemi yazıda işarə etmək üçün isə 88 qrafemdən istifadə edilir. 24 samit fonemi isə yazıda göstərmək üçün 56 qrafemdən istifadə edilir [3, s.9].

Danışıq səsləri iki əsas qrupa bölünür:

1. Sait səslər
2. Samit səslər

Sait səslər sədalı, musiqili və heca yaradan səslərdir. Sait səslərin tələffüzü zamanı, samitlərdən fərqli olaraq, udlaq və ağız boşluğunda maneə yaranmır və hava axını ağız boşluğundan sərbəst xaric olur. Sait səslərin samitlərdə olduğu kimi, dəqiq tələffüz məxrəci yoxdur.

Sait səslər ele səslərdir ki, onlar tələffüz edilərkən hava axını udlaq və ağız boşluğunda heç bir maneəyə rast gəlmir və sərbəst xaric olur.

Məsələn, ingilis dilində [u:, æ, ɔ:, ʊ, ʌ, e, ɪ,] və s.

Azərbaycan dilində [a, ı, u, o, e,] və s.

Samit səslər elə səslərdir ki, onlar tələffüz edilərkən hava axını udlaq və ağız boşluğunda müəyyən maneələrə rast gəlir.

Məsələn: ingilis dilində [t, d, p, b, k, g] və s.

Azərbaycan dilində [n, m, l, r, s, z] və s.

İngilis dilində sait səslər aşağıdakı prinsiplərə görə təsnif edilir.

1. Dilin üfüqi vəziyyətinə görə
2. Dilin şaquli vəziyyətinə görə

3. Dodaqların vəziyyətinə görə
4. Kəmiyyət və uzunluq dərəcəsinə görə
5. Gərginlik dərəcəsinə görə
6. Tələffüzün sabitlik dərəcəsinə görə [3, s.21].

Dilin üfüqi vəziyyətinə görə isə saitlər beş qrupa bölünür.

1. Ön sıra saitlər
2. Ön arxa tələffüzlü saitlər
3. Orta sıra saitlər
4. Arxa sıra saitlər
5. Arxa ön tələffüzlü saitlər [3, s.21-23].

Ön sıra saitləri tələffüz edərkən dil kütləsi ağız boşluğunun ön hissəsində olur və dilin ön hissəsi sərt damağa doğru qaldırılır, dilin ucu alt dişlərin dibində olur.

İngilis dilində [i:, e, æ] saitləri, Azərbaycan dilində isə [i, e, ə, ü, ö] saitləri ön sıra saitlərdir.

İngilis dilində uzun [i:] saitini tələffüz edərkən dil kütləsi ağız boşluğunun ön hissəsində olur, dilin ön hissəsi sərt damağa doğru çox qaldırılır, dilin ucu alt dişlərin dibində olur, dodaqlar yana çəkilir, hava axını üçün keçid dar olur.

İngilis dilindən fərqli olaraq, Azərbaycan dilində [i:] saiti daha irəli çəkilmiş vəziyyətdə tələffüz edilir, dilin ön hissəsi sərt damağa doğru daha çox qaldırılır və dodaqlar neytral vəziyyətdə olur.

Uzun [i:] saiti diftonqoid səciyyəli səsdir. Uzun [i:] saitini tələffüz edərkən dil daha açıq vəziyyətdən qapalı vəziyyətə doğru hərəkət edir.

[i:] saiti ön sıra, qapalı, uzun, gərgin, dodaqlanmayan monoftonqdur.

İngilis dilində uzun [i:] saiti sözün əvvəlində, ortasında və sonunda gələ bilir. Məsələn:

Sözün əvvəlində: eat, each.

Sözün ortasında: seem, meet, feed, ceiling, dream.

Sözün sonunda: see, sea, he, she.

İngilis dilində uzun [i:] saiti həm açıq, həm də qapalı hecada işlənə bilir.

İngilis dilində uzun [i:] saiti açıq hecada uzun tələffüz edilir. Son mövqedə daha uzun tələffüz edilir. Qapalı hecada, sonda işlənən cingiltili samitdən əvvəl gələrsə qısa, kar samitdən əvvəl gələrsə daha qısa tələffüz edilir [1, s.22]. Məsələn:

See – seen – seet

Bee – bean – beat.

İngilis dilində [i:] saitinin uzunluğu vurğusuz hecalardan, ikihecalı və çoxhecalı sözlərdən əvvəl qısalır. Məsələn: extremely, teamaster, beefy.

[e] saitinin tələffüzündə, dil kütləsi ağız boşluğunun ön hissəsində olur, dilin ön hissəsi sərt damağa doğru qaldırılır, dilin ucu alt dişlərin dibində olur və dodaqlar azacıq yana çəkilir.

Azərbaycan dilində olan [e] saiti ingilis dilində [e] saitinə çox oxşardır və bu oxşarlıq əsasən alınma sözlərdə özünü daha çox göstərir. Məsələn, mane, tabe.

Azərbaycan dilində [e] saiti həm açıq, həm də qapalı hecada gələ bilir, özündən əvvəl və sonra gələn samitləri yumşaldır.

Azərbaycan dilindən fərqli olaraq ingilis dilində [e] saiti həmişə vurğulu qapalı hecada işlənir, çox qısa tələffüz xüsusiyyətlərinə malikdir və özündən əvvəl və sonra gələn samitləri yumşaltmır.

İngilis dilində [e] saiti ön sıra, yarımaçıq, qısa, dodaqlanmayan monoftonqdur. [1, s.23].

İngilis dilində [e] saiti həmişə vurğulu qapalı hecada işlənirlər. İngilis dilində [e] saiti sözün önündə və ortasında gələ bilirlər. İngilis dilində [e] saiti qapalı hecada, sonda işlənən cingiltili samitdən əvvəl gələrsə uzun, kar samitdən əvvəl gələrsə daha qısa tələffüz edilir. Məsələn: beg, bed,ten.

İngilis dilində [e] saiti vurğulu hecalarda cingiltili samitlər, xüsusi ilə də sonorlar qarşısında bir qədər uzun tələffüz edilir.

İngilis dilində [æ] saiti ön sıra, açıq, qısa, dodaqlanmayan monoftonqdur.

[æ] saitini tələffüzü zamanı dilin ön hissəsi sərt damağa doğru az qaldırılır, dilin ucu alt dişlərin dibində olur, dodaqlar yana çəkilir, alt çənə aşağı endirilir, ağız geniş açılır. Dil kütləsi ağız boşluğunun ön hissəsində yastı vəziyyətdə olur.

[æ] saiti İngilis dilində cingiltili samitlər xüsusilə sonorlar qarşısında uzadılır.

Azərbaycan dilində olan ön sıra [ə] saiti ingilis dilində olan [æ] saitinə oxşayır. Lakin Azərbaycan dilində olan [ə] saiti bir qədər öndə tələffüz edilir və dodaqlar neytral vəziyyətdə olur. İngilis dilində olan [æ] saiti yalnız vurğulu qapalı hecada gəldiyi halda, Azərbaycan dilində olan [ə] saiti həm açıq, həm də qapalı hecada işlənə bilir [3, s.54].

İngilis dilində [æ] saiti cingiltili, zəif samitlərdən əvvəl daha uzun olurlar.

İngilis dilində [æ] saiti sözün önündə və ortasında gələ bilirlər.

İngilis dilində [æ] saiti həmişə vurğulu qapalı hecada işlənirlər.

İngilis dilində [æ] saiti kar samitlərdən əvvəl daha qısa olurlar. Məsələn:

Bat – bad

Hat – had

Mat – mad

İngilis dilində [æ] saiti ikihecalı sözlərdə də qısa tələffüz edilir. Məsələn:

Marrage

Cabbage

Savage

İngilis dilində sait fonemlərin əksəriyyəti bir, iki deyil, bir neçə qrafemlə ifadə olunur. İngilis dilində sait fonemləri yazıda aşağıdakı qrafemlər vasitəsilə ifadə edilir:

a, e, i, o, u, y, aw, ew, ow, ar, er, ir, or, ur, yr, aa, ae, ai, ao, oo, ou, oy, ue, ui, uo, uy, ya, ye, au, ay, ea, ee, ei, eo, eu, ey, ia, ie, oi, iu, oa, oe, io, yo, aou, aye, eur, iar, ier, irr, ior, ire, oar, oer, eau, eue, eye, ieu, oeu, uoy, ear, eer, eir, ere, err, oor, oir, ore, our, ure, urr, yre, aar, air, aor, are, arr, aur, ough, igh, ayor, aigh, augh, eigh, aire, arrh, ower, yrrh [2, s.157].

Belə ki, [i:] fonemi səkkiz qrafemlə ifadə edilir: <e>, <ea>, <ie>, <ei>, <ae>, <ee>, <oe>, < i: >.

1. e: she, he, mete, scene, scheme.
2. ea: mean, eat, each, reach, please.
3. ie: piece, field, yield, niece.
4. ei: seize, deceive, receive.
5. ae: aesthetic, aesthete, Caesar.
6. oe: foetus.
7. ee: teem, teen, keep, sleep, need.
8. i: machine, technique [4, s.144].

[æ] fonemi yazıda <a> qrafemi ilə ifadə edilir. Məsələn:

Salary	pattern	mass
tap	battle	carry
Sack	sand	apple
Lag	marry	lamb
Bag	match	has
Fad	stand	bad

İngilis dilində [ə] fonemi vurğusuz hecada aşağıdakı qrafemlərlə ifadə olunur. <ur>, <ou>, <ar>, <yr>, <our>, <er>, <or>, <o>, <a>, <e>.

1. er: adviser, composer, driver, dancer.
2. or: author, doctor, bachelor.
3. ar: pilar, beggar, scholar.

4. a: asleep, ahead, attend, away, alive.
5. e: absent, confident, student, present.
6. o: observe, offence.
7. ou: famous, enormous.
8. our: honour, flavour, colour.
9. ur: pursul, survive.
10. yr: martyr [4, s.161].

Belə ki, [e] fonemi iki qrafemlə ifadə edilir: <e>, <ea>
[e] fonemi qapalı hecada əsasən <e> qrafemi ilə ifadə edilir. Məsələn:

Get	better
Red	merry
Yes	tell
Set	send
Bend	pen
Net	wet
Letter	bet

[e] fonemi qapalı hecada <ea> qrafemi ilə də ifadə edilir. Məsələn:

Meadow	lead
Pleasant	ready
Death	instead
Breast	wealth
spread	sweat
Weather	bread
Treasure	deaf
Head	dead

[e] fonemi vurğulu hecada <eer> qrafemi ilə də ifadə edilə bilir. Məsələn:

Merry	errand
Error	ferry
Berry	cherry

Elmi işin nəticəsi. Beləliklə, deyilənlərdən belə nəticəyə gəlmək olar ki, ingilis dilində ön sıra saitləri tələffüz edərkən dil kütləsi ağız boşluğunun ön hissəsində olur və dilin ön hissəsi sərt damağa doğru qaldırılır, dilin ucu alt dişlərin dibində olur.

İngilis dilində [i:, e, æ] ön sıra saitlərdir.

Azərbaycan dilində [i, e, ə, ü, ö].

İngilis dilində [i:] saiti qapalı, ön sıra, uzun, gərgin, dodaqlanmayan, [e] saiti ön sıra, yarımaçıq, qısa, dodaqlanmayan, [æ] saiti açıq, ön sıra, qısa, dodaqlanmayan monoftonqdur.

[i:] fonemi səkkiz qrafemlə, [e] fonemi üç qrafemlə, [æ] fonemi yazıda <a> qrafemi ilə ifadə edilir.

[i:] saiti sözdə hər mövqedə, [e] saiti sözün önündə və ortasında gələ bilirlər.

Elmi işin yeniliyi. Tədqiqat işində yenilik ondan ibarətdir ki, son dövr lüğətlərdə söz sonunda gələn [y], [i] səsi kimi qeyd edilir. Bu fonetika sahəsində bir yenilikdir.

Elmi işin əhəmiyyəti. İngilis dili [æ] fonemi ilə [ə] fonemi, [e] fonemi ilə [eɪ] diftonqu öyrəncilər tərəfindən bəzən səhv salınır. Ona görə də hər bir fonemi ifadə edən qrafemlər öyrənilməli və hər bir fonem düzgün tələffüz edilməlidir ki, ingilis dilində sözdə bir fonemin yalnış tələffüzü, sözün yalnış anlaşılmasına gətirib çıxarır.

Ədəbiyyat

1. Babayev, S. English phonetics / S.Babayev, M.Qarayeva. – Bakı, – 2004.
2. Leontyeva, S.F. A theoretical course of English phonetics / S.F.Leontyeva, – M., – 1988
3. Zeynalov, F.H. Practical English Phonetics Book I / F.H.Zeynalov, – Bakı, – 2007
4. Zeynalov, F.H. Pronunciation and Spelling in English / F.H.Zeynalov, Z.Ə.Hüseynova, – Bakı, – 1998.

A.S.Jafarova

Phonetic and Phonological Features of Front Vowel Phonemes in English

Summary

In this article, the phonetic and phonological characteristics of the English front vowels [iː, e, æ] are discussed. The pronunciation rules, usage contexts, and the graphemes representing each of these phonemes are explained in detail using various sources from world literature. It is concluded that, in order to pronounce these phonemes correctly, the corresponding graphemes must be learned and applied in speech. Incorrect pronunciation in English leads to phonetic-phonological errors and misunderstandings.

Key words: *phoneme, grapheme, vowel sounds, consonant sounds, front vowels*

А.С.Джафарова

Фонетические и фонологические характеристики переднеязычных гласных фонем в английском язык

Резюме

В данной статье рассматриваются фонетические и фонологические особенности переднеязычных гласных английского языка [iː, e, æ]. Подробно объясняются правила произношения каждого фонема, сферы их употребления, а также графемы, обозначающие эти звуки, с использованием различных источников мировой литературы. Делается вывод, что для правильного произношения фонем необходимо изучить соответствующие графемы и применять их в устной речи. Неправильное произношение в английском языке приводит к фонетико-фонологическим ошибкам и недопониманию.

Ключевые слова: *фонема, графема, гласные звуки, согласные звуки, передние гласные*

Rəyçi: b/m Elmira Zülfüqarova

Redaksiyaya daxil olub: 13.05.2025

N.R.EYUBOVA
e-mail: nurlana.eyubova07@gmail.com
:https://orcid.org/0009-0000-8846-0068

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.025

KONSEPTUAL METAFORALAR PAREMİOLOJİ MÜSTƏVİDƏ

Xülasə. *Məqalə konseptual metaforaların paremioloji müstəvidə təhlilinə həsr olunub. Konseptual metaforaların paremioloji müstəvidə tədqiqi müasir dilçilikdə aktuallıq kəsb edir. Bu tədqiqatlar xalqın dünyagörüşünü və idrak modelini anlamağa kömək edir, dilin mədəni mahiyyətini üzə çıxarır və linqvistik, koqnitiv və mədəni araşdırmalar üçün mühüm zəmin yaradır. Məqalənin məqsədi paremioloji vahidlərdə mövcud olan konseptual metaforaları müəyyənləşdirmək, onların koqnitiv və mədəni funksiyalarını təhlil etməkdir.*

Açar sözlər: *konseptual metafora, paremiologiya, mədəniyyətlərarası əlaqə, qlobal mədəniyyət, koqnitiv dilçilik*

Müasir dövr qloballaşma və mədəniyyətlərarası qarşılıqlı əlaqə proseslərinin birləşdiyi bir dövrə təsadüf edir. Bu, xalqların mədəniyyətlərinin və dillərinin daha intensiv şəkildə qarşılıqlı təsir göstərməsinə səbəb olur. Bu şəraitdə elmi tədqiqatlar, xüsusən də dil hadisələrinin mədəni xüsusiyyətləri əks etdirən aspektlərinə olan marağın artmasına gətirib çıxarır. Xalqların tarixi, dünyagörüşü, sosial quruluşu və gündəlik həyatı haqqında məlumatları mühafizə edən və nəsildən-nəslə ötürən ənənəvi dil formaları olan atalar sözləri, bu tədqiqatların obyektləri olaraq xüsusilə əhəmiyyət kəsb edir.

Atalar sözləri, müəyyən bir xalqın mədəniyyətini, dünyagörüşünü və kollektiv təcrübəsini dil vasitəsilə ifadə edən ən güclü vasitələrdən biridir. Bu səbəbdən, onların tədqiqi yalnız dilin strukturu və funksiyaları ilə əlaqəli deyil, eyni zamanda sosial və mədəni kontekstlə də sıx bağlıdır. Qloballaşma və mədəniyyətlərarası əlaqələrin artması, müxtəlif dillər və mədəniyyətlər arasında qarşılıqlı təsirləri daha da gücləndirir, bu isə atalar sözlərinin və digər dil formalarının mədəniyyətlərarası fərqləri və bənzərlikləri anlamaqda və təhlil etməkdə mühüm rol oynayır. Beləliklə, atalar sözləri yalnız dilin deyil, həm də xalqın mədəni yaddaşının və mədəniyyətlərarası əlaqələrin əks olunmasında vacib bir alətə çevrilir.

Konseptual metaforaların paremioloji vahidlərdə sistemli şəkildə təhlili işin *elmi yeniliyini* təşkil edir. Bu vahidlərin yalnız dilin bədii qatını deyil, həm də koqnitiv və mədəni səviyyələrini əks etdirən idrak strukturları kimi çıxış etdiyi sübut olunmuşdur. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, paremioloji materiallar xalqın konseptual dünyagörüşünü kodlaşdıran və mədəni dəyərləri ötürən əsas mənbələrdən biridir. Tədqiqat bu metaforaların təsnifini və funksional təhlilini təqdim etməklə, dilçilikdə konseptual metafora ilə folklor arasında əlaqəni yeni baxış bucağından araşdırmışdır.

Paremiologiyada konseptual metaforalar

Atalar sözləri, konseptual metaforalarla zəngindir, çünki onlar xalqın kollektiv təcrübələrini və müdrikliyini birbaşa metaforik formalarla ifadə edirlər. Atalar sözlərinin mənşəyi ilə bağlı elmi təhlil göstərir ki, bu sözlər əvvəlcə şifahi ədəbiyyatın bir hissəsi kimi meydana gəlmişdir və yazılı ədəbiyyatda heç bir ilkin sübutu yoxdur. Atalar sözləri və deyimlər, xalqın həyat təcrübəsi, müşahidələri və psixoloji vəziyyətlərindən yaranmış, nəsildən-nəslə, bir dilin

daşıyıcıları arasında təkrarlanaraq ötürülmüşdür. Onlar xalqın kollektiv yaddaşının məhsulu olaraq formalaşmış və dilin təbii inkişafı prosesində öz yerini tutmuşdur.

Bununla bağlı M.A.Şoloxovun fikri xüsusi diqqətə layiqdir: "Xalqın ən böyük sərvəti – onun dilidir! Minilliklər boyu sözlərdə insan düşüncəsinin və təcrübəsinin saysız-hesabsız sərvətləri toplanır və əbədi olaraq yaşayır. Və bəlkə də, xalqın dil yaradıcılığının heç bir formasında onun düşüncə və ağlı bu qədər güclü və çoxsaylı şəkildə təzahür etmir, onun milli tarixinin, cəmiyyət quruluşunun, gündəlik həyatının və dünyagörüşünün bu qədər açıq və aydın şəkildə əks olunmadığı kimi, atalar sözlərində təzahür edir" [10, s.3-4].

Bu fikirdə M.A.Şoloxov atalar sözlərinin xalqın dilindəki yeri və əhəmiyyətini vurğulayır. Onun fikrincə, atalar sözləri xalqın təcrübəsini və düşüncəsini simvolizə edən əvəzsiz dil vasitələridir. Atalar sözləri dilin yalnız kommunikasiya məqsədilə deyil, həm də xalqın mədəniyyətinin, sosial quruluşunun, dünya görüşünün qorunub saxlanması üçün mühüm bir vasitədir. M.A.Şoloxov burada atalar sözlərini xalqın əzəli və əbədi müdrikliyinin əks olunduğu, kollektiv təcrübənin və həyat fəlsəfəsinin dil vasitəsilə gələcək nəsillərə ötürüldüyü dil forması kimi təqdim edir. O eyni zamanda atalar sözlərinin xalqın milli tarixini, sosial quruluşunu və dünyagörüşünü ən kütləvi şəkildə təmsil edən dil vahidi olduğunu qeyd edir.

Bu cür ifadələr insanların gündəlik həyatına, sosial münasibətlərinə və təbii mühitlə əlaqələrinə dair ümumi anlayışları, dəyərləri və fəlsəfi görüşləri əks etdirir. Həmçinin atalar sözləri müdrikliyi, həyat təcrübəsini və çox vaxt həyatın mürəkkəb məsələlərini sadə və yığcam şəkildə ifadə etməyə kömək edir. Məsələn, *"Medicine may cure the pain, but the scar remains – Dərman ağrını kəsər, amma yara qalar" [3, s.28].*

Burada "ağrı" və "yaralar" həyatın çətinliklərini və travmalarını simvollaşdırır. *"Dərman"* isə çətinlikləri aradan qaldırmaq üçün istifadə olunan vasitə və ya mübarizə üsuludur. Bu metafora, həyatda keçilən çətinliklərin və yaşanan acıların tamamilə yox olmadığı, sadəcə müvəqqəti olaraq aradan qaldırıldığı mesajını verir.

"The light will burn until the end of the day – işıq günün sonuna qədər yandırılar" metaforik bir ifadədir və həm mənəvi, həm də fiziki aspektdə təhlil oluna bilər.

İşıq burada həyatın, enerjinin, fəaliyyətin və ya müsbət bir qüvvənin simvoludur. İşıq, bəzən həyatın qısa və qiymətli olduğunu göstərmək üçün istifadə olunan bir metaforadır. Günün sonuna qədər yanma, bir çox halda həyatın və enerjinin təbii axışını, başlanğıcdan sona qədər davam edən bir prosesi simvollaşdırır.

Gün, zamanın bir ölçüsü olaraq, insanların gündəlik həyatını, fəaliyyətini və həyatın keçiciliyini əks etdirir. *"Günün sonu"* ifadəsi həyatın təbii axışının sonlanmasını və ya bir dövrün bitməsini simvollaşdırır. Bu həm də insan ömrünün sona çatması ilə əlaqələndirilə bilər – başlanğıc və son arasında bir keçidin, bir prosesin tamamlanmasının təmsilidir.

Yandırılma sözü burada enerjinin istifadəsini, həyatın canlanmasını və fəaliyyətin davam etməsini simvollaşdırır. İşığın günün sonuna qədər yanması, müəyyən bir məqsədə çatana qədər çalışmaq, həyatın hər anından istifadə etmək və bu yolda davam etmək mənasına gəlir. Bu həm də zamanın və enerjinin məhdud olduğunu, amma bu müddət ərzində maksimum fayda əldə etməyin vacibliyini bildirir.

Bu ifadə həyatın parlaq və aktiv dövrlərinin keçiciliyini və zamanın məhdudiyyətini vurğulayan bir metaforadır. "İşıq" və "gün" simvolları, insanların həyatında hər bir anın dəyərini artırmağın vacibliyini təmsil edir.

Marriage is both a union and a separation – evlənmək, həm birləşmək, həm də ayrılmaqdır, atalar sözü, evliliyin çoxsahəli və mürəkkəb təbiətini vurğulayan konseptual bir ifadədir [1, s. 29]. Evlilik, cəmiyyətin ən qədim və əhəmiyyətli sosial institutlarından biri olaraq, həm müsbət, həm də mənfi tərəfləri olan bir həyat təcrübəsidir. Bu sözün iki əsas hissəsi – "birləşmək" və "ayrılmaq" – evliliyin həm uyğunlaşma, həm də fərdiyyətin qorunması arasında təzadları göstərir.

"Birləşmək" ifadəsi, evliliyin əsas məqsədi olan iki fərdin birləşməsini, əlaqə qurmasını, bir-birini tamamlamasını və qarşılıqlı dəstək verməsini təmsil edir. Evlilik, cəmiyyətin və mədəniyyətin tələblərinə uyğun olaraq, iki insan arasında sosial, emosional və fiziki bağları möhkəmləndirir. Bu bağ, cəmiyyətin normativ dəyərləri və həyat məqsədləri ilə əlaqəlidir.

Evlilik, həmçinin həyatın praktiki və gündəlik tərəflərini təşkil edir. Fərdlər arasında qarşılıqlı əlaqə, iş bölüşdürülməsi, ev və ailə məsələlərinin idarə edilməsi birləşmə prosesində mühüm rol oynayır. Bu, birgə həyat qurma, əksər hallarda ailə müstəvisində daha stabil bir gələcək inşa etmə prosesidir.

Evliliyin ayrılma tərəfi, həm şəxsi, həm də sosial baxımdan daha incə bir mövzudur. *"Ayrılmaq"* burada, evlilikdəki fərdlərin müəyyən bir müstəqilliyə, şəxsi hüdudlara və fərdi şəxsiyyətlərinə sahib olma ehtiyacını ifadə edir. Hər iki tərəf birləşsə də, hər birinin öz xarakterini, arzularını və ehtiyaclarını qorumağa davam etməsi vacibdir. Bu, şəxsi sərhədlərin, ehtiyacların və həyat tərzinin nəzərə alınması ilə əlaqəlidir.

Evlilikdəki ən böyük çətinliklərdən biri də hər iki fərdin eyni zamanda həm birləşmək, həm də öz fərdi şəxsiyyətlərini qorumaq istəyində yaranan təzadlar və gərginliklərdir. Hər bir tərəf öz müstəqil şəxsiyyətini və özgürlüyünü qorumağa çalışarkən, evlilikdəki qarşılıqlı əlaqələr bu müstəqilliyə zidd olaraq, bəzən "ayrılma" hissini doğurur [8, s.129].

Bu atalar sözü, evliliyin sosial strukturlarda və insan həyatında yaratdığı mürəkkəb dinamikaları da təmsil edir. Cəmiyyətin evliliyə verdiyi əhəmiyyət, iki fərd arasında həm əlaqə, həm də müstəqillik balansını yaratmaq məsələsini gündəmə gətirir. Evlilik həm birliyin, həm də ayrılmanın simvolu olmaqla, cəmiyyətin evliliyə dair gözləntilərini və müxtəlif həyat tərzlərini əks etdirir.

Psixoloji baxımdan, bu atalar sözü evliliyin emosional tərəflərini və birləşmə ilə bağlı yaranan psixoloji vəziyyətləri izah edir. Evlilik, həm də iki fərdin bir-birini anlamağa və öz şəxsi həyatlarını bir-biri ilə paylaşmağa yönəlmiş emosional bir prosesdir. Lakin fərdlərin öz maraqlarına və ehtiyaclarına daha çox diqqət yetirmələri, bəzən evlilikdəki "ayrılma" hissini yarada bilər. Bu atalar sözü, evliliyin bir tərəfini təmsil edən pozitiv birləşmə ilə yanaşı, fərdlərin fərdi şəxsiyyətlərini qorumağa çalışdıqları "ayrılma" aspektini də nəzərə alır.

Paremioloji müstəvidə metaforik modellər

Məlumdur ki, paremioloji vahidlərin əksəriyyəti metaforik struktura malikdir və bu vahidlər vasitəsilə xalqın dünyagörüşü, həyat fəlsəfəsi, sosial münasibətləri və dəyərləri kodlaşdırılmış şəkildə ötürülür. Bu baxımdan, konseptual metaforaların paremioloji müstəvidə tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Paremiologiyada bu cür metaforalar xalqın həyat tərzini, münasibətlər sistemini və mədəni stereotiplərini ifadə etmək üçün geniş istifadə olunur.

İngilis dilinin paremiologiyasında aşağıdakı metaforik modellər geniş yayılmışdır [9, s.44]:

1. *Life = Journey modeli*

Həyat = Yol (Səyahət)

Bu modeldə həyat bir yol, insan isə bu yolda hərəkət edən bir yolçu kimi təqdim olunur.

He who walks straight will not get lost.

(Meaning: An honest person won't go astray)

Düz gedən azmaz.

The road is easier with a companion.

(Meaning: Life is easier with support or good company)

Yol yoldaşla gələr.

Marriage is a Journey (Evlilik bir səyahətdir) konseptual metaforası həyat yoldaşlarının birgə keçdiyi yolu, qarşılaşdıqları çətinlikləri və birgə məqsədləri səyahət metaforası üzərindən izah edir. Bu metafora çərçivəsində evlilik başlanğıcı olan, mərhələlərlə irəliləyən, bəzən maneələrlə qarşılaşan və məqsədə yönələn bir yol modeli kimi təqdim olunur. Məsələn,

They decided to take the road of life together (Onlar həyat yoluna birlikdə çıxmağa qərar verdilər) ifadəsi göstərir ki, iki insan birlikdə həyata başlamağa qərar veriblər. Burada

"road of life" (həyat yolu) insan ömrünü, "take together" isə bu yolun ortaq şəkildə keçiləcəyini simvolizə edir. Bu ifadə evliliyin başlanğıcında verilən qərarın qarşılıqlı və şüurlu bir addım olduğunu göstərir.

Their marriage started on a smooth path (Evlilikləri hamar bir yolla başladı) cümləsində isə evliliyin ilk mərhələlərinin asan və problemsiz keçdiyi vurğulanır. Buradakı "smooth path" ifadəsi yolun hamar və rahat olduğunu göstərməklə, münasibətlərdəki sabitlik və qarşılıqlı anlaşmanın yüksək olduğunu simvollaşdırır. Beləliklə, metaforik baxımdan, evlilikdəki ilkin mərhələ rahat bir səyahətin ilk addımları kimi təqdim olunur [5, s.123].

They are heading in the same direction (Onlar eyni istiqamətdə irəliləyirlər) isə evli cütlüyün həyat məqsədlərinin və dünyagörüşlərinin eyni olduğunu göstərir. "Same direction" ifadəsi burada yalnız coğrafi istiqamət deyil, həm də ortaq dəyərləri, planları və gələcəyə dair baxışları bildirir. Bu, evlilikdəki harmoniya və uyğunluğun metaforik izahıdır.

Bu üç ifadə *"Marriage is a Journey"* metaforasının başlanğıc mərhələsində – qərar, başlanğıc və məqsəd istiqamətləri baxımından necə işlədiyini nümayiş etdirir. Bu metaforik struktur vasitəsilə evlilik prosesi konkret obrazlarla zənginləşdirilir və insanlar üçün daha anlaşılan və yadda qalan formada təqdim olunur. Metaforik modellərin təsnifi bu vahidlərin semantik və funksional təyinatını daha dərindən anlamağa imkan verir. Nəticə etibarilə, paremiologiyada konseptual metafora yanaşması həm nəzəri, həm də praktik baxımdan böyük əhəmiyyət kəsb edir.

Mövzunun aktuallığı. Konseptual metaforalar paremioloji vahidlərdə xalqın dünyagörüşünü, mədəni dəyərlərini və düşüncə tərzini əks etdirən mühüm dil vasitəsidir. Bu mövzunun araşdırılması metaforik düşüncənin milli-mədəni spesifikasını və universallığını üzə çıxarmaq baxımından aktualdır.

Mövzunun elmi yeniliyi. Məqalədə konseptual metaforaların paremioloji vahidlərdə necə formalaşdığı və mədəniyyətlərarası müqayisədə necə fərqləndiyi sistemli şəkildə təhlil edir. Bu yanaşma paremioloji vahidlərin semantik təhlilini verərək, onların öyrənilməsinə yeni elmi baxış təqdim edir.

Mövzunun praktik əhəmiyyəti və tətbiqi ondan ibarətdir ki, araşdırmamızdan əldə edilən məlumatlar dilçilər, doktorantlar və bu sahədə araşdırma aparan hər bir kəs üçün faydalı ola bilər.

Ədəbiyyat

1. Cameron, L. Researching and Applying Metaphor / L.Cameron, G.Low.– Cambridge: Cambridge University Press, – 1999. – 227 p.
2. Charteris-Black, J. Corpus approaches to critical metaphor analysis / J.Charteris-Black, Palgrave Macmillan, – 2023. – 330 p.
3. Goatly, A. The Language of Metaphors / A.Goatly. – London: Routledge, – 2007. – 336 p.
4. Korunets, Evgeny P. The Role of Proverbs in the Formation of Language and Culture / P. Evgeny Korunets, – Moscow: Russian Academy of Sciences, – 2005. – p.27-39.
5. Kövecses, Z. Metaphor: A practical introduction. / Z.Kövecses. – Oxford University Press, – 2020. – 146 p.
6. Krennmayr, T. Metaphor in Discourse / T.Krennmayr, [et al.], – Cambridge: Cambridge University Press, – 2014. – 312 p.
7. Lakoff, G. Metaphors We Live By / G. Lakoff, M.Johnson, – Chicago: University of Chicago Press, – 1980. – 258 p.
8. Mieder, W. Proverbs Are the Best: An International Study / W.Mieder. – New York: Oxford University Press, – 2004. – 292 p.
9. Zlatev, J. The Concept of Metaphor: Cross-cultural and Cognitive Perspectives / J.Zlatev, [et al.], –Amsterdam: John Benjamins Publishing, – 2010. – 320 p.
10. Шолохов, М.А. Тихий Дон. / М.А.Шолохов. – Москва: Московский Работник, Том 1, – 1957. – 370 с.

N.R.Eyubova

Conceptual Metaphors in the Proverbial Domain

Summary

The article focuses on the analysis of conceptual metaphors in the proverbial domain. The study of conceptual metaphors in the paremiological dimension is of particular relevance in modern linguistics. Such research contributes to the understanding of a nation's worldview and cognitive models, reveals the cultural essence of language, and provides a significant foundation for linguistic, cognitive, and cultural studies. The aim of the article is to identify conceptual metaphors present in paremiological units and to analyze their cognitive and cultural functions.

Key words: *conceptual metaphor, paremiology, intercultural communication, global culture, cognitive linguistics*

N.R.Эюбова

Концептуальные метафоры в пословичном домене

Резюме

Статья посвящена анализу концептуальных метафор на паремиологическом уровне. Исследование концептуальных метафор в паремиологическом аспекте представляет собой актуальное направление в современной лингвистике. Такие исследования способствуют пониманию народного мировоззрения и когнитивных моделей, раскрывают культурную сущность языка и создают важную основу для лингвистических, когнитивных и культурологических исследований. Цель статьи – выявить концептуальные метафоры, представленные в паремиологических единицах, и проанализировать их когнитивные и культурные функции.

Ключевые слова: *концептуальная метафора, паремиология, межкультурная коммуникация, глобальная культура, когнитивная лингвистика*

Rəyçi: f.f.d., dos. T.Quliyev

Redaksiyaya daxil olub: 08.05.2025

A.F.HACIYEVA
baş müəllim
e-mail: ay-tan-guliyeva@hot mail.com
:https://orcid.org/0009-0002-3879-4558

L.P.AXUNDOVA
baş müəllim
e-mail: laman.akhundova@gmail.com
:https://orcid.org/0009-0004-4874-4380

Azərbaycan Texniki Universiteti
(Bakı şəh., H.Cavid pr., 25)

İNGİLİS DİLİNİN TERMİNOLOJİ SİSTEMİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ SUFFİKSLƏRİN ROLU

Xülasə. *İngilis dilində şəkilçilər vasitəsilə yaranan sözlər məhsuldar və qeyri-məhsuldar olmalarına görə müxtəlif ola bilər. Onlar ingilis dilini söz yaradıcılığı xarakteri ilə zənginləşdirir və demək olar ki, məhsuldar söz qrupuna malikdirlər. Çünki cəmiyyətdə texnika inkişaf etdikcə dildə yeni sözlər meydana çıxır və bu prosesdə şəkilçilərin rolu böyükdür. İngilis dilində nitq hissələrin əsas üzvlərindən olan isim və sifətlərin yeni quruluşda yaranması üçün şəkilçilərin rolu böyükdür və və onlar köməkçi element olmaqla yanaşı, yaradıcılıq statusuna malikdirlər. Məqalədə ingilis ədəbi dilində müqayisə dərəcələri və onun Azərbaycan dili ilə müqayisəli xarakteristikası, həmçinin ingilis dilində bəzi sifətlərin üstünlük dərəcəsi araşdırılır, həmçinin söz köklərinin dəyişdirilməsi ilə yeni sözlərin əmələ gəlməsi də təhlil edilməsi də nəzərdə tutulur.*

Açar sözlər: *suffiks, grammatika, produktiv, morfoloji, leksika, semantika*

Giriş: O.D.Meşkov "Müasir ingilis dilində söz yaradıcılığı" kitabında qeyd edir: "İngilis dilində nitq hissələri içərisində suffikslər leksik-qrammatik qruplarına əsasən semantik cəhətdən növlərə bölünürlər və şəkilçilərin əlavə olunduğu kök (stem)-lərin növündən asılı olaraq təsnif olunurlar. Başqa sözlə desək, suffiksləri siqnalizə (signalize) etmək üçün, onların leksikoqrammatik mənası ilə maraqlansaq, biz hər bir nitq hissəsinin tərkibində daha çox yeni yaranmış söz və terminlərin yarandığını müşahidə edirik. İngilis dilində belə leksikoqrammatik məna daşıyan nitq elementləri, həmçinin bu elementlərin içərisində ifadə olunan qrammatik kateqoriyalar dildaxili məhsudar formalar kimi anlaşıla bilər. İngilis dilində eyni kateqoriyanın elementləri özünə uyğun sözlə əvəz oluna bilər və özünə xas olan morfoloji nümunələr sözdüzəldən affikslərlə xarakterizə oluna bilərlər [1, s. 54].

İngilis dilində sırf sifət əmələ gətirən suffikslərlə yaxından tanış olduqda müşahidə edirik ki, hər nitq hissəsinin öz sözdüzəldici suffiksləri olduğu kimi sifətin də özünəməxsus sözdüzəldici suffiksləri vardır. Bu suffikslər də müxtəlif qruplara bölünürlər. Məlumdur ki, sifət əşyanın əlamətini bildirir və "what"(nə), "what kind of" (necə), "which" (hansı) suallarına cavab olur. Quruluşuna görə sifətlər 4 sadə (big, large, red, niece, etc); 4 düzəltmə (historical, hopeless, wonderfull); və 3 mürəkkəb (dark-blue, good-looking, brand-new) növə bölünürlər. Sadə sifətlər Azərbaycan dilində olduğu kimi, bir kökdən ibarət olur və onlara heç bir suffiks artırılmır. İngilis dilində suffikslər produktiv və qeyri-produktiv olmaqla iki növə bölünürlər:

1) Produktiv sifət düzəldən suffikslərə *-less* (friendless), *-like, -ish, -ed* aiddir. Bununla düzələn əksər sifətlərin müqayisə və üstünlük dərəcələri vardır;

2) Qeyri-produktiv suffikslərə *-less* (friendless), *-like, -ish, -ed* aiddir. Bu üsulla düzələn əksər sifətlərin müqayisə və üstünlük dərəcələri vardır. Müqayisə dərəcəsi keyfiyyətin nisbə-

tən ən üstün dərəcəsini göstərir. Qeyd etdiyimiz kimi ingilis dilində sifətin adi dərəcəsi (the positive degree) və üstünlük dərəcəsi (the superlative degree) vardır.

Məlumdur ki, ingilis dilində sadə və mürəkkəb cümə daxilində sifətlərə xas olan əlamət və keyfiyyətlərin dərəcələri iki yolla ifadə edilir.

1)Sintetik yolla, yəni sifətlərin sonuna suffikslər əlavə etməklə;

2)Analitik yolla, yəni sifətlərin əvvəlinə köməkçi söz əlavə etməklə.

İngilis dilində bu üsullardan hansının seçilməsi prioritet olmayıb, o sifətin fonetik tərkibindən asılı olur belə ki, cümlədə birhecalı və bəzi ikihecalı sifətlərin dərəcə formaları ya sintetik yolla düzəlir, ya da ki, iki və daha çox hecalı sifətlərin dərəcə formaları isə analitik yolla düzəldilir. Sifətin adi dərəcəsini düzəltmək üçün heç bir suffiksdən istifadə olunmur. Sifətlər adi dərəcədə **as...as, not so...as** bağlayıcıları ilə işlənərkən müqayisə olunan şəxs və əşyaların eyni dərəcəli keyfiyyətə, əlamətə malik olub-olmadığını bildirir. Məs:

1) My brother is as strong as yours – Mənim qardaşım sənինki kimi güclüdür.
2) Their way is not so long as mine – Onların yolu mənimki kimi uzun deyil.

İ.V.Arnold "Müasir ingilis dilinin leksikalogiyası" əsərində yazır: "Birhecalı sifətlərin müqayisə dərəcəsini düzəltmək üçün onların sonuna **"er"** şəkilçisini, üstünlük dərəcəsini düzəltmək üçün isə **"-est**" suffiksi artırılır. İngilis dilində ikihecalı sifətlərin əksəriyyətini və çoxluhecalı sifətlərin hamısının müqayisə dərəcəsi analitik yolla yaranır, yəni müqayisə dərəcəsində sifətdən əvvələ **"more**", üstünlük dərəcəsində isə "**most"** sözlərini artırmaqla düzəldilir [2, s.168].

Müasir İngilis dilində sifətin müqayisə dərəcəsində hər hansı bir şəxs və ya əşya, başqa bir şəxs yaxud əşyadan keyfiyyətcə artıq olduğunu bildirilir. Bu halda "**than**" sözündən istifadə olunur. Bu bağlayıcı Azərbaycan dilində "-dan, -dən" şəkilçisi, yaxud da "-dan... daha", "dən...daha" tərkibi ilə tərcümə edilir. Məsələn, room is larger than yours – Mənim otağım sizinkindən (daha) genişdir. Azərbaycan dilində olduğu kimi, ingilis dilində də sifətin üstünlük dərəcəsi əşya və ya şəxsin onun daxil olduğu tərkibdə ən yüksək keyfiyyətə malik olduğunu bildirir. Məsələn:

1) The Volga is the longest river in Europe – Volqa Avropada ən uzun çaydır.
2) The USA is the most democratic country in the world – ABŞ dünyada ən demokratik ölkədir.

Müasir ingilis dilində bir neçə sifət vardır ki, onların dərəcə formaları **superletiv** yolla düzəldilir, yəni hər formada (adi, müqayisə və üstünlük dərəcə formalarında) müxtəlif kökdən olan sifət işlənir. Sifətin aşağıdakı sintaktik xüsusiyyətləri vardır: Cümlədə sifət həm təyin, həm də tamamlıq ola bilər. Müasir mərhələdə sifət düzəldən suffikslər arasında ***-able, -al (-ial), -an, -ed, -ic, -y*** daha produktiv suffikslər hesab olunurlar. İngilis dilində ümumi məna nöqteyindən adektiv suffikslər iki böyük qrup yaradır:

1) Birinci qrupda əsas "münasibət" mənasını kəsb etməsi hesab olunur: aid olan, oxşarlığı olan, xarakterik xüsusiyyətlər və əlamətlər, "kökün ifadə etməli olduğu bir şeyi xatırladan" kimi mənanı ifadə edir. Məsələn, "**Ornamental**" – bəzək əşyası kimi istifadə olunan, **"volcanic" – vulkanik, "neighbourly" – qonşu münasibəti, dost münasibəti və s.**

2) İkinci qrup suffikslər üçün əsas **mövcud olma və ya olmama** hesab olunur: yəni kökün ifadə etməli olduğu bir şeyin miqdarını və yaxud olmayan bir şeyi təyin edir. Burada öyrənəcəyimiz digər mənaları şərti olaraq **sözdüzəldici** kimi qəbul edə bilərik. Məsələn, ***-able (-ible) suffiksi ilə düzələn sifətlər:*** Modellər: v+able → Adj.N+ able (ible,ble) → Adject.

A.Konin "İngilis dilinin leksikası" əsərində qeyd edir: "Müasir ingilis dilində dəyişə bilən ***-able*** suffiksi çox geniş yayılıb. Onun üstün cəhəti ondan ibarətdir ki, o feilin kökünə əlavə olunmaqla yanaşı, həmçinin isimlərin də kökünə əlavə oluna bilir, yəni hər hansı bir şəxsin və ya əşyanın ***-able*** suffiksi ilə ifadə olunan işin ümumi mənasının xarakterik xüsusiyyətini ifadə edilməsi nəzərdə tutulur [3, s.77].

Müasir ingilis dilində **isimə** *"-able"* suffiksi əlavə edildikdə həm aktiv kateqoriyalı məna verə bilər (fashionable → pertaining to fashion), həm də passiv kateqoriyalı məna verə bilər (objectionable → that may be objected to; carriageable – that can be carried). **Feilin** sonuna isə *"-able"* suffiksini əlavə etsək əsas sözdüzəldici kimi o, Azərbaycan dilində "passiv imkan, tabe olma" mənalarını verir. Məs: **readable → that can be read catchable → that can be caught; seeable → that can be seen**. Sifətlərin sonuna isə *"-able"* suffiksini əlavə etsək Azərbaycan diində **aktiv xarakterik xüsusiyyət, uyğunluq** mənalarını verəcək. Məsələn: suitable – such as to suit;durable – such as to last. Bəzən həm aktiv, həm də passiv mənaların birgə işlənməsi hallarına da rast gəlmək olar. Məsələn: Floatable – 1) that can float; 2) be floated on. Changeable – 1) that is apt to change; 2) that can be changed.

Müasir ingilis dilində ***"-able"*** suffiksi öz produktivliyini ilə çox fərqlənir, onun köməyi ilə istənilən təsirli feillərdən sifət düzəltmək olar, bu da kompakt sintatik konstruksiya yaratmağa imkan verir. Məsələn; She was very paintable.

"-Able" suffiksi gələcəkdə sözdüzəltmə yaratmaq üçün bizə çoxlu imkanlar verir; ***-al suffiksi ilə düzələn sifətlər*** (Model: n+ -al → Adj."-al" suffiksi müasir ingilis dilində yüksək produktivliyi ilə fərqlənir və kökün ifadə etdiyi bir şeylə əlaqənin oxşarlığını, onun törəmələrini və s.) bildirir. Məsələn, Accidental (Azərbaycan dilində – "təsadüf, ornamental" – bəzək əşyası kimi başa düşülür. **Al suffiksinin** gələcəkdə daha aktiv düzəltmə sözlər yaratması imkanları vardır. Məs: accidentally, normalize, ensociality (something "completely or perfectly social");

Müasir ingilis dilində omonim ***"-an"*** suffiksi də vardır ki, isim yaratmaq üçün ondan geniş istifadə olunur. ***-an suffiksi ilə düzələn sifətlər (-ean, -ian) ;*** Model: n+ an → Adj."-an" suffiksi və onun törəmələri olan ***"-ean, -ian"*** kökü isim olan sözlərə əlavə olunur və mənsubiyyət kimi ümumi məna verir. Ölkə, şəhər və digər coğrafi adları bildirən isimlərə əlavə olunarkən "-an" suffiksi "bu ölkəyə və şəhərə aid" mənanı bildirir. Məsələn: African – afrikalı, Bostonian – bastonlu.

E.N.Bortniçuk "İngilis dilində söz yaradıcılığı" əsərində yazır: "Xüsusi adlar bildirən isimlərlə birləşdikdə *"-an"* suffiksi "nəyəsə aid olan, hər hansı ərazinin, nəzər baxışların tərəfdarı olan və s. mənaları ifadə edir. *"-an"* suffiksinin üçüncü mənasının elmi çərçivə daxilində tətqiqi qismən məhduddur: O "müəyyən sinfə, növə (biologiyada) aid olma, (neyrobiologiyada) bioloji ritmə uyğun olma" və s. mənalarını ifadə edir. Bu suffiksin gələcəkdə sözdüzəltmə imkanları mümkündür: Məsələn: kanadianizm, İtalianizm və s." [4, s.123].

Nəticə: Beləliklə,bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, ingilis dilində bir sıra isim, sifət və feillərə suffikslər və prefikslər əlavə etməklə yeni məna daşıyan sözlər və terminlər yaranır. Məsələn, feil mənşəli köklərlə *"-ful"* suffiksi birləşdikdə o ifadə etdiyi "bir şeyə meyilli" mənasını verir – forgetful – unutqan, resentful – kinli, willful – tərs, qərarlı və s. mənalarını bildirir. Burada, həmçinin "rightfulness", "helpfully" kimi sözdüzəltmələri də yaratmaq mümkündür. Eyni zamanda, *-ful* suffiksinin produktivliyi ingilis dilinin sadə cümlələrində daha genişdir.

Elmi yenilik. Məqalədə elmi yenilik ondan ibarətdir ki, ingilis dilində suffikslər vasitəsilə düzələn yeni söz və terminlər həyatın müxtəlif sahələrində geniş spektrdə işənir, onun məna dairəsi genişlənir və bəzi hallarda yeni söz öz ilkin mənasını itirərək yeni məna kəsb edir. Başqa hallarda ilkin məna qalmaqla yeni sözün semantikasında dəyişmələr baş verir. Qeyd olunan məsələlər məqalədə öz əksini konkret nümunələr əsasında araşdırılmışdır.

Tətbiqi əhəmiyyəti. Həyatın müxtəlif sahələrində suffikslər vasitəsilə düzələn yeni söz və terminlər öz aktuallığı ilə fərqənirlər. Məsələn, **Biznes** (ing. bus**ness**) sözü 1966-cı ildə çapdan çıxmış Azərbaycan dilinin izahlı lüğətinə daxil edilmiş və bu sözün mənası şəxsi yığımla əlaqədar kommersiya işi kimi izahlanır. Bu fəaliyyətlə məşğul olan şəxs isə "biznesmen" adlanır. Lüğətdə "biznesmen" sözünün izahında yazılır: "ABŞ-da tacir, fırıldaqçı, işbaz, sahibkar; hər şeydən yüksək gəlir almağa çalışan kapitalist" (AMSL). İngilis dilində "biznes"

sözü çoxmənalıdır və Azərbaycan dilində onun mənası "iş adamı", "ticarətlə məşğuliyyət" kimi başa düşülür. Sözün digər mənası "ticarət və kommersiya fəaliyyəti"dir. Hazırda Azərbaycan dilində istifadə edilən "**biznes**" sözü "gəlir gətirən iş" mənasında işlənir və işlənmə səviyyəsinə görə məhsuldardır.

Server sözü də həmçinin əsasən idman termini olub, voleybolda, tennisdə topu oyuna daxil edən idmançıya deyilir və o, **serve**r adlanır. Keçən əsrin 90-cı illərində həm **servis**, həm də **server** sözlərinin semantikasında dəyişmələr baş vermişdir. Terminlər indi sosial-iqtisadi və başqa sahələrə aid anlayışları da ifadə edir. Server hal-hazırda "kiçik və orta biznesdə istifadə olunan, əsas məlumatları saxlayan və ötürən kompüter" mənasında işlənir.

Pressinq – sözü də həmçinin idman oyunlarında qarşı tərəfin oyununa tətbiq olunan sərt mübarizə formasıdır. Burada əsas məqsəd mübarizə aparılan komandanın fəaliyyətini məhdudlaşdırmaq, onun sərbəstliyini əlindən almaqdır. Əvvəllər bu yalnız idman oyunlarına aid olsa da, hal-hazırda həyatın istənilən sahələrində işlədilir.

Ədəbiyyat

1. Мешков, О.Д. Словообразование современного английского языка / О.Д.Мешков, – М. – 1986. – с.54.
2. Арнольд, И.В. Лексикология современного английского языка / И.В.Арнольд. – М., – 1988. – с.168.
3. Koonin, A. English Lexicology / A.Koonin. – Moscow. – p. 77.
4. Бортничук, Е.Н. Словообразование в английском языке / Е.Н.Бортничук, И.П.Пастушенко. – М.изд. Наука, – 1974. – с.123.

A.F.Hajiyeva, L.P.Akhundova

The use of Suffixes in Enriching the Terminological System of the English Language

Summary

Suffixes can be varied according to their being productive and non productive. They enrich English language for their wordbuilding character and almost owns the borrowed words. Since, technics develop in the society new words appear in the language. In these cases the role of suffixes is great. Suffixes will be important and helpful element for building adjectives in the English language in the future.

Key words: *suffix, grammar, productive, morphological, lexical, semantic*

А.Ф.Гаджиева, Л.П.Ахундова

Роль суффиксов в обогащении терминологической системы английского языка

Резюме

Суфиксы могут отличаться по своей производительности и эффективности. Они обогащают английский язык своим словообразовательным характером и являются почти исключительно заимствованными словами.Потому что по мере развития технологий в обществе в языке появляются новые слова. В этих случаях суффиксы играют важную роль. В будущем суффиксы станут важным и полезным элементом для построения прилагательных в английском языке.

Ключевые слова: *суффиксы, грамматика, морфология, лексика, семантика*

Rəyçi: filol.f.d., dos. əvəzi K.Mehdixanlı

Redaksiyaya daxil olub: 15.05.2025

M.Z.HACIZADƏ
baş müəllim
e-mail: mehribanhacizade7@gmail.com
:https://orcid.org/0009-0006-9476-3157

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.034

LÜĞƏT TƏRKİBİ SAHƏSİNDƏ DİLLƏRİN QARŞILIQLI TƏSİRİ

Xülasə. *Dillərin qarşılıqlı təsiri, müxtəlif dillərin bir-biri ilə necə əlaqə qurduğunu, bir-birinə necə təsir etdiyini və bu prosesin dilin inkişafına necə təsir etdiyini araşdıran bir sahədir. Bu qarşılıqlı təsir, dilin leksik, qrammatik və fonetik quruluşlarında dəyişikliklərə yol açа bilər. Müxtəlif dil dialektləri bir-birinə təsir edərək yeni sözlər, ifadələr və ya qrammatik struktur dəyişiklikləri gətirə bilər. Dillər arasında qarşılıqlı təsir bir dilin inkişafını sürətləndirə bilər. Eyni zamanda yeni strukturların yaranmasına və ya köhnə strukturların dəyişməsinə səbəb ola bilər.*
Dillərin qarşılıqlı təsiri mədəniyyətlərarası əlaqəni gücləndirə, beynəlxalq kommunikasiya və ticarətə də təsir edə bilər. Bu dildəki sözlərin dəyişmə və yeni mənalar əldə etmə prosesinə təsir edən əsas amillərdən biridir.

Açar sözlər: *leksik, sosial-mədəni mübadilə, inteqrasiya, koqnitiv, generativ, alınma sözlər*

Müasir dilçiliyin mühüm və əhəmiyyətli problemlərindən biri dünyada var olan dillərin, böyük və ya kiçik, az və ya çox yayılmasından asılı olmayaraq, hər birini araşdırmaq, dünya dillərinin sayını müəyyən etmək, onların fərqli və yaxın xüsusiyyətlərini tədqiq etmək, dillərin qarşılıqlı təsirini öyrənməkdən ibarətdir [1, s.10].

Dil cəmiyyətin inkişafında mühüm rol oynayır. Beləki, dil əsas ünsiyyət vasitəsitəsidir. Dilin formalaşması bir gün, bir ay və ya bir il ərzində deyil, bir neçə əsrlər ərzində yaranır və tarixi inkişaf prosesi keçərək daha da təkmilləşir və zənginləşir.

Dünyada bir sıra dillər mövcuddur ki, hər bir dilin özünəməxsus söz ehtiyatı var. Dil lüğət tərkibi hesabına zənginləşir, lüğət tərkibi dilin əsasını təşkil edir [3, s.117].

Dillərin qarşılıqlı təsiri, dilçilik sahəsində mühüm bir tədqiqat mövzusudur və dünyada müxtəlif dillər arasında qarşılıqlı əlaqələrin necə baş verdiyini, bu əlaqələrin dilin inkişafına necə təsir etdiyini və cəmiyyətlərə necə nüfuz etdiyini araşdırır. İnsanlar arasında ünsiyyətin əsas vasitəsi olan dil, eyni zamanda mədəniyyətlərarası əlaqələrin də daşıyıcısıdır. Dillərin qarşılıqlı təsiri, sosial, iqtisadi və siyasi əlaqələrdən, tarixdən və mədəni mübadilədən asılıdır. Dillərin qarşılıqlı təsirinin bir sıra mexanizmləri var.

Leksik təsir. Leksik təsir, bir dilin digər dildən sözlər qəbul etməsidir. Bu proses, xüsusilə ticarət, müharibə, mədəni mübadilə və səyahətlər zamanı baş verir. Məsələn, ingilis dilində çox sayda latın və fransız mənşəli sözlər vardır. Fransızlar, Norman istilası nəticəsində İngiltərəyə gəldikdən sonra, ingilis dilinə çoxsaylı fransızca sözlər əlavə olunmuşdur. Bu həm də həmin dövrün cəmiyyətinin mədəni və sosial quruluşunun dilə təsirini əks etdirir.

Fonetik və qrammatik təsir. İki dilin qarşılıqlı əlaqəsi zamanı, fərqli fonetik quruluşlar və qrammatik strukturlar bir-birinə yaxınlaşa bilər. Məsələn, çoxdilli cəmiyyətlərdə yaşayan insanlar arasında, danışılan dillərin fonetik və qrammatik quruluşlarının qarışması, yeni və mürəkkəb cümlə quruluşlarının yaranmasına səbəb ola bilər.

Lüğət tərkibi sahəsində dillərin qarşılıqlı təsiri, dillərin sosial, mədəni və tarixi əlaqələri nəticəsində inkişaf edən və dəyişən prosesdir. Bu mövzuda fərqli nəzəri fikirlər mövcuddur ki, hər biri dillərin qarşılıqlı təsirini fərqli prizmadan izah edir.

1. Sosial-mədəni nəzəriyyə. Sosial-mədəni nəzəriyyə, dilin cəmiyyətin sosial və mədəni mühitində necə inkişaf etdiyini vurğulayır. Dillər, bu cəmiyyətdə yaşayan insanların gündəlik həyat tərzini, inanclarını, qaydalarını və münasibətlərini əks etdirir. Bu nəzəriyyəyə əsasən, bir dilin lüğət tərkibi, o dilin danışdığı cəmiyyətin tarixini, mədəniyyətinin, sosial strukturlarının və sosial təbəqələrinin təzahürüdür.

• Mədəni mübadilə. Mədəni mübadilə, dillərin qarşılıqlı təsirinin əsas səbəblərindən biridir. İnsanlar arasında ticarət, elm, mədəniyyət və dini əlaqələr nəticəsində dillər bir-birinə təsir edir. Məsələn, müsəlmanların Avropada yayıldığı dövrlərdə, ərəb dilindən alınan çoxlu sayda sözlər, xüsusilə elm və təhsil sahəsində (*rəsədxana, algebra, alchemist və s.*) ingilis və Latın dilinə keçmişdir. Eyni zamanda, Avropa dillərinin təsiri ilə ərəb dili də müəyyən dəyişikliklərə uğramışdır.

• Dilin sosial funksiyaları. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də cəmiyyətin sosial strukturlarını əks etdirən bir mexanizmdir. Məsələn, sosial təbəqələr arasındakı fərqlər, dilin leksik tərkibindəki fərqləri yaradır. Eyni dilin müxtəlif sosial qrupları arasında istifadə olunan leksik vahidlər fərqli ola bilər. Məsələn, xalq dili, formal dil, dialektlər.

Sosial-mədəni nəzəriyyə dillərin sosial strukturlarla necə formalaşdığını və insanlar arasında necə əlaqə qurduğunu araşdıran bir nəzəriyyədir. Bu nəzəriyyənin bir sıra prinsipləri var.

a) Dil və sosial strukturlar. Dil cəmiyyətin strukturuna uyğun olaraq inkişaf edir və bu sosial strukturların, təbəqələşmə, etnik qruplar, gender və yaş kimi faktorların dil istifadəsinə necə təsir etdiyini araşdırır. Beləliklə, dil, cəmiyyətdəki mövqeləri və fərqləri əks etdirir.

b) Dil və kimlik. Dil fərdlərin sosial kimliklərinin formalaşmasında mühüm rol oynayır. İnsanlar dil vasitəsilə özlərini müəyyən edir və başqalarına təqdim edirlər.

Dil, həm də qrup daxilində birləşdirici elementdir, xüsusilə müəyyən etnik, sosial və ya mədəni qruplar arasında.

c) Mədəniyyət və dil. "Dil və mədəniyyət" problemi ümumbəşəri problem olan "insan və mədəniyyət"probleminin tərkib hissəsidir. Məhz buna görə də "dil və mədəniyyət" probleminin məzmun və mahiyyəti ilə yalnız dilçilər deyil, həm də filosoflar, psixoloqlar, sosioloqlar və etnoqraflar da məşğul olmuşlar. İnsan fəaliyyətinin ən geniş anlayışlarından biri mədəniyyət anlayışıdır. "Mədəniyyət" anlayışı hələ qədim dövrlərdə olduqca geniş yayılmışdır.

Ümuminsani mədəniyyət haqqında Q.Uisler demişdir: "Ümuminsani mədəniyyətin əlamətləri: dil, maddi mədəniyyət, incəsənət, bilik, din, cəmiyyət, xüsusiçilik, dövlət, müharibədir" [4].

Mədəniyyət anlayışı lüğətlərdə müxtəlif şəkildə aydınlaşdırılır. "Azərbaycan dilinin izahlı lüğəti"ndə mədəniyyət haqqında aşağıdakı izahlar verilmişdir:

Mədəniyyət (ər). **1.** İnsan cəmiyyətinin istehsal sahəsində, ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu.

2. Hər hansı bir xalqın və ya sinfin müəyyən dövrdə əldə etdiyi nailiyyətlərin səviyyəsi. Təsərrüfat və ya zehni fəaliyyətin, hər hansı birinin inkişaf səviyyəsi (istehsalat mədəniyyəti, nitq mədəniyyəti).

3. Savadlılıq, elmlilik, biliklilik // Cəmiyyətdə özünü apara bilmə // Mədəni adamın tələblərinə uyğun olan həyat şəraitinin məcmusu.

Mədəniyyət anlayışı, adətən, nəzəri ədəbiyyatda daha çox belə müəyyənləşdirilir: mədəniyyət insanların ictimai əmək prosesində yaratmış olduğu maddi sərvətlərin və mənəvi nemətlərin məcmusudur.

Dil və mədəniyyət anlayışı bir-birilə sıx əlaqəlidir. Bu əlaqə dialektik vəhdətin nəticəsi kimi təzahür edir. Qeyd etmək lazımdır ki, dil mədəniyyətin, mədəniyyət də dilin inkişafına imkan və şərait yaradır. Dünya ədəbi dillərinin meydana gəlməsi, formalaşması, inkişaf edib zənginləşməsi mədəniyyətlə bağlıdır. Millətin əsas əlamətlərindən olan dil o dildə danışan xalqın milli mədəniyyətini ifadə edir. [2, s. 224-225].

d) Dil və güc dinamikası. Dillər arasındakı qarşılıqlı təsir cəmiyyətdəki güc münasibətlərini əks etdirə bilər. Məsələn, bəzi dillər hakim dil olaraq qəbul edilir, bu isə həmin dili danı-

şanların cəmiyyətdə daha çox güc və resurslara sahib olmalarına səbəb ola bilər. Buna qarşılıq olaraq, azınlıq dilləri və onların danışanları bəzən sosial və iqtisadi məhdudiyyətlərə məruz qala bilərlər.

2. Sosial inteqrasiya nəzəriyyəsi. Bu nəzəriyyə, dillərin qarşılıqlı təsirini əsasən insanlar arasında sosial inteqrasiyanın bir nəticəsi olduğunu iddia edir. Fərqli dil danışan qrupların bir-birilə qarşılıqlı əlaqədə olması nəticəsində dil mübadiləsi baş verir. Bu mübadilə, dilin lüğət tərkibində dəyişikliklərə səbəb olur və yeni sözlərin, ifadələrin və ya qrammatik formaların yaranmasına yol açır.

İnteqrasiya sözü latın mənşəli olub, nəyisə birləşdirmə, vahid sistemə gətirmə mənasını bildirir. Belə bir mülahizə mövcuddur ki, ilk dövrdə müxtəlif ərazilərdə insanlar meydana gəldiyi zaman yüz minlərlə dil olmuşdur. Bu dillər müəyyən zaman çərçivəsində inteqrasiyaya məruz qalmış və azalmışdır [1, s.19].

• **Dil qarışığı və şəbəkə dilləri.** Dil qarışığı və ya *pidgin* və *kreol* dilləri bu nəzəriyyənin konkret nümunələridir. Fərqli dilləri danışan insanlar arasında ünsiyyət qurmaq məqsədilə yeni dil formaları meydana çıxır. Bu dil formaları ilkin olaraq *pidgin* (sadələşdirilmiş dil) kimi yaranır və zamanla *kreol* (tam funksiyalı dil) halına gəlir. Məsələn, Karib dənizində yaranmış və müxtəlif dillərin qarışmasından meydana çıxmış olan **"Sanqo"** dili buna misaldır.

• **Çoxdilli cəmiyyətlər.** Çoxdilli cəmiyyətlərdə bir neçə dilin qarşılıqlı təsir göstərməsi, insanların eyni vaxtda bir və ya bir neçə dil və dialektdən istifadə etmələrinə gətirib çıxarır. Bu da leksik dəyişikliklərə və yeni dil formalarının yaranmasına səbəb olur.

3. Borc sözlər və leksik təsirlər. Borc sözlər, bir dilin digərindən aldığı sözlərdir. Borc sözlərin daxil olması, bir dilin başqa dillərlə olan tarixi, ticarət və mədəni əlaqələrin nəticəsidir. Bu ən çox bir dilin digərindən birbaşa mənşə almayan, lakin müəyyən zaman kəsiyində ona daxil olan sözlərdir.

• **Ticarət və iqtisadi əlaqələr.** Tarix boyu ticarət və iqtisadi mübadilə dillərin qarşılıqlı təsirinin ən önəmli səbəblərindən biri olub. Bir dil, ticarət əlaqələri nəticəsində başqa dildən yeni sözlər ala bilər. Məsələn, ingilis dilindəki çoxsaylı fransız mənşəli sözlər (restaurant, ballet) bu cür əlaqələr nəticəsində yaranıb.

4. Qlobalizasiya və qloballaşan dilin təsiri. Qlobalizasiya, dillərin qarşılıqlı təsirini daha da sürətləndirən əsas faktorlardan biridir. Qlobal iqtisadiyyat, texnologiya, kütləvi informasiya vasitələri və müasir kommunikasiya vasitələri, dillər arasında daha sürətli əlaqə qurulmasına şərait yaradır.

• **İngilis dili və dünya dilləri.** Qlobalizasiya nəticəsində ingilis dili çoxsaylı dillərin lüğət tərkibində böyük təsirə malik olmuşdur. Bu dil, texnologiya, biznes, elm və mədəniyyət sahələrində bir növ "***universal dil***" rolunu oynayır. Bu digər dillərin ingilis dilindən borc sözlər qəbul etməsi ilə nəticələnir. Məsələn, ***internet, software, business*** və s. kimi sözlər dünyanın müxtəlif dillərində istifadə edilir.

• **İnformasiya texnologiyaları və media.** İnformasiya texnologiyaları və sosial media da dillərin qarşılıqlı təsirində böyük rol oynayır. Sosial şəbəkələrdə istifadəçilər müxtəlif dillərdəki məzmunu paylaşır və bu bir dilin digərinə təsir etməsinə səbəb olur. İnternetin geniş yayılması ilə yeni terminlər və ifadələr yaranır və dillər arasındakı sərhədlər daha da silinir.

• **Qloballaşan dilin təsiri.** Qlobal dilin, xüsusilə ingilis dilinin, dünyada daha geniş yayılması həm müsbət, həm də mənfi təsirlər yarada bilər.

• **Müsbət təsirlər.**

– Qlobal dil, müxtəlif mədəniyyətlər arasında ünsiyyəti asanlaşdırır, beynəlxalq ticarət və əməkdaşlığı artırır.

– İnsanlar fərqli dillər öyrənmək və beynəlxalq təhsil almaq imkanına malik olurlar.

–Dünya miqyasında məlumat mübadiləsi daha sürətli və effektiv olur.

• Mənfi təsirlər.

– Lokal dillərin zəifləməsi və yox olma təhlükəsi. Qlobal dilin yayılması, yerli dillərin istifadə edilməməsinə və bəzən onların ölməsinə səbəb ola bilər.

– Mədəni fərqliliklərin azalması. Qlobal dilin üstünlük təşkil etməsi, müxtəlif mədəniyyətlərin və onların dillərinin itirilməsinə səbəb ola bilər. Bu, dünyadakı mədəni müxtəlifliyin azalmasına gətirib çıxara bilər.

5. Strukturist və Generativ Nəzəriyyələr. ***Strukturist*** nəzəriyyə, əsasən

Ferdinand de Saussure və daha sonra Noam Chomsky-nin strukturist yanaşmalarına dayanır. Bu nəzəriyyə dilin quruluşunun əsas komponentlərinə, məsələn, fonologiya, morfologiya və sintaksisə fokuslanır. Strukturistlər dilin müəyyən bir sistem olduğunu müdafiə edirlər.

• Dil və qarşılıqlı təsir. Strukturistlərə görə, dillər bir-birinə qarşılıqlı təsir edərək inkişaf edir. Bu təsir, dilin mühitə və istifadəçilərin ehtiyaclarına uyğunlaşması ilə əlaqəlidir. Məsələn, bir dilin fonetik və sintaktik strukturları, digər dillərlə qarşılıqlı əlaqə və ya dilin tarixi inkişafı ilə dəyişə bilər.

• Dil sisteminin quruluşu. Strukturistlər dilin sistematik və strukturlaşdırılmış olduğunu vurğulayır və dilin qarşılıqlı təsirinin bu strukturların mübadiləsi ilə mümkün olduğunu iddia edirlər.

Generativ nəzəriyyə. Noam Chomsky tərəfindən inkişaf etdirilmiş və dilin universallığını və təbiətini izah etməyə çalışan bir yanaşmadır. Generativ nəzəriyyə dilin beyin tərəfindən necə yaradıldığını və bir insanın doğuşdan dil qabiliyyətinə malik olduğunu təklif edir.

• Dil və qarşılıqlı təsir: Generativ nəzəriyyəyə görə, dillərin qarşılıqlı təsiri insanın dil qabiliyyətinin nəticəsidir. Hər bir insan, bioloji olaraq, bir "universal dil strukturu"na malikdir və bu, dil öyrənmə prosesində müxtəlif dillərlə qarşılıqlı təsirə imkan yaradır. Bu nəzəriyyə, dillərin zamanla bir-birinə qarşılıqlı təsir etməsini, həm də beynin təbii dil öyrənmə qabiliyyətinin nəticəsi olduğunu müdafiə edir.

• Dil və genetik aspekt: Chomsky bu yanaşmada dilin, əslində, insanın bioloji təbiətinin bir hissəsi olduğunu vurğulayır. Bu nəzəriyyəyə görə, dilin müxtəlif strukturları, fərqli dillər arasında qarşılıqlı təsir nəticəsində yaranan dəyişikliklərdən daha çox, insan beyninin təbii xüsusiyyətlərindən qaynaqlanır.

Müqayisə:

• Strukturist yanaşma, dilin qarşılıqlı təsirini əsasən sosial və mədəni bir fenomen olaraq izah edir, yəni dillərin inkişafı və qarşılıqlı təsiri cəmiyyətin və mədəniyyətin tələbləri ilə əlaqələndirilir.

• Generativ yanaşma, daha çox dilin bioloji və koqnitiv aspektlərinə fokuslanır. Bu yanaşmaya görə, dillərarası qarşılıqlı təsir, beyin və təbii dil öyrənmə qabiliyyətinin nəticəsidir.

Bu iki yanaşma arasında əsas fərq, birincisinin dillərin inkişafını sosial və mədəni bir proses kimi izah etməsi, ikincisinin isə bunu bioloji və koqnitiv bir proses olaraq təqdim etməsidir. Hər iki yanaşma, dillərin qarşılıqlı təsirini anlamağa çalışan fərqli perspektivlər təqdim edir.

6. Koqnitiv nəzəriyyə. Koqnitiv nəzəriyyəyə görə, dilin öyrənilməsi və istifadəsi yalnız bir sosial əlaqə deyil, həm də insanların beynindəki məlumatları emal etmə və təşkil etmə metodlarıdır. Bu yanaşmaya əsasən:

1. Dil və zehni proseslər. Koqnitiv nəzəriyyəyə görə, dil insanın zehni və beyin funksiyalarının bir hissəsidir. İnsanlar dil vasitəsilə dünyanı anlayır, təcrübələri strukturlandırır və münasibətləri qururlar. Bu nəzəriyyə, dilin beynin və zehinin təbii funksiyası olduğunu qəbul edir.

2. Dil və qavrayış. Koqnitiv nəzəriyyə dilin qavrayış və anlamalardakı rolunu da vurğulayır. Məsələn, bir dilin söz və ifadələri, insanların dünyanı necə gördükləri ilə əlaqəlidir. Dil bir mənada insanların dünyaya dair anlayışlarını və zehni modellərini yansıdan bir vasitədir.

3. Qarşılıqlı təsir. Koqnitiv nəzəriyyə, dillərin qarşılıqlı təsirini yalnız bir-birini təkrarlayan və ya bir-birinə təsir edən strukturlar kimi deyil, beynin məlumatları necə təşkil etdiyini

əsas götürərək izah edir. Dillərin qarşılıqlı təsiri, dil öyrənən şəxsin zehni proseslərinin və anlayışlarının qarşılıqlı əlaqəsinin nəticəsi olaraq meydana gəlir.

4. İnteraktivlik. Bu nəzəriyyə dilin qarşılıqlı təsirinin aktiv və qarşılıqlı bir proses olduğunu təklif edir. İnsanlar bir-birinə danışarkən beyinlərindəki məlumatları qarşılıqlı şəkildə emal edir, dəyişir, təkmilləşdirir. Bu, dildəki məna və strukturların davamlı olaraq yenilənməsinə səbəb olur.

Koqnitiv nəzəriyyə dillərin qarşılıqlı təsirini, insanların zehni və düşüncə dünyalarının qarşılıqlı şəkildə dəyişməsinin və inkişafının bir nəticəsi kimi görür. Bu yanaşma dilin yalnız sosial və mədəni bir fenomendən daha çox, beynin və zehni proseslərin bir təzahürü olduğunu iddia edir.

Məqalənin elmi nəticəsi. Dillərin qarşılıqlı təsiri nəticəsində leksik, fonetik, qrammatik və semantik sahələrdə mühüm dəyişikliklər müşahidə olunur. Bu təsir həm dili zənginləşdirə, həm də müəyyən hallarda onun struktur bütövlüyünə təsir göstərə bilər. Dillərarası əlaqə, xüsusilə coğrafi yaxınlıq, iqtisadi, mədəni və siyasi münasibətlər fonunda daha da güclənir. Araşdırmalar göstərir ki, belə qarşılıqlı təsir nəticəsində yaranan alınma sözlər, hibrid ifadələr və struktur uyğunlaşmalar dilin inkişafında həm müsbət, həm də mənfi rol oynaya bilər. Bu fenomenin düzgün tədqiqi və idarə olunması milli dilin qorunması və inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

Məqalənin elmi yeniliyi. Dillərin qarşılıqlı təsiri mövzusunda yazılmış elmi məqalənin yeniliyi bir neçə aspektdə özünü göstərir.

1. **Yeni tədqiqat sahələri və yanaşmalar.** Məqalə dilin qarşılıqlı təsirini yeni və az tədqiq edilmiş cəhətlərdən araşdırır, məsələn, müəyyən bir coğrafi regionda və ya xüsusi dil qruplarında bu təsirin necə baş verdiyini ortaya qoyur.
2. **Praktiki tətbiqlər.** Dil kontaktlarının, xüsusilə çoxdilli cəmiyyətlərdə, sosial və mədəni təsirləri barədə yeni nəzəriyyələrin irəli sürülməsi. Bu, dilin sosial şəbəkələrdə, təhsil və əmək bazarlarında necə işlədiyini göstərən yeni yanaşmalar ola bilər.
3. **Yerli dillər və qlobal dillərin qarşılıqlı təsiri.** Məqalə az danışılan dillərin qlobal dillərlə (məsələn, ingilis dili) qarşılıqlı təsirini, onların necə dəyişdiyini və ya bir-birinə necə təsir etdiyini yeni bir şəkildə təqdim edir.
4. **Empirik tədqiqatlar.** Məqalə yeni empirik tədqiqatlar əsasında dillərin qarşılıqlı təsirini araşdırır, yenilikçi metodlardan istifadə edir, məsələn, müasir texnologiyalar və məlumat analizlərindən faydalanır.

Beləliklə, məqalənin elmi yeniliyi, dilin qarşılıqlı təsirinin yeni və daha dərindən tədqiqi, yeni metodlar, nəzəriyyələr və ya praktiki tətbiqlər ilə bağlıdır.

Məqalənin tətbiqi əhəmiyyəti: Bu araşdırma nəticəsində əldə edilən biliklər dil siyasətinin formalaşdırılmasında, tərcümə sahəsində, dil öyrətmə metodikalarının təkmilləşdirilməsində və lüğət tərtibatında geniş tətbiq oluna bilər. Xüsusilə, alınma sözlərin istifadəsi, adaptasiyası və dilə uyğunlaşdırılması prinsiplərinin müəyyən edilməsi milli dilin qorunması üçün vacibdir. Eyni zamanda, multikultural mühitdə dillərarası ünsiyyətin daha səmərəli təşkili və qarşılıqlı anlaşmanın gücləndirilməsi baxımından da mühüm praktiki əhəmiyyət daşıyır. Bu tədqiqat nəticələri həmçinin media, təhsil və ictimai kommunikasiya sahələrində də tətbiq edilə bilər.

Ədəbiyyat

1. Qurbanov, A. Ümumi dilçilik /A.Qurbanov. – Bakı, – c.2. – 2019. – 272 s.
2. Qurbanov, A. Ümumi dilçilik / A.Qurbanov. – Bakı, – c.3. – 2019. – 512 s.
3. Həsənova, C.F. İngilis dilinin lüğət tərkibinin zənginləşməsi yolları / C.F.Həsənova. – Bakı, – 118 s.
4. Nisslor, G. Man and Gulture / G.Nisslor. – N., V, – 1923.

M.Z.Hajizada

The Interaction of Languages in the Field of Vocabulary Composition

Summary

Language interaction is the study of how different languages interact, influence each other, and how this process affects language development. This interaction can lead to changes in the lexical, grammatical, and phonetic structures of a language. Different dialects of a language can interact with each other to produce new words, phrases, or grammatical structural changes. Interaction between languages can accelerate the development of a language. It can also lead to the creation of new structures or the modification of old ones.

Language interaction can strengthen intercultural communication and affect international communication and trade. This is one of the main factors affecting the process by which words in a language change and acquire new meanings.

Key words: *lexical, social-cultural exchange, integration, cognitive, generative, borrowings*

М.З.Гаджизаде

Взаимодействие языков в области словарного состава

Резюме

Взаимодействие языков – это область, изучающая, как разные языки взаимодействуют друг с другом, как они влияют друг на друга и как этот процесс влияет на развитие языка. Такое взаимодействие может привести к изменениям в лексической, грамматической и фонетической структурах языка. Различные языковые диалекты могут влиять друг на друга, приводя к появлению новых слов, фраз или грамматических структурных изменений. Взаимодействие между языками может ускорить развитие языка. В то же время это может привести к появлению новых структур или изменению старых структур.

Взаимодействие языков может усилить межкультурную коммуникацию, а также повлиять на международное общение и торговлю. Это один из основных факторов, влияющих на процесс изменения слов в языке и приобретения ими новых значений.

Ключевые слова: *лексический, социально-культурный обмен, интеграция, познавательный, порождающий, заимствованные слова*

Rəyçi: fil.f.d., dos. A.Ə.Quliyeva

Redaksiyaya daxil olub: 05.05.2025

S.M.HÜMBƏTƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru, müəllim
e-mail: sevinchumbtliyeva@gmail.com
:https://orcid.org/0009-0000-7215-439X

K.T.İBRAHİMOVA
müəllim
e-mail: ibragimovakonul74@gmail.com
:https://orcid.org/0009-0002-8896-8886

Azərbaycan Dövlət İqtisad Universiteti
(Bakı şəh., İstiqlaliyyət küç., 6)

İŞGÜZAR ÜNSİYYƏTDƏ PEŞƏ ETİKASI VƏ ETİKET QAYDALARI

Xülasə. *Nitq etikasının vacib məsələlərindən biri başqasını səbrlə dinləməyi bacarmaqdır. Başqasının nitqini yersiz replikalarda kəsmək, ona diqqətlə qulaq asmamaq mədəniyyətsizlikdir. Əlbəttə, zəruri hallarda başqasının sözünü kəsmək olar. Lakin bu mədəni qaydada edilməlidir. Sadalanan hallarda danışanın nitqinə müdaxilə etmək mümkündür – danışan bəhs etdiyi məsələdən çox uzaqlaşdıqda, eyni fikri yersiz olaraq dönə-dönə təkrar etdikdə, yaxud danışanı ruhlandırmaq, onun nitqini qüvvətləndirmək istədikdə. Birinci halda kobud bir şəkildə düz demirsən, çərənləmə, bir şeyi bilmirsən, danışma, vaxtımızı alma və s . kimi ifadələrdən istifadə etmək olmaz.*
Müəllimin diqqətlə qulaq asması və danışanın dediklərini nəzakətlə ifadə etməsi son dərəcə vacibdir. Məlumdur ki, şagird və tələbələr bir çox şeyi yeni öyrəndiklərindən dərhal başa düşə bilmirlər, natamam və səhv cavablar verirlər. Bu zaman müəllim onları "pis danışırsan, heç nə edə bilmirsən, utanmalısan, sadə şeyləri bilmirsən" kimi ifadələrlə ruhdan salmamalı, onları pis hiss etdirməməlidir. Şagirdi və ya tələbəni yenidən düşündürəcək sözlər demək lazımdır ki, ruhdan düşməsin.

Açar sözlər: *peşə etikası, dəqiqlik, etiket qaydaları, işgüzar ünsiyyət, nəzakət*

Giriş. Dünyada gedən qloballaşma, mədəniyyət və təhsildə inteqrasiya prosesləri, gənc mütəxəssislərin qazandıqları bacarıqlara yeni tələblər diktə edir. İnsan fəaliyyətinin bütün sahələrində işgüzar rabitə daha çox marağa səbəb olur, mütəxəssislərin və peşəkarların əlaqə qurmasında bir zərurətə çevrilir.

"Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənninin məqsədi bakalavrlara işgüzar ünsiyyətin nəzəriyyəsi və təcrübəsi sahəsində biliklər vermə, onların gələcəkdə peşəkar fəaliyyətlərini bu istiqamətdə formalaşdırmaq, inkişaf etdirməkdir. Ona görə də **bu fənni öyrənmək məqsədilə bakalavrlar aşağıdakıları bilməlidir:**

– fənnin əsas kateqoriya və anlayışlarını;
– işgüzar əlaqələrin nəzəri əsaslarını, onların əsas növlərini və vasitələrini;
– işgüzar ünsiyyəti, onun quruluşunu və prinsiplərini;
– kommunikativ prosesin psixoloji xüsusiyyətlərini və bu prosesin subyektlərinin növünü;
– rabitə prosesindəki münaqişələrin səbəblərini, növlərini, eyni zamanda onların konstruktiv və dağıdıcı nəticələrini;
– işgüzar əlaqədə yaranmış münaqişələrin idarə olunması üsullarını və onların həlli yollarını;
– işgüzar ünsiyyətin sənədli əsaslarını yerinə yetirməyi bilməyi;
– işgüzar ünsiyyətin psixoloji tərəfi haqqında bilikləri öz fəaliyyətlərində tətbiq etməyi;
– ünsiyyətin məqsədini və tərəfdaşın fərdi psixoloji keyfiyyətlərini nəzərə almaqla işgüzar sahədə münasibətlər qurmağı;

– işgüzar tərəfdaşlıq və əməkdaşlığın tələblərinə, prinsiplərinə, texnologiyalarına əsaslanaraq işgüzar tədbirlər (görüşlər, brifinqlər, danışıqlar, mətbuat konfransları, təqdimatlar və s.) təşkil etməyi;

– münaqişələrin qarşısını almağı və münaqişə vəziyyətində davranış üçün düzgün strategiya seçməyi;

– işgüzar əlaqələrin əsas sənədlərini bacarıqla tərtib etməyi və işgüzar yazışmalar aparmağı;

– işgüzar ünsiyyət texnologiyalarını, həmsöhbətlə əlaqə qurmaq üçün geniş ünsiyyət üsullarını, məxfi ünsiyyət mühiti yaratmağı, peşə fəaliyyətlərindən səmərəli istifadə üçün rəy təşkil etməyi;

– rabitə tərəfdaşının kimliyini bilmək üsullarını;

– yüksək səviyyədə psixoloji mədəniyyətlə işgüzar söhbətlər və danışıqlar aparmaq bacarığı;

– şəxslərarası və qruplararası münaqişələrin qarşısını almaq, zərərsizləşdirmək bacarığı;

– işgüzar ünsiyyətdəki münaqişələrin qarşısını almaq və həll etmək üçün psixologiya bilikləri;

– işgüzar ünsiyyətdə yazı bacarığı.

Peşə etikası və etiket qaydaları haqqında bir neçə söz. İşgüzar sferada qarşılıqlı əlaqə qaydaları cəmiyyətdəki insanın davranışına aşağıdakı tələbləri daxil edir. Gordon E.M, Kraylova öz məqalələrində qeyd edirlər: "*Dəqiqlik (hər şeyi vaxtında etmək)".* Yalnız hər şeyi vaxtında edən bir insanın davranışı normativdir. Tələsiklik bir insana etibar edə bilmədiyiniz bir işarədir. Hər şeyi vaxtında etmək prinsipi bütün iş tapşırıqlarına aiddir. İş vaxtının təşkili və bölüşdürülməsini öyrənən mütəxəssislərin fikrincə, təyin olunmuş işi yerinə yetirmək üçün tələb olunan müddətə əlavə 25% əlavə etmək məsləhət görülür.

Dəqiqlik və dürüstlük hər bir insanı yalan, saxtakarlıq, oğurluq və aldatmaqdan çəkinməyə məcbur edən normalardır [1, p.18-24].

Kaushanskaya V.L., Kovner R. L., "A Grammar of teh English Language" dərsliyində qeyd edirlər: "Ümumiyyətlə, dəqiq və dürüst bir insan əxlaqi prinsipləri olan bir insan olaraq qəbul edilir. İnsan bilərəkdən aldatmamalı və ya başqalarını və özlərini aldatmağa çalışmamalıdır. Həqiqi mənəvi bir dilemma ilə üzləşdiyi təqdirdə və vəziyyətə əsaslanan seçimi etdikdə (məsələn, insan həyatını xilas etmək üçün planlı hücumun düşməninə bildirməməyi) və ya iki pisliyin ən kiçiyini seçmək (yalan danışmaqla məxfiliyi qorumaq) yalnız bundan sonra yalan mümkündür. Dəqiqlik və dürüstlük riyakarlığın əksidir. Dostunu həkimə aparacağını vəd edən bir adam gəzməyə çağırılarsa, verdiyi vədi yerinə yetirməlidir [2, p.114.].

Məxfilik (artıq danışmamaq, çox danışmamaq). Bir qurumun, korporasiyanın və ya müəyyən əməliyyatın sirləri şəxsi sirr qədər diqqətlə saxlanılmalıdır. Həmkarlarının, menecerlərinin və ya tabeçiliyində olanların karyeraları və ya şəxsi həyatları ilə bağlı eşitdiklərini heç kimə söyləməyə ehtiyac yoxdur".

Nəzakət və dostluq. Hər vəziyyətdə müştərilərlə və iş yoldaşları ilə nəzakətlə, mehribanlıqla davranmaq lazımdır. Ancaq bu, vəzifə başında ünsiyyətdə olan hər kəslə dost olmağın zəruriliyi demək deyil.

Başqalarına diqqət yetirin (yalnız özünüzü deyil, başqalarını da düşünün). Başqalarına diqqət həmkarlarına, xidməti olan şəxslərə və tabeliyində olanlara şamil edilməlidir. Başqalarının fikirlərinə hörmətlə yanaşın, bu və ya digər baxımdan inkişaf etdiklərini başa düşməyə çalışın. Həmişə həmkarların, rəhbərlərin və tabe olduqlarınızın tənqid və tövsiyələrini dinləyin. Kimsə işinizin keyfiyyətini soruşduqda, digər insanların düşüncə və təcrübələrini qiymətləndirdiyinizi göstərin. Özünə inam təvazökar olmağınıza mane olmamalıdır.

"Müasir Azərbaycan dili" dərsliyində yazılır: "*Görünüş (gözlənildiyi kimi geyim).* Əsas yanaşma iş mühitinizə və bu mühit daxilində, səviyyənizdəki işçilər kontingentinə uyğunlaşmaqdır. Zövqlə geyinmək lazımdır. Diqqətlə seçilmiş aksesuarların böyük əhəmiyyəti var. Bununla bağlı müəyyən qaydalara riayət etmək də vacibdir [3, s.221].

Savadlılıq (yaxşı dildə danışın və yazın). Müəssisədən kənara göndərilən daxili sənədlər və ya məktublar yaxşı və səhvsiz olmalıdır.

Ədalət. Hisslər ilə əlaqələndirmədən və ya münaqişədə bu və ya digər tərəfə üstünlük vermədən maraqlar tarazlığını qorumaqdır. Ədalət obyektivlik və ya qərəzsizlik deməkdir.

Aristotelə görə, işgüzar ünsiyyətdə ədalətin əsas meyarı "mütənasib bərabərlik" prinsipidir. Bu prinsipə görə, "çox əziyyət çəkən çox qazanar, az zəhmət çəkən az qazanar".

Hörmətlə yanaşmaq. Bu, insanın diqqət və nəzakətinin, eləcə də hüquqlarına hörmətin təzahürüdür. Sərvət, mövqe ünsiyyətə təsir etməməlidir. Qarşı tərəfə hörmət göstərilməli, qarşı tərəfin fikrinin fərqli olmasına baxmayaraq, onu başa düşməyə çalışmaq lazımdır [4, s.123-134].

Nəticə: İşgüzar ünsiyyətdə davranışı idarə edən və tənzimləyən fəndlər**:** Başqa bir insanın davranışını idarə etməyə və öz davranışınızı tənzimləməyə imkan verən bir neçə fənd vardır:

a) Eyniləşdirmə – özünüzü başqa bir insana bənzətmək, tərəfdaşın daxili vəziyyətini fərz etmək və özünü onun yerinə qoymağa çalışmaq. Bu, insanın emosional vəziyyətini başa düşməyə, düşündüyünü və hiss etdiyini güman etməyə imkan verir. Şəxsiyyət əsasında empatiya yaranır – empatiya şəklində başqa bir insanın emosional vəziyyətini dərk etmək bacarığı üzə çıxır.

b) İnfeksiya (yoluxmaq) – bir insanın müəyyən zehni basqılara huşsuz, məcburi şəkildə məruz qalması kimi təyin edilə bilər. Təcrübə ilə müəyyən edilmişdir ki, şəxsiyyətin inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, onun məruz qalma ilə əlaqəsi bir o qədər zərif olur və bununla da "infeksiya" mexanizminin təsiri zəifləyir.

c) Təklif – bir insanın digərinə qəsdən əsassız təsiridir. Təklif veriləndən sonra məlumatın ötürülməsi prosesi onun tənqidi qəbul edilməsinə əsaslanır. Zəhmli bir təsirə müqavimət fenomeni əks təklif adlanır.Təklif olunan davranış nümunələrinin mənimsənilməsindən bəhs etdiyimiz üçün iki təqlid planı var: ya konkret bir insan üçün, ya da qrup tərəfindən hazırlanan davranış normaları.

d) Məhkumluq – məlumatı alan şəxsdən razılıq əldə etmək üçün məntiqi əsaslandırmanın köməyi ilə əldə edilməsinə əsaslanır.

e) İnam – öz tənqidi qərarına müraciət etməklə fərdin şüuruna intellektual təsirdir**.**

f) Təqlid – yoluxma və təklifdən fərqli olaraq, yalnız bir insanın davranışının xüsusiyyətlərini, ya da qrupun xüsusiyyətlərini və görünüşlərini əks etdirməsidir.

Elmi yenilik: işgüzar karyeranın idarə edilməsi və işgüzar əlaqələrin *iyerarxiyasının tədqiq edilməsi və onun elmi* cəhətdən araşdırılması təşkil edir.

Bu baxımdan iş etiketinə iki qrup qaydalar daxildir: a) eyni komandanın bərabər üzvləri (üfüqi) arasında əlaqə sahəsində tətbiq olunan normalar liderə tabe olan (şaquli) təmasın xarakterini müəyyən edən normalar; b) iş ortaqları ilə bir sosial statuslu insanlar arasında ünsiyyət daha sərbəstdir, insanın mədəni davranışının ümumi tələblərinə, ünsiyyətin korporativ prinsiplərinə uyğun gəlir.

Tətbiqi əhəmiyyəti: Unutmamalıyıq ki, işgüzar ünsiyyətdəki sosial status hüquqi şəxs adından qərar vermək səlahiyyəti ilə sıx bağlıdır. İşgüzar ünsiyyətdə, xüsusən idarəçilərin və tabeliyindəki şəxslərin qarşılıqlı əlaqəsində bu təsir üsulları istifadə olunur: **təşviq, tənqid, cəza.** Təşviq üçün əsas etik tələblər layiq olduqları işin keyfiyyətinə və effektivliyinə mütənasibdir [6, s.149]. Tənqid tabeçiliyində olanların və ya həmkarlarının fəaliyyətindən narazılığın ən geniş yayılmış formasıdır. Tənqid obyektiv olmalıdır. Yəni mənfi bir hərəkətin, təcrübəsiz və ədalətsiz bir işin müqabilində olmalıdır. Məqsəd işçiyə inam aşılamaq, bacarıq və qabiliyyətini inkişaf etdirmək, işə səfərbər etməkdir. Cəza töhmət, cərimə, yerdəyişmə, işdən azadetmə şəklində həyata keçirilə bilər. Cəzaların əsas etik tələbi sistemli və yol verilən nöqsanlara görə qaçılmaz olmasıdır [7, s.32].

Ədəbiyyat

1. Gordon, E.M. Madality in Modern English / E.M.Gordon, I.P.Kraylova. – M, – 1968. – p.18-24.
2. Kaushanskaya, V.L. A Grammar of teh English Language / V.L.Kaushanskaya, R.L.Kovner, – Leningrad, – 1973. – p.114.
3. Müasir Azərbaycan dili: [4 cilddə], – Bakı: Elm, – c.2. –1980, – s.221.
4. Hüseynzadə, M. Müasir Azərbaycan dili / M.Hüseynzadə, – Bakı, – 1973. – s.123-134.
5. Cavadov, M. Modallığa dair bəzi qeydlər / M.Cavadov, – Azərb.EAxəbərləri, – 1959. – s.149.
6. Əlizadə, Z. Müasir Azərbaycan dilində modal sözlər / Z.Əlizadə, – Bakı: Maarif, – 1965, – s.155.
7. Budaqova, Z. Müasir Azərb. ədəbi dilində sadə cümlə / Z.Budaqova, – Bakı – 1963. – s.32.

S.M.Humbataliyeva, K.T.Ibrahimova

Professional Ethics and Rules of Etiquette in Business Communication

Summary

One of the important issues of speech etiquette is the ability to listen patiently to another person. It is impolite to interrupt someone else's speech with inappropriate comments and to listen inattentively. Of course, if necessary, you can interrupt someone else. But you should do it in a civilized manner. You can interrupt a speaker's speech in the following cases. When the speaker goes too far off topic, when he repeats the same thought over and over again without any reason, or when he wants to encourage the speaker or strengthen his speech. In the first case, you should not use expressions such as "You are not telling the truth", "Don't be rude", "You don't know anything", "Don't talk", "You are wasting our time", etc.

Key words: *professional ethics, punctuality, etiquette, business communication, politeness*

С.М.Гумбаталиева, К.Т.Ибрагимова

Профессиональная этика и правила этикета в деловом общении

Резюме

Одним из важных вопросов речевого этикета является умение терпеливо слушать другого человека. Невежливо прерывать чужую речь неуместными замечаниями и невнимательно слушать. Конечно, при необходимости вы можете прервать кого-то другого. Но делать это нужно цивилизованно. Прерывать речь оратора можно в следующих случаях. Когда говорящий слишком далеко отходит от темы, когда он снова и снова повторяет одну и ту же мысль без всякой причины или когда он хочет подбодрить говорящего или усилить его речь. В первом случае не следует употреблять такие выражения, как «Вы говорите неправду», «Не грубите», «Вы ничего не знаете», «Не разговаривайте», «Вы отнимаете у нас время» и т. д.Чрезвычайно важно, чтобы преподаватель внимательно слушал и культурно выражал свое отношение к тому, что говорит выступающий.

Ключевые слова: *профессиональная этика, пунктуальность, правила этикета, деловое общение, вежливость*

Rəyçi: filol.f.d., dos. R.Cəfərov

Redaksiyaya daxil olub: 06.05.2025

L.A.HÜSEYNOVA
baş müəllim
e-mail: q-lala-5@hot mail.ru
:https://orcid.org/0009-0004-1214-5941

Z.Ə.MƏMMƏDOVA
müəllim
e-mail: zemfiramamedova1948@gmail.com
:https://orcid.org/0009-0007-5176-1744

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., S.Vurğun, 157)

MÜASİR İNGİLİS DİLİNDƏ PREFİKS VASİTƏSİLƏ YARANAN TÖRƏMƏ FEİLLƏRİN AZƏRBAYCAN DİLİNDƏ İFADƏSİ

Xülasə. *Qədim və orta ingilis dilində prefikslər feillərin sözyaradıcı elementi kimi geniş işlədilir. Feillərin tərkibində prefikslərin müstəqil leksik mənasının müşahidə olunacaq dərəcədə itirildiyini və nisbətən daha ümumi məna kəsb etdiyini müşahidə etmişik. Müasir ingilis dilində prefikslə düzələn çoxlu feillər var ki, onlar müxtəlif sinfə ayrılaraq başqa-başqa mənalar kəsb edirlər. Bir sıra Avropa dilləri ilə müqayisədə ingilis dilinin feil düzəldən prefiksləri bir qədər çox leksik xarakterə malikdirlər və bildiyimiz kimi Avropa dillərində prefikslər müəyyən qrammatik funksiya daşıyırlar.*

Açar sözlər: *ingilis dili, Azərbaycan dili, prefiks, feillər, inkişaf*

Giriş. Dilsiz insan cəmiyyətin olmamasıdır və belə bir cəmiyyət təsəvvür etmək qeyri-mümkündür. Dildə **mövcud** olan bütün əlamət və xüsusiyyət, məna rəngarəngliyi, söz ehtiyatı, sözlərin məna və məzmun müxtəlifliyi, onların yaranması prosesinə, formalaşmasına, əlaqə və münasibətlərinə xidmət edən bütün dil ünsürləri təfəkkürümüzlə bağlı olub, onun fəaliyyətinin göstəricilərindən ibarətdir.

Bu baxımdan, müasir dilimizdə və müasir ingilis dilində tarixi inkişafı nöqteyi-nəzərdən və forma etibarlığı ilə oxşarlığı cəhətdən yaxınlığı olduğu kimi, ümumi cəhətləri də çoxdur.

Müasir ingilis dilində söz yaradıcılığı baxımından bir çox prefikslər mövcuddur. Prefikslər haqqında danışarkən onların suffikslərdən fərqli olaraq bir nitqdən digərinə keçmək imkanına malik olmaları və yalnız sözün leksik mənasını dəyişdirməyə xidmət etmələri faktı tez-tez vurğulanır. Bəzi müəlliflər bu fikri qəti şəkildə bildirirlər. Məsələn: İ.S.Mixaylov bu barədə deyir: “Prefikslərlə suffikslər arasında prinsipal fərq mövcuddur. Bu yalnız suffiksin sözün kökünə, prefiksin isə sözün əvvəlinə qoyulmasından ibarət deyil. Əsas fərq ondan ibarətdir ki, suffikslər bu və ya digər nitq hissələrinin kökünə birləşərək onları müxtəlif qrammatik kateqoriyalara aid edə bilər, halbuki prefikslər bu iqtidara malik deyildir”. Həmçinin tam şəkildə ifadə edilmiş fikirlər də vardır. Məsələn: İ.V.Arnold prefiksləri “öndə gələn və sözün leksik mənasını dəyişən, ancaq əksər hallarda onun bu və ya digər leksik-qrammatik sinfi mənsubluğa təsir etməyən sözdüzəltmə morfemləri” adlandırır. Bu fikir doğrudur: prefikslərin böyük əksəriyyəti başqa nitq hissəsinə keçmək qabiliyyətinə malik deyildir, ancaq bunu ingilis dili prefikslərinin təsnifatında müvafiq olaraq qeyd etmək mümkün deyildir, belə ki onların tərkibində bir hissəsini başqa bir nitq hissəsinə keçmək qabiliyyətinə malik olan kifayət qədər çoxlu miqdarda prefiks vardır.

1. Nitq hissəsini dəyişdirə bilən prefiks;
2. Nitq hissəsini dəyişdirə bilməyən prefiks.

V.L.Kaushanskaya, R.L.Kovner prefikslər haqqında danışarkən qeyd edirlər: "Prefikslər vasitəsilə düzələn törəmə feillər içərisində bir sıra sinonim prefikslərə də rast gəlinir: məsələn, **de-, dis-, mis-, un-.** Bu prefikslər törətdikləri feillərə hərəkət və ya əks məna verirlər: to minusderstand, to mistrust, to misuse, to undertake, to underline, to overcome, to overlook, to unrise, to untie, to unpack, to uphold, to repay və s. Bu prefikslər arasında **over-, under-** kimi antonym prefikslər qrupu təşkil edənlərə də rast gəlmək olur" [1, p.106].

"Müasir Azərbaycan dili" dərsliyində feil düzəldən ön şəkilçilərdən danışılarkən onun doqquz növü göstərilir. Feil düzəldən ön şəkilçilərdən danışarkən biz ön şəkilçilərinin nitq hissəsini dəyişə bilən və bilməyən xüsusiyyətlərini nəzərdən qaçırmamalıyıq. Çünki feil düzəldən ön şəkilçilərin bəziləri hər hansı bir nitq hissəsinə artırılaraq onu dəyişdirir, bəziləri isə dəyişdirmir [2, s.21-34].

Bu baxımdan aşağıdakı modellər yaranır: 1) Nitq hisslərini dəyişə bilən ön şəkilçiləri; 2) Nitq hissələrini dəyişə bilməyən ön şəkilçiləri.

Nitq hissələrini dəyişə bilən ön şəkilçiləri: **Be+n=v**. Bu modellərin aşağıdakı semantik xüsusiyyətləri var: 1) Əsasın ifadə etdiyi obyekti öyrənmək, əhatə etmək, təmin etmək, məsələn, cloud-becloud (buludla əhatə etmək); 2)Əsasını ifadə etdiyini bir şeydən məhrum etmək. Məsələn, slave – beslave (kölə etmək, nökər etmək); 3)Hərəkətin gücləndirilməsi, intensivliyi, tamlığı, artıqlığı, mənası. Məsələn: to bebait – to bait or worry persistently, to bebreech – to breech soundly; 4)Əsasın göstərdiyi kimi etmək, həmin əlaməti və ya keyfiyyəti vermək mənasında. Bu halda **"be"** prefiksi əsasən isim və sifətlə birləşir.

Feillərin düzəldilməsinin bu tipi canlı və məhsuldar tip hesab olunur. Məsələn: to bedim – to make dim, to befoul – to make little, to be fool – to make a fool, tobeblind – to make blind.

Prof. Muxtar Hüseynzadə ön şəkilçilərdən yazır: "Müasir dövrdə konversiyanın inkişafı ilə əlaqədar olaraq **"be"** prefiksinin rolu xeyli azalıb. "**Be**" prefiksi ilə olan sözlərin tarixi və etimologiyası bunu bir daha sübut edir ki, onların əksəriyyəti qədim və orta ingilis dövründə yaranıb. **De+n=v** – Bu model aşağıdakı semantik xüsusiyyətə malikdir. Əsasın ifadə etdiyi əşyadan məhrum etmək. Məsələn: pasture – to depasture (to deprise of pasture). Son zamanlar bu mənanı ifadə edən bir sıra feillər yaranmışdır. Məsələn, de-sting; de-beak

1) It didn't seem real and it depressed him. (The Path of Thunder, p.61)

2) She would be sure to make a scene and he **detested** scenes of every kind. (The picture of Dorian Grey, p.94) [3.s.123-133].

Dis+n=v – Semantik xüsusiyyəti:yox etmək, məhrum etmək, figure – to disfigure. Nadir hallarda bu ön şəkilçisi "hissələrə bölmək" mənasını ifadə edir. Məsələn, member – dismember.

1) Martin Eden took a bath, after which he found that the head of laundryman had disappeared. (Martin Eden, p.142) To say that Lester was greatly disheartened by this blow is to put it mildly. (Gennie Gerhardt, p.271).

En+n=v – emantik xüsusiyyətləri:

1) Əsasın ifadə etdiyi əşyaya yerləşdirmək. O.Espersen aşağıdakı sözləri misal gətirir: camp-encamp, cage-encage, box-embox, cloud-encloud

2) Əsasın ifadə etdiyinə çevirmək. Məsələn, cash – encash

1) "I will certainly **encourage** them". (The picture of Dorian Grey,p.99)

2)**He** was fully entitled by reason of his birth.(The picture of Dorian Grey, p.52).

Out +n=v – Semantik xüsusiyyəti: Əsasın ifadə etdiyindən kənara çıxmaq. Məsələn, outrage, outdistance və s. She seemed **outraged** at the thought of him sleeping on the floor (The path of Thunder, p.83).

Un+n=v – bu model aşağıdakı semantic xüsusiyyətlərə malikdir:

1) Əsasın ifadə etdiyi əşyadan azad etmək, məhrum etmək. Məsələn: cage–uncage (qəfəsdən azad etmək), chain – unchain (zənciri açmaq).

2) Əsasın ifadə etdiyi əşyadan çıxartmaq, azad etmək. Məsələn: carth – unearth (yerdən çıxartmaq).

Un ön şəkilçisi təkcə isimlərdən yox, feillərdən də feil düzəldir. Bu zaman bu model yaranır: **Un+v=v**. 1. Miss miller helped me to **undress** (Jane Eyre, p.20). 2. She **unlocked** a cupboard and brought out a good – sized cake. (Jane Eyre,p.33)

Be=A=V – semantic xüsusiyyət.

M.Cavadov prefikslər haqqında qeyd edir: Əsasını ifadə edən prefikslər:. Məsələn: dim-bedim (tutqunlaşdırmaq), little-belittle (balacalaşdırmaq), 1. In the meantime, Billl had **bethought** himself of the rifle. (White fang, p.115). 2. Then he sawthat no harm befell the dogs that were near tothem, and he came in closer (White Fang, p.204) [4, p.15-22].

En+A=V-Semantik xüsusiyyət: Əsasını ifadə etdiyi vəziyyətə gətirmək. Məsələn: feble – enfeeb (zəiflətmək).

En+V=V – Semantik xüsusiyyət: Adətən feilə gücləndirici məna verir. Məsələn: close – enclose: Light-enlighten. 1. They should be encould be encouraged to suffer hunger without complaint (Jane Eyre, p.29). 2. I learnt for the first time to take pleasure in fine scenery? In the hillsthat enclosed our wouded vallery. (Jane Eyre, p.34).

3) Nitq hissələrini dəyişə bilməyən ön şəkilçiləri: Un+V=V;Un prefiksi feillərə qoşularaq əks hərəkət ifadə edir. Məsələn: to cover (örtmək) – to uncover (üstünü açmaq), to behind (əyilmək) – to unbehind(qalxmaq), to shoe (ayaqqabı geyinmək) – to unshoe (ayaqqabını soyunmaq), to fasten (bərkitmək, bağlamaq) – to unfasten (açmaq). 1. I dressed unfastened the door with a trembling hand/and opened it.(Jane Eyre, p.55); 2. He unstopped the mast and furled the sail and tied it. (The Pld Man and the Sea, p.95); Öz mənalarına görə **"un"** prefiksi ilə əmələ gələn feillər 2 böyük semantik qrupa bölünür: 1) Hərəkət bildirən insan əlinin köməyi ilə həyata keçirilə bilən feillər və ya onları əvəz edən düzəltmə sözlər. Bu feillər aşağıdakı mənaları ifadə edir: a) birləşdirmək, yapışdırmaq: to bind (bağlamaq), to buckle (kəmərləmək), tobrace (bağlamaq), button (düymələmək), to clasp (qucaqlamaq), to fold (qatlamaq) və s. But he **untied** the harpoon rope from the bitt and passed it through the fishs gills (The Old Man and the Sea, p.79). b) burmaq, bələmək, sarımaq: to coil (burulmaq), (spiralvari)to curl **burmaq** to furl **sarımaq** to coil **burulmaq** (spiralvari), to curl **burmaq**, to **furl sarımaq**, **qatlamaq**, to roll **yumurlamaq,** to **link əlaqələndirmək**, **bağlamaq**.

Nəticə. Müasir ingilis dilində roman dillərindən keçmiş ***dis***- prefiksi ilə başlayan çoxlu sayda feillərə rast gəlinir. ***Dis***- prefiksi sözün əsasını ifadə etdiyi mənaya əks olan məna ifadə edir. Onların bəziləri öz inkişafı dövründə yeni məna kəsb edərək mənalarını dəyişiblər. Məsələn, 1.It was discovered in the strangest way. (Jane Eyre,p.143). 2.The dark cloud of blood had settled and dispersed in the miledeep sea (The Old Man and the Sea,p.82). ***Mis***- prefiksinə bütün german dillərində rast gəlinir. Qədim ingilis dilində çatışmazlıq, itki, yoxluq, yanlış, səhv hərəkətləri ifadə etmək üçün feillərə qoşularaq işlədilirdi. Müasir ingilis dilində yayılmış səhv, pis mənasını ifadə edən feili prefiks ***mis***- prefiksidir. Məsələn, to misname – "düzgün adlandırmamaq", to mistake – "səhv etmək", to miscall – "düzgün çağırmamaq", to miscount – "düzgün saymamaq", to misunderstand – "səhv başa düşmək" və s.

Elmi yenilik: Məqalədə elmi yenilik əqli və ruhi anlayışları ifadə edən feillərin semantik qrupa daxil olan feillər qrupunda azlıq təşkil etməsinin sübuta yetirilməsidir. Məsələn: 1. I dislike you the worst of anyone in the world, except John Reed: (Jane Eyre,p.15). 2.Martin took a bath,after which he found that the head of laundryman had disappeared (Martin Eden, p.142). Bölgü mənasının əsas tərkib hissələrinə bölünmə nənası belədir: to connect birləşdirmək – to disconnect ayirmaq, tom join qoşulmaq ,birləşmək – to disjoin bölünmək və s. 4) Nədənsə məhrum etmək mənası: to disrank "rütbədən məhrum etmək", to disclaim "öz hüquqlarından imtina etmək, tanımamaq" və s.

Tətbiqi əhəmiyyəti: Məqalədən ali və orta təhsil müəssisələrində ingilis dilini öyrənən şagirdlər və tələbələr, həmçinin bakalavr və magistr səviyyəsində çalışan müdavimlər yararlana bilərlər.

Ədəbiyyat

1. Kaushanskaya, V.L. A Grammar of teh English Language / V.L.Kaushanskaya, R.L.Kovner. – Leningrad, – 1973. – p.106.
2. Müasir Azərbaycan dili: [4 cilddə], – Bakı: Elm, – c.2. – 1980, – s.21-34.
3. Hüseynzadə, M. Azərbaycan dilində ön şəkilçiləri / M.Hüseynzadə, – Bakı: Maarif. – 1973. – s.123-133.
4. Cavadov, M. Prefikslərə dair bəzi qeydlər // Xəbərlər, № 2, – 1959. – s.15-22.

L.A.Huseynova, Z.A.Məmmədova

Expression in the Azerbaijani Language of Derivative Verbs Formed by the Precipice in Modern English

Summary

In Old English and Middle English, prefixes were widely used as word-forming elements of verbs. We have noticed that the independent lexical meaning of prefixes in verbs has been noticeably lost, and they have acquired a relatively more general meaning. In Modern English, there are many verbs formed with the help of prefixes, which are divided into different classes and have different meanings. Compared to a number of European languages, English verb-forming prefixes have a slightly more lexical character, and as we know, prefixes in European languages have a certain grammatical function.

Key words: *English, Azerbaijani, prefixes, verbs, devlopment*

Л.А.Гусейнова, З.А.Мамедова

Выражение в азербайджанском языке производных глаголов, образованных приставкой в современном английском языке

Резюме

В древнеанглийском и среднеанглийском языках префиксы широко использовались в качестве словообразовательных элементов глаголов. Мы заметили, что самостоятельное лексическое значение приставок в глаголах заметно утрачено, и они приобрели относительно более общее значение. В современном английском языке существует множество глаголов, образованных с помощью префиксов, которые делятся на разные классы и имеют разные значения. По сравнению с рядом европейских языков, английские глаголообразующие префиксы имеют несколько более лексический характер, а как мы знаем, префиксы в европейских языках несут определенную грамматическую функцию.

Ключевые слова: *Английский яазык, Азербайджанский яазык, префиксы, глаголы*

Rəyçi: filol.e.d., dos. Y.Süleymanov

Redaksiyaya daxil olub: 06.05.2025

J.S.İSMAYILOVA
e-mail: jale.ismailova@bk.ru
:https://orcid.org/0009-0005-5092-6666

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

10.62021/0026-0028.2025.2.048

İNGİLİSDİLLİ MƏTBUAT HAQQINDA ÜMUMİ MƏLUMAT

Xülasə. *İngilisdilli mətbuat ünsiyyətin mühüm bir hissəsidir və əsrlər boyu böyük inkişaf keçmişdir. 17-ci əsrdə yaranan bu mətbuat növü, sosial və siyasi müzakirələrin vacib bir elementi halına gəlmişdir. Mətbuat üslubunun inkişafı dövrün texnoloji yenilikləri ilə sıx əlaqəlidir, çap aparatının icadından tutmuş, teleqrafların və fotoların xəbərdarlıqda istifadəsinə qədər. 19-cu əsrdə müstəqil qəzet sistemi formalaşdı və gündəlik qəzetlərin yaranması ictimaiyyətin məlumatlara daha rahat çatmasına səbəb oldu. Bugünkü gündə qəzetlər ictimai rəyin formalaşmasında və cəmiyyətin dəyişmələrinin əks olunmasında hələ də böyük rol oynayır və hər bir nəşr özünəməxsus dil üslubunu inkişaf etdirir.*

Açar sözlər: *publisistik üslub, qəzet dili, informasiya, kommunikasiya, mətbuat*

Ünsiyyətin praqmatik aspekti cəhətdən müəyyənləşən mətn tipləri **dilin funksional üslubları** adlanır. Bu üslublar dilin şifahi və yazı müxtəlifliklərini, standart dil anlayışını əhatə edir. Funksional üslub bədii dil üslubunu, publisistik üslubu, elmi üslubu, rəsmi sənədlərin dili üslubunu və mətbuat dili üslubunu birləşdirir.

Publisistik üslub 18-ci əsrin ortalarında yaranıb. Danışıq növü olan **natiqlik dili** də bu üsluba aiddir. KİV-in inkişafı ilə radio və televiziya dili, sonralar isə esse, qəzet və jurnal məqalələri formalaşıb. Publisistik üslubun məqsədi ictimaiyyətin fikrinə təsir etmək, oxucunu və ya dinləyicini inandırmaq və verilən fikri qəbul etdirməkdir. Bu onu digər üslublardan fərqləndirir.

Bu üslub həm **elmi üslub** kimi məntiqi struktura, həm də **bədii üslub** kimi emosionallığa malikdir. **Mətbuat üslubu** isə yaranmasına görə sonuncudur və ingilis mətbuat dili 17-ci əsrə aiddir. Mətbuatın öz üslubunu yaratması bir əsrdən çox çəkmişdir. 19-cu əsrdə müstəqil mətbuat dili sistemi formalaşmışdır. Mətbuat üslubu ictimai-siyasi ədəbiyyatın, dövrü mətbuatın və natiq nitqinin canlı ifadəçisidir. Mətbuat dilinin öyrənilməsi dilin inkişafına da töhfə verir. Qəzet materiallarının **məzmunca inandırıcılığı** və **üslubu** mühüm təbliği əhəmiyyət daşıyır [1, s. 178].

Publisistik üsluba aid mətnlər mövzu, dil materiallarının seçimi və janr müxtəlifliyi ilə fərqlənir. Bu üslub sənədlər, faktlar və statistik göstəricilər əsasında qurulur. **Dil bu faktları təhlil edir, araşdırır və qiymətləndirir.**

Qəzetlər həmişə gündəmdə olub. İlk Britaniya qəzetindən bu günə qədər qəzet dilində və strukturunda böyük dəyişikliklər baş verib. Hər qəzetin özünəməxsus dili var. Conboy (2010) deyir: "Qəzetin dili onun alıcı auditoriyası ilə birbaşa bağlıdır".

Cotter (2010) yazır: "Məntiqilik, anlaşıqlıq və lokoniklik qəzet dilinin əsas xüsusiyyətləridir". Qəzet dilinin əsas funksiyası **kommunikativlik** və **təsir funksiyasıdır.** Bu dil ədəbi dildə baş verən proseslərlə bağlı öyrənilir.

V.M.Belkin müasir ərəb mətbuatının dilindən bəhs edərkən yazır: "Qəzet dili seçici xarakter daşıyır... təqdim edir".

Müasir şəraitdə mətbuat sözlərin bir dildən digərinə miqrasiyasında mühüm vasitəçidir. Müasir mətbuatın dili informasiya-praqmatik funksiyanı yerinə yetirir, terminologiya və nominasiya üçün geniş imkanlar açır.

Galperin qeyd edir ki, müasir ingilis qəzetləri müxtəlif xarakterlidir... da görə bilərik.

Yalnız məlumatlandırmaq funksiyası daşıyan və qəzet üslubuna xas olan materiallar qəzet dili nümunəsi sayıla bilər. Xəbər xülasəsinin əsas funksiyası oxucunu məlumatlandırmaqdır. Burada dəqiq, emosional olmayan qeydlər işlənir, dili neytraldır. Amma kütləvi qəzetlərdə bu prinsipdən yayınmalar olur.

Qəzet yazılarında istifadə olunan lüğət tərkibi neytral və ümumi ədəbi dildir. Crystal bu məsələ ilə bağlı bir neçə fikir qeyd edir:

1) dəqiqliklə göstərilmiş fakt, vaxt, yer; 2) subyekt mənbənin dəqiqliyi; 3) ilk paraqrafda başlanğıc və yekun; 4) subyektlərin kateqoriyası; 5) qəzet başlığının canlılığı.

Qəzet başlığı oxucu cəlb etmək üçün vacibdir. Məhdud yerə görə ixtisar, mətnaltı mənalar, qeyri-aydın sözlər istifadə olunur. Qəzet üslubunda standart və qeyri-standart söz sırası mümkündür: mübtəda+xəbər və ya xəbər+mübtəda. Zərfliklər əvvəldə və ya sonda gələ bilər.

Mairə görə, qəzet dilinin üç xüsusiyyəti var:

1) danışıq dili sözləri; 2) demokratiklik; 3) müasir texnologiya.

Jurnalistik üsluba tam tərif mübahisəlidir. Crystal və Davy bildirir ki, qəzetlər ziddiyyətli fikirləri birləşdirir. Müəlliflər fərqli mövzularda (siyasət, biznes, idman və s.) yazır. The Guardian, the Independent və the Daily Express kimi qəzetlərin fərqli üslubları var [6].

Raeh belə hesab edir ki, qəzet üslubunda daha çox işlənə bilər: təkrarlar (the MP said, the MP said); sinonimlər; antonimlər; istinadlar. Bu zaman ilk istinad daha dolğun detallı olmalıdır. (Məsələn, the first reference English football star David Beckham, the second reference David Beckham, the third one he. 1-ci istinadda tam İngiltərənin məşhur futbol ulduzu David Beckham, 2-ci də isə sadəcə olaraq, David Beckham, artıq 3-cü də isə yalnız "o" şəkilində verilir).

İngilisdilli mətbuatın inkişaf tarixi [2, s.170-171]

İlk qəzet (ZEİTUNG) 1609-cu ildə Almaniyada çap olunmuşdur. İngilisdilli mətbuat üslubu isə 19-cu əsrin ortalarında formalaşmışdır. Bu zamana kimi mətbuat üslubu uzun bir yol qət etmişdir. İlk ingilis qəzeti "The News of the Present Week" adı altında 1622-ci ildə çap olunmuşdur (lakin 1670-ci ilə kimi qəzet sözü qeydə alınmamışdır). Bundan əvvəl isə insanlara müxtəlif vərəqələr vasitəsilə məlumat çatdırılırdı. Lakin ingilis qanunlarına əsasən, həmin bu vərəqələrin çap olunmasına ciddi şəkildə senzura qoyuldu. Belə ki, artıq ölkə kralının şəxsi icazəsi olmadan heç bir şəxs bu vərəqələri çap edə bilməzdi. 17-ci əsrin sonlarında bu qanun ləğv olundu və ingilis mətbuatının yaranma tarixinin əsası qoyuldu.

İlk qəzetlərdə yalnız xarici informasiyalar dərc olunurdu. 1641-ci ilə kimi yerli xəbərlər ingilis qəzetlərində öz əksini tapmamışdır. İngiltərədə ilk uğurlu alınan gündəlik qəzet 1702-ci ildə dərc olunmuşdur.

1785-ci ildə the Daily Universal Register ilk dəfə çap olundu. 1788-ci ildə adı dəyişdirilərək The Times oldu. 1814-cü ildə "The Times" qəzeti ilk dəfə buxar gücünə əsaslanaraq çap olan qəzet kimi qeydə alınır. 1848-ci ildə isə "The Times" qəzeti dönən silindr üsulu ilə çap etmək qaydasını sınaqdan keçirmişdir.

Bu minval ilə desək, 1791-ci ildə "The Observer", 1855-ci ildə "The Daily Telegraph", 1821-ci ildə "The Manchester Guardian" çap olundu. 1959-cu ildə "The Guardian Manchester" qəzetinin adı "The Guardian" olaraq dəyişdirilmişdir. 1822-ci ildə ilk dəfə "The Sunday Times", 1888-ci ildən etibarən isə "The Financial Times" çap olunmağa başladı.

18-ci əsrin sonu və 19-cu əsrin əvvəllərində qəzet almaq üçün xüsusi möhür tələb olunurdu. Buna görə qiymətlər bahalaşmışdı və yalnız yüksək zümrə qəzet ala bilirdi. 1855-ci ildə bu qayda ləğv olundu və qəzetlər ucuzlaşdı, hər kəs əldə edə bildi. 1880-ci ildə ilk fotoşəkilli qəzet – *The New York Graphic* çap olundu. 1890-cı ildə Britaniyada ilk bulvar qəzeti – *The Daily Graphic* çıxdı. 1891-ci ildən Britaniyada çap şəkilli qəzetlər dərc olunmağa başladı.

Müasir qəzetlər 20-ci əsrdə qəzetlər artıq insanlar üçün adi bir şeyə çevrilməyə başlamışdı. Hər bir kəs artıq qəzetləri alıb istifadə edə bilirdi. 19-cu əsrin sonu 20-ci əsrin əvvəlində İngiltərədə the Daily Mail, the Daily Express, the Daily Mirror kimi qəzetlər çap olunmağa başladı. 1986-cı ildə The İndependent qəzeti Britaniyada ilk rəngli qəzet kimi çap olunmuşdur.

Digər ölkələrə nəzərən ingilis mətbuat hüquqları heç bir qadağa və ya senzura ilə məhdudlaşdırılmır. Burada mətbuat ictimaiyyəti, cəmiyyəti formalaşdırır. Onlar istər qanunlar, istər dövlət idarəçiliyi barədə, istərsə də cəmiyyətdə mövcud olan hər hansı bir çatışmazlıq barədə sərbəst şəkildə öz irad, tənqid və təkliflərini bildirə bilərlər.

İngilisdilli mətbuatın növləri və funksiyaları [4, s.129-130]

Mətbuatdan danışarkən onun növləri barədə danışmamaq olmaz. Mətbuatın aşağıdakı növləri var:

Çap formalı KİV-lər informasiyanı çap vasitələri ilə insanlara çatdırır. Buraya qəzetlər, jurnallar, bukletlər, broşürlər, reklam şitləri, məişət jurnalları, dövri nəşrlər, kitablar və s. daxildir.

Qəzetlər: Elektron media yarananadək geniş oxucu kütləsi var idi. İnsanlar gündəlik qəzetlərdən siyasi, cari hadisələr, maliyyə, mədəniyyət, əyləncə mövzularında xəbər alırdılar. Qəzetlər cəmiyyətə dəqiq informasiya verir, bilik və dünyagörüşünü artırır, elan yerləşdirməyə kömək edir. Lakin internetin yayılması qəzetlərin populyarlığının azalmasına səbəb olub.

Qəzet növləri: Rəsmi-kütləvi qəzetlər (The quality press / broadsheets): Yerli və xarici, idman, mədəni və s. məlumatları ətraflı çatdırır.

Bulvar qəzetləri (The popular press / tabloids): Həftəlik və ya iki dəfə çıxır.

Qəzetlər informasiyanı cəmiyyətə elektron vasitələrdən daha dəqiq çatdırmağa çalışır. Lakin insanların internetə girərək məlumat əldə etmələri qəzetlərin əvvəlki populyarlığını azaltmışdır.

Britaniya qəzetləri iki yerə ayrılır: 1. The quality press (“broadsheets”) – rəsmi-kütləvi qəzetlər 2. The popular press (“tabloids”) – bulvar və ya maqazin qəzetləri. Rəsmi-kütləvi qəzetlərdən fərqli olaraq, bulvar qəzetləri daha qısa paraqraflardan, alleterasiyalardan və diqqət çəkici dildə yazılmış xəbərlərdən istifadə edir: depressing downpour, humble human. Burada əsas məqsəd oxucuların diqqətini cəlb etməkdir.

Jurnallar isə qəzetlərdən fərqli olaraq, konkret bir mövzuya və oxucu kütləsinə uyğun hazırlanır. Onlar daha dərin məlumat vermək və müəyyən bir hədəf auditoriyasına xidmət etmək məqsədi güdür.

Bukletlər və broşürlər məhsul və ya şirkət tanıtmaq məqsədilə paylanan vərəqələrdir. Onlar daha çox reklam və informativ məqsədlər üçün istifadə olunur.

Reklam şitləri isə iri, rəngli, şriftli yazılardan, müxtəlif foto şəkillərdən, 3D formatında hazırlanan rəsmlərdən və xüsusi dizaynlardan istifadə edilən elan vərəqələridir. Bu elanların əsas məqsədi insanın diqqətini çəkmək və onları müəyyən bir məhsul və ya xidmətə yönəltməkdir.

Elektron formalı KİV-lərə televiziya, radio və yeni nəslin ən çox istifadə etdiyi internet, kompüter və telefonlar daxildir.

Televiziya: Müasir dövrümüzü televiziya olmadan təsəvvür etmək mümkün deyildir. Televiziya geniş həcmli izləyici auditoriyasına malikdir. Müxtəlif yaş qruplarına məxsus insanların hər biri televiziyadan istifadə edə bilər. İnsanlar televiziya vasitəsilə gündəlik xəbərlərlə tanış ola bilər, əyləncəli proqramlar, filmlər izləyə, həmçinin öz reklamlarını yerləşdirə bilərlər.

İngilis televiziya tarixi 1922-ci il noyabr ayının 14-də yaradılan BBC (British Broadcasting Company) telekanalının yaradılması ilə əsası qoyulmuşdur.

Radio: Televiziya çıxdıqdan sonra populyarlığını itirsə də, evdə, işdə, maşında istifadə olunur.

Yeni nəsil media vasitələri: Dəyişən inkişaf edən dünyamızda hər gün yeni nələrsə kəşf olunur. Onların içərisində ən möhtəşəm kəşflərdən biridə mobil telefonların, kompüterlərin, internetin kəşfidir.

Mobil telefonlar daha yığcam olduğuna görə digər elektron vasitələr arasında ən çox istifadə olunandır. İstər telefonlar, istərsə də kompüterlər vasitəsilə internet şəbəkəsinə qoşulmaq mümkündür. İnternetin özünün əsas media vasitələri vardır ki, buraya imeyl, Feysbuk, Yutub, Tvitter, Snapçat, veb-səhifələr və.s aid etmək olar.

İngilis dilli mətbuatın funksiyaları

Mətbuatın bir çox funksiyaları vardır ki, onlardan ən əsası məlumatlandırıcı funksiyadır. Növbəti bir funksiya isə əyləndirici funksiyasıdır. Mətbuatın ən vacib funksiyası isə insanları bilikləndirmək, maarifləndirməkdir. Mətbuat insanların dünyagörüşlərini artırmağa kömək edir, onlara yeni bir şey öyrətmək üçün ən vacib vasitədir.

Məqalənin elmi nəticəsi: Məqalə göstərir ki, ingilisdilli mətbuat dili zamanla sosial, texnoloji və kommunikativ dəyişikliklərə uyğun inkişaf etmişdir. Qəzet dili təkcə informasiyanı ötürmək yox, həm də oxucuya təsir etmək funksiyası daşıyır. Müxtəlif janrlar və dil strukturları bu funksiyanı dəstəkləyir. Müasir qəzet dili həm neytral, həm də emosionallıq daşıya bilər.

Məqalənin tətbiqi əhəmiyyəti: Bu araşdırma jurnalistika, dilçilik və ünsiyyət sahələrində çalışanlar üçün faydalıdır. O, qəzetlərin dil strukturunu, funksiyasını və üslub xüsusiyyətlərini anlamağa kömək edir. Eyni zamanda, mətbuat dili vasitəsilə ictimai rəyin necə formalaşdığını göstərir ki, bu da media təhsili və tənqidi oxu bacarıqları üçün vacibdir.

Məqalənin elmi yeniliyi: Məqalə ingilisdilli mətbuatın üslub xüsusiyyətlərini tarixi inkişaf kontekstində təhlil edir. O həm funksional üslub növlərinin qarşılıqlı əlaqəsini, həm də qəzet dilinin özünəməxsus xüsusiyyətlərini detallı şəkildə təqdim edir. Mair, Crystal, Davy, Cotter kimi tədqiqatçıların yanaşmaları ilə bu sahəyə yeni baxışlar gətirilir.

Məqalənin strukturu: Məqalə xülasə, əsas hissə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Ədəbiyyat

1. Hajiyeva, A. English Stylistics / A.Hajiyeva. B. Science and Education – 2015, – 172 s.
2. Ehn, P., & Kyng, M: Mocking-it-up or hands-on the future. – 1991, – 170-171s.
3. Gaziyeva, M.Y. This is Great Britain B.Science and Education / M.Y.Gaziyeva, K.A.Jafarova, S.S.Zeynalova. – 2016, – 223 s.
4. Rodney, H.J. Language and media / H.J. Rodney, S.Jaworska, E.Aslan – 2021, – 129-130 s.

Elektron qəzetlər

1. http://www.ft.com
2. http://www.theguardian.com
3. http:\\www.bbc.com
4. http:\\www.thesun.co.uk
5. http:\\www.dailymail.co.uk
6. http:\\www.thetimes.co.uk

J.S.Ismayilova

General Information about the English-Language Press

Summary

The English-language press is an essential part of media communication and has undergone significant development over the centuries. Emerging in the 17th century, it has evolved into a crucial element of social and political discourse. The development of press style has been deeply intertwined with the technological advancements of the times, from the invention of the printing press to the use of

telegraphs and photography in reporting. The 19th century saw the formation of independent newspaper systems, and the rise of daily newspapers marked a shift in public access to information. Today, newspapers continue to play a vital role in shaping public opinion and reflecting societal changes, with each publication developing its unique linguistic style.

Key words: *journalistic style, newspaper language, information, communication, press*

Дж.С.Исмайлова

Общая информация об англоязычной прессе

Резюме

Англоязычная пресса является важной частью медиакоммуникации и претерпела значительное развитие за века. Она появилась в XVII веке и стала важным элементом общественных и политических дискуссий. Развитие стиля прессы было тесно связано с технологическими достижениями своего времени, начиная от изобретения печатного станка и заканчивая использованием телеграфов и фотографии в репортажах. В XIX веке сформировалась независимая система газет, а появление ежедневных газет означало изменение в доступе общественности к информации. Сегодня газеты продолжают играть важную роль в формировании общественного мнения и отражении изменений в обществе, каждая газета развивает свой уникальный языковой стиль.

Ключевые слова*: публицистический стиль, язык газет, информация, коммуникация, пресса*

Rəyçi: filol.f.d. S.E.Quliyeva

Redaksiyaya daxil olub: 22.04.2025

A.Ş.KAZIMOVA
doktorant
e-mail: ayselkazimova92@mail.ru
:https://orcid.org/0000-0002-6336-5977

Lənkəran Dövlət Universiteti
(Lənkəran şəh., General H.Aslanov xiyabanı, 50)

10.62021/0026-0028.2025.2.053

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ TAPMACALARDA İNDİKİ ZAMANIN İFADƏ XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Şifahi xalq yaradıcılığının geniş yayılmış janrlarından olan tapmacalar müxtəlif xalqların ədəbiyyatlarında özünəməxsus tərzdə yaranmış və formalaşmışlar. Hər bir xalqın adət-ənənələrinə, məişətinə və mental xüsusiyyətlərinə görə formalaşmış, ifadə xüsusiyyətlərinə əsasən feilin müxtəlif zaman formasında cəmlənmişlər. Lakin tərcümə nəticəsində bəzən zaman anlamında ifadədə fərqlilik yarana bilir.*
Bu məqalədə ingilis və Azərbaycan dillərində feilin müxtəlif zaman formalarında yaranmış tapmacalar araşdırılmış, daha çox qısa və obrazlı təsvirlərdə ifadə olunan indiki zaman formalarının üstünlük təşkil etdiyi müəyyənləşdirilmişdir. İndiki zaman formasında yaranmış tapmacalarda poetik vasitələr müəyyənləşdirilmiş, müqayisəli şəkildə ingilis və Azərbaycan dillərində təhlil edilmişdir.

Açar sözlər: *Azərbaycan dili, ingilis dili, tapmaca, indiki zaman, zamanın ifadə xüsusiyyətləri, folklor nümunələri*

Yaranması çox qədim dövrlərə təsadüf edən xalq yaradıcılığı nümunələri janr və mövzu baxımından zəngin və rəngarəngdir. Günümüzə qədər gəlib çıxan bu bədii nümunələr hər bir xalqın xarakterini, məişətini, həyat tərzini və adət-ənənələrini özünəməxsus tərzdə əks etdirir. Təbii haldır ki, şifahi xalq ədəbiyyatının müəyyən bir qismi yazı halına alınmadığı üçün unudulmuşdur. Digər bir qismi isə günümüzə gəlib çatmış formasına qədər dildən-dilə ötürülərək öz ilkin formasını itirərək az və ya çox olmasından asılı olaraq, dəyişikliyə məruz qalmışdır. Folklor nümunələrini yazıya köçürənlər say etibarilə qeyri-məlum olduğundan belə bir nəticəyə gəlmək mümkündür ki, adıçəkilən xalq yaradıcılıq nümunələrinin formalaşmasında bütöv bir xalqın təfəkkürü inkişaf etmişdir. Məhz bu səbəbdəndir ki, şifahi xalq yaradıcılığı hamımız üçün dəyərli əhəmiyyət kəsb edir. Ulu babalarımızdan dövrümüzə qədər gəlib çatan xalq yaradıcılığı nümunələrindən biri də insan təfəkkürünü daima düşünməyə sövq edən "tapmacalar"dır. Bir çox bölgələrdə tapmaca deməyə "tapmaca satmaq" deyirlər. Hətta həmin ərazilərdə tapmacaları tapmaq üçün təşkil olunan məclislər "Gəlin, tapmaca sataq" sözləri ilə başlayır. Diqqət yetirmək lazımdır ki, tapmacalar daha çox uzun qış gecələrində yaşlı nəslin nümayəndələri tərəfindən keçən zamanı azyaşlılara daha maraqlı və əyləncəli etməkdən ötrü qoşulurdu. Şifahi xalq yaradıcılığının bu növünü yaratmaqda məqsəd bu tapmacaların cavabını axtaranların xüsusilə uşaqların zehnini, düşüncə qabiliyyətini inkişaf etdirmək, düşünənlərdə eyhamdan anlamaq bacarığını aşılamaqdan ibarət idi. Forma etibarilə tapmacalar, adətən sərbəst şeir növündə olur – bayatılardan fərqli olaraq bir qəlibə oturmur [2, s.174-175]. Tapmaca – əşyaların, təbiət hadisələrinin, canlı və cansız varlıqların adlarını gizli, obrazlı və bədii formada təsvir edən, məntiq və müşahidə qabiliyyəti tələb edən şifahi xalq yaradıcılığı janrıdır. Tapmaca sual forması daşıyır və cavab gözləyən poetik parçalardır. Yazılı yox, danışıq yolu ilə nəsildən-nəslə ötürülür. Cümlələr az sözlərlə, lakin dərin məna ilə qurulur. Bənzətmə, təşbeh, metafora ilə gizli məna yaradılır. Əksər hallarda qafiyələnmiş və ritmik formada olur. Düşün-

mək, öyrətmək və əyləndirmək məqsədi daşıyır. Uşaqlarda təfəkkür və müşahidə bacarığını inkişaf etdirir. Xalq arasında məclis və oyunlarda istifadə olunur. Dilin obrazlı imkanlarını nümayiş etdirir. Xalqın dünyagörüşünü, təbiətə münasibətini əks etdirir. Əşyaya və ya hadisəyə dair bənzətməli, qapalılıq yaradan təsvir verilir. Dolayısı yolla təsviri verilən belə əşya və ya hadisənin konkret cavabı müəyyən ifadələrlə izah olunur. Tapmacaların əşyalarla, heyvan və quşlarla, insan orqanları və əzaları ilə, məişət və əmək alətləri ilə bağlı, say və rəqəmlərlə bağlı, fəlsəfi-məna yüklü formaları da mövcuddur. Tapmacalarda indiki zaman formaları üstünlük təşkil edir. Qısa və obrazlı təsvirlərdən istifadə olunur. Söz oyunu, metaforik ifadə, təşbehlər geniş yer tutur. Qafiyə və alliterasiya ilə ritmik təsir gücləndirilir. Tapmacalarda geniş şəkildə aşağıdakı poetik vasitələrə rast gəlinir:

1. Metafora – bir anlayışın başqa anlayışla üstüörtülü eyniləşdirilməsi.
2. Təşbeh (bənzətmə) – bir şeyin başqa bir şeyə oxşadılması.
3. Personifikasiya (insanlaşdırma) – cansız varlıqlara insan xüsusiyyəti vermək.
4. Epitetlər – obrazı daha dəqiq və poetik təqdim edən təsvirlər.
5. Antitezalar və ziddiyyətlər – gözlənilməz məna yaradan təsvirlər.

Tapmacalar icra edilən hərəkətin zamanına görə müxtəlif zamanlarda qurula bilər ki, bu zamanlardan biri də feilin indiki zamanıdır. Qarşılaşdırılan Azərbaycan və ingilis dillərində tapmacaların mühüm xüsusiyyəti cümlədə müəyyən üzvlərin buraxılmasıdır. Məlumdur ki, cümlədə müəyyən üzv buraxılarkən burada yarımçıqlıq baş verir. Müxtəlif dillərdə (hazırda ingilis və Azərbaycan dillərində) müqayisə apardıqda yuxarıda qeyd etdiyimiz xüsusiyyətlərə görə fərqlilik özünü büruzə verir. Ş.Alməmmədovanın qənaətincə, ”*ingilis dilindən fərqli olaraq Azərbaycan tapmacalarında yarımçıq cümlənin bütün tiplərinə rast gəlmək mümkündür*” [5, s. 13].

Azərbaycan dilçiliyində indiki zamanla bağlı ümumi fikir bundan ibarətdir ki, indiki zamanın məzmununda iki məna nəzəri daha çox cəlb edir. Ş.Alməmmədova bu xüsusiyyətlər haqqında yazır: “*Bu məna xüsusiyyətlərindən birincisi, indiki zamanda iş, hal və hərəkətin danışıq vaxtına bilavasitə uyğun gəlməsi, ikincisi isə iş, hal və hərəkətin icra vaxtının danışıq vaxtına tam uyğun gəlməsidir. Bu məna xüsusiyyətinə görə hal və hərəkətin icra müddəti öz davamlılığına görə danışıq vaxtı müddətindən kənara çıxır”* [4, s. 80].

Azərbaycan dilində feilin indiki zamanı sadə və indiki davamedici zaman formasında özünü büruzə verir. İndiki sadə zaman adət halını almış, təkrarən icra edilən hərəkətləri bildirir. İndiki davamedici zaman isə danışıq anında ifadə olunan hərəkətləri bildirmək üçün tətbiq olunan feilin zaman formalarından biridir. Qeyd edilən zamanın şəkilçisi “-ır[4]” şəkilçidir. İndiki sadə zaman “*hər*” və “*hər*” ilə olan bütün ifadələr “*indi”, “hal-hazırda*” kimi zaman zərfləri ilə ifadə olunur. İndiki sadə zaman şəkilçilərinə *hər gün, hər həftə, hər ay* və s. aid edilir.

Qrammatik qaydalara uyğun olaraq, feillər saitlə bitərsə, sözün sonuna “*y*” bitişdiricisi əlavə edilir ki, bu da indiki zaman şəkilçisi anlamını verir. Adıçəkilən feilin zaman formalarında Azərbaycan tapmaca növlərində aşağıdakı şəkildə rast gəlmək mümkündür:

İndiki sadə zaman ilə bağlı:

O nədir ki, gecə-gündüz yol gedər,
Bircə qarış yol gedər. (Saat) [2]

Bir gilə mərmər başı,
Yandırır dağı-daşı. (Günəş)

Durmadan gəzir,
Heç kimə dəymir,
Gah azaldır, gah artırır,
Səssizcə dövr edir. (Saatın əqrəbi)

Göydən yerə enir,
Suyu yerə sərir,
Torpağı isladır,
Çiçəkləri oyadır. (Yağış)

Bir sürü atlar
Çəməndə otlayır
Vaxtı gələndə
Dərisi çatlayır. (Pambıq)

Aparılan araşdırmalar zamanı belə nəticəyə gəlinmişdir ki, Azərbaycan dilində feilin indiki davamedici zaman forması ilə bağlı tapmaca nümunələrinə rast gəlinmir.

Azərbaycan dilindən fərqli olaraq, indiki zaman şəkilçisi flektiv dil qrupuna (tipinə) daxil olan ingilis dilində indiki zaman hissəcikləri mövcuddur. Feilin indiki zamanı ingilis dilində tapmacalarda 4 formada ifadə oluna bilər: 1. İndiki sadə zaman (present simple), 2. İndiki davamedici zaman (present continuous), 3. İndiki bitmiş zaman (present perfect), 4. İndiki zamanın davam edib bitmiş forması (present perfect continuous). İngilis dilində qeyd olunan feilin indiki sadə və indiki davamedici formaları qrammatik məna baxımdan eyni qüvvəyə malikdirlər. Hər iki dildə qeyd edilən zaman formaları uyğun olaraq adət halını almış və danışıq anında baş verən hərəkətləri bildirir. Azərbaycan dilində əgər bu zaman formaları "-ır[4]" şəkilçisi ilə formalaşdırılırdısa, ingilis dilində feilin indiki sadə zamanı məsdərdən "to" hissəciyini atmaqla və III şəxsin təkində "-s" və ya "-es" şəkilçisini artırmaqla düzəldilir [4, s.5]. Feilin indiki davamedici zamanı isə "*to be (olmaq)*" feilinin indiki zamanda olan formaları və "*-ing*" şəkilçisi vasitəsilə düzəldilir. Adıçəkilən zaman formalarının ingilis dili tapmacalarında ifadəsini nəzərdən keçirək:

1. İndiki sadə zaman:

They live in a field
Milk is what they make
They help give us leather
And a juicy steak. (Cow) [3, s.74]

She opens me every day,
Reads the words I have to say,
I am full off stories? Front to back,
What am I that knowledge does not lack? (A book)

He wears a uniform, helps around,
Drives a red truck with sirens and sound.
Water and hose are what he uses,
Who is he, when fire he fuses? (Firefighter)

In the evening it goes,
In the evening it comes. (The sun)

At our place there is a man
Who has many eyes. (Sieve – aşsüzən)

2. İndiki davamedici zaman:

Məlumdur ki, bir çox dillərdə olduğu kimi, ingilis dilində də indiki davamedici zaman ümumi danışıq dilində və ədəbi-bədii dildə tapmacaların yaranmasında və müxtəlif əyləncə

xarakterli dil oyunlarında işlədilir. Bu tip tapmacalar adətən "I am_____ ing", "He is____ing", "They are_____ing" kimi cümlələrlə başlıyır və hansısa hərəkəti təsvir edərək cavabın nə olduğunu soruşur. Əyləncə xarakterli tapmacalar əqli inkişaf etdirməklə yanaşı, xarici dili öyrənmək istəyənlərə də faydalı ola bilər.

I am moving on the road so fast,
With wheels and engine, I rarely last.
People ride me every day.
What am I? (A car)

I am running on four legs,
I bark and wag my tail.
I am your best friend every day,
What am I? (Dog)

I am flying without wings, I am crying without eyes.
What am I doing?
(Rain)

I am going up but never coming down. What am I doing?
(aging – qocalmaq)

I am running but never move, I am always working, never sleep. What am I?
(A clock)

Belə tapmacalar həm qrammatikanı praktiki şəkildə tətbiq etmək, həm də söz ehtiyatını artırmaq üçün çox faydalıdır.

İngilis dilində adıçəkilən indiki bitmiş və indiki zamanın davam edib bitmiş formaları isə Azərbaycan dilində müvafiq olaraq "-ıb[4]" və "-mış[4]" (keçmiş zamanın nəqli və şühudi formaları) ilə əvəzlənir. İndiki zaman formasında ekvivalenti yoxdur. Tapmacalarda adıçəkilən zaman formalarına aid nümunələri nəzərdən keçirək:

1. İndiki bitmiş zaman:

What has to be broken before you can use it? (an egg) [6, s. 1]

I have opened many times today,
Inside me, stories always stay.
You use me to learn and play,
What am I, can you say? (A book)

I have shined bright for many nights,
Guiding sailors with my lights.
You see me in the sky above,
What am I that shines with love? (the moon)

I have been filled and emptied too,
Holding water fresh and new.
You drink from me to stay alive,
What am I that helps you survive? (a glass)

Surely all people Who deserve to be here
Have visited a place where
All And Nothing Can be found. (Dictionary)

2. İndiki zamanın davam edib bitmiş forması:

I have been running without legs,
I do not get tired, but I flow all day. (a river)

It has been shining for billions of years,
Warming the earth with golden spears. (the sun)

You have been hearing me every day,
When birds sing or children play. (sound)

Yuxarıda verdiyimiz "have/has been + Participle II" ilə yazılmış tapmacalar klassik ədəbiyyat mənbələrindən və ya çap olunmuş rəsmi dərsliklərdən götürülməyib. Bunun səbəbi budur ki, ənənəvi ingilis tapmacaları adətən qısa və rəsmi zaman formalarından istifadə edir. Məsələn, sadə indiki və keçmiş zamanlar. Present Perfect Continuous isə daha müasir və danışıq yönümlü bir zaman formasıdır, ona görə də folklor tapmacalarında çox nadir hallarda görünür. Ona görə də adıçəkilən tapmaca nümunələrinə heç bir dərslikdə, heç bir klassik ədəbiyyat əsərində, heç bir folklor və ya rəsmi tapmaca toplusunda yayımlanmayıb.

3. Şühudi keçmiş zaman (danışanın özü görüb və ya şahid olub):

Getdim, gördüm bir dağda,
Daşlar danışır dildə. (Əks-səda)

Gördüm onu axşamüstü bağda,
Ağacların altında oturmuşdu.
Kürəyində uzun quyruq vardı,
Nə idi, o, xatırla, sən də! (Pişik)

Getdim, gördüm – şühudi keçmiş zaman.

4. Nəqli keçmiş zaman (başqasından eşidilmiş, görmədən danışılan hadisələr):

Deyiblər bir ev var, qapısı yox,
İçində bir nur var, çırağı yox. (Yumurta)

Burada "deyiblər" nəqli keçmiş zamanı bildirir.

Eşitdim bir qardaş vardı,
İki bacı ilə yatardı. (Qayçı)

Burada "eşitdim" nəqli keçmiş zaman formasıdır.

Məqalənin elmi yeniliyini qeyd edərkən vurğulanmalıdır ki, ilk dəfə ingilis və Azərbaycan dillərində feilin müxtəlif zaman formalarında yaranmış tapmacalar araşdırılmış, daha çox qısa və obrazlı təsvirlərdə ifadə olunan indiki zaman formalarının üstünlük təşkil etdiyi müəyyənləşdirilmişdir. İndiki zaman formasında yaranmış tapmacalarda poetik vasitələr müəyyənləşdirilmiş, müqayisəli şəkildə ingilis və Azərbaycan dillərində təhlil edilmişdir

Tətbiqi və əhəmiyyəti. Araşdırılan məsələ ingilis və Azərbaycan dillərinin müqayisəli şəkildə öyrənilməsində vacib material kimi istifadə olunmalıdır.

Yuxarıda qeyd etdiyimiz mövzu ilə bağlı araşdırmanı belə bir ümumiləşdirərək, belə ***nəticəyə*** gəlmək olar ki, ingilis dili xüsusiyyətlərinə görə indiki zamanla bağlı ifadələrə malikdir, həm də hərtərəfli və aydın ifadə imkanı var. Ümumiyyətlə, ingilis dili və türk dillərinin zaman formalarını müqayisə etdikdə, baxmayaraq ki, ingilis dilində indiki zamanın türk dillərində olmayan bir çox formaları var, amma bu dili insan ömrü ilə paralel göstərsək, uşağa öyrədərcəsinə, sanki qarşındakı bir uşaqmış kimi zamanı çox detallı izaha gərək duyan bir dil olduğunu görürük. Bu dillərdən fərqli xüsusiyyətə malik türk dillərində sadə formaya rast gəlinsə də, indiki zamanla bağlı dilin ifadəsini daha ətraflı bilməli və düşündüklərimizi qeyd edirik. Belə ki bizim dialoq tərəfdaşımız bunun fərqindədi və bu düşüncə tərzi və forması o dili mənimsəyəndən müraciət edən şəxsə aydındır.

Ədəbiyyat

1. Azərbaycan folkloru. – Bakı: Şərq-Qərb, – 2005, – 360 s.
2. Qəhrəman, İ. Tapmaca sehri // Kaspi. – 2017, 9 oktyabr. http://anl.az/down/meqale/kaspi_az/2017/oktyabr/557966.htm
3. Əsədova, S.S. Azərbaycan və ingilis dillərində lirik növün janrlarından zoonimlər // Linqvistika problemləri, – c. 1, №3, – 2020, –s.67-76. http://anl.az/down/meqale/linqvistika_problemleri/2020/03/06(meqale).pdf
4. Tahirov, İ.M. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası / İ.M.Tahirov, – Bakı: Nurlan, – 2007, – 323 s.
5. Alməmmədova, S.M. İngilis dilində zamanlar sistemi / S.M.Alməmmədova, – Bakı: Azərbaycan Texniki Universiteti, – 2013, – 113 s. http://anl.az/el/Kitab/2013/38725.pdf
6. Əliyeva, E.Ə. Azərbaycan və ingilis dillərində tapmacaların linqvistik təhlili: / dis. avtoreferatı. / – Naxçıvan, – 2011, 24 s. http://azerbaycandili.az/Synopsis/Download/2164/ƏlLİYEVA%20ELNAZ%20ƏLİ%20QIZI.pdf
7. 101 Best Riddles for Kids and Adults (with Answers) // Parade, – ABŞ, – 2020-ci il, 17 aprel. 2023-c ü ildə yenilənmişdir, 16 s. http://parade.com/947956/parade.riddles

A.Sh.Kazimova

Features of Expressing the Present Tense in Riddles of the English and Azerbaijani Languages

Summary

Riddles, which are widespread genres of oral folk art, have arisen and formed in the literatures of different nations in their own unique way. They have been formed according to the customs, traditions, lifestyle and mental characteristics of each nation, and have been concentrated in different tense forms of the verb according to their expressive features. However, as a result of translation, sometimes differences in expression in the sense of time can arise.

This article examines riddles in different tense forms of the verb in English and Azerbaijani, and it has been determined that present tense forms, which are expressed in short and figurative descriptions, predominate. Poetic means in riddles in the present tense form have been identified and analyzed comparatively in English and Azerbaijani.

Key words: *Azerbaijani language, English language, riddle, presenr simple, time expression features, folklore examples*

А.Ш.Кязимова

Особенности выражения настоящего времени в загадках английского и азербайджанского языков

Резюме

Загадки, являющиеся широко распространенными жанрами устного народного творчества, уникальным образом создавались и формировались в литературе разных народов. Они фор-



мировались с учетом обычаев, образа жизни и ментальных особенностей каждого народа и концентрировались в разных временах глагола по особенностям выражения. Однако в результате перевода иногда может возникать разница в значении времени.

В данной статье были исследованы загадки, созданные в разных временах глаголов в английском и азербайджанском языках, и установлено, что преобладают формы настоящего времени, выраженные в кратких и образных описаниях. Выявлены и сравнительно проанализированы поэтические средства в загадках, созданных в настоящем времени, в английском и азербайджанском языках.

Ключевые слова: *азербайджанский язык, английский, загадка, настоящее время, особенности выражения времени, примеры фольклора*

Rəyçi: filol.e.d., prof. İ.M.Tahirov

Redaksiyaya daxil olub: 15.05.2025

E.T.MƏMMƏDOVA
e-mail: elnarememmedova1973@gmail.ru
:https://orcid.org/0009-0003-2210-5866

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNİN LÜĞƏT FONDUNUN ZƏNGİNLƏŞMƏSİNDƏ BEYNƏLMİLƏL TERMİNLƏRİN ROLU

Xülasə. *Məqalənin* ***məqsədi*** *beynəlmiləl terminlərin ingilis dilinin lüğət fondunun zənginləşməsindəki rolunu araşdırmaqdır. Beynəlmiləl terminlərin dilin inkişafına necə təsir göstərdiyi, bu terminlərin qlobal dilə daxil olmasının səbəbləri və nəticələri, həmçinin onların müasir cəmiyyət və elmi mühitdəki funksiyası tədqiq edilir. Eyni zamanda, beynəlmiləl terminlərin təhsil, informasiya texnologiyaları və digər sahələrdəki əhəmiyyəti vurğulanır.*

Açar sözlər: *beynəlmiləl terminlər, leksik inteqrasiya, lüğət fondu, beynəlxalq ünsiyyət, qloballaşma*

Elmin, texnikanın yüksəlişi, eləcə də mədəni sferanın tərəqqisi və inkişafı ingilis dilinin zənginləşməsinə müsbət təsir göstərmişdir. İngilis dilinin zənginləşməsinə prosesində beynəlmiləl terminlərin böyük rolu olmuşdur. Çox illər əvvəl ingilis dilinin terminoloji leksikasının genişlənməsi müəyyən limit həddində özünü göstərmişdir. Bu dilin indiki vəziyyətə gəlib çatması birdən-birə deyil, bəlli zaman kəsiyində baş vermişdir.

Müxtəlif sferalara aid terminlər, o cümlədən beynəlmiləl terminlər və onların yaranma üsullarının, struktur-semantik araşdırılması böyük əhəmiyyət kəsb edir. İlk öncə terminin dilçilikdə mövqeyi məsələsinə aydınlıq gətirək:

Müasir dilçilikdə termin fərqli mənaları özündə ehtiva edir. Termin latın mənşəli "terminus" sözündən götürülüb son həd, yaxud sərhəd anlayışını ifadə edir. İxtisaslaşmış məzmuna malik bu sözlər elmin fərqli sahələrinə aiddir və elmin sürətli inkişafı müasir terminlərin yaranmasına gətirib çıxarır. Elmi məzmun kəsb edən məfhumlar harada əmələ gəlirsə, onları ifadə edən terminlər də müvafiq adı çəkilən xalqın dilində yarandıqdan sonra onun leksikonuna daxil olur və zaman keçdikcə digər dillərə nüfuz edir.

Bildiyimiz kimi, Qədim Yunanıstan elm və mədəniyyət ocağı olduğuna görə əksər terminlər latın və yunan mənşəli terminlərdir. Ümumiyyətlə, terminlər 2 qrupa bölünür:

Bir qrup sözlər dildə ancaq terminlər kimi işlənirlər: təyin, zərflik, morfologiya və s. Bunlar dildə yalnız müvafiq elm sahəsini yaxud peşəni bildirən sözlər sayılır. Dildə təkcə termin kimi deyil, həm də ümumişlək sözlər kimi işlənən sözlər qrupu mövcuddur. Bunlar müəyyən elmi sferalarda işlənməklə yanaşı, şifahi nitqdə də istifadə olunur. Məsələn:

I.Elton bizim məktəbə direktor təyin olundu.

II. Cümlənin 2-ci dərəcəli üzvü olan təyin hansı?, neçənci?, nə cür?, və s. kimi suallara cavab verir.

Hal-hazırda termin beynəlmiləl söz statusu qazandığından konkret həd-hüdudu bildirən anlayış kimi özünü göstərir. Terminin spesifik xüsusiyyətləri sırasına onun təkmənalı, omonim, sinonim olması da daxil edilir. Lakin dilin terminoloji qatında adı çəkilən xüsusiyyətlərə təsadüf olunur. Belə ki, onların funksiyası və istifadə sferası ilə bağlı bir qrup dilçinin fikirləri ilə razılaşmaq mümkün sayılır. Q.Vinokura görə, terminləri spesifik funksiyaları icra edən sözlər hesab etmək mümkündür. Bununla yanaşı, sözlər dildə termin kimi çıxış etdikdə adlandırma funksiyasını icra edirlər [Винокур Г.О. Филологические исследования: Лингвистика и поэтика. М.: Наука, 1995, 450 с, s. 23]. Məişət terminləri predmetlərin adını ifadə etdiyi halda elmi terminlər konseptləri və məfhumları bildirir. Sözsüz ki, ümumi prinsiplər-

dən çıxış edərək terminlərin dilin digər sözləri ilə eyniliyini iddia etmək heç də doğru sayıla bilməz.

Terminlərlə bağlı nəinki dilçilərin, hətta müxtəlif sahənin mütəxəssislərinin də fikirlərinə rast gəlmək olar. Dilçilərin yanaşmasına görə, termin sadəcə dilin leksik vahidi olub sadəcə söz hesab edilə bilər. Terminlərlə məşğul olan mütəxəssislər isə hər hansı konseptin, məfhumun terminlə hansı formada bağlılığını aydınlaşdırmağa çalışırlar və onlara qoyulan tələbləri müəyyənləşdirirlər.

Deməli, dildə istifadə olunan ümumişlək sözlər və terminlər arasında kəskin fərq mövcuddur. Bizim fikrimizcə, bu yanaşma doğru hesab edilə bilməz. Dil faktlarına söykənərək belə nəticəyə gəlmək olar ki, dilin sözlərinə aid olan spesifik xüsusiyyətlər terminlərə də şamil oluna bilər. Söz də termin kimi müəyyən gerçəkliyi, hər hansı bir fikri yaxud yanaşmanı bildirir. Bununla yanaşı sözlərlə terminlər arasında konkret fərqlər mövcuddur. Bunlar aşağıdakılardır:

1) Terminlər monosemantik xarakter daşıyır və təkmənalıdırlar.
2) Terminlər dəqiqliyi və neytrallığı ifadə edir.
3) Terminlər ekspressiv, nominativ və emosional funksiyaları ifadə etmir.
4) Terminlər dildə üslubi funksiyanı yerinə yetirmir.
5) Terminlər dünya miqyasında işlədilir və sistematik səciyyə daşıyır.
6) Terminlər sistemləşdirmə xüsusiyyətinə malikdir.
7) Terminlərin bir çox dillərdə vahid formada istifadəsi mümkündür.

Dilin həm daxili imkanları, həm də spesifik söz yaradıcılığı hesabına hər hansı bir anlayışı yaxud konsepti ifadə etmək üçün, əgər həmin dildə konkret terminin yaradılması qeyri-mümkün olarsa, bu halda onların dildə ifadəsi üçün digər dillərdən müvafiq terminlərin alınıb istifadə edilməsi mümkündür. Dilin terminoloji leksikasının xeyli hissəsi digər dillərdən götürülmüş terminlərdən ibarətdir.

Artıq qeyd olunduğu kimi, terminlərin, eləcə də termin tipli sözlərin hər hansı bir dildən başqa dilə nüfuz etməsinin bir səbəbi də bəlli tarixi şərait faktorunun olmasıdır və buna görə də həmin leksik vahidlərin alınma üsulları müxtəlifliyinə görə seçilir. Bir qrup terminlər digər dillərdən zərurətdən alınır və onlar dilin təkamülü prosesində effektiv təsir göstərir. Qeyd edək ki, elmin, texnikanın və mədəniyyətin yüksəlişi ilə bağlı əmələ gələn yeni məfhumlar həmin alınmaların köməyi ilə ifadə olunur.

Digər dillərin lüğət ehtiyatında olan alınmaları və terminləri 2 növə ayırmaq mümkündür:

I. Zərurətdən alınan söz və terminlər

II. Məcburi səbəbdən alınan söz və terminlər

Terminlərin alınmasında nəinki ədəbi dilin, eyni zamanda danışıq dilinin də böyük rolu aydın müşahidə olunur.

Ədəbi dillə alınan terminlər əsasən ictimai-siyasi məzmunlu terminlər olduğu müəyyən olunmuşdur. Əgər termin mənbə dildən başqa dilə nüfuz edirsə, birbaşa alınmalar sayılır. Əgər terminlər digər dilin köməyi ilə alınarsa bunlar vasitəli alınmalar hesab edilir. Bu terminlərin rus dilinin köməyi ilə alınması artıq bizə məlumdur. Alınma terminlərlə bağlı aşağıdakı xüsusiyyətləri qeyd etmək olar:

1. Alınma terminin istər yazılı, istərsə də şifahi dilin köməyi ilə hər hər hansı bir məfhumu bildirir.

2. Bir qrup alınma terminlər ancaq şifahi danışıqda istifadə olunur, onlar ədəbi dildə işlədilmir.

Alınma terminlərin böyük əksəriyyəti müəyyən zaman kəsiyindən sonra dili tərk edir və bu dil hadisəsi aşağıdakı şəkildə baş verir:

a) Alınma terminlər biri digərini dildən sıxışdırıb çıxarır.

c) Əgər dildə mövcud olan hər hansı bir anlayışın (məfhumun) köhnəlməsi müşahidə olunarsa, onları bildirən terminlərin də köhnəlməsi və dildən çıxması müşahidə olunur.

Hər hansı dil tipik qrammatik struktura və fonetik sistemə malik olduğundan digər dillərdən aldığı alınma terminləri də öz dilinin qrammatikasına və fonetikasına uyğunlaşdırır. Bu baxımdan ədəbi dilimiz digər dillərdən aldığı termin və sözləri öz dil normasına tabe etməyə meyillidir. Elə bu səbəbdən alınma terminlərin bəziləri dəyişikliyə məruz qalmadan, digərləri isə müvafiq dəyişikliklərdən sonra dilimiz tərəfindən mənimsənilmişdir. Dillərin bir-birindən söz və söz birləşmələri alması hadisəsi dilçiliyin aktual məsələlərindən olub aşağıdakı məsələləri əhatə edir:

a) sözalma nədir;
b) sözalmanın başlıca səbəbi nədir;
c) alınmaların assimilyasiyası;
d) ümumişlək sözlər və beynəlmiləl alınmalar;
e) hər hansı bir dilin sözlərinin başqa dilə keçməsi.

Alınmalar dildə yeni əmələ gələn məfhumları və dildə olan anlayışları digərlərindən fərqləndirilməsində həmin dillərin leksik fondunun nəzərdən keçirmək və ondan istifadə etmək hadisəsidir. Bir qrup alınmaların istifadəsində məhdudiyyət müşahidə olunur, digər qrup alınmaların istifadəsi zəruri hesab olunmur, onlar öz əhəmiyyətini itirir, üçüncü qrup alınmaların isə dildə tutduğu mövqe sabit qalır.

Elə hallar olur ki, zəruri olmadığı halda hər hansı bir dilə digər dillərdən alınmalar daxil olur və həmin alınma dilin digər sözləri ilə rəqabətdə olur. Deməli, alınmalar mürəkkəbliyi ilə xarakterizə olunur. Bundan başqa onlar şərtiliyi ilə seçilir.

Hal-hazırda müasir dilçilikdə beynəlxalq terminologiyanın tədqiqi zərurətdən irəli gəlir və sistematik xarakter daşıyır. Terminlərin dilə nüfuz etməsi vacib olduğundan beyində düşünülür, ixtira olunur və dilin lüğət tərkibinə daxil edilir. Beynəlmiləl leksikanın dərindən araşdırılması, onun əmələ gəlmə yollarının aydınlaşdırılması dilin terminoloji qatının formalaşmasına effektiv təsir göstərir.

İngilis dilinin zənginləşməsində beynəlmiləl terminlərin əhəmiyyəti danılmazdır. Bu terminlər müxtəlif dillərdən alınaraq ingilis dilinin lüğət fonduna daxil olmuş və bu dili daha geniş və müxtəlif sahələrdə istifadə edilə bilən bir vasitəyə çevirmişdir. Xarici dil təsirləri, müharibələr, ticarət, elmi araşdırmalar və beynəlxalq əlaqələr nəticəsində ingilis dili xarici terminlərlə zənginləşmişdir. Bu terminlər təkcə lüğət tərkibini deyil, həm də ingilis dilindəki qrammatik və leksik quruluşları formalaşdıran mühüm amillərdən birinə çevrilmişdir.

Beynəlmiləl terminlərə, xüsusilə elmi və texnoloji sahələrdə rast gəlinir, çünki bu sahələrdə mütəxəssislər arasında qlobal dil birliyi tələb olunur. Nəticədə, ingilis dilinin beynəlmiləl sözlərlə zənginləşməsi yalnız dilin qlobal ünsiyyət vasitəsi kimi rolunu deyil, həm də müxtəlif mədəniyyətlər arasındakı əlaqə və əməkdaşlığı gücləndirir. Bu həmçinin ingilis dilindəki müasir terminologiyanın inkişafında da vacib bir addım olmuşdur.

Dilçi alimlərin fikrincə, beynəlmiləl terminlər xüsusi semantik və funksional xüsusiyyətlərə malik olan leksik vahidlər qrupunu təşkil edir. Bu terminlərin əksəriyyəti digər dillərdən mənimsənilmiş, yəni alınma elementlər əsasında formalaşmışdır. Əgər müəyyən bir söz eyni dövrdə bir neçə dilə daxil olarsa, bu zaman həmin sözlər beynəlxalq səviyyədə qəbul olunan və müxtəlif dillərdə eyni və ya yaxın formalarda işlənən leksik fondun yaranmasına səbəb olur. Bu beynəlxalq leksik fond, əsasən, iqtisadiyyat, siyasət, elm, texnika, incəsənət və digər fəaliyyət sahələrinə aid terminlərdən ibarətdir. Beynəlmiləl terminlərin əhəmiyyətli bir hissəsi qədim yunan və latın mənşəli sözlərə əsaslanır. Bu da dillərarası qarşılıqlı təsir və leksik zənginləşmənin tarixi proseslər nəticəsində baş verdiyini göstərir. Belə sözlərə nümunə olaraq *philosophy, synonym, democracy* kimi terminləri göstərmək olar [2, s. 231].

Tanınmış dilçi alim V.D.Arakinin fikrincə, ingilis dilində rus mənşəli alınmaların sayı digər dillərlə müqayisədə daha azdır. Bunun əsas səbəbi, rus və ingilis xalqları arasında mədəni və siyasi əlaqələrin nisbətən gec – yalnız XVI əsrdən etibarən qurulması ilə bağlıdır.

Lakin sonrakı dövrlərdə, xüsusilə XVII-XIX əsrlər arasında bu sahədə müəyyən artım müşahidə olunmuşdur. Həmin dövrdə ingilis dilinə rus dilindən *astrakhan – каракуль; samovar – самовар; zakuska – закуска; steppe – степь; versta – верста; vodka – водка* kimi sözlər daxil olmuşdur.

V.D. Arakin eyni zamanda qeyd edir ki, ingilis dili tarix boyu əhəmiyyətli dəyişikliklərə məruz qalsa da, onun qrammatik sistemi və əsas leksik strukturu hələ də german dilləri qrupunun xarakterik xüsusiyyətlərini qoruyub saxlayır. Bununla yanaşı, müasir ingilis dilinin lüğət fondunda çoxsaylı xarici mənşəli sözlər yer almaqdadır ki, bu da dilin inkişafında və beynəlxalq səviyyədə ünsiyyət vasitəsinə çevrilməsində mühüm rol oynamışdır [4, s. 260].

Qeyd olunmalıdır ki, beynəlmiləl terminlər ümumilikdə alınma sözlərlə oxşar təsnifat meyarlarına malikdir. Bu meyarlara leksik vahidlərin mənşəyi, istifadə sahəsi və dilə uyğunlaşma (assimilasiya) dərəcəsi daxildir. Bu xüsusiyyətlərə əsaslanaraq beynəlmiləl alınmaların inkişaf tarixində üç əsas mərhələni fərqləndirmək mümkündür:

1. Xristianlığın yayılması dövrü

Bu mərhələ ingilis dilində ilk dəfə olaraq yad mənşəli terminlərin meydana çıxması ilə xarakterizə olunur. Xristianlığın yayılması ilə əlaqədar olaraq, əsasən latın və yunan dillərinə məxsus dini və fəlsəfi terminologiya ingilis dilinin leksik fonduna daxil olmuşdur. Bu dövr beynəlmiləl leksikanın ilkin formalaşma mərhələsi hesab olunur.

2. Elmi-texniki inqilablar dövrü

Bu mərhələdə elmin və texnologiyanın sürətli inkişafı nəticəsində müxtəlif sahələrdə yeni anlayışlar və anlayışları ifadə edən terminlər yaranmışdır. Xüsusilə XVII-XIX əsrlərdə fransız dilindən böyük sayda terminoloji vahidlər müxtəlif dillərə, o cümlədən ingilis dilinə daxil olmuşdur. Bu alınmalar əsasən elmi, texniki və ictimai-siyasi leksikaya aiddir.

3. XX əsrdə ingilis dilindən alınmalar dövrü

Bu dövr ingilisdilli ölkələrin iqtisadi, siyasi və texnoloji baxımdan qlobal üstünlüyə malik olması ilə xarakterizə olunur. XX əsrin ikinci yarısından etibarən ingilis dili beynəlxalq ünsiyyət vasitəsinə çevrilmiş və xüsusilə kütləvi informasiya vasitələri, mədəniyyət və internetin inkişafı nəticəsində bir çox terminlər digər dillərin leksikasına daxil olmuşdur. Bu mərhələdə ingilis dilindən alınan beynəlmiləl sözlər texnologiya, biznes, informasiya və ünsiyyət sahələrində geniş yayılmışdır [3, s.125].

Bu mərhələlər beynəlmiləl terminlərin formalaşmasında və inkişafında tarixi və funksional əsasların olduğunu göstərir. Hər bir dövrün dilə təsiri həm struktur, həm də semantik baxımdan mühüm rol oynamışdır.

Dilçi alim A.Ə.Rıtsareva beynəlmiləl terminləri aşağıdakı kimi xarakterizə edir: *"Beynəlmiləl terminlər – bir neçə (ən azı üç) dünya dilində fonetik, qrafik və semantik baxımdan yaxın olan, müxtəlif dillərarası kontaktlar nəticəsində formalaşan və elm, texnika, biznes, siyasət, incəsənət, kommunikasiya kimi sahələrdə ümumi anlayışları ifadə edir" [7, s. 135].*

Tarixi-linqvistik araşdırmalar göstərir ki, ingilis dilində çoxsaylı leksik vahidlər qədim yunan və Latın dillərindən alınmışdır. Xüsusilə orta əsrlərdə latın dili Avropada elmin və təhsilin əsas ünsiyyət vasitəsi olmuş, nəticədə bir çox terminlər və anlayışlar bu dil vasitəsilə müxtəlif Avropa dillərinə keçmişdir. Məsələn, müasir dövrdə istifadə olunan tibb terminlərinin əksəriyyəti latın mənşəlidir.

Digər mühüm təsir italyan dilinə məxsusdur. İtalyan dili, xüsusilə musiqi terminləri sahəsində beynəlmiləl termin ehtiyatının formalaşmasında aparıcı rol oynamışdır. Aşağıdakı terminlər bu sahəyə nümunə ola bilər:

Opera – opera, *aria* – ariya, *baritone* – bariton, *cappella* – kapella, *allegro* – sürətli tempdə ifa.

Eyni zamanda, italyan mənşəli digər beynəlmiləl terminlər də bu dildə öz yerini tutmuşdur:


Bank – bank, *band* – banda, *brigade* – briqada, *archipelago* – arxipelaq, *casino* – kazino və s.

Bu faktlar beynəlmiləl terminlərin formalaşmasının yalnız leksik alınma deyil, eyni zamanda mədəni və tarixi əlaqələrin nəticəsi olduğunu bir daha təsdiqləyir.

Bu cür nümunələr beynəlmiləl leksikanın həm leksik-semantik baxımdan mürəkkəbliyini, həm də tədris prosesində düzgün izahın və kontekstual təhlilin vacibliyini bir daha göstərir [1, s. 61].

Artıq məlum olduğu kimi, beynəlmiləl terminlərin əksəriyyəti yunan və latın mənşəlidir. Bununla belə, həmin terminləri nəzərdən keçirdikdə, belə məlum olur ki, onların araşdırılması öz tarixləri haqqında heç bir məlumat ötürmür. Deməli, beynəlmiləl terminlərin əksəriyyətinin müasir dillə əlaqəsi yoxdur, onlar yunan və latın mənşəli ünsürlərin vəhdətindən yaranmışdır.

Bu terminləri sxematik olaraq aşağıdakı kimi göstərmək olar:



Beynəlmiləl leksikanın zənginləşməsində digər dillər də aparıcı rol oynayır.

Beynəlmiləl terminlərin formalaşması təsadüfi proses deyil, müəyyən obyektiv səbəblərlə izah olunur. Bu səbəblər iki əsas qrupa bölünür: *xarici* və *daxili* səbəblər. Hər iki amil dilin leksik sisteminin zənginləşməsində və beynəlmiləl terminologiyanın formalaşmasında mühüm rol oynayır.

1. Xarici səbəblər

Xarici səbəb dedikdə, yeni anlayış və ya əşyanın mənimsənilməsi ilə yanaşı, onun adı olan sözün də başqa dildən alınması nəzərdə tutulur. Bu hal, adətən, texnoloji yeniliklər, ixtiralar və yeni peşə sahələrinin yaranması ilə müşayiət olunur. Məsələn, *radio*, *televiziya*, *kompüter*, *transport*, eləcə də *menecer*, *supervayzer*, *merçandayzer* kimi sözlər müvafiq anlayışlarla birlikdə dilə daxil olmuşdur.

Belə alınmalar daha çox elm, texnika, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə baş verir və nəticədə həmin terminlər milli dillərin aktiv lüğət fonduna daxil olaraq ümumişlək leksik vahidlərə çevrilir. Zaman keçdikcə bu sözlər öz alınma xarakterini itirərək dilin təbii tərkib hissəsinə çevrilirlər. Məsələn: *cosmonaut*, *compression*, *pilot*, *situation* və s.

2. Daxili səbəblər

Daxili səbəblər dilin öz daxilindəki inkişaf ehtiyacları ilə bağlıdır. Bu hallarda alınma sözlər daha uzun və mürəkkəb təsviri ifadələri əvəz edərək dilin iqtisadi prinsiplərinə uyğun olaraq qısa və konkret ifadə vasitəsi kimi çıxış edir. Eyni zamanda, bəzi morfoloji modellərin – məsələn, *-men* şəkilçili sözlərin – dilə uyğunluğu həmin alınmaların qəbul olunmasını asanlaşdırır. Məsələn: *biznesmen*, *idmançı (sportsmen)*, *konqresmen*, *barmen* və s. Bu terminlər hər iki dildə (ingilis və Azərbaycan dillərində) oxşar formada istifadə olunur və dilin lüğət tərkibinə daxil olmuşdur. Beynəlxalq terminlərin daxil olması, elmi və texniki inkişafla bağlı olaraq dillər arasında qlobal əlaqələrin və informasiya mübadiləsinin artmasına səbəb olur [5, s.112].

Beləliklə, beynəlmiləl terminlərin müxtəlif dillərə daxil edilməsi, ölkələr arasında ünsiyyətin genişlənməsinə və dövlətlərin yaxınlaşmasına kömək edir. Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa İttifaqı (Aİ), UNICEF və digər beynəlxalq təşkilatlar dünya ölkələrini birləşdirir, bu isə şübhəsiz, çoxsaylı beynəlmiləl terminlərin yaranmasına səbəb

olur. Müasir dövrdə, həmçinin elmi və texniki irəliləyişlər də xarici leksikanın dillərə daxil olmasına təsir göstərir. Bu konteksdə, kütləvi informasiya vasitələrini – çap nəşrlərini, televiziya və radio yayımını, eləcə də interneti qeyd etmək lazımdır.

Bir çox dilçilər hesab edir ki, xarici sözlərin artması beynəlmiləl dilin yaranmasına səbəb ola bilər. Hal-hazırda *Esperanto* kimi süni dillərin mövcudluğu bunu təsdiq edir. Bu səbəbdən, beynəlmiləl terminlərin müsbət və ya mənfi bir fenomen olduğunu müəyyənləşdirmək çətindir. Beynəlmiləl terminlər, müxtəlif millətlərdən olan insanlar arasında ünsiyyəti asanlaşdırsa da, eyni zamanda dilin özünəməxsusluğunun və unikallığının itirilməsinə səbəb ola bilər. Lakin informasiya texnologiyalarının inkişaf etdiyi müasir dövrdə, beynəlmiləl leksikanın dilin inkişafı və zənginləşməsi baxımından zəruri olduğu qeyd edilməlidir.

XX əsrin ortalarında dilçilik sahəsində beynəlmiləl terminlər və alınma sözlərin əlaqəsi ilə bağlı müxtəlif baxışlar meydana çıxmışdır. İ.V.Zıkova alınma sözlərin tərifini belə təqdim edir: *"Alınma söz, başqa dildən götürülən və fonetik, orfoqrafik dəyişikliklərə məruz qalan, həmçinin dilin norma və qaydalarına uyğun olaraq paradigma dəyişiklikləri yaşayan sözdür"* [6, s.103].

Müasir dilçilikdə beynəlmiləl leksikanın spesifik forması müşahidə olunur ki, bu da ingilis dilinin beynəlxalq kommunikasiyada lider mövqe tutması ilə izah olunur. Hazırda beynəlmiləl leksikanın əhəmiyyətli bir hissəsi ingilis dilinə məxsus kök morfemlərdən ibarətdir. Bu tip terminlər müxtəlif dillərə orijinal şəkildə daxil olaraq, semantik və morfoloji baxımdan geniş istifadə olunur. Belə sözlərə nümunə olaraq aşağıdakılar göstərilə bilər: *bank, business, design, disk, drive, market, media, net, test* və s.

Bu terminlərin beynəlxalq miqyasda yayılması, həm texnoloji və elmi tərəqqi, həm də qlobal informasiya mübadiləsi ilə sıx bağlıdır. Nəticədə, bu cür sözlər yalnız dilin leksik tərkibini zənginləşdirmir, eyni zamanda, dilin beynəlxalq aləmdə funksionallığını artırır.

Elmi nəticə. Nəticə olaraq qeyd etmək olar ki, beynəlmiləl terminlər yalnız leksik tərkibin genişlənməsinə deyil, həm də dilin qlobal ünsiyyət vasitəsi kimi formalaşmasına şərait yaratmışdır. Onlar elmi-texniki tərəqqi, informasiya texnologiyalarının inkişafı, beynəlxalq əməkdaşlıq və mədəni mübadilə sahələrində kommunikasiya effektivliyini artırmışdır.

Bu cür terminlər müxtəlif dillərdə eyni və ya oxşar formada istifadə olunaraq, elmi və peşəkar diskursda vahid terminoloji sistemin formalaşmasına töhfə verir. Nəticə etibarilə, beynəlmiləl terminlər həm dilin struktur inkişafına, həm də onun funksional imkanlarının genişlənməsinə xidmət edir.

Beləliklə, beynəlmiləl terminlər ingilis dilinin qlobal statusunu möhkəmləndirən, onun beynəlxalq səviyyədə ünsiyyət vasitəsi kimi qəbul olunmasına səbəb olan əsas amillərdən biri kimi qiymətləndirilməlidir.

Məqalənin elmi yeniliyi. İngilis dili bu gün dünyanın aparıcı beynəlxalq ünsiyyət dili kimi çıxış edir. Qloballaşma prosesləri nəticəsində bu dil təkcə ana dili olan ölkələrdə deyil, eyni zamanda müxtəlif coğrafi, siyasi və mədəni mühitlərdə də əsas kommunikasiya vasitəsinə çevrilmişdir. Bu geniş istifadə sahəsi ingilis dilinin davamlı olaraq yeni söz və terminlərlə zənginləşməsini zəruri edir və mövzunun ***aktuallığını*** bir daha ön plana çəkir.

Bu mövzu eyni zamanda, dilin inkişafı, elmi-texniki tərəqqi, qlobal ünsiyyət, akademik fəaliyyət və mədəni qarşılıqlı təsir baxımından böyük aktuallıq daşıyır.

Praktik əhəmiyyəti. İngilis dilinin dünya dilləri içərisində öncül mövqeyi və beynəlmiləl terminlərin bu dilin inkişafındakı rolu, bu istiqamətdə aparılan tədqiqatların elmi və praktik əhəmiyyətini daha da artırır. Məqalə ingilis dilinin tədrisində, dil üzrə xüsusi seminarların aparılmasında faydalı mənbə kimi istifadə oluna bilər.

Ədəbiyyat

1. Əlizadə, R. Qloballaşma dövründə beynəlmiləl leksikanın inkişafı // Bakı: Azərbaycan Dillər Universitetinin Elmi Əsərləri, – 2019. №1, – s. 60-68.

2. Haspelmath, M. Loanwords in the World's Languages: A Comparative Handbook / M.Haspelmath, U. Tadmor. – Berlin: De Gruyter Mouton, – 2009.
3. Trask, R.L. Historical Linguistics / R.L.Trask, – London: Arnold Publishers, – 2000.
4. Аракин, В.Д. История английского языка / В.Д.Аракин, – М.: Физматлит, – 2001. – 272с.
5. Арнольд, И.В. Лексикология современного английского языка: учеб. Пособие / И.В.Арнольд, – М.: ФЛИНТА: Наука, Изд 2-е., перераб.– 2012. – 376 с.
6. Зыкова, И.В. Практический курс английской лексикологии / И.В.Зыкова, – М.: Academia, – 2006. – 288 с.
7. Рыцарева, А.Э. Проблема глобализации английского языка в современном языкознании // Актуальные вопросы английской филологии: Межвуз. сб. науч. тр. – Издательство Пятигорского государственного лингвистического университета. Пятигорск, – 2001. – с. 135-140.

E.T.Mammadova

The Role of International Terms in the Enrichment of the English Vocabulary

Summary

English has emerged as a leading international language of communication in today's world. As a result of globalization processes, it functions not only in countries where it is the native language, but also serves as the primary medium of communication across various geographical, political, and cultural contexts.

The prominent position of English among the world's languages and the role of international terms in its development further enhance the scientific and practical significance of research conducted in this area.

The aim of this article is to examine the role of international terms in the enrichment of the English lexicon. It investigates how international terminology influences language development, the reasons and consequences behind the integration of such terms into the global language, as well as their function in contemporary society and the academic environment. In addition, the significance of international terms in fields such as education, information technologies, and other areas is also highlighted.

Key words: *international terms, lexical integration, vocabulary stock, international communication, globalization*

Е.Т.Мамедова

Роль интернациональной терминов в обогащении лексического состава английского языка

Резюме

Английский язык на сегодняшний день выступает в качестве ведущего средства международного общения. В результате процессов глобализации он стал основным языком коммуникации не только в странах, где является родным, но и в различных географических, политических и культурных контекстах.

Преобладание английского языка среди мировых языков и роль международных терминов в его развитии значительно повышают научное и практическое значение исследований в этой области.

Цель статьи заключается в исследовании роли международных терминов в обогащении лексического состава английского языка. Рассматриваются влияние международных терминов на развитие языка, причины и последствия их интеграции в глобальный язык, а также их функция в современном обществе и научной среде. Одновременно подчеркивается значение международных терминов в области образования, информационных технологий и других сфер.

Ключевые слова: *международные термины, лексическая интеграция, лексический фонд, международное общение, глобализация*

Rəyçi: filol.e.f.d., dos. Zöhrab-Məcid Məsmə

Redaksiyaya daxil olub: 14.05.2025

S.S.MƏMMƏDOVA
e-mail: sabina_mamedova73@mail.ru
:https://orcid.org/0009-0009-0745-8464

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNDƏ ARQOTİZMLƏRİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Arqotizmlərin ingilis dilindəki rolu və spesifik xüsusiyyətlərinin öyrənilməsi müasir dilçilikdə mühüm bir tədqiqat sahəsi hesab olunur. Arqotizm, müəyyən sosial qrupların və ya mədəniyyətlərin istifadə etdiyi xüsusi dil ifadələri və terminləridir ki, bu da həmin qrupların ünsiyyətini asanlaşdırır və özünəməxsus kimliyini qoruyur.*
Bu mövzunun araşdırılmasının əsas məqsədi, ingilis dilində arqotizmlərin spesifik xüsusiyyətlərini, onların semantik strukturlarını və funksiyalarını təhlil etməkdir.

Açar sözlər: *arqotizmlər, mədəni fərqliliklər, qeyri-normativ dil, subkultur dəyərlər, sosial qruplar*

Müasir dilçilikdə dilçi alimlərin nəzər diqqətində olan problemlərdən biri də qeyri-normativ leksikanın tədqiqidir. Qeyri-normativ leksikaya invektiv leksika da deyilir. Qeyri-normativ leksikanın meydana çıxması dilin semantik qatının inkişafı ilə əlaqədardır və bu leksika əsasən leksik-semantik üsulların köməyi ilə təzahür edir. Linqvistik ekspressivliyi özündə ehtiva edən və cəmiyyətin müəyyən zümrəsi, bəlli sosial qrupları tərəfindən işlədilən bu leksika cəmiyyət həyatında böyük təsir dairəsinə malikdir. Diqqəti cəlb edən məqam odur ki, təhqiramiz xarakterli bu qrup sözlər təkcə nitq mədəniyyəti prosesində deyil, eyni zamanda yazılı mətnlərdə istifadə olunur və belə bir semantika lüğətlərdə əks olunmur.

Qeyri-normativ leksikanın başlıca semantik sahəsinə jarqonlarla yanaşı, arqo sözlər yaxud arqotizmlər də daxildir. Məlumdur ki, jarqonlar və jarqon tipli leksik vahidlər cəmiyyətin xüsusi zümrəsi tərəfindən istifadə olunur.

Arqo (fransız mənşəli olub argot sözündən əmələ gəlmişdir) dar mənada "orta əsrlərdə Fransada dilənçilər və oğrular tərəfindən istifadə olunan" dil idi. Daha geniş mənada ifadə etsək *"Müəyyən bir qrup və ya sinif tərəfindən istifadə edilən və ümumi cəmiyyət tərəfindən geniş şəkildə başa düşülməyən hər hansı bir xüsusi lüğət və ya ifadələr toplusudur"* [3, s. 85].

Arqotizmlər qeyri-normativ leksikanın əsas qollarından biri hesab olunur. Gündəlik ünsiyyət prosesində istifadə olunan sözlər ilkin mənasından uzaqlaşaraq müxtəlif semantik məanı ifadə etdir, konkret desək, arqolaşmaya məruz qalır. Qeyd edək ki, hər hansı leksik vahidin arqotizmə çevrilməsi mümkündür. Əlbəttə, bu dil hadisəsi şəxsin dünyaya baxış bucağı, mədəni səviyyəsi və digər xüsusiyyətlərindən asılıdır.

Bildiyimiz kimi, dilin normal semantik məna kəsb edən leksik vahidləri sosial münasibətlər kontekstində fərqli mənalar daşıya bilər, yəni arqolaşa bilər. Arqotizmlərə təkcə yerli sözlər deyil, həm də alınmalar daxildir. Alınmaların bəzisi orijinal variantlarında işləndiyi halda, digərləri də həqiqi mənasında işlənmir.

İngilis dilində arqotizmlər, xüsusilə sosial və mədəni dəyişikliklər fonunda inkişaf edən və genişlənən qeyri-standart dil formaları olaraq diqqətəlayiq yer tutur. Qeyd olunduğu kimi, arqo, bir dilin müəyyən qrup və ya təbəqəsi tərəfindən istifadə olunan, xüsusən də adi və ya rəsmi dilə aid olmayan ifadələr və terminlərdən ibarət bir leksik qrupdur. Bu dil formaları, bir çox hallarda müəyyən sosial qrupların öz aralarındakı əlaqələri gücləndirmək və ya fərqliliklərini vurğulamaq məqsədi daşıyır.

Arqotizmlərin mədəniyyətə aid dil formaları kimi çıxış etməsi onların həm struktur, həm də funksional xüsusiyyətlərində özünü göstərir. Belə dil formaları, bəzən normativ dil qaydalarına tabe olmur, özəl qrammatik konstruksiyalar və fonetik dəyişikliklərə malik ola

bilər. Bu onları standart dil formalarından ayırır və həmin qrupların daxilində xüsusi mənalar yaradır. Məsələn, bir çox arqotizm müəyyən bir subkulturanın dəyərlərini, gündəlik həyatını və təcrübələrini təmsil edən sözlərdir; bu sözlər həmin subkulturanın sosial mövqeyini, digər cəmiyyətlərlə olan münasibətini və mədəni fərqliliklərini əks etdirir.

Arqotizmlərin bu cür funksiyası, dilin yalnız məlumat ötürmə vasitəsi olaraq deyil, həm də sosial əlaqə qurma və identifikasiya üçün istifadə edildiyini göstərir. Hər bir mədəniyyət və sosial qrup öz dilində spesifik arqotik ifadələr inkişaf etdirərək, həmrəylik və ayrılıq hissini gücləndirir. Məsələn, bir çox kriminal və ya gənclər subkulturlarında istifadə olunan arqotizmlər, bu qrupların daxili əlaqələrini möhkəmləndirir, eyni zamanda həmin qrupların xarici cəmiyyətlərlə olan əlaqələrini müəyyən qədər gizləyir və ya fərqləndirir.

Arqotizmlər, həmçinin cəmiyyətin müxtəlif təbəqələri və subkulturları arasında dilin ayrılmasını təmin edir, bu da sosial və mədəni təbəqələşmənin dil üzərindəki əksini göstərir. Mədəniyyətlərarası qarşılıqlı təsir nəticəsində arqotizmlərin yayılması və inkişafı, bir çox hallarda dilin qlobal dəyişikliklərini, yerli xüsusiyyətlərini və sosial dəyişiklikləri izah etməyə imkan verir. Bu aspekt, arqotizmlərin tədqiqində xüsusi əhəmiyyət kəsb edir, çünki onların tədqiqi, yalnız dilin struktural aspektlərini deyil, eyni zamanda sosial və mədəni dinamikaları, o cümlədən qruplar arasındakı münasibətləri və identifikasiya proseslərini də ortaya qoyur [1, s.48].

Günümüzdə arqo kriminal aləm tərəfindən istifadə edilən terminlər olmaqdan çıxmış, müxtəlif mədəniyyətlərin və texnologiyadakı yeniliklərin təsiri ilə yaranan və müxtəlif toplumlar tərəfindən istifadə edilən dil variantına çevrilmişdir. Arqo sözlər tez-tez dəyişilir. Bir nəsil üçün arxaikləşən arqolar yeni nəsil tərəfindən qəbul olunmur, yaxud başa düşülmür. Bu ifadələr zamanla təsvir etdikləri mənanı itirir. Adətən arqolar ya arxaikləşməyə sürüklənir və ya ekssentrik rəngini itirərək standart dilə qəbul edilir. Nümunə üçün *Hot chick* sözünə diqqət yetirək. Bu söz XIX əsrdə yaranmış və arqo kimi *"cazibədar və gənc qadın"* mənasını ifadə etmişdir. Amma daha sonra semasioloji dəyişiklik nəticəsində bu ifadə standart dilə qəbul edilərək 1920-ci illərdə *"həyat dolu qadın"* mənasında işləklik qazanaraq dilin aktiv balansına daxil olmuşdur. Arqo sözləri tapmaq, onların mənasını açıqlamaq və unitar bir fenomen olaraq qavramaq çətindir. Bu səbəbdən də arqo konsepti bir sıra leksikoqraflar tərəfindən yalnış izah edilmiş və bəzi dilçilər tərəfindən arqo sözlər, ləhcə və dialekt kimi qiymətləndirilmişdir [2, s. 146].

I.R.Galperin özünün "Stylistics" adlı əsərində qeyd edir ki, *"German dil ailəsinə mənsub dillərdə arqotizm xüsusi bir dil variantı kimi qəbul edilməmişdir. Belə sözlər adətən jarqon və vulqar ifadələr kimi dəyərləndirilmiş və onlara bu cür yanaşma göstərilmişdir. Arqolar haqqında çoxsaylı izahlar verilmiş və tərifl ər hazırlanmışdır. Lakin həm dilçilər, həm də tədqiqatçılar arasında bu fenomenə fərqli yanaşmalar mövcud olmuşdur. Nəticədə, bu müxtəlif yanaşmalar arqoları sadəcə vulqar sözlərdən ibarət olaraq deyil, həm də akademik araşdırmalar üçün əlverişli bir dil variyasiyasına çevirmişdir" [6, s. 125].*

Bu açıqlamada I.R.Galperin, arqotizmlər elmi və praktiki dilçilikdə necə fərqli qiymətləndirildiyini və onların zamanla necə genişləndiyini və daha dərin təhlil olunduğunu vurğulayır. O, arqoların əvvəllər vulqar və qeyri-rəsmi dillər kimi qiymətləndirildiyini, lakin tədqiqatçıların bu fenomenu akademik dilin bir hissəsi kimi araşdırmağa başlaması ilə bu ifadələrin başqa bir dil variyasiyasına çevrildiyini bildirir.

Qeyd etmək lazımdır ki, bir sıra hallarda arqo sözləri vulqar sözlərlə eyniləşdirirlər. İstənilən sözün arqoya çevrilməsi prosesində sözlər neqativ çalar daşıyır, öz həqiqi mənasından uzaqlaşır və fərqli anlamda özünü göstərir. Lakin bunu heç vəzhlə vulqarlaşma hesab etmək düzgün deyil. Məsələn**:**

Sərxan başına gələnləri danışanda quş buraxdı cümləsində onun kontekstə, müəyyən bir vəziyyətə, hadisəyə dəxli olmayan yersiz yaxud mənasız, qeyri-münasib söz işlətməsi başa düşülür.

Verilən misaldan aydın olur ki, normal məna kəsb edən söz və ya ifadə sosial münasibətlər kontekstində fərqlilik yaradır, yəni arqo sözə çevrilir. Bu baxımdan onları kodlaşmış

sözlər kimi qəbul edə bilərik. Arqotizmlər kiçik kütləyə malik olması və dinamikliyinə görə əsasən gənc nəslin nitqində işlədilir. Bununla yanaşı yaşlı nəsillərin nitqində populyarlıq qazanmış arqo sözlər də mövcuddur.

Arqotizmlərin mənşəyinə nəzər saldıqda məlum olur ki, dil təkamül etdikcə bu leksik vahidlər də formalaşmağa başlayır. Əlahiddə lüğətlər vasitəsilə arqotizmlərin mənşəyini qəti olaraq müəyyənləşdirmək bir qədər çətindir. Bu sözün fransız mənşəli "arqot"dan əmələ gəldiyi ehtimal olunur. Zaman-zaman arqotizmlərin xüsusi sosial qruplar və sənət-peşə sferasında işlədilən əlahiddə sözlüklərə müraciət olunmaqla geniş şəkildə işlədilməsi müşahidə edilir. Arqo sözlər əksər hallarda bir o qədər də sadə şəkildə qavranılmayan ideya və fikirləri, həmçinin müvafiq informasiyaları təqdim etmək üçün istifadə edilir. Belə ki, fərqli sosial qruplar öz məqsəd və ideyalarının, planlarının məxfiliyini qorumaq üçün bu leksik vahidləri işlədirlər.

Qeyd edək ki, arqotizmlər müxtəliflik dərəcəsinə görə fərlənir. Bir qisim arqotizmlər insanlar arsında açıq-aydın işlədilir və əksər insanlar onları asanlıqla anlayır. Digər qrup arqo sözlər məxfi saxlanıldığından ancaq seçilmiş zümrə tərəfindən başa düşülür. Buna görə də onlar "gizli dil" hesab olunur. Məsələn, *bir kəsin əriştəsini bişirmək* yaxud *kəsmək* dedikdə onun tutulması, yaxalanması başa düşülür. *Yazıq Nurlanın başını qırxdılar* cümləsi, *Yazıq Nurlanın başının tovlayıb pulunu əlindən aldılar* anlamına gəlir. *Bariqalar* dedikdə isə narkotik maddələri satanlar başa düşülür.

Arqoların bədii ədəbiyyatda yeri xüsusi əhəmiyyət daşıyır, çünki onlar dilin zənginliyini və müxtəlifliyini göstərir, xarakterlərin sosial mövqelərini, dünyagörüşünü və sosial qruplar arasındakı münasibətləri əks etdirir. Arqotizm, bədii ədəbiyyatın üslubunda, xüsusən də fərqli sosial təbəqələri və subkulturaları təsvir edərkən mühüm rol oynayır. Müəlliflər arqotizmlərdən istifadə edərək, personajların xarakterlərini daha canlı və inandırıcı təqdim edirlər, eyni zamanda əsərə xüsusi bir atmosfer və sosial kontekst qazandırırlar.

Arqoların bədii ədəbiyyatda istifadəsi müxtəlif məqsədlərə xidmət edə bilər:

1. *Xarakterlərin sosial statusunu və mənşəyini göstərmək:* Arqotizmlər, xüsusilə daha az təhsilli və ya cəmiyyətin marginal qruplarına mənsub olan personajları təsvir edərkən, həmin qrupların dilini təkrarlamaq və sosial ayrımçılığı göstərmək üçün istifadə edilir.

2. *Dilin təbii və realistikliyini artırmaq:* Arqotizmlər gündəlik danışıq dilinin bir hissəsidir və bədii əsərlərdə bu dil formalarının istifadəsi əsərin daha realistik və inandırıcı olmasına kömək edir.

3. *Mədəniyyətlərarası fərqlilikləri vurğulamaq:* Arqotizmlər çox zaman müəyyən subkulturalara və ya sosial qruplara xas olur. Bu, bədii əsərin mədəni və sosial zənginliyini əks etdirir [3, s.60].

Fikrimizi əsaslandırmaq üçün nümunələrə diqqət yetirək.

***Fagin**: "Never forget, my boy, the trick of the trade is to be **sharp**. If you can't spot the **dodges**, you're doing it all wrong".*

***Artful Dodger** (Fagin's pupil): "Only a **rook** would fall for that. No one can beat us if we know the game" [5, p.44].*

***Fagin**: "Heç vaxt unutma, oğlum, işin əsası budur: **gözüaçıq olmalısan**. Əgər **hiylələri** görə bilmirsənsə, deməli, səhv edirsən".*

***Artful Dodger** (Faginin şagirdi): "Ancaq **axmaq** biri bu işə düşər. Əgər biz oyunun qaydalarını bilsək, heç kim bizi məğlub edə bilməz".*

Charles Dickens-in "Oliver Twist" əsərindən verilmiş bu nümunədə Londonun kasıb və cinayətkar təbəqələrinə aid olan personajları təsvir etmək üçün arqotizmlərdən istifadə edir. Əsasında, Fagin və onun "gənc oğrular"ı arasında işlədilən arqotik sözlər və ifadələr, onların sosial mövqeyini, qruplaşmalarını və davranışlarını əks etdirir. Fagin və digər personajların dili həmin dövrün kasıb təbəqəsinin həyatını və mədəniyyətini əks etdirən güclü bir üslub vasitəsidir.

Bu dil formaları, bu insanların cəmiyyətin digər təbəqələrindən necə təcrid olunmuş və özünə məxsus bir dünya yaratdıqlarını əks etdirir. Faginin və onun şagirdlərinin dilindəki ar-

qotizmlər yalnız bir xarakterin davranışını təsvir etmir, həm də cəmiyyətin onlara necə baxdığını, onların sosial mövqeyini və yaşadıqları şəraiti izah edir. Arqotizmlər, personajların bir-biri ilə olan münasibətlərini və dünyagörüşlərini əks etdirən vasitə kimi çıxış edir, həmçinin əsərin məzmununu və ümumi tematikasını gücləndirir. Ch.Dickens, bu dil vasitələrini işlədərək, oxucuya sosial və mədəni mövzuları daha dərin və təfərrüatlı şəkildə çatdırmağa imkan verir. Nəticədə, arqotizmlərin istifadəsi yalnız xarakterlərin etnososial kimliyini açmaqla kifayətlənmir, həm də əsərin sosial kontekstini daha zəngin və realist bir şəkildə təqdim edir.

Başqa bir nümunəyə diqqət yetirək:

"The Junkie is always looking for a way to score. The game is to get what you want without getting caught. If you can stay one step ahead, you're doing okay. You don't talk about the game too much. You just do it. If you know how to score and keep your mouth shut, you'll be alright"[4, p.92].

"Yoxsul (Junky) həmişə narkotik almağın yolunu axtarır. Oyunun mahiyyəti isə istədiyini əldə etməkdir, amma tutulmamaq şərti ilə. Əgər bir addım öndə ola bilsən, deməli yaxşısan. Oyun haqqında çox danışmırsan. Sadəcə edirsən. Əgər narkotik almağı bilirsənsə və ağzını sıx tutursan, işin yaxşı olacaq".

William S. Burroughs-un "Junky" ("Yoxsullar") əsərindən verilmiş bu parçada dil və istifadə olunan arqotizmlər W.Burroughs-un narkotik istifadəçilərinin həyatını necə təsvir etdiyini göstərir. W.Burroughs, əsərində narkotik istifadəçilərinin həyatı, psixologiyası və onların dilindən istifadə edərək, həm sosial, həm də fərdi səviyyədə bu fenomeni dərindən təhlil edir. Burada arqotizmlər və xüsusi dil formaları, narkotik istifadəçilərinin həyat tərzini, qaydalarını və dünyagörüşünü əks etdirmək üçün əhəmiyyətli rol oynayır.

"Score" – sözü burada *narkotik alveri etmək, əldə etmək* mənasında istifadə olunur. Arqotik mühitdə bu söz "almaq" və ya "qazanmaq" mənasında tez-tez işlədilir və narkotik asılılarının gündəlik dilində mühüm bir yer tutur. Bu, narkotiklərin əldə edilməsi ilə bağlı müəyyən sosial qaydaları və eyni zamanda asılılığın yaratdığı təkrarlanan dövrü simvollaşdırır.

"The game" – "oyun" sözü, narkotik istifadəçilərinin öz həyatlarını davam etdirmək üçün qarşılaşdıqları çətinlikləri və riskləri təmsil edir. "Oyun", həmçinin bu sosial qrupun gizli, qanunsuz və əxlaqsız davranışlarını əks etdirən bir metaforadır. Burada "oyun" yalnız narkotiklərin əldə edilməsi prosesini deyil, həm də onlarla bağlı sosial münasibətləri və güc dinamikalarını izah edir.

"Stay one step ahead" – bu ifadə narkotik alverində və istifadəçiləri arasında baş verən sosial qarşıdurmalarda üstünlük qazanmaq və ya hüquq-mühafizə orqanlarından qaçmaq mənasında istifadə edilir. Bu, narkotik mühitində *"ayaqda qalmağın"* və təhlükələrdən qaçmağın vacibliyini göstərir. Burada, asılı insanların həyatlarını davam etdirmək üçün gərgin, daim hərəkətdə olmalarını və sosial sistemdən kənarda olduqlarını əks etdirir.

"Keep your mouth shut" – bu ifadə, narkotik istifadəçilərinin və alverçilərinin, xüsusən də hüquq-mühafizə orqanlarından qaçmaq məqsədilə, həmişə öz əməliyyatlarını və əlaqələrini gizli saxlamağa çalışdıqlarını ifadə edir. Burada dil, bir növ təhlükəsizlik vasitəsi olaraq xidmət edir; *danışmamaq,* "oyunda" qalmaq üçün əsas qaydalardan biridir.

W.Burroughs arqolardan istifadə etməklə, narkotik alverinin və istifadəçilərinin həyatını yalnız faktik və fiziki baxımdan təsvir etmir, həm də bu insanların daxili dünyasını, sosial təcrid olunmuşluqlarını və cəmiyyətin onları necə görməsini əks etdirir. Burada dil yalnız gündəlik həyatı təsvir etməklə kifayətlənmir, eyni zamanda narkotik asılılığının gətirdiyi psixoloji və sosial böhranı və insanların bu vəziyyətə uyğunlaşma formalarını da açıq şəkildə göstərir.

Göründüyü kimi, qeyri-normativ leksika dilin mühüm qatını təşkil edir və ictimai və mədəni tələbatlara cavab verir. Onları işləndikləri mətnlərdə araşdırmaqla dil və cəmiyyətin qarşılıqlı vəhdətini müəyyənləşdirmək mümkün olur. Bununla yanaşı qeyri-nomativ leksik vahidlərin, o cümlədən arqotizmlərin araşdırılması dilin variativliyini aydın şəkildə başa düşməyə imkan verir.

Məqalənin elmi yeniliyi. Arqotizmlərin dilə daxil olması, dilin inkişafı və onun dinamik strukturlarının tədqiqi baxımından həm əhəmiyyətli, həm də **aktualdır.** Bu sahədəki araşdırmalar, həmçinin dilin sosial funksiyalarını, kommunikativ məqsədlərini və mətnin kontekstual təhlilini daha yaxşı başa düşməyə imkan verir.

Elmi nəticə. Nəticə etibarilə, arqotizmlər mədəniyyətlərə aid xüsusi dil formaları kimi fəaliyyət göstərərək, bir tərəfdən dilin zənginliyini və müxtəlifliyini artırır, digər tərəfdən isə fərqli sosial qrupların və subkulturların öz kimliklərini ifadə etmə və fərqliliklərini vurğulama vasitəsi kimi mühüm rol oynayır. Beləliklə, arqotizm yalnız ünsiyyətin effektivliyini təmin etmir, eyni zamanda dilin sosial və mədəni funksiyalarını yerinə yetirməklə, müxtəlif qrupların özlərini təsdiq etmələrinə, həmçinin cəmiyyətin digər üzvlərindən ayrılmalarına şərait yaradır. Bu, dilin yalnız kommunikativ deyil, həm də identifikasiya, sosial əlaqə və mədəniyyətin qorunması kimi vacib funksiyalar daşıdığını göstərir.

Praktik əhəmiyyəti. Qeyri-normativ leksika kommunikasiya və qarşılıqlı fəaliyyət prosesində praktik əhəmiyyət kəsb edir. Bu araşdırma kütləvi informasiya vasitələrində və təhsil sistemində dilin işlədilməsi üçün əhəmiyyətli mənbə hesab oluna bilər.

Ədəbiyyat

1. Qurbanov, A. Ümumi dilçilik: [3 cilddə] / A.Qurbanov. – Bakı: İmak, – c.1. – 2019. – 448 s.
2. Ayto, J. Oxford Dictionary of Modern Slang. / J.Simpson, – Oxfordshire: Oxford University Press, – 2010, – 480 p.
3. Bussmann, H. Routledge Dictionary of Language and Linguistics / H.Bussmann, – London: Routledge, – 1998. – 560 p.
4. Burroughs, W.S. Junky / W.S. Burroughs, – Gallimard, – 2017, – 192p.
5. Dickens, Ch. Oliver Twist / Ch.Dickens. – England: Penguin Books Limited, – 1994, – 344p.
6. Galperin, I.R. Stylistics / I.R.Galperin, – Moskow: Moskow Higher School, –1977. – 313 p.

S.S.Məmmədova

Specific Features of Argotisms in English

Summary

The study of the role and specific features of argotisms in the English language is considered an important research area in modern linguistics. Argotism consists of specific linguistic expressions and terms used by particular social groups or cultures, which facilitate internal communication within these groups and preserve their distinct identity.

The main aim of the research on this topic is to conduct a detailed analysis of the specific features, semantic structures, and functions of argotisms in the English language.

Key words: *argotisms, cultural differences, non-normative language, subculture values, social groups*

С.С.Мамедова

Специфические особенности арготизмов в английском языке

Резюме

Изучение роли арготизмов и их специфических особенностей в английском языке считается важной сферой исследования в современной лингвистике. Арготизм – это особые языковые выражения и термины, используемые определёнными социальными группами или культурами, которые облегчают внутреннюю коммуникацию этих групп и сохраняют их уникальную идентичность.

Основная цель исследования данной темы заключается в углублённом анализе специфических особенностей арготизмов в английском языке, их семантических структур и функций.

Ключевые слова: *арготизмы, культурные различия, ненормативный язык, ценности субкультур, социальные группы*

Rəyçi: filol.e.f.d., dos. Zöhrab-Məcid Məsmə
Redaksiyaya daxil olub: 14.05.2025

V.A.PİRİYEVA
e-mail: vpiriyeva7777@gmail.com
:https://orcid.org/0009-0008-3118-5446

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNDƏ CÜMLƏNİN KOMMUNİKATİV TİPLƏRİNİN EMFATİK İNTONASİYADA İŞLƏNMƏ ÜSULLARINA DAİR

Xülasə. *Elmi məqalədə intonasiyanın danışıq nitqində rolundan bəhs edilir. Adi və emosional nitqin istifadəsi zamanı cümlənin kommunikativ tiplərində melodiya və vurğunun komponentlərinin daşıdığı funksiya təhlil edilir. Nüvə tonlarının emfatik nitqdə qeyri-emfatik nitqdən fərqli olaraq istifadəsində hansı emosional çalarları ifadə etməsi araşdırılır. Bu, tədqiqat prosodiyanın kommunikasiya sahəsindəki əhəmiyyətini vurğulayır və cümlə tiplərinin emfatik intonasiya ilə necə qarşılıqlı əlaqə quraraq müxtəlif emosional və praqmatik təsirlər yaratdığını izah edir. Emosional nitqdə cümlənin kommunikativ növlərinin işlənmə xüsusiyyətləri dilin yalnız informasiya ötürmə deyil, həm də hisslərin və duyğuların ifadə olunmasına yönəldiyini göstərir.*

Açar sözlər: *intonasiya, ritm,emfatik, kommunikativ, fasilə, cümlə vurğusu*

Bu araşdırmanın məqsədi, emfatik intonasiyanın cümlənin kommunikativ tiplərinə necə tətbiq olunduğunu və bu qarşılıqlı əlaqələrin nitqin ümumi kommunikativ effektivliyinə və emosional ifadəsinə necə təsir etdiyini təhlil etməkdir. Kontrastiv emfatik nitq işlənmə tonları müqayisə-ziddiyyət bildirsə də, ümumilikdə hər bir tonun özünəməxsus xarakter nəzərə çarpan xüsusiyyətləri vardır. Hər bir tonun vurğuladığı məqam müqayisə anında mənfi və ya müsbət şəkildə təzahürü ortaya çıxarır. Bundan başqa, əlavə edə bilərik ki, emfatik vurğu hecanı daha yüksəkdən ifadə edir. Nəticə etibarilə deyə bilərik bu halda həmin hecadakı sait səsdə uzanma daha aydın şəkildə təzahür edir.

Emosional nitq, dilin yalnız məlumat ötürmə məqsədini deyil, həm də insanın daxili hisslərinin, düşüncələrinin və ruh halının ifadə edilməsi rolunu oynayır. Emosiyalar, insanların gündəlik ünsiyyətində təbii olaraq yer tutaraq cümlələrin quruluşuna və istifadəsinə təsir edir. Bu cümlələrin forması, onların kommunikativ funksiyasına və hisslərin ifadəsinə xidmət edir. Cümlənin kommunikativ növləri, dilin funksional quruluşunun əsas komponentləridir və hər biri xüsusi məqsəd və emosional yük daşıyır.

Emfatik intonasiya bu cümlə tiplərinə tətbiq olunduqda, onların kommunikativ funksiyasını gücləndirir və ya dəyişdirir, danışanın emosional və ya ritorik niyyətini vurğulayır. Bu elmi məqalə emfatik intonasiyanın cümlə kommunikativ tipləri ilə necə qarşılıqlı əlaqədə olduğunu və onların mənasını və emosional təsirini necə gücləndirdiyini araşdırır [7, s.97].

Emosianal nitq dedikdə ağlımıza ilk gələn qabarıq, önə çıxan nitq olsa da, bu xüsusiyyəti heç də bununla kifayətləndirmək olmaz. Emosianal nitq həm də jestlərin, mimikaların birgə məcmusudur. Onların vasitəsilə fikrimizi daha səlis şəkildə çatdırmaqla nəzərdə tutduğumuz nüansı vurğulaya bilərik. Bu zaman emosionallığı artırmaq üçün biz daha çox yüksəkdən enən (high fall) və yüksəkdən qalxan (high rise) dan istifadə edirik.

Qeyd etmək lazımdır ki, neytral adi nitq də isə biz adətən alçaqdan enən (low fall) və alçaqdan qalxan (low rise) tonlarını istifadə edirik. Bildiyimiz kimi bu tonlar adi, gündəlik, təsadüfi danışıq aktı üçün nəzərdə tutulub və nəticə etibarilə heç bir hiss-həyəcan, emosiya ifadə etmir.

Məs: Where is your father?
He is ˌout. He is at the work.

Bu tip cümlələr gündəlik ünsiyyət zamanı, məlumat, cavab almaq məqsədilə işlənə bilər. Müqayisə üçün bir neçə cümləyə nəzər yetirək.

– Did I become editor in chief at the beginning of 2017?

–No it wasn't the beginning of 2017. It was the summer of 2022.

Fikrimizi daha da aydın ifadə etmək üçün əlavə olaraq fərqli nümunələr göstərmək olar:

Was it my sister who suggested that I check out You Tube?

No, my sister didn't make that suggestion. My husband did.

Did I film my first vocabulary lesson at the park?

No. I filmed my first vocabulary lesson in the backyard.

Was that first lesson about the sports?

No, that first lesson was about the outdoors.

Bəzən biz bildirdiyimiz hər hansı bir fikri aydınlaşdırmağa və ya düzəliş etməyə ehtiyac duyuruq. Bu zaman vurğu və intonasiyadan istifadə edirik. Biz sözü vurğulu deyərkən bir neçə əsas məqam ortaya çıxır.

1) Vurğulu heca bir qədər ucadan və yüksək tonal səviyyədən deyilir.

2) Həmin hecadakı vurğulu sait səs digərləri müqayisə etdikdə bir qədər uzun tələffüz edilir.

Biz fikrimizə aydınlıq gətirmək istədikdə ilk öncə, yanlış olan fikri qeyd edirik, daha sonra isə düzgün olan faktı göstəririk. Bu da nəticə etibarilə iki fərqli fikir və intonasiya qrupunu ortaya çıxarır. İntonasiya qrupları arasında fasilə vardır və hər birinin vurğulamaq istədiyi fikir vardır. Fikrimizi cəmləşdirdiyimiz ifadə adətən cümlənin sonunda işlənən başlıca məqam olur.

Yuxarıda qeyd etdiyimiz sözlərdə *my sister* ilə *my husband*, *at the park* və *in the backyard, the sports* ilə *the outdoors* kimi məqamlar qarşı qarşıya işlənib, tezad-müqayisə kimi fikirlər ortaya çıxıb. Ümumi olaraq, biz vurğudan istifadə etməklə, iki müqayisə olunan sözü və ya yeni məlumatı vurğulamaq üçün istifadə edirik [9, s.124].

Emfatik intonasiya yalnız cümlənin emosional təsirini dəyişdirmir, həmçinin kommunikasiya funksiyasını da dəyişir. Danışan müəyyən sözlərə və ya frazalara vurğu edərək dinləyicinin diqqətini xüsusi məqamlara və ya emosional əhəmiyyətə yönləndirə bilər. Bu, qarşılıqlı kommunikasiya zamanı danışanın emosional vəziyyətinin və ya niyyətinin effektiv şəkildə çatdırılması üçün xüsusilə vacibdir.

Psixoloji olaraq, emfatik intonasiya sözlərlə birbaşa ifadə edilməyən hissləri çatdırmağa kömək edir. Bu, nitqin təsirli hissəsini gücləndirir və onu daha cəlbedici və ya inandırıcı edir.

Praqmatik olaraq, emfatik intonasiya danışanın sosial münasibətləri idarə etməsinə kömək edir, məsələn, səlahiyyətini gücləndirmək, empatiya ifadə etmək və ya həmrəyliyi bildirmək. Bu, danışanın necə başa düşülmək istədiyini göstərmək üçün nitq hərəkətlərinin yerinə yetirilməsində mühüm bir vasitədir.

Hər hansı bir cümlənin eyni söz sırasına malik olmasına baxmayaraq, fərqli fikirlər izah etməsini həmin cümlədə istifadə olunan intonasiya vasitələri ilə əlaqələndirmək olar. Məsələn, I dis´approve of ´John's ´drinking the `beer. Bu cümləni ya Conun içməsi faktı ya da onun xarakteri ilə əlaqələndirmək olar.

I dis´approve of ´John's `drinking the beer.

I dis´approve of `John's excessive drinking.

I dis`approve of John's excessive drinking the beer [10, s.28].

Fərqli kommunikativ tiplərdə emfatik intonasiyanın istifadəsi kontekstdən asılı olaraq dəyişə bilər. Məsələn, qeyri-rəsmi nitqdə emfatik intonasiya daha sərbəst və dramatik istifadə edilə bilər, rəsmi şəraitdə isə yanlış anlaşılma və ya aşırı ifadədən qaçınmaq üçün daha incə şəkildə tətbiq edilə bilər. Mədəni fərqliliklər də intonasiyadakı vurğunun dərəcəsini təsir edir, çünki bəzi mədəniyyətlər daha məhdud və ya intensiv emosional ifadəni üstün tuta bilər.

Emfaza nitqin qabarıq deyilməsinin ən mühüm vasitələrinin ümumi cəmidir. O sözləri, söz birləşmələrini və bütün cümləni emfatikləşdirmək üçün istifadə olunur. Canlı nitqdə emfazanın əhəmiyyətli məntiqi və emosional funksiyası vardır. Cümlədəki bir və ya bir neçə sözün mənası və ya bütün cümlənin mənası adi normal nitqdən qüvvətli vurğudan isdifadə edilməklə emfatikləşdirilə bilər. İntonasiyanın komponentlərinin modifikasiyasından istifadə etməklə istənilən hər hansı bir cümlə emfatikləşdirilə bilər. Məsələn, cümlə və ya sintaqmı emfatikləşdirən zaman şkala genişlənə və ya darala bilər, məna qruplarının səs tonal səviyyəsi daha yüksəkdən və ya daha aşağı deyilə bilər. Emfatik intonasiya adi nitqdən fərqli olaraq, fonetik baxımdan daha emosional nitqi çatdırır [11, s.243]. Emfatik nitq intonasiyanın vasitələrinin dərəcəsini qüvvətləndirmək sayəsində yaranır. İntonasiyanın vasitələri melodiya, tonlar, cümlə vurğusu, səs diapazonu, fasilə, ritm və tembrdir. Cümlələr danışan tərəfindən iki məqsədlə emfatikləşdirilir [11, s.243].

1. Əgər danışan cümlədəki bir və ya bir neçə sözü, və ya bütün cümlənin mənasını daha qabarıq hesab edirsə, bu nəzərə çardırmanı dinləyiciyə çatdırmaq istəyirsə, müxtəlif intonasiya vasitələri ilə cümlədəki bir sözü və ya bütün cümləni güclü tələffüz edir. Bu fonetik vasitə qüvvətləndirmə və ya gücləndirmə emfazası adlanır.

2. Əgər danışan cümlədəki bir sözü başqa bir sözə və ya əvvəlcədən verilən bir fikrə qarşı qoyursa, ziddiyyət bildirən emfazadan istifadə olunur. Söyləmin ziddiyyət bildirən emfaza ilə deyilməsi intonasiya vasitələri kimi, yüksəkdən enən tondan, enən-qalxan tondan və məntiqi vurğudan istifadə olunur.

Bütün cümlənin mənası səs tonal səviyyəsinin qaldırılması və diapazonun genişləndirilməsi, səs tonal səviyyəsinin endirilməsi və diapazonun daralması, vurğunun artırılması, enən şkalanın pozulması vasitəsilə emfatikləşdirilə bilər. Gücləndirmə emfazasına səsin diapazonunun genişləndirilməsi və daralması ilə nail olunur. Səs diapazonu genişləndiriləndə səsin səviyyəsi qaldırılır. Vurğulu və vurğusuz hecalar daha yüksək səviyyədə tələffüz olunur. Vurğulu hecalar arasındakı səs tonal səviyyəsinin intervalları adi nitqdə olduğundan daha böyük olur. Nüvə tonu daha geniş diapazona malik olur. Diapazonun genişləndirilməsi ilə danışan müxtəlif emosiyaları ifadə edə bilir. Bu emosiyalara – qəzəb, qorxu, nifrət, rişğənd, səbirsizlik, sevinc, xoş sürpriz, heyranlıq, israrlılıq və sair daxildir. Məsələn, How ˊglad I am to ˊsee you a`gain.

Səs diapazonu daralanda səs tonal səviyyəsi aşağı enir. Vurğulu və vurğusuz hecalar alçaq səs diapazonu ilə tələffüz olunurlar. Vurğulu hecalar arasındakı zaman intervalları adi nitqdə olduğundan daha az olur. Nüvə tonu daha dar diapazonda olur. Sözlər demək olar ki, pıçıltı ilə deyilir. Diapazonun daralması ilə danışan qəmginlik, ümidsizlik, heyranlıq, əkslik, rəğbət, nifrət, qorxu, narazılıq kimi emosiyalar ifadə olunur. Məsələn,

I have ˊlost ˊboth my ˌparents. (sadness)

Cümlə vurğunun artırılması ilə də emfatikləşdirilə bilər. Bu zaman melodiya adi nitqdə olduğu kimi qalır. Lakin vurğunun dərəcəsi artırılır. Məsələn,

I am ˊˊquite `serious.ˊˊTry to ˊˊdo it by your`self.

Cümlədəki hər bir sözdə vurğunun artırılması cümlənin akustik cəhətdən daha emosional edir. Cümlədəki sözlərin mənasını qüvvətləndirmək üçün istifadə olunan cümlə vurğusu emfatik vurğu adlanır. Ziddiyyət ifadə edən vurğu isə kontrastiv vurğu adlanır. Məsələn,

And youˊˊ may ˊˊnever have a ˊˊday `luck with them.

Enən şkalanın pozulması ilə cümlədəki sözlərdən bir və ya bir neçəsinin mənası daha qabarıq deyilə bilər. Bu zaman qabarıq deyiləcək sözləri danışan enən şkalada daha yüksəkdən tələffüz edir. Enən şkalada vurğulu və vurğusuz hecalar tədricən səsin enməsi ilə tələffüz edilərkən, bəzi sözlər yüksəkdən tələffüz olunurlar [4, s.184]. Məsələn,

The ˊwhole ˊthing was ex↑tremly sucˌcess.

Bundan əlavə cümlədəki ayrı-ayrı sözlər fonetik vasitələr kimi, samitlərin uzun tələffüzü, vurğulu saitdən əvvəl qlotal samitin işlənməsi, söz vurğusunun yerini dəyişməsi, cümlə vurğusunun yerinin dəyişməsi ilə emfatikləşdirilə bilər. Məsələn,

It was tre`m:endous!

I am ´awfully ’sorry!

He said the ´difficulty would ´increase not `decrease,

ˌLook!He is the ``painter whom Iˌ told you about yesterday.

Ziddiyyət bildirən emfaza danışan cümlədə bir və ya bir neçə sözü başqa bir sözlə qarşılaşdıranda, əvvəlcədən söylənilmiş bir fikrə qarşı ziddiyyət ifadə olunduqda işlənir. Ziddiyyət bildirən emfazaya səs tonunun yüksəkdən enməsi və emfatik enən-qalxan tonun işlənməsi ilə nail olunur. Bundan əlavə, emfatik cəhətdən vurğulu heca daha ucadan deyilir, vurğulu hecadakı sait səs isə demək olar ki daha uzun tələffüzə malik olur [2, s.164]. Cümlədəki vurğu tələb edən digər sözlər isə qüvvətli və zəif vurğularla tələffüz oluna bilərlər. Lakin vurğusuz hecalar tonik hecadan sonra nöqtələrlə göstərilir. Məsələn,

She was ´wearing a `red dress. (not green dress)

I ´want to´ know where he is ´travelling `to.

Ziddiyyət bildirən söz cümlədə istənilən yerdə ola bilər. Məsələn,

´Jack ´likes `fish. (not meat)

´ Jack `likes fish. (dislikes meat or poultry).

`Jack likes fish. (not Tom, but Jack) [3, s.92].

Ziddiyyət bildirən emfaza enən-qalxan tonla da deyilə bilər. Enən-qalxan tonlu ziddiyyət bildirən emfatik nitq ziddiyyyət, mürəkkəblik, xəbərdarlıq, hədə, düzəliş kimi emosiyaları ifadə edir. Məsələn,

You may ´do it toˇmorrow. (not today)

Her ˇverses are ´rather `interesting. (not novels)

Enən-qalxan tonlu ziddiyyət bildirən emfaza cümlənin iki hissəsini birləşdirmək üçün istifadə edilir, lakin onlar arasında ziddiyyət olur. Məsələn, The ˇpeople are ˌnice, the ˇweather is ˌhorrid.

Ziddiyyət bildirən emfazaya ümumi sual cümlələrində yüksəkdən səsin qalxması ilə də nail olmaq olar. Məsələn,

´ Have you ´read that’ book? (contrasting with magazine)

´Have you ´read ’that book? (contrasting with other books)

´ Have you’ read that book? (not just glancing through)

Have ’you read that book ? (contrasting of persons implied)

’Have you read that book? (doubt implied)

Ziddiyyət bildirən emfazaya kontrastiv cümlə vurğusundan istifadə etməklə nail olmaq olar. Ziddiyyət, qarşılaşdırma bildirmək üçün istifadə olunan cümlə vurğusu kontrastiv vurğu adlanır. Məsələn,

´Rise like ´lions after ^slumber,

In unanquishable^number

´Shake your ´chains to ´earth like^dew

Which in ´sleep had ´fallen on `you

´You are, many ´they are ˌfew.

Qeyd etmək lazımdır ki, vurğunu əsas isimdən başqa məzmun daşıyan başqa sözə, məsələn, sifət (böyük, çətin və s.), gücləndirici (çox, son dərəcə və s.) kimi dəyişmək olar.

Tələffüz və anlamanı yaxşılaşdırmaq üçün müxtəlif vurğu növlərindən istifadə edilir. Emfatik intonasiya təkcə sadə nüvə tonları (high fall, high rise), kontrastiv vurğu ilə deyil, eyni zamanda mürəkkəb enən-qalxan (fall-rise) tonla da işlənə bilir.

Məlumdur ki, enən-qalxan ton bölünməmiş (undivided), bölünmüş (divided), ayrılmış (seperated) kimi işlənə bilər. Bu zaman *fall* ən yüksək tonal səviyyədən başlayır, və ən son sonuncu səviyyəyə qədər enir. Daha sonra isə səs orta səviyyə, ya da bir qədər aşağı istiqamətə qədər qalxa bilər. *Fall-rise* ilə işlənən emfatik intonasiya düzəliş, tərəddüd, xəbərdarlıq, hədə-qorxu, təzad kimi mənaları ifadə edə bilər [1, s. 176].

Fall rise nəinki emosional nitqdə, hətta neytral nitqdə də işlənə bilir. Lakin emfatik vurğu ilə işləndiyi zaman kontrast olunan ifadə daha nəzərə çarpan şəkildə özünü biruzə verir. *Fall rise* qeyd etdiyimiz kimi, həm bölünə bilən, həm də bölünə bilməyən şəkildə işlənir. Təbii ki, bu hala bəzi məqamlara aydınlıq gətirmək gərəkdir.

1) She has `seen ˛him.
2) She has ˇseen him [1, s.176].

Rabitəli nitqdə struktur cəhətdən müxtəlif olan sual cümlələri emfatikləşdirilə bilər. Emfatik xüsusi sual cümlələri dinləyənin danışan tərəfindən soruşulan sualın təkrar edilməsi və danışanın heyranlıq ifadə etməsi zamanı istifadə edilməsini müşahidə edirik. Xüsusi sual cümlələrində emfatikliyin işlənməsi zamanı vurğu və melodiya bütün sualı emfatikləşdirən sual əvəzliyində cəmləşir. Xüsusi sual cümləsindəki digər sözlər isə vurğusuz olur və həmin sözlər yüksəkdən enən tondan sonra səsin qalxması ilə baş verir. Beləliklə, emfatik xüsusi sual cümlələri fonetik baxımdan enən-qalxan tonla realizə olunur və bu zaman emfatik heca qüvvətli, ucadan deyilir, sual əvəzliyinin sait səsi uzun tələffüzə malik olur. Müqayisə edək:

´Whose ´car is ˛that. (unemphatic)

`Whose, car is that. (emphatic)

Ümumi sual cümlələri də emfatiklik baxımından xüsusi cümlələr kimi realizə olunur. Ümumi sual cümlələri köməkçi və ya modal feil ilə başladığından, vurğu və melodiya bu sözlərdə olur və sual cümləsindəki digər sözlər isə vurğusuz olur, yüksəkdən enən tondan sonra bu sözlərin də tələffüzündə səsin qalxması müşahidə edilir.Məsələn,

´Did they ´all ˛go. (unemphatic)

`Did they all, go. (emphatic) [8, s.59].

Emfatik xüsusi və ümumi sual cümlələrində hər hansı bir fikrə xüsusi diqqət verildikdə sual əvəzlikləri, modal və ya köməkçi feillər yüksəkdən enən tonla tələffüz olunurlar, digər sözlər isə vurğusuz qalırlar və alçaq melodiya ilə tələffüz olunurlar. Məsələn,

´What is he ˛saying. (unemphatic)

`What is he ˛saying. (emphatic)

Alternativ və ya seçmə suallar da emfatikləşə bilirlər. Bu zaman sual cümləsindəki seçim qoyulan sözlər arasında ziddiyyətlik ifadə olunur və qarşılaşdırılan sözlərin səs diapazonunun genişləndirilməsi ilə nail olunur.

Emosional nitqin funksiyaları çoxşaxəlidir. Hər bir kommunikativ növün istifadəsi müəyyən emosional vəziyyətləri ifadə etməyə xidmət edir. Emosional yük, cümlənin quruluşu ilə yanaşı, vurğu və tonlamada da özünü göstərir. Bu cür cümlələr, çox vaxt, dinləyicinin və ya oxucunun emosional vəziyyətini dəyişdirmək, təsir etmək və ya onunla empati qurmaq məqsədini güdür [2, s.122].

Qeyd etmək lazımdır ki,ümumi və xüsusi suallar bəzən ritorik xarakterdə də ola bilirlər, bu zaman bu suallara cavab tələb olunmur. Belə cümlələr enən tonla tələffüz olunurlar və ziddiyyət bildirən emfazanı ifadə edirlər. Məsələn,

´Why ´not ´take a `taxi? (It is reasonable to hire one)

´Could I ´go and `help him? (Of course, I couldnt)

Ritorik sualların diapazonu qətilik ifadə edən nəqli cümlələrin diapazonundan daha geniş olur.

Bəzi nidalar da sual xarakterli olur. Belə nidalar heyrət və qəzəb ifadə edir. Bu cümlələrin tələffüzü zamanı enən-qalxan tondan istifadə olunur. Qeyd etmək lazımdır ki, nida cümlələrində qalxan sonluğun diapazonu adi ümumi sual cümlələrinin səs diapazonundan daha geniş olur. Məsələn,

I shall go home tomorrow – You will ´go ´home to∨morrow!? (implying “you cannot do that).

Yuxarıda verilən cümlə “∨What “ilə də əvəz oluna bilər.

I have lost the money. – You have ´lost the ∨money? (astonishment).

Emosional nitqdə kommunikativ növlərin xüsusiyyətləri onların üzərində emosional vurğuların necə yerləşdirildiyindən asılıdır. Məsələn, əmr cümlələr daha çox təzyiq, tələb və ya əmr xarakteri daşıyır. Bununla yanaşı, sual cümlələr qarşı tərəfin hərəkətlərinə dair narahatlıq və ya təəccübü əks etdirə bilər.

Ümumi sual cümlələrində emfatik qısa cavablar əsasən, enən tonla deyilir. Bu zaman bu cavablar razılıq, vəd və faktın inkar edilməsini nəzərdə tutur. Məsələn,

Can I do it well? – `Yes,I `can.

Əgər verilən cavab dinləyicinin gözlədiyi cavaba zidd olarsa, bu zaman enən-qalxan tondan istifadə edilir. Enən ton bu tipli cavablarda ya sonuncu vurğulu hecada, ya da o iki heca üzərində yayılır. Məsələn,

Do you like it so much? –´Yes, I ∨do.

Did you know about it? – ´No, I ∨did not.

Nəqli cümlələrdə enən-qalxan tonun işlənməsi yüksək emosiyalar ifadə edir. Enən-qalxan tonlu nəqli cümlələr üzrxahlıq, minnətdarlıq, təəssüf, xoş arzular, qəmginlik, rəhmi gəlmək, qəzəb və inadkarlıq kimi emosiyaları ifadə edir. Məsələn,

I am `very, sorry.

Xüsusi sual cümlələrində bu tonun işlənməsi yorğunluq, ümidsizlik, yalvarıcılıq, mülayimlik və rəhmi gəlmək kimi emosiyaları əhatə edir. Məsələn,

´Why `cant he mind his own ,business.

Ümumi sual cümlələrində enən-qalxan tonun işlənməsi yalvarma, yoruculuq, bəzən isə səbirsizlik və ümidsiz münasibət ifadə edir. Məsələn,

`Do you think you could do ,better.

Əmr cümlələrində bu tonun tələffüzü israrlılıq, yoruculuq, qınaq kimi emosiyaları ifadə edir. Məsələn,

`Don't make matters worse than they, are.

Nida cümlələrinin enən-qalxan tonla deyilməsi ruhlandırma, mülayimlik, sevgi, səmimilik kimi emosiyaların istifadəsinə şamil edilir. Məsələn,

He has broken his leg – `Good, heavens.

Bəzən nida cümlələri qəzəb, inciklik, təəccüb və şaşqınlıq ifadə edəndə bu tonla deyilir. Məsələn,

I asked you several times to go – `All right.

Enən-qalxan tonun salamlaşmalarda və ayrılarkən istifadə olunan ifadələrdə işlənməsi xoş, səmimi, bəzən də yüksək emosionallıq ifadə edir.Məsələn,

Good `night, mother.

Emosional nitqin dilçiliyi, cümlə strukturunun və dilin istifadəsinin sosial və emosional kontekstdə necə dəyişdiyini göstərir. Dilin kommunikativ funksiyaları arasında emosional vəziyyətlərin, insanların daxili dünyasının ifadə olunması xüsusilə vacibdir. Emosional nitqin quruluşu cümlənin növünə görə dəyişir, hər cümlə növü özündə spesifik emosional yükü daşıyır.

İşin elmi nəticəsi. Bütün yuxarıda deyilənləri nəzərdən keçirərək qeyd etmək olar ki, ingilis dilində emfatik intonasiya cümlənin kommunikativ tiplərinin effektivliyini artırmaqda mühüm rol oynayır. Yüksələn vurğu, intonasiya və ritm vasitəsilə danışanlar, nəqli, sual, əmr və nida cümlələrinin emosional intensivliyini və retorik gücünü dəyişdirə bilər. Emfatik intonasiya yalnız emosiyaların ifadəsi üçün deyil, həm də danışan və dinləyici arasındakı qarşılıqlı əlaqənin formalaşdırılmasında istifadə olunur.

İşin elmi yeniliyi. Bu araşdırma, emosional nitqin dilin psixoloji və sosial aspektləri ilə əlaqəsini dərinləşdirir və dilçiliyin müxtəlif sahələrində yeni nəzəri yanaşmaların inkişafına töhfə verir. Tədqiqat işi, emfatik intonasiyanın cümlə kommunikativ tipləri ilə necə qarşılıqlı əlaqə quraraq mənanı, emosiyanı və sosial funksiyanı gücləndirdiyini araşdırır.

İşin tətbiqi əhəmiyyəti. Fikrimizcə, təqdim olunan "İngilis dilində cümlənin kommunikativ tiplərinin emfatik intonasiyada işlənmə üsullarina dair" adlı elmi məqalə danışıq nitqi

üçün əhəmiyyət kəsb edən məsələlərdən birinə həsr edilmişdir. Bu məqalədən dilçilik sahəsində məşğul olanlar, magistr pilləsində təhsil alan tələbələr istifadə edə bilər.

Ədəbiyyat

1. Babayev, S.M. English Phonology / S.M.Babayev, – Baku, – 2004, – 204p.
2. Bolinger, D. Intonation and Its Uses: Melody in Grammar and Discourse / D.Bolinger, – Stanford University Press, – 1989, – 484 p.
3. Crystal, D. A Dictionary of Linguistics and Phonetics / D.Crystal, – Blackwell Publishing, – 2003, – 390 p.
4. Gimson, A.C. English Pronouncing Dictionary / A.C.Gimson, – London, – 1997, – 339 p.
5. Jones, D. An Outline of English Phonetic / D.Jones, – Cambridge University Press, – 1976, – 400 p.
6. Ladd, D.R. Intonational Phonology / D.R.Ladd, – Cambridge University Press, – 2008, – 340 p.
7. Pierre Humbert, J., & Hirschberg, J. The Meaning of Intonation in the Interpretation of Discourse. Text, 10(1), 3-14, – 1990.
8. Roger, K. The Groundwork of English Intonation / K.Roger, – Longmans. – 1958, – 272 s.
9. Roach, P. English Phonetics and Phonology: A Pratcial Course / P.Roach, – rd edition CU. – 2000.
10. Çomsky, N. Language and Mind / N.Çomsky, – Cambridge University Press, – 2006, – 208 p.
11. Zeynalov, F. Practical English Phonetics / F.Zeynalov, – Bakı: Mütərcim, – 2018, – 287 s.

V.A.Piriyeva

On the Methods of Processing Communicative types of the Sentence in Emphatic Intonation in the English Language

Summary

The scientific article talks about the role of intonation in spoken speech. The function of the components of melody and accent in the communicative types of the sentence during the use of ordinary and emotional speech is analyzed. The use of nuclear tones in emphatic speech, as opposed to non-emphatic speech, expresses emotional shades. This study highlights the importance of prosody in communication and explains how sentence types interact with emphatic intonation to produce different emotional and pragmatic effects. The processing characteristics of the communicative types of sentences in emotional speech show that the language is aimed not only at information transmission, but also at the expression of feelings and emotions.

Key words: *İntonation,rhythm, emphatic, communicative, pause, sentence stress*

В.А.Пириева

О способах обработки коммуникативных типов предложения в эмфатической интонации в английском языке

Резюме

В научной статье говорится о роли интонации в устной речи. Анализируется функция компонентов мелодии и акцента в коммуникативных типах предложения при употреблении обыденной и эмоциональной речи. Употребление ядерных тонов в эмфатической речи, в отличие от неэмфатической речи, выражает эмоциональные оттенки. Это исследование подчеркивает важность просодии в общении и объясняет, как типы предложений взаимодействуют с эмфатической интонацией, производя различные эмоциональные и прагматические эффекты.

Особенности обработки коммуникативных типов предложений в эмоциональной речи показывают, что язык нацелен не только на передачу информации, но и на выражение чувств и эмоций.

Ключевые слова: *интонация, ритм, эмфатика, коммуникативность, пауза, ударение в предложении*

Rəyçi: f.f.d., dos. X.Ə.Qocayeva

Redaksiyaya daxil olub: 02.05.2025

A.A.RƏCƏBOVA
e-mail: aytan.rajabova@gmail.com
:https://orcid.org/0009-0004-4458-2329

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.079

MÜASİR İNGİLİS DİLİNDƏ "VƏTƏNPƏRVƏRLİK" KONSEPTİNİN LEKSİK İFADƏ VASİTƏLƏRİ

Xülasə. *Müasir ingilis dilində* ***"vətənpərvərlik" konsepti****nin leksik ifadə vasitələri baxımından tədqiqi xüsusi maraq doğurur.*
Qeyd edək ki, ***konsept*** *özü mürəkkəb anlayış hesab edilməkdədir. Belə ki, o şüurumuzda formalaşaraq, hifz olunur. Daha sonra isə müəyyən vasitələrlə, məsələn, dil və qeyri-dil vasitələri ilə reprezentasiya edilir.*
Buradan da belə bir nəticə hasil olunur ki, konsepti yalnız təzahür formalarında dəyərləndirmək mümkün olur. Diskurs konseptin realizasiya vasitəsidir. Belə olduqda mətn, kontekst kimi anlayışlar diqqət çəkir. Bu zaman biz mətnlə, onun reprezentasiyasının mümkün olduğu kontekstlə maraqlanmağa başlayırıq.
Qeyd etməliyik ki, "vətənpərvərlik" konseptinin təqdimatında xüsusi rol leksik vahidlərə məxsusdur. Belə ki, epitetlər, metaforalar, metonimiyalar, şüarlar, sinonimlər, antonimlər və s. diqqəti cəlb etmək və emosional təsir vasitəsi kimi güclü rola malikdirlər.

Açar sözlər: *vətənpərvərlik, diskurs, konsept, dil, reprezentasiya*

Araşdırdığımız mövzu "Vətənpərvərlik" konsepti ilə bağlı olduğundan burada sözügedən məsələ ilə bağlı bəzi detallara aydınlıq gətirəcəyik.

Onu da xüsusilə vurğulamalıyıq ki, konseptə çoxlu mikrokonseptlər daxildir. Məhz bu aspektdən yanaşdıqda adını qeyd etdiyimiz konseptdə də mikrokonseptlər diqqət mərkəzində olur ki, bunlar barədə tədqiqat boyunca məlumat verməkdə davam edəcəyik. Onların özləri də daha kiçik tərkib hissələrə bölünməklə aspektləri formalaşdırırlar. Aspektlər isə öz növbəsində seqmentlərə, seqmentlər isə elementlərə ayrılırlar.

Beləliklə, ardıcıl şəkildə mikrokonsept, aspekt, seqment, element diskursda, yazılı materiallara gəlincə isə mətn və kontekstdə realizə olunurlar.

Nəticə etibarilə, hər hansı konsept haqqında bəhs edərkən, mütləq şəkildə onun müxtəlif formalı reprezentasiyalarını özündə ehtiva edən diskurslara müraciət etmək məqsədəuyğun hesab edilir.

Ümumiyyətlə, adıgedən konseptdən bəhs edərkən, onun məna tutumuna nəzər salmalıyıq. Bu zaman torpaq, xalq, azadlıq və s. kimi anlayışlar şüurumuzda baş qaldırmağa başlayır.

Bundan əlavə, öz vətənini, xalqını sevmək, ona etibarını nümayiş etdirmək, ölkənin rifahı naminə çalışmaq bilavasitə vətənpərvərliyi təcəssüm etdirən keyfiyyətlərdən hesab edilməkdədir.

Məhz bu baxımdan vətənpərvərliyin əsas konseptinə öz yaşadığın vətəninə qarşı xüsusi məhəbbət hissinin olması, vətən uğrunda hər şeyə hazır olmaq, onun müdafiəsinə qalxmaq və s. kimi məsələlər daxildir.

Tədqiqatlarda vətənpərvər insanların xüsusiyyətlərinə aşağıdakıları aid edirlər:
– qanunlara hörmətlə yanaşır;
– cəmiyyətə hörmətlə yanaşır;
– öz vətəndaşlıq borcunu yerinə yetirə bilir;

– digərlərinin hüquqlarına hörmət bəsləyir;
– ölkəsini sevir;
– haqq və ədalət keşikçisidir;
– tolerantdır;
– dəqiqdir;
– cəsarətli, mərd, mətanətli, şücaətlidir.

Beləliklə, bir çox mətnlərdə vətənpərvərlik keyfiyyətləri ilə bağlı məsələlərlə rastlaşırıq.

Qeyd edək ki, "vətənpərvərlik" konseptinin leksik vasitələrlə ifadəsi dilçilik məsələləri baxımından xüsusi əhəmiyyət daşımaqdadır.

Xüsusilə, leksik səviyyədə nitqlərdə çoxlu təkrarlanan açar sözlərin müşahidə edilməsi maraq doğurur.

Onları təqdim edirik: authority, citizens, country, courage, dignity, economy, faith, family, fathers, freedom, God, government, greatness, health, history, home, justice, labor, laws, leadership, liberty, mankind, patriotism, peace, people, prosperity, public, responsibility, security, service, society, spirit, state, welfare, wisdom və s.

Bunların böyük əksəriyyəti sosial əhəmiyyət kəsb edən sözlərdir. Bu sözlər danışanın dünyagörüşünün xüsusiyyətlərini açmağa və başa düşməyə kömək edir.

Qeyd edildiyi kimi, məhz leksika dünyanın model orientrini başa düşməyə imkan verir [5, s. 267].

Semantik struktura müəyyən epoxalarda, sözlər vasitəsilə nitqdə verballaşan konkret cəmiyyət üçün aktual olan konseptlər daxil olur.

Qeyd edək ki, vətən anlayışının kökündə insan yaradılışı dayanır. İnsanın məskunlaşdığı, boya-başa çatdığı yer vətən torpağıdır.

Məsələni məhz bu aspektdən araşdırdıqda leksik vasitələr sözügedən konseptin təqdimatını həyata keçirir. Məsələn, *people* sözünün özü vətən konseptini aydın şəkildə təqdim edir.

Bundan əlavə, deyktik elementlərin özləri də çox güclü vasitə olaraq, diqqət çəkir. Bu baxımdan "vətənpərvərlik" konsepti də leksik sistemdə maraqlı məqamlar nümayiş etdirir.

Məlumdur ki, leksik vahidlər dildə struktur-semantik baxımdan konseptin tiplərini əmələ gətirir. Eyni zamanda bu istiqamətdə leksik semantikasını üzə çıxarmağa imkan verir. Bunlar da öz növbəsində tarixi və mədəni anlamda Azərbaycan və ingilis dillərində anlaşılır.

"Vətənpərvərlik" konseptindən danışarkən yuxarıda bəhs etdiyimiz kimi, təkrarları qeyd etmək yerinə düşərdi. Belə ki, təkrarlar mənanın formalaşmasına bilavasitə təsir göstərən faktlar sırasında yer almaqdadır. Məsələyə bu prizmadan yanaşdıqda onların mətnyaratmadakı rolu danılmazdır. Ən əsası isə koqnitiv funksiyanın həyata keçirilməsində mühüm əhəmiyyətə malikdirlər.

Qeyd edək ki, "vətənpərvərlik" konseptinin ifadə vasitələrində asossiativ əlaqə formalaşdırılmalıdır. Bu əlaqə də məhz sözügedən konseptin verballaşmasının bir yolu kimi dəyərləndirilə bilər.

Yuxarıda qeyd etdik ki, bu vahidlər təqdimatlar zamanı güclü vasitə olaraq çıxış edir.

Bununla yanaşı, marker rolunu həyata keçirərək, müsbət konnotasiya kimi nitqi nikbin emosional rənglərlə zənginləşdirir və bəzəyirlər. Bu da mütləq şəkildə təsirlərlə səciyyələnir.

Ən başlıcası, vətən sevgisi, vətən sevdası, vətən qeyrəti və namusu, aid olduğu mədəni dəyərlər, onun mədəniyyəti adıgedən konseptin xüsusiyyətlərini qabarıq şəkildə özündə əks etdirməkdədir.

Bu münasibətlə Azad Məmmədov və Misgər Məmmədov qeyd edirlər: "Aydındır ki, insanlar ideologiyanı sosial həyatda əldə edir və o, intuitiv olaraq, biliyə çevrilir. Eyni zamanda, hər hansı bir diskurs tipi və janrında mədəniyyət amilinin rolu da çox mühümdür. Əgər mədəniyyəti də cəmiyyətdə mənimsənilmiş bilik kimi qəbul etsək, bu zaman diskursla bilik arasındakı münasibətlərin tətbiqi ön plana çıxır. Bu münasibətlər isə son onillikdə formalaşan diskursa sosio-koqnitiv yanaşma çərçivəsində nəzərdən keçirilir" [3, s.48].

Mətnlərdə açar sözlərin mətn boyunca dəfələrlə, amma ardıcıl deyil, müəyyən fasilələrlə təkrarlanmasına rast gəlirik.

Təkrarların məqsədyönlü şəkildə əvvəldə və sonda verilməsi də diqqətdən qaçmır. Dinləyicilərinin idrakı və onunla bağlı olan hiss və emosiyaları hərəkətə gətirmək üçün digər üslubi fiqurlara da müraciət olunmaqdadır.

Monoloji nitqin dialoq şəklində verilməsi, dinləyicinin daxildəki fəallığı ritorik suallar və sual-cavab gedişi və ya təhkiyə sualının yaranmasına vəsilə olur.

Təkrar intensional komponent qismində mətn ötürücüsünün nitq mədəniyyətindən birbaşa asılıdır, dinləyiciyə məlumat ötürmək, onun davranışına təsir etmək, emosional və nitq reaksiyasını stimullaşdırmaqdan ibarətdir. Məhz bu aspektdən yanaşdıqda dil müxtəlif səviyyələr üzrə obrazlılığa və emosionallığa malikdir. Obrazlılıq isə bədii üslubun əsas şərti hesab edilməkdədir.

Obrazlılığın, eləcə də emosionallığın müxtəlif səviyyələr üzrə göstəriciləri mövcuddur:

1. Fonetik
2. Leksik
3. Qrammatik

Ən geniş yayılmış nitq fiqurlarından biri də yuxarıda qeyd etdik ki, təkrarlardır.

Neyrolinqvisik proqramlaşdırma baxımından yanaşdıqda ritorik fiqur kimi xəyali təsəvvürlərin təkrarlanması beyindaxili hüceyrələrdə yeni məlumatları möhkəmləndirir.

Siyasi təcrübədə də ritorik təkrarlar dinləyicinin şüurunda ideyanın yerləşməsində koqnitiv hazırlıq kimi dəyərləndirilir.

Tədqiqatlar sübut edir ki, təkrar ideyaya doğruluq və dəqiqlik görünüşü bəxş edir. Hər hansı bir ideyanın dinləyicinin şüurunda əksini tapması üçün söz formasında onu bir neçə dəfə təkrar etməklə dinləyicidə daha inandırıcı obraz formalaşdırmaq olar.

Ümumiyyətlə, nitqin bəlağətli və diskursun inandırıcı formada təqdimatında ritorik vasitələr mühüm əhəmiyyət kəsb edirlər. Dinləyicilərin koqnitiv prosesinə, onlarda müsbət daxili resursların formalaşdırılması üçün ritorik vasitələrin nitqdə effektinə natiqlik sənəti ilə məşğul olanlar xüsusi diqqət ayırmışlar.

A.Məmmədov və M.Məmmədov yazırlar: "Beləliklə, şəxs və cins konseptlərinin diskursda əvəzliklər və isimlər kimi linqvistik reprezentasiyalarının təkrarı həmin konseptlərə verilən dəyər kimi nəzərdən keçirilə bilər. Lakin bu dəyərə münasibətin psixologiyası situasiyada gerçəkləşməsə, təkrarın məqsədi bəlli olmaz [3, s. 82].

Qeyd edək ki, zaman-zaman ölkələr və xalqlar arasındakı vətən, torpaq uğrundakı müharibələr, vətənin işğalçılardan azad olunması məhz bu konseptin məzmun xəttini özündə əks etdirir.

Omonimlərin işlənməsi də ictimai-siyasi diskurslarda, siyasi-ideoloji termin yaradıcılığında özünün ən yüksək nöqtəsində olaraq, çoxmənalılığı əsas götürərək manipulyasiyanın ən dərin və gizli məqamlarını, daxili laylarını üzə çıxarır.

Siyasi diskursda eyni fonetik quruluşa malik söz yalnız qarşılıqlı semantik mənaları ifadə etməklə qalmır, eyni zamanda tamamilə uzaq və fərqli anlamlarda işlədilir.

Omonimlərlə bağlı deyilənləri icimai-siyasi anlaşma sahəsi ilə əlaqəli olan müstəqillik, azadlıq, sülh, bərabərlik, suverenlik, inqilab, birlik, həmrəylik, müasirlik, demokratiya, qloballaşma, insan hüquqları, azad iqtisadiyyat, dövlətçilik, sabitlik, seçki və s. dil-ifadə versiyalarında aydın görmək olar.

Siyasi və linqvistik təcrübə təsdiq edir ki, müvafiq söz-işarələr çox hallarda öz ilkin-etimoloji mənalarında, konvensiyaya rəğmən əsas – siqnifikativ anlamda işlənmir, bunların arxasında bir-birindən tamamilə fərqli, çox uzaq fenomenoloji keyfiyyətlər nəzərdə tutulur.

Deyksislər də yuxarıda qeyd etdiyimiz kimi, adıgedən mövzuda vacib rola malikdirlər. Belə ki, burada şəxs əvəzlikləri sosial münasibətlərdə indikatorlar rolunda çıxış edirlər.

Akad. K.Abdullayev yazır: "Komponentlərin tekstdaxili əlaqələrinin güclü ifadə vasitəsi kimi deyktik elementlər çıxış edir. Bu deyktik elementlər işarələrin bir-birinə və kommunikasiya aktının digər üzvlərinə olan münasibətini yaradan işarəedici funksiyaya malikdirlər" [1, s. 237].

Şüarlar andiçmə nitqlərinin müxtəlif mərhələlərində mühüm rola malikdirlər. Belə ki, mətnin semantik məna keyfiyyəti, mənalılığı, qısa və lakonik olması burada vacib şərtlərdən hesab olunur.

Bundan əlavə, səslənmənin səmərəliliyi də burada əsas amillərdən hesab edilməkdədir. Bu mənada "vətənpərvərlik" konseptinin məcaz dili ilə ifadəsində də şüarlar böyük rola malikdirlər. Burada qısa şəkildə təqdim edilmiş sözlər vasitəsilə təntənənin gücü nəzərə carpdırılır.

Onu da vurğulayaq ki, sinonimlər, antonimlər və s. hər biri vasitələr olaraq, sözügedən konseptin ifadəsində mühüm əhəmiyyət kəsb etməkdədirlər. Belə ki, sinonimlərdən bəhs edərkən onların tekstdaxili sinonimik olaraq, eyni ümumi semantik keyfiyyəti paylaşdıqları aydın olur. Məsələn, torpaq, xalq anlayışları olaraq, sinonimik cərgədə eyni semantik mənanı paylaşırlar.

Beləliklə, bu da mətni lazımsız təkrarlardan qoruyur. Eyni zamanda mətnə variativlik, rəngarənglik bəxş edir. Digər linqvistik vasitələr sırasına antonimləri də əlavə etmək düzgün olardı. Belə ki, onlar mətndə təzadların yaranmasına xidmət göstərirlər. A.Məmmədov yazır: "Mətnin səciyyələndirilməsi üçün, həmçinin bu və yaxud digər mətn vahidinin daha sonra nə baş verəcəyi və yaxud bu və ya digər müddəanın açılması, təsvir olunması, təfsilatı ilə araşdırılması haqqında mətnqəbuledicisinin nə dərəcədə xəbərdarlıq edə biləcəyi də əhəmiyyət kəsb edir. Bu zaman mətndə kataforik əlaqə, yəni struktur vahidlər arasında əvvəlki formanın məzmununun sonrakı formalardan birində açılan və yaxud konkretləşdirilən proses ilə səciyyələndirilən əlaqə tipi müşahidə olunur [4, s.44].

Onu da qeyd edək ki, burada koheziya vasitələrinin rolu danılmazdır. Koheziyanın konsepti semantikdir, yəni bu mətndaxili məna münasibətlərinə aid edilir. Koheziya diskursda bəzi elementlərin interpretasiyası olduqda meydan çıxır. Bu elementlər bir-birindən asılı olurlar.

Dil vahidlərinin konkret situasiya ilə uyğunlaşdırılması bütün dil daşıyıcılarına xas olan cəhətlərdəndir. Çünki söyləmi və ümumilikdə, mətnin konkret kontekstual mənası fərdi biliklərdən, kommunikantın emosiya və assosiasiyalarından asılıdır. Bu hər kəs üçün eyni səviyyə üzrə qərarlaşmır.

Yeri gəlmişkən qeyd edək ki, koheziya qrammatik, semantik və leksik vasitələrlə əlaqə forması hesab edilir. Bu formalar özü-özlüyündə mətnin ayrı-ayrı hissələrini bir-biri ilə bağlayır.

Prof. Əfqan Abdullayev yazır: "Bu göstərici nitq zəncirində sintaqmatik əlaqələrin olmasını nəzərdə tutur: cümlə daxilində, eləcə də cümlə hüdudları xaricində sözlər, söz birləşmələri arasında, yəni həmin elementlərin leksik və qrammatik cəhətdən uzlaşmasını nəzərdə tutur [2, s.177].

Tədqiqatçılar da koheziyanın müxtəlif növlərinin adlarını edirlər. İ.Qalperin koheziyanın qrammatik, məntiqi, assosiativ obrazlı, kompozisiya-struktur, üslubi və ritm düzəldici növlərindən bəhs edir [6, s. 78].

Eyni zamanda, formal və semantik növləri də buraya əlavə edirlər. Dilçilik ədəbiyyatlarında koheziyanın əlavə olaraq, müxtəlif növləri haqqında da bəhs edilir:

– sintaktik (müxtəlif sintaktik təkrarlar, sual cümlələri, anafora və katafora daxil edilir),

– leksik (sinonim və antonim sözlər daxil edilir),

– dayaq sözlər (müəllifin kommunikativ istəyinin olduğunu nəzərdə tutan semantik yaxud məzmun, tematik və mətnin kompozisiaya-janr vəhdəti, üslubi vasitələrin mətn vəhdəti və bütün mətn çərçivəsində istifadəsi).

Qeyd etdik ki, mətn daxilində koheziya vasitələrinin rolu danılmazdır. Koheziyanın konsepti semantikdir, yəni bu mətndaxili məna münasibətlərinə aid edilir. Koheziya diskursda bəzi elementlərin interpretasiyası olduqda meydan çıxır. Bu elementlər bir-birindən asılı olurlar.

Yeri gəlmişkən, üç cür istinad vardır:

1) şəxsi;
2) işarəvi;
3) müqayisəli.

Birincidə şəxs vasitəsilə situasiya, ikincidə yerləşmə, üçüncüdə isə oxşarlıqlar nəzərdə tutulur.

Qeyd edək ki, mövzu razılaşdırıldıqdan sonra əgər dinləyənə nəsə aydın olmursa bu zaman danışana dinləyən tərəfindən müəyyən siqnallar göndərilir. Bu o zamana qədər davam edir ki, proses bir neçə mərhələni geridə qoyur (turn) və topikal koherentlik əldə edir.

Tanınmış dilçi Ə.Abdullayev koherentlik haqqında isə bunları qeyd edir: "Mətn həm daxili, həm də xarici quruluşa malikdir. Sonuncunun elementləri dil vahidləri olmayıb, bu vahidlərin aktivləşdirdiyi, fəallaşdırdığı ümumi anlayışlar-konseptlərdir. Konseptlər kiçik məna hissəciklərinin "hörülməsindən" yaranır. Burda əsas şərt həmin hörgünü təşkil edən hissəciklərin də uzlaşmasıdır. Yəni mətn koherent olmalıdır, başqa sözlə, mətn daxilində məna əlaqələri olmalıdır [2, s.178].

Diskursun xüsusiyyətlərini tədqiq edərkən biz interaksiyaçıların onu necə konseptuallaşdırdığının şahid oluruq.

Beləliklə, kiçik bir hissədə diskursun interaksiyaçılar üçün koherent olduğunu anlamağa çalışırıq.

Tekstual və diskursiv koherentlik sosio-koqnitiv anlama kimi mətn və diskursları, onların yaradıcılarını, adresat və dinləyiciləri, digər mədəniyyətlərə məxsus nümayəndələri bir araya toplayır.

Mətnin bütün elementləri kontekst daxilində bir-biri ilə əlaqə yaradır və bir-birini determinasiya edir. Bu əks determinasiya zamanı yaranan nəticə adi söz və metaforaların qarşılıqlı əlaqəsindən xeyli fərqlənir.

Kontekstin mətnlə əlaqəsi məsələsi uzun müddət tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Məsələn, R.Uodak kontekstin dörd tipindən bəhs edir. Onların mətnin, janrın və nəhayət diskursun yaranma səbəblərinə və dəyişməsinə güclü təsir etdiyini göstərir [8, s.38].

Onları aşağıdakı kimi təsnifləndirir:

– söyləmlər,
– mətnlər,
– janrlar
– diskurslar arasında mətnlərarası və diskurslararası münasibətlər;
– ekstralinqvistik, sosial, sosioloji tiplər;
– mətn və qurumların tarixi, arxeologiyası;
– situasiyaya bağlı spesifik kontekstin instutisional çərçivələri [8, s.38].

T.van Dayk konteksti insanlardan və onların düşüncəsindən, yəni mental modellərdən asılı olan kommunikativ situasiya kimi nəzərdən keçirir [7, s. 4].

Eyni zamanda T. van Dayk kontekstin modeli üçün aşağıdakı kateqoriyaları müəyyən edir:

– zaman, məkan, yer;
– ətraf mühitin sintezi;
– iştirakçılar (siz və başqaları);
– kommunikatorlar (iştirakın strukturu);
– sosial rollar və tipləri;
– üzvlük və ya müstəqillik, sərbəstlik;
– iştirakçılar arasındakı münasibətlər (üstünlük, dostluq);
– paylaşılan və sosial əhəmiyyəti olan bilik və etibar, niyyətlər və məqsədlər;
– kommunikativ və digər fəaliyyətlər, hadisələr [7, s.74].

İşin elmi nəticəsi. Sözügedən tədqiqat işində "vətənpərvərlik" konsepti ilə bağlı vacib məqamlara aydınlıq gətirilir, ümumiləşdirmələr aparılır, mövcud elmi-nəzəri müddəalar təhlillər fonunda nəzərdən keçirilir.

İşin elmi yeniliyi. Məqalənin elmi yeniliyi onun müəyyən nümunələr əsasında təhlil edilməsi, araşdırmalara cəlb edilməsi ilə bağlıdır.

Bundan əlavə, leksik vasitələr fonunda adıgedən konseptin ifadə vasitələri ilə bağlı izahatlar təqdim edilir, müqayisələr aparılır.

İşin tətbiqi əhəmiyyəti. Araşdırmaya cəlb edilən mövzu dilçilik məsələləri baxımından, tədqiqat işlərinin yazılmasında, ingilis dilinin tədrisi ilə bağlı faydalı ola bilər.

Ədəbiyyat

1. Abdullayev, K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.Abdullayev, – Bakı: Maarif, – 1999, – 281 s.
2. Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Ə.Abdullayev, – Bakı: Zərdabi LTD MMC, – 2011, – 272 s.
3. Məmmədov, A. Diskurs tədqiqi / A.Məmmədov, M.Məmmədov. – Bakı: – 2016, – 111 s.
4. Məmmədov, A. Mətn yaradılmasında formal əlaqə vasitələrinin sistemi (Müqayisəli təhlil təcrübəsi) / A.Məmmədov, – Bakı: FZM-2001, – 144 s.
5. Ахманова, О.С. Словарь лингвистических терминов. Изд. 4-е, стереотипное / О.С.Ахманова, – М.: Ком Книга, – 2007. – 576 с.
6. Гальперин, И.Р. Текст как объект лингвистического исследования / И.Р. Гальперин, – М: – 1981, – 138 с.
7. Dijk Teun A. van. Discourse and context. A Socio-cognitive Approach. – Cambridge: Cambridge University Press, – 2008, – 456 p.
8. Wodak, R. The Discourse of Politics in action. Politics as Usual / R.Wodak, – London: Palgrave Macmillan, – 2009, – 234 p.

A.A.Rajabova

The lexical devices of the expressions of concept of "Patriotism" in modern English

Summary

The investigation of lexical devices used to express the concept of 'patriotism' is interesting and relevant in modern English. We should emphasize that a concept is a complex notion in itself.

Once formulated, it is preserved in our minds. Then, it is represented by means of linguistic and non-linguistic devices. In summary, it should be noted that a concept can be viewed as a form of reflection.

Discourse is the primary means by which the concept is realized.

At this point, we are interested in text, context which is able to make representations.

We should note that the lexical devices have a great role in the representations of the concept of "patriotism".

The epithets, metaphors, metonymy, slogans, synonyms, antonyms etc. have a powerful role in attracting attention and creating emotional influence.

Key words: *patriotism, discourse, concept, language, representation*

А.А.Раджабова

Лексические выражения концепта «патриотизм» в современном английском языке

Резюме

Особый интерес представляет исследование понятия «патриотизм» в современном английском языке с точки зрения лексических средств выражения. Следует обратить внимание на то, что само понятие *концепт* считается сложным.

Таким образом, оно формируется и сохраняется в нашем сознании, а затем представляется с помощью языковых и неязыковых средств. В результате можно сказать, что оценить понятие возможно только через его проявления.

Дискурс – это средство реализации концепта.

В данном случае выделяются такие понятия, как текст и контекст. Нас начинает интересовать именно текст и контекст, в которых возможно его представление.

Следует отметить, что особая роль в репрезентации концепта «патриотизм» принадлежит лексическим единицам.

Так, эпитеты, метафоры, метонимии, лозунги, синонимы, антонимы и т. д. играют важную роль как средство привлечения внимания и эмоционального воздействия.

Ключевые слова: *патриотизм, дискурс, концепт, язык, репрезентация*

Rəyçi: f.f.d. S.A.Həsənova

Redaksiyaya daxil olub: 14.04.2025

G.Z.RƏHİMOVA
baş müəllim
e-mail: gulnararahimove@yahoo.com.tr
:https://orcid.org/0009-0004-1970-6633

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNDƏ MİNNƏTDARLIQ İFADƏ EDƏN NİTQ AKTININ TƏSVİRİ MƏQSƏDİNƏ DAİR

Xülasə. *Məqalədə minnətdarlıq ifadə edən nitq aktı tərif aktlarının tipologiyasında araşdırılır. Minnətdarlıq ifadə edən nitq aktının təsviri məqsədləri və ingilis bədii diskursunda bu nitq aktının həyata keçirilməsinin praqmatik vəziyyəti təsvir edilmişdir. Məqalə ingilis dilində leksik və intonasiya baxımından minnətdarlıq ifadələrini öyrənməyə çalışır. Nəzərdən keçirilən minnətdarlıq ifadə edən nitq aktının əsas struktur nümunələri müasir ingilis bədii ədəbiyyatından istifadə etməklə göstərilir.*

Açar sözlər: *minnətdarlıq, nitq aktı, illokutiv məqsəd, emosional qiymətləndirmə, perlokutiv akt*

İngilisdilli bədii diskurs materialına əsaslanan minnətdarlıq ifadə edən nitq aktının bu tədqiqi nəzəri və metodoloji əsası nitq aktları nəzəriyyəsi olan müasir dil praqmatikasının xüsusi problemləri sahəsinə daxildir. Bu nəzəriyyənin əsas müddəaları 20-ci əsrin 60-70-ci illərində ingilis məntiqçiləri və filosofları C.Ostin, C.Serle, C.Liçe, V.I.Karasik və başqaları tərəfindən tərtib edilmişdir.

Müxtəlif alimlər minnətdarlıq ifadə edən nitq aktını müxtəlif illokutiv (təsnifat) aktları sinfinə aid edirlər. Bununla belə, bu tədqiqatın aktuallığını müəyyən edən minnətdarlıq bildirən nitq aktının illokutiv məqsədlərinin hərtərəfli təsviri təcrübəsi hələ mövcud deyil. Bu işin obyekti minnətdarlıq nitq aktıdır. Tədqiqatın mövzusu ingilis ədəbi diskursunda minnətdarlıq nitqinin illokutiv məqsədləridir.

Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur: 1) minnətdarlıq ifadə edən nitq aktının illokutiv nitq aktlarının tipologiyasında yerini müəyyənləşdirmək;

2) minnətdarlıq ifadə edən nitq aktının illokutiv məqsədlərini tətbiq etmək;

3) minnətdarlıq ifadə edən nitq aktının həyata keçirilməsinin praqmatik vəziyyətini təsvir etmək.

Linqvistik təhlilə tətbiq edilən nitq aktı məsələlərinin inkişafı dilin öyrənilməsinə təkcə ekstralinqvistik amillərin daxil edilməsini deyil, həm də nitq ünsiyyətinə ümumi fəaliyyət nəzəriyyəsi mövqeyindən yanaşmanı nəzərdə tutur. Bu nəzəriyyədə fərdin hər hansı bir hərəkəti üç hissəli struktur fenomeni kimi qəbul edilir və nəzərdən keçirilir. Birincisi, hərəkət onun hədəf səviyyəsini təşkil edən məqsəd, motiv ilə xarakterizə olunur, ikincisi, hər bir hərəkət məqsədə çatmaq üçün yol və vasitənin mövcudluğunun olmasını nəzərdə tutur. Üçüncüsü, hərəkət nəticə əldə etmək və onun əvvəllər qarşıya qoyulmuş məqsədlə müqayisə etmək mərhələsi ilə xarakterizə olunur. C.Ostin bu mərhələni illokutiv aktı adlandırır [3, s.86]. Danışıq aktı niyyətin həyata keçirilməsi aktı ilə üst-üstə düşdüyünə görə, **lokutiv və illokutiv (təxəyyül və ifadə)** aktlarının icrası eyni vaxtda baş verir. Bundan əlavə, danışıq prosesi danışanı öz məqsədinə çatmağa yönəldən əməliyyatdır. C.Ostin bu üçüncü məhsuldan nəticə (səmərəli) mərhələni perlokutiv aktı kimi müəyyən edir [3, s.88]. Perlokusiya müəyyən bir nitqin başqaları üzərində yaratdığı təsirdir. Onu illokutiv aktı ilə əlaqələndirərək, onun uğur və ya uğursuzluğundan, nitq aktının müsbət və mənfi təsirindən danışa bilərik. Nitq aktının mərkəzi nöqtəsi illokusiyadır, bunun əsasında C.Ostin nitq aktlarının beş sinfini müəyyən edir [3, s.119]: 1) hökmə görə fərqləndirilən (hökmlər); 2) səlahiyyət, hüquq və ya təsirin həyata keçirilməsini nəzərdə

tutan ekzepsitivlər (həyata keçirmələr); 3) vədlər və ya digər öhdəlikləri ehtiva edən komisivlər; 4) sosial davranış və insanlar arasındakı münasibətlərdə əlaqəli davranışlar (bexabitivlər); 5) mübahisə və ya söhbət zamanı ifadənin hansı yeri tutduğunu göstərən ifadələr (eksnozitivlər).

C.Serl nitq aktları nəzəriyyəsinin banisi C.Ostinin təsnifatını illokusiya aktlarının təsnifatı məqaləsində tənqid edir. O, nitq ünsiyyətinin reallığı olan və konkret dildən asılı olmayan illokusiya aktları ilə bu reallığın konkret dilin lüğət sistemində özünəməxsus əksi olan qarışdırılmasının qanunsuzluğunu göstərir. C.Serl aşağıdakı xüsusiyyətlərə əsaslanan nitq aktının alternativ təsnifatını təklif edir [4, s.172-177]: 1) illokutiv aktının məqsədi; 2) ifadə ilə reallıq arasında uyğunluq istiqaməti; 3) danışanın daxili vəziyyəti; 4) nitq aktının təklif məzmunun xüsusiyyətləri; 5) nitq aktının dildənkənar qurum və ya qurumlarla əlaqəsi. Bu parametrləri nəzərə alaraq, alim bütün illokusiya aktlarını beş sinfə bölür [4, s.180-188]: 1) müəyyən bir vəziyyət haqqında məlumat verən və həqiqətin düzgün qiymətləndirilməsini nəzərdə tutan reprezentativ (nümayəndəli) ifadələr; 2) direktiv ifadələr onların köməyi ilə danışan adresatı hər hansı bir işi məcbur etməyə çalışır; 3) danışanın köməyi ilə bir şey etmək öhdəliyi götürdüyü komissiv ifadələr; 4) danışanın öz psixoloji vəziyyətini ifadə etdiyi ekspressiv ifadələr bu sinfə minnətdarlıq ifadə edən nitq formulları kimi daxildir; 5) deklarativlər müvafiq sosial statusu olan hər hansı bir insanın statusunun dəyişdiyini elan etdiyi ifadələrdir. C.Serl hesab edir ki, ekspressiv ifadələr üçün *thank – təşəkkür etmək, congratulate – təbrik etmək, apologize – üzr istəmək, condole – başsağlığı vermək, deplore – təəssüflənmək, welcome – salamlamaq* nümunəvi fellərdir [4, s.187].

C.Liçə görə, nitq aktlarının təsnifatı ünsiyyətin sosial məqsədinə, yəni nəzakətin qurulmasına və saxlanmasına əsaslanır. Onun taksonomiyasında nitq aktlarının cəmi dörd növü vardır [6, s.104-105]: 1) illokutiv məqsədi sosial məqsədlə rəqabət aparan kompetitivlər (əmr, tələb, yalvarış); 2) illokutiv məqsədi sosial məqsədə üst-üstə düşən konviviallar (dəvət, salam, təbrik, minnətdarlıq); 3) kollaborantlar (təsdiq, hesabat, elan, təlimat) əməkdaşlığa yönəldilir; 4) konfliktli (təhdid, ittiham, lənət, töhmət) illokutiv məqsədi sosial məqsədlə ziddiyyət təşkil edir. Minnətdarlıq ifadə edən nitq aktı nitq aktlarının ikinci sinfinə konviviallara aiddir, çünki minnətdarlıq nitqinin illokutiv məqsədi təşəkkür etmək sosial məqsəd ilə üst-üstə düşür. Konviviallar funksiyası insanlar arasında ahəngdar ünsiyyəti təşviq edən müsbət nəzakətin həyata keçirilməsinə yönəldilmişdir.

V.İ.Karasik nitq aktlarını kommunikantların status münasibətləri nöqteyi- nəzərindən öyrənərək, onları iki sinfə ayırır: status – işarələnmiş və status – neytral. O, konstativləri (bəyanatları, rəvayətləri) və təsvirləri (təsvirləri) status – neytral nitq aktları kimi təsnif edir, status işarələnmişlərə inyunktivlər (əmr, tələblər), sorğular (tələblər, yalvarışlar), göstərişlər (təlimatlar, qadağalar) və s. Vəziyyətlə işarələnmiş nitq aktlarını daha çox statuslu və status – labial nitq aktlarına bölmək olar. Birincisinə adresatın müəyyən mövqeyi olan nitq aktları (direktivlər, tələblər, icazələr), ikincisinə dəyişən status vektorunun ünsiyyət şəraitindən asılı olduğu aktlar (vokativlər, komissivlər) daxildir. Aşağıdakı misallar nitq vəziyyətlərini göstərir ki, tabeliyində olan şəxs əvvəlcə müdirinə tərif üçün təşəkkür edir, sonra isə müdir tabeliyində olan işçiyə xahiş edir və ona əvvəlcədən təşəkkür edir: 1) ju ˊnju: |ðɪs ˈgaɪ wəz ˈbæd frəm ðə \staːt |ənd juv ˈdʌn ə ˈhekəvəˊdʒɒb |ˈtrækɪŋ daʊn ˈɔːl ðɪ ɪnfɔːˊmeɪʃn |ənd ɪsˈpeʃəli ɪn ˈfɪgərɪŋ aʊt hu hi \wɒz‖ ˈðæt wəzˈ ɔːl jɔˑ\ duːɪŋ‖ \Θæŋk juː ʃiˑd sed‖ [11, s.454]; 2) ˇtɪm sez ljuːk| lʊkɪŋ ʌp frəm ðə\ foʊn‖ ˈkæn ju ˈprɪnt aʊt ðə ˈflægstaːf ˈfɔːrəsaɪt /pres | rɪˈliːz ˈdraːft fə mi əz ˈsuːn əz \pɒsəbl ‖ \Θæŋks‖ [8, s.273].

N.İ.Formanovskaya emosiyaların, qiymətləndirmələrin, münasibətlərin faktiki ekspressiv ifadəsini ekspressivlər sinfində (C.Ostinə görə davranışlar) buraxmağı məqsədəuyğun hesab edir. O, həmsöhbətlərin sosial-nitq aktını qurmaq və saxlamaq üçün nəzərdə tutulmuş sosial etiket ifadələrini nitq etiketlərinin ayrıca bir sinfi hesab edir – etiket ifadələri, kontaktlar, sosiativlər [5, s.116-117]. Beləliklə, N.İ.Formanovskayanın fikrincə, minnətdarlıq ifadə edən nitq aktı hər hansı bir emosiyadan qiymətləndirmədən məhrum olan müstəsna olaraq faktik

nitq aktına aiddir və yalnız nitq davranışının sosial normalarını təmin etməyə xidmət edir ki, bu aşağıdakı nümunələrdə əvvəlcə ictimai, sonra kontaktiv kimi çıxış edən minnətdarlıq ifadə edən nitq aktlarını müşahidə etmək olar:

1)ˈ Θæŋks fɔˑ ðə \lɪft ɪjæn |aɪ ˈseɪ ɪn maɪ ˈbest ˈtʃa:mɪŋ ˈkɔ:pərɪt ˈwaɪf \mænə‖ [9, s.89]; 2) he\loʊ nəoʊ aɪ sed‖ he\loʊ wɪlsən hi sed| ˈΘæŋks fɔˑ \drɒpɪŋ baɪ‖ [12, s.23]. T.V.Larina minnətdarlıq ifadə edən nitq aktının bu xüsusiyyəti haqqında belə deyir: kommunikantlar bir-birlərini tanıyanda nadir hallarda eksplesit minnətdarlıq ifadəsi ilə məhdudlaşırlar. Bir qayda olaraq, bu emosional qiymətləndirici replika ilə müşayiət olunur. Bu ya minnətdarlıq obyektinin qiymətləndirilməsi, ona münasibətin ifadəsi, ya da ünsiyyət tərəfdaşının, onun keyfiyyətlərinin və ya hərəkətlərinin qiymətləndirilməsi ola bilər. Bəzi hallarda emosional qiymətləndirmə eksplesit ifadə edən minnətdarlıqdan daha əhəmiyyətlidir, yəni emosional qiymətləndirməni ifadə etmək aşağıdakı nümunələri nümayiş etdirir [2, s.343]: 1) /hesɪtəntli| ˈlɒretə ˈhændz mi ə ˈla:dʒ /hæt| ˈfestu:nd wɪð ˈplæstɪk \flaʊəz | ə ˈkrɒs bɪtwi:n ə ˈka:tu:n ˈmeksɪkən ˈhæt ənd ə ˈplæstɪk/ flaʊə |əˈreɪndʒmənt ɪn ə ˈtu: ˈsta: \hoʊ\tel ‖ aɪˈ hoʊp juˑ \laɪk ɪt sedi:‖ ɪts \lʌvli lɒretə | \Θæŋks ‖ [13, s.117].

Bu misal minnətdarlıqla yanaşı, minnətdarlıq obyektinin (hədiyyənin) təqdirini ifadə edir. 2) >aɪ | aɪ ˈdoʊnt ˈnoʊ haʊ tə \Θæŋk ju aɪ stʌtəd | ˈðæts ðə ˈmoʊst ˈwʌndəfʊl /Θɪŋ| ˈenɪwʌnz ˈevə \dʌn fɔˑ mi| \evə‖ maɪ \pleʒə ‖ [10, s.51-52]. Bu nitq epizodu Bekkinin nəhayət ən dəbli çantanı aldığı və nəinki donoruna təşəkkür etdiyi, həm də onun hərəkətlərinə müsbət qiymət verdiyi vəziyyəti təsvir edir.

Minnətdarlıq ifadəli olaraq təsnif edilirsə, onun izahedici məqsədləri aşağıdakı ardıcıllıqla düzülür: 1) İnsanın davranışa və ya hərəkətinə müsbət reaksiya bildirmək; 2) tərəfdaşına dost münasibətini bildirmək; 3) adresatın hərəkətlərinə müsbət qiymət vermək; 4) münaqişəsiz və ahəngdar ünsiyyət saxlamaq; 5) sosial tarazlığı qorumaq. Minnətdarlıq nitq etiketi kimi qəbul edilərsə, əsas illokutiv məqsədlər münaqişəsiz və ahəngdar ünsiyyət saxlamaq və sosial tarazlığı qorumaqdır, qalanları arxa plana keçir. Bizə elə gəlir ki, minnətdarlığın dominant illokutiv məqsədinin müəyyən edilməsi hər bir konkret ekstralinqvistik konteksdən asılıdır. Materialımızda bir çox səmimi minnətdarlıq nümunələri var – ifadəlilik, ilk növbədə müsbət emosiyaların ifadə edilməsinə və yardımın müsbət qiymətləndirilməsinə, çətin vəziyyətdə mühüm xidmət və mənəvi dəstək göstərməyə yönəlmiş; lakin iltifata, təbrikə, dəvətə, tərifə, təqdirə və s. reaksiya olan və illokutiv məqsədi fatik olan formal etiket minnətdarlıq nümunələri də var. Nümunədə əvvəlcə fırtına zamanı Bekinin bacısına onu dağlarda tək qoymadığına görə təşəkkür etdiyi səmimi ifadəli minnətdarlıqdan, sonra isə iltifata reaksiya olaraq ortaya çıxan etiket və fatik minnətdarlıqdan nümunələr verək: ˈΘæŋks fɔˑ \helpɪŋ mi | ˈΘæŋks fɔˑ \steɪɪŋ wɪð mi: ‖ [10, s.343]. juˑ hæv ə ˈwʌndəfʊl \fɪgə aɪ seɪ| rɪəlaɪzɪŋ ə bɪt \leɪt| ðət ʃiˑz ˈweɪtɪŋ fɔˑr ə\kɒmplɪmənt‖ [10, s.283].

Məqalənin elmi nəticəsi: Minnətdarlıq ifadə edən nitq aktı, ilk növbədə, müsbət reaksiya vermək və insanın davranışına və ya hərəkətlərinə müsbət qiymət vermək məqsədi ilə həyata keçirilir. Bundan əlavə, bu yolla minnətdarlıq adresantı adresat ilə ahəngdar münasibət qurmağa çalışır, əlverişli ünsiyyət mühiti yaratmağa çalışır, yəni bu nitq aktı etiket formullarının funkiyalarını yerinə yetirə bilər. Nəticə etibarilə, minnətdarlıq ifadə edən nitq aktının ifadəliliyi və etiket xarakteri ekstralinqvistik kontekstlə müəyyən edilir və buna görə də dəyişkəndir, halbuki onların davranışı daimi xüsusiyyətdir.

Məqalənin elmi yeniliyi. Məqalədə yalnız minnətdarlıq ifadə edən nitq aktlarının illokutiv nitq aktlarının tipologiyasında yerini müəyyənləşdirmək və onların məqsədlərini tətbiq etmək deyil, həmçinin həyata keçirilməsinin praktik vəziyyətini təsvir etmək məqsədi qarşıya qoyulmuşdur.

Məqalənin tətbiqi əhəmiyyəti: Bizə elə gəlir ki, təqdim olunan məqalə "Minnətdarlıq ifadə edən nitq aktının təsviri məqsədinə dair" mövzusu ilə maraqlanan hər bir tədqiqatçı üçün əhəmiyyətli hesab etmək olar. Bu məqalədə irəli sürülən məsələlərin təhlili xarici dili tədris

edən universitetlərdə həm bakalavr, həm də magistr pilləsində təhsil alan tələbələr üçün mühüm əhəmiyyət daşıya bilər.

Ədəbiyyat

1. Карасик, В.И. Язык социального статуса / В.И.Карасик, – М.: Институт языкознания АН СССР, Волгоградский педагогический институт, – 1991, – с.495.
2. Ларина, Т.В. Категория вежливости и стиль коммуникации. Сопоставление английских и русских лингвокультурных традиций / Т.В.Ларина, – 2009. – с.507.
3. Остин, Дж. Слово как действие // Новое в зарубежной лингвистике, вып 17: Теория речевых актов. – М.: Прогресс, – 1986. – с. 22-129.
4. Серль, Дж. Классификация иллокутивных актов // Новое в зарубежной лингвистике. Теория речевых актов. – М. : Прогресс, – 1986. – с. 170-194.
5. Формановская, Н.И. Речевое общение: коммуникативно прагматический подход / Н.И.Формановская, – М.: Русский язык, – 2002. – с.216.
6. Leech, G. Principles of Pragmatics / G.Leech, – London & New York: Longman, – 1983. – p.250.
7. Searle, J.R. Expression and Meaning. Studies in the theory of speech acts / Searle, J.R. – New York: Cambridge University Press, – 1979. – p.187.
8. Kinsella, S. Confessions of a Shopaholic / S.Kinsella, – London: Black Swan, – 2000. – p.320.
9. Kinsella, S. Shopaholic and Baby / S.Kinsella, – London: Black Swan, – 2008. – p.447.
10. Kinsella, S. Shopaholic and Sister / S.Kinsella, –London: Black Swan, – 2004. – p.382
11. Sparks, N. The Guardian / N.Sparks, – NY, Boston: Grand Central Publishing, – 2004. – p.494.
12. Sparks, N. The Wedding / N.Sparks, –NY: Vision, Hachette Book Group, Inc., –2004. – p.276.
13. Williams, P. How to be Married / P.Williams, –London: Headline Publishing Group, –2010, –p. 376.

G.Z.Rahimova

The Illocutionary Aims of the Gratitude Speech Act in the English Language

Summary

The article deals with the place of the gratitude speech act in the taxonomy of illocutionary acts. It also includes the analyses of illocutionary aims of the gratitude speech act and the description of pragmatic situation of its realization. In the article an attempt is made to study realization of gratitude by lexical and intonative means in the English language. On the base of modern English literature, the basis structure patterns of gratitude speech act are considered.

Key words: *gratitude, speech act, illocutionary aim, emotional evaluation, perlocutionary act*

Г.З.Рагимова

Иллокутивные цели речевого акта в английском языке

Резюме

В статье рассматривается речевой акт благодарности в типологии иллокутивных актов. Описаны иллокутивные цели речевого акта благодарности и прагматическая ситуация реализации данного речевого акта в английском художественном дискурсе. В статье сделана попытка изучить выражения благодарности с лексической и интонационной стороны в английском языке. На материале современной английской художественной литературы показаны основные структурные закономерности рассматриваемого речевого акта благодарности.

Ключевые слова: *благодарность, речевой акт, иллокутивная цель, емоциональная оценка, перлокутивный акт*

Rəyçi: f.f.d., b/m. C.H.Yaqubova

Redaksiyaya daxil olub: 06.05.2025

S.Ə.RÜSTƏMOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
:https://orcid.org/0009-0005-2592-7691

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.090

AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ LEKSİK-ÜSLUBİ LAYLARIN İŞLƏNMƏ MƏQAMLARI

Xülasə. *Məqalədə Azərbaycan ədəbi dilində leksik-üslubi layların işlənmə məqamları araşdırılıb. Bədii ədəbiyyatda bu leksik-üslubi laylar dilin ifadə imkanlarını genişləndirən və mətnin estetik gücünü artıran mühüm vasitələrdən biridir. Onların tədqiqi bədii əsərlərin ilk baxışdan görünməyən dərin mənalarını açmağa fərdi üslub xüsusiyyətlərini və ədəbi yanaşmasını dəqiq müəyyən etməyə imkan yaradır. Üslubi laylar ədibin bədii üslubunun formalaşmasına təsir göstərən əsas komponentlərindən biridir. Bu qatlar yazarların fərdi üslubunu müəyyən etməklə yanaşı, dövrün bədii-estetik prinsiplərini və sosial-ictimai vəziyyətini də üzə çıxarmağa imkan yaradır. Məqalədə əsasən bu üslubi layların müxtəlif funksiyalarının və tətbiq məqamlarının, həmçinin əsərlərdəki funksional rolunun və kommunikativ təsirinin təhlil edilməsi verilib. Funksional üslubi layların müxtəlif növlərinin müasir qloballaşma və texnologiyanın inkişafı nəticəsində ictimai-siyasi layların, ideoloji xarakterini açıqlayır. Poetizmlər sözün leksik mənasını zənginləşdirərək, onu bədii məna çalarları ilə yükləyir. Bu laylar dilin inkişafı və insanın öz düşüncələrini daha təsirli, yaddaqalan və emosional çatdırmağa kömək edir.*

Açar sözlər: *üslub, leksik-üslubi laylar, poetizmlər, peşə-sənət leksikası, dialektizmlər, neologizmlər, danışıq üslubu, terminlər, ekspressiv-emosional sözlər, ictimai-siyasi leksika*

Dil cəmiyyətin mənəvi sərvətidir, xalqın düşüncə tərzinin, dünyagörüşünün, tarixinin və mədəniyyətinin daşıyıcısıdır. Bu baxımdan, ədəbi dil sadəcə ünsiyyət vasitəsi deyil, həm də ictimai-mədəni yaddaşı yaşadan və inkişaf etdirən canlı bir sistemdir. Azərbaycan ədəbi dili də öz zənginliyi, inkişaf tarixi və funksional imkanları ilə təkcə milli mənsubiyyətin göstəricisi yox, həm də estetik və intellektual fəaliyyətin daşıyıcısı kimi çıxış edir. Ədəbi dilin bu çoxşaxəli funksiyaları onun leksik tərkibində və üslubi sistemində öz əksini tapır. Məhz bu nöqtədə leksik-üslubi laylar məsələsi aktuallaşır.

Azərbaycan ədəbi dilində leksik-üslubi laylar, – yəni dilin söz ehtiyatının funksional, üslubi, mənşə və tarixi baxımdan müxtəlif təbəqələrə bölünməsi – ədəbi dilin ifadə imkanlarını genişləndirən, onu həm elmi, həm bədii, həm də gündəlik ünsiyyətdə çevik və təsirli hala gətirən bir amildir. Hər bir leksik-üslubi qat öz spesifik xüsusiyyətlərinə və kommunikativ vəzifəsinə malikdir. Məsələn, neytral sözlər geniş üslubi çevrədə işlənərkən, poetik sözlər yalnız bədii üslubda, terminoloji vahidlər isə elmi üslubda aktuallıq qazanır. Bu isə dilin üslublar üzrə bölgüsünün leksik bazasının da vahid deyil, layvari quruluşa malik olduğunu göstərir.

Azərbaycan ədəbi dilində leksik-üslubi layların formalaşması və işlənməsi uzunmüddətli tarixi inkişaf prosesi ilə sıx bağlıdır. Klassik ədəbi nümunələrdə poetik və arxaik leksik qatların geniş yer tutması, XX əsr ədəbiyyatında publisistik və terminoloji təbəqələrin aktivləşməsi, müasir dövrdə isə danışıq dili elementlərinin ədəbi mətnlərdə daha sərbəst şəkildə işlədilməsi bu inkişafın təzahürlərindəndir. Bu dəyişikliklər dilin təkamül yolunda həm funksional genişlənməyə, həm də üslubi sərhədlərin yenidən müəyyən olunmasına səbəb olmuşdur. Leksik-üslubi layların bu cür dinamik xarakter daşıması, onları tədqiqat obyekti kimi son dərəcə maraqlı və əhəmiyyətli edir.

Digər tərəfdən, qloballaşma və informasiya texnologiyalarının sürətli inkişafı fonunda Azərbaycan ədəbi dilinə daxil olan yeni leksik qatların (xüsusilə alınma sözlər, internet və sosial media dili elementləri) düzgün və məqsədyönlü istifadəsi məsələsi də ön plana çıxır. Bu, bir tərəfdən dilin zənginləşməsinə xidmət etsə də, digər tərəfdən ədəbi dilin normativliyi və saflığı üçün müəyyən təhdidlər yarada bilər. Belə bir şəraitdə leksik-üslubi layların elmi şəkildə sistemləşdirilməsi, onların ədəbi dillə uyğunluq dərəcəsinin təhlili, həm dilçilik, həm də dil siyasəti baxımından böyük əhəmiyyət daşıyır.

Nəticə etibarilə, Azərbaycan ədəbi dilinin leksik sistemində baş verən üslubi laylaşmaların öyrənilməsi dilin üslubiyyət imkanlarının daha dərindən dərk olunmasına, ədəbi dilin normativ çərçivələrinin müəyyənləşdirilməsinə və dilə estetik yanaşmanın güclənməsinə xidmət edir. Bu mövzu təkcə dilçi alimlərin deyil, həm də yazıçıların, jurnalistlərin, tərcüməçilərin və müəllimlərin gündəlik fəaliyyətində üzləşdiyi praktik və nəzəri məsələləri əhatə etdiyi üçün aktuallığını daim qoruyur.

Leksik-üslubi layların vacibliyi bir neçə istiqamətdə özünü göstərir. İlk növbədə, bu laylar nitqin ekspressivliyini və fərdiliyini təmin edir. Məsələn, bədii əsərlərdə poetik sözlərin işlədilməsi emosional təsiri artırır, obrazların daha canlı və təsirli təqdim olunmasına imkan verir. Elmi üslubda terminlərdən istifadə mövzuya dəqiqlik və ciddi yanaşma gətirir. Jurnalistik üslubda isə publisistik ifadələr oxucunun diqqətini cəlb etməyə, onları düşündürməyə xidmət edir.

Digər tərəfdən, leksik-üslubi laylar dilin sosial təbəqələşməsini əks etdirir. İnsanlar yaşına, təhsilinə, peşəsinə, sosial vəziyyətinə görə fərqli söz qatlarından istifadə edə bilirlər. Məsələn, bir həkimin gündəlik danışığında tibb terminləri yer ala bilər, ya da bir kənd sakini dialekt sözlərindən istifadə edə bilər. Bu fərqliliklər dilin sosial funksiyasını yerinə yetirməsinə, yəni danışanın kimliyinin, mənsubiyyətinin və ünsiyyət kontekstinin açıq şəkildə hiss olunmasına şərait yaradır.

Leksik-üslubi laylar eyni zamanda dilin tarixini və inkişaf mərhələlərini öyrənmək baxımından da vacibdir. Arxaizmlər və tarixi sözlər bir dövrün dil xüsusiyyətlərini, mədəniyyətini və həyat tərzini əks etdirir. Onların öyrənilməsi dilin zaman içində keçdiyi yolu və baş vermiş dəyişiklikləri anlamağa kömək edir. Bu isə dilin qorunması və inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

Leksik-üslubi laylar dili yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də mədəni və sosial fenomen kimi başa düşməyə yardım edir. Onlar dilin zənginliyini və funksional imkanlarını artırır, nitqə rəngarənglik və ifadə dərinliyi qatır. Dilin bu qatlarını düzgün anlamaq və istifadə etmək yalnız yazıçı, alim və ya jurnalistlər üçün deyil, ümumiyyətlə, hər bir dildən istifadə edən fərd üçün mühümdür. Çünki dil – insanın düşüncəsini, münasibətini və kimliyini ifadə etdiyi ən güclü vasitədir.

Lüğət tərkibi bir dilin canlılığını, inkişaf səviyyəsini və tarixi keçmişini əks etdirən ən mühüm göstəricilərdən biridir. Azərbaycan dili də öz zəngin lüğət tərkibi ilə seçilən qədim və inkişaf etmiş dillərdən biridir. Lüğət tərkibi dedikdə, dilin tərkibində olan bütün sözlər – istər milli, istərsə də alınma sözlər, istərsə də terminlər və frazeoloji vahidlər nəzərdə tutulur.

Azərbaycan dilinin lüğət tərkibi həm say baxımından zəngindir, həm də mənşə və işlənmə sahələrinə görə müxtəliflik göstərir. Bu tərkib əsasən üç böyük qatdan ibarətdir: milli sözlər, alınma sözlər və beynəlmiləl sözlər.

Milli sözlər Azərbaycan dilinin öz kökündən yaranmış, uzun əsrlər boyu xalqın danışığında və yazısında işlənmiş sözlərdir. Bu sözlər xalqın düşüncə tərzini, həyat tərzini, dünya görüşünü əks etdirir. Məsələn, “ata”, “ana”, “su”, “torpaq”, “çörək”, “gün” kimi sözlər həm qədimdir, həm də milli mədəniyyətin bir hissəsidir.

Alınma sözlər isə başqa dillərdən müxtəlif dövrlərdə Azərbaycan dilinə keçmiş sözlərdir. Bu sözlər əsasən ərəb, fars, rus, fransız və son dövrlərdə ingilis dillərindən keçmişdir. Alınma sözlər ya zəruri anlayışları ifadə etmək məqsədi ilə, ya da dilə girib xalq tərəfindən

mənimsənilərək ümumi istifadəyə çevrilmişdir. Məsələn, "mədəniyyət" (ərəb), "dəftər" (fars), "proqram" (ingilis), "institut" (rus) kimi sözlər artıq dilin ayrılmaz hissəsinə çevrilmişdir.

Beynəlmiləl sözlər isə müxtəlif xalqların dillərində eyni və ya oxşar şəkildə işlənən, əsasən elmi-texniki sahəyə aid olan sözlərdir. Bu sözlər dünyəvi inkişafın məhsulu olaraq dillərə daxil olmuş və ümumqəbul olunmuş anlayışları ifadə edir. Məsələn, "telefon", "internet", "kompüter", "radio" kimi sözlər bu qəbildəndir.

Lüğət tərkibində həmçinin frazeoloji vahidlər – sabit söz birləşmələri də mühüm yer tutur. Bu vahidlər mənaca bütövdür, obrazlıdır və xalqın düşüncə tərzini, yumorunu, məcazlarla danışma vərdişini əks etdirir. Məsələn, "gözü su içməmək", "ağzını açıb gözünü yummaq", "daşı ətəyindən tökmək" "gündə min yalan qusmaq" kimi ifadələr məcazi mənada işlənir və dilin zənginliyini artırır.

Biz,
lənətlə unutduq,
Gündə min yalan qusanların
"Vətən"
"Millət"
"haqq-ədalət" şərqisini. (S.Vurğun)

Azərbaycan dilinin lüğət tərkibi həm də sosial, siyasi, elmi və mədəni həyatla sıx bağlıdır. Yeni texnologiyalar, ictimai dəyişikliklər və qloballaşma nəticəsində daim yeni sözlər yaranır, köhnələri isə işləkliyini itirə bilər. Bununla belə, klassik ədəbiyyatda və xalq danışığında qorunub saxlanılan köhnə sözlər də lüğət tərkibinin dəyərli qatını təşkil edir.

Ümumilikdə, Azərbaycan dilinin lüğət tərkibi həm tarixi dərinliyə, həm də müasirliklə uyğunlaşma qabiliyyətinə malikdir. Bu zənginlik dilin inkişafını və onun gələcək nəsillərə ötürülməsini təmin edən əsas amillərdən biridir.

Lüğət tərkibi müxtəlif leksik-üslubi laylara ayrılır:

1. Ümumişlək və funksional-üslubi lay;
2. Ərazi və ictimai-professional əlamətləri ilə fərqlənən leksik-üslubi lay;
3. Emosional və ekspressiv keyfiyyətləri ilə fərqlənən leksik-üslubi lay;
4. Genetik və xronoloji əlamətləri ilə fərqlənən leksik-üslubi lay [5, s. 176].

Bədii əsərlərdə hadisə və obrazların ən tutarlı, obrazlı təsviri məhz aydın, sadə, anlaşıqlı sözlərlə yaranır. Ümumişlək sözlər dərin fikirləri, incə hissləri ifadə edən qüvvətli nitq vasitəsi kimi çıxış edir. Yazıçılar ümumişlək sözlərlə parlaq, yadda qalan bədii lövhələr yaradırlar. Bunlar mənalı, ifadəli sözlərdir, emosional-ekspressiv çalarlıdır. Məsələn, "– Orxan – İsmət!.. Of... Sevimli, parlaq ilan" (H.Cavid).

Ana südü təmizdir...
Analar əzizdir.
Ancaq mən
anamı
çox sevirəm hər kəsdən.
Onun səsi əzizdir mənə hər səsdən.
Nahaq yerə vətənə ana demirlər:
Vətən də əzizdir ana qədər. (R.Rza)

Ümumişlək sözlərin üsulub imkanları daha genişdir. Bu sözlər əsl obrazlı ifadələr mənbəyidir:

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartılıb, ox kimi süzüb,
Yenə öz sürüsün nizamla düzüb
Baş alıb gedirsən hayana, ceyran! (S. Vurğun)

Canlı danışıq dilində adi və ədəbi dilə mənsub danışıq-məişət sözləri işlədilir. Adi danışıq-məişət sözləri ümumxalq səciyyəlidir, ədəbi dil normalarından kənardır və müxtəlif üslubi çalarlar daşıyır. Loru leksika ümumxalq danışıq-məişət nitqində, müxtəlif ictimai nitqdə yaşayan və ümumi qəbul olunmuş vasitə və ədəbi ifadə normalarından kənarda qalmış nitq vasitəsidir [9, s. 276-277].

Beləliklə, ümumişlək sözlər dilin demokratik təbəqəsini təşkil edir və cəmiyyətin bütün üzvlərini bir-birinə bağlayan ünsiyyət körpüsüdür.

Funksional-üslubi laylara aiddir:

1. Danışıq-məişət leksikası;
2. İctimai-siyasi leksika;
3. Rəsmi-işgüzar leksika;
4. Poetizmlər;
5. Terminlər [5, s. 177]

Danışıq-məişət leksikası xalqın gündəlik həyatında ən çox işlənən və nitqdə fəal şəkildə iştirak edən sözlər toplusudur. Bu leksika qrupuna insanın məişəti, ailə həyatı, geyim, qida, ev əşyaları, münasibətlər, gündəlik fəaliyyətlər və danışıq zamanı istifadə olunan müxtəlif ifadələr daxildir. Danışıq-məişət leksikası həm yazılı, həm də şifahi nitqdə geniş yer tutur, lakin əsasən şifahi ünsiyyətdə, qeyri-rəsmi danışıqda özünü daha qabarıq şəkildə göstərir.

Bu leksik qrup dilin canlı, emosional və ifadəli tərəfini təşkil edir. Danışıq-məişət leksikasına daxil olan sözlər adətən rəsmi üslubda işlədilmir, daha çox məişət səviyyəsindəki söhbətlərdə, yaxın münasibətlərdə, ailə daxilində və bəzən ədəbi əsərlərdə personajların nitqində istifadə olunur. Bu sözlər danışanın sosial vəziyyətini, yaşını, mənsub olduğu regionu və bəzən təhsil səviyyəsini də əks etdirə bilər.

Məsələn, "çörək", "qab-qacaq", "yorğan", "paltar", "çaydan", "çömçə", "süpürgə", "otaq", "dəsmal", "çarpayı", "qazan", "kəfkir" kimi sözlər məişət leksikasına aiddir. Həmçinin gündəlik danışıqda işlənən "əşi", "bala", "ayə", "hə", "həə", "dəə", "sənə deyirəm də", "bir də baxırsan ki…" kimi ifadələr də bu sahənin canlı nümunələrindəndir.

Danışıq-məişət leksikası daim inkişaf edir. Zamanla bəziləri unudulur, yeniləri yaranır. Texnologiyanın, sosial dəyişikliklərin, mədəniyyətlərarası əlaqələrin artması nəticəsində bu sahəyə yeni sözlər və ifadələr daxil olur. Məsələn, əvvəllər istifadə edilməyən "mikrodalğalı soba", "blender", "kondisioner", "wifi" kimi sözlər artıq müasir danışıq-məişət leksikasının tərkib hissəsinə çevrilmişdir.

Bu leksika növü dilin koloritini, obrazlılığını, xalq düşüncə tərzini və milli xüsusiyyətlərini əks etdirən mühüm sahələrdən biridir. Danışıq-məişət leksikasının öyrənilməsi xalqın məişət mədəniyyəti, tarix və gündəlik həyatı haqqında məlumat almağa da imkan yaradır.

İctimai-siyasi leksika cəmiyyətin siyasi, sosial və ictimai həyatını əhatə edən söz və ifadələr toplusudur. Bu leksika dilin daha çox rəsmi üslubuna, publisistikaya, siyasi nitqlərə, qanunvericilik və dövlət idarəçiliyi ilə bağlı mətnlərə aiddir. İctimai-siyasi leksika vasitəsilə dövlət quruluşu, idarəetmə formaları, ictimai hadisələr, partiyalar, təşkilatlar, hüquq və qanunlar, azadlıqlar və insan hüquqları ilə bağlı anlayışlar ifadə olunur.

Bu leksik qrupun əsas xüsusiyyəti onun terminləşmiş, rəsmi və ciddi üslubda olmasıdır. Sözlər çox vaxt abstrakt anlayışları bildirir və müəyyən ictimai-siyasi kontekstdə işlədilir. Məsələn: respublika, konstitusiya, seçki, demokratiya, parlament, prezident, millət vəkili, müxalifət, koalisiya, icra hakimiyyəti, hüquqi dövlət, beynəlxalq münasibətlər, diplomatiya, mitinq, senzura, söz azadlığı, insan hüquqları və s.

Bu leksika sahəsi təkcə siyasi dairələrdə yox, həm də mediada, təhsildə, elmi əsərlərdə və gündəlik həyatda da özünü göstərir. Zaman keçdikcə ictimai-siyasi leksikaya yeni sözlər əlavə olunur, köhnə anlayışlar isə ya unudulur, ya da mənaca dəyişir. Məsələn, SSRİ dövründə işlədilən "komsomol", "partiya üzvü", "sosialist əmək qəhrəmanı", "beşillik plan" kimi ifadələr artıq arxaikləşib və bu günün reallığında aktual deyil.

Müasir dövrdə qloballaşma və texnologiyanın inkişafı nəticəsində ictimai-siyasi leksikada beynəlxalq terminlərin təsiri artmışdır. Məsələn: "monitorinq", "debat", "petisiya", "media", "reytinq", "reform", "sanksiya", "blokada", "donor ölkə", "siyasi lider" kimi sözlər bir çox dildə eyni və ya bənzər şəkildə işlənir.

İctimai-siyasi leksika həm də ideoloji xarakter daşıya bilər. Yəni müəyyən bir siyasi baxış bucağından çıxış edən sözlər və ifadələr daha çox istifadə oluna bilər və bu da dilin ictimai-siyasi aspektdə necə işlədiyini göstərir. Məsələn, *höküməti yıxmaq məqsədilə hakimiyyət uğrunda mübarizə sözləri indi də onun ürəyində bütün qüvvvətlə səslənirdi* (M.Hüseynzadə). İctimai-siyasi leksika müəyyən bir obyektin (partiya, ölkə) ictimai-siyasi səciyyəsini açıb göstərmək üçün də istifadə edilir [5, s. 99]. Məs.:

"Əsrlərlə Britaniya hökm etdi
yüz milyonluq koloniyalara". (R.Rza)

Bu leksika növünü öyrənmək, insanın ictimai prosesləri və siyasi strukturları daha yaxşı başa düşməsinə, həmçinin rəsmi sənədləri və xəbərləri dəqiq təhlil etməsinə yardım edir. Məs: Həsənov: *Mən əmr verib ümumi iclasın qərarını ləğv edirəm.*

Rəsmi-işgüzar leksika dövlət idarəçiliyi, hüquqi münasibətlər, sənədləşmə və rəsmi yazışmalar sahəsində istifadə olunan söz və ifadələr toplusudur. Bu leksika növü daha çox kargüzarlıq işlərində, rəsmi məktublarda, ərizə və izahatlarda, hüquqi sənədlərdə, normativ aktlarda və protokollarda işlədilir. Onun əsas xüsusiyyəti ciddi, dəqiq, neytral və standartlaşdırılmış olmasıdır.

Rəsmi-işgüzar leksikanın söz ehtiyatı konkret, rəsmi məna daşıyan sözlərdən ibarətdir. Bu leksikaya daxil olan sözlərdən istifadə zamanı ifadələrin dəqiqliyi, qrammatik cəhətdən düzgünlüyü və üslub uyğunluğu mühüm əhəmiyyət daşıyır. Məsələn: *ərizə, göstəriş, əmr, təlimat, protokol, arayış, sənəd, müqavilə, qərar, icazə, rəsmi müraciət, məsul şəxs, müraciət etmək, təsdiq etmək, təqdim etmək, xahiş olunur, məlumat verilir* və s.

Bu leksikanın əsas funksiyası informasiyanın aydın, qərəzsiz və konkret şəkildə ötürülməsini təmin etməkdir. Rəsmi-işgüzar leksikada emosional ifadələrə, bədii təsvirlərə və danışıq dilinə xas sözlərə yer verilmir. Məsələn, "xahiş edirəm", "təqdim olunur", "nəzərinizə çatdırıram", "bildirmək istəyirəm" kimi sabit ifadələr tez-tez işlədilir və bu üslubun standartlarına çevrilib.

Bu leksika sahəsi müəyyən şablonlara əsaslanır. Məsələn, rəsmi məktub və ya ərizələrin başlanğıcı və sonu çox vaxt eyni ifadələrlə formalaşır. Beləliklə, üslub vahidliyi və hüquqi dəqiqlik qorunur. Eyni zamanda, bu leksikaya məxsus sözlər çox vaxt hüquqi və inzibati terminlərlə sıx bağlı olur. *Normativ sənəd, hüquqi məsuliyyət, əmək müqaviləsi, nəzarət orqanı* kimi ifadələr buna nümunədir.

Zamanla texnoloji və sosial dəyişikliklər rəsmi-işgüzar leksikaya da təsir edir. Elektron hökumət sisteminin inkişafı, onlayn müraciətlər və rəqəmsal sənədlərlə bağlı yeni terminlər yaranır: *e-imza, onlayn qeydiyyat, elektron ərizə, sistemə daxil olmaq* və s.

Rəsmi-işgüzar leksika dilin ciddi, normativ və funksional sahəsini təşkil edir. Onun düzgün işlədilməsi həm yazışmalarda, həm də rəsmi münasibətlərdə peşəkarlığın göstəricisidir.

Poetizmlər bədii üsluba xas olan, əsasən poetik (şeir) dillə işlənən söz və ifadələrdir. Bu sözlər gündəlik danışıq və ya rəsmi üslubda nadir hallarda işlədilir, daha çox bədii əsərlərdə, xüsusilə şeirlərdə, yüksək emosional və obrazlı ifadələr yaratmaq üçün istifadə olunur.

Poetizmlər dilin emosional-estetik imkanlarını genişləndirir, sözün təsir gücünü artırır və oxucuda bədii-estetik təəssürat yaradır.

Poetizmlər sözün leksik mənasını zənginləşdirərək, onu bədii məna çalarları ilə yükləyir. Bu cür sözlər bəzən arxaik, yəni köhnəlmiş sayılır və məhz bu xüsusiyyətlərinə görə poetik təsir gücünü artırırlar. Məsələn, gündəlik dildə "göz" deyilir, amma şeirdə onun yerinə "çeşmi", "nigah", "bəbək" kimi sözlər işlədilə bilər.

Poetizmlərə nümunə olaraq aşağıdakı sözləri göstərmək olar:

- sima – üz, görkəm
- nigah – baxış
- çəkmə – ayaqqabı yerinə işlənə bilər
- füğan – fəryad, ah-nalə
- zülmət – qaranlıq
- əhd – vəd
- eşq – sevgi
- canan – sevgili
- şəfəq – sübh işığı
- qəm – kədər
- hicran – ayrılıq

Bu sözlər yalnız məna baxımından deyil, həm də ahəng, ritm və qafiyə baxımından poeziyada seçilir. Məsələn:

Zülfün qaranlığında qaldım zülmət tək,
Nigahınla doğdu könlümə şəfəq…

Bu bənddə "zülmət", "nigah", "şəfəq" sözləri poetizmlərdir və adi "qaranlıq", "baxış", "işıq" sözlərinə nisbətən daha obrazlı, emosional təsir gücünə malikdir.

Poetizmlər həm də klassik Şərq poeziyasında, xüsusilə Füzuli, Nizami, Xaqani kimi şairlərin dilində daha çox müşahidə olunur. Onlar ərəb və fars dillərindən alınmış poetik sözlərdən çox istifadə ediblər. Müasir poeziyada isə həm klassik poetizmlər, həm də yeni, milli poetik ifadələr istifadə olunur. Poetik obrazlılıq söz sənətinin gözəllik tacıdır, qeyri-adiliklə müdrikliyin vəhdətindən yaranır.

Bir rəngdə olsaydı güllər, çiçəklər,
İnsanın gözləri yorulmazdımı?
Bir eşqi ötsəydi bütün ürəklər,
Dünyaya bir nəfər bəs olmazdımı? (B. Vahabzadə)

Ey azad gün, azad insan,
Doyunca iç bu bahardan. (S.Vurğun)

Poetizmlər dilin bədii-estetik qatını təşkil edir və poeziyanın təsir gücünü artıran əsas vasitələrdən biridir.

Terminlər – elm, texnika, incəsənət, hüquq, tibb, siyasət və digər ixtisaslaşmış sahələrə məxsus olan, yalnız müəyyən bir anlayışı ifadə edən dəqiq və sabit məna daşıyan söz və ya ifadələrdir. Terminlər ümumişlək sözlərdən fərqli olaraq, yalnız konkret sahədə işlənir və həmin sahəyə aid anlayışları qısa, aydın və qərəzsiz şəkildə ifadə etmək məqsədi daşıyır.

Terminlər müxtəlif yollarla yaranır:

- Hazırkı sözlər terminləşə bilər: məsələn, *kök, qolu, çevrə, enerji* sözləri gündəlik dildə işlənir, amma riyaziyyat və fizika sahəsində termin kimi tam fərqli, xüsusi məna daşıyır.
- Yeni sözlər yaranır: elmi kəşflər, texnoloji inkişaf nəticəsində əvvəllər mövcud olmayan anlayışlar üçün yeni terminlər yaranır (selfi, kibertəhlükəsizlik, blokçeyn).

• Digər dillərdən alınma: bir çox terminlər latın, yunan, ərəb, fars, rus və ingilis dillərindən alınmışdır (məsələn: planet, laboratoriya, diaqnoz, iqtisadiyyat, informasiya, kompüter).

Hər sahənin özünəməxsus terminlər sistemi var. Məsələn:

• Tibbdə – terapiya, diaqnoz, virus, antibiotik
• Hüquqda – qanunvericilik, hüquqşünas, konstitusiya, müqavilə
• Dilçilkdə – feil, sifət, sintaksis, fonetika
• Texnologiyada – server, şəbəkə, proqram təminatı, alqoritm.

Terminlərin düzgün başa düşülməsi və işlədilməsi həmin sahədə səriştəli danışığın əsas şərtidir. Bu səbəbdən təhsil və elmi ədəbiyyatda terminlərin izahlı lüğətlərinə və izahlarına geniş yer verilir. Terminlər bədii əsərlərdə mövzuya uyğun, obrazın əmək prosesi, iş fəaliyyəti, sənət, vəzifə və rütbəsi, davranış, həyat-məişət tərzini səciyyələndirmək məqsədi ilə işlədilir. Məsələn, Bənövşə:

– Biz bu saat tikinti sahəsini tikinti-montaj sahəsinə çeviririk. Bütün işlərimiz mexanikləşir. (S.Rəhman). – Müstəntiq Murtuzov tələş göstərib pərakəndə işləri sahmana salıb bir-bir nəzərdən keçirir, prokurorun gəlməsini gözləyirdi. (S.Rəhimov)

Terminlərdən bədii üslubda həddən artıq lüzumsuz yerə istifadə edilməsi əsərin dilini ağırlaşdırır, qurulaşdırır, bədiiliyinə mənfi təsir göstərir.

Terminlər elmi və peşəkar ünsiyyətin əsas ifadə vasitələridir. Onlar dilin inkişafında və elm sahələrinin sistemləşdirilməsində mühüm rol oynayır.

Ərazi və ictimai-professional əlamətləri ilə fərqlənən leksik-üslubi lay

Ərazi və ictimai-professional əlamətləri ilə fərqlənən leksik-üslubi laylar dilin lüğət tərkibindəki sözlərin müxtəlif sosial, coğrafi və peşə sahələrinə görə qruplaşmasını ifadə edir. Bu laylar dilin üslubi zənginliyini və sosial funksiyalarını əks etdirir.

Ərazi və ictimai-professional əlamətləri ilə fərqlənən leksik-üslubi laylara aiddir:

1. Dialektizmlər;
2. Peşə-sənət leksikası [5, s.205].

Dialektizmlər dilin coğrafi bölgələrə görə fərqlənən və yalnız müəyyən ərazilərdə yaşayan insanlar tərəfindən istifadə olunan leksik vahidlərdir. Onlar ədəbi dildə ya işlənmir, ya da tamamilə fərqli şəkildə ifadə olunur. Dialektizmlər dilin dialekt və şivə formalarında meydana çıxır və bu sözlər müəyyən bölgəyə məxsus olduğu üçün "ərazi leksikası" da adlanır. Dilimizin ayrı-ayrı şivələrində işlənən və ancaq onlara məxsus olan sözlərə dialektizmlər deyilir. Əgər dilimizin bütün dialektlərini nəzərə alsaq, onlara məxsus sözlərin sayı qat-qat çox olar. Bu qəbildən olan sözlərə aşağıdakıları misal göstərmək olar:

• aval – mahal (Qax)
• beccə – balaca (Şəki)
• hülü – şaftalı (Naxçıvan)
• dıqqan – bir tikə (İmişli)
• duşbalan – aşsüzən (Gəncə)
• zərdə – kök (Naxçıvan)
• dızqax – qorxaq (Şəmkir)
• yava – pis, qəlbi – uca (Ağcabədi) və s. [3. s. 79]

Dialektizmlər dilin zənginliyini, milli-mədəni müxtəlifliyini və tarixi inkişaf yollarını göstərir. Onlar ədəbi dilin formalaşmasında da mühüm rol oynamışdır. Məsələn, Azərbaycan ədəbi dilinin əsasını Şərq dialekti təşkil etsə də, digər dialektlərdən də bəzi sözlər zamanla ədəbi dilə daxil olmuşdur.

Dialektizmlər əsasən bu sahələrdə fərqlənir:

• Fonetik fərqlər (səslənmə): Məsələn, gəldi əvəzinə gəldiğ (Quba),
• Leksik fərqlər (sözlər): Məsələn, şota (Şəki dialekti – balaca kürək), pürrəngi (Lənkəran – qatı),

• Qrammatik fərqlər: Məsələn, feillərin şəkilçilərində və ya hallanma formasında fərqlər.

Dialektizmlərin toplanması və öyrənilməsi dilçilik üçün çox vacibdir. Çünki bu təkcə dilin tarixi inkişafını deyil, həm də xalqın düşüncə tərzini, məişətini, yaşam tərzini araşdırmaqda mühüm mənbədir. Azərbaycan dilində əsas üç dialekt qrupu var:

1. Şimal-Qərb dialekti (Qazax, Gəncə və s.),
2. Cənub dialekti (Lənkəran, Astara və s.),
3. Şərq dialekti (Bakı, Şamaxı, Quba və s.).

Bu dialekt qruplarının hər birində özünəməxsus dialektizmlər mövcuddur. Müasir dövrdə şəhərləşmə, informasiya texnologiyalarının yayılması və kütləvi informasiya vasitələrinin təsiri nəticəsində dialektizmlərin istifadəsi azalır, bir çoxu unudulmağa başlayır. Buna baxmayaraq, dialektizmlər milli-mədəni irsin vacib bir hissəsi kimi qorunub saxlanılmalı və tədqiq edilməlidir. Ədəbi dilə onun şivələrindən ancaq istər formaca, istərsə mənaca qarşılığı olmayan sözlər daxil edilməlidir.

Peşə-sənət leksikası cəmiyyətin müxtəlif peşə və sənət sahələrinə aid olan, yalnız həmin sahələrdə çalışan insanlar tərəfindən daha çox istifadə edilən söz və ifadələr toplusudur. Bu sözlər müəyyən bir sahənin spesifik anlayışlarını, iş prinsiplərini və fəaliyyət yönünü ifadə edir. Onlara professionalizmlər də deyilir.

Peşə-sənət leksikası ümumxalq dilinin tərkib hissəsi olmaqla bərabər, adətən məhdud sahədə istifadə olunduğu üçün ümumi istifadəyə çıxmır. Bu sözlərin bəziləri sonradan ədəbi dilə keçsə də, bir çoxu yalnız konkret peşə sahəsində qalır. Bu leksika həm yazılı, həm də şifahi ünsiyyətdə, xüsusilə sənədləşmələrdə, işgüzar yazışmalarda, texniki təlimatlarda və peşə tədrisində aktiv şəkildə işlədilir [3, s. 80].

Peşə-sənət leksikasının əsas xüsusiyyətləri:

• Məhdud işlənmə sahəsi – müəyyən peşə sahələrində istifadə olunur.
• Məna dəqiqliyi – peşəyə xas anlayışları ifadə edir.
• Ədəbi dildə az işlənir – yalnız kontekstdən asılı olaraq ümumi dildə görünür.
• Terminlərlə yaxınlığı – bəzi professionalizmlər termin xarakteri daşıyır.

Nümunələr:

a) Tibb sahəsi: reanimasiya, termometr, diaqnoz, rentgen
b) Mühəndislik və texnika: Cizgi (çertyoj),perforator,vint
c) Tikinti sahəsi: beton, armaturlar, malyar, suvaq
d) Əkinçilik və kənd təsərrüfatı: kotan, şum, toxum, gübrə, traktor və s.

Bu cür sözlər mütəxəssislər arasında qarşılıqlı anlaşmanı asanlaşdırır və informasiya ötürülməsini dəqiqləşdirir. Peşə-sənət leksikası, həmçinin xalqın məişətində və mədəniyyətində müxtəlif sənət sahələrinin rolunu əks etdirir.

Emosional və ekspressiv keyfiyyətləri ilə fərqlənən leksik-üslubi lay;

Emosional və ekspressiv keyfiyyətləri ilə fərqlənən leksik-üslubi laylar dilin əsas üslubi qatlarından biridir. Bu laylar dilin ifadə vasitələrinin hissi çalarlarla zənginləşməsində, danışanın münasibətinin, emosional durumunun və üslubi məqsədinin çatdırılmasında mühüm rol oynayır. Bu laylara aid söz və ifadələr, adətən, neytral sözlərdən fərqli olaraq, müəyyən emosional yüklə müşayiət olunur və dinləyici və ya oxucuya təsir etmək məqsədi güdür.

Emosional və ekspressiv keyfiyyətləri ilə fərqlənən leksik-üslubi laylara aiddir:

1. Emosional-ekspressiv leksika;
2. Evfemizmlər.

Emosional-ekspressiv leksika birbaşa danışanın hisslərini, münasibətini, qiymətləndirməsini və psixoloji vəziyyətini əks etdirən sözlər və ifadələr toplusudur. Bu leksik qat, dildə yalnız məna daşımaqla kifayətlənmir, eyni zamanda emosional təsir gücünə malik olur. Emosional-ekspressiv sözlər dilin canlılığını, obrazlılığını və ifadə imkanlarını artırır, onu daha təsirli və rəngarəng edir. Məsələn:

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki zəhər.
Çox da öyünmə ki uzundur ömür,
Əcəl köhlənində hazırdır yəhər. (M.Gəncəvi)

• Emosional sözlər danışanın şəxsi hisslərini, duyğularını ifadə edən sözlərdir. Bu sözlər insanda sevgi, nifrət, mərhəmət, acı, həyəcan, qorxu kimi hisslər oyadır. Məsələn: körpəcik, yazıq, bədbəxt, fəlakətli, ay aman, və s.

• Ekspressiv sözlər isə nitqə təsir gücü, ifadə aydınlığı və bəzən də şişirdilmiş çalarlar qatır. Bu sözlər danışanın münasibətini daha qabarıq şəkildə ifadə etməyə xidmət edir. Ekspressiv sözlər çox zaman ironiya, istehza, lağ, təhqir və ya mədhiyyət məqsədi daşıyır. Məsələn: dəli, avara, əclaf, qudurmuş, müdrik, mərd, və s.

Bu sözlər çox vaxt sinonimlər arasında emosional və ekspressiv fərqliliklə seçilir. Məsələn, "ölmək" – neytral, "rəhmətə getmək" – yumşaldılmış emosional, "cəhənnəmə vasil olmaq" – ekspressiv və mənfi çalarda ifadə olunmuş formadır.

Emosional-ekspressiv leksikanın əsas xüsusiyyətləri:

• Emosional çalar – danışanın və ya yazıçının hisslərini ifadə edir.

• Qiymətləndirici münasibət – müsbət və ya mənfi dəyərləndirmə aparır.

• Subyektivlik – obyektiv informasiya vermək əvəzinə, danışanın mövqeyini ön plana çıxarır.

• Üslubi zənginlik – əsasən bədii, publisistik və danışıq üslubunda istifadə olunur.

• Obrazlılıq – çox vaxt metaforik və poetik çalarlarla zəngin olur.

B.Q.Belinski yazırdı: Ədəbiyyat sənətin ən zəngin növüdür. Ayrı-ayrılıqda müxtəlif incəsənət növlərinə aid olan ahəngdarlıq, musiqililik, lövhəlilik, mənzərəlilik və əzəmət ədəbiyyatda bir kül halında mövcuddur, özü də söz ifadə və cümlələrin sərrast düzümündən yaranır.

Emosional-ekspressiv leksikanın funksiyaları:

• Nitqi canlandırır – monotonluğun qarşısını alır.

• Fikri daha aydın və təsirli çatdırır – xüsusən bədii təsvirlərdə.

• Oxucu və ya dinləyiciyə emosional təsir göstərir – duyğu oyadır.

• Üslubi məqsədə xidmət edir – müəllifin mövqeyini və fikrini qabarıq şəkildə ifadə etməyə kömək edir.

• Personajların daxili aləmini göstərir – onların psixoloji vəziyyətini açır.

Emosional-ekspressiv leksika dilin ən təsirli və zəngin qatlarından biridir. Bu sözlər yalnız bir anlayışı bildirmir, həm də münasibət bildirir, hiss oyadır, dinləyici və ya oxucu ilə emosional bağ qurur. Bədii ədəbiyyatın, publisistik yazıların və canlı danışığın ayrılmaz hissəsi olan bu leksik qat dilin estetik imkanlarını genişləndirir və onu daha insanı, daha duyğulu edir.

Bir sözlə min gəmi batar dəryada,
Bir sözlə min könül pərvazlanarmış. (H.Arif)

Sevdaya düşməyən bir həyat heçdir,
İç onu, gör necə şirin atəşdir. (M.Müşfiq)

Evfemizm – mənfi və ya narahatedici bir anlayışı daha yumşaq, nəzakətli, sosial baxımdan qəbulolunan şəkildə ifadə edən leksik-üslubi vasitədir. Evfemizmlər dilin etik-funksional mexanizmlərindən biridir və danışanın və ya müəllifin müəyyən bir anlayışı birbaşa və kəskin şəkildə deyil, dolayı yolla, daha yumşaq şəkildə ifadə etmək istəyi ilə bağlı yaranır.

Evfemizmlər adətən:

• Əxlaqa zidd və ya utandırıcı sayılan ifadələrdən qaçmaq;

• Ölüm, xəstəlik, yaşlılıq, yoxsulluq kimi ağır və kədərverici anlayışları yumşaltmaq;

- Qarşı tərəfə hörmətsizlik etməmək;
- Sosial və mədəni baxımdan daha uyğun danışıq forması seçmək;
- Rəsmi və ya diplomatik nitqdə kobudluqdan yayınmaq məqsədilə istifadə olunur.

Evfemizmlərin əsas istifadə sahələri

1. Ölüm və faciə ilə bağlı anlayışlar:
- Ölmək – rəhmətə getmək, haqq dünyasına qovuşmaq, dünyasını dəyişmək
- Ölü – dəfn olunan şəxs, mərhum

2. Xəstəlik və fiziki qüsurlar:
- Kor – gözləri görməyən
- Kar – eşitmə qabiliyyəti zəif olan
- Dəli – ruhi problemləri olan

3. İctimai status və iqtisadi vəziyyət:
- Yoxsul – aztəminatlı, ehtiyacı olan
- İşsiz – məşğulluq axtaran şəxs

4. Peşə və sosial mövqe (bəzən ironik şəkildə):
- Süpürgəçi – sanitar işçi
- Qocalar – yaşlı vətəndaşlar, ahıl insanlar

Evfemizmlərin antonimləri: disfemizmlər. Evfemizmlərin əksinə, disfemizmlər anlayışın daha sərt, kobud, bəzən təhqiredici şəkildə ifadə olunmasıdır. Məsələn:
- Ölmək – can vermək, cəhənnəmə vasil olmaq
- Dəli – zır dəlidi, ağlı başında deyil.

Evfemizmlər dilin yalnız estetik və etik funksiyalarını deyil, həm də sosial və psixoloji funksiyalarını yerinə yetirir. Onlar dilin yumşaq, nəzakətli tərəfini təmsil edir, qarşılıqlı ünsiyyətdə anlayış və hörmət yaradır. Eyni zamanda, cəmiyyətdə tabu sayılan mövzuların dilə gətirilməsində vasitə kimi çıxış edir. Həm rəsmi, həm də qeyri-rəsmi ünsiyyətdə evfemizmlərin düzgün istifadəsi nitqin keyfiyyətini artırır və ünsiyyəti daha mədəni edir. Onlardan bədii ədəbiyyatda da geniş istifadə olunur:

Daşlardan cəvahir çıxaran ancaq,
Bilir ki, çətindir gözəl söz tapmaq. (N.Gəncəvi)

Könlüm açılır zülfi-pərişanını görcək,
Nitqim tutulur qönçeyi-xəndanını görcək. (M.Füzuli)

Genetik və xronoloji əlamətləri ilə fərqlənən leksik-üslubi lay.

Bu laylar sözlərin mənşəyinə əsasən qruplaşdırılır. Dilin lüğət tərkibi yalnız özünəməxsus sözlərdən ibarət deyil, başqa dillərdən alınan sözlərlə də zənginləşmiş olur.

Xronoloji əlamətlərə görə sözlər dilə daxil olma və ya istifadə dövrünə görə təbəqələrə bölünür. Zaman keçdikcə bəzi sözlər köhnəlir, bəziləri isə yenidən yaranır.

Genetik və xronoloji əlamətləri ilə fərqlənən leksik-üslubi laylara aiddir;

1. Əcnəbi leksika;
2. Neologizmlər;
3. Arxaik sözlər.

Əcnəbi leksika – başqa dillərdən bir dilə keçmiş, yəni alınma sözlərdir. Bu sözlər ya tam şəkildə mənimsənilmiş (yəni tələffüz və yazılış baxımından uyğunlaşdırılmış), ya da öz yad formasını qoruyaraq dilə daxil olmuş ola bilər. Əcnəbi leksika dilin zənginləşməsində mühüm rol oynayır, xüsusən də elm, texnika, mədəniyyət və ictimai həyat sahələrində.

Əcnəbi leksikanın əsas xüsusiyyətləri:

❖ Mənşə etibarilə başqa dilə aiddir, amma sonradan digər dilin lüğət tərkibinə keçir.

❖ Dilin funksional üslublarında fərqli dərəcədə işlənə bilir – məsələn, bəziləri yalnız rəsmi üslubda, bəziləri isə gündəlik dildə də istifadə olunur.

❖ Bəzi əcnəbi sözlər dilə tam uyğunlaşır və artıq ana dilin bir hissəsinə çevrilir (onlara assimilə olunmuş sözlər deyilir), digərləri isə yad forma ilə qalır.

Əcnəbi leksikanın növləri:

1. Ərəb və fars mənşəli sözlər

Ən çox ərəbcə və farscadan keçən sözlərdir. Bunlar əsasən klassik dövrlərdə ədəbiyyat və din vasitəsilə dilə daxil olmuşdur. Məsələn:

Ta səhər şami-firaqın kokəbi əfşandır gözüm,
Əşki-gülgün içrə ey bimehr pünhandır gözüm. (S.Ə.Şirvani)

Gərçi gün xoşdur, bəli rüxsarın ondan yaxşıdır,
Ay dəxi taban durur, didarın ondan yaxşıdır. (Ş.İ.Xətai)

2. Rus mənşəli sözlər

SSRİ dövründə Azərbaycan dilinə rus dilindən çoxlu sözlər keçmişdir.

Məsələn: *telefon, maşın, komanda, zavod, partkom*.

3. Qərb dillərindən keçmiş sözlər (ingilis, fransız və s.)

Müasir dövrdə texnologiya, incəsənət və qloballaşma nəticəsində xüsusilə ingilis dilindən çox sayda söz alınmışdır.

Məsələn: *kompüter, internet, menecer, dizayn, brend, marketinq, instaqram, influencer.*

Əcnəbi sözlərin üslubi əhəmiyyətini müəyyənləşdirmək üçün birinci növbədə qruplaşdırma zərurəti meydana çıxır. Çünki bədii dildə müxtəlif xarakterli əcnəbi sözlərə təsadüf edilir, onların bir qismi ümumxalq dilində işləndiyi halda digərləri yalnız bədii ədəbiyyatda işlənir.

Aman!
Ayaqladı müqəddəs dini,
Bu tanrı düşməni, vətən xaini!
Bir buna bax məlun!
Satılmış, bimürvət, yezid, imansız.

Neologizmlər – dilə yeni daxil olan və ya yeni yaranmış sözlərə deyilir. Bu sözlər ya mövcud anlayışlara yeni ad vermək, ya da tamamilə yeni anlayışları ifadə etmək üçün yaranır. Neologizmlər dilin canlılığının, daim inkişaf etməsinin göstəricisidir.

Neologizmlərin əsas xüsusiyyətləri:

- Yenilik daşıyırlar – həm məna, həm də forma baxımından.
- Əvvəlcə məhdud çevrədə işlənir, zamanla isə geniş yayılıb norma halına gələ bilər.
- Dilə daxili imkanlarla və ya xaricdən alınaraq daxil olurlar.
- Bəzən müvəqqəti olur – bir müddət sonra istifadədən düşə bilər.

Neologizmlərin yaranma yolları:

a) Yeni anlayışların yaranması ilə:

Texnologiya, elm, ictimai həyat inkişaf etdikcə yeni anlayışlar üçün yeni sözlər yaranır. Məsələn: dron, çip, bioenerji, süni intellekt, blokçeyn

b) Dildəki sözlərin yeni mənada işlədilməsi ilə:

Mövcud söz yeni mənada işlənir və bu, neologizm sayılır. Məsələn: donmaq (internet dondu), çökmək (sayt çöktü).

c) Söz birləşməsi və ya birləşmə üsulu ilə:

Məsələn: özçəkim (selfi), beyin köçü (brain drain), like etmək, komment yazmaq.

d) Xarici dillərdən alınma ilə:

Xüsusilə ingilis dilindən çoxlu neologizmlər alınır: influencer, vlog, podkast, streamer, like, followers

Neologizmlərin işlənmə sahələri:

- Texnologiya və internet: wifi, link, server, bloq, həştəq
- İctimai və mədəni həyat: gender, feminizm, tolerantlıq
- Moda və həyat tərzi: brend, stil, influencer, detox
- İncəsənət və yaradıcılıq: performans, installasiya, remix

Neologizmlər niyə vacibdir?

- Zamanla ayaqlaşmaq üçün dilə yeni sözlər gərəkir.
- Yeni sözlər mədəni və sosial dəyişiklikləri ifadə etməyə kömək edir.
- Dildəki ifadə vasitələrinin zənginliyini artırır.

Arxaik sözlər – müasir dildə nadir hallarda işlənən, ya da artıq işlənməyən, lakin ədəbiyyatda, tarixi mətnlərdə və ya xüsusi üslubda qorunub saxlanılan köhnəlmiş sözlərdir. Arxaik sözlər dilin tarixi inkişafını əks etdirən vacib leksik təbəqədir. Arxaik sözlərdən bədii dilin üslub xüsusiyyətlərini vermək üçün istifadə edilir. Ədib keçmiş həyatın müəyyən tarixi bir dövrünü və o dövrdə yaşamış surəti qabarıq vermək istədikdə, dövrün müəyyən dil xüsusiyyətlərində bunu nəzərə çatdırmaq, həm də yüksək təntənəli üslub yaratmaq üçün arxaizm və tarixizmlərdən istifadə edir. Sabirdən gətirdiyimiz nümunədə "Təzə və köhnə" şeirində görürük:

Şəhri məlumunuzun vəzi-qərarı necədir?
Həmdlüllah necə görmüşdüsə Nuh, eyləcədir!
Yeni məktəb açılıbmı vətən övladı üçün?
Az deyil Adəm açan mədrəsə əhfadı üçün!
Oxuyurmu qəzetə şəhrinizin əhli təmam?
Bəzi sarsaq oxumuşlar oxuyur, mən oxumam!

Azərbaycan ədəbi dili zəngin və çoxqatlı leksik-üslubi layları ilə həm dilin inkişafını təmin edir, həm də onun funksional imkanlarını genişləndirir. Müxtəlif üslubi qatların bir-biri ilə dinamik qarşılıqlı əlaqəsi ədəbi dilin canlılığını və ifadə gücünü artırır. Bu leksik-üslubi layların yerində və məqsədyönlü şəkildə işlədilməsi isə dilin estetik, məntiqi və funksional dəyərini daha da möhkəmləndirir. Müasir dövrdə bu qatların düzgün istifadəsi, həm yazılı, həm də şifahi ünsiyyətdə ədəbi dilə olan hörmətin göstəricisinə çevrilmişdir. Elmi tədqiqatların, bədii əsərlərin və gündəlik nitqin bu zəngin qatlar əsasında qurulması Azərbaycan ədəbi dilinin perspektiv inkişafına və milli kimliyin qorunmasına töhfə verir.

Məqalənin elmi yeniliyi: Məqalənin elmi yeniliyi Azərbaycan ədəbi dilində leksik-üslubi layların müxtəlif funksiyalarının və tətbiqi məqamlarının təhlil edilməsidir. Bu araşdırma üslubi layların müəyyən edilməsi və təsnifatı ilə məhdudlaşmır, həmçinin onların əsərlərdəki funksional rolunu, kommunikativ funksiyalarını öyrənir. Əsərlərdəki üslubi laylar yalnız estetik məqsəd daşımır, eyni zamanda dövrün mədəni, ictimai və ideoloji mühitini əks etdirmək, əsərlərin mənalarını daha dərindən izah etmək üçün də istifadə olunur. Üslubi layların funksional zənginliyi, bu vasitələrin bədii yaradıcılıqdakı təsir gücünü göstərmək tədqiqatın elmi yeniliyini təşkil edir.

Məqalənin tətbiqi əhəmiyyəti: Məqalənin nəticəsinin tətbiqi əhəmiyyəti üslubi layların istifadəsinin dərindən öyrənilməsi sayəsində dil və üslub məsələlərinin tədrisində yeni metodik yanaşmaların tətbiqinə şərait yaratmasıdır. Elmi araşdırma ədəbiyyat və dil dərslərində üslubi layların daha effektiv tədrisini təmin edərək, tələbələrin ədəbi dil və üslub anlayışlarını gücləndirir. Bu tədqiqatın nəticələri, dilşünaslıq və ədəbiyyat sahəsindəki tədqiqatlara əlavə məlumat və nəzəri əsaslar təqdim edərək gələcək resurs rolunu oynayır.

Ədəbiyyat

1. Adilov, M.İ. Azərbaycan dilində sintaktik təkrarlar / M.İ.Adilov, – Bakı: Elm və təhsil, – c.3. – 2019, – 416 s.
2. Axundov, A.A. Dil və üslub məsələləri / A.A.Axundov, – Bakı: Gənclik, – 1970, – 104 s.
3. Cəfərov, S. Müasir Azərbaycan dili (Leksikologiya) / S.Cəfərov, – Bakı: Maarif, – 982 s.
4. Dəmirçizadə, Ə.M. Azərbaycan dilinin üslubiyyatı / Ə.M.Dəmirçizadə, – Bakı: Azərnəşr, – 1962, – 157 s.
5. Əfəndiyeva, T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Ə.Əfəndiyeva, – Bakı: Elm və təhsil, – 2011, – 99-109 s.
6. Əfəndiyeva, T. Azərbaycan dilinin bədii ifadə vasitələri / T.Əfəndiyeva, – Bakı: Elm, – 1973.
7. Əliyev, K.Y. Üslubiyyat və üslublar sistemi / K.Y.Əliyev, – Bakı: ADU nəşr, – 1985.
8. Hacıyev, A.M. Ədəbiyyat nəzəriyyəsi / A.M.Hacıyev, –Bakı: Mütərcim, – 1996, – s. 181.
9. Həsənov, H.Ə. Nitq mədəniyyətinin və üslubiyyatın əsasları / H.Ə.Həsənov, –Bakı: BDU nəşr. – 1999, – 245 s.
10. Vurğun, S. Seçilmiş əsərləri / S.Vurğun, – Bakı: Şərq-Qərb, – c.1.
11. Vahabzadə, B. Seçilmiş əsərləri / B.Vahabzadə, – Bakı, – c.1. – 2005.

S.A.Rustamova

Points of Development of Lexical and Stylistic Layers in the Azerbaijani Literary Language

Summary

The article examines the development of lexical and stylistic layers in the Azerbaijani literary language. In fiction, these lexical and stylistic layers are one of the important means that expand the expressive possibilities of language and enhance the aesthetic power of the text. Their study allows us to reveal the deep meanings of works of art that are not obvious at first glance, to accurately determine individual stylistic features and literary devices. Stylistic layers are one of the main components that influence the formation of the writer's artistic style. These layers not only determine the individual style of the authors, but also allow us to reveal the artistic and aesthetic principles and the socio-public situation of the era. The article mainly analyzes the various functions and points of application of these stylistic layers, as well as their functional role and communicative impact in works. Various types of functional and stylistic layers reveal the ideological nature of socio-political layers as a result of modern globalization and technological development. Poeticisms enrich the lexical meaning of the word, giving it shades of artistic meaning. These layers help develop language and convey ideas more effectively, memorably and emotionally.

Key words: *style, lexical and stylistic layers, poetics, professional and artistic vocabulary, dialectisms, neologisms, style of speech, terms, expressive and emotional words, socio-political vocabulary*

С.А.Рустамова

Точки развития лексико-стилистических пластов в азербайджанском литературном языке

Резюме

В статье рассматривается развитие лексико-стилистических пластов в азербайджанском литературном языке. В художественной литературе эти лексико-стилистические пласты являются одним из важных средств, расширяющих выразительные возможности языка и повышающих эстетическую силу текста. Их изучение позволяет раскрыть глубинные смыслы произведений искусства, не очевидные на первый взгляд, точно определить индивидуальные стилистические особенности и литературные приемы. Стилистические пласты являются одним из основных компонентов, влияющих на формирование художественного стиля писателя. Эти слои не только определяют индивидуальный стиль авторов, но и позволяют раскрыть художественно-эстетические принципы и социально-общественную ситуацию эпохи. В статье в основном анализируются различные функции и точки приложения этих стилистических пластов, а также их функциональ-

ная роль и коммуникативное воздействие в произведениях. Различные типы функционально-стилистических слоев раскрывают идеологическую природу социально-политических слоев как результат современной глобализации и технологического развития. Поэтизмы обогащают лексическое значение слова, придавая ему оттенки художественного смысла. Эти слои помогают развивать язык и передавать мысли более эффективно, запоминающе и эмоционально.

Ключевые слова: *стиль, лексико-стилевые пласты, поэтизмы, профессионально-художественная лексика, диалектизмы, неологизмы, стиль речи, термины, экспрессивно-эмоциональные слова, социально-политическая лексика*

Rəyçi: dos. Ə.Axundova

Redaksiyaya daxil olub: 12.05.2025

A.V.SƏFƏROVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: novruzova.099@gmail.com
:https://orcid.org/0009-0007-9569-8956

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.104

RƏNG KOMPONENTLİ İNGİLİS İDİOMLARININ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə. *İngilis dilində çoxlu sayda idiomların diskursda geniş şəkildə işlənməsi onların öyrənilməsinin əhəmiyyətini bildirir. İdiomlarda məna bütövlüyü, semantik, leksik və sintaktik sabitlik əsas şərtlərdəndir. İdiomlar danışıq zamanı mətnə xüsusi çalarlıq, rəngarənglik verir. Sabit söz birləşmələri və frazeoloji vahidlərin üzərində aparılan tədqiqatlar göstərir ki, onlar dili zənginləşdirir, nitqi daha cəlbedici edir. Məqalədə ingilis idiomlarının mənşəyi araşdırılmış, onların semantik təhlili verilmiş, rəng komponentli ingilis idiomlarinin leksik-semantik xüsusiyyətləri tədqiq edilmişdir. Müəllif rəng komponentli idiomların xalqın həyat və yaşayış tərzi, dini və etiqad mövhumati təsəvvürləri, dünyagörüşləri, sənət və peşələri ilə əlaqəli yaranmış və müasir dövrümüzdə belə mövcud olduğunu qeyd etmişdir. Müəllif eyni zamanda rəng komponentli idiomlardan nümunələr təqdim etmiş və onların yaranma səbəblərini və Azərbaycan dilində qarşılıqlarını göstərmişdir.*

Açar sözlər: *idiom, leksem, komponent təhlili, semantik əlaqələr, rəng komponentli*

Rəng maddi dünyanın cisimlərinin qavranılan xüsusiyyətlərindən biridir və şüurlu vizual hiss kimi qəbul edilir. Bu və ya digər rəng insan tərəfindən cisimlərə onların vizual qavrayışı prosesində təyin edilir. Rəngin həyatda və işdə rolu hər bir fərd və bütövlükdə cəmiyyət üçün böyükdür. Gündəlik həyatda və istehsalatda rənglərdən və onların birləşmələrindən intensiv olaraq istifadə olunur. Rəng davranış qaydalarında bütöv anlayışları əvəz edən simvollardır. Rəng dünyanı tanımağın məntiqi və sensor-məcazi yollarının imkanlarını ehtiva edir. Rəngin bu xüsusiyyəti fəlsəfə üçün vacibdir, çünki bu halda rəng şifahi olmayan sensor-məcazi təfəkkürün şifahi səviyyəyə tərcüməsi kimi qəbul edilə bilər. Bundan əlavə, psixoloqlar rəngi insan duyğuları ilə əlaqələndirirlər: hər bir duyğunun rəng məkanında özünəməxsus yeri var, yəni hər bir duyğu müəyyən bir rəngə uyğundur və hər bir rəng ciddi şəkildə müəyyən edilmiş duyğulara səbəb olur. Bununla birlikdə, müxtəlif etnik mədəniyyətlərdə rəng qavrayışının ümumi prinsipləri mövcud olduqda, fərdi tonların semantikasında və dəyərlərində, həmçinin rəngin leksik bərpasında fərqlər var. Məsələn, hər bir mədəniyyətdə "qara-ağ-qırmızı" rəng həyat triadası mövcuddur, bütün mədəniyyətlərdə "doğum-həyat-ölüm" bir semantik düyününə endirilir, lakin bu rənglərin hər birinin mənası mədəniyyətlərin milli mənsubiyyətinə görə etno-məsləkdən asılı olaraq dəyişir. Belə ki, qərb ölkələrində qara rəng ölümü, ağ rəng doğum, qırmızı isə həyatın simvoludur. Çində ölümün simvolu ağ rəngdədir.

Təbiət insana gözəl bir hədiyyə verdi – göy qurşağının bütün rəngləri ilə boyanmış dünyanı görmək qabiliyyəti. İnsanlar üçün bu möcüzə o qədər tanış olub ki, artıq buna təəccüblənmirlər. Rəng adətən obyektlərin rəngi və ya otağın rəngi kimi qəbul edilir. Həyat təcrübəmizdə demək olar ki, heç vaxt təmiz rənglə məşğul olmuruq. Biz narıncı narıncı, yaşıl ot, qəhvəyi gözlər, qırmızı ulduzları görürük və təkcə fərdi rəngləri deyil. Rəng məlumatını onu müşayiət edəndən ayırmaq demək olar ki, mümkün deyil. Çox vaxt rəng insana cisimlər və hadisələr haqqında məlumat verir. Aydındır ki, məlumat nə qədər müxtəlifdirsə, bir o qədər etibar-

lıdır. Gördüklərimiz, eşitdiklərimiz, toxunduqlarımız, xatırladıqlarımız, qoxladıqlarımız, hiss etdiklərimiz – bütün bunlar dünyanın vahid və ayrılmaz mənzərəsini sintez edir.

İstər sırf sintaktik, istərsə də psixoloji yönümlü aparılan tədqiqatlar idiomların sintaksisi barədə dilçilik elminə faktik materiallar bəxş etmişlər. Biz parafrazın roluna əhəmiyyət verməklə, ingilis dilində mövcud olan bir sıra idiomları müxtəlif modifikasiyalarla işlədə bilərik. Baş verən transformasiyalar, substitusiyalar, permutasiyaların səbəbini dərk etmək və onları tətbiq edə bilmək bacarığı idiomlara yaradıcı surətdə yanaşma tələb edir. Bizcə, idiomun sintaktik təhlilini sırf qrammatik aspektdə deyil, onun daxilində aparmaq, idiomun oyatdığı domenlərə (təsvirlərə, obrazlara) əsasən müəyyən etmək qeyri-adi görünsə də, məhz belə koqnitiv yanaşma bizə modifikasiyaların mümkünlüyünü və ya qeyri-mümkünlüyünü daha aydın şəkildə ortaya çıxarmağa və lazımi hallarda düzgün şəkildə işlətməyə əsas verir.

Rəng mədəniyyətin prinsiplərindən biridir. Bir çox mədəni hadisələr rəngin mənası nəzərə alınmadan başa düşülə bilməz. Rəng mədəniyyətin əsas kateqoriyalarından biridir, "ətrafdakı təbiətin rəngi, xalqın keçdiyi tarixi yolun orijinallığı, müxtəlif etnik ənənələrin qarşılıqlı əlaqəsi, dünyaya bədii baxışın xüsusiyyətləri haqqında unikal məlumatları qeyd edir". Rəng mədəniyyətin tərkib hissəsi olduğu üçün onu assosiasiyalar, semantik mənalar, şərhlər sistemi əhatə edir, rəng müxtəlif mənəvi-estetik dəyərlərin təcəssümü olur.

Rənglər dünyanın dil şəkillərinin formalaşmasında mühüm rol oynayır, çünki müxtəlif linqvomədəni icmalarda hər bir rəng müəyyən birləşmələr, müəyyən rəng üstünlükləri ilə əlaqələndirilir. Hər bir xalqın mədəni ənənəsində, o cümlədən ingilislərin ayrı-ayrı rənglərlə müəyyən obrazlar arasında hiss olunmayan əlaqələr var idi.

Dilçilikdə rəng terminləri ilə bağlı araşdırmalar çoxdur. Onlar bir neçə istiqamətdə gedir:

– Əsas rəng təyinatlarını yaratmaq üçün dünya xalqlarının mədəniyyətlərindəki rəngləri və onların inkişafının müxtəlif səviyyələri təhlil edir. Bu tədqiqatlarla B.Berlin, P.Kay, V.Turner və başqaları məşğul olmuşlar. B.Berlin və P.Kay linqvistik universallığın tərəfdarları idilər. Tədqiqatlarının nəticələri bütün müasir Hind-Avropa dillərində rəng terminlərinin tamamilə üstüstə düşdüyünü göstərdi. Belə ki, rəngin əsas şərtlərinə üç axromatik (qara, ağ, boz) və səkkiz xromatik (qırmızı, narıncı, çəhrayı, sarı, yaşıl, mavi, bənövşəyi, qəhvəyi) rənglər daxildir;

– Rəng təyinatlarının linqvokulturoloji aspekti, rənglərin və xalqın mədəniyyətinin əlaqəsi öyrənilir. Rəng bildirən sözlərin linqvistik və ekstralinqvistik məzmun nəzərə alınır;

– Rənglər və çalarların psixoloji təsviri verilir və müəyyən bir rəngin fizioloji və emosional səviyyələrdə bir insana təsirinin xüsusiyyətlərini müəyyənləşdirir;

– Rəng bildirən lüğətin semantik quruluşu ingilis dilinin materialı əsasında öyrənilir, rəng təyinatlarının xüsusiyyətləri, struktur və söz əmələgətirmə xüsusiyyətləri, semantik, üslubi və funksional xüsusiyyətləri, rəngin ifadə etdiyi dəyərlər tezliyi araşdırılır;

– Rəng təyinatları psixolinqvistik baxımdan nəzərə alınır. Rəng dünyası müxtəlif psixi prosesləri özündə əks etdirən dildə təzahür olunur və formalaşır;

– Rəng terminləri ilə bağlı etnolinqvistik tədqiqatlar aparılır;

– Rəng lüğəti müqayisəli-tarixi istiqamətdə öyrənilir;

– Rənglərin bədii obrazlılıq yaratma imkanları araşdırılır. Yazıçının rəng dünyası onun dünya haqqında ümumi poetik mənzərəsinin bir parçasıdır, eyni zamanda bədiilik prosesində üzə çıxan yeni və estetik mənaların rabitəsidir. Dünyanın rəng şəkli isə dinamik bir anlayışdır. O, bədii ünsiyyət prosesində uzlaşır, ötürülür və "müəllif – mətn – oxucu" kommunikativ-praqmatik zənciri yaradır;

– "Rəng" konsepti nəzərə alınır: ağ,qara, qırmızı, yaşıl, göy. A.P.Kopaçovanın (Копачева 2003) fikrincə insanın rəng qavrayışı psixoloji, linqvistik və tarixi amillərə əsaslanır. Rəng adları geniş məcazi mənalara malikdir və insan təcrübəsinin simvollaşdırmasında fəal iştirak edirlər. Dünyanın dil mənzərəsindəki rəng anlayışları əlavə estetik və simvolik mənalar vasitəsilə mənimsənilir. Məsələn: "Ağ rəng" konsepsiyası dünyanın linqvo-rəngli mənzərəsi

üçün universali hesab edilir. “Ağ rəng” konsepsiyası simvolik olaraq hərəkətin estetik obrazını ümumiləşdirməyə xidmət edir.

Komponent təhlili leksemlər arasında semantik əlaqələri rəsmiləşdirmək və ya onlara mütləq dəqiqlik vermək üsullarından biridir. Üsulun adından da göründüyü kimi, leksemin mənasını tərkib hissələrinə (komponentlərinə) parçalamaqdan ibarətdir. Komponent təhlili üçün alternativ termin leksik parçalanmadır. Kobozeva İ.M. öz növbəsində, komponent təhlilini sözlərin mənalarının mənanın elementar komponentləri şəklində təmsil edilməsi kimi müəyyən edir [4, s.56-57]. Hər bir dil vahidinin mənasının (sözlər də daxil olmaqla) semantik komponentlər toplusundan ibarət olması fərziyyəsi komponent təhlili metodunun əsaslandığı əsas fərziyyələrdən biridir. Minimum məna vahidini təyin etmək üçün sema, semantik diferensial xüsusiyyət, semantik amil və s. bir sıra terminlərdən istifadə olunur. Bir çox sözləri semantik olaraq yalnız böyük ifadələrin və ya cümlələrin bir hissəsi kimi təsvir etmək olar. Belə ifadələr cümlə və ya situasiya forması adlanır. Sözlərin mənasının cümlə formalarının tərkib hissəsi kimi təsviri leksik semantika sahəsindən cümlə semantikası sahəsinə keçdiyimiz zəruri körpünü təşkil edir. Sözün mənası məna elementlərindən və onları birləşdirən sintaktik münasibətlərdən ibarət struktur kimi təqdim edilməlidir.

Komponent təhlili üçün nəzəri motiv kifayət qədər aydındır. O, dilçilərə, prinsipcə, ayrı-ayrı dillərdə leksemlər arasında mövcud olan semantik əlaqələri təmsil etmək üçün sistemli və iqtisadi vasitələrlə təmin edir və bu komponentlər bütün dillərdə universaldır [5, s.98-100].

Bütün deyilənləri ümumiləşdirərək palitranın rənglərini ehtiva edən davamlı seçmə metodundan istifadə etməklə rəng komponentli bəzi ingilis idiomlarını nəzərdən keçirək.

1. White – ağ:

White coffee, white tea – südlü qəhvə/çay. Bu deyimdəki “qaymaq” sözü rəng əsasında “ağ” sözü ilə əvəz edilmişdir. İkinci komponentin dəyəri dəyişmir. Məsələn: I prefer to drink white coffee in the morning. – Mən səhərlər südlü qəhvə içməyə üstünlük verirəm.

A white lie – ağ yalan. Əksər xalqlar üçün ağ saflığı, işığı, müqəddəsliyi, yaxşılığı və s. ifadə edir. Yuxarıdakı idiomda "ağ" sözü bu mənalarda işlənir. Beləliklə, “yalan” sözünün mənfi mənasını yumşaltmış olur. Məsələn: I know it was white lie. – Mən bunun ağ yalan olduğunu bilirəm.

A white crow – ‘a person or thing that is extremely rare – çox nadir, az tapılan deməkdir. Bu idiom qarğaların heç vaxt ağ olmaması ilə əlaqələndirilir.

White elephant – ‘a thing that is useless and no longer needed although it may have cost a lot of money’ – mənasız anlamında işlədilir [10].

To show a white feather – qorxu göstərmək, qorxmaq. Bu misalda “ağ lələk” “ağ bayraq” ilə assosiasiyada işlədilir ki, bu da təslim olmaq və ya danışıqlarda fasilə deməkdir. Amma “ağ bayraq”ın həmişə pis olmamasına baxmayaraq, təqdim olunan deyim açıq-aşkar mənfi qiymət daşıyır. Məsələn: Young soldier showed a white feather. – Gənc əsgər qorxdu.

To bleed white – 1)kiminsə bütün gücünü tükətmək, 2) tamamilə pulsuz qalmaq, 3) qansızlıqdan rəngi ağarmaq (həqiqi məna).

Hoist (run up or show) the white flag – ağ bayraq qaldırmaq, yəni təslim olmaq mənasını verir.

2. Black – qara:

Black look – tutqun, qorxulu görünüş. Əksər ölkələrdə ağ rəng yaxşılıqla əlaqələndirildiyi kimi, qara da pisliyi nəzərdə tutur. Bu idiomda neytral “baxış” sözü mənfi məna alır, çünki qara onu müəyyən edir. Məsələn: She has black look. – Onun tutqun bir görünüşü var.

Black Maria – a vehicle used in the past to transport prisoners – keçmişdə məhbusların daşınması üçün istifadə edilən nəqliyyat növü deməkdir.

A black swan – something extremely rare – nadir, yeganə, tapılmayan deməkdir. Bu idiom qu quşlarının ağ olması, qara rəngdə qu quşunun olmaması ilə əlaqələndirilir.

To black smth. out –1) nəyisə ört-basdır etmək, 2) hər hansı bir xəbəri yayılmağa qoymamaq, 3) televiziya yayımını qadağan etmək mənasını bildirir.

Black sheep – dönük, fərqli, ailənin üzünü qara edən şəxs. İngilis dilindəki bu ifadə Azərbaycan dilində başqalarından çox fərqli, çox vaxt ünsiyyət qurmayan, ciddi qüsuru olan bir insanı ifadə edir. Bu zaman "qara" sözü "qoyun" sözünün müəyyənedicisi kimi bu hadisənin normal olmadığını vurğulamaq üçün işlədilir. Məsələn: I feel myself a black sheep [10].

Hoist (run up or show) the white flag – ağ bayraq qaldırmaq, yəni təslim olmaq mənasını verir.

3. Purple – bənövşəyi:

To be born in purple – nəcib bir ailədə doğulmaq, yəni nəcib mənşəli olmaq. Bənövşəyi İngiltərədə kral rəngi hesab olunur, buna görə də zənginlik, güc və zadəganlıq mənalarını ehtiva edir. Məsələn: The princess was born in purple.

4. Blue – mavi, göy:

To feel blue, to look blue – kədərlənmək, kədərli görünmək, qəmli hiss etmək. İngiltərədə mavi rəng kədər və melanxolik əhvali-ruhiyyə ilə əlaqələndirilir. Yuxarıdakı misalda "mavi" sözü rəngin ilkin mənasında deyil, hal mənasında işlənmişdir. Məsələn: I am feeling blue. – Mən özümü kədərli hiss edirəm və ya He is as blue as the devil. – O, şeytan kimi qaraqabaqdır.

Talk a blue streak – talk a lot and very fast – sürətlə danışmaq, çox danışmaq, dayanmadan danışmaq.

Out of the blue / a bolt from the blue – birdən, tamamilə gözlənilmədən, qəfildən. Bu zaman "mavi" saflığın, buludsuzluğun, əmin-amanlığın sinonimi kimi işlədilir. Məsələn: And out of the blue he asked me about my family. – Və gözlənilmədən məndən ailəm haqqında soruşdu [10].

By all that's blue – decidedly – qərarlı.

Scream blue murder – etiraz əlaməti olaraq hündürdən qışqırmaq mənasını ifadə edir.

Blue-eyed boy – sevimli, istəkli, xoşagələn mənasında işlədilir. Mavi gözlər təkcə İngiltərədə deyil, bir çox başqa ölkələrdə də gözəl hesab olunur. Üstəlik, İngiltərədə bu göz rəngi nadir hallarda tapılır. Bu idiom məhz buradan götürülmüşdür. Məsələn: He's the director's blue-eyed boy! – O, rejissorun sevimlisidir!

Once in a blue moon (very rare) – çox nadir hallarda mənasında işlədilir [10].

5. Green – yaşıl:

The green-eyed monster (hərfi mənası – yaşıl gözlü canavar) – qısqanc mənasını verir. İngilis mədəniyyətində yaşıl paxıllıq və qibtə, həsəd ilə əlaqələndirilir. Məsələn: My neighbor is the green-eyed monster. – Mənim qonşum qısqancdır.

To be green about the gills – çox solğun görünmək, solğun olmaq, xəstə kimi görünmək, halsız olmaq. İngilis mədəniyyətində yaşıl rəngi çox vaxt xəstəliyə görə solğunluqla əlaqələndirilir. Məsələn: Suddenly a student was green about the gills.

To have green fingers – yaxşı bağban olmaq. Bu idiomda yaşıl bitkiləri təmsil edir. Beləliklə, "yaşıl barmaqlar" sözün əsl mənasında tərcümə edilmir, lakin insanın bitki yetişdirmək üçün əllərindən necə istifadə edəcəyini bildiyini nəzərdə tutur, bitki becərməkdə mahir olduğu anlamına gəlir. Məsələn: My grandfather has green fingers. – Mənim babam yaxşı bağbandır.

Green as grass – tamamilə yaşıl, təcrübəsiz. Bu deyim təbiət hadisəsi üzərində qurulub. Bildiyimiz kimi, meyvələrin əksəriyyəti ilkin mərhələdə yaşıl olur və yalnız yetişəndə rəngini alır. Bu assosiasiyadan yuxarıdakı idiom yaranmışdır. Məsələn: Young driver was green as grass. – Gənc sürücü təcrübəsiz idi.

Have got the green light – hər hansı bir işi görməyə icazə var mənasında işlədilir. Bu idiom öz görünüşünü işıqfor kimi texnologiya qurğusuna borcludur, burada yaşıl rəng hərəkətə davam etmək icazəsi deməkdir. Məsələn: Finally we have got the green light and our parents will buy us a dog. – Nəhayət, yaşıl işıq yandı və valideynlərimiz bizə bir it alacaq.

6. Grey – boz:

Grey area (boz sahə) – müəyyən etmək, asan olmayan və buna görə də uğrunda mübarizə aparmaq çətin olan bir şey. Bu halda rəng xassələri təsvir olunan obyektə ötürülür. Bozun xüsusiyyətləri gözə çarpmayanlıq, qeyri-müəyyənlik, qaranlıq ifadə etdiyindən bu idiom məhz qeyri-müəyyən olan mənasında işlədilir. Məsələn: The law concerning e-mail is still a grey area in some countries. – Elektron poçtla bağlı qanun bəzi ölkələrdə hələ də qeyri-müəyyən olaraq qalmaqdadır [10].

Man in grey suits – people working in politics, law, etc.; who have power but are not known to the public – gizli məmur, siyasətçi mənasını ifadə edir. Bu idiom siyasətçilərin, qanun adamlarının kostyum geyinməsi ilə əlaqələndirilir.

7. Red – qırmızı:

To see red – çox qəzəblənmək. Bu idiomu bir öküzün qırmızı görəndə çox əsəbiləşdiyi, aqressiv olması kimi yanlış bir fikirlə eyniləşdirirlər. Buğanın bu "xüsusiyyəti" tez bir zamanda digər insanların qəzəb dərəcəsini təsvir etmək üçün dildə öz əksini tapmışdır. Məsələn: It really makes me see red when I see many trees are thoughtlessly cut down by people. – Bir çox ağacın insanlar tərəfindən düşünülməmiş şəkildə kəsilməsini görmək məni həqiqətən əsəbiləşdirir.

Paint the town red – əylənmək, istirahət etmək, həzz almaq mənasında işlədilir.

To put out the red carpet – bu ifadə məcazi mənada işlənir, qırmızı xalça sərmək mənasını ifadə edir. Məsələn, əgər şagird olimpiadada qalib gəlibsə, müəllim zarafatla "Qırmızı xalçanı salın" təklifini verə bilər. Uzun müddətdən sonra valideynlərini, qohumlarını ziyarət edən insan üçün də bu ifadə işlədilə bilər. Azərbaycan dilində bu idiomun qarşılığı olaraq "ayağının altına dəmir atmaq" ifadəsi işlədilir. Belə vəziyyətlərdə bu idiom xoş qarşılamaq deməkdir. Avropalılar üçün qırmızının mənası ikilidir – bəzən təhlükə və eyni zamanda bayram ifadə edir. Təqvimdəki qırmızı rənglə göstərilmiş günlər buna sübutdur.

A red letter day – bayram gününü, qeyri-iş gününü bildirir. Bu ifadə bayramların təqvimdə qırmızı rənglə işarə olunması qaydasına əsaslanır. Məsələn: It's a red letter day tomorrow in the company. It's our fiftieth birthday! – Sabah şirkətdə bayram günüdür. Əllinci ad günümüzdür!

Red as a beetroot / red as a beet – çox qırmızı üz mənasını bildirir. Bu ya çox istidən, ya da xəcalətdən qızaran üzə işarə deməkdir.

Not have a red cent – have no money at all – pulsuz olmaq, kasıb olmaq, heç pulu olmamaq [10].

8. Brown – qəhvəyi:

Brown as a berry – 'very tanned because they have been out in the sun' – qaralmış mənasını ifadə edir, yəni günəş şüaları altında uzun müddət gəzdikdən sonra insan dərisinin yanmasına, qaralmasına işarədir.

Brown Shirt – a member of any fascist party or group – faşist partiyasının üzvü mənasını bildirir.

In a brown study – thinking deeply so that you do not notice what is happening around you – çox fikirli olmaq, ətrafında baş verənlərin fərqinə varmamaq mənasını bildirir.

9. Yellow – sarı:

As yellow as a guinea – very yellow – sapsarı, çox sarı mənasını ifadə edir.

The yellow press – newspapers of a recklessly or unscrupulously sensational character – sarı mətbuat kimi tərcümə edilir, bu idiomda sarı rəngə işarə edilmir, əvəzində sensasiyalı xəbərlər yayımlayan mətbuat orqanı kimi nəzərdə tutulur.

Yellow dog – cowardly person – qorxaq, ağciyər, ürəksiz, cəsarətsiz, qorxacaq mənasını ifadə edir.

10. Pink – çəhrayı:

See pink elephants – see things that are not really there, because you're drunk – olmayan bir şeyi görmək, xəyal etmək, gözünə nələrsə görünmək mənasında işlədilir, insanın içkili halda olarkən real olmayan şeyləri görə bilməsi ilə əlaqələndirilir.

Be tickled pink – to be very pleased or amused – məmnun olmaq, razı qalmaq mənasını bildirir.

In the pink – in good health – sağlam olmaq, gümrah olmaq, sağlığı yerində olmaq deməkdir [9].

Bəzi frazeoloji vahidlər də var ki, bunlara rəng və ya rəng intensivliyini göstərən iki və ya daha çox komponentdən ibarət olan idiomlar daxildir. Məsələn: black and white – see complex issues in simple terms of right and wrong – nəyin düz, nəyin səhv olduğunu anlamaq, başa düşmək, açıq-aşkar bilinmək.

in black and white – having a written proof – yazılı sübutları olmaq.

two blacks do not make a white – one injury or instance of wrongdoing does not justify another – bu idiom "bir insanın bir yanlış addımı olarsa bu, onun ikinci bir yanlış addım atacağı anlamına gəlmir" mənasını ifadə edir.

the Blue and the Gray – mavilər və bozlar. Bu idiom Amerikanın tarixi ilə əlaqəlidir. Belə ki, bu idiom Amerikada Vətəndaş müharibəsi zamanı Şimal qoşunlarının əsgərləri mavi rəngli uniforma, Cənub qoşunlarının əsgərləri isə boz rəngli uniforma geyinmələri ilə assosiasiya edilir.

blue and white – police car – polis maşını mənasının bildirir. Bu idiom polis maşınlarında iki rəng ağ və göy rənglərinin olması ilə əlaqəlidir.

black and blue – covered with bruises – göyərmiş, əzilmiş mənasını bildirir.

the red, white and blue – English national flag – Bu idiom İngiltərənin bayrağına işarədir. Bildiyimiz kimi İngiltərənin bayrağı üç rəngin – qırmızı, ağ, mavi rənglərinin birləşməsindən ibarətdir. Məhz buna görə ingilislər "the red, white and blue" dedikdə bayraqlarını nəzərdə tuturlar.

have blue/pink fit – be very angry – acıqlı olmaq, hirsli olmaq mənasında işlədilir [10].

Rəng mədəniyyətdə böyük rol oynayır. Rənglə, insanın ətrafdakı təbiət hadisələrinə münasibəti ifadə edilə bilər. Rəng mədəniyyətin mənalı elementi kimi çıxış edir, onun köməyi ilə obyektləri, sosial münasibətləri və mənəvi-estetik anlayışları xarakterizə etmək, sistemləşdirmək mümkündür.

Məqalənin elmi nəticələri. Məqalənin elmi nəticəsi bu araşdırmanın həyata keçirilməsi nəticəsində əldə olunan əsas məlumatdır. Elmi nəticələr tədqiqatın məqsədini, metodologiyasını dəstəkləyir. Elmi nəticələr ali məktəblərdə ingilis dilinin tədrisi və öyrənilməsini daha səmərəli şəkildə aparmaq üçün, eləcə də müəyyən mövzu ilə bağlı tədqiqat işlərinin, monoqrafiya və dərs vəsaitlərinin yazılmasında yararlı bir mənbə kimi istifadə edilə bilər.

Məqalənin elmi yeniliyi. İngilis dilində rəng komponentli idiomların semantik təhlilinə həsr olunmuş bu əsərin özünəməxsus yeniliyi mövcuddur. Bu tədqiqat işində idiomların xüsusiyyətlərinin araşdırılaraq semantik cəhətdən qruplaşdırılması, sintaktik baxımdan onların müəyyənləşdirilməsi, onlara xas səciyyəvi funksional xüsusiyyətlərin aşkar edilməsi, habelə idiomun forma və mənası arasındakı əlaqənin yaranması geniş şəkildə tədqiqata cəlb edilmişdir.

Məqalənin tətbiqi əhəmiyyəti. Məqalənin tətbiqi əhəmiyyəti onun bu sahə ilə bağlı elmi araşdırmaların nəticələrinin reallığa tətbiqi və dilçilik sahəsindəki problemlərin həllindəki rolu ilə bağlıdır. Məqalənin tətbiqi əhəmiyyəti həm nəzəri, həm də praktik istifadəni özündə birləşdirir. Belə ki, məqalədə istifadə edilmiş idiomlardan leksikologiya kursunda, lüğətlərin tərtibində istifadə oluna bilər. Məqalədə istifadə olunmuş materiallar yeni məqalələrin yazılmasına, yeni nəzəriyyələrin, metodların və texnologiyaların inkişafına yol açır, elmi inkişafa töhfə verir.

Ədəbiyyat

1. Quliyev, T.S. Müxtəlifsistemli dillərdə idiomatik birləşmələr / T.S.Quliyev, – Bakı, – 2016.
2. Şabanova, A.M. Azərbaycan və ingilis dillərində rəng adları ilə formalaşan frazeologizmlər / A.M.Şabanova, – Bakı, – 2022.
3. Гулиев, Т.С. К вопросу о разработке структурных сходств и различий между английскими и азербайджанскими идиоматическими выражениями // AMEA-nın Folklor İnstitutu, Elmi Axtarışlar, № 23. Бакı: Səda, –2006.
4. Кобозева, И.М. Лингвистическая семантика / И.М.Кобозева, – М.: Эдиториал УРСС, –2000.
5. Лайонз, Дж. Лингвистическая семантика / Дж.Лайонз, – М.: Высшая Школа, – 2003.
6. Hajiyeva, A. English Phraseology / A.Hajiyeva, E.Najafov, A.Jafarov, – Baku, – 2009.
7. Oxford Advanced Learner's Dictionary. Oxford University Press, – 2005
8. http://books.google.az/books
9. http://www.pride-unlimited.com/probono/ idioms1.html
10. https://www.myenglishteacher.eu/blog/colour-idioms-list-and-their-meanings/

A.V.Safarova

Lexical-Semantic Features of English Idioms with a Color Component

Summary

The widespread use of a large number of idioms in English discourse indicates the importance of their study. The integrity of meaning, semantic, lexical and syntactic stability in idioms are the main conditions. Idioms give a special shade and variety to the text during conversation. Studies on fixed word combinations and phraseological units show that they enrich the language and make speech more attractive. The article examines the origin of English idioms, provides their semantic analysis, and studies the lexical-semantic features of English idioms with a color component. The author notes that idioms with a color component arose in connection with the people's lifestyle and way of life, religious and belief superstitious ideas, worldviews, arts and professions, and continue to exist in our modern era. The author also presents examples of idioms with a color component and shows the reasons for their emergence and their counterparts in the Azerbaijani language.

Key words: *idiom, lexeme, component analysis, semantic relations, color component*

А.В.Сафарова

Лексико-семантические особенности английских идиом с цветовым компонентом

Резюме

Большое количество идиом в английском языке, которые широко используются в речи, свидетельствует о важности их изучения. Главными условиями идиом являются целостность значения, семантическая, лексическая и синтаксическая устойчивость. Идиомы придают тексту особую красочность и разнообразие во время разговора. Исследования устойчивых словосочетаний и фразеологизмов показывают, что они обогащают язык и делают речь более привлекательной. В статье рассматривается происхождение английских идиом, дается их семантический анализ, а также изучаются лексико-семантические характеристики английских идиом с цветовым компонентом. Автор отметил, что фразеологизмы с цветовым компонентом возникли в связи с образом жизни и бытом народа, религиозными и верователными приметами, мировоззрениями, видами искусств и профессий и продолжают существовать в нашу современную эпоху. Автор также привел примеры идиом с цветовым компонентом, показал причины их появления и их эквиваленты в азербайджанском языке.

Ключевые слова: *идиома, лексема, компонентный анализ, семантические отношения, цветовой компонент*

Rəyçi: prof. F.F.Cahangirov

Redaksiyaya daxil olub: 17.04.2025

S.İ.SƏLİMOVA
filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
e-mail: salimova_sevinc@mail.ru
:https://orcid.org/0009-0005-1152-2562

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.111

DİLÇİLİKDƏ TERMİN ANLAYIŞININ VƏ TERMİN YARADICILIĞININ TƏDQİQİ TARİXİ

Xülasə. *Terminoloji sistemin tədqiqatına və təhlilinə həsr edilmiş nəzəri ədəbiyyata nəzər saldıqda, aydın şəkildə görmək olar ki, terminologiyanın yaranması, təkamülü və inkişafı onun elmi tərəfdən izahından, hər hansı bir terminoloji vahidin terminologiyaya məxsus bir kriteriyaya aid edilməsindən çox əvvəl başlanmışdır. Bu məsələyə bu cür yanaşma onu göstərir ki, terminologiyanı ədəbi dilin leksik-semantik layın tərkib hissəsi hesab etmək olar. Əlbəttə, terminologiya dilin ən dinamik leksik sistemi hesab edilə bilər. Buna görə də bu sahədə olan tədqiqatlar çox vaxt elmi biliklərin inkişafını, terminin necə meydana çıxdığını, inkişaf etdiyini və dəyişdiyini göstərən bir sahədir. Müasir elmi ədəbiyyatda "terminologiya" sözünün mənasının açıqlanması məsələsi ilə bağlı müxtəlif fərqli yanaşmalar mövcuddur. Hal-hazırda "terminologiya" sözünün vahid və dəqiq izahı mövcud deyil. Terminologiya ədəbi dilin lüğət tərkibinin ayrılmaz hissəsi hesab edilə bilər. Terminlər çox zaman ədəbi dildə artıq mövcud olan sözlər əsasında yaranır və inkişaf edir.*

Açar sözlər: *terminoloji sistem, terminologiya, konsepsiya, texnologiya tərəqqisi, peşəkar dil*

Mövcud cəmiyyətdə baş verən bütün hadisələr dilin leksik-semantik qatında öz əksini tapır və bunun nəticəsi olaraq yeni sözlər, o cümlədən terminlər yaranır. Terminlər yaxud xüsusi sözlər, insanın gündəlik həyatının ayrılmaz tərkib bir hissəsi hesab edilə bilər. A.V.Superanskaya, N.V.Podolskaya, N.V.Vasilyev və başqa alimlər hesab edirdilər ki, terminologiya xüsusi leksikanın bir hissəsi kimi terminlərin toplusundan ibarətdir .

Təbii ki, terminlər haqqında və onların yaranması, səciyyəvi xüsusiyyətləri barəsində bir çox tədqiqatlar və araşdırmalar aparılmışdır. Bu sahədə M.Qasımov, S.Sadıqova, Ə.Dəmirçizadə, A.Bayramova, V.Danilenko, A.V.Superanskaya, N.V.Vasilyeva, N.V.Podolskaya, D.Lotte, A.Reformatskiy və başqa alimlər terminologiya və tərkibindəki terminoloji vahidlər barəsində maraqlı mülahizə və fikirlər irəli sürmüş, müxtəlif tədqiqatlar və elmi kitablar yazmışdılar. Bu sahədə tədqiqat aparan hər bir alimin özünəməxsus düşüncəsi və bu məsələyə müxtəlif və fərqli prizmadan yanaşması terminologiya məsələlərində ortaq və ümumi bir fikrin olmamasına dəlalət edir.

Termin nədir, terminoloji birləşmələrin xüsusiyyətləri, onların funksiyaları, leksik sistemdə hansı mövqe tutur kimi suallara düzgün cavab tapmaq üçün uzun illərdir bir sıra dilçilər araşdırmalar aparmışlar (V.V.Vinogradov, G.Vinokur, D.S.Lotte, A.A.Reformatskiy, O.S.Axmanova, V.M.Leyçik, V.P.Danilenko, B.N.Qolovin, R.Kobrin, A.I.Moiseyev, P.N.Denisov, A.V.Superanskaya, S.V.Grinev, A.Axundov, Ə. Dəmirçizadə, S.Sadıqova və s.). Bu alimlərin tədqiqatlarında terminlərin linqvistik və konseptual uyğunluğu, terminlərin genetik tərkibi, paradiqmatik və iyerarxik təşkilatı, terminlərin qarşılıqlı əlaqələri təhlil edilmişdir.

Ədəbi leksika və terminologiya bir-biri ilə qarşılıqlı əlaqədədir. Bir sıra hallarda eyni söz hər iki sahədə – həm terminologiyaya, həm də ədəbi leksikaya sahəsinə aid ola bilir. Məsələn, ingilis dilində *window* sözünü misal kimi götürsək, bir tərəfdən, bu söz tikinti və inşaat

sahəsində işlənən bir termindir, o biri tərəfdən, həmin söz bədii ədəbiyyatda öz hərfi mənasında istifadə edilə bilir.

Azərbaycan dilində *burun* (bədən üzvü) – *burun* (coğrafi termin).

Terminlərin yaranması üçün aşağıdakı üsullardan istifadə oluna bilər:

1. Metaforik köçürülmə. Məsələn: çobanın çantası (bot.), çobanyastığı (bot.), dəvədabanı (bot.) – forma oxşarlığı; yastıq (geoloji), burun (coğrafiya). İngilis dilində sunflower, ecofriendly, blueberry, etc.

2. Leksiki-söz yaradıcılığı üsulu. Məsələn: Azərbaycan dilində biomühəndislik, ultraakustika. İngilis dilində ultrasonic, biotechnology və sair. Bu zaman bio-, elektro-, ultra- və başqa alınma ünsürlərdən istifadə olunmasına tez-tez rast gələ bilərik. Bu ünsürlərin əksəriyyəti latın və yunan dillərindən alınmadırlar (ultra-, anti-, bio-).

3. Alınma sözlər vasitəsilə termin yaradıcılığı. Məsələn: lazer, palpasiya, sinus, alqoritm, skaner və sair. İngilis dilində: status quo, de facto, deja vu, etc.

Azərbaycanda terminologiyanın sürətli inkişaf dövrünə nəzər saldıqda görə bilərik ki, bu inkişaf 20-ci əsrin əvvəllərinə təsadüf edir. Təzə əlifbaya keçid, respublikada orta və ali təhsil müəssisələri üçün Azərbaycan dili dərsliklərinin hazırlanması, elmi terminologiyanın yaradılması, ali məktəblər üçün bu sahədə yeni dərsliklərin və dərs vəsaitlərinin yazılması həmin dövr üzrə ən mühüm tələblərdən biri sayılırdı. Həmin dövrdə Azərbaycan dilçiliyinin inkişafında A. Tağızadənin, X.Ş.Xocayevin, Y.Əliyevin, B.Çobanzadənin, İ.Həsənovun, Ə.Babazadənin əsərləri əvəzedilməz olmuşdur. Həmin dövrdə Bəkir Çobanzadənin yazdığı "Türk-tatar lisaniyyətinə mədxəl" (1920-ci il) kitabının Azərbaycan dilçiliyinin inkişafında böyük rolu olmuşdur. Azərbaycan dilinin zəngin söz ehtiyatı terminlərin yaranmasına və inkişafına böyük təkan vermişdir. Məsələn, dilçilikdə işlənən bir sıra terminlər Azərbaycan dilinin öz bazası əsasında yaranmışdır: *dilönü səslər, dilarxası, dilortası, dodaqlanmayan (dodaqlanan) saitlər, əvəzlik, say, bağlayıcılar, qoşmalar, sözdəyişdirici(sözdüzəldici) şəkilçilər, ara sözlər* və s [9, s.40-45].

Yuxarıdakı misallara nəzər salanda aydın olur ki, Azərbaycan dilində terminlərin yaranmasında və onun inkişaf edilməsində ümumxalq dili əsas və başlıca mənbə kimi istifadə edilmişdir. 1918-ci ildə M.S.Axundov və Q.R. Mirzəzadənin müəllifi olduğu "Rəhbəre Sərf" kitabında isim, sifət, izafət, ismi işarət, ismi ədəd, zəmin (əvəzlik), feil, məsdər, dördüncü hissədə isə ədavat (ədatlar) terminlərindən istifadə edilməsini müşahidə edə bilərik [20, s. 12-15].

1924-cü ildə çap olunmuş "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" kitabında, dilçiliklə bağlı bəzi terminoloji birləşmələrdən istifadə olunmuşdur.

Azərbaycanda terminologiya ilə bağlı tədqiqatlar aparan dilçilərindən biri də S.Sadıqovadır. Onun müxtəlif əsərlərində terminlər və onların yaranma yolları haqqında məlumat verilmişdir. S.A.Sadıqova Azərbaycan dilində terminologiyanın yaranmasını qədim və orta tarixlə bağlayır. S.Sadıqova qeyd edir ki, qədim dövrlərdə ərəb dili elm və ədəbiyyat dili kimi inkişaf etmişdir və buna görə Azərbaycan dilinə aid yazılmış ilk dilçilik əsəri də ərəb dilində yazılmışdır [6, s. 36]. Terminologiyanı dilin terminlərin toplusu hesab edən A.V.Superanskaya, N.V.Podolskaya, N.Vasilyeva hesab edirdilər ki, terminologiya – ədəbi dilin lüğət tərkibinin ayrılmaz hissəsidir. Onların fikrincə, terminlər ədəbi dildə artıq mövcud olan sözlərdən yaranıblar. E.A.Makşantsev isə terminologiya dilin ümumi leksik sisteminin daxilində bir alt sistem hesab edirdi .

İ.İ.Çironova *terminologiya* məfhumunun bir neçə müxtəlif tərifini təklif edir: konkret hansısa bir elmdə mövcud olan sözlər və bu sözlərdən ibarət olan komplekslər; insan biliklərinin bir sahəsinin konsepsiyalarını əks etdirmək üçün müstəqil, heç nədən asılı olmayan leksik vahidlərdən ibarət qrup; xüsusi məqsəd üçün istifadə olunan leksik birləşmələr onların ümumi (konkret və ya abstrakt) konsepsiyası [12, s.113].

Bildiyimiz kimi, ədəbi dildə elmi, rəsmi (o cümlədən, biznes), bədii, publisistik kimi müxtəlif funksional üslublar mövcuddur. Ədəbi leksika və terminologiya bir- biri ilə yaxından

əlaqəlidir, bir sıra hallarda eyni sözlər həm terminologiyaya, həm də ədəbi leksikaya aid ola bilər. Bu prosesi aydın əks etdirən proseslər terminogizasiya və determinologizasiyadır.

Terminlər və onların birləşməsindən ibarət olan terminologiya dilin müstəqil qatını təşkil edir və insanların peşəkar fəaliyyəti ilə sıx bağlıdır. Elm, texnologiya və başqa sahələrdə işlənən terminlər dil daxilində müəyyən bir sistem yaradır. Elm sahələrində atılan hər bir addım terminlərin yaranması və ya dəqiqləşdirilməsi ilə müşahidə edilir.

Dilçilikdə müəyyən məfhumlar mövcuddur və terminlər bu anlayışları dəqiq olaraq adlandırır. Bütövlükdə dillə bağlı müxtəlif və fərqli anlayışları adlandırmaq bilavasitə dilçilik terminlərinin əsas mahiyyətini təşkil edir. Dilçilik terminlərinin aşağıdakı özünəməxsus funksiyaları mövcuddur: 1) nominativ; 2) definitiv funksiyalar. Sonuncu, yəni definitiv funksiya dilçilikdə terminlərini əsas və başqa söz qruplarından fərqləndirən funksiya hesab edilir.

Terminlər və terminologiya elmi nəzəriyyələrin, qanun və qaydaların formalaşması üçün mühüm və əsas alətlərdir; elm və texnologiyanın ayrılmaz hissəsi hesab edilə bilər. J.Q.Jıqunovanın hesab edir ki, terminoloji vahidlər peşəkar və elmi məsələlərin ünsiyyətində və kommunikasiyasında mühüm rol oynayır. Belə ki, hansısa bir fəaliyyət sahəsində çalışan bir mütəxəssis, həmin sahədə terminologiyanı öyrənmədən öz potensialını tam həyata keçirə bilməz.

Terminlər və peşəkar yaxud professional leksika sosial cəhətdən məhdud istifadəsi ilə seçilir. Terminlər və peşəkar sözləri "xüsusi" işarəsi ilə izahlı lüğətlərdə görə bilərik və bu kitablarda sözün hansı sahəyə aid olduğu cox zaman mötərizədə göstərilir: fiziki, tibbi, riyazi, astronom və s. Bildiyimiz kimi, hər bir elm sahəsi öz terminoloji sisteminə malikdir.

R.Y.Kobrina , B.N.Golovin, İ.İ.Çironova, terminologiyanı ədəbi dilin tərkibində olan bir xüsusi sistem kimi baxılmasını təklif edirlər. Belə ki, eyni leksik vahidlər bir sıra hallarda həm termin kimi, həm də ümumi işlək söz kimi işlənə bilər. T.N.Dankovanın hesab edir ki, terminologiya konkret bir elm sahəsinin yaradılması və inkişafı prosesində meydana çıxan terminlər toplusudur və terminlər xüsusi bir anlayışın ifadə etməyə, müəyyən bir elm sahəsinin səciyyəvi obyektlərini adlandırmasında istifadə edilir.

Termin anlayışına bir qrup dilçilər tamamilə fərqli nöqtədən yanaşırlar. Bu alimlər hesab edirlər ki, terminologiya ədəbi dilin lüğət tərkibinin avtonom hissəsidir və ədəbi dil ilə heç bir əlaqəsi yoxdur. Onlar zənn edirlər ki, terminlər müstəqil zonaya öz qanunları ilə ayrılırlar.

E.V.Aleşinskaya hesab edir ki, terminologiya (terminlər toplusu kimi) peşəkarlıq fəaliyyəti ilə bağlı hər hansı bir dilin muxtar və özəl layını təşkil edir [6, s.12].

V.M.Leyçikin fikrincə, terminologiya müstəqil terminlərin toplusundan ibarət bir sistemdir. Terminoloji leksika elmin gələcək inkişafı üçün müəyyən bir söz və ya ifadələr verildikdə faydalı ola bilər [10, s. 62-63].

Terminoloji lüğətin bir neçə qatını fərqləndirmək olar.

1. İlk növbədə bu qata müxtəlif elm sahələrində istifadə olunan və elmi üsluba aid terminləri aid etmək olar. Məsələn: adekvat, ekvivalent, ünsür, hipotetik, tərəqqi, inikas və s. Bu tip terminlər müxtəlif və fərqli elm və elm sahələrinin ümumi konseptual əsasını təşkil edir və tez-tez istifadə olunan terminlər sırasına daxildir.

2. Müəyyən elm sahəsinə; istehsalat və texnologiyaya aid olan xüsusi terminlər də mövcuddur. Məsələn, dilçilikdə: isim, feili sifət, təsəvvür, sifət, əvəzlik; tibdə: infarkt, miyoma, appendisit , kardiologiya və s.

Terminoloji leksik informativ xarakter daşıyır. Buna görə, elmi üslubda terminlər əvəzedilməzdir. Bu xüsusi sözlər mümkün qədər qısa və dəqiq bir fikir ifadə edir.

Terminlər adətən ya dilin öz lüğət ehtiyatından ya da başqa bir dildən alınan xüsusi sözlərdir. İstənilən halda terminlər müəyyən elm sahənin ifadə edən xüsusi söz kimi həmin sahəyə aid olan və heç bir sinonimlə əvəz edilməsi qəbul edilməyən bir vahiddir.

Qeyd edək ki, Ə.Dəmirçizadə terminlərə ekspressiv-emosional çalarlıq qatmaq üçün sözlərə bitişdirilən *-cıq, -çik, -ça, -qın, -ğan* kimi şəkilçilərin termin düzətmək üçün istifadə

olunduğunu qeyd edir. Məsələn, *qarın – qarıncıq (fiziologiya), həbbə – həbbəçik (kimya), çal – çalağan (zoologiya), ağ – ağcaqayın (botanika), daş – daşqın (cooğrafiya)* və s [4, s. 92].

Azərbaycan dilində dilçilik terminlərinin böyük əksəriyyəti bizim dilimizin öz daxili imkanları əsasında yaradılmışdır. Yaranma üsullarına nəzər keçirdikdə isə, belə nəticəyə gəlmək olar ki, Azərbaycan dilində dilçilik terminlərinin böyük hissəsi leksik, morfoloji üsulla yaradılmışdır.

Məsələn: *boğaz səsləri, söz birləşməsi, baş cümlə, budaq cümlə, bağlayıcı, açıq saitlər, qapalı səslər* və s.

Müasir ingilis dilinin termin yaradıcılığında nitq hissələri arasında ismi ən zəngin və ən çox istifadə olunan nitq hissəsi hesab etmək olar. Affikslər vasitəsi ilə düzələn terminlər daha çox nitq hissəsi kimi ismə aid olub, müəyyən suffikslərin, (şəkilçilərin) əlavə olunması nəticəsində meydana çıxır. Müasir ingilis dilində mövcud olan suffikslərin kifayət qədərdir. Bu səbəbədən müasir ingilis dilinin yeni termin yaradıcılığında morfoloji üsul ən çox istifadə olunan üsullardan biri hesab edilə bilər. Müasir ingilis dilində olan affiksləri iki qrupa bölmək olar:

1. İngilis dilinin lüğət tərkibində geniş istifadə olunan və leksik vahidlərinin miqdarını artıran məhsuldar şəkilçilər (-ment, -ness, -ance, -er/or və s.). Məsələn: acridness, penance, ailment , etc.

2. Çox az istifadə olunan qeyri-məhsuldar suffikslər (-ship, -hood, -doom, -th və s.). Bu şəkilçilərin istifadəsi öz məhdudluğu ilə seçilir.

Məsələn spaceship, length, apehood, apedoom, etc.

Termin yaradıcılığından danışarkən, yunan və latın dillərinin bu sahədə rolunu xüsusi qeyd etmək lazımdır. Yunan və latın dillərinin lüğət tərkibinin zənginliyi elm sahələri üçün çox miqdarda yeni terminoloji vahidlərinin meydana çıxmasında əsas konstruktiv material olmuşdur. Müasir dövrdə həm Azərbaycan, həm də ingilis dillərində termin yaradıcılığı sahəsində yunan və latın dillərindən götürülmüş söz, kök, affikslərdən geniş istifadə olunur. Bir sıra dillərdə olduğu kimi, Azərbaycan dilinə də yeni terminlər çox zaman ingilis, bəzən isə rus və başqa Avropa dilləri vasitəsilə daxil olur. Buna misal kimi çağdaş dövrümüzdə maliyyə-bank, sərmaye, qiymətli kağızlar, sığorta, birja sferasında istifadə olunan terminləri göstərmək olar.

Yunan və latın dillərindən alınma terminlərə aşağıdakıları misal göstərmək olar:

Azərbaycan dilində: psixoloq, psixoterapiya, anti-stress, psixomat, somatik, anormal və s.

İngilis dilində: psychology, physics , utopia, alchemistry, helicobacter, etc.

Qeyd etmək lazımdır ki, dilin leksik qatında xüsusi sözlər kimi sayılan yalnız terminlər deyildir. Peşə-sənət sözləri də xüsusi sözlər sırasına daxildirlər. Bu sözlərə peşə-sənət ilə əlaqəli gündəlik işlənən sözlər və ya qrup sözlər aiddir. Qeyd etmək lazımdır ki, peşə-sənət sözləri terminlərlə sıx bağlıdır. Lakin bu sözləri terminlərdən fərqləndirən əsas cəhət onların dilin ədəbi dil normalarından kənar təbəqəyə aid olmasıdır. Peşə-sənət leksikası həmçinin üslubi cəhətdən neytral hesab edilir. Bu o deməkdir ki, bu sözlərdə ekspressivlik və emosionallıq mövcud deyil. Peşə-sənət sözlərini terminlərdən fərqləndirən mühüm xüsusiyyət onların danışıq vaxtı ünsiyyətin səmərəli keçməsinə və onu yüngülləşdirilməsinə xidmət göstərməsidir.

Professional yaxud arqot sözlər, həmçinin jarqonları müqayisə etsək müxtəlif fərqliliklər görmək olar. Məsələn, jarqon qeyri-rəsmi olaraq, professional, həm də sosial qrupların leksikasına aiddir. Jarqonlar sosial qrup çərçivəsində məxfiliyi saxlamaq üçün işlədilir.

İşin elmi nəticəsi. Terminlər – hər hansı bir elmə, texnologiyaya yaxud sənət sahəsində xüsusi anlayışları və məfhumları ifadə edən söz və ya söz birləşmələri hesab edilə bilər. Hər bir termin onun təyin etdiyi anlayışı dəqiq təsvir edir və buna görə də terminlər hər hansı hadisənin ya məfhumun dəqiq və eyni vaxtda məhdudlaşdırılmış xüsusiyyətini aydın şəkildə ifadə edir. Hər bir elm sahəsi öz terminləri ilə xarakterizə olunur və bu terminlər konkret elm sahəsinin terminoloji sistemini təşkil edir.

İşin elmi yeniliyi. Məqalədə terminlərin yaranması prosesində istifadə olunan üsullar və onların mənbələri təhlil olunmuşdur. Terminoloji sistemdə nəzəri, unifikasiya problemlərinə,

yaranmasına və təkmilləşməsinə təsir göstərən faktorlara, onların milli və beynəlxalq miqyasda roluna aydınlıq gətirilməyə cəhd edilmişdir. Bu da öz növbəsində məqalənin elmi yeniliyi hesab edilə bilər.

İşin tətbiqi əhəmiyyəti. Məqalənin terminlərin əmələ gəlməsi yollarının təhlili və dərindən araşdırılması məsələsində müəyyən bir töhfəsi verəcəyini hesab edirik. Həmçinin məqalədə əldə olunan nəticələr gələcəkdə bu sahədə yazılan dərslik və dərs vəsaitlərinin tərtibatında istifadə oluna bilər.

Ədəbiyyat

1. Adilov, M.İ. İzahlı dilçilik terminləri / M.İ.Adilov, Z.N.Verdiyeva, F. M.Ağayeva, – Bakı: Maarif, – 1989, – 290 s.
2. Azərbaycan dilində beynəlmiləl terminlər hesabına terminoloji leksikanın zənginləşməsi "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" I hissə, – Bakı, 2016-cı il, 3-5 may.
3. Dilçilik terminlərinin yaranma yolları // – Bakı: Avrasiya Universiteti, Sivilizasiya, Elmi jurnal. – 2015. №8, – s. 135.
4. Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə, – Bakı: Azərbaycan Dövlət tədris-pedaqoji ədəbiyyat nəşr., –1962 , –270 s.
5. Məmmədli, N. Alınma terminlər / N.Məmmədli, – Bakı: Elm, – 1997, – 314 s
6. Sadıqova, S. Azərbaycan dilinin terminologiyası / S.Sadıqova, – Bakı: Elm, – 2011. – 117 s.
7. Алешинская, Е.В. Современный американский музыкальный термин // – 2008, автореферат канд.филол.наук стр. 26, – s. 12.
8. Винокур, Г. Филологические исследования: Лингвистика и поэтика / Г.Винокур, – М.: Наука, – 1990. – 452 с.
9. Кобрин, Р.Ю. Лингвистические основы учения о терминах / Р.Ю.Кобрин, – М.: Высшая школа, – 1987. – 105 с.
10. Комарова, Ю.А., Баграмова, Н.В. Методология интегративного подхода к процессу обучения иностранным языкам в вузе // Сибирский педагогический журнал, № 9. – 2009, – с.64-67.
11. Лейчик, В.М. Тетради новых терминов / В.М.Лейчик, – М.: Бюро переводов, – 1986. – с. 81.
12. Чиронова, И.И., Кузьмина, Е.В. Английский язык для журналистов / И.И.Чиронова, Е.В.Кузьмина, – М.: Юрайт, – 2015, – с. 417.

S.I.Salimova

History of the Research of Terminology and Terminology Creation in Linguistics

Summary

A review of theoretical literature devoted to the study and analysis of the terminology system reveals that the formation, evolution, and development of terminology began long before its scientific explanation and the application of a terminology unit to a criterion for terminology. This view shows that terminology can be viewed as an integral part of the linguistic and semantic layer of the literary language. Of course, terminology can be considered the most dynamic linguistic system in the language. Therefore, research in this field is often an area that shows the development of scientific knowledge, how the term is formed, developed and changed. Modern scientific literature has differing views on the subject of terminology. Currently, there is no single and accurate explanation for the word terminology. Terminology may be considered an integral part of the literary language. Terms often appear in literary language on the basis of already existing words.

Key words: *terminological system, terminology, concept, technological progress, professional language*

С.И.Салимова

История изучения терминологии и создания новых терминов в лингвистике

Резюме

Обзор теоретической литературы, посвященной изучению и анализу терминологической системы, показывает, что становление, эволюция и развитие терминологии начались задолго до ее научного объяснения и применения терминологической единицы к критерию терминологии. Этот взгляд показывает, что терминологию можно рассматривать как неотъемлемую часть лингвистического и семантического слоя литературного языка. Конечно, терминологию можно считать самой динамичной лингвистической системой в языке. Поэтому исследования в этой области часто являются той областью, которая показывает развитие научного знания, как формировался, развивался и изменялся термин. В современной научной литературе существуют различные взгляды на предмет терминологии. В настоящее время не существует единого и точного объяснения слова *терминология.* Терминологию можно считать неотъемлемой частью словаря литературного языка. Термины в литературном языке часто возникают на основе уже существующих в языке слов.

Ключевые слова: *терминологическая система, терминология, концепция, технологический прогресс, профессиональный язык*

Rəyçi: b/m., f.f.d. G.Tahirzadə

Redaksiyaya daxil olub: 06.05.2025

E.Q.YUSİFOV
filologiya üzrə fəlsəfə doktoru, dosent
:https://orcid.org/0009-0001-5680-787X

K.Y.YUSİFOVA
baş müəllim
:https://orcid.org/0009-0007-7866-5669

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

QƏRBİ GERMAN DİLLƏRİNİN TƏSNİFATINA QISA BAXIŞ

Xülasə. *Bütün German dillərinin eramızdan əvvəl 500-cü ildə baş vermiş Qrim Qanunu və Verner Qanununun səs dəyişikliklərinə tabe olaraq birləşən proto-german dilinin əcdadından gəldiyi düşünülür və proto-german dilinin özünün eramızdan əvvəl 500-cü ildən sonra danışıldığı güman edilir. Bu iki çox işlək German dilinin orfoqrafik və fonetik fəqliliyinə ilk olaraq 500-800-cü illəri əhatə edən Yuxarı alman samit dəyişikliyi, İngilis dilində isə 1400-1700-cü illəri əhatə edən Böyük sait dəyişikliyi səbəb oldu. Belə bir hal olmasaydı, müasir dövrdə ingilis və alman dilləri daha çox oxşarlıq kəsb edərdi. Nəticə etibarilə, qeyd etmək istərdik ki, ingilis və alman dilləri bir ağacın iki böyük budağı kimi bir kökdən yaransa da, zaman keçdikcə fonetik və qrammatik dəyişikliyə məruz qalan, lakin struktur və leksik baxımdan çox yaxın olan German dilləridir.*

Açar sözlər: *diaxronik aspekt, proto-german, Qrim Qanunu, Verner Qanunu, Qərbi german dilləri*

Dilçilikdə German dilləri indi proto-german dediyimiz əcdad dilindən törəyən Hind-Avropa dil qrupuna aid olan dilləri özündə ehtiva edir. Məlumdur ki, zaman keçdikcə bütün dillər təkamül etməyə, ayrı-ayrı qruplara bölünməyə və fərqli dialektlərə çevrilməyə başlayır. Bununla da dillər ayrı-ayrı ailə ağaclarında təşkil edilir və ağacın yuxarısındakı dil proto-dil və ya ana dil kimi tanınır.

Bütün German dillərinin eramızdan əvvəl 500-cü ildə baş vermiş Qrim Qanunu və Verner Qanununun səs dəyişikliklərinə tabe olaraq birləşən proto-german dilinin əcdadından gəldiyi düşünülür və proto-german dilinin özünün eramızdan əvvəl 500-cü ildən sonra danışıldığı güman edilir [5, s.14].

Müasir dövrümüzdə alman dilindən başqa, təxminən 47 aktiv olan german dillərində danışılır. Dilçilikdə German dilləri çox vaxt alimlər tərəfindən üç ayrı qrupa bölünür:

1) Qərbi german dilləri. Qərbi german dillərinə alman, ingilis, Niderland, İsveç, Norveç, Danimarka, İsland, Friz, Pensilvaniya Holland, Lüksemburq, Afrikaans, həmçinin alman və ya Holland dialektləri kimi birləşən müxtəlif fərqli dillər daxildir. Qərbi german dillərindən olan İngilis dilində Böyük Britaniyada, Amerika Birləşmiş Ştatlarında, Kanadada, Avstraliyada, Yeni Zelandiyada, İrlandiyada, Cənubi Afrika Respublikasında; Alman dilində Almaniya, Avstriya, İsveçrə, Lüksemburq, Lixtenştayn, Polşa, Danimarka, Çexiya, o cümlədən də Fransanın bəzi əyalətlərində danışılır.

2) Skandinaviya və ya Nordic dilləri kimi tanınan Şimali german dillərinə İsveç, Norveç, Danimarka, İslandiya və Farer dilləri daxildir. German dillərinin bu qolu qədim Norveç dilindən törəmiş və bu gün də dillər arasında kifayət qədər qarşılıqlı başa düşülənliyə malikdir.

3) Şərqi german dilləri indi nəsli kəsilmiş və yalnız qotika, vandalların, burqundiyaların və bir neçə başqa qəbilələrin dillərindən ibarət olmuşdur. Təəssüf ki, 4-cü əsrdən başlayaraq Şərqi german dillərinin hamısı məhv olmuş və bu qolun son canlı dili 18-ci əsrin sonlarında yoxa çıxmışdır [2, s. 56; 3, s. 27; 4, s. 49].

Qərbi german dillərindən ən çox işlək olan ingilis dilinə diaxronik nəzər salsaq, onun üç böyük mərhələyə bölündüyünü görmək olar. Birinci mərhələ 450-1150-ci illəri əhatə edən Anqlo-Sakson dövrünün dili kimi Qədim ingilis dili olmuşdur ki, burada dominant dialekt Qərbi Sakson, həmçinin Northumbrian, Mösian, Kentiş kimi dialektlər də üstünlük təşkil etmişdir. İkinci mərhələ 1150-1500-cü illəri əhatə edən Norman istilasından sonra fransız dilinin təsirinə məruz qalan Orta ingilis dili olmuşdur ki, burada əsasən şimal, mərkəz və cənub dialektlərindən istifadə edilmişdir. Sonuncu mərhələ 1500-cü ildən hal-hazırki dövrə qədər yaşayan müasir ingilis dili olmaqla iki mərhələdən ibarətdir: birinci mərhələ Şekspirin dövrünü əhatə edən Erkən müasir ingilis dili, ikincisi isə ondan sonrakı dövrü əhatə edən Müasir ingilis dili adlanır. Hal-hazırda Müasir ingilis dilinin Britaniya, Amerika, Avstraliya, Kanada, Yeni Zelandiya, Cənubi Afrika variantlarının da öz daxili dialektləri mövcuddur.

Qeyd etmək lazımdır ki, ingilis dilinin tarixini tədqiq etdikdə bu dilə qədim norveç və fransız dillərindən xeyli sayda sözün keçdiyinin şahidi oluruq. Bu səbəbdən də alət kəmərində başqa German dili bilməyən ingiliscə danışan üçün hətta ən yaxın dil qohumlarını başa düşmək demək olar ki, mümkün deyil.

İngilis dili kimi alman dilinin də tarixinə nəzər saldıqda onun üç böyük mərhələdən keçdiyini görmək olar. Birinci mərhələ Hildebrandslied kimi ilk yazılı adidələrin təsadüf etdiyi 500-1050-ci illəri əhatə edən Qədim Yuxarı alman dili olmuşdur. İkinci mərhələ Nibelungenlied, Minnesang kimi əsərlərin yarandığı, başqa sözlə desək, ədəbiyyatın çiçəkləndiyi 1050-1350-ci illəri əhatə edən Orta Yuxarı alman dili kimi qəbul edilmişdir. Sonuncu mərhələ 1350-ci ildən hal-hazırki dövrə qədər yaşayan Yeni Yuxarı alman dili olmuşdur ki, burada da Standard alman dilinin formalaşmasına xüsusilə Martin Lüterin İncili tərcümə etməsi böyük təkan vermiş, sonradan Müasir Standard alman dili tam şəkildə formalaşmışdır. Hal-hazırda Müasir alman dilinin Yuxarı alman, Aşağı alman variantlarında Bavyera-alman dili, Şvabiyalı alman dili, İsveçrə alman dili Yuxarı alman dilinin; Şimal Aşağı alman, Vestfaliya və Ostfaliya isə Aşağı alman dilinin dialektləri hesab edilir. Təbii ki, Standard alman dilindən rəsmi dil olaraq bütün dövlət qurumlarında istifadə edilir.

Məlumdur ki, dilçilikdə qrammatika, fonologiya və lüğət kimi bir çox amillər dilin əcdadını müəyyən edir. İngilis dili bu amillərə əsaslanaraq, güclü german köklərini göstərməklə bu dil ailəsinin sarsılmaz, güclü üzvlüyünü qoruyub saxlayır.

Alman dili isə tarixən mürəkkəb qrammatik vəziyyət sistemini qoruyub saxlamaqla digər German dillərindən, əsasən də ingilis dilindən əsaslı şəkildə fərqlənir.

Bu iki çox işlək German dillərinin orfoqrafik və fonetik fəqliliyinə ilk olaraq 500-800-cü illəri əhatə edən Yuxarı alman samit dəyişikliyi, ingilis dilində isə 1400-1700-cü illəri əhatə edən Böyük sait dəyişikliyi səbəb oldu [1,s.114]. Nəticədə bəzi orfoqrafik oxşarlıqlar müşahidə olunsa da, fonetik fərqliliklər mövcud olaraq qalmaqdadır. Belə bir hal olmasaydı, müasir dövrdə ingilis və alman dilləri daha çox oxşarlıq kəsb edərdi.

Bütün German dillərinin müxtəlif alman ləhcələrindən təkamül etdiyinə çox az adam inansa da, onların hamısının dil qohumluğu olduğunu vurğulamaq əhəmiyyətli dərəcədə vacibdir. Bu halda, Alman dili ana dil deyil, proto-german dilinin bir növü sayılır.

Qərbi German dillərindən olan ingilis və alman dillərinin leksik vahidləri arasındakı oxşarlıqları və fərqləri nəzərdən keçirdikdə aydın olur ki, bütün dil ailələrində olduğu kimi, bu dillər də çox vaxt ortaq kök sözləri – əlaqəli kökü bölüşür. Nümunələrə nəzər salaq:

God/Gott, mother/Mutter, father/Vater, sister/Schwester, brother/Bruder, son/Sohn, daughter/Tochter, uncle/Onkel, man/Man, family/Familie, neighbour/Nachbar, student/Student, friend/Freund, speaker/Sprecher, house/Haus, room/Raum, cellar/Keller, garden/Garten, bed/Bett, bath/Bad, school/Schule, name/Name, butter/Butter, oil/Öl, milk/Milch, tea/Tee, water/Wasser, glass/Glas, cat/Katze, ice/Eis, fish/Fisch, swine/Schwein, mouse/Maus, heart/Herz, blood/Blut, nose/Nase, hand/Hand, finger/Finger, knee/Knie, foot/Fuß, hair/Haar, mouth/Mund, pan/Pfanne, apple/Apfel, berry/Beere, melon/Melone, water

melon/Wassermelone, aubergine/Aubergine, maize/Mais, bread/Brot, toast/Toast, sugar /Zucker, ice cream/Eiscreme, salt/Salz, pepper/Pfeffer, book/Buch, lamp/Lampe, light/Licht, ball/Ball, mask/Mask, blouse/Bluse, shoes/Schuhe, gold/Gold, silver/Silber, wool/Wolle, place/Platz, sofa/Sofa, lust/Lust, rain/Regen, snow/Schnee, ocean/Ozean, field/ Feld, night shift/Nachtschicht, morning/Morgen, night/Nacht, midnight/Mittenacht, moon/Mond, star/Stern, sun/Sonne, horizon/Horizont, summer/Sommer, winter/Winter, week/Woche, weekend /Wochenende, Monday/Montag, Friday/Freitag, Sunday/Sonntag, month/Monat, January /Januar, February/Februar, March/März, April/April, May/Mai, June/Juni, July/Juli, August/August, September/September, October/Oktober, November/November, December Dezember, world/Welt, end/Ende və s.

what/was, whom/wem, whose/wessen və s.

green/grün, gray/grau, white/weiß, red/rot, brown/braun, blond/blond, creative/kreativ, private/privat, better/besser, free/frei, clear/klar, cold/kalt, old/alt, young/jung, new/neu, sour/sauer, good/gut, direct/direkt, half/halb, clever/clever, right/richtig, ring/ring, oval/oval, hungry/hungrig, hard/hart, more/mehr, high/hoch, latest/letzte və s.

six/sechs, seven/sieben, nine/neun, hundred/hundert, thausand/tausend, million/Million, milliard/Milliarde və s.

begin/beginnen, bid/bitten, bind/binden, book/buchen, break/brechen, bring/bringen, can/können, come/kommen, cook/kochen, cost/kosten, drink/trinken, eat/essen, fall/fallen, find/finden, flee/fliehen, fly/fliegen, forbid/verbieten, give/geben, go/gehen, hang/hängen, have/haben, hear/hören, help/helfen, hope/hoffen, laugh/lachen, learn/lernen, make/machen, mean/meinen, open/öffnen, ride/reiten, run/rennen, say/sagen, see/sehen, send/senden, shine/schein, sing/singen, sink/sinken, sit/sitzen, speak/sprechen, steal/stehlen, swim /schwimmen, tap/tippen, wake/wecken, wish/wünschen və s.

when/wann, how long/wie lange, how often/wie oft, where/wo, here/hier və s.

in/in, near/neben, under/unter, and/und, Hello/Hallo və s.

Yuxarıdakı sözlər həm fonetik, həm də orfoqrafik baxımdan oxşarlıq təşkil edir.

Son statistik məlumatlara əsasən, dünyada təxminən 1,4 milyard insan German dillərində danışır. Qərbi German dillərinin ən çox işlək olan İngilis dili təxminən 1,1 milyarddan da çox insanın həm doğma, həm də ikinci olaraq işlətdiyi dildir. German dillərinin ikinci ən böyük dili olan Alman dili təxminən 100 milyon insanın ana dili kimi və 30 milyona yaxın insanın danışdığı bir dilidir. German dil ailəsinə mənsub olan Niderland dili işləkliyi baxımdan üçüncü yerdə olub 25 milyon insan tərəfindən doğma dil olaraq işlədilir. İsveç dili isə dördüncü sırada olub 10 milyonluq tərəfindən istifadə edilən bir dildir. Növbəti sıralamanı 6 milyona yaxın insanın istifadə etdiyi Danimarka dili, 5 milyondan çox insanın istifadə etdiyi Norveç dili və təxminən 300 min insanın danışdığı İsland dili tutur. German dil ailəsinin Friz, Afrikaans kimi digər dillərində danışanların sayı nisbətən azlıq təşkil edir.

Nəticə etibarilə, qeyd etmək istərdik ki, ingilis və alman dilləri bir ağacın iki böyük budağı kimi bir kökdən yaransa da, zaman keçdikcə fonetik və qrammatik dəyişikliyə məruz qalan, lakin struktur və leksik baxımdan çox yaxın olan German dilləridir.

German dilləri ailəsinin ən çox işlək və baza hesab edilən İngilis dilinin daşıyıcısı olmaq, yaxud da səlis danışmaq bu dil ailəsinin digər çox oxşar olan dillərini – alman, holland və ya Norveç, Danimarka, İsveç – öyrənməkdə və əminliklə danışmaqda möhkəm zəmin yaradır. Təbii ki, bir aksioma olaraq adları sadalanan dillərin danışıldığı ölkələrdə təhsil almaq, işləmək, yaxud da yaşamaq kimi zərurətlər meydana çıxdıqda isə yerli dillərin mənimsənilməsi cəmiyyətə sürətli inteqrasiyanın, yəni yerli xalqın mədəniyyətinə, adət-ənənəsinə adaptasiya olunmağın önəmli məqamı kimi qəbul edilməlidir.

Məqalənin aktuallığı. Qərbi German dillərinin ən çox işlək olan ingilis və alman dilləri bütün dünya dilləri arasında qlobal miqyasda rəqabət qabiliyyətini artıran dillər olmaqla həya-

tın bütün sferalarında istər siyasi, texniki, iqtisadi, mədəni, elmi, tibb və bir çox sahəsində aktuallığını qoruyub saxlayır.

Mövzunun yeniliyi. Qərbi German dillərinin təsnifatı son statistik məlumatlara əsasən araşdırılıb və bu dillərdə hansı ölkələrdə nə qədər insanın danışdığı tədqiq edilib.

Mövzunun problemi. Qərbi German dillərinin tarixən araşdırılması mövzunun problemini təşkil edir.

Ədəbiyyat

1. Bammesberger A. Das Germanische Sprachgesichte und Sprachvergleichung / A. Bammesberger. – Heidelberg, – 1985, – 612 p.
2. Campbell L. Historical Linguistics: An itroduction / L.Campbell. – Edinburgh, – 2013, – 512 pp.
3. Fortson B.W. Indo-European Language and Culture: An introduction / B.W.Fortson. – Chichester, – 2010, – 500 pp.
4. König E., Auwera J. The Germanic Languages, / E.König, J.Auwera. – London/New York, – 1994, – 631 pp.
5. Ringe D. From Proto-Indo-European to Proto-Germanic / D.Ringe. – Oxford, – 2006, – 355 pp.

E.G.Yusifov, K.Y.Yusifova

A Brief Overview of the Classification of West Germanic Languages

Summary

All Germanic languages are thought to have descended from a common ancestor, Proto-Germanic, which was unified by the Grimm's Law and Werner's Law sound changes around 500 BC, and Proto-Germanic itself is thought to have been spoken after 500 BC. The orthographic and phonetic divergence of these two highly functional Germanic languages was first caused by the High Germanic Consonant Shift, which occurred between 500 and 800, and in English by the Great Vowel Shift, which occurred between 1400 and 1700. Without this, English and German would be much more similar in modern times. In conclusion, we would like to point out that although English and German come from the same root, like two large branches of a tree, they have undergone phonetic and grammatical changes over time, but are structurally and lexically very close.

Key words: *diachronic aspect, proto-Germanic, Grimm's Law, Werner's Law, West Germanic languages*

Э.Г.Юсифов, К.Я.Юсифова

Краткий обзор классификации западногерманских языков

Резюме

Считается, что все германские языки произошли от общего предка, прагерманского, который был объединен законом Гримма и законом Вернера звуковых изменений около 500 г. до н. э., а сам прагерманский язык, как полагают, был разговорным после 500 г. до н. э. Орфографическое и фонетическое расхождение этих двух высокофункциональных германских языков было впервые вызвано верхнегерманским сдвигом согласных, который произошел между 500 и 800 гг., а в английском – Великим сдвигом гласных, который произошел между 1400 и 1700 гг. Без этого английский и немецкий языки были бы гораздо более похожи в наше время. В заключение мы хотели бы отметить, что хотя английский и немецкий языки происходят от одного корня, как две большие ветви дерева, они претерпели фонетические и грамматические изменения с течением времени, но структурно и лексически очень близки.

Ключевые слова: *диахронический аспект, протогерманский, Закон Гримма, Закон Вернера, западногерманские языки*

Rəyçi: fil.e.d., prof. N.F.Seyidəliyev

Redaksiyaya daxil olub: 05.05.2025

Г.А.АЛЕКПЕРОВА
преподаватель
e-mail: milana-milana1978@bk.ru
:https://orcid.org/0009-0009-5387-2826

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 33)

ТРУДНОСТИ, ВОЗНИКШИЕ ПРИ ПЕРЕВОДЕ ГАЗЕТНЫХ МАТЕРИАЛОВ

Резюме. *Перевод – это умственная деятельность, в которой значение данного языкового дискурса передается с одного языка на другой. Это действие по переносу языковых сущностей с одного языка на их эквиваленты на другом языке. Перевод – это действие, посредством которого содержание текста передается с исходного языка на целевой язык.*
Перевод общественно-политических текстов в настоящее время считается одним из важнейших, и для того, чтобы в полной мере выразить основную информацию на языке перевода, каждому переводчику необходимо использовать все виды переводов, особенно при переводе информационно-описательных и публицистических материалов. Нашей целью как переводчиков было изучить лексические и грамматические аспекты перевода, классифицировать собранную информацию, выявить основные переводческие трансформации, используемые в переводах общественно-политических текстов, проанализировать некоторые общественно-политические тексты и способы их перевода. Среди основных особенностей газетных текстов является то, что эти тексты создавались как один из способов воздействия на общество, ведения идеологической борьбы. Неправильный перевод может привести к серьезным проблемам внутри страны или даже за рубежом. Особые отношения между исходным текстом и текстом перевода определяются способностью перевода преобразовывать многоязычную коммуникацию в монологическую. Общественно-политические материалы существенно различаются стилистически и в общем случае их можно разделить на:
Документально-деловые материалы (конституции, законы и политические акты);
Информационно-описательные и публицистические материалы (заметки, справки, описания и рецензии).

Ключевые слова: *перевод, газетные материалы, переводческие трансформации, общественно-политические материалы, классификация*

Перевод – это процесс переработки текста с одного языка на другой для сохранения исходного сообщения и коммуникации. Но, как и все остальное, существуют разные методы перевода, и они различаются по форме и функциям. Перевод – это процесс преобразования смысла письменного сообщения (текста) с одного языка на другой. Переводчики должны найти тонкий баланс между сохранением верности исходному смыслу и тем, чтобы текст звучал естественно на целевом языке, чтобы гарантировать, что конечный текст передает то же сообщение, чувство и тон, что и оригинал. На высоком уровне существует два основных подхода к переводу: человеческий и автоматический. В зависимости от типа текста, контекста, целевой аудитории и других факторов компании выберут один или другой – или их комбинацию. Давайте подробнее рассмотрим каждый подход.

Человеческий перевод – это традиционный подход к переводу. При человеческом переводе один или несколько переводчиков преобразуют текст с исходного языка на целевой. Они могут использовать цифровые инструменты, такие как CAT-инструменты или онлайн-ресурсы, но в конечном итоге они полагаются на собственное понимание исходного текста, целевого языка и культурного контекста для создания точного перевода.

Человеческий перевод, как правило, дороже автоматического перевода и может занять больше времени, но он дает несколько преимуществ:

Во-первых, человеческие переводчики могут улавливать тонкие нюансы, такие как сарказм, юмор или двойной смысл, которые машинам может быть трудно понять. Это делает человеческий перевод идеальным для маркетинга или других типов текстов, где эти нюансы и качество перевода имеют важное значение. Во-вторых, переводчики-люди, специализирующиеся в определенной отрасли или области, могут привнести свои знания в специфическую область для перевода. Это важно для высокотехнологичных текстов, где серьезные последствия могут возникнуть из-за неправильного перевода, например, медицинских или юридических документов.

В-третьих, переводчики-люди могут выполнять особые запросы, такие как соблюдение определенного лимита символов – критически важного для элементов пользовательского интерфейса или сообщений в социальных сетях, например, – или включение определенных ключевых слов для целей поисковой оптимизации. Наконец, переводчики-люди могут избегать буквальных переводов, которые могут звучать странно или неестественно на целевом языке, и вместо этого выбирать более привлекательный, естественно звучащий перевод. Это особенно важно для маркетинговых текстов, где общее воздействие важнее, чем перевод фраза в фразу.

Машинный перевод подразумевает использование программного обеспечения для автоматического преобразования текста с исходного языка на целевой без какого-либо человеческого участия. Большинство современных инструментов машинного перевода используют искусственный интеллект для анализа исходного текста и создания автоматического перевода, который сохраняет исходный смысл.

Во-первых, он намного быстрее человеческого перевода, что делает его идеальным для крупных проектов, где время имеет существенное значение, например, для предприятий электронной коммерции, которые переводят описания продуктов в массовом порядке.

Во-вторых, он более доступен по цене, чем человеческий перевод, что делает его хорошим вариантом для предприятий, работающих с небольшими бюджетами и которым необходимо сократить расходы на перевод, когда контент имеет меньшую видимость, охват и рентабельность инвестиций.

В-третьих, машинный перевод предлагает автоматизированную интеграцию с другими программными платформами и рабочими процессами, что позволяет выполнять целые процессы перевода без какого-либо человеческого участия. Это может быть важным преимуществом для контента, не ориентированного на бренд, например, внутренней документации, где цель состоит в том, чтобы просто сделать контент доступным для как можно большего числа людей с минимальными усилиями. Некоторые компании выбирают гибридный подход, который сочетает машинный перевод с человеческим постредактированием, чтобы получить лучшее из обоих миров.

Перевод – это трамплин к глобальному успеху. В постоянно глобализирующемся мире способность общаться между культурами важнее, чем когда-либо прежде. [5, с. 25] Существуют десятки подходов, методов и методик перевода контента, но в конечном итоге самое важное – чтобы смысл передавался точно, естественно и таким образом, чтобы он находил отклик у целевой аудитории.

Перевод – это не разовое событие, а непрерывный процесс, который следует интегрировать в общую стратегию локализации. Технология выступает в качестве великого инструмента в этом процессе, автоматизируя повторяющиеся задачи и облегчая сотрудничество между всеми заинтересованными сторонами. Для любого переводчика или интерпретатора очень важно наилучшим образом перевести газетные статьи с ИЯ на ПЯ. [2, с. 15] При выполнении специализированного перевода любой переводчик должен обращать внимание на трудности, наиболее часто встречающиеся в таких типах текстов. Для любого переводчика очень важно наилучшим образом перевести газетные

статьи с исходного языка на целевой язык. При выполнении специализированного перевода любой переводчик должен обращать внимание на трудности, наиболее часто встречающиеся в таких типах текстов. Журналистский перевод – это процесс передачи и адаптации оригинального языка новостей к другому языку. Журналистские материалы для перевода включают печатные и онлайн-газеты, журналы, короткие рассказы или стенограммы для радио – и теленовостей. Конкретные новостные СМИ требуют подходящего метода перевода, который может не всегда быть одинаковым. Вот несколько распространенных типов журналистского перевода.

Газетный перевод: основная аудитория газет – это люди среднего возраста, требующие тщательного подбора слов. Поэтому при переводе следует избегать использования модных или сленговых фраз, которые могут привести к недопониманию. Еще один элемент, который следует иметь в виду, – это использование соответствующего теме стиля письма.

Перевод журналов: журналы привлекательны для молодых читателей, поскольку в них в основном освещаются темы развлечений и образа жизни. В результате язык, используемый в переводах журналов, будет более модным и развлекательным, чем в переводах газет. [7, с. 43]

Перевод новостей по ТВ: Телевизионные новости предоставляют краткие отчеты о текущих событиях, что требует соответственно компактного перевода без упущения важных деталей.

Перевод пресс-релизов: Для этого типа журналистского перевода важно уделять должное внимание упоминаемым событиям. Ключевые детали должны быть точно переданы на целевом языке и оставлять неизгладимое впечатление.

Журналистика является основным источником информации для людей всех возрастов, что в свою очередь предъявляет высокие требования к переводчикам, чтобы они выполняли переводы высочайшего качества. Чтобы идти в ногу с миром журналистики, переводчики должны соответствовать следующим требованиям:

Использовать правильный журналистский язык: Журналистика требует лаконичного, беспристрастного и недвусмысленного стиля письма, который по-прежнему увлекает.

Поддерживать высокую точность: СМИ и новости являются важнейшими информационными каналами в нашем обществе, подчеркивая важную задачу точного перевода контента с нулевым допуском на ошибку.

Иметь глубокое понимание культуры и языка. Чтобы гарантировать, что читатели смогут в полной мере насладиться переводом, переводчики должны иметь твердое понимание не только языковых навыков, но и культуры и ее нюансов. Удовлетворение этим критериям означает, что перевод будет адаптирован к вкусам и предпочтениям целевых читателей.

Обладать обширными знаниями: переводчики с многолетним опытом работы могут предоставлять высококачественные новостные переводы, персонализированные под культуру целевых читателей, делая новости более интересными. [2, с. 30]

Обеспечивать постоянную доставку переводов: колеса журналистики вращаются с неумолимой скоростью и никого не ждут. Новости обновляются каждую минуту, что оказывает сильное давление на переводчиков, чтобы они не отставали от темпа, не жертвуя качеством.

İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsi ilə ingilis sentimentalist yazıçısı Samuel Riçardsonun "Klarissa" romanının sentimentalizm baxımından müqayisəsi, Avropa və Şərq ədəbiyyatlarında baş verən ideya-estetik yaxınlaşmaların mövcudluğundan bəhs etməyə imkan verir. İnsan hissiyyatının, xüsusilə sevgi, sədaqət və əxlaqi təmizliyin ön plana çəkilməsi ilə diqqət çəkən hər iki əsər duyğuların üstünlüyü, fərdi psixologiyanın dərindən təqdim edilməsi, mənəvi katarsis və ictimai ziddiyyətlər fonunda fərdin daxili aləminin araşdırılması baxımından əhəmiyyətli nümunələrdir. S.Riçardsonun "Klarissa" əsərində baş qəhrəmanın başına gələn faciəvi hadisələr vasitəsilə oxucuya dərin emosional təsir göstərilir. Bu baxımdan sentimentalizmin əsas prinsipi olan "duyğular vasitəsilə tərbiyə" motivi açıq şəkildə təqdim olunur. Klarissa obrazı öz mənəvi bütövlüyünü qorumaq üçün həyatı bahasına mübarizə aparır, bu isə oxucuda həm rəğbət, həm də dərindən hiss olunan kədər doğurur.

İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsində isə Şərq sentimentalizminin milli-estetik xüsusiyyətləri aydın şəkildə özünü göstərir. Əsərdə Rəşid bəylə Səadət xanımın sevgi münasibətləri yalnız fərdi duyğular kontekstində deyil, həm də cəmiyyətin adət-ənənələ-

ri, ailə və sosial münasibətlər kontekstində təqdim olunur. Bu mənada, İ.Qutqaşınlı fərdi hissləri ictimai müstəvidə təqdim etməklə Şərq sentimentalizminə xas olan mənəvi və ailəvi dəyərlərin qorunmasını əsas ideya kimi önə çıxarır.

Hər iki əsərdə qəhrəmanların emosional yaşantıları süjetin əsas hərəkətverici qüvvəsidir. Həm Klarissa, həm də Səadət ailə basqısına, çətinliklərə məruz qalırlar, öz talelərində söz haqqına sahib deyillər, lakin bununla mübarizə aparırlar. S.Riçardsonun romanında psixoloji dərinlik və hisslərin introspektiv təqdimatı daha geniş şəkildə işlənmişdir. İ.Qutqaşınlı isə hisslərin təqdimatında sadə, lakin təsirli dil və bədii təsvir vasitələrindən istifadə edərək oxucunun emosional reaksiyasına yönəlir. Hər iki müəllif üçün əxlaqi nəticə və mənəvi dəyərlərin qorunması əsas hədəfdir. Klarissa obrazı ingilis burjuaziyasının əxlaqi dəyərləri fonunda formalaşdığı halda, Rəşid və Səadət obrazları Şərqin ailə və ictimai münasibətlər sistemində öz iç dünyalarını üzə çıxarırlar.

Eyni zamanda Rəşid obrazını Oliver Qoldsmitin "Veykfild ruhanisi" əsərindəki Keşiş Primrouz ilə müqayisə etmək mümkündür. Rəşidin daxili mübarizəsi, emosional vəziyyəti, cəmiyyətlə olan ziddiyyətləri və təbii aləmlə əlaqəsi sentimentalizmin təməl prinsiplərinə uyğun şəkildə təmsil olunur. Keşiş Primrouz obrazı da özünəməxsus şəkildə əsl insanlığı təcəssüm etdirir, insanları xeyirxahlığı, həssaslığı, fədakarlığı və zəhməti ilə qiymətləndirir. Hər iki əsərin qəhrəmanları qüsursuz olduğu üçün deyil, təbiətlə harmoniyada yaşadığı, sosial normaları deyil, ürəklərini dinlədiyi üçün ideal hesab olunurlar.

Müxtəlif mənbələrdə Azərbaycan romantizminin nümayəndəsi kimi təqdim edilən A.Divanbəyoğlunun "Can yanğısı" povesti birmənalı olaraq sentimentalizm cərəyanına aid edilir. Prof. P.Xəlilov bu barədə yazır: "A.Divanbəyoğlunun "Can yanğısı" povesti Azərbaycan ədəbiyyatında sentimental əsərin ən yaxşı nümunəsidir. Müəllif kəndi şəhərə qarşı qoyan, şəhər pozğunluğuna qarşı kəndlinin mənəvi-əxlaqi təmizliyini, şəhər kəsafətinə qarşı kənd abu-havasını, təbiət füsunkarlığını idealizə edən sentimentalistlərin yolu ilə getmişdir" [8, s. 266].

Yazıçı Əhməd obrazı vasitəsilə insanın daxili aləmini, keçirdiyi mənəvi sarsıntıları və həyatın zərbələrinə qarşı göstərdiyi səssiz müqaviməti incə və səmimi şəkildə təqdim edir. Əhmədin ailəsinə və doğmalarına olan münasibəti onun daxili aləminin açılmasında mühüm rol oynayır. O, itirdiklərinə görə sarsılır, amma bu sarsıntını nümayiş etdirmir. Onun "can yanğısı" daxildən gələn bir sükutla, sakit bir təslimiyyətlə ifadə olunur və bu da onu tipik sentimental obraza çevirir.

Həmçinin "Can yanğısı" əsərindəki Əhməd obrazı ilə Samuel Riçardsonun "Ser Çarlz Qrandisonun tarixçəsi" əsərindəki Çarlz obrazını sentimental aspektdən müqayisə etdikdə, hər iki obrazın müsbət mənəvi keyfiyyətlərə malik olduğunu, lakin duyğulara yanaşma tərzində, emosional davranışlarında və cəmiyyət qarşısında tutduqları mövqedə fərqliliklər olduğunun şahidi oluruq. Şərq sentimentalizminin təsiri altında formalaşan Əhmədin əsas duyğusu sevgi və vətən həsrətidir. O, dərin psixoloji sarsıntılar keçirir, bu duyğularını emosional, bəzən isə fatalist yanaşmalarla ifadə edir və duyğuları çox zaman onu tənhalığa, təslimiyyətə və daxili mübarizəyə aparır. Əhmədin əxlaqi idealları daha çox fərdi əzablar və daxili mənəvi saflaşma ilə bağlıdır. O, yaşadığı cəmiyyətin ədalətsizliyindən əziyyət çəkir və sentimental duyğular vasitəsilə bu ədalətsizliyə qarşı passiv müqavimət göstərir. Buna bənzər motivlərə C.Cabbarlının "Solğun çiçəklər" pyesində də rast gəlmək mümkündür. Bəhram da Əhməd kimi qərarsız obrazdır və hər iki obraz istəməyərək də olsa sevdikləri qadınların ölümünə səbəb olurlar.

Qərb sentimentalizminin klassik nümunəsi olan Çarlzın duyğuları, sevgi və mərhəməti isə əsərdə daha rasionallaşdırılmış formada təqdim olunur. O, emosiyalarını nəzarət altında saxlamağı bacarır və daim əxlaqi prinsiplərə söykənir. Çarlz öz hisslərini cəmiyyətə xidmət etməyə yönəltdiyindən həm romantik, həm də sosial məsuliyyət daşıyan ideal insan obrazı təsiri bağışlayır. Cəmiyyətin əxlaqi sütunlarından biri kimi təqdim olunan Çarlz başqalarına yardım edir, qadınlara qarşı mərhəmətli və ailə dəyərlərinə sadiqdir.

"Yeni məktəb" adlı əsərində isə A.Divanbəyoğlu sentimentalistlərin maarifçilik cərəyanına aid prinsiplərini, pedaqoji fikirlərini təhlil edir. Müəllif əsərdə burjua cəmiyyətinin yeni qaydalarına əsasən təlim-tərbiyə metodlarının da yenilənməsinin labüdlüyünü vurğulayır. Düzgün tərbiyə üçün mənəvi azalığı mühüm şərt sayan yazıçı yeni nəslin yeni qaydalar əsasında formalaşmasını vacib hesab edirdi.

Prof. H.Həşimovun da qeyd etdiyi kimi, Azərbaycan sentimentalistləri hissi idraka üstünlük vermiş, dünyanın hisslər vasitəsilə dərk olunmasının mümkünlüyünü məqbul saymış, xüsusən hisslərin saflığı və sərbəstliyinin təminatının insan səadəti üçün başlıca şərt kimi qiymətləndirmişlər [4, s. 64].

Nəticə: Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanı Qərb ədəbiyyatındakı analoji inkişaf meyilləri ilə səsləşsə də, yerli tarixi-sosial şəraitin və milli-mədəni kontekstin təsiri ilə spesifik xüsusiyyətlər kəsb etmişdir. Fərdin daxili aləminin, hiss və duyğularının estetik dəyərləndirilməsi əsasında formalaşan bu cərəyan, milli ədəbiyyatın ideya-tematik və üslubi zənginliyinə töhfə verməklə bərabər, həm də ictimai-mənəvi problemlərin bədii təcəssümündə əhəmiyyətli rol oynamışdır.

Tədqiqatın elmi yeniliyi: Tədqiqatın əsas elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan ədəbiyyatında sentimentalizmin yalnız üslubi element kimi deyil, müəyyən tarixi-mədəni şəraitdə formalaşaraq müstəqil ədəbi cərəyan səviyyəsinə yüksəlməsi faktlarla əsaslandırılmış və bu cərəyanın konkret nümayəndələrinin (İ.Qutqaşınlı, A.Divanbəyoğlu, C.Cabbarlı və b.) əsərləri ingilis sentimentalizmi kontekstində sistemli şəkildə müqayisəli təhlilə cəlb olunmuşdur.

İşin tətbiqi əhəmiyyəti: Məqalə filologiya, ədəbiyyatşünaslıq və müqayisəli ədəbiyyat sahələrində aparılan elmi araşdırmalar üçün faydalı mənbə ola bilər, eyni zamanda ali təhsil müəssisələrinin müvafiq ixtisaslarında sentimentalizmə dair fənn proqramlarının, dərs vəsaitlərinin və metodik materialların hazırlanmasında praktik material kimi istifadə edilə bilər.

Ədəbiyyat

1. Babazadə, B. Azərbaycan sentimentalizmi / B.Babazadə, –Bakı: Bakı Universiteti nəşr., – 2003, – 59 s. http://web2.anl.az:81/read/page.php?bibid=2075&pno=22
2. Divanbəyoğlu, A. Can yanğısı / A.Divanbəyoğlu. URL: https://kulis.az/xeber/retro/can-yangisi-abdulla-bey-divanbeyoglunun-hekayesi-14659
3. Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanının təzahür formaları və əsas simaları. Türkolojiye adanmış bir ömür – Attila Jorma Armağanı. – İstanbul: – 2022, – 696 s.
4. Həşimov, H. Azərbaycan ədəbiyyatında sentimentalizm: // filologiya elmlər namizədi alimlik dərəcəsi almaq üçün dis. / – Bakı. – 1998. – 199 s.
5. Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi / F.Qasımzadə, – Bakı: Elm və təhsil, – 2017, – 552 s.
6. Qaragözova, E. Sentimentalizm: Azərbaycan modeli – Abdulla bəy Divanbəyoğlu // Ədəbiyyat. – 2022, – s. 25.
   URL: https://www.anl.az/down/meqale/edebiyyat/2022/yanvar/778881.htm
7. Qutqaşınlı, İ. Əsərləri / İ. Qutqaşınlı, – Bakı: Lider. – 2005. – 113 s. URL: https://anl.az/el/q/qi_e.pdf
8. M.Cəlal, Ədəbiyyatşünaslığın əsasları / M.Cəlal, P.Xəlilov. – Bakı: Çaşıoğlu. – 2005, – 311 s.

I.A.Jafarova

Moral-aesthetic Paradigms of Sentimentalism in Azerbaijani and English Literature

Summary

The article systematically analyzes the formation and development directions of sentimentalism in Azerbaijani literature against the background of its formation and aesthetic principles in European literature, draws ideological and aesthetic parallels between English and Azerbaijani literature, and identifies the forms of manifestation of sentimentalism in our national literature. The article also

analyzes the mutual relations of the sentimentalism movement with enlightenment and romanticism and its literary and aesthetic significance on scientific grounds.

Key words: *sentimentalism, natural feelings, national-aesthetic characteristics, enlightenment*

И.А.Джафарова

Нравственно-эстетические парадигмы сентиментализма в азербайджанской и английской литературах

Резюме

В статье системно анализируются направления становления и развития сентиментализма в азербайджанской литературе на фоне его становления и эстетических принципов в европейской литературе, проводятся идейно-эстетические параллели между английской и азербайджанской литературой, выявляются формы проявления сентиментализма в нашей национальной литературе. В статье также анализируется связь сентиментализма с Просветительством и его литературно-эстетическое значение с научной точки зрения.

Ключевые слова: *сентиментализм, естественные чувства, национально-эстетические особенности, просвещение*

Rəyçi: fil.e.d., dos. F.Xəlilov

Redaksiyaya daxil olub: 15.05.2025

G.K.CƏNNƏTOVA
filologiya üzrə fəlsəfə doktoru,
dosent, böyük elmi işçi
e-mail: jannatova2021@gmail.com
:https://orcid.org/0000-0002-8216-1435

AMEA Folklor İnstitutu
(Bakı şəh., 8-ci Kiçik Qala, 31)

10.62021/0026-0028.2025.2.142

MONOMİF NƏZƏRİYYƏSİ – XRONOTOPİK MOTİV UNİVERSALLIĞININ TƏSBİTİ KİMİ

Xülasə. *Bu məqalədə Cozef Kempbellin monomif nəzəriyyəsi – "Qəhrəmanın yolçuluğu" konsepsiyası – mifoloji və folklor kontekstində tədqiq edilir və xüsusilə türk epik irsinə xronotop yanaşması prizmasından baxılır. Müəllif sübut edir ki, müxtəlif xalqların folklor və ədəbiyyatındakı təkrarlanan arxetip süjetlər və obrazlar təkcə mədəni əlaqələrlə deyil, həm də insan psixikasının universal strukturları ilə izah oluna bilər.*
"Kitabi-Dədə Qorqud", "Alpamış" və "Maaday-Qara" kimi epik mətnlər qəhrəmanın inisiasiya yolu, şəxsiyyətin transformasiyası və sosial-fəlsəfi yenidən doğuluş baxımından təhlil olunur. Məqalədə Karl Qustav Yunqun kollektiv şüursuzluq konsepsiyası ilə Kempbellin universal narrativlər nəzəriyyəsi arasında paralellər aparılır.
Xüsusi diqqət mifoloji xronotopa və Mirça Eliade ilə Yuri Meletinskiyə istinadla məkan-zaman koordinatlarının mənalandırıcı yükünə yönəldilir. Həmçinin monomifin effektiv bir süjet modeli kimi bu gün də aktual olduğunu göstərən müasir kino nümunələrinə yer verilir.
Məqalə folklorşünaslıq və mədəniyyət nəzəriyyəsi sahəsində universal kodların, arxetip motivlərin və narrativ strukturların araşdırılmasına töhfə kimi təqdim olunur.

Açar sözlər: *monomif, qəhrəmanın yolçuluğu, arxerip, xronotop, folklor və mifologiya, inisiasiya*

Giriş. Artıq məlum olduğu kimi, ayrı-ayrı xalqların, hətta qohum xalqların folklor irsinin tədqiqatçıları müəyyən ortaqlıq, bənzərlik faktlarının hər hansı bir vahid mental qanunauyğunluqdan qaynaqlana bildiyi ehtimallarını səsləndirmişlər. Konkret olaraq, "Kitabi-Dədə Qorqud"dakı Bamsı Beyrəklə bağlı süjetin bir çox türk xalqlarının dastan ədəbiyyatı üçün tirajlandırılan, yəni bu və ya digər interpretasiyalar çərçivəsində əslində, təkrar edilən ortaq süjet xəttinə istinad etdiyi tədqiqatçılar tərəfindən, birmənalı şəkildə etiraf edilir. Lakin bu süjet xəttinin Homerin "Odisseya"sı ilə əlaqəliliyi məqamı heç də əksər türkoloq-folklorşünaslar tərəfindən eyni yekdilliklə təqdirlə qarşılanmır. Daha dəqiq desək, müəyyən aşkar paralellərin etirafı fonunda, əksər tədqiqatçılar heç də bu paralelliyin müəyyən ortaqlığa, müəyyən qanunauyğunluğa söykəndiyini iddia etməkdə tələsmirlər. Hətta artıq bəhs etdiyimiz kimi, bu ortaqlığın hansısa vahid əsasa, ortaq mənbə ilə bağlılığı ilə əlaqədar ehtimallar bir qisim tədqiqatçıların aktiv etirazına yol açır.

Lakin fərqli dillərdə danışan, fərqli mənşəli dünya mənzərəsinə malik olan və eləcə də, müxtəlif kulturoloji-etik kodlara malik olan toplumların folklor irsi ilə, ədəbiyyat tarixi ilə müştərək şəkildə məşğul olan alimlərin bu ölməz ədəbi nümunələrin müqayisəli-qarşılaşdırmalı formatda araşdırması üçün geniş imkanlar yaranır. Məhz bu əsasda universal olan, ortaq olan obrazlar düzümünün, süjet arxetipləşmələrinin mövcudluğunu təsbiti ilə bağlı monumental tədqiqatlar ortaya çıxır. Akademik təhsil baxımından, ingilis ədəbiyyatı mütəxəssisi kimi formalaşan C.Kemplellin belə bir şansı, belə bir imtiyazı olmuşdur. Nəticədə o, dünya mifoloji irsinin ortaq arxetip əsasını, metassenarisini, ilkin-qəlib süjet strukturunu əhatə edən mono-

mif nəzəriyyəsini və qəhrəmanın yolu konsepsiyasını yaratmağa müvəffəq olmuşdur. Bütün bunların əsasında minilliklərin yaşam təcrübəsinə istinad edən, insan psixikasının gizlinlərini və zəkasının ənginliklərini bir şablon stereotipikləşmələrə sığdıra bilən və eyni zamanda əsrlər öncəsində aktual olduğu qədər müasir mif yaradıcılığı üçün də keçərli olan bu qəlib, narrativ strukturu sxemi formalaşdırılmışdır (məsələn, "Ulduz müharibələri" kino-epopeyası, Harri Poter haqqında ekranlaşdırılmış saqa, "Matrisa" və "Üzüklərin əfəndisi" trilogiyaları və s. kino eposların timsalında görmək olar) [1]. Yəni alim bir növ, həm tarixəqədərki, həm də tarixi dövr mədəniyyətlərini dərindən tədqiq etməklə universal olan kodlaşma mexanizmlərini, mental unifikasiya mexanizmlərini təsbit etmək üçün zəngin bilik və bacarıqlar əldə etmişdir. Beləliklə də, Y.M.Meletinskinin sözləri ilə desək, analitik psixologiya ardıcıllarının (bu sırada alim C.Kempellin adını ön sıralarda çəkir) analitik mifologiya konsepsiyasını ərsəyə gətirməsi mümkün oldu. Y.M.Meletinski monomif nəzəriyyəsinin ən lakonik təfsiri verməklə onun individuasiya prosesi, yəni qəhrəmanın şəxsiyyətinin formalaşması prosesi kimi ortaya çıxdığını da vurğulayır [2, s.7-8]. Doğrudan da, "Qəhrəmanın yolu" sxemli monomif nəzəriyyəsi əslində, qəhərəmanın daxili transformasiyasından bəhs edən, onun öz real kimliyinə qovuşması, özünü, öz mənini kəşfi yolçuluğuna həsr edilmişdir. Buradakı kəşf faktının ilk baxışdan asanlığı məqamı aldadıcı təəssürat yaratmamalıdır: qəhrəman öz real mənini çox ağrılı sınaq və imtahanlar sayəsində, uzun həyat yolçuluğunun nəzəticəsində əldə edə bilir.

Təqdirəlayiq haldır ki, türk folklorlunun, dastan-nağıl ədəbiyyatının tədqiqi işinə C.Kempellin monomif nəzəriyyəsinin əsas konseptual məqamlarının yetərincə uğurlu tətbiqi təcrübələri vardır. Bu sırada L.B.Karayevanın, Z.B.Karayevanın qaraçay-balkar folklor materiallarına istinadən apardığı araşdırmalarını [3, s.23], E.T.Janısbəyovanın müasir qazax ədəbiyyatında [5, s.18-21], L.X.Davletçinanın tatar ədəbiyyatında [5, s.17] mifoloji obraz və motivlərin tədqiqi kontekstində apardığı təhlil və paralelləri xüsusilə qeyd etmək olar.

Özbək folklorşünası M.Jurayev müqayisəli təhlilləri əsasında bilvasitə **Qəhrəmanın yolu konsepsiyası** ilə əlaqələndirmə aparmasa da, intuitiv olaraq, çox doğru paralellərə yol verərək, Alpamış haqqındakı dastanda dastanın müəyyən zaman və məkan çərçivəsindəki səyahət və sərgərdanlığının, əslində özünü tanıma, özünəqayıdış mahiyyətli olduğunu (bir qədər dolayı şəkildə olsa da) etiraf etmişdi. O, Homerin Odesseyasındakı və özbək qəhrəmanlıq eposundakı ərin səyahəti motivinin əslində ortaq tarixi ideyanın relikt izləri olduğu qənaətini dilə gətirmişdi.

M.Eliadenin orijinal adı "Ədəbi geridönüş haqqında mif: arxetip və təkrarlar" olan əsəri C.Kempbelin monomif nəzəriyyəsini elmi ictimaiyyətə təqdim edən "Min simalı qəhrəman" monoqrafiyası ilə eyni ildə – 1949-cu ildə Parisdə işıq üzü görmüşdü. Tez bir zamanda müxtəlif dillərə tərcümə edilən bu əsərdə də bilavasitə K.Q.Yunqun arxetip konsepsiyasının folklor materialı əsasında təkrar oxunuşuna, təhlilinə və bu əsasda formalaşan ortaq mifoloji doktrinə istinad edir. Bu əsərin məhz, C.Kempbellin monoqrafik tədqiqatı ilə eyni vaxtda ərsəyə gəlməsi və eyni problemlər bağlı fərqli interpretasiyaları təqdim etməsinə baxmayaraq, müəyyən mədəniyyət universalilərinə, psixoloji şablon-ortaqlıqlara əsaslanması da heç də təsadüfi deyildi. Belə ki, 1919-cu ildə analitik psixologiyanın yaradıcısı K.Q.Yunqun "Ruhlara inancın psixoloji əsasları" mövzulu fundamental araşdırmalarının (silsilə mühazirələrinin) elmi mühitə bəyan edilməsi ilə, təkcə psixologiya və psixiatriya sahəsində deyil, eləcə də bir çox humanitar elmlərdə, xüsusilə də müqayisəli folklorşünaslıq və müqayisəli mifologiya (mifşünaslıq anlamında) istiqamətlərində sıçrayışlı inkişaf və yeni araşdırma formatının tətbiqi ilə keyfiyyət yenilənməsi mümkün olmuşdur (bu haqda daha ətraflı bax: 6). Təsadüfi deyil ki, elə K.Q.Yunqun özü mifologiyanı, bir növ, atxetiplərin dərsliyi statusunda dəyərləndirmiş, miflərin tamamən arxetip obrazlardan, arxetip süjetlərdən formalaşdırıldığını irəli sürmüşdür [6, s.17].

Folklor və eposlarda arxetiplərin mühüm struktur formalaşdırıcı faktor olduğunu ortaya qoyan silsilə tədqiqatlar süjet ortaqlıqlarının sırf mədəni əlaqələrlə şərtlənmədiyini, belə ortaqlıqların vahid süjet və personaj arxetiplərinin mövcudluğundan qaynaqlandığını qeyd etmişlər.

Bilavasitə Avropa sivilizasiyalarına istinadən, konkret olaraq, Hind-Avropa mənşəli mədəniyyətlərin (yəni Avropada yaşayan və Hind-Avropa dil ailəsinə daxil olan fərqli dillərdə danışan xalqların mədəni irsinin) tarixinə baş vurmaqla yazılmış bu kitabda müəllif müəyyən arxaik ontologiya formatını ortaya qoyur. M.Eliadenin apardığı araşdırmalarda fəlsəfi antropologiya ilə ənənəvi metafizikanın sintezləşdirilmiş təhlil formatı sayəsində Qusserlin, J.Dyumezilin, E.Dyurkgeymin, Freydin, Haydeggerin və təbii ki, Yunqun tədqiqatlarının təkrar (qeyd olunan yeni formatda) təkrar təftiş və dəyərləndirilməsi təqdim edilir. Eliadenin araşdırmasını bizim tədqiqatın obyekti ilə əlaqəliliyi baxımından, xüsusilə dəyərli və maraqlı edən cəhət ondan ibarətdir ki, alim zaman və məkana fərqli anlamlar yükləməkdə qədim insanın təsəvvürlərindəki zaman-məkan kontiniumunun mifoloji təfəkkürdəki zaman-məkan kontiniumu haqqındakı təsəvvürlərə keçid etdirərkən baş vermiş mental proseslərin mahiyyəti ilə bağlı ehtimalllarını səsləndirmişdir. M.Eliadeyə görə, mədəniyyət universaliləri (yəni, mədəniyyət arxetipləri), mif və rituallar, bir növ əbədi geridönüşü mümkün edən əsas faktorlardır.

Sözsüz ki, bu heç də o anlama gəlmir ki, biz, epos qəhrəmanlarının hər addımını, zaman-məkan koordinatları çərçivəsində yerdəyişimini mütləq şəkildə arxetip qəlibləşdirməsi çərçivəsinə sığdırmalı və ya monomif qəhrəmanının yolu prizmasından dəyərləndirməliyik. Belə klişeləşmiş struktur tərtibata və epik narrativ reallaşmasına malik olan istənilən dastan digər eposun təkrarı, imitasiyasından başqa bir şey olmazdı. Deməli, biz, universal olan arxetip obrazlar, arxetip süjet və bloklar fərqləndirməsinin universal kodlaşdırma aparatı kimi rolunu inkar etmədən, monomifin kollektiv şüursuzluq yönləndirməsindəki təsir gücünü şübhə altına almadan, konkret verilmiş dastan mətnindəki spesifik ifadə reallığını da nəzərə almalıyıq. Yəni istər "Kitabi-Dədə Qorqud", istər "Alpamış", istər "Maaday Kara" dastanlarında ortaq olan arxetip səviyyənin mövcudluğu onların fərdi epos təfəkkürü məhsulu olması gerçəkliyini və bu səbəbdən də obrazların zaman-məkan irəliləməsində müəyyən təkrarsızlıqların olmasının norma olduğunu qəbul etməliyik və sonuncuların mövcudluğu isə, əksinə olaraq, nə arxetip nəzəriyyəsini və də monomif konsepsiyasının inkarı anlamına gəlməyəcəkdir. Bu mənada insanın yaşımı, bütövlükdə, həyat üçün tarixin faydası və zərəri ilə bağlı qeyri-müasir, əslində isə qeyri-ordinar düşüncələrini dilə gətirmiş F.Nitşenin yanaşması maraq doğurmaya bilməz. Yalnız sağlam instinktin tarixi missiya ilə qeyri-tarixi fəaliyyət arasında fərqləndirmə aparmağa qadir olduğunu qeyd edən dahi filosof ayrılıqda nəzərdən keçirilən fərd üçün, onun mental sağlığı üçün tarixi olanla, qeyri-tarixi olanın eyni dərəcədə vacib və əhəmiyyətli olduğunu vurğulamışdır [7, s.164].

Qəhrəmanın yolçuluğunun universallığı, arxetip səciyyəli zaman-məkan dəyişimi məsələləri Cozef Kempellin monomif nəzəriyyəsində yetərincə fərqli aspektdən öz əsaslandırmasını qazanmışdır. Belə ki, yunqian (yəni arxetip nəzəriyyəsinin banisi, kollektiv şüur konsepsiyasının müəllifi dahi İsveçrə psixoloqu, psixoterapevti, mütəfəkkiri Karl Qustav Yunqun tərəfdarı olan) müəlliflərdən sayılan və bu əsasda toplumun birikdirilmiş universal qavrayış və dəyərləndirmə sistemlərinin olduğunu və bu sistemlərin şüuraltımızı yönləndirərək davranış qəliblərinin (patternlərinin) formalaşmasına yol açması kimi ideyaların lehinə faktoloji əsaslandırmadan çıxış edən C.Kempell "Qəhrəmanın yolçuluğu" konsepsiyasını irəli sürmüşdür. Həmin konsepsiyaya görə, mif və ya epos qəhrəmanları universal olan bir yol xəritəsini izləyirlər və yol xəritəsində aşağı-yuxarı bənzər, hətta bir çox halda eyni olan sınaq mərhələlərindən keçərək inisiasiya qazanırlar. Son inisiasiya mərhələsində sıravi insan kimi dinləyiciyə, oxucuya və ya hətta hal-hazırda tamaşaçıya təqdim olunan qəhrəmanın əsl qəhrəmana çevrilməsi mümkün olur. Deməli, aparıcı obrazın situativ süjet qəhrəmanı kimi deyil, əsl arxetip qəhrəman kimi formalaşması yalnız və yalnız müəyyən zaman-məkan şərtilikləri çərçivəsində mümkün olur. Həmin zaman-məkan şərtilikləri təxmini on yeddi mərhələni əhatə edir. Lakin konsepsiya müəllifinin özünün də etiraf etdiyi kimi, bütün miflərdə və ya eposlarda on yeddi mərhələnin hamısının, tam şəkildə keçildiyi təsbit edilmir.

Bu məqamda onu qeyd etmək istərdik ki, görkəmli ABŞ yazarı, ssenaristi K.Voqler C.Kempellin "Qəhrəmanın yolçuluğu" konsepsiyasını daha lakonikləşdirərək ilkin variantdakı on yeddi mərhələnin sayını on ikiyə qədər azaltmışdır.

Məhz, C.Kempellin "Qəhrəmanın yolçuluğu" konsepsiyası əsasında müasir miflərin yazılışında, yəni fentezi janrındakı, əlaqəli janrlardakı blokbasterlərinin (yəni istər kommersiya, istər sənətkarlıq xüsusiyyətləri baxımından üstün göstəricilər nümayiş etdirən kino əsərləri) ssenarilərinin yazılışı üçün rəhbərlik hazırlamışdır. İlk nəşrində K.Voqlerin kitabının adında yer alan ("The Writer's Journey: Mythic Structure for Storytellers and Screenwriters", 1992) "söyləyici", "təhkiyəçi" anlayışı daha sonrakı elmi-texniki tərəqqi formatında reklamların, brend təqdimatının, ümumən marketinqdə, bloq müəlliflərinin oxucusuna, tamaşaçısına, izləyicisinə, müştərisinə müraciət formatı kimi də, auditoriyanın diqqətinin yönləndirilməsi alqoritmi kimi də qəbul edilməyə başlamışdır.

Xatırladaq ki, məşhur etnoqraf alim Frans Boas mühazirələrini dinləyən, Con Dyui fəlsəfəsindən ciddi şəkildə təsirlənən və Z.Freyd, K.Q.Yunq araşdırmalarında ciddi şəkildə bəhrələnən C.Kempbell özünün "Qəhrəmanın yolçuluğu" konsepsiyasında, ümumilikdə, bəşər övladına xas olan səyahət, yol, axtarış, arayış fəaliyyətinin xarakterik olduğunu təsbit etmiş və bunun təkcə zaman-məkan koordinatlarının dəyişimi deyil, eləcə də bu zaman-məkan koordinatları dəyişimi çərçivəsində gerçəkləşən psixoloji, emosional yetkinləşmə, yenilənmə kimi təqdim etmişdir. Yəni insan tarix yaranandan yaratdığı mifoloji, folklor, müəllif ədəbiyyatlarında insanın yerdəyişməsinin təsviri ssenarisi çərçivəsində süjet kolliziyalarını yaratmış və bu zaman-məkan dəyişiminin qəhrəmanın daxili metamorfozlarına yol açma kimi təsir gücünü ortaya qoymuşdur. Həmin dəyişimlər son nəticədə qəhrəmanın daha yetkin şəxsiyyət kimi formalaşmasını mümkün edir. Bu isə öz növbəsində, insanın öz cılız hissələrinə qalib gəlməklə, fövqəlinsan kimliyinə qovuşmaq yolundakı çırpıntılarını, bu yolun ağrılı mərhələlərini ortaya qoyur. Tədqiqatçıların da vurğuladığı kimi, bu zaman qəhrəmanın mübarizə apardığı kənar qüvvələr və onu (qəhrəmanı) sınağa çəkən, imtahan edən ağır həyati şəraitlər, əslində onun daxili qorxu və komplekslərinin, şüuraltındakı qəlibləşmiş patternlərin (davranış modellərinin) mifoloji dildəki ifadəsidir. Bu zaman qəhrəmanın yolunun son mərhələsində əldə edilən qalibiyyət onu sosial-psixoloji zəmində yeni pilləyə yükləldir və bununla da yeni şəxsiyyətin, keyfiyyətcə yeni fərdin doğulması, meydana çıxması mümkün olur. Analoji məqamı biz, bütün ağrı-acılara sinə gərərək Maaday Qaranın oğlu statusundan Altay elinin alp ərəni statusuna qədər yüksələ bilmiş Gögüdey Mergenin qəhrəmanın yolu trayektoriyasında izləyirik. Eyni situasiyanı biz, Dirsə xanın oğlu Buğacın özünü tanıtmaq, özünü təsdiqlətmək çabalarındakı izlədiyi mübarizədə, haqlılığının sübutu üçün apardığı mücadilədə və nəticədə özünün bir bəy kimi (bəyzadə kimi deyil, sadəcə Dirsə xanın oğlu kimi deyil), bir Oğuz bəyi kimi yeni statusdakı təkrar doğuluşunda (ölümdən geri dönüşündə) görürük.

Məqalənin elmi yeniliyi. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada Cozef Kempbellin "monomif" nəzəriyyəsi və "Qəhrəmanın yolçuluğu" konsepsiyası ilk dəfə olaraq türk epik irsinin xronotopik təhlili ilə əlaqələndirilərək kompleks şəkildə şərh olunur. Müəllif müxtəlif türk xalqlarına məxsus dastanlarda – "Kitabi-Dədə Qorqud", "Alpamış", "Maaday Qara" və s. – qəhrəmanın zaman və məkan koordinatları çərçivəsində keçirdiyi transformasiya prosesini universal arxetip modelin lokal ifadə forması kimi təqdim edir. Məqalədə həmçinin arxetip və xronotop anlayışlarının K.Q.Yunq, M.Eliade və Y.M.Meletinskinin nəzəri çərçivələrində təhlili aparılaraq, monomif strukturlarının kollektiv şüursuzluqda kodlaşmış mifoloji təfəkkür nümunəsi kimi bəşəri dəyərlərin ötürülməsindəki rolu əsaslandırılır. Bundan başqa, monomif modelinin çağdaş kinematoqrafiyada tətbiqi kontekstində (məsələn, "Ulduz müharibələri", "Üzüklərin hökmdarı" və s.) təqdim edilməsi folklor strukturlarının dinamik transformasiya potensialını ortaya çıxarır. Məqalə xronotopik motivin arxetipik səviyyədə bəşəri kodlaşdırma sistemlərinin təzahürü kimi aktuallığını vurğulayaraq həm klassik, həm də müasir mif yaradıcılığına yeni baxış bucağı təqdim edir.

Elmi nəticə. Aparılan tədqiqat göstərdi ki, Cozef Kempbellin "monomif" nəzəriyyəsi və onun "Qəhrəmanın yolçuluğu" konsepsiyası yalnız Qərb mifologiyasının deyil, həm də türk epik folklorunun əsas struktur kodlarını izah etmək baxımından funksional nəzəri model kimi çıxış edə bilər. "Kitabi-Dədə Qorqud", "Alpamış", "Maaday Qara" kimi dastanlarda qəhrəmanın keçdiyi sınaq və inisiasiya mərhələləri, zaman-məkan dəyişkənliyi, psixoloji və sosial transformasiya prosesi bu nəzəriyyənin əsas prinsipləri ilə üst-üstə düşür. Mifoloji və epik mətnlərdəki arxetip obraz və motivlərin xronotopik strukturda təkrarlanması isə bu elementlərin təsadüfi deyil, kollektiv şüursuzluğun məhsulu olan universal mifoloji modelə bağlı olduğunu sübut edir. Məqalədə həmçinin qeyd olunur ki, eposlardakı fərdi xüsusiyyətlər monomif modelinin avtomatik təkrarı yox, onun lokal mədəniyyətlərdəki spesifik təzahür formalarıdır. Bu yanaşma həm folklorşünaslıqda, həm də mifoloji təhlildə mədəniyyətlərarası paralellərin müəyyənləşdirilməsinə və universal motivlərin lokal ifadə imkanlarının ortaya çıxarılmasına yeni metodoloji imkanlar açır.

Tətbiqi əhəmiyyəti. Məqalədə təqdim olunan nəzəri müddəalar və analitik nəticələr folklor, mifologiya və ədəbiyyatşünaslıq sahəsində aparılan tədqiqatlar üçün mühüm tətbiqi əhəmiyyət daşıyır. Monomif modelinin türk dastanlarına tətbiqi həmin mətnlərin struktural təhlilində vahid konseptual yanaşma formalaşdırmağa imkan verir. Bu yanaşma vasitəsilə epik qəhrəmanın inisiasiya yolu, daxili və sosial transformasiya mərhələləri daha sistemli şəkildə öyrənilə bilər. Eyni zamanda, monomif nəzəriyyəsinin müasir vizual mədəniyyətdə – xüsusilə kino sənətində (ssenaristlik, ekranlaşdırma) uğurla tətbiq olunması, bu modelin tədris proqramlarında (ədəbiyyat nəzəriyyəsi, mədəniyyətlərarası kommunikasiya, yaradıcılıq kursları) istifadəsini mümkün edir.

Ədəbiyyat

1. Campbell, J. The Hero With A Thousand Faces // http://www.rosenfels.org
2. Мелетинский, Е.М. О литературных архетипах / Е.М.Мелетинский, – Москва: РГГУ, – 1994. – 136 с.
3. Караева, Л.Б., Караева, З.Б. Структура мономифа в карачаево-балкарском фольклоре. песня-легенда «Бийнёгер» // Мир науки, культуры, образования, – 2021.
4. Жанысбекова, Э.Т. Мифологические образы и мотивы в современной казахстанской прозе, Диссертация на соискание степени доктора философии (PhD), – Алматы, – 2018, – 161 с.
5. Давлетшина, Л.Х. Мифологизм в татарской прозе конца XX – начала XXI веков, автореферат диссертации на соискание ученой степени кандидата филологических наук, – Казань, – 2005, – 24 с.
6. Юнг, К.Г. Душа и миф: шесть архетипов / К.Г.Юнг. –Киев: Государственная библиотека Украины для юношества, – 1996, – 251 с.
7. Ницше, Ф. Несвоевременные размышления: «О пользе и вреде истории для жизни» // Ницше Ф. Сочинения: в 2 т. – М.: Мысль, – 1990. – Т. 1. Литературные памятники. – с. 158-230.

G.K.Jannatova

The Monomyth Theory as the Identification of Chronotopic Motif Universality

Summary

This article explores Joseph Campbell's theory of the monomyth – the "Hero's Journey" – through a mythological and folkloristic lens, with a particular focus on the chronotopic approach in Turkic epics. The author argues that the recurrence of archetypal plots and characters across diverse literary and folkloric traditions is rooted not only in cultural interactions, but in universal structures of the human psyche. Epic texts such as *The Book of Dede Korkut, Alpamish,* and *Maaday Kara* are analyzed within the framework of the hero's initiation journey, personal transformation, and socio-philosophical rebirth. The study draws connections between C.G. Jung's concept of the collective unconscious and Campbell's theory of narrative universals. The specificity of mythological chronotopes and the semantic

charge of time-space coordinates are examined through the lens of M. Eliade's and Y.M. Meletinsky's theoretical insights. Contemporary examples from cinema demonstrate the ongoing relevance of the monomyth model as a powerful narrative structure. The article contributes to the investigation of universal codes, archetypal motifs, and narrative structures in folklore studies and cultural theory.

Key words: *monomyth, hero's journey, archetype, chronotope, folklore and mythology, initiation*

Г.К.Джаннатова

Теория мономифа как установление универсальности хронотопического мотива

Резюме

В данной статье рассматривается теория мономифа Джозефа Кэмпбелла – концепция «Пути героя» – в мифологическом и фольклорном контексте, с акцентом на хронотопический подход к тюркским эпосам. Автор доказывает, что повторяющиеся архетипические сюжеты и образы в фольклоре и литературе разных народов обусловлены не только культурными связями, но и универсальными структурами человеческой психики. Эпические тексты, такие как *Книга Деде Коркута*, *Алпамыш* и *Маадай-Кара*, анализируются с точки зрения инициационного пути героя, личностной трансформации и социо-философского перерождения. В работе проводится параллель между концепцией коллективного бессознательного К.Г. Юнга и теорией универсальных нарративов Кэмпбелла. Особое внимание уделяется мифологическому хронотопу и смысловой нагрузке пространственно-временных координат на основе идей М. Элиаде и Ю.М. Мелетинского. Также приведены современные примеры из кинематографа, подтверждающие актуальность мономифа как действенного повествовательного шаблона. Статья представляет собой вклад в исследование универсальных кодов, архетипических мотивов и нарративных структур в фольклористике и теории культуры.

Ключевые слова: *мономиф, путь героя, архетип, хронотоп, фольклор и мифология, инициация*

Rəyçi: filol.f.d., dos. A.Ramazanova

Redaksiyaya daxil olub: 14.05.2025

P.G.ƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: pakiza.aliyeva.g@gmail.com
:https://orcid.org/0009-0001-8982-2654

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.148

UİLYAM QOLDİNQİN "MİLÇƏKLƏRİN HÖKMDARI" KİTABINDA ARXETİPLƏRİN TƏDQİQİ (2-ci məqalə)

Xülasə. *İsveçrəli psixiatrist Karl Yunqun (Carl Jung,) psixologiya haqqında fikilərinə əsasən demək olar ki, arxetiplər və imiclər kollektiv təhtəlşüurun təzahür formalarıdır. Yunq öz mentoru Ziqmund Freydin (Sigmund Freud) tərəfdarı olaraq çıxış edirdi. Lakin Yunq irəli gedərək analitik psixologiya kimi tanınan psixoanalitik yanaşma mövqeyini inkişaf etdirə bilmişdir.* Taedium Vitaenin tərcümə etdiyi *"Təkamülü dəstəkləyən elmlər: psixologiya və psixiatriya" adlı məqaləsində qeyd edilirdi: Psixologiya sadə davranışları və zehni əməliyyatları (prosesləri) araşdıran elm sahəsidir. Çox vaxt onun əsas məqsədi cəmiyyətin yaxşılıq səviyyəsini artırmaqdır. Psixologiyada ümumi olaraq fərdlərin zehni davranışları ilə cəmiyyətin ictimai davranışları araşdırılır və bunlar Neyrobiologiya (nevrologiya) ilə birləşdirərək davranışlar ilə psixi proseslər arasındakı əlaqələri ortaya çıxarmağa çalışılır. Psixologiya sahəsində çalışan elmi tədqiqatçılar – psixoloqlar, üç əsas istiqamətdə ayrılırlar: sosioloqlar, davranışı və qavrayışı öyrənən alimlər. Bu sahələrdəki elm adamları qavrayış, dünyagörüş, qavrama, diqqət, duyğular, fenomenologiya, motivasiya, beyində baş verən proseslər, davranışlar, şəxsiyyət və fərdlərarası əlaqələr üzərində araşdırmalar edirlər. Bəzi psixoloqlar sadalanan sahələri daha da dərindən araşdıraraq şüuraltı mövzunu da öyrənirlər. Yunq isə iddia edirdi ki, insan psixikası üç komponentdən ibarətdir: ego (The ego), fərdi təhtəlşüur (personal unconscious), kollektiv təhtəlşüur (colective unconscious). Tədqiqat obyekti olaraq Uilyam Qoldinqin (William Golding, 1911-1993) "Milçəklərin hökmdarı" ("Lord of the Flies", 1954) kitabındakı arxetiplər araşdırılır.*

Açar sözlər: *məsumluq, mifoloji anlayış, situasiya, diktatorluq, demokratik prosedur*

Uilyam Qoldinqin (William Golding, 1911-1993) "Milçəklərin hökmdarı" ("Lord of the Flies", 1954) kitabında təqdim olunan obrazlar müyyən xüsusiyyətlər nümayiş etdirməklə fərdlər kimi təqdim olunurdu. Həmin fərdlərə biz hər gün məktəblərdə, işdə və cəmiyyətin hər hansı məkanında rast gəlirik. Əslində uşaqların sonradan qazanmış olduqları spesifik xüsusiyyətlər yaranmış situasiyada daha erkən üzə çıxmışdır. Məsum kimi tanınan uşaqların xarakterlərindəki özünəməxsusluqlar böyüklərin rəftarlarında hər an hiss olunur. Romanda U.Qoldinq sübut etməyə çalışır ki, əslində insan özünəməxsus xüsusiyyətlərlə doğulur və bu keyfiyyətlər müəyyən situasiyalarda üzə çıxır. Qəza nəticəsində cənnətə bənzər təbiətə malik olan adaya düşən insanlar onu cəhənnəmə döndərirlər. İlk əvvəllər adada sağ qalmağı düşünən uşaqlar sonradan ürəklərində yaranan qorxu ilə idarə olunurlar.

Kitabda protoqonisti kimi tanınan Ralf orta təbəqənin kürən, atletik bədən quruluşuna sahib olan, yaraşıqlı, ümidverici simaya malik və xarizmatik nümayəndəsidir. O, dəstənin digər üzvlərinə rəhbərlik edirdi və ingilis ənənələrindən çıxış etməyi əsas tuturdu. Ralf çalışırdı ki, uşaqlar sığınacaqla təmin olunsunlar. Ralf sivilizasiya və demokratiyanı təmsil etdiyi üçün qaydalarla yaşayırdı, təmkinli hərəkət edirdi və qrup üzvlərinin yaxşı tərəflərini qiymətləndirirdi. O, şübhəsiz Qoldinqin yaşadığı zamanda sivilizasiya və demokratiyanın nəbzini tutmağa çalışırdı. Ralf öz instinktlərinə istinad edərək bütün uşaqlar üçün adada sivil utopiya yaratmaq arzusunda idi. O, adaya səpələnmiş uşaqları şeypur kimi istifadə etdiyi kançı üfürərək bir ara-

ya toplanmaq üçün səsləyirdi. Ralf fikirləşirdi ki, dəstəyə başçı seçilməlidir. Onun qərarları demokratiya və qaydalara əsaslanırdı. Ralf dəstənin lideri seçildikdən dərhal sonra danışıq qaydalarını hazırladı. O, çalışırdı ki, digər oğlanlar sivil yaşama prinsiplərini qoruya bilsinlər.

Baxmayaraq Ralf yeganə adam idi ki, o digərlərinin sağ qalması üçün təminat yarada bilirdi, onun sivilizasiya haqqında instinktləri digər uşaqların ideyalarından daha inamlı səslənirdi, o da ciddi problemlə qarşılaşdıqda qətiyyətli və qərarlı ola bilmirdi. Ralf lider seçildiyi andan daima alovlanan siqnal ocağın saxlanılmasını əmr etmişdir. Onun məqsədi ötüb keçən hər hansı bir gəminin diqqətini cəlb etmək idi. Ralfın qətiyyəti sudan tanınmaz bir varlığın peyda olunması ilə sarsıldı. O, çaşqınlıq içərisində alov-siqnalın saxlanılması üçün verilən qərarı peşmanlıqla yada salırdı. Vəhşi varlığın ortaya çıxması onların yaratdığı hər şeyi məhv etdi.

Ralfın intellekti qorxu qarşısında sarsıldı və Cek yaranmış vəziyyətdən istifadə edərək öz hakimiyyətini irəli sürdü. Ralf dağın zirvəsindəki alov-siqnalın yerini qaya üzərinə dəyişilməsi haqqında razılığa gəldı. Ralf nəinki Cekə qarşı çıxış etdi, hətta o liderlik mövqeyini tərk etməyi düşünürdü. Ralf Cekin Saymona qarşı hazırlanmış vəhşilik aktında da iştirak etməkdən çəkinmədi. Beləliklə, Ralf vəhşiliyin genişlənməsinə kömək etməli oldu [2].

Fikirlərimizi daha aydın təqdim etmək üçün İkinci Dünya müharibəsi dövründə sosial vəziyyəti araşdıraq. Qoldinq uşaqların hər birini dövrünün siyasətçiləri ilə müqayisə etmişdir. O, Ralfı Çemberleyn, Ceki Hitler, Roceri isə Qestaponun prototipi kimi təqdim etmişdir. Tədqiqatçı Kristin Olsen belə bir qarşılaşdırmanı qəbul etməsə də müqayisələr inandırıcı və ağlabatandır. Müharibədən öncə Baş Nazir olan Çemberleyn Hitlerin aqressiv hərəkatlarına qarşı barışdırıcı mövqedə olmuşdur. Onun düzgün hesab edilməyən diplomatik siyasəti nəticəsində Hitlerin işğalçılıq planları kifayət qədər genişləndi və dünya tarixində ən böyük faciənin yaranmasına səbəb oldu [5, s. 165].

Kitabın əsas personajlarından biri olan Ralfla Çemberleyn arasında oxşarlıq vardır. Ralf oğlanlar arasında lider seçilsə də, Cek onun hakimiyyətinə qarşı etiraz edərkən o, Cekin etirazlarına kəskin münasibət bildirmirdi. Ralfın Çemberleyn kimi bacarıqları olsa da o bu imkandan istifadə edə bilmədi. Ralf Cekə qarşı meydan oxuya bilərdi və onu birdəfəlik susdura bilərdi. O, Piqiyə koalisiyanın qurulmasında daha yardımçı ola bilərdi. Ralf isə öz bacarıqlarını düzgün dəyərləndirə bilmədi və liderliyi əldən vermək haqqında düşünürdü. Ralfın bəzi vacib məqamlarda Cekin mövqeyinə qarşı yanlış qərarları və tərəddüdləri hadisələri məcrasından çıxartdı və bu da Cekin dəstəsinin daha qəsbkar və qorxunc olmasına meydan açdı. Kitabın sonunda Ralf artıq vəhşiliyin səbəbini anlayırdı. O, ovçular tərəfindən ovlandığı zaman milçəklərin hökmdarını – Bilzibubu tapdı. Ralf payanın başına pərçimlənmiş donuzun başını yerə çırpdı və payanı nizə kimi istifadə etməyi düşündü. O artıq yetkinləşmişdi və vəhşiliyin səbəbini anlayırdı.

Kitabın sonunda Ralf "for the end of innocence, the darkness of man's heart, and the fall through the air of the true, wise friend called Piggy" (məsumluğun sonu naminə, insan qəlbinin qaranlıq tərəfləri və doğruların içində yanılma, Piqi adlanan müdrük dost) deyərək ağlayırdı. İngilis ofiseri onu xilas etsə də, o dostlarını, məsumluğunu itirmişdir. Ralf sivilizasiyanın dəyərlərini qoruya bilməsə də, o, yeganə günahkar deyildir. Müəllif bəşəriyyətin pisliklərdən qorunmaq üçün hazır olmadığını qeyd edirdi. Bəzi tədqiqatçılar isə U.Qoldinqin İkinci Dünya müharibəsindən sonra pessimist olduğunu yazırdı. Lakin Ralfın həqiqəti başa düşməsi və vəhşiliyin səbəbini anlaması yeni ümid yaradırdı [3].

Kitabın əvvəlindən sonuna qədər Piqinin həqiqi adını oxucu öyrənə bilmir. Piqi intellekt və rasionalizmin təcəssümüdür. İlk olaraq məhz Piqi adadakı həyatın ciddiliyini başa düşmüşdür. Piqi Ralfa situasiyanın ciddiliyini üç sözlə – 'death in succession' ('ölüm qaçılmazdır') kimi izah etmişdir. Əlavə olaraq, uşaqların bir yerə toplanması ideyasını da o irəli sürmüşdür. Kanç (şeypur) haqqındakı informasiyanı da məhz Piqi Ralfa demişdi. Piqi ilk olaraq həyatın seçimlər və müəyyən prioritetlər üzərində qurulduğunu söyləmişdi. Siqnal – alovun meşədə yandırılmasının təhlükəli olduğunu və daimi olaraq ocağın yanması üçün ehtiyat odunun zəru-

ri olduğunu təklif etmişdi. Piqi hətta vaxtı nizamlamaq üçün günəş saatı (sundial) yaratmışdı. Piqi həyata rasional və elmi münasibət bəsləyirdi. Uşaqlar vəhşi varlığın peyda olmasından təşvişə düşərkən belə o, təmkini itirməmişdir. O hər bir hadisənin elmi izahı olduğunu bildirmişdir. Piqi həqiqi qorxunun məhz insanların vahiməsi olduğunu söyləmişdir. Onun gələcəyə baxan iti baxışları hər şeyi aydın görürdü.

Piqi pis insanları hiss edə bilirdi, lakin nə etməli olduğunu bilmirdi. "Ovçular" Allaha – milçəklərin hökmdarına sitayiş edərkən o, elm və rasionalizmə istinadən kənarda qalırdı. O, daima Ralfın yanında durmağı üstün tuturdu. Piqi Balantinin inam nəzəriyyəsinə istinad edərək ümumi hissiyyatın hər hansı problemi həll edəcəyinə inanırdı. O, əksəriyyət insanın bu kimi hisslərə malik olduğunu deyirdi. İkinci Dünya müharibəsinin qaynar çağında Piqi digər uşaqlarla müqyisədə sanki yaşlı kişi kimi görünürdü. O, həmişə Balantinin fikirlərinə sadiq qalırdı və Ralfla yanaşı dururdu. Cek isə onun məsləhətlərini faydasız hesab edirdi və anlamaq istəmirdi ki, faşizm qarşısında həyat yoxdur. Piqi payanın ucuna pəçimlənmiş donuz kimi qurban olaraq seçilmişdir. Anarxiya animalizminin mövcud olduğu cəmiyyətdə Piqi kimilər həmişə məhvə məhkumdur. Çıxış yolu yoxdur.

Cek kitabda Ralfın antaqonisti kimi təqdim edilmişdir. O, ovçuluq, taktika, amansızlıq, sərişte və diktatorluğun təcəssümüdür. Cek avtoritar (man-of-power) kimi çıxış edirdi və vəhşilik və diktatorluğu təmsil edirdi. Cek iradəli olsa da, onun eqomanyak xüsusiyyəti daima vəhşilik və zorakılıq instinklərinin qabarmasına yol açırdı. Cek daima kölgə və aydın olmayan qüvvələrlə əlaqə yaradırdı. Onun iti baxan acıqlı gözləri düşüncələrindən xəbər verirdi. O, hadisələr baş verən andan ərzaq üçün ovçuluq etməyi təkid edirdi. Cekin ovçuluğa meyli onun üstüörtülü olsa da qana olan marağından xəbər edirdi. "He has outwitted a living thing, imposed their will upon it, and taken away its life like a satisfying drink" ("O yaşamaq üçün ərzaq əldə edilməsini sanki öz məqsədi üçün bəhanə kimi istifadə etməyə çalışırdı."). Cek ovunu məğlub edib və sonra ərzaq məqsədilə öldürən zaman məmnunluq hissi keçirirdi.

Cek düşdüyü situasiyada artıq sivilizasiyanın onun istəklərini məhdudlaşdıra bilmədiyini anlamırdı. Onun həqiqi üzü ortaya çıxmışdı. Ovçuluq sanki Cekə əməllərini pərdələmək üçün maska rolunu oynayırdı. O, sivilizasiyanın da qəbul etdiyi ovçuluq adı altında çəkinmək və ya hisslərinə hakim kəsilə bilmək kimi hisslərdən tamamilə uzaqlaşaraq əliqanlı qatilə çevrilmişdir. Cek ətrafına yığa bildiyi uşaqlarla qanlı əməllərini zaman-zaman genişləndirirdi. O hər an daha çox azğın və qəsbkara çevrilirdi. Azğınlıq hissi Cekin gözünü elə bağlamışdı ki, o, heyvanlar və insanlar arasındakı fərqi belə unutmuş və ibtidai insanların etdiklərini sanki təkrarlayırdı. Cek ovçulara yalnız donuzu ovlaya bilmək üçün rəhbərlik etmirdi, o həm də Saymonu, Piqini və hətta Ralfı hədəf almışdı.

Görkəmli ədəbiyyatşünas və yazıçı Alastair Niven Cekin vəhşiliyin ən bariz nümayəndəsi kimi təqdim edirdi. "Jack represents much more completely than anyone else in the book the theme of 'reversion to savagery' and he reveals that under the disguise of painted mask he can assume a more self-confident personality". Cek yalnız hərəkət etmirdi, əksinə o, totalitar, avtoritar gücə malik insan kimi rəftar edərək kança (şeypur rolunu oynayırdı) və çağırış toplantısına həqarətlə baxırdı. Bir müddət sonra Cek qəbilənin mütləq liderinə çevrildi.

Cek toplantıda güc və hakimlik arzusunu açıq-aşkar nümayiş etdiridi. O, təkəbbbürlə "I ought to be leader, because I'm chapter chorister and head man. I can sing C sharp" ("Mən rəhbər olmalı idim, ona görə ki, mən əsas adam və xoristəm. Mən C notunu ifa edə bilirəm"). Cekin xor məktəbində üstünlük qazanması onun düşüncəsində iyerarxiyanın vacibliyi haqqında çox şeylər yatmışdı. O, fikirləşirdi ki, xor məktəbində əsas və ya baş rolun ifaçısı hər bir yerdə birinci adam olmalıdır. Cek səsverməni qazana bilməsə də, o özünü məğlub hesab etmirdi. O, davamlı olaraq azğınlıq edir və demokratik proseduranı və toplantını dağıtmağa cəhd göstərirdi.

Cek inanırdı ki, idarə edə bilmək üçün rica etmək yox, vadar etmək və ya şirnikləşdirmək yox, terrorist kimi hərəkət etmək lazımdır. Nəhayət, Cek arzusuna çatdı. O, real diktator

kimi ovçuların itaətkarlığından məmnunluq hissi duyur və onları terrorçuluq prinsipləri ilə idarə edirdi. Cekin uğurları artdıqca, o, qəbilənin qeyri-şərtsiz və disput olmadan belə qəbul olunan liderinə çevrilirdı: "where he sits on his log-throne, painted and garlanded, sat there as an idol. There were piles of meat upon green leaves next to him, and fruit, and coco-nut shells full of drink." ("o, rənglənmiş və çələnglə örtülmüş taxtında oturur və özünü büt kimi hiss edirdi. Onun ətrafında yaşıl yarpaqların üzərində ət parçaları, meyvə və kokain qabıqlarında içki var idi"). Güc hissi Cekdə yeni məşum keyfiyyətlər formalaşdırmışdı: "as if power lay inside the brown swell of his wide forearms: authority sat upon his shoulders and chattered in his ears like an ape." ("sanki güc onun bazu önünün təpəsində oturmuşdu, hakimlik çiyinlərində dayanıb meymun kimi qulaqlarına pıçıldayırdı"). (William Golding, 164-165).

Lakin Cekin arbitaj qərarı ilə Uilfredin döyülməsi, siqnal-tonqalın qəsbkarlıq zəmnində oğurlanması, Səm və Erikin zorla işə qarışdırılması və Piqinin sərsəm şəkildə öldürülməsi onun güc bütünə xələl gətirdi. Cekin daha hansı istəkləri onu məmnun edə bilərdi: o adanı tam olaraq öz arzuları yolunda qurban seçmişdi. Lakin Cek başa düşə bilmirdi ki, adanın qəsb olunması onların özlərinin məhvinə səbəb ola bilərdi. Cekin beynində kök salan bir fikri – Ralfın öldürülməsi – isə bütün uşaqların həlak olması demək idi. Lakin Cek terrorizm və azğınlığın ən yüksək həddinə çatdı. Uilyam Qoldinqin mükəmməl Cek personajı sivilzasiyanın olmadığı hər hansı məkanda ilkin (arxetiplərin) istəklər və hərəkətlərin necə asanlıqla reallaşa bildiyini göstərməklə kifayətlənmir, o həm də belə bir situasiyada diktatorun – Bilzibubun (milşəklərin hökmdarı) – pisliyin (şeytanın) diktəsi və qana susaması ilə nələrin ola biləcəyini təqdim edir.

Kitabda yer alan digər əsas personajnaldan biri Saymon (Simon) yaxşılıq və müqəddəsliyin simvolu kimi qəbul edilir. Əsərdə Saymonun mövqeyini müəyyənləşdirmək oxucudan böyük həssaslıq tələb edir. Beləliklə, əgər Ralf sivilizasiyanı, Cek isə vəhşiliyi təmsil edirsə, Saymon nəyi ehtiva edir? Cavab olaraq qeyd etmək lazımdır ki, Saymon adada olan bütün uşaqlardan fərqli müvqedə çıxış edirdi. Uilyam Qoldinq İkinci Cahan Savaşında təcrübələrinə istinadən qədim ritual müharibədə insan bacarıqlarının yox olduğunu qeyd edirdi. O, sözlərinə xitam olaraq yazırdı ki, ekstremal şəraitdə rasionalizm və humanizmin bəxş etdiyi bütün illüziyalar məhv olur. Tədqiqatçı R.Ceymz Baker Uilyam Qoldinqə bəraət qazandıraraq yazırdı: "the form of society can depend upon the ethical nature of the individual and not on any political system however apparently logical or respectable" ("cəmiyyətin formalaşdırılması məntiq və ya dəyərlərə əsaslansa da siyasi sistemə yox, fərdin etik təbiətinə uyğun formalaşdırılmalıdır"). "Milşəklərin hökmdarı" ("Lord of the Flies") əsəri yuxarıda qeyd olunan fikirlərin bariz nümunəsidir. Qoldinq Saymonun timsalında gələcək ideal şəxsiyyətin protipini yaratmışdır. Kitadakı digər personajların tədqiqinə əsaslanaraq demək olar ki, Saymon onların hamısından yüksəkdə dayanırdı. Saymon müqəddəsliyi, fitri , mənəvi insani yaxşılığı təmsil edirdi. Saymon öz təbiətinə xas olaraq, Cekin pislik instinktlərinin yaranması kimi davranırdı. Saymon "öz"ü kimi hərəkət edirdi.

Ümumiyyətlə, digər xarakterlər sivilizasiyanın olmadığı məqamlarda mənəvi-etik davranışları unudur və hətta yaranan vəziyyətdən sui-istifadə edirdi. Qoldinq pis keyfiyyətlərin uşaqların da təbiətinə xas olduğunu qeyd edirdi. Sadəcə, onlar böyüklərin nəzarəti altında müəyyən cəza və tədbirlərlər vasitəsilə nümunəvi davranışlar nümayiş etdirirlər. Müəllif sivilizasiyanın mövcud olduğu cəmiyyətdə davranışların ilkin – arxetipik formada təzahür etmədiyini və ya pərdələnmiş halda olduğunu qeyd edir. Adadakı uşaqlardan yalnız biri – Saymon günah və utancdan uzaq, mənəvi dəyərlərdən çıxış edirdi. Lakin bu xüsusiyyətlər Saymona genetik olaraq ötrülmüşdür. Eyni zamanda digər uşaqlara da davranışları irslə verilmişdir. Saymonun digər uşaqlara təsiri heç vaxt müqəddəs deyildir. Uilyam Qoldinqin təbirincə desək, təsvir edildiyi kimi müqəddəsdir.

Tədqiqatçı Alastier Niven Saymonu İsa-nümunə, bəşəriyyətin sevgilisi, onun gələcəyinin xəbərçisi kimi təqdim edirdi ("Simon is like a Christ-figure…a lover of mankind, a visionary of future").

İşin elmi yeniliyi. Uilyam Qoldinqin yaradıcılığı haqqında kifayət qədər məqalələr, elmi tədqiqat işləri yazılsa da, əsərləri nəşr edilsə də, onun romanlarında arxetiplər əsaslı şəkildə araşdırmaya cəlb edilməmişdir. İlk dəfə olaraq, bu görkəmli yazıçının "Milçəklərin hökmdarı" kitabında arxetiplər sistemli və ümumiləşdirilmiş şəkildə nəzərə çatdırılmışdır.

İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi. Uilyam Qoldinqin yaradıcılığını araşdıran alimlər, müəllimlər, filologiya fakültəsinin tələbələri üçün yardımçı vasitə ola bilər. Araşdırılmış mövzu XX əsr ingilis ədəbiyyatı üzrə xüsusi kurslarda, diplom, magistr və dissertasiya işlərinin yazılmasında tətbiq oluna bilər.

Ədəbiyyat

1. Baker, James R. William Golding / Baker James R. –New York: St.Martin‟s Press, – 1965. –106 p.
2. Bloom, Harold. Ed. Lord of The Flies: Modern Critical Interpretations. –New York: Chelsea House Publishers, – 1998. – 185 p.
3. Golding, W. The Inheritors. Harcourt, Brace and World / W. Golding. – 1962, – 233 p.
4. Olsen, K. Understanding Lord of The Flies:A Student Casebook to Issues, Sources, And Historical Documents / K.Olsen. –CT: Greenwood Publishing Group, –2000, – p.236-238.
5. Aliyeva, P. The research of Archetypes W. Golding ‘ s "Lord of Flies", The Actual Problems of Study of Humanities, Collection of scientific articles, – 2024, – 3, – p. 165.
6. Swisher, C. Ed. Readings upon Lord Of The Flies / C.Swisher. –San Diego, – CA: Greenhaven Press, – 1997. – 170 p.
7. Williams, N. Adaptor. William Golding's "Lord of The Flies": Acting edition / N.Williams, – London, – 1996. – 251 p.
8. //www.sparknotes.com/lit/flies/motifs/
9. https://www.sparknotes.com/lit/flies/symbols/

P.G.Aliyeva

The Research of Archetypes in William Golding's "Lord of the Flies"

Summary

The research investigates the archetypal elements which are presented in William Golding's novel "Lord of the Flies." The book, a profound exploration of human nature, employs different archetypes to deepen its thematic concerns and character portrayals. Some characters, such as Ralph, Piggy, Jack, Simon, Roger are presented as archetypes: Ralph is protagonist, represents the archetype of the hero and the struggle for order and civilization. Piggy embodies the archetype of the wise mentor or intellectual, emphasizing logic and reason amidst chaos. Jack represents the shadow archetype, embodying savagery and the desire for power. Simon is a Christ-figure archetype, symbolizes innate goodness and spiritual insight. Roger is the sadist archetype, represents the darker aspects of human nature unrestrained by societal norms. The Main Idea of the Book is a stark portrayal of the descent into barbarism by a group of boys stranded on an uninhabited island. Golding uses the story to examine the inherent evil within humanity, suggesting that without the structures of society, humans revert to primal instincts and savagery. The author aims to critique the notion of childhood innocence and the inherent goodness of humanity. stripping away the mask of civilization, he exposes the underlying brutality and moral fragility within humans. The novel serves as a cautionary tale about the thin veneer of society that keeps our darker instincts in check. Overall, the research highlights how "Lord of the Flies" employs archetypes to explore complex themes of civilization, savagery, and the human condition.

Key words: *innocence, mythological concepts, situation, dictatorship, democratic procedure*

П.Г.Алиева

Исследование архетипов в романе Уильяма Голдинга "Повелитель мух»

Резюме

В данной статье рассматриваются архетипические элементы, присутствующие в романе Уильяма Голдинга «Повелитель мух». В книге, представляющей собой глубокое исследование

человеческой натуры, используются различные архетипы для понимания тематики и изображения персонажей. Некоторые персонажи, такие как Ральф, Пигги, Джек, Саймон, Роджер, представлены как архетипы: Ральф – главный герой, олицетворяет собой архетип героя-борца. Хрюша олицетворяет архетип мудрого наставника или разумного интеллектуала. Джек олицетворяет архетип тени, представляющий дикость и стремление к власти. Саймон – это архетип Христа, символизирующий врожденную доброту и духовную проницательность. Роджер – архетип садиста, олицетворяющий темные стороны человеческой натуры, которые противоречат общественным нормам. Основная идея книги – яркое изображение варварства мальчиков, оказавшихся на необитаемом острове. У.Голдинг пытается донести до читателя все зло, присущее человечеству, доказывая, что люди возвращаются к первобытной дикости. Автор стремится подвергнуть критике представления о детской невинности и врожденной доброте человечества. Срывая покровы цивилизации, он раскрывает скрытую в людях жестокость и моральную уязвимость. Роман служит поучительной историей о тонкой оболочке общества, которая сдерживает наши темные инстинкты. В целом, исследование показывает, как в «Повелителе мух» описываются архетипы, изображающие дикость человечества.

Ключевые слова: *невинность, мифологическая концепция, ситуация, диктатура, демократическая процедура*

Rəyçi: f.ü.f.d., dos. X.G.Əliyeva

Redaksiyaya daxil olub:13.05.2025

Ü.Ç.ƏLİYEVA
dosent
e-mail: ulviyya_28@mail.ru
:https://orcid.org/0000-0002-1569-280X

Azərbaycan Universiteti
(Bakı şəh., Nəsimi ray., C.Hacıbəyli küç., 71)

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.154

XX ƏSRİN 70-ci İLLƏRİNDƏ İNGİLİS CƏMİYYƏTİNDƏ ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏRİN TRANSFORMASİYASI VƏ ƏDƏBİ REFLEKSİYA

Xülasə. *Təqdim edilmiş məqalə XX əsrin 70-ci illərində İngiltərədə baş verən əxlaqi-mənəvi dəyərlərin transformasiyasını və bu dəyişikliklərin ədəbiyyatdakı əksini araşdırır. Sənayeləşmə və qloballaşmanın təsiri ilə ingilis cəmiyyəti daha çox fərdi azadlığa və pluralizmə yönəlmiş, bu da Viktoriya dövrünün sərt əxlaqi prinsiplərinə qarşı bir reaksiyaya səbəb olmuşdur. Burada xüsusilə, Con Faulzun "Fransız leytenantının qadını" romanı üzərində təhlillər aparılır, viktorian əxlaqi dəyərlərinin süqutu və postmodernizmin əlamətləri araşdırılır. Faulz öz əsərində üç fərqli sonluq təqdim etməsi ilə oxucunu ədəbiyyatın "həqiqəti"ni sual altına alır, müəllifin mövqeyinin qeyri-müəyyənliyini və oxucuya yönləndirilmiş seçimi göstərir.*
Məqalədə həmçinin XX əsrin 70-ci illərində yazılmış digər əsərlərdə də fərdi azadlıqların və kütləvi mədəniyyətin təsirinin mərkəzi mövzu olduğu vurğulanır. Viktorian dəyərlərinin tənqid edilməsi və yeni cəmiyyət modelinin psixoloji və sosial təsirləri, bu dövrün ədəbiyyatında geniş şəkildə əks olunmuşdur.
Nəticə olaraq XX əsrin 70-ci illərində İngiltərədə cəmiyyətin sosial, əxlaqi və bədii dəyərlərini yenidən formalaşdıran bir dövr olması və bunun ədəbiyyatda güclü şəkildə öz əksini tapması qeyd olunur.

Açar sözlər: *əxlaqi-mənəvi, ingilis, cəmiyyət, Viktoriya, qadın*

XX əsrin yetmişinci illəri İngiltərədə sosial və mədəni transformasiyaların sürətlə baş verdiyi bir dövrdür. Bu dövrdə Viktoriya dövrünün dərin iz buraxmış əxlaqi-mənəvi dəyərləri radikal şəkildə dəyişməyə başlamış, cəmiyyətin müxtəlif təbəqələrində fərqli dünyagörüşlər formalaşmışdır. Sənayeləşmənin və qloballaşmanın təsiri ilə ingilis cəmiyyəti modern dünyaya daha açıq olmuş və bunun nəticəsində köhnə dəyərlərə qarşı kəskin reaksiyalar ortaya çıxmışdır. Bu məqalədə həmin dövrdə əxlaqi-mənəvi dəyişikliklər, "kütləvi mədəniyyət" və "kontrmədəniyyət" anlayışları, eləcə də ingilis ədəbiyyatında modernist eksperimentlərin yüksəlişi araşdırılacaqdır.

İngilis cəmiyyətində uzun müddət hökm sürmüş Viktoriya dövrünün əxlaqi prinsipləri XX əsrin ortalarından etibarən tənqid olunmağa başlanmışdı. Xüsusilə 1960-cı illərin sonlarından etibarən cəmiyyət fərdlərin daha çox azadlığa malik olduğu bir modelə doğru irəliləyirdi. Əgər Viktoriya dövrü fərdi mənəviyyatın kollektiv etik kodekslərə tabe olmasını tələb edirdisə, XX əsrin yetmişinci illərində fərdin öz istəklərini və dəyərlərini seçmək hüququ vurğulanmağa başladı [4].

Qeyd olunan prosesin əsas nəticələrindən biri "istədiyini etmək" prinsipinin geniş yayılması oldu. Müasir cəmiyyətin çoxşaxəli və plüralist quruluşu qarşısında bir çox ənənəvi mənəvi dəyərlər ya öz mahiyyətini dəyişdi, ya da tamamilə sıradan çıxdı. Bu vəziyyət bəzi mühafizəkar dairələrdə ciddi narahatlıq doğurmuşdu və cəmiyyətin mənəvi tənəzzülə uğradığı ilə bağlı diskussiyalara səbəb oldu. Bu dəyişikliklər ədəbiyyatda da öz əksini tapdı və bir çox ya-

zıçı cəmiyyətin keçid dövründə yaşadığı dəyərlər böhranını bədii əsərlərində təsvir etməyə cəhd göstərir. Ədəbi əsərlərdə Viktorian dövrünün idealizə olunmuş mənəviyyatına tənqidi yanaşmalar özünü büruzə verirdi. Con Faulz, Doris Lessing və Cozef Hellərin əsərlərində fərdin cəmiyyətin qoyduğu etik çərçivələrdən çıxaraq öz şəxsiyyətini və mənəvi dəyərlərini yenidən kəşf etməsi əsas mövzulardan biri oldu. Con Faulzun "Fransız leytenantının qadını" romanında Viktorian dövrünün sərt əxlaqi qaydalarına qarşı çıxan bir qadının hekayəsi məhz bu dövrün əxlaqi diskurslarını yenidən şərh etməyə imkan yaradırdı. Eyni zamanda qeyd etmək lazımdır ki, yetmişinci illərdə postmodernist eksperimentlərin artması ilə ədəbi mətnlərdə müəllifin avtoriteti azaldılmışdı və oxucunun mətnə təsir imkanları genişləndirildi. Rolan Bartın "Müəllifin ölümü" konsepsiyasına görə mətnin mənası müəllifin niyyəti ilə deyil, oxucunun onu necə oxuması ilə formalaşır. Bu kontekstdən XX əsrin yetmişinci illərində yazılmış postmodern əsərlərdə mətnin tək bir mənaya sahib olmadığı, onun oxucu tərəfindən müxtəlif formalarda interpretasiya edilə biləcəyi vurğulanır. Məhz buna görə müəllifin ənənəvi dominant mövqeyi sarsılmış və mətnin mənasını formalaşdırmaqda oxucunun rolu ön plana çıxmışdı. Ədəbi mətndə çoxvariantlı sonluqlar, metanarrativlər və intertekstual elementlər ədəbiyyatın daha açıq və çoxmənalı bir struktura sahib olmasına səbəb oldu. Bu yeniliklər eyni zamanda kütləvi mədəniyyət və kontrmədəniyyət arasındakı münaqişələrə də işıq saldı. Kütləvi mədəniyyətin yüksəlişi ilə birlikdə populyar ədəbiyyatın və medianın təsiri gücləndi. Ədəbi ənənələrdən uzaqlaşan yeni nəsil oxucuların maraqları kommersiya yönümlü roman və jurnallara yönəldi. Bu, ciddi ədəbiyyatın marjinallaşmasına gətirib çıxardı və ədəbiyyatçılar arasında böyük diskussiyalara səbəb oldu. Bunun əksinə olaraq, kontrmədəniyyət hərəkatı daha çox fərdin mənəvi və intellektual azadlığına əsaslanan, alternativ düşüncə tərzini təşviq edən mətnlər yaratmağa başladı.

Yetmişinci illərin ingilis ədəbiyyatında ailə, cinsiyyət və sosial rollar kimi mövzularda da yenidən qiymətləndirmə baş verdi. Qadın yazıçılar, feminist nəzəriyyələrdən istifadə edərək patriarxal dəyərləri tənqid etməyə başladılar. Doris Lessingin "Qızıl dəftər" əsəri bu baxımdan mühüm bir nümunədir, çünki burada qadınların öz şəxsiyyətlərini yenidən qurması və sosial gender rollarının necə dəyişməsi ətraflı şəkildə təsvir edilir. Bütün bu dəyişikliklər ingilis cəmiyyətində və ədəbiyyatında ciddi təsirlər yaratdı. Ədəbiyyat yalnız cəmiyyətin aynası olmaqla qalmadı, həm də sosial dəyişikliklərin katalizatoruna çevrildi. Müasir dövrün çağırışlarına uyğun olaraq, yetmişinci illərin ingilis yazıçıları cəmiyyətin fərdlərə və azadlığa baxışını yenidən düşünməyə çalışdılar. Bu isə ədəbiyyatın ictimai funksiyasını və onun cəmiyyət üzərindəki təsir gücünü bir daha sübut etdi.

Bu dövrdə yazılmış bir çox əsərlərdə Viktorian dəyərlərinin süqutu açıq və ya dolayı yolla əks olunmuşdur. Məsələn: Con Faulzun (John Fowles) "Fransız leytenantının qadını" ("The French Lieutenant's Woman" (1969)) əsərində Viktorian cəmiyyətinin riyakarlığı, qadınların sərbəstliyinə qoyulan qadağalar və fərdi azadlıqların məhdudlaşdırılması mövzu olaraq ön plana çıxır [5].

Əsərdə Con Milton, Tomas Hardi və Corc Eliot kimi yazıçıların əsərlərinə istinadlar var. Xüsusilə Tomas Hardinin "Tess" və "Jude the Obscure" romanları ilə Saranın hekayəsi arasında paralellər aparmaq mümkündür. Faulz, həmçinin Viktorian romanlarına xas olan bəzi konvensiyaları pozaraq, həmin dövrə tənqidi yanaşır. Təhkiyəçi burada Viktorian aqnostisizmi və ateizmi ilə bir tərəfdən onların əksi kimi görünə biləcək inanc arasında olan paradoksal eyniyyəti Corc Eliotun belə bir fikri vasitəsilə göstərir: "Tanrı təsəvvüredilməzdir, ölməzlik inandırıcı deyil, lakin vəzifə qəti və mütləqdir" (Fowles, 1971, s. 45-46-dan sitat gətirilmişdir)." Əsərin baş qəhrəmanı Sara Viktorian mənəviyyatına uyğun gəlməyən, öz həyatını sərbəst şəkildə yaşamaq istəyən bir qadındır. 1970-ci illərdəki azadlıq anlayışı ilə Viktoriya dövrünün sərt qaydaları arasındakı ziddiyyət bu əsərdə simvolik şəkildə təsvir olunmuşdur. Roman postmodernizmin əsas xüsusiyyətlərini özündə daşıyan əsərlərdən biridir. Əsərdə müəllifin oxucuya birbaşa müraciət etməsi və narrativə müdaxilə etməsi postmodernizmin əsas xü-

susiyyətlərindən biridir. Faulz Viktorian romanının klassik strukturlarını təqlid etsə də, onları eyni zamanda dekonstruksiya edir. Məsələn, əsərdə eyni hekayənin bir neçə fərqli sonluğu təqdim olunur ki, bu da oxucuya müəyyən bir "həqiqət"in olmadığını göstərir. Onun ən mühüm eksperimental yanaşmalarından biri üç fərqli sonluq təqdim etməsidir. Faulz oxucunu bu sonluqların eyni səviyyədə olduğuna inandırmağa çalışsa da, əslində, hər üçü arasında gizli ierarxiya mövcuddur"[6, s. 3].

Postmodern ədəbiyyatda müəllifin mövqeyi qeyri-müəyyən və çoxqatlı olur. Faulz burada açıq şəkildə metafiksiya texnikasından istifadə edir və müəllifin mütləq hakimiyyətini sual altına qoyur. O, oxucuya seçim imkanı versə də, hər üç sonluq arasında incə fərqlər qoyaraq, müəyyən yönləndirmələr edir.

Birinci sonluqda – Çarlz və Sara evlənirlər və Çarlz 114 yaşına qədər yaşayır. Bu versiya açıq-aşkar yumoristik üslubda yazılmışdır və müəllifin özü də bu sonluğu qeyri-ciddi göstərir. Burada realizm qaydaları pozulur və oxucunun gözləntiləri ilə oynanılır. Burada müəllifin istehzası açıq şəkildə hiss olunur. Faulz Viktorian dövrünün klassik romanlarının xoşbəxt sonluqlarına parodiya edirmiş kimi görünür. 114 yaşına qədər yaşamaq qeyri-real görünməklə yanaşı, əsərdəki ümumi realizm prinsipləri ilə də ziddiyyət təşkil edir. Bu, müəllifin ədəbi konvensiyalara qarşı postmodern yanaşmasını nümayiş etdirir [3].

Faulzun bu istehzası həm də Viktorian romanlarının didaktik və determinist xarakterini ələ salmaq məqsədi daşıyır. Ənənəvi Viktorian romanlarında qəhrəmanların taleyi ya əxlaqi cəza, ya da mükafat vasitəsilə həll olunur. Lakin Faulz oxucuya bu cür "mükafatlandırılmış" bir final təqdim edərkən, onun süni və qeyri-real olduğunu vurğulamaq üçün hiperbola və yumordan istifadə edir. Romanın strukturu XIX əsr romanlarının ənənəvi elementlərini özündə daşısa da, müəllifin ironik yanaşması onu postmodernist mətnə çevirir. Faulz Viktorian dövrünü həm realist təsvir edir, həm də onun dəyərlərini tənqid edərək, həmin dövrdəki sosial və mədəni məhdudiyyətlərə işıq tutur. Qadınların sosial mövqeyi, fərdi azadlıqlar və cəmiyyətin riyakarlığı bu kontekstdə xüsusi vurğulanır.

Əsərdə nəql edən təhkiyəçi sadəcə hadisələri izah etmir, həm də onlara ironik və subyektiv münasibət bildirir. O, oxucunu hadisələrin müxtəlif yozumları arasında buraxaraq, həqiqətin subyektivliyini vurğulayır. Bu eyni zamanda, müəllifin ədəbiyyatın "həqiqəti" tamamilə əks etdirə bilməsi ideyasını sual altına qoyduğunu da göstərir. Yəni əgər oxucu bu finalın absurd olduğunu dərhal anlayırsa, digər sonluqların da "mütləq həqiqət" olmadığı fikri ortaya çıxır. Beləliklə, Faulz oxucunu yalnız mətnin deyil, ümumilikdə ədəbiyyatın quruluşu və həqiqət anlayışı üzərində düşünməyə məcbur edir.

"İkinci sonluqda" Çarlz Saraya qovuşur, lakin bu sonluq müəyyən mənada romantik realizmin davamıdır. Burada klassik Viktorian süjetinin tamamlanması hiss olunur.

"Üçüncü sonluqda" Çarlz Saradan ayrılır və onların yolları birdəfəlik ayrılır. Bu versiya daha çox modernist və ekzistensial ton daşıyır, çünki burada qəhrəmanın taleyi açıq qalır.

Faulz oxucuya seçim azadlığı verdiyini bildirsə də, mətn daxilində birinci sonluğu qeyri-ciddi təsvir edərək, onu kənarlaşdırır. Beləliklə, oxucu yalnız ikinci və üçüncü variantlar üzərində düşünməyə məcbur olur. Burada isə açıq sual yaranır: "romantik sonluqmu, yoxsa açıq və ekzistensial sonluqmu?" Postmodernist yanaşma kontekstində üçüncü versiyanın daha "doğru" olduğunu düşünmək olar, çünki o, ənənəvi roman qəliblərini qıraraq, açıq interpretasiya üçün imkan yaradır. Beləliklə, Faulzun iddia etdiyi oxucu azadlığı əslində məhdudlaşdırılmış bir azadlıqdır – oxucu görünüşdə sərbəst olsa da, müəllif onu müəyyən istiqamətə yönləndirir. Bu isə postmodernizmin əsas xüsusiyyətlərindən biri olan "müəllifin qeyri-müəyyən mövqeyi" və "müəllif-oxucu" münasibətlərinin dekonstruksiyası ilə izah oluna bilər [7].

Linda Hutcina postmodernist tarixi roman anlayışında tarixin rekonstruksiya olunmasını və onun subyektiv bir diskurs kimi təqdim edilməsini vurğulayır. "Fransız leytenantının qadını" da bu prinsiplərə uyğun olaraq, keçmişin sabit bir həqiqət olmadığını, onun yenidən yazıla biləcəyini göstərir.

Bu kontekstdə roman yalnız Viktorian dəyərlərini dekonstruksiya etmir, eyni zamanda postmodernizmin ədəbi texnikalarını da özündə ehtiva edərək, müasir oxucuya Viktorian dövrünə alternativ bir baxış təqdim edir.

Bu baxımdan qeyd etmək olar ki, XX əsrin yetmişinci illərində İngiltərədə cəmiyyətin keçirdiyi əxlaqi-mənəvi transformasiyalar ədəbiyyatda da öz əksini tapmışdır. Viktorian dəyərlərinin tənqidi, fərdi azadlıqların vurğulanması və kütləvi mədəniyyətin təsirləri bu dövrdə yazılmış bir çox əsərdə mərkəzi mövzuya çevrilmişdir. Faulz, Drabble, Karter və Amis kimi yazıçılar Viktoriya dövrünün dəyərlərindən birdəfəlik imtina edilməsini, bunun yaratdığı boşluğu və yeni cəmiyyət modelinin psixoloji-sosial təsirlərini ədəbi müstəvidə əks etdirmişlər [8].

XX əsrin 70-ci illərində İngiltərədə əxlaqi-mənəvi dəyərlər ciddi transformasiyaya uğramış, kütləvi mədəniyyət və kontrmədəniyyət arasındakı qarşıdurmalar cəmiyyətin sosial strukturunu müəyyən etmişdir. Bu dövrdə modernist eksperimentlər ingilis ədəbiyyatında güclənsə də, realizm ənənəvi nüfuzunu qoruyub saxlamışdır. Sosial satiranın isə ingilis mədəniyyətinin inkişafındakı əhəmiyyəti dəyişməz qalmışdır. Beləliklə, yetmişinci illər İngiltərədə əxlaqi və bədii dəyərlərin yenidən qiymətləndirildiyi və formalaşdığı bir dövr kimi xarakterizə oluna bilər.

Məqalənin elmi nəticəsi. Bu məqalədə XX əsrin yetmişinci illərində İngiltərədə baş verən sosial və mədəni transformasiyaların ingilis ədəbiyyatına təsiri araşdırılmışdır. Viktorian dəyərlərinin tənqid edilməsi, fərdi azadlıqların vurğulanması və postmodernist eksperimentlərin genişlənməsi bu dövrdə yazılmış əsərlərin əsas xüsusiyyətləri kimi müəyyən edilmişdir. Con Faulzun "Fransız leytenantının qadını" romanının təhlili göstərir ki, postmodernist təhkiyə texnikaları müəllif və oxucu münasibətlərini yenidən qurur və mətnin çoxqatlı interpretasiyasına imkan yaradır. Eyni zamanda, bu dövrdə ingilis cəmiyyətində kütləvi mədəniyyət və kontrmədəniyyət arasındakı qarşıdurmaların bədii müstəvidə əksini tapması sübut olunmuşdur.

Məqalənin elmi yeniliyi. Məqalədə XX əsrin yetmişinci illərində İngiltərədə baş verən əxlaqi-mənəvi dəyişikliklərin ədəbiyyata təsiri postmodernist ədəbiyyat kontekstində təhlil edilir. Xüsusilə, Faulzun romanındakı çoxvariantlı sonluqların struktur-funksional tədqiqi aparılmış, onların oxucu təcrübəsinə və mətnin dekonstruksiyasına təsiri göstərilmişdir. Viktorian dəyərlərinin postmodernist əsərlərdə necə yenidən qiymətləndirildiyi məsələsi də detallı şəkildə araşdırılmışdır. Bu məqalədə təqdim olunan dövrün ədəbi proseslərinin sosial və ideoloji kontekstlə əlaqəsinin müxtəliv variantlarda üzə çıxarılması onun elmi yeniliyini şərtləndirir.

Məqalənin tətbiqi əhəmiyyəti. Məqalənin nəticələri ingilis ədəbiyyatının inkişaf mərhələlərini, xüsusilə Viktoriya dövrü ilə postmodernizm arasındakı keçidi araşdıran tədqiqatçılar üçün faydalıdır. Bundan əlavə, məqalədə təqdim olunan nəzəri yanaşmalar və təhkiyə metodlarının təhlili ədəbiyyatşünaslıq, mədəniyyətşünaslıq və sosiologiya sahələrində tədqiqat aparanlar üçün praktik əhəmiyyət daşıyır. İngilis dilində tədris olunan müasir ədəbiyyat kurslarında da bu məqalədən istifadə edilə bilər, çünki burada ədəbi mətnlərin tarixi-sosial kontekstdə necə formalaşdığı və inkişaf etdiyi məsələsi tədqiq edilmişdir.

Ədəbiyyat

1. Con Faulzun "Fransız leytenantın qadını" romanında zaman-məkan əlaqələri: // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – Bakı: Mütərcim, – 1997.
2. Con Faulzun yaradıcılığında düz xətli süjet ve kompozisiyadan imtina XX əsrin ədəbi fikrinin inkişafında əsas tendensiya kimi: // Filologiya məsələləri. – Bakı: Mütərcim, – 1997.
3. Горобченко, И.В. Романы Джона Фаулза. Творческая эволюция // 10.01.05. Дисс. На соиск. Уч. Ст. канд. филолог, наук. – М., – 1996-184 с.
4. Долинин, А. Паломничество Чарльза Смитсона // Фаулз Дж. Падруга французского лейтенанта. –Л., – 1985, – с. 3-19
5. Fowles, J. The French Lieutenants woman // J. Fowles, – Publisher: Triad Granada – 1981. – 380 p.

6. Hoy Thomas, Possession, Self-possession and Multiple Selves in the Writings of John Fowles/ Journal of English Studies, / Vol. 13. №. 1, – 2018
7. Sharon, A. Christy, P. / Experimentation and Postmodernism in The French Lieutenant's Woman, PG and Research Department of English, Lady Doak College, – 2019, – 121 p.
8. Palmer, W. The Fiction of John Fowles. Tradition, Art and Selfhood Columbia Univ. of Missouri Press, – 1974-114 p.

U.Ch.Alieva

Transformation of Moral and Spiritual Values in English Society in 1970s and Literary Reflection

Summary

The article considers the transformation of moral and spiritual values in England in the 1970s and the reflection of these changes in literature. With the impact of industrialization and globalization, English society became more inclined to individual freedom and pluralism, which led to a reaction against the strict moral principles of the Victorian era. Here, in particular, John Fowles's novel "The French Lieutenant's Woman" is analyzed, the collapse of Victorian moral values and postmodernist features of the novel are investigated. Three different endings in Fowles' novel make the reader question the "truthfulness" of literature, shows the uncertainty of the author's position and reader-forwarded option.

The article also emphasizes that individual freedoms and the influence of mass culture are central themes in other works written in the 1970s. Criticism of Victorian values and the psychological and social effects of the new society model were widely reflected in the literature of this period.

In the conclusion, it is mentioned that the 1970s in England was a period that reshaped the social, moral and artistic values of the society, and this was strongly reflected in the literature.

Key words: *moral-spiritual, English, society, Victorian, woman*

У.Ч.Алиева

Трансформация моральных и духовных ценностей в английском обществе в 1970-е годы и литературная рефлексия

Резюме

В статье рассматривается трансформация моральных и духовных ценностей в Англии в 1970-е годы и отражение этих изменений в литературе. Под влиянием индустриализации и глобализации английское общество стало более склонным к индивидуальной свободе и плюрализму, что вызвало реакцию против жестких моральных принципов викторианской эпохи. В данной статье рассматривается роман Джона Фаулза «Женщина французского лейтенанта», исследуется падение викторианских моральных ценностей и основные черты постмодернизма. Три разные концовки в романе Дж.Фаулза заставляют читателя усомниться в «правдивости» литературы, показывают неопределенность авторской позиции и выбора читателя.

В статье также подчеркивается, что свобода личности и влияние массовой культуры являются одними из основных тем произведений, написанных в 1970-е годы. Критика викторианских ценностей, психологических и социальных последствий новой модели общества полностью отражена в литературе этого периода.

В заключении отмечается, что 1970-е годы в Англии были периодом, который изменил социальные, моральные и художественные ценности общества, что, также, нашло свое отражение в литературе.

Ключевые слова: *морально-духовный, английский, общество, викторианский, женщина*

Rəyçi: filol.f.d., dos. Ü.H.Rəhimova

Redaksiyaya daxil olub: 01.04.2025

N.H.HACIYEVA
professor
e-mail: Natavanhajiyeva5@gmail.com
:https://orcid.org/0000-0002-3336-2564

S.C.NOVRUZƏLİYEVA
dosent
e-mail: sevda.novruzaliyeva@mail.ru
:https://orcid.org/0009-0007-9535-7791

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., S.Vurğun, 157)

MAHMUD KAŞĞARLI VƏ NİZAMİ GƏNCƏVİ (İKİ DAHİDƏ TÜRKİZMLƏR VƏ TÜRK TOPONİMLƏRİ)

Xülasə. *Bu məqalədə Mahmud Kaşğarlı və Nizami Gəncəvi yaradıcılığında rastlanan türk arxaik sözləri, türk ümumişlək sözləri, türk toponimləri öyrənilir. Bu üç aspekt Azərbaycan dilçilik elminin aparıcı qollarıdır. Belə ki, arxaik sözlər və toponimlər xalqı öz keçmişinə bağlayır, ümumişlək sözlər isə xalqın indiki yaşantılarıdır. Demək, məqalədə Azərbaycan dilinin keçmişinə və indisinə yanaşma sərgilənir.*
Məqalədə farsca sitatların oxunuşları yer alır, onların poetik tərcümələrini vermirik, filoloji tərcümələrini veririk. Ona görə ki, orjinalda olan incə mətləblər poetik tərcümələrdə pozulur, düzgün filoloji tərcümələrdə isə pozulmur.
Kaşğarlı və Nizami ədəbi irsini öyrənməkdə bu məqalə önəmli olsa da, aparıcı deyil, çünki bir məqalə üçün ayrılan tutum imkan vermir ki, iki dahinin yaradıcılığını əhatə etsin. Onları dilçilik baxımından tədqiq etmək üçün onlarla dissertasiyaya ehtiyac var.

Açar sözlər: *Kaşğarlı, Nizami, arxaik söz, ümumişlək söz, toponim, Türküstan (Orta Asiya), Çin Türküstanı*

11-ci əsrdə Çin Türküstanının Kaşğar şəhərində dünyaya gələn, tam adı Mahmud bin Hüseyn bin Məhəmməd əl-Kaşğar olan Mahmud Kaşğarlı türk dillərinin ilk fundamental tədqiqatçısı, "Türk dillərinin sözlüyü" mənasında "Divani-lüğatit-türk" əsərinin yazanıdır. Bu böyük alimin yaşadığı dönəmə damğa vuran əsərləri onu Türk linqvistikasının öndərinə çevirmişdir. "Divani-lüğatit-türk" alimin ən dəyərli əsərlərinin başıdır. Ərəblərə türkcəni sevdirmək və öyrətmək üçün, türkcənin ərəbcə qədər zəngin olduğunu, hətta türkcənin ərəbcədən üstün olduğunu aşılamaq üçün türk dillərinə dərin sevgi ilə yaradılan bir kitabdır.

Nizami Gəncəvi əsərlərini dövrünün tələbi ilə farsca yazsa da, onlarda yüzlərlə türk köklü sözlər – isimlər, sifətlər, zərflər, feillər, türk toponimləri var. Şairin işlətdiyi toponim, atalar sözü və məsəllərin bir qismi M.Kaşğarlı əsərlərinin tədqiqat obyektidir. Bu məqalədə biri dilçi-dahi, biri şair-dahi olmaqla iki böyük türk insanının yaradıcılığında rastlanan türkizm və türk toponimləri elmi-linqvistik faktlara dayanaraq araşdırılır.

"Amac" *arxaik sadə isim kimi*

"Amac" azərbaycanca, farsca arxaik isim, türkcə isə ümumişlək isimdir. "Ox üçün hədəf, nişangah" mənasına gələn bu isim türkcə "amaç" olaraq işləkdir. Mahmud Kaşğarlı onu "amaç" kimi türk köklü sayır [1, s.125]. Bu ismin kökünü, hansı qrammatik yollarla yarandığını doğru olaraq heç bir qaynaq göstərmir.

İskəndər şah Çin xaqanına (şahına) göndərdiyi məktubda Yunan qoşunlarının yüksək döyüş gücünü və Çin qoşunlarının aşağı döyüş gücünü qabartmaq üçün yazır ki, əgər Çin şahı yetkin bir xaqan olsa belə, onun oxatanlarının amacına (hədəfinə, nişangahına) çevriləcək.

Diqqəti buna kökləyək ki, Nizami "oxatanlar" demir, "üsküк tutanlar" mənasında "şəhst-giran" deyir. Nizami dönəmindəki farscada "şəst" bir isim olaraq oxatanların barmaq-

larına keçirdiyi üskükün adı idi. Şair "oxatanlar" mənasında hər hansı fars sözünün kalka variantını yazsaydı, "şəst-giran" anlayışının verdiyi potensialı verməzdi, çünki "oxatan" sözü oxucunun diqqətini ancaq oxa yönəldirsə, "üskük tutan" anlayışı isə onlarca yerə yönəldir. Demək, şairin düşünüb tapdığı "üskük tutan" anlayışı mətn içində "oxatan" anlayışının sinonimidir, daha doğrusu, diqqəti tarıma çəkdirən bir sinonimidir [2, s.1212]:

Əgər xosrou şəst-e miran bovəd,
Həm amac-e in şəst-giran bovəd.
Xaqan yetkin oxatan olsa belə,
Bu oxatanların amacına dönər.

Məcnunun etdiyi ahın qarşısında Leylinin ərə verildiyi İbni-Salamın cismani üzüntüsünü çatdırmaq üçün Məhəmməd Füzuli "amac" ismini işlədir [3, s. 68]:

Kim İbni-Səlamı etdi gərdun
Amaci-xədəngi-ahi-Məcnun.
Yəni: Gör bir, fələk İbni-Salamı etdi
Məcnunun ah oxunun amacı.

Göründüyü kimi, nə klassik farscada, nə də çağdaş farscada "amac" kimi az hərfli elə bir söz yoxdur ki, "ox üçün hədəf, nişangah" mənasını versin.

"Armud" *ümumişlək sadə isim kimi*

"Armud" azərbaycanca, türkcə ümumişlək, farsca isə arxaik isimdir. Meyvə adı olan bu isim türkcə "armut", farsca isə "əmrud" olaraq işləkdir. Mahmud Kaşğarlı onu "armut" yazır [1, s.150].

Nizami poeziyasının farscasında sözü gedən meyvə adı "qolabi", "əmrud" formasında işləkdir. Birincisi fars köklü, ikincisi isə türk köklü olub, "armud" isminin farslaşmış formasıdır. Şair yay fəslini vəsf edərkən, rud çalğı aləti ilə yanaşı kudu, heyva, armud adlarını çəkir [2, s.1495]:

Kədu bər keşide tərəb rud-ra,
Qolu-gir gəşte beh əmrud-ra.
Kudu şadlıq üçün rudu sazladı,
Heyva armudun boğazından tutdu.

"Bağ" *ümumişlək sadə isim kimi*

"Bağ" azərbaycanca, türkcə, farsca ümumişlək isimdir. "Bağ" isim olaraq "bağlamaq" mənasında əski türkcə "ba" feilinin, "ğ" leksik şəkilçisinin birləşməsindən qaynaqlanır [4]. Başqa sözlə, "ba" bir anlayış olaraq içindəki meyvə ağacları və ot bitkilərini özünə bağlayan yer deməkdir. Mahmud Kaşğarlı bu sözü "bağ" formasında türk sözü hesab edir [1, s.1530].

Dünyanın vəfasızlığından söz açan Nizami dünyaya eyham vuran "rəngli bağ" söz birləşməsində "bağ" isminə yer ayıraraq, "balta vuran" birləşməsi ilə əcəli nəzərdə tutaraq vurğulayır [2, s.1048]:

Dər in bağ-e rəngin dərəxti nərost,
Ke mand əz ğəfa-ye təbərzən dorost.
Bu rəngli bağda bir ağac bitmədi ki,
Balta vuranın zərbindən salamat qala.

"Çaç" *türk şəhər adı kimi*

"Çaç" şəhər olan toponimdir, azərbaycanca, türkcə, farsca "Çaç" oxunur. Bu ad indiki Daşkənd şəhərinin əski adıdır. Bu şəhər adının mənasını dəqiq göstərən mənbə yoxdur ki, ona istinad edək. "Çaç" oxunuşunda M.Kaşğarlıda müşahidə olunur [1, s.183].

Nizami bu şəhər adını bir çox yerdə çəkir, igidləri ilə, ox və kamanı ilə tanınan yer olaraq. Hindistana yürüş edən İskəndər şah bir çox yer və ölkələrdə, o sıradan Türküstanda yerləşən Taraz və Çaç adlı türk şəhərlərindən keçir [2, s.1193]:

Vəz anca şəvəm su-ye Çaço Təraz,
Zəmin-ra nəvərdəm be yek torktaz.
Oradan Çaça və Taraza gedərəm,
Bir yürüşdə yer üzünü gəzərəm.

"Ərməğan" *ümumişlək sadə isim kimi*

"Ərməğan" azərbaycanca, türkcə, farsca ümumişlək isimdir. "Hədiyyə, sovqat, töhfə, peşkəş, pay" anlamında bu isim türkcə "armağan", farsca "ərməğan" olaraq rastlanır. M.Kaşğarlı onu əski türk dillərindən olan oğuzca "armağan" kimi yazır [1, s.195]. Bu isim, qənaətimizcə, "hədiyyə" mənasında oğuzca "yarmakan" sözünün bir sonrakı formasıdır.

Zəncilər üzərində qələbə çalan İskəndər şahın döyüşdə qənimət olaraq ələ keçənləri insansevərlik edərək bir çox ölkələrə göndərdiyini vurğulayan Nizami "ərməğan" oxunuşunda türkizmə yer ayırır. Şair aşağıdakı örnəkdə hiperbola (mübaliğə) edərək ərəb köklü "hədiyyə, töhfə", fars köklü "peşkeş", türk köklü "sovqat, pay" yazsaydı, beytin mənası pozulmazdı, amma mənanın dərinliyinə ziyan dəyərdi. Belə ki, sadalanan sözlərin heç birində "sürpriz, gözlənilməz pay" anlayışı yoxdur, bu anlayış ancaq "ərməğan" sözündə var [2, s.1037]:

Bəsi ərməğani ze tarac-e Zəng
Be hər su ferestad bivəzno səng.
Zənci talanından ərməğan kimi
Hər yana ölçüsüz daş-qaş yolladı.

"Xəta" *türk şəhər adı kimi*

Çin Türküstanında bu şəhər M.Kaşğarlının təqdimatında "Xıtay" oxunuşunda, ahəng qanununa tabe formada rastlanır [5, s.220]. "Xəta", göründüyü kimi, ahəng qanununa tabe deyil, bunun səbəbi odur ki, Nizamidən qabaq yaşamış fars şair və tarixçiləri "Xıtay" adını fars dilinin qrammatik normativlərinə salaraq, həm də farscada "ı" səsinin olmadığını nəzərə alaraq, "Xəta" variantını yaradıblar. Xaqani və Nizamidən başlayaraq şairlərimiz və tarixçilərimiz "Xəta" sözünü işlətdikləri üçün ədəbiyyatımızda "Xəta" təsdiqlənmiş olub.

Hindistan yürüşündən Çinə gələn İskəndər şah məsləhətlər etmək üçün bir məclis keçirtdi, iki türk şəhərinin hökmdarını – Çin Türküstanında Xəta şahını, Çin Türküstanında Xütən xanını, Hindistanda Pəncab qoşunlarını, aparıcı hərbçiləri ora çağırdı. Beləliklə, dörd misrada adı keçən dörd toponimdən Xəta, Xütən, Fərqanə olmaqla üçü türk toponimləridir [2, s.1206]:

Ze şah-e Xəta ta be xan-e Xotən
Ferestado tərtib kərd əncomən.
Sepah-e Sepəncabo Fərğane-ra,
Degər mərzdaran-e fərzane-ra.
Xəta şahından Xütən xanınadək
Bir yerə yığaraq, məclis keçirtdi.
Pəncab, Fərqanədə olan qoşunu,
Habelə ağıllı sərhədçiləri çağırdı.

"Xəzər" *türk dəniz adı kimi*

"Xəzər" dəniz olan toponim olmaqla azərbaycanca və farsca "Xəzər", türkcə "Hazar" səslənir. Xəzər türklərinin adına bağlı olan bu dəniz adını Mahmud Kaşğarlı "Xozar" olaraq anır [5, s.309]. Adıkeçən toponimin mənasına dair linqvistik versiyalar çoxdur, amma daha çox fərziyyə olmaları səbəbindən onlara istinad etmirik.

"Xosrov və Şirin" poeamasını ithaf etdiyi Qızıl Arslan adlı Təbriz hökmdarının tərifində Nizami vurğulayır ki, Xəzər yoxsullarından (Xəzəryanı ölkələrdəki yoxsullardan) romalıların və bizansların tarixi adı olan Rum adlı coğrafi yerə kimi bir kimsə onun səxavətindən məhrum deyil. Nizamı bir örnəkdə bədii ifadəni gücləndirmək üçün 2 hiperbola (mübaliğə) işlədir – Xəzərdən Ruma qədər olmaqla ərazi çoxluğu, kimsə məhrum deyil olmaqla insan çoxluğu [6, s.149]:

Kəs əz dərya-ye cudəş nist məhrum,
Ze dərviş-e Xəzər ta monem-e Rum.
Kimsə səxavətindən məhrum deyil,
Xəzər yoxsulundan Rum varlısınadək.

"Kaşğar" *türk şəhər adı kimi*

"Kaşğar" şəhər olan toponimdir, azərbaycanca "Kaşğar", türkcə "Kaşqar", farsca "Kaşğər" oxunur. Bu yer adı Çin ölkəsində Uyğur muxtar rayonunun əski adı olub, yaşayış yeri kimi miladdan öncə 2-ci əsrdə salınıb. "Kaşğar" adının nə demək olduğunu təsdiqləyən tutarlı bir fakt əlimizdə yoxdur. M.Kaşğarlı öz kitabında "Kaşğar" qeyd edir [5, s.112].

Nizami öz əsərlərində "Kaşğar" adını dəfələrlə çəkib – gözəl qızların oylağı kimi, rəqqasə qızların yaşadığı yer kimi, pəhləvanların olduğu yer kimi. "Qızıl-kəmər" ifadəsi ilə tanıdılan İskəndər şah üç türk elindən – Xərxiz (indiki Qırğızıstan), Çaç (indiki Daşkənd), Kaşğar (indiki Uyğur) adlı yerlərdən bir çox pəhləvan çağırır, döyüşlərə qatılmaq üçün [2, s.1206]:

Ze Xərxizo əz Çaço əz Kaşğər
Bəsi pəhləvan xand zərrin-kəmər.
Xərxizdən, Çaçdan, Kaşğardan
Qızıl-kəmər çox pəhləvan çağırdı.

"Köç" *ümumişlək sadə isim kimi*

"Köç" sadə isimdir. "Türk dillərinin sözlüyü"ndə "köç" formatında işləkdir [1, s.337]. Nizamidən 2 əsr öncə yaşamış Firdovsi yaradıcılığında da "köç" tez-tez rastlanan türkizmlərdən biridir.

Fales adlı antik yunan filosofonun son günlərini yazan Nizami onun adından "köç" türkizmini "kuç" oxunuşunda işlədir. Şair "başqa yerə" ilə ruh aləmini, "türk basqını edirəm" ilə qayıtmaz səfərə gedirəm deyir. Burada "köç" və "türk basqını edirəm" kontekst içində sinonimdir, hər ikisində qayıdış olmamaqla [2, s.1523]:

Ke henqam-e kuç amәd inək fəraz,
Be ca-ye degər mikonəm tork-taz.
Budur artıq köç zamanı gəldi,
Başqa yerə türk basqını edirəm.

Yuxarıdaki sitatda bir incə məqam var, o da budur ki, "türk basqını edirəm" dediyimiz orjinaldakı "tork-taz mikonəm" feili ilkin anlamda "türk basqını edirəm" olsa da, geniş anlamda qayıtmaz səfərə gedirəm deməkdir. Şair "türk basqını edirəm" ifadəsi ilə demək istəyir ki, türkün basqın etdiyi yerdə düşmənə aman yoxdur. Görün, ilk baxışda adi görünən ifadələr ilə Nizami hansı nüans və mətləbləri üstüörtülü olaraq açığa çıxarıb.

"Ozan" *ümumişlək sadə isim kimi*

"Ozan" azərbaycanca, türkcə ümumişlək isim, farsca isə "uzan" olaraq arxaik isimdir. "Aşıq, el şairi" anlamına gələn "ozan" sözü "öndə getmək, mahnı söyləmək" mənasında əski türkcə "ozmaq" məsdərinin kökü "oz" feilinin, "an" leksik şəkilçisinin birləşməsindən yaranır. M.Kaşğarlıda "ozan" olaraq anılır [5, s.241].

Çin xaqanı İskəndər şahı qonaq çağırır, süfrəyə çeşid-çeşid yemək və içkilər düzdürür, müğənni və çalğıçıların ifasından bəhs açan Nizami "ozan" isminin farsca "uzan" formasına

yer ayırıb. Deyir ki, onlar ozan rəsmi ilə ifa edirdilər, yəni aşıqlar kimi, musiqi çalan mahnı da oxuyurdu [2, s.1236]:

Nəvasaz-e xonyagəran-e şegərf
Be ğanun-e uzan bər avərde hərf.
Heyrət doğuran çalıb oxuyanlar
Ozan rəsmi ilə çalıb oxuyurdular.

"Sağər" *arxaik sadə isim kimi*

"Şərab içmək üçün həvəngə bənzər kasa" mənasında bu arxaik isim "Divani-lüğatit-türk" əsərində "sağır" olaraq, ahəng qanununa uyan formada yer alır [1, s.404]. Yerinə düşər qeyd edək ki, "*M.Kaşğarinin adını çəkdiyi "sağır" sözü fars dilində "ı" səsi olmadığına görə "ə" səsi qəbul edərək, "sağər" formasında klassik fars poeziyasına, sonra sonuncu oxunuşda anadilli klassik Azərbaycan ədəbiyyatına yol tapmışdır. Azərbaycan dilində "şərab" anlamına gələn "çaxır" ismi ilə M.Kaşğarinin göstərdiyi "sağər" ismi arasında oxunuş və məna baxımından yaxınlıq mövcuddur*" [7, s.66].

Dünyanı vəfasız olmaqda və nə verirsə onları bir-bir geri almaqda qınayan Nizami "sağır" arxaik ismini "sağər" formatında verərək yazır [2, s.1048]:

Cəhan vam-e xiş əz to yeksər bərəd,
Be core ferəstəd, be sağər bərəd.
Dünya öz borcunu bir yerdə alar,
Damcı ilə yollayar, sağərlə alar.

"Səmərqənd" *türk şəhər adı kimi*

"Səmərqənd" toponim olaraq Özbəkistanın indiki Səmərqənd şəhəridir, azərbaycanca "Səmərqənd", türkcə "Semerkant", farsca "Səmərğənd" imlasında işləkdir. Mahmud Kaşğarlı onun "Səmizkənd" variantını yada salaraq yazır ki, "Səmiz adlı şəxsin bina etdiyi kənd" deməkdir, başqa sözlə "şəhər" deməkdir.

İskəndər şahın ayrı-ayrı ölkələrdə quruculuq işlərindən söz açan Nizami bu qənaəti bölüşür ki, Səmərqənd bir yaşayış yeri kimi İskəndər şah tərəfindən salınıb. "Çin xaqanının İskəndəri qonaq etməsi" fəslində şair Səmərqəndi tərifləyərək bu faktı açıqlayır [2, s.1242]:

Səmərğənd-ra kadəmi şad əz ust,
Şənide çenin şod ke bonyad əz ust.

Abdulla Şaiqin poetik tərcüməsi tam doğrudur [*8, s.308*]*:*

Səmərqənd ki, dünya sevinir ona,
Deyirlər, İskəndər etmişdir bina.

Orta əsrlərdə Səmərqənd və Buxaranın ad-san qazanmasını 14-cü əsr fars qəzəl şairi Hafiz Şirazi beləcə sərgiləyir, şirazlı bir türkün (bir gözəlin) onun ürəyini ələ alması təqdirdə qızın hindu (qara) xalına Səmərqənd və Buxaranı bağışlayacağını vəd edir [9, s.196]:

Əgər an tork-e Şirazi be dəst arəd del-e ma-ra,
Be xal-e henduş bəxşəm Səmərğəndo Boxara-ra.
Əgər Şiraz türkü ürəyimizi ələ alsa, qara xalına
Mən Səmərqənd ilə Buxaranı bağışlayacağam.

"Sirkə" *ümumişlək sadə isim kimi*

"Sirkə" azərbaycanca, türkcə, farsca ümumişlək isimdir. Türkcə "sirke", farsca "serke" olan bu ismin etimoloji qaynağını dürüst və elmi göstərən bir mənbə yoxdur. Fakt budur, M.Kaşğarlı onu "sirkə" olaraq türk köklü sayır [5, s.324].

Filosof Sokratın dilindən tibbi öyüdlər verən Nizami yazıb ki, sirkə içsən, süd içmə, çünki süd ilə sirkə bir-biri ilə uyuşmaz [2, s.1441]:

Ço ba serke sazi, məşou şir-xar,
Ke ba şir serke bovəd naqovar.
Sirkə içərsənsə, süd içən olma,
Çünki sirkə ilə süd uyuşan deyil.

"Taraz" *türk şəhər adı kimi*

"Taraz" indiki Qazaxıstanda şəhər adıdır. Mahmud Kaşğarlının əsərində "Taraz" olaraq keçir (5, s.370). Nizamidə xalis müşkün oylaqlarından biridir.

Dara şahın qızına elçi göndərən İskəndər şah gəlinə bir çox bahalı hədiyyə, daş-qaş yollayır. Hədiyyələrin arasında İsfahan gülabı və Taraz müşkü də vardı. Gülabın şüşədə, müşkün nafədə (kiçicik torbada) saxlandığına diqqət çəkən şair "Taraz" şəhər adını "Təraz" təqdim edir [2, s.1115]:

Qolab-e Sepahano moşk-e Təraz,
Sər-e şişevo nafe kərdənd baz.
İsfahan gülabı, Taraz müşkündə,
Şüşə ilə nafənin ağzını açdılar.

"Yağma" *türk şəhər adı kimi*

"Yağma" indiki Çin uyğurlarının və Özbəkistan özbəklərinin ulu babaları olmaqla orta əsrlərdə yağma adlı bir türk boyunun yaşadığı yerin adıdır. Mahmud Kaşğarlının kitabında Yağma bir şəhər olaraq Taraz adlı bir türk şəhərinin yanında yerləşdiyi xəbər verilir [5, s.36].

Hindistan yürüşündən sonra İskəndər şah Çinə gedir, qoşunun döyüşdən öncə çaldığı təbilin gurultusundan Yağma və Xülləx adlı türk şəhərlərinə qorxudan həyəcan düşür. "Şahlar şahı" anlamında "şahənşah" sözü ilə İskəndər şahı nəzərdə tutan şair "Yağma" toponimini "Yəğma" formasında yazır [2, s.1204]:

Ze kus-e şəhənşəh bər aməd xoruş,
Be Yəğmavo Xolləx dər oftad cuş.
Şahənşah təbilindən gurultu qopdu,
Yağma və Xülləxə həyəcan düşdü.

Mövzunun aktuallığı: Çin Türküstanından Mahmud Kaşğarlı, Azərbaycandan Nizami Gəncəvi bütün dünyada tanınan iki dahi türkdür, biri türkoloq-dahi, biri poetik-dahi olaraq. Bildiyimiz kimi, Nizaminin əsərləri, özəlliklə İskəndər şahın Türküstana (iniki Orta Asiyaya), Çin Türküstanına etdiyi yürüşləri poetik təsvirə çəkən "İskəndərnamə" poeması arxaik türk sözləri, ümumişlək türk sözləri, türk toponimləri ilə doludur.

Məqalə çağdaş dönəm üçün – dünya türklərinin öz köklərinə qayıtdığı bir zaman başlanğıcında çox önəmlidir. Məqalənin aktuallığı odur ki, iki dahi şəxsdə rastlanan arxaizmlər, türkizmlər və toponimlərin 15-i tədqiqata cəlb olunur, Nizamidən farsca örnəklər və məqalə müəllifinin təqdimatında filoloji tərcümələr verilir, müstəqil linqvistik yanaşma təqdim olunur.

Elmi yeniliyi: Məqalənin elmi yeniliyi odur ki, Kaşğarlı və Nizami yaradıcılığı müqayisəli formatda öyrənilir, bəlkə də belə yanaşma Azərbaycanda yoxdur. Güman edirik ki, alim və tədqiqatçılar bu məqalədə yazılanlardan ruhlanaraq, Kaşğarlı-Nizami mövzusunu daha dərin tədqiq edəcək, gələcəkdə yazılacaq dissertasiya işlərində məqalənin yazı texnikasından istifadə edəcəklər.

Praktik əhəmiyyət və tətbiqi: Məqalədə sərgilənən fikir və düşüncələr dilçilik, filologiya, etnoqrafiya, müqayisəli tərcümə, Kaşğarlışünaslıq, Nizamişünaslıq, türkçülük problemlərini öyrənən və öyrədən alim və tədqiqatçıların elmi yazılarında istifadə oluna bilər.

Ədəbiyyat

1. Kaşğarlı, M. Divani-lüğatit-türk / M.Kaşğarlı, – Bakı: Ozan, – c.1, – 2006, – 512 s.
2. Nizami, G. Xəmse / G.Nizami, – Tehran: Cavidan, – c.1, – 1996, – 1533 s.
3. Füzuli, M. Seçilmiş əsərləri / M.Füzuli, – Bakı: Lider, – c.1, – 2006, – 213 s.
4. https://www.etimolojiturkce.com/Bağ kelime kökenli
5. Kaşğarlı, M. Divani-lüğatit-türk / M.Kaşğarlı, – Bakı: Ozan, – c.2, – 2006, – 400 s.
6. Nizami, G. Xəmse / G.Nizami, – c.2, – Tehran: Cavidan, – 1996, – 678 s
7. Quliyev, E. M.H.Şəhriyarın fars divaninda türk sözləri: / Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dis. / – Bakı, – 2013.
8. Nizami, G. İskəndərnamə, tərc. edən A.Şaiq / G.Nizami, – Bakı: Lider, – 2004, – 432 s.
9. Hafiz, Ş. Qəzəliyyat / Ş.Hafiz, – Təbriz: Mehreqan, – 2004, – 2012 s.

N.H.Hajiyeva, S.J.Novruzaliyeva

Mahmud Kashgarli and Nizami Ganjavi
(Turkisms and Turkish toponyms in two geniuses)
Summary

This article studies Turkish archaic words, Turkish colloquial words, and Turkish toponyms found in the works of Mahmud Kashgarli and Nizami Ganjavi. These three aspects are the leading branches of Azerbaijani linguistics. Thus, archaic words and toponyms connect the people to their past, and colloquial words are the people's current experiences. That is, the article presents an approach to the past and present of the Azerbaijani language.

The article contains readings of Persian quotes, we do not give their poetic translations, but philological translations. This is because the subtle meanings in the original are distorted in poetic translations, but not in correct philological translations.

Although this article is important in studying the literary heritage of Kashgarli and Nizami, it is not the leading one, because the space allocated for one article does not allow to cover the creativity of two geniuses. To study them from a linguistic point of view, dozens of dissertations are needed.

Key words: *Kashgarli, Nizami, archaic word, common word, toponym, Turkestan (Central Asia), Chinese Turkestan*

Н.Х.Гаджиева, С.Дж.Новрузалиева

Махмуд Кашгарлы и Низами Гянджеви
(Тюркизмы и турецкие топонимы у двух гениев)
Резюме

В данной статье изучаются тюркские архаичные слова, общетюркские слова и турецкие топонимы, встречающиеся в произведениях Махмуда Кашгарлы и Низами Гянджеви. Эти три аспекта являются ведущими отраслями азербайджанской лингвистической науки. Таким образом, архаические слова и топонимы связывают народ с его прошлым, а общие слова – это текущая жизнь народа. То есть, в статье представлен подход к прошлому и настоящему азербайджанского языка.

В статье приведены прочтения персидских цитат, мы не даем их поэтических переводов, мы даем их филологические переводы. Потому что, тонкости оригинала нарушены в поэтических переводах, а не в правильных филологических.

Хотя эта статья важна в изучении литературного наследия Кашгарлы и Низами, она не является ведущей, поскольку объем, отведенный на одну статью, не позволяет охватить творчество двух гениев. Чтобы изучить их лингвистически, потребовались бы десятки диссертаций.

Ключевые слова: Кашгарлы, Низами, архаическое слово, общеупотребительное слово, топоним, Туркестан (Средняя Азия), Китайский Туркестан

Rəyçi: filol.f.d., dos. S.Ə.Kadiyeva
Redaksiyaya daxil olub: 16.04.2025

L.Z.HƏSƏNOVA
e-mail: leylamuzi@gmail.com
:https://orcid.org/0009-0006-9057-9205

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

10.62021/0026-0028.2025.2.166

ROMANTİZM ƏDƏBİ CƏRƏYANININ ƏSAS İDEYA İSTİQAMƏTLƏRİ VƏ ESTETİK XÜSUSİYYƏTLƏRİ

Xülasə. *XX əsr Azərbaycan ədəbiyyatının əsas cərəyanlarından olan romantizm cərəyanı ədəbiyyatımızda öz ideya istiqamətləri və estetik xüsusiyyətləri baxımından fərqlənən və mahiyyət etibarilə yeni bir forma və məzmun tələb edən ədəbi istiqamət kimi öz yerini almışdır. Bu cərəyanı digər cərəyanlardan fərqləndirən başlıca cəhət əhatə etdiyi ümumbəşəri ideyalar və mühüm estetik xüsusiyyətlər idi. Məqalədə Azərbaycan romantiklərinin yaradıcılığı əsasında romantizmin özünəməxsus əsas ideya istiqamətləri tədqiqata cəlb olunmuş və estetik xüsusiyyətləri araşdırılmışdır.*

Açar sözlər: *romantizm, ədəbi cərəyanlar, ədəbiyyat, estetika, bədii nümunələr*

Giriş. Romantizm ədəbi cərəyanı XIX əsrin sonu, XX əsrin əvvəllərində Avropada meydana gəlmişdir. Hər nə qədər bu cərəyan Şərqin qədim və zəngin ənənələrindən bəhrələnsə də, romantizm özünəməxsus ədəbi-estetik prinsipləri və obyekti olan bir cərəyan kimi formalaşa bilmişdir. Romantizm bu dövrdə cəmiyyətdə baş verən nəhəng dəyişikliklərə, o cümlədən Fransa və ABŞ kimi ölkələri alovlandıran, demokratiyada möhtəşəm dəyişikliklərə səbəb olan inqilablara reaksiya kimi yaranmışdır. Romantizm cərəyanı daha çox emosiyalara və yazıçının daxili duyğularına diqqət yetirirdi.

Romantiklər universal, fəlsəfi məzmuna və məntiqə üstünlük verirdilər. Onlar insanın iç dünyasını daha çox diqqət mərkəzində saxlayırdılar. Əslində, romantizmin nümayəndələrində insanın daxili dünyasına, qəlb aləminə olan maraq onların fərdi üslubuna bağlı deyildi. Bu ədəbiyyatın mərkəzi mövzusuna çevrilən insan problemində onların digər cərəyanın nümayəndələrindən daha irəliyə doğru atdığı bir addım idi.

Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərində meydana gələn romantizm cərəyanı öz ideya istiqaməti və estetik mahiyyəti ilə daha çox milli zəmində yaranıb inkişaf etmişdir. Azərbaycan romantizm ədəbi cərəyanının əsas nümayəndələri sırasında Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət və başqalarının adını çəkmək olar.

Bizim romantiklərin yaradıcılığından iki istiqamətdə danışmaq mümkündür: ümumiyyətlə ədəbi irs şəklində və məxsusi, romantik yaradıcılıq tipi şəklində. Azərbaycan ədəbiyyatının tərkib hissəsi olmaq etibarilə romantiklərin irsi daima araşdırılıb, öyrənilib. Xüsusi romantik yaradıcılıq tipi kimi isə onlar haqqında əsaslı tədqiqatların bünövrəsi bizim ədəbiyyatşünaslıqda 60-cı illərin əvvəllərində qoyulmuşdur [9, s. 9].

Əsas hissə. Romantizm sənətdə və ədəbiyyatda yeni və fərqli mövzu dairəsi olan bir estetik cərəyan olaraq fərqlənir. Bu istiqamət insanın daxili aləminə, duyğularına, xəyalına və azadlıq istəyinə xüsusi önəm verir. Romantizmin estetikası rasionalizmdən fərqli olaraq hiss və duyğunun üstünlüyünü ön plana çıxarır, fərdi təcrübənin və subyektiv yanaşmanın bədii ifadəsini əsas sayır.

Məlum məsələdir ki, romantiklərin maraq dairəsinin nüvəsində hər zaman insan problemi dayanmışdır. Talelər qədər romantiklərin düşüncə obyektində özünə yer tutan ikinci bir

obyekt tapmaq asan deyil. M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq yaradıcılıqlarının ilk illərindən başlayaraq bu problemin həlli haqqında düşünmüş, bu barədə olan fikir və mülahizələrini romantizmə xas olan bir yüksəkliyə qaldırmışlar.

Romantizmdə insana verilən qiymətin də məna çaları dərin idi. Romantiklər sadəcə olaraq ümumi insandan, insan məfhumundan danışmırdılar. Onlar üçün konkret insan var idi. M.Hadi məqalələrinin birində qeyd edirdi ki, sən ki, başqalarının möhnətindən qəmsizsən, sənin adını insan qoymaq ciddən sözavər deyildir. Burada müəllifin diqqətə çatdırmaq isdədiyi odur ki, insan cəmiyyətdən kənarda qala bilməz, o, cəmiyyətin verdiyi dərdlər, ələmlər haqqında düşünməlidir.

Romantizmin əsas ideya istiqamətlərindən biri də hər zaman insan və yaradılışla bağlı olan fəlsəfi düşüncələr olmuşdur. M.Hadinin "Təraneyi-qəmpərvanə" şeirindən aşağıdakı nümunəyə nəzər salaq:

Cahanə gəlmədən məqsəd nədir insanə, bilməm ki?
Həqiqətmi bu xilqət, yoxsa bir əfsanə, bilməm ki?
Mən idrak etmədim dünyayə gəlməkdən nədir hikmət
Yaratmaqdan nədir hikmət bizi sübhanə, bilməm ki? [4, s. 155]

Verilən şeir parçasında Məmməd Hadi klassik romantik poeziyanın əsas ideya istiqamətlərinə uyğun olaraq insanın varlığı, dünyanın mənası və yaradılışın sirri barədə dərin fəlsəfi suallar verir. Bu cür mövzular hər zaman romantik sənətkarların diqqət mərkəzində olmuşdur.

Yuxarıda gətirdiyimiz nümunə romantiklərin dünya və yaradılış haqqında düşüncələrinin klassik nümunəsidir. Burada insanın metafizik suallar qarşısında duyduğu heyrət, həyatın mənasına dair cavabsızlıqlar və əbədi axtarış motivləri güclü şəkildə ifadə olunmuşdur. Məmməd Hadi, bu misralarında, romantik poeziyanın yüksək fəlsəfi qatına uyğun şəkildə insanın varlıq anlamını sual altına alır və cavabdan çox, sualın özünü dəyərli hesab edir.

Romantiklərin "gözəl gələcək" haqqında fikirləri isə, konkret tarixi şəraitə görə, hər nə qədər müsbət hadisə olub, fikirlərə yaxşı təsir bağışlasa da, mahiyyət etibarilə utopikcəsinə idi. Onlar gələcəyi "bahari-aləm", "aləmi-ziya", "şəfəq doğuran fəcr", "şanlı əyyam" kimi romantik tüllərlə bəzəsələr də, bu xüsusda anlayışları çox mücərrəd idi [1, s. 123].

Ümumiyyətlə, XX əsr Azərbaycan romantikləri cəmiyyətin dəyişdirilməsində əsas rolu sənətkarlara, onların yaratdığı əsərlərə verirdilər. Bir növ bütün inkişafın başlanğıcında yaradıcı şəxsiyyəti qoyur, onların fikir, düşüncə, mülahizələrinə hədsiz üstünlük verirdilər. Romantiklər cəmiyyətin inkişafında ədəbiyyatın rolunu düzgün qiymətləndirməyi bacarır, onun tərbiyəvi gücünü bu yolda əsas amil hesab edirdilər. Hüseyn Cavid yazırdı: "Bir ölkənin əhvali-ruhiyyəsində fənni-tərbiyənin, ədəbiyyat və fəlsəfənin təsiri inkar olunmayacaq məsələlərdəndir. Ədəbiyyat bir millətin əhvali-ruhiyyəsinin inikasıdır" [6]. Ümumbəşər şairin gəldiyi bu doğru qənat, demək olar ki, bütün romantiklərin gəldiyi ortaq nəticə idi. Buna görə də XX əsr romantikləri ədəbiyyatda daha çox ciddilik və bəşərilik tərəfdarı idilər. Onlar cəmiyyətə bir faydası olmayan laubali əsərlərin yazılmasındansa, insanlara həyatı dərk etmələrinə yardımçı olacaq daha ciddi əsərlərin yazılmasının tərəfdarı idilər.

1905-ci ildən etibarən ədəbiyyatda yeni şeir üslubu axtarışları özünü göstərməyə başlayır. Bunun nəticəsində o dövrdə təzə formalaşan romantik şeirin nəzəri və estetik əsaslarını yaymaq, Azərbaycan poeziyasına yeni istiqamət vermək məqsədilə Məhəmməd Hadi, Abbas Səhhət və digər tanınmış şairlər bu sahədə fəal şəkildə işləməyə başlayırlar.

Yaranmaqda olan şeirin necəliyi, hansı forma vəz məzmunda olması, nəzəri prinsipləri baxımından yeni fikirlər də ortaya çıxırdı. Realistlər belə hesab edirdilər ki, yeni şeir klassik şeirin ən yaxşı ənənələri, bünövrəsi üzərində qurulmalı, lakin keçmişi təkrar etməyən novator şeir olmalıdır. Yeni şeir yeni həyat, azadlıq uğrunda, müasirləşmək, mədəniləşmək uğrunda mübarizə silahına çevrilməli, öz mövzularını cəmiyyət həyatından, xalq həyatından almalı, cə-

miyyətin bütün yaralarını açıb göstərməli idi. Realistlər yeni şeirin necəliyi ilə bağlı olan suallara bu aspektdən yanaşmağı daha düzgün hesab edirdilər.

Yeni şeirin yaranması, formalaşması uğrunda mübarizədə fəaliyyət göstərən başqa bir mübarizə cəbhəsi də formalaşmışdı ki, bu cəbhədə də M.Hadi, A.Səhhət, H.Cavid, A.Şaiq kimi romantiklər dayanırdılar. Romantiklərin bu cəhətdən tutduğu mövqe çox vaxt realistlərin düşüncəsi ilə üst-üstə düşürdü. İlk növbədə onlarda realistlər kimi ənənəni qorumağı, lakin təkrarçılığa üz tutmamağı, ənənə ilə novatorluğun birlikdə müasir həyatla ayaqlaşa biləcək şeiri yaradacağını düşünürdülər. Eyni zamanda, sevgilidən, güldən, məhəbbətdən yazmaq əvəzinə xalqın arzu və istəklərini, düşüncələrini şeirə gətirməyin onu intibaha qovuşduracağına güclü inam bəsləyirdilər. Bizim romantiklər yalnız gözəl arzular, əməllər bəsləməklə kifayətlənmir, yeri gəldikcə, eybəcərliyi də realistlər qədər amansız tənqid, ifşa edir, hətta siyasi-iqtisad məsələlərinə qarışır, tüfeyli sinif və təbəqələrin sinfi psixolojisini də düzgün izah edə bilirdilər [1, s.93]. Burada bir məsələni də qeyd etmək yerinə düşər ki, romantiklər, ümumiyyətlə heç vaxt realistlərə qarşı olmamış, əksinə, çox vaxt onları dəstəkləyəcək fikirlərlə çıxış etmişlər. Yəni "romantizmlə realizm tamamilə bir-birinə zidd ədəbi cərəyanlardır", "romantizm və realizm arasında heç bir oxşarlıq yoxdur" kimi fikirlər gerçəyi əks etdirməməklə yanaşı, bu ədəbi cərəyanlar və onların nümayəndələri arasındakı yaxınlıqları görməzdən gəlməkdən başqa bir şey deyildir. Çünki hər şeydən əvvəl, romantiklər hər zaman klassik irsə böyük hörmət və rəğbətlə yanaşırdılar. Romantiklər milli estetik düşüncədə ənənəni, varisliyi qoruyub saxlamağı vacib hesab edirdilər. Bunun üçün ədəbi tarixi prosesi öyrənməyi, ədəbi irsi toplamağı və ədəbiyyat tarixi yaratmağı zəruri tələb kimi irəli sürürdülər [10, s. 135].

A.Səhhət özünün "Təzə şeir necə olmalıdır?" adlı məqaləsində bu məsələlərdən geniş bəhs etmiş, köhnə şeirin, epiqonçuluğun əleyhinə çıxmışdır. Məqaləsində həmçinin böyük ədib köhnə üsulla yalnız qəzəl, qəsidə, mərsiyyə yazan şairləri kəskin tənqid edirdi. A.Səhhət belə şeirləri duzsuz, yaramaz söz yığını hesab edirdi. Eyni zamanda, o bu şeirləri yazan müəllifləri də pisləyir, onları elmsiz, savadsız, zəif şairlər olaraq təsvir edirdi.

Romantizm əslində ədəbiyyatın həyatda olduğu kimi deyil, xəyallarda canlandırıldığı kimi inkişafını irəli sürən ədəbi cərəyandır. Akademik Məmməd Cəfər Cəfərovun da dediyi kimi, "Romantiklər realistlərdən fərqli olaraq sənəti, ədəbiyyatı, bədii təfəkkürü birinci növbədə canlı, real həyatla deyil, ideyalar "işıqlı" fikirlərlə əlaqələndirirdilər. İdealla varlıq arasındakı təzadın bədii təsviri Azərbaycan romantizminin əsas yaradıcılıq prinsiplərindən biridir" [2, s. 189].

Romantizm cərəyanı sənətə və ədəbiyyata yeni ideyalar gətirərək insanın fərdi azadlığını, təbiətə bağlılığını, yüksək mənəvi ideallara sədaqətini əsas prinsip kimi irəli sürmüşdür. Romantik ədəbiyyatda maddi dünyanın yox, yüksək idealların, mənəvi dəyərlərin üstünlüyü vurğulanır. Qəhrəmanlar tez-tez reallıqdan qaçaraq ideal dünyalara can atırlar. Eyni zamanda, romantiklər üçün xalqın tarixi, əfsanələri və milli qəhrəmanları böyük ilham mənbəyi idi. Onlar milli oyanışa xidmət edən əsərlər yaratmağa çalışırdılar.

Romantizmdə ümumi məhəbbət mövzusunun ön mövqeyə çəkdiyi insanlıq fəlsəfəsi motivləri inkişaf etdirilərək romantik ədəbiyyatda ümumiləşdirilmiş bəşəri fikirlərin ifadə edilməsi səviyyəsinə çatdırılmışdır. A.Şaiqin "Həpimiz bir günəşin zərrəsiyik" şeiri Azərbaycan romantiklərinin insanlıq sevgisinin, bəşəri humanizminin ən gözəl nümunəsidir:

Həpimiz bir yuva pərvərdəsiyiz!
Həpimiz bir günəşin zərrəsiyiz!
Ayramaz bizləri təğyiri-lisan,
Ayramaz bizləri təbdili-məkan.
Ayramaz bizləri İncil, Quran... [11, s. 165]

A.Şaiqin humanizm, millilik, bəşərilik ideyalarının manifesti hesab olunan bu şeirdə insanlar arasında dini, milli, irqi ayrıseçkilik rədd edilir, insanlar birliyə, həmrəyliyə dəvət

edilir. Əslində, bu bütün romantiklərin yaradıcılığında özünü göstərən məqamlardır. Yuxarıda da qeyd etdiyimiz kimi, romantiklər üçün insan və onun taleyi məsələsi hər zaman ön cəbhədə dayanmışdır. Buna görə də onlar öz yaradıcılıqlarında hər zaman bu problemi işləmiş və əsərlərinin əsas qayəsini də ümumbəşəri ideyalar təşkil etmişdir.

Dünya romantizm ədəbiyyatında olduğu kimi, XX əsrin əvvəlləri Azərbaycan romantik ədəbiyyatında da ümumi məhəbbət fəlsəfəsi romantiklərin estetik idealının ifadəsi kimi çıxış edir. Romantizmlə bağlı olan tədqiqatlarda qeyd edilir ki, klassik məhəbbət lirikasına xas olan qadın məhəbbətini ideallaşdırmaq, sevgi iztirablarını lirikanın əsas, aparıcı motivinə çevirmək hallarına burada çox az rast gəlmək olur. Romantik şeirdə məhəbbət lirikası çox zaman müəyyən fəlsəfi-siyasi görüşləri ifadə edən simvolik rəmzi vasitəyə çevrilirdi. Bu ilk növbədə mənsub olduğun xalqa bəslənilən məhəbbətin ümumən insanlığa olan məhəbbət səviyyəsində bədii cəhətdən ümumiləşdirilməsini təmin etmişdir. H.Cavidin "Qız məktəbi" şeirindəki "yoxmu başqa sevdiklərin?" sualının cavabında məktəbli qızın "anam, babam, müəllimim, bir də bütün insanlar" misrası romantizmdə məhəbbət fəlsəfəsinin mahiyyətini bütün genişliyi ilə əks etdirir. H.Cavid "Mənim Tanrım" şeirində də konkret olaraq hər hansı bir sevgilidən yox, geniş mənada bütövlükdə sevgidən və gözəllikdən bəhs olunması romantizmdəki ümumi məhəbbət fəlsəfəsinin mükəmməl bir əks-sədasıdır:

Hər kəsin cahanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var.
Hər kəsin bir eşqi, bir Allahı var.
Mənim Tanrım gözəllikdir, sevgidir [7, s. 130].

İşin elmi nəticəsi: Romantizmin nümayəndələri reallığın adi təsvirindən qaçaraq, daha çox ideallaşdırılmış dünyalar yaratmağa çalışırdılar. Təbii gözəllik, qəhrəmanlıq, qeyri-adi hadisələr və utopik məkanlar romantik yaradıcılığın əsas mövzularına çevrilmişdi. Onlar təbiəti təkcə bir dekorasiya kimi deyil, insan ruhunun güzgüsü kimi təqdim edirdilər. Təbiətin dəyişkənliyi, fırtınalı və möhtəşəm təsvirləri romantik estetikada insanın daxili çırpıntılarına bənzədilirdi.

Romantizmin estetik xüsusiyyətləri arasında fərdi azadlığın, duyğusal intensivliyin və idealist dünya görüşünün vurğulanması da xüsusi yer tutur. Romantik sənətkar üçün insan ruhunun sərhədsizliyi və xəyalların gücü reallıqdan daha dəyərli görünürdü. Bu səbəbdən romantik əsərlərdə qəhrəmanlar tez-tez cəmiyyətlə, talelərlə və ya öz daxili ziddiyyətləri ilə mübarizə aparırlar. Romantizm həmçinin tarixi keçmişə və milli kimliyə olan marağı da gücləndirmiş, folklor, əfsanə və qədim ənənələrə əsaslanan mövzuların geniş işlənməsinə yol açmışdır.

Beləliklə, romantizmin estetikası duyğusallıq, təbiət sevgisi, fərdiyyətçilik, idealizm və milli ruhun bədii ifadəsi ilə səciyyələnir. Bu cərəyan sənətdə yeni bir duyğulu və azad ifadə tərzinin əsasını qoyaraq, sonrakı dövrlərin estetik düşüncəsinə güclü təsir göstərmişdir.

İşin elmi yeniliyi: Məqalədə romantizm cərəyanının ideya istiqamətləri və estetik xüsusiyyətləri əsaslı şəkildə şərh olunmuş, Azərbaycan romantizmi ilə Avropa romantizminin oxşar və fərqli xüsusiyyətləri aydınlaşdırılmışdır. Eyni zamanda, ilk dəfə olaraq XX əsr Azərbaycan romantikləri iki cəbhədə mürtəce və mütərəqqi cəbhədə yox, ümumən "milli romantiklər" olaraq səciyyələndirilmişdir. Beləliklə də, romantizm Azərbaycan romantizminin əsas qayəsini təşkil edən millilik ön planda tutularaq tədqiqata cəlb olunmuşdur.

İşin tətbiqi əhəmiyyəti: Məqalədə romantizm cərəyanının ideya-estetik xüsusiyyətləri ilə bağlı təqdim olunan fikirlər Azərbaycan ədəbiyyatının müasir inkişafı üçün zəmin yaradır, romantizm cərəyanı ilə bağlı olan nəzəri bilikləri genişləndirir. İrəli sürülən fərziyyələr, gəlinən nəticələr ədəbiyyatşünaslığın öyrədilməsi, eləcə də tədqiqi zamanı istifadə oluna bilər.

Ədəbiyyat

1. Cəfər, M. Azərbaycan ədəbiyyatında romantizm / M.Cəfər, – Bakı: Azərnəşr, – 1963, – 217 s.
2. Cəfər, M. Seçilmiş əsərləri: [2 cilddə] / M.Cəfər, – Bakı: Azərnəşr, – c.2, – 1974, – 340 s.
3. Əliyev, K. Azərbaycan romantizminin nəzəriyyəsi / K.Əliyev, – Bakı: Elm, – 2006, – 203 s.
4. Hadi, M. Seçilmiş əsərləri / M.Hadi, – Bakı: Şərq-Qərb, – 2005, – 234 s.
5. Həbibbəyli, İ. Romantik lirikanın imkanları / İ.Həbibbəyli, – Bakı: Yazıçı, – 1984, – 164 s.
6. Hüsey, C. Müharibə və ədəbiyyat // Açıq söz, – 1915, №19.
7. Hüseyn, C. Seçilmiş əsərləri: [5 cilddə] / C.Hüseyn, – Bakı: Lider, – c.1. – 2005, – 263 s.
8. Qarayev, Y. Poeziya və nəsr / Y.Qarayev, – Bakı: Yazıçı, – 1979, – 198 s.
9. Osmanlı, V. Azərbaycan romantizmi / V.Osmanlı, – Bakı: Elm, – 2010, – 462 s.
10. Salamoğlu, T. Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar / T.Salamoğlu, – Bakı: E.L, – 2009, – 213 s.
11. Şaiq, A. Seçilmiş əsərləri: [3 cilddə] / A.Şaiq, – Bakı: Avrasiya Press, – c.2. – 2005, – 435 s.
12. Şəmsizadə, N. Azərbaycan ədəbiyyatşünaslığı / N.Şəmsizadə, – Bakı: Ozan, – 1997, – 292 s.

L.Z.Hasanova

The Main Ideological Directions and Aesthetic Characteristics of the Romanticism Literary Movement

Summary

The romanticism movement, one of the main trends in Azerbaijani literature of the 20th century, has taken its place in our literature as a literary trend that is distinguished in terms of its ideological directions and aesthetic characteristics and essentially requires a new form and content. The main feature that distinguished this trend from other trends was the universal ideas and important aesthetic characteristics it encompassed. The article, based on the work of Azerbaijani romantics, has been involved in the study of the specific main ideological directions of romanticism and its aesthetic characteristics have been investigated.

Key words: *romanticism, literary trends, literature, aesthetics, artistic examples*

Л.З.Гасанова

Основные идейные направления и эстетические характеристики романтического литературного течения

Резюме

Романтизм, одно из основных направлений азербайджанской литературы XX века, занял в нашей литературе свое место как самобытное по своим идейным установкам и эстетическим особенностям литературное направление, по сути требующее новой формы и содержания. Главным, что отличало это движение от других, были универсальные идеи и важные эстетические характеристики, которые оно включало. В статье рассматриваются основные идейные направления романтизма на основе творчества азербайджанских романтиков, рассматриваются их эстетические особенности.

Ключевые слова*: романтизм, литературные течения, литература, эстетика, художественные образцы*

Rəyçi: filol.f.d., dos. R.Ə.Məmmədov

Redaksiyaya daxil olub: 01.05.2025

N.F.XANKİŞİYEV
dosent
e-mail: nasir.khankishiyev@mail.ru

:https://orcid.org/0009-0008-5538-8192

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

II DÜNYA MÜHARİBƏSİNDƏN SONRA İNGİLİSDİLLİ KANADA ƏDƏBİYYATININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Xülasə. *Bu məqalə ingilisdilli Kanada ədəbiyyatının II Dünya müharibəsindənsonrakı inkişaf mərhələlərinə həsr olunub. Burada söhbət müxtəlif dövrlərdə müxtəlif ədəbi janrların formalaşması və inkişafından gedir. Məqalədə həmçinin antisemitizm və irqi ayrı-seçkilik problemlərinə, Kanada milli ədəbiyyatının inkişafına, Konfederasiya qrupu şair və yazıçılarının, XIX əsr Kanada ədəbi məktəbinin görkəmli nümayəndələrinin və XX əsr yazıçılarının bədii yaradıcılıqlarına toxunulur.*

Açar sözlər: *doğma ədəbiyyat, kanadalı ruhu, yazarların konfederasiya qrupu, yeni səslər – yeni ənənələr*

Kanada bir dövlət olaraq II Dünya müharibəsinin əvvəlindən 1960-cı illərin əvvəllərinə qədər olan dövrdə özünün Birləşmiş Millətlər Təşkilatına qoşulmaq, ölkənin şimal əyalətlərini inkişaf etdirmək, sərhədlərini immiqrantlar və qaçqınlar üçün daha geniş şəkildə açmaq və sairə bu kimi məsələləri özündə ehtiva edən beynəlxalq dərəcəli siyasi məsələləri müzakirə etməkdə idi. Bu dövrdə ölkədə faşizmdən sonra antisemitizmin də yavaş-yavaş azalmasına baxmayaraq, müharibə zamanı günahsız insanları irqi ayrı-seçkilik müstəvisində düşərgələrdə saxlanılması hələ uzun illər davam etmişdir. Belə acınacaqlı vəziyyətlə biz Doroti Layvsinin "Mənim xalqımı evə çağır" (Call My People Home, 1950) kitabında canlandırıldığı ilə tanış oluruq. Ədəbiyyat bu siyasi mühiti əks etdirərək, ayrı-ayrı şəxslərin zamanın konkret kontekstində həyatlarını necə yaşadıqlarını dəfələrlə qeyd edirdi. Baş nazir Makenzi Kinqin müharibə dövründəki "Lazım olduqda hərbi xidmətə çağırış, lakin məcburi hərbi xidmətə çağırılmamaq" ifadəsi mədəni bir ifadəyə çevrildi və Kinq Kanada ədəbiyyatının simvoluna çevrildi. 1940 və 1950-ci illərdə ərzaq və kağız sənayesindəki durğunluq müharibə dövründən sonra özünün geniş çiçəklənmə dövrünə qədəm qoymuş, şəhərətrafi rayonlarda inkişaf baş vermiş, doğum nisbəti kifayət qədər yüksək olmuşdur. Bu kəskin yüksəliş 1960-ci illər boyu davam etmişdir. Təhlükəsizlik sahəsində bir çox nailiyyətlər əldə edilmişdir. Bəzi tənqidçilər bunun nəticə etibarilə macərasız sənət dövrü olduğunu iddia edirlər. 1952-ci ildə Milli televiziya verilişlərinin başlanması və 1953-cü ildə Stratford festivalının açılışı, aparıcı sosial tarixçi və sənətçilərin araşdırma və tədqiqatları texnologiya və mədəni irsin gələcək inkişafından xəbər verirdi. Möhtəşəm uzaqgörənliklə bu onilliklər ən azı 21-ci əsrin əvvəllərinə qədər Kanada dəyərlərini dəstəkləyən sosial şəbəkəni də işə saldı və 1960-70-ci illərdə meydana çıxacaq bədii yaradıcılıqların çiçəklənmə dövrü üçün zəmin yaratdı. Roberts, Seton, Karman, Drummond və D.C. Skott kimi Kanada yazarlarının əsərlərindən bədii nümunələri müntəzəm olaraq daxil edilən ədəbiyyat dərslikləri yavaş-yavaş Kanadalı ruhunu və məzmununu artırdı. Karl Klink və R.E.Uotters 1955-ci ildə dərslik kimi geniş istifadə edilən bir antologiya yaratdılar. Bundan əlavə onların birgə əməkdaşlığı sayəsində dəyərli bir biblioqrafik əsərlər tərtib etmişdilər. Digər tərəfdən, Frederik Filip Qrouv, Sinklear Ross, Susanna Mudi, Stefen Likok, Franses Brukun çap olunmamış nəsr əsərləri silsiləsindən ibarət Yeni Kanada Kitabxanası yaradıldı və ona Cək Maklelland, Malkolm Ross və daha sonra David Steynes nəzarət və redaktorluq etmişdilər. Kanada ədəbiyyatı üzrə ayrı-ayrı universitet kursları 1958-ci ilə qədər yara-

dıldı və sürətlə çoxaldı. Kanada xalq nitq mədəniyyətinin inkişaf etdirilməsində də kifayət qədər mühüm işlər görülməyə başlanılmışdır. Bu iş özünü daha çox Radio qovşaqlarında göstərdi. Burada yayımlanan xəbərlər, musiqi, rəy, yumor, söhbətlər və drama oxucuları dinləyici, yazıçıları isə nitq ritmlərini inandırıcı şəkildə göstərməyə öyrədirdi. Bu müstəvidə radio dramaturqları kimi fəaliyyət göstərən Lister Sinklear, Fletcher Makl, Andrew Allan, Meəri Grənnən və Ruben Shipin adları, tənqidçi Neysən Kohenin səsi hər kəs tərəfindən tanınır və sevilirdi. Makl və Mordek Riçler Hollivud və İngiltərədə film ssenariləri yazmağa davam etdilər. Digər yazıçılarla yanaşı, Richler və Alis Munro radioda ilk Qısa Hekayələr yayımını həyata keçirdilər; Onların karyeraları 1948-ci ildə CBC-yə qoşulmuş nüfuzlu redaktor və antoloq Robert Viver tərəfindən həvəsləndirilmişdir. Səhnə əsərləri də 1940-cı illərdə həvəskar oyun cəmiyyətləri sayəsində daha çox nümayiş etdirilmişdir. Bu dövrdə əvvəlki onilliklərdə meydana çıxan bir çox yazıçılar karyeralarının son əsərlərini (Likok, D.C. Skott) və ya ən diqqətəlayiq əsərlərindən bəzilərini – məsələn, Abraham Klinin "Sallanan kreslo" (The Rocking Chair**,** 1948); Meri tənqid edən şeirləri), E.J.Prattın uzun millətçi şeirləri, Malkolm Lauri bir alkoqolik adamın son gününün ehtiraslı və sıx ifşası, Vulkan altında (1947); və Sinclair Rossun "Nazir arvadının psixoloji anatomiyası" əsərləri nəşr etdirildilər. V.O.Mişel və Robert Fonteyni kimi digər yazıçılar uşaqlar üçün yumoristik hekayələr ("Kim küləyi görüb" – 1947, "Xoşbəxt zamanlar" –1945), Bob Edvard, Erik Nikol, Pier Berton kimi yazarlar sosial tənqid, Robertson Deyvi və Paul Hibert kimilər isə parodiya tipli əsərlər yazırdılar. Gabriel Roy, Roger Lemel və başqalarının əsərlərinin tərcümələri meydana çıxdı. Onların bir çoxu mövzu baxımından şəhər və anti-klerikal mövqedə idi. Bu dövrdə ən çox diqqət çəkən Hyu Maklennanın əsərləri idi.Onun əsərləri öz kanadalı ruhuna və tərzinə görə daha ciddi ədəbiyyat hesab olunurdu. Bu əsərlər ən çox alleqorik xarakter daşıyırdı ("Yüksələn Baromiter",1941). Digər əsərlər Kanada-Amerika əlaqələrinə, Kanada təbiətinin ecazkarlığına və insan xarakterin ikitərəflilik problemlərinə toxunulur. Bu müstəvidə biz Ted Allanın 1952-ci ildə çap etdirdiyi, milli qəhraman Norman Bethuna həsr edilmiş "Gecəni bitirən saat" (1959) əsərini (bu milli qəhramana Cou Uolles də böyük bir poema həsr etmişdir), Etel Uilsonun qadınların həyatına həsr etdiyi bir neçə roman və povestini missal göstərmək olar. Bu hekayələrdə Uilson eyhamlı üslubun necə gözəl empatiya ifadə edə biləcəyini və fəsahətli ifadələrin xarakterin dərinliklərini ortaya qoyduğunu nümayiş etdirdi. Müasir tənqidçilər görə bu iki onillikdə nəsr müstəvisində əldə olunan əsas nailiyyətlər mif və ədəbi üslubun magisterial nəzəriyyəsi olduğunu sübut etdi. Buna Nortrop Frayın "Tənqidin anatomiyası" əsəri (1957), mühafizəkar Donald Kreytonun, liberal Frənk Underhillin, populist Brus Haçısonun bu tipli əsərlərini misal göstərmək olar. Bu siyahıya Kanada tarixinə həsr olunmuş rəqabətli cildləri, fəlsəfə və digər mədəniyyət sahələrinə həsr olumuş nəzəriyyə və bilikləri də əlavə etmək olar. Bu dövrdə ədəbi mühitin diqqətini yenicə çap olunmuş dörd roman daha çox cəlb etmişdir. Bunlardan birincisi Mordesay Riçlenin karyerasının ilk böyük uğuru olan "Daddi Kravitizin çağırışı" (1959) romanıdır ki, burada Monrealda iddialı bir yəhudi anti-qəhrəmanı haqqında danışmaqla ənənəvi sosial adət-ənənələri alt-üst etmək üçün küçələrdə yüksək qiymətləndirilən bir üslubdan istifadə edilir. İkinci bir roman Elizabet Smartın əvvəl-əvvəl Kanadada qadağan olunmuş "Böyük mərkəzi stansiyada mən yerə uzandım və ağladım" (1945) adlı əsəridir ki, burada janr kəsişməsi müəllifin ingilis şairi Corc Barkerlə qeyri-ənənəvi məhəbbət macərasının qondarma versiyasını nəsr poeziyasında izah edir. Sonrakı iki roman, modernizmin cazibəsini daha çox nümayiş etdirən Malkolm Laurinin "Vulkan altında" və Şeyla Uotsonun "Qoşa qarmaq (1959) əsərləridir. Uotsonun romanı bir qətlin hekayəsindən bəhs edir, lakin onun fərqli elliptik nəsri adi süjetdən qaçır, oxucudan dili sadəcə hekayənin şəffaf çatdırılması kimi qəbul etməklə kifayətlənməyərək dilin fizikiliyinə qərq olmalarını xahiş edir. Konvensiyaya qarşı daha bariz bir müqavimət poeziyada baş verdi. O vaxt təxminən əlliyə yaxın görkəmli şair-yazar vardı və tərtib edilən istənilən siyahıda A.G.Beyli, Elizabet Bruster, Fred Koqsvel, Roy Daniel, Robert Finç, R.A.D. Ford, Corc Jonston, Duglas Le Pan, Jeyms Riney,

Doroty Roberts, Kay Smith, Frencis Sparşot, Miriam Wadinqton, Cou Uolles (kommunist "fəhlə-şair") və Anne Vilkinsonun adı vardır [1, s.516]. Onların işi qafiyəli sonetdən və yerli xalq mifindən tutmuş sosial bərabərsizlik, cinsi kimlik, mənzərə, mənəviyyat və beynəlxalq siyasət mövzulu sərbəst şeir nümunələrinə qədər dəyişirdi. Bu əsərlərlə yaxından tanışlıq sonrakı dövrdə yeni-yeni yazarların meydana atılmasına rəvac verdi. Bu xüsusda Preview və First Statement jurnalları mühüm rol oynadı. Sonradan bu jurnallar biləşərək görkəmli ədiblərin və onların əsərlərinin tanıdılmasında əvəzsiz rol oynadı. Bu yazarlardan Alan Krouli, Leonard Kohen, İrvinq Leyton, Lyus Dudek, Reymond Sostert kimi şair və yazıçıları göstərmək olar. Bu dövr yeni millətçilik dalğasının yaranması astanasında sona yetdi. Massey Komissiyasının hesabatı (Sənət, ədəbiyyat və elmdə milli inkişaf üzr kral komissiyası) İzaak Uolton Killam ailəsinin maliyyə dəstəyi ilə 1957-ci ildə Kanada İncəsənət Şurasının yaradılmasına səbəb oldu. Bu da öz növbəsində Kanada mədəniyyətinin nəzərəçarpacaq dərəcədə inkişafına imkan verəcək şəkildə dəstəkləmiş oldu. Bir neçə antologiya, sorğu kitabçaları nəşr olundu və 1959-cu ildə Kanada Ədəbiyyatı jurnalı (Kanada yazıçıları və yazılarına diqqət yetirən ilk tənqidi jurnal) libertar tarixçi Corc Vudkokun redaktorluğu ilə təsis edildi. Bu yenilik 1960-cı illərdə yeni nəsil yazıçıların meydana atılmalarına rəvac vermiş oldu.

2013-cü ildə Kanadalı yazıçı Alis Munroya Ədəbiyyat üzrə Nobel mükafatı verilərkən İsveç Akademiyası onu "müasir qısa hekayələrin ustadı" adlandırmışdır. 1950-ci illərdən sonra bədii ədəbiyyatdakı bu təxminilik ya romanın mövzusuna çevrildi, ya da yazının daha etibarlı formalarında əriyib yox oldu. Robertson Deyvisin məşhur Deptford trilogiyasında ("Beşinci biznes", 1970; "Mantikor", 1972; "Möcüzələr dünyası", 1975) Jungian paradiqması çərçivəsində baş qəhrəmanların yetkinliyə doğru böyüməsi araşdırılır. Kanadalı identikliyinin və sənət dünyasının tədqiqi baxımından Deyvisin Korniş trilogiyasının ("Üsyançı mələklər", 1981**; "**Sümükdə yetişdirilənlər nədir", 1985; "Orfeyin lirası", 1988) və "Ölüm və gəzən ruhlar", 1991) əhəmiyyəti böyükdür. Alice Munronun "Qızların və qadınların həyatı"(1971) və Marqaret Lorensin "Daş mələk", (1964); "Tanrının zarafatı", (1966); "Falçılar" (1974) romanlarında baş qəhrəmanların kiçik şəhər irsinin sıxışdırılması əleyhinə üsyanı araşdırılır. Munronun qısa hekayələr toplusundakı "Xoşbəxt kölgələrin rəqsi" (1968) , "Qala qayasından görünüş" (2006) hekayələri Toronto, Ontario və Britaniya Kolumbiyasında qadınların ailə-məişət münasibətləri getdikcə daha müəmmalı bir üslubda təsvir edilir. Mavis Gallantın "Seçilmiş hekayələr, (1996)" toplusundakı əsərlərdə həyatdan təcrid olunmuş personajların parçalanmış kövrək dünyaları təsvir edilir. "Körpünün o tayında" (1993) hekayələr toplusunda o, adi insanların həyatında xeyir və şər arasındakı incə münasibəti araşdırır. Marqaret Ətvud "Yeməli qadın" (1969), "Orakle xanım" (1976) və "Soyğunçu gəlin" (1993) adlı əsərlərində müasir şəhər həyatını kəskin istehza ilə tənqid etmişdir. "Bədənə zərər" (1981), "Qulluq nağılı" (1985) və spekulyativ "Oriks və Kreyk" (2003) siyasi zorakılıq və distopiya haqqında xəbərdarlıq nağıllarıdır. "Alias Qreys" (1996) və "Kor Qatil (2000) əsərlərində qadınların gizli dünyaları, həqiqət və ədalətin qeyri-müəyyən təbiəti ifşa olunur. Mordekay Riçlerin "Daddy Kravitzin şagirdliyi" (1959), "Müqəddəs Urbenin atçısı" (1971), "O vaxt və indi" "Coşua" (1980), "Solomon Qurski burada idi" (1989) və "Barninin versiyası" (1997) romanlarında hadisələr Monreal, London və Parisdə cərəyan edir və bu əsərlərdə müasir cəmiyyətə məxsus durum və ikiüzlülük qara yumor vasitəsilə satira atəşinə tutulur. 1960 və 70-ci illərdə nəşr edilən bir çox yazıçılar ənənəvi bədii ədəbiyyat konvensiyalarını alt-üst edərək realizmdən sürrealizmə, feminizmə və ya parodik üsullara keçid etdilər. Tarixi hadisələr və məkanın təxəyyül mənbəyi kimi tədqiqi ən ümumi mövzu olaraq qalsa da, narrativ formalar eksperimental və oynaq xarakter daşıyırdı. 1980-90-cı illərdə yazıçılar həm gender, həm də janrın ənənəvi sərhədlərini aşarkən fərdi və milli mənsubiyyət ideyalarını yenidən müzakirə etməyə başladılar. Robert Kroşun "Mənim nəriltimin sözləri" (1966), "Ayğır adam" (1969) və "Köçmüş hindular" (1973) trilogiyası Preriya romanlarındakı realizmi postmodern parodiyalarına çevirdi. Radi Vibinin "Böyük Ayının vəsvəsələri" (1973),

"Yandırılmış ağac adamlar" (1977) və "Qəriblərin kəşfi" (1994) əsərlərini qərbdəki tarixi hadisələrə və ilk millətlərlə avropalı tədqiqatçılar və məskunlar arasındakı qeyri-müəyyən münasibətlərə əsaslanan bədii ədəbiyyat nümunələridirlər. "Müharibələr"də (1977) əsərində Timoti Findley məktublar və fotoşəkillər vasitəsilə qəhrəmanına I Dünya müharibəsinin təsirlərini aşılayır. Onun "Məşhur son sözlər" (1981) və Nuhun gəmisinin səyahətindən bəhs edən "Səyahətdə istənilməyən" (1984) əsərləri də müasir dövlətdə təhlükəli faşist meyillərinin olmasına işarə edən tarixi metafiksiyalardır [2, s.17]. Corc Boverinqin 18-ci əsr tədqiqatçısı Corc Vankuverdən bəhs edən "Yanan su" (1980) və Maykl Ondaatyenin caz musiqiçisi Baddi Boldendən bəhs edən "Qırğından keçənlər" (1976) əsərləri tarixi-avtobioqrafik səpkidə yazılmıdır. Ondaatyenin 1920-ci illərin Torontosundan ("Aslan dərisində", 1987), İkinci Dünya müharibəsi zamanındakı İtaliyadan ("İngilis xəstəsi", 1992;) və vətəndaş müharibəsi nəticəsində dağıdılmış Şri Lankadan ("Anılın kabusu", 2000) bəhs edən əsərlərində kiçik insan qruplarının həyatları haqqında hekayətlər təsvir edilir. Karol Şildsin romanları, hekayələri və pyesləri adi qadın və kişilərin həyatını parlaq, çox vaxt yumşaq satirik üslubda təqdim edir. Pulitzer Mükafatına layiq görülmüş "Daş gündəliklər" (1993) əsərində hadisələr XX əsrin əvvəllərində Manitobada başlayır və Deyzinin doğulduğu andan ölümünə qədər olan həyatı izlənilir. "Hələki yox" (2002) əsərində isə xeyirxahlığın əleyhinə olan və rahat ailə həyatına daxil ola bilməyən orta yaşlı bir peşəkar qadından bəhs edilir. Odri Tomas "Real analar" (1981) innovativ qısa hekayələr toplumunda və "Intertidal həyat" (1984); "Oyulmuş surətlər" (1993), "Isobel Gunn" (1999) kimi romanlarında qadınların üzləşdiyi dilemmaların mahiyyətini açıqlayır. Cək Hocinsin "Dünyanın ixtirası" (1977) və "Makken cazibəsi" (1995) əsərlərində sürreal adanın xəritəsini çəkir, ekssentrik personajlar yaradır və Vankuver adasının rəngarəng tarixindən bəhs edir. Tarixin izləri Ann Mayklsın "Qaçaq parçalar" (1996) lirik romanında da özünü büruzə verir. Burada uşaq ikən nasistlərdən xilas edilmiş və Torontoda mühacir olan polyak şairin hekayəsi ilə uşaq ikən Holokostdan sağ çıxan gənc professorun hekayəsi müəyyən bir nöqtədə kəsişir.

Tarix hadisələrin Kanada ədəbiyyatının bütün formalarına güclü təsir göstərsə də, regional bədii ədəbiyyat ənənəsi öz impulsunu qoruyub saxlamışdır. 1980-90-cı illərdə ölkə daxilində pluralizmin daha sürətlə genişlənməsi diqqəti cəlb edir. Bu dövrdə çoxsaylı İlk Millətlər, Metislər və İnuit yazıçılarının meydana çıxdığının şahidi oluruq. Tarix, torpaq, millət, cəmiyyət və ədəbiyyat anlayışlarının Qərb tətbiqinə müqavimət göstərən bu yazıçıların çoxu öz şifahi ənənələrini, miflərini və mədəni təcrübələrini yenidən nəzərdən keçirməyə başladılar. Mövzuların təkrarlanması**,** mədəniyyətlər arasında ortaq nöqtənin tapılması, irqi ayrıseçkiliyə qarşı mübarizə aparılması kimi məsələlər insanın ağrılı trayektoriyasıdır və etiraz ədəbiyyatı kimi təqdim olunur. Bu narahatlıqları özündə ehtiva edən əsərlərə Jennet Armstronqun ("Kəsişmə" (1985), "Kölgədə pıçıltı" (2000)), Beatris Kulletonun "Aprel yağış ağacının axtarışında" (1983), Tomson Hayveyin "Xəz Kraliçasının öpüşü" romanları və hekayələri daxildir. Bu janrlar həm də Kanada ədəbiyyatı sahəsində üstünlük təşkil edən və sənədli yazı ənənəsi ilə səsləşən həyat yazısının bir hissəsidir və buraya bioqrafiya, biofantastika, məktublar və gündəliklər də daxildir. Bu dövrdə diqqəti cəlb edən əsərlərin əsas mövzuları immiqrantların həyatda rast gəldikləri və üzləşdikləri vətən, şəxsi mülkiyyət,mədəni assimilyasiya və yadlaşma, nəsillərarası mübarizə kimi məsələləri özündə ehtiva edirdi. İtalyan əsilli kanadalı Nino Rissinin "Müqəddəslərin həyatı" (1990), "Şüşə evdə" (1993) və "O getdiyi yer" (1997) trilogiyalarında İtaliyadan Kanadaya qədər uzanan səyahət təsvir edilir. Parisdə mühacir olan Nensi Hyustonun lirik və meditativ romanları olan "Sadə mahnılar" (1993), "Mələyin nişanı"(1999) və "Parodiya" (2000) əsərlərində dislokasiya və sürgündən bəhs edilir. Buker Mükafatı laureatı Yann Martelin "Pinin həyatı" (2001) əsərində Hindistandan Kanadaya gedərkən gəmi qəzasına uğrayaraq bir neçə zoopark heyvanı ilə birlikdə Sakit okeanda sürüklənən 16 yaşlı Pinin fantastik səyahəti təsvir edilir. Bu müstəvidə digər bir azlığın – Asiya-kanadalı yazarları güclü və yenilikçi bir qüvvə kimi meydana atıldılar. Joy Koqavanın "Obasan" (1981), Hiromi

Qotonun "Göbələklərin xoru" (1994), Choyun "Ceyd Peony" (1995), Skay Linin "Yoxa çıxan Ay kafesi" (1990), Rohinton Mistrinin "Firozşa Baaqdan nağılları" (1987), "Belə uzun səyahət" (1991), "Gözəl Balanse (1995) və "Ailə məsələləri" (2001) kimi əsərlər bu qəbildən olan dəyərli əsərlər sırasındadırlar. Corc Elliot Klarkın poeziyası və fantastikası Kanada qaradərililərinin unudulmuş tarixini açır və Dionne Brandin "Ayın dolması və dəyişməsi" (1999) və Makeda Silveranın "Ürək əyilməz" (2002) əsərləri Afrika və Karib dənizi diaspora və immiqrantlarının həyatından bəhs edilir [3].

Ədəbi millətçilik və antiamerikanizmdən qaynaqlanan yeni mətbuat və ədəbi jurnalların və avanqard poetik formaların genişlənməsi poeziyanın 1960-cı ildən sonra çiçəklənməsini şərtləndirdi. İrvinq Layton məhsuldar işləyərək 48 cildlik poeziya nümunəsi yazıb nəşr etdirdi. O bu lirik sətirlərdə Kanada həyatındakı cinsi puritanizmi, sosial və siyasi çatışmazlığı tənqid atəşinə tutur. Kanadanın bir çox romançıları, o cümlədən Marqaret Ətvud, Maykl Ondaatje, Corc Bovering, Leonard Kohen və Dionne Brand kimi ilk şairlər bu dövrdə bədii yaradıcıqlarını daha da genişləndirdilər. Bu yazarlar əsərlərində təbiət təsvirlərindən tutmuş ölkənin sosial-siyasi həyatındakı bütün problemlərə öz münasibətlərini bildirmişdilər. Marqaret Avisonun "Qış Günəşi" (1982), Anna Vilkinsonun "Seçilmiş şeirlər" (1968), Qvendolin MakEvenin "Poeziya" (1994), Filis Vebin "Seçilmiş şeirlər", D.G.Consun "Hissəciklərin atılması" (1983), E.D.Blocetin "Apostroflar seriyası və digərlərinin əsərlərində oxucu müxtəlif yerlərdən, səyahətlərdən, mifologiyadan və təbiətdən çəkilmiş obrazlar vasitəsilə metafizik və mistik problemlərlə qarşılaşır. Şaron Sezen özünün "Uzun Qaxacın başlanğıcı" (1987), "Avrora" (1995), "Qayçı" (2001) və Don Makkey isə özünün "Sahə nişanları" (2006) kimi əsərlərində tarixi hadisələrdən, təbiət hadisələrindən və gündəlik həyatdan bəhs edən şeirlər yazırlar. Qadınların öz səslərini və təcrübələrini qeyri-ənənəvi formalarda ifadə etmək arzusu özlüyündə feminist ədəbi jurnalların (One's Own, Atlantis, Tessera, Fireweed) və mətbəələrin artmasına rəvac vermiş oldu. Qəzəb və kədərdən təsirlənən Mari Annhart Beyker, Bet Brant və Marilin Dumont İlk Millətlər və Métis kimi stereotiplərə etiraz edirdilər. Dionne Brandın "Heç bir dil neytral deyil" (1990) və Marlin Norbiz Filipin "O öz dilində danışır", "Onun sakitliyi sadəcə məhv edir" (1988) əsərlərində ingilis dilinin müstəmləkəçiliyinə və irqçiliyinə qarşı meydan oxuyurkən, Corc Eliott Klarkın "Vaylahın məğlubiyyəti" (1990) kollajı 1930-cu illərdə kanadalı qaraların Yeni Şotlandiya kəndindəki həyat tərzini açıb göstərir. Səslərin və mənliklərin artan müxtəlifliyi fonunda sonetdən qəzələ və sənədli uzun şerə qədər çoxlu formada yazıb yaradan Kanada şairləri özlərini ölkəsinə, ölkəsini isə dünyaya tanıtmağa müvəffəq oldular.

Kanada dramaturqları da şairlər və romançılar kimi milli mənşə məsələsində mif axtarışında olarkən tez-tez tarixi hadisələrə müraciət edirlər. Dramatik yazının ən erkən formaları Çarlz Meyrin "Tekumseh" (1886) və Sara En Kurzonun "Laura Sikord 1812-ci ilin qəhrəmanıdır" (1887) poetik əsərləri ilə başlayır və hər iki əsər 1812-ci il müharibəsinə həsr olunmuşdur. 1920-30-cu illərdə Meril Denison, Qven Faris Rinqvud və Herman Vouden kiçik teatrların dəstəyinə güvənərək Kanada dramaturgiyasını qurmaq üçün mübarizə apardılar. Bu mübarizənin nəticəsi olaraq 1950-ci və 60-cı illərdə bir neçə peşəkar teatr quruldu və bu teatrlar Con Kulter kimi dramaturqlar üçün daha mükəmməl mühit yaratmış oldu. O, "Riel"(1962) əsərində 1885-ci il Metis üsyanının lideri Lui Rielin qəhrəman obrazını yaratmışdır. Regional və eksperimental teatrlar çoxaldıqca yenilikçi və cəsarətli tamaşalar da çoxaldı və səhnələşdirildi. Bu müstəvidə Con Herbertin "Kişi düşüncəsi və uğur" (1967), Corc Riqanın "Rita Coun ehtirası" (1971) və Ceyms Renenin "Donnelli" trilogiyası (1976-77) əsərlərini göstərmək olar ki, burada Ontarionun cənubunda yaşayan irlandiyalı mühacir ailələrinin başına gələn müsibətlər bədii sözün ecazkar dili ilə açılıb oxuculara təqdim edilir. 1970-ci illərdə Toronto Teatr qrupları aktyorların ssenari yazımında iştirak etdiyi və qeyri-ənənəvi məkanlarda ifa olunduğu kollektiv istehsalları sınaqdan keçirdilər. Kollektiv yaradıcılıq nəticəsində "The Farm Show" (1976), "Paper Wheat" (1978),"Les Canadiens" (1977) kimi əsərlər meydana gəldi və bu əsər-

lərdə tarix, şəxsiyyət və millət problemlər nümayiş etdirildi. Ciddi realism David Frimən, David Frenç, David Fenario və Mikael Kukun bədi yaradıcılığının formalaşmasında mühüm rol oynadı. Onların əsərlərinin əksəriyyəti bir çox filmlərin ssenari mövzusu olmuşdur. Qadınların keçmişdəki həyatı Karol Boltun, Şaron Pollokun və Betti Ləmbertin pyesləri nəsillərarası münaqişələri və qadın problemlərini araşdırır. 1975-ci ildə qurulan Baş Barmaq Teatrı gənc tamaşaçılar üçün zorakılıq, boşanma və immiqrantlar kimi mövzularda tamaşalar hazırladı.

1960-1980-ci illər Kanada ədəbiyyatı tarixində ciddi bir dövr hesab edilir. Ölkənin yüzillik yubileyinin bayram edilməsindən və geniş yayılmış mədəni millətçilik gəlişmələrindən qüvvət alan müəlliflər Kanada ədəbiyyatını milli kimliyin inkişafına kömək edəcək bir vasitəyə çevriləcəyindən riqqətə gəldilər. Amerika və ya ingilis ədəbiyyatına və ənənələrinə güvənmək əvəzinə, yazıçılar Kanada ədəbiyyatını yaratmağın nə demək olduğunu düşünürdülər və oxucular Kanada məzmunlu ədəbiyyatı daha ciddi qəbul edirdilər [4]. Əlbəttə ki, Kanada yazısı haqqında mülahizələr vahid cəbhədən aparılmırdı və milli ədəbiyyatın üstünlükləri haqqında mübahisələr yeni yaranan ədəbi icmalarda, emalatxanalarda, teatrlarda, mətbuatda, jurnallarda, universitet kurslarında və akademik jurnallarda aparılırdı. Bu inkişafyönümlü institutları dəstəkləyən müəlliflər Kanada ictimai tarixində mühüm anlar yaşamışlar. Universal səhiyyə, Multikulturalizm Nazirliyi və Kanada Radio-Televiziya və Telekommunikasiya Komissiyasında Kanada məzmununu özündə ehtiva edən qayda-qanunlar yaradıldı. Kanada yazıçıları əqidə müstəvisində sosial yönümlü idilər. Onlar keçmişin dominant konsepsiyasına meydan oxuyan və qadınların və marjinal icmaların həyatını vurğulayan üsullarla fərdləri daha geniş sosial kontekstlərə hazırlamaqla məşğul olurdular. Karyeraları 1960-cı ildən əvvəl qurulmuş bir çox yazıçılar, o cümlədən Mordecey Richler, Doroti Layvsi və Filis Veb bir çox əsərlərini 1960-ci ildən sonra nəşr etdirmişdilər. 1960-80-ci illər arasındakı dövrdə Malkolm Lauri, Pyer Berton, Kristi Harris, Dennis Lii, Marqaret Lorens, Marqaret Ətvud,Əlis Munro və Timozi Findley kimi yazarların əsərləri meydana çıxdı və bu əsərlərə Kanada milli kimliyi məsələsi geniş şəkildə tərənnüm olunmağa başlandı. Kanada məktəbləri Kanada ədəbiyyatını daha ətraflı öyrətməyə başladı. Lakin bu inkişaf hamı tərəfindən dəstəklənmir. Ədəbiyyatın, tədris resurslarının və ixtisaslı müəllimlərin olmaması narahat idi. Buna baxmayaraq, akademik jurnallar yaranmaqda idi və Kanada yazarlarının əsərləri bu jurnallarda zaman-zaman təhlil olunaraq oxuculara təqdim olunurdu. Dövrün daha genişmiqyaslı inkişaf prosesində Hud və Metkalf Klark Blez, Rey Freyzer və Raymond Smitlə birləşərək "Monreal hekayəçiləri" qrupunu yaratdılar. Qısametrajlı bədii janrın əhəmiyyətini vurğulayan sənətkarlar əslində Kanada ədəbiyyat tarixində bu janrı yenidən qurdular. Onların müasirləri arasında Norman Levin, Kent Tompson, Mavis Gallant, Əlic Munro, Corc Eliot və digərləri də vardır. Eliotun eliptik "Öpüşən adam" (1962) əsəri oxucuları valeh etdi. Gallantın hekayələri**,** xüsusən də "Pegnitz qovşağı" (1973) və "On beşinci rayondan" (1979) kitablarında toplanmış hekayələri, insanların həm adi şəraitdə, həm də müharibə zamanı və ondan sonra təzyiq altında necə davrandıqlarını başa düşmək üçün modernist üsullardan ("sərbəst diskurs" kimi) istifadə etməli oldu. Əlis Munro Ontarionun cənubi-qərb həyatını canlı olaraq "Qızların və qadınların həyatı" (1971), "Sənə demək istədiyim bir şey" (1974) və "Sən özünü kim hesab edirsən?" (1978) əsərlərində əks etdirərək 1950-ci illərdə "şəhərli realisti" Hyu Qarnerin kölgəsində meydana çıxsa da, tezliklə tənqidi qiymətləndirilmədə onu geridə qoydu. Oxucular Munronun personajlarına yüksək rəğbət bəsləyərək onun üslubunun istehza, obrazlılıq və hekayə daxilində hekayə formasının effektiv idarə olunması kimi incəliklərini qiymətləndirməyi öyrəndilər**.** Digər bədii ədəbiyyat janrlarında da mifopoetik düşüncənin və əks-mədəni rəvayətlərin artan təsirindən istifadə edərək sosial öhdəlikləri ifadə etməyin dolayı yollarını axtarılırdı. Nortrop Frayın mif nəzəriyyələrindən sonra bir neçə yazıçı povest çərçivəsi üçün təmsillər və ya Jungian arxetipləri yaratdılar. Şeirdə Cey Makfersonun "Fəlakətin qarşılanması" (1974) əsərində qadın psixologiyasının alt qatları tədqiq edilir. Kanada ədəbiyyatı, müəyyən mövzular və onun təşkilatlanması baxımından millətçi olsa da, janrlar, texnikalar və mövzularla əlaqədə heterojen

idi. Bu, 1960-1980-ci illər arasında Kanada ədəbiyyatını müəyyən edən mədəni millətçiliyin böyük təsiri ilə çoxsaylı digər yerli, regional və beynəlxalq sosial və bədii narahatlıqlar arasındakı gərginliyin ifadəsi idi [5].

20-ci əsrin son iyirmi ili sosial və iqtisadi mühafizəkarlığın artması ilə yadda qaldı. A.K.Dyudneyin "Planlama" (1984) romanı bədii ədəbiyyatda kompüter riyaziyyatının erkən nümunəsini təqdim etdi. Demoqrafik dəyişiklik "BABY BOOM" nəslinin 1990-cı illərə qədər sosial strukturları nəzarət altına alması demək idi. Kanadanın mədəni qarışığı yenidən dəyişirdi. Qloballaşma dövründə bəzi tənqidçilər gender irqi, yoxsulluq, sinif, diaspora, travma və mədəniyyətin korporativ mülkiyyəti kimi qlobal və ya "post-milli" problemlərin həlli lehinə mətn və tarixi şərhlərdən imtina etməyə başladılar. Bu konfiqurasiyalarda "Kanada ədəbiyyatı" termininin özü bəzən mürtəce siyasətin sübutu kimi mübahisələndirilirdi. Digər yazıçılar və tənqidçilər üçün "Kanadalı" sifəti mövzu, texnika və ya siyasi perspektivdə heç bir məhdudiyyət olmadan "coğrafiya" və ya "vətəndaşlığa" istinad etməyə davam edirdi. Bütün bu cür məqamlarda "ədəbiyyat" anlayışı yenə də strategiya, funksiya və dəyərlə bağlı mübahisəli suallar doğururdu. Belə bir abu-havada bir sıra yazıçılar cəmiyyətin durumunu araşdırmağa başladılar. Riçard Raytın və Lenderlinin yazılarında şəhər və kənd yerlərində yoxsulluğun, xəstəliyin və sosial çöküşün spesifik nəticələri araşdırılırdı. Bəziləri dövlət siyasətini açıq şəkildə tənqid edirdilər: onların arasında Marqaret Ətvudun "Qadisin nağılı" (1985) romanı, Timoti Findlinin "Baş ovçu" filmi (1993), Rik Saultinin və Con Ralston Saulun polemik esseistləri də vardır. Ətvud və Findlinin romanlarının hər ikisi distopiyalardır. Hər iki kitabda mövcud sosial meyillər tənqid edilir, təhlükəni böyüklüyünü aydınlaşdırmaq üçün hadisələr şişirdilir. Məsələn, "Əl işi" filmindəki qadın personajlar qadınların əmtəələşməsini vurğulayaraq, supermarket məhsulları olduqlarını bildirirlər.

Bu dövrdə ən çox şöhrət qazanan yazıçıların çoxu 1980-ci ilə qədər müəyyən reputasiya qazanmışdılar və 2000-ci ilə qədər tənqidi baxımdan ən uğurlu kitablarından bəzilərini artıq nəşr etdirmişdilər. Bu müstəvidə Marqaret Ətvud, Corc Boverinq, Klark Bleyz, Timoti Findli, Nortrop Fray, Mavis Qallant, Cek Hodginz, Hyu Had, Eli Mandel, Əlis Munro və digərlərinin adlarını qeyd etmək olar. Bu dövrün yazıçıları tez-tez şəxsi və ya ictimai tarixi yenidən təsəvvür etmək üçün yollar tapırdılar. 1949-cu ildə Kanadanın 10-cu əyalətinə çevrilmiş Nyufaundlenddə bir çox gənc yazıçılar peyda oldular.Onlar erkən tarixi yenidən izah edərək ədəbiyyatda öz yerlərini tapdılar və ya uşaqlıq illərinə və Konfederasiyaya səsvermədə iştiraka qarşı olan gərginliyə yenidən baxdılar. Bu əsnada Veyn Constonun "Qarşılıqsız Xəyallar Koloniyası", 1998; "Baltimorun malikanəsi", 1999), Bronven Uollesin şeirləri, məktubları və esseləri ciddi əhəmiyyət kəsb edir və burada qadınlara qarşı zorakılığa və dil islahatının məhdudiyyətlərinə toxunulur. "Kateqoriyaya" meydan oxumaq, yəni hər hansı bir ixtiyari sistem vasitəsilə reallığın (və ya "şəxsiyyətin") kodlaşdırılmasının etibarlılığını şübhə altına almaq 20-ci əsrin sonlarında Kanada ədəbiyyatında təkrarlanan motivi təşkil edir. Yer, irq, cins kimi kateqoriyalara daxili və ya mütləq həqiqətlər kimi deyil, sosial və ya intellektual "konstruksiyalar" kimi baxılırdı. Bu cür sorğular belə qənaətə gəlməyə əsas verir ki, onilliyin mühafizəkarlığına baxmayaraq, "həll yolları" insanların əksəriyyətinə illüziya olduğunu sübut etdi. "Təbii vəziyyət" sabit həqiqətdən daha çox qeyri-müəyyənliyi ehtiva edən bir vəziyyət kimi qəbul olunur.

İşin elmi nəticəsi. Tədqiqat göstərdi ki, II Dünya müharibəsindən sonra ingilisdilli Kanada ədəbiyyatının müxtəlif inkişaf mərhələlərində müxtəlif ədəbi janrların formalaşmış, inkişaf etmiş və bu müstəvidə çox sayda bədii əsərlər yazılmışdır.

İşin elmi yeniliyi. İngilisdilli Kanada ədəbiyyatının II Dünya müharibəsindən sonrakı inkişaf mərhələləri müstəvisində bədii ədəbiyyatda antisemitizm və irqi ayrıseçkilik kimi problemlərin ön planda tutulduğu müəyyən edilmişdir.

İşin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın materiallarından ingilisdilli Kanada ədəbiyyatının inkişaf tarixinin öyrənilməsində istifadə etmək olar.

Ədəbiyyat

1. Carl, F. Klinck, ed., Literary History of Canada: Canadian Literature in English (Toronto: Univ. of Toronto Pr., 1965), – p.719.
2. Joseph Jones and Johanna Jones, Canadian Fiction (Boston: Twayne Publishers, 1981), 21.
3. Bennett, D. *An Anthology of Canadian Literature in English* / D.Bennett, B.Russell, eds., – 3rd ed., – 2010.
4. Hutcheon, L. Canadian Multicultural Fiction / L. Hutcheon, – 1990.
5. W.H.New The Literary History of Canada, – 2nd ed., – vol.4, – 1990.

N.F.Khankishiyev

The Development Stages of English-Language Canadian Literature after World War II

Summary

This article is about the history of English Canadian literature after II World War. Here the talk goes about the establishment and development of different literary genres in different periods of time. It also touches upon the problems of antisemitism and race discrimination ,the devolpment of Canadian native literature, the poets and novelists of the Confederation qroup, the outstanding members of the Canadian literary school of XIX century and literary men of the XX century.

Key words: *native literature, canadian spirit, confederation qroup, new sounds – new traditions*

Н.Ф.Ханкишиев

Этапы развития англоязычной канадской литературы после Второй мировой войны

Резюме

Эта статья посвящена истории англо-канадской литературы после Второй мировой войны. Здесь речь идет о становлении и развитии разных литературных жанров в разные периоды времени. В нем также затрагиваются проблемы антисемитизма и расовой дискриминации, развитие канадской национальной литературы, поэтов и писателей группы «Конфедерация», выдающихся представителей канадской литературной школы XIX века и творческие искания литераторов XX века.

Ключевые слова: *родная литература, канадский дух, писатели группы конфедерации, новые звуки – новые традиции*

Rəyçi: fil.f.d. dos. G.M.Hüseynli

Redaksiyaya daxil olub: 05.05.2025

K.Ş.KAZIMOV
filologiya elmləri doktoru, professor
e-mail: kkamran@mail.ru
:https://orcid.org/0000-0003-4801-3823

Lənkəran Dövlət Universiteti
(Lənkəran şəh., General H.Aslanov xiyabanı, 50)

10.62021/0026-0028.2025.2.179

UOT-82-09.

ELŞAD SƏFƏRLİ LİRİKASINDA İKİNCİ QARABAĞ MÜHARİBƏSİ MÖVZUSU – MƏNƏVİ BİRLİK VƏ VƏTƏNİN BÜTÖVLÜYÜ İDEYALARI

Xülasə. *Məqalədə şair Elşad Səfərlinin lirikasında İkinci Qarabağ müharibəsi mövzusuna toxunulmuş, bu fonda Vətən milli mənlik şüurunun tərbiyəsi və vətəndaşlıq motivlərinin ideya-bədii xüsusiyyətləri araşdırılmışdır.*

Bir sıra konkret nümunələr üzərində izah və təhlillər aparılmış, onların mənəvi-estetik, yurda, torpağa, Vətənə bağlılıq konteksi müəyyənləşdirilmişdir. Bu xüsusda, "Bir anın yuxusu" poemasında şəhid baş leytenant Vüsal Kazımovun qəhrəmanlıq salnaməsinə Azərbaycan döyüşçüsünün ümumiləşdirilmiş örnək tarixi kimi istinad edilmişdir.

Məqalədə, həmçinin "Mavi məsafə" poemasına qısa təhlili baxış keçirilmiş, Azərbaycan xalqının milli-azadlıq, mənəvi birlik, vahidlik, Vətənin bütövlüyü idealları uğrunda mübarizəsi bu poemada özünüdərk və özünütəsdiq faktı kimi əsaslandırılmışdır.

Açar sözlər: *Lirika kontekst, salnamə, baş leytenant, Qarabağ, ideal*

Elşad Səfərli şeirinin çoxşaxəli mövzuları zəncirində birləşdirici, tamamlayıcı həlqə – vətən mövzusudur. Digər yardımçı mövzular, pərvanə şamın başına dolandığı kimi, yalnız vətən mövzusunun ətrafında dolanmaqdadır. İstər şeir olsun, istərsə də poema, fərq etməz. Vətən, vətənpərvərlik və vətəndaşlıq motivləri vətən mövzusunun səciyyələndirici ümumi cəhəti, cəmidir. Bu amil onun şair və sənət mövqeyinin, bəlkə də əsas şərtidir.

Lakin vətən mövzusu təkcə həmin meyarlarla məhdudlaşmır. Onu mənəvi birlik, milli şüurun tərbiyəsi və vətənin bütövlüyü ideyaları da əhatə edir. Eyni zamanda, bu ideyaların vətənin qorunması, yadelli işğallardan, yad təcavüzlərdən mühafizəsi kimi böyük şərəf və ləyaqət duyğusu da vardır.

Təəssüflər olsun ki, Azərbaycan öz hüdudlarında XX əsrin sonlarında rus-erməni qəsibkarları tərəfindən dəfələrlə hərbi güclərin qeyri-bərabərliyi şəraitində bu cür təcavüzlərlə, işğal faktları ilə üzləşməli olmuşdur.

Əslində bizim üçün yaradılmış bu ağrılı probleminin əsası Rusiya ilə İran arasında 1813-cü il 12 oktyabr tarixində bağlanmış "Gülüstan" sülh müqaviləsi ilə qoyulmuşdur. Birinci və İkinci Qarabağ müharibələri də həmin problemin tərkib hissələridir.

Parçalanmış Azərbaycan probleminə çox-çox sonralar isə itirilmiş Qarabağ problemi də əlavə olundu.

Təəssüf doğurucu faktdır ki, parçalanmış Azərbaycan probleminə poeziyamızda böyük xalq şairimiz B.Vahabzadənin "Gülüstan" poemasından başqa etirazedici, cəsarətli elə bir poetik nümunəyə təsadüf etmədik. Poeziyamız bu ağrını dilinə gətirə bilmədi, konyunktur, sosiologizm mövzuları ətrafında dolanmağa üstünlük verdi. Bəlkə də buna məcbur idi...

Birinci Qarabağ müharibəsinin ağrı-acılı nəticələrinin mövcudluğu dövründə də poeziyamız ucuz, şablon, trafaret səslənən "vətən sevgisi"ndən irəli gedə bilmədi. Silaha qurşanıb vətə-

ni işğaldan qurtarmağı düşünmək əvəzinə, millətin bəlkə də yarısı qədər, ucuz, saxta patetikadan irəli gedən bilməyən sözbaz adamlar "şairliklə" məşğul olmağı hər şeydən üstün tutdular.

Məhz belə bir məqamda Elşad Səfərli belələrinə qarşı sözünü ötkəm deməyi bacardı, ümumiyyətlə, bu cür heç də xoş görünməyən mənzərəyə kinayəli mövqe nümayişindən qala bilmədi.

Azadlıq deyilən şey
Keşməkeşli bir yoldu.
Bu yolda çarpışan xalq,
Yalnız müstəqil oldu.

Bir yanda qaçqın, fağır,
Bir yanda kef, çal-çağır.
Adam var sərvət yığır,
Torpağısa işğaldı.

Heyrət, yurdum, min heyrət
Kimsədə yoxmu qeyrət?!
Torpağı işğal millət,
Şairliklə məşğuldu. [5, s. 51-52]

"Məmləkətə ulduz yağışı yağır" şeirində isə torpağının iyirmi faizindən çoxunu rus-erməni qəsibkarlarına uduzan, lakin paqonlarına növbəti general ulduzlarını düzən generallara acı istehzası kəskin sarkazm kimi mənalanır.

Məmləkətə
Ulduz yağışı yağır.
Çadırlardan
Ulduz yağışına baxır
Fağır-fağır,
Qaçqın, köçkün balaları.
Çiyinlərə yağış yerinə
Göydən iri-iri
Ulduzlar yağır.

Paqonlarına
Növbəti ulduzları düzməknən məşğuldu,
Məğlub ordunun generalları.
Döyüş uğurları var bəlkə?...
Bundan qürur duyurmu
Çadırlı
Qızları qara çadıralı ölkə?! [4, s. 58]

Mərhum şair-tarixçi alim Şahin Fazil bu şeirə xitablı, emosional bir izah verir: "Bildinizmi nədir ulduz yağışı? Paqonlarına növbəti ulduzları düzməklə məşğul olan ordu generallarının əvəzinə xəcalət çəkdinizmi? Duydunuzmu bu ulduz yağışına çadırlardan baxan qara çadralı qaçqın, köçkün balaların dərd-qübarını?! [4, s. 229-230]... Sitat müəllifinin sualları heç də qarşı tərəfdən cavab almaq məqsədi güdmür, bunlar bədii suallardır. Müəllifi sadəcə, acınacaqlı məğlubiyyətin qarşısında paqonuna general ulduzunu tikən generalların bu təzadlı, mahiyyəti ilə uyuşmayan hərəkətlərini sakit, təmkinlə qarşılaya bilmir. Qara çadralı qızların, ulduz yağışına fağır-fağır baxan qaçqın-köçkün balaların fonunda general rütbəsi verilən generalların təmtərağını başa düşmür, fikrini qarşıdakılara təsirli çatdırmaq üçün güclü ifadə vasitəsi olan bədii suala müraciət edir. Öz həyəcan, əsəbi, çılğın emosiyasını, əhvali-ruhiyyəsinin pisliyini, cəbhədə bizimkilərin məğlubiyyətinə görə pərişanlıq hisslərinin ekspressiv ifadəsinə çalışır, bədii sualdan məharətlə istifadə əsasında özünün təəccüb və təəssüfünü vətəndaşlıq yanğısı ilə verə bilir. Bundan qürur duyurmu qızları qara çadralı ölkə? – misralarının tənə məzmununu ölkə məmurlarına çatdırmağı da unutmur.

"Torpaq adamının oğluna öyüdü" şeirində isə tənə, istehza predmeti kimi bu dəfə generallar, məmurlar deyil, doğma yurdunu, torpağını atıb şəhərə qaçanlardır. Bunların sırasında torpağını vicdansızcasına satan, ayağını torpağına basmaqdansa asfalt küçələri gəzməyi xoşla-

yanlar da az deyil. Qarabağ məğlubiyyətimizin əsas səbəblərindən biri kimi bu amil də həmin şeirdə özünə yer alır:

Qoru bu torpağı, oğul, qoru sən,
Üzü dönüklərə qaçıb qarışma.
Bala, bu torpağın güvənc yerisən,
Çətində asfaltdan gedib yapışma.
Çətində asfaltdan gedib yapışma,
Qalıb öz yurdunda od-ocaq qala.
Asfaltdan torpağa havadar olmaz,
Olsaydı Qarabağ getməzdi, bala. [5, s. 28-29]

Atanın oğluna: "bacar bu torpağın dilini öyrən, bu torpağ uğrunda ölməyi bacar; asfalt vicdanlılar satan torpağı, özgəyə güvənmə, çalış sən qaytar!" öyüdündə – mənim asfalt üstə böyüyənlərin, torpaq söhbətinə, çünki şübhəm var! – kimi pessimist düşüncəyə rast gəlsək də, torpağa, vətənə bağlılıq hisslərinin aşılanması xüsusiyyətinə görə bu şeirin əhəmiyyətlilik statusu diqqətçəkəndir.

Misralarda əksini tapan: asfalt sevən, asfalt üstə böyüyənlər, asfalt vicdanlılar kimi ifadələrdə "asfalt" sözü predmet yox, mənfi məzmunlu epitet səciyyəlidir, müharibə zamanı Qarabağdan yayınıb asfalt küçəli paytaxta qaçanların sifətini, xislətini kifayət qədər dolğun xarakterizə edən obraz qismində yenidir, tapıntı mahiyyətlidir.

İşğal faktına qarşı etiraz notlarını özündə birləşdirən "Qisas himnləri" poema-sonetlər çələngində müəllif qayəsi, ideyası nikbin notlar üstə daha qətiyyətli, elə himn kimi səslənir. Mövcud Qarabağ problemi bu poema-çələngin bütün ayrıca sonetlərində misra-misra incələnir. Poema hüdudunda on beş sonet Qarabağ dərdimizin ayrı-ayrılıqda həmin akkordları təsiri bağışlayır. Poema hiss-həyəcan, emosiya baxımından çox təsirli, polifonik ekspressiyaya malikdir. Burada ən mühüm cəhət ermənipərəst bir sıra Qərb dövlətlərinin başımızın altına yastıq qoymaq siyasətinin təcəssüm görüntüsü kimi görünən – Qarabağ probleminin hərblə həlli yoxdur – kimi sərsəm, saxta, məkrli, başaldadıcı niyyətlərinə qarşı inkaredici, qətiyyətli şair-vətəndaş mövqeyinin nümayişi ilə bağlıdır.

Aşağıdakı tersetlər həmin qətiyyətli etirazın təcəssüm faktlarıdır:

Hərbnən alınan yeri sülhnən verən kimdi ki?
Gülləynən alınanı gülnən verən kimdi ki?
Vətən, xam söhbətləri sən haqq bildiyin yetər.

Torpaq sözlə verilmir... min il də belə getsə,
Atəşkəsin özü də əgər məğlubiyyətsə,
Azərbaycan, vətənim, ta gözlədiyin yetər. [4, s. 210]

Maraqlıdır ki, iyirmi dörd il bundan əvvəl şair Elşad Səfərlinin misralarında böyük inamla özünə yer tapmış bir həqiqət işğal edilmiş ərazilərin yalnız hərb yolu ilə geri qaytarılmasının mümkünlüyü ideyası Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti və Azərbaycan ordusunun şücaəti sayəsində məhz hərbi yolla geri qaytarıldı. Bu həm də E.Səfərlinin baş verən hadisələrdən düzgün nəticə çıxarmasının, uzaqgörənliyinin fəal şair-vətəndaş mövqeyinə sahib olmasının poetik nümayişinin göstərici amilidir.

E.Səfərli yaradıcılığında İkinci Qarabağ müharibəsi mövzuları sırasında onun "Bir anın yuxusu" lirik poemasının sənətkarlıq və bədii xüsusiyyətlərinə görə öz parlaq yeri vardır. Bu poema igid, mübariz, şəhid qəhrəman baş leytenant Vüsal Kazımovun 44 günlük cəsarətli döyüş yoluna və onun simasında fədakar Azərbaycan döyüşçülərinə həsr edilmişdir. Bunu da qeyd edək ki, bu poemanın təsvir predmeti təkcə şəhidlik mövzusu deyil, həm də qırx dörd günlük İkinci Qarabağ müharibəsinin igid, fədakar oğullarının Vətən uğrunda qəhrəmanlıq mücadiləsinə arxa cəbhə insanlarının qürurla şahidlik mövzusudur. Bu poema heç də müharibə ağrı-acılarının, ana-bacıların üzüntülü – hüznlü məqamlarının tərənnümü deyil, çünki hüzn,

kədər, dərd, qəm lirikada tərənnüm yox, təkcə təsvir olunur. Və bu poema da lirikanın stixiyasına zidd, prozaiklikdən uzaq, yalnız qəhrəmanlığın təsvir poemasıdır. Bu poema əyaniliyin, reallığın təcəssümüdür, insanı kövrəltmək, onun duyğularına təsir "sığalını" çəkmək kimi lüzumsuz lirik qatqılardan tam uzaqdır. Burada mövzu insanı kövrəltməyə, təsirlənməyə yox, kritik məqamlarda dözümlülüyə, fədakarlığa, mətinliyə, Vətən uğrunda mübarizədə birliyə çağırış tendensiyalıdır, səfərbər ruha motivlidir.

Poemanın yazılma səbəbi də maraqlıdır, başlanğıc beş misra bir növ atanın qabaqcadan nəyisə duymaq, sezmək impulslarının göstəricisidir. Fikrə getmiş atanın birdən əlini döş cibinə atıb cəbhəyə yenicə yola saldığı oğlunun şəklinə diqqətlə baxması və qürurla – Merdi zoə merd – söyləntisi bəlkə də poemanın ilk kövrəkləndirici, təsirləndirici, ancaq stol həmkarına büruzə verilməyən xəfif, mənalı məqamıdır. Atanın "Merdi zoə merd (azərbaycanca – kişi oğlu kişi!) nidası, əslində oğlunun Vətən müharibəsində kişi oğlu kişi kimi vuruşacağına, mərdlik, qəhrəmanlıq göstərəcəyinə bəslənilən böyük inam, eyni zamanda fəxr nidası idi. Aşağıdakı beş misralıq parça deyilənlərin adekvat sübut faktıdır:

Çay stolu ətrafında –
Gözündə həsrətli bir dərd,
Ata oğlunun şəklinə
Qürurla baxıb söylədi: –
"Merdi zoə merd"! [6, s. 13]

"Merdi zoə merd" ifadəsi həm də qələbəyə inam soraqlıdır...

Dünəndə bir Vüsal vardı –
Vüsal vardı – merdi zoə merd!
Düşmənə qan uddurardu
Mərd oğlu mərd!
Onun qisas həmləsindən
Gəbərirdi neçə düşmən,
Neçə namərd.
Tarix yazanlardan oldu
Xocavənddə, Cəbrayılda
Füzulidə mərd oğlu mərd! [6, s. 13-14]

Şair ekspozisiya mahiyyətli lüzumsuz təfsilatlara varmır, kiçik lirik məkanda obrazlı vasitələrlə qəhrəman haqqında geniş təəssüratlar yaratmağa çalışır. Belədə onun qələmi çox lakonikdir, texnokrat üslub konkterliyinə sadiqdir. Ona görə də onun misraları süni obraz libaslarından uzaqdır, təbiidir, inanılandır. Bənd arxitektonikasında onun poetik "gəzişmələri" sərbəstdir, özünəxasdır. Təsir effektini gücləndirmək üçün misralararası ritm, ahəng harmoniyası sistemlidir, sinxrondur. Məzmun yükü misralarda siqlətlidir, axıcıdır, səlisdir, rəvandır. Buna görə də əksər parçaların oxusu "birnəfəsə" alınır. Bəzi bölümlərdə əksər misralar metaforikləşir, bədii təsvir və ifadə vasitələrindən istifadə məharəti daha da güclənir və demək olar ki, həmin bölümlər, ümumən obrazlı deyim dominantlığı qazanır və bu xüsusda həmin obrazlı vasitələr: metafora, təşbeh, epitet, metonimiya və digər məcaz növləri baş leytenant Vüsal Kazımovun hərbçi portretində yeni kefiyyətləri üzə çıxarır:

Səni güllə qasırğası
Füzulidə qarşıladı.
Nə olsun ki?!
Qarı düşmən
Səni görcək
Qotur tökdü,
Qırışladı.
"Urvat"ından tez də düşdü,
Qəpiklədi,
Quruşladı –
Heçə döndü.
Sənin vulkan hayqırtından
Sinən odlu peçə döndü.
Qənşərində düşmən yöndə
Şivən qopdu,
Vay başladı–
Nə başladı!.. [6, s. 17]

Bu parçada mübaliğə, metafora, bənzətmə və ritmik ahəng tərzinin komandir Vüsal Kazımovu görcək onun igidliyi qarşısında erməni qəsbkarlarının necə gülünc, tragikomik bir vəziyyətə düşmə anlarının təsvir – təcəssümdə olduqca inandırıcı, təsirli alınmasında olduqca mühüm rol oyandığını aydın görür və hiss edirik. Situativ mənzərənin ifdəsində məcazların işləkliyi vüsətli və dominantdır. Düşmənə yönəli: qotur tökdü, qırışladı. Urvatından tez də düşdü, qəpiklədi, quruşladı – heçə döndü – kimi ritmik misraların, – pulun yox, erməni xislətinin, sifətinin, kimliyinin mənəvi devalivasiyasını özündə necə də parlaq təcəssüm etdiyinin şahidinə çevrilirik:

Sənin vulkan hiddətində
Düşmən tərəf qotur tökdü –
Qoturladı,
Qatırladı.
Sənin əlin silahından
Düşmən yönə gülləni yox,
Qəzəbini,
Nifrətini qatarladı. [6, s. 17]

Bu parçada isə mətnin metaforikləşmiş məzmun yükü hələ bir yana, qafiyələrin –"qoturladı, qatırladı, qatarladı" şəklində işlədilməsi, onlarda üçhecalı bölgü intonasiyasının sərbəst şeir çərçivəsində bu cür məharətli tətbiqi, əlbəttə, şairin şeir texnikasına dərindən bələdliyinin nəticəsidir:

Merdi zoə merd!
Sənin gücün
Səngərində cəsur, mətin
Duranların döyüşünə kömək oldu.
Düşmənə qapaz endirən
Dronların döyüşünə kömək oldu. [6, s.19]

Bu mətnin dördüncü və altıncı sətirlərin əvvəlində qafiyələndirilmiş "duranların", "dronların", yaxud digər bir parçadakı "barmağın", "yumruğun" ifadələrini isə, hətta şeir texnikasında məharətlə işlənilmiş təzə, orijinal qafiyə nümunələri də adlandırmaq olar. Poemada bu tipli qafiyələrə kifayət qədər təsadüf etmək olar. Ümumiyyətlə, E.Səfərli şeir və poemalarında qafiyə sistemi rəngarəng və zəngindir.

Əsərin lirik qəhrəmanı Vüsal Kazımovdur, o, cəbhə komandiridir, baş leytenantdır. Lənkəran Dövlət Universitetini bitirmişdir, sonra isə Lənkəran Uşaq və Gənclər idman məktəbinin direktoru vəzifəsində çalışmışdır. Həmişə göz qabağında olmuş, böyük məsuliyyət daşımışdır. Ən əsası isə cəbhə üçün savadlı, təcrübəli zabit kadrıdır. Vətəndaşlıq duyğusu da çox güclüdür. Vətən qarşısında məsuliyyətini hiss edən və onun hər qarış torpağı üçün canından keçməyə hazırdır. Çünki milli mənlik şüurunun yetkinliyinə, mənəvi tərbiyəsinə, vətənə, torpağa bağlılıq hisslərinə görə, Vüsal Kazımov babası 1941-45-ci illərdə müharibə vateranı Şahverən Kazımov kökünə mənsubdur. Digər cəbhə yoldaşlarını da bu istiqamətdə birləşdirməyə, mübariz ruha səfərbər etmək çabalarında çevikdir. Bütün bu keyfiyyətlər daha çox onun mülki vətəndaşlıq iradəsi ilə bağlıdır. Cəbhədə isə o artıq öz hərbiçi xüsusiyyətləri ilə fərdi portretini tamamlamalıdır.

Şairin Vüsalla bağlı – harda döyüş var, qələbə var, Vətən naminə birlik var, əzm var – Vüsal ordadır qətiyyətli deyimi də məhz onun mübariz vətəndaşlıq keyfiyyətləri ilə, sokral kredo duyğuları ilə bağlıdır:

Vüsal da ordaydı
Komandasıyla.
Vüsal da orda idi
Qələbə sədasıyla. [6, s. 22]

Bu və digər bu tipli bəndlər bir cəbhə qəhrəmanının qeyd etdiyimiz kredosunun təcəssümüdür.

Şair onu əbəs yerə böyük hökmdar – şair Qazi Bürhanəddinin igid döyüşçüləri ilə müqayisə etmirdi. Çünki Vüsalın da fədakarlığı döyüşlərin bütün məqamlarında böyük qazi demiş: "Əranə və şiranəydi, necə ki, ərənlərin hər işi əranədir, qaplanların tutduğu iş şiranədir". Şairin "merdi zoə merd" xitabı əsərin əksər bölmələrində təkcə qəhrəmana yönəli emosional-ekspressiv bir nida yox, onun cəbhədaşlarını da əsil cəngi kimi düşmənlə əlbəyaxa döyüşlərə çağırış sədalı ruhlandırıcı hayqırtı idi, qələbəyə səfərbəredici himn idi. Bunu da qeyd edək ki, lirik qəhramana – merdi zoə merd – müraciət nidası əsərin qəhrəmanlıq ruhunu, pafosunu bir himn kimi ifadə etmədə olduqca uğurludur.

Qəhrəmana məhz həmin ifadənin döyüşqabağı söyləntisi onun – "yer titrərdi komandirtək, qiyyasından, nərəsindən" əzmi qarşısında düşmənin qorxudan "tük töküb" ayı kimi öz mağarasına çəkilməsinə kifayət edirdi. Və əsil qəhrəmanlara xas belə bir əzm, şübhəsiz ki, onun düşmənlərə qarşı böyük qisas amalının da tezliklə həyata keçirilməsini aktuallaşdırılmalı, zəruri etməli idi:

Əvəzini çıxmalıydı
Xocalının.
Damarını qırmalıydı
Qəvi düşmən əcəlinin.

Nə gördü ki, nə də doya
Süd qoxulu körpəsindən.
Yüz Xocalı körpəsinin
Qisasıyçün
Vurdu düşmən təpəsindən. [6, s. 15]

Xocalının, əcəlinin ifadəsinin qafiyə orijinallığı, təsir vüsəti necə də diqqətçəkəndir... Şair ümumi qələbə payında Vüsalın da öz töhfəsi olduğunu vurğulayır. Amma bu töhfənin əldə olunmasını çox haqlı olaraq özünün yazdığı kimi Azərbaycan armadasının ümumi mübarizə əzmi, başda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qüdrətli siyasi iradəsi və "Dəmir yumruq" siyasəti ilə bağlayır. Xüsusən də, bu siyasətin çətində bütöv xalqı ətrafında bir tam kimi birləşdirmə məharətinin qüdrətli olmasının poetik vüsətlə ehtirafı əsərin ən müsbət cəhətidir:

Bir gün dilə gəlməliydi
Azərbaycan armadası.
Bir gün əsgərimizin yazılmalıydı
Qəhrəmanlıq balladası,
Bahadırlıq odası. [6, s. 20]

Kökü üzülməliydi
Rəzalətin.
Təntənəsi olmalıydı
"Dəmir yumruq" siyasətin [6, s. 21]

Poemanın ən təsirli, ən kövrək məqamı altıncı bölmə ilə bağlıdır, desək heç də yanılmarıq. Çünki "özünün dünya ilə nəfəs kəsimində – son nəfəsində gözünü qapayan bir anlıq yuxusunda Vüsal kəndini görür". Əslində bu bir an rəmzi bir müddət göstəricisidir, o bir an da ola bilər, bir saat da, yaxud da... Vüsalın "atasının azacıq da olsa qəddinin büküldüyünü, üzündə dərd qırışının əkildiyini, anasının həyata güvənsizliyi kimi görünən qaşlarının kədərli

düyününü, qızları Nurayın, Aynurun anası Ayselin dizləri üstə kədərli oturuşunu, bu kədərli məqamda tənha söyüdün "saman çöpü sarı saçlarını arxdakı çaya töküldüyünü" görməsi, həqiqətən də, ürək dağlayıcıdır. O, cəbhədəykən doğulan Aynurun üzündən ilk dəfə əyilib öpməsi ürəyini qubarlandırır, kövrəldir, həsrətini daha da artırır və övlad qarşısında bu üzücü həsrət üçün özünü ilk dəfə günahkar bilir.Və qızlarında kökünü-köklərini görəndə rahatlanır, qızlarında gələcəyini, o köklər üstündə ölməz oğul kimi hələ bitəcəyini düşünür və bu xəfif təsəlliyə güvənir:

Bu duyğudan
Ürəyi isnişdi.
Və yenə də Qarabağa tələsdi.
Çünki hələ döyüşlər
Bitməmişdi. [6, s. 31-32]

İlahi, insanın ani yuxusunda da mübarizəyə, döyüşə tələsməsi hissi necə də qürurvericidir. Bu misralar bir daha sübut edir ki, şəhidlər heç vaxt ölmür, ölsələr də onların Vətənə, torpağa bağlılıq hissləri heç vaxt ölmür. Ailəcanlı Vüsal kimi onların Vətənlə, ailələri ilə ruhi əlaqəsi, bağlantısı bitmir, tükənmir. Özlərindən sonra da o hisslər, o mübariz döyüş yolu gənc nəsil üçün görk olur, örnək olur!..

"Bir anın yuxusu" poeması "Cənab baş leytenant" rədifli gəraylı, "Etmişəm" gəraylısı və "Epiloq" xarakterli iki parça ilə bitir. Tənqidçi Vaqif Yusifli bu poemanı poetik himn kimi səciyyələndirir. Amma biz əlavə edərdik ki, bu poema, həm də bəzi bölmələrinə və xüsusən də, qeyd etdiyimiz "Cənab baş leytenant" gəraylısına görə kədərli bir rekviyemdir. Elə bir rekveym ki, ömür sapı həyatından çox tez üzülən bir igid qəhrəmanın rəşadət yolu ilə bağlı həyat tarixçəsini üzüntüsüz, kədərsiz, qüssəsiz oxumaq olmur.

Görkəmli tənqidçinin yuxarıdakı fikrinin ardını gətiririk: "Bu poema lirik səpkidədir, şairin şəhid-qəhrəman balamıza həsr etdiyi poetik himn kimi yazılıb. Burada qəhrəmanlıq təsdiq və etiraf olunur. Hər bəndi, hər parçası od kimidir. Soyuq, ürəkdən gəlməyən misralara rast gəlinmir" [6, s. 6]

Həmin şeirdən bir neçə bəndə nəzər yetirək:

Yeni qələbən mübarək,
Sevin, cənab baş leytenant.
Qələbələrin ard-arda
Gəlsin, cənab baş leytenant.
Sən qalibsən,
sən müzəffər,
Sən düşmənə çaldın zəfər.
Bunu hər kəs, hər bir nəfər
Bilsin, cənab baş leytenant.

...Xankəndiyə varmalıykən,
Hələ zəfər çalmalıykən,
Sən general olmalıykən
Susdun, cənab baş leytenant!

Amma arzun gülər,ölməz,
Necə ki, şəhidlər ölməz.
Necə ki, ömr edər, ölməz
Yurdun, cənab baş leytenant! [6, s.33-34]

Yıxdın şərin dam-daşını,
Əzdin ilanın başını.
Sən uddun,
xalq göz yaşını
Silsin, cənab baş leytenant.

Həqiqətən də, Azərbaycan ordusu baş leytenant, Vüsal Kazımov kimi general olmağı haqq edən, buna layiq olan bir igid qəhrəman zabitini çox erkən itirməsi faktına təəssüflənir və təəssüflənəcəyi şübhəsizdir.

"Bir anın yuxusu" poemasına yazdığı "Ön söz" də V.Yusifli qeyd edir: "*Əslində, şəhidlik qəhrəmanlığın təsdiqidir və şəhidlikdən qəhrəmanlığa gedən yol UCALIQDIR...*"

Türk şairi Nihal Atsızın –
Qəhrəmanlıq – içərək
Acı ölüm tasından,
İrəliyə atılmaq
Və sonra dönməməkdir.

Şeirinə müraciətindən sonra həmin şeirin ruhuna uyğun olaraq V.Kazımov haqqında sözünün ardını gətirir. "*Vüsal Kazımovun şəhidliyi də İRƏLİYƏ ATILMAQ və öz qəhrəmanlığını təsdiq etmək idi*" [6, s. 5]. Və bundan sonra tənqidçi, şair E.Səfərlinin əsərlə bağlı böyük zəhmətini, poetik uğurunu qeyd etməyi də unutmur və "Ön söz "də fikrini belə yekunlaşdırır: "*E.Səfərlinin poeması özünəməxsus poetik biçimdə, təqdimatda məhz bu həqiqəti söylədi... mən bu poemanı yazdığına görə E.Səfərliyə təşəkkür edirəm. O, bir şair kimi əlindən və qələmindən gələni məqbul sənət müstəvisində deməyi, poetikləşdirməyi bacarmışdır*" [6, s.10].

Elşad Səfərlinin poeması kifayət qədər özündən söz etdirməyi bacaran bir yaradıcılıq nümunəsidir, desək, düşünmürük bu kiməsə mübaliğəli görünsün. Çünki bu qiymətli əsər, V.Yusiflinin qeyd etdiyi kimi, məlum poetik sənət prinsiplərini özündə kifayət qədər ehtiva, əhatə edən bir yaradıcılıq nümunəsidir və bu sənət tipinin istənilən qədər sənətkarlıq, ideya-mövzu və obrazlı bədii xüsusiyyətlərindən bəhs açmağa potensiallıdır. Fikrimizin sübutu kimi bu poemanın təsir effekti haqqında ürək sözlərini paylaşmış filoloq-alim, dosent A.Əliyevin "Bu, Elşad Səfərlidir" başlıqlı qeydlərini təqdim edir, düşünürük ki, bu qeydlər əsərin sənətkarlıq və bədii təsir xüsusiyyətlərini müəyyən qədər isbatlamış olur:

"*Poemanı – "Bir Anın Yuxusu"nu vərəqləyirəm. İnanmazsınız, Elşad Səfərli bütün ürəyini qoyub burda. Düşmənə nifrətini, Vətəninə, millətinə sevgisini, şəhidliyin ölümsüzlüyü haqda bu günə qədər deyilməmiş çox mətləbləri həm çılğın, həm də üsyankar bir qələmi ilə ortaya qoymuşdur. Bu adi bir poema deyil. Bu, bir şəhidin deyil, onun arxasında duran minlərlə qazinin, hər bir döyüşçünün həyat hekayəsidir. Elə hekayə ki, onun hər sətri, misrası yaddaşa ədəbi həkk olunur. Burda tarix var, fəlsəfə var, döyüş var, məhəbbət var, intizar var, dünənlə bağlantı var, gözyaşları, qübar var, düşmənə sonsuz nifrət var, qələbə var, kişilik var! Bilirsiz niyə? Çünki onun qəhrəmanı mərd oğlu mərddir, Merdi zoə merddir, Kişi oğlu kişidir – VÜSAL KAMRAN OĞLU KAZIMOVDUR! Müəllif illərlə yaşadığı məhəbbəti də, nifrəti də əsərə gətirə bilib. Vulkan kimi püskürür. Təəccüblənirsən ki, ilk misrasından son misrasınadək hiss, həyəcanla dolu olan bu poemanın müəllifi ürəyindəkilərini ağ kağıza köçürərkən, görəsən nələr çəkib? Və nə yaxşı ki, onun ünvanları dəqiqdir, səlisdir, gün kimi aydındır. Əsərin təsirindən indi də çıxa bilmirəm. Kişilər ağlamır. Amma mən də təsirləndim. Elşad Səfərli qələmi məni, hətta ağlatmağı da bacardı. Bu bəlkə də müəllifin qələbəsidir. Amma onu da deyə bilərəm ki, insanları ağladanlar hələ də var!"* [2, Facebook, 19 fevral, 2022].

Şairin təqdimatında Vüsal Kazımovun qəhrəmanlığı bizim üçün milli yaddaş, heç vaxt unudulmayan, gənc nəslin təlim-tərbiyəsində, onların mübariz ruhda köklənməsində əsil motivasiya, örnək faktıdır, qürur doğuracaq, həmişə sinələrini iftixarlandıracaq fəxr salnaməsidir. Vüsal Kazımov kimi igidlərimizin şəkilləri, portretləri, onlarla bağlı çəkilmiş kino-filmlər, asılmış stendlər, təşkil edilmiş kompozisiyalar, ucaldılmış heykəllər, abidələr, büstlər, yazılmış şeirlər, poemalar, kitablar, bəstələnmiş musiqi əsərləri, mahnılar, nəğmələr, adlarına həsr edilmiş bağlar, xiyabanlar, parklar, küçələr ehtiram, sayğı göstəriciləri, vasitələri olsalar da, ilk növbədə müasir yeniyetmələrimiz, gəncliyimiz, ümumən insanlarımız üçün motivasiya mənbəyimiz, qaynaqlarımız, şanlı müasir tariximiz və görüb-götürəcəyimiz, ideyaları ilə yaşayacağımız mərmər kitabələrimiz, abidələrimiz, ədəbiyyatlarımızdır.

Bu cür şanlı, igid qəhrəmanlarımız qarşısında buna görə də ehtiram, sayğı, hörmət hisslərimiz həmişə diqqətdə olmalıdır.

Elşad Səfərli adını şanlı hərb tariximizə qızıl hərflərlə yazmış igid Vətən oğullarından biri kimi Vüsal Kazımovla bağlı düşüncələrini təkcə poema ilə yekunlaşdırmır, poemadan sonra da onun haqqında fikirlərini, qənaətlərini poetikləşdirir. O bununla kifayətlənmir, ona görə ki, qəhrəmanlıq, şəhidlik mövzusu heç vaxt bitməyən, tükənməyən, yazıldıqca yazılacaq əbədi, dünyəvi mövzudur. Onun "Mərmər ehtiram", "Vüsalın anım gününə....", "İgidin qəbrinə güllər düzülüb", "Vətən sevdalı igid" və "Bu gün qəhrəmanın anım günüdü" kimi şeirlər Vüsal Kazımovun qəhrəman portretinə əlavə edilmiş, onun lirik xarakterinin açılmasına xidmət edən yeni tamamlayıcı obrazlı cizgilər, şücaətinə, igidliyinə bəslənilən hüsnrəğbətin, ehtiramın, sayğının və diqqətin nümayişi təsiri bağışlayır. Həmin nümunələrdə biz qəhrəmana ehtiramın müxtəlif təzahür formalarını görürük. Birində mərmər daşı, birində qəhrəmana onun haqqında xatırlama verən qələm, birində onun keşiyində duran çiçəklər, birində "Doğulduğu kənddə, yuxarı başda Vətən sevdalısı bir igidin uyuduğu məzar", digərində isə "İgid baş leytenantın anım günündə onun qarşısında "farağat duran insanlar həmin ehtiramın təcəssüm obrazına çevrilir". Ehtiram hissi bu şeirlərdə insanlarla yanaşı, obrazlaşan, metaforikləşən, məzar ətrafı, məzar üstü predmetlərin: gülün, çiçəyin, çələngin qəhrəmana anım günündə göstərdikləri sevginin, məhəbbətin, sayğının təzahürü kimi mənalanır. Və obraz libasında şeirlərin təsir elementinə çevrilir. "Mərmər ehtiram" şeirinə nəzər yetirək:

I
Mərmər də ehtiram nişanəsiymiş,–
Daşın xislətində xoşmuş bu məram.
İgidin qəbrini dörd bir tərəfdən
Dövrəyə almışdı mərmər ehtiram.
Əbədi bir yolda o da yolçuydu,
Xidmətində idi daş – leytenantın.
O həm də fəxri bir qaravulçuydu
Məzarı başında baş leytenantın.

II
Borcumdu.... və borcumuzdu,–
Qələmi ilhama verdim.
Qələmə ürək sözümü
Səndən xatırlama verdim...

III
Bu gün qəhrəmanın anım günüdü,
Hamı məzarının başında durub.
Cənab, baş leytenant, canlısan deyə
Gələnlər farağat qarşında durub.

Elşad Səfərli poeziyasının ictimai məzmun əhəmiyyəti daha çox onun mənəvi birlik, milli mənlik şüurunun tərbiyəsi, vətəndaşlıq və Vətənin bütövlüyü ideyaları ilə sıx bağlılığındadır. Bu istiqamətdə də şairin poetik axtarışları heç də az deyil. Şairin şeirlərində və bir neçə poemasında vahid və bütöv Azərbaycan ideyaları geniş mənada həmin əsərlərin leytmotivini təşkil edir; Vətən, vətənpərvərlik, vətəndaşlıq anlayışlarını da özündə birləşdirir. Çünki bu anlayışlar bir-birini tamamlayır və Vətənin varlığı üçün əsas şərtə çevrilir. Vətən – milli bir çərçivədə, coğrafi arealda hüdudlanan bir ərazi vahididir, lakin onun mövcudluğu üçün dil, bəlkə də ən vacib bir atributdur. Deməli, Vətən həm də öz mövcudluğunda yalnız dil ilə birlikdə bu hüququ qazanmışdır, çünki dilsiz Vətən yoxdur. Buna görə də Vətənin müstəqillik statusunda dil ən vacib faktorlardan birincisidir. Bəlkə elə buna görədir ki, E.Səfərlinin lirikasında Vətənlə dil həmişə bir tutulur və biri digərinin mövcudluğunu şərtləndirən komponentlər kimi qəbul edilir. Dillə bağlı əksər şeirlərində dilinə xor baxanlara, ona istehzalı münasibət bəsləyənlərə qarşı şairin mövqeyi çox sərtdir. Buna görə də ədəbiyyatşünas alim M.Məmmədovun "*Azərbaycan dilini rəsmi idarələrdən didərgin salanlara qarşı şeirimiz vətəndaşlıq mövqelərindən apardığı mübarizəni gücləndirməlidir*" [3, s.175] mülahizəsi ilə şairin qənaətləri üst-üstə düşür. Onun "Dilim, torpağım" şeiri erkən yaradıcılıq nümunəsi kimi bu tendensiyanın ilkin cücərtiləri sırasında özünə yer almışdır:

Bir istək qəlbimi yandırar nəsə,
Həsrətim gözümdə bulanan sudur.
Araz bu torpağın ikiliyisə,
Dilim bu torpağın bütövlüyüdür. [7, s. 6]

Şairin qənaətində dilin birliyi vətənin birliyi deməkdir, vətənin bütövlüyüdür. Torpağı parçalansa da dilinin bütövlüyü ilə təsəlli tapır, ərazi bütövlüyünün itirilməsi faktını da ötəri, keçici bir hal kimi xarakterizə edir. İnanır ki, zaman gələcək bu tarixi ədalətsizlik də aradan qaldırılacaq:

Hicrandan könlümü qəm dindirsə də,
Bir xoş təsəllidir qəlbimdə bitən.
Əgər dil birdirsə, ürək birdisə,
Torpaq bölünsə də bölünmür Vətən. [7, s. 6]

Bu bənddə metaforikləşmiş fikir təkcə milli mənlik şüurunun yetkinliyinin yox, eyni zamanda milli özünüdərkin, kök, ruh, dil birliyimizin, milli kimliyimizin ifadə faktıdır. "Vətən torpağıyam deyə", "Aramızdan bir çay axır", "Ya İlahi, ya Məhəmməd, ya Əli", "Bayraq mənim bayrağımdır", "Bakıda cəmləşən Vətən", "Təkcə Bakı Vətən deyil", xüsusən də "Bütövlük inamı" şeirində bu inama, ümidə qurban getməyə hazır olan Azərbaycan insanının bütövlük ideolojisinin daim təsiri altında olmasının, nəticəsindən asılı olmayaraq ona sadiqliyin əsil vətəndaşlıq nümunəsidir:

Bölünüb,
Bölünüb bütövlüyümüz.
Bölünüb ikiyə taleyimiz də –
Bölünüb suyumuz, çörəyimiz də.
Bu yurdun köksünə bir zərbə dəyib,
Ağrısı dolanır ürəyimizdə.
Bir inam yol gedir üzü sabaha,
Bir həsrət yol gedir,
Gedər yenə də.
Qurbanam bu xalqın inam eşqinə,
Qurbanam bütövlük istəyinə də. [7, s. 66-67]

Elşad Səfərli lirikasının bu yöndə poetik cəhdləri, mənəvi birlik səyləri daha çox inam, ümid kontekstlidir, buna görə də özünün əxlaqi örnək funksiyası ilə vətənin mühafizəsi, qorunması ideologiyasına dayaqlanır, əsaslanır, hər iki tayı ümumi ölkə bayrağı altında birləşməyə çağrışlar edir və bu istəyində dönməz inamlıdır. Və aşağıda ixtisarla verilmiş, şairin "Astiaq" poemasında tərənnüm edilən bayraq gec-tez məhz Təbrizdə asılacaq bayrağın ekvivalentidir:

Midiya – qədim zamana
Bağlı dövlət varlığımdır.
Uzaq üfüqləri aşan
Qonaq mənim qonağımdır.

.... Cənubda çox səddi keçən,
Marağa, Mərəndi keçən,
Şimalda Dərbəndi keçən
Torpaq mənim torpağımdır.

Bağrımıza basılası,
Yolunda şəhid olası,
Təbriz üstə asılası
Bayraq mənim bayrağımdır! [8, s.224-225]

Milli kimliyimizin təcəssüm salnaməsini bizə xatırladan bu misralar həm də Azərbaycan insanının əsil vətəndaşlıq mövqeyini sərgiləyir, bu insanın vətənpərvərlik amalının həmin vətəndaşlıq mövqeyindən nəşət etdiyini müəyyənləşdirir, müasir gənc nəslin təlim-tərbiyəsində onlara milli mənlik şüurunun aşılanması işini bu aspektdən daha da zəruri edir və aktuallaşdırır. Milli mənlik şüurunun tərbiyəsi faktoru həm də milli şüurun təsdiqini sübutlayır. Çünki yalnız yetkin milli şüura malik insanlar öz vətənlərinin mühafizəsini, qorunmasını təmin edə bilərlər. Aşağıdakı misralarda ehtiva olunan qətiyyətli fikir, yalnız yetkin milli şüur sahiblərini itirilmiş torpaqların geri qaytarılmasına, vətənin bütövlüyünün bərpasına hərəkətləndirə, istiqamətləndirə bilər:

Az qalıbdır düşmən ilə son cəngə,
Xoşluq ilə bitməzsə bu işgəncə,
Üç ad çəkib, əl ataram tüfəngə –
Ya İlahi,
Ya Məhəmməd,
Ya Əli!... [1, s. 163]

Düzdür, bu tip vətənpərvərlik, vətəndaşlıq və vətənin bütövlüyü ideyalarını özündə birləşdirən şeirlərdə bəzi irad, tənə notlarına da təsadüf edirik, bununla yanaşı, nikbinlik hissi özünün üstünlüyünü qoruyub saxlamağı da bacarır. Vətəndaş və ictimai hiss narahatlığı, vətənpərvərlik motivləri bu qəbildən olan şeirlərdə bəzən ictimai qınaqları da vətənin ümumi mənafeyi naminə tərbiyəedici, ibrətləndirici faktor kimi heç də istisna etmir:

Araz bölümü bağrına dəymişkən,
Sən əyməliydin, yad səni əymişkən.
Vətən, sənin, Söhrab Tahir demişkən:
Heç çöpün də olmayaydı bölməli... [1, s.162-163]

Yeri gəlmişkən bir faktı da diqqətə çatdıraq. Son vaxtlar E.Səfərlinin yaradıcılığı haqqında ən çox yazan, onun çap olunmuş kitablarına resenziya xarakterli "Ön söz"lər yazan, qəzet və jurnallarda məqalələr çap etdirən Azərbaycan çağdaş tənqidinin görkəmli nümayəndəsi Vaqif Yusiflidir. Bu diqqətin ən təqdirəlayiq xüsusiyyəti bundan ibarətdir ki, bu tanınmış istedadlı tənqidçi E.Səfərli şeir və poemalarını səbirlə, təmkinlə çözür, təhlillər aparır, həmin nümunələrin uğurlarını qeyd edir, ən xırda bir tənqidində isə güzəştsiz görünür. Buna görə də bu məşhur tənqidçinin hansısa söz sənətkarı haqqında söz deməsi, əlbəttə, bu həmin şair, yaxud yazıçı haqqında nüfuz və diqqət məsələsi olmaqla yanaşı, həm də bu qayğıkeş yanaşmanın həmin imzaların ədəbi ictimaiyyətdə təsdiqi və tanıdılması anlamını doğurması da təbiidir. Filologiya elmləri doktoru V.Yusiflinin E.Səfərli haqqında fikirləri həqiqətən də mötəbərdir, çünki öz imzasına hörməti bir tənqidçi kimi onun üçün bir sıra meyarlardan daha yüksək önəm təşkil edir. Buna görə də qaynaqlara, bu şair haqqında sitatlara istinadlananda V.Yusifliyə müraciətlərimizdəki intensivlik məhz bu amillə bağlıdır. O həm də ədəbiyyatın poetika və nəzəri məsələlərinin mahir bilicisidir.

V.Yusiflinin E.Səfərli şeirinin poetikası, xüsusən də mövzu-janr xüsusiyyətləri haqqında təhlili mülahizə və fikirləri yetərincədir. Bu məqamda E.Səfərli poeziyasının vətən, vətəndaşlıq və vətənin bütövlüyü ideyaları haqqında yenə də bu görkəmli tənqidçinin bir sıra mülahizələrinə istinad etməyimizi yerinə uyğun və məqsədəmüvafiq hesab edirik. Tənqidçi yazır: "*XXI əsr Azərbaycanı –müstəqillik və mübarizə idealı onun şeirlərində də aydın nəzərə çarpır. Mən onun "Azərbaycan xalqı var" şeirinə müraciət etmək istəyirəm*":

Biz birik – içimizdə
Aranlı var, dağlı var
Yaxın – uzaq fərq etməz,
Bütöv yurda bağlı var.

Mətin işində duran,
Haqq barışında duran,
Yad savaşında duran
DƏMİRYUMRUQ oğlu var.

O kəs ki, xalqla birsə –
Xalqa dirəklidirsə,
Vətən ürəklidirsə,
Vətəni var – ağlı var.

Çünki dirək verdiyi,
Çünki kürək verdiyi,
Çünki ürək verdiyi,
AZƏRBAYCAN xalqı var... [9, s.111]

Bu şeirin, əlbəttə ki, ilk növbədə mübariz, döyüşkən ruh, vətənpərvərlik, birlik, yurdsevərlik, bütöv Azərbaycan duyğusu diqqəti çəkir və daşdığı bu motivlərin vəhdətində hər misrası daha siqlətli, təsirli görünür.

Bu şeirdə ikinci Qarabağ müharibəsində erməni-daşnak, qəsbkar faşizminin bel sütununu qıran şanlı ordusunun və özünün böyük siyası iradəsi, düşmənin başından Koroğlu toppuzu kimi dəyən "Dəmir yumruq" siyasəti, Ali Baş Komandan diplomatiyası, məharəti və səriştə nümayişi ilə qələbə sevincini bizə yaşadan, torpaqlarımızı qaytaran, Böyük Vətənimizin tərkib hissəsinə çevirən Prezidentimiz Cənab İlham Əliyevin dayaqlandığı Azərbaycan xalqının əzəməti, vüqarı, döyüşkən ruhu poetikləşmişdir. Şair yaxın dövrün bu şərəfli tarixinin obrazlı lirik mənzərəsini məharətlə cəmi dörd bənddə təcəssüm etdirməyi bacardığına, yüksək ideya-məzmun tendensiyasına görə, həcmindən asılı olmayaraq bu şeir əhəmiyyətlidir və onun təsir ampluası genişdir. Bu şeirin suverenlik, bütöv Azərbaycan idealları, ideyaları ibrətamizdir.

"Mən – Azərbaycan oğlu...." şeirində isə Azərbaycan xalqının böyük türk dünyası, xüsusilə də Türkiyə ilə qardaşlıq bağlantılarımızın sıx olduğunu qənaətbəxş poeziya kontekstində apaydın duya, görə bilirik. Biz bu poeziyanı təkcə görüb duymuruq, biz bu poeziyanı özümüzdə bütün rəngləri ilə, poetik çalarları ilə bir növ yaşayırıq:

Yerlipərəst deyiləm –
Regionçu da deyiləm.
Bu amaldan çox uzaq,
Birinci,
ya onuncu –
Sonuncu da deyiləm.
Dağlı,
Çöllü – nə bilim,
Arançı da deyiləm.
Felə uyana arxa
Durançı da deyiləm.
Bəlkə də vaxtı deyil,
Turançı da deyiləm.
Mən vəhdət tərəfdarı –
Təfriqəçi deyiləm.
Rəngin birinə uyan
Ya bir irqçi deyiləm.
Mən Mehmet Akif Ersoy,
Tofiq Fikrət ruhluyam,
Nihal Atsız ruhluyam.
Azadlıq duyğuluyam –
İki dövlət sevgili
Azərbaycan oğluyam...

Mən – Azərbaycan oğlu –
Vətən amallısıyam,
Millət sevdalısıyam.
Mən üç rənginə sadiq
Bir bayrağa biətli –
O tay,
bu taya aşiq
Dövlət sevdalısıyam.
Vətənpərəst görsəniz,
Millətpərəst görsəniz
Basın bağrına onu.
Yerlipərəst görsəniz,
Son nəfəsində belə
İtirməmiş huşunu –
Başına sığal kimi
Çəkin onda qurşunu ...

Bu şeir ilk növbədə özünün Azərbaycançılıq ideologiyası və Türkiyə ilə bağlılıq ideyalarına görə çox mühüm əhəmiyyət daşayır. Şeirdə göründüyü kimi lirik "mən" Türkiyə ilə vəhdət, bilik tərəfdarıdır. Onun təbiətində kökə bağlılıq hissləri qabarıqdır, beynəlmiləlçilik duyğularından da uzaq deyildir. İrqçi də deyildir, bir rəngə uyub özünü ali irqə mənsub da saymır. Onun üçün belə ucuz etiketlər yoxdur. Məhşur türk şairləri: Mehmet Akif Ersoy, Tofiq Fikrət və Nihal Atsızla eyni ruha sahib – azadlıq niyyətlidir və nəhayət, iki dövlət sevgili Azərbaycan oğlu olması ilə fəxr hissi keçirir. Özünü – "*mən – Azərbaycan oğlu vətən amallısı, millət aşiqi, üç rənginə sadiq, bir bayrağa biətli, o tay, bu taya aşiq dövlət, vətən sevdalısı*" adlandırır. Bu şeir milli mənlik şüurunun yetkinliyi aspektindən, əsl vətəndaşlıq prizmasından vətənin bütövlüyü ideallarına, ideyalarına sadiqliyin təbliği, tərənnümüdür.

"*Təbii ki, hər bir şairin yaradıcılığında onun Vətən, tarix, həyat, mübarizə ideallarını əks etdirən bir əsəri olur. Bu əsərlə şair şeirlərindən fərqli olaraq geniş, üfüqi xətt boyunca "hərəkət" edir. Əlbəttə, bu cür hərəkəti, belə genişliyi ancaq poema janrı reallaşdıra bilər. Bunu da qeyd edək ki, müəllif bu sahə üzrə yetərli poetik təcrübə sahibidir, epik və lirik növdə 16 poema yazmışdır. "Mavi məsafə" lirik poeması, məncə, onun indiyə qədər qələmə aldığı – çap etdirdiyi poemalarından onunla fərqlənir ki, burada müəyyən bir hadisə, konkret obrazlar heç bir rol oynamır. Əsas məsələ lirik düşüncə arealını ön planda təqdim edib bir hadisəni deyil, hadisələr silsiləsini əks etdirməkdir. Əlbəttə, E.Səfərli Azərbaycan tarixinin XIX-XX əsrlərdəki məlum səhifələrini bir də "oxuyur". "Məsafə"ni ayrılığın rəmzi kimi mənalandırır və məsafə məfhumuna özünün poetik mavi rəngini qatır və adi ayrılıqdan deyil, iki əsrdir bir-birindən ayrı düşən Azərbaycanın o tay, bu tayı ilə Arazlanan milli ayrılığı, vətən ayrılığını düşünür*" [9, s.11].

Araz məsafəsində –
Sular da lilli axır
Dayaz məsafəsində

Araz məsafəsində
Gözlər də lilli idi.
Qələmimin ucunda
Sözlər də lilli idi.
Tikanlı məsafadə –
Sərhəd məsafəsində –
Simlərin tikanından
Bülbüllərin sancılmış,
Həsrətləri dəlinmiş,
Qan vardı sinəsində.

Tikanlı məsafənin
Axırdı sel boyunca.
Qatar da şütüyürdü,
Həsrət də şütüyürdü
Bir paralel boyunca.
Su axır lilli – lilli, –
Araz lilləndirirdi
Uzun bir paraleli.
O paralelin lili
Baxışlardan keçirdi,
Əhvallardan keçirdi,
Yağışlardan keçirdi....
Bu tayın kefsizliyindən,
O tayın səssizliyindən keçirdi.... [9, s.198-199]

Şairin "Araz məsafəsində" təkcə suların lilli axdığını yox, gözlərdəki gözyaşının da lilli axdığını, həmin lilin uzu bir paralel boyunca baxışlardan, əhvallardan, yağışlardan keçdiyini obrazlılığın, məcaziliyin əksər növlərindən məharətli istifadə ilə necə də təsirli, emosional-ekspressiv ifadə etdiyinin şahidinə çevrilirsən və bu təsirdən yayınmağın mümkünsüzlüyündən də əmin olursan.

Və bütün bu ağrı-acıların, nisgilin, intizarın, həsrətin, üzüntünün səbəbinin isə – "bu tayın kefsizliyi, o tayın səssizliyi" olduğunu tam anlayırsan, Quzeyin kefsizliyindən çox, o tayın susqunluğunu qəbul edə bilmirsən, buna dözmürsən və haqlı olaraq aşağıdakı sualları ünvanına səsləndirməyə məcbur olursan. Çünki o tayın da "umduğu" bu taydandır:

Kimliyin ordun göstərdi, Kimliyin – yurdun göstərdi. Bunu 44 gün göstərdi ... Başda Ali Komandanla Bilirsən ki, müzəffərsən- Nə gözlərsən?!	Bu tay, O tay – ulu bir can, Sızlar həsrət dolu bir can. Ayrılığın yolu – bir can, Azərbaycan, Nə gözəlsən?! [9, s. 210]

Ümid dolu gözlərin yolu üzü Azərbaycanadır... Və o ümidli gözlər öz təkidində haqlı görünür. Çünki o gözlərin xəfif təskinliyi haçansa intizara son qoyulacağından, Cənublu soydaşlarımızın əliqanlı molla rejimindən tezliklə qurtulacağından, bütöv Azərbaycan ideallarına qovuşacağından ona görə bu qədər əmindilər ki, –

... O qantökən başından
Bir gün yumruq alacaq.
Təbrizi, Ərdəbili
O qaniçən xuntadan
Dediyim o qəhraman –
Millətə Baş Komandan –
Dəmir yumruq alacaq.
İtirib yerli-dibli
Bu hicrana, nisgilə
O özü son qoyacaq... [9, s. 219]

Azərbaycan İkinci Qarabağ müharibəsində erməni qəsbkarları üzərində sarsıdıcı zəfər qazanandan sonra öz əzəli torpaqlarına, suverenliyinə qovuşdu, kifayət qədər hərbi potensialını, gücünü qüvvətləndirdi. Lakin Azərbaycan Cənub coğrafiyamızla bağlı problemlərimizi həll etmədən arxayın ola bilməz. Bu problemin həllini poemada göründüyü kimi, Güneyli soydaşlarımızın Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevlə, onun müdrik siyasəti ilə bağlamaları heç də təsadüfi deyildir. İndi "Tanklarında "Z" gəzdirən"lərin təhdidi də Azərbaycanı hansısa addımından çəkindirə bilməz. Aşağıdakı şeir vətən amalımızın, vətəndaşlıq mövqeyimizin, bütöv Azərbaycan ideallarımızın poeziya dili ilə yüksək təcəssümu nümunəsidir:

Vətən, şəkk edən, gücünü
Qulağın burdun, görəcək.
Bu da az etsə, başından
– YUMRUQLA vurdun, görəcək.

... Hiylən tutmaz söz gəzdirən –
Maskalanmış üz gəzdirən.
Tanklarında "Z" gəzdirən
Boynunun ardın görəcək.

Üzləşsən də nahaq qanla,
Xalqım, sınma and-amanla.
Zəfərin var – KOMANDANLA
Bu işi ordun görəcək!..

Poemanın sonluğu ilə bağlı tənqidçi V.Yusifli yazır: *"Şairin "vətən birləşə bilmir" naçarlığı get-gedə nikbin notlarla tamamlanır"*:

O tökülən qanlara
Baxıb, gəlib zinhara.
Bakı,
Təbriz,
Astara
Vətən birləşmələridir!!![9, s. 217]

Tənqidçi sözünün davamında axırda bunu da deməyi unutmur: "Düşüncələrimizi yekunlaşdırıb bunu da qeyd etməyi vacib bilirik ki, bu poema şairin yaradıcılığında çox uğurlu alınmışdır" [10; 12].

Ədəbiyyat

1. Eminov, A. Elşad Səfərlinin poeziyası: Düşüncələr, mülahizələr / A.Eminov, – Bakı: Elm və təhsil, – 2015, – 214 s.
2. Əliyev, A. Bu, Elşad Səfərlidir. Feysbuk, 19 fevral, 2022, 10.14^{00} da.
3. Məmmədov, M. Poeziya yeni təfəkkür işığında / M.Məmmədov, – Bakı: Yazıçı, – 1990, – 175 s.
4. Səfərli, E. Şair təkliyə məhkumdu. Şeirlər və poema / E.Səfərli, – Bakı, Nurlan, – 2004, – 204 s.
5. Səfərli, E. Yalnız sevgi / E.Səfərli. – Bakı: Şans, – 1998, – 128 s.
6. Səfərli, E. Bir anın yuxusu. Poema / E.Səfərli. – Bakı, – 2022, – 42 s.
7. Səfərli, E. Dünya ömür yoludur / E.Səfərli, – Bakı: Gənclik, – 1991, – 96 s.
8. Səfərli, E. Alması düşməyən nağıllar. Şeirlər və poemalar / E.Səfərli. – Bakı: Elm və təhsil, – 2016, – 244 s.
9. Səfərli, E. Ayrılıqlar vağzalı. Şeirlər və poemalar / E.Səfərli. – Bakı: Gənclik, – 2023, – 248 s.
10. Yusifli, V. Ayrılıqlar vağzalı. Ön söz. Şeirlər və poemalar / V.Yusifli, – Bakı: Gənclik, – 2023, – 248 s.

K.Sh.Kazimov

The Theme of the Second Karabakh War in Elshad Safarli's Lyrics is the Idea of Spiritual Unity and Integrity of the Motherland

Summary

In the article, the issue of the position of the subject of the second Karabakh war in the lyrics of the poet Elshad Safarli was touched upon, and in this background, the idea-artistic features of the upbringing of the national self-consciousness of the Motherland and the motives of citizenship were investigated.

Explanations and analyzes were carried out on a number of specific examples, and their spiritual-aesthetic, home, matherland, country attachment context was defined. In this regard, in the poem "A moment`s dream", the heroic chronicle of the martyred senior lieutenant Vusal Kazimov was referred to as a generalized exemplary history of an Azerbaijani warrior.

In the article, a brief analysis of the poem "Blue Distance" was reviewed, the struggle of the Azerbaijani people for the role models of national freedom, moral unity, unity, and the integrity of the Motherland was justified in this poem as a fact of self-awareness and self-affirmation.

Key words: *Lyric context, chronicle, senior lieutenant, Karabakh, role models*

Кямран Шахверен оглы Кязимов

Тема Второй Карабахской войны в лирике Эльшада Сафарли – идеи духовного единства и целостности Родины

Резюме

В статье освещена тема Второй Карабахской войны в поэзии Эльшада Сафарли и на этом фоне исследованы идейно-художественные особенности воспитания национального самосознания и мотивы гражданственности.

Были проведены пояснения и анализ в ряде конкретных примеров, определен их духовно-эстетический контекст привязанности к стране, земле, Родине. В связи с этим в стихотворении «Сон одного мгновения» героическая летопись шехида старшего лейтенанта Вусала Кязимова названа обобщенной образцовой историей азербайджанского воина.

В статье рассмотрен краткий анализ стихотворения «Голубая даль»; в этом стихотворении обоснована борьба азербайджанского народа за идеалы национальной свободы, нравственного единства, единства и целостности Родины как факт самосознания и самоутверждения.

Ключевые слова: *лирический контекст, хроника, старший лейтенант, Карабах, идеал*

Rəyçi: prof. T.H.Cəfərov

Redaksiyaya daxil olub: 10.04.2025

V.F.NƏBİYEVA
e-mail: paradiseaegis@gmail.com
:https://orcid.org/0000-0002-2236-9170

AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 117)

QƏFƏSDƏKİ QUŞUN OXUMA SƏBƏBİNİ BİLƏN MAYA ANJELU

Xülasə. *XX əsrin görkəmli simalarından olan Maya Anjelu (1928-2014) qaradərili qələm ustalarından biri olmaqla yanaşı, ədalət uğrunda savaşan, insan hüquqlarını müdafiə edən mütəfəkkir idi. O, yazdığı silsilə avtobioqrafik romanlarına görə tanınır və səmimi şəkildə insani boşluqlarını göstərməkdən çəkinməyən ürəkli, cəsarətli insan kimi oxucuları tərəfindən sevilir. Çox çətin taleyi olan Maya Anjelu həyatda başına gələ biləcək bütün çətinliklərlə üzləşmiş və bu haqda bizə öz romanlarında geniş məlumat vermişdir. Kiminsə avtobioqrafiyasını kənar gözün yazmağındansa müəllifin özünün keçdiyi yola nəzər salması və beləliklə bir çox insana nümunə ola bilməsi cəhətindən çox vacibdir. Məlum olduğu kimi, Maya Anjelu yaradıcılığı əsasən öz şəxsi həyatının təsviri əsasında qurulmuşdur. Beləliklə, onun yazdığı avtobioqrafik əsərlərdə iradə gücü, çətinliklərlə mübarizə, əzm, cəsarət kimi vacib insani keyfiyyətlər təsvir olunmuşdur.*

Açar sözlər: *avtobioqraf, qayğı, valideynlər, psixi vəziyyəti, diskriminasiya*

Həyatın hər kəsə eyni davranmadığı bu dünyada özünü olduğu kimi qəbul etməyi bacaran və hadisələrin təsirində qalmaqdansa baş verənləri ram edib öz mənliyini təsdiq etməyə müvəffəq olan Maya Anjelu (1928-2014) qaradərili qələm ustalarından biridir. O, həyatı boyu özünü müxtəlif sahələrdə sınamışdır. Biz onu rəqqasə, müğənni, film və teatr aktrisası, kinorejissor, film prodüseri, ssenarist, dramaturq, yazıçı, roman yazarı, esseist, şair, avtobioqraf, jurnalist, insan hüquqları müdafiəçisi, siyasətçi kimi tanıyırıq. Həyat yolunda özünü tapmaqdan və təsdiqləməkdən ötrü bir çox əzablı yollardan keçməyə məcbur qalan Anjelu bizə özünü yazdığı avtobioqrafik romanları vasitəsilə daha yaxından tanış etmişdir. Ümumilikdə yazıçının yeddi avtobioqrafik romanı mövcuddur. Bu romanlara "I Know Why the Caged Bird Sings" ("Qəfəsdəki quşun nə üçün oxuduğunu bilirəm"), "Gather Together in My Name" ("Adımın ətrafında toplaşın"), "Singin' and Swingin' and Gettin' Merry Like Christmas" ("Gəlin Milad bayramında olduğu kimi oxuyaq, rəqs edək və əylənək"), "The Heart of a Woman" ("Qadın ürəyi"), "All God's Children Need Traveling Shoes" ("Bütün Allahın övladlarının gəzinti çəkmələrinə ehtiyacı var"), "A Song Flung Up to Heaven" ("Tanrıya həsr olunan nəğmə"), "Mom & Me & Mom" ("Anam və Mən və Anam") aiddir.

Onu da qeyd etməliyik ki, yazılan kitablar avtobioqrafik olsa da bədii əsər ruhunda qələmə alınmışdır. Kitabın tematikası, personajların psixi vəziyyəti, qaldırılan problemlərin aktuallığı, bəşəri olan məqamlara toxunma "I Know Why the Caged Bird Sings" ("Qəfəsdəki quşun nə üçün oxuduğunu bilirəm") adlı avtobioqrafik əsəri yazıldığı ampluadan daha başqa səviyyəyə çıxardır. Məhz bu səbəbdəndir ki, ənənəvi avtobioqrafik üslubdan kənar məcrada yazılan bu kitab böyük marağa səbəb olur. Nəticədə, Maya Anjelu bədii avtobioqrafik əsər yaratmağa müvəffəq olur və bu üslubun banisi hesab olunur.

Uşaqlıqdan Marqarita Conson olan Maya Anjelu 3, qardaşı Beyli Conson isə 5 yaşında olarkən valideynlərinin boşanması və övladlarının himayəsini öz üzərinə götürmək istəməmələri səbəbi ilə ataları Beyli Conson tərəfindən anası Eni Xendersonun yanına qatarla təkbaşlarına Arkanzas ştatının Stemps şəhərinə göndərilirlər. Nəzarətsiz şəkildə sadəcə Beylinin paltosunun daxili cibinə sancaqlanan biletlə nənə himyəsinə göndərilən uşaqlar sərt dini inanclara sahib olan Eni tərəfindən böyüdülür. Valideyn qayğısından kənar yaşayan uşaqlar bir növ təc-

rübi övlad təsəvvürü bağışlayırlar. Nəticədə, valideynlərinə uyğun olan vaxtlarda həyatlarında iştirak edən kiçik Anjelu beləliklə, böyük həyat dərsi ilə tanış olur.

Anjelu səkkiz yaşında ikən qardaşı ilə anası Viviyan Baksterin yanında Sent-Luis şəhərinə yaşamağa göndərilir. Yazıçının anası tibb bacısı idi, lakin ixtisası üzrə işləmir, poker məkanlarında təşkilatçılıq işləri görərək qazanc əldə edirdi. Anasını demək olar ki, xatırlamayan və hardasa 5 il sonra onu görən Maya ana qavramını dərk etməyə çalışır və qardaşı qədər vəziyyətə tez uyğunlaşa bilmir. Artıq övladları ilə bir yerdə yaşamağa başlayan Viviyan Baksterin Frimen adlı sevgilisi var idi və o da onlarla yaşayırdı. Müəyyən müddət bir yerdə yaşadıqdan sonra fiziki cəhətdən nəhəng bir adam olan Frimen 8 yaşlı Mayaya qarşı cinsi zorakılıq tətbiq edir. Bu vəziyyətin ortaya çıxması məhkəmə ilə nəticələnir və Frimenə bir il bir gün həbs cəzası təyin olunur. Lakin vəkilin səyi nəticəsində Frimen elə eyni gün azadlığa buraxılır. Frimenin azadlığa çıxması onun öldürülməsi ilə nəticələnir.

Başına uşaq yaşda gələn acınacaqlı hadisə ilə yaşamağa çalışan Anjelu Frimenin ölümündə özünü günahlandırmağa başlayır və törədilən bu rəzil hərəkətin qardaşına danışmaqla baş verən ölüm hadisəsinin müqəssiri olaraq özünü təyin edir. Bu hadisədən sonra Maya 3 il ətrafdakı insanlarla danışmır. Səsinin insanlara zərər verdiyi qənaətinə gələn Anjelu yalnız qardaşı Beyli ilə söhbət edir. Bu ərəfədə o kitablara yönəlir və susduqlarının əksini kitablarda tapmağa başlayır. Beləliklə, qəfəsdəki quşun qəfəsdə ikən özünü ifadə etməsi ilə, azadlıqda ikən susqunluğunu qorumaqla özünü müdafiə edən Anjelu ilə qarşılaşırıq.

Maya Anjelu "Caged Bird" ("Qəfəsdəki quş") adlı şeirində gözəl avazla oxuyan quşun çarəsizlikdən fəryad etməsini canlandırır.

"But a caged bird stands on the grave of dreams
his shadow shouts on a nightmare scream
his wings are clipped and his feet are tied
so he opens his throat to sing" [1].

Anjelunun anası ilə olan münasibəti qəliz və qopuq idi. İllərlə ondan uzaq olması, ana qayğısının nə olduğunu bilməməsi, sərt xasiyyətli nənəsini ana bilməsi və ondan da nəvaziş görməməsi, ətrafda baş verən hadisələri və çətinlikləri qardaşı Beyli ilə bölüşməsi Anjelunda ana təsəvvürünün tam formalaşmamasına və ya neqativ cəhətdən formalaşmasına gətirib çıxartmışdı. Viviyan Baksterin qızına qarşı olan söhbəti bu cür xatırlanır. *"Maya, you disapprove of me because I am not like your grandmother. That's true. I am not. But I am your mother and I am working some part of my anatomy off to pay for this roof over your head. When you go to school, the teacher will smile at you and you will smile back. Students you don't even know will smile and you will smile. But on the other hand, I am your mother. If you can force one smile on your face for strangers, do it for me. I promise you I will appreciate it"* [2]. Bu yolla Viviyan Bakster Anjeluya həm təsir etmək, həm onunla məsafəli davranan və doğmalıq hiss etməyən qızının özünə qarşı münasibətinin dəyişməsinə cəhd edir. Lakin bununla yanaşı bir ana olaraq Viviyan Bakster hər hansı bir peşmançılıq hissi keçirməməsi də nəzərdən qaçmır. Yazıçı komada, *ölüm döşəyində* olan anası ilə danışarkən bu ifadələri səsləndirir. *"You were a terrible mother of small children, but there has never been anyone greater than you as a mother of a young adult"* [2].

Romanda qaradərililərin qarşılaşdığı diskriminasiya məsələsi də kifayət qədər sərt bir formada əks olunur. Çarəsizlik, xor görülmə, qaralardan yalnız və yalnız qul kimi istifadə etməyə yararlı canlılar kimi baxılması və ucuz işçi qüvvəsi kimi istifadə olunması da canlandırılmışdır. Bu məsələni aydın şəkildə əks etdirən məqamlardan biri də azyaşlı Anjelunun dişinin ağrıması və həkimə müraciət etməsi ilə bağlı xatirəsində özünü tam təfərrüatı ilə əks etdirir. Yazıçının nənəsi Eni Xenderson vaxtı ilə köməklik etdiyi ağdərili diş həkimi Linkoluna müraciət edir. Onlar arasında olan dialoqda çarəsiz nənənin yalvarışları canlandırılmışdır.

"Annie, you know I don't treat nigra, colored people".

"I know? Dentist Lincoln. But this here is just my little grandbaby, she ain't gone be no trouble to you…"

"Annie, everybody has a policy. In this world you have to have a policy. Now, my policy is I don't treat colored people" [3, s.188].

... "I wouldn't press on you like this for myself but I can't take No. Not for my grandbaby. When you come to borrow my money you didn't have to beg. You asked me, and I lent it. Now, it wasn't my policy. I ain't no moneylender, but you stood to lose this building and I tried to help you out" [3, s.189].

Anjelunun nənəsi hər nə qədər təkid etsə də həkimi öz "prinsip"indən imtina etdirməsinə nail ola bilmədi. Nəticədə Linkolon *"...I'd rather stick my hand in a dog's mouth than in a nigger's"* [3, s.189] çirkin ifadəni işlədir. Göründüyü kimi, öz mənfəəti uğrunda vəziyyəti darda olan Linkolonun "prinsip"ləri də öz-özlüyündə maddi vəziyyətinin halına uyğun olaraq dəyişir və təzad təşkil edir. Nəticədə, bu miskin vəziyyəti yaşamağa düçar olan kiçik Maya öz fikirlərini bu cür ifadə edir:*"It seemsed terribly unfair to have a toothache and a headache and have to bear at the same time the heavy burden of Blackness"* [3, s.188].

Qaradərililərə olan münasibətin acınacaqlı tərəflərini bizə göstərən Maya Anjelu kitabında bizə ilk sevdiyi ağdərili insanın Vilyam Şekspir olması haqqında da məlumat verir. Şekspirin *"When in disgrace with fortune and men's eyes"* [3, s.14] ifadəsi ona çox yaxın olduğu üçün onu xüsusi sevməyə başlayır və özünə ağdərili birini sevməsində təsəlli olaraq artıq Şekspirin ölmüş olmasında görür. Lakin bu sevgisini nənəsi ilə bölüşməyə çəkinən Anjelu ona bu haqda heç nə deməmə qərarına gəlir.

Xülasə. *Tədqiqat göstərdi ki, tərbiyənin tərkib hissələri sırasında mənəvi tərbiyə əhatəliliyinə və məzmun zənginliyinə görə xüsusi yer tutur. Mənəvi tərbiyənin qarşısında duran vəzifələr də genişdir. Buraya vətənpərvərlik, düzlük və doğruçuluq, yoldaşlıq və dostluq, sadəlik və təvazökarlıq, xeyirxahlıq, humanizm, böyüyə hörmət, əməksevərlik, igidlik və mərdlik, qəhrəmanlıq, borc və məsuliyyət hissləri, ədalətə yiyələnmək, vicdanlı olmaq və s. bu kimi keyfiyyətləri inkişaf etdirmək və formalaşdırmaq kimi mühüm vəzifələr daxildir.*

Açar sözlər: *tərbiyənin tərkib hissələri, mənəvi tərbiyə, mənəvi tərbiyənin vəzifələri, təvazökarlıq, igidlik və mərdlik tərbiyəsi*

Pedaqoji nəzəriyyədə mənəvi keyfiyyətlər, onun komponentləri, formalaşdırılması və inkişaf etdirilməsi problemi bütün dövrlər üçün aktual olmuşdur. L.N.Tolstoyun "Anna Karenina" romanının proloqunda göstərilir: "Xoşbəxt adamların hamısı eyni cür xoşbəxtdir, bədbəxtlərin hərəsi bir cür bədbəxtdir" [1, s.261]. Azərbaycan ədəbiyyatının parlaq simalarından biri olan Cəfər Cabbarlının yaradıcılığı və əsərləri mənəvi keyfiyyətlərin formalaşdırılması və inkişaf etdirilməsi baxımından böyük imkanlara malikdir. Onun qəhrəmanları da xoşbəxtliyə nail olmaq uğrunda mübarizə aparırlar. Lakin onların hərəsi xoşbəxtliyi müxtəlif cəhətlərdə görür. Məlum olduğu kimi, tərbiyənin tərkib hissələri sırasında mənəvi tərbiyə əhatəliliyinə və məzmun zənginliyinə görə xüsusi yer tutur. Mənəvi tərbiyənin qarşısında duran vəzifələr də genişdir. Buraya vətənpərvərlik, düzlük və doğruçuluq, yoldaşlıq və dostluq, sadəlik və təvazökarlıq, xeyirxahlıq, humanizm, böyüyə hörmət, əməksevərlik, igidlik və mərdlik, qəhrəmanlıq, borc və məsuliyyət hissləri, ədalətə yiyələnmək, vicdanlı olmaq və s. bu kimi keyfiyyətləri inkişaf etdirmək və formalaşdırmaq kimi mühüm vəzifələr daxildir.

Bütün bu məsələlərə C.Cabbarlı irsində geniş yer ayrılmışdır. Xoşbəxtlik, səadət mənəvi sərvətlər arasında çox mühüm yer tutur. Ta qədimdən insanlar xoşbəxtliyə nail olmaq barədə fikirləşmiş, ona çatmağı arzulamış, səadətə yiyələnməyin yollarını aramışlar. Etika elminin gəldiyi nəticəyə görə, bəşər övladı ən qiymətli mənəvi sərvətdirsə, onun həyatında önəmli rol oynayan xoşbəxtlik növbəti, çox dəyərli sərvətdir. Səadət, xoşbəxtlik insanın ən zəruri tələbatı, arzu, istək və mənəviyyatının elə bir sahəsini təşkil edir ki, ondan kənarda insanın həyatı öz mənasını itirir. Sokrat və qeyriləri xoşbəxtliyi mütləq ruhi dincliklə eyniləşdirir və qeyd edirdilər ki, insan nəyə görəsə ruhi əziyyət çəkməyib, azla qənaətlənsə xoşbəxtliyə çatar.

Heraklitə görə, xoşbəxtlik yalnız hissi zövqlərdən ibarət olsaydı, onda gərək yeməyə noxud tapan öküzlər özlərini daha xoşbəxt sanardılar.

Var-dövlət hərisi olan şəxslərdən fərqli olaraq filosoflar xoşbəxtliyi kobud hiss və ehtirasların ödənilməsi vasitəsi kimi nəzərdən keçirmirdilər.

Xoşbəxtlik haqqında Lüdviq Feyerbaxın dəyərli fikirləri vardır. Onun qənaətinə görə, xoşbəxtlik insanın əsas məqsədinə çevrilməlidir. Bu mənada xoşbəxtlik mənəvi normalarla, əxlaq qaydaları və prinsipləri ilə son dərəcə bağlıdır.

Lakin xoşbəxtliyi təkcə şəxsi xoşbəxtliklə məhdudlaşdırmaq düzgün deyildir. Başqalarının, yaxınlarının sıxıntı keçirdiklərini, əzab çəkdiklərini, dərdli olduqlarını görüb necə xoşbəxt olmaq mümkündür? Axı "Bədbəxtlər arasında xoşbəxtlik yoxdur" (N.Vəzirov).

V.Q.Belinskinin belə bir qənaəti diqqəti cəlb edir ki, "Əgər bizim həyatımızın bütün məqsədi yalnız bizim şəxsi xoşbəxtliyimizdə olsaydı, bizim şəxsi xoşbəxtliyimiz isə yalnız sevgidən ibarət olsaydı, onda həyat həqiqətən qəbirlərlə, sındırılmış qəlblərlə dolu, qaranlıq bir səhra olardı, cəhənnəm olardı".

"Xoşbəxtlik nədir?" sualına cavab axtarmaq bir növ "həyatın mənası nədədir?" sualı üzərində düşünmək deməkdir.

Bunu hərə bir cür başa düşür. Bu axarda xoşbəxtlik və bədbəxtlik məhfumları bir-birilə qarşılaşdırılır. Kim xoşbəxtdir, kim bədbəxtdir? (Öz nəzərlərində və digərlərinə görə).

Sara ("Solğun çiçəklər") xoşbəxtdir. Bəhram onu, o, Bəhramı sevir, hələ onun qara günləri başlamamışdır. Bəhramla birlikdə olduğundan heç nədən qorxmur, Bəhram da onu əmin edir: "Sənin xoşbəxtliyin mənim həyat və səadətim deməkdir" [4, s.62]. Bəhram da xoşbəxtdir. Dünyanın ən gözəl, ismətli, sədaqətli, xoşrəftarlı, nümunəvi davranışlı qızı könlünü ona vermişdir. Lakin hadisələr dəyişir, Bəhramın xoşbəxtlik, səadət, bəxtiyar həyat haqqında təsəvvürləri də dəyişir. O, xoşbəxtliyi gözəl, əxlaqlı, ailənin dirəyi, sütunu olacaq qızda, qızlarda deyil, var-dövlətdə; mənəvi sərvətdə deyil, maddi sərvətdə tapacağı qənaətinə gəlir: "Əmimin vaxtında mən yoldaşlarımın arasında milyoner balası idim. İndi əlli manata xidmət edərsəm, mənə gülməzlərmi? Sultan bəy mənim əmimin pulu ilə dolanıb, indi onun yanında xidmət edəcəyəm?" [4, s.76] – deyə düşünərək, xoşbəxtliyin qapılarını öz əli ilə üzünə qapayır, onu bədbəxtliyə aparan yolu seçir.

"Qapılar arxasında gizlənib qeyrətini, kişiliyini pula satan məlun" (Əbdülün sözləri – K.A.). Bəhram ondan soyuduqca Sara da xoşbəxtliyin tədricən onu tərk etdiyini anlayır. Çətinliklər, məhrumiyyətlər, təhqirlər bir-birini əvəz edir. Aldadılaraq, xəyanət edilərək atasını, sonra var-dövlətini, sevgilisini əlindən alırlar. Ata evindən qovularaq bir daxmanın küncünə atılır: "İndi adamsız kənizlər kimi qaranlıq daxmada can üstündədir. Çörəyi yeyirlər, artıq qalsa ona göndərirlər, qalmasa, yaddan çıxıb gedir". Bəhram da arzuladığı xoşbəxtliyə ("Sara kimi bir mələyi sevərdim, fəqət pul, güzəran burada, şənlik, şuxluq burada; varlıq, səadət, xoşbəxtlik həp bu tərəfdə!") çata bilmir, axırda başa düşür ki, səadət, xoşbəxt həyat üçün təkcə var-dövlət, zəngin ev-eşik, eyş-işrət kifayət deyil ("O milyonlar ki, səadətin açarı deyildir"). Saranın ölümü onu silkələyir, özünü özünə qaytarır, "gəlinlik pərdəsi qaranlıq məzara döndərilən" Saranın və özünün bədbəxtliyinə bais olan Pərini boğub öldürür.

Pəri də xoşbəxtliyi özünəməxsus şəkildə başa düşür. Onun üçün xoşbəxtlik hansı yolla olursa olsun ələ keçirilmiş var-dövlət, pul, Bəhram kimi gözəl oğlana ərə getməkdir. Sara isə xoşbəxtliyi zəngin həyatda görmür, ona milyoner Hüseyn ağanın oğluna ərə getməyi təklif etsələr də, boyun qaçırır, sevgilisinə qovuşmağı, ac qalıb məhəbbətlə yaşamağı özü üçün xoşbəxtlik sanır.

Sara yüksək mənəvi keyfiyyətlərə malik, əxlaqca təmiz, saf bir insandır. Əbdülün yaxşılıqlarını qiymətləndirir, onu ata gözündə görür. Bəhram xəyanət etsə də onu sevir, unutmur. Atasının pulları geri alınarsa, dörd yerə bölüb bir hissəsini yaman gündə ona atalıq, analıq, pasibanlıq edən Əbdülə, bir hissəsini insaniyyət adına onun üçün çalışan vəkil Kərim bəyə, bir hissəsini özü kimi yoxsulluqdan məhəbbəti sınıb istiqbalı matəmə dönəcək qızların təmini üçün, bir hissəsini isə Bəhrama vəsiyyət edir. Sara hətta Pərini də unutmur, pullarının bir qismini onun həyatını zəhərə döndərən, ölümünə bais olan bacılığının adına keçirməyi tapşırır.

Cəfər Cabbarlı insanın kamil bir şəxsiyyət kimi formalaşmasından ötrü onu öz vicdanının səsinə qulaq asmağa çağırır. Məlum olduğu kimi, vicdan çox mühüm əxlaqi kateqoriya, mənəvi şüurun zəruri formasıdır. O gah təqdir, gah da məzəmmət edən hakim rolunda çıxış edir. Vicdanın, əsasən üç əhəmiyyətli xüsusiyyətini göstərirlər: ideala doğru can atmaq, şəxsi qiymət və hərəkətin ideala uyğun olması və yaxud olmaması nəticəsində meydana gələn mənəvi hisslər.

Vicdanlı şəxs heç kimin xəbər tutmayacağını yaxşı bildiyi zaman da özünü başqalarının gözündən sala biləcək hərəkət və əməllərə yol vermir. Mütəfəkkirlər, aqillər ta qədimdən vicdan kateqoriyasının rolunu yüksək qiymətləndirmiş, insanları vicdanın səsini dinləməyə səsləmişlər. Bu mənada aşağıdakı fikirlər diqqəti cəlb edir: "Mən dünyada iki həqiqi bədbəxtlik tanıyıram: biri vicdan əzabı, o biri xəstəlikdir. Vicdan – insanların həyatının doğru yol göstəricisidir" (L.N.Tolstoy), "Vicdan bizim malik olduğumuz ən yaxşı əxlaq kitabıdır, yoldan azmamaq üçün ona tez-tez baxmaq lazımdır" (L.Paskal), "Nə qədər ki, vicdanı ləkələməmişik, o, çox qabil və səhv etməyən hakimdir" (O.Balzak), "Vicdanı ləkələnmiş adamlara baxmaq döyülüb əzilmiş adamlara baxmaqdan daha qorxunc və daha dəhşətlidir", "Yalnız özünü yalan, abırsızlıq və həyasızlıq zirehinə bürüməyən adam vicdan mühakiməsi qarşısında titrəməyə bilər. Dərin ağlın olsa da vicdansız yaşaya bilməzsən" (M.Qorki).

Saranın ölümü Bəhramın yatmış, yuxuda olan vicdanını oyadır. İlk əvvəllər əməlindən az-çox peşman olsa da, kasıblıq, yoxsulluq, yoxsa var-dövlət, sərvət seçimində ikinciyə üstünlük verir. Hətta Saranın ülvi məhəbbətini qiymətləndirməyərək: "Sara üçün də bir yaxşı ər tapmağa səy edərəm ki, o da xoşbəxt olsun" deyə son qərarını verir. Lakin nadancasına anlamayır ki, onsuz, ondan kənarda Sara üçün xoşbəxtlik yoxdur.

Vicdanın səsi Gültəkini də ("Aydın") silkələyir. O, dərin peşmançılıq, acı kədər və sonsuz təəssüflə onun girdaba düşməsinə bais olan Dövlət bəyə deyir: "Könlümü, varlığımı sizə təslim etdim. Mən əvvəlki halımı qaytarmaq istəyirəm. Bacarmazsam, özümü öldürəcəyəm" [4, s.196].

Göründüyü kimi, vicdan həqiqətən daxili hakimdir. O, gec-tez oyanır və insanı mühakimə edir. Firəngiz də vicdanının mühakiməsinə çəkilir: "Ox, Nərgiz, sən bilsən, o yazıq (Oqtay – A.K.) nə bəlalar çəkmiş! Bunların hamısına bais mənəm, mən!" [4, s.278].

C.Cabbarlı hüquq kateqoriyası ilə yanaşı həm də sosioloji-etik kateqoriya olan ədalətə də öz münasibətini bildirmişdir. Filosofların qənaətincə, ədalət də digər mənəvi sərvətlər kimi tarixi kateqoriyadır və o, sinfi xarakterə malikdir. Bu fikirdən çıxan məntiqi nəticəyə görə, ədalət məfhumu tarixi inkişafın hansısa bir mərhələsində meydana gəlmişdir. Həm də daimi və dəyişməz ədalət yoxdur.

C.Cabbarlının yaradıcılığı ilə tanışlıqdan görünür ki, o, ədalətə düzgün əvəzini vermək və tələb etmək ölçüsü kimi mənəvi fəzilət, əxlaqi borcun yerinə yetirilməsi kimi yanaşırdı. Ədib ədalətin vicdanla sıx bağlı olduğunu göstərirdi. C.Cabbarlı yazırdı: "Zənnimcə, xilqətdən daha əvvəl ədalətsizlik və vicdansızlıq yaranmışdır. Zira, istər tarixdə, istər indiki həyata baxılırsa, çox az insan tapılar ki, ədalətsizlikdən uzaq olsun! Az adam tapılar ki, bir pis iş etdikdə onu vicdanı ilə müqayisə etsin, yaxud fikir eləsin ki, əcəba, bu əmrə ki, mən iqdam edirəm, bu rəvamıdır? Nəinki insanlar arasında, hətta xilqət və təbiətdə daha böyük qanunsuzluq müşahidə olunur. Görürsən, bir nəfər nifrətə şayan olan zalımı ucaldıb bütün arzuların fövqinə yetirdi, amma digər əhli-vicdan, pak və müqəddəs bir şəxsi xar edib ayaqlar altına saldı, hər tərəfdən onu fəlakət buludları çulğaladı, o qədər o biçarəni əzdi ki, axırda onu ya intixara, ya qeyri bir tövrlə canını həyatın əzablarından qurtarıb qara torpaq altına girməyə məcbur etdi" [3, s.185].

Cəfər Cabbarlının yaradıcılığı borc və məsuliyyət hisslərinin formalaşdırılması üçün zəngin material verir. Ədibin fikrincə, insan ona tapşırılan vəzifəni ləyaqətlə yerinə yetirməlidir. O, söz verib sözünə əməl etməmək kimi halları pisləyir. Maarif Komissarlığı Almaza (bir müəllim olmaqdan savayı) tapşırıq verib kənd məktəbinə göndərir. O, kənddən çıxıb getmək istəyən Camala bunu xatırlayanda Camal deyir: "O, bir şey deyil, düzəltmək olar. Ərizə verərik, düzələr, gedər".

Almaz belə bir hərəkəti ən acı "ictimai əxlaqsızlıq" adlandırır. Vətəndaş mövqeyi nümayiş etdirməyin vacibliyini Camala xatırladır: "Söz verdim, vəzifə götürdüm, qurtardı. Bu, bizim vətəndaşlıq borcumuzdur" [11, s.73].

Camal Fuada istinadən deyir: "Mən vətəndaş olmaqdan başqa özüm üçün də bir adamam. Dünyada bir yol yaşayıram. Öləcəyəm, bir də dirilməyəcəyəm" [2, s.73].

C.Cabbarlı bu mövzuya müraciət edərək Almaz və Camalı qarşılaşdırmaqla məsələyə öz mövqeyini bildirir. Təbii ki, Camalın hərəkətini bəyənmir, bəzi adamların vətəndaşlıq borclarına laqeyd yanaşmalarını, ictimai mənafe ilə müqayisədə şəxsi rahatlığı, marağı, mənafeyi üstün tutanları tənqid atəşinə tutur.

Cəfər Cabbarlı insanlar arasındakı qarşılıqlı münasibətlərdə yoldaşlıq və dostluğun rolunu yüksək qiymətləndirmişdir. Bu da təbiidir. Adamları məqsəd ümumiliyi və həmin məqsədə nail olmaq naminə bir-birlərinin müdafiəsində olmaq birləşdirdikdə yoldaşlıq yaranır. Cəfər Cabbarlının bədii yaradıcılığı ilə tanışlıqdan görünür ki, ədib yoldaşlıq münasibətlərində hörmət, qarşılıqlı məsuliyyət və yardım, həssaslıq, tələbkarlıq, bir-birini müdafiə etmək, bir-birinə məsləhət vermək, yol göstərmək kimi əsas cəhətləri vacib saymışdır. Ədib yoldaşlığa nisbətən dostluğa daha yüksək tələblər verir. Diqqəti dostların bir-birindən ötrü daha çox məsuliyyət daşımasına yönəldir, dostluğu insanlar üçün xoş və ağır günlərdə etibarlı dayaq rolu oynayan qüvvə bilir.

Bu baxımdan Aydın və Surxay arasındakı yoldaşlıq və dostluq münasibətləri nümunə gətirilə bilər. Surxay Aydının xatirinə Gültəkinə olan məhəbbətini gizli saxlayır: "O bilmirdi ki, mən Gültəkini sevirəm. Bir az keçincə gördüm ki, bunlar bir-birlərini sevirlər. Bir yandan sevdiyimin arzusunu görüb səadətinə mane olmamaq, bir yandan da yoldaşlıq. Mən bütün varlığımla könlümü zorlayıb məhəbbətimi gizlətdim" [4, s.212].

Öz eşqinə çata bilməyən Surxay yoldaşlıq dostluq münasibətlərini saxlamaqda davam edir. Çətin anlarda onun köməyinə yetir, onların ailəsinin rifahı, bu ailədə sağlam mənəvi-psixoloji mühitin bərqərar olması üçün çalışır. Dövlət bəyə Aydının ailəsini dağıtmamağı, Gültəkindən əl çəkməyi ("Siz bir ailəni məhv edirsiniz. Onun bütün səadətini, ümidini, gələcəyini bir uçuruma doğru aparırsınız") tələb edir.

C.Cabbarlı ata-ananın öz uşaqlarına, övladların isə öz valideynlərinə hörmət və məhəbbətlə yanaşmalarını, bir-birlərinə qayğı göstərmələrini vacib sayırdı. Sevilin qəlbi genişdir, atasını dərin məhəbbətlə sevir. Valideynin zəhmətini qiymətləndirir, onun üçün narahat olur. Balakişiyə deyir: "Çörəyimizi o-bu yeyir, daha səni buradan buraxmaram... Otur, çörək ye, sonra gedərsən" [2, s.14].

"Şəfqətli ana və tərbiyəli uşaq" satirasında ana ilə uşaq arasındakı ixtilafdan danışarkən belə bir suala cavab tapmağa çalışır: balaca bir uşağın anasına hörmətsiz münasibətinin səbəbi nədir? Axı ana onu doğub, süd verib, böyüdüb, onun ayaq tutması üçün nə qədər zəhmət, əziyyət çəkib.

Cəfər Cabbarlıya görə, bu məsələ iki səbəblə bağlıdır: birincisi, ana düzgün tərbiyə üsulu seçmir; ikincisi, ailədə anaya hörmətli münasibət yoxdur.

Ədib belə qənaətə gəlir ki, məsələnin köklərini ictimai quruluşda axtarmaq lazımdır. Yəni cəmiyyət ananın, qadının ləyaqətini, mənafeyini qorumadığı üçün o öz uşaqlarının tərbiyəçisi ola biləcək bir mövqeyə qalxa bilmir.

C.Cabbarlı mənəvi keyfiyyətlər içərisində qonaqpərvərliyə xüsusi yer verir və onu yüksək qiymətləndirir. O, qonaqpərvərliyi insanın mədəniyyət göstəricilərindən biri kimi nəzərdən keçirmişdir. Atakişi Balaşın xatirinə ölü paltarı geyib qonaqların arasına çıxır. Balaş onu qonaqlara lal kimi təqdim edir. Atakişi bütün bunlara dözür. Lakin qonağınn – Babakişinin təhqir olunması onu hiddətləndirir, buna görə oğlunu lənətləyir: "Nankor övlad! Mən boğazımdan çörəyi kəsib sənin boğazına dürtmüşəm, səni oxutdurmuşam, mənim qapım saldat üzünə də açıq olmuşdur, indi sən mənim qonağımı evdən qovursan" [2, s.33].

Cəfər Cabbarlı hörmət və tələbkarlıq; şüurla davranışın, biliklə davranış təcrübəsinin vəhdəti prinsipləri ilə yanaşı tərbiyədə aydın məqsədin olması; müəllimin rəhbərliyinin uşaqların fəallığı ilə uzlaşdırılması; tərbiyənin yeni dövrün quruculuğu ilə əlaqəsi; tərbiyəvi təsirlərdə həmrəylik; təlimin, tərbiyənin və inkişafın birliyi; tərbiyədə millilik prinsiplərinə öz münasibətini bildirmişdir.

Dramaturqun yaradıcılığı ilə tanışlıq əsas verir deyək ki, o, tərbiyənin: 1) düzgün pedaqoji rəftar; 2) rəğbətləndirmə və cəza; 3) yaxşı adətlər; 4) nümunə kimi metodlarının tətbiqini məqsədəuyğun sayır.

Ədib tərbiyənin təşkili formalarından oyun, yürüş, bədii özfəaliyyət və sairə xüsusi diqqət yetirirdi.

İşin elmi nəticəsi. Cəfər Cabbarlı həmişəyaşar sənətkardır. Onun yaradıcılığı təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlara malikdir. Ədib xüsusi pedaqoji əsər yazmasa da istər hekayələrində, istər "Qız qalası" poemasında, lirik və satirik şerlərində, istərsə də dramlarında müəllim şəxsiyyəti, tərbiyəçinin və tərbiyə olunanın həyatda fəal mövqe tutması, təhsil, məktəb haqqında dəyərli fikirlər irəli sürmüşdür.

İşin elmi yeniliyi ondan ibarətdir ki, müəllif XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin publisistik əsərlərini, bədii yaradıcılığını diqqətlə araşdırmaqla pedaqoji fikirlərini öyrənmiş, sistemləşdirmiş, ümumtəhsil məktəblərində təlim prosesində və sinifdənxaric tədbirlərdə ədibin həyat və yaradıcılığına necə yer verildiyini və onun təlim, tərbiyə, təhsil, müəllim haqqında fikirlərindən səmərəli istifadənin şagirdlərin ləyaqətli vətəndaş kimi formalaşmasında rolunu müəyyənləşdirmişdir.

İşin tətbiqi əhəmiyyəti. Bununla müəyyən olunur ki, XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin ideyalarının tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici təsirini təşkil etməkdə müəllimlərə; müsbət qəhrəmanlarının düşüncələrinin, hərəkət və əməllərinin saf-çürük edilməsi əsasında düzgün nəticəyə gəlməkdə şagirdlərə kömək göstərəcəkdir.

Ədəbiyyat

1. Əhmədov, H.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi / H.M Əhmədov, – Bakı: Maarif, – 2011, – 496 s.
2. Cabbarlı, C. Əsərləri: [3 cilddə] / C.Cabbarlı, – Bakı: Azərnəşr, – c.2, – 2007, – 456 s.
3. Cabbarlı, C. Əsərləri [3 cilddə] / C.Cabbarlı, – Bakı: Azərnəşr, – c.3, – 2009, – 456 s.
4. Cabbarlı, C. İlk dram əsərləri / C.Cabbarlı, – Bakı: Azərbaycan EA, – 2017, – 292 s.

K.T.Allahverdiyeva

Of Developing Moral Qualities in Pedagogical Thought

Summary

In article has been shown, that among the components of education, spiritual education has a special place due to its comprehensiveness and richness of content. The tasks facing moral education are also wide. This includes patriotism, honesty and truthfulness, companionship and friendship, simplicity and humility, kindness, humanism, respect for elders, diligence, courage and bravery, heroism, a sense of duty and responsibility, justice, honesty and other important tasks such as developing and shaping qualities.

Key words: *components of education, moral education, tasks of moral education, education of humility, courage and bravery*

К.Е.Аллахвердиева

Проблемы развития нравственных качеств учашихся в педагогической теории

Резюме

В статье показано, что среди компонентов воспитания нравственное воспитание занимает особое место в силу своей комплексности и содержательности. Широки и задачи, стоящие перед нравственным воспитанием. Это включает в себя патриотизм, честность и правдивость, товарищество и дружбу, простоту и скромность, доброту, гуманизм, уважение к старшим, трудолюбие, отвагу и смелость, героизм, чувство долга и ответственности, освоить справедливость, быть честным и т. д. Сюда входят такие важные задачи, как развитие и формирование перечисленных качеств.

Ключевые слова: *компоненты воспитания, нравственное воспитание, задачи нравственного воспитания, воспитание скромности, отваги и смелости*

Rəyçi: ped.f.d., dos. G.R.Məmmədova
Redaksiyaya daxil olub: 05.05.2025

Z.Z.ARABOVA
baş müəllim
e-mail: zeynebarabov67@gmail.com

:https://orcid.org/0009-0007-5713-0462

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.231

DİL FAKÜLTƏLƏRİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ SƏRİŞTƏ ƏSASLI TƏLİM METODUNDAN İSTİFADƏ YOLLARI

Xülasə. *Məqalədə sərişta əsaslı təlim metodunun ingilis dilinin tədrisində böyük rola malik olmasından bəhs edilir. Bu yanaşma təhsilalanların təlim nəticələrinə əsaslanır.*
Burada əsas məsələ olaraq, dilöyrənənlərin öyrənmə prosesindən, təhsilverənlərin isə təhsilalanlardan gözləntiləri diqqət mərkəzində olur.
Bir sözlə, bu təlim növü öyrənmə prosesi üçün vacib hesab edilir.
Nəticə etibarilə, sərişta əsaslı təlim metodunda output və sərişta əsas məsələlərdir.
Onu da vurğulayaq ki, bu təlim metodu sərişta əsaslı təhsilin prinsiplərinin aplikasiyası kimi qəbul edilməkdədir. Burada əsasən dəqiqlik, cavabdehlik, mükəmməl idarəçilik, kəmiyyət meyarları əsas götürülür.
Sözügedən tədris növündə təhsilalanların davranış məsələləri xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: *sərişta, motivasiya, dil, kontekst, metod*

Sərişta əsaslı təlim metodu planlaşdırma, proqramların yerinə yetirilməsi və təlim materiallarının çatdırılması baxımından ən geniş yayılmış yanaşma hesab edilir. Zaman içərisində daha geniş əhatə dairəsinə malik olub, bu sahədə müəyyən nailiyyətlər əldə etdi.

Əsas maraqlı olan detallardan biri də odur ki, bu yanaşmada dil tədrisi sahəsində spesifik kontekstlərə üstünlük verilir. Bu o deməkdir ki, bu zaman dilöyrənənlərin spesifik dil ehtiyacları nəzərə alınır. Belə olduqda onlarda motivasiya səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlir və eyni zamanda dərslərin səmərəlilik əmsalları nəzərəçarpacaq dərəcədə çoxalır.

Onu da qeyd edək ki, sərişta əsaslı dil tədrisində bir neçə əsas xüsusiyyətlər diqqət mərkəzindədir ki, onları təqdim edirik:

– Cəmiyyətdə uğurlu funksiyaya fokuslanma.

Bu zaman fərdlərin uğurlu və müstəqil olmaları, dəyişən dünyanın tələblərinə cavab verməsi kimi məsələlər ön planda olur.

– Həyati bacarıqlara fokuslanma

Burada həyati hadisələrə fokuslanarkən dili konkret tapşırıqlar əsasında öyrənmə mühüm əhəmiyyət kəsb etməkdədir. Belə ki, bu zaman sərişta əsaslı dil tədrisi kommunikativliyin həyata keçirilməsini dəstəkləyir. Bu zaman təhsilalanlar həyati təcrübələrinə söykənərək müəyyən fikirləri öz yoldaşları ilə paylaşırlar. Bununla da həm dilin istifadəsi fəal xarakter alır, həm də əməkdaşlıq əsaslı öyrənmə metodu işlək mexanizm nümayiş etdirir.

Beləliklə, dilöyrənənlər dili situasiyalar əsasında öyrənməyə başlayırlar. Bu funksiyalar dilin istifadəsinin qiymətləndirilməsi ilə müəyyənləşir. Situasiyalar daxilində şifahi nitqin inkişafı dəstəklənir, real həyati hadisələrə söykənən müxtəlif həcmə və məzmuna malik tapşırıqların situativlik fonunda yerinə yetirilməsi təhsilalanların marağına səbəb olur.

Bununla yanaşı, bütün bu qeyd edilənlər onların bilik və bacarıqlarının inkişafının müntəzəm olaraq, yoxlanılmasına və nəzarət edilməsinə əhəmiyyətli dərəcədə yardım edir.

– Tapşırıq və ya performans yönümlü oriyentasiya

Bu zaman isə bilikdən daha çox təqdimetmə davranışlarına fokuslanılır.

– Modullaşdırılmış icra

Bu cür yerinə yetirmə prosesində tədqiqatçılar qeyd edirlər ki, dilöyrənmə çevik və başa düşülən hissələrə bölünür. Məqsədlər isə alt məqsədlərə ayrılır.

Beləliklə, müəllim və tələbələr aydın şəkildə uğura nail olmanın üsullarını anlayırlar.

– Əldə edilən təlim nəticələri

Əsas qarşıda dayanan təlim nəticələri də burada vacib hesab edilməkdədir. Belə ki, təlim nəticələri həm də ictimai bilik sayılır. Biliyin əldə edilməsi isə dilöyrənənlər və müəllim tərəfindən razılaşdırılır. Belə olduqda, dilöyrənənlər onlardan hansı davranışların gözlənildiyini bilir və qarşıya davranışları özündə ehtiva edən məqsədlər qoyurlar.

– Davamlı qiymətləndirmə

Qiymətləndirmə zamanı təhsilalanlar əvvəlcədən test edilərək, çatışmazlıqlar müəyyən edilir. Mənimsəmədən sonra təhsilalanlar yenidən testə cəlb edilirlər. Əgər onlar istənilən nəticəni əldə edə bilməmişlərsə həmin problem yenidən gündəmə gətirilərək, test edilirlər. Burada proqramların qiymətləndirilməsi testin nəticələri ilə bilavasitə bağlı olur.

– İcra etmədə məqsədlərin nümayiş etdirilməsi

Bu zaman isə daha da müxtəlif olan qeyri-adi bacarıqlar diqqət mərkəzində saxlanılır. Hansı hissədə səriştə çatışmazlığı olarsa bütün diqqət həmin yerə yönəldilir. Bu zaman təlimatlar vaxt-əsaslı olmurlar [4,s.153]. Belə ki, təhsilalanları maraqlandıran mövzu və suallarla bağlı təhsilverənlər müxtəlif fəaliyyət növləri daxilində də müzakirələr, debatlar, sual-cavab sessiyaları, bir sözlə, müxtəlif kommunikativ fəaliyyətlər silsiləsi təşkil edərək, onların biliklərini təkmilləşdirə bilərlər, eyni zamanda bu aspektdə suallarını cavablandırar və dilöyrənənləri maraqlandıran digər məsələlərə də toxunmuş olarlar.

Beləliklə, həm biliyin genişləndirilməsi istiqamətində, həm də səmərəlilik baxımından xeyli fayda əldə edilmiş olar.

Onu da qeyd edək ki, adıgedən səriştə növündə iki xüsusiyyət diqqət mərkəzində olur:

– Dilöyrənənlər müəllimin gözlədiyindən nə qədər çox işlər yerinə yetirməlidirlər;

– Təhsilalanların göz önündə olan davranışları müşahidə edilir.

Nəhayət, belə qənaətə gəlmək olur ki, səriştə əsaslı təhsil müəllimyönümlülükdən tələbəyönümlülüyə keçidin təlim metodologiyasıdır.

Bu yanaşmaya görə, təhsilverənlər tələbələrlə onların ehtiyacları, potensialları, inkişaf sahələri üzrə işləyir. Burada əlbəttə, yaş amili də mühüm əhəmiyyət kəsb etməkdədir. Belə ki, bu fonda yaşa görə gözləntilər də fərqli olur.

Bu mənada təhsilverənlər adı gedən məsələdə də xüsusi diqqət nümayiş etdirməlidirlər.

Bu münasibətlə, tanınmış ingilis metodisti C.Harmer yazır ki, *yaş amili bizim təhsilalanları öyrətmə və onlara nə etməli olduqlarını bildirmə prosesində qərar verməyimiz kimi məsələlərdə ən vacib amillər sırasında hesab edilməkdədir.*

Müxtəlif yaş dövründə olan insanların müxtəlif ehtiyac, səriştə və koqnitiv məsələlər baxımından bacarıqları vardır. Belə ki, biz kiçik məktəblidən xarici dili oyunlar vasitəsilə mənimsəməni gözlədiyimiz halda böyüklərdən əsasən dərin düşüncənin geniş istifadəsini gözləyə bilərik [2, s. 80].

Metodist F.Kərimov qeyd edir ki, maraqlı materialın təqdim etmə tərzi də mühüm şərtlərdən hesab edilir. Tədqiqatçı onu da əlavə edir ki, bu tədrisin mərhələsindən, təhsilalanların yaş dövründən əhəmiyyətli dərəcədə asılı amildir [1, s.43].

Göründüyü kimi, xarici dillərin tədrisində təhlil etdiyimiz məsələlər müxtəlif metodistlərin diqqət mərkəzində olmuşdur.

Xüsusilə, bu sahədə aşağıdakılar nəzərdə saxlanılmışdır:

– materialların asandan çətinə mənimsədilməsi

– tənqidi təfəkkürün formalaşdırılması

– analitik biliyin təqdimatı
– dərin düşüncənin nümayişi və s.

Onu da vurğulayaq ki, bir çox təşkilat və müəssisələrdə əsasən üç növ kompetensiya tipini əsas götürürlər.

Onları təqdim edirik:
– əsas, mərkəzdə dayanan kompetensiya
– çarpaz funksional kompetensiya
– funksional səriştə

Əlbəttə, bunların hər birinin özlərinin müvafiq təhlil və tərkib elementləri, tətbiq sahələri mövcuddur. Bu da elmi, nəzəri, təcrübi, metodoloji cəhətdən kifayət qədər araşdırmalar tələb edən məsələlərdir.

Məsələyə bu aspektdən yanaşdıqda bu mövzuda və məsələyə müvafiq məzmunda elmi-metololoji ədəbiyyatlarda kifayət qədər məlumatlara rast gəlmək mümkündür. Lakin bu gün də kompetensiyalarla bağlı müxtəlif baxışlar, fikirlər, yanaşmalar vardır.

Maria Luiza Perez Canado səriştənin qiymətləndirilməsində, həyata keçirilməsində və inkişafında bu çətin, həyəcanverici prosesin hansı mərhələsində olunduğunu vurğulayır [3, s.7].

O da vurğulanmalıdır ki, tədqiqatçılar səriştə əsaslı təhsilin zaman-zaman müxtəlif terminlərlə ifadə olunduğunu qeyd edirlər. Onlar çox vaxt adıgedən öyrənmədə öyrənmənin daimi, vaxtın dəyişkən olduğunu qeyd edirlər. Bu o deməkdir ki, təhsilalanların nümayiş etdirdikləri bilik və bacarıqlar, vaxt müxtəlifdir, lakin onlardan gözlənilən təlim nəticələrini özündə əks etdirən öyrənmə sabitdir, dəyişməzdir.

Hamıya məlumdur ki, uğurlu sinif interaksiyası tələbələrin iştiraklarından asılıdır. Belə ki, onların özlərini və digərlərini motivasiya etməyə ehtiyacları vardır. Məhz buna görə də onlar bunun üçün yollar axtarmalıdırlar. Qəbul etdikləri məlumatları öz şəxsi təcrübələrində tətbiq etməyi bacarmalı, sonda auditoriyalara inteqrasiya etməlidirlər.

Beləliklə, aşağıdakı terminlər səriştə əsaslı təhsilin adı olaraq, tanınmışdır:
– bacarıq əsaslı öyrənmə
– bilik əsaslı
– qabiliyyət əsaslı
– nəticə əsaslı
– performans əsaslı
– standart əsaslı təhsil

Qeyd edək ki, səriştə əsaslı təhsil çeviklik, tədrisdə canlılığa fokuslanır. Burada da bəzi məsələlər diqqət çəkir ki, onları təqdim edirik:
– məzmun üzrə bacarıqlar
– təlim nəticələri
– qiymətləndirmə
– çevik fidbək (geridönüş)
– statistikanın toplanması

Ümumilikdə, bu yanaşmada bir çox faydalar göz önündədir.

Onları təqdim edirik:
– dilöyrənənləri öz maraqlandığı sahələrdə işləməyə imkan yaratmaq;
– müəllimlərin məqsədlərini aydın şəkildə müəyyənləşdirməyi, tamamlamağı təmin etmək;
– təhsilverənlərə özlərinin öyrənmə xəritələrini formalaşdırmağa imkanlar təklif etmək;
– müəllimlərə rəngarəng metodlardan istifadə imkanları yaratmaq;
– öyrənmə mənbələrindən istənilən vaxt, istənilən yerdə istifadəni təmin etmək;
– texnologiyalardan ən yaxşı şəkildə istifadəni həyata keçirmək;
– səriştə nümayiş etidrməyə şərait yaratmaq;
– uğur və müvəffəqiyyətə gedən yolda bələdçilik etmək və s.

Bununla yanaşı, müəllim və dilöyrənənlər birlikdə öyrənmə strategiyaları hazırlayırlar ki, onlar aşağıdakılar hesab edilir:

– Layihə əsaslı öyrənmə

Bu zaman təhsilalanlar öz bilik və bacarıqlarını real dünya layihələrində tətbiq edirlər. Bunlar da fərdi və ya qrup şəklində həyata keçirilir ki, bu zaman onların maraq və qabiliyyətləri üzə çıxır.

– Problem əsaslı öyrənmə

Burada isə təhsilalanlar birlikdə həqiqi dünya hadisələri və situasiyaları üzərində qurulan problemləri həll etməyə çalışırlar. Bu da onlarda tənqidi düşüncə və problemi həlletmə bacarıqlarını formalaşdırır.

– Sorğu əsaslı öyrənmə

Bu zaman isə təhsilalanlar hər hansı mövzu və ya konsepti araşdırmalıdırlar. Belə halda onlar suallar soruşmaq, özləri bildikləri üsullarla mühakimələr yürütmək imkanına malik olurlar.

– əməkdaşlıq əsaslı öyrənmə

Dilöyrənənlər birlikdə işləyərək, tapşırığı və ya layihələri bitirməyə çalışırlar. Bu cür hallar təhsilalanlarda ünsiyyət və komanda işi ilə bağlı bacarıqlar formalaşdırır.

– Müstəqil, özünə yönəldilmiş öyrənmə

Bu halda isə onlara özlərinin öyrənmə prosesini yönəltməyə icazə verilir. Bu o deməkdir ki, onlar nəyi, harada, necə, nə zaman öyrənəcəklərinə özləri qərar verirlər. Bu da onlarda özünə inam hissinin, müstəqil düşünmə və qərarvermə qabiliyyətlərinin formalaşdırılmasında geniş imkanlar təklif edir. Belə ki, bu onların bilavasitə istəklərinə bağlı olaraq müəyyənləşdirilir.

Qeyd edək ki, bu növ səriştədə təhsilalanlar materialları mənimsəmə dərəcəsində müəyyən müvəffəqiyyətlər əldə etməzlərsə bu zaman təhsilin davam etdirilməsi ilə bağlı problemlərlə qarşılaşa bilərlər. Belə ki, təhsilalanlar təlim materiallarından hər hansı mərhələni mənimsəyə bilməyiblərsə bu da onların növbəti mərhələyə addımlamasında müəyyən əngəllərlə müşayiət olunur.

Əksinə, bütün təlim materialları üzrə bilik və bacarıqlara sahib olduqda onlarda irəliləmədə əminlik hissinin formalaşdırılmasına bilavasitə yardımçı olur.

Bundan əlavə, prosesin bu cür quruluşu təlim materiallarından ən yaxşı və səmərəli şəkildə istifadənin reallaşdırılmasını dəstəkləyir. Eyni zamanda bilik və bacarıqların mənimsədilməsi zamanı dilöyrənənlərə çeviklik nümayiş etdirməyə yardım edir.

Qeyd edək ki, kompetensiya ilə bağlı təsvirlərdə tələbələr tərəfindən sosial cəhətdən müəyyənləşdirilmiş biliyə dair strukturlar mövcuddur. Məhz bu baxımdan səriştə əsaslı təlim metodu təhsilalanların cəmiyyətdə effektiv şəkildə iştirakı üzərində qurulur. Çünki bu zaman uğurlu ünsiyyət, səmərəli tədris fəaliyyəti mövcud olur.

Yeri gəlmişkən, qeyd edək ki, tədris olunan materialların autentiklik keyfiyyəti də əsas diqqət mərkəzində olan məsələlərdən hesab edilməkdədir. Eyni zamanda planlaşdırma düzgün həyata keçirilməlidir.

Bununla yanaşı, hər bir səriştə tanıdılmalıdır. Hər bir səriştə relevant bacarıqlara bölünməlidir. Bu bacarıqları öyrənmək üçün imkanlar yaratmaqla modullar inkişaf etdirilməlidir. Müəllimlər müəyyən məsələləri, daha dəqiq desək, prosesi necə və nə zaman həyata keçirməyi dəqiqləşdirməlidirlər.

Səriştəni qiymətləndirmək üçün müəyyən rubriklər düşünülməli və dərs saatlarının əvvəlindən dilöyrənənlər üçün açıq olmalıdır.

Xüsusilə vurğulanmalı məsələlərdən biri də budur ki, kompetensiyaya qoyulan tələblərdən irəli gələn müxtəlif kommunikativ fəaliyyət növləri ətrafında düşünülməlidir.

Ən əsası isə budur ki, spesifik, birbaşa və fərdi geridönüşlər (feedback) edilməlidir.

Əlavə olaraq, vurğulayaq ki, səriştə əsaslı təlimdə təhsilalanların da rolları müəllimlər kimi dəyişikliyə məruz qalır. Belə ki, bu zaman tələbə yalnız informasiyanı qəbul edən, tapşırıqları yerinə yetirən və s. deyil, eyni zamanda inteqrasiya və emal edən, bilik və bacarıqlarını

genişləndirən olmalıdır. Onlar öz şəxsi öyrənmə prosesini reallaşdırmalıdır ki, bu da onların müstəqil olmaları üçün xüsusi əhəmiyyət daşımaqdadır.

Bununla yanaşı, təhsilalanlar tənqidi düşüncə tərzi nümayiş etdirməlidirlər. Gözləntilər və standartlar aydın və anlaşıqlı olduqda irəliyə doğru addımlayaraq, digər səriştə növlərinə də yiyələnmək mümkün olur.

Nəticə etibarilə, dilöyrənənlər səriştələrin təkmilləşdirilməsinə yönəldilmiş auditoriyalarda sual vermək, bir-birini motivasiya etmək, təşəbbüs göstərmək kimi keyfiyyətlər nümayiş etdirməlidirlər.

Qeyd edək ki, sözügedən səriştə növünün təkmilləşdirilməsinə yönəldilmiş auditoriyalarda fəaliyyətlər, materiallar və sillabuslar ənənəvi olanlardan fərqli olur. Belə ki, spesifik dil mətnlərindən ibarət prosesi özündə ehtiva edən fəaliyyətlərdən fərqli olaraq, burada daha çox inkişafyönümlü strategiya və taktikalar diqqət mərkəzində saxlanılır. Bu zaman hər dərs bacarıqların, səriştənin inkişaf etdirilməsinə yönəldilir ki, bu da vacib hesab edilir.

Bununla bərabər, düşünmə və təşkil – hər ikisi vacib məsələlərdir.

Ənənəvi öyrənmə üsullarında əksər hallarda bütöv dərs bir mövzunun mənimsədilməsinə həsr olunduğu halda səriştə əsaslı təlimi həyata keçirən auditoriyalarda bu məsələlər fərqli xarakter daşımaqdadır.

Buradan belə qənaətə gəlmək olur ki, tədqiqatçılara görə, hər hansı bir mövzu aşılanarkən (məsələn, past tense) bu dərsin inteqral bir hissəsi olaraq, öyrədilməlidir.

Bununla yanaşı, relevant lüğət, tələffüz və s. məsələlərlə bərabər reallaşdırılmalıdır. Sinif materialları bilmədən ("knowing") daha çox, tətbiq etməyə ("doing") oriyentasiya edilməlidir.

Tutaq ki, səriştə "giving personal infiormation" adalanır. Bu zaman dilöyrənənlər buna dair tətbiqlər gerçəkləşdirməlidirlər.

Bunlar aşağıdakı adlarla xarakterizə edilə bilər:

– ailə ağacı (family tree) tərtib etmək;

– keçmiş haqqında yaddaqalan xatirələr danışmaq (talking about favorite pasttimes) ;

– həftəsonu yerinə yetirilən işlərin təsviri (describing what they did over the weekend) ;

Sözügedən tədris metodunda ənənəvi üsullarla həyata keçirilən az miqdarda tapşırıqlar olmalıdır. Məsələn,

– boş yerləri doldurun;

– düzgün cavabı dairəyə alın;

– spesifik qrammatik tapşırıqların yerinə yetirilməsi və s.

Bu zaman elə tapşırıqlar seçilməlidir ki, onlar real həyati situasiyalarla bilavasitə uyğunluq təşkil etmiş olsun. Belə olduqda tələbələr asanlıqla bilik və bacarıqları tətbiq etmə sahəsində mühüm və müsbət addımlar ata bilirlər. Eyni zamanda uğura nail olurlar. Bu da növbəti mərhələlərdə onlarda özünəinam hissinin formalaşdırılmasında əhəmiyyətli dərəcədə fərqlərlə müşayiət olunur. Belə olduqda tələbələr nəzərdə tutulmuş kompetensiyanın bir neçə və ya bütün komponentlərindən istifadə mexanizmini bilməli və onu tətbiq etmək üçün müəyyən cəhdlər etməlidirlər.

Yeri gəlmişkən, onu da vurğulamaq lazımdır ki, eyni zamanda sillabuslara icra (performance) fəaliyyətləri də daxil edilməlidir ki, onlar bacarıqlar əldə etsinlər.

Beləliklə, metodoloji ədəbiyyatlarda səriştə əsaslı təhsil aşağıdakılar üzərində qurulur:

– təlimat

– qiymətləndirmə

– fidbək

– özünü ifadə etmə

– akademik mövzu sistemi

Bunlar yuxarıda da ifadə etdiyimizin təsdiqi olaraq, tələbələrin təqdimatları üzərində qurulur ki, burada da aşağıdakılar diqqət mərkəzində saxlanılır:

– bilik

– münasibətlər
– motivasiya
– bacarıq və s.

Burada təhsilalanların bu keyfiyyətləri haqqında məlumatlar əldə etmək mümkün olur.

İşin elmi nəticəsi. Sərişdə əsaslı dil tədrisinin istifadəsi fonunda təhsilverənlər və onların təklif etdikləri materiallar, kommunikativ fəaliyyətlərin xüsusiyyətləri və seçimi, səmərəliliyi mühüm əhəmiyyətə malikdir. Burada ən çox səmərəlilik nümayiş etdirən yollardan biri dilöyrənənləri düzgün şəkildə istiqamətləndirmək, ingilis dilində danışanları məqsədyönlü şəkildə dinləmək və mənalı, motivasiyaedici söhbətlərə sövq etməkdir. Əgər tələbələr nə qədər çox söz dinləyib-anlayarsa bir o qədər də sərişdəlilik tez formalaşar.

İşin elmi yeniliyi. Sözügedən məqalədə indiyə qədər araşdırılan məsələlər təhlil edilir, elmi müddəalar tutuşdurulur, əldə edilən nəticələr xülasə şəklində təqdim edilir.

İşin tətbiqi əhəmiyyəti. Araşdırılan mövzu ali məktəblərdə ingilis dilinin tədrisində sərişdə əsaslı təlim metodunun istifadəsi və təkmilləşdirilməsi baxımından faydalı ola bilər.

Ədəbiyyat

Azərbaycan dilində

1. Kərimov, F. Şifahi nitqin inkişafı yolları / F.Kərimov, – Bakı: BSU nəşr., – 2002, – 139 s.

İngilis dilində

2. Harmer, J. The Practice of English Language Teaching (5th edition) / J.Harmer, – Pearson Education Limited, – 2015, – 446 p.
3. Maria Luiza Perez Canado. Competency- Based Language Teaching in Higher Education. – Springer Science + Business Media Dordrecht, – 2013, – p.7-12
4. Richards, J. Rodgers. Approaches and methods in Language Teaching (3rd edition) / J.Richards, S.Theodore. – Cambridge University Press, – 2014, – 409 p.

Z.Z.Arabova

The Ways of Using Competency Based Language Teaching at Language Faculties in ELT

Summary

The article considers that Competency Based Language Teaching plays great role in Foreign Language Teaching. This approach is based on the outcomes of the learners. The main point here are the expectations of the learners from the learning processing and teachers expectations from the students.

Generally, this approach considers output very important at learning process. So, output and competency are the main points for CBLT. We should emphasize that this teaching method is accepted as the principles of application of Competency Based Education. Accountability, management quantification are the main questions in CBLT.

In this method, the behavioral questions of the students have great importance.

Key words: *competence, motivation, language, context, method*

З.З.Арабова

Способы использования метода обучения основанный на компетентности при преподавании английского языка на языковых факультетах

Резюме

В статье отмечается что, метод формирования навыков играет большую роль в обучении английскому языку. Этот подход основан на результатах обучения учащихся. Здесь в качестве основного вопроса находятся ожидания учащихся от процесса обучения и ожидания преподавателей от учащихся.

Короче говоря, этот тип компетенции считает результат более важным, чем процесс обучения.

Следовательно, результативность и компетентность являются ключевыми вопросами в методе обучения, основанном на компетенциях. Подчеркнем также, что данный метод обучения рассматривается как применение принципов воспитания. Здесь в основном рассматриваются точность, ответственность, управление и количественные критерии. Особое значении приобретают поведенческие вопросы учащихся в указанном виде обучения.

Ключевые слова: *компетенция, мотивация, язык, контекст, метод*

Rəyçi: ped.f.d., dos. əvəzi J.Mehrəliyeva

Redaksiyaya daxil olub: 11.03.2025

F.K.BABAYEVA
e-mail: babayevafidan2013@gmail.com
:https://orcid.org/0009-0003-5572-0785

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

10.62021/0026-0028.2025.2.238

ŞAGİRD ŞƏXSİYYƏTİNƏ HUMANİST YANAŞMANIN SOSİAL-PEDAQOJİ MAHİYYƏTİ

Xülasə. *Tədqiqat göstərdi ki, qeyri-sabit sosial vəziyyət, cəmiyyətdəki dağınıqlıq şəraitində pedaqoji fəaliyyətin mənasını müəyyən edən, uzun müddət bəşər mədəniyyətinin əsasını təşkil edən humanist idealların təcəssümü şagirdə, onun fəaliyyətinin təşkilinə, yaxşılıq, gözəllik, həqiqət, insanlar arasında bərabər münasibətlər ideallarına adekvat yanaşmanın həyata keçirilməsini tələb edir.*
Təlim-tərbiyədə diferensial yanaşmanın həyata keçirilməsi təhsilin humanistləşdirilməsinin amilidir. Bu yanaşma pedaqoq üçün ədalətli olmaq, hər bir şagirdə fərdi yanaşmaq, onun əhvali-ruhiyyəsini hiss etmək, uşağın təlim fəaliyyəti və hərəkətlərini adekvat qiymətləndirmək bacarığı anlamını verir. Pedaqoji ədalətlilik anlayışı müəllim şəxsiyyətinin humanist istiqamətinin göstəriciləri olan xeyirxahlıq, insanlıq kimi keyfiyyətlərlə əlaqədardır.

Açar sözlər: *humanist yanaşma, sosial vəziyyət, pedaqoji fəaliyyət, fərdi yanaşma, ədalətlilik, əxlaqi təsəvvür*

Məlumdur ki, ənənəvi təlimdə şagird statusu təsirə məzruz qalan obyekt çərçivəsindən kənara çıxmır, xaricdən verilən tapşırığın icrası, təlim prosesinin ciddi spesifikliyi üstünlük təşkil edir, fəaliyyət və təfəkkürdə konkret məhdudiyyətlərdən və stereotiplərdən uzaqlaşmaq imkanı olmur.

Sosial və şəxsiyyətlərarası münasibətlərin monotonluğunun, rəqabət mühitinin üstünlük təşkil etdiyi ənənəvi təlim mühitdən fərqli olaraq uşaq şəxsiyyətinə humanist yanaşma əməkdaşlıq, qarşılıqlı yardım, müxtəlif şəxsiyyətlərarası münasibətlər, müxtəlif fəaliyyət formaları və təhsil prosesinin subyektlərinin qarşılıqlı əlaqəsini nəzərdə tutur. Şagirdin hissi təcrübəsinin məktəb təliminə uyğun olmadığını qəbul edilən ənənəvi təlimdən fərqli olaraq humanist yönümlü təlim-tərbiyə təlimin şagirdin hissi aləm və təcrübə ilə əlaqəsinə, məktəbdə və ondan kənarda əldə edilmiş biliklərin bir-birini tamamlamasına diqqət yetirir.

Ənənəvi təhsil paradiqması çərçivəsində nəzarət ciddi şəkildə müəyyən edilmiş qaydalar çərçivəsində həyata keçirilir, qiymətləndirmə motivasiyanın əsas metodu kimi çıxış edir, öyrənmə isə aşağı qiymətlə cəzadan yayınmağa və nüfuzunu itirməməyə əsaslanır. Bu, tədricən tədris dəyərlərindən uzaqlaşmağa, idrak motivasiyasının zəifləməsinə səbəb olur.

Humanist yanaşmada müsbət emosional əhvali-ruhiyyənin yaradılması idrak fəaliyyətini və özünütəhsilə tələbatı stimullaşdırır, uşağın yaradıcılıq qabiliyyətlərinin həyata keçirilməsi isə motivasiya sahəsinin zənginləşməsinə köməklik edir.

Humanist yönümlü təlim prosesi şagirddə özünənəzarət və özünü qiymətləndirmə fəaliyyətinin təşkili üzrə bacarıqlar formalaşdırır.

Pedaqoji fəaliyyətdə humanist yanaşma məzmun və prosesin vəhdətidir. Təlim-tərbiyə prosesində şagird şəxsiyyətinin humanist yönümlü formalaşması baş verir ki, bu da şagirdlərin mənimsədiyi biliklərə istiqamət verir.

Beləliklə, şagird şəxsiyyətinə humanist yanaşmanın təbiətinə aşağıdakı dəyişməz xüsusiyyətlər xarakterikdir: uşağın hüquq və azadlıqlarının tanınması; şagird şəxsiyyətinin təhsil prosesinin ali məqsədi və dəyəri kimi tanınması, onun şəxsi ləyaqətinə hörmət; təlim prose-

sində şagirdlərin fəallığı və yaradıcılığının genişləndirilməsi; müsbət emosional əhvali-ruhiyyə, qarşılıqlı yardım, əməkdaşlıq mühütinin yaradılması; müxtəlif fəaliyyət formaları və təhsil prosesinin subyektlərinin qarşılıqlı əlaqəsi; şagirdin hissi təcrübə və daxili aləmi ilə təlim prosesinin vəhdəti.

Məlumdur ki, hər hansı bir prosesin mahiyyətini üzə çıxarmaq üçün onun əsas xüsusiyyətlərini müəyyən etmək lazımdır.

Humanist yanaşmanın mahiyyətini üzə çıxarmaq üçün onun əsas komponenti kimi humanizmi xarakterizə etməyi zəruri hesab edirik.

Humanizmə əsaslanan pedaqoji fəaliyyət mədəni ənənələr, əxlaqi və sosial-ictimai normalar ilə müəyyən edilən davranış qaydalarına əsaslanaraq refleksiya və özünüqiymətləndirməyə qadir, düşüncəli və məsuliyyətli şəxsiyyət kimi insan tərbiyə etmək məqsədi daşıyır.

Təlim-tərbiyəyə humanist yanaşmanın əsasında humanizmin bir dəyər kimi pedaqoji cəhətdən dərk olunması dayanır. Humanizmin əsas anlayışları azadlıq, ədalətlilik, insan şəxsiyyətinə hörmət, onun hüquqlarının tanınması, şəxsiyyətin inkişafı və potensialnın reallaşdırılması kimi kateqoriyalardır.

Bu terminlərin pedaqoji şərhi humanist pedaqogikanın əsas xüsusiyyətləri ilə eynidir: şagird şəxsiyyətinə hörmət, özünüreallaşdıran şəxsiyyət kimi təhsilin ali məqsədinin tanınması, təlimdə zəruri azadlıqların təmin edilməsi və şagird hüquqlarına hörmət edilməsi, şagird şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafına diqqət yetirilməsi, təhsil prosesi üçün nisbətən səmərəli olan əməkdaşlıq, diqqət və qayğı mühitinin təmin edilməsi.

Elmi ədəbiyyatda mövqeyimizin təsdiqini tapırıq. R.İ.Əliyevin fikrincə, humanizm anlayışı insanın şəxsiyyət kimi dəyərini, onun azadlığını, xoşbəxtliyini, inkişaf və bacarıqlarının təzahürü hüququnu tanıyan tarixən dəyişən baxışlar sistemi kimi xarakterizə olunur. O, insanın rifahını sosial institutların meyarı hesab edir, bərabərlik, ədalət, insanpərvərlik prinsiplərinə isə insanlar arasında münasibətlərin arzuolunan nəticəsi kimi baxır [1, s. 130].

V.A.Blyumkinə görə, humanizim mənəvi hadisə kimi bir neçə əxlaqi dəyərlərlə təmsil olunur ki, onların mərkəzində də insan ləyaqəti durur. Müəllif bura hörmət etmək, inam, insanlara qayğı, ədalətlilik, alturizm, fədakarlıq, təmannasızlıq, dürüstlük, vicdan kimi keyfiyyətləri aid edir [4, s.64].

Mövzu ilə bağlı növbəti konkret fikrə F.B.Sadıqovun tədqiqatında rast gəlirik. Onun fikrincə humanizm mənəvi zənginliyi, əxlaqi saflığı və fiziki kamilliyi harmonik vəhdət təşkil edən hərtərəfli inkişaf etmiş şəxsiyyət idealında ifadə olunur [3, s.310]. Bu mövqe N.M.Kazımovun fikri ilə də dəstəklənir ki, humanizm insanın və bəşəriyyətin gələcəyini müəyyən dərəcədə dərk etmək əsasında təsdiqlənir və ədalət və alturizm, qənaətcillik və səxavətlilik, mərhəmət və məsuliyyət, yeni bir bir şeyə can atmağı, insanın və bəşəriyyətin indisinə, keçmişinə hörmət etməyi səsləndirir [2, s.219-226].

Humanizm insanın öz həyatını, əməyini, özünü idarə etmək hüququnu nəzərdə tutur. Humanizmin mahiyyəti – hər bir fərdin həyatının dəyərli olmasında, insanın ali dəyər olduğunun elan edilməsindədir.

V.A.Lektorskinin mövqeyi yuxarıda qeyd olunanlardan bir qədər fərqlidir. Müəllif bir anlayış və fenomen kimi humanizmin ictimai-tarixi təhlilini apararaq onu üç nöqteyi-nəzərdən tənqid edir. Onun fikrincə, humanizm insan həyatının idealı və yolgöstərəni kimi hər yerdə iflasa uğramışdır ki, nəticədə, insan özünün yaratdığı elmi-texniki reallıqdan uzaqlaşmış, insanla məişət arasında uçurumun yaranmasına gətirib çıxarmışdır. Sovet dövlətinin ideologiyası həyata keçirən humanist terminlər totalitar rejimin qeyri-insani siyasətini ört-basdır etmək və düşünülmüş şəkildə xalqı aldatmaq üçün istifadə olunurdu. Marksist humanizmini təcəssüm etdirmək cəhdləri əks nəticəyə gətirib çıxardı. Lakin müəllifin fikrincə, humanizm idealogiyasından imtina etmək olmaz, müasir şəraitdə onun yenidən nəzərdən keçirilməsinə ehtiyac vardır. Humanizmin, yeni insan konsepsiyası və onun imkanlarının, insanın ətraf aləmlə,

təbiətlə, başqa insanlarla, digər mədəniyyət dəyərləri ilə münasibətlərinin mahiyyəti yeni nöqteyi-nəzərdən üzə çıxarılmalıdır [6, s.22-28].

Humanizm mənəvi dəyərdir, yəni onu yaşadanların davranış prinsipinin və mənəvi tələblərinin tarixən qiymətləndirilməsinin təsdiqi və möhkəmləndirilməsidir. O, müəyyən əxlaqi sistem çərçivəsində insana, onun həyatına, baxış və əqidəsinə mənəvi münasibətdə üzə çıxır.

Humanist dəyərlərin toplanması və onların fəaliyyət sərhədlərinin genişlənməsi həm insanın, həm də bütövlükdə cəmiyyətin mənəvi tərəqqisinin aparıcı meyarlarından biridir. Sosial mənada humanizm cəmiyyətin şəxs üçün əsas tələbini ifadə edir – başqa insanlara qarşı davranış və münasibəti onlara hörmət və qayğı ilə əlaqələndirmək. Bu formul İ.Kantin kateqorik imperativinin mənasını daşıyır: ".. Elə hərəkət edin ki, istənilən vaxt iradənizin maksimumu ümumbəşəri qanuna çevrilsin" [5, s.260] və "insanlığa münasibətdə başqalarından heç vaxt öz məqsədləriniz üçün sadəcə alət kimi istifadə etməyin"[5, s.270].

Biz humanizm problemini araşdırarkən humanizm və insanlıq anlayışlarını fərqləndirməyi zəruri hesab etdik. İnsanlıq-xeyirxahlıq, qayğıkeşlik, mərhəmət, həssaslıq, anlayışlı olmağın təzahüründə öz ifadəsini tapan insani keyfiyyət, xüsusiyyətdir.İnsanlıq reallıqda həyata keşirilir: fəaliyyətdə, hərəkətlərdə, insanlara və ətraf aləmə münasibətdə.

İnsanlığı-mənəvi cəhətdən zəngin və inkişaf etmiş şəxsiyyətin hisslərindən biri olduğunu hesab edən T.V.Terexovanın fikirləri ilə tam razıyıq. Psixoloji cəhətdən insanlıq anlayışlı olmaq, qayğı, yardım etməkdən ibarətdir [9, s.95-96]. Bu sıraya biz mərhəmət, dözümlülük, başqa insanların hisslərinə hörmətlə yanaşmaq, şəfqət kimi keyfiyyətləri də əlavə edə bilərik.

Bu baxımdan humanizmdə iki aspekti ayırd edirik: 1) dəyər aspekti, yəni humanizm dəyər kimi qəbul edilir; 2) təcrübəyönümlü aspekt, yəni humanizmin zahiri ifadəsi öz əksini ətraf reallıqda tapır.

İnsanlığın təzahürü həm şəxsin emosional sahəsinin inkişafını, həm də əxlaqi təsəvvürlərin formalaşmasını nəzərdə tutur. İnsanlığı, alturizmi yuxarıda qeyd olunan aspektdə nəzərdən keçirsək, onlar humanizmin praktiki aspekti ilə eyniyyət təşkil edəcəklər.

Humanizmin rasional-dəyər aspekti dəyəryönümlü pedaqoji fəaliyyət kimi humanist yanaşmanın əsasını təşkil edir.

Pedaqoji mənada humanizmin şəxsiyyət, azadlıq, ədalətlilik, xosbəxtlik və inkişaf hüquqları, insanın özünütəkmilləşdirməsi kimi əsas anlayışları humanist yanaşmanın tərkib hissələridir.

Elmi ədəbiyyatın təhlili göstərir ki, pedaqoji elmdə humanist yanaşma problemi bu kontekstdə öyrənilməmişdir. Bu isə yalnız humanizmin komponentlərinin təhlilini deyil, həm də "ədalətlilik", "xoşbəxtlik və inkişaf hüququ", "azadlıq" kimi anlayışların pedaqoji şərhini də tələb edir. Həm də bu, humanist yanaşmanın komponentləri kimi onların mahiyyətinin üzə çıxarılması üçün də vacibdir.

Ədalətlilik – insanın mahiyyəti və onun hüquqları haqqında müəyyən fikirlərə uyğun gələn vaciblik haqqında anlayışdır.

Ədalətlilik əxlaqi – hüquqi və sosial-siyasi şüurun kateqoriyasıdır [1, s.34].

Ədalətlilik anlayışının pedaqoji cəhətdən dərk olunması onun iki mövqedən şərhinə imkan verdi.

Əvvəla, biz ədalətliliyə müəllim şəxsiyyətinin şagirdlərə qarşı münasibətində təzahür edən keyfiyyət kimi baxırıq. Bu anlayışı V.İ.Pisarenko və İ.Y.Pisarenko belə xarakterizə edir: "Pedaqoji əxlaqda ədalətlilik müəllimin obyektivliyinin, onun mənəvi tərbiyə (xeyirxahlıq, prinsipiallıq, insanlıq) səviyyəsinin özünəməxsus ölçüsüdür. O, ictimai faydalı əməyə, təlimə münasibətində, şagirdlərin hərəkətlərinə verdikləri qiymətdə təzahür edir [7, s.76].

Mülahizələrdən aydın olur ki, alimlər pedaqoji ədalətlilik anlayışını müəllim şəxsiyyətinin humanist istiqamətinin göstəriciləri olan xeyirxahlıq, insanlıq kimi keyfiyyətlərlə əlaqələndirirlər.

Pedaqoji mənada ədalətlilik haqqında alimlərin aşağıdakı qeydləri də mühüm əhəmiyyət kəsb edir: "Ədalətlilik uşağın göstərdiyi cəhdlərin ölçüsü nəzərə alınmaqla müəllimin şagirdlərə ciddi diferensial yanaşmasına əsaslanmalıdır..." [7, s.79].

Bu mövqe V.A.Suxomlinskinin nöqteyi-nəzərincə də öz təsdiqini tapır. "Ədalətlilik – uşağın tərbiyəçiyə inamının özəyidir. Lakin fərdiyyətçilikdən, şəxsi maraq, etiras və impulslardan kənarda mücərrəd ədalətlilik yoxdur. Ədalətli olmaq üçün hər bir uşağın mənəvi aləminin incəliklərini bilmək lazımdır [8, s.93].

Təlim-tərbiyədə diferensial yanaşmanın həyata keçirilməsi təhsilin humanistləşdirilməsinin amilidir. Bu yanaşma təlim-tərbiyə səviyyəsinə görə şagirdlərin fikrən qruplara bölünməsi deməkdir.

Pedaqoq üçün ədalətli olmaq, hər bir şagirdə fərdi yanaşmaq, onun əhvali-ruhiyyəsini hiss etmək, uşağın təlim fəaliyyəti və hərəkətlərini adekvat qiymətləndirmək bacarığı anlamını verir.

Uşaq şəxsiyyətinə fərdi yanaşmanın həyata keçirilməsi həm də təhsilin humanistləşdirilməsinin amillərindən biridir. Fikrimizcə, onun əsasında İ.Kantın kateqorik imperativi durur ki, uşaq şəxsi inkişafının məqsədidir, pedaqoqun məqsədə çatmaq vasitəsi deyildir.

İşin elmi nəticəsi. Qeyri-sabit sosial vəziyyət, cəmiyyətdəki dağınıqlıq şəraitində pedaqoji fəaliyyətin mənasını müəyyən edən, uzun müddət bəşər mədəniyyətinin əsasını təşkil edən humanist idealların təcəssümü şagirdə, onun fəaliyyətinin təşkilinə, yaxşılıq, gözəllik, həqiqət, insanlar arasında bərabər münasibətlər ideallarına adekvat yanaşmanın həyata keçirilməsini tələb edir.

İşin elmi yeniliyi ondan ibarətdir ki, təlim prosesində şagirdlərə humanist yaranmanın mümkünlüyü və onun arqumentləri əsaslandırılmış, məzmununa isə aydınlıq gətirilmişdir.

İşin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işinin məzmunundan, nəticələrindən bu sahə ilə məşğul olan tədqiqatçılar və ali pedaqoji tədris müəssisələrində pedaqogikanı tədris edən praktik müəllimlər istifadə edə bilər. Həmçinin, təlim prosesində şagirdin şəxsiyyətinə humanist yanaşmanın həyata keçirən orta məktəb müəllimləri də faydalana bilər.

Ədəbiyyat

1. Əliyev, R.İ. Humanist psixologiya / R.İ.Əliyev. – Bakı: ADPU, – 2023. – 197 s.
2. Kazımov, N.M. Seçilmiş əsərləri. // N.M.Kazımov. – Bakı: OKA Ofset, – c.8. – 2012. – 264 s.
3. Sadıqov, F.B. Ümumi pedaqogika. Dərs vəsaiti / F.B.Sadıqov. – Bakı: Maarif, – 2023. – 852 s.
4. Блюмкин, В.А. Мир моральных ценностей / В.А.Блюмкин, – М.: Знание, – 2011. – 64 с.
5. Кант, И. Соч. в 6 т / И.Кант, – М.: Мысль, –1965. – 311s.
6. Лекторский, В.А. Идеалы и реальность гуманизма // Вопросы философии, – 2014, № 6, – с. 22-28.
7. Писаренко, В.И. Педагогическая этика / В.И.Писаренко, И.Ф. Писаренко, – Минск, –1977. – 190 с.
8. Сухомлинский, В.А. Павлышская средняя школа / В.А.Сухомлинский, – М.: Просвещение, – 1979. – 207 с.
9. Терехова Т.В. Воспитание гуманных чувств школьников // Гуманизация и демократизация учебно-воспитательного процесса в учебном заведении. – Омск, – 1990. – с. 92-96.

F.K. Babayeva

Social and Pedagogical Essence of the Humanistic Approach to the Personality of the Student

Summary

The study showed that the embodiment of humanistic ideals that determine the meaning of pedagogical activity in the conditions of an unstable social situation and disunity of society and have long been the basis of human culture, requires an adequate approach to the student, the organization of his activities, the embodiment of the ideals of goodness, beauty, truth, equal relations between people.

The implementation of a differentiated approach in education is an important factor in the humanization of the educational process. This approach implies that the teacher must be fair, take into account the individual characteristics of each student, understand his emotional state and adequately assess his educational activity and actions. Pedagogical justice is associated with such moral qualities as goodwill and humanity, which are indicators of the humanistic orientation of the teacher's personality.

Key words: *humanistic approach, social situation, pedagogical activity, individual approach, justice, moral perception*

Ф.К.Бабаева

Социально-педагогическая сущность гуманистического подхода к личности учащегося

Резюме

Исследование показало, что воплощение гуманистических идеалов, определяющих смысл педагогической деятельности в условиях нестабильной социальной обстановки и разобщенности общества и издавна составляющих основу человеческой культуры, требует адекватного подхода к ученику, организации его деятельности, воплощения в жизнь идеалов добра, красоты, истины, равноправных отношений между людьми.

Реализация дифференцированного подхода в образовании является важным фактором гуманизации учебно-воспитательного процесса. Такой подход подразумевает, что учитель должен быть справедливым, учитывать индивидуальные особенности каждого ученика,, понимать его эмоциональное состояние и адекватно оценивать его учебную деятельность идействия. Педагогическая справедливость связана с такими нравственными качествами, как доброжелательность и человечность, которые являются показателями гуманистической направленности личности учителя.

Ключевые слова: *гуманистический подход, социальная ситуация, педагогическая деятельность, индивидуальный подход, справедливость, нравственное восприятие*

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 02.05.2025

S.H.BABAZADƏ
baş müəllim
e-mail: salbi.babazade@gmail.com
:https://orcid.org/0009-0002-7218-3689

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

İNGİLİS DİLİNDƏ PARONİMLƏR: LEKSİK-SEMANTİK MAHİYYƏTİ VƏ TƏDRİSDƏ ROLU

Xülasə. *Paronimlər – səslənməsinə görə bir-birinə bənzəyən, lakin mənaca fərqli olan sözlərdir. İngilis dilində paronimlər geniş yayılmış və dilin lüğət zənginliyinə, ifadə imkanlarına mühüm təsir göstərən leksik vahidlərdir. Bu sözlər arasında 'affect-effect', 'complement-compliment', 'stationary-stationery' kimi nümunələr xüsusilə diqqətə layiqdir. Paronimlərin leksik-semantik təhlili onların mənaca və funksional cəhətdən fərqləndiyini göstərir. Tədris prosesində bu tip sözlərin öyrənilməsi tələbələrin lüğət ehtiyatını artırır, mənaca yaxın, lakin fərqli sözlərin düzgün istifadəsinə kömək edir. Eyni zamanda, paronimlər arasında qarışıqlığın qarşısını almaq üçün onların kontekstdə düzgün təqdim olunması vacibdir. İngilis dili müəllimləri üçün bu sözlər öyrədici material kimi faydalıdır, çünki bu mövzu dilin semantik dərinliyini anlamağa və yazı-yayım bacarıqlarını inkişaf etdirməyə kömək edir. Xülasə olaraq, paronimlərin tədrisi həm dilin mənaca zənginliyini göstərir, həm də tələbələrin düzgün və dəqiq ünsiyyət bacarıqlarının formalaşmasına töhfə verir.*

Açar sözlər*: paronimlər, leksik-semantik mahiyyət, dil vahidləri, tədris metodu, lüğət ehtiyatı, semantik fərqlər*

Dilçilikdə həddən artıq mübahisə doğuran məsələlərdən biri paronimlərdir. Qeyd edək ki, dilimizdə olan bir sıra milli və alınma sözlərin tələffüzündə meydana çıxan problemlər bilavasitə paronimlər məsələsinə təsirini göstərmiş olur. Paronimlər maraqlı dil – nitq faktı olub, obrazlı-emosional fikrin ifadəsində mühüm rola malikdir. Elə buna görə də paronimlər tədqiqatdan kənarda qalmamışdır. Paronim dil faktı kimi ilk dəfə Aristotelin "Kateqoriyalar" əsərində qeyd olunmuşdur. Paronimlərin termin kimi tədqiqinə rus dilçiliyində XIX əsrin sonlarında başlanmış, bir sıra lüğətlər tərtib olunmuşdur [4, s. 38]. XIX əsrin I yarısında sözlərin səhv yazılışına dair bir sıra lüğətlər mövcud olmuşdur. Bu cəhətdən 1827-ci ildə V.İ.Çernışevin çap olunan lüğətini göstərmək olar [5]. N.İ.Qreçin lüğətində də alınma sözlərin düzgün yazılışı və oxunuşuna dair fikirlər yer alır [6]. 1909-cu ildə nəşr olunan V.Dolopçevin kitabında tələffüzündə qarışıqlıq görünən elə sözlər ayrılır ki, bunlar sonradan paronim adlanır [7]. Bu kitablarda qeyd olunur ki, sözlərdə vurğunun yerini dəyişməklə bir sıra sözlərin anlaşılmasında çətinliklər yaranır, dialekt sözlər ədəbi dilə təsir edib onun fonetik tərkibini necə dəyişə bilir, habelə mənasına görə müxtəlif olan sözlərin tələffüzündə qarışıqlıqlar haqqında məlumat verilir.

Azərbaycan dilçiliyində Afad Qurbanovun "Müasir Azərbaycan dili" kitabının 1985-ci il nəşrində paronimlər belə müəyyən olunur: "Dildə səslənmə cəhətdən bir-birinə yaxın, müxtəlif məna ifadə edən və nitqdə səhvən biri digərinin yerində işlənən sözlərə paronim deyilir" [3, s. 315-318]. M.M.Adilov "Metateza nitq hadisəsi kimi və paronimlik" məqaləsində paronimlərin metateza ilə fərqli cəhətlərindən bəhs edir [1, s. 44-46]. L.N.Fedotova da ingilis dili paronimlərini tədqiq edərək dörd əsas transformasiya növü ayırır: substitusiya, yerdəyişmə-transpozisiya, silmə-deletion və əlavə etmə-addition. Rus dilçisi morfoloji, sintaktik və leksik paronimləri, eyni zamanda distant, qeyri-distant, kontakt paronimləri tədqiq edir [8].

Paronimlər bədii əsərlərdə tez-tez üslubi alət kimi işlədilir. Şairlər və yazıçılar bu sözlərdən poetik effekt yaratmaq, ritmik və fonetik uyğunluğu qorumaq və ya semantik oyun qurmaq məqsədilə istifadə edirlər. Məsələn, Şekspirin dramlarında və ya cəfəriliklə yazılmış müasir

poeziyada paronimlər həm ironiya, həm də emosional dərinlik yaratmaqda mühüm rol oynayır. Bədii ədəbiyyatda paronimlərin stilistik funksiyalarını göstərmək üçün nümunələri klassik və müasir ingilis ədəbiyyatından götürmək mümkündür. Şekspir paronimlərdən və fonetik bənzərliklərdən ustalıqla istifadə edən yazıçılardandır. Onun əsərlərində ironik mənalar, söz oyunları və dərin semantik laylar müşahidə olunur: *bare* və *bear*; *lose* və *loose*; *effect* və *affect.*

"I do much wonder that one so noble / Should be so humble." (In Much Ado About Nothing)

Burada *"madness"* və *"method"* səscə bənzər olmasa da, mənaca ziddiyyət yaradaraq kontekstdə ironik paronimiya effekti verir.

Oskar Uayld öz əsərlərində estetik təzadlar və semantik oyunlarla zəngin bir dil qurur. O, tez-tez ironik paronimlərdən istifadə edərək cəmiyyətin ikiüzlülüyünü göstərir: *elicit* və *illicit*; *moral* və *morale*

"He knew the price of everything and the value of nothing" (The picture of Dorian Gray).

Bu cümlədə fonetik paronim olmasa da, semantik qarşılaşdırma oxucuda ironik anlam yaradır – tipik Uayld üslubudur.

*"The **illicit** act could **elicit** shame".*

Bu cümlədə *"illicit"* (qanunsuz) və *"elicit"* (ortaya çıxarmaq) sözləri fonetik baxımdan oxşardır, lakin semantik fərqlilik ifadənin dərinliyini və ikili mənasını artırır.

Corc Oruellin dili sadədir, lakin o, məqsədli şəkildə söz seçimi ilə manipulyasiya edir. Paronimlər bu cür kontekstlərdə həm siyasi, həm də semantik ironiyanı ifadə edə bilər: *accept* və *except; principle* və *principal*. Eliotun poetik dili çoxqatlıdır. Onun poetik tekstlərində paronimlər vasitəsilə həm fonetik ahəng, həm də çoxqatlı məna düzəldilir: *complaint* və *compliant*; *stationary* və *stationery.*

İngilis dilində paronimləri müxtəlif qruplara ayırmaq mümkündür:

a) Fonetik və yazılış baxımından oxşar paronimlər. Bu tip paronimlər səslənmələrinə və ya yazılışlarına görə bir-birinə bənzəyirlər, lakin mənaları fərqlidir, bu da onları dil öyrənənlər üçün qarışdırıla bilən edir. Bu cür paronimlərin tədrisində kontekstual təlim, vizual materiallar, müqayisəli cədvəllər və praktik yazı tapşırıqları effektiv nəticə verir: *compliment / complement.*

*His respectful manners were a **complement** to his good breeding*. (Pride and Prejudice)

a) Kökləri eyni olan, lakin semantik cəhətdən fərqlənənlər: *historic (tarixi əhəmiyyətli) / historical (tarixə aid); economic (iqtisadi) / economical (qənaətli)*

*"His **historic** fame was indisputable, yet the **historical** record painted a different picture"* (The Picture of Dorian Gray).

b) Funksional fərqli paronimlər: *advise (feil) / advice (isim); practice (isim, ABŞ) / practise (feil, Böyük Britaniya*)

Paronimlər – bir-birinə səciyyəvi səslənmə və ya yazılış baxımından yaxın, lakin mənaca fərqli sözlərdir. İngilis dilində paronimlərin düzgün istifadəsi dili daha dəqiq və zəngin ifadə etməyə imkan verir. Paronimlərin təsnifatı onların struktur və semantik xüsusiyyətlərinə görə müxtəlif qruplara bölünür.

1) Morfoloji əlaqəli paronimlər

Bu tip paronimlər eyni kökdən yaranmış, lakin prefiks və ya suffikslər baxımından fərqlənən sözlərdir. Onlar fonetik və qrammatik cəhətdən bənzərdir, amma mənaları və istifadəsi fərqlidir. *Məsələn: respective* – fərdi, ayrı-ayrı ilə bağlı; *respectful* – hörmət göstərən; *preventive* – qarşısını alan, önləyici; *preventable* – qarşısı alına bilən.

*"Her **respective** duties were clear, but she struggled to be **respectful** to everyone"* (Mrs. Dalloway).

2) Etimoloji baxımdan əlaqəsiz, lakin səslənməcə yaxın olan paronimlər

Bu paronimlər mənşəcə fərqli olub, yalnız səs baxımından oxşarlıq göstərirlər. Bu sözlər daha çox qarışıqlığa səbəb olur, çünki eyni və ya bənzər səslənir, amma mənaları tamamilə

fərqlidir: *stationary* – hərəkətsiz; *stationery* – yazı və ofis ləvazimatları; *affect* – təsir etmək (feil); *effect* – nəticə (isim).

*"The **effect** of your words doth greatly **affect** my thoughts"* (Hamlet).

*"The **stationary** coach waited while the passengers collected their **stationery**"* (The Pickpwick Papers).

*"The **affect** of such news on him was profound, yet the true **effec**t was only seen later"* (David Copperfield).

*"Though this be **madness,** yet there is **method** in't"* (Hamlet).

3) Xarici mənşəli paronimlər

İngilis dilində çox sayda paronim latınca, yunan və fransız dillərindən gəlmişdir. Bu paronimlər mənşəyi oxşar olan, amma mənaca fərqlənən sözlərdir. Məsələn: *prescribe* – təyin etmək, yazmaq (həkim tərəfindən); *proscribe* – qadağan etmək; *eminent* – görkəmli, tanınmış; *imminent* – yaxınlaşan, yaxın gələcəkdə olacaq.

Paronimlər dilin funksional üslublarında – xüsusilə elmi, bədii və publisistik üslublarda – fərqli semantik çalarlar yaratmaqda mühüm rol oynayır. Bədii mətnlərdə isə paronimlər söz oyunu, ironik effekt və ya semantik kontrast yaratmaq üçün istifadə oluna bilər. Paronimlərin yanlış istifadəsi tez-tez anlaşılmazlıqlara və ya mənanın təhrifinə səbəb ola bilər. Paronimlərin funksional və stilistik istifadəsi onların yalnız məna baxımından deyil, kommunikativ niyyət, kontekst, üslub tələbi və qrammatik struktur baxımından da dəqiq seçilməsini tələb edir. Onların düzgün istifadəsi leksik dəqiqliyi, semantik zənginliyi və stilistik uyğunluğu təmin edir [10, s.121].

Paronimlərin tədrisi bir neçə istiqamətdə aparıla bilər: *birincisi,* leksik-semantik təhlil yolu ilə – yəni sözlərin tələffüz və yazılış oxşarlıqlarının müqayisəsi və mənaca fərqlərinin izahı; *ikincisi,* kontekstual tətbiq – bu sözlərin real mətnlərdə istifadəsinə əsaslanan təlim forması; *üçüncüsü* isə məntiqi təlim tapşırıqları – qarışdırılan paronimləri ayırd etməyə yönəlmiş testlər, uyğunlaşdırma və cümlə qurma tapşırıqları.

Məsələn, *affect və effect, compliment və complement, elicit və illicit* kimi paronimlər səhv istifadə edildikdə mənanı tamamilə dəyişə bilər. Bu da onların dilin semantik sistemindəki həssaslığını və eyni zamanda tədrisdə öyrədilməsinin zəruriliyini sübut edir [11].

Tədris prosesində paronimlərin tətbiqi həm leksik ehtiyatın artırılmasına, həm də üslub cəhətdən zəngin ifadə formalarının inkişafına xidmət edir. Müəllimlər üçün bu, tələbələrin daha dərin semantik təfəkkür formalaşdırmasına yardımçı olacaq effektiv bir vasitədir.

İşin elmi nəticəsi: Aparılan tədqiqat göstərir ki, ingilis dilində paronimlər yalnız leksik-semantik sistemin zənginliyini deyil, həm də ünsiyyətdə məna dəqiqliyini təmin edən vacib vasitələrdəndir. Tələbələrin paronimləri düzgün mənimsəməsi onların lüğət ehtiyatını artırır və dil bacarıqlarını inkişaf etdirir.

İşin elmi yeniliyi: Bu tədqiqatda ingilis dilində paronimlərin təhlili semantik oxşarlıqlarla yanaşı fərqləndirici cəhətlərə də əsaslanaraq təqdim olunur. Eyni zamanda, paronimlərin dil öyrənmə prosesində spesifik tədris metodları ilə inteqrasiyası ilk dəfə bu qədər sistemli şəkildə izah edilir.

İşin tətbiqi əhəmiyyəti: Tədqiqat nəticələri ingilis dili müəllimləri üçün dərs proqramlarının hazırlanmasında, paronimlərin tədrisində effektiv metodikaların tətbiqində və tələbələrin söz seçimi bacarıqlarının inkişafında faydalı ola bilər.

Ədəbiyyat

1. Adilov, M. Metateza nitq hadisəsi kimi və paronimlik. Azərbaycan ədəbi dilində norma və normalaşma məsələləri / M.Adilov, – Bakı: Elm, – 1991.
2. Qurbanov, A. Müasir Azərbaycan dili / A.Qurbanov, – Bakı: Elm, – 1967, – s. 401.
3. Qurbanov, A. Müasir Azərbaycan dili / A.Qurbanov, – Bakı: Maarif, – 1985, – s. 408.

4. Аристотель. Категории. С приложением «Введения» Порфирия к «Категориям» Аристотеля. Государственное экономическое издательство, – М., – 1939. – 84 с
5. Чернышев, В.И. Прпвильность и чистота русской речи. Опыт словаря стилистической грамматики / В.И.Чернышев, – М., «Книга по требованию», – 1827, – 264 с.
6. Греч, Н.И. Практическая русская грамматика. 2 -ое издание / Н.И.Греч, – Санкт-Петербург, –1834, – 615 с.
7. Долопчев, В. Опыт словаря неправильностей в русской разговорной речи (1909). Кн.2. / В.Долопчев, – М., Книга по требованию, – 2011, – 694 с.
8. Федотова, Л.Н. Паронимия в современном английском языке: структура и функции. АР канд.дисс. / Л.Н.Федотова, – Минск, – 1989, – 17 с.
9. Crystal, D. The Cambridge Encyclopedia of the English Language / D.Crystal, – Cambridge University Press. – 2003.
10. Larsen-Freeman, D. *Techniques and Principles in Language Teaching* / D.Larsen-Freeman, M.Anderson, – Oxford University Press. – 2011, – 189 p.
11. Thornbury, S. *How to Teach Vocabulary* / S.Thornbury, – Longman. – 2002.

S.H.Babazade

Paronyms in English: Lexical-Semantic Nature and Their Role in Teaching

Summary

Paronyms are words that sound similar but differ in meaning. In English, paronyms are widespread and play a significant role in enriching the vocabulary and expressive capacity of the language. Common examples include “affect-effect,” “complement-compliment,” and “stationary-stationery.” Lexical-semantic analysis reveals that these words differ both in meaning and function. Teaching paronyms helps learners expand their vocabulary and develop accuracy in language use, avoiding confusion between similar-sounding words. For effective learning, it is essential to present paronyms in context and provide exercises for practice. English language teachers can use paronyms as valuable teaching tools that enhance learners’ understanding of semantic nuances and improve their speaking and writing skills. In conclusion, the study of paronyms highlights the richness of the English language and contributes to the development of precise and confident communication.

Key words: paronyms, lexical-semantic meaning, language units, teaching methodology, vocabulary development, semantic distinctions

С.Г.Бабазаде

Паронимы в английском языке: лексико-семантическая сущность и их роль в обучении

Резюме

Паронимы – это слова, схожие по звучанию, но отличающиеся по значению. В английском языке паронимы широко распространены и играют важную роль в обогащении лексики и выразительности речи. Такие пары, как “affect-effect”, “complement-compliment”, “stationary-stationery”, часто вызывают трудности у изучающих язык. Лексико-семантический анализ паронимов показывает их различие по смыслу и функции. Изучение паронимов в процессе преподавания английского языка помогает учащимся расширить словарный запас и избежать ошибок в употреблении схожих слов. Для эффективного усвоения важно вводить паронимы в контексте и сопровождать их практическими упражнениями. Преподаватели английского языка могут использовать паронимы как полезный дидактический материал, способствующий развитию навыков письменной и устной речи. Таким образом, изучение паронимов способствует более глубокому пониманию языка и формированию точного и грамотного общения.

Ключевые слова: *паронимы, лексико-семантическое значение языковые единицы методика преподавания, словарный запас, семантические различия*

Rəyçi: filol.f.d. M.Y.Məmmədova
Redaksiyaya daxil olub: 13.05.2025

L.M.BAYRAMOVA
dissertant
e-mail: lala.bayramova2013@mail.ru
:https://orcid.org/0009-0001-1273-1869

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

10.62021/0026-0028.2025.2.247

FƏNLƏRARASI İNTEQRASİYA TƏLİM-İDRAK PROSESİNİN FORMA, METOD VƏ MƏZMUNUNDA ƏKSİNİ TAPAN PEDAQOJİ KATEQORİYADIR

Xülasə. *Tədqiqat nəticəsində fənlərarası inteqrasiyanın təlim-idrak prosesində özünü göstərən pedaqoji kateqoriya olduğu müəyyənləşdirilir. Göstərilir ki, ibtidai sinif şagirdlərinin idrak fəaliyyətinin inkişafı üçün təlim fəaliyyətini aktivləşdirən problemli təlimdən, didaktik oyunlardan, yaradıcı tapşırıqlardan istifadə edən dərslərin böyük əhəmiyyəti vardır. Onun səmərəliliyini təlimə münasibət haqqında məlumat, oyun fəaliyyətinin təhlili, şagirdlərin yaradıcılıq qabiliyyətinin üzə çıxarılması göstərəcəkdir (emosional yaddaş, yeni təxəyyül, obrazlı-assosiativ təfəkkür).*

Açar sözlər: *fəndaxili inteqrasiya, fənlərarası inteqrasiya, fənnüstü inteqrasiya, təlim-idrak fəaliyyəti, qohum fənlər*

Pedaqogika nəzəriyyəsinin inkişaf tarixindən məlumdur ki, sovet hakimiyyətinin ilk illərində əmək məktəbləri təlimlə əməyin üzvi surətdə birləşməsi prinsipi əsasında yaradılmışdır ki, bu əmək məktəbləri nəzəriyyəsinin işlənilib hazırlanmasına, xüsusi tədris planı və təhsil proqramı üçün ümumi prinsip və yanaşmalarının müəyyənliyinə və həyata keçirilməsinə köməklik etdi. Yeni proqramlarda istehsalat fəaliyyəti ənənəvi məktəbdə müxtəlif tədris fənləri üzrə təqdim olunan dərsin məzmunu ilə bağlı əsas inteqrasiyaedici amil kimi çıxış edirdi. İbtidai məktəbdə təlim kompleks yanaşma metodu əsasında qurulmuşdu, tədris prosesi təhsilin üç sahəsini əhatə edirdi: "İnsan və təbiət", "Əmək", "İctimaiyyət". Kompleks yanaşma metodu (yaxud da layihələr metodu) müxtəlif fənn sahələri üzrə ümumi məsələlərin inteqrasiyasını nəzərdə tuturdu. Bu, inteqrasiya əsaslı təlim prosesinin təşkilinin ilk praktik təcrübəsi idi.

Təlimlə əməyin məqsədəuyğun şəkildə birləşdirilməsi ideyası hələ XVIII əsrin 70-ci illərində Qərbi Avropada İsveç pedaqoqu İ.H.Pestalotsinin pedaqoji təcrübəsində öz parlaq əksini tapmışdı ("Yoxsullar üçün müəssisə"). Məhşur Amerika filosofu və pedaqoqu C.Dyui tərəfindən məktəb və həyatın üzvi əlaqəsi prinsipinə əsaslanan əmək məktəbi nəzəriyyəsi işlənilib hazırlandı.

1930-50-ci illər arasında inteqrasiya yalnız dərsdənkənar işlərdə – dərnəklərdə, texniki və gənclər stansiyalarında həyata keçirilirdi. Müxtəlif fənlərə dair biliklər təbii surətdə uşaq yaradıcılığı prosesinə inteqrasiya olunurdu.

1950-80-ci illərdə fənlərarası əlaqəyə əsasən fənlər və texniki-peşə üzrə biliklər arasındakı əlaqələrin möhkəmləndirilməsi aspektindən yanaşılırdı. 1950-80-ci illərdə əmək məktəbi fənlərarası əlaqələr arasındakı ziddiyyətindən imtina edir. İnteqrasiya bu mərhələdə fənlər üçün ən yaxşı didaktik vasitəyə çevrilir. 1980-ci illərdə fənlərarası əlaqəyə didaktikanın prinsipi kimi baxılır.

İnteqrasiya fundamental anlayış statusunu 80-ci illərdə qazanır: "İnteqrasiya – sovet insanının hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyət kimi formalaşdırılması üsuludur" [5]. 1980-ci illərdə isə inteqrasiya aparıcı didaktik prinsip statusunu əldə edir [1].

Təhsilin inteqrasiyası ideyası getdikcə özünü daha çox göstərir və pedaqoqları onun həyata keçirilməsinin səmərəli yollarını axtarmağa təhrik edir.

İndiki mərhələdə bu sahədə bir sıra müxtəlif yanaşmalar və istiqamətlər yaranmışdır: fənlərarası əlaqələrin köməyi ilə inteqrasiya; müxtəlif fənlərə aid oxşar mövzuların eyni vaxtda tədrisinin prinsipi üzrə tematik planlaşdırma; müxtəlif fənlər üzrə məlumatları birləşdirən yeni tədris kurslarının işlənilib hazırlanması və s. Bütün bunlar inteqrasiya probleminin özlüyündə qeyri-adi aktuallığa malik olduğunu göstərir və onun optimal yollarının axtarışına köməklik edir.

Elmdə fəndaxili, fənlərarası və fənnüstü inteqrasiyanı fərqləndirirlər. Xüsusilə elmlərin inteqrasiyasına həsr olunmuş fəlsəfi tədqiqatlarda qeyd olunur ki, sintetik elmlərin inteqrasiyaedici funksiyası heç də bir elmin digərləri tərəfindən zəbt olunması deyildir. Bu inteqrasiyaedici funksiya onların dərin, daima güclənən qarşılıqlı təsir və qarşılıqlı əlaqəsini təmsil edir (müstəqil elmlərə nisbətdə).

A.Y.Danilyuk, L.N.Baharova "inteqrasiya" anlayışının mahiyyətini araşdırarkən onu diferensiallaşma prosesi ilə birgə baş verən elmlərin əlaqəsi, bir-birinə yaxınlaşması prosesi kimi şərh edirlər. İnteqrasiya təlimin keyfiyyətcə yeni pilləsində fənlərarası əlaqənin yüksək formasını təqdim edərək, yeni tam "bilik monolitinin" yaradılmasına töhfə verir [2, s.48].

Deyilənlərdən belə nəticə çıxır ki, alimlərin fikrincə, inteqrasiya təlimin fənn sistemini inkar etmir. O, təlimin təkmilləşdirilməsinin, çatışmazlıqların aradan qaldırılmasının mümkün yoludur və fənlər arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılığın dərinləşdirilməsinə yönəlmişdir. Problemə bu cür yanaşma tədqiqatımız üçün çox vacib olan inteqrasiya və diferensiasiya arasındakı qarşılıqlı əlaqənin başa düşülməsinə kömək edir.

Təlim və tərbiyənin inteqrasiyası təbii yolla şagirdlərdə təbiət, cəmiyyət, orada insanın rolu haqqında vahid təsəvvürlərin yaradılmasına səy göstərməkdən irəli gəlir. İctimai-elmi məlumatların artan axını və ənənəvi üsullar istər-istəməz dərsliklərin məzmununu çətinləşdirir. Bu, materialın mənimsənilməsinin sabitliyini pozur, şagirdlər həddindən artıq mənimsəmədikləri məlumatlarla yüklənirlər. Belə bir şəraitdə bir çox pedaqoq-tədqiqatçıların inteqrasiyada axtardıqları təlim-tərbiyənin məzmununun yenilənməsi məsələsini qeyri-ənənəvi yolla həll etmələri qanunauyğundur. Həmçinin ibtidai məktəbdə inteqrasiyanın həyata keçirilməsi təbii haldır. Bunun üçün əlverişli imkan vardır: bir müəllim çoxlu sayda fənləri tədris edir.

Bu gün inteqrasiya prosesi ibtidai məktəbdə ənənəvi təhsilə nüfuz edir. Bunlar daxili məzmununa görə inteqrasiya olunmuş tədris fənləridir: təbiət elmləri, ritmika, dünya bədii mədəniyyəti. İbtidai siniflərdə inteqrasiyaedici vəzifəni şagirdlərə yazmaq, oxumaq, riyaziyyat və daha çox şeylər öyrədən müəllimin özü həyata keçirir. Müəllim bu funksiyanı öz gücü və imkanları daxilində reallaşdırır.

Beynəlxalq təcrübə göstərir ki, bir çox xarici ölkələrin ibtidai məktəblərində inteqrasiyanın nisbətən ən səmərəli forması inteqrasiyalı kurslar və bir müəllim tərəfindən müxtəlif fənlərin tədrisidir (Yaponiya, Polşa, Bolqariya, Çexiya, Slovakiya, İngiltərə və b.). Belə ki, məsələn, oxu, yazı, şifahi nitq "Sözün incəsənəti" adlı kursda birləşdirilib. Proqramın məqsədinə görə tədris fənlərinin inteqrasiyasının forma və metodlarının axtarışı xarici ölkə didaktlarının tədqiqatlarının aparıcı istiqamətlərindən biridir. Sevre (Fransa) Beynəlxalq pedaqoji araşdırmalar mərkəzində fənlərarası əlaqələri inkişaf etdirmək üçün xüsusi tədqiqatçılar qrupu yaradılıb. Məsələnin həlli adətən şagirdin bir insan və vətəndaş kimi hüquq və vəzifələrini şüurlu şəkildə icra etmələri üçün zəruri olan "etibarlı bilikləri" özündə birləşdirən inteqrasiya olunmuş kursların ("Sosial-iqtisadi elmlər", "Humanitar elmlər") yaradılması üzərinə düşür.

Pedaqogika və ideologiyanı yaxınlaşdırmaq məqsədilə inteqrasiyanın təşkili xüsusilə Almaniya məktəblərində inkişaf etdirilmişdir. Vətən tarixi, ana dili, din kimi fənlərin ətrafında birləşdirilmiş tədris materialları şagirdlərdə ideya-siyasi baxışların formalaşdırılmasına xidmət edir. Almaniyanın yeni tipli məktəblərində bir çox fənlər ənənəvi məktəblərdə olduğu kimi kompleks xarakter daşıyır: "Təbiət elmləri", "Texniki-iqtisadi", "Vətəndaşlıq", "İctimai-

siyası" və s. Almaniyada ibtidai məktəbdə əsas fənn tarix, coğrafiya, təsviri incəsənət və musiqiyə dair bilikləri birləşdirən ölkəşünaslıq fənnidir. Müasir Amerika məktəblərində də təlimin "siyasiləşdirilməsi" məqsədilə biliklər inteqrasiya olunur. Təhsil sahəsinin humanist nümayəndələri (B.Saymon, D.Fitelson, K.Rocers və b.) insanın cəmiyyətdə kompleks təliminin həyata keçirilməsi ideyası ilə çıxış edirlər. ABŞ və İngiltərədə məktəblərdə eksperiment kimi təbiətin mühafizəsi üzrə inteqrasiyalı kurslar inkişaf edir. Şagirdlərin peşəyönümünü gücləndirmək üçün "İqtisadiyyat", "Həyatın planlaşdırılması", "Sosial yaranış", "İctimai-texniki biliklər", "İxtisas" kimi inteqrasiyalı kurslar yaradılmışdır.

İnteqrasiya ənənəsi yalnız fənn proqramlarının və fənn üzrə biliklərin strukturuna daxil olmur, o həm də təlimin təşkili formalarını ("inteqrasiya olunmuş gün", "kompleks məşğələlər", "kombinə olunmuş dərslər", "tədris-tədqiqatçılıq mərkəzləri"), təlim-tərbiyə müəssisələrinin tiplərini də əhatə edir ("İngiltərədə məktəb birləşmələrini", "Almaniyada ümumi məktəbləri").

İnteqrasiya edilmiş dərslər əsasən ibtidai siniflərdə tətbiq olunur. O, P.Kuzine, S.Frene, D.Qilford, C.Holt və başqalarının azad tərbiyə şəraitində şagirdlərin əqli qabiliyyətlərinin inkişafı ilə əlaqələndirilir. İngiltərənin elementar məktəblərində isə inteqrasiyalı təlimə şagird qruplarında üstünlük verilir (5-7 yaş). İbtidai məktəbin II pilləsində daha çox fənlərin təliminə üstünlük verilir. Lakin təlimin mərkəzində "Dilin incəsənəti", "Təbiət elmləri", "İctimaiyyət" kimi inteqrasiyalı kurslar durur. Bəzi ölkələrin yuxarı siniflərində müasir elmin mürəkkəb problemlərini əhatə edən inteqrasiyalı kurslar tədris olunur. Bu kursların vəzifəsi – şagirdləri universitetdə elmin fəlsəfi və metodoloji məsələlərini qavramağa hazırlamaqdan ibarətdir.

Ənənəvi fənn təlimindən fərqli inteqrasiyalı təlim sisteminin tətbiqi vahid dünyagörüşünə malik, öz biliklərini tətbiq etməyi bacaran, müxtəlif problemlərin həllinə qeyri-ənənəvi yanaşan erudisiyalı (hərtərəfli) şəxsiyyətin formalaşmasına gətirib çıxarır.

Müasir ibtidai məktəbdə fənn təlimi sistemi əsas yer tutur. Ona görə də, fənlərarası əlaqə məsələsi mühüm əhəmiyyət kəsb edən problemlər sırasına daxil edilə bilər. Fənlərarası əlaqələr ideyasının inkişafında inteqrasiya və fənn üzrə biliklərin koordinasiyası kimi iki istiqamət özünü göstərir [5].

İnteqrasiya-vahid, bütöv, bölünməz olanın yaradılması və nəticəsi prosesidir. Təlim zamanı, o, kompleks tədris məsələ və problemlərin üzə çıxarılmasında elmin əsaslarını ümumiləşdirmək, sintez olunmuş hər hansı bir kursda müxtəlif tədris fənninə dair elementləri birləşdirmək yolu ilə həyata keçirilə bilər [3, s.184].

Koordinasiya-qohum fənlər üzrə ümumi anlayışların şərhinə, onların öyrənilmə müddətinə dair tədris proqramlarının vahidliyidir, yəni başqa sözlə dar mənada biliklərin inteqrasiyasına köməklik edən fənlərarası əlaqədir. İnteqrasiyalı təlim ayrı-ayrı fənlər və qohum fənlərin arasında koordinasiya yaradır. Burada fənlərarası əlaqə aparıcı ictimai-elmi ideyalarla birgə fənnə dair biliklərin əsasında idrak obyektini kompleks şəkildə nəzərdən keçirməklə bağlıdır [4, s.78].

İnteqrasiyalı təlimin fənn sistemindən fərqi ondan ibarətdir ki, fənn sisteminin tədqiqat obyektini vahid fənn proqramlarının koordinasiyası prinsipindən irəli gələn genişləndirilmiş idrak sahəsi təşkil edir. İdrak dairəsi nə qədər geniş və dolğun olarsa, elmi biliklər bir o qədər diferensiasiyaya məruz qalar və müxtəlif sahələrdə birləşərlər. İnteqrasiyalı təlim prosesinin strukturu-onun həyata keçirilən məzmununun mərhələlər ilə xüsusi uyğunluğudur. Ona görə də məzmunun formalaşmasının hansı səviyyəsində biliklərin inteqrasiyasını aparmaq lazım olduğunu seçmək vacibdir. Tədris mövzuları səviyyəsində inteqrasiyanın müəyyənləşdirilməsi və təşkilini nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. Bununla belə, təlim prosesində inteqrasiyanın həyata keçirilməsi təcrübəsi onu göstərir ki, çoxlu sayda dərsləri əhatə edən tədris mövzuları səviyyəsində inteqrasiyanın nəzərdən keçirilməsi hər bir dərsə münasibətdə onun haqqında aydın təsəvvür yaratmır. Fikrimizcə, tədris proqramları sənədləşdirilərkən inteqrativ əlaqələrin qurulmasını tədris mövzuları səviyyəsində nəzərdən keçirmək məqsədəuyğundur. Təlim prosesində inteqrasiyanın uğurla həyata keçirilməsi üçün ona yalnız tədris

mövzuları səviyyəsində deyil, həmçinin ayrılıqda hər bir fənnə dair mövzular səviyyəsində də yanaşmaq müvafiqdir.

Elmi pedaqoji ədəbiyyatda inteqrasiyanın müxtəlif növlərini ayırd edirlər. Y.S.Tyunnikovanın [6] tədqiqatlarında inteqrasiya prosesinin müxtəlif səviyyələri daha çox məqsədəuyğunluq, vahidlik, sistemlilik əldə etmək baxımından inteqrasiyalı məzmunun (tədris fənni və yaxud təlim prosesini) dəyişdirilməsi dərəcəsi kimi xarakterizə olunur. Müəllifin qeyd etdiyi kimi, inteqrasiyanın çoxlu sayda səviyyələrini müəyyən etmək pedaqoji prosesdə incə dəyişikliklərin müəyyən olunub, qiymətləndirilməsi işini yalnız çətinləşdirə bilər. O, inteqrasiyanın aşağıdakı səviyyələrini müəyyən etmişdir.

aşağı – modernləşdirmə səviyyəsi. Tədrisin ümumi vəziyyətini dəyişdirməyən və bir fənnin biliklərinə uyğun olan;

orta – kompleksləşdirmə səviyyəsi. Bu səviyyədə ilkin məzmunda dəyişikliklərə iki və ya daha çox fənn əsasında nail olunur ki, bu zaman didaktik məzmunun həcmi tədris fənlərinin əhatə dairəsindən kənara çıxır;

yüksək – yeniliyin vahid sintez səviyyəsi. Bu səviyyədə birinci halda inteqrativ proses əvvəllər müəyyən edilmiş məzmunun köklü şəkildə yenidən qurulması ilə, digər halda isə didaktik məzmunun sintezi tədris fənlərinin əhatə dairəsindən kənara çıxmaqla müşayiət olunur.

Beləliklə, tədris materialının məzmunu üçün inteqrasiya səviyyələrinin işlənilib hazırlanması şagirdlər tərəfindən tam şəkildə müxtəlif biliklərin seçilməsi və mənimsənilməsini təşkil etməyə imkan verir. Təhsilin məzmununu müəyyən edən prinsiplərin seçilməsinə dair müxtəlif yanaşmalar mövcuddur ki, inteqrasiya işlənilib hazırlanarkən bütün bunlar nəzərə alınmalıdır. Nəhayət, tərəfimizdən işlənib hazırlanmış aşağıdakı prinsiplər özünü doğrultmuşdur:

– sosial-iqtisadi tələbata uyğun təhsilin məzmununun bütün elementlərində və layihələşdirilməsinin bütün səviyyələrində əks olunan prinsip;

– təhsilin məzmununu layihələşdirərkən təlimin forma, üsul və vasitələri ilə tədris materialının əlaqələndirilməsini nəzərdə tutan məzmun və prosessual istiqamətlərin hesaba alınması prinsipi;

–müxtəlif səviyyələrdə formalaşdırılan təhsilin məzmununun vahid struktur prinsipi: nəzəri anlayışlar, tədris fənləri, tədris materialı, pedaqoji fəaliyyət, şagird şəxsiyyəti.

İnteqrasiyalı təlim bilavasitə inteqrativ prosesdə tətbiq olunan metodlar, priyomlar, vasitələr toplusu vasitəsilə həyata keçirilir.

İşin elmi nəticəsi. Azərbaycan dili, riyaziyyat, həyat bilgisi və musiqi fənləri üzrə praktiki iş və hazırlanmış inteqrativ kurs didaktikanın məqsədinə maneə olmur və təlimə marağın artırılmasına, idrak fəallığının inkişaf etdirilməsinə köməklik edir.

İşin elmi yeniliyi ondan ibarətdir ki, fənlərarası inteqrasiya kontekstində şagirdlərin idrak fəaliyyətinin sürətləndirilməsi üçün didaktik model işlənib hazırlanmışdır.

İşin praktik əhəmiyyəti. İnteqrasiyaedilmiş dərslərdə kiçikyaşlı məktəblilərin idrak aktivliyinin təşəkkülü və inkişafından ötrü ibtidai sinif müəllimləri üçün pedaqoji və metodiki tövsiyələr hazırlanmışdır.

Ədəbiyyat

1. Mehdizadə, M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi / M.Mehdizadə. – Bakı: Maarif, – 1982. – 382 s.
2. Бахарева, Л.Н. Интеграция учебных занятий в начальной школе на краеведческой основе // Начальная школа, – 2011, № 8. – с.8-51.
3. Гурин, В.Е. Воспитание творческой личности /В.Е. Гурин // Совершенствование образовательных процессов: Межвуз. сб. тр. Краснодар: Изд-во Куб ГТУ, – 2015. – с.25-30.
4. Депенчук, Н.П. Особенности интегративного процесса в науке и фермы его реализации / Н.П. Депенчук // Единство и многообразие мира, дифференциация и интеграция. – М., – 1981. – с.77-78.

5. Зверев, И.Д. Медпредметные связи в современной школе. 3-ое изд. /И.Д.Зверев, В.Н. Максимова. – М.: Педагогика, – 2016. – 160 с.
6. Тюнников, Ю.С. Методика выявления и описания интегративных процессов в учебно-воспитательной работе СПТУ / Ю.С.Тюнников. – М.: АО Россия, – 2018. – 147 с.

L.M.Bayramova

Intersubject Integration is a Pedagogical Category Reflected in the form, Method and Content of the Educational and Cognitive Process

Summary

As a result of the study, it was determined that interdisciplinary integration is a pedagogical category that manifests itself in the educational and cognitive process. It is shown that lessons that use problem-based learning, didactic games, creative tasks that activate educational activity are of great importance for the development of cognitive activity of primary school students. Its effectiveness will be demonstrated on the basis of information about the attitude to learning, analysis of game activities, disclosure of creative abilities of students (emotional memory, new imagination, figurative-associative thinking).

Key words: *intra-subject integration, inter-subject integration, supra-subject integration, educational and cognitive activity, related subjects*

Л.М.Байрамова

Межпредметная интеграция – педагогическая категория, отражающаяся в форме, методе и содержании учебно-познавательного процесса

Резюме

В результате исследования определено, что междисциплинарная интеграция – педагогическая категория, проявляющаяся в учебно-познавательном процессе. Показано, что большое значение для развития познавательной активности учащихся начальных классов имеют уроки, использующие проблемное обучение, дидактические игры, творческие задания, которые активизируют учебную деятельность. Ее эффективность будет проявлена на основе информации об отношении к учению, анализа игровой деятельности, раскрытия творческих способностей учащихся (эмоциональной памяти, нового воображения, образно-ассоциативного мышления).

Ключевые слова: *внутрипредметная интеграция, межпредметная интеграция, надпредметная интеграция, учебно-познавательная деятельность, смежные предметы*

Rəyçi: ped.f.d., dos. T.Ə.Nəbiyeva

Redaksiyaya daxil olub: 02.05.2025

F.A.BƏDƏLOVA
e-mail: bedelovafiruze29@gmail.com
:https://orcid.org/0009-0000-5660-0273

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Xülasə. *Məqalədə müəllim fəaliyyətinin monitorinqi və müasir təlim texnologiyalarının tətbiqi nəticəsində onun qiymətləndirilməsinin imkanları təhlil olunur, onun yol və vasitələri müəyyənləşdirilir. Aparılan ümumiləşdirmələr və irəli sürülən nəticələr monitorinq və onun qiymətləndirilməsi fəaliyyəti istiqamətində nəzəri və praktik əhəmiyyət kəsb edir. Məqalə tədqiqatçılar və praktik-müəllimlər üçün faydalı ola bilər.*

Açar sözlər: *müəllim-şagird münasibətləri, təhsilin monitorinqi, fəaliyyətin qiymətləndirilməsi, peşəkarlıq səviyyəsi, müəllim obyektivliyi*

Müasir dövrdə ümumtəhsil məktəblərinin, onun işçilərinin və rəhbərlərinin fəaliyyətinin, eləcədə şagirdlərin təlim nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi nəzəri pedaqogikanın və pedaqoji praktikanın ən aktual problemlərindən biridir. Cəmiyyətin müxtəlif inkişaf dövrlərində təlim keyfiyyətinin və fəaliyyətin nəticələrinin ölçülməsi, həmçinin ölçmələrin nəticələrinin bu və ya digər şəkildə təhlili həmişə təhsil işçilərinin böyük marağına səbəb olmuşdur.

Hazırda monitorinq anlayışının birmənalı məqsədi məlum olsa da, elmi-praktik fəaliyyətin müxtəlif sahələrində geniş istifadə olunduğundan nəzəri təhlil baxımından maraq doğurur. Çünki o, elmi-praktik fəaliyyətin müxtəlif sahələrində öyrənilir və istifadə edilir. Monitorinq anlayışının dəqiq müəyyənləşdirilməsinin mürəkkəbliyi bir də onun həm elm-təhsil sahəsində, həm də praktik fəaliyyətin müxtəlif sahələrində tətbiq olunması ilə bağlıdır. Ona həm elm-təhsil sahələrində reallığın təhlili üsulu kimi, həm də müxtəlif fəaliyyət sahələrinin idarəedilməsinin vaxtında və keyfiyyətli informasiya təminatı vasitəsi kimi baxmaq olar.

Nəzəri-pedaqoji və metodiki ədəbiyyatın təhlilindən aydın olur ki, ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə məsələsinə sistemli, məqsədyönlü, elmi-pedaqoji cəhətdən əsaslandırılmış yanaşmalardan istifadə təmin edilmədiyindən, məktəbdə təlim-tərbiyə prosesinin keyfiyyət göstəriciləri getdikcə aşağı düşmüşdür. Son illərdə təhsil sistemində monitorinq və qiymətləndirmə probleminə dair müxtəlif təhsil tədqiqatları aparılmış və onun nəticələrindən alınmış dəyərli təkliflər və mülahizələr irəli sürülməsinə baxmayaraq, onlar vaxtında pedaqoji ictimaiyyətə çatdırılmamış və alınmış nəticələrin tətbiqi təmin edilməmişdir. Pedaqoji monitorinq müəllimin bacarıq səviyyəsini, fəaliyyətinin müsbət cəhətlərini müəyyən etməyə və fərdi xüsusiyyətləri fonunda onları inkişaf etdirməyə imkan verir. Digər tərəfdən, A.N.Əliyevin qeyd etdiyi kimi, müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqinin aparılması məktəbdə bilik, inkişaf və tərbiyə məqsədlərinin həyata keçirilməsi baxımından zəruridir [1, s.51]. Ona görə də müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi üçün göstəricilər müəyyənləşdirilərkən onun şəxsi keyfiyyətləri, pedaqoji bacarıqları, dərs dediyi şagirdlərin nailiyyətləri və müasir təlim texnologiyalarına yiyələnmə səviyyəsi, onları öz işində tətbiqetmə bacarığı nəzərə alınmalıdır. Müəllim əməyinin qiymətləndirilməsi ilk növbədə onun fəaliyyətinin mahiyyətini, məzmununu aydın dərk etməkdən irəli gəlir. Müəllim əməyinin qiymətləndirilməsi də aşağıdakı göstəriciləri əsas götürülür: Tədris-tərbiyə prosesini keyfiyyətli təşkil etmək; şagirdlərin yeni materialı bilavasitə müəllimin rəhbərliyi altında dərsdə maksimal mənimsəmə imkanlarına nail olmaq; təlimin müasir metod, forma və vasitələrindən istifadə etməyi bacarmaq, konkret şərait üçün onların

optimal birləşməsini seçmək; tədris prosesində müasir texniki vasitələrdən istifadə etmək; təlim və tərbiyə prosesində məktəblilərə fərdi yanaşmaq; onların biliyinə, davranış mədəniyyətinə səylərini, əməyə yönümünü müəyyənləşdirmək, qabiliyyət və marağını inkişaf etdirmək [2, s.99].

Keçən əsrin 90-cı illərindən başlayaraq təhsil sahəsində aparılan eksperi-mentlərin, tətbiq olunan yeniliklərin səmərəliliyini, effektivliyini artırmaq, nəticələrin izlənilməsi, proqnozlaşdırılması və korreksiya işlərinin vaxtında həyata keçirilməsi məqsədilə monitorinq təhsil sistemində də geniş tətbiq sahəsi tapmışdır. Hazırda nəinki, bizim ölkədə, hətta dünyanın inkişaf etmiş ölkələrində də təhsildə monitorinq sistemi kifayət qədər mükəmməl qurulmayıb və əksər hallarda bu lokal xarakter daşıyır. Ümumilikdə monitorinqi müəyyən bir prosesin gedişinin gözlənilən nəticələrə uyğun olmasını aşkar etmək üçün (və ya insan fəaliyyəti ilə bağlı proseslərin) prosesin müntəzəm izlənilməsi, müşahidəsi, qiymətləndirilməsi, vəziyyətin proqnozlaşdırılması və vaxtında korreksiya işlərinin həyata keçirilməsi kimi izah etmək olar.

Təhsildə monitorinq-təhsil sistemi və ya onun ayrı-ayrı komponentlərinin idarəetmənin informasiya təminatı baxımından vəziyyətlərinin müəyyənləşdirilməsinə və onların inkişafının proqnozlaşdırılmasına yönələn məlumatların toplanması və işlənməsi prosesinin izlənməsinin diaqnostikası və korreksiyası sistemidir [4, s. 35].

Beləliklə, monitorinq bütün sahələrdə həm nəzəri baxımdan, həm də onun praktikaya tətbiq olunması səviyyəsində eyni zamanda həll edilir. Monitorinqin çoxsaylı sistemləri bəzi ümumi xarakteristikalara malikdir. Bu bizə imkan verir ki, onu tam müstəqil elmi-praktik cəhətdən tətbiqi və alınmış nəticələrin təhlili, proqnozu və korreksiya işlərinin aparılması zəruriliyini araşdıraq. Monitorinqin mahiyyətinin şərhindəki fərqlər onun tətbiq olunduğu bütün sahələrdə monitorinq problemlərinin spesifikliyini və işlənmə səviyyəsini əks etdirir. Müxtəlif monitorinq sistemlərinin mövcudluğu onların ümumi xüsusiyyətlərinin, müəyyən qaydada növlərinin, təsnifatının, həyata keçirilməsinin ümumi prinsiplərinin müəyyənləşdirilməsi zərurətini meydana çıxarır.

Bəzi tədqiqatçılar müəllimin peşəkarlığını və əməyini qiymətləndirərkən onun şəxsi keyfiyyətlərini, yəni vicdanlılığını, pedaqoi istedadını, həmkarlarına və şagirdlərinə hörmətlə yanaşmasını, əməksevərliyini, fəallığını, şəxsi intizamını nəzərə almağı təklif edirlər. Əslində, pedaqoji monitorinqin nəticələri özünüməqsədə çevrilməməlidir, onun nəticələri ciddi şəkildə təhlilə cəlb olunmalı və bu müəllim fəaliyyətinin korreksiyası üçün əsas olmalıdır.

Deməli, məktəbdə müəllim fəaliyyətinin pedaqoji monitorinqinin əsas məqsədi təlim-tərbiyə işinin müxtəlif sahələri üzrə təlimin planlaşdırılmış və real nəticələrinin müqayisəsindən ibarətdir. Həmin pedaqoji monitorinq zamanı toplanmış məlumatlar sistemləşdirilməli və müzakirə edilməli, alınan nəticələrin təlimin məqsədlərinə uyğunluğu qəbul olunmalıdır.

Bu problem tədqiqatın əsas məqsədlərindən biri olduğundan, əvvəlcə orta ümumtəhsil məktəblərində müəllimin peşəkarlıq fəaliyyətinin pedaqoji monitorinqinin və qiymətləndirilməsinin mövcud vəziyyətinin təhlili aparılmalıdır.

Respublikamızda müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin qiymətləndirilməsinin vahid mexanizmi olmadığından rəhbər təhsil işçiləri bu işi özlərinin dərk etdiyi kimi aparır, bu da təhsilin keyfiyyətinə mənfi təsir edir. Ona görə də müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi və qiymətləndirilməsinin mexanizminin yaradılmasına ciddi ehtiyac vardır.

Prof. M.C.Mərdanov və b. tərəfindən hazırlanmış "Təhsil sistemində monitorinq və qiymətləndirmə" [3] adlı monoqrafiyada ümumtəhsil məktəblərində müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi və qiymətləndirilməsi üçün göstəricilər (parametrlər) və müvafiq çəki əmsalları verilmişdir. Burada müəllimin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi göstəriciləri – dərsin strukturu, məzmunu, dərsin texnoloji təminatı, dərsin əyani və texniki təchizatı, müəllim-şagird münasibətlərinin xarakteri, dərsin pedaqoji səmərəliliyi və onların alt komponentləri geniş şərh olunmuş, çəki əmsalları işlənmişdir.

Ümumtəhsil məktəblərində müəllim fəaliyyətinin qiymətləndirməsinin nəticələri əsasında məktəb rəhbərliyi müəllimin gələcək pedaqoji fəaliyyəti barədə müvafiq qərar qəbul etməli və onun işinin təkmilləşdirilməsi üçün müvafıq tədbirlər görməlidir.

Araşdırmaların nəticələrinin təhlili göstərir ki, müəllimin peşəkarlıq səviyyəsinin və fəaliyyətinin pedaqoji monitorinqi və qiymətləndirilməsi üçün aşağıdakı başlıca istiqamətlər həmişə diqqət mərkəzində saxlanılmalıdır:

1. Təhsil sahəsinin xüsusiyyətləri nəzərə alınaraq, idarəetmə və informasiya təminatının müasir tendensiyaları baxımından təhsildə monitorinqin təsnifatı müəyyən edilmiş, təhsil sisteminin müxtəlif sahələrində, idarəetmə sisteminin monitorinqi sistemləşdirilmiş, ilk dəfə dinamik, rəqabətli, müqayisəli, kompleks formalı monitorinqin məzmunu və tətbiqi imkanları işlənilmiş, pedaqoji və sosioloji monitorinqlə yanaşı, ümumtəhsil məktəblərində şagirdin inkişaf dinamikasının öyrənilməsi üçün demoqrafik monitorinqin aparılması zərurəti elmi-metodik cəhətdən əsaslandırılmışdır.

2. Məktəbdə təlim-tərbiyə prosesinin idarə edilməsində, onun keyfiyyət təminatı üçün sistematik əks-əlaqənin təmin olunmasında, məktəbli şəxsiyyətinin formalaşmasında sosioloji, psixoloji və tibbi monitorinqin birləşdirici, tamamlayıcı, yekunlaşdırıcı funksiyalarının daşıyıcısı olan pedaqoji monitorinqin nəticəyönümlü rejimdə işləyən tədris müəssisələrində rolu müəyyənləşdirilmiş, ondan pedaqoji proseslərin təhlili, diaqnostikası və layihələndirilməsini həyata keçirmək üçün istifadənin elmi və pedaqoji əsasları işlənilmişdir.

3. Təlim prosesi və təhsil müəssisəsinin fəaliyyətinin keyfiyyət göstəricilərinin dinamik ekspertizasının aparılması üçün pedaqoji kvalimetriya və monitorinq sistemləri arasındakı əlaqələr, pedaqoji monitorinqin əsas meyarları, prinsipləri, komponentləri, texnoloji modeli, şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması imkanlarının monitorinqini həyata keçirən ekspertlərin (müəllimlərin, valideynlərin və b.) səmərəli fəaliyyətinin təşkilinə qoyulan tələblər təhlil edilərək, toplanmış məlumatların sistemləşdirilməsi, proqnozlaşdırılması və müvafıq korreksiya işlərinin aparılması üçün yeni texnoloji yanaşmalar müəyyənləşdirilmişdir.

4. Məktəbdə təlim prosesinin monitorinqi zamanı müəllimin bilik, bacarıq və pedaqoji səriştəsini qiymətləndirməklə yanaşı, həm də müəllim şəxsiyyətinin müsbət mənəvi-əxlaqi keyfıyyətləri qiymətləndirilməlidir. Müəllimin şəxsi mədəniyyəti onun biliyində, qabaqcıl təcrübəyə yiyələnməsində, hərtərəfli nəzəri və praktik hazırlığında özünü göstərir. Müəllim yüksək mədəniyyətə malik olmalıdır. Oturuşunda, duruşunda, cəmiyyətdə davranışında, insanlarla ünsiyyətində nümunə olmalıdır. Müəllim pak, təmiz əxlaq sahibi olmalıdır.

İşin elmi nəticəsi. Təlim-tərbiyə prosesinin sadələşdirilmiş modeli əsasında monitorinq və qiymətləndirmənin təhsil sisteminin, xüsusi halda təhsil müəssisəsinin idarə olunmasında, inkişafında və onun fəaliyyətinin keyfiyyət təminatında tətbiqi imkanları, ilk dəfə sistemli şəkildə araşdırılmış, alınmış nəticələrin təhlili əsasında konkret təkliflər hazırlanmışdır.

İşin elmi yeniliyini ümumtəhsil məktəblərində keyfiyyətin təminatında monitorinq və qiymətləndirmə sisteminin araşdırılması üçün eksperimentlərin təşkili və alınmış nəticələrin təhlili əsasında müəyyələşdirilmiş yeni modellər, üsullar, elmi-pedaqoji yeniliklər təşkil edir.

Tədqiqatın praktik əhəmiyyətini Azərbaycan Respublikasında ilk dəfə ümumtəhsil sistemində monitorinq və qiymətləndirmə problemi üzrə mövcud təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və geniş elmi-pedaqoji təhlilinin aparılması nəticəsində təhsil işçilərinin maarifləndirilməsinin təmini üçün elmi-pedaqoji və metodik baxımdan əsaslandırılmış yeni yanaşmalar və geniş tətbiqinin praktiki yolları təşkil edir.

Ədəbiyyat

1. Əliyev, A.H. Ümumtəhsil məktəbi müəlliminin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi. // TPİ-nin Elmi əsərləri, – Bakı. – 2003, №1, – s. 199-204.
2. Kərimov, Y.Ş. İbtidai təlim: problemlər, vəzifələr / Y.Ş.Kərimov, – Bakı: Nasir, – 2010, – 127s.

3. Mərdanov, M.C. Təhsil sistemində monitorinq və qiymətləndirmə / M.C.Mərdanov, R.A.Ağamalıyev, A.O.Mehrabov. –Bakı: Çaşıoğlu, – 2003, – 416 s.
4. Qardaşov, T.B., Cavadov, İ.A. Təhsildə monitorinq sistemi və onun növləri // TPİ-nin Elmi əsərləri, – Bakı. – 2004, №l, – s. 35-38.

F.A.Badalova

Monitoring of the Quality of Education and its Evaluation

Summary

In this article analyzes the monitoring of teachers' activities and the possibility of their evaluation as a result of the application of modern teaching technologies, and rational ways and means are identified. The generalizations carried out and the results obtained are of theoretical and practical importance in the direction of monitoring activities and their evaluation. The article can be useful to researchers and practical teachers.

Key words: *teacher-student relations, monitoring of education, evaluation of activities, level of professionalism, teacher objectivity*

Ф.А.Бедалова

Мониторинг и оценивания в образование

Резюме

В статье анализирован мониторинг деятельности учителя и возможности их оценивания в результате применения современных технологий обучения, определены рациональные пути и средства. Проведенные обобщения и выведенные результаты имеют теоретическую и практическую значимость в направлении деятельности мониторинга и его оценивания. Статья может быть полезна исследователям и учителям-практикам.

Ключевые слова: *отношения учитель-ученик, мониторинг образования, оценивание деятельности, уровень профессионализма, объективность учителя*

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 07.05.2025

V.Ş.CƏFƏROVA
e-mail: Ceferova-vusale@list.ru
:https://orcid.org/0009-0003-0479-9788

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

TƏLƏBƏ-GƏNCLƏRDƏ İCTİMAİ FƏALLIĞIN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Tədqiqat göstərdi ki, tələbələrdə ictimai fəallığın formalaşdırılmasının ilkin şərti müəyyən prinsipləri əsas götürməkdə bu işin məqsədəuyğun təşkil olunmasıdır. Tələbələrin ictimai fəallığının səviyyəsi onlarda aydın məqsədin, prinsipiallığın, məsuliyyətin, mütəşəkkilliyin, intizamın, başqalarına tələbkarlığın, kollektivin işlərinə marağın və məsuliyyətin, təşəbbüskarlığın, yaradıcılığın, ünsiyyətin, icraçılığın, səyin olmasının formalaşdırılması səviyyəsindən asılıdır.*
Fəal tələbələrdə borc, məsuliyyət hissi ilə, insanlar, yoldaşları, müəllimləri, cəmiyyət qarşısında vəzifələrlə bağlı olan, həmçinin vicdanın tələblərinə uyğun olan motivlər üstünlük təşkil edir.

Açar sözlər: *ictimai fəallıq, tələbə-gənclər, məsuliyyət hissi, tələbə təşkilatı, vətəndaşlıq borcu*

Psixoloq və pedaqoqların qənaətincə, fəallıq erkən yaşlardan insana xas olan keyfiyyətdir [1, s.154]. Bu və ya digər şəxs hər hansı formada fəaliyyət göstərir. Bununla belə, fəallığın yanlış istiqaməti həmişə aşkara çıxmır. Bir sıra hallarda zahirən yaxşı hərəkət, davranış və rəftar xudpəsənd motivlərlə şərtlənir. Belə də olur ki, tələbə xeyirxah iş və əməldən ruhlanır, lakin zəruri bacarıq, vərdiş və adətlərə malik olmadığından, işin mahiyyətini, yerinə yetirilmə qaydalarını yaxşı bilmədiyindən kollektivin zərərinə hərəkət edir. Buradan görünür ki, fəallıq anadangəlmə keyfiyyət deyil, o formalaşdırılır, başqa sözlə, tərbiyənin məhsulu kimi meydana çıxır.

Pedaqoq və psixoloqların əksəriyyəti gənc nəslin ictimai fəallığına şəxsiyyətin mürəkkəb keyfiyyəti, yaxud cəmiyyətin mənafeyi naminə formalaşan və təzahür edən kompleks keyfiyyətlər kimi yanaşır.

Bir çox pedaqoqlar ictimai fəallığın meydana gəlməsinin aparıcı şərtlərini müəyyən etməyə cəhd göstərmişlər. Belə ki, E.V.Bondarevskaya cəmiyyətin xeyirinə şüurlu surətdə hərəkət etməyi [5], L.P.Kiçatinov – xalq qarşısında öz vəzifələrini dərk etməyi [4], A.V.Zosimovski – xalqın maraqları naminə fəaliyyət göstərməyə cəhd və bacarığı [2], İ.P.İvanov–ictimai fəaliyyətin müxtəlif növlərində yaradıcı iştirakı [3] qeyd edirlər.

K.D.Radina ictimai fəallığı şəxsiyyətin xassəsi kimi müəyyənləşdirərək buraya ictimai fəaliyyətin əhəmiyyətinin dərk edilməsini, bu fəaliyyətdə iştiraka hazır olmağı və iştirak etmək arzusunu, məsuliyyət, təşəbbüskarlıq, müstəqillik təzahür etdirərək fəaliyyət göstərmək bacarığını daxil edir [6, s.5].

Biz ictimai fəallığa və onun formalaşdırılmasına şəxsiyyətdə baş verən daxili dəyişiklikləri nəzərə almaqla yanaşmağı məqsədəuyğun hesab edirik. Odur ki, ictimai fəallığı biz şəxsiyyət tərəfindən mənimsənilmiş və inama çevrilmiş mənəvi biliklərin məcmusunu və real fəaliyyətdə olan motivləri, davranış üsullarını, fəaliyyətin priyomlarını, münasibətlərin növlərini əhatə edən, ictimai tapşırıqların yerinə yetirilməsi zamanı müstəqilliyi, təşəbbüskarlığı, yaradıcılığı və kollektivin həyatının müsbət emosional tonunu təmin edən inteqral şəxsiyyət keyfiyyəti kimi nəzərdən keçiririk.

İctimai fəallığın bu şəkildə müəyyənləşdirilməsi tələbələrin davranışında və münasibətlərində onun təzahürünün bir sıra daha əhəmiyyətli cəhətlərini qeyd etməyi zərurətə çevirir. Həmin cəhətləri təxminən aşağıdakı şəkildə müəyyənləşdirmək mümkündür:

– Tələbə tərəfindən yerinə yetirilən işin ictimai dəyərinin başa düşülməsi. Bu, ideya-mənəvi biliklər əsasında formalaşır. Əgər biliklər şəxsiyyətin təşəkkülü baxımından əhəmiyyətli

olursa və gənclər tərəfindən mənimsənilirsə, deməli, fəaliyyətin ictimai dəyərli məqsədi şəxsi maraq xarakteri alır. Fəaliyyətin ictimai əhəmiyyətli mənasına adekvat olan fəaliyyət motivi, fəaliyyətin və bu fəaliyyətdə özünün fəal iştirakının zəruriliyinə, məqsədəuyğunluğuna və faydalılığına inama əsaslanan motiv yaranır;

– İctimai faydalı fəaliyyətin yerinə yetirilməsi zamanı şəxsi və ictimai maraqların uzlaşdırılması. Vacibdir ki, fəaliyyətin ictimai əhəmiyyətli məqsədinin həyata keçirilməsində iştirak edən tələbə ictimai fəaliyyətdə özünün şəxsi maraqlarını təmin etməyin yollarını da tapsın. Bu zaman fəallıqda təşəbbüskarlıq, yaradıcılıq, müstəqillik təzahür edəcək; fəallıq ictimai xarakter alacaq;

– İctimai faydalı işlərin planlaşdırılması, yerinə yetirilməsi və müzakirəsi zamanı təşəbbüskarlıq və yaradıcılığın təhzahürü. İşlə bağlı təşəbbüskar, ona yaradıcı münasibət əmək fəaliyyətinin aparıcı xüsusiyyətlərindən biridir. Müasir mərhələdə əməyə yaradıcı münasibət elmi-texniki tərəqqinin tələblərinə cavab verir və insanın əmək fəaliyyətinə mənəvi və psixoloji cəhətdən hazırlığının yüksək səviyyəsinin göstəricisidir;

– Fəaliyyətin hər hansı növündə – təlimdə, əməkdə, ictimai işlərdə yoldaşa köməyə gəlməyə hazır olmaq. Bu göstərici özündə ictimai fəallığın mənəvi və psixoloji mahiyyətini, onun humanist xarakterini, yoldaşlara, həmyaşıdlara, kollektivə münasibəti nəzərdə tutur;

– İctimai işləri uğurla yerinə yetirmək üçün zəruri praktik bacarıqlara malik olmaq səyi. Bu təzahür ictimai fəallığın işgüzar mahiyyətini nəzərdə tutur, tələbələrin işdə faktik iştirakını, işi sona çatdırmaq arzusunu və bacarığını ifadə edir.

İctimai fəallığın bütün başlıca təzahürlərinin vəhdəti və qarşılıqlı əlaqəsi şəxsiyyətin bu mürəkkəb inteqral keyfiyyətinin ideya, mənəvi və fəal mahiyyətini əks etdirir.

Təbii ki, ictimai fəallığın formalaşdırılması zamanı özünə və kollektivə görə məsuliyyət; özünə və başqalarına tələbkarlıq; ictimai tapşırıqları yerinə yetirərkən müstəqillik, ideya-mənəvi biliklər mövqeyindən hərəkətlərin qiymətləndirilməsində özünütənqid, icraçılıq kimi təzahürlər nəzərə alınır.

İctimai fəal insan tez bir zamanda müstəqil, özünütənqidi qəbul edən, intizamı, tələbləri gözləyən, kollektivçi olur.

Şəxsiyyət keyfiyyəti olmaq etibarilə ictimai fəallıq fəallığın müxtəlif növlərində – ictimai-siyasi (tələbələr üçün ali təhsil müəssisələrində gənclər təşkilatının və tələbə şurasının fəaliyyəti), ictimai-əmək (əmək fəaliyyəti), idraki (əqli fəaliyyət) təzahür edir.

İctimai fəallıq fəaliyyətin yönəldiyi obyektdən, fəaliyyət subyektinin mənsub olduğu sosial qrupdan asılı olan daha geniş, çoxplanlı sosial fəallıqla qırılmaz qarşılıqlı əlaqədə olur.

Fəallığın məqsədi onun təzahür etdiyi fəaliyyətlə, insanın yaş və fərdi xüsusiyyətlərilə, şəxsiyyətin bu və ya digər qrupa mənsubiyyəti ilə müəyyən olunur. Həm də fəallığın bütün növləri onların ictimai istiqamətini birləşdirir.

Əgər tələbə öz fəaliyyətinin bütün növlərində təlim, əmək, bədii, idman, ictimai faydalı və s. ictimai fəallıq nümayiş etdirirsə, deməli, o, fəaliyyətdə aktiv mövqe tutur.

İnkişafının müxtəlif mərhələlərində tələbələrin ictimai fəallığı müxtəlif formalarda özünü göstərir. Bu formalardan biri müəllimlərin, valideynlərin göstərişlərinin tələbələr tərəfindən ciddiyyətlə, cəhdlə və vicdanla yerinə yetirilməsidir. Tapşırılan işlər, göstərişə əməl edilməsi müstəqil fəaliyyətə praktik cəhətdən keçmək üçün vacibdir. Bu tələbəni sadə, lakin zəruri vərdişlərə yiyələndirir. Bunlar elə vərdişlərdir ki, onlarsız müstəqillik mümkün deyil. Bu, işin həm "texniki", həm də psixoloji cəhətinə aiddir. Çünki bu və ya digər işdə ən sadə müstəqil hərəkətə hazır olmaq, maneələri aradan qaldırmaq üçün hər hansı bir təcrübə lazımdır. Həmin təcrübənin necə təşkil ediləcəyindən çox şey asılıdır. Odur ki, tələbə görəcəyi işi, yerinə yetirməli olacağı vəzifəni, tapşırığı bütün təfərrüatına kimi aydın təsəvvür etməlidir.

Yetkin olmayan kollektivdə verilən göstəriş və tapşırıq çox zaman maraqsız və yorucu təsir bağışlayır. Tapşırığa formal, candərdi əməl edilir, işə mənfi münasibət formalaşır. Belə mənfi münasibətin yaranmaması üçün tələbələr tapşırığın ictimai əhəmiyyətini anlamalıdılar. Tapşırığın cəlbedici olması mühüm şərtdir. Tələbələr tərəfindən könüllü qəbul edilən tapşırığa

“müstəqil iradi hərəkət tipi üzrə” əməl edilir. Həm də ictimai fəallıq onunla səciyyələnir ki, tələbələr tapşırıqların icrası zamanı müstəqil şəkildə onun həyata keçirilməsinə çalışırlar.

Özfəaliyyət ictimai fəallığın yüksək formasıdır. Tələbə oğlan və qızlar zəruri ictimai faydalı işi və onun yerinə yetirilməsinin mümkün və səmərəli yollarını seçirlər. Ali məktəb tələbələrinin fəaliyyəti onların fəallıq səviyyəsindən çox asılıdır. Onlar nə qədər müstəqillik göstərirlərsə, ictimai fəallıq baxımından onların imkanları bir elə tükənməz olur. Lakin hərəkətin müstəqil seçilmiş metodları da şablon ola və sərbəst seçilmiş fəaliyyət lazımi xarakter almaya bilər. Odur ki, fəallığın və müstəqilliyin hər şeylə maraqlanma, hər şeyi bilmək və öyrənmək həvəsi və yaradıcı təşəbbüslə uzlaşdırılması mühüm məsələdir.

İnsanın mühüm keyfiyyətlərindən biri təşəbbüskarlıqdır. Bu yenilikçilikdə, zəhmətə bağlılıqda, yaradıcı əməkdə özünü büruzə verir və cəmiyyətin qarşısında duran vəzifələrin həll edilməsinə doğru istiqamətlənir. Fəal mövqeli şəxsiyyət nəinki təşəbbüskar olur, eyni zamanda digər insanların qiymətli təşəbbüslərini təqdir və müdafiə edir. Belə nümunələrə həyatda çox rastlaşmaq mümkündür. Həmin nümunələr tələbələrdə ictimai fəallığın təşəkkül tapıb formalaşmasına imkan verir. Hər hansı bir fəaliyyətdə iştirak hələ o demək deyildir ki, ictimai fəallıq iştirakçıların hər biri üçün şəxsiyyət keyfiyyətinə çevrilib. Hansı motivlərin ictimai fəallığı şərtləndirdiyini bilmək lazımdır. Tələbələrdə davranışın möhkəm mənəvi motivlərini formalaşdırmaqla onların ictimai fəallığına şərait yaratmaq, onu xarakter keyfiyyətinə çevirmək mümkün olur.

Fəaliyyətin bu və ya digər növünə maraq gənclərin fəallığında əsas təhrikedicidir. Hər bir insan, o cümlədən tələbə onda maraq yaradan işlərdə həvəslə çalışır. Tələbələrin maraq və meyillərini aşkara çıxarmaq və bu maraqları nəzərə alaraq onları fəaliyyətə cəlb etmək nəticəsində onlarda kollektivçilik formalaşdırmaq olur. Həmin keyfiyyət ictimai-təşkilatçılıq vərdişidir.

İlk mərhələlərdə tələbənin cəlbedici əyləncəyə olan marağına istinad edilə bilər. Lakin ictimai fəaliyyət yalnız gənc oğlan və qızların marağına əsasən məhdudlaşdırılmamalıdır.

Tələbə qarşıya qoyulan məqsədə əsasən onu cəlb etməyən işi könüllü və şüurlu surətdə yerinə yetirərkən kollektivin mənafeyini nəzərə alır. Təbii ki, o, işi başlamaq və sona çatdırmaq üçün bu və ya digər dərəcədə daxili səy göstərmək məcburiyyətində qalır. Həm də onun fəaliyyətinin tərbiyəvi təsiri yüksəlir.

Daxilən, subyektiv baxımdan borc, ilk növbədə, bu və ya digər vəziyyətdə tələbənin nə edəcəyini, necə hərəkət etməli olduğunu bilməsində özünü göstərir. İkincisi, borc həvəsləndirici impuls, cəhd və hiss kimi təzahür edir. Məhz bu cəhətlər, bir qayda olaraq, borcun aydın başa düşülməsi və borc hissi adlandırılanı ifadə edir. Öz borcunu yaxşı dərk edən insan fəal və işgüzar olur.

Psixoloji baxımdan borcun dərk edilməsi və bu hissi keçirmək, borcun motivləri kimi məsələlər lazımi səviyyədə tədqiq edilməmişdir. Borc təkcə biliklə, öz vəzifələrini anlamaq və necə yerinə yetirməklə məhdudlaşmır. Bəzən insan öz vəzifələrini aydın başa düşür, lakin onlara əməl etmir. Əslində isə, hər bir fəaliyyət zamanı öz borcunu bilmək və dərk etmək tələbata çevrilməli, kollektivin müvəffəqiyyəti və uğursuzluqları onların tərəfindən öz şəxsi müvəfəqiyyətləri və uğursuzluqları kimi qəbul edilməlidir. Borc hissinə yiyələnmiş insandan ötrü ictimai məna daşıyan fəaliyyət xüsusi rola malik olmalı və onda maraq yaratmalıdır. Həmin şəxs işin cəmiyyət və kollektiv üçün gərəkli olduğunu anlayırsa, ağır və çətin işə, hətta onda maraq doğurmayan fəaliyyətə də həvəslə qoşulur. Borcu yerinə yetirmək insanda mənəvi həzz yaradır. Borc hissinin başa düşülməsi nəticəsində ali məktəb tələbələri öz fəaliyyətlərində ictimai motivlərə əsaslanırlar. Bu və ya digər şəraitdə borc hissi tələbə oğlan və qızların davranışında başlıca motivə çevrilir.

Tələbələrdə borc hissinin inkişafı səviyyəsi daha çox onların fəaliyyət təcrübəsi və aldıqları tərbiyə ilə şərtlənir. Odur ki, aşağı kurs tələbələri yuxarı kurs tələbələrinə nisbətən daha yüksək ictimai fəallığa yiyələnirlər. Tələbə kollektivi və qrupu, eyni zamanda cəmiyyət qarşısında borcun dərk olunması gənclərdə özlərində şəxsi intizam tərbiyə etməklə başlanır. Borcun yerinə yetirilməsi nəticəsində mənəvi razılıq hissi yaranır ki, bu cəhət ictimai fəallığın səmərəli formalaşdırılması üçün vacib şərtdir.

İşin elmi nəticəsi. Tədqiqat göstərdi ki, tələbələrdə ictimai fəallığın formalaşdırılmasının ilkin şərti müəyyən prinsipləri əsas götürməkdə bu işin məqsədəuyğun təşkil olunmasıdır.

İşin elmi yeniliyi ondan ibarətdir ki, ali məktəb tələbələrinin ictimai fəallığının formalaşdırılması üzrə işin sistemi yaradılmış, tələbələri ictimai fəaliyyətə sövq edən motivlər müəyyənləşdirilmişdir.

İşin tətbiqi əhəmiyyəti. Dissertasiyada öz ifadəsini tapmış iş sistemi orta ixtisas məktəbi tələbələrində ictimai fəallığın formalaşdırılması üzrə işi səmərəli qurmaqda orta ixtisas məktəbi müəllimlərinə əməli kömək göstərəcəkdir.

Ədəbiyyat

1. Talıbov, Y.R. Gənclərin milli-mənəvi tərbiyəsi problemi / Y.R.Talıbov, F.B.Sadıqov, S.M.Quliyev. – Bakı: Ünsüzadə, – 1999, – 271 s.
2. Зосимовский, А.Б. Воспитание общественной активности школьников – подростков / А.Б.Зосимовский, – М.: Просвешение, – 2002, – 283 с.
3. Иванов, И.П. Творческое содружество поколений как условие воспитание обшественной у них обшественников / Автореф. дисс....д-ра пед. наук. – Л., – 2003, – 48 с.
4. Кичатинов, Л.П. Мотивы обшественной активности подростков и их воспитание / Автореф. дисс....канд. пед. наук. – М., – 2006, – 24 с.
5. Некоторые вопросы теории и практики развитие обшественной активности трудящихся. – Перьм, – 2016, – 93с.
6. Радина, К.Д. Воспитание обшественной активности / К.Д.Радина, – М.: Наука, – 2003, –164с.

V.Sh.JAFAROVA

Features of the Work on Forming Public Activity of Students

Summary

The study showed that the prerequisite for the formation of social activity in students is the correct organization of this work, based on certain principles. The level of social activity of students depends on the level of formation of a clear goal, integrity, responsibility, organization, discipline, exactingness to others, interest in the work of the team, responsibility, initiative, creativity, sociability, efficiency, hard work.

Active students are dominated by motives associated with a sense of duty, responsibility, responsibilities to people, friends, teachers, society, as well as those corresponding to the requirements of conscience.

Key words: *social activity, student youth, sense of responsibility, student organization, civic duty*

В.Ш.Джафарова

Особенности работы по формированию общественной активности студенческой молодежи

Резюме

Исследование показало, что предпосылкой формирования общественной активности у студентов является правильная организация этой работы, основанная на определенных принципах. Уровень общественной активности студентов зависит от уровня сформированности у них четкой цели, принципиальности, ответственности, организованности, дисциплинированности, требовательности к окружающим, интереса к труду коллектива, ответственности, инициативности, творчества, коммуникабельности, работоспособности, трудолюбия.

У активных студентов преобладают мотивы, связанные с чувством долга, ответственности, обязанностей перед людьми, друзьями, учителями, обществом, а такжесоответствующиетребованиям совести.

Ключевые слова: *общественная активность, студенческая молодежь, чувство ответственности, студенческая организация, гражданский долг*

Rəyçi: ped.f.d., dos. T.Ə.Nəbiyeva
Redaksiyaya daxil olub: 02.05.2025

İ.Ə.ƏHMƏDOVA
baş müəllim
e-mail: ridvan_baku@mail.ru
:https://orcid.org/0009-0000-4024-2424

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

10.62021/0026-0028.2025.2.260

MUSİQİ İFADƏ VASİTƏLƏRİNİN MƏNİMSƏNİLMƏSİ MUSİQİ ƏSƏRİNİN DƏRK OLUNMASI ŞƏRAİTİNİN AMİLİ KİMİ

Xülasə: *Musiqi ifadə vasitələrinin mənimsənilməsi musiqi əsərinin dərk olunmasında mühüm rol oynayır. Bu vasitələrin şüurlu istifadəsi ifaçıya əsərin emosiyalarını və xarakterini daha dərindən çatdırmağa imkan yaradır. Bu vasitələrə yiyələnmədən ifadəli və mənalı ifaçılığa nail olmaq mümkün deyildir.*

Açar sözlər: *tələbə, dinamika, musiqi, homofoniya, fortepiano*

"Dərslərə davamlı marağı qorumaq üçün tələbənin müstəqil düşünməyə və şəxsi təşəbbüs göstərməyə meylinin formalaşdırılması böyük əhəmiyyət kəsb edir" [1, s.83].

Musiqi forması – əsər hissələrinin yaxud bölmələrinin ardıcıllığıdır – oxşar və fərqli, böyük və kiçik. Forma hissələrdən ibarətdir ki, onların hər biri müəyyən funksiyanın daşıyıcısıdır. Hissələrin müəyyən ardıcıllığı əsəri bütövlükdə əhatə etməyi kömək edir, bədii niyyətin ifadəsində iştirak edir. Musiqi formaları şərti olaraq homofoniklərə və polifoniklərə bölünürlər. Homofonik formada bir səs (adətən, yuxarıdakı) aparıcı əhəmiyyət kəsb edir. Polifonik formada bütün səslər melodik cəhətdən bərabərhüquqlu və müstəqildir.

Homofon – harmonik tərzin səciyyəvi olduğu son üç əsrin musiqisində mövzu, adətən, böyük deyildir və period formasında ifadə olunur. İnstrumental musiqidə, müstəqil forma kimi period, romantiklərdə rastlanır (Şopendən əvvəl, demək olar ki, yox idi). Aləmin lirik qavrayışı, romantik musiqi məzmununun ən mühüm tərəfi kimi, instrumental musiqidə yeni formalar yaradır: lirik şeriyyət ovqatına ideal yaraşan forma kimi, period kuplet mahnılarında rastlanır. Adətən, period iki oxşar hissədən, iki cümlədən ibarət olur. İkinci cümlə – lap sonluq istisna olmaqla – birincini demək olar ki, tam təkrarlaya bilər. Bu kiçicik dəyişiklik bitkinlik yaradır. Periodun ikinci yarısı (2-ci cümlə) birinciyə nisbətən, daha sabit sonluğa malikdir və mövzunun ifadəsi burada aydın və dürüst şəkildə tamamlanır. Cümlələr bir-birindən fərqlənə bilər, lakin musiqinin hansısa bir hissəsi təkrarlanır. Buna görə də, bu cür period təkrar quruluş periodu yaxud da bəzən əsas növ periodu adlanır. Uzaq keçmişdə, Avropa ölkələrinin xalq və professional (Bax, Motsart) musiqisində təşəkkül tapmış əsas növ periodu, hal-hazırda da özünün "həyat qabiliyyətini" qoruyub saxlayır. Bir çox musiqi əsərlərinin mövzuları təkrar quruluş periodu formasındadır, mahnı və rəqs musiqisi isə ondan daha çox istifadə edir.

Əgər əsər birhissəli formada yazılmışdırsa, yəni yalnız mövzunun ifadəsindən ibarətdirsə, onda bir qayda olaraq, biz təkrar quruluş periodu ilə yaxud əsas növ periodu ilə rastlaşırıq. Daxili təkrardan ibarət əsas növ periodu, əsas musiqi fikrini daha yaxşı yadda saxlamağa kömək edir, bunsuz isə musiqi əsərini anlamaq, onun məzmununu təhlil etmək mümkün deyildir. Bilavasitə təkrar dinləyici üçün də mövzu ilə ilk tanışlıqda əla köməkçidir. Qeyri-təkrar quruluş periodu mövcuddur (daha inkişaf etmiş formalarda) ki, burada ikinci cümlə birincini təkrarlamır, onu davam etdirir. Elə periodlara rast gəlmək olur ki, onlar ümumiyyətlə cümlələrə bölünmürlər. Mövzunun təkrarı heç də həmişə tam olmur. O cümlədən mahnı və rəqs möv-

zularında daha tez hansısa bir hissə təkrarlanır. Mövzunun inkişafı üçün birhissəli forma çərçivəsindən kənara çıxmaq lazımdır. İki perioddan ibarət formaya rast gəlmək olur ki, ona sadə ikihissəli forma deyilir. Mövzu baxımından onlar vahiddir.

Birinci hissə sadə perioddur. Bu periodun hər iki cümləsi mövzu baxımından oxşardır. İkinci hissə də iki cümlədən ibarətdir, burada birinci hissənin tematik materialının təkrarı vardır. Yeni melodiko-ritmik materialın və qeyri-sabit harmoniyanın daxil edilməsi hesabına birinci cümlə birinci periodla təzad təşkil edir.

İkinci cümlədə birinci periodun hissəsi təkrarlanır və o repriza adlanır. Reprizanın vəzifəsi – bütün formanın tematik birləşdirilməsidir. Reprizasız ikihissəli formaya rast gəlmək olur. Bu cür ikihissəli forma vokal əsərlər üçün səciyyəvidir. Hissələrin qohumluğu (yaxınlığı) ümumi ladda, tonallıqda, ölçüdə, onların eyni böyüklüyündə, bəzən də melodik oxşarlıqda, ümumi intonasiyalarda özünü büruzə verir. Birinci hissə ilə müqayisədə ikinci də həm öncə olanlardan, həm də yeni bir nə isə səslənir.

Müstəqil əsərin forması kimi ikihissəli formaya böyük olmayan instrumental əsərlərdə, vokal minuaturlarda, rəqslərdə, marşlarda rast gəlmək olur. Hər hansı bir sonatanın, simfoniyanın, kvartetin və s. bu və ya digər bölməsi ikihissəli formada yazılmış ola bilər. Reprizalı ikihissəli formada reprizanın payına ikinci hissənin yalnız yarısı düşür. Lakin repriza tam da ola bilər. Belə halda orta hissə və repriza müstəqil hissələrə çevrilirlər və biz artıq sadə üçhissəli forma haqqında danışırıq.

Birinci hissəsi, ikihissəli formanın birinci hissəsi kimidir. İkinci hissə birinci mövzunun inkişafına yaxud yenisinin ifadəsinə həsr edilmişdir və kənar hissələrlə təzad təşkil edir. Üçüncü hissə – reprizadır. O, tam perioddan ibarətdir və bununla da ikihissəli formada fərlənir. Repriza birinci periodu təkrarlayır. O, tam müstəqildir və kifayət qədər inkişaf etmişdir. Üçhissəli formaların girişləri adətən böyük deyil, onlar dinləyicini əsas olan nəyə isə hazırlayır. Sonluq isə bütün əsrin inkişafını tamamlayır, yekunlaşdırır və buna görə də girişdən əhəmiyyətlidir.

Bir çox vokal və instrumental əsərlər sadə üçhissəli formada yazılmışlar. Fortepiano pyesləri və romanslar, marşlar, orkestr miniatürləri bu formadan istifadə edirlər. Yalnız ayrı-ayrı əsərlər deyil həm də çoxhissəli əsərlərin (süitaların, sonataların və s.) müstəqil hissələri, ikihissəli formaya nisbətən bu formada daha çox bəstələnir. Sadə üçhissəli formanın aydınlığı, sadəliyi və müvazinəti bir çox janrlarda istifadə olunur. Əhvali-ruhiyyələrin, təsərrüfatların daha böyük təzadlarını aşkar etmək üçün mürəkkəb üçhissəli formadan istifadə edilir. Kənar hissələri mövzu baxımından eyni sadə iki yaxud üçhissəli formada olan; orta hissəsi isə quruluş baxımından müxtəlif olan, kənar hissələrlə təzad təşkil edən formaya mürəkkəb üçhissəli deyilir. Aydın qarşılaşdırılan, təzadlı surətlərin mövcudluğu mürəkkəb forma üçün xüsusilə səciyyəvidir. Müstəqilliyi sayəsində onların hər birinə geniş inkişaf lazımdır və periodun çərçivəsinə sığmayaraq sadə forma yaradır.. ("Müəllim yüksək səviyyədə musiqi mədəniyyətinə malik olmalıdır... müxtəlif dövrlərdə yaradılmış görkəmli musiqi əsərlərini bilməlidir. Onların üslubunu, formasını və musiqi ifadə vasitələrini xarakterizə etməyi bacarmalıdır") [1, s. 62].

Tələbələrin musiqi əsərləri üzərində müstəqil iş metodikası üzrə əsas məqamlar.

1. Əsərin ümumi təhlili. Janr, forma, üslub və dövrün xüsusiyyətləri barədə ümumi məlumat. Bəstəkar haqqında qısa məlumat.

2. Əsərin dinlənilməsi və ilkin qavranılması. Əsərin emosional və obraz məzmununun qavranılması.

3. Nota mətninin təhlili. Tonallıq, metrum, ritm, harmoniya və faktura. İnciklərlə oxuma (dinamikalar, artikuləsiya, aqoqika)

4. Texniki çətinlikiərin müəyyən edilməsi. Barmaq texnikasının seçilməsi.

5. Yadda saxlama üsulları. Görmə yaddaşı, eşitmə yaddaşı və motor yaddaşı ilə iş.

6. Bədii obraz üzərində işləmə. İfa zamanı emosional tərcümə.

7. Nəzarət və özünüqiymətləndirmə. Öz ifasının dinlənməsi və təhlili. Müəllim tövsiyələrinə əsaslanaraq düzəlişlər.

8. İctimai ifaya hazırlıq. Səhnə mədəniyyəti və artistik ifa.

Azərbaycan musiqi forma təşəkkülündə, onu Avropa üslublarında fərqləndirən bir qanunauyğunluq mövcuddur. Müəllifin fikrincə, bir çox digər qanunauyğunluqlarla bərabər və əlbəttə qarşılıqlı əlaqədə bu qanunauyğunluq milli musiqi dilinin spesifik nizamına böyük təsir göstərir. Onda milli musiqi təfəkkürün və bütövlükdə xalq üslubunun təkrarsız bir qismi öz əksini tapmışdır. Azərbaycan musiqisinin yeni ümumdünya janrları və formaları ilə zənginləşməsi üçün bizim musiqimizin digər xalqların musiqi mədəniyyəti ilə sıx qarşılıqlı əlaqələrinin tərəfdarı olan Hacıbəyov, eyni zamanda milli ənənələrə ehmallı münasibətin zəruriliyini daim qeyd edirdi. Azərbaycan musiqisinin digər xalqların musiqi mədəniyyətləri ilə qarşılıqlı münasibətlərinin və təsirlənmələrinin ən mühüm xüsusiyyətlərindən biri kimi Hacıbəyov, öncə musiqimizdə olmayan janr və formalarla zənginləşməsini hesab edirdi. İnstrumental musiqinin müxtəlif kompazisiyaları arasında sonata forması geniş dramatik kompozisiyadır ki, müxtəlif musiqi surətlərinin, fikirlərinin təzadlı qarşılaşdırılmaları, bəzən isə gərgin və ziddiyyətli toqquşmaları nəticəsində yaranır. Sonata forması – irihəcmli instrumental əsərin hissələrindən birinin (adətən birincinin) daxili quruluşunun təyinidir. Ekspozisiya işlənmə və epiloq – kodası olan repriza, sonata formasının üç əsas bölməsidir. Sonata formasının əsasını təkrarlanan ikimövzululuq təşkil edir.

Ekspozisiya – iki mövzunun ifadəsidir. Birincisi, əsas mövzu, bütün əsərin əsas tonallığıda ifadə olunur. Onun intonasiya məzmunu bütün əsərin xarakterini əhəmiyyətli dərəcədə müəyyən edir. İkinci mövzu, köməkçi partiya, birinciyə təzad təşkil edən yeni tonallıqda ifa olunur. Köməkçi partiyanın adı tarixən onun nəticəsində yaranmışdır ki, sonata formasının ikinci mövzusu, əsas deyil, "köməkçi" tonallıqda ifa olunurdu. Bəstəkarlar sonatanı parlaq melodik məzmunla zənginşləşdirməyə çalışırdılar. Bununla əlaqədar, bir çox sonatalarda bağlayıcı partiyalar əsas partiyanın intonasiyaları üzərində qurulurlar ki, bu da əsərə yekparəlik gətirir. Lakin yeni müstəqil melodiyalı bağlayıcı partiyalara da rast gəlmək olur ki, onları köməkçi partiyadan tonal qeyri-sabitlik, ifadənin natamamlığı fərqləndirir. Bəzən yeni ifadəli mövzu ekspozisiyanın sonunda meydana çıxır ki, onu tamamlayıcı partiya adladırırlar. Lakin adətən tamamlayıcı partiya, əsas mövzunun qayıtması və inkişafı üzərində qurulur.

Sonata formasının ikinci böyük bölməsi – işlənmədir ki, öncəki musiqi məzmununun inkişafına aparıcı musiqi mövzuların və surətlərin (əsas köməkçi və tamamlayıcı partiyalar) qarşılaşdırılmasına və gərgin mübarizəsinə əsaslanır. İşlənmə bütün musiqi kompozisiyasının ən parlaq və dinamik inkişaf mərhələsidir. Məhz burada, ekspozisiyanın əsas surətləri və musiqi ideyaları yeni şəkildə, elə bil ki, müxtəlif nöqteyi-nəzərlərdən açıqlanır.

Sonata formasının üçüncü bölməsi repriza, ekspozisiyanın musiqi materialını dəyişdirilmiş şəkildə qaytarır və təsdiqləyir. Reprizanın ən mühüm fərqi (xüsusiyyəti) əsas və köməkçi partiyalar arasındakı tonal təzadın yox olmasıdır. Tematik qarşılaşdırılmaların dramatik ziddiyyəti bir qədər mülayimləşir. Hissənin ümumi kompozisiyasını sonluq yekunlaşdırır. Sonata silsiləsinin iti sürətli, fəal birinci hissəsi ("sonata alleqro" – su) böyük bədiiliklə gerçəkliyin bu və ya digər tərəflərini və ən əvvəl insanın daxili aləminin müxtəlifliyini, onun həyəcanlarını və ovqatlarını, həyat mübarizəsini və həm də insan xarakterlərinin müxtəlif tərəflərini canlandırır.

Klassik sonataların əksəriyyətinin birinci hissələri inkişafının gərginliyi ilə səciyyələnir. Klassik sonatanın ikinci hissəsi – yavaşdır, ahəngdardır. Adətən sadə mahnı xarakterlidir. Sonataların yavaş hissələrinin temp göstəriciləri: Andante, Adagio, Largo. Klassik sonatanın üçüncü hissəsi adətən çox iti tempdə ifa olunur. XVIII əsr sonatalarının finallarının əksəriyyəti işıqlı, nikbin dünyagörüşünü ifadə edirlər. XIX əsrdə klassik sonataların bədii məzmun dərinliyinin və əhəmiyyətinin artması ilə əlaqədar finallar daha çox sonata formasında yazılırdı. Tez-tez onlar bütün əsərin dinamik kulminasiyası əhəmiyyətini daşıyır. Bethoven sonatalarının bir çoxunun finalları belədir.

Sonata formasının əsasını təkrarlanan ikimövzululuq təşkil edir. Romantiklərin yaradıcılığında mühafizə edilmiş klassik sonata, şəklini dəyişir. Lirik ovqatın üstünlüyü sayəsində sonata formasında ovqat artıqlığı aşkarlanır. Köməkçi partiyanın rolu artır. İfadəli təfsilatlara, rəngarəng momentlərə meyil yeni tipli sonata işlənməsinin yaranmasına səbəb olur. Romantik

sonatalar üçün mövzuların variasiya transformasiyası, fasiləsiz inkişafı səciyyəvidir. Romantik bəstəkrlar sərbəst formaya meyil edirdilər.

Müstəqil məşqlər zamanı tələbənin özünə nəzarət etməsi vacibdir. Bu qabiliyyətin inkişafı ilə tələbə müstəqilləşir və müəllimin köməyi ilə artıq özü də özünə xas olan mənfi keyfiyyətləri aradan qaldırmağa cəhd edir. Özünə nəzarət musiqiçi üçün son dərəcə səciyyəvi hal olmalıdır. Çünki o öz daxilində gedən emosional proseslərə nəinki nəzarət etməyi bacarmalı, o, onları idarə etməyi və Musiqi əsərinin məzmununun dərki, kompozisiya quruluşunu anlamadan və musiqi ifadə vasitələrini aşkarlamadan mümkün deyil.

Fortepiano sinfinin məşğələlərində istifadə olunan musiqi əsərlərin əsas formalarını təhlil edib belə nəticəyə gəldik ki, musiqi əsərlərinin quruluş qanunlarının dərki musiqinin hədsiz mənəvi zənginliyinin daha dolğun və dərindən anlaşılmasına imkan verir. Bəstəkar əsərin konkret məzmununa və ideyasına uyğun olan formanı, kompozisiya planını seçir yaxud yaradır. Forma musiqi materialını elə yerləşdirir ki, müəllifin ideyası daha dolğun və dərindən ifadə edilsin, sonra isə dinləyicilər tərəfindən qavranılsın və anlaşılsın. Bu əsərin forması haqqında təsəvvür onun haqqında vahid bədii təsəvvür üçün möhkəm əsas olmalıdır.

Problemin aktuallığı. Aktuallıq ondan ibarətdir ki, musiqi əsərinin mahiyyətinin başa düşmək və onun emosional təsirini hiss etmək üçün ifaçının bu vasitələri düzgün qavraması və tətbiq etməsi zəruridir.

Problemin yeniliyi. Musiqi ifadə vəsitələrinin mənimsənilməsi musiqi əsərinin dərk olunması üçün vacib şərtlərdən biridir. Musiqinin əsas struktur elementləri kimi, melodiyanın quruluşu və ritmin dinamikası əsərin xarakterini açmağa kömək edir.

Problemin praktik əhəmiyyəti. Musiqinin əsərinin harmonic quruluşunu başa düşmək onun dramatik inkişafını izləməyə və duymağa imkan yaradır.

Ədəbiyyat

1. Арчажникова, Л. Профессия – учитель музыки / Л.Арчажникова, – Москва, Просвещение, – 1984, – 110 с.
2. Алексеев, А.Д. История фортепианного искусства / А.Д.Алексеев, – М, – 1988, – 415 с.
3. Холопов, Ю.Н. Введение в музыкальную форму/Ю.Н.Холопов, –Москва: МГК, –2006, –432 с.

I.A.Ahmadova

Mastering Musical Expressive Means as a Factor in Understandimg a Musical Piece

Summary

Mastering musical expressive means plays a key role in understanding a musical piece. Their conscious use allows the performer to convey emotions and the character of the piece more deeply. Without knowledge and command of these means, achieving expressive and meaningful performance is impossible.

Key words: *student, dinamic, music, homophony, piano*

И.А.Ахмедова

Освоение музыкально-выразительных средств как фактор понимания музыкального произведения

Резюме

Освоение музыкально-выразительных средств играет ключевую роль в понимании музыкального произведения. Их осмысленное использование пользоволяет исполнителю глубже передать эмоции и характер произведения. Без знания и владения этими средствами невозможно достичь выразительного и осмысленного исполнения.

Ключевые слова: *студент, динамика, музыка, гомофония, фортепиано*

Rəyçi: sənət. f.d., dos. A.F.Aşumova
Redaksiyaya daxil olub: 06.05.2025

M.T.ƏLİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
e-mail: m.aliyeva60@gmail.com
:https://orcid.org/0000-0002-2005-6090

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MUSİQİ TƏHSİLİ VƏ İKT

Xülasə. *Məqalədə göstərilir ki, effektiv tədris texnologiyalarının inkişafı əsasən kompüterləşdirmənin sürətindən və keyfiyyətindən asılıdır. Postsovet ölkələrində musiqi təhsili müəssisələrində ixtisaslaşdırılmış kompüter sinifləri açılır, musiqi və informasiya texnologiyaları kafedraları və mərkəzləri təşkil olunur. Lakin Azərbaycanda bu proses bizim istədiyimiz kimi yaxşı getmir. Musiqi informatikasının tədrisinin keyfiyyətinə gəlincə, burada elmi əsaslandırılmış konsepsiyanın olmaması və təlimin metodiki və metodoloji əsaslarının yetərincə inkişaf etdirilməməsi ilə bağlı müəyyən problemlər mövcuddur. Məqalə məhz bu problemin həlli yollarının axtarışına həsr edilmişdir.*

Açar sözlər: *musiqi təhsili, informasiya texnologiyaları, təhsil proqramları*

Müasir informasiya cəmiyyətinin hazırkı inkişaf səviyyəsi tədris metodları ilə bağlı ənənəvi fikirləri kökündən dəyişmişdir. Bu, istisnasız olaraq bütün elmi fənlərə, o cümlədən sənətlə bağlı olanlara təsir etdi. Hər yerdə, dövlət və özəl təhsilinin bütün sahələrində yeni biliklərin əldə edilməsinə informasiyalı yanaşma daha geniş və uğurla tətbiq olunur. Bu vəziyyət əsasən təhsilin keyfiyyətinə artan tələblərdən, mümkün təlim üçün vaxtın real obyektiv azalmasından və nəhayət, gələcək gənc mütəxəssislərin öyrənməli olduğu çox böyük miqdarda elmi məlumatlardan qaynaqlanır.

Səmərəli tədris texnologiyalarının inkişafı əsasən kompüterləşdirmənin sürətindən və keyfiyyətindən asılıdır. Postsovet ölkələrində informasiya texnologiyalarının universitetin musiqi təhsili prosesinə tətbiqi kifayət qədər sürətlə gedir. Musiqi təhsili müəssisələrində ixtisaslaşdırılmış kompüter sinifləri açılır, musiqi və informasiya texnologiyaları kafedraları və mərkəzləri təşkil olunur. Lakin Azərbaycanda bu proses bizim istədiyimiz kimi yaxşı getmir. Musiqi informatikasının tədrisinin keyfiyyətinə gəlincə, burada elmi əsaslandırılmış konsepsiyanın olmaması və təlimin metodiki və metodoloji əsaslarının yetərincə inkişaf etdirilməməsi ilə bağlı müəyyən problemlər mövcuddur.

Məhz bununla izah olunur ki, musiqi yönümlü ali məktəbləri üçün təkcə sırf texniki problemlərin həllinə və səs rejissorları, səs operatorları, musiqi kompüter sistemlərinin proqramçıları deyil, həm də musiqiçilər – bəstəkarlar, ifaçılar, musiqişünaslar və s. üçün musiqi informatikası üzrə tədris proqramlarının yaranması zəruridir. Çünki musiqi informatikasının tətbiq dairəsi, təlim kursunun məqsəd və vəzifələri daha genişdir və yalnız kompüter texnikasının və musiqi yönümlü proqram təminatının hazırlanması ilə məhdud deyil.

Hazırda Azərbaycanda ali musiqi təhsilində yeni fənlərin, məsələn, "Kompüter musiqisi redaktorlarının məqsədi və imkanları (Finale, Sibelius)" və ya "Elektroakustik və kompüter musiqisi: texnologiyanın xüsusiyyətləri, əsas istiqamətlərinin inkişafı" kimi yeni fənlərin tətbiqinə ehtiyac var. Bu məsələdə biz təkcə Qərbin (ABŞ və Avropa ölkələri) və Asiyanın qabaqcıl ölkələrindən (Yaponiya, Koreya, Çin), hətta postsovet məkanının respublikalarından (Ukrayna, Belarusiya, Rusiya və s.) xeyli geridəyik.

Musiqi təhsilinin kompüterləşdirilməsi problemi bütün dünyada aktualdır. Belə ki, hələ 2002-ci ildə Millikin Universitetinin professoru Ronald Ya Deau Minskdə keçirilən "Bədii mədəniyyət kontekstində musiqi təhsili" mövzulu beynəlxalq konfransında bu barədə danışıb.

ABŞ-da mövcud musiqi təhsili sisteminin əsas vəzifələri sırasında ilk olaraq təhsil prosesinin kompüterləşdirilməsinin adını çəkdi.

İlk dəfə olaraq keçmiş SSRİ-nin musiqi yönümli ali məktəblərində akademik bir fənn kimi musiqi informatikasının məzmunu və vəzifələri Kiyev musiqişünası L.İ.Dıs tərəfindən irəli sürülmüşdir. O, musiqi informatikasını musiqişünaslıq çərçivəsində spesifik bir yanaşma hesab edirdi, harada ki, musiqi-bədii (intonasiya) informasiyasının formalaşması, saxlanması, ötürülməsi və çevrilməsi qanunları və üsulları araşdırılır. Bu fənnin tədqiqi obyektləri "...bir tərəfdən kompüter texnologiyasının vasitələrinin özü, digər tərəfdən və hər şeydən əvvəl isə məzmun və formanın qanunauyğunluqlarının quruluşu nöqteyi-nəzərindən musiqi-bədii fəaliyyətin prosesləri və onun nəticələri – yəni musiqi informasiyasıdır" [1, s. 12].

Müəllif digər humanitar elmlər üçün əvvəllər kibernetika tərəfindən tərtib edilmiş aşağıdakı metodoloji və metodik prinsipləri rəhbər tutmağı təklif etdi:

– Kompüter texnologiyaları kompleksi yalnız humanitar problemlərin həlli üçün bir vasitədir; problemin qoyuluşu və onun həlli prosesində hazır proqram təminatının imkanlarından deyil, musiqi nəzəriyyəsi və praktikasının inkişaf səviyyəsindən və tapşırıqlarından çıxış etmək lazımdır.

– Musiqi əsərinin parametrlərinin, ifasının və musiqişünaslığın kateqoriyal aparatının alqoritmik təsviri o dərəcədə rəsmiləşdirilməlidir ki, hansı ki bədii əsərlərə xas olan çoxmənalılığı və metaforikliyi qoruyub saxlamağa imkan verəcək.

– Musiqili-nəzəri, tarixi, praktiki problemlərinin kompüterdə həyata keçirilməsi sisteminin yaradılması strategiyası empirik şəkildə deyil, musiqi təfəkküründün ümumi problemlərinin alqoritmik təsvirindən, onun tədricən detallaşdırılmasından və musiqi fəaliyyətinin konkret növlərinə proyeksiyasından irəli gəlməlidir.

Biz hesab edirik ki, bu prinsiplər musiqi yönümlü ali məktəblərdə "Musiqi informatikası" kursunun təhsil proqramının əsasını təşkil etməlidir.

İnformasiya texnologiyalarında keyfiyyət dəyişiklikləri ənənəvi təhsil prosesinin təhlilini tələb edir. İlk növbədə tələbələrə axtarış işləri aparmaq, verilənlər bazalarını internetin kitabxanalarından, məqalələr toplularından aktiv şəkildə doldurmaq üçün tapşırıqlar verilməlidir. Şübhəsiz ki, bu, elmi-metodiki iş mədəniyyətinin yüksəldilməsinə kömək edəcəkdir. Çox aktual vəzifə tələbələrə musiqi mətnlərini yazmaq üçün kompüterdən necə istifadə etməyi öyrətməkdir (burada "Encore" və "Sibelius" proqramlarını göstərə bilərik).

Bu yüksək peşəkar sistemlər istənilən mürəkkəblikdə not mətnlərini yazmağa imkan verir. Lakin yeni başlayanlar üçün onlar çətindir, onları tez mənimsəmək olmur, çox çalışmaq lazımdır. Amma nəticələr çox təsiredicidir; Yığılmış və printerdə çap edilmiş notların keyfiyyəti heç bir şəkildə nəşriyyatdan aşağı deyil. Hər şeyi yığmaq olur: tək səsli və çoxsəsli partituralar, hər bir alət və ya xor səsləri üçün partiyalar, onları lazım olan alətlər üçün və tonallıqlara transpozisiya etmək, xor partituraları və vokal partiyaları mətnlə də təmin edilir. Hazırlanmış musiqi mətnləri bədii mətnlərə nisbətən asanlıqla daxil edilir. Hətta siz yazdıqlarınızı səsləndirə və dinləyə bilərsiniz.

Bu iş formasını mənimsəmək musiqişünaslar, ifaçı musiqiçilər və musiqi müəllimləri üçün zəruridir. Məsələn, bu texnikanı mənimsəyən bəstəkarlar musiqi bəstələməyi birbaşa kompüterdə öyrənə bilərlər. Daha təkmil səs kartları və səs bərpası sistemlərinin meydana çıxması ilə harmoniya məsələlərini səsləndirmək, polifoniya və alətşünaslıqda sadə çalışmalar üçün "Sibelius" və ya "Finale" istifadə etməyi tövsiyə edə bilərik. Həm də belə bir texnika evdə çalmağı, ansamblda oxumağı öyrənmək istəyənlər üçün faydalı olardı: artıq məlum olan "minus bir" sistemlər kompüterdə düzəldilə bilər və istənilən insan özü məşq edə bilər (əlbəttə ki, real "canlı ansambl" şəraitdə əlavə düzəlişlərin aparılması şərti ilə). Bu bacarıq xüsusilə musiqi müəllimləri üçün vacibdir.

Məlumdur ki, ölkəmizin müasir məktəblərində fortepiano aləti siniflərdə yoxdur, bəzi məktəblərdə alət sadəcə məktəbin böyük zalında vardır. Lakin kompüterlər və "karaoke" sis-

temləri demək olar ki, bütün məktəblərdə mövcuddur. Belə olan halda musiqi müəllimi sinifdə uşaqlara bir əsəri oxumağı öyrədəndə özü düzəltdiyi "minus" sistemindən istifadə edə bilər. Eləcə də məktəb tədbirlərində, müxtəlif respublika müsabiqələrində, açıq havada çıxışlarda bu sistemlərdən istifadə etmək yaxşı olar. Buna görə də pedaqoji və musiqi yönümlü universitetlərin təhsil proqramına yeni fənlər daxil edilməlidir ki, gələcək musiqi müəllimlərinin təhsili dövründə onlar bu bacarıqlara yiyələnə bilsinlər.

Fikrimizcə, bütün ali məktəblər üçün informatika kursunda eyni hədəfləri vermək düzgün deyil. İlk başda maddi şərait yaratmaq (yeni tipli mütəxəssis-pedaqoqlar, yəni tariflər və insanlar, kompyüterlər üçün xüsusi otaqlar) və sınaq təlim proqramları hazırlamaq, sonra onların aprobasiyasını həyata keçirmək lazımdır.

Müasir musiqi təhsilinin aktual problemlərindən biri də, bir tərəfdən təkcə ölkəmizdə deyil, xaricdə də çoxsaylı təhsil ocaqlarında aparılan yeniliklərdən, elmi tədqiqatlardan musiqiçilərin məlumatlı olmaması, ədəbiyyatın axtarışı zərurəti (musiqi nəşrləri də daxil olmaqla) və digər tərəfdən, öz təhsilinin sərhədlərini genişləndirmək ehtiyacı. Musiqi təhsili sisteminin xüsusiyyətlərini, onun əsasən fərdi şəkildə həyata keçirilməsini, yəni ifaçılıq və bəstəkarlıq kimi yaradıcılıq ixtisaslarının tədrisində müəllimlə birbaşa əlaqəyə ehtiyacının olmasını nəzərə alaraq, qarşılıqlı əlaqə kommunikasiya vasitələrinə əsaslanan yeni pedaqoji texnologiyaların, təlim-tərbiyə işinin yeni metod və formaların işlənib-hazırlanması və yaradılmasını aktualdır.

Müasir musiqi təhsilinin problemini həll etməyin yeganə yolu tədris tapşırıqlarının struktur bölgüsü (nəzəriyyə-təcrübə), ixtisasın şüurlu seçimi (müxtəlif sınaq növləri) və biliyə nəzarət vasitələrinə uyğunlaşdırılmış üsullardır. Paralel olaraq inkişaf edən iki ümumi tendensiya var: birincisi, kompüter texnologiyasından istifadə edərək müəllimlər tərəfindən tədris materialının tədrisi (proqram təminatı özünütəkmilləşdirməyə uyğunlaşdırılmayıb və müəllimin şəxsi nəzarətini tələb edir); ikincisi, uyğunlaşdırılmış proqram təminatından istifadə etməklə tələbələrin müəyyən həcmdə bilikləri müstəqil mənimsəməsidir.

Beləliklə, tədris prosesinin məhdud strukturlaşdırılmasının (xüsusilə musiqinin tədrisinin ilk mərhələlərində) şübhəsiz faydasını dərk edərək, müxtəlif incəsənət biliklərində daha mükəmməlliyə nail olmaq üçün biz informasiya texnologiyalarının təkcə ibtidai və orta təhsildə deyil, həm də xüsusi incəsənət və musiqi ali təhsil səviyyəsində geniş tətbiqinə müəyyən meylin olduğunu aydın görürük.

Kompüter texnologiyaların tərəqqisi və xüsusi musiqi təhsilinin məqsədləri bir-birilə yanaşı gedir. Xüsusi musiqi təhsilinin qlobal məqsədi həmişə sənət nəzəriyyəsi və təcrübəsinin yüksək keyfiyyətli mənimsənilməsi olmuşdur. Bununla belə, son illərdə alınan musiqi informasiyasının həcminin uçqun kimi artması ilə əlaqədar olaraq, təkcə səslənən musiqi materiyasına deyil, həm də hadisələrin mahiyyətinə aid bütün məlumatların sistemləşdirilməsi və qorunub saxlanılması məsələsi xüsusi kəskinliklə ortaya çıxır.

Musiqi nəzəriyyəsi və praktikasının mənimsənilməsinin kifayət qədər mürəkkəbliyi, çoxlu miqdarda xüsusi məlumatlara görə, musiqiçilərə çox rahat və uzun müddət oxumaq şansı qoymur. Səmərəli peşə hazırlığının məqbul sürətinə (keyfiyyətli) musiqi təhsili almaq üçün yeni yanaşmalardan istifadə etməklə nail oluna bilər. Müqayisə edək: orta hesabla, musiqi məktəbindən tutmuş ali məktəb magistraturasını bitirənə qədər adi bir musiqiçiyə 17 il vaxt lazımdır (7+4+4+2) və bu, hətta ən yaxşı halda belədir! Digər təsadüfi amillərlə (ilk dəfə qəbul olmaması, hərbi xidmət və s.), təlim 20-22 il davam edir. Yəni əgər informasiya axınının artması hesabına təlim müddəti artırsa, o zaman ali musiqi təhsili almaq prosesi 25 ilə çata bilər. Bu çox deyilmi? Bu baxımdan, bir çox məzunun dar bir ixtisasa sahib olmaq istəyini izləmək olar, bəlkə də yaxınlaşan informasiya fırtınası fonunda bu vəziyyət özünü doğrulda bilər.

Elmi nəticə. Beləliklə, biliklərin müasir səviyyəsi artıq müasir informasiya texnologiyalarının demək olar ki, hamısını tələb edir. Bu yüksək bilik səviyyəsi musiqi elminin və praktikasının bütün problemlərini daha səmərəli həll etmək üçün təlim və yüksək ixtisaslaşmış peşəyə yiyələnmə müddətinin azaldılmasını nəzərdə tutur. Musiqi təhsilində universal informa-

siya yanaşmasına keçid bütün musiqi təhsili müəssisələrinin maliyyələşdirilməsi ilə bağlı məntiqi əsaslandırılmış qərar və dövlət orqanlarının güclü dəstəyini tələb edir. Qarşıdakı 5-10 il ərzində tam sürətlə gedən informatizasiya prosesini ala biləcək yeni mütəxəssislərin yetişdirilməsi zəruridir. Nəticə etibarilə, kadr və maliyyə problemlərinin əlverişli aradan qaldırılması ilə musiqi təhsilinin tam kompüterləşdirilməsinə keçid reallaşa bilər.

Elmi yenilik. Məqalədə Azərbaycanda musiqi təhsilində universal informasiya yanaşmasına keçidin labüdlüyü kimi müasir musiqi təhsilinin problemi qaldırılır və bunun üçün lazımi şərtlər göstərilir.

Tətbiqi əhəmiyyəti. Məqalədə qaldırılan məsələlər musiqi təhsilinin tam kompüterləşdirilməsi, təhsil vaxtının qısaldılması, yeni mütəxəssislərin yetişdirilməsi sahəsində labüd olan işlərin görüməsi üçün faydalı ola bilər.

Ədəbiyyat

1. Дыс, Л.И. Основы музыкальной информатики: Лекции / Л.И.Дыс, – Киев, – 1988. – 12 с.
2. Həsrət, A. Təhsildə İKT və informasiya mədəniyyəti. / Metodik vəsait. Azərbaycan Respublikası Təhsil problemləri institutu. – Bakı, – 2016. Elektron resurs: https://www.kaspi.az/az/
3. Hüseynova, T. Ali təhsil müəssisələrində informatika fənninin tədrisində İKT-nin tətbiqi/ Elektron resurs: https://ru.scribd.com/presentation/

M.T.Aliyeva

Musical Education and IKT

Summary

The article indicates that the development of effective teaching technologies largely depends on the pace and quality of computerization. In post-Soviet countries in music educational institutions, specialized computer classes are opened, departments and Centers for music and information technologies are organized. However, in Azerbaijan this process is not going as well as we would like. As for the quality of teaching music informatics, there are certain problems associated with the lack of a scientifically based concept and the insufficient development of methodological foundations of training. This article is devoted to the analysis of this problem.

Key words: *music education, information technology, educational programs*

M.T.Алиева

Музыкальное образование и ИКТ

Резюме

В статье показано, что развитие эффективных образовательных технологий во многом зависит от скорости и качества компьютеризации. На постсоветском пространстве в музыкальных учебных заведениях открываются специализированные компьютерные классы, организуются кафедры и центры музыкальных и информационных технологий. Однако этот процесс в Азербайджане идет не так хорошо, как хотелось бы. Относительно качества преподавания музыкальной информатики имеются определенные проблемы, связанные с отсутствием научно обоснованной концепции и недостаточной разработанностью методических и методологических основ обучения. Статья посвящена поиску решения этой проблемы.

Ключевые слова: *музыкальное образование, информационные технологии, учебные программы*

Rəyçi: ped.e.d., prof. T.Ə.Bağırova

Redaksiyaya daxil olub: 27.04.2025

N.M.ƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: nur.mikayil@gmail.com
:https://orcid.org/0009-0000-2512-0744

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.268

ALİ MƏKTƏBLƏRİN AŞAĞI KURSLARINDA İNGİLİS DİLİNDƏ TAPŞIRIQ ƏSASLI DİL TƏDRİSİNDƏN İSTİFADƏ METODİKASI

Xülasə. *Məqalədə dil öyrənmədə müasir yanaşmalardan biri olan tapşırıq əsaslı dil təlimindən bəhs edilir. Tapşırıq əsaslı dil təlimi xarici dillərin tədrisində mühüm rola malikdir. Sözügedən tədris metodunun ən faydalı tərəflərindən biri dilöyrənənləri təcrübi kontekstlərə alışdırmaqdır. Bu zaman təhsilalanlar real dünyaya dair tapşırıqlara fokuslanmaqla, öz dil bacarıqlarını inkişaf etdirirlər. Bu tapşırıqlar öz növbəsində gündəlik situasiyalara uyğun və relevant hesab edilir. Burada dilöyrənənlər öz dil səriştələrini mənalı oxu, yazı, dinləmə, danışıq, eyni zamanda bu fonda interaktiv tapşırıqlar vasitəsilə genişləndirmək imkanına malikdirlər.*
Beləliklə, adıgedən təlim metodu tədrisin səmərəliliyinin artırılmasında geniş imkanlar təklif edir.

Açar sözlər: *tapşırıq, öyrənmə, inteqrasiya, səriştə, metod*

Qeyd edək ki, yuxarıda bəhs etdiyimiz təlim metodu əsasən üç mərhələni əhatə edir.

Bunlar aşağıdakılardır:

– tapşırıqdan əvvəl

–tapşırığın icrası

– tapşırıqdan sonra

Bu mərhələlərin hər biri öyrənməni və yaddasaxlamanı optimallaşdırmaq üçün nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, tapşırıq əsaslı təhsil sorğu əsaslı dil təliminə bilavasitə uyğunlaşdırılmışdır.

Onu da vurğulayaq ki, D.Nunan (2007) tapşırıq əsaslı dil təlimindən bəhs edərkən 7 prinsipin adlarını qeyd edir.

Onları təqdim edirik:

1. Dəstək(Scaffolding)
2. Tapşırıqdan asılı (Task dependency)
3. Təkrar (Recycling)
4. Fəal öyrənmə (Active learning)
5. İnteqrasiya (Integration)
6. Yaradıcılıq (Creativity)
7. Əks etdirmə (Reflection) [5].

Yeri gəlmişkən, vurğulayaq ki, tapşırıq əsaslı dil tədrisi tapşırıq əsaslı təlimat kimi də nəzərdən keçirilir.

Eyni zamanda öyrənilən dildə mənalı və rəngarəng tapşırıqların tamamlanmasında autentik materialların istifadəsinə fokuslandırılır. Belə tapşırıqlardan bəzilərinin adlarını qeyd edirik. Çünki bunlar real həyati situasiyalarla bilavasitə uyğunluq təşkil etməkdədir.

– həkimə getmək;

– müsahibə vermək və ya almaq;

– xidmət mərkəzini köməyə çağırmaq və s.

Yuxarıda adlarını qeyd etdiyimiz mərhələlərin mahiyyətinə nəzər salaq.

Tapşırıqdan əvvəl (pre-task)

Bu mərhələ ərzində müəllim, əgər ehtiyac yaranarsa, bütöv dərsi həmin tapşırıqlara həsr edir. Eyni zamanda təhsilalanları bunları həll edərək, öhdəsindən gəlməyə ruhlandırır. Təhsilalanlara tapşırıqların həlli zamanı hansı gözləntilərinin olması barədə məlumat verir. Bu zaman verbal izahlar təqdim edilərək, müəllim tərəfindən nümunələr əsasında dəstəklənməli və ya əvvəlki tapşırıqlar əsasında nümunələr təqdim edilməlidir.

Növbəti mərhələdə onlara təlimatları verməli, necə yanaşma həyata keçirmək barədə tövsiyələr təqdim etməlidir. Daha sonra təhsilalanlara öz həll edəcəyi tapşırıqları şəxsi bilik və həyati təcrübələrinə əsaslanaraq yazmağı tapşırmalıdır.

Tapşırıq zamanı (Task)

Xüsusilə vurğulayaq ki, bu mərhələ sözügedən tədris metodunda ən mühüm mərhələ hesab edilir.

Bu mərhələdə də müəllim tam dərsi, ehtiyac yaranarsa, tapşırıqların yerinə yetirilməsinə həsr etməlidir. Bu zaman tələbələr müxtəlif səpkidə mövcud olan tapşırıqlar üzərində işləməyə başlayırlar. Bu cür fəaliyyətlər adətən qrup və ya cütlərlə həyata keçirilir.

Eyni zamanda bu əsas mərhələnin reallaşdırılması zamanı demək olar ki, öyrənilən dilin istifadəsinə tam şəkildə yer verilməlidir.

Bundan əlavə, təhsilalanlar öyrənmək istədiklərini hiss etməlidirlər. Bu anlamda öyrənilən dildən istifadəyə ehtiyacın olduğu qənaətinə gəlməlidirlər. Bu da bütövlükdə, tapşırıqların həlli üçün nəzərdə tutulur. Bu zaman adətən müəllim iş prosesinə qoşulur. Burada təhsilverənlər dilöyrənənləri düzgün istiqamətləndirir, dəstək üçün ehtiyac yarandıqda köməklik göstərir.

Beləliklə, müəllim dəstəkləyici funksiyanı yerinə yetirir.

Tapşırıqdan sonra (The Review or post-task)

Bu mərhələnin gedişində artıq yerinə yetirilmiş tapşırıqlar müəllim tərəfindən yoxlanılır, müəyyən müzakirələr aparılır, buraxılmış səhvlər gözdən keçirilir.

Bu mərhələnin maraqlı tərəflərindən bəziləri budur ki, bu zaman təhsilalanlar birbirlərinin işlərini yoxlayır, daha sonra müəllimin yoxlamasına təqdim edirlər.

Onu da qeyd edək ki, burada səhvlərin düzəldilməsi zamanı izahatlar verilməli, fidbək müzakirələri aparılmalı, müstəqil fikir və rəylərin bildirilməsi həyata keçirilməlidir.

Beləliklə, adını qeyd etdiyimiz bu mərhələ dilöyrənənlərə özlərini ifadə etmək, fikirlərini yerinə yetirdikləri tapşırıqlar fonunda əks etdirmək, gələcək uğurlara doğru istiqamətlənməkdə geniş imkanlar və fürsətlər təklif edir.

Tapşırıqların çətinlik dərəcəsi ilə bağlı D.Nunanın bir sıra araşdırmaları vardır və tədqiqatçı bu aspektdə təhlillər həyata keçirmişdir.

Onun fikrincə, çətinlik səviyyəsi artırılmış tapşırıqlarda tələbələr bir sıra problemlərlə üzləşirlər.

Problem yarada biləcək amilləri D.Nunan aşağıdakı formada təsnifləndirir:

1. Tapşırığın mətninin uzunluq dərəcəsi;
2. Tapşırıq mətnindəki sıxlıq (əhatə olunan məlumatlar);
3. Tapşırıq mətnindəki mövcud lüğət tərkibi;
4. Dinləmə mətnindəki sürət tempi və sayı [4, s.123].

Qeyd edilir ki, tapşırığın mətninin uzunluq dərəcəsi təhsilalanlar üçün ciddi hesab edilən çətinliklərlə müşayiət oluna bilər. Çünki mətnin həcmcə böyüklüyü onun əhatə etdiyi məlumatların həcminin də geniş olmasını diktə edir [4, s.126].

Tapşırıq mətnində verilmiş çoxlu məlumatlarla üzləşən təhsilalanlarda tapşırığın həlli istiqamətində qorxu, həyəcan hissi yarana bilər.

Bundan əlavə, tapşırıq mətnindəki istifadə edilmiş sözlərdəki çətinlik səviyyəsinin yüksək olması və ya tələbələrə yeni olan sözlərin işlədilməsini tapşırmaq onlarda çətinliklərə yol açan amillərdəndir.

Tapşırıq əsaslı dil tədrisində təhsilverənlərin ən başlıca rolu təhsilalanları yaxından tanımaqdan, daha dəqiq desək, onların bilik səviyyələrindən xəbərdar olmaqdan ibarətdir. Çünki yalnız tələbəsini tanıyan müəllim onların cari bilik səviyyəsinə uyğun tapşırıq seçə bilər.

Təhsilalanların bilik, bacarıq və vərdişlərinə yönəldilən tapşırıqlar bəzən təkcə bir dilöyrənəni deyil, tələbə qrupunun da diqqətini cəlb edə bilər. Bu zaman müəllimin vəzifəsi çətinləşir. Belə ki, bəzi tapşırıqlar növbəti dərsdə, bəziləri isə bir neçə həftə ərzində yerinə yetirilə bilər. Öyrənmə çətinliyi çəkən tələbə üçün tapşırıqlar nəzarət altında və yoxlama şəraitində aparılan zaman uğurla nəticələnir.

Tapşırıq əsaslı dil tədrisi bir çox metodistlərin tədqiqat mövzusuna çevrildiyini artıq qeyd etdik.

Buradan aydın olur ki, metodistlərin fərqli yanaşmaları olmuş və bu təlim metodunun əsasında dayanan "tapşırıq" terminə fərqli təriflər verilmişdir.

Tədqiqatçıların fikrincə, tapşırıq real həyati situasiyalara əsaslanan bütün növ ünsiyyət formalarını əhatə edir.

Onlardan bəzilərini təqdim edirik.

– bir hasarın rənglənməsi,
– gediləcək yerin istiqamətinin öyrənilməsi,
– mağazadan uyğun ölçüdə ayaqqabı istənilməsi,
– kitabxanadan kitab götürülməsi,
– hava limanından bilet sifarişi,
– yolu keçən şəxsə yardım edilməsi,
– mehmanxanadan otaq rezervi və s.

Bütün bunlar əslində elə tapşırığın özü hesab edilir.

Başqa sözlə desək, tapşırıq insanların adi gündə qura bildikləri bütün söhbət və ya danışıqların məcmusu kimi dəyərləndirilir.

Tapşırıq əsaslı dil tədrisinin əsası tədris zamanı müxtəlif tapşırıqlardan istifadə edilməklə, dilöyrənənləri xarici dildə danışmağa sövq etməkdir.

Başqa sözlə ifadə etsək, tapşırıq həqiqi ünsiyyətin hazırlığı və ya hələ də sona çatmamış versiyasıdır. Tapşırıqları uğurlu və sistemli şəkildə həll etməyə qadir olan tələbə, özünü ikinci və ya xarici dildə danışmağa hazırlayır.

M.Brin isə tapşırığa başqa bir tərif vermişdir. Onun fikrincə, tapşırıq asandan çətinə doğru ikinci dilin öyrənilməsi istiqamətində yardımçı vasitədir. M.Brin burada asandan çətinə doğru fikrini xüsui olaraq vuğulamışdır. Bunun səbəbi isə çox aydın görünür. Əgər dilöyrənənlərin bilik səviyyəsini dərindən bilməsək, ona birbaşa çətin tapşırıqlar yönəltsək, bu tələbədə çaşqınlıq və dili öyrənmədə qorxu hissinin yaranmasına səbəb olacaqdır [1, s.187].

Tapşırıq əsaslı dil təliminde dərsin tərtibi məsələləri də maraq doğurur. Dərsin tərtibatı müxtəlif komponentləri əhatə edir. Eyni zamanda mühüm psinsiplərə xidmət etməkdədir. Bu komponent və prinsiplər də öz növbəsində bir sıra metodistlərin marağını cəlb etmişdir. Lakin onların bir çoxlarının tədqiqatı üst-üstə düşmüşdür. N.Prabhu, P.Skehan və C.Villis kimi metodistlərə görə tapşırıqların icrası üç hissəyə bölünür. Birinci hissə hazırlıq mərhələsi olaraq dəyərləndirilir. Çünki burada tələbə və ya dilöyrənənlər əsas tapşırıqları icra etmirlər. Onlar hazırlıq məqsədilə bəzi tapşırıqlar yerinə yetirirlər. Bu zaman dilöyrənənlərə çıxışlarını planlaşdırmaq üçün müəyyən vaxt da verilir. İkinci hissə isə əsas mərhələ hesab olunur. Belə ki, burada artıq təhsilalanlar tapşırıqların icrasını həyata keçirirlər. Bu da öz növbəsində onları qarşılıqlı ünsiyyət qurmağa sövq edir. Burada yalnız ikinci mərhələnin yerinə yetirilməsi zəruri hesab edilir. Çünki ancaq bu mərhələdə ünsiyyət prosesi reallaşdırıla bilir. Üçüncü hissə isə tapşırıqların icrasından sonrakı hissədir. Burada müəllimin rolu böyük olması ilə seçilir, çünki bu mərhələdə müəllim ikinci hissədə olan çatışmazlıqları təhlil edərək, təhsilalanların səhvlərini görməsi, onların bir daha təkrarlanmaması üçün şərait yaradır.

Onu da vurğulayaq ki, hər mərhələ öz spesifik xüsusiyyətləri ilə diqqət çəkir. Birinci mərhələ aşağıdakılardan ibarətdir:

– hazırlıqyönümlü tapşırıqları planlaşdırmaq;

– vaxtın uyğun bölünməsi;

–oxşar tapşırıqların yerinə yetirilməsi.

İkinci mərhələyə isə bunlar daxildir:

– vaxta nəzarət,

– əsas tapşırıqların həlli.

Nəhayət, ən son mərhələdə isə müəllim tərəfindən hesabatlar aparılır, fikir səhvlər üzərində işə yönəldilir.

Yeri gəlmişkən qeyd edək ki, tapşırıq anlayışı tanınmış metodistlər C.Edvards və C.Villisin də diqqətini çəlb etmişdir. Onlar bu terminin araşdırılması ilə məşğul olmuş, daha dərindən tədqiqatlar aparmış və tapşırığa aşağıdakı tərifləri vermişlər:

1. Tapşırıq formayönümlü deyil, məzmunyönümlüdür. Belə ki, burada dilöyrənən hər hansı bir təcrübənin xüsusiləşdirilmiş və ya qəlibləşdirilmiş formasına deyil, tapşırığın məna dəyişiminə, bu mənanı dərk etməyə çalışır.

2. Hər bir tapşırığın özünəməxsus məqsədə istiqamətləndirilməsi vardır. Dilöyrənənlər tapşırığın icrasından əvvəl mütləq şəkildə cari tapşırığın məqsədi ilə tanış olmalı və fikrini mütləq oraya yönəltməlidir;

3. İcrası tamamlanmış tapşırıq digər tələbələrlə paylaşılmalıdır;

4. Tapşırıq dilöyrənən tələbənin dinləmə, danışıq, oxu və yazı kimi bacarıqlarını inkişaf etdirməlidir;

5. Tapşırıq yönümlü dil dərsi məzmun əsaslı olduğundan, daha dəqiq desək, real ünsiyyətə xidmət etməkdən başqa, bəzən dilin qrammatikasının mənimsənməsində də rolu vardır [2, s.19].

Onu da vurğulamalıyıq ki, tapşırıq əsaslı dil təliminin əsas nöqtəsi olan tapşırığın hədəfi dilöyrənənlərdə sərbəst ünsiyyəti aşılamaqdan ibarətdir. Tapşırıq əsaslı dil təliminin əsasını dili qrammatik biliklər ön plana çəkilmədən mənimsəməni nəzərdə tutur. Burada əsas məqsəd kimi dilin mənimsənməsində oxu, yazı, dinləmə, danışıq bacarıqlarının inkişafı ön plana çəkilməklə dilin formasının deyil, məzmunun öyrənilməsini aşılamaqdır. Lakin bu o demək deyil, adı gedən dil təlimi dilöyrənənlərə heç bir qrammatik səriştə aşılamır.

Yeri gəlmişkən, xarici dilin mənimsənməsinə xidmət edən metod və ya yanaşmaların özündə ehtiva etdiyi funksiyalardan asılı olmayaraq, hər bir metodun özünəməxsus sillabusu və ya tədris planı vardır. Tədris planının əsas məqsədlərinə xidmət etdiyi metodun icrasını daha da asanlaşdırmaq daxildir.

Tapşırıq əsaslı dil tədrisinin planı digər metodların tədris planından tamamilə fərqlidir. Bunun da əsas səbəbi tapşırıq əsaslı dil təlimini təşkil edən tapşırıqların müxtəlifliyidir. Bütün tapşırıqlar dilin mənimsənməsində həqiqi ünsiyyətə xidmət etsə də, onların da özünə məxsus növ və ya formaları vardır. Bu dil təliminin bəzi pedaqoji funksiyaları mövcuddur.

Tapşırıq əsaslı dil təliminin tədris planı ilə bağlı bir çox metodistlər araşdırmalar aparmışdır.

Görkəmli metodist D.Nunan vurğulayır ki, tapşırıq əsaslı dil təliminin tədris planı əsasən iki növ tapşırıq üzərində qurulmalıdır.

1. Real ünsiyyət əsaslı və məqsədi dilöyrənənlərə dilin mənimsənməsini aşılayan tədris planı;

2. İkinci dilin mənimsənməsi nəzəriyyəsinin əsasında dayanan pedaqoji- psixoloji tapşırıqlardan ibarət tədris planı [3, s.200].

Yuxarıda adı çəkilən bu tədris planlarının fərqlərinin təhlil edilməsi vacib şərtdir. Real ünsiyyətə əsaslanan tapşırıqların əsas məqsədi dilöyrənənlərin öyrənmə səbəblərindən bilavasitə asılıdır.

Məlumdur ki, ikinci və ya xarici dili öyrənən tələbə bunu real həyatda xarici dildə ünsiyyət qurmaq üçün öyrənir. Bu ehtiyacların vacibliyi, eləcə də müxtəlifliyi tapşırıqların daha effektiv və aydın olmasını şərtləndirir. Bütün bu təhlillər öz əksini mütləq şəkildə sillabusda tapmalıdır.

Pedaqoji tapşırıqların tədris planı tamamilə fərqlidir. Pedaqoji tapşırıqlar ikinci dilin mənimsənməsində psixoloji əsaslara malikdir.

Tapşırıq əsaslı dil təlimində dilöyrənənlərin məqsəd və öyrənmə səbəbləri müxtəlif olduğundan nəyin tədris olunması maraq doğuran məsələlərdəndir.

Bundan əlavə, ardıcıllıq məsələsi də əsas şərtlərdən biridir. Belə ki, ardıcıllıq dedikdə dilöyrənənlərin yerinə yetirəcəkləri məsələlərin asandan çətinə uyğun olaraq sıralanması nəzərdə tutulmaqdadır. Çünki əks təqdirdə tələbədə çaşqınlıq yaranar və təbii ki, sistemsiz öyrənmə uğurzusluqla nəticələnər. Üçüncü və ən mühüm amil isə "necə tədris etmək" məsələsidir ki, bu da metodikanın əsasını təşkil edir. Buna sübut olaraq, görkəmli metodist D.Nunan qeyd edir ki, nəyi və necə tədris etmək xarici dilin mənimsənməsinin əsasını təşkil edir [3, s.45].

Beləliklə, tapşırıq əsaslı dil təlimi metodikasından danışdıqda bunun əsasən iki mühüm prosedurunu mütləq qeyd etməliyik.

İlkin olaraq, tədris planında öz əksini tapan fəaliyyət növlərinin real dərsə necə yönəldildiyini nəzərdə tutan prosedurun adını vurğulamalıyıq. Çünki yalnız bu halda, fəaliyyət növləri dilin mənimsənməsinə yönəldilə bilər. İkinci mühüm şərt isə dilöyrənənlərin və müəllimlərin əməkdaşlıq məsələsidir. Buna uyğun olaraq, əməkdaşlıq fonunda tədris prosesi daha səmərəli nəticələnər.

Adını qeyd etdiyimiz dil təliminin əsasını tapşırıq təşkil edir və xarici dilin mənimsənməsinə yönəldilən vacib metoddur.

Məlum olduğu kimi, bu dil tədrisində dərsin quruluşunda və planlaşdırılmasında əsas komponent tələbələr tərəfindən icrası mühüm hesab edilən tapşırıqlardır. Bu tapşırıqların vacibliyi özünü öyrənilən hər hansı bir ifadənin və ya sözün mənasının düzgün dərk edilməsində, tapşırıq vasitəsilə qavranılan biliyin real həyatda düzgün istifadəsində göstərir.

Görkəmli metodist D.Villisin fikrincə, bu metodun bəzi komponentləri kommunikativ dil tədrisinə əsaslanır.

Bunların bəzilərinə nəzər salaq:

1. Həqiqi ünsiyyətə səbəb olan çalışma və fəaliyyətlər dil öyrənmə üçün əsasdır;
2. Məntiqi tapşırıqlardan ibarət fəaliyyət növləri dilöyrənməni sürətləndirir;
3. Dilöyrənənin istifadə etdiyi dil tədris prosesinə yardım edir [2, s.44].

Xarici və ya ikinci dilin öyrənilməsinin əsas məqsədi dilöyrənənlərdə sərbəst ünsiyyət qurma bacarığına yiyələnməkdən və cari dildə sərbəst danışmaqdan ibarətdir. Tapşırıq əsaslı dil təlimi də öz növbəsində dilöyrənənlərdə kommunikasiyaya səbəb olur və bu da tədris prosesinin daha sürətli və effektiv olmasını şərtləndirir. Bu səbəblər də kommunikativ dil təlimi ilə sözügedən dil təliminin eyni məqsədə xidmət etdiyini sübut edir.

İşin elmi nəticəsi. Xarici dildə bacarıqların formalaşdırılması, vərdişlərin inkişaf etdirilməsi istiqamətində təhsilverənlərin seçdikləri tapşırıq üçün nəzərdə tutulmuş materiallar, onların səmərəlilik dərəcələri mühüm əhəmiyyətə malikdir. Burada ən səmərəli hesab edilən yollardan biri ingilis dilində dil bacarıqlarının kommunikativ yönümlü şəkildə inkişaf etdirilməsidir.

İşin elmi yeniliyi. Sözügedən məqalədə indiyə qədər araşdırılan məsələlər təhlil edilir, tapşırıq əsaslı dil tədrisi ilə bağlı əldə edilən nəticələr konkretləşdirilir, xülasələşdirilərək təqdim edilir.

İşin tətbiqi əhəmiyyəti. Araşdırılan mövzu həm orta, həm də ali məktəb kontekstində ingilis dilinin tədrisində bacarıq və vərdişlərin inkişafı, formalaşdırılması istiqamətində mühüm rola malik olub, əməkdaşlığın, interaksiyanın təmin edilməsi baxımından faydalı ola bilər.

Ədəbiyyat

İngilis dilində

1. Breen, M. The evaluation cycle for language learning tasks. In R. Johnson (Ed.), The Second Language Curriculum Cambridge: Cambridge University Press, – 1989, – p. 187-206.
2. Edwards, C. Teachers Exploring Task in English Language Teaching / C.Edwards, J.Wills. – Hampshere Palgrave Macmillan, – 2005.
3. Nunan, D. Designing Tasks for the Communicative Classroom / D.Nunan, – Cambridge: Cambridge University Press, – 1989, – 211p.
4. Nunan, D. Task-based Language Teaching / D.Nunan, – Cambridge: Cambridge University Press, – 2004, – 218 p.

İnternet resursu

5. https://researchgate.net

N.M.Aliyeva

The Methodology of Using Task-Based Language Teaching in English at Junior Stages of High Schools

Summary

The article deals with the task-based language teaching at high schools. It is one of the modern approaches in language learning.

Task-based language teaching plays great role in foreign language teaching. One of the beneficial way of this named method is to improve abilities of learners in practical contexts. at that time learners focus on real world situations and develop language skills.

In its turn, these tasks are considered to be appropriate and relevant to the daily situations. Students can extend their language competence by means of reading, writing, listening, speaking skills, at the same time they may have an opportunity of using interactive tasks.

So, the called method suggests wide range of opportunities of extending and improving the quality of teaching processing.

Key words: *task, learning, integration, competence, method*

H.M.Алиева

Методика использования обучения языку на основе заданий по английскому языку на младших курсах высших учебных заведений

Резюме

В статье рассматривается один из современных подходов изучению языка – целевое обучение языку.

Изучение языка на основе заданий играет важную роль в процессе овладения языками. Одним из наиболее полезных аспектов упомянутого метода обучения является приучение учащихся к практическому контексту. В это время учащиеся развивают свои языковые навыки, сосредотачиваясь на реальных задачах.

Эти выводы, в свою очередь, считаются уместными и актуальными для повседневных ситуаций. Здесь учащиеся имеют возможность расширить свои языковые навыки посредством осмысленного чтения, письма, аудирования, разговорной речи и в тоже время с помощью интерактивных заданий на этом фоне. Таким образом, указанный метод обучения открывает широкие возможности для повышения эффективности обучения.

Ключевые слова: *задание, изучение, интеграция, компетенция, метод*

Rəyçi: ped.f.d. J.Mehrəliyeva

Redaksiyaya daxil olub: 30.04.2025

P.F.ƏLİYEVA
e-mail: peri_aliyeva_2018@mail.ru
:https://orcid.org/0009-0004-5974-241X

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

10.62021/0026-0028.2025.2.274

MƏSULİYYƏTLİ MƏKTƏBLİ DAVRANIŞININ MAHİYYƏTİ HAQQINDA

Xülasə. *Müəyyənləşdirilir ki, insan davranışı bacarıqlarının formalaşması bəşəriyyət tərəfindən hazırlanmış norma və qaydaların mənimsənilməsi ilə baş verir. Eyni zamanda ilk vaxtlar, böyüklər uşağın davranışını tənzimləyənlərdir. Tədricən, cəmiyyətdə davranış norma və qaydalarının mənimsənilməsi, müəyyən davranışın praktiki həyata keçirilməsi üçün yaradılan şəraitdə uşaq öz davranışını müstəqil şəkildə tənzimləmək qabiliyyətinə yiyələnir.*
Məqalədə göstərilir ki, pedaqoji nöqteyi-nəzərdən davranış – cəmiyyət tərəfindən hazırlanmış norma və qaydalarla tənzimlənən hərəkətlərin məcmusudur. Bundan əlavə, öyrənilmiş norma və qaydalara uyğun hərəkət etmək vərdişləri düzgün davranış formalarının tərbiyəsi prosesinin mühüm tərkib hissəsidir. Məqalə "ibtidai məktəb şagirdlərinin məsuliyyətli davranışı" anlayışının məzmununun təhlili və aydınlaşdırılmasına, ibtidai ümumi təhsil səviyyəsində təlim prosesinin informasiyalaşdırılması şəraitində məsuliyyətli davranış tərbiyəsinin xüsusiyyətlərinin müəyyən edilməsinə və prioritetlərin aşkarlamasına həsr olunub.

Açar sözlər: *davranış, öz davranışına nəzarət, davranış normaları, özünənəzarət, özünütənzimləmə*

Müasir pedaqogikanın əsas tələblərindən biri də odur ki, tərbiyə təhsil prosesinə təbii şəkildə inteqrasiya etməli, öyrəncilərin bütün fəaliyyət növlərinə təsir göstərməlidir. Bu baxımdan, ilk öncə "müasir dövrdə tərbiyə" anlayışının mahiyyətini müxtəlif mövqelərdən, yəni fəlsəfi, psixoloji, sosial və pedaqoji mövqelərdən nəzərdən keçirək. Son dövrlərdə Rusiyada dərc olunmuş "Yeni fəlsəfi ensiklopediya"da göstərilir ki, tərbiyə – uşağın insani ünsiyyətin sosial-mədəni məkanında məqsədyönlü və istiqamətləndirilmiş böyüməsidir [6, s.440]. Həmin mənbədə tərbiyəyə həm də "hər yaşda olan bir fərdə və ya bir qrup insana şüurlu şəkildə planlaşdırılmış intellektual, estetik və əxlaqi təsir" vasitəsi kimi baxılır. Bu tərifl ərə əsaslanaraq belə bir nəticəyə gəlmək olur ki, tərbiyə fərdin estetik, əxlaqi və intellektual inkişafı məqsədilə yetişdirilməsi prosesinə şüurlu təsirdir. Bu o deməkdir ki, tərbiyə fərdin sosial inkişafı məqsədilə ona məqsədyönlü təsir etməkdir. Filosoflardan F.Bekon, C.Lokk və b. təhsilin xüsusiyyətlərini, məqsəd və vəzifələrini tədqiq etmişlər. Onların fikirləri ilə tanış olduqdan və yuxarıda verilən tərifləri təhlil etdikdən sonra belə bir nəticəyə gəlirik ki, fəlsəfi baxımdan tərbiyə sosial-mədəni məkanda bir fərd və ya bir qrup insanın dəyişilməsi və təsdiqlənməsi məqsədilə reallaşan məqsədyönlü təsirdir.

Psixologiya baxımından tərbiyə – fərdin cəmiyyətə adekvat inteqrasiyası məqsədilə ona sistemli və məqsədyönlü təsir göstərmədir. L.İ. Bojoviç [2] təsdiq edir ki, tərbiyə prosesində şəxsiyyətin formalaşması müəyyən olunmuş ideallar, dəyərlər, inanclar və s. əsasında baş verir. T.V.Xristidis, L.S.Vıqotski, A.N. Leontyev, S.L.Rubinşteyn və digər rus psixoloqları da bu mövqeyin tərəfdarları idilər. Bu belə bir nəticəyə gəlməyə imkan verir ki, tərbiyə müəyyən bir sosiumda qəbul edilmiş dəyərlərin, idealların mənimsənilməsi yolu ilə şəxsiyyətin məqsədyönlü formalaşması prosesidir. Eyni zamanda "Ən yeni psixoloji-pedaqoji lüğət"də tərbiyə termininin üç tərifi var: 1) sosial, geniş mənada – cəmiyyətin bütün sosial struktur tərəfindən həyata keçirilən gənc nəsli həyata hazırlamaq funksiyası: ictimai institutlar, təşkilatlar, kilsə, kütləvi informasiya vasitələri və mədəniyyət, ailə və məktəb; 2) daha dar, pedaqoji mənada –

təhsil müəssisələrində müəllimlər tərəfindən həyata keçirilən və şəxsiyyətin inkişafına yönəlmiş xüsusi təşkil edilmiş və idarə olunan insan formalaşması prosesi;

3) "ictimai həyata və məhsuldar əməyə hazırlamaq üçün yeni nəsillərə ictimai – tarixi təcrübənin ötürülməsi" [7, s.84]. Yəni tərbiyə fərdin cəmiyyətdə həyata hazırlanmasına yönəlib. Beləliklə, "tərbiyə" anlayışını psixologiya nöqteyi-nəzərindən təhlil edərək belə nəticəyə gəlirik ki, bu termin müəyyən bir cəmiyyətdə tarixi təcrübənin gənc nəslə ötürülməsinin sistemli, xüsusi təşkil olunmuş prosesi kimi başa düşülür.

Sosial mənada tərbiyə termini "toplanmış təcrübənin yaşlı nəsillərdən gənclərə ötürülməsi" kimi qəbul edilir. Bu kontekstdə təcrübə dedikdə əxlaqi, etik, hüquqi normalar, o cümlədən insanlara məlum olan bilik və bacarıqlar, yəni "bəşəriyyətin mənəvi irsi" başa düşülür.

Milli pedaqoji nəzəriyyədə tərbiyəyə "həyata keçirildiyi məqsədlərin, qrupların və təşkilatların xüsusiyyətlərinə uyğun olaraq insanın nisbətən şüurlu şəkildə yetişdirilməsi" kimi tərif verilir. Geniş pedaqoji mənada tərbiyə "şagirddə verilmiş keyfiyyətləri formalaşdırmaq üçün ona xüsusi təşkil edilmiş, məqsədyönlü və idarə olunan, ailədə və təhsil müəssisələrində həyata keçirilən təsirdir". Dar pedaqoji mənada tərbiyə "konkret təhsil məsələlərin həllinə yönəlmiş tərbiyə işinin prosesi və nəticəsidir" [5, s.116]. Yəni ailə və təhsil təşkilatları qarşısında uşaqlarda müəyyən şəxsiyyət xüsusiyyətlərinin formalaşmasına yönəlmiş tapşırıq verilir və onun həlli şagirdlərə nəzarətli təsir yolu ilə həyata keçirilir. Bütövlükdə, pedaqogika nöqteyi-nəzərindən tərbiyə – təhsil fəaliyyətini həyata keçirən təşkilatlarda həyata keçirilən, xüsusi təşkil olunmuş və normalar, cəmiyyətdə qəbul edilmiş qaydalar və dəyərlər əsasında şagirdlərin şəxsiyyətinin formalaşmasına şərait yaratmağa yönəlmiş prosesdir.

Beləliklə, "tərbiyə" terminin mahiyyətini fəlsəfi, psixoloji, sosial və pedaqoji baxımdan nəzərdən keçirərək belə bir nəticəyə gəlmək olur ki, tərbiyə – şagirdlərin uğurlu sosiallaşması məqsədilə cəmiyyətdə qəbul edilmiş mənəvi-əxlaqi, mədəni dəyərlərin, norma və qaydaların mənimsənilməsinə şərait yaratmaqla tarixi təcrübənin gənc nəsillərə ötürülməsinin xüsusi təşkil olunmuş prosesidir.

Qeyd etmək lazımdır ki, təhsilin məqsədləri çevikdir və cəmiyyətin inkişafının təsiri altında dəyişikliklərə uğrayır. Müasir cəmiyyət mənəvi, ekoloji, iqtisadi və hüquqi tərbiyəyə təkan verən yeni əlavə problem-məsələlər qarşıya qoymuşdur. Bu baxımdan zəruri olan tərbiyə məsələlərindəki dəyişikliklər Azərbaycan dövlətinin normativ hüquqi sənədlərin tələblərində, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda və Dövlət Təhsil Standartında öz əksini tapmışdır. Təhsil standartı universal təhsil fəaliyyətinə, həyat üçün zəruri olan səlahiyyətlərə, o cümlədən cəmiyyətin informasiyalaşdırılması şəraitində yeni nəslin yetişdirilməsinə yönəldilmişdir. Bundan əlavə, standart həm də, demokratik və hüquqi dövlət ideallarının ibtidai məktəb şagirdləri tərəfindən milli və ümumbəşəri dəyərlərə uyğun mənimsənilməsinə yönəlib. Dünya təcrübəsində bu dəyərlər sistemə salınmışdır. Məsələn, bu dəyərlərin sistemi, rus məktəblilərinin tərbiyəsinin məqsəd və vəzifələri, müasir təhsil idealının təbiətini, müəllifləri A.Y. Danilyuk, A.M.Kondakov, V.A.Tişkov olan "Rusiya vətəndaşının mənəvi-əxlaqi inkişafı və tərbiyəsi konsepsiyası" ilə müəyyən edilir [3]. Qeyd edək ki, konsepsiyada əsas ümumtəhsil proqramının mənimsənilməsinin şəxsi nəticələri personal qiymətləndirilmir, yalnız monitorinq ilə aparılır. Yəni "müəyyən şəraitdə şagirdin əməli davranışını, tələb olunan hərəkətləri yerinə yetirməsini" tədqiq etməklə ibtidai məktəb şagirdlərinin tədris prosesinin səmərəliliyini və tərbiyə səviyyəsini müəyyən etmək olar.

İndi də "davranış" anlayışını fəlsəfi, psixoloji və pedaqoji baxımdan nəzərdən keçirək. Fəlsəfə nöqteyi-nəzərindən davranış "mürəkkəb obyekt tərəfindən həyata keçirilən daxili qarşılıqlı əlaqədə olan hərəkətlər sistemidir; bu sistem müəyyən məntiqə tabedir və bu obyektə xas olan və onun ətraf mühitlə qarşılıqlı əlaqəsini tələb edən konkret funksiyanın həyata keçirilməsinə yönəlir" [6, s.253]. İnsana münasibətdə davranış "əxlaqi münasibətlərin həyata keçirilməsi olan insan hərəkətləri sistemi" [6, s.440] kimi qəbul edilir. Beləliklə, əxlaqi orientirlər, yuxarıda qeyd edildiyi kimi, tərbiyə vasitəsilə ötürülür və bu tərifdən çıxış edərək, onların

davranış vasitəsilə həyata keçirildiyi qənaətinə gəlirik. Bu həm də o deməkdir ki, insanın hər bir əməli kənardan qiymətləndirilir. Prof. R.İ.Əliyevin fikrincə, davranış həm insanın özünə, həm də başqalarına, ümumiyyətlə, fayda və ya zərər baxımından ictimai qiymətləndirmə obyektidir. Belə ki, fəlsəfi əsərlərdə davranış aktının dəyəri onun hər hansı qayda, norma və ya idealla əlaqəsi nəticəsində müəyyən edilir, fərd və başqaları tərəfindən qiymətləndirilən davranışın özü isə insanın mənəvi, hüquqi və digər münasibətlərini nümayiş etdirən hərəkətlər sistemi kimi qəbul edilir. Qaydalar, normalar və ideallar da öz növbəsində tərbiyə prosesində şəxsiyyət tərəfindən mənimsənilir [1, s.12].

Davranış məfhumuna psixologiya prizmasından təhlil verək. İ.M.Kondakov "Psixoloji lüğət"də davranışın aşağıdakı tərifini verir: "canlı orqanizmin fərdi ehtiyaclarını ödəmək üçün xarici aləm ilə təmasda olmağa xidmət edən məqsədyönlü fəaliyyətdir" [4, s.265]. Güman etmək lazımdır ki, insan davranışı ətraf mühit ilə və buna görə də digər insanlarla qarşılıqlı əlaqəyə yönəlmiş bir fəaliyyət növünü nəzərdə tutur. Psixoloqlar fərdi ehtiyacların ödənilməsini fizioloji, təhlükəsizlik ehtiyacı, sevgi və mənsub olma, hörmət, özünü həyatda təsdiqləmə kimi başa düşürlər.

"Ən yeni psixoloji-pedaqoji lüğət"də davranış "insan fəaliyyətinin zahiri təzahürü", habelə "etik hərəkətlər məcmusu" kimi qəbul edilir [6, s.585]. Beləliklə, davranış etik hərəkətlərin məcmusudur, yəni davranış vahidi – hərəkətdir. R.İ.Əliyev isə belə hesab edir ki, davranış "həqiqətən əxlaqi" olmalıdır. Bu, yalnız başqasını incitdikdə cavab hərəkətləri ala biləcəyindən qorxduğu halda deyil, özünün belə incidildiyi halda necə olacağını başa düşdüyü şəkildə olmalıdır [1, s.30]. Beləliklə, davranış əxlaq normalarına əsaslanan və fərdi ehtiyacları ödəmək üçün ətraf aləmlə, insanlarla qarşılıqlı əlaqəyə yönəlmiş hərəkətlər məcmusu kimi qəbul edilə bilər. Digər insanların hisslərini və istəklərini nəzərə almaq ehtiyacı bir insanın onlar üçün əhəmiyyətli olan dəyərləri dərk etməsi və qəbul etməsi, cəmiyyət üçün tanış və başa düşülən qaydalara və normalara riayət etməsi deməkdir.

Klassik psixoloqların əsərlərində məqbul hesab edilən sosial davranışların formalaşmasının xüsusiyyətlərinə diqqət yetirilir. Uşağın şəxsiyyətinin formalaşması üçün müəyyən bir davranış hərəkətləri etmək vərdişinin inkişaf etdirilməsi zərurəti B.Q.Ananyev, S.L.Rubinşteyn və b. tərəfindən xüsusi vurğulanmışdır. L.İ.Bojoviç isə, hətta pedaqoji cəhətdən laqeyd qalan uşaqlarda ümumi qəbul edilmiş normalara zidd olmayan hərəkətlər vərdişinin formalaşmasının mümkün olduğunu iddia edirdi. O, uşaqlarda davamlı davranışın formalaşdırılması üçün aşağıdakı şərtləri və yolları təklif etmişdir: Birincisi, "məcburiyyət yolu ilə deyil, müsbət motivin fonunda müəyyən davranış formalarında" olan təlim tapşırıqları təşkil etmək lazımdır. İkincisi, təlim tapşırığını onun təkrarlanması və uğurla həyata keçirilməsi üçün tədbirlərin planlaşdırılması yolu ilə qəbul edilməsi, uşaqların fəallıq göstərmək istəklərinin təmin edilməsi vacibdir. Üçüncüsü, davranışın mürəkkəb formalarını mənimsəmək üçün o, "nisbətən müstəqil kiçik davranış hərəkətlərinə bölünməli, hər biri ayrıca izlənilməli və qiymətləndirilməlidir" [2, s.208-211]. Beləliklə, psixologiyada davranış insan fəaliyyətinin zahiri təzahürü, ətraf mühitlə təmasda olmağa xidmət edən və cəmiyyətdə qəbul edilmiş məlum normalara əsaslanan hərəkətlərin məcmusu kimi müəyyən edilir. Onun formalaşması üçün psixoloji cəhətdən əsaslandırılmış yollar və şərtlər təklif olunur.

Davranış anlayışını pedaqoji prizmadan nəzərdən keçirək. Bir qrup Avropa alimləri davranışı "hərəkətlər toplusu" kimi başa düşürlər, burada insanın xarici fəaliyyəti və davranış hərəkətlərinin daxili təkanverici şərtləri, yəni onların motivasiyası və təcrübəsi xüsusi qeyd olunur.

Bu fikirlərdən belə nəticə çıxır ki, psixologiyada olduğu kimi, pedaqogikada da davranış müəyyən hərəkətlər kompleksi kimi qəbul edilir. "Məktəb pedaqogikası"nda davranış terminə bu cür aydınlıq gətirilir ki, "insanın müəyyən bir məqsədə çatmaq, ətraf mühitlə qarşılıqlı əlaqəsi prosesində müəyyən bir funksiyanı yerinə yetirmək üçün həyata keçirdiyi qarşılıqlı əlaqəli refleks və şüurlu hərəkətlər (fiziki və zehni) sistemidir" [5, s.114]. Yəni davranış konkret məqsədə çatmaq üçün həyata keçirilən hərəkətlərin məcmusu kimi qəbul edilməlidir.

"Pedaqoji ensiklopedik lüğət"də davranış "canlıların, o cümlədən insanların həyatının xarici təzahürlərinin, real hərəkətlərinin məcmusu" kimi qəbul edilir. Yenə həmin mənbədə göstərilir ki, insanın davranış bacarıqlarının formalaşması bəşəriyyət tərəfindən hazırlanmış norma və qaydaların mənimsənilməsi ilə həyata keçir. Eyni zamanda, uşaqların ilk vaxtlarında, böyüklər onların davranışını tənzimləyənlərdir. Tədricən, cəmiyyətdə davranış norma və qaydalarının mənimsənilməsi, müəyyən davranışın praktiki həyata keçirilməsi üçün yaradılan şəraitdə uşaq öz davranışını müstəqil şəkildə tənzimləmək qabiliyyətinə yiyələnir.

V.A.Suxomlinski bir qədər fərqli termindən – "yüksək əxlaqi davranış" məfhumundan (anlayışından) istifadə etmişdir. Bu məfhum altında o, çoxlu kiçik fərqli davranış əməllərinin toplusunu nəzərdə tutur. Əməllər isə sözlərdən, hərəkətlərdən, hərəkətsizliklərdən, başqalarının hərəkətlərinə və sözlərinə münasibətdən və s. ibarət ola bilər. O, iddia edirdi ki, hər bir uşaq hansı hərəkətlərin icra edilə biləcəyini, nəyin isə icrasının mümkün olmadığını qəti şəkildə bilməli və buna əmin olmalıdır. Onun fikrincə, uşaq cəmiyyətdə qəbul edilmiş norma və qaydaları mənimsəyərək, tədricən öz davranışını tənzimləməyi öyrənməlidir. Eyni zamanda K.D.Uşinski, uşaqlarda düzgün davranış formalarının tərbiyəsi zamanı mühüm rol oynayan və xarakterin tərkib hissəsi olan vərdişə böyük diqqət və əhəmiyyət verirdi. Məhz vərdiş, dahi pedaqoqun fikrincə, tərbiyəçiyə şagirdin xarakterində, onun sinir sistemində müəyyən dəyişiklik etmək imkanı açır. Və bu zaman əsas məsələ uşaqlara ilk iki-üç asan davranış hərəkətlərinə tabe olmağı öyrətmək və tədricən onları mürəkkəbləşdirməkdir [8, s.129-130]. Beləliklə, pedaqoji nöqteyi-nəzərdən davranış – cəmiyyət tərəfindən hazırlanmış norma və qaydalarla tənzimlənən hərəkətlərin məcmusudur. Bundan əlavə, öyrənilmiş norma və qaydalara uyğun hərəkət etmək vərdişləri düzgün davranış formalarının tərbiyəsi prosesinin mühüm tərkib hissəsidir.

Beləliklə, "davranış" məfhumunu müxtəlif mövqelərdən öyrənərək belə nəticəyə gəlirik ki, davranış insanın ətraf mühit ilə qarşılıqlı əlaqəsi nəticəsində həyata keçirdiyi hərəkətlərin məcmusudur. Məktəblilərin davranışı, böyüklərin tərbiyəvi təsiri altında mənimsənilən dəyər münasibətləri ilə tənzimlənən cəmiyyət tərəfindən qəbul edilmiş norma və qaydaların mənimsənilməsinə əsaslanarsa, o, sosial cəhətdən daha məqbul olacaqdır. Bundan əlavə, insanın davranışının necə formalaşdığını başa düşməyin pedaqoji tərəfi ondan ibarətdir ki, insanın əməl etdiyi norma və qaydalar onun düşünülmüş baxışlarıdır, onun adi davranış formalarıdır, öz əqidəsidir: hətta özü ilə təkbətək qaldıqda belə (N.M.Kazımov, Ş.T.Tağıyev, A.S.Makarenko, V.İ.Novikova, İ.F.Xarlamov). Nəzərə alsaq ki, uşağın davranış tənzimləyicisi kimi çıxış edən və müəyyən bir cəmiyyətdə mövcud olan normaları mənimsəməsi xüsusi təşkil edilmiş fəaliyyət nəticəsində, təhsil fəaliyyətini həyata keçirən təşkilatlar, sosial institutlar, ictimai qurumlar tərəfindən, o cümlədən ailədə xüsusi şəraitin yaradılması nəticəsində baş verir, bu halda insanın davranış tərbiyəsinin reallaşdığını söyləyə bilərik. Qeyd etmək lazımdır ki, norma kimi "müəyyən sosial qrupda müəyyən edilmiş qayda, müəyyən bir cəmiyyət daxilində insanların münasibətlərini tənzimləyən müəyyən davranış standartı" başa düşülür.

İşin elmi nəticəsi. Təhsil problemlərinə həsr edilmiş fəlsəfi, psixoloji, sosioloji və pedaqoji ədəbiyyatın təhlili, ibtidai ümumi təhsilin müasirləşdirilməsi ilə bağlı pedaqoji təcrübənin və normativ sənədlərin öyrənilməsi məsuliyyətli məktəbli davranışının mahiyyəti haqqında təsəvvürlərin formalaşdırılmasına geniş imkanlar açdı.

İşin elmi yeniliyi ondan ibarətdir ki, tərbiyə problemlərinin həllində İKT vasitələrindən istifadə imkanlarının öyrənilməsi təhsil prosesinin informasiyalaşdırılması kontekstində kiçikyaşlı şagirdlərdə məsuliyyətli davranışın tərbiyəsinin xüsusiyyətlərini müəyyən etməyə imkan verdi.

Tədqiqatın praktik əhəmiyyəti. Məqalə ibtidai siniflərdə təlimin daha səmərəli təşkili zamanı fənn müəllimləri, müvafiq dərslik və dərs vəsaitlərinin tərtibi zamanı müəlliflər faydalana bilər.

Ədəbiyyat

1. Əliyev, R.İ. Şəxsiyyət psixologiyası / R.İ.Əliyev, – Bakı: Nurlan, – 2011. – 381s.
2. Божович, Л.И. Личность и её формирование в детском возрасте /Л.И. Божович. – СПб.: Питер, 2008. – 400 с.
3. Данилюк, А.Я. Концепция духовно-нравственного развития и воспитания личности гражданина России / А.Я. Данилюк и др. – М.: Просвещение, – 2013. –123 с.
4. Кондаков, И.М. Психология: иллюстрир. словарь / И.М. Кондаков. – СПб.: Прайм-ЕВРОЗНАК, – 2003. – 512 с.
5. Kazımov, N.M. Məktəb pedaqogikası. Dərslik / N.M.Kazımov, – Bakı: OKA Ofset, – 2016. – 436 s.
6. Новая философская энциклопедия. В 4 т. Т. 1 /Ин-т философии РАН, Нац. обществ.-науч. фонд; науч.-ред. совет: В.С. Степин (пред.) и др.– М.: Мысль, – 2010. – 744 с.
7. Новейший психолого-педагогический словарь /сост. Е.С. Рапацевич; под общ. ред. А.П. Астахова. – Минск: Современная школа, – 2020. – 928 с.
8. Ушинский, К.Д. Педагогическая антропология: Человек как предмет воспитания. Опыт педагогической антропологии: в 2 ч. /К.Д. Ушинский. – М.: Изд-во УРАО, – 2002. – 496 с.

P.F.Aliyeva

On the Essence of Responsible School Behavior

Summary

It is determined that the formation of human behavior skills occurs through the assimilation of norms and rules developed by humanity. At the same time, at first, it is adults who regulate the child's behavior. Gradually, in the conditions created for the assimilation of norms and rules of behavior in society, the child acquires the ability to independently regulate his behavior.

The article shows that from a pedagogical point of view, behavior is a set of actions regulated by norms and rules developed by society. In addition, the habit of acting in accordance with the learned norms and rules is an important component of the process of education of correct forms of behavior. The article is devoted to the analysis and clarification of the content of the concept of "responsible behavior of primary school students", identifying the features of responsible behavior education in the context of informatization of the educational process at the level of primary general education and identifying priorities.

Key words: *behavior, control over one's own behavior, norms of behavior, self-control, self-regulation*

П.Ф.Алиева

О сущности ответственного школьного поведения

Резюме

В статье определено, что формирование навыков поведения человека происходит через усвоение норм и правил, выработанных человечеством. При этом на первых порах именно взрослые являются теми, кто регулирует поведение ребенка. Постепенно в условиях, созданных для усвоения норм и правил поведения в обществе, ребенок приобретает способность самостоятельно регулировать свое поведение.

Показано, что с педагогической точки зрения поведение представляет собой совокупность действий, регулируемые нормами и правилами, выработанными обществом. Кроме того, привычка действовать в соответствии с усвоенными нормами и правилами является важной составляющей процесса воспитания правильных форм поведения. Статья посвящена анализу и уточнению содержания понятия «ответственное поведение учащихся младших классов», выявлению особенностей воспитания ответственного поведения в условиях информатизации учебного процесса на уровне начального общего образования и выявлению приоритетов.

Ключевые слова: *поведение, контроль за собственным поведением, нормы поведения, самоконтроль, саморегуляция*

Rəyçi: ped.f.d., dos. G.R.Məmmədova
Redaksiyaya daxil olub: 15.05.2025

S.İ.ƏLİYEVA
baş müəllim
e-mail: sonasi83@mail.ru
:https://orcid.org/0000-0002-2696-4292

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

10.62021/0026-0028.2025.2.279

AİLƏNİN ƏNƏNƏVİ FUNKSİYALARI

Xülasə. *Ailənin mahiyyətini, insanın, cəmiyyətin, doğulan körpələrin həyatında necə mühüm əhəmiyyət daşıdığını anlamaq ailənin dayaqlarını sarsıtmağa qoymur. Ər və arvad qarşılıqlı münasibətlərini, ailə daxilindəki ünsiyyət və rəftarını, davranışını düzgün qurur, yaranan ixtilaflar zamanı hissin hökmünə tabe olmağı deyil, ağlın hökmünü əsas tutur. Ailə münasibətlərinə sosial- psixoloji amillərlə yanaşı, maddi-iqtisadi vəziyyəti, ailə üzvlərinin maddi ehtiyaclarının ödənilməsi səviyyəsi və imkanları çox ciddi təsir göstərir. Ailənin təsərrüfat-iqtisadi, tərbiyə və bərpaedici funksiyaları onun sosial-iqtisadi həyatının başlıca sahəsini əks etdirir.*

Açar sözlər*: ailə, funksiya, tərbiyə, iqtisadi, sosial, münasibət*

Giriş. Ailə münasibətlərinin incəliklərinin tədqiq olunması, ailədə qarşılıqlı münasibətlərin səmərəli və düzgün qurulması baxımından böyük əhəmiyyət kəsb edir. Məqalə aktual problemin araşdırılmasına həsr edilmişdir. Yəni tədqiqatda başlıca yeri ailə münasibətlərinin tənzimindəki milli-etnik xüsusiyyətlərin aşkar edilməsi tutur.

Bu cür tədqiqat və araşdırmalar xalqımızın öz tarixi keçmişinə dərindən bələd olmasına, özünü düzgün dərk etməsinə, yəni müsbət etnik xüsusiyyətlərimizlə yanaşı, nöqsan və çatışmazlıqlarımızı da yaxşı başa düşməyə, onların arada qaldırılmasının optimal yol və vasitələrini tapmağa, başqa sözlə, ailə münasibətlərinin tənzimində ər və ziyanlı adət və ənənələrimizdən xilas olmağımıza kömək etmiş olar.

Ailə nədir? Müasir ensiklopediyalarda və lüğətlərdə ailəyə aşağıdakı təriflər verilir:

Ailə – nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Ailə üzvləri bir-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlıdır [1, s. 187].

Ailə nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Onun üzvləri bir-biri ilə məişət birliyi, qarşılıqlı məsuliyyət və qarşılıqlı köməklə bağlıdır [5, s. 602].

Nəzərdən keçirdiyimiz təriflərdə ailəni səciyyələndirən iki mühüm xüsusiyyət – a) məişət birliyi, b) özünəməxsus münasibətlər sistemi, qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək qeyd olunur. Bu xüsusiyyətlər qarşılıqlı əlaqədədir, ailəni xarakterizə edərkən onları birlikdə nəzərdən keçirmək lazımdır. Özünün bu xüsusiyyətinə görə ailə bütün digər kiçik qruplardan (məsələn, dostlar dəstəsindən, yataqxanada eyni otaqda yaşayan adamlardan, birlikdə işləyən manqa üzvlərindən və s.-dən) fərqlənir.

Ailədə cinslər və cinsi tələbatdakı irəli gələn münasibətlər əxlaqi-psixoloji münasibətlər formasında özünü göstərir. Biz bu münasibətləri ümumi şəkildə qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək kimi xarakterizə etdik.

Ailənin mahiyyətini, insanın, cəmiyyətin, doğulan körpələrin həyatında necə mühüm əhəmiyyət daşıdığını anlamaq ailənin dayaqlarını sarsıtmağa qoymur. Ər-arvad qarşılıqlı münasibətlərini, ailə daxilindəki ünsiyyət və rəftarını, davranışını düzgün qurur, yaranan ixtilaflar zamanı hissin hökmünə tabe olmağı deyil, ağlın hökmünü əsas tutur.

Əsas hissə. Ailənin özünəməxsus funksiyaları vardır. Funksiya (function) latın sözüdür: mənası icra, fəaliyyət deməkdir. Ailənin funksiyaları dedikdə onun həyat fəaliyyətinin başlıca istiqamətləri nəzərdə tutulur. Bu baxımdan onun aşağıdakı funksiyalarını fərqləndirmək olar: reproduktiv, təsərrüfat-iqtisadi, tərbiyə və bərpaedici funksiyalar.

Ailənin funksiyaları qarşılıqlı əlaqədədir. Onlar, hər şeydən əvvəl ailənin sosial mahiyyətini əks etdirir. Ailənin funksiyaları ictimai-tarixi xarakter daşıyır. Onların məzmunu sosial amillərlə – ailəyə cəmiyyət tərəfindən verilən tələblər, ailə hüququ və əxlaqi, mədəni normalar, cəmiyyətin ailəyə göstərdiyi real yardım və s. ilə müəyyən olunur. Lakin bununla yanaşı kiçik qrup kimi ailə üçün xarakterik olan bütün xüsusiyyətlər özünün həyatı mənasını onun funksiyalarında tapır. Özünün müvafiq funksiyaları ilə ailə kiçik qrupların digər növlərindən köklü surətdə fərqlənir. Bu haqda aydın təsəvvür əldə etmək üçün ailənin funksiyaları ilə ayrı – ayrılıqda tanış olaq.

Ailənin reproduktiv funksiyası onun həyatının mühüm bir sahəsini – uşaqların doğulması sahəsini əhatə edir. Valideynlər neçə uşaq istəyirlər? Onlar ailənin inkişafını necə planlaşdırırlar? Bu suallar ilk baxışda nə qədər sadə görünsə də, ailənin reproduktiv funksiyasının məzmununu əsasən aydın ifadə edir. Ailədə uşaqların miqdarı onun həyat tərzinin mühüm cavabıdır.

Ailənin inkişafı da uşaqların dünyaya gəlməsi ilə bilavasitə bağlıdır. Hazırda ailənin planlaşdırılmasından, sözün həqiqi mənasında, ictimai planlaşdırmanın formalarından biri kimi bəhs etmək olar. Bu gün hər bir ər-arvad, nəinki uşaqların sayını, habelə onların təxmini doğulma vaxtını, bir sıra hallarda övladla sonrakı körpələr arasındakı müddəti planlaşdırır.

Ailədə neçə uşağın olması məsələsini ər-arvad birlikdə həll edirlər. Kənar mülahizələr rol oynamır. Lakin uşağın sayı barədə qərar müəyyən amillərin təsiri altında qəbul oluna bilər. Bunun bəzi səbəblərdən irəli gəlməsi mümkündür. Şəhər həyat tərzinin genişlənməsi, yaşayış sahəsinə tələbat, qadının məşğuliyyəti, eləcə də müəyyən ictimai vəzifə daşıması, tələbatın artması və s. belə səbəblərdəndir. Lakin bunlar əslində həlledici amil deyildir. Əsas məsələ ərarvadın psixoloji yetkinliyi və hazırlığıdır. Həyatda eyni şəraitə malik neçə-neçə ailə vardır. Bəzisində bir, bəzisində iki-üç, bəzisində beş-altı uşaq olur. Doğrudur, çoxuşaqlı ailələr müəyyən maddi çətinlikilərlə qarşılaşırlar. Lakin həmin uşaqlar boya-başa çatdıqda hər birisi ailəyə, ata-anaya həyan olur. Çoxuşaqlı ailələrdə boşanmaya da nadir hallarda rast gəlinir. Azuşaqlı ailələrə nisbətən, çoxuşaqlı ailələrdə tərbiyə edilmiş uşaqlar daha sərbəstdir, kollektivdə öz yerini tez tapır, ətrafdakılarla ünsiyyət bağlamağı bacarır, mehriban, qayğıkeş, iltifatlı, səmimi olurlar. Bu keyfiyyətlərin kökü isə şübhəsiz ailədən gəlir. Üç-dörd uşaqlı ailə daha optimaldır. Belə miqdar əhalinin geniş təkrar istehsalında cəmiyyətin tələblərinə cavab verir və qohumluq əlaqələrinin tam uyğunluğunu duymaqda ailə üzvlərinə kömək göstərir. Xüsusi uşaqcanlı valideynlər, əlbəttə, daha çox övlad böyüdə bilərlər. Bu, təqdir edilir.

Sağlam mühit, ər-arvadın bir-birinə qayğı və nəvazişi, bir-birini başa düşməsi, lazım güzəştə getməyi bacarması və s. uzunömürlülüyün və çoxuşaqlı ailələrin meydana gəlməsinin şərtlərindəndir. Belə ailələrin üzvü olmaq necə də xoşdur… 168 il yaşamış Şirəli Müslümovun sonuncu övladı, o, 128 yaşında olarkən dünyaya gəlmişdir. Respublikamız çoxuşaqlı ailələrin sayına görə də seçilir.

A.Q.Xarçevin fikrincə, keçmişdə doğum hallarının say etibarilə böyük olmasının səbəbi ondan ibarətdir ki, o, ailənin möhkəm və davamlı olması üçün müəyyən ehtiyat yaratmaq şüuruna əsaslanırdı. Ata-analar uşaqlar arasında ölüm hallarının geniş yayıldığını istər-istəməz nəzərə alırdılar. Hətta tam təmin olunmuş ailələrdə belə doğulan körpələrdən yalnız müəyyən qismi böyüyüb boya başa çatırdı. Uşaq ölümü də doğum kimi adət edilmiş hadisə idi.

İki dəfə Sosialist Əməyi Qəhrəmanı, adlı-sanlı pambıq ustası Şamama Həsənova dörd uşaq anası idi. Neçə-neçə nəvəsi var idi. Sosialist Əməyi Qəhrəmanı, pambıq ustası Sürəyya Kərimovanı xatırlamaq kifayətdir. O, Ağdam rayonundakı "Telman" adına kolxozda manqa

başçısı idi. S.Kərimova həm fəal ictimai xadimdir, həm də qayğıkeş, mehriban anadır, beş qız, beş oğul dünyaya gətirmiş, tərbiyə etmiş, "Qəhrəman ana" adına layiq görülmüşdür.

Bəzi qadınlar isə ailə həyatının başlıca probleminə yüngül münasibət bəsləyirlər. Onlar "gəzmək", "dolanmaq", "kef etmək", "gün görmək" üçün bir müddət uşağın doğulmasının qarşısını müxtəlif yollarla alırlar.

Bununla əlaqədar olaraq iki cəhətə diqqəti cəlb etmək lazımdır. Birincisi, uşağın sağlamlığı, həm də ananın yaşından asılıdır. Həkimlərin fikrincə, ilk körpəsini 20-24 yaşlarında dünyaya gətirən anaların uşaqları daha sağlam olurlar. 30 yaşından sonra doğulan ilk uşaqların tam sağlam olmaması ehtimalı da artır.

İkincisi, doğuşun qarşısı süni yollarla alınanda, bu hətta bəzi hallarda əsl faciə ilə qurtarır: qadın nəinki xəstələnir, həm də sonsuz qalır, analıq səadətindən məhrum olur.

Qadınlar bəzən "kişilərin nə vecinə" deyirlər. Körpənin həyatının ilk illərində onun tərbiyəsinin əsas ağırlığı ananın üzərinə düşür. Kişilər ananın vəziyyətini yüngülləşdirmək üçün hər şeyi görsələr də, onlar südəmər körpənin əziyyətli günlərində bəzən öz vəzifələrini aydın təsəvvür edə bilmirlər. Bir çox hallarda onların bu sahəyə lazımi səriştəsi də olmur.

Biz belə kişilərə haqq qazandırmırıq və qazandıra bilmərik. Ailənin planlaşdırılmasında və uşaqların böyüdülməsində atanın da rolu böyükdür. O, uşaq qayğılarını ana ilə bilavasitə bölüşdükdə ailədə öz-özünə yaxşı mənəvi psixoloji iqlim yaranır. T.M.Afanasyeva göstərir ki, əgər uşaqlar bir-birinin ardınca doğulursa, onda vaxt itkisi əslində eyni olur. Hətta qüvvə də. Ana ilk və yeganə uşağına iki, hətta üç uşağa sərf edir. Əvvələn, körpəyə qulluq etməyi, onu yedirtməyi bilməmək və bacarmamaq onu həddindən artıq yorur. İkinci uşaqla bir çox işlər, demək olar avtomatik həyata keçirilir.

İkincisi, ilk körpə daha çox diqqəti özünə cəlb edir, əsəb gərginliyinin daha çox sərf olunmasını istəyir. Ona görə də ataya-anaya yapışır, onların dalınca düşür, əl çəkmir. Uşaq iki, üç olanda bir-biri ilə oynayırlar. İkinci uşağa sərf olunan maddi xərclər də azalır. Birinci uşağın paltarlarını ikincisi geyinir. Uşaq xəstələnəndə isə bir uşağa nisbətən, ana ikisi ilə bir o qədər də çox məşğul olmur. Körpənin sağlamlığı valideynin qəlb rahatlığından çox asılıdır. Yeganə körpəsi olan, daim onu itirəcəyindən qorxan ana dinclik tapa bilmir.

Fransız tədqiqatçılarının hesablamalarına görə, qadınların peşə sahəsində intellektual qabiliyyətləri ən çox uşağın doğulduğu 20-30 yaşlarda aşağı düşür. Deməli, qadının doğub-doğmamasından asılı olmayaraq, orqanizm onun enerjisini işdən yayındırır. Qocalıqda özünün maddi və mənəvi tələbatını dolğun ödəmək üçün valideynlərə bir yox, bir neçə uşaq lazımdır. Çoxları bunu lazımınca dərk etmək istəmirlər. Axı, cəmiyyətin bütün maddi və mənəvi sərvətləri dünənki uşaqlar və nəvələr, mövcud maddi qüvvə tərəfindən yaranır. Ölkənin iqtisadi qüdrəti, onun əmək qabiliyyətinə malik olmayan əhalisini təmin etmək imkanı onların sayından çox asılıdır. Əgər burada əmək qabiliyyəti olanların və "yeyənlərin" tənasübü pozularsa, təbii ki, əvvəlki əməyə görə müvazinətləndirmənin xarakteri tamamilə başqa cür, arzu ediləndən çox-çox aşağı olacaqdır.

Ailənin təsərrüfat-iqtisadi və bərpaedici funksiyalarının da əhəmiyyəti böyükdür. Təsərrüfat-iqtisadi funksiyası ailə münasibətlərinin müxtəlif tərəflərinin – ailənin təsərrüfatı, büdcəsi, idarə olunması, əmək mühiti, evdə kişi və qadın əməyinin xüsusiyyətləri, uşaqların əmək vəzifələri və s.-ni əhatə edir.

Tərbiyə geniş anlayışdır. Bizim ölkəmizdə o, cəmiyyətin başlıca funksiyasına çevrilmişdir. Uşaqları təkcə ailə deyil, uşaq bağçası, məktəb, texniki-peşə məktəbi və başqa sosial universitetlər tərbiyə edir. Bu mürəkkəb və çoxcəhətli prosesdə ailənin özünəməxsus yeri vardır. Uşaq ana və ata, bacı və qardaş ilə emosional cəhətdən bağlıdır. Ailə tərbiyəsinin sirlərini də, görünür, məhz burada axtarmaq daha düzgün olardı.

Ailənin tərbiyə funksiyası çoxcəhətlidir: əxlaq tərbiyəsi, estetik tərbiyə, əqli tərbiyə, fiziki tərbiyə, siyasi tərbiyə, əmək tərbiyəsi… – bunların hamısı əsas istiqamətləridir. A.S.Makarenko göstərir ki, uşaqları tərbiyə etmək həyatımızın mühüm sahəsidir. Bizim uşaqlar ölkə-

mizin gələcək analar və atalarıdır, onlar özləri də öz uşaqlarını tərbiyə edəcəklər. Bizim uşaqlarımız böyüyüb gözəl vətəndaş, yaxşı ata və ana olmalıdır. Lakin iş bununla qurtarmır: bizim uşaqlarımız – bizim qocalığımızdır. Düzgün tərbiyə bizim xoşbəxt qocalığımızdır, pis tərbiyə bizim gələcək dərdimizdir, bizim gələcək göz yaşlarımızdır, bizim başqa adamlar qarşısında, bütün ölkə qarşısında təqsirimizdir. Ailə insan üçün sağlamlaşdırıcı, psixoterapevtik mühitdir.

import matplotlib.pyplot as plt

qiymətlər = list(map(int, input("Qiymətləri vergüllə ayıraraq daxil edin: ").split(',')))

plt.hist(qiymətlər, bins=5, color='blue', edgecolor='black', alpha=0.7)
plt.axvline(sum(qiymətlər)/len(qiymətlər), color='red', linestyle='dashed', label="Orta Bal")
plt.xlabel("Bal Aralığı")
plt.ylabel("Tələbə Sayı")
plt.title("İmtahan Nəticələrinin Paylanması")
plt.legend()
plt.show()
```

Bu hissədə aşağıdakı qənaətə gəlmək olar ki,

– **klassik tapşırıqlar** tələbələrə əsas alqoritm biliklərini qazandırır.

– **orta səviyyə tapşırıqlar** data strukturlar və alqoritmlərin real istifadəsini gücləndirir.

– **mürəkkəb tapşırıqlar** isə tələbələrin kodlaşdırma bacarıqlarını praktik yönümlü inkişaf etdirir.

İndi isə bu tapşırıqları Texniki universitetin kompüter elmləri, proqramyönümlü ixtisas tələbələrinin bacarıqlarını verilən misallar üzərində qrafik göstəricilərini əyin etmək olar.

Tələbə Nəticələrinin Təhlili və Qrafik Göstəricilər. Yazılacaq koda diqqət etsək, fərqli öyrənmə metodlarını tətbiq edən tələbələrin nəticələrini analiz edir və Boxplot (qutu qrafiki) ilə müqayisə edir.

Eksperimentin təsviri

Bu eksperiment, Azərbaycan Texniki Universitetinin 54 tələbəsi üzərində aparılmışdır. Araşdırmanın məqsədi, proqramlaşdırma bacarıqlarının inkişafını və tədris metodlarının effektivliyini qiymətləndirməkdir. Tələbələr, onların əvvəlki proqramlaşdırma təcrübələrinə və bacarıqlarına əsasən üç qrupa bölünmüşdür:

1-ci qrup (sadə tapşırıqlar, 18 nəfər): Bu qrupa daxil olan tələbələr sadə proqramlaşdırma tapşırıqları ilə məşğul olmuşlar. Bu tapşırıqların əsas məqsədi riyazi əməliyyatların və əsas alqoritmlərin tətbiqini nəzərdə tuturdu. Fibonacci sırası, müxtəlif riyazi əməliyyatların həlli və sadə alqoritmaların yazılması tələb olunmuşdur. Bu qrupun məqsədi tələbələrə proqramlaşdırma dilinin əsaslarını və sadə alqoritmlərin qurulmasını öyrətmək idi. Tələbələrə verilən tapşırıqlar, onların məntiqi düşünmə bacarıqlarını inkişaf etdirmək və kodun sadə şəkildə yazılmasına kömək etmək üçün nəzərdə tutulmuşdur.

2-ci qrup (orta çətinlik, 18 nəfər): Bu qrupa daxil olan tələbələr daha mürəkkəb məsələlərlə üzləşiblər. Burada verilən tapşırıqların məqsədi, tələbələrin proqramlaşdırma biliklərini genişləndirmək və onlara müxtəlif data strukturlarını və alqoritmləri tətbiq etməyə öyrətmək idi. Bu tapşırıqlara misal olaraq, palindromların yoxlanması, siyahıların sıralanması və müxtəlif data strukturlarının istifadəsi verilə bilər. Bu qrupda iştirak edən tələbələrə, həmçinin real dünya problemləri ilə əlaqəli məsələlər təqdim edilib, onların proqramlaşdırma üzrə bacarıqlarının daha da təkmilləşdirilməsi məqsəd qoyulub.

3-cü qrup (mürəkkəb tapşırıqlar, 18 nəfər): Bu qrupa daxil olan tələbələr ən mürəkkəb və real dünya problemləri ilə məşğul olmuşlar. Onlar imtahan nəticələrinin statistik analizini aparmaq, şifrələmə alqoritmlərini təhlil etmək və həll etmək kimi yüksək səviyyəli tapşırıqları yerinə yetiriblər. Bu tapşırıqlar tələbələrə yalnız proqramlaşdırma bacarıqlarını deyil, həm də analitik düşünmə qabiliyyətlərini inkişaf etdirmək, real dünyada qarşılaşa biləcək problemləri həll etməyə yönəlmişdir. Bu qrupun məqsədi, tələbələrə müasir proqramlaşdırma metodlarını tətbiq etmə və daha mürəkkəb məsələləri həll etmə bacarığı qazandırmaqdır.

Araşdırma metodologiyası: Araşdırmanın aparılması metodoloji baxımdan çoxyönlü bir yanaşmanı əhatə edir. Hər bir qrup üçün müəyyən edilmiş tapşırıqlar tələbələrin fərqli proqramlaşdırma səviyyələrinə uyğun olaraq seçilmişdir. Bu metodologiya, müxtəlif çətinlik səviyyələrinə uyğun tapşırıqların tələbələrin nəzəri və praktiki biliklərini inkişaf etdirməyə kömək etdiyini göstərmək məqsədini güdür. Həmçinin hər bir qrupun nəticələri təhlil edilərək, proqramlaşdırma bacarıqlarının inkişafına təsir edən faktorlar araşdırılmışdır.


İstifadə olunan metodlardan biri, tələbələrin proqramlaşdırma bacarıqlarını ölçmək üçün obyektiv qiymətləndirmədir. Bu həm nəzəri biliklər, həm də tapşırıqların icrası üzrə təhlil edilən nəticələr əsasında həyata keçirilmişdir. Tələbələrin həll etdikləri tapşırıqların mürəkkəbliyi, həmçinin verilən tapşırıqlara tətbiq etdikləri alqoritmik yanaşmaların keyfiyyəti və optimallaşdırma səviyyəsi də qiymətləndirilmişdir.


Nəticələrin təhlili, müxtəlif proqramlaşdırma biliklərinin tələbələrin fərqli qruplarda necə tətbiq olunduğunu, tələbələrin necə öyrəndiklərini və hansı çətinliklərlə qarşılaşdıqlarını göstərir. Bu, tədris metodlarının təkmilləşdirilməsi və proqramlaşdırma dərslərində daha effektli yanaşmaların tətbiq edilməsi üçün vacib məlumatlar verir.


Tələbələrin göstəriciləri aşağıdakı meyarlarla qiymətləndirilmişdir:

Qrup	Orta çətinlikli tapşırığın həlli müddəti (dəqiqə)	Orta düzgünlük faizi (%)
1-ci qrup (sadə)	5.2	92
2-ci qrup (orta)	8.7	83
3-cü qrup (mürəkkəb)	12.4	79

Qrafik olaraq meyarlara fikir versək, sadə dildə yuxarıda verilmişləri qrafiklərdə görə bilərik.







1. **Boxplot – tapşırığın həll müddətinin yayılması.**

Boxplot, verilən məlumatların yayılmasını vizuallaşdırmaq üçün istifadə edilən güclü bir alətdir. Bu qrafik, hər qrupun tapşırıq həlletmə müddətinin (dəqiqə ilə) necə paylandığını göstərir və tələbələrin performansını müqayisə etməyə kömək edir. Boxplotda aşağıdakı elementlər vizuallaşdırılır:

- **Median (orta dəyər)**: Qrupun tapşırıq həlletmə müddətlərinin orta dəyərini göstərir. Median, məlumatların 50%-nin bu dəyərin altında, qalan 50%-nin isə bu dəyərin üstündə yerləşdiyini göstərir.
- **Minimum və maksimum dəyərlər**: Tələbələrin ən qısa və ən uzun tapşırıq həlletmə müddətləri göstərilir. Minimum, ən sürətli həlli göstərən tələbənin nəticəsini, maksimum isə ən uzun müddət sərf edən tələbəni təmsil edir.
- **İnterkvartil aralıq (IQR)**: Qrup daxilində tapşırıq həlletmə müddətlərinin necə paylandığını göstərir. IQR, qrupun 25%-nin həll müddətlərini göstərən yuxarı və aşağı kvartil arasında olan məsafəni təmsil edir və məlumatların dağılmasının genişliyini əks etdirir.


Bu qrafik, tapşırıq həlletmə müddətlərinin hər qrupda necə fərqləndiyini, qrup daxilindəki müxtəlifliyi və bəzi tələbələrin həll müddətindəki ekstremal fərqləri göstərmək üçün istifadə olunur. Məsələn, əgər bir qrupda həll müddətləri daha çox sıx və yığılmışsa, bu, tələbələrin tapşırıqları bənzər sürətlə həll etdiyini göstərə bilər, amma digər qrupda daha geniş yayılmış dəyərlər göstərirsə, bu, performansın qeyri-bərabər olduğunu göstərir.

2. **Histogram – düzgünlük faizinin paylanması**

Histogram, tələbələrin düzgünlük faizlərinin paylanmasını əks etdirən bir qrafikdir və bu qrafik vasitəsilə hər qrupun düzgünlük faizlərinin necə bölüşdüyünü müqayisə etmək mümkündür. Histogram, hər bir qrupun düzgün cavablar ilə əlaqədar faizin hansı dərəcədə toplandığını göstərir və bu, ümumi performans barədə ətraflı məlumat verir.

Histogram qrafikini yaratmaq üçün verilənlərə əsasən verilənlər aşağıdakı kimidir:

Qrup	Orta düzgünlük faizi (%)
1-ci qrup (sadə)	92
2-ci qrup (orta)	83
3-cü qrup (mürəkkəb)	79



Tələbələrin düzgünlük faizlərinin paylanmasını göstərən histogram.

Qruplar arasında düzgünlük faizlərinin necə fərqləndiyini vizual olaraq müqayisə edə bilərik.

- **X oxu**: Tələbələrin düzgünlük faizi ilə təmsil olunur (0%-dən 100%-ə qədər olan dəyərlər).
- **Y oxu**: Müvafiq düzgünlük faizi olan tələbələrin sayı və ya faizi.

Bu qrafik, hər qrupun nə qədər yüksək düzgünlük faizi ilə nəticələndiyini göstərmək üçün istifadə edilir. Qrupun böyük bir hissəsi yüksək düzgünlük faizi göstərirsə, bu, qrupun güclü performansını göstərir, əksinə, əgər düzgünlük faizi sıfır və ya çox aşağıdırsa, bu, tələbələrin tapşırıqları düzgün həll etməməsinin səbəblərini dərinləşdirmək üçün bir işarə ola bilər. Histogram, həmçinin hansı qrupun daha çox düzgün cavab verdiyini və hər bir qrupun performansını müqayisə etməkdə faydalıdır.

3. **Xətti qrafik – düzgünlük faizinin inkişafı**

Xətti qrafik, hər bir tələbənin düzgünlük faizlərinin zamanla necə dəyişdiyini və inkişaf etdiyini göstərir. Bu qrafik, tələbələrin performansını izləyərək, tədris müddətində onların düzgünlük faizindəki dəyişiklikləri analiz etməyə imkan verir.

- **X oxu**: Vaxtı təmsil edir, məsələn, müxtəlif tapşırıqların yerinə yetirilməsi zamanı keçən zaman (tapşırıq nömrələri və ya tarixlər).
- **Y oxu**: Hər tələbənin düzgünlük faizi.

Xətti qrafik, hər bir qrupun inkişafını göstərmək üçün istifadə edilir. Məsələn, bir qrupun düzgünlük faizi ilk tapşırıqlarda aşağı olsa da, zamanla artarsa, bu, tələbələrin öyrənmə prosesinin yaxşılaşdığını və tədris metodlarının onlara təsir etdiyini göstərə bilər. Həmçinin bu qrafik vasitəsilə qruplar arasındakı performans fərqləri göstərilə bilər, məsələn, bir qrupun düzgünlük faizi davamlı olaraq yüksək qalarkən, digər qrupun nəticələri dəyişkən və ya aşağı ola bilər. Bu cür təhlillər, tələbələrin hansı sahələrdə inkişaf etdiyini və hansı tapşırıqların onlara daha çox çətinlik yaratdığını daha dəqiq müəyyən etməyə kömək edir.

Bu üç qrafik birləşdirildikdə, tələbələrin səriştəlik bacarıqlarını daha ətraflı təhlil etmək, onların inkişafını izləmək və tədris metodlarını təkmilləşdirmək üçün güclü bir analitik alət təmin edir. Hər bir qrafik, fərqli aspektlərdən tələbələrin bacarıqlarını və onların zamanla necə inkişaf etdiyini göstərir.

Nəticə və metodik tövsiyələr: Məqalədə əldə edilən nəticələrə əsasən, rəqəmsal bacarıqlı tələbələr üçün proqramlaşdırma fənninin praktik yönümlü olması, interaktiv və layihə əsaslı metodların tətbiq edilməsi daha səmərəli olduğu qənaətinə gəlinir. Bu istiqamətdə ali məktəblərdə müasir texnologiyaların tətbiqinin artırılması və xüsusi tədris materiallarının hazırlanması tövsiyə olunur.

Ədəbiyyat

1. Ben-Ari, M. Constructivism in computer science education. *Journal of Computers in Mathematics and Science Teaching*, 17(1), 7-12. – 1998.
2. Flores, M., Gomes, J., Pereira, L., & Alves, P. Hackathons as Collaborative Learning Environments. IEEE Global Engineering. – 2018.
3. Grover, S., & Pea, R. Computational thinking in K–12: A review of the state of the field. *Educational Researcher*, 42(1), 38-43. – 2013.
4. Guzdial, M. Does contextualized computing education help? *ACM Inroads*, 1(4), 4-6. – 2010.
5. Komssi, M., Pichlis, D., Raatikainen, M., Kindström, K., & Järvinen, J. What are Hackathons for? IEEE Software, 32(1), 60-67. DOI: 10.1109/MS.2014.100. – 2015.
6. Nandi, A., & Mandernach, M. Hackathons as an Informal Learning Platform. ACM SIGCSE Technical Symposium, 346-351. DOI: 10.1145/2839509.2844590. – 2016.
7. Porras, J., Knutas, A., Ikonen, J., Happonen, A., Khakurel, J., & Herala, A. Hackathons in Software Engineering Education: Lessons Learned from a Decade of Events. *Journal of Systems and Software, 157*, 110379. – 2019.
8. Wing, J. M. Computational thinking. *Communications of the ACM, 49*(3), 33-35. –2006.

A.Z.Fətəliyeva

Development Prospects of Informatics and Programming for Digital Creativity in Higher Education

Summary

This paper examines the teaching characteristics of the "Informatics and Programming" course in higher education institutions within the field of "Digital Creativity." By comparing various teaching approaches, the study analyzes effective methods and tools that enhance students' practical skills in digital technologies. The role of Python programming, the advantages of interactive and project-based learning methodologies, as well as the significance of hackathons and design competitions, are highlighted. The article emphasizes the importance of modern educational strategies in fostering students' creative and analytical thinking abilities and discusses the development prospects of digital creativity-oriented informatics education in higher education.

Key words: *Python, programming, hackathon, digital creativity, algorithmic thinking, digital education*

А.З.Фаталиева

Перспективы развития информатики и программирования в области цифрового творчества в высшем образовании

Резюме

В данной статье рассматриваются особенности преподавания дисциплины «Информатика и программирование» в высших учебных заведениях в контексте специальности «Цифровое творчество». Сравниваются различные учебные подходы, анализируются эффективные методы и инструменты, способствующие развитию практических навыков студентов в области цифровых технологий. Подчеркивается роль языка программирования Python, преимущества интерактивного и проектного обучения, а также значение хакатонов и дизайнерских конкурсов. В статье акцентируется важность современных образовательных стратегий для развития креативного и аналитического мышления студентов, а также обсуждаются перспективы развития преподавания информатики, ориентированной на цифровое творчество в высшей школе.

Ключевые слова: *Python, программирование, хакатон, цифровое творчество, алгоритмическое мышление, цифровое образование*

Rəyçilər: p.ü.f.d. Ş.M.Ağazadə,
r.ü.f.d. G.A.Ağayeva

Redaksiyaya daxil olub: 11.03.2025

L.İ.HACIYEVA
e-mail: lhajiyeva92@gmail.com
:https://orcid.org/0009-0004-1527-8600

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

10.62021/0026-0028.2025.2.303

ŞƏXSİYYƏTİN İNKİŞAFINDA YARADICI DÜŞÜNMƏ KOMPETENSİYASININ ROLU

Xülasə. *Tədqiqat göstərdi ki, şəxsiyyətin inkişafı zamanı əsas səriştələr öz təbiətinə və tətbiq olunma dərəcəsinə görə ən universal səriştələr kimi başa düşülür. Onların formalaşması hər bir tədris fənni çərçivəsində həyata keçirilir, mahiyyət etibarilə onlar fənnüstü hesab olunurlar. Səriştə təkcə bilik və bacarıqlarla məhdudlaşdırılmır. Səriştə praktikada bilik və fəaliyyət arasında mövcud olan münasibətlər sahəsidir. Müxtəlif səriştələrin təhlili onun kreativ (yaradıcı) istiqamətə malik olduğunu göstərir. Xüsusilə kreativ səriştələrə aşağıdakıları aid etmək olar: "təcrübədən yararlana bilmək", "problemi həll etmək bacarığı", "keçmiş və yeni hadisələr arasında əlaqəni üzə çıxarmaq", "yeni həll yolları tapmağı bacarmaq".*
Eyni zamanda, şagirdlərin yaradıcı səriştələri ilə bağlı bilik, bacarıq, fəaliyyət metodları və təcrübəsinin bütün kompleksini hərtərəfli təqdim etmək üçün bu bacarıqların göstəriciləri hələ kifayət deyildir.

Açar sözlər: *ibtidai təhsil, yaradıcı düşünmə qabiliyyəti, şəxsiyyətin inkişafı, təhsil müəssisələri, kompetensiya*

İbtidai ümumi təhsilin dövlət sənədlərində [1; 2] və Azərbaycan təhsilinin modernləşdirilməsi Konsepsiyasında [3] qeyd olunduğu kimi Respublika təhsil sistemi yeniləndi və bu iş ümumi inkişafın yeni tendensiyaları ilə əlaqədar aparıldı. Yenilənmə təhsilin əsas məqsədinə uyğun olaraq təhsil müəssisələrinin müxtəlif səviyyələri üzrə həyata keçirildi və bu mərhələdə məzunların səriştələrinin formalaşması və inkişafı prosesi baş verdi. Bu dəyişikliklər məktəb təhsilinin bütün pillələrinə, o cümlədən ibtidai məktəbə də öz təsirini göstərdi. İbtidai ümumi təhsilin dövlət standartlarında belə bir müddəa vardır ki, "..ümumtəhsil məktəbi universal bilik, bacarıq, vərdişlərin vahid sistemini, habelə şagirdin şəxsi məsuliyyət və müstəqil fəaliyyət təcrübəsini, yəni müasir təhsilin keyfiyyətini müəyyən edən əsas səriştələri formalaşdırmalıdır" [3, s.9].

Söhbət təhsilli insanın yeni ölçü vahidi kimi səriştəsindən gedir. Burada əsas diqqət öyrənilən bilik, bacarıq və bacarıqların məcmusuna deyil, müxtəlif problemli situasiyalarda hərəkət etmək bacarığı kimi qəbul edilən təlim nəticələrinə yönəldilir.

Araşdırmamızdan aydın oldu ki, dünya təhsilində səriştəli yanaşmaya keçid ilk dəfə Rusiya məktəblərində müşahidə olundu. Və təhsilə belə yanaşmanın aktuallığı Rusiyada 2000-2010-cu illərdə PİSA (Programme for International Student Assessment) proqramı çərçivəsində məktəblilərin beynəlxalq sınaqlarının nəticələri ilə təsdiqlənir. Aparılan tədqiqatlar məktəb təliminin nəticələri ilə cəmiyyətin tələbi arasındakı uyğunsuzluğu göstərdi. Nəticədə bütün ölkə iştirakçıları üçün riyaziyyat və təbiət elmləri, qiraət üzrə savad dərəcəsini və problemləri həll edəcək bacarıqların səviyyəsini qiymətləndirməyə imkan verən vahid təchizatlar işlənilib hazırlandı (kompleks və ya strukturlaşdırılmış tapşırıqları nəzərdə tutan testlər). Problemin həllində səriştənin qiymətləndirilməsi kimi sonuncu istiqamət müəyyən tədris fənləri və ya təhsil sahələri ilə birbaşa əlaqəsi olmayan, lakin real həyatda tez-tez rast gəlinən və müxtəlif sahələrdəki bilik və bacarıqların kompleks istifadəsini tələb edən problemləri həll etmək bacarığını nəzərdə tutur. Məktəb təhsilinin çatışmazlıqları nisbətən şagirdlərin qeyri-adi mühitdə oriyentasiya bacarığı tələb edən fənlərarası həyat problemlərini həll etməyi qiymətləndirmək-

də, zəruri məlumatları, mövcud maneələri müəyyən edib, mümkün alternativlər və həllər tapmaqda, strategiyalar hazırlamaq və nəhayət, problemlərin şagirdlərin özləri tərəfindən həllində, tapılan həll yollarını təqdim etməkdə və əsaslandırmaqda ən aydın şəkildə aşkar edilmişdir. Ümumi təhsilin kifayət qədər mürəkkəb fənn istiqamətli olması və məktəb tapşırıqları ilə real həyat vəziyyəti arasındakı zəif əlaqə Respublikamıza yüksək nəticələr əldə etməyə imkan vermədi. Tədqiqat məktəb proqramlarını mənimsəmə səviyyəsini müəyyən etməyə deyil, şagirdlərin əldə etdikləri bilikləri həyat təcrübələrinə tətbiq etmək bacarıqlarını qiymətləndirməyə yönəldilmişdir. Bu, ümumtəhsil sahəsində həyata keçirilən siyasətin uğurunu və səmərəliliyini müəyyən edə bilən müasir tendensiyaları əks etdirir.

Beləliklə, aydın oldu ki, Azərbaycan məktəbliləri aşağıda göstərilənləri ürəkaçan səviyyədə bacarmır: a) praktiki tapşırıqları müəyyənləşdirməyi; b) onları formulə etməyi; c) problemi format tapşırığına çevirməyi; d) əldə olunmuş biliklərin konteksti ilə onları əlaqələndirməyi; e) nəticələri təhlil edib, qiymətləndirməyi. Onlara yalnız öyrəndiklərini təkrar etmək və tapşırıqları "nümunə üzrə" həll etməyi öyrədiblər.

Buradan belə bir nəticə də hasil olur ki, təhsilin məzmunu və təşkili yalnız hazır ensiklopedik biliklərin şagirdlərə ötürülməsini təmsil etməməli, həm də uşaqlara əldə edilmiş bilikləri praktikaya tətbiq etməyi öyrətməlidir.

XX-ci əsrin sonu - XXI əsrin birinci qərinəsi üçün səciyyəvi olan təhsilin xarakterində, onun istiqamətində, məqsəd və məzmununda dəyişikliklər getdikcə daha aydın şəkildə fərdin sərbəst inkişafına, yaradıcı təşəbbüsə, şagirdlərin müstəqilliyinə, rəqabət qabiliyyətinə və gələcək mütəxəssislərin mobilliyinə yönəldilmişdir. Bununla belə, dünyada və Respublikamızda təhsil məqsədilə bağlı baş verən dəyişikliklər, xüsusən də insanın sosial aləmə daxil olması, onun dünyaya fəal adaptasiyasını təmin etmək kimi qlobal vəzifələrlə əlaqədar olaraq, təhsilin daha dolğun, şəxsi və sosial inteqrasiya olunmuş nəticə ilə təmin edilməsi məsələsinin gündəmə gəlməsini zəruri etdi. Təhsilin nəticəsi kimi inteqrasiya olunmuş sosial-şəxsi-davranış fenomeninin ümumi müəyyənliyində də "səriştə-səriştəlilik" anlayışından istifadə edilmişdir.

Biz, pedaqoji hadisə kimi intellektual-yaradıcı səriştələri öyrənərkən ilk öncə onun əsasları haqqında biliklərə istinad etməyi qərarlaşdıq. Azərbaycan dilinin izahlı pedaqoji lüğətində "əsas" anlayışı "mənbə, bir şeyin təməli", "bir şeyin ilkin, mühüm müddəaları" kimi şərh olunur [5, s.263]. İntellektual-yaradıcı səriştəliliyin inkişafı və formalaşması probleminin tədqiqi ilə əlaqədar qarşıya belə suallar çıxır: kiçikyaşlı məktəblilərin tədris-yaradıcı təfəkkür fəaliyyətinin əsasları, intellektual-yaradıcı səriştələrin formalaşması üçün pedaqoji şərtlər, intellektual-yaradıcı səriştələrin funksiyaları nələrdən ibarətdir.

Bu suallara biz təbiətin və cəmiyyətin çoxsaylı bütöv hadisələrini dərk etmək vasitəsi kimi özünü doğrultmuş sistemli yanaşma mövqeyindən cavab axtardıq. Mürəkkəb obyektlərin tədqiqinə dair mövcud çoxsaylı yanaşmalar arasında ilk dəfə L.Bertalanfi tərəfindən xüsusi konsepsiya kimi işlənilib hazırlanmış sistemlərin ümumi nəzəriyyəsi mühüm yer tutur. Bu konsepsiyanın əsas məqsədi bir-biri ilə əlaqədə olan komponentlər kompleksi kimi başa düşülən sistemə əsaslanaraq, müxtəlif siniflərin sistemlərinin fəaliyyət və inkişafını izah edən qanunlar toplusunu tapmaq idi. Ümumi sistemlər nəzəriyyəsində sistem dedikdə müxtəlif elementlərin qarşılıqlı əlaqəsi başa düşülür, yəni bir-biri ilə əlaqəli hissələrdən ibarət olan hər şey sistem adlanır [6].

Ümumi metodoloji və fəlsəfi aspektlər nəzərə alınmaqla sistemli yanaşmanın nəzəri cəhətdən əsaslandırılması ardıcıllığı B.F.Lomovanın əsərlərində verilmiş və inkişaf etdirilmişdir. Müəllif, psixi hadisələrin əsas xüsusiyyəti kimi çoxcəhətliliyi önə çəkir. Psixi hadisələrin çoxcəhətli olması faktoru ilə yanaşı, sistemli yanaşmanın mahiyyətini açarkən insan psixikasının səviyyələrinin iyerarxik quruluşuna, onlar arasındakı əlaqələrin qeyri-müəyyənliyinə və yüksək dinamikliyinə, insan xassələrinin müxtəlif ardıcılığına, psixi hadisələrin dinamikasına və inkişafına, "sistem əmələ gətirən amilin" tədqiq olunan sistemində mövcudluğuna diqqət yetirilir [9].

Beləliklə, sistemli yanaşma aşağıdakı aspektləri nəzərdə tutur:

1) obyektin (sistemlərin) struktunun müəyyənliyini;

2) obyektin (sistemlərin) xarici əlamətlərinin (xüsusiyyətlərinin) öyrənilməsini;

3) ətraf mühitdə şəraitin dəyişməsindən asılı olaraq sistemdə və ya obyektdə dəyişikliklərin müəyyən edilməsi.

İntellektual-yaradıcı səriştələr fenomeninin mahiyyətini araşdırarkən, biz "səriştə", "intellekt", "yaradıcılıq" və s. kimi anlayışlarından yan keçə bilməzdik.

"Səriştə" – termini tamamilə fərqli semantik kontekstlərdə, çox vaxt əks mənada istifadə olunur. O, müxtəlif sənədlərdə dəbdə olan xarici söz (kompetensiya) kimi meydana gəlmişdir və obyektiv mövcud olan hansısa pedaqoji problemin başa düşülməsini tələb edən cəhd demək deyildir.

E.V.Domanski Rusiya dövlət sənədlərində istifadəsi dəbdə olan kompetensiya (şəriştəlilik) anlayışının Avropa ilə həm oxşar, həm də məzmunundakı fərqli xüsusiyyətlərinə nəzər yetirir. Onun fikrincə, kompetensiyanın təbiətindəki fərqlilik Şərqin ənənələrindən, özünüdərkin və intuisiyanın inkişafı nöqteyi-nəzərindən ibarətdir. Belə təhlillərlə biz, müəlliflərin "səriştə" və "səriştəlilik" anlayışları ilə bağlı müəyyənləşdirici və fərqli xüsusiyyətləri əks etdirən fikirlərini təqdim etmiş olduq.

S.E. Şişova və V.A. Kalneynin fikrincə, səriştəlilik – əldə edilmiş biliklər əsasında hərəkət etmək qabiliyyətidir (bacarığıdır).

Bilik, bacarıq və vərdişlərdən (nümunəyə uyğun hərəkətlərdən) fərqli olaraq, səriştəlilik universal biliklərə əsaslanan müstəqil fəaliyyət təcrübəsini nəzərdə tutur. Səriştə anlayışı qiymətləndirmə və ixtisasartırma haqqında fikirləri də dəyişir. Vacib olan hər hansı işi təşkil etmək üçün insanın daxili resurslara malik olması deyil, mövcud olanlardan istifadə etmək imkanına malik olmasıdır [8].

Müəlliflər tərəfindən "səriştə" anlayışı "bacarıq" terminin köməyi ilə üzə çıxarılır: Bacarıq xüsusi şəraitdə hərəkətdir. Bacarıq fəaliyyyətdə səriştə kimi təqdim olunur. "Səriştə – bacarığın yaranmasına səbəb olan şeydir" [8, s.79].

Q.Selevkonun fikrincə, səriştə – subyektin məqsəd qoymaq və ona çatmaq üçün daxili və xarici resurslarını səmərəli şəkildə təşkil etməyə hazır olmasıdır. Daxili resurslar deyərkən bilik, bacarıq, vərdişlər, fənnüstü bacarıqlar, səriştələr (fəaliyyət üsulları), psixoloji xüsusiyyətlər, dəyərlər və s. nəzərdə tutulur. Səriştələr –refleksiya təcrübəsi, situasiyalar nəticəsində əldə olunmuş keyfiyyətlərdir [10].

A.V.Xutorski isə tez-tez "səriştə" və "səriştəlilik" anlayışlarını sinonim sözlər kimi işlədir: səriştə – bir sıra müəyyən proseslərə, hadisələrə münasibətdə müəyyən edilmiş və onlara qarşı səmərəli hərəkət etmək üçün zəruri olan, bir-biri ilə əlaqəli şəxsi keyfiyyətlərin (bilik, bacarıq, vərdiş, fəaliyyət üsulları) məcmusudur. Səriştəlilik – insanın müvafiq səriştələrə malik olmasıdır ki, bu həm də fəaliyyətin məqsədinə nail olmaq üçün şəxsi münasibətləri də özündə birləşdirir [12, s.56].

İ.K.Frumin isə yazır: "Fikrimcə indi səriştə anlayışının müzakirəsinə başlamaq, səriştə ilə səriştəlilik arasında fərq axtarmaq, lüğətləri araşdırmaq və maksimum ciddiliyə nail olmaqla məşğul olmaq axmaqlıq olardı. Bizi təhsilin məzmununu ağıllı şəkildə yeniləməyə imkan verən işlə bağlı təsəvvürlər maraqlandırır. Müzakirələrin bu mərhələsində mən səriştəlilik haqqında təsəvvürlərin mürəkkəb real tapşırıqların həlli bacarığı (mövcud imkan) kimi məhdudlaşdırmağı təklif edirəm" [11, s.56].

Eyni zamanda, o qeyd edir ki, pedaqoqlar arasında aparılan çoxsaylı müzakirələr nəticəsində səriştəlilik real problemlərin həllinə yönəlmiş məlumat və bacarıqların sadə birləşməsindən fərqli təhsil nəticəsi tipinə aid edilir [11].

İ.A.Zimnyaya isə "səriştə" və "səriştəlilik" anlayışlarını fərqləndirir. Bu kateqoriyaların məna və əhəmiyyətini təhlil edərək, İ.A.Zimnaya belə bir nəticəyə gəlir ki, "səriştə – insanın gizli psixoloji strukturu (biliklər, təsəvvürlər, iş alqoritmi, dəyərlər və münasibətlər sistemi),

bəzi daxili potensialıdır ki, sonradan insanın səriştəliliyində faktiki fəaliyyət təzahürləri kimi üzə çıxır" [7, s.55].

Beləliklə, səriştəli yanaşmanın mahiyyətinin, onun komponentlərinin və tərkib hissələrinin müəyyənliyinin müəlliflərin başa düşmələri ziddiyyətli olduğu kimi, onun özünün mahiyyəti də bir o qədər ziddiyyətlidir.

Səriştələrin təhsilin normativ və praktik komponentlərinə daxil edilməsi, müasir məktəblər üçün xarakterik olan – şagirdlərin nəzəri biliklər toplusunu yaxşı mənimsədikləri, lakin konkret həyat məsələlərini və ya problemli vəziyyətlərin həlli üçün bu biliklərdən istifadə etməkdə çətinliklərlə qarşılaşdıqları kimi bir sıra problemi həll etməyə imkan verdi. Bu baxımdan əsas səriştələrə xüusi diqqət yetirilir. Bu proses həm beynəlxalq tendensiyaların təsiri altında, həm də müəyyən dərəcədə onlardan asılı olmayaraq inkişaf edir.

Beləliklə, Azərbaycan Təhsil Qanununda və Respublikamızda təhsilinin modernləşdirilməsi ilə bağlı dövlət sənədlərində, şagirdlərin müstəqil fəaliyyət və məsuliyyəti üçün universal bacarıqların, qabiliyyətlərin, yəni əsas səriştələrin vahid sisteminin formalaşdırılmasının vacibliyi təhsil sistemi qarşısında duran vəzifə kimi qeyd edilmişdir. Modernləşdirmə konsepsiyası əsas səriştələri şagirdlərin əldə etdikləri biliklər, təlim bacarıqları,habelə praktiki və nəzəri problemləri həll etmək üçün həyatda iş metodlarından istifadə etməyə hazır olmaq kimi müəyyən etdi.

Əsas səriştələr öz təbiətinə və tətbiq olunma dərəcəsinə görə ən universal səriştələr kimi başa düşülür. Onların formalaşması hər bir tədris fənni çərçivəsində həyata keçirilir, mahiyyət etibarilə onlar fənnüstü hesab olunurlar. Səriştə təkcə bilik və bacarıqlarla məhdudlaşdırılmır. Səriştə praktikada bilik və fəaliyyət arasında mövcud olan münasibətlər sahəsidir. Müxtəlif səriştələrin təhlili onun kreativ (yaradıcı) istiqamətə malik olduğunu göstərir. Xüsusilə kreativ səriştələrə aşağıdakıları aid etmək olar: "təcrübədən yararlana bilmək", "problemi həll etmək bacarığı", "keçmiş və yeni hadisələr arasında əlaqəni üzə çıxarmaq", "yeni həll yolları tapmağı bacarmaq".

Eyni zamanda, şagirdlərin yaradıcı səriştələri ilə bağlı bilik, bacarıq, fəaliyyət metodları və təcrübəsinin bütün kompleksini hərtərəfli təqdim etmək üçün bu bacarıqların göstəriciləri hələ kifayət deyildir.

Əsas səriştələrin vahid razılaşdırılmış siyahısı yoxdur. Səriştələr – ilk növbədə, vətəndaşların hazırlanması üçün cəmiyyətin sifarişindən irəli gəldiyi üçün, belə bir siyahı əsasən müəyyən bir ölkədə və ya bölgədə cəmiyyətin razılaşdırılmış mövqeyi ilə müəyyən edilir. Belə bir razılaşma əldə etmək isə hər zaman mümkün olmur. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və İsveçrə və ABŞ-ın Milli Təhsil Statistika İnstitutları tərəfindən həyata keçirilən "Əsas səriştələrin müəyyənləşdirilməsi və seçilməsi" adlı beynəlxalq layihəsinin gedişində əsas səriştələrin ciddi tərifi hazırlanmamışdır. Avropa Şurasının "Avropa üçün əsas səriştələr" mövzusu üzrə simpoziumu zamanı əsas səriştələrin ilkin siyahısı müəyyən edilmişdir.

Nəticə. Səriştəli yanaşmanın mahiyyətinin, onun komponentlərinin və tərkib hissələrinin müəyyənliyinin müəlliflərin başa düşmələri ziddiyyətli olduğu kimi, onun özünün mahiyyəti də bir o qədər ziddiyyətlidir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, yaradıcı düşünmək bacarığının sistemli dərk olunması mexanizmi və şəxsiyyətin inkişafında onun rolu müəyyən edilmişdir.

Tədqiqatın praktik əhəmiyyətini bunda görmək olur ki, işdə irəli sürülən ideyalardan ali və orta məktəb müəllimləri, tədqiqatçı-tələbələr də istifadə edə bilərlər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil qanunvericiliyinin külliyyatı. – Bakı: Qanun, – 2009. – 60 s.
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. – Bakı: Çaşıoğlu, – 2010. – 65 s.
3. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu). – Bakı, – 2006, – 38 s.
4. Təhsil Haqqında Qanun. – Bakı: Hüquq ədəbiyyatı nəşr., – 2010. – 80 s.

5. Kazımov, N.M. Azərbaycan dilinin izahlı pedaqoji lüğəti / N.M.Kazımov. – Bakı: OKA Ofset, 2011. – 417s.
6. Берталанфи, Л. Общая теория систем: критический обзор / Л. Берталанфи. – М.: Педагогика, –2009. – 234с.
7. Зимняя, И.А. Педагогическая психология: учебник для вузов / И.А.Зимняя. – 2-е изд. – М.: Логос, 2015. – 384с.
8. Кальней, В.А. Мониторинг качества образования в школе / В.А.Кальней, С.Е. Шишов. – М.: Знание, –2018. – 98с.
9. Ломов, Б.Ф. О системной детерминации психических явлений и поведения // Принцип системности в психологических исследованиях. – М.: Наука, –2019. – с.10-18.
10. Селевко, Г.К. Современные образовательные технологии: Учебное пособие / Г.К.Селевко. – М.: Народное образование, –2008. – 256 с.
11. Фрумин, И.К. За что в ответе? Компетентностный подход как естественный этап обновления содержания образования // Учительская газета. – 2012. №78. – с.34-41.
12. Хуторский, А.В. Ключевые компетенции как компонент личностно-ориентированной парадигмы / А.В.Хуторский // Народное образование. – 2013. – №2. – с.58-64.

L.I.Hajiyeva

The Role of Creative Competences in Personal Development

Summary

The study showed that in the process of personality development, basic competencies are understood as the most universal competencies due to their nature and degree of application. They are formed within the framework of each academic subject, but in essence they are supra-subject. Competence is not limited to knowledge and skills. Competence is an area of relationships that exist between knowledge and activity in practice. An analysis of various competencies shows that they have a creative focus. Creative competencies, in particular, include the following: "the ability to use experience", "the ability to solve problems", "identify the connection between past and new events", "the ability to find new solutions".

At the same time, the indicators of these skills are still insufficient to comprehensively present the entire complex of knowledge, skills, abilities, methods of activity and experience related to the creative competencies of students.

Key words: *primary education, creative thinking ability, personality development, educational institutions, competence*

Л.И.Гаджиева

Роль творческих компетенций в развитии личности

Резюме

Исследование показало, что в процессе развития личности основные компетенции понимаются как наиболее универсальные компетенции в силу их природы и степени применения. Их формирование осуществляется в рамках каждого учебного предмета, но по своей сути они являются надпредметными. Компетентность не ограничивается знаниями и навыками. Компетенция – это область взаимоотношений, существующих между знаниями и деятельностью на практике. Анализ различных компетенций показывает, что они обладают креативной (творческой) направленностью. К креативным компетенциям, в частности, можно отнести следующие: «умение использовать опыт», «способность решать проблемы», «выявление связи между прошлыми и новыми событиями», «умение находить новые пути решения».

В то же время показатели этих умений еще недостаточны для того, чтобы всесторонне представить весь комплекс знаний, умений, навыков, способов деятельности и опыта, относящихся к творческим компетенциям учащихся.

Ключевые слова: *начальное образование, способность к творческому мышлению, развитие личности, образовательные учреждения, компетентность*

Rəyçi: ped.f.d., dos. T.Ə.Nəbiyeva
Redaksiyaya daxil olub: 02.05.2025

G.Ə.HÜSEYNOVA
e-mail: gulkharhusseynova@mail.ru
:https://orcid.org/0009-0002-6089-9380

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.308

ALİ MƏKTƏBLƏRDƏ ALMAN DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV FƏALİYYƏTLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Xülasə. *Məqalədə alman dilinin tədrisində kommunikativ fəaliyyətlərdən istifadənin əhəmiyyəti ön plana çəkilir. Müxtəlif kommunikativ fəaliyyət növlərinin adları qeyd edilir. Bu fəaliyyətlərin tədrisdəki mühüm rolu haqqındakı məsələlərə toxunulur. Belə ki, adını qeyd etdiyimiz fəaliyyətlər tədrisin səmərəliliyini artırır, əməkdaşlığı gücləndirir, interaksiyanın davamlılığını dəstəkləyir.*
Bundan əlavə, motivasiyanın yüksəldilməsinə səbəb olur. Belə olduqda fəallıq artır, tədris maraqlı və rəngarəng xarakter alır.

Açar sözlər: *dil, fəaliyyət, məlumat, ünsiyyət, nitq*

Məlumdur ki, alman dilinin tədrisində kommunikativ fəaliyyətlərin rolu danılmaz olaraq qalır. Bu zaman şifahi nitqin inkişafı dəstəklənir, interaksiya yüksələn xətt üzrə davam edir.

Xüsusilə, son dövrlər İKT-nin bütün sahələrə inteqrasiyası kommunikativ fəaliyyətlərin müxtəlif növlərindən istifadəni əlçatan etmişdir.

Onu da xüsusi olaraq, qeyd etmək lazımdır ki, Kommunikativ Dil Təliminin fəal şəkildə istifadə edildiyi auditoriyalarda adını qeyd etdiyimiz fəaliyyətlərin yeri inkar edilməzdir.

Onlardan bəzilərini aşağıda təqdim edirik.

– rollu oyunlar silsiləsi;
– müsahibələr;
– qrup işi;
– informasiya mübadiləsi;
– fikir mübadiləsi;
– scavenger hunt [4].

Ümumilikdə, yuxarıda da qeyd etdiyimiz kimi, kommunikativ fəaliyyətlərin rolu danılmazdır. Burada vacib məqamlardan biri odur ki, bu cür fəaliyyətlər situasiyada və ya kontekstdə təqdim olunmalı, kommunikativ məqsədləri olmalıdır.

Tipik olaraq, bu fəaliyyətlərə aşağıdakılar aiddir:

– problem həllinə yönəldilmiş tapşırıqlar;
– rollu oyunlar və s.

Bu zaman, həmçinin informasiya mübadiləsi, seçimlər, fidbək olmalıdır.

Yeri gəlmişkən, qeyd edək ki, metodoloji ədəbiyyatlarda dörd fundamental ünsiyyət fəaliyyətinin tipləri qeyd edilir.

Onları təqdim edirik:

1. Verbal
2. Qeyri-verbal
3. Yazılı
4. Vizual

Verbal kommunikasiya fikir mübadiləsi olub, gündəlik həyatımızda vacib faktorlardan sayılır [5].

Qeyri-verbal ünsiyyətə isə ton, melodiya, bədən dili kimi elementlər daxildir.

Yazılı kommunikasiya isə özündə ideya və məlumatların yazılı nitq vasitəsilə həyata keçirilməsini ehtiva etməkdədir.

Buraya isə bunlar daxildir:

– mətn ismarıcları,
– sosial media postları,
– məruzələr,
– memorandumlar və s.

Vizual ünsiyyətə gəlincə, buraya aşağıdakıları aid etmək olar:

– imic,
– simvol,
– qrafiklər və s.

Bunlar da ismarıcların ötürülməsini nəzərdə tutur.

Bunlardan adətən aşağıdakı hallarda istifadə olunur:

– marketinq,
– dizayn,
– data təqdimatı.

Kommunikativ fəaliyyətlərin ən başlıca faydalarından biri də autentik öyrənmənin reallaşdırılmasıdır. Bu fəaliyyətlərin ən maraqlı tərəfi ondadır ki, onlar danışıq kimi çətin və məsuliyyətli bacarığı sınaqdan çıxarmaqda yardımçı olurlar.

Bundan əlavə, onlar təhsilalanlara bacarıqlarını nümayiş etdirmək imkanları yaradırlar. Bu zaman onlar real dünyanın geniş kontekstdə interaksiyalarında olduğu kimi, əvvəlcədən hazırlaşdırılmamış nitq, spontan danışıq qabiliyyəti əldə edirlər.

Məlumdur ki, tipik olaraq, gündəlik həyatımızda bir çox situasiyalarla rastlaşırıq. Bu zaman əksər hallarda əvvəlcədən hazırlaşmadığımız nitq nümayiş etdiririk. Bu da təhsilalanlara spontan şəkildə nitqlərini sınaqdan çıxarmaq imkanları təqdim edir.

Eyni zamanda avtomatik olaraq, onları kommunikasiyaya girməyə məcbur edir.

Kommunikativ fəaliyyətlərin məqsədi dilöyrənənləri eyni zamanda özünə inam nümayiş etdirərək, ucadan danışmağa həvəsləndirməkdir. Belə olan halda səhvlərin baş verməsi, kəmiyyəti, səbəbləri haqqında deyil, sırf şəkildə kommunikasiyanın alınmasını izləmək haqqında düşünmək lazımdır. Bu zaman təhsilverənləri səhvin baş verməsi məsələsi deyil, konkret olaraq, reallaşdırılmış kommunikasiya maraqlandırmalıdır. Daha sonra isə səhvlər üzərində düşünmək və mərhələli şəkildə aradan qaldırmaq olar.

Beləliklə, bu cür ünsiyyət prosesi dilöyrənənləri alman dilində danışmağa sövq edir, interaksiyanın, əməkdaşlığın səviyyəsini yüksəldir.

Ümumiyyətlə, xarici dillərin tədrisində bir çox kommunikativ fəaliyyət növlərinin adlarını qeyd etmək olar ki, onlar da bilavasitə uğurlu və mədəni ünsiyyətin gerçəkləşdirilməsinə yardım edirlər.

Onlardan bəzilərini təqdim edirik.

Məsələn, *hər şəkil bir hekayə danışır* adlı kommunikativ fəaliyyət növü məhz bu baxımdan maraq kəsb edir. Burada təhsilalanlar şəklə öz baxış bucağından baxaraq, müxtəlif fikirlər formalaşdıraraq, onları daha sonra öz yoldaşları ilə bölüşə bilərlər. Bu zaman onlar arasında əməkdaşlıq yüksəlir, interaksiya reallaşdırılır.

Mən telefonla danışıram adlı fəaliyyət növü də öyrənmədə faydalılıq baxımından diqqət çəkir.

Onu da xüsusilə vurğulamaq lazımdır ki, telefon simulyasiyaları faydalı və autentik təcrübə baxımından dilöyrənənlər üçün əla fürsətlər təklif edir. Belə ki, telefon zəngləri bu cür söhbətlərə qoşulmaqda asan və əlçatanlığı ilə seçilir. Bu zaman əsas məsələ söhbətin məcrası-

na düşməkdir. Bu halda danışığın məzmunu hər iki tərəf üçün aydın və anlaşıqlı olmalıdır. Belə olduqda söhbət hər iki tərəf üçün maraqlı və effektiv olur.

Bu münasibətlə metodist F.Kərimov öz kitabında diqqəti kommunikativ fəaliyyətlərin üzərinə çəkərək hər dəfə eyni metod və üsulla, iş forması ilə işləməyin yaxşı nəticə verməd-iyini qeyd edir.

Bundan əlavə, metodist qeyd edir ki, hər dəfə eyni iş forması seçdikdə bu zaman dilöyrənənlərin dərsə, fənnə, keçirilən tədbirlərə, kommunikativ fəaliyyətlərə maraqları nəzərəçarpacaq dərəcədə azalır. Ona görə də bu işlərin təşkilində və aparılmasında müxtəlif və maraqlı, rəngarəng metod və iş formalarından istifadə etmək məqsədəuyğundur. Belə ki, üsulların qarşıya qoyulan məqsədə uyğun olaraq seçilməsi, onların şifahi nitq bacarıqlarının formalaşdırılmasına istiqamətləndirilməsi sözügedən işlərin təşkilində mühüm əhəmiyyətə malikdir [1, s. 45].

Məhz bu baxımdan məsələyə yanaşdıqda aydın olur ki, kommunikativ fəaliyyətlərin müxtəlif növlərinin həyata keçirilməsi təkcə ünsiyyətin gerçəkləşdirilməsi ilə qalmır, eyni zamanda aşağıdakıları özündə ehtiva edir:

- dostluq,
- əməkdaşlıq,
- interaktivlik,
- sosiallaşma,
- fəallıq,
- diskursiv bilik və s.

Bütün bunlar bu kimi əsas keyfiyyətlərin formalaşdırılmasında mühüm vasitə kimi çıxış edir.

Bundan əlavə, kommunikativ fəaliyyətlər içərisində problem əsaslı öyrənmə layihələri tələbələrə ideyalar üzərində düşünmək, fikir irəli sürmək, öz gələcək planlarını təklif etmək imkanları təqdim edir. Bu zaman onlar müstəqil şəkildə işləyərək, konseptuallaşdırmaq, dizayn etmək, öz innovativ axtarışlarını qrup yoldaşları, qrup üzvləri qarşısında nümayiş etdirmək arzusunda olurlar [3, s. 45].

Hesab edirik ki, bu cür situasiyalarda aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

Onları təqdim edirik.

- sinif oyunları təşkil etmək;
- tələbələrə seçimlər təklif etmək;
- müasir texnologiyalardan istifadə etmək;
- dərsləri maksimum interaktiv etməyə çalışmaq;
- materialları real həyati situasiyalara uyğunlaşdırmaq [6].

Alman dilində kommunkativ fəaliyyətlərin təşkili və aparılması məsələlərindən bəhs edərkən ilk diqqət çəkən məsələlərdən ən əsası kommunikativ səriştənin formalaşdırılmasına yönəldilmiş kommunikativ yönümlü çalışmalar sistemindən istifadənin nəzərdə tutulmasıdır.

Metodist Ə.Səfiyev yazır: "Onu da nəzərə almaq lazımdır ki, dil və nitq strukturlarının və onların ifadə vasitələrinin heç də həmişə üst-üstə düşməməsi faktı əlavə linqvistik və metodiki çətinliklərin yaranmasına səbəb olur.

Tədris edilən xarici dilin leksik və qrammatik quruluşunda linqvistik ünsiyyət prosesində istifadə edilməsi prizmasından yanaşan tədqiqatçılar xarici dildə monoloji nitqin aşılanmasına dair məqsədyönlü, xüsusi iş aparmağın zəruriliyini qeyd edirlər" [2, s.99].

Çünki müasir zamanda orta və ali məktəblər qarşısında duran ən vacib məsələ ünsiyyətə maksimum nail olmaqdır. Bunun üçün də kommunikasiyanın gerçəkləşdirilməsinə xidmət edən çalışmalar kompleksindən alman dilinin tədrisi prosesində istifadə etmək xüsusi əhəmiyyətə malikdir.

Bu cür fəaliyyətlər dilöyrənənləri özünüinkişaf yoluna salır, onlara təlimdən və sosial mühitdən qazandığı bilikləri öyrəndiyi və öyrənəcəyi biliklərlə əlaqələndirməyə, birləşdirmə-

yə, əsaslandırmağa və yeni, yüksək səviyyədə bilik qazanmağa şərait yaradır, bu sahədə lazımi imkanlar təqdim edir.

Dünyada hər bir kəsin yaradıcı olması, öz bacarığı fonunda yeni fikir və ideyalar irəli sürüb, onu həyatda tətbiq etməsi vacib, dəyərli bacarıqlardandır.

Bu mənada təlimin müxtəlif məqsədləri vardır ki, onlardan əsas olanları təqdim edirik:

1) dilöyrənənlərin əxlaq və davranışlarını diqqətdə saxlamaq;
2) özünü inkişaf etdirərək bilik qazanmaq.

Bu yol qazanılmış bilikdən, vərdişdən keçərək, yeni əldə edilmiş biliyə istiqamətlənir.

Beləliklə, buradan aydın olur ki, təlim fəaliyyətinin strukturu dərs zamanı müəllim tərəfindən dilöyrənənlər üçün seçilən fərdi və yaxud kooperativ təlim fəaliyyəti anlamı daşıyır.

Komandalara bölünmüş dilöyrənənlər təlim fəaliyyətlərini cütlükdə və komandada aşağıdakı formalarda həyata keçirirlər:

– müzakirə,
– dəyirmi masa,
– beyin hücumu,
– rollu oyunlar,
– açın, tapın,
– səhvi tapın,
– telefon və s.

Bunları təhsilverənlər nəzərdə tutulmuş müxtəlif strukturlarda aparırlar.

Beləliklə, kommunikativ fəaliyyətlərin real məqsədləri olur. Bu məqsədlərə aşağıdakılar daxildir:

1. Məlumatın tapılması;
2. Maneələrin aradan qaldırılması;
3. Özün haqqında danışmaq;
4. Mədəniyyətlər haqqında məlumat əldə etmək, öyrənmək.

Burada həm fikir bildirməli, həm də başqalarını dinləməyi bacarmalısan. Belə ki, fikir və ideyaların bölüşdürülməsində iştirak etmək, dinləmə, danışma bacarıqları nümayiş etdirmək lazımdır.

Burada digər maraqlı məqam kommunikativ tapşırıqların yerinə yetirilməsi prosesidir. Bu zaman verbal və qeyri-verbal fəaliyyətlərdən istifadə etmək zərurəti meydana çıxır.

Deməli, spesifik kommunikativ situasiyalarda spesifik məqsədlərə çatmaq üçün məhz bu davranış strategiyalarından istifadə etmək lazımdır.

Hər bir fəaliyyətin quruluşu təhsilalanlarda bir neçə sosial bacarıq və vərdişlərin yaradılmasına bilavasitə vəsilə olur. Bu təlim zamanı iştirakçı olan hər bir dilöyrənən məntiqi üsulla bilik qazanmaqla, həm də tərbiyəvi cəhətdən sosial mühitə uyğun olaraq, özünü aparmaq vərdişinə yiyələnir.

Hazırda elmi-texniki tərəqqidə inkişaf təbii olaraq, tədrisdə texniki vasitələrin tətbiqi ilə bağlı ciddi zərurət və geniş imkan yaratmışdır.Bu da sözügedən fəaliyyətlərin daha da maraqlı olmasına bilavasitə təsirlə səciyyələnir.

Beləliklə, bu cür kommunikativ fəaliyyətlərin tətbiqi və mütəmadi istifadəsi tələbələri psixoloji gərginlikdən uzaqlaşdırır, canlı ünsiyyət prosesində onları daha da fəal edir.

Məhz bu aspektdən yanaşdıqda dilöyrənənlərdə müstəqillik, öz fikirlərini sərbəst şəkildə söyləmək və başqalarını dinləyə bilmək bacarıqları inkişaf edir.

Bunun üçün müxtəlif kommunikativyönümlü çalışma növlərinin istifadəsi vacib və əsas şərt olaraq dəyərləndirilməlidir.

Onlardan bəzilərini diqqətə çatdıraq:

1. Tələbələri iki komandaya bölərək hər iki komandaya eyni vaxtda verilmiş aforizmləri təqdim edin.

Verilmiş aforizmlərin müasir dövrlə nə dərəcədə səsləşməsinə diqqət edin. Bu barədə danışın və hekayə düşünün.

2. Təhsilalanların adlarını kiçik kartlarda qeyd edin və stolun ortasına düzün.

– kartda adları qeyd olunan tələbəni xasiyyət baxımından təsvir edin və qiymətləndirin;

– vaxt tamam olduqdan sonra təhlil etdiyiniz şəxs barəsində əldə etdiyiniz məlumatları özünə təqdim edin;

– sizin haqqınızdakı oxuduğunuz məlumatları təsdiq və ya inkar edin.

3. Kiçik hekayədəki cümlələri ayrı-ayrı hissələrə bölərək, zərflərə yerləşdirin.

Qrupdakı dilöyrənənləri say baxımından iki komandaya bölərək, hər iki komandaya eyni zamanda zərfləri təqdim edin. Cümlələri çevik və ardıcıl olaraq sistemləşdirən komanda qalib hesab edilir.

4. Verilmiş hekayəni tamamlayın.

5. Qeyd edilmiş frazaya münasibət bildirin.

Bunlardan əlavə, digər fəaliyyət formalarına da diqqət yetirək.

Dilöyrənənlərə cütlərlə iş tapşırılır.

a) Hekayə yazma

Təhsilalanlara şəkilli hekayə hissələri təqdim edilir. Belə ki, onlar bütöv hekayəni bərpa etməlidirlər. Qrupun hər bir üzvü müxtəlif hissələri gördüklərindən bunu etmək onlara o qədər də çətin görünmür.

Bu texnikada prosedur aşağıdakı ardıcıllıqla aparılır:

I mərhələ

Dörd böyük qrup olmalıdır: A, B, C, D.

II mərhələ

Hər qrupa şəkillərdən bir hissəsi təqdim edilir.

III mərhələ

2 dəqiqə sonra qrup şəkilləri müəllimə verir.

IV mərhələ

Müəllim bu mərhələdə əvvəlki qruplardan bir nəfər seçib yeni qrup təşkil edir.

Məsələn, A-dan 1 nəfər, B-dən 1 tələbə, D-dən 1 tələbə.

V mərhələ

Dilöyrənənlər yeni qruplarda cəhdlər etməli, hekayə yaratmalıdırlar. Eyni zamanda şəkildə nümayiş olunanları müzakirə etməlidirlər.

VI mərhələ

Müəllim müxtəlif qruplarda hekayə danışır. Əksər hallarda hekayədə birdən çox variantlar mövcud olur.

Sonda müəllim qruplara bütün şəkilləri nümayiş etdirir.

b) şeir yazmaq

Şifahi nitqin inkişaf etdirilməsi ilə bağlı kommunikativ fəaliyyətlər sırasında şeir yazmaq da yer tutur. Onlara pərakəndə formada şeir parçaları təqdim edilir. Bu fəaliyyətə isə aşağıdakılar daxildir:

– oxu

– dinləmə

– müzakirələr

I mərhələ

Dilöyrənənlər qruplara bölünür.

II mərhələ

Qrupda hər bir dilöyrənənə kart paylanır.

III mərhələ

Qruplara şeirin hər hansı bir misrasını oxumaq haqqında məlumat verilir.

IV mərhələ

Qruplara şeirə başlıq düşünmək tapşırılır.

Növbəti bənd problem həlli ilə bilavasitə əlaqədardır.

"Problem həlletmə" adlı kommunikativ fəaliyyət növü problemin həllini tapmaq istiqamətinə yönəldilir.

Onu da vurğulamaq yerinə düşərdi ki, kommunikativ fəaliyyətlər içərisində ən çox populyar olanlardan biri də "Çək və təsvir et" fəaliyyəti hesab edilir. Bu zaman təhsilalanlardan biri öz tərəfdaşına şəkil çəkib göstərərək, ondan müəyyən suallar soruşmağa başlayır.

Sözügedən fəaliyyət növü təhsilalanların kommunikativ bacarıqlarının inkişaf etdirilməsini dəstəkləməklə yanaşı, onların danışıq və dinləmə qabiliyyətlərinin inkişafına yardım edir.

Buradan aydın olur ki, bu cür fəaliyyətlər Kommunikativ Dil Təlimi məsələləri baxımından yüksək əhəmiyyət kəsb etməkdədir.

Görünən odur ki, müasir dərsin əsas keyfiyyətlərindən biri dilöyrənənlərin fəallığı hesab edilir ki, buna da kommunikativ fəaliyyətlərdən istifadə etməklə nail olmaq mümkündür. Bu metodlar fonunda iş formaları müəyyən edilir ki, buraya fərdi, cütlərə, böyük və kiçik qruplarla iş daxil edilir və bunlar təlim-tədris baxımından əlverişli hesab edilir.

Təhsilalanlar ünsiyyət zamanı özünü və digərlərini daha yaxşı anladığına görə istər qrup, istərsə də cütlərlə işdə fəallıq, dilöyrənənlərin fəaliyyətində bir-biri ilə əməkdaşlıq, yaradıcılıq, qarşılıqlı münasibətlər formalaşmağa başlayır.

Müəllim dərsin formasında seçimlər edərkən dilöyrənənlərin marağını nəzərdə saxlamalıdır.

Dərsdənkənar mühitdə mövcud informasiya vasitələrindən fəal istifadə edən dilöyrənənlər dərsdə onlar üçün maraqlı olanları görmək istəyir. Bunun üçün müəllimin İKT-dən yüksək istifadə bacarığı olmalıdır.

Eyni zamanda bu texniki təminatı lazımi materiallarla zənginləşdirməyi bacarmalıdır.

Mövzuya uyğun olan mənbələri təhsilverənlər elə seçməlidirlər ki, bu resursların da rəngarəngliyi dərsin maraqlı və fəal keçirilməsinə, qarşıya qoyulan məqsədə nail olmağa geniş imkanlar yaratsın. Belə dərslərdə, həmçinin digər texniki təminatların olması da dərs prosesinin səmərəliliyini bilavasitə artırır.

İşin elmi nəticəsi. Şifahi nitqin inkişaf etdirilməsi istiqamətində təhsilverənlər və onların seçdikləri materiallar, kommunikativ fəaliyyətlərin xüsusiyyətləri, səmərəliliyi mühüm əhəmiyyətə malikdir. Burada ən səmərəli hesab edilən yollardan biri alman dilində danışanları məqsədyönlü şəkildə dinləmək və maraqlı söhbətlərə qoşulmağa həvəsli olmaqdır. Əgər dilöyrənənlər çox ünsiyyətə qoşulursa bir o qədər də şifahi nitq və dinləyib-anlama qabiliyyətləri tez formalaşar.

İşin elmi yeniliyi. Sözügedən məqalədə kommunikativ fəaliyyətlərlə bağlı indiyə qədər araşdırılan məsələlər təhlil edilir, əldə edilən nəticə və təkliflər konkretləşdirilir, xülasələşdirilərək təqdim edilir.

İşin tətbiqi əhəmiyyəti. Araşdırılan mövzu həm orta, həm də ali məktəb kontekstində alman dilinin tədrisində şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi istiqamətində vacib əhəmiyyət kəsb etməklə yanaşı, eyni zamanda əməkdaşlığın, interaksiyanın maksimum təmin edilməsi baxımından faydalı hesab olunur.

Ədəbiyyat

Azərbaycan dilində

1. Kərimov, F. Şifahi nitqin inkişafı yolları / F.Kərimov, – Bakı: BSU nəşr., – 2002, – 139s.
2. Səfiyev, Ə. İngilis monoloji nitqinin kommunikativ tədrisinin əsasları / Ə.Səfiyev, – Bakı: Elm, – 2019, – 176 s.

Alman dilində

3. Anderson, J. Kognitive Psychologie. Eine Einführung / J.Anderson, – Heidelberg: Francke, – 1989, – 118 s.

İnternet resursları
4. https://.wikipedia.org
5. https://colinjames method.com
6. https:// www.thought co.com

G.A.Huseynova

The Importance of usage of the Communicative Activities in German Language Teaching at High Schools

Summary

In this article great attention was given to the importance of usage of the communicative activities in German language. There is noted different communicative activity types in this research. Also, here are touched to the different important roles of these activities in teaching processing.

So, these above mentioned activities increase the quality of process of the lessons, empower collaboration and interaction. Also, help to increase motivational sphere of learners.

At that time, the activeness of the students increases in these lessons, teaching process gets an interesting and colourful character.

Key words: *language, activity, information, communication, speech*

Г.А.Гусейнова

Важность использования коммуникативной деятельности в обучении немецкому языку в вузах

Резюме

В статье подчеркивается важность использования коммуникативной деятельности при обучении немецкому языку. Упоминаются названия разных видов коммуникативной деятельности. Рассматривается важная роль этих мероприятий в образовании.

Таким образом, упомянутые мероприятия повышают эффективность обучения, укрепляют сотрудничество, поддерживают непрерывность взаимодействия.

Кроме того, это приводит к повышению мотивации. В этом случае повышается активность, обучение становится интересным и красочным.

Ключевые слова: *язык, деятельность, информация, коммуникация, речь*

Rəyçi: fil. f.d. N.M.Əliyeva

Redaksiyaya daxil olub: 07.04.2025

X.O.XƏLİLOVA
dissertant, elmi işçi
e-mail: xalida-83@rambler.ru
:https://orcid.org/0000-0002-3174-0621

AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
(Bakı şəh., H.Cavid pr., 115)

CƏZAÇƏKMƏDƏN AZAD OLUNMUŞ ŞƏXSLƏRİN CƏMİYYƏTƏ REİNTEQRASİYASININ SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ VƏ TƏHLİLİ

Xülasə. *Məqalədə cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslərin cəmiyyətə reinteqrasiyası prosesi sosial və psixoloji aspektlərdən təhlil olunur. Keçmiş məhkumların sosial adaptasiya prosesində qarşılaşdıqları əsas çətinliklər – stiqmatizasiya, psixoloji travmalar, işsizlik və sosial təcrid kimi məsələlər araşdırılır. Nəzəri əsas kimi E.Qoffmanın Stiqma nəzəriyyəsi, E. Dürkheym və E.Eriksonun sosial inteqrasiya və kimlik inkişafı modelləri götürülmüşdür. Azərbaycan və beynəlxalq təcrübələr müqayisəli şəkildə təqdim edilir. Araşdırmanın nəticələri göstərir ki, reinteqrasiya yalnız hüquqi tənzimləmə ilə deyil, eyni zamanda məqsədyönlü sosial, psixoloji və iqtisadi dəstək mexanizmləri ilə effektiv şəkildə təmin edilməlidir. Dövlətin, qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyəti institutlarının əlaqələndirilmiş fəaliyyəti bu prosesin uğurlu həyata keçirilməsində mühüm rol oynayır.*

Açar sözlər: *cəzaçəkmədən azad olunmuş şəxslər, resosializasiya, sosial adaptasiya, stiqma, inteqrasiya, psixoloji və sosial reabilitasiya*

Cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslərin cəmiyyətə inteqrasiyası həm sosial, həm də psixoloji baxımdan mürəkkəb və çoxşaxəli prosesdir. Azadlıqdan məhrumetmə təcrübəsi onların "cəzalı", "kriminal" və ya "toplumdan xaric edilmiş" kimi etiketlənməsinə səbəb olur ki, bu da sosial adaptasiyanı çətinləşdirir və stiqmatizasiyanı dərinləşdirir [7, s.15]. Belə şəxslər azadlığa çıxdıqdan sonra sosial təcrid, psixoloji travmalar, işsizlik, yaşayış problemləri və cəmiyyətin önyarğılı münasibətilə üzləşirlər. Bu faktorlar onların reinteqrasiyasına ciddi maneələr yaradır və təkrar cinayət riskini artırır [10].

Tədqiqatlar göstərir ki, keçmiş məhkumların sosial adaptasiyasının uğurla həyata keçirilməsi üçün sistemli dövlət dəstəyi, hüquqi təminatlar və qeyri-hökumət təşkilatlarının fəal iştirakı zəruridir. Beynəlxalq təcrübədə bu məqsədlə tətbiq olunan bir sıra səmərəli proqramlar mövcuddur. Azərbaycanda da qanunvericilikdə reinteqrasiya ilə bağlı müvafiq normativ müddəalar mövcuddur, lakin onların praktik icrası və effektivliyi hələ də geniş müzakirə mövzusudur [1].

Reinteqrasiya prosesi həm sosial, həm də psixoloji ölçüləri əhatə edir. Keçmiş məhkumların sosial təcrid və qeyri-normal şəraitdə yaşamaq təcrübəsi psixoloji travmalar, özünə inamın azalması və ictimai münasibətlərdə çətinliklərlə nəticələnir. Bu vəziyyət onların cəmiyyətlə münasibətlərində uyğunsuzluğa və sosial disfunksiyaya səbəb olur. Belə travmaların aradan qaldırılması yalnız fərdi psixoloji yardım vasitəsilə deyil, eyni zamanda ictimai səviyyədə məqsədyönlü və sistemli dəstək tələb edir [4].

E.Goffmanın Stiqma nəzəriyyəsinə əsasən, cəmiyyətin fərdləri mənfi stereotiplərlə etiketləməsi onların sosial münasibətlərdə iştirak imkanlarını məhdudlaşdırır. Cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslər də çox zaman "kriminal keçmiş" stiqması ilə qarşılaşdıqları üçün iş tapmaqda, sosial əlaqələr qurmaqda və ictimai həyata inteqrasiya prosesində ciddi çətinliklərlə üzləşirlər [7, s. 28]. Məşğulluq problemi keçmiş məhkumların reinteqrasiyasına mane olan əsas sosial-iqtisadi amillərdən biridir. İş imkanlarının məhdudluğu yalnız onların iqtisadi rifahına deyil, həm də psixoloji sabitliyinə və cəmiyyətdə qəbul olunma səviyyəsinə

mənfi təsir göstərir [12]. Məşğulluq, eyni zamanda, fərdin özünəinam hissini bərpa etməsi və cəmiyyətlə konstruktiv münasibət qurması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda aparılan tədqiqatlar göstərir ki, keçmiş məhkumların əmək bazarına çıxışına əsas maneələrdən biri işəgötürənlərin önyarğılı və diskriminativ münasibətidir. Halbuki qanunvericilik bu şəxslərin məşğulluq hüququnu tanıyır. Lakin praktikada məşğulluq imkanlarının məhdudluğu və sosial reabilitasiya mexanizmlərinin zəifliyi onların əmək bazarında iştirakını məhdudlaşdırır [1]. Nəticədə keçmiş məhkumlar marginallaşma, sosial təcrid və təkrar cinayət riski ilə üzləşirlər.

Cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslərin reinteqrasiyası kontekstində sosial reabilitasiya və sosial təcrid anlayışları mühüm rol oynayır. Bu prosesdə cəmiyyətin və dövlətin psixoloji, sosial və iqtisadi dəstəyi həlledici əhəmiyyət daşıyır. Reabilitasiya əsasən iki istiqaməti əhatə edir: psixoloji (travmaların aradan qaldırılması, psixoloji yardım) və sosial (işlə təminat, sosial münasibətlərin qurulması) [5]. Azərbaycanda bu sahədə dövlət proqramı və hüquqi-sosial dəstək mexanizmləri mövcuddur, lakin onların praktik effektivliyi hələ də müzakirə predmetidir.

Matza və Sykes-in nəzəriyyələrinə görə, deviant davranışlar əsasən sosial nəzarət sistemlərinin zəifləməsi ilə bağlıdır [4]. Matza-nın "zəif sosial nəzarət" nəzəriyyəsinə əsasən, cinayətkar davranış yalnız fərdi motivasiyalarla deyil, həm də sosial münasibətlər və nəzarət mexanizmlərinin gücü ilə formalaşır [8]. Keçmiş məhkumların sosial nəzarət strukturlarından uzaq düşməsi onları ya təcridə, ya da kriminallaşmış qruplara yönəldə bilər [9]. Bu baxımdan reinteqrasiyada sosial bağların möhkəmləndirilməsi, məşğulluq imkanlarının artırılması və stiqmatizasiya ilə mübarizə əsas prioritetlərdəndir [13].

Durkheimin "sosial inteqrasiya" nəzəriyyəsi kontekstdə xüsusi önəm daşıyır. O, fərdin normativ sistemə uyğunlaşmasını cəmiyyətin sabitliyi üçün vacib sayır [2]. Keçmiş məhkumların dəstəklə təmin olunaraq sosial norma və dəyərlərə inteqrasiyası ictimai strukturun möhkəmlənməsinə xidmət edir.

Psixososial baxımdan Eriksonun "İdentitetin formalaşması" nəzəriyyəsi göstərir ki, şəxsiyyətin inkişafı sosial münasibətlərin təsiri ilə baş verir [3]. Həbs müddətində identitetin zədələnməsi və sonrakı bərpa prosesi reinteqrasiyanın əsas mərhələlərindəndir [7, 12]. Bu yanaşma Merton və Parsonsun "rol nəzəriyyəsi" ilə uyğunlaşır. Onlara görə, fərdlərin sosial rolları mənimsəməsi və bu rolların bərpası uğurlu reinteqrasiyanın əsas şərtidir [2].

Cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslərin reinteqrasiyasında ailə münasibətlərinin bərpası və sosial əlaqələrin yenidən qurulması mühüm rol oynayır. Ailə dəstəyi psixoloji dayanıqlıq və sosial stabilliyin güclənməsinə, beləliklə də cəmiyyətə uyğunlaşmanın asanlaşmasına şərait yaradır. Lakin həbs müddətində pozulmuş ailə bağları və emosional uzaqlaşma reinteqrasiyanı çətinləşdirə bilər. Buna görə də ailə üzvlərinin də prosesə cəlb olunması və sosial-psixoloji dəstək alması vacibdir.

Sosial və psixoloji reabilitasiya tədbirləri – peşə təlimləri, psixoterapiya və sosial dəstək proqramları – keçmiş məhkumların sosial rollarını bərpa etməsinə və həyat keyfiyyətinin yüksəlməsinə mühüm töhfə verir [2]. Bu proses təkcə fərdi deyil, həm də ictimai təhlükəsizlik və sosial inklüzivlik baxımından strateji əhəmiyyət daşıyır.

Lakin keçmiş məhkumlar tez-tez işsizlik, stiqmatizasiya, hüquqi məhdudiyyətlər və sosial təcrid kimi problemlərlə qarşılaşırlar. Struktur-funksional yanaşma bu problemlərin hüquqi sistemin qeyri-effektivliyi, iqtisadi imkanların məhdudluğu və mənfi ictimai münasibətlə əlaqəli olduğunu göstərir [5].

Tədqiqatlar sübut edir ki, reinteqrasiyanın uğuru kompleks və sistemli yanaşmadan asılıdır. Məşğulluq imkanlarının genişləndirilməsi, peşə hazırlığı, psixoloji yardım və sosial dəstək proqramları bu prosesin əsas istiqamətləri kimi çıxış edir. Sabit iş imkanları və peşə bacarıqları təkrar cinayət riskinin azalmasında mühüm rol oynayır [11], psixoloji yardım və fərdi məsləhət isə emosional stabillik və sosial adaptasiya üçün zəruridir [10, 2].

Reinteqrasiya prosesində hüquqi çərçivənin təkmilləşdirilməsi əsas şərtlərdəndir. Hüquqların bərpasını təmin edən mexanizmlər keçmiş məhkumların cəmiyyətə inteqrasiyasına töhfə verir [6]. Bu şəxslərə qarşı ictimai stereotiplərin aradan qaldırılması üçün maarifləndirmə və tolerantlıq təşviqi də vacibdir [8]. Effektiv resosializasiya hüquqi, sosial və iqtisadi institutların koordinasiyalı fəaliyyəti ilə mümkündür ki, bu da həm sosial inklüzivliyə, həm də təkrar cinayətlərin azalmasına xidmət edir.

ABŞ-da "Second Chance Act" və Avropa ölkələrinin reabilitasiya proqramları keçmiş məhkumların hüquqlarını və sosial müdafiəsini təmin etməyə yönəlib [7]. Azərbaycanda isə bəzi ağır cinayətlərə görə məhkum olunanlar azadlığa çıxdıqdan sonra hüquqi məhdudiyyətlərlə üzləşir, bu isə onların dövlət qulluğuna və bəzi sahələrdə çalışma imkanlarını məhdudlaşdırır [1]. Mövcud qanunvericilik bəzi reabilitasiya tədbirlərini nəzərdə tutsa da, onların tətbiqi və effektivliyi artırılmalıdır.

İşsizlik keçmiş məhkumlar üçün ciddi problemdir. İşəgötürənlərin onları risk qrupunda görməsi əmək bazarına inteqrasiyanı çətinləşdirir. Bəzi ölkələrdə bu problemin həlli üçün kvotalar və vergi güzəştləri tətbiq olunur [12].

Sosial münasibətlər və psixososial dəstək də reinteqrasiyada mühüm rol oynayır. Goffmanın "Sosial stiqma" nəzəriyyəsinə görə, keçmiş məhkumlar cəmiyyət tərəfindən tam qəbul edilmədiklərindən identitet böhranı yaşayır, bu isə onların psixoloji izolyasiyasına səbəb olur. Psixoloji konsultasiyalar, sosial işçilərin dəstəyi və qrup terapiyaları bu istiqamətdə mühüm rol oynayır [7, s. 32]. Beynəlxalq təcrübədə müxtəlif modellər mövcuddur: Norveçdə sosial inteqrasiya və məşğulluğa, Almaniyada dövlət-QHT əməkdaşlığına, Finlandiyada isə psixoloji və sosial dəstəyə üstünlük verilir [10]. Bu nümunələr göstərir ki, uğurlu reinteqrasiya üçün dövlət, vətəndaş cəmiyyəti və ictimaiyyət arasında əməkdaşlıq vacibdir.

Azərbaycanda isə model əsasən nəzarət yönümlüdür. Probasiya xidməti mövcud olsa da, sosial-psixoloji dəstək mexanizmləri zəif inkişaf edib. QHT-lər və beynəlxalq layihələr əhəmiyyətli rol oynasa da, bu fəaliyyətlər sistemsizdir. Azərbaycan modeli Skandinaviya ölkələrinin insan yönümlü və reabilitasiya əsaslı yanaşmalarından xeyli fərqlənir.

Keçmiş məhkumların reinteqrasiyası və recidivizmin azaldılması üçün kompleks tədbirlər vacibdir:

• **Dövlət-özəl sektor əməkdaşlığı:** İşlə təminatda subsidiyalar və vergi güzəştləri tətbiq olunmalıdır.

• **Sosial dəstək mexanizmləri:** Hüquqi, psixoloji və sosial yardım mərkəzləri yaradılmalıdır.

• **Maarifləndirmə proqramları:** Stereotiplərin aradan qaldırılması üçün ictimai təbliğat və informasiya kampaniyaları keçirilməlidir.

Bu tədbirlər təkcə fərdlərin cəmiyyətə reinteqrasiyasını deyil, eyni zamanda sosial birliyin və ictimai təhlükəsizliyin möhkəmləndirilməsini təmin edir.

İşin elmi nəticəsi. Tədqiqat göstərir ki, cəzaçəkmədən azad olunmuş şəxslərin cəmiyyətə reinteqrasiyası çoxfaktorlu – sosial, psixoloji və hüquqi çətinliklərlə müşayiət olunur. Sosial stiqma, işsizlik, hüquqi məhdudiyyətlər və psixoloji travmalar əsas əngəllər kimi çıxış edir. Uğurlu reinteqrasiya üçün hüquqi-iqtisadi dəstək yanaşı, sosial inklüzivlik və ictimai qəbulluluq da həlledici əhəmiyyət daşıyır.

İşin elmi yeniliyi. Məqalədə reinteqrasiya prosesi ilk dəfə psixososial və ictimai münasibətlər kontekstində kompleks şəkildə təhlil olunmuş, sosial inklüzivlik və tolerantlığın rolu nəzəri əsaslarla sistemləşdirilmişdir. Sosial adaptasiya ilə hüquqi reabilitasiya arasındakı qarşılıqlı əlaqə vurğulanaraq mövcud elmi boşluğun doldurulmasına töhfə verilir.

İşin tətbiqi əhəmiyyəti və effektivliyi. Tədqiqat əsasında irəli sürülən təkliflər – peşə hazırlığının genişləndirilməsi, psixoloji və hüquqi xidmətlərin əlçatanlığı, ictimai maarifləndirmənin gücləndirilməsi – dövlət və qeyri-dövlət qurumları üçün praktik yönümlüdür. Bu tədbirlər reinteqrasiyanı sürətləndirərək reçidivizmi azaldır və sosial sabitliyə töhfə verir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi. Reabilitasiya və sosial adaptasiya proqramları. – Bakı: Ədliyyə nəşr., – 2023.
2. Михайлов, А.Н. Социальная реабилитация бывших осуждённых: теоретические аспекты и практические подходы // Социальная политика и социология. – 2016, №3 (111), – с. 52-58.
3. Сулимова, А.А. Социальная адаптация лиц, освободившихся из мест лишения свободы // Journal of Social Studies. – 2024, №1, – с. 23-31.
4. Bazemore, G., Stinchcomb, J.B. A Civic Engagement Model of Reentry: Involving Community Through Service and Restorative Justice // Federal Probation. – 2004, №68(2), – p. 14-24.
5. Clear, T.R. Imprisoning Communities: How Mass Incarceration Makes Disadvantaged Neighborhoods Worse / T.R.Clear, – Oxford: Oxford University Press, – 2007.
6. European Commission on Criminal Justice Policy. Resocialization and Reintegration of Ex-Offenders. – Brussels, – 2021.
7. Goffman, E. Stigma: Notes on the Management of Spoiled Identity / E.Goffman, – London: Penguin Books, – 2022, – p.160.
8. Petersilia, J. When Prisoners Come Home: Parole and Prisoner Reentry / J.Petersilia, – Oxford: Oxford University Press, – 2003.
9. Pratt, J. Scandinavian Exceptionalism in an Era of Penal Excess // British Journal of Criminology. – 2008, №48, – p. 119-137.
10. Travis, J. But They All Come Back: Facing the Challenges of Prisoner Reentry / J.Travis, – Washington: Urban Institute Press, – 2005.
11. Visher, C. A., Debus S., Yahner J. Employment After Prison: A Longitudinal Study of Former Prisoners. – Washington: Urban Institute, – 2008.
12. Western, B. Homeward: Life in the Year After Prison / B.Western, – New York: Russell Sage Foundation, – 2018.
13. World Economic Forum. Social Reintegration of Former Prisoners: Challenges and Solutions. – Geneva, – 2022.

Kh.O.Khalilova

Social-Psychological Aspects and Analysis of Reintegration into Society of Persons Released from Places of Imprisonment

Summary

This article analyzes the reintegration process of formerly incarcerated individuals into society from social and psychological perspectives. It examines the main challenges faced by ex-prisoners during social adaptation, including stigmatization, psychological trauma, unemployment, and social isolation. The theoretical framework is based on Erving Goffman's theory of stigma, Émile Durkheim's model of social integration, and Erik Erikson's theory of identity development. Azerbaijani and international experiences are presented in a comparative manner. The study concludes that reintegration should not be limited to legal frameworks but must be accompanied by social, psychological, and economic support mechanisms. The coordinated efforts of the state, non-governmental organizations, and civil society institutions play a crucial role in the successful implementation of this process.

Key words: *former prisoners, resocialization, social adaptation, stigma, integration, psychological and social rehabilitation*

Х.О.Халилова

Социально-психологические аспекты и анализ реинтеграции в общество лиц, освободившихся из мест лишения свободы

Резюме

В статье анализируется процесс реинтеграции лиц, освобождённых из мест лишения свободы, в общество с социальной и психологической точек зрения. Рассматриваются основные

трудности, с которыми сталкиваются бывшие заключённые в процессе социальной адаптации – стигматизация, психологические травмы, безработица и социальная изоляция. В качестве теоретической основы используются теория стигмы Э.Гоффмана, модель социальной интеграции Э.Дюркгейма и теория формирования идентичности Э.Эриксона. Опыт Азербайджана и международная практика представлены в сравнительном аспекте. В результате исследования сделан вывод о том, что процесс реинтеграции не должен ограничиваться лишь правовыми рамками, а должен сопровождаться социальными, психологическими и экономическими механизмами поддержки. Скоординированная деятельность государства, неправительственных организаций и институтов гражданского общества играет ключевую роль в успешной реализации данного процесса.

Ключевые слова: *освобождённые из мест лишения свободы, ресоциализация, социальная адаптация, стигма, интеграция, психологическая и социальная реабилитация*

Rəyçi: p.ü.f.d. G.İ.İsmayılova

Redaksiyaya daxil olub: 14.05.2025

A.İ.İBRAHİMOVA
e-mail: ibrahimovaayet @gmail.com
:https://orcid.org/0009-0003-7182-5683

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

10.62021/0026-0028.2025.2.320

ŞAGİRDLƏRƏ MÜQAYİSƏ BACARIQLARINI AŞILAMAĞIN MƏNTİQİ ƏSASLARI

Xülasə. *Tədqiqat yolu ilə müəyyənləşdirilmişdir ki, müqayisə ağılın kəsərini, şüurun itiliyini artıran, idrak prosesinə düzgün istiqamət verən sönməz məşəldir. Bu sönməz məşəl öyrənilən materialın dərindən dərk olunmasına və möhkəm yadda qalmasına və deməli, lazım gəldikdə asanlıqla yada salınmasına münasib psixoloji şərait yaradır. Şagird ilk növbədə müqayisə zamanı fərqli hadisələrdə (cisimlərdə) oxşarlıq, oxşar hadisələrdə isə fərq axtarmağa alışır. İkincisi, müqayisə real varlığın ümumi qanunauyğunluqlarına, baş beyin qabığında cərəyan edən proseslərə, psixoloji və məntiq hadisələrinə tam uyğun gəlir.*

Açar sözlər: *müqayisə bacarıqları, tərbiyənin məntiqi kökləri, əqli tərbiyə, mərkəzi sinir sistemi, elmi ümumiləşdirmə*

Müqayisə məfhumu məntiq elmində ən sadə kateqoriyalardan biridir. Məfhumun mahiyyətini daha dərindən başa düşmək üçün onun məzmunu ilə həcmi arasındakı fərqi nəzərə almaq lazım gəlir.

Məlumdur ki, hər hansı məfhumun iki başlıca göstəricisi vardır: həcm və məzmun. Məfhumun həcmi həmin məfhumun əhatə etdiyi obyektlərin məcmusu ilə təyin edilir. Məfhumun əhatə etdiyi obyektlərdəki əlamətlərin məcmusu isə onun məzmununu təşkil edir.

Ümumiliyindən və ya xüsusiliyindən asılı olmayaraq hər bir məfhum müvafiq obyektlərdəki oxşarlıq və fərqin birliyini ifadə edir. Sual olunur: əgər hər hansı bir məfhumda həm oxşar və həm fərq əlamətləri əks olunursa, onda ümumi və xüsusi məfhumların bu cəhətdən spesifik xüsusiyyətləri nədən ibarətdir? Bu suala düzgün cavab vermək üçün nəyin: ümumiliyin, yoxsa xüsusiliyin məfhumda üstünlük təşkil etdiyini nəzərə almaq lazım gəlir. Ümuminin (məsələn, ağacın) əks olunduğu xüsusi məfhumda (məsələn, palıd ağacında) xüsusilik üstünlük təşkil edir. Bu xüsusilik imkan verir ki, həmin xüsusini (palıd ağacını) digər xüsusilərdən (çinardan, cökədən, söyüddən və s.) ayıraq.

Xüsusinin (palıdın da) əks olunduğu ümumi məfhumda (ağacda) üstünlük təşkil edən isə xüsusilik deyil, bütün xüsusiləri (çinarı, cökəni, söyüdü və s.) əhatə edən ümumilikdir (ağaclıqdır). Deməli, obyektiv varlığın özü kimi ümumi və xüsusi məfhumlar da dialektik vəhdətdə olurlar. Dialektika həm də orasındadır ki, bu məfhumların hər ikisində (ümumidə də, xüsusidə də), oxşar və fərq əlamətlərinin vəhdəti ifadə olunur. Ümumilikdə oxşarlıq, xüsusilikdə isə fərq üstünlük təşkil edir. Buna görə də məfhumda yalnız ümumiliyin (oxşarlığın) əks olunduğunu, xüsusiliyin (fərqin) isə əks olunmadığını söyləyən məntiqşünaslarla razılaşmaq mümkün deyil.

Məfhumun başlıca əlaməti olmaq etibarilə oxşarlıq və fərqin məhz vəhdət halında inikası həmin məfhumun təşəkkülündə özünü daha qabarıq göstərir.

Məfhumun təşəkkülü dialektik prosesdir, hər bir məfhum tarixi inkişafın, adamların ictimai istehsal təcrübəsinin məhsuludur.

Bəzi mütəxəssislər güman edirlər ki, məfhum bir sıra obyektlərdəki oxşar əlamətlərin istənilən formada aşkara çıxarılması nəticəsində əmələ gəlir. Onlar məfhumun yaranmasında nəinki obyektivliyi, həm də fərq əlamətlərinin rolunu nəzərə almırlar. Bu mövqedə duranlar İ.Kanta istinad edirlər. Kant isə yazırdı: "Mən cökəni, söyüdü və ya şam ağacını görürəm. Əgər onları budaqlarına və yarpaqlarına görə bir-biri ilə müqayisə etsəm, əgər mən onlardakı yalnız ümumi cəhətlərə, yəni gövdələrinə, budaqlarına, yarpaqlarına diqqət yetirsəm, onların böyüklüyünə, formalarına və s. fikir verməsəm, onda mən ağac məfhumu əldə etmiş olmaram" [1, s.101].

Mühakimədən belə çıxır ki, məfhumun əmələ gəlməsi üçün ümumiləşdiriləcək obyektləri seçmək lazımdır. Belə olduqda isə ümuminin özünü qabaqcadan bilmək tələb olunur. Çünki obyektləri bu və ya digər nöqteyi-nəzərdən bu və ya digər məfhuma daxil etmək üçün seçirlər. Belə çıxır ki, ümumiləşdiriləcək obyektlər, yəni məfhumun həcmi qabaqcadan bizə məlum olmalıdır. Sual olunur: Bizə məlum olan məfhumun yaranmasına ehtiyac varmı? Ehtiyac yoxdur!

Məsələnin göstərilən cəhətləri sırasında bizi məfhumun təşəkkülündə müqayisənin rolu da maraqlandırır. Filosofların əksəriyyəti məfhumun yaranmasında müqayisənin rolunu Kant kimi inkar edə bilməmişlər; lakin onlar müqayisənin rolunu müxtəlif cisimlər arasında yalnız ümumi, yəni oxşar əlamətlərin aşkara çıxarılması ilə məhdudlaşdırırlar.

Əslində isə, prof. N.M.Kazımovun göstərdiyi kimi, "müqayisə cisimlər və ya hadisələr arasında yalnız oxşar əlamətləri müəyyənləşdirməklə məhdudlaşmır. Məfhumun formalaşmasında fərq əlamətlərinin, yəni obyektlər arasındakı spesifik xüsusiyyətlərin nəzərə alınması da mühüm əhəmiyyət kəsb edir" [2, s.86].

Kantın gətirdiyi misalla əlaqədar deməliyik ki, bitkilərin digər növlərindən (məsələn, kollardan, otlardan) ağacı fərqləndirmədən ağacın spesifik əlamətlərini üzə çıxarmaq çox çətin olar, bəlkə də heç mümkün olmaz. Ağac məfhumunun təşəkkülü üçün bütün ağaclara xas olan oxşar əlamətlərin aşkara çıxarılması zəruri olduğu kimi, onları bitkilərin digər növlərindən fərqləndirən əlamətlərin üzə çıxarılması da vacibdir. Bu, vahid prosesin – məfhumun əmələ gəlməsinin bir-birindən ayrılmaz olan iki cəhətidir. Kant mühakiməsinin təsiri altına düşmüş bütün filosoflara xatırladırıq ki, onlar da vahid idrak prosesinin bir tərəfini görmüş, digər tərəfini duya bilməmişlər. Fikrən mücərrədləşən müvafiq oxşar və fərq əlamətləri söz formasına girir və sözün mənasını, yəni məfhumun məzmununu təşkil edir.

Məfhumun təşəkkülü cisimlərdəki həm oxşar və həm də fərq əlamətlərinin sezilməsi yolu ilə getdiyindən, habelə formalaşmış məfhumda oxşar və fərq əlamətlərinin birliyi ifadə olunduğundan hər hansı məfhumun başqaları tərəfindən şüurlu mənimsənilməsi üçün müvafiq cisimlərdəki və ya hadisələrdəki oxşar əlamətlərlə yanaşı, fərq əlamətlərini də müqayisə etmək lazımdır. Müqayisənin köməyi ilə biz ümumidə xüsusinin olduğunu, xüsusidə isə ümuminin olduğunu, yəni məfhumda ümumi ilə xüsusinin birliyini aydın başa düşürük.

Məfhumda ümumi və xüsusinin vəhdəti müvafiq sözlərdə ifadə edildiyindən, hər söz iki başlıca vəzifə yerinə yetirir: Söz həm bir qrup cismin adını, həm də konkret bir obyektin adını bildirir. Hər hansı cismi müvafiq sözlə ifadə etdikdə biz, istər-istəməz, həmin cismin məlum cisimlər qrupuna aid olduğunu etiraf etmiş oluruq; bununla da həmin cismin bir qrup cismə oxşarlığını qəbul edirik; eyni zamanda həmin cismin digər qrup cisimlərdən fərqləndiyini də nəzərdə tuturuq.

Cisim və hadisələrdə oxşar və fərq əlamətlərinin varlığı, bu əlamətlərin məfhumlarda vəhdət halında əks olunması və müvafiq sözlərlə ifadəsi onların məfhum üzərində aparılan bütün məntiq əməliyyatlarında təzahürünü şərtləndirir. Buna görə də tərif, təsnif, məhdudlaşdırma, ümumiləşdirmə, mühakimə kimi məntiq əməliyyatlarını müqayisə cəhətdən qısaca səciyyələndirmək lazımdır.

Müəyyən qrup obyektlərə dair biliklər tərifdə sistemləşdirilir. Hər bir tərifdə müvafiq oxşar və fərq əlamətlərinin vəhdəti ifadə edilir. Tərif üçün səciyyəvi cəhət budur ki, əvvəlcə

oxşarlıq, sonra isə fərq göstərilir: fərq oxşarlığa, yəni xüsusi ümumiyə aid edilir. Oxşarlıq göstərilmədən fərqi tərifdə anlamaq mümkün deyil.

Buna görə də tərifdə qabaqca tərif verilən obyektin hansı cinsə mənsub olduğu qeyd edilir, sonra isə onu həmin cinsə aid olan digər növ obyektlərdən fərqləndirən əlamətlər göstərilir.

Tərifdə adı çəkilən cins əlaməti bir qrup obyekti edir, haqqında tərif verilən obyekt də həmin obyektlər qrupuna aid edilir. Tərifdə göstərilən növ əlaməti imkan verir ki, tərif verilən obyekti aid olduğu cinsdə digər növ obyektlərdən fərqləndirək. Deməli, tərifdə səciyyələndirilən məfhum daha geniş olan cins məfhumuna tabe edilir və tərif verilən məfhumu cinsin başqa növ məfhumlarından fərqləndirən əlamət (yaxud əlamətlər) göstərilir.

Fikrimizi "paraleloqram" məfhumuna verilən tərifdə konkretləşdirək, "Paraleloqram" – qarşı tərəfləri paralel olan dördbucaqlıdır. Göründüyü kimi, paraleloqram üçün ən yaxın cins məfhumu dördbucaqlıdır. Paraleloqramı başqa dördbucaqlılardan fərqləndirən növ əlaməti isə qarşı tərəflərin paralelliyidir. Deməli, paraleloqrama tərif vermək üçün romb, kvadrat və s. haqqında təsəvvürə malik olmaq gərəkdir. Bununla bərabər, həmin fiqurları birləşdirən ümumi əlamətin – dörd tərəfin, yaxud dörd bucağın onların hamısına xas olmasıdır. Buna görə də yuxarıda sadalanan fiqurların hamısı dördbucaqlıdır. Dörd tərəfin olmasına baxmayaraq, dördbucaqlılar bəzi əlamətlərə görə bir-birindən fərqlənir. "Paraleloqram dördbucaqlıdır" dedikdə, biz onu dördbucaqlılara aid edirik və onun bütün dördbucaqlılara oxşadığını söyləyirik. Paraleloqram məfhumuna verilən tərifir ikinci hissəsi paraleloqramın digər dördbucaqlılardan fərqini əks etdirir. Deməli, paraleloqramın tərifi iki cəhəti: həm paraleloqramın başqa dördbucaqlılarla oxşarlığını, həm də onun digər dördbucaqlılardan fərqini eyni zamanda əks etdirir.

Oxşarlıq və fərqin birliyi təsnifdə də ifadə olunur. Təsnif xarici aləmin cisim və hadisələrini müəyyən oxşar əlamətə görə qruplaşdırmaq kimi başa düşülür. Cisim və hadisələr təsadüfi əlamətlərinə görə deyil, mühüm əlamətinə görə qruplaşdırılır [3, s.11]. Başlıca əlamətinə görə cisim və hadisələrin müəyyən qruplara aid edilməsi, yəni təsnif məfhumun həcmini müəyyənləşdirməyə xidmət edir, məsələn, "üçbucaq" məfhumunu bucağın xarakterinə görə təsnif etdikdə biz onu itibucaqlı üçbucağa, düzbucaqlı üçbucağa, korbucaqlı üçbucağa ayırırıq. Üçbucaqlıları tərəflərin qarşılıqlı münasibəti əsasında da təsnif etmək olur. Göründüyü kimi, cisim və hadisələrin təsnifi, yəni qruplaşdırılması zamanı onlar oxşar əlamət zəminində (bizim misalda üçbucaq əsasında) fərqləndirilərək bu və ya digər qrupa (düzbucaqlı üçbucağa, korbucaqlı üçbucağa və s.) aid edilir. Başqa sözlə desək, məfhumun həcmi bölünəndə, yəni təsnif ediləndə bir qrup oxşar cisimlərin fərqi qeyd edilir.

Məfhumun məhdudlaşdırılması zamanı şüurumuz ardıcıl olaraq bir obyektdən digərinə, bir məfhumdan başqasına keçir. Bu zaman hər sonra gələn məfhumun həcmi əvvəlki məfhumun həcminin bir hissəsini təşkil edir (Bitki– ağac– yasəmən– ağ yasəmən). Nəhayət, biz gəlib xüsusi məfhumda dayanırıq.

Məfhumun məhdudlaşdırılmasında bir məfhumdan digərinə keçdikcə hər sonra gələn məfhumun məzmunu yeni-yeni əlamətlər hesabına zənginləşir.

Bu yeni əlamətlər əvvəlki məfhumun həcminin yalnız bir hissəsinə aid olur. Sonra gələn məfhumun məzmununa yeni əlamətlərin əlavə olunması həmin məfhumu əvvəlki məfhumdan fərqləndirməyə imkan verir. Başlıca cəhət orasındadır ki, hər sonra gələn məfhum əvvəlki məfhumdan fərqlənsə də məhdudlaşdırma əməliyyatı ümumi oxşarlıq çərçivəsində cərəyan edir. Ümumi oxşarlıq çərçivəsində məfhumların fərqləndirilməsi ona görə mümkün olur ki, məhdudlaşdırma prosesində məfhumun həcmi daralır, lakin yox olmur, məfhumun həcmində müəyyən oxşar hissə, cəhət qalır. Deməli, məhdudlaşdırma əməliyyatını müəyyən məfhumun həcminə daxil olan oxşar obyektlərin ardıcıl şəkildə fərqləndirilməsi kimi başa düşmək olur.

İşin elmi nəticəsi. Müqayisəli tərzdə düşünmək imkanları təbiət və cəmiyyət hadisələrinin özündə, mərkəzi sinir sistemi fəaliyyətinin qanunauyğunluqlarında, psixi proseslərdə, düzgün təfəkkür əməliyyatlarında vardır. Şagirdlər bu imkanları bilməli və onları nəzərə alaraq müqayisəli şəkildə düşünməlidir. Müqayisəli düşünmək imkanı müəyyən şəraitdə reallaşa bilir.

İşin elmi yeniliyi ondan ibarətdir ki, təlimdə müqayisədən istifadənin ədəbiyyatda şərh edilmiş, təlimdə müqayisənin əlamətləri və təzahür formaları üzə çıxarılmış, şagirdlərdə müqayisə bacarıqlarını formalaşdırmağın ümumi qaydalarına və metodik xüsusiyyətlərinə aydınlıq gətirilmişdir.

İşin tətbiqi əhəmiyyəti. Müqayisəyə dair söylənmiş fikirlərin praktikada ümumiləşdirilməsi üçün indi daha geniş imkanlar yaranmışdır. Ağlın bu sönməz məşəlinə dair fikirlərin ümumiləşdirilməsi nəinki müəllimlər üçün, bütün elm adamları və peşə sahibləri üçün də faydalı olmalıdır.

Ədəbiyyat

1. Kazımov, N.M. Müqayisə üzərində işin nəzəriyyəsi və təcrübəsi / N.M.Kazımov, – Bakı: OKA Ofset, – 2007.
2. Kazımov, N.M. Ağlın sönməz məşəli / N.M.Kazımov, – Bakı: OKA Ofset, – 2006.
3. Кириллова, Г.Д. Сравнение в процессе прочного условия знаний учащимися V классе: / Автореферат…канд.пед.наук. – М., – 2014.

A.I.Ibragimova

Logical Basis for Teaching Schoolchildren Comparison Skills

Summary

Research has shown that comparison is an inextinguishable flame that enhances the sharpness of the mind, increases clarity of consciousness and gives the cognitive process the right direction. This inextinguishable flame creates a psychological environment that promotes deep understanding and strong memorization of the material being studied, and therefore its easy recall when necessary. First of all, during the comparison, the student gets used to looking for similarities in different phenomena (objects) and differences in similar ones. Secondly, comparison is fully consistent with the general laws of real life, processes occurring in the cerebral cortex, psychological and logical phenomena.

Key words: *comparative skills, logical foundations of education, mental education, central nervous system, scientific generalization*

А.И.Ибрагимова

Логические основы привития школьникам навыков сравнения

Резюме

Исследованиями определено, что сравнение – это неугасимое пламя, которое усиливает остроту ума, повышающее ясность сознания и придает познавательному процессу правильное направление. Это неугасимое пламя создает психологическую среду, способствующую глубокому пониманию и прочному запоминанию изучаемого материала, а значит, и его легкому припоминанию при необходимости. Прежде всего, в ходе сравнения ученик привыкает искать сходства в разных явлениях (объектах) и различия в схожих. Во-вторых, сравнение полностью соответствует общим закономерностям реального бытия, процессам, происходящим в коре головного мозга, психологическим и логическим явлениям.

Ключевые слова: *сравнительные навыки, логические основы воспитания, умственное воспитание, центральная нервная система, научное обобщение*

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 02.05.2025

N.R.İSMAYILOVA
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
e-mail: niay.83@mail.ru
:https://orcid.org/0000-0002-0857-7475

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı ş., Nəsimi r., Koroğlu Rəhimov, 13)

10.62021/0026-0028.2025.2.324

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİALLAŞMASINDA OYUN VƏ OYUNCAQLARIN PEDAQOJİ ƏSASLARI

Xülasə. *Məqalədə məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında oyun və oyuncaqların pedaqoji əsaslarından bəhs edilir. Qeyd olunur ki, insanın şəxsiyyət olaraq yetişib və cəmiyyətdə özünəməxsus yer tutması mühüm bir məsələdir. Ona görə də insan cəmiyyətə uyğunlaşır, fəaliyyət göstərir. Bu baxımdan məktəbəqədər yaşlı uşaqların emosiyaları düzgün təqdim etməsində, malik olduqları bacarıqları nümayiş etdirmələrində oyun prosesi xüsusi əhəmiyyət daşıyır. Mühüm bir məqamı da bildirim ki, oyun prosesi o qədər də fəallıq göstərə bilməyən, özünəinamı zəif olan uşağı da yüksək şəkildə formalaşdıra bilir. Ona görə də uşaq bu fəaliyyət zəminində ünsiyyəti, fəallığı, özünəinamı öyrənir, həm də öz həmyaşıdlarının fikirlərinə hörmətlə yanaşır və kollektivçiliyə alışır.*
Oyun prosesində uşaq ətraf aləmi özü üçün sanki "kəşf edir". Belə ki, o, diqqətini bir yerə toplamağı, qarşısına qoyduğu məqsədə çatmağı öyrənir, eyni zamanda, ölçü, həcm, forma, məsafə və s. ilə əlaqədar olan məlumatları mənimsəmiş olur.

Açar sözlər: *məktəbəqədər yaş, uşaq, sosiallaşma, oyun, oyuncaq, pedaqoji əsas*

Məktəbəqədər yaşlı uşaqlarda yeni fəaliyyət növü – oyun həlledici rol oynayır. Bu prosesdə uşaq oyun qaydalarına tabe olmaqla yanaşı, həm də oyunu başqa uşaqlarla həyata keçirməyə başlayır. Qaydaları pozduğu üçün uşaq cəzalandıra və düz oynadığı üçün mükafatlandırıla bilər. Oyun prosesində uşaq oyunu məqsədini, sujetini, oyunun vasitələrini və oyun davranışlarını mənimsəmiş olur. Oyunun sujetini mənimsəmə prosesinin olması uşağı planlı fəaliyyətə sövq edir. Uşaq nə qədər çox oynayarsa, dərketmə, yetkinləşmə, həyata pozitiv münasibət bir o qədər yüksək olur.

Oyuncaq sözünün mənası müxtəlif olması ilə seçilir. Belə ki, bəzi insanlar üçün bu sözün mənası bər-bəzək, bəziləri üçün isə əyləncə olaraq işlədilir.

Oyuncaqlar uşaq oyunlarının atributu hesab olunur. Oyuncaqlar uşaq oyunlarını daha məzmunlu və əhəmiyyətli etməsi ilə seçilir. Çünki oyuncaqlar uşaqların ətraf aləmi dərk etməsində, müstəqil fəaliyyət göstərməsində, nitqin, təfəkkürün inkişafında, dünyagörüşünün formalaşmasında mühüm yer tutur. Oyuncaq uşaqların fiziki, əqli, əxlaqi, estetik və əmək tərbiyəsində əsas rol oynayır. Bu baxımdan böyüklərin həyatında məişət əşyaları nə qədər qiymətlidirsə, uşaqların da həyatında oyuncaqlar bir o qədər qiymətlidir. Oyuncaqlar uşaqlarda əşyalarla davranmağı, onlardan harada və necə istifadə etməyi öyrədir.

Oyuncaqlar ayrı-ayrı ictimai formasiyalarda müxtəlif formalarda olmuşdur. Belə ki, oyuncaqlar hər tarixi dövrün ictimai-siyasi tələbinə uyğun olaraq dəyişmişdir. Həmin sinfin uşaqları üçün oyuncaqlar qiymətli materiallardan, yoxsul uşaqlar üçün adi materiallardan hazırlanmışdı. Arxeoloji qazıntılar zamanı tapılan oyuncaqlar həmin dövrün ictimai həyat tərzini əks etdirir. Cəmiyyətin inkişafı ilə əlaqədar olaraq isə belə fərqlər aradan götürülmüş və oyuncaq fabrikində onun kütləvi istehsalına başlanmışdı.

Oyuncağın yaranma tarixi qədimdir. Hər tarixi dövrün özünəməxsus oyuncağı olmuşdur. İlk oyuncaqlar təbii materiallar hesab edilirdi. Sonradan sənətkarlar öz uşaqları üçün xırda oyuncaqlar düzəltmişlər, lakin o oyuncaqlar əmək alətlərinin kiçildilmiş forması idi. Yəni kiçik bel, oraq şəklində olub. Bu balaca alətlərlə uşaqlar müəyyən əmək tapşırıqlarını yerinə yetirir, həm də oynayırdılar. Əvvəllər ovçu alətləri – ox, kaman, qılınc, qalxan və s., daha sonra isə quş, adam, heyvan fiqurları düzəltmişlər. Sonralar valideynlər uşaqlarına özləri oyuncaqlar hazırlamağa başlayıblar. Oyuncaqlar uşaqlarda əşyalara qayğılı münasibət yaradır. Eyni zamanda valideyn-uşaq münasibətini də yaxşılaşdırır və onlar arasındakı əməkdaşlığın və xoş münasibətin yaranmasına səbəb olur.

Eyni zamanda istedadlı dülgərlər, dəmirçilər oyuncaq alətlərinin kiçildilmiş formasını düzəltmişlər. Bu, valideynlərin diqqətini cəlb edir. Onlar da övladları üçün bu cür oyuncaq alətlər əldə etməyə səy göstərmişlər.

Oyuncaq istehsalı dövlət səviyyəsində inkişaf etməyə başlayır. Odur ki, dövlət tərəfindən oyuncaq fabrikləri yarandı. Bu fabrik estetik gözəlliyə malik, uşağın zövqünü oxşayan, müsbət əxlaqi keyfiyyətlər tərbiyə edəcək rəngarəng oyuncaqlar istehsal edirdi.

Oyuncaq bütün tarixi dövrlərdə oyunla – uşağın səciyyəvi simasını: ağlını, fiziki və mənəvi keyfiyyətlərini formalaşdıran aparıcı fəaliyyətlə bağlı olmuşdur. Lakin konkret olaraq hər dövrün tarixi şəraiti oyuncaqların məzmununa öz təsirini göstərmişdir.

Misirin, Yunanıstanın və Romanın qədim quldarlıq cəmiyyəti sonrakı nəsillərə qiymətsiz maddi və mənəvi mədəniyyət xəzinəsi saxlamışdır. Biz qədim dünyanın ayrılmaz hissəsi olan, dövrün özünəməxsus illüstrasiyası kimi çıxış edən oyuncaqları öyrənərkən də bir çox maraqlı faktlara rast gəlirik.

Bu gün olduğu kimi, qədimdə də uşağın ilk oyuncağı zınqrovlu oyuncaq olmuşdur. Qədim Yunanıstanda və Romada zınqrovlu oyuncaqları yeni doğulanlara verirdilər. Bu zınqrovlara vuraraq, analar və dayələr laylalar oxuyurdular. Bundan başqa bu əşyalar başqa bir məqsəd də daşıyırdı. İbtidai icma dövründən belə bir inanc qalmışdır ki, şaqqıldaqlar öz səsi ilə pis ruhları qovur və bununla da uşağı qoruyurlar. Qədim Yunan şəhəri olan Pompeydə qazıntılar zamanı çoxlu zınqrovlu oyuncaqlar tapılmışdır. Bunlar müxtəlif növlü zınqrovlu oyuncaqlar idi: şaqqıldaqlar, kretalalar, sistralar. Pompeydə tapılan şaqqıldaqlar zəng bərkidilmiş tutacaqlı diskdən ibarətdir. Kretala bir küncdə birləşmiş taxta və ya metal lövhədən düzəldilirdi. Sistranın da düzəlməsi belə sadə idi. İki eninə özəkdən hər birində üç metal lövhə var ki, özək tərpəndikcə səs çıxarırlar.

Qədim Misirdə də istifadə olunan oyuncaqlar müxtəlifliyi və uşaqlara təsir baxımından seçilir.

Qədim Misirin bizə məlum olan ən qədim oyuncaqları e.ə. 3 mininci illərin ortalarına aiddir. Bunlar taxtadan uzun saçlı inəklərdir. Qədim Misirdə biz ilk dəfə asan hərəkət mexanizmi olan oyuncaqlara rast gəlirik. Bunlar "Timsah" və "Pələng"dir. Qədim ustalar onları böyük davranış və xarakter bilikləri ilə təsvir etmişdirlər. Bu miniatür taxta oyuncaqları uşağın əli ilə hərəkətə keçən asan məftil mexanizmi ilə ağızlarını açırdılar. Xəmir yoğuran qul təsvirli oyuncaq maraqlıdır. Fiquru sapa bağlasaq, o maili lövhə üzrə yuxarı-aşağı hərəkət edir. "Xəmir yoğuran" milli oyuncaq prototipidir. Bu qədim konstruksiya prinsipindən yerli milli oyuncaq ustaları da dəfələrlə istifadə etmişdirlər [4, s.33].

Nisbətən bir qədər gec vaxtlarda oyuncaqlarda at obrazı yarandı. Misirlilər araba və atların varlığını e.ə. 1-ci minillikdə Misiri işğal edən köçəri tayfalardan öyrənmişdirlər. E.ə. 5-ci əsrdə düzəldilmiş yellənən atlar məlumdur. Atın hazırlanması Qədim Yunanıstan uşaqlarının ən sevimli oyuncaqlarından biri idi. Miniatür at və atlıların əksəriyyəti gildən hazırlanırdı. At obrazı ümumiləşmiş verilirdi, lakin o realistik elementlərə malik idi.

Əlbəttə ki, bir çox taxta oyuncaqlar bizə gəlib çatmamışdır, yalnız gildən, sümükdən və metaldan olanlar saxlanmışdır. Ermitajda saxlanılan miniatür antik qabda uzun dəstəkli və ox üzərində dörd künclü, içində uşaq otura biləcəyi kiçik səbətli iki çarxlı uşaq yelləncəyi təsviri vardır.

Qədim keçmişdə bizə məlum olan oyuncaq növü kukla yaranmışdır. Ən qədim Misir kuklasının 4 min yaşı var. Bunlar nazik lövhələrdən kəsilirdi və geyimi simvolizə edən həndəsi naxışlarla bəzədilirdi. Kuklaların başı taxta və ya sap muncuqlarla bəzənirdi. Lakin bu kuklalar uşaqlara deyil, böyüklərə xidmət edirdi və həmin dövrün müxtəlif din formaları ilə bağlı idi. Qədim Misir kuklaları qəbir hədiyyələrindən idi və ölənin tənhalığını bəzəmək üçün tələb edilirdi. Hesab olunurdu ki, insan təsvirləri canlana və insan taleyinə təsir edə bilər. Buna görə də kuklalar çox vaxt həkkak qələmi ilə düzəldilirdi. Belə ki, qorxurdular ki, kukla məqbərədən çıxıb qaçar. Antik Yunan və Roma bizə yetərincə çox sayda kuklalar saxlamışdırlar. Onlardan çoxu sitayiş xarakteri daşımağa davam edir. Qızlar bu kuklaları ərə gedənə qədər qoruyub saxlayırdılar və toy zamanı Artemida və Venera ilahələrinə hədiyyə kimi gətirirdilər. Bunlar gildən və ağacdan hazırlanırdılar və çox vaxt hərəkətli olurdular. Əlləri və ayaqları saplar və çubuqların köməyi ilə bədənlərinə birləşdirilirdi. Zadəgan ailələrin uşaqları üçün kuklalar daha incəliklərlə, bahalı materialdan düzəldilirdi [4, s. 41].

Artıq XIII əsrdə fransız kuklaları moda qanunvericiləri oldular və həddən artıq baha qiymətə idilər. Onlar üçün tam şəraitli kukla evləri düzəldilirdi.

XIX əsrin ortalarında ilk oyuncaq istehsalçıları – kiçik kustar sexlər və fabriklər yarandı.

XIX yüzilliyin oyunu 1974-cü ildə macar memarı Erne Rubik tərəfindən hazırlanmış kubik-rubik qəbul olunur.

Rusiyada ilk kukla taxtadan hazırlanmışdır. Mərkəzi Rusiyada kətandan hazırlanmış bez kuklalar məşhurdur. Ağ üzlü qızların mütləq hörükləri olurdu, amma sifətləri olmurdu ki, ona pis ruhlar çökməsinlər.

XVII əsrdə Rusiyada milli kustar və taxta oyuncaqlar böyük inkişaf əldə etmişdilər.

Hər xalqın oyuncağı öz pedaqoji, incəsənət və texniki ənənələrinə malikdir. Bu ənənələr bir tərəfdən beynəlmiləl xüsusiyyətə malik idi, digər tərəfdən, mədəniyyətin, məişətin, pedaqogikanın milli xüsusiyyətlərini müəyyən edən cəhətlər daşıyır.

Uşaqların istifadə etdikləri hər bir əşya oyuncaq hesab oluna bilər. Oyuncaqlar ev heyvanları, müxtəlif əşyalarla bağlı olur. Oyuncaqlardan istifadə etmək hər yaş dövründə uşaqların bəyəndikləri əyləncə növüdür. Bu baxımdan müxtəlif materiallardan oyuncaqların maraqlı olması üşün istifadə olunursa, bu vacib məsələdir.

"Oyuncağın yaranma tarixi də qədimdir. Oyuncaq sözünün nə zaman yaranması haqqında müxtəlif fikirlər vardır. Belə qeyd olunur ki, bu sözdən ilk dəfə XIV əsrdə istifadə olunub.

Ətraf aləmin dərk olunması zamanı oyuncaqların və oyunun mühüm olması xüsusilə seçilir. Yəni oyuncaqlar uşaqların daha sağlam böyüməsinə, eyni zamanda, onlara gələcəkdə lazım ola biləcək bacarıqlara yiyələnməsinə kömək edir" [5].

Oyuncaq yalnız 19-cu əsrin 20-ci illərinin sonlarında elmi-tədqiqat obyekti olmuşdur. Oyuncağa, ilk növbədə, nə incəsənətşünaslar, nə pedaqoqlar deyil, etnoqraflar maraq göstərmişdirlər, hansı ki, onlar oyuncaqları ibtidai mədəniyyətin qədim xalqlarından bugünkü günümüzə qədər mədəniyyət və məişət materialları abidəsi kimi toplamış və öyrənmişdirlər. Asiya, Afrika, Amerika xalqlarının oyuncaq kolleksiyaları Paris Pedaqoji muzeyində, Nurnberq muzeyində, Berlin, Stokholm, Paris və s. kukla muzeylərində sərgilənir.

Xalq oyuncaqlarını tədqiq edən rus tədqiqatçılarından L.Q.Orşenskini və Moskvada oyuncaqlar muzeyinin əsasını qoyan N.D.Bartramı qeyd etmək lazımdır.

Xalq oyuncağı, onun böyük ifadəliliyi və məqsədəuyğunluğu onu uşaq tərbiyəsində faydalı edirdi: o sevindirirdi, inkişaf etdirirdi, ətraf həyatı başa düşməyi öyrədirdi, oyunun inkişafına kömək edirdi. Bu xüsusiyyətlər milli oyuncaqlarda kustar sənətkarlığın yaranması ilə sonralar da saxlanılır. Və müasir xalq ustası, oyuncaq yaradıcısı əvvəlki kimi onu sevir, onunla yaşayır, onun üzərində sevgi və qayğı ilə işləyir.

Xalq oyuncağı həm də məna və qeyri-məna şəklində, lakin hərəkət, səslənmə texnikasının iti ağıllılığı və öz nağılvari dekorativ traktlığı ilə uşağın düşüncə və fantaziyasını oyadır. Bir çox oyuncaqlar əsl nağıldırlar.

Xalq oyuncağı xalqın incəliklərə diqqət edən, uşağı olduğu kimi onun maraqları və ehtiyacları ilə görən və başa düşən psixoloq olduğunu təsdiqləyir.

Xalq oyuncağı yalnız sevindirmir və əyləndirmir, yalnız estetik cəhətdən inkişaf etdirmir, eləcə də, yaradıcı oyuna vüsət verir, onu əhatə edən həyata oriyentasiya edir və uşağı əməyə və texnikaya öyrədir. Hətta şən oyuncaq da bəzən uşağa iş həyatının çətinliklərini işarə edir (nalbənd nal vurur, ev sahibəsi toyuqlara yem verir və s.), hələ uşağın müxtəlif materiallarla və əmək növləri ilə işləməyi öyrəndiyi "əl işlərini" demirik: kukla üçün paltar tikmək, ovçuluq, balıq ovu sənəti və onlarla oynamaq üçün oğlanların silah düzəltməyi, hər cür zənbil toxunuşu, və s. Bütün bunlar uşağı oyuncaqdan tədricən böyüklərin həyatındakı əməyə gətirib çıxarır.

Oyuncaqda estetiklik uşağın zövqünü qane etmək üçün heç bir qəsdli niyyət olmadan uşağa xalq yaradıcılığının böyük incəsənət mədəniyyəti gətirir.

Oyuncaq əgər cəlbedicidirsə, mənimsəmə üçün əlverişlidirsə o zaman uşaq həmin əşya ilə rahat şəkildə ünsiyyət qurmağı, ondan istifadə etməyi bacarır.

Aparılan araşdırmalar onu deməyə əsas verir ki, oyuncaq uşaqların sosial tərbiyəsi üçün çox mühümdür. Eyni zamanda oyuncaqlar vasitəsilə uşaqlar hisslərini meydana qoyur və həyatda görmək istədiklərini ifadə edirlər. Yəni burada uşaqların yaradıcı təxəyyülləri bəlli olur.

Xatırlamaq lazımdır ki, bəlkə də heç bir digər xalq yaradıcılığı növü uşağın milli cizgilərini, estetik həssaslığını, onun sevdiyi və həvəslə oynadığı milli oyuncaq kimi belə aktiv və dərin tərbiyələndirmir.

Hazırlanan oyuncaqlar, əlbəttə ki, müəyyən tələbləri özündə daşımalı idi.

Oyuncağın məzmunu tərbiyəvi xarakter daşımalı, oyuncaq insan həyatını, milli kolariti, milli hissləri özündə əks etdirməlidir. Hazırda elmin, texnikanın inkişafı ilə əlaqədar olaraq oyuncaqların da istehsal sahəsi genişlənib. Texniki oyuncaqlar uşağın özünün düzəltdiyi oyuncaqdır. Bu onlarda daha çox maraq doğurur. Oyuncaqda uşaq yaradıcılığı özünü göstərir. Valideynlər uşağın oyuncaqdan istifadə etməsinə, özləri tərəfindən hazırlanmasına şərait yaratmalıdır. Oyuncaqda yumor da olmalıdır, hərəkət də olmalıdır. Oyuncaqlar gigiyenik tələblərə cavab verməlidir.

Oyuncağın növləri də müxtəlifdir. Obrazlı oyuncaqlar mahiyyət etibarilə müxtəlif olur, ona görə də onlar müəyyən növlərə ayrılırlar. Canlıları əks etdirən oyuncaqlar obrazlı oyuncaqlar adlanır. Belə oyuncaqlara sujetli oyuncaqlar da deyirlər. Onun məzmunu oyunun sujetini təşkil edir. Oyunun əsas personajı canlılar olur. Obrazlı oyuncaqlar içərisində kukla əsas yer tutur.

F.Frebel analar haqqında deyirdi ki, xalqın taleyi dövləti idarə edənlərdən daha çox, anaların, qadınların əlindədir [2, s. 76].

Qadın cəmiyyətdə aparıcı, yaradıcı qüvvə olduğu kimi, kukla da oyunda aparıcıdır. Kukla uşaqlar üçün sevinc mənbəyidir. Onlar kukla ilə söhbət edir. Kuklalar ana, həkim, xəstə rollarını ifa edir, kuklalar, eyni zamanda, hər xalqın milli xüsusiyyətlərini əks etdirir. Kuklaları bir yerə toplasaq, onun görkəmindən hansı xalqa mənsub olduğu bilinər. Oyuncaqlar içərisində quzu, dəvə, keçi, ayı kimi oyuncaqların da öz yeri var. Bu oyuncaqlardan müxtəlif oyunlarda istifadə edilir.

Texniki oyuncaqlar məzmuna görə müxtəlif olur. Maşın, qaldırıcı kran, təyyarə, telefon, radio, kompüter, fotoaparat və s. bu sıraya daxildir.

Konstruktiv sökülüb-yığılan oyuncaqlar, tikinti oyuncaqları uşaqlar üçün daha maraqlıdır. Belə oyuncaqlar uşaqlarda erkən yaşdan texnikaya maraq tərbiyə etməklə yanaşı, həm də onlarda təfəkkürü və yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Texniki oyuncaqlar elektriklə, barmaqla, kənardan pultla idarə edilir: təyyarə, gəmi, maşın, avtobus. Uşaqlar bu oyuncaqlarla oynayarkən həmin nəqliyyat vasitələrindən harada istifadə edildiyini, onun insanlara harda lazım olduğunu öyrənir. Çox zaman özləri də belə bir oyuncaqlar düzəldir. Yəni iki taxtanı birləşdirərək təyyarə hazırlaya bilirlər. Sonra isə kağızdan gəmi düzəldib suya buraxırlar. Texniki oyuncaqlar içərisində ən geniş yayılmış konstruktiv oyuncaqlardır.

Əyləncəli oyuncaqlar. Bu oyuncaqlar gülüş yaradan oyuncaqlardır. Belə oyuncaqlara müxtəlif canlıların (insan, heyvan, quş və s.) fiqurları daxildir. Onlar xalq yaradıcılığı ilə çox bağlıdır. Kiçik yaşlı uşaqlar üçün bu oyuncaqların çıxardığı səs, göstərdikləri hərəkətlər maraqlıdır. Böyük qrup uşaqlar isə həmin oyuncaqların mexanizmi ilə daha çox maraqlanırlar. Burada qarışıq oyuncaqlar götürülür. Bu tamaşa xarakteri daşıyır. Uşaqlar onlarla həvəslə oynayır, onların qeyri-adi hərəkəti uşaqlarda gülüş doğurur.

Maskarad oyuncaqları. Bu oyuncaqlardan bayramlarda, yeni il şənliklərində istifadə edirlər. Müxtəlif heyvan fiqurlarını əks etdirən maskalar, paltarlar burada olur və belə maskalar indi daha çoxdur. Dovşan, tülkü, ayı, canavarı təmsil edən kostyumlardan uşaq bağçasında istifadə olunur.

Motorlu oyuncaqlar. Bu oyuncaqlar çox hərəkət tələb edir. O, uşaqların hərəkət fəaliyyətini artırır. Bu oyuncaqları aşağıdakı kimi qruplaşdırmaq olar:

I qrup oyuncaqlar sensor motorlu oyuncaqdır. O, əl, barmaq hərəkətlərini inkişaf etdirir. Cəldliyi, gözəyarı ölçməyi, məqsədə çatmağı, hədəfi düzgün nişan almağı öyrədir (muncuqlar, fırfıralar).

II qrup oyuncaqlar çiyin, qol əzələlərini inkişaf etdirir, hərəkəti tənzim edir, əzələləri möhkəmləndirir.

III qrup oyuncaqlara ayaq, qarın əzələlərinin hərəkətlərini möhkəmləndirən futbol, basketbol, cəmbər üçün lazım olan idman avadanlıqları daxildir.

IV qrup oyuncaqlar kollektiv oyunlar üçün nəzərdə tutulur. Bunlardan kütləvi yarışlarda istifadə olunur (basketbol, voleybol topları) [3, s.66].

Qeyd etdiklərimizlə yanaşı, oyuncaqların saxlanılması da aktuallıq kəsb edir. Oyuncaqlar xüsusi guşələrdə, gigiyenik şəraitdə saxlanılır. Oyuncaqlar elə şəraitdə saxlanılmalıdır ki, uşaqlar onlardan istədikləri vaxtlarda istifadə edə bilsinlər. Oyuncaqlar gigiyenik tələblərə uyğun materiallardan hazırlanmalıdır. Həm də oyuncaqların tərtibi zamanı rəngi yayılmayan və asanlıqla yuyula bilən materiallardan istifadə edilməlidir. Oyuncaqlar asanlıqla sınan, bəzi parça materiallarından və şüşədən olmamalıdır.

İşin elmi nəticəsi: Məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında oyun və oyuncaqlardan istifadə mühüm əhəmiyyətə malikdir. Çünki həmin məsələlər məşğələnin daha maraqlı və rəngarəng keçməsində vacibdir. İşdə məhz həmin müxtəlif məqamlar təqdim olunur.

İşin elmi yeniliyi: Tərbiyəçi-müəllim məşğələdə özünün də yaratdığı və icad etdiyi oyunları və oyuncaqları tətbiq edə bilər.

İşin praktik əhəmiyyəti: Əldə olunmuş nəticələr müxtəlif məşğələlərdə tərbiyəçi-müəllimlərin istifadəsi üçün tövsiyə edilir. Tədqiqatdan əldə edilmiş nəticələrdən dərsliklərin, dərs vəsaitlərinin, elmi-metodik ədəbiyyatın və elmi-tədqiqat işlərinin hazırlanmasında istifadə oluna bilər.

Ədəbiyyat

1. Əliyeva, Ş. İnkişafetdirici, dəstəkləyici və təhlükəsiz mühitin yaradılması. Dərs vəsaiti / Ş.Əliyeva, X.Həmidova, S.Mustafayeva. – Bakı, – 2020. – 84 s.
2. Suxomlinski, V.A. Ürəyimi uşaqlara verirəm / V.A.Suxomlinski, – Bakı: Maarif, – 1979. – 324 s.
3. Игра и дошкольник / под ред. Т.И.Бабаевой, З.А.Михайловой. – СПб., – 2008, – 120 с.
4. Флерина, Е.А. Игра и игрушка: пособие для воспитателя детского сада / Е.А.Флерина, – М.: Просвещение, – 2000, – 280 с.
5. https://az.wikipedia.org/wiki/Oyuncaq

N.R.Ismayilova

Pedagogical Basis of Games and Toys in the Socialization of Preschool Children

Summary

The article discusses the pedagogical foundations of games and toys in the socialization of preschool children. It is noted that it is important for a person to grow as a person and take a unique place in society. Therefore, a person adapts to society and acts. In this regard, the game process is of particular importance in helping preschool children correctly present emotions and demonstrate the skills they have. I would also like to note an important point that the game process can highly form a child who is not very active and has low self-confidence. Therefore, on the basis of this activity, the child learns communication, activity, self-confidence, and also respects the opinions of his peers and gets used to collectivism.

In the game process, the child "discovers" the world around him for himself. Thus, he learns to focus his attention on one place, achieve the goal he sets, and at the same time, he masters information related to size, volume, shape, distance, etc.

Key words: *preschool age, child, socialization, game, toy, pedagogical basis*

Н.Р.Исмайлова

Педагогические принципы игр и игрушек в социализации детей дошкольника

Резюме

В статье рассматриваются педагогические основы игр и игрушек в социализации детей дошкольного возраста. Отмечается, что для человека важно вырасти как личность и занять особое место в обществе. Поэтому человек приспосабливается к обществу и действует. С этой точки зрения игровой процесс имеет особое значение для детей дошкольного возраста, позволяющих правильно подать свои эмоции и продемонстрировать свои умения. Также хотелось бы отметить важный момент, что игровой процесс может в высокой степени формировать малоактивного и неуверенного в себе ребенка. Поэтому на основе этой деятельности ребенок учится общению, активности, уверенности в себе, а также уважает мнение сверстников и привыкает к коллективизму.

В ходе игры ребенок буквально «открывает» окружающий мир. Так, он учится концентрироваться на одном месте, для достижения цели, которую он перед собой поставил, и в то же время он узнает о размере, объеме, форме, расстоянии и т. д., усваивает связанную с ним информацию.

Ключевые слова: *дошкольный возраст, ребенок, социализация, игра, игрушка, педагогическая основа*

Rəyçi: ped.f. d., dos. S.Əliyeva

Redaksiyaya daxil olub: 02.04.2025

S.A.İSMAYILOVA
e-mail: ismailovasaraa@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

NATAMAM AİLƏLƏRLƏ APARILAN PEDAQOJİ İŞİN XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Məqalədə müəyyənləşdirilir ki, müəllimlərin apardıqları səmərəli pedaqoji işin nəticəsində natamam ailələrdə valideynin övladın tələblərinə hörmətlə yanaşması, onun fərdi fərqlərini nəzərə alması təhsil uğurlarına müsbət təsir göstərir. Bu zaman uşaqlar özlərini müstəqil, özünəinamlı hiss edir, təhsilə maraq göstərirlər. Natamam ailələrə pedaqoji baxımdan köməklik göstərmək üçün müəllimlərin xüsusi hazırlığı olması, psixoloji-pedaqoji məlumatlara yiyələnməsi, insanpərvər, səbirli, dözümlü və yumor hissinə, yaxşı ünsiyyət bacarığına malik olması vacib şərtdir. Natamam ailədən olan şagirdlərə məktəbdə fiziki cəza vermək yolverilməzdir. Bu onların ruhuna çox pis təsir göstərə, təhsilə və müəllimə nifrət yarada bilər.*

Açar sözlər: *natamam ailə, təhsilə maraq, insanpərvər, şagird maraqları, müəllim münasibətləri*

Məlum olduğu kimi, təhsil həm də tərbiyəedici funksiya daşıyır. Bu baxımdan, yaşından, cinsindən, sosial inkişafından asılı olmayaraq o hər bir insana inkişafetdirici və tərbiyəedici təsir göstərir. Elə buna görədir ki, təhsil tərbiyəedici əhəmiyyət, həm də aktuallıq kəsb edir. Belə ki, əvvəla təhsil artıq insan şəxsiyyətinin başlıca özünütəsdiq amilinə çevrilib. İkinci, təhsildə şagirdin tərbiyələnmək imkanları daha genişdir. Üçüncüsü, o, şəxsiyyətin dünyagörüşünün formalaşmasında və həyata hazırlanmasında əsas qüvvədir.

Həyatda müxtəlif demoqrafik çətinliklərlə (valideynlərdən birinin, yaxud hər ikisinin ölümü, boşanma, valideynlərdən ayrı yaşama, qaçqınlıq, məcburi köçkünlük, sosial problemlər üzündən yaşayış yerini dəyişmə və s.) üzləşən ailələr var. Belə ailələrdən olan uşaqlar mənəvi, sosial, psixoloji problemlərlə yaşayırlar. Ona görə də natamam ailədən olan uşaqlarda özünütəsdiq, özünügerçəkləşdirmə tələbatı daha güclü olur. Çünki onlar daim küskünlük, çarəsizlik, əzizlərinin yoxluğunu hiss etdiklərindən özünə inamsız yanaşır, həyatla barışmaz olurlar. Bunun üçün demoqrafik problemlərdən biri – natamam (şəhid, boşanmış və d.) ailələrdə şagirdlərin təhsilini və tərbiyəsini yaxşılaşdırmaq istiqamətində aparılan pedaqoji işə müasir tələblərlə yanaşılmalıdır. Ona görə də cəmiyyətdə demoqrafik problemlərin gündən-günə artdığı bir dövrdə aparılan pedaqoji işin sistemini işləyib hazırlamaq aktual məsələ kimi diqqət mərkəzində dayanmalıdır.

Məlum olduğu kimi, hər bir natamam ailənin öz xüsusiyyətləri var. Belə ailələrdən olan şagirdlərin fərdi xüsusiyyətləri də müxtəlifdir. Ona görə də həmin şagirdlərin hər biri ilə özünəməxsus tərzdə iş aparmaq lazım gəlir. Bu sahədə mövcud təcrübə əsasında fərdi işin təşkili üzrə yeni modelin yaradılması imkanları aydınlaşdırılmalıdır.

Model dedikdə, təhsil sahəsindəki bu və ya digər problemin təcrübəyə tətbiqinin hansı istiqamətdə aparılmasını müəyyən etmək üçün istifadə olunan konseptual yanaşma; prinsiplər, yollar, vasitələr, metodlar nəzərdə tutulur. Təhsil sahəsində müəllimlərin istifadə etdikləri modellər öz işini səmərəli qaydada planlaşdırmaq, istiqamətləndirmək üçün hazırlanır. Bu modellərdə şagird, müəllim və valideynlərin tələbatları, maraqları, meyilləri, istək və arzuları əsas götürülür. Tədqiqatla bağlı olaraq bizi maraqlandıran pedaqoji modelin mərkəzində aşağıdakılar durur:

– şagirdlərin yönəldiyi fəaliyyətdə: təlimdə, tərbiyədə, yüksək təhsildə uğurlar əldə etməsi;

– natamam ailədən olan şagirdlərdə optimist əhvali-ruhiyyənin, gələcək həyatına pozitiv münasibətin formalaşdırılması;

– bütövlükdə ictimai mühitə inteqrasiyanın, özünün daxili imkanlarını reallaşdırmaq həvəsinin artırılması;

– ailənin, məktəbin və dövlətin qarşılıqlı köməyindən istifadə edərək şagirdlərin müasir tələblər səviyyəsində biliklər əldə etməsinə nail olmaq;

– nəhayət, natamam ailələrdən olan şagirdlərin göstərilən sahələrdə uğurlar əldə etmələri üçün pedaqoji iş sistemi yaratmaq.

Təhsil sistemində müxtəlif modellər tətbiq olunur. Dünya pedaqoji təcrübəsini analiz edərək üç əsas modeli ayırd edə bilərik:

1) ənənəvi-konservativ model;

2) rasional model;

3) humanist (fenomenoloji) model.

Apardığımız tədqiqatın nəticələrinə görə, bu modellər içərisində ən münasibi üçüncüsü – humanist-fenomenoloji modeldir. Onun əsas prinsipləri bunlardır: inkişafyönümlülük, şəxsiyyətyönümlülük, mədəni müxtəliflik [3, s.57]. Bu prinsiplər təlimin inkişafetdirici xüsusiyyətinə əsaslanmaqla hər bir yaş dövründə şagird qarşısında qoyulan maksimum tələblərin onlar tərəfindən mənimsənilməsi və reallaşdırılması üçün öz imkanlarını səfərbər etməsini, bundan ötrü yaradılmış şəraitdən maksimum yararlanmasını nəzərdə tutur. Burada şagirdin özünütərbiyəsi, özünüinkişafı və özünürealllaşdırması mühüm tələb kimi qarşıya qoyulur. Həmin tələblər bunlardır:

1) şagirdin öz fəaliyyətini stimullaşdırması üçün onda özünəinam, özünəhörmət və məsuliyyət hissini artırmaq;

2) şagirdin yüksək uğurlar əldə etməsi, özünüinkişafa ciddi yanaşması üçün valideyn və müəllimlər, eləcə də həmyaşıdlar tərəfindən dəstəkləyici mühit yarat-maq.

Bu modelləri müxtəlif məqsədlə: ibtidai, əsas və ümumi təhsil pillələri və ayrı-ayrı fənlər üzrə, müxtəlif problemləri olan, eləcə də yüksək intellektli şagirdlərlə bağlı və d. istiqamətlərdə hazırlamaq olar. Lakin bizə natamam ailələrdən olan şagirdlərlə pedaqoji işin sistemini yaratmaq lazımdır. Ona görə də belə ailələrdən olan şagirdlərin fəallaşdırılması üçün vacib prinsiplərlə tənzimlənən modelə üstünlük verməliyik. Bəs bu model bizə nə verə bilər?

1. Natamam ailələrdən olan şagirdlərlə çalışan müəllimlərin öz işini sistemli və effektli qurmaları, pedaqoji fəaliyyətini müasir tələblərlə tənzimləmələri üçün müvafiq təkliflər vermək olar.

2. Bu istiqamətdə aparılan pedaqoji işin nəticəsində əldə olunan yeni məlumatlar əsasında müasir model işləmək olar.

Bu modellərin hazırlanmasında natamam ailələrdən olan şagirdlərin maksimum imkanlarını, dərketmə-mənimsəmə göstəricilərini, müəllimlərin peşə hazırlığını, valideynlərin öz övladlarını təhsil almasındakı maraqlarını özündə cəmləşdirən kompleks amillər əsas götürülür. Nəticələr hazırda praktik sahədə çalışan qabaqcıl müəllimlərin peşə ustalığına, onların şagirdlərlə, valideynlərlə apardıqları pedaqoji işin formalarına: dialoq, məsləhətləşmə, təhlil, müzakirə, diskussiya və d. yollarla birgə əldə etdikləri faktlar olmalıdır. Bu faktlar problemlə bağlı tədqiqatda əldə edilmiş müsbət nəticələrin göstəricisi olacaq.

Məktəb elə bir yerdir ki, burada şagirdlərin elmi dünyagörüşü ilə yanaşı olaraq davranışı, münasibətləri, o cümlədən, sosial mövqeyi formalaşır. Bunlar planlaşdırılmış, məqsədyönlü, sistemli qaydada təşkil olunmuş təlim şəraitində daha səmərəli olur. Natamam ailələrdən olan şagirdlərin bu sahədə uğur qazanmaları, hər şeydən əvvəl, müəllimin onlara münasibətindən, rəftarından asılıdır. Yuxarıda müəllimlərlə keçirilmiş sorğularda da onlar şagirdlərə təsir etmək imkanı olan amillər sırasına ilk yerdə müəllimi və valideyni qoyurlar. Ancaq müəllimlər natamam ailələrdən olan şagirdlərlə digərləri ilə olduğu kimi davrandıqda da nəticələr fərqli alınır. Ona görə də "natamam ailələrdən olan şəagirdlərlə xüsusi fərdi yanaşma metodları ilə iş aparılmalıdır. Xüsusən, son illər dünyada insanın şəxsiyyət azadlığına, müstəqilliyinə tələbat artdığından natamam ailədən olan şagirdlərdə də bu keyfiyyətləri inkişaf etdirmək lazımdır" [4, s.31]. Müəllimlərin hər biri öz vəzifələrində, vətəndaşlıq məsuliyyətində bu işləri yerinə yetirməyə səy göstərməlidir. Bu baxımdan, hələ ibtidai siniflərdən başlayaraq uşağın

sosial həyatını yaxşılaşdırmaq, maraqlı etmək üçün yollar axtarılmalıdır. Bunun ən yaxşı yolu şagirdlərə fərdi yanaşmadır.

Məktəbdə müəllim-şagird münasibətlərində əsas motiv təhsildir. Onların bir-biri ilə səmimi, emosional münasibəti təhsildə yüksək nəticələri əldə etmək üçün lazımdır [1, s. 217]. Müəllim şagirdlə normal ünsiyyət qura bilirsə, onların müraciətlərinə hörmətlə yanaşaraq diqqət mərkəzində saxlayırsa, dərsdə işgüzar, öyrədici, inkişafetdirici mühit yaradaraq onlar üçün həyati əhəmiyyəti olan məqsədə doğru istiqamətləndirirsə, onlara özünüreallaşdırmanın yol və vasitələrini öyrədirsə, belə münasibət məqsədyönlü hesab olunur.

Natamam ailədən olan şagirdlərlə iş üzrə məktəb təcrübəsində bu fikir mühüm yer tutur ki, müəllimin şagirdlərlə münasibətlərinin xarakteri onun təhsil uğurlarından birbaşa asılıdır. Hər şeydən əvvəl, şagirlərin qabiliyyətlərinin inkişafı, özünün bilik potensialını reallaşdırması, gələcək həyata, peşəyönümünə hazırlanması bu sahədə əsas məqsəd olmalıdır. Natamam ailədən olan şagirdlərə fərdi yanaşma sahəsində aparılan bu araşdırma onların təlim fəaliyyətinin daha effektli olmasına kömək edə bilər. Özünün qabiliyyətlərinə, imkanlarına inanan şagird fəaliyyətini məntiqi mühakimə, planlaşdırma, sistemləşdirmə əsasında qura bilər.

Prof. Ə.Ə.Əlizadənin qeyd etdiyi kimi, "müəllimin şagirdə pedaqoji təsiri daha çox dərs prosesində, təlim fəaliyyətində baş verir. Bu zaman onların münasibətləri daha çox rəsmiyyət üzərində qurulur" [2, s.138]. Ancaq müəllim elə etməlidir ki, natamam ailədən olan şagird özünə qarşı qərəzsiz, tələbkar, müsbət münasibəti ayırd edə bilsin. Bu münasibətləri öyrənmək üçün ibtidai, orta və yuxarı siniflərdə dərslər müşahidə olundu, müəllimlərlə, şagirdlərlə söhbətlər, müsahibələr keçirildi, təhlil aparıldı. Təhlil əsasında aşağıdakılar ümumiləşdirildi.

1) Dərsin vəzifələrindən, fənlərin müxtəlifliyindən asılı olmayaraq müəllimlər natamam ailələrdən olan şagirdlərlə münasibətlərdə müsbət emosional əhvali-ruhiyyəni qoruyub saxlamağa çalışır, onlara diqqətli, bir qədər də güzəştli yanaşırlar.

2) Müəllimlər onların cavabları üzərində bir qədər çox dayanır, sanki bunu haqq etdiklərini hiss etdirməyə çalışırlar. Bəzi şagirdlər bu münasibətdən sıxılırlar. Bəziləri əksinə, cəsarətli olur, fikrini daha fəal, dəqiq, mühakiməyə əsaslanaraq, xüsusi emosionallıqla, təəssüratlarla çatdırırlar.

3) Müşahidələr aparılmış məktəblərdə 40% müəllimlərlə şagirdlər arasında yoldaşlıq, əməkdaşlıq münasibət olduğu halda, əksəriyyətində münasibətlər rəsmiyyətə əsaslanır. Bu səbəbdən onlar şagirdlərin təlim uğurlarına müvəffəq ola bilmirlər. Bu, nəticədə şagirdlərin təlim fəaliyyətini darıxdırıcı edir. Müəllimin fənninə maraq göstərmir, onun tapşırıqlarını həvəssiz yerinə yetirirlər.

4) Müəllimlərin şagirdlərlə münasibətlərində pozuntuların da baş verməsinə təsadüf edilir. Bu pozuntular müxtəlif siniflərdə və müxtəlif natamam ailədən olan şagirdlərdə dəyişir. Burada əsas səbəb müəllimin şagirdlə maraqlarının üst-üstə düşməməsidir.

İşin elmi nəticəsi. Natamam (şəhid) ailələrdən olan şagirdlərlə komplektləşdirilmiş məktəblərin iş sisteminin, tədrisin keyfiyyət və kəmiyyətinin, şagirdlərin dərs müvəffəqiyyətinə konkret təsir göstərən amillərin öyrənilməsi ailələrlə pedaqoji işin səmərəli təşkili üçün xüsusi əhəmiyyət kəsb edir.

İşin elmi yeniliyi ondan ibarətdir ki, məktəbdə natamam ailələrdən olan şagirdlərlə işin pedaqoji-psixoloji məzmunu müəyyənləşdirilərək müəllimlərlə onların təhsil uğurlarına nail olma yolları göstərilir.

İşin tətbiqi əhəmiyyəti. Tədqiqatın nəticələrindən natamam ailələrdən olan şagirdlərlə məktəbdə aparılan pedaqoji işin təşkilində istifadə oluna bilər.

Ədəbiyyat

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası. Dərslik / A.N.Abbasov, – Bakı: Mütərcim, – 2016, – 320 s.
2. Əlizadə, Ə.Ə. Əsrin meqameyilləri: psixopedaqoji problemlər. III hissə / Ə.Ə.Əlizadə, H.Ə.Əlizadə, – Bakı: ADPU-nun mətbəəsi, – 2018, – 501 s.

3. Əliyev, R.İ. Etnopsixologiya: qloballaşma və millilik / R.İ.Əliyev, – Bakı: Nurlan, – 2010, – 180 s.
4. Kərimova, E.M. İnklüziv təhsil sistemində ailə-məktəb, məktəb-valideyn münasibətləri. Vəsait / E.M.Kərimova və b. – Bakı: Oka Ofset, – 2006, – 55 s.

S.A.Ismailova

Peculiarities of Pedagogical Work with Single-Parent Families

Summary

The article determines that as a result of effective pedagogical work carried out by teachers, a respectful approach of parents to the needs of the child and consideration of his individual characteristics in single-parent families have a positive effect on the success of learning. At this time, children feel independent, self-confident, and show interest in education. To provide pedagogical assistance to single-parent families, teachers must have special training, possess psychological and pedagogical knowledge, be humane, patient and tolerant, have a sense of humor, and have good communication skills. It is unacceptable to use physical punishment at school for students from single-parent families. This has a very bad effect on their mental state and can cause hatred of education and teachers.

Key words: *single-parent family, interest in education, humane, students' interests, relationships with teachers*

С.А.Исмаилова

Особенности педагогической работы с неполными семьями

Резюме

В статье определено, что в результате эффективной педагогической работы, проводимой педагогами, уважительный подход родителей к потребностям ребёнка и учет его индивидуальных особенностей в неполных семьях оказывают положительное влияние на успешность обучения. В это время дети чувствуют себя самостоятельными, уверенными в себе, проявляют интерес к образованию. Для оказания педагогической помощи неполным семьям педагогам необходимо иметь специальную подготовку, обладать психолого-педагогическими знаниями, быть гуманными, терпеливыми, толерантными, обладать чувством юмора, обладать хорошими коммуникативными навыками. Недопустимо применять в школе физические наказания к ученикам из неполных семей. Это очень плохо влияет на их душевное состояние и может вызвать ненависть к образованию и учителям.

Ключевые слова: *неполная семья, интерес к образованию, человечный, интересы учеников, отношения с учителями*

Rəyçi: ped.f.d., dos. G.R.Məmmədova

Redaksiyaya daxil olub: 05.05.2025

Z.M.QAFARLI
e-mail: z_qafarli@hotmail.com
:https://orcid.org/0000-0002-0663-4640

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.334

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ FRAZEOLOJİ VAHİDLƏR ÜZƏRİNDƏ İŞİN ƏHƏMİYYƏTİ

Xülasə. *Məqalə ingilis dilinin xarici dil kimi tədrisində frazeoloji vahidlərin rolunu və onların effektiv öyrədilmə üsullarını araşdırır. Frazeoloji vahidlər tələbələrin nitq bacarıqlarını inkişaf etdirməkdə mühüm yer tutur və onların tədris prosesinə daxil edilməsi vacib hesab edilir. Metodoloqlar frazeoloji vahidlərin mənimsənilməsini potensial, reseptiv və məhsuldar bacarıqlar kimi təsnif edirlər.*
Məqalədə frazeoloji vahidlərin öyrədilməsinin mərhələləri təsvir olunur. İlk mərhələdə frazeoloji vahidlərin semantik və funksional xüsusiyyətləri təhlil edilir, ikinci mərhələdə isə təlim modelləri və frazeoloji vahidlərin seçimi üzərində dayanılır. Frazeoloji vahidlərin tam mənimsənilməsi uzunmüddətli prosesdir və tələbələrin bu vahidləri şüurlu şəkildə öyrənməsi vacibdir.
Məqalə, həmçinin frazeoloji vahidlərin öyrənilməsində tələbələrin üzləşdiyi leksik, qrammatik və semantik çətinliklərdən bəhs edir. İngilis və digər dillərin frazeoloji sistemlərinin müqayisəli təhlilinin vacibliyi vurğulanır. İngilis frazeologiyasının tədrisi inteqrasiya olunmuş yanaşma tələb edir və real tədris şəraitinə uyğun qurulmalıdır.

Açar sözlər: *sabit söz birləşmələri, frazeoloji vahidlər, tədris, linqvodidaktik problemlər*

Dilöyrənən tələbələrə ingilis dilinin tədrisinin konkret məqsədləri: tələbələrin dil haqqında müəyyən biliklərə yiyələnməsi və onlarda lazımi bacarıqların formalaşdırılması tələbələrin ingilis dilində nitq fəaliyyətini müəyyən edir.

Xarici dil kimi ingilis dilində olan əksər metodistlər və mütəxəssislər tədris prosesinə müəyyən sayda frazeoloji vahidlərin daxil edilməsini zəruri hesab edirlər, bunun nəticəsində tədris materialının minimuma endirilməsi və seçilməsi prinsiplərinin işlənib hazırlanmasına böyük diqqət yetirilir [1, s.120], tipoloji cəhətdən fərqli tədris vasitələrindən istifadə zamanı frazeoloji materialın və metodik təşkilatın semantikləşdirilməsinin səmərəli yollarının müəyyən edilməsi [3, s. 18], frazeoloji vahidlərin tədris prosesinin linqvistik məzmununa daxil edilməsi zərurəti həm də onların funksional nitq üslublarını fərqləndirən vasitə kimi çıxış etmək qabiliyyəti ilə müəyyən edilir [7, s. 2], habelə onların yüksək regional coğrafi dəyərinin [8] nəzərə alınması məqsədəmüvafiq hesab edilir.

İngilis dilinin xarici dil kimi tədrisi sistemində frazeoloji vahidlər üzərində işin mərhələləri.

Metodoloji tədqiqatın təhlili göstərdi ki, frazeoloji material üzərində işin təşkili üçün müxtəlif üsullar mövcuddur. Metodoloqlar frazeoloji vahidlərin ayrı-ayrı aspektlərinə (nominativ məna, leksik tərkib, semantikanın milli-mədəni komponenti, qrammatik xüsusiyyətlər və s.) müraciət etdikləri üçün, bir qayda olaraq, birtərəfli yanaşırlar və frazeoloji vahidlərin məhdud dairəsinə şamil olunurlar. Bu baxımdan, frazeoloji vahidlərin nitqə daxil edilməsi ümumi ifadələrarası ünsiyyət vasitələrinin, fərdi uyğunluq qaydalarının, ümumi qaydalara uyğunluğun olmamasının, uyğunluğun məhdudlaşdırılmasının yaratdığı çətinliklərə səbəb olur. Dillərarası və dildaxili interferensiyanın təsiri altında bir çox çətinliklər yaranır.

İngilis dilinin frazeoloji sisteminin mənimsənilməsində tələbələrin frazeologiyanı mənimsəmək bacarıqlarının formalaşması mühüm rol oynayır: potensial (tanımadığı frazeoloji vahidlərin hərfi tərcüməsi əsasında kontekstdə anlama), reseptiv (əvvəllər öyrənilmiş frazeo-

loji vahidlərin tanınması), məhsuldar/produktiv (öz nitqində frazeoloji vahidlərdən istifadə). Bu frazeoloji bacarıqların formalaşdırılması şüurlu və ya şüursuz surətdə həyata keçirilə bilər.

Bununla bağlı tədris ümumi və xüsusi olaraq müxtəlif səviyyələrdə həyata keçirilə bilər. Ümumi səviyyədə məlumatlandırma frazeoloji vahidi sözlərin sərbəst birləşməsindən təkrarlanan və sabit vahid kimi ayırd etmək, mənasını şərh etmək və ana dilinə tərcümə etmək bacarığını nəzərdə tutur. Frazeoloji vahidlər haqqında digər məlumatlar xüsusidir, onların dolğunluğu tələbələrin kateqoriyası, habelə onların aradan qaldırılmasına kömək edən çətinliklər nəzərə alınmaqla müəyyən edilməlidir.

Qeyri-şüuri sahiblik, formal quruluş və məna baxımından eyni olan iki dildə frazeoloji vahidlər olduqda müsbət köçürmədir. Xüsusilə qohum dilləri, eyni ailədən olan dilləri, əlaqəli dilləri öyrənərkən bu imkan daha da artır.

Fikrimizcə, tədris məqsədləri üçün ən səmərəli vasitə frazeologiyanın addım-addım təsviridir. Bu yanaşma bizə dillərarası müdaxilə, interferensiya imkanlarını daha dolğun nəzərə almağa imkan verir. Birinci mərhələyə aşağıdakılar daxildir:

a) hər bir frazeoloji vahiddə frazeoloji vahidi təşkil edən əlamətlərin müqayisəsi;

b) frazeoloji vahidlərin müqayisə edilən əlamətlərin sayının azalma ardıcıllığı ilə sıralanması;

c) yaranan frazeoloji vahidlərin siyahısını eynicinsli növlərə bölmək;

ç) frazeologiyanı təşkil edən vahidlərin semantik və funksional xassələrinə uyğun adlandırılması.

Göstərilən prosedurun tətbiqi frazeoloji vahidlərin struktur-semantik birləşmələrinin növlərini müəyyən etməyə imkan verir: kəlamlar, atalar sözləri, frazeoloji birləşmələr, idiomlar, nitq etiketi düsturları, frazeoloji məzmunlu ifadələr (nominativ ifadələr), qrammatik mürəkkəb ifadələr. Frazeoloji semantikanın xüsusiyyəti onun subyektiv yönümüdür. Frazeoloji vahidlər insanı fiziki, əqli, əxlaqi və intellektual keyfiyyətləri baxımından qiymətləndirir, onu sosial mənsubiyyətinə, məşğuliyyətinə, yaşına və həyat təcrübəsinə, ailə bağlarına görə xarakterizə edir.

İkinci mərhələnin məzmunu aşağıdakılardan ibarət olan linqvistik modelin metodoloji yönümüdür:

a) təlimin konkret mərhələsinin tapşırıqlarına və metodik məqsədlərə uyğun linqvistik modelin islah edilməsi;

b) tipoloji bircinsli frazeoloji massivlərin reduksiyası və onun özək və periferiyadan ibarət linqvistik sahə şəklində təqdim edilməsi. Frazeoloji material seçərkən bu prinsipin vacibliyini nəzərə alaraq, frazeoloji vahidlərin işlənmə tezliyindən meyarlardan biri kimi istifadə etmək lazımdır.

Frazeologiya linqvostatistik baxımdan az öyrənilmişdir, buna görə də frazeoloji vahidlərin işlənmə tezliyi haqqında dəqiq məlumat olmadan biz subyektiv tezliyi rəhbər tutaraq istifadə prinsipini həyata keçiririk, yəni frazeoloji lüğətlərdə bizim tərəfimizdən seçilmiş frazeoloji vahidlərin olması, həmçinin frazeoloji vahidlərin seçilməsində iştirak etmiş məlumat verənlərin təcrübəsi və intuisiyası əsas götürülür.

Frazeoloji vahidlərin tətbiqi üsulu inkişaf etdirilən bacarığın təbiətinə uyğun olmalıdır.

Frazeoloji vahidlərin tam semantikləşdirilməsi onların mənasını başa düşməyin ən yaxşı yoludur ki, bu da onların mənalarının ayrı-ayrı aspektlərini aşkar edən üsullardan istifadə etməyi tələb edir. Vurğulamaq lazımdır ki, onların tam semantikləşdirilməsi yeni frazeoloji vahidin ilk təqdimatı zamanı həyata keçirilə bilməz, buna daha uzun müddət ərzində nail olunur.

Frazeoloji vahidlərin ilkin izahı üçün müəyyən məna aspektlərini ortaya qoyan ən qənaətcil texnikanı seçmək lazımdır. Tipik olaraq, belə aspekt subyekt-konseptual və ya mövzu aspektidir, baxmayaraq ki, müəllim semantizasiya üçün mədəni, obrazlı və digər komponentlərdən də istifadə edə bilər. Eyni zamanda, mərhələdən mərhələyə qədər, frazeoloji vahidlərin lüğət mənasının semantlaşdırılmasında tələbənin müstəqilliyi nəzərə alınmalı, o cümlədən lüğətlərdən istifadə artırılmalıdır.

Tələbələrin ünsiyyətdə ingilis dilinin frazeoloji vahidlərindən istifadə bacarıqlarını şüurlu şəkildə mənimsəməsinə xüsusi diqqət yetirilməlidir, yəni frazeoloji vahidlərin mövcud növlərini başa düşmək və onlardan istifadə edərkən necə hərəkət etməyi, başa düşmək və əzbərləmək lazımdır. Bunun üçün tələbələrin ana dilinin frazeoloji vahidləri üzərində iş növlərinə oxşar, eləcə də ingilis dili frazeologiyasının xüsusi tədrisi çərçivəsində tapşırıqlardan istifadə etmək lazımdır. Müəllim tədris zamanı tələbələrə həm dil materialının, həm də linqvistik məlumatları ehtiva edən formulaların ciddi seçilməsinə, frazeoloji vahidlərdən istifadə bacarıqlarını formalaşdırmağa kömək edə bilər.

Tələbələr tərəfindən ingilis dilinin frazeoloji vahidlərinin mənimsənilməsində çətinliklərə gəldikdə, praktiki təcrübə göstərir ki, frazeoloji vahidləri mənimsəyərkən, xüsusən də onlar kontekstə daxil edildikdə, tələbələr bir sıra çətinliklərlə üzləşirlər: qrammatik, leksik, semantik və regional.

Leksik çətinliklər frazeoloji cəhətdən əlaqəli lüğətlər, terminlər, xüsusi adlar, neologizmlər, transliterasiyalar, arxaizmlər, stilistik işarələnmiş sözlər və az istifadə tezliyi olan digər sözlərlə bağlıdır.

Frazeoloji vahidlərin öyrənilməsində qrammatik çətinliklər aşağıdakılardan ibarətdir: az işlənən formalara üstünlük verilməsi, tələbələrə məlum olmayan predikativ strukturlar, frazeoloji cəhətdən əlaqəli söz formaları, omonim və təkrarlayıcı formalar, məcburi valentliyə malik komponentlər üçün atipik söz sırası. Bundan əlavə, demək olar ki, bütün növ frazeoloji vahidlər bu və ya digər dərəcədə kateqoriyalı məna ilə formal leksiko-qrammatik status arasındakı uyğunsuzluqlarla xarakterizə olunur.

Konkret linqvodidaktik problemlərin həlli ona görə çətinləşir ki, ingilis və xarici dillərin frazeologiyası kifayət qədər inkişaf etməmişdir. Öyrənilən ingilis dili sisteminin xüsusiyyətlərinə əsasən müqayisəli təhlil aparılmalıdır. Bu əsasda, real şəraitə əsaslanaraq, inteqrasiya olunmuş yanaşmaya riayət edərək, ingilis dilinin frazeologiyasında tədrisi düzgün qurmaq lazımdır. Faktiki öyrənmə şərtləri arasında ingilis dilinin xarici dil kimi tədrisinin son məqsəd və vəzifələrini nəzərə almaqla ingilis frazeologiyasını bilmə səviyyəsini müəyyən etmək lazımdır.

Əsas çatışmazlıqlar frazeoloji vahidlərin çoxfunksiyalılığı və polisemantik təbiəti və nəticədə onları müxtəlif mövzulara aid etmək imkanı və əhəmiyyətli sayda frazeoloji vahidlərin tematik əlaqəsi üçün qeyri-müəyyən meyarlardır. Amma bu çatışmazlıq, dilçilik baxımından, didaktika baxımından, müxtəlif nitq situasiyalarında nitqin inkişafı ilə bağlı müxtəlif mövzularda frazeoloji vahidlərin təkrarlanması, tematik siyahılar kimi nəzərdən keçirilə bilər; tədris məqsədləri üçün frazeoloji materialın metodik şərhi metodu müəyyənləşdirilə bilər.

İşin elmi nəticəsi: Tədqiqat göstərir ki, frazeoloji vahidlərin sistemli və məqsədyönlü öyrədilməsi tələbələrin dil bacarıqlarını əhəmiyyətli dərəcədə inkişaf etdirir. Frazeologizmlərin autentik kontekstdə istifadəsi onların mənimsənilməsini və praktik tətbiqini asanlaşdırır. Əsas çətinliklər lüğəvi və semantik səviyyədə müşahidə olunur, bu da tələbələrin anlamada və istifadədə çətinlik çəkməsinə səbəb olur. Buna görə də, müqayisəli yanaşma və multimodal tədris metodları effektiv nəticələr verir. Araşdırma ingilis dili frazeologiyasının tədrisində kompleks yanaşmaların əhəmiyyətini vurğulayır və bu sahədə metodiki yeniliklərin tətbiqini təşviq edir.

İşin elmi yeniliyi: Bu tədqiqat ingilis dili frazeologiyasının tədrisinə kompleks yanaşmanı təklif edərək, frazeoloji vahidlərin mənimsənilməsində innovativ metodların təsirini araşdırır. Əsas yeniliklərdən biri, multimodal yanaşmanın tətbiqi və frazeologizmlərin kontekstual və müqayisəli üsullarla öyrədilməsidir. Tədqiqat, həmçinin tələbələrin bu vahidləri daha sürətli və effektiv mənimsəməsi üçün interaktiv və praktik metodların vacibliyini vurğulayır. Nəticələr göstərir ki, bu yanaşmalar frazeoloji biliklərin daha dərindən anlaşılmasına və istifadəsinə kömək edir, eyni zamanda ingilis dili tədrisində yeni metodiki yanaşmaların formalaşmasına töhfə verir.

İşin tətbiqi əhəmiyyəti: Bu tədqiqatın nəticələri ingilis dili tədrisində frazeoloji vahidlərin daha effektiv öyrədilməsi üçün yeni metodiki yanaşmaların tətbiqinə imkan yaradır. Müəl-

limlər üçün praktik tədris modelləri təqdim edərək, dərslərdə multimodal və kontekstual üsulların istifadəsini təşviq edir. Həmçinin tələbələrin frazeoloji biliklərini daha sürətli və davamlı şəkildə mənimsəməsinə kömək edərək, onların dil bacarıqlarını inkişaf etdirir. Bu yanaşmalar dərsliklərin hazırlanmasında, dil kurslarının strukturlaşdırılmasında və ingilis dili müəllimlərinin peşəkar inkişafında istifadə oluna bilər.

Ədəbiyyat

1. Adonina, LV, Fisenko OS, Chernova NV Technique «directed reading» as an interactive method of working on a text in a foreign audience // *Aktual'nyye problemy gumanitarnykh i yestestvennykh nauk.* №. 12-1, – 2015. – p. 119-121.
2. Benson, M., Benson, E., & Ilson, R. *The BBI Dictionary of English Word Combinations* (2nd ed.) // John Benjamins Publishing Company, Amsterdam/Philadelphia, – 1997.
3. Cowie, A.P. Introduction. In A. P. Cowie (Ed.), *Phraseology: Theory, Analysis, and Applications* // OUP, Oxford, – 1998, – pp. 1-20.
4. Gläser, R. The grading of idiomaticity as a presupposition for a taxonomy of idioms. In W. Hüllen & R. Schulze (Eds.) // *Understanding the Lexicon*, Max Niemeyer, Tübingen, – 1988, – pp. 264-279.
5. Gläser, R. The stylistic potential of phraseological units in the light of genre analysis. In Cowie, A.P. (Ed.) // *Phraseology: Theory, Analysis, and Applications*, – Oxford: OUP, – 1998, – pp. 125-143.
6. Halliday, M.A.K. Lexis as a linguistic level. In Bazell, Charles E.; Catford, John C.; Halliday, Michael A.K. & Robins, Robert H. (Eds.) // *In Memory of J.R. Firth*, London / – Harlow: Longmans, – 1966, – pp. 148-162.
7. Howarth, P.A. *Phraseology in English Academic Writing: Some Implications for Language Learning and Dictionary Making*, Niemeyer, Tübingen, – 1996.
8. Howarth, P.A. The Phraseology of Learners' Academic Writing // In Cowie, A.P. (Ed.), *Phraseology: Theory, Analysis, and Applications*, – Oxford: OUP, – 1998, – pp. 161-186.
9. Jernej, J. *O klasifikaciji frazema. Fililogija*, knjiga 20-21 // Zagreb: Hrvatska akademija znanosti i umjetnosti, – 1992-1993, – pp. 191-197.
10. Jernej, J. Bilješke oko porjekla naše frazeologije // *Suvremena lingvistika*, – 1996, vol. 41-42.
11. Mel'čuk, I.A. Collocations and lexical functions // In Cowie, A.P. (Ed.), *Phraseology: Theory, Analysis, and Applications*, – Oxford: OUP, – 1998, – pp. 23-53.

Z.M.Gafarli

The Importance of Working on Phraseological units in English Language Teaching

Summary

The article explores the role of phraseological units in teaching English as a foreign language and effective methods for teaching them. Phraseological units play a crucial role in developing students' speaking skills, and their inclusion in the teaching process is considered essential. Methodologists classify the acquisition of phraseological units into potential, receptive, and productive skills.

The article describes the stages of teaching phraseological units. In the first stage, the semantic and functional features of phraseological units are analyzed, while the second stage focuses on training models and the selection of phraseological units. The complete acquisition of phraseological units is a long-term process, and it is important for students to learn these units consciously.

The article also discusses the lexical, grammatical, and semantic difficulties students face in learning phraseological units. The importance of a comparative analysis of the phraseological systems of English and other languages is emphasized. Teaching English phraseology requires an integrated approach and should be adapted to real teaching conditions.

Key words: *fixed word combinations, phraseological units, teaching, linguodidactic problems*

З.М.Гафарлы

Значение работы над фразеологическими единицами в преподавании английского языка

Резюме

В статье рассматривается роль фразеологических единиц в обучении английскому языку как иностранному, а также эффективные методы их преподавания. Фразеологические единицы играют важную роль в развитии навыков устной речи учащихся, и их включение в учебный процесс считается необходимым. Методисты классифицируют усвоение фразеологических единиц на потенциальные, рецептивные и продуктивные навыки.

В статье описываются этапы обучения фразеологическим единицам. На первом этапе анализируются семантические и функциональные особенности фразеологических единиц, а на втором этапе основное внимание уделяется моделям обучения и отбору фразеологических единиц. Полное усвоение фразеологических единиц – это долгосрочный процесс, и важно, чтобы учащиеся осознанно их изучали.

Также рассматриваются лексические, грамматические и семантические трудности, с которыми сталкиваются учащиеся при изучении фразеологических единиц. Подчеркивается важность сравнительного анализа фразеологических систем английского и других языков. Преподавание английской фразеологии требует комплексного подхода и должно адаптироваться к реальным условиям обучения.

Ключевые слова: *устойчивые словосочетания, фразеологизмы, обучение, лингводидактические проблемы*

Rəyçi: ped.f.d., dos. S.Ə.Hüseynova

Redaksiyaya daxil olub: 21.04.2025

A.H.QƏRİBOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
e-mail:qaribova.arifa@gmail.com
:https://orcid.org/0000-0001-8059-5566

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

UŞAQ BAĞÇASINDA MUSİQİ MƏŞĞƏLƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Məqalədə uşaq bağçasında musiqi dərslərinin məzmunu və strukturu araşdırılır. Burada göstərilir ki, məktəbəqədər uşaq müəssisələrində musiqi tərbiyəsi üzrə əsas iş əsasən musiqi dərslərində aparılır. Məşğələlərdə müxtəlif fəaliyyət növləri növbələnir (oxuma, ritmika, musiqini dinləmə, uşaq alətlərində ifa, musiqi savadı elementləri ilə tanışlıq) və bununla da uşaqların musiqi qabiliyyətlərinin hərtərəfli inkişafı təmin olunur. Uşaqlar üçün maraqlı olsun deyə və materialın daha asan mənimsənilməsi üçün məşğələlərdə variativ strukturdan istifadə etmək lazımdır, yəni müxtəlif növ məşğələlərdən: tematik, inteqrativ və s.*

Açar sözlər: *variativ quruluş, tematik məşğələ, inteqrativ məşğələ*

Məlumdur ki, insanın formalaşması, tərbiyəsi lap ilkin yaş dövrlərindən, demək olar ki, körpəlikdən başlanır. Bununla əlaqədar olaraq təhsil sisteminin bünövrəsini məktəbəqədər təhsil təşkil edir. Gənc nəslin hərtərəfli inkişafında və şəxsiyyət kimi formalaşmasında məktəbəqədər müəssisələrin üzərinə çox böyük məsuliyyət düşür. Gələcək cəmiyyətdə yaşayacaq vətəndaşların bir şəxsiyyət kimi formalaşmasının, hərtərəfli harmonik inkişafının əsası məktəbəqədər dövrdə qoyulur. Burada musiqi tərbiyəsinin rolu danılmazdır.

Məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsində əsas təlim iş forması musiqi məşğələsidir ki, bunların gedişatı zamanı hər bir uşağın hərtərəfli tərbiyəsi və musiqi qabiliyyətlərinin formalaşdırılması müntəzəm və məqsədyönlü şəkildə aparılır.

Məşğələlərdə müxtəlif fəaliyyət növləri növbələnir (oxuma, ritmika, musiqini dinləmə, uşaq alətlərində ifa, musiqi savadı elementləri ilə tanışlıq) və bununla da uşaqların musiqi qabiliyyətlərinin hərtərəfli inkişafı təmin olunur. Məşğələlərdə uşaq şəxsiyyətinin bir çox müsbət keyfiyyətlərinin tərbiyəsi baş verir. Onlar uşaqları şərikli sevinc, estetik həyəcan, ümumi fəaliyyətdə birləşdirir, davranış mədəniyyətini aşılayır, əqli işi, diqqəti, təşəbbüsü və yaradıcı yanaşmanı tələb edir. Musiqi məşğələləri şübhəsiz uşaqların digər təşkilat formalarına təsir göstərir. Məşğələlərdə aldıqları bilik, bacarıq və vərdişlərin sayəsində uşaqların müstəqil fəaliyyəti daha fəal keçir. Məşğələlərdə öyrənilən mahnı və rəqslər ifadəli və təbii ifa olunduğu zaman bayram şənlikləri və əyləncələr daha uğurlu keçir.

Musiqi məşğələləri bütün qrupla eyni vaxtda aparılır. Onların quruluşu və məzmunu təlim məqsədlərindən və uşaqların yaşlarından asılıdır. Həyatın birinci ili hazırlıq mərhələsi kimi qəbul edilir. O, uşağın böyüklərlə fəal ünsiyyətinə əsaslanır. Yaşyarımlıq uşaqlarla məşğələlər 10-13 dəqiqə əvvəl kiçik qruplarla, sonra isə hamı ilə birgə aparılır. Kiçik qruplardan (2 yaş) başlayaraq bütün sonrakı qruplarda məşğələ həftədə iki dəfə aparılır.

Musiqi məşğələləri öz spesifik cəhətləri ilə fərqlənir. Digər məşğələlərdən onlar ilk növbədə öz strukturu ilə fərqlənir. Buraya bir neçə fəaliyyət növü daxildir: mahnı oxuma, musiqini dinləmə, ritmika, uşaq musiqi alətlərində ifa, musiqi savadının elementlərilə tanışlıq. Bu fəaliyyət növləri üzrə biliklərin həcmi hər bir yaş qrupu üçün nəzərdə tutulan proqram tələbləri və musiqi tərbiyəsinin vəzifələri ilə müəyyənləşdirilir. Bütün yaş qruplarında iş eyni məsələləri həll edir, lakin tapşırıqlar tədricən mürəkkəbləşir və bununla da musiqi tərbiyəsində də davamlılıq prinsipi həyata keçirilir.

Hər bir fəaliyyət növünə dair proqrama müəyyən həcmdə praktiki bacarıq və vərdişlər daxildir. Məsələn, xorla mahnı oxuma fəaliyyəti vokal-xor əsasları üzərində qurulur: vokal vərdişləri (səsyaranma, diksiya, nəfəs) və xor vərdişləri (intonasiyanın təmizliyi, kök, ansambl).

Musiqili-ritmik hərəkətlər musiqi obrazlarının qavranılması və onların hərəkətlərdə ifadə edilməsi bacarığına əsaslanaraq qurulur. Musiqili-ritmik vərdişlər emosional həssaslığı, musiqili obrazların və tempin, ritmin dəyişməsinə reaksiyanı inkişaf etdirən məşğələləri daxil edir. Uşaq musiqi alətlərində təlimin məzmunu müxtəlif alətlərlə, onların quruluşu ilə tanışlığı daxil edir. Musiqini dinləmə musiqini qavrama bacarığının inkişafını və musiqi əsərləri ilə tanışlığı özünə daxil edir. Uşaqların musiqi təcrübəsi zənginləşir, onlar xalq musiqisinin müxtəlif janrları, müasir və klassik bəstəkarlarının əsərləri ilə tanış olurlar. Uşaqlar musiqi təəssüratlarını toplayırlar.

Musiqini qavrama vərdişlərinin mənimsənilməsi musiqini dinləmə mədəniyyətinin əsaslarının formalaşdırılmasına təkan verir: əsəri axıra kimi dinləmək, onları tanımaq, hissələrini ayırd etmək, vokal və instrumental musiqini və onun janrlarını fərqləndirmək.

Musiqi tərbiyəsi və savadı məsələləri təlim prosesində həll olunur. Uşaqlarla musiqi barəsində söhbət aparılır, onlar ifadəlilik vasitələrilə tanış olur, onların diqqəti əsərin forması, xarakteri, hissələrin təzadlığı və s. məsələlərə yönəldilir. Uşaqlar bəzi anlayışları yadda saxlayır, məsələn, "musiqi girişi", "kuplet", "bənd", "nəqarət", "musiqi cümləsi" və s. Əsas məsələ – musiqinin qavranılması, oxuma, rəqs və ifa sahəsində hərəkətlərə, bacarıq və vərdişlərə praktiki yiyələnmədir. Əgər uşaqlar tapşırıqları başa düşürsə, onları asanlıqla həll edir. Məsələn, ifadəliliyə nail olmaq üçün laylanı mülayim, sakit, axıcı, tələsmədən ifa etmək lazımdır. Bu vərdişə öyrənərkən uşaqlar eyni zamanda musiqinin xarakteri, məzmunu barəsində bəzi məlumatları alırlar.

Məşğələlərin məzmununu açıqlayan bəzi ümumi məsələləri araşdıraq. Digər məşğələlərdə olduğu kimi, musiqi məşğələlərində də ümumtərbiyəvi iş aparılır, habelə uşaqların xüsusi qabiliyyətləri inkişaf etdirilir, təlim materialına qarşı yaradıcı, təşəbbüskar yanaşma formalaşdırılır. Qrupdan qrupa doğru mənimsənilmiş vərdişlərin keyfiyyətinə qarşı tələblər mürəkkəbləşir və artır.

Digər məşğələlərdən (təsviri incəsənət, say və s.) musiqi məşğələlərini fərqləndirən cəhət odur ki, uşaqlara bir neçə fəaliyyət növlərini birdən öyrədirlər (oxuma, rəqs və s.). Qeyd etmək lazımdır ki, idman məşğələləri də özündə müxtəlif fəaliyyət növlərini birləşdirir (gimnastik hərəkətlər, oyunlar, yürüşlər və düzülüşlər), lakin onlar yalnız hərəkət sahəsinin inkişafına qulluq edir. Musiqi məşğələlərinin qurulması çətinliyi bundadır ki, müxtəlif xarakterli və məzmunlu əsərlər səsləndirilərkən müəllim mahiranə şəkildə uşaqların emosional ruh yüksəkliyini azaltmadan, onların diqqətini bir fəaliyyət növündən digərinə yönəltməlidir.

Digər çətinlik – ardıcıl şəkildə təlim materialının öyrədilməsi: ilkin tanışlıq, təlim prosesində vərdişlərin mənimsənilməsi, təkrar, möhkəmlətmə və öyrənilənlərin ifası. Bir məşğələdə bu və ya digər əsərin öyrənilməsi mərhələləri eyni olmaya bilər. Məsələn, üzərində iş aparılan üç mahnıdan biri yaxşı mənimsənilib və ifadəli oxunur, o biri ilk dəfə dinlənilir, üçüncüsü isə hələ öyrənilmə prosesindədir. Musiqili-ritmik hərəkət və rəqslərin təlimi prosesi də analojidir: yeni rəqsdə uşaqlar onun ayrı-ayrı elementlərini öyrənir, tanış musiqili oyununu isə təkrar edirlər.

Musiqi məşğələsini qurarkən, müəllim aşağıdakı tələbləri nəzərə almalıdır:

– uşaqların əqli, fiziki və emosional yüklənməsini;

– fəaliyyət növlərinin və öyrənilən repertuarın ardıcıl şəkildə paylaşdırılmasını;

– musiqi qabiliyyətlərinin inkişafında, vərdiş və biliklərin mənimsənilməsində ardıcıllıq prinsipinin gözlənilməsi;

– variantlılıq və uşaqların yaş imkanlarına uyğunluq.

İndi də bəzi məsələlər üzərində dayanaraq, bunları araşdıraq.

Təlim materialı çətinlik dərəcəsinə görə fərqlənir. Böyük əqli fəallığı, diqqəti tələb edən tapşırıqları uşaqlara məşğələnin əvvəlində vermək lazımdır. Məşğələnin gedişatında da yüklənmə dərəcəsini nəzərə almaq lazımdır. Məsələn, mahnı oxumaqdan əvvəl çətin fiziki tapşırıqları yerinə yetirmək olmaz, çünki onlar nəfəsi pozaraq keyfiyyətli oxu prosesinə maneə olur. Məşğələnin sonuna yaxın da hərəkətlərin intensivliyini azaltmaq gərəkdir. Fəaliyyətin xarakteri uşaqlarda müxtəlif emosiyalar yaradır. Şən, maraqlı oyun fəallığı artırır, buna görə onu məşğələnin əvvəlində deyil, daha mürəkkəb tapşırıqların yerinə yetirilməsindən sonra vermək faydalıdır.

Təlim təcrübəsində müxtəlif fəaliyyət növlərinin aşağıda göstərilən ardıcıllığı məqsədəuyğun sayılır: məşğələnin əvvəlində kiçik musiqili-ritmik tapşırıqlar verilir (rəqsin arı-ayrı elementləri, düzülüşlər). Bu hərəkətlər uşaqların diqqətini təşkil edir və onları eşitmə diqqətini tələb edən tapşırıqlara hazırlayır. Bunlardan sonra uşaqlar oturub, musiqini dinləyir və mahnı oxuyurlar. Oxuma prosesi özünə müxtəlif vokal məşğələlərinin, yaradıcı tapşırıqların, musiqili eşitmə qabiliyyətlərini inkişaf etdirən tapşırıqların yerinə yetirilməsini də daxil edir. Təlimin növbəti mərhələsində oyun, şən rəqs formasında musiqili-ritmik fəaliyyət həyata keçirilir. Gördüyümüz kimi, sakit tapşırıqlar dinamik tapşırıqlarla növbələnir və bununla da fiziki yüklənmə müntəzəm şəkildə paylaşdırılır.

Məşğələnin quruluşunu dəyişdirərək, müxtəlif variantlarda vermək lazımdır. Məşğələnin əsasına müəyyən bir mövzu qoyula bilər, məsələn marş ya rəqs janrı ilə tanışlıq və yaxud musiqi ifadəlilik elementlərinin (temp, registr və s.) mənimsənilməsi. Belədə musiqinin dinlənilməsi, oxuma, ritmik hərəkətlər vaxtı müəllim elə priyomlar istifadə etməlidir ki, onlar seçilmiş mövzuya uyğun olsun. Bu tipli məşğələlərə tematik məşğələ deyilir.

Nəhayət, kompleksli (və ya inteqrativ) məşğələ tipi də mövcuddur ki, burada mövzunun açıqlanması təkcə musiqi ilə deyil, həmçinin təsviri incəsənət, ədəbiyyat vasitəsilə həyata keçirilir. Bu tip məşğələnin əsasında bədii obraz durur ki, onun xarakterik cəhətləri həm musiqidə, həm rəsmdə, həm poeziyada, həm teatrlaşdırılmış səhnədə əks olunur. Ümumi tərbiyəvi vəzifə və məqsədlər də bu tip məşğələnin birləşdirici elementi kimi çıxış edir ("kosmosla tanışlıq", "baharın gəlişi", "doğma ordumuz" və s.). Beləliklə, məşğələlərin variativ quruluşu uşaqların bədii təcrübəsini zənginləşdirir.

Məşğələnin strukturu çevik olmalıdır və uşaqların yaşından, məzmundan, materialın xüsusiyyətlərindən asılı olaraq dəyişdirilə bilməlidir. Məşğələni mahnı oxumadan və ya dinləmədən də başlamaq olar. Kiçik qruplarda məşğələlər daha azad, oyun xarakterini daşımalıdır. Müəllim məşğələlərin quruluşu barəsində düşündükdə fəallıq və yaradıcılıq nümayiş etdirməlidir.

Pedaqoji prosesin təşkilinin ən vacib şərtlərindən biri onun planlaşdırılmasıdır. Musiqi məşğələləri cari və perspektiv tərbiyəvi və təlim məsələlərini nəzərə alaraq planlaşdırılmalıdır.

Perspektiv planlaşdırma (illik plan) mahnı, rəqs və ya oyunun öyrədilməsinin ardıcıllığını müəllimə təsəvvür etməyə kömək edir, repertuarın tədricən mürəkkəbləşməsini göstərir. Musiqi rəhbəri müxtəlif yaş qruplarında iş aparır və perspektiv planlaşdırma bütün uşaqların musiqi tərbiyəsini həyata keçirməyə kömək edir.

Cari planlaşdırma (təqvim planı) isə hər bir dərsin planlaşdırılmasını nəzərdə tutur. Belə plan 1-2 həftə üçün qurulur. Buraya cari dərsin proqram tələbləri, repertuar və bəzi əhəmiyyətli metodik priyomlar daxil olunur. Müəllim çalışmalıdır ki, təlim müntəzəm və səlis şəkildə həyata keçirilsin.

Təqvim planda hər bir məşğələnin nəticələri öz əksini tapmalıdır. O, formal olmamalıdır. Burada uşaqlar nəyi yaxşı mənimsəyib, nədə isə çətinlik çəkirlər, hansı əlavə tapşırıqlar lazımdır qeyd olunmalıdır. Həmçinin uşaqların adları da qeyd olunmalıdır ki, onların inkişafını müşahidə etmək mümkün olsun. Məsələn, rəqsin elementinin yerinə yetirilməsi zamanı onların adları qarşısında şərti işarələr (+ və ya -) qoyula bilər ki, bunlar ifanın və ya cavabların keyfiyyətini göstərsin.

İlin sonunda il boyu proqram üzrə aparılan işin nəticələri göstərilir. Uşaqlar tapşırıqları yerinə yetirir və bunula da müxtəlif musiqi fəaliyyət növləri üzrə (oxuma, dinləmə, ritmika) onların musiqi inkişafının səviyyəsi müəyyənləşdirilir.

Elmi nəticəsi. Beləliklə, musiqi məşğələləri digər məşğələlərdən öz spesifik quruluşu ilə fərqlənir. Buraya bir neçə fəaliyyət növü daxildir. Məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsi üzrə iş planlı şəkildə aparılmalıdır, musiqi məşğələləri variativ struktura malik olmalıdır ki, uşaqların musiqiyə marağı artsın və öyrənilən materialı onlar daha asan mənimsəyə bilsinlər.

Elmi yeniliyi. Məqalədə uşaq bağçalarının musiqi məşğələlərinə kompleksli yanaşma təklif olunur, yəni məşğələlərin variativ strukturu.

Tətbiqi əhəmiyyəti. Məqalədə verilən tövsiyələr uşaq bağçalarında çalışan musiqi müəllimlərinə metodiki cəhətdən, eləcə də bu sahədə tədqiqat aparan gənc musiqiçi-alimlərə bir mənbə kimi yardım edə bilər.

Ədəbiyyat

1. Qəribova, A. Məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsi / A.Qəribova. – B., ADPU, – 2017. – 176 s.
2. Məmmədova, İ. Uşaqların musiqi dünyası / İ.Məmmədova. – Bakı, – 2004.
3. Vəliyeva, A. Uşaq bağçalarında musiqi / A.Vəliyeva, Z.Mayılova, N.Əliyeva. – Bakı, – 2006.

A.H.Garibova

Features of Music Lessons in Kindergarten

Summary

The article examines the content and structure of music lessons in kindergarten. It is stated that the main work on music education in preschool institutions is carried out mainly in music lessons. During lessons, various types of activities (singing, rhythm, listening to music, playing children's instruments, familiarization with elements of musical literacy) alternate, and this ensures the comprehensive development of children's musical abilities. In order for children to be interested and to learn the material more easily, it is necessary to use a variable structure of lessons, i.e. to use different types of lessons: thematic, integrative, etc.

Key words: *education, integration, updating (mainstreaming), inclusion, equal treatment, special conditions*

А.Г.Гарибова

Особенности музыкальных занятий в детском саду

Резюме

В статье рассматриваются вопросы содержания и структуры музыкальных занятий в детском саду. Здесь указывается, что основная работа по музыкальному воспитанию в дошкольных учреждениях проводится в основном на музыкальных занятиях. На занятиях различные виды деятельности (пение, ритмика, слушание музыки, игра на детских инструментах, знакомство с элементами музыкальной грамоты) чередуются, и это обеспечивает всестороннее развитие музыкальных способностей детей. Чтобы детям было интересно, и они легче усваивали материал, нужно использовать вариативную структуру занятий, т.е. использовать разные виды занятий: тематические, интегративные и т.д.

Ключевые слова: *вариативная структура, тематическое занятие, интегративное занятие*

Rəyçi: ped.e.d., prof. T.Kənqərlinskaya

Redaksiyaya daxil olub: 27.04.2025

Ş.M.MƏMMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
e-mail: sahkerem_59@mail.ru
:https://orcid.org/0009-0005-8387-7987

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

10.62021/0026-0028.2025.2.343

"HƏYAT BİLGİSİ" FƏNNİNİN TƏDRİSİNDƏ TƏLİM METODLARININ TƏTBİQİ

Annotasiya. *Məqalədə "Həyat bilgisi" fənninin ən mühüm vəzifələrindən biri təbiət və cəmiyyət elmlərinin predmeti arasındakı əlaqə nəzərdən keçirilir. Qeyd olunur ki, güclü Azərbaycan konsepsiyasının gerçəkləşməsində yüksək ixtisaslı, savadlı və dünyagörüşlü müəllimlər tələb edilir. Həyat bilgisi dərslərində müxtəlif fəaliyyətlərin planlaşdırılmasının əsasında psixoloji ideyalar dayandığı üçün, müəllim uşaqların idrak proseslərinin gedişatının xüsusiyyətlərini, şagirdlərin psixikasının inkişaf qanunauyğunluqlarını öyrənən psixologiya elmini yaxşı bilməlidir.*

Açar sözlər: *həyat bilgisi fənni, tədris metodları, metodların təsnifatı, müasir dərs, ekoloji maarifləndirmə*

İbtidai təhsilin həyata keçirilməsi yüksək ixtisaslı, savadlı və dünyagörüşlü müəllimlər tələb edir. "Həyat bilgisi və onun tədrisi metodikası" fənninin ən mühüm vəzifələrindən biri təbiət və cəmiyyət elmlərinin predmeti arasındakı əlaqənin aydınlaşdırılması və bunun əsasında tədris materialının seçilməsidir.

Məlum olduğu kimi, 2024-cü ilin 11-24 noyabr tarixində Azərbaycanda genişmiqyaslı COP29 konfransının keçirilməsi əyani olaraq təsdiqlədi ki, ölkəmiz yaşıl siyasətə keçid kursu götürüb və iqlim dəyişikliyi ilə mübarizə və bu dəyişikliyin nəticələrinin azaldılması həyatımızın hər bir sahəsini dəyişdirir. Bununla əlaqədar olaraq, iqlim sammitində ekoloji maarifləndirmə ilə bağlı bir neçə əlamətdar hadisə, eləcə də bu və ya digər şəkildə bu məsələyə toxunan görüşlər keçirilib.

Ölkəmizdə son yeddi ildə iqlim dəyişikliyi və ekoloji maarifləndirmə məsələlərinin milli gündəliyə inteqrasiyası istiqamətində addımlar atılıb. Bu barədə Azərbaycanın Elm və Təhsil naziri Emin Əmrullayev təhsilin yaşıllaşdırılması və iqlim savadlılığının artırılması mövzusunda keçirilən dəyirmi masada çıxışı zamanı deyib. O vurğulayıb ki, dəyişikliklər təhsildən başlayır. Beləliklə, yerli coğrafiya kurikulumunun standartlarının 25%-dən çoxu birbaşa iqlim sistemləri və davamlı inkişafla bağlıdır.

Eyni zamanda, məlumat məktəblilərin yaş xüsusiyyətləri nəzərə alınmaqla diqqətlə seçilir. Biliyin strukturu və mövzuda onların təqdim edilməsi forması dünyanın idrak metoduna xas olan ümumi pedaqoji və spesifik prinsiplərlə müəyyən edilir.

Həyat bilgisi və onun tədrisi metodikası məktəbdəki "Həyat bilgisi" fənninin xüsusiyyətlərinə görə kiçikyaşlı şagirdlərin öyrənmə və inkişaf prosesi sistemi haqqında elmdir. Bu problemlərin həlli "Həyat bilgisi və onun tədrisi metodikası" fənninin bağlı olduğu müxtəlif elmlərin biliklərinin inteqrasiyasını tələb edir. Həyat bilgisi və onun tədrisi metodikası bir çox elmlərlə və hər şeydən əvvəl yuxarıda qeyd olunan təbiət elmləri ilə sıx bağlıdır. Təbiət elmləri gələcək ibtidai sinif müəllimlərinin ixtiyarına təkcə "Həyat bilgisi" üzrə məktəb fənninin qurulması üçün elmi material deyil, həm də təbiəti öyrənmək üsullarını verir.

Fəlsəfə istənilən elmin, o cümlədən dünyanın idrak metodlarının metodoloji əsasını təşkil edir. O, idrakın ümumi prinsipləri və üsulları sistemini işləyib hazırlayır. Fəlsəfi fikirlər el-

mi tədqiqatın istiqamətini müəyyən edir. Biliyin dialektik nəzəriyyəsi əsasında təbiətşünaslıq anlayışlarının formalaşması və inkişafının metodikası hazırlanır. Metodikanın "təlim məz-munu", "öyrənmə formaları", "tədris metodları" kimi əsas anlayışlarını müəyyən edərkən onların fəlsəfi mənşəyini asanlıqla aşkar etmək olar.

Daha ənənəvi əlaqə "Həyat bilgisi və onun tədrisi metodikası" fənninin pedaqogika ilə əlaqəsidir. Pedaqogika metodikanı didaktik və təhsil nəzəriyyəsi bilikləri ilə zənginləşdirir. Didaktika öyrənmənin nəzəri əsaslarını inkişaf etdirir. O bütün məktəb fənləri üçün ümumi olan təhsilin prinsiplərini, metodlarını, vasitələrini və formalarını vurğulayır. Metodika nəzəriyyəsini təlim və tərbiyənin ümumi nəzəriyyələrindən ayrı qurmaq mümkün deyil.

Müasir pedaqoji konsepsiyalar metodika elminin inkişafına böyük təsir göstərir. Hazırda Həyat bilgisi və onun tədrisi metodikası fənnində öyrətmənin inkişafetdirici pedaqoji texnologiyalarına əsaslanan bir neçə alternativ inkişaf istiqamətləri yaranmışdır. Təlim texnologiyaları dedikdə, optimal təlim sistemlərinin layihələndirilməsi, təhsil proseslərinin konstruksiyası ilə məşğul olan "yeni pedaqoji istiqamət" başa düşülür. Ehtimal olunur ki, pedaqoji texnologiya istənilən müəllim tərəfindən yaradıla bilər.

"Həyat bilgisi və onun tədrisi metodikası" fənninin metodoloji əsaslarını hazırlayarkən kiçikyaşlı şagirdlərin psixikasının inkişaf qanunauyğunluqlarını öyrənən psixologiya elminə müraciət etməmək mümkün deyil. Həyat bilgisi dərslərində müxtəlif fəaliyyətlərin planlaşdırılmasının əsasında psixoloji ideyalar dayanır. Müəllimin uşaqların idrak proseslərinin gedişatının xüsusiyyətlərini bilməsi xüsusilə vacibdir. Bu, tələbələrin şüurunda təsəvvür və anlayışların formalaşma şərtlərini müəyyən etməyə kömək edəcəkdir.

Tədris prinsiplərinin, metodlarının, formalarının və vasitələrinin düzgün seçilməsinin meyarı tədris materialının mənimsənilməsində yaş xüsusiyyətlərinin nəzərə alınmasıdır. Tədris metodları şagirdlərin təcrübə və idrak qabiliyyətlərinin inkişaf səviyyəsinə uyğun olaraq dəyişir.

Tədris metodu nədir? Pedaqogikada bu terminin çoxlu tərifləri var. Məsələn, məşhur sovet pedaqoqu Yuri Babanski tədris metodunu *"müəllim və şagirdlərin mütəşəkkil, bir-biri ilə əlaqəli fəaliyyətinin metodu, təlim prosesində təhsil, tərbiyə və inkişaf problemlərinin həllinə yönəlmiş fəaliyyət" (4,* s. *98)* adlandırmışdır.

Sovet və rus pedaqoqu İsaak Lerner "Tədris metodlarının didaktik əsasları" kitabında bu konsepsiyanı belə göstərmişdir: *"Tədris metodu, şagirdin idrak və praktik fəaliyyətini təşkil edən, davamlı olaraq təhsil məzmununun mənimsənilməsinə, yəni təlim məqsədlərinə çatmasına səbəb olan müəllimin ardıcıl hərəkətləri sistemidir" (6,* s. *108).*

Tərifl ər təfərrüatlı şəkildə fərqlənə bilər, lakin fundamental aspektlər üzrə razılaşır: tədris metodu həmişə təlim məqsədlərinə nail olmaq üçün müəllim və şagirdin mütəşəkkil fəaliyyətini nəzərdə tutur. Tədris metodları sosial, mədəni və texnoloji kontekstlə sıx bağlı olduğundan zamanla dəyişir. Məsələn, bəşəriyyətin inkişafının ilkin mərhələlərində təqlid üsulu üstünlük təşkil edirdi: ibtidai icmanın gənc üzvləri öz ağsaqqallarını müşahidə edir və bununla da əmək alətləri yaratmağı, yemək əldə etməyi və s. Dilin yaranması nəslini şifahi şəkildə öyrətməyə imkan verdi. Yazı və daha sonra kitab çapı kitab oxumağı təhsilin əsas üsullarından biri kimi möhkəmləndirdi. Və əlbəttə ki, kompüterlərin və internetin ixtirası insanların necə öyrətmə və öyrənmələrində də rol oynadı.

Filosoflar bütün dövrlərdə ən təsirli təlim üsullarını axtarmış və tətbiq etmişlər. Məsələn, Sokrat evristik metodun banisi oldu, bu metodda müəllim şagirdə sadəcə biliyi ötürmür, həm də xüsusi qurulmuş söhbətin köməyi ilə ona müstəqil şəkildə bu biliyi tapmağa kömək edir.

Metodları tərz ilə qarışdırmaq olmaz. Hər bir metod fərdi elementlərdən – metodoloji (və ya didaktik) üsullardan ibarətdir. Məsələn, mühazirə tədris metodudur, müəllimin əsas məqamları lövhəyə yazması və tələbənin qeydlər aparması isə tərzdir.

Eyni tərzlər müxtəlif metodlarla həyata keçirilə bilər. Eyni zamanda, müxtəlif müəllimlər müxtəlif tərzləri və onların birləşmələrini eyni metodlara daxil edə bilərlər. Məsələn,

kitabla işləmək ucadan oxumaq, mətni yadda saxlamaq, suala cavab axtarmaq, illüstrasiyanı təsvir etmək və s. kimi üsullardan ibarət ola bilər.

Metod anlayışı həm də metodologiya və tərz anlayışları ilə bağlıdır. Metoddan fərqli olaraq, tərzlər bir-birindən fərqlənə bilər, tədris metodologiyası xüsusi alqoritmlər və qaydalar toplusunu nəzərdə tutur. Əgər bir metod müxtəlif tədris anlayışlarında istifadə oluna bilərsə, o zaman metodologiyanın müəyyən nəzəri əsası var.

Fəlsəfi ensiklopedik lüğətə görə metodologiya isə "nəzəri və təcrübi fəaliyyətin təşkili və qurulması prinsipləri və metodları sistemi, habelə bu sistem haqqında təlimdir". Yəni təhsilin metodologiyasına pedaqoji və təhsil fəaliyyətinin metodları və digər aspektləri daxil olacaqdır. Məsələn, öyrənmə tərzi mahiyyətcə bir metoddur.

Tədris metodlarının təsnifatı. Pedaqogikada hələ də tədris metodlarının təsnifatı və sistemləşdirilməsinə ümumi qəbul edilmiş yanaşma yoxdur. Yəqin ona görə ki, təlim prosesinin özü bir-biri ilə əlaqəli çoxlu elementlərdən ibarətdir və ona həm müəllim, həm də şagird tərəfindən baxmaq lazımdır.

Buna görə də, bütün müxtəlif üsulları müəyyən bir sistemə gətirməyə çalışan tədqiqatçılar təsnifat üçün müxtəlif əsaslar seçirlər.

Didaktik tapşırıqlara görə: biliklərin mənimsənilməsi, bacarıq və bacarıqların inkişafı, biliklərin tətbiqi, yaradıcı fəaliyyət, bilik, bacarıq və bacarıqların möhkəmləndirilməsi və sınaqdan keçirilməsi üsulları mövcuddur.

İnformasiyanın ötürülməsi mənbəyinə görə metodların təsnifatı:

- *şifahi (mühazirə, müzakirə, dərsliklə işləmək);*
- *vizual (illüstrasiya və diaqramlarla işləmək, videoya baxmaq);*
- *praktiki (məsələlərin həlli, laboratoriya işləri, didaktik oyunlar) ola bilər.*

Tələbələrin idrak fəaliyyətinin xarakterinə görə:

- *informasiya-reseptiv metod (müəllim tələbələrə məlumat ötürərkən);*
- *reproduktiv (tələbə müəllimin nümunəsi ilə hərəkətlər edir);*
- *problemli təqdimat üsulu (müəllim problemi formalaşdırır və göstərir, onun həlli üçün məntiqi addımlar atır);*
- *evristik (müəllim problemi fərdi tapşırıqlara ayırır, tələbələr isə onları həll edir);*
- *tədqiqat (tələbələr onlar üçün yeni olan problemlərin həlli yollarını axtarır). (6*, s. 180].

İnformasiyanın təqdim edilməsi və qavranılması məntiqinə görə: induktiv üsullar (müəllim əvvəlcə konkret faktları təqdim edir, sonra isə ümumi müddəaları səsləndirir və ya tələbələr ümumi düstura çatmaq üçün problemləri həll edir) və deduktiv üsullar (mücərrəd anlayışlardan və ya ümumi qanunlardan, tələbələr konkret nəticələrə, nəzəriyyədən problemin həllinə keçir).

Yuri Babanski vahid yanaşmaya meyilli idi və müəyyən dərəcədə bütün digər təsnifatları birləşdirən öz sistemini təklif edirdi. Beləliklə, Babanskinin konsepsiyasına görə, tədris metodları üç böyük qrupa bölünür:

- *tədris və idrak fəaliyyətinin təşkili və həyata keçirilməsi üsulları (şifahi, vizual və praktiki, induktiv və deduktiv, reproduktiv və problem-axtarış, müstəqil iş üsulları);*
- *tədris və idrak fəaliyyətinin stimullaşdırılması və həvəsləndirilməsi üsulları (idrak marağının cəlb edilməsi və formalaşdırılması üsulları, habelə həvəsləndirmə və töhmət metodları – təlimin nəticəsi üçün məsuliyyəti inkişaf etdirmək);*
- *tədris və idrak fəaliyyətinin effektivliyinə və özünə nəzarət üsulları (şifahi və yazılı nəzarət üsulları, laboratoriya testləri, kompüter testləri)* (Yuri Babanski, 1985, s. 76).

Qeyd etmək lazımdır ki, bu üsullar bütün fənlər üçün ümumidir, lakin praktikada onlar müəyyən bir fənn üçün ən uyğun formanı ala bilirlər. Məsələn, Lerner və Skatkinin təsnifatından istifadə etsək, reproduktiv üsul ya müəllimdən sonra xarici dildə ifadələrin təkrarlanması, ya da nümunədən istifadə edərək hər hansı bir təcrübənin aparılması ola bilər.

Məqalənin elmi nəticəsi. Müasir təlimin aktiv metodlarından istifadə zamanı passiv metodlardan fərqli olaraq, şagird sadəcə olaraq müəllimi dinləmir və ya dərsliyi oxumur, idrak işini özü həyata keçirir. Bundan əlavə, bu üsullar müxtəlif fənlərdən bilik və bacarıqları birləşdirərək yumşaq bacarıqların inkişafına kömək edir.

Ümumi təhsilini başa vurmuş şagirdin sadalanan bacarıqları – ümumi təlim nəticələri ümumtəhsil məktəblərində tədris olunan bütün fənlərin tədrisi prosesində hədəflənən nəticələrin sintezi, dialektik vahidləşməsi kimi formalaşır. Uşağın yaradıcılıq imkanlarının üzə çıxarılması və bunların reallaşdırılması, şəxsiyyətinin formalaşması üçün əlverişli şəraitin yaradılması təhsilin başlıca məqsədlərindəndir. "Həyat bilgisi" fənninin məqsədi şagirdlərə təbiət və cəmiyyət haqqında, elmin əldə etdiyi faktlar, təbiət və cəmiyyətdəki qanunauyğunluqlar haqqında elementar məlumatlar vermək, tədqiqat işinin ən sadə vərdişlərini formalaşdırmaqdan ibarətdir. Eyni zamanda, məlumat məktəblilərin yaş xüsusiyyətləri nəzərə alınmaqla seçilir.

"Müasir dərs" anlamında "müasir" sözünün özünəməxsus evristik mənası var. "Müasir dərs" – "bugünkü dərs" demək deyildir. Zamanın uğurlarına söykənən dərsə müasir dərs deyilir. Bu anlamda, adətən, bir-biri ilə üzvi surətdə bağlı olan iki cəhəti ayırd edirlər. Çox vaxt müasir dərs dedikdə, onu təkcə dərsin elmi-nəzəri səviyyəsini yüksəltmək, müasirləşdirmək kimi başa düşürlər. Dərs özünün elmi-nəzəri səviyyəsinə görə zəmanənin uğurlarını əks etdirməlidir. Bu şəksizdir. Lakin müasir dərs anlamını təkcə bu kökdə izah etmək birtərəfli olardı. Söhbət pedaqoji fenomendən gedir. "Müasir" sözü də məhz dərsi səciyyələndirir. Bu, istər psixoloji və pedaqoji, istərsə də dilçilik baxımından belədir. Dərs təkcə özünün elmi-nəzəri səviyyəsinə görə deyil, həm də pedaqoji konsepsiyasına – yeni pedaqoji təfəkkür ölçüləri ilə qurulmasına görə müasir olur. Təlim materialının məzmun və vasitələrinə şagirdin münasibətində stasionarlıq və ya problemlik təzahür edə bilər.

Məqalənin tətbiqi əhəmiyyəti. Əsas standartın funksiyası müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə izah etməklə bağlıdır. Alt standartlar: təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır; təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır; təlimdə inteqrativliyi təmin edir; təlimin məzmununun davamlı inkişafını təmin edir; sinif və fənlər üzrə summativ qiymətləndirmənin aparılmasını təmin edir.

Qeyd etməliyik ki, bəşəriyyətin "Yaşıl evi" sayılan Yer kürəsində torpaq, hava, su çirklənmiş, min hektarlarla meşələr qırılmış, dəniz və okeanların suyu çirkləndiyindən onların flora və faunasına ciddi ziyan vurulmuşdur. Eyni zamanda çayların məcraları dəyişdirildiyindən, üzərində bəndlər salındığından bəzi balıq növlərinin kökü kəsilmiş, qurudulan bataqlıqların, qırılan meşələrin canlı aləminə hədsiz ziyan dəymiş, aparılan nüvə sınaqları, buraxılan kosmik peyklər, istifadə edilən freon qazı ozon qatını zəiflədərək yerdə radiasiyanın çoxalmasına səbəb olmuşdur. Bütün bunlar isə bir sıra sağalmaz xəstəliklərin törəməsi ilə nəticələnmişdir. Dərsdənkənar tədbirlərdə belə məlumatların şagirdlərə çatdırılması kiçikyaşlı şagirdləri ölkəmizdə baş verən ekoloji fəlakətlərlə yanaşı, beynəlxalq miqyasda baş verən ekoloji fəlakətlərlə də mübarizə aparmağa hazırlayır. Onlar dünyadakı ekoloji mühiti özlərinin yaşıl evi kimi qəbul edir və həmin yaşıl evi qorumaq uğrunda mübarizə aparmaq üçün hazır olduqlarını bəyan edirlər. Dərsdənkənar tədbirlərdə Araz çayının suyunun ermənilər tərəfindən çirkləndirilməsi ilə bağlı informasiyalar kiçikyaşlı məktəblilərdə əgər bir tərəfdən ermənilərin ekoloji bəlalar törətdikləri hərəkətlərinə qarşı nifrət hissini artırırsa, digər tərəfdən erməni daşnaklarının Qarabağda törətdikləri, sözlə ifadə edilməsi mümkün olmayan və ekoloji cəhətdən dünyada bənzərsiz fəlakətlərin iki qat nifrətlə qarşılanmasına və böyük qəzəb hissi ilə ifadə edilməsinə səbəb olur.

Məqalənin elmi yeniliyi. COP29 Konfransı zamanı Azərbaycan *iki irimiqyaslı təşəbbüslə* çıxış etdi. *Birincisi,* Beynəlxalq Qiymətləndirmə Proqramı (PISA) vasitəsilə ekoloji savadlılığın qiymətləndirilməsinin həyata keçirilməsidir. Bu təşəbbüs proqramına iqlim dəyişikliyi ilə yanaşı, şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri üzrə biliklərin qiymətləndirilməsi də daxil olacaqdır. Beləliklə, Elm və Təhsil Nazirliyi ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) arasında razılaşmaya uyğun olaraq, çərçivə sənədinin və tədris materiallarının

hazırlanmasına başlanılacaqdır. Bu təşəbbüsə mümkün qədər çox ölkənin qoşulması, bizə ilk dəfə yaşıl öyrənmə üzrə faktiki məlumat əldə etməyə imkan verəcəkdir.

İkinci təklif isə təhsil müəssisələrinin növbəti illər üçün davamlılıq reytinqi, ekoloji maarifləndirmənin, xüsusilə müəllim hazırlığının təkmilləşdirilməsinin tədqiqi və digər məsələlər ilə bağlıdır.

Ədəbiyyat

1. Abbasov, M.S. Əsrimizin qlobal ekoloji problemləri. Monoqrafiya / M.Abbasov, – Bakı: Elm, – 2006, – 420 s.
2. Ağayev, Ə.Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. / Ə.Ə.Ağayev. – Bakı: Elm, – 2000, – 299 s.
3. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) // Azərbaycan məktəbi jurnalı, – 2007, № 2.
4. Бабанский, Ю.К. Методы обучения в современной общеобразовательной школе / Ю.К.Бабанский. – Москва : Просвещение, – 1985. – 208 с.
5. Əhmədov, A. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları / A.Əhmədov, Ə.Abbasov. –Bakı: Təhsil, –2008.
6. Лернер, И.Я. Дидактические основы методов обучения / И.Я.Лернер, – М.: Педагогика, –1981. – 186 с.
7. Təhsil proqramları (kurikulumlar). ARTİ, 2024-cü ildə təsdiq olunmuş fənn kurikulumları.
8. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. – Bakı: Qanun, – 2010.
9. Заркенова, Л.С., Ильясова, Б.И. Использование инновационных технологий при обучении детей младщего школьного возраста с задержкой психического развития на уроках познание мира // Научное обозрение. Педагогические науки. – 2017. – № 3. – с. 18-24;

Sh.M.Mammadov

Application of Teaching Methods in Teaching Life Sciences

Summary

The article discusses the relationship between natural and social sciences, one of the most important tasks of the Life Sciences subject. It is noted that highly qualified, educated and globally minded teachers are needed to implement the concept of a strong Azerbaijan. Since psychological concepts are the basis for planning various types of activities in natural science lessons, the teacher must have a good knowledge of the science of psychology, which studies the characteristics of the course of cognitive processes in children and the patterns of development of the psyche of students.

Key words: *subject Life Sciences, teaching methods, classification of methods, modern lesson, environmental education*

Ш.М.Мамедов

Применение методов обучения в преподавании предмета «Жизненные умения»

Резюме

В статье рассматривается взаимосвязь предметов естественных и общественных наук, одна из важнейших задач предмета «Жизненные умения». Отмечено, что для реализации концепции сильного Азербайджана необходимы высококвалифицированные, образованные и глобально мыслящие учителя. Поскольку психологические представления являются основой планирования различных видов деятельности на уроках естествознания, учитель должен хорошо знать психологию, изучающую особенности течения познавательных процессов у детей и закономерности развития психики учащихся.

Ключевые слова: *предмет «Жизненные умения», методы обучения, классификация методов, современный урок, экологическое образование*

Rəyçi: p.ü.f.d., dos. H.M.Əliyev
Redaksiyaya daxil olub: 14.05.2025

Z.Ə.MƏMMƏDOV
e-mail: zakirmamedov.1953@gmail.com
:https://orcid.org/0009-0009-0654-3296

A.Q.ƏLİYEVA
e-mail: aybənizazimova69@gmail.com
:https://orcid.org/0009-0000-0641-5272

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., S.Vurğun, 157)

GƏNCLƏRİN SAĞLAMLIĞININ QORUNUB SAXLANILMASINDA FİZİKİ TƏRBİYƏNİN ROLU

Xülasə. *Gənc nəslin fiziki və mənəvi cəhətdən hazırlıqlı yetişdirilməsi müasir həyatımızın ən aktual problemlərindən biridir. Hadisələrin çox tez-tez yönünü dəyişməsi və gözlənilməz xarakter alması övladlarımızı lap erkən ilk yaşlarından hərtərəfli yetişdirməyə bağlamağımızı vacib edir. Bu problemə cəmiyyətdə təhsil və təlim-tərbiyə proseslərində müəyyən qədər diqqətin ayrılmasına baxmayaraq, yenə də mühüm çatışmazlıqlar qalmaqdadır. Bir sıra tədqiqat işlərini aparılması zamanı məlum olmuşdur ki, fiziki məşğələlər zamanı qazanılmış nəticələr belə məşğələlərin arası kəsildikdən sonra və yaxud tamamilə dayandırıldıqda müəyyən müddətdən sonra qazanılmış göstəricilər, hətta əvvəlkindən də aşağı səviyyəyə düşür. Belə bir sual meydana çıxır: məşqlərin, fiziki tapşırıqların və sağlam qidalanmanın nəticəsində bizim orqanizmimizdə nə baş verir? Məsələ burasındadır ki, insanın orqanizmi optimal çalışma və özünü tənzimlənmə qabiliyyətinə malikdir.*
Düzgün qidalanma və müntəzəm aparılan fiziki tapşırıqlar bədənin düzgün tərbiyə olunmasına, onun ayrı-ayrı üzvləri arasında harmoniyanın yaranmasına, əzələ-sinir sisteminin güclənməsinə və kamilləşməsinə gətirib çıxarır.

Açar sözlər: *gənclər, fiziki tərbiyə, sağlamlıq, fiziki məşğələ, orqanizm, hərəkət, qidalanma, əzələ-sinir sistemi, fəallıq*

Gənc nəslin fiziki və mənəvi cəhətdən hazırlıqlı yetişdirilməsi müasir həyatımızın ən aktual problemlərindən biridir. Belə ki, biz indi getdikcə yaşam sürəti artan bir dövrdə yaşayırıq. Bu isə bizdən tez və vaxtında adekvat reaksiyalar tələb edir. İndiki dövrdə həyatla ayaqlaşmaq üçün ixtisasımızı tez-tez dəyişməyə, yeni ixtisaslar qazanmağa, yeni sənətlərə sahib olmağa məcbur oluruq. Deməli, gözlənilməz dəyişikliklərə əvvəlcədən hazır olmalıyıq. Bu uzun zaman tələb edən bir prosesdir. Məhz buna görə də övladlarımızı lap erkən yaşlarından hərtərəfli yetişdirməyə başlamalıyıq. Bu problemə cəmiyyətdə təhsil və təlim-tərbiyə proseslərində müəyyən qədər diqqətin ayrılmasına baxmayaraq yenə də mühüm çatışmazlıqlar qalmaqdadır [1; 4].

Uzun zamandan bəri aparılan araşdırmalar göstərir ki, nisbətən gec, yəni gənclik yaşlarından başlayaraq tətbiq olunan tədbirlər bu məsələnin uğurla həll olunması üçün yetərli deyil. Ona görə də təlim-tərbiyə işlərinə lap erkən yaşlardan – uşaq anadan olan kimi başlamaq lazımdır.

Hər şeydən əvvəl onu qeyd edək ki, insanın bu dünyaya gəlişindən dərhal sonra onun həyata uyğunlaşma prosesi başlayır. Belə ki, verilən instinktlər vasitəsilə uşaq əl-qol hərəkətləri etməklə əzələlərini möhkəmləndirməyə çalışır, müxtəlif bədən hərəkətləri etməyə cəhd edir. Bununla yanaşı duyğu orqanları vasitəsilə ətraf mühiti qavramağa, mövcud şəraitə qarşı adekvat hərəkətlərlə cavab verməyə, ətrafda baş verən hadisələri öyrənməyə, dərk etməyə çalışır.

Uşaqlığın ilk dövrü (2-3 yaşına qədər) insanın orqanizminin ən sürətlə inkişaf etdiyi dövrdür. Bu zaman ərzində onların həm əqli, həm də fiziki cəhətdən inkişaf etməsi çox sürətlə baş verir. Bu yaş dövründə uşaq ətrafdakı insanların (valideyn, qardaş, bacı, baba, nənə və s.) hərəkətlərini diqqətlə müşahidə edir, onların hərəkətlərini təqlid edir, fikirlərini, dediyi sözləri

yadında saxlayıb təkrar etməyə çalışır. Məhz bu zamandan başlayaraq onları gələcəyə hazırlamaq lazımdır. Uşaqların yaşının bu dövründə əsas iş valideynlərin üzərinə düşür. Belə ki, onlar uşaqların etdiyi hərəkətləri müntəzəm olaraq izləməli, hansı qabiliyyətin sahibi olduqlarını üzə çıxarmağa çalışmalıdırlar. Bunun üçün müxtəlif vasitələrlə (oyuncaqlar, trenajorlar, massaj və s.) onların əzələlərinin motorikasının inkişaf etdirilməsinin qayğısına qalmalı, əqli cəhətdən inkişaf etməsi üçün müxtəlif səviyyəli testlər tədbiq etməlidirlər.

Bu proses uşaqlarım məktəb yaşlarına çatmasına qədər davam etdirilməlidir (7-8 yaşa qədər). Məktəb yaşına çatdıqdan sonra bu proses pedaqoqlar tərəfindən təhsil və təlim-tərbiyə prosesində davam etdirilməlidir. Bədən tərbiyəsi dərsləri elmi cəhətdən əsaslandırılmış şəkildə, hər bir şagirdin individual qabiliyyəti, bacarığı və fiziki göstəriciləri nəzərə alınmaqla keçirilməlidir. Yerinə yetirilən fiziki tapşırıqlar gənclərin bədən üzvlərinin mütənasüb şəkildə inkişafını təmin etməlidir. Yetkinlik yaşlarına çatdıqca gənclərin şəxsiyyəti formalaşmağa başlayır. Bu zaman onların hansı sənətə yiyələnmək və hansı idman növü ilə məşğul olmaq istədikləri məlum olur. Yetkinlik yaşana çatan gənclərin böyük bir hissəsi tələbə adını qazanmağa nail olur. Bu zaman onların təhsilə ayırmalı olduqları vaxt çoxalır. Bu isə onların həyat tərzinin passivləşməsinə səbəb olur. Onların fiziki tapşırıqlar yerinə yetirməyə, bədən tərbiyəsi ilə, yaxud idmanla məşğul olmağa vaxtları demək olar ki, qalmır. Ona görə də gənclərin fiziki hazırlıq prosesində aşağıdaki konkret tələblər qarşıya qoyulmalıdır;

a) Orqanizmin möhkəmləndirilməsini, ümumi fiziki hazırlığın və işgörmə qabiliyyətinin yüksəldilməsini təmin etmək;

b) Gənclərin həyatda vacib olan hərəki bacarıqları və vərdişləri qazanmalarına nail olmaq;

c) Onların şəxsiyyət kimi yetişməsi üçün zəruri olan mənəvi-iradi keyfiyyətləri aşılamaq;

d) Fiziki parametrlərin (sürət, qüvvə, dözümlülük və s.) keyfiyyətini yüksəltmək və təkmilləşdirmək;

e) Seçdikləri idman növünə aid xüsusi texniki hərəkətlərə yiyələnmək;

f) İctimai həyatda fəal iştirak etmək üçün lazım olan motivasiyaları və həyatda nail olmaq istədikləri hədəfləri müəyyənləşdirmək.

Yuxarıda sadalanan məqsədə çatmaqda fiziki tapşırıqların rolu əvvəzedilməzdir. Fiziki tapşırıqların müntəzəm olaraq, müəyyən olunmuş ardıcıllıqla yerinə yetirilməsi mərkəzi sinir sisteminin normal fəaliyyətinə, əzələ sisteminin inkişafına, oynaq bağlarının möhkəmlənməsinə, tənəffüs və qan-damar sistemi üzvlərinin inkişaf etməsinə müsbət təsir göstərir. Bütün bunlarla yanaşı fiziki tapşırıqların yerinə yetirilməsi zehni yorğunluğu aradan qadırır və insanın işgörmə qabiliyyətini yüksəldir.

Bir sıra tədqiqat işlərini aparılması zamanı məlum olmuşdur ki, fiziki məşğələlər zamanı qazanılmış nəticələ belə məşğələlərin arası kəsildikdən sonra və yaxud tamamilə dayandırıldıqda müəyyən müddətdən sonra qazanılmış göstəricilər hətta əvvəlkindən də aşağı səviyyəyə düşür. Bu onunla izah olunur ki, hər hansı qıcığa reaksiya vermək qabiliyyətinə malik olan orqanizm fiziki yükləmələrə də eyni qaydada cavab verir. Bu reaksiyanın intensivliyi yerinə yetirilən fiziki işin gərginlik dərəcəsindən, orqanizmin fiziki gücündən, vegetativ sinir sisteminin inkişaf səviyyəsindən və s. asılıdır.


Fiziki tapşırıqların yerinə yetirilməsi zamanı baş verən proseslərin çoxcəhətli və mürəkkəb olduğundan biz burada yalnız məşq zamanı yerinə yetirilən fiziki işin sinir-əzələ sistemi səviyyəsində baş verən dəyişikliklərin izah olunması ilə kifayətlənəcəyik. Məlum olduğu kimi, orqanizmə təsir edən hər hansı bir qıcıq özündən sonra müəyyən iz buraxır. Təsir qüvvəsinin gücündən asılı olaraq buraxılan izin təsir müddəti də fərqli olur. Əgər təsir qüvvəsi vaxtaşırı davam etməzsə, onun buraxdığı iz tamamilə silinib yox olur. Fiziki tapşırıqlar yerinə yetirilərkən sinir-əzələ sistemi orqanlarında bir sıra biokimyəvi və funksional dəyişikliklər baş verir, bu da öz növbəsində orqanizmdə metobalizm prosesinin sürətlənməsinə səbəb olur. Bu proses orqanizmin enerjisinin azalmasına səbəb olur. Ona görə də enerjinin tam bərpa olunması üçün müəyyən vaxt tələb olunur.

Fiziki yüklənmənin dərəcəsindən asılı olaraq onun yerinə yetirilməsinə yalnız icraedici orqanlar yox, həm də orqanizmin bütün təminedici, tənzimləyici və yardımçı sistemləri də qoşulur. Deməli, hər hansı fiziki tapşırığın yerinə yetirilməsi orqanizmə oyandırıcı təsirlər göstərir, maddələr mübadiləsinin sürətlənməsini şərtləndirir, orqanizmi daha çox enerji sərf etməyə məcbur edir.

Fiziki tapşırığın yerinə yetirilməsi başa çatdıqdan sonra baş verən enerji çatışmazlığının orqanizm tərəfindən aradan qaldırılması üçün müəyyən qədər vaxt tələb olunur. Aparılan elmi-təcrübi araşdırmalar göstərir ki, bərpa prosesi dalğavari şəkildə həyata keçirilir. Fiziki tapşırığın yerinə yetirilməsi zamanı orqanizmin enerji ehtiyatlarının dəyişməsi sxem 1-də göstərilmişdir. Sxemdən də göründüyü kimi, istirahət müddətində bərpa prosesi nəinki ilkin səviyyəyə çatır, hətta bir məqamda ondan da yuxarı qalxır, sonra isə dalğavari olaraq ilkin səviyyədən aşağı-yuxarı hərəkət edərək, nəhayət ilkin səviyyədə sabitləşir. Ona görə də fiziki tapşırıqlar seriyasını həyata keçirərkən tapşırıqların təkrarlanması tezliyinin mühüm əhəmiyyətə malik olduğunu görürük. Hansı zaman kəsiyində istirahət etmək lazım gəldiyini dəqiqləşdirmək mühüm əhəmiyyət kəsb edir.



Təcrübələr göstərir ki, orqanizmdə müəyyən müsbət dəyişikliklər əldə etmək üçün hər bir növbəti tapşırığın yerinə yetirilməsi əvvəlki tapşırığın yerinə yetirilməsi zamanı baş vermiş enerji itkisinin bərpası, (sxem 2) onun super bərpası zamanı və yaxud bir qədər sonra həyata keçirilməlidir. Fiziki tapşırıqlar orqanizmin fiziki parametrlərini yaxşılaşdırma məqsədilə təyin olunursa bu halda fiziki yük tədricən artırılmalıdır. Bu zaman aşağıdakı proseslər baş verir; – ilk dəfə fiziki tapşırıq yerinə yetirildikdə daha çox gərginliyə məruz qalan əzələlərdə kəskin ağrılar törədən dəyişikliklər baş verir (bu bir neçə gün davam edə bilər); – ağrıların baş verməsinə əhəmiyyət vermədən məşqlər davam etdirilərsə nisbətən zəif intensivliklə bu dəyişikliklər daha tez və daha yüksək quruluş səviyyəsində bərpa olunur. Məhz bundan sonra tədricən ardıcıl və tələb olunan səviyyədə həyata keçirilən məşqlərin səmərəsi müşahidə olunmağa başlayır. Orqanizmlərinin dözümünü artıqmaq üçün insanlar müxtəlif idman növləri ilə məşğul olurlar. Bəziləri yüngül atletika ilə, digərləri əl oyunları ilə (voleybol, tenis, həndbol və s.) məşğul olmağa üstünlük verir. Bir başqaları güləşi, boksu, ağırlıqqaldırmanı və s. seçir.



Yuxarıda sadalanan növlərinin hər biri insan bədəninin müəyyən qrup əzələlərinin daha çox inkişaf etməsini şərtləndirir. Məsələn, əl oyunlarında daha çox əl-qol əzələləri gərginliyiə məruz qalır, güləş və boksda daha çox əzələ gərgin işləyir (çiyin, qol, döş qəfəsi, qıç, bel əzələləri və s.). Digər əzələlər nisbətən az gərginliyə məruz qaldığından daha az inkişaf edir. Ona görə də bir idman növünü seçənlər zaman-zaman digər idman növləri ilə də məşğul olmalıdır ki, bədən quruluşunun mütənasibliyi pozulmasın, müəyyən hisslər korşalmasın. Məsələn; boksla məşğul olanlar həm də stolüstü tennislə məşğul olmağa çalışırlar ki, rəqibin hərəkətlərinə daha tez reaksiya verə bilsinlər. İndi isə müntəzəm aparılan məşqlər zamanı orqanizmdə baş verən prosesləri izah etməyə çalışaq.

İlk növbədə onu qeyd edək ki, ümumiyyətlə, hərəkətsizlik orqanizmin bədən üzvlərində durğunluq yaradır. Bu isə öz növbəsində bədən üzvlərində patologiyaların yaranmasına səbəb olur. Dinamik hərəkətlər, müntəzəm məşqlər orqanizmin elastikliyini təmin edir, damarların, xüsusilə də kapilyarların sərtləşməsinə imkan vermir. Həmçinin əzələlərin biocərəyanlara qarşı həssaslığını artırır, enerji meridianlarının keçiricilik qabiliyyətini artırır, əmələ gələn maneələri dəf edir. Orqanizmin əzələlərinin və sinir sisteminin gücləndirilməsi üçün yerinə yetirilən fiziki məşqlərlə yanaşı, düzgün qidalanma da mühüm rol oynayır. Müntəzəm məşqlər zamanı çoxlu enerji sərf olunduğuna görə orqanizmin öz gücünü bərpa etməsi üçün sağlam, bioloji cəhətdən təmiz və yüksək enerjili ərzaqlarla qidalanmaq lazımdır. İstifadə olunan ərzaqlar 3 və 6 omeqa yağları ilə zəngin olmalı və antioksidant təsirinə malik olmalıdır. Bu məqalədə bu tip ərzaqların sadalanmasına ehtiyac duymadıq. Belə ki, indiki zamanda internet vasitəsilə belə ərzaqlar haqqında istənilən qədər məlumat əldə etmək olar. Oradan onların istifadə qaydalarını hazırlamasının üsullarını və faydalı cəhətlərini özünüz öyrənə bilərsiniz [5; 15].

İndi isə belə bir sual meydana çıxır: yuxarıda sadalanan məşqlərin, fiziki tapşırıqların və sağlam qidalanmanın nəticəsində bizim orqanizmimizdə nə baş verir? Məsələ burasındadır ki, insanın orqanizmi optimal çalışma və özünü tənzimlənmə qabiliyyətinə malikdir. Orqanizmin fəaliyyətini tənzimləyən və idarə edən əsas orqan beyindir. Adi halda, yəni orqanizmə əlavə yük düşmədikdə əzələlərimiz az çalışır, az enerji sərf edir. Amma fiziki aktivliyimiz artan zaman əzələlərimizə əlavə yük düşür və onlar daha çox enerji sərf etməyə başlayır.

Əgər əzələlərin yüklənməsi təsadüfi xarakter daşıyırsa orqanizm topladığı ehtiyat enerji vasitəsilə əzələlərin tələbatını təmin edir. Amma məşqlər, fiziki tapşırıqlar yerinə yetirildikdə və yaxud əməklə məşğul olduqda enerjinin sərf olunması da sürəkli şəkildə davam edir. Bu isə orqanizmin əvvəlcədən topladığı ehtiyat enejisinin tükənməsinə səbəb olur. Ona görə də uyğun orqanlar tərəfindən beyinə siqnallar ötürülməyə başlayır. Beyninə göndərilən siqnallar əlavə enerjiyə tələbat olduğunu bildirir. Bu zaman beyin orqanizmdə olan enerjini yenidən bölüşdürmək haqqında qərar verir. Bu isə orqanizmin kənardan enerji almaq tələbatını artırır. Qəbul etdiyimiz qidaların enerji səviyyəsində çatışmazlıqlar olarsa, bədəndə disbalans yaranır. Bu isə müəyyən orqanların distrofiyasına və yaxud xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

Nəticə. Beləliklə görürük ki, düzgün qidalanma və müntəzəm aparılan fiziki tapşırıqlar bədənin düzgün tərbiyə olunmasına, onun ayrı-ayrı üzvləri arasında harmoniyanın yaranmasına, əzələ-sinir sisteminin güclənməsinə və kamilləşməsinə gətirib çıxarır.

Ədəbiyyat

1. Aslanlı, M.İ. Fiziki mədəniyyət və mənəvi kamillik / M.İ.Aslanlı, – Bakı: Maarif, –1993.
2. Anri, Ş. Sağlamlığın gizli kodu / Ş.Anri, – Bakı: OL NPKT, – 2018.
4. Kasudzo, N. Sağlamlığın qızıl daydaları / N.Kasudzo, – Bakı: Apostrof, – 2011.
5. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M.Kazımov, – Bakı: OKA-Ofset, – 2008.
6. Məmmədov, Z.Ə. Bədən tərbiyəsi və idman təliminin əsas xüsusiyyətləri / Z.Ə.Məmmədov, – Bakı, – 2008.
7. Məmmədov, Z.Ə. Ali məktəb tələbələrinin antropometrik göstəricilərin müsbət təsiri // – Bakı, Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, – 2010, № 3.

Z.A.Mammadov, A.G.Alieva

The Role of Physical Training in Maintenance of the Youth Healt

Summary

One of the most actual problems of our modern life is to train physically and morally healthy young people. The fact that events often change its tendency and gain unpredictable character, forces us to pay particular attention to all sided nurture of our children since early age. Nevertheless, that society pays definite attention to this problem. There are still some essential spots in the process of education and upbringing. A number of scientific studies showed that the results achieved during physical training even after somewhile, or after complete stop, the readings decline to low indexes, than before. The question arises; what happens to our body in result of exercises, physical activity and healthy nutrition. The things that a person's organism has an ability to optimal functioning and self-regulation. Correct nutrition and regular physical exercises result in correct nurture of the organism, creation of harmony between its separate organs, enhancing and improving the neuromuscular system.

***Key words**: youth, physical education, health, physical activity, organism, exercise, nutrition, neuromuscular system, activity*

З.А.Мамедов, А.К.Алиева

Роль физического воспитания в сохранении здоровья молодежи

Резюме

Воспитание физически и духовно подготовленного молодого поколения является одной из самых актуальных проблем нашей современной жизни. Тот факт, что события часто меняют направление и приобретают непредсказуемый характер, заставляет нас уделять особое внимание всестороннему воспитанию наших детей с самого раннего возраста. Несмотря на то, что в процессах образования и воспитания в обществе этой проблеме уделяется определенное внимание, все еще сохраняются существенные недостатки. В ходе ряда научных исследований было установлено, что результаты, достигнутые во время физических упражнений, даже через определенный промежуток времени, после их прерывания или полного прекращения, достигнутые показатели падают до еще более низких значений, чем прежде. Возникает вопрос: что происходит с нашим организмом в результате упражнений, физической активности и здорового питания? Дело в том, что организм человека обладает способностью к оптимальному функционированию и саморегуляции. Правильное питание и регулярные физические упражнения ведут к правильному воспитанию организма, созданию гармонии между его отдельными органами, укреплению и совершенствованию нервно-мышечной системы.

Ключевые слова: *молодежь, физическое воспитание, здоровье, физическое занятие, организм, упражнение, питание, нервно-мышечная система, активность*

Rəyçi: ped.f.d., dos. Y.Səmədov

Redaksiyaya daxil olub:

G.H.MƏMMƏDZADƏ
baş müəllim, doktorant
e-mail: gunaymemmedzade08@gmail.com
:https://orcid.org/0000-0002-8484-1792

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univeristeti
(Bakı şəh., İnşatçılar pr., 39)

Azərbaycan Respublikası Təhsil İnstitutu
(Bakı şəh., Ayna Sultanova küç., 11)

10.62021/0026-0028.2025.2.353

BULLİNQ VƏ MƏKTƏBDƏN YAYINMA HALLARI: PEDAQOJİ BAXIŞ VƏ HƏLL İMKANLARI

Xülasə. *Məqalədə ümumtəhsil məktəblərində sosial-pedaqoji problemə çevrilmiş bullinq halları tədqiq olunmuşdur. Tədqiqatın məqsədi şagirdlər arasında yayılmış bullinqin mahiyyətini aydınlaşdırmaq və bu kontekstdə onun növləri (sözlü, fiziki, psixoloji, sosial, cinsi, kiberbullinq) və iştirakçıları haqqında məlumat verərək (buller, qurban, şahid) problemin yaranma səbəblərini və aradan qaldırılması yollarını elmi əsaslarla təqdim etməkdir. Məqalədə bullinqin qarşısının alınması üçün bir sıra pedaqoji həll yolları təklif olunmuşdur ki, buraya məktəbdaxili nəzarət mexanizmlərinin gücləndirilməsi, antibullinq proqramlarının tətbiqi, müəllim-valideyn əməkdaşlığının inkişaf etdirilməsi və məktəb psixoloqlarının fəaliyyətinin effektiv şəkildə təşkili daxildir.*

Açar sözlər: *bullinq, buller, qurban, məktəbdən yayınma, ümumtəhsil məktəbləri, pedaqoji həll yolları*

Giriş. Məktəb yalnız akademik biliklərin əldə edildiyi yer deyil, eyni zamanda, şagirdlərin sosial bacarıqlarının inkişaf etdiyi və əxlaqi dəyərlərinin formalaşdığı, onların şəxsiyyət kimi yetişdiyi mühüm müəssisədir. Şagirdlərin həyatlarının böyük bir hissəsini burada keçirdiyini nəzərə alsaq, məktəbin onların rifahını təmin etməkdə böyük məsuliyyət daşıdığını görərik. Məktəb şagirdlər üçün rahat və təhlükəsiz məkan olmalıdır. Əks təqdirdə məktəb özünün təlim, tərbiyə və təhsil kimi vəzifələrini həyata keçirə bilməyəcəkdir. Şagirdlərin məktəbdən yayınmasına təsir edən amillər sırasında bullinq halları xüsusilə vurğulanmalıdır. Hər gün milyonlarla şagirdin həyatına təsir edən bullinq halları təkcə uşaqları deyil, hər kəsi narahat etməli olan problem olub, həm uşaqlara, həm də cəmiyyətə uzunmüddətli ziyan vurur. 2019-cu ildə Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı – PISA-nın nəticələrinə əsasən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində 15 yaşlı şagirdlərin 22.7%-i ayda ən azı bir neçə dəfə həmyaşıdları tərəfindən bullinqə məruz qalır, təhqir edilir, 7%-i ayda bir neçə dəfə döyüldüyünü, itələndiyini, əşyalarının götürüldüyünü və ya qəsdən zərər vurulduğunu, 14%-i isə ən azı ayda bir neçə dəfə bullinqin müxtəlif növlərinə məruz qaldığını bildirir [5]. Bullinq haqqında sistematik tədqiqatlar 1970-ci illərdən başlamışdır. Öncələri bullinqə qarşı Skandinaviya ölkələrində başlayan bu maraq, sonradan Yaponiya, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Hollandiya, Avstraliya kimi ölkələrdə də yayılmağa başlamışdır. Son illər məktəblərdə baş verən bir sıra neqativ halların əsasında bullinq probleminin durması da bu məsələyə ciddi yanaşılmasını tələb etmiş, dünyanın bir sıra ölkələrində antibullinq proqramlarının hazırlanmasını, problemin pedaqoji, psixoloji və sosioloji aspektlərdən tədqiqini zəruri etmişdir. Bullinq anlayışının elmi ədəbiyyata gəlməsində xüsusi rolu olan Dan Olveusa görə bullinq davranışı, bir və ya bir neçə şəxsin, özlərini müdafiə etməkdə çətinlik çəkən bir insana qarşı qəsdən və təkrarlanan mənfi davranışlar göstərməsidir [7, s.7].

R.Yıldırıma görə isə bullinq eyni yaş və ya yaxın yaşlarda olan şagirdlərin arasında müşahidə olunan mənfi sosial davranış forması olub, buller qurbana nisbətdə fiziki cəhətdən daha güclüdür və davamlı olaraq mənfi davranış göstərməkdədir [10, s.40]. Bullinqin təhsil sisteminə təsirini qiymətləndirərkən onun şagirdlərin sosial və akademik inkişafına mənfi təsirini vurğulamaq vacibdir. Bullinqə məruz qalan şagirdlər dərsə olan marağını itirir, sosial mühitdən uzaqlaşır, psixoloji problemlərlə üzləşir və nəticədə məktəbdən yayınma halları artır [3]. Qurban şagirdlər özlərini məktəbdə təhlükədə hiss etdiklərinə görə, bullerlərin yaratdığı psixoloji, fiziki və sosioloji təzyiqdən xilas olmağın yeganə yolunu məktəbdən uzaqlaşmaqda görürlər [2]. Bu təzahürlərin qarşısını almaq üçün təhsil sistemində bullinqin fəaliyyət mexanizmləri dərinlərdən araşdırılmalı, pedaqoji və psixoloji yanaşmalar tətbiq edilərək, profilaktik tədbirlər görülməlidir.

Bullinq hallarının şagirdlərin psixoloji, fiziki və sosioloji vəziyyətinə necə təsir etdiyini anlamaq üçün onun iştirakçıları və növləri haqqında məlumat əldə etmək vacibdir. Bullinq hallarının üç iştirakçısı vardır ki, bunlar buller (zorakılığı törədən), qurban (zorakılığa məruz qalan) və şahiddir (bullinq hadisəsinə şahid olan). Bullerlər adətən qurbanlardan fiziki, psixoloji, emosional və sosial cəhətdən daha güclüdür. O, qurbana sistematik və qəsdən olaraq fiziki, cinsi, şifahi, emosional təzyiq, hücum tətbiq edən şəxsdir. Onlar qurbandan daha böyük, daha sosial, güclü, özünəinamlı, cəsarətli olur, manipulyasiya hissi güclü, empatiya, mərhəmət hissləri zəif olur, problemləri zorakılıqla həll etməyə üstünlük verirlər.

Qurban buller tərəfindən sistematik şəkildə qorxudulan, təhqir edilən, təcrid edilən, fiziki, psixoloji təzyiqlərə məruz qalan şagirddir [8, s.226]. Qurbanlar adətən sosial bacarıqları zəif olan şagirdlər arasından çıxır. Onlar adətən dostluq əlaqələri qurmaqda çətinlik çəkir və buna görə də yalnız olurlar. Qurbanlar eyni zamanda fiziki cəhətdən digərlərindən fərqli, iradəsiz, özünəinamı olmayan, tez təsir altına düşə bilən şagirdlərdir. Tədqiqatlar göstərir ki, qurbanların özünə hörməti və inamı azdır [4, s.525]. Şahidlər isə bullinq hallarını görən prosesin şahidi olan şəxslərə deyilir. Şahidlər şagirdlər, müəllimlər, məktəbin pedaqoji və texniki heyyətindən istənilən adam və ya adamlar ola bilərlər. Şahidlərin bullinq prosesindəki rolu mühümdür və həlledici xarakter daşıyır. Onlar qurbana dəstək olmaqla və vəziyyəti müvafiq şəxslərə bildirməklə bullinqin qarşısını ala bilərlər. Şahidi olunan bullinq hadisəsinə məhəl qoymamaq, ona dözmək və ya birbaşa və dolayı yolla təşviq etmək bullinqin davam etməsinə və güclənməsinə şərait yaradır və yeni qurbanların hədəfə çevrilməsinə gətirib çıxara bilir.

Bullinqin bir sıra növləri var:

Sözlü bullinq – təhqir, alçaltma, lağa qoyma, təhdid, ləqəb qoşma və s.;

Fiziki bullinq – döymək, vurmaq, badalaq gəlmək və s.;

Sosial bullinq – qrupdan təcrid etmə, şayiələr yaymaq və s.;

Cinsi bullinq – seksual xarakterli təzyiqlər və zorakılıq və s.;

Kiberbullinq – sosial şəbəkələrdə təhqir, ifşaedici materiallar paylaşmaq.

Bullinqin növlərinə məruz qalan şagirdlər özlərini şəxsiyyət kimi formalaşdırmaqda çətinlik çəkir, sosial mühitdən qaçır, psixoloji cəhətdən zəif olurlar. Buller tərəfindən uzun müddət təzyiqə məruz qalan qurbanlarda özünəinamsızlıq, özünə hörmətin aşağılığı, gələcəyə ümidsizlik, çarəsizlik müşahidə olunur [9]. Bullerlərlə mübarizə apara bilmədikləri üçün məktəbə getməkdən ya birbaşa imtina edir, ya da müxtəlif bəhanələrlə yayınmağa çalışırlar.

Məktəb mühitində davamlı olaraq fiziki və psixoloji zorakılığa məruz qalan şagirdlər, təhsil prosesindən uzaqlaşmağa meyilli olurlar. İbtidai sinif şagirdləri, adətən məktəbdən yayınmaq məqsədilə səhhətləri ilə bağlı müxtəlif şikayətlər irəli sürürlər [3]. Bəzi hallarda bu şikayətlər qorxu və stressin təsiri nəticəsində real sağlamlıq problemlərinə çevrilə bilər.

Daha böyük yaş qruplarına aid olan şagirdlər isə dərsə getmək adı ilə evdən çıxaraq, məktəbə getmək əvəzinə vaxtlarının əksər hissəsini küçədə, internet klublarda keçirirlər. Bu cür davranışlar onların qeyri-formal qruplara qoşulması və potensial risk faktorları ilə qarşılaşması ehtimalını artırır. Alternativ çıxış yolu tapa bilməyən, xüsusilə də ictimai şəkildə al-

çaldılan və zorakılığa məruz qalan şagirdlər isə daha ağır psixoloji fəsadlarla üzləşə bilirlər. Adətən kiberbullinqin və cinsi bullinqin qurbanları düşdükləri çətin vəziyyətdən xilas ola bilmədikdə son çıxış yolunu intihar etməkdə görürlər.

Bullinq şagirdlərin məktəbdən yayınmasına müxtəlif aspektlərdən təsir edə bilər:

1. Psixoloji təsirlər: bullinqə məruz qalan şagirdlərdə depressiya, narahatlıq, özünəinamın azalması və ya tamamilə itməsi, psixoloji travmalar kimi hallar müşahidə olunur.

2. Fiziki təsirlər: bullinqə məruz qalan şagirdlərdə gözlə görülən yaralar, izlər, sıyrıq, sınıq olmaqla yanaşı, yuxusuzluq, yorğunluq, baş, qarın ağrısı kimi hallar müşahidə olunur [1, s.8].

3. Sosial izolyasiya: sosial bullinqə məruz qalan şagirdin məktəb daxilində hər hansı bir qrupa daxil olmasına icazə verilməməsi, onunla pis rəftar, varlığının nəzərə alınmaması halları. Məktəb həm də şagirdlərin sosiallaşdığı yer olduğu üçün onlar məktəbdəki dostluqlara böyük önəm verirlər. Dostluq münasibətlərinin pozulması, onun məktəbdə qəbul olunmaması şagird üçün böyük travma olub, məktəbə olan marağının itməsinə səbəb olur. Bu zaman məktəb onun üçün cəzbediciliyini itirir və nəticədə məktəbdən yayınma halları baş verir.

4. Akademik performansın düşməsi: Bullinqə məruz qalan şagirdlərin özünəinamı itdiyi üçün akademik göstəricilərində zəifləmə müşahidə edilir. Bundan başqa onlar məktəbdə özlərini rahat hiss etmir, təkrarlanan zorakılıq halları onlarda qorxu yaradır və nəticədə şagirdlərin akademik nailiyyətləri zəifləyir.

Bullinq hallarının aradan qaldırılmasının pedaqoji yolları:

Müəllim nəzarəti: Müəllimlər məktəb mühitində əsas nəzarət mexanizmlərindən biri kimi çıxış edirlər və onların müşahidəsi bullinqin qarşısının alınmasında mühüm rol oynayır [8, s.21]. Bu müşahidə əsasında buller və qurban ola biləcək şagirdlər müəyyənləşdirilir. Daima narahat və qorxu içində olan şagirdin bullinqin qurbanı olub-olmadığı müəyyənləşdirilir, bullerin aqressiyasının səbəbləri dəqiqləşdirilir və müdaxilə strategiyaları tətbiq edilir. Müəllim nəzarəti şagirdlərin təhlükəsizliyini təmin etməklə yanaşı, onların sosial münasibətlərini düzgün istiqamətləndirmək üçün də vacibdir.

Müəllim nəzarətinin aspektləri: 1) Sinifdə nəzarətin gücləndirilməsi; 2) Şagirdlər arasında empatiya hissinin yaradılması və artırılması; 3) Müəllim-valideyn əməkdaşlığının gücləndirilməsi.

Məktəbdə antibullinq proqramlarının tətbiqi: antibullinq proqramları məktəblərdə bullinqin qarşısını almaq və mübarizə aparmaq məqsədi daşıyan sistematik tədbirlər toplusudur. Bu proqramlar əsasən preventiv və müdaxilə istiqamətli olurlar. Antibullinq proqramlarının bir sıra məqsədləri var ki, bunlara daxildir: 1) Şagird və müəllimləri bullinq problemi ilə bağlı maarifləndirmək; 2) Bullinq hallarını erkən aşkar etmək və qarşısını almaq; 3) Aqressiv davranış nümayiş etdirən şagirdlərin aqressiyalarının səbəbini müəyyənləşdirmək; 4) Məktəb psixoloqlarının və sosial pedaqoqlarının fəaliyyətinin gücləndirilməsi.

Məktəb psixoloqlarının rolunun gücləndirilməsi: bullinqin qarşısının alınması və şagirdlərin psixoloji rifahının təmin edilməsi baxımından sosial mühit yaratmağa, şagirdlərin emosional və akademik inkişafına müsbət təsir göstərməyə imkan verir. Məktəb psixoloqunun işinin xüsusiyyətləri: 1) Məktəbdə bullinqlə bağlı profilaktik tədbirlər keçirmək; 2) Müəllim, şagird, valideyn və məktəbin texniki işçilərinə bullinqlə bağlı seminarlar vermək; 3) Psixoloji dəstək sisteminin məktəb mühitinə inteqrasiyası; 4) Bullinqə qarşı erkən müdaxilə və reabilitasiya proqramları hazırlamaq və həyata keçirmək; 5) Məktəb daxilində psixoloji təhlükəsizlik mühitinin yaradılması.

Nəticə olaraq qeyd edilməlidir ki, bullinqin qarşısının alınması və məktəbdən yayınma hallarının minimuma endirilməsi üçün sistemli və pedaqoji yanaşmalar tətbiq edilməlidir. Bu konteksdə, məktəb rəhbərliyi, müəllimlər və psixoloqlar arasında əməkdaşlıq gücləndirilməli, preventiv tədbirlər görülməlidir. Həmçinin valideynlərin maarifləndirilməsi və şagirdlər arasında empatiyanın təşviq olunması bullinqin təsirlərini azaltmaq üçün mühüm addımlardır.

İşin elmi nəticəsi. Tədqiqata əsasən müəyyən olunmuşdur ki, bullinq halları şagirdlərin psixososial rifahına mənfi göstərdiyi kimi, onların dərsə davamiyyətinə də təsir edir. Bullinq nəticəsində məktəbdən yayınma hallarının qarşısının alınması üçün bullinqin vaxtında aşkarlanması, məktəbdaxili müdaxilə proqramları hazırlanmalı, müəllimlərin bullinqi tanıma və müdaxilə bacarıqlarının artırılması və valideynlərin məktəb-ailə əməkdaşlığının gücləndirilməsi lazımdır.

İşin elmi yeniliyi. Tədqiqatda bullinq və məktəbdən yayınma hallarının bir-birinə təsiri elmi əsaslarla sübut olunmuş, qarşısının alınması üçün müəllimlərin, məktəb psixoloqu və valideyn koordinasiyalı fəalliyyəti əsasında modellər təqdim olunmuşdur.

İşin tətbiqi əhəmiyyəti. Tədqiqatın nəticələri əsasında təhsil müəssisələrində bullinqlə mübarizə və məktəbdən yayınma hallarının qarşısının alınması üzrə proqramların hazırlanması və tətbiqində, həmçinin pedaqoq, psixoloq və valideynlər üçün maarifləndirici material kimi istifadə oluna bilər.

Ədəbiyyat

1. Çınkır, S. Okullarda zorbalık: Türleri, etkileri ve önleme stratejileri. I. Şiddet və Okul Sempozyumu. – İstanbul: MEB və UNICEF, – 2006. – 15 s.
2. Hamurcu, H. Zorbalığın toplumsal etkileri və mübarizə yolları / H.Hamurcu, – Ankara: Eğitim Yayınevi, – 2020. – 128 s.
3. Kapcı, E.G. İlköğretim öğrencilerinin zorbalığa maruz kalma türünün və sıklığının depresyon, kaygı və benlik saygısıyla ilişkisi // –Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Dergisi. – 2004. –210 s.
4. Lereya, S.T., Copeland, W.E., Costello, E.J., Wolke, D. Adult mental health consequences of peer bullying and maltreatment in childhood: Two cohorts in two countries.The Lancet Psychiatry. –2015. Vol. 2(6). – p. 524–531.
5. OECD. Chapter 2. Bullying. In PISA 2018 Results (Volume III). 2018.
6. Olweus, D. Bullying at school: What we know and what we can do. 24th edition. / D.Olweus, – Oxford: Blackwell Publishing Ltd, –2005. – p.140.
7. Olweus, D. Bullying among children and young people: Information and guidance for parents / D.Olweus, C.Solberg, –2018. – p. 34.
8. Piazza, T., Srabstein, J. Public health, safety and educational risks associated with bullying behaviors in American adolescents. International Journal of Adolescent Medicine and Health. – 2008. Vol. 20(2). – p. 223-233.
9. Srabstein, J., Piazza, T. Bullying as a public health problem among adolescents: Risk factors and prevention strategies. International Adolescent Health Review. –2008. Vol. 20(2). –p. 215-222.
10. Yıldırım, R. Akran zorbalığı // Celal Bayar Üniversitesi Sosyal Bilimler Dergisi. –2012. – c. 10(2). – s. 39-51.

G.H.Mammadzada

Bullying and Truancy: Pedagogical Perspectives and Solutions

Summary

The article studies cases of bullying, which has become a socio-pedagogical problem in secondary schools. The aim of the study is to clarify the nature of bullying among students and, in this context, to provide information about its types (verbal, physical, psychological, social, sexual, cyberbullying) and participants (bullies, victims, witnesses), and to present the causes of the problem and ways to eliminate it on a scientific basis. The article proposes a number of pedagogical solutions to prevent bullying, including strengthening internal school control mechanisms, implementing anti-bullying programs, developing teacher-parent cooperation and effectively organizing the activities of school psychologists.

Key words: *bullying, bully, victim, truancy, comprehensive schools, pedagogical solutions*

Г.Х.Мамедзаде

Буллинг и отстранение от учёбы: педагогические перспективы и решения

Резюме

В статье рассматриваются случаи травли, ставшие социально-педагогической проблемой в средних школах. Целью исследования является выяснение сущности травли среди школьников и в этом контексте предоставление информации о ее видах (вербальная, физическая, психологическая, социальная, сексуальная, кибербуллинг) и участниках (буллинг, жертва, свидетель), а также представление причин возникновения проблемы и путей ее устранения на научной основе. В статье предлагается ряд педагогических решений по профилактике буллинга, в том числе усиление механизмов внутришкольного контроля, реализация программ по борьбе с буллингом, развитие сотрудничества учителей и родителей, эффективная организация деятельности школьных психологов.

Ключевые слова: *травля, хулиган, жертва, прогулы, общеобразовательные школы, педагогические решения*

Rəyçilər: ped e.d., prof. İ.H.Cəbrayılov,
ped.ü.f.d. İ.O.Məmmədova

Redaksiyaya daxil olub: 15.05.2025

N.Q.MİRZƏLİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
e-mail: Mirzaliyevanigar903@gmail.com
:https://orcid.org/0000-0002-1163-0484

Azərbaycan Dövlət İqtisad Universiteti
(Bakı şəh., İstiqlaliyyət küç., 6)

10.62021/0026-0028.2025.2.358

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MƏTNLƏR ÜZƏRİNDƏ İŞİN TƏŞKİLİ METODİKASI

Xülasə. *Xarici dillərin tədrisində mətn üzərində işin təşkili məsələləri xüsusi rola malikdir. Belə ki, bacarıqların bir-birinə inteqrasiyası məhz mətnlərin hesabına reallaşdırılır. Mətn bəzi tədqiqatlarda bacarıqların, xüsusilə, oxu ilə yazı arasındakı məsafənin azaldılması vasitəsi kimi qeyd edilir.*
Həm dilçilik məsələlərinin, ümumilikdə, metodikanın qaynaqlandığı dil faktlarının təhlili baxımından, həm də metodiki məqamların izahında inteqrativliyin həyata keçirilməsində mətnlər üzərində işin təşkili və aparılması məsələləri xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: *mətn, inteqrasiya, motivasiya, bacarıq, dil*

Məlumdur ki, mətnlər üzərində işin təşkili və aparılması xarici dillərin tədrisində mühüm əhəmiyyət kəsb etməkdədir. Mətnlər və onlar üzərində işlə bağlı xeyli tədqiqat işləri aparılmışdır. Onlardan biri də R.Bartın araşdırmaları hesab edilir. Onun fikirlərinə görə, ədəbiyyat mətnlə bilavasitə bağlıdır. Tədqiqatçı "Work and Text" olaraq, burada mövcud olan fərqlənmənin yeddi mərhələ üzrə təsnifatını verir. Onlar aşağıdakılardır:

- metod;
- janr;
- işarə;
- plurallıq;
- filiasiya;
- oxu;
- zövq alma.

Bunlar da eyni zamanda aşağıda qeyd edilmiş dörd ardıcıl matrikslərdə öz əksini tapmışdır:

- silsilə şəklində birləşdirmək (concatenate);
- istinadlardan daimi istifadə (text constant);
- əks reaksiya (backlash);
- karetin geri dönüşü simvolu (carriage return).

Onu da xüsusilə vurğulayaq ki, mətnlər üzərində işin təşkilindən bəhs edərkən işgüzar mətnlərdə də bir neçə pillə diqqət çəkir. Onların adlarını təqdim edirik.

- ünsiyyətin dostcasına həyata keçirilməsi;
- təqdimatların edilməsi;
- relevant əlaqələr yaratmaq;
- kommunikasiyanın ikitərəfli olduğuna inandırmaq.

Bundan əlavə, R.Bart qeyd edir ki, "writerly" mətn "readerly" mətndən daha vacibdir. Eyni zamanda o qeyd edir ki, mətn vahidi kompozisiyasına görə yenidən qurula bilir. Belə ki,

onu formalaşdıran kodlar davamlı təqdimatdadırlar [5]. R.Bartın kodları beş növdə qərarlaşırdı ki, onlar aşağıdakılardır:

– nümayiş (exposition);
– gərginlik həddi (complication);
– klimaks (climax);
– enən fəaliyyət (falling action);
– qərarvermə (resolution) [6].

Onu da vurğulayaq ki, R.Bartın işarə kodları beş ardıcıllığı özündə ehtiva edirdi:

- interpretasiyanın nəzəriyyəsi və metodologiyası (hermeneutic);
- mənəvi seçim, məqsəd (proairetic);
- semantik(semantic);
- simvolik(symbolic);
- mədəni (cultural) [7].

Burada digər bir sualla qarşı-qarşıya qalırıq.

- Bəs Text World Theory (Gavins2007, Verts1999) nə deməkdir?
- Hansı məsələləri özündə ehtiva edir?

Sözügedən nəzəriyyə diskursiv prosesin koqnitiv-linqvistik modeli olub, mental reprezentasiyaların təsvirini verir ki, bu zaman diskurs iştirakçıları yazılı və şifahi ünsiyyət yaradırlar [8]. Burada digər bir maraqlı sual meydana çıxır. Ümumiyyətlə, mətnlərlə işləyərkən neçə kodun mövcud olduğu haqqında sual yaranır. Onların təsnifini versək, aşağıdakı mənzərə qarşıya çıxır. Onları təqdim edirik:

- mənbə kodu (data compression(or source coding));
- səhvlərə nəzarət və ya keçid kodu (error control or channel coding);
- kriptoqrafik kod (cryptographic coding);
- xətti kod (line coding) [5].

Onu da nəzərə çatdıraq ki, R.Barta görə, əsər maddi fraqmentdir. Belə ki, o müəyyən hissə və məkanı əhatə edir(məsələn, kitabxana). Mətn isə fərqli xarakterə malik olub, metodoloji xüsusiyyətləri ilə seçilməkdədir [4, s.878].

Qeyd edək ki, nitq ünsiyyətinin işləm məqamına malik mətnin müəyyənləşdirilməsində əsas aspekt onun daha geniş əhatənin içərisindən çıxarılması meyarlarıdır.

Akad. K.Abdullayev hesab edir ki, indiyə kimi təklif edilən meyarlar kifayət qədər səmərəli olmamışdır. Dilçi qeyd edir: "Bizə belə gəlir ki, mətnin sərhədlərini müəyyənləşdirməyin ən əlaqəli üsulu mətnlə cümlə arasındakı izomorfizmi müəyyənləşdirib ondan çıxış etməklə əldə edilə bilər. Cümlə kimi mətn də müəyyən çərçivəli struktura malikdir və strukturda son mərhələ əslində başlanğıc mərhələnin təkrarından başqa bir şey deyil. Əgər qədim yazılı abidələrdə biz daha tez-tez bu məqamda tam formal təkrara rast gəliriksə, müasir dildə adətən, həmin qədim cümlənin sintaktik dərinliyində gizlənmiş təkrar əlamətləri üzə çıxarmaq üçün müəyyən məntiqi-semantik əməliyyatlardan istifadə etmək lazım gəlir [1, s. 267].

Yuxarıda qeyd etdiyimiz məsələlərə təsadüfən diqqət etmədik. Dilçilik baxımından təhlil edilən məqamların məhz xarici dillərin tədrisində mühüm önəm daşıması məsələlərinə bu müstəvidə nəzər salacağıq.

Prof. Ə.Səfiyev yazır: "Onu da nəzərə almaq lazımdır ki, dil və nitq strukturlarının və onların ifadə vasitələrinin heç də həmişə üst-üstə düşməməsi faktı əlavə linqvistik və metodiki çətinliklərin yaranmasına səbəb olur.

Tədris edilən xarici dilin leksik və qrammatik quruluşundan linqvistik ünsiyyət prosesində istifadə edilməsi prizmasından yanaşan tədqiqatçılar xarici dildə monoloji nitqin aşılanmasına dair məqsədyönlü, xüsusi iş aparmağın zəruriliyini qeyd edirlər [3, s.99].

Tədqiqatçı burada diqqəti monoloji nitq mətnləri ilə işləyən zaman işin sistemli və mərhələli şəkildə aparılmasına çəkir. Çünki müasir zamanda orta və ali məktəblər qarşısında du-

ran ən vacib məsələ ünsiyyətə maksimum nail olmaqdır. Bunun üçün də kommunikasiyanın gerçəkləşdirilməsinə xidmət edən mətnlər üzərində işin təşkili və aparılması məsələlərini ingilis dilinin tədrisi prosesində istifadə etmək xüsusi əhəmiyyətə malikdir.

Metodist F.Kərimov mətnlər üzərində işin təşkili ilə bağlı qeyd edir ki, mövzular bir dərs üçün deyil, bir neçə məşğələ üçün nəzərdə tutula bilər. Lakin hər birinin konkret vəzifəsi olmalıdır. Daha sonra tədqiqatçı diqqəti verilən mətnlər və onlara dair mövzulara, məzmunlara yönəldərək qeyd edir ki, bu zaman hər birinin izahı olmalıdır. Məhz ingilis dilinin tədrisində mətnlər üzərində işin təşkili və aparılması, eyni zamanda bu qəbildən olan işlərin həyata keçirilməsi mərhələlərində bu cür elementlər, izahat tələb edən anlar vardır [2, s.27].

Onu da qeyd etmək lazımdır ki, ingilis dilində mətnlər üzərində işin təşkili zamanı tövsiyə edilən fəaliyyət növləri haqqında danışarkən, burada cütlüklərlə və qruplarla iş formalarının təhsilalanların tədris edilən dildə həqiqi ünsiyyət prosesində iştirakının təmin edilməsində xüsusi rolunu vurğulamaq lazımdır. Bu kontekstdə aşağıdakı bəzi vacib məqamları nəzərdən keçirək.

• Təhsilalanlara müxtəlif fikir və ideyalar təqdim edilir. Sonra həmin ideyalar yoldaşları ilə müzakirə edilir, lehinə və əleyhinə olan əsaslı dəlillər göstərilir.

• Mətnin özündə ehtiva etdiyi söz və söz birləşmələrindən istifadə etməklə mövzuya dair münasibət bildirilməsi tapşırılır.

Xarici dildə mətnlər üzərində işin təşkili və aparılması metodikasından bəhs edərkən, burada rollu oyunların xüsusi əhəmiyyət daşıdığını qeyd etmək lazımdır.

• Mətndə olan söz və ifadələrdən istifadə edərək təklif edilən personaj və yaxud digərlərinin rolunu oynayaraq önə çəkilən problemə dair münasibətlərini bildirmək tövsiyə edilir.

• Kommunikasiya yönümlü təlim vərdişlərin mətnlər üzərində işin təşkili zamanı interaktiv, inteqrativ şəkildə inkişaf etdirilməsini nəzərdə tutur.

• Dilöyrənənlərə çoxlu mövzu verilərək onların hər birinə dair mətn tərtib etmək, yazmaq təklif edilir.

Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, göstərilən fəaliyyət növlərinin hamısının həyata keçirilməsi heç də mütləq deyil. Səmərəli nəticələrin əldə edilməsi üçün əsas şərt prosesin mərhələli, sistemli şəkildə təşkil edilməsidir.

Ali məktəblərdə ingilis dilində mətnlər üzərində işin təşkilində çalışmalar kompleksi xüsusi əhəmiyyətə malikdir. Bu qəbildən olan çalışmaları fərqləndirən cəhət onların əsasən müxtəlif fəaliyyət növlərinə əsaslanmasıdır. Bu dilöyrənənlərdə sərbəst ünsiyyəti yaratmaq və onları real həyatda kommunikasiyaya hazırlamaqdır. Bir neçə mərhələdən ibarət olan çalışmalar sistemli tətbiq olunarsa, dilöyrənənlərdə kommunikativ bilik, bacarıq və vərdişlər daha səmərəli şəkildə aşılanar.

Qeyd edildiyi kimi, bacarıqların formalaşdırılması prosesi planlaşdırılmış şəkildə həyata keçirilməlidir. Bu da hər bir dərsin müəllim tərəfindən planlaşdırılmasını və dərs zamanı tərtib edilmiş plana riayət edilməsini nəzərdə tutur.

İngilis dilində bacarıqların formalaşdırılmasının məqsədi tamamilə aydındır. Belə ki, bu əsasən məlumat əldə etmək məqsədi daşıyır.

Mətn üzərində işin təşkili zamanı ilkin mərhələdə əsas məqsəd dilöyrənənlərə ən elementar səviyyədə vərdişlərin aşılanması məsələsidir.

Xarici dildə ən əsas məsələlərdən biri mətnlərin seçimidir. Bu zaman ixtisas dilində mətn materialları müəyyən prinsiplər əsasında seçilməlidir.

Xarici dildə, o cümlədən ingilis dilində mətn materiallarının seçimini şərtləndirən əsas prinsiplərdən biri onların təhsilalanlar üçün maraqlı olması, ehtiyac və tələbatlarını nəzərə almaqla seçilməsi, yaş, intellektual bilik səviyyələrinə uyğun olmasıdır.

Bundan əlavə, mətnlər üzərində işin səmərəli təşkili məqsədilə istifadə edilən mətnlər motivasiyanın yaradılmasına xidmət etməli, təhsilalanları ingilis dilini öyrənməyə həvəslən-

dirməlidir. Burada istifadə edilən mətnlər autentik olması ilə fərqlənməli, təhsilalanların leksik və qrammatik potensialının zənginləşdirilməsi imkanları baxımından əhəmiyyətə malik olmalıdırlar.

Dilöyrənənlərə təqdim edilən mətn materialları müxtəlif xarakterli, rəngarəng olmalı, dildaşıyıcılarının mədəniyyəti, təfəkkürü, onların yaşadıqları cəmiyyətdə qəbul edilmiş müxtəlif ünsiyyət tərzləri haqqında dilöyrənənləri məlumatlandırmalıdır. Belə ki, ali məktəblərdə təhsilalanlar hekayə, roman, qəzet, jurnal, elan, reklam, poemalar oxuyub-dinləyib, onları adekvat şəkildə qavramağı, dildaşıyıcılarının istifadə etdiyi nitq modellərindən adekvat şəkildə istifadə etmək, onların əsasında özləri fərdi şəkildə mətnlər tərtib etmək bacarığına yiyələnməlidirlər.

İşin elmi nəticəsi. Mətnlər üzərində işin təşkili və aparılması istiqamətində təhsilverənlər və onların seçdikləri müxtəlif məzmunlu mətnlər, onların xüsusiyyətləri, səmərəliliyi mühüm əhəmiyyətə malikdir. Burada ən səmərəli hesab edilən yollardan biri ingilis dilində məqsədyönlü şəkildə işi təşkil etməkdir. Əgər dilöyrənənlər müxtəlif, rəngarəng məzmuna malik mətnlərlə nə qədər çox işləyərsə bir o qədər də şifahi nitq, oxu, yazı və dinləyib-anlama qabiliyyətləri tez formalaşar.

İşin elmi yeniliyi. Sözügedən məqalədə indiyə qədər araşdırılan məsələlər ətafında təhlillər və araşdırmalar aparılır, qeydlər edilir, əldə edilən nəticələr konkretləşdirilir, xülasələşdirilərək təqdim olunur.

İşin tətbiqi əhəmiyyəti. Araşdırılan mövzu həm orta, həm də ali məktəblərdə ingilis dilinin tədrisində ümumilikdə, bacarıqların inkişaf etdirilməsi, tətbiqi, əməkdaşlığın və interaksiyanın təmin edilməsi baxımından faydalı ola bilər.

Ədəbiyyat

Azərbaycan dilində

1. Abdullayev, K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.Abdullayev, – Bakı: Maarif, – 1999, – 281 s.
2. Kərimov, F. Şifahi nitqin inkişafı yolları / F.Kərimov, – Bakı: BSU nəşr., – 2002, – 139s.
3. Səfiyev, Ə. İngilis monoloji nitqinin kommunikativ tədrisinin əsasları / Ə.Səfiyev, – Bakı: Elm, – 2019, – 176 s.

İngilis dilində

4. Barthes, R. From Work to Text. A Critical Tradition: Classic Texts and Contemporary Trends. 3rd ed. edited by D. Richter. Boston: Bedford. St. Martins, –2007, –pp.878-882

İnternet resursları

5. https://en. wikipedia.org
6. https://journal.truno. joyo.ac.id.
7. https://quizlet.com
8. https://etheses.whiterose.ac.uk

N.G.Mirzaliyeva

The Methodology of Organization of Works on Texts in ELT at High Schools

Summary

The organization of the works on texts has great importance in Foreign Language Teaching.

That is why all the integration processes are realized with the help of skills. Most people consider the notion of text as a tool of realization of the distance especially, between reading and writing and among other skills. So, works on the texts have great importance for analyzing linguistic facts, in the explanation of methodological items, for realizing integration processing.

Key words: *text, integration, motivation, skill, language*

Н.Г.Мирзалиева

Методика организации работы над текстами при обучении английскому языку в высших учебных заведениях

Резюме

В преподавании иностранных языков вопросы организации работы над текстом имеют особое значение.

Интеграция навыков между собой осуществляется именно за счет текстов. Большинство людей понимают текст как способ сокращения дистанции между чтением, письмом и др. Особенно важную роль в этом играют как вопросы лингвистики, так и анализ языковых фактов с точки зрения методики, а также реализация интегративности и в процессе организации работы над текстами и решении связанных с этим задач.

Ключевые слова: *текст, интеграция, мотивация, навык, язык*

Rəyçi: ped.f.d., dos. əvəzi J.Mehrəliyeva

Redaksiyaya daxil olub: 14.05.2025

D.Ə.NAĞIYEVA
dosent
e-mail: d_nagiyeva@mail.ru
:https://orcid.org/0009-0005-2839-8318

L.V.QOCAYEVA
dosent
e-mail: qocaleyla511@gmail.ru
:https://orcid.org/0009-0003-0382-4101

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., S.Vurğun, 157)

10.62021/0026-0028.2025.2.363

ÜNSİYYƏT PSİXOLOGİYASI

Xülasə. *Məqalədə ünsiyyət psixologiyası anlayışı ayrıca bir elm kimi, onun prinsipləri və əsas məqsədləri araşdırılır. Həmsöhbətlə əlaqə yaratmaq və onunla razılığa gəlmək üçün əsas ünsiyyət qaydaları sadalanır. Psixologiyanın mövzusu olan ünsiyyət də mürəkkəb və anlaşılması çətin olan bir sahədir. Bu hadisələr qədim zamanlardan insanların diqqətini cəlb etməklə yanaşı, bu sahədə müxtəlif fikir və nəzəriyyələrin yaranmasına səbəb olmuşdur. Psixologiyanın araşdırdığı bu hadisələrə psixi hadisələr deyilir. Psixi hadisələrin təsnifatı və onun quruluşu müxtəlif nöqteyi-nəzərdən şərh edilmişdir. Bu sahədə ən çox diqqəti psixi hadisələrin üç qrupa bölməsi ilə bağlı fikirlər cəlb olunur: psixi proseslər, psixi vəziyyətlər və psixi xüsusiyyətlər.*

Açar sözlər*: ünsiyyət, həmsöhbət, anlaşma, tələbat, rabitə*

Ünsiyyət olduqca mürəkkəb və maraqlı bir psixi hadisədir. Ünsiyyət bütün sosial-psixoloji hadisələrin mənbəyini təşkil edir. Birgəyaşayış və birgə fəaliyyət, təmas prosesində insanlar istər-istəməz informasiya mübadiləsinə girmək, öz fikir, istək və arzularını bir-birlərinə çatdırmaq məcburiyyətində qalırlar. İnsanlar birgə- yaşayış və birgə fəaliyyət zamanı daima bir-biri ilə informasiya mübadiləsi aparır, bir-birinə qarşılıqlı təsir göstərir və ya bir-birini qavrayır və anlayırlar. Başqa sözlə, ünsiyyətə girirlər. İnsanın hər cür fəaliyyətində ünsiyyət zəruri şərt kimi özünü göstərir. Ünsiyyət olmadan insanların birgə fəaliyyəti həyata keçirməsi mümkün deyildir. Ünsiyyət insanlar arasında təmasın yaranması və inkişafı prosesi kimi meydana çıxır. Heç bir insan birliyi oradakı adamlar arasında təmas yaradılmadan birgə fəaliyyəti həyata keçirə bilməz və onların arasında qarşılıqlı anlama baş verməz. Ünsiyyət insanlar arasında birgə fəaliyyət tələbatından doğan təmasın çoxplanlı inkişaf prosesidir. Bu cür birgə fəaliyyət prosesində insanlar fikir, informasiya mübadiləsi aparmalı olur, bir-birinə qarşılıqlı təsir göstərir, bir-birini anlayır, başa düşürlər.

Ümumipsixoloji baxımdan nəzərdən keçirdikdə, əvvəla, ünsiyyət iki və daha çox şəxs arasında baş verir; ikincisi, həmin proses az-çox dərk edilmiş olur; üçüncüsü, ünsiyyət insanlar arasında informasiya 14 mübadiləsi olmaqla bərabər qarşılıqlı təsir prosesi, real gerçəkliyi əks etdirmək vasitəsidir; dördüncüsü, ünsiyyət dinamik prosesdir, onun müxtəlif forma və vasitələri vardır. Deməli, ümumi psixoloji baxımdan ünsiyyəti fəaliyyətin xüsusi bir növü hesab etmək olar. Ünsiyyət prosesində insanlar arasında fikir, bilik, rəy, təcrübə və hisslər mübadiləsi gedir, onlar bir-birinin inam və əqidəsinə təsiri olan müxtəlif tipli məlumatları əsasən başqaları ilə ünsiyyət prosesində əldə edir, öz bilik və təsəvvürlərini başqalarına aşılayırlar. Ay-

dındır ki, ünsiyyət həyat tələbatlarından doğur və demək olar ki, insanın ictimai həyatının gedişini tənzim edir.

Ünsiyyət fərdin əqli və sosial inkişafında əsas amillərdən biridir. Ünsiyyət bacarıqlarına sahib olmaq bütün bəşəriyyətin digər insanlarla keyfiyyətli əlaqə qurması və cəmiyyətə uyğunlaşması üçün zəruridir. Hər bir insanın ilkin minimum ünsiyyət bacarığı var, lakin təcrübənin göstərdiyi kimi, bu bacarıqlar hər gün qarşılaşdığımız müxtəlif problemləri və tapşırıqları həll etmək üçün çox vaxt kifayət etmir. Buradan belə nəticə çıxır ki, bu bacarıqlar inkişaf etdirilməyə və təkmilləşdirməyə ehtiyac duyur [3].

Ünsiyyət psixologiyası insanlar arasında əlaqə qurarkən yaranan problemləri öyrənən və həll edən bir elmdir. Bu elm verbal və qeyri-verbal ünsiyyəti, onun forma və metodlarını, dilini və bir sıra digər faydalı mövzuları ehtiva edir, eyni zamanda, başqalarını düzgün başa düşməyi və onların razılığını almağı öyrədir. Hər bir insan məhsuldar, ahəngdar və münaqişəsiz əlaqə yaratmaq istəyirsə, bu elmə yiyələnməlidir. Sonra bu psixologiyanı ən yaxşı şəkildə necə öyrənmək lazım olduğunu başa düşmək üçün gündəlik həyatla əlaqəli bir sıra vacib mövzuları araşdırmaq lazımdır [2].

Hər bir fəaliyyətin öz məqsədi və mənası olmalıdır. Bir insan digəri ilə ünsiyyət qurarkən onların hər biri hansı məqsəd güddüyünü, bunun nə məna daşıdığını və gələcək perspektivləri aydın başa düşməlidir. Çox vaxt problemlər ünsiyyət prosesinin özündə və bitdikdən sonra yaranır, çünki bir insan bu prosesi idarə etmir; onun üçün kortəbii və qeyri-mütəşəkkildir və buna görə də gözlənilməzdir və təmasda olan insanların və bütövlükdə fərdin maraqlarını və ehtiyaclarını ödəmir. Yalnız kənardan belə görünür ki, insanlar bir-biri ilə əlaqə qurur, hansısa məna arxasınca gedir, bunu niyə etdiklərini başa düşürlər. Əslində bu həqiqətdən uzaqdır. Hətta yaxşı hazırlanmış işgüzar ünsiyyətlər də nəticədə mənasız ola bilər. Bunun müəyyən səbəbləri var. Ünsiyyətin məqsədini və mənasını dəqiq müəyyənləşdirmək, söhbətə başlamazdan əvvəl düşünmək lazımdır [4].

Ünsiyyət üçün hər zaman bir səbəb var. Ancaq insanlar çox vaxt bu barədə düşünmədiklərini başa düşmürlər. İnsan bu səbəb haqqında düşünməyə başlayan kimi dərhal ona aydın olacaq. Buna görə də biz ünsiyyət psixologiyasını öyrənirik, bizi müəyyən hərəkətlərə və əlaqə yaratmağa sövq edən bütün gizli, şüursuz motivlərimizi üzə çıxarmaq məqsədi güdürük. Bu motivləri başa düşmək, onları dərk etmək və tənzimləmək üçün digər daha əhəmiyyətli ehtiyaclardan irəli gələn ünsiyyət ehtiyaclarına xüsusi diqqət yetirmək lazımdır. Çünki ünsiyyət qabiliyyəti insanlara elə verilir ki, onun vasitəsilə daha əhəmiyyətli ehtiyaclarını ödəyə bilsinlər. Beləliklə, əlaqə qurarkən ünsiyyətin özünün bir tələbat olduğunu unutmadan, onun hansı ehtiyacların ödənilməsi üçün baş verdiyini xatırlamaq lazımdır. [3]

Həmçinin onu da xatırlamaq lazımdır ki, əgər siz hər hansı ünsiyyətdə məna və məqsəd görmürsünüzsə, bu, heç də məqsədlərini aydın bilən və sizinlə əlaqə qurarkən onlara çatmağa çalışan həmsöhbətləriniz kimi onun olmadığını göstərmir. Lakin bu heç də o demək deyil ki, onların maraqları sizin maraqlarınızla üst-üstə düşəcək. Ona görə də psixoloji rahatlıq əldə etmək üçün kiminləsə ünsiyyət qurarkən, ayıq olmaq və sizə qarşı istifadə oluna biləcək hər hansı mühüm məlumatın sizdən alınmasına, həmçinin sizə pis fikirlərin aşılanmasına imkan verməmək lazımdır. Buna görə də niyə bu və ya digər insanla ünsiyyət qurursunuz, bu ünsiyyətdən hansı nəticə gözləyirsiniz, hansı məqsədləri güdürsünüz və onlara çatmaq üçün bir insanla necə əlaqə qurmalısınız kimi suallrı verməlisiniz. Ünsiyyət prosesində daxili dialoq son dərəcə vacibdir – siz eyni vaxtda iki dialoq apara bilməlisiniz. Çünki ünsiyyət zamanı siz emosiyalara təslim olub həmsöhbətinizin yönləndirdiyi axınla gedə bilərsiniz. Ünsiyyətin son nəticəsi sizin istədiyiniz kimi olmaya bilər [2].

Ünsiyyətin məhsuldar, mənalı və bütün iştirakçılar üçün mümkün qədər faydalı olması üçün anlaşma lazımdır. Söhbət iştirakçılarının bir-birini başa düşməsi çox vacibdir. Bunun üçün iştirakçılar təkcə dinləməməli, həm də eşitməli, həmsöhbətin sözlərini nəzərə almalı, onlarla razılaşmalı və anlamağa çalışmalıdırlar. Anlamaq insanları həssas səviyyədə hiss etmək,

bütün sözləri, düşüncələri, hissləri qəbul etmək və onların bir parçası olmaq, fikir və düşüncələrinizlə bölüşmək deməkdir. Ona görə də ünsiyyət zamanı heç bir sözü qaçırmamaq və həmsöhbəti son dərəcə diqqətlə dinləmək son dərəcə vacibdir. Diqqətdən yayınmış hər bir məlumat həmsöhbətin səhv başa düşülməsinə, onun sözlərini səhv şərh etməyə və nəticədə yanlış nəticələrə və səhv cavab reaksiyasına səbəb ola bilər.

Həmçinin həmsöhbətinizin hansı məqsədlər güddüyünü, hansı vəzifələri həll etməli olduğunu başa düşmək lazımdır ki, onunla əlaqə qurarkən, onun və yalnız bundan sonra öz maraqlarınızı və ehtiyaclarınızı nəzərə ala biləsiniz. Axı siz əlaqə qurmaq və ümumi dil tapmaq istəyirsinizsə, həmsöhbətinizin istəkləri və problemləri ilə maraqlanmalısınız. Və hər bir iştirakçı yalnız öz mövzusu haqqında danışdıqda, bu ünsiyyət ikitərəfli və ya çoxtərəfli monoloqa çevrilir. Çünki belə ünsiyyətdə insanlar bir-birini başa düşməyə can atmırlar, onlar üçün həmsöhbətinin nə deməsi önəmli deyil, onlar üçün yalnız özlərinin nə dedikləri önəmlidir. Belə ünsiyyətin heç bir faydası olmayacaq və bu ünsiyyət mübahisə, münaqişə, şəxsi təhqir və münasibətlərin sonu ilə nəticələnə bilər. Həmsöhbətinizin dediyini və düşündüyünü başa düşməyi və qəbul etməyi bacarmalısınız.

Bunun üçün həmsöhbətinizi və onun maraqları haqqında düşünmək lazımdır. Həmsöhbətin eşitməsinin xoş olacağını və nəyin etməyəcəyini unutmadan, daha yaxşı başa düşmək üçün həmişə özünüzü onun yerinə qoymağı bacarmalısınız. Axı, başqa bir insanın istəklərini başa düşmək üçün həmsöhbətinizin açıqlığına və etibarına nail olmaq lazımdır, çünki etibar olmadan ünsiyyət çətin, natamam olacaq və gizli istəklərə malik olacaqdır. Etibar qazanmaq üçün həmsöhbətinizin eşitmək istədiyini, özünüzü onun yerinə qoyaraq söyləməlisiniz. Düşünün ki, bəzən bir insanla sizinlə ünsiyyət qurmaq istədiyiniz şəkildə ünsiyyət qurmaq necə çətinləşir, çünki ünsiyyət zamanı insanlar həmişə bu prosesi idarə etmirlər və çox vaxt duyğularına təslim olurlar. Ancaq sizə lazım olan tək şey söhbətə nəzarət etmək, söhbətinizi əvvəlcədən düşünmək və sadəcə ağlınıza gələn ilk şeyi ağzınızdan çıxarmaq deyil. Sözlərinizi, duyğularınızı və emosiyalarınızı idarə etməlisiniz ki, ünsiyyət mümkün qədər effektiv olsun [3].

Ünsiyyət həmişə həmsöhbətlər arasında müəyyən bir məqsəd güdən məlumat mübadiləsi prosesidir. Mənasız ünsiyyət deyə bir şey yoxdur; ilk baxışdan görünməsə belə hər bir insan konkret məqsəd güdür. Yüksək məqsədlər konstruktiv və mənalı ünsiyyət yaradır. Ünsiyyətdə hər bir iştirakçının onu dinləməsini istədiyini xatırlamaq vacibdir. Müxtəlif növ məlumatları ifadə edərkən həmsöhbətinizin hansı məqsədləri güddüyünü aydın başa düşməlisiniz, çünki istənilən effektiv ünsiyyətin sirri həmsöhbətinizi başa düşmək bacarığındadır. Həmsöhbətinizə diqqətlə qulaq asdığınızı və söhbətin sizi son dərəcə maraqlandırdığını göstərmək vacibdir; onu dinlədiyinizə əmin olmalıdır. Onunla razılaşmaq, ona heyran olmaq, onunla göz təması qurmaq, emosiyalarınızı göstərmək zəruridir. Bu üsullarla siz öz marağınızı nümayiş etdirirsiniz və həmsöhbətinizə onun başa düşüldüyünə və eşidildiyinə əmin olmaq imkanı yaradırsınız [1].

İnsanların nəinki dinlənildiyini, həm də eşidildiyini və cavablarınızın heç də vacib olmadığını bilmələri vacibdir; həmsöhbətiniz dinlənildiyinə əmindirsə, artıq sizə tərəf yönələcək. Ortaq maraqlar, ümumi mövzular və sizi birləşdirən bir şey tapmalısınız. Əgər siz ona bənzəyirsinizsə, sizə yaxınlaşmağa daha çox meyilli olacaq. Mənfi reaksiyaya səbəb ola biləcək ən böyük səhv, həmsöhbətinizin sözünü kəsib danışmağınızdır. Bu, qətiyyən edilməməlidir. Həmçinin söhbət zamanı diqqətinizi yayındırmaq, ətrafa baxmaq və ya əsnəmək düzgün deyildir; hər zaman göz təmasını qoruyub saxlamaq lazımdır. Əks halda, bu hərəkətlər qarşı tərəfə ünsiyyət zamanı sizin heç bir marağınızın olmadığını və buna görə də anlayışınızın olmadığını göstərəcəkdir. Bu, həmsöhbətinizlə bütün etibarlı münasibətləri məhv edəcək və istədiyiniz lazımi razılığa gəlməyə mane olacaqdır [3].

Əksər insanlar söhbətə başlayarkən yalnız öz tələbatlarına uyğun olan mövqeyini bildirirlər ki, bu da kobud səhv sayılır. Həmsöhbətlə ünsiyyətdə olarkən, ona daha çox sual verməyə çalışmaq lazımdır. Emosional reaksiya vermək və məlumatı mənimsəyən insan təəssüratı yaratmadan suallara cavab vermək vacibdir. Həmsöhbətin ünsiyyətə açıq olmadığı, təmkinli

və sakit davrandığı hallarda, sual vermədən daha çox danışmağa çalışmaq, əvəzində heç nə soruşmadan söhbət etmək ehtiyacı yaranır. Əgər o sizə etiraz edərsə, daha ətraflı məlumat verməsini xahiş edərək, maraq və təəccüb nümayiş etdirməlisiniz. Və o, sizə tamamilə meyilli olduqda, xüsusən də söhbət kişi və qadın arasında gedərsə. sizdən tələb olunan tək şey maraq və heyranlığınızı göstərməkdir [2].

İnsanların nəyi eşidib esitməməyi sevdiyini hamımız yaxşı bilirik. Hər bir insan tərifləməyi, yaltaqlanmağı və onunla razılaşmağı sevir. Amma insanları tənqid edəndə, səhvlərini göstərəndə, xoşagəlməz həqiqətləri söyləmək heç kimin xoşuna gəlmir. Sual yaranır: o zaman bunu deməyə ehtiyac varmı? Çox vaxt buna heç bir ehtiyac olmur. Ancaq təfərrüatlara girsək, həqiqət nə qədər xoşagəlməz olsa da, şirin bir yalandan daha çox şey verir. Belə hallarda insana fayda vermək üçün eşitmək istəməsə və ya hazır olmasa belə həqiqəti söyləmək lazımdır. Bu asan qərar deyil, çünki heç kim ona nifrət edilməsini istəmir. Ancaq bəzən onlar üçün vacib bir anlaşma əldə etməyə kömək etmək istədiyiniz insanlar sizin üçün son dərəcə əzizdirsə, belə bir qərar verilməlidir.

Ünsiyyət çox çətin bir işdir, söz və ağıl oyunudur, onun köməyi ilə insanların həyatda yaxşı mükafatlar əldə etmək imkanı vardır. Ünsiyyət psixologiyasının özü isə oyunun necə daha effektiv oynanacağını göstərir və onu dərk etməklə hər bir insanın qarşısında qeyri-məhdud imkanlar yaranır. Çünki həyatda qazanacağınız nailiyyətləriniz ünsiyyətinizin keyfiyyəti ilə müəyyənləşir.

Ünsiyyətdə uğurlu olmaq, həmsöhbətləri dostlara, düşmənləri isə sülhsevər, mehriban həmsöhbətlərə çevirmək vacib bacarıqlardan biridir. Əbəs yerə deyil ki, yaxşı ünsiyyət bacarıqlarına sahib olmaq ən vacib insan keyfiyyəti hesab olunur [3].

İstənilən ünsiyyətdə ən vacib şey həmsöhbətinizə maraq, diqqət və anlayış göstərməkdir. Özünüz və arzularınız və ehtiyaclarınız haqqında danışmazdan əvvəl həmsöhbətinizlə maraqlanmağa çalışın. Bütün bu qaydalara əməl etməklə siz təkcə işgüzar ünsiyyətdə deyil, həm də yaxşı natiq statusu qazanacaqsınız və hər zaman başqa insanlarla ortaq dil tapa biləcəksiniz. Yaxşı natiq hər zaman hörmət və sevgiyə layiqdir, hər bir insanın ruhu dinləməyi və eşitməyi bilənlərə açıqdır.

Elmi nəticəsi. Sosial psixologiyanın aparıcı istiqamətlərindən birini təşkil edən ünsiyyət fenomeninin doğru şəkildə dərki mövcud problemlərin həllində önəmli rol oynayır. Bu baxımdan, fenomenin çoxtərəfli yanaşmalar əsasında təhlilinin zəruriliyi ortaya çıxır. Ünsiyyət fenomeninin hərtərəfli təhlilində sosial-psixoloji yanaşma tam yetərli olmadığından, problemin fəlsəfi aspektdən təhlili onun subyektiv, yəni psixoloji mahiyyətinin dərkində önəmli rol oynayır.

Tətbiqi əhəmiyyəti. Ünsiyyət psixologiyası təhsil sistemində tədris edilməli və tələbələrə ünsiyyət qurma bacarığı və vərdişləri aşılanmalıdır. Çünki ünsiyyət şəxsiyyətin formalaşmasına fəal təsir göstərən amillərdən biridir. O, psixi inkişafın gedişində üzə çıxsa da, bilavasitə onu şərtləndirir, fəaliyyətin tərkib hissəsi kimi özünü göstərir.

Elmi yeniliyi. Ünsiyyət prosesində müəyyən çətinliklər müşahidə olunur. Onlar adətən sosial və psixoloji xarakter daşıyır. Bu çətinliklər şəxsin müəyyən fərdi- psixoloji xüsusiyyətlərə malik olmasından irəli gəlir. Psixoloqların fikrincə, ünsiyyət prosesində əmələ gələn çətinlikləri aradan qaldırmaq üçün adamlarda ünsiyyət vərdişlərini aşılamaq və ünsiyyət mədəniyyətini artırmaq lazımdır. Bu məqalədə həmin çətinlikləri aradan qaldırma üsul və vasitələri göstərilmişdir.

Ədəbiyyat

1. Həmzəyev, M.Ə. Ünsiyyətin psixologiyası. Dərs vəsaiti / M.Ə.Həmzəyev, S.F.Əmiraslanova, – Bakı: – 2007. – 230 s.
2. Маклаков, А.Г. Общая психология: Учебник для вузов / А.Г. Маклаков. – СПб.: Питер, – 2017. – 583 с.

3. Geray, H. Yeni iletişim teknolojileri ve etik / H.Geray, A.Aydogan, –Ankara, – 2010, – 124 s.
4. Рамендик, Д.М. Общая психология и психологический практикум / Д.М.Рамендик. – М.: Форум, –2017. – 304 с.
5. Qədirova, R.Q. Ünsiyyət psixologiyası / R.Q.Qədirova, İ.M.Məmmədli. – Bakı, –2000.
6. Ümumi psixologiya / red. M.Ə.Həmzəyev, S.İ.Seyidov. –Bakı, –2014. – 653 s.

D.A.Nagieva, L.V.Godjaeva

Psychology of Communication

Summary

In this article, the concept of the psychology of communication as a separate science, its principles and main tasks is considered. Listed the main rules of communication to establish contact with the interlocutor and reach an agreement with him.

Communication, which is the subject of psychology, is also complex and difficult to understand. These events have attracted people's attention since ancient times, giving rise to various ideas and views in this area. These phenomena, studied by psychology, are called mental phenomena. The classification of mental phenomena and its structure have been interpreted from various points of view. The greatest attention in this area is attracted by ideas related to the division of mental phenomena into three groups: mental processes, mental states and mental properties.

Key words: *communication, interlocutor, understanding, need, contact*

Д.А.Нагиева, Л.В.Годжаева

Психология общения

Резюме

В данной статье рассмотрено понятие «психология общения» как отдельная наука, его принципы и основные задачи. Перечислены главные правила общения для установления контакта с собеседником и достижения договоренности с ним.

Общение, составляющее предмет психологии, также отличается сложностью и трудностью понимания. Эти события с древних времен привлекали внимание людей, порождая различные идеи и взгляды в этой области. Эти явления, изучаемые психологией, называются психическими явлениями. Классификация психических явлений и ее структура трактовались с различных точек зрения. Наибольшее внимание в этой области привлекают идеи, связанные с разделением психических явлений на три группы: психические процессы, психические состояния и психические свойства.

Ключевые слова: *общение, собеседник, понимание, потребность, контакт*

Rəyçi: f.ü.f.d., dos. P.Ə.Əzizova

Redaksiyaya daxil olub: 10.04.2025

M.H.NƏZƏROV
fəlsəfə elmləri doktoru, dosent
e-mail: muslimnazarov@mail.ru
:https://orcid.org/0009-0001-6549-6831

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

10.62021/0026-0028.2025.2.368

TƏHSİL SAHƏSİNDƏ İNNOVATİV İDARƏETMƏNİN MÜASİR TENDENSİYALARI

Xülasə. *Məqalədə gənc mütəxəssislərin bacarıq və şəxsi keyfiyyətlər baxımından hazırlanmasının keyfiyyətinin yüksəldilməsi məqsədilə universitetə şəbəkə təşkilati formasının xüsusiyyətləri, biznes strukturları arasında qarşılıqlı əlaqə mexanizmləri verilməsi zərurəti əsaslandırılır. Bu funksiyaları həyata keçirmək üçün universitet yeni çoxfunksiyalı şəbəkə modeli sistemində yeni idarəetmə funksiyalarını həyata keçirəcək korporasiyaya çevrilərək bütün təhsil və idarəetmə şəbəkəsinin koordinatoruna çevrilməsi əsaslandırılır. Həmçinin peşəkar təhsil sisteminin elementlərinin müəyyənləşdirilməsi və strukturlaşdırılması, onların əlaqələrinin, proseslərin, resursların və nəticələrin qurulması mənasını verən "sistemli idarəetmə" termininin məzmunu müəyyən edilir.*

Açar sözlər: *cəmiyyət, təhsil, paradiqma, peşəkar, şəxsiyyət, idarəetmə, əməkdaşlıq, şəbəkə*

Müasir dövrdə təhsilin inkişafının aparıcı amili yeni biliklərin, mənəvi-əxlaqi dəyərlərin inkişafı, insan cəmiyyətinin gələcək inkişafı üçün sosial inkişaf kursunun qarşıya qoyduğu vəzifələrin innovativ həllini həyata keçirməyə qadir olan sosial yönümlü insan kapitalının formalaşdırılmasıdır.

Təhsil milli iqtisadiyyatın inkişafında, eləcə də beynəlxalq aləmdə rəqabət qabiliyyətinin yüksəldilməsində əsas amillərdən biridir. Müasir dünyada təhsil ümumən dünya ictimaiyyəti tərəfindən tanınan və milli dövlətlərin rəhbərləri və elitaları tərəfindən başa düşülən əsas sistemlərdən biridir. Müasir postsənaye cəmiyyətinin iqtisadiyyatı əksər tədqiqatçılar tərəfindən "bilik iqtisadiyyatı" kimi müəyyən edilir ki, burada nə əşyalar, nə də təbii ehtiyatlar, o cümlədən enerji resursları cəmiyyətin əsas sərvətini təşkil etmir; informasiya və kəşfiyyat prioritetdir. Yeni cəmiyyətdə ilk növbədə elm və təhsil sahəsində fəaliyyət göstərən insanlar – elm və təhsil elitası tərəfindən yaradılan mənəvi dəyərlər ön plana çıxır [6]. Müasir dünyada təhsil həm satılan xidmət, həm də dəyərli əqli mülkiyyətdir. Beləliklə, bilik iqtisadi inkişafın və qlobal rəqabət qabiliyyətinin əsas amillərindən biridir.

Dövrümüzün qlobal çağırışlarına yönəlmiş cəmiyyətin inkişafının dialektikası onun inkişafının digər amili kimi insan fəaliyyətinin bütün sahələrinin humanistləşdirilməsini irəli sürür. Təhsil sistemində sosial inkişafın aparıcı amillərindən biri də təhsilin məzmununun, növlərinin və formalarının seçilməsi amilidir.

Təhsilin idarə edilməsi öz növbəsində mürəkkəb proses və sistemdir, ümumi idarəetmə sisteminin bir hissəsi, elementi və təhsil sahəsində dövlət siyasətinin nəticəsidir. Bəlkə də məhz ona görə ki, bu idarəetmə eyni anda bir neçə sistemin belə mürəkkəb tərkib hissəsidir ki, sadalanan bütün sistemlər və alt sistemlər üçün konkret problemlərin (xüsusən də kadr problemlərinin) həlli üçün əsas sistem yaradan amil kimi böyük əhəmiyyət kəsb edir.

Lakin bu gün demək olmaz ki, təhsilin idarə edilməsi sistemlidir və yeni formada kadrların və mütəxəssislərin hazırlanması sahəsində dövlət təhsil siyasətinin inkişafına təsir göstərir.

Qloballaşan iqtisadiyyatın sistemli inkişafına diqqət yetirərək qeyd etmək lazımdır ki, qlobal iqtisadi idarəetmə sistemində məkan strukturuna, yaranmaqda olan klasterlərdə qarşılıqlı əlaqəyə və yaranan biznes şəbəkələrində qarşılıqlı asılılığa əsaslanan modernləşmələr gedir. Bu şəbəkə strukturlarında idarəetmənin ümumi prinsipinə sənayedə üstünlük təşkil edən mərkəzlə periferiya, o cümlədən firmalar, korporasiyalar, təşkilatlar və s. daxildir.

Təhsil mühitində innovasiyaların idarə edilməsi məsələləri fərdi idarəetmə proseslərinin təkmilləşdirilməsinə, xarici və daxili amillərin təsirinə, təhsil prosesinə nəzarətin təkmilləşdirilməsinə təsir göstərir.

Ali təhsildə innovasiyaların idarə edilməsinin əsas elementlərinə aşağıdakılar daxildir:

– Strateji diaqnostika, onun çərçivəsində hər hansı strateji qərarların qəbul edilməsi yalnız ali təhsil sisteminin maliyyə-iqtisadi vəziyyətinin, onun təhsil xidmətləri bazarındakı mövqeyinin dəqiq diaqnostikası əsasında deyil, həm də əmək bazarında təklif olunan təhsil xidmətlərinə tələbatın qiymətləndirilməsi əsasında mümkün olur;

– Strateji alternativlərin təhlilini, sosial-iqtisadi sistemin inkişaf strategiyasının konkret proqnozunun həyata keçirilməsi ilə bağlı fayda və risklərin qiymətləndirilməsini tələb edən strateji məqsədin, göstəricilərin və çərçivə məhdudiyyətlərinin formalaşdırılması;

– Çərçivə məhdudiyyətləri və proqnozlaşdırma obyektinin gələcək vəziyyəti ilə müəyyən edilən strateji proqnozlaşdırma, fəaliyyət göstərmək imkanlarının sistemli axtarışı və verilmiş şəraitdə bu hərəkətlərin nəticələrinin proqnozlaşdırılması;

– Strateji planlaşdırma və sənayenin inkişafı layihələrinin həyata keçirilməsi, əsas göstəricilərdən istifadə etməklə strategiyanın həyata keçirilməsi prosesinin izlənilməsini və zəruri hallarda strateji planların düzəldilməsini və ya strateji hədəflərə yenidən baxılmasını nəzərdə tutan strateji nəzarət;

– Nəzarət məlumatları strateji idarəetmə prosesinin davamlılığını təmin edən sosial-iqtisadi sistemin vəziyyətinin diaqnostikası üçün göstəricilər kimi çıxış edir.

İdarəetmədə şəbəkə təşkilati formalarının fərqli xüsusiyyəti biznes strukturlarının qarşılıqlı asılılığıdır.

Şəbəkədə strukturların qarşılıqlı təsirində əsas amillər ideyalar və problemlərin həlli yolları kimi amillərdir. Onların əsasında idarəetmə modernləşdirilir və koordinasiya bütün səviyyələrdə hərəkətlərin əlaqələndirilməsi formasını alır: dövlət, regional, institusional. Sənaye şəbəkəsinin bütün elementlərinin (o cümlədən təhsil sistemi) qarşılıqlı əlaqəsinin mahiyyəti dövlət səviyyədə idarəetmə mexanizmi pul, vergi, investisiya siyasəti, gəlir səviyyələri və s. ibarətdir.

Şəbəkə qarşılıqlı əlaqəsinin üstünlüyü ondan ibarətdir ki, o, əməkdaşlıqda sinergik effekt verir, idarəetmə aparatları da daxil olmaqla xərcləri minimuma endirir, xidmətlərin və malların keyfiyyətini yaxşılaşdırır, kadrların ixtisasını artırır.

"Kapital" və "əmək" deyil, "bilik" və "vaxt" resurslarının qıtlıq dərəcəsi gələcək inkişafı və nəticədə idarəetmənin müasirləşməsini müəyyən edir. Şəbəkə idarəetməsi strateji məqsədlərə diqqət yetirməklə təşkilatın kommunikativ rasionallığına əsaslanır. Onun özəlliyi şaquli iyerarxiyanın üfüqi qarşılıqlı əlaqə ilə əvəz edilməsi, subyekt-subyekt münasibətlərinin inkişafı (əvvəlki subyekt-obyekt münasibətlərinin əvəzinə), "oyun qaydaları"nın apriori deyil, bərabərhüquqlu təşkilatlar arasında işgüzar əməkdaşlıq zamanı müəyyənləşdirilməsidir.

İdarəetmə şəbəkəsi texnologiyalarına birgə müqavilələr, əmtəə və xidmətlərin istehsalı üzrə müqavilə fəaliyyəti, müxtəlif strukturlar üzrə inkişaf layihələrinin texnoloji işlənib hazırlanmasında əməkdaşlıq, birgə istehsal, daxili və xarici bazarlarda xidmətin vasitəçiləri, istehlakçıları və istifadəçiləri ilə əlaqələr, standartların müəyyən edilməsi, onların həyata keçirilməsi və s.daxildir.

Aydındır ki, müasir dünyada yeni sistemli idarəetmə paradiqması, o cümlədən bütün elmi idarəetmə məktəblərinin nailiyyətləri formalaşır və sənaye dövrünün təcrübəsi ilə sübut edilmiş mövcud funksional, situasiya, davranış və digər yanaşmalar əsasında onların tətbiqi

tamamilə yeni şəraitdə inteqrasiya olunur ki, bu da prosesin təkcə sistemli baxışını deyil, həm də nəticəsini tələb edir [8].

İctimai inkişafın qloballaşma amillərinin güclü təzyiqi altında baş verən idarəetmədə baş verən dəyişiklikləri təhlil edərək qeyd edə bilərik ki, heç bir idarəetmə sistemi heç vaxt universal olmamışdır [5, s. 2]. Aydındır ki, idarəetmənin yeni sistemli paradiqması hər bir dövlətdə, sənayedə və təşkilatda idarəetmə təcrübələrini nəzərə almalıdır, informasiya əsrində sistemli, universal olmaq üçün üstünlük verilən model və texnologiyalar, iqtisadiyyatın və insan amilinin inkişaf səviyyəsi, bir çox digər parametrləri nəzərə almaq, idarə olunan obyektlərin və onların ətraf mühitinin bütün komponentlərinin, habelə obyekt daxilində və ondan kənarda qarşılıqlı təsir proseslərinin sürətli sistemli təhlili üçün unikal vasitələr təmin etməkdir.

Qloballaşma kontekstində yeni sistemli idarəetmənin paradiqması bütün təşkilati subyektlərin qarşılıqlı asılılığının və fəaliyyətinin güclənməsini təmsil edir. Buna görə də, maliyyənin, kadrların, maddi sərvətlərin və s. idarə olunmasının mövcud modelləri əvəzinə qarşılıqlı fəaliyyətin dəyərə əsaslanan kommunikasiya formalarına əsaslanan yeni idarəetmə modelləri yaranır.

Bu zaman təhsilin sistemli idarə olunması dövlətin idarəetmədə rolunun azaldılmasının, universitet assosiasiyalarının sürətlə formalaşmasının əsas stimulatoruna və idarəetmədə rəhbər prinsip fəaliyyətlərinin yekun nəticələrinə görə artan məsuliyyətlə təhsil təşkilatlarının muxtariyyətinə çevrilir.

Bütün səviyyələrdə idarəetmə strukturları əsas prinsipdən – təhsilin cəmiyyət qarşısında məsuliyyətindən çıxış etməlidir. Əgər təhsilin idarə edilməsinin ənənəvi paradiqması proqram məzmununun ciddi standartlaşdırılmasına, təhsil modellərinin çoxsəviyyəli və dəyişkənliyinə inkar edilmişsə, sistemli idarəetmənin formalaşan paradiqması mütəxəssis hazırlığını fərdin inkişafına, öz təhsil marşrutunu seçmək azadlığı hüququna yönəldir, eyni zamanda ümumi biliklər, fundamental bacarıqlar, həm də praktiki bacarıqlar tələb edir.

Dünyadakı qloballaşma tendensiyaları ali təhsilin idarə edilməsi qarşısında mürəkkəb problemlər yaratmışdır. Ən vaciblərindən biri yeni innovativ universitetin formalaşmasıdır [8, s.3].

Əgər ali təhsil müəssisəsi bütün ixtisaslara malik mütəxəssislərin peşəkar hazırlığı və fasiləsiz təhsili mərkəzinə, peşəkar ixtisasların yenilənməsi və təkmilləşdirilməsinin daimi innovativ prosesini təmin edən elmi-metodiki mərkəzə çevrilirsə, onda o, müasir cəmiyyətin inkişafında aparıcı qüvvəyə çevriləcəkdir.

Lakin bu funksiyaları həyata keçirmək üçün universitetlər yeni çoxfunksiyalı şəbəkə modeli sistemində idarəetmə funksiyalarını həyata keçirəcək universitet korporasiyasına çevrilərək bütün təhsil və idarəetmə şəbəkəsinin koordinatorlarına çevrilməlidirlər.

Dinamik sosial-iqtisadi sistem kimi ali peşə təhsili sisteminin innovativ idarə edilməsi zəruri idarəetmə qərarlarının qəbul edilməsi üçün onun inkişaf perspektivləri haqqında proqnoz məlumatlarının olmasını mütləq tələb edir. İnsan (intellektual) kapitalının keyfiyyəti və bütövlükdə iqtisadiyyatın səmərəliliyi proqnoz qiymətləndirmələrinin keyfiyyətindən və ali peşə təhsili sisteminin idarə edilməsi prosesində onlardan səmərəli istifadə edilməsindən asılıdır [9]. Gələcək dəyişikliklərin proqnozu kimi qəbul edilən ali peşə təhsili sisteminin idarə edilməsi məqsədləri üçün proqnozlaşdırma təhsilin inkişafı haqqında qısa, orta və uzunmüddətli dövrdə toplanmış biliklərdən ən yaxşı şəkildə istifadə etmək üçün metodların seçilməsidir.

Nəticə. Universitetlərin əsas vəzifəsi gələcək həyat formalarının müəyyənləşdirilməsində təkcə proaktiv və proqnozlaşdırıcı təhsili həyata keçirmək deyil, həm də cəmiyyəti xəbərdar etmək, qərarların qəbulunda əhaliyə kömək etməkdir. Universitetlər bu problemi davamlı elmi araşdırmalar əsasında həll etməli, sosial, iqtisadi, siyasi tendensiyaları fənlərarası yanaşmalar çərçivəsində öyrənməli, təkcə informasiya cəmiyyəti deyil, biliklərə əsaslanan cəmiyyət formalaşdırmalıdır. Ali təhsil müəssisələrinin qarşısında duran yeni vəzifələr idarəetmə sisteminin inkişafının yeni istiqamətlərini müəyyən edir.

Milli təhsil sisteminin rəqabət üstünlükləri strateji planlaşdırmadan, çoxkanallı maliyyələşdirmə sisteminin formalaşmasından, texnoloji siyasət və texnologiyalardan, təşkilati sistemdən, inzibati idarəetmədən asılıdır.

Təhsil mühitinin inkişafına yalnız ənənəvi təhsil sisteminin fundamental əsaslarının dəyişdirilməsi, onun fəlsəfi əsasları, yeni təhsil prosesləri, yeni texnologiyalar, dünya təhsil sistemlərinin keyfiyyətcə yeni inteqrasiyası ilə təmsil olunan innovativ təhsil çərçivəsində nail olmaq olar.

Məqalənin elmi yeniliyi: Ali təhsil müəssisəsinin dəyərə əsaslanan rasional idarəetməyə keçid və insan kapitalına investisiyalar vasitəsilə universitetin innovativ inkişafının idarə edilməsinin sosial-texnoloji konsepsiyası əsaslandırılır.

Məqalənin nəzəri əhəmiyyəti: Müasir sosial texnologiyaların tətbiqi və bütün kateqoriyalı işçilərin sosial-texnoloji mədəniyyətinin yüksəldilməsi, özünüidarəetmə və özünütəşkilatın inkişafı, kadr potensialının işə cəlb edilməsi əsasında həyata keçirilə bilər.

Məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, burada ali təhsil müəssisələrinin innovativ inkişafının idarə edilməsinin optimallaşdırılmasına yönəlmiş tövsiyələr formalaşdırılır.

Məqalənin iqtisadi səmərəsi: Məqalənin müddəaları ali təhsil müəssisələrində ali məktəb pedaqogikası, pedaqogika, təhsili menecmenti, idarəetmə sosiologiyası və təhsilin sosiologiyası kurslarının tədrisi zamanı tətbiq oluna bilər.

Ədəbiyyat

1. Məmmədova, E.B. Sosial işin iqtisadi əsaslar. Dərs vəsaiti / E.B.Məmmədova, – Bakı, – 2024, – 762 s.
2. Məmmədzadə, R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi / R.Məmmədzadə, – Bakı: Müəllim, –2010. – 170 s.
3. Nəzərov, M.H. Təhsilin sosial-fəlsəfi əsasları / M.H.Nəzərov, – Bakı: ADPU, – 2023, – 456s.
4. Nəzərov, M.H.Təhsil fəlsəfəsi. Dərs vəsaiti / M.H.Nəzərov, – Bakı, – 2022, – 496 s.
5. Анализ мировых тенденций развития научно-образовательной деятельности: ан. обзор / Е.В.Вашурина, Н.В.Дронбусова, – Екатеринбург, – 2006.
6. Баринова, Н.Ю. Технология проектирования и реализации инновационного образовательного процесса в вузе // Автореф. дис. на соиск. канд. пед. на. Уфа, –2011. – 48 с.
7. Бондаревская, Е.В. Парадигма как методологический регулятив педагогической науки и инновационной практики // Педагогика, –2007, № 3.
8. Виноградов, В.Н. Управление инновационным развитием университета: проектные технологии / В.Н.Виноградов, О.Г.Прикот. – СПб., – 2009.
   https://cyberleninka.ru › article › upravlenie-innovatsio...

M.H.Nazarov

Modern trends in innovative management in the field of education

Summary

The article justifies the need to provide the university with the features of a network organizational form, mechanisms for interaction between business structures in order to improve the quality of training young specialists in terms of skills and personal qualities. To implement these functions, it is justified that the university should become a corporation that will perform new management functions in the system of a new multifunctional network model, becoming the coordinator of the entire education and management network. It also defines the content of the term "systemic management", which means the identification and structuring of the elements of the professional education system, the establishment of their relationships, processes, resources and results.

Key words: *society, education, paradigm, professional, personality, management, cooperation, network*

М.Х.Назаров

Современные тенденции инновационного менеджмента в образовании

Резюме

В статье обоснована необходимость придания вузу черт сетевой организационной формы и механизмов взаимодействия бизнес-структур в целях повышения качества подготовки молодых специалистов по навыкам и личностным качествам. Для реализации этих функций обосновано преобразование университета в корпорацию, которая будет выполнять новые функции управления в новой многофункциональной сетевой модели системы и станет координатором всей образовательно-управленческой сети. Определено содержание термина «системное управление», которое означает выявление и структурирование элементов системы профессионального образования, установление их взаимосвязей, процессов, ресурсов и результатов.

Ключевые слова: *общество, образование, парадигма, профессионал, идентичность, управление, сотрудничество, сеть*

Rəyçi: i.e.d., prof. E.B.Məmmədova

Redaksiyaya daxil olub: 17.04.2025

T.A.NƏCƏFOVA
müəllim
e-mail: najafovatarana35@gmail.com
:https://orcid.org/0009-0006-7601-2421

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

10.62021/0026-0028.2025.2.373

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNDƏ SƏRİŞTƏ ƏSASLI DİL TƏDRİSİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Xülasə. *Məqalədə sərişta əsaslı dil təliminin xarici dillərin tədrisində mühüm yanaşmalardan biri olduğu qeyd edilir. Sözügedən sərişta növü ikinci dildə qabiliyyətlərin və biliyin əldə olunmasına fokuslanır. Qısacası, bu yanaşma sərişta əsaslı təhsilin prinsiplərinin aplikasiyası hesab edilir. Bu zaman müəllimlər təhsilalanların bacarıqlarının, qabiliyyətlərinin inkişafı üçün fidbək həyata keçirir. Belə ki, bu zaman müəllim təhsilalanların ehtiyaclarından, maraqlarından xəbərdar olmalıdır. Bu yanaşma dillə bağlı müəyyən edilmiş bacarıq və qabiliyyətlərin inkişafını dəstəkləyir ki, bunlar da real həyatda vacib hesab edilirlər. Bu sərişta növünün ən böyük faydalarından biri aydınlıq, şəffaflıq meyarlarıdır.*
Beləliklə, adını qeyd etdiyimiz bu təlim metodunda dilöyrənənlər real dünyaya dair tapşırıqların yerinə yetirilməsində, tamamlanmasında dildən istifadə bacarıqları nümayiş etdirməlidirlər.

Açar sözlər: *sərişta, ünsiyyət, dil, kontekst, bilik*

Sərişta əsaslı dil tədrisinə keçməzdən əvvəl sərištənin mahiyyətinə nəzər salmaq lazımdır. Bəzi tədqiqatçılar sərištəni real həyati situasiyalara dair tapşırıq və fəaliyyətlərin effektiv performansları üçün tələb olunan əsas bacarıq, bilik, münasibət və davranışların tədrisi, uyğunlaşdırılması olaraq qəbul edirlər. Baxmayaraq ki, adıgedən fəaliyyətlər tipik formada iş sahəsi və yeni mühitdə sosial məsələlərlə də bağlıdır, amma həyatın istənilən sahəsi ilə bağlı ola bilər.

Onu da qeyd edək ki, C.Riçardz və T.Rocers yazır ki, sərištə element olaraq, istənilən tapşırığın, işin, funksiya və ya fəaliyyətin akademik və ya iş mühitində uğurlu təminatıdır.

Buraya aşağıdakılar daxildir:

- spesifik bilik;
- düşüncə prosesi;
- münasibətlər;
- duyğu;
- hissi və fiziki bacarıqlar [5, s.145].

Məhz bu baxımdan sərištə tapşırıq, rol, funksiya olmaqla zaman içərisində dəyişir, kontekstdən kontekstə fərqlənir.

Bildiyimiz kimi, ali məktəblərdə kommunikativ sərištənin və onun komponentlərinin tədrisi, öyrənilməsi ən vacib məsələlərdən hesab edilməkdədir. C.Riçardz və T.Rocersə görə, sərištə əsaslı dil tədrisi öyrənmə nəticələrinə fokuslanır. Bu tədris yanaşması zamanı dilöyrənənlər öyrəndiklərindən daha çox, nəyə nail olduqlarını, nə etdiklərini hədəfləyir.

Sərištə əsaslı dil tədrisi bir çox faydalı tərəfləri ilə seçilir. Birinci bu yanaşma dilə dil biliyinin nəticəsi olmaqdan daha çox, ünsiyyət vasitəsi qismində fokuslanır. Burada daha çox məsuliyyətli, diqqətlə həyata keçirilən tədris əsas götürülür.

Bundan əlavə, sözügedən tədris növünün faydalı tərəflərindən biri də mühazirələrdən daha çox, təhsilalanlarla fərdi və ya qrup şəklində işləməyin hədəf nöqtəsi olmasıdır. Burada əsasən fasilitatorluq diqqət mərkəzində olur.

Metodoloji ədəbiyyatlarda səriştələrin faydalı tərəflərinin dörd xüsusiyyəti haqqında məlumat verilir ki, onlar aşağıdakılardır:

1. Səriştələrin spesifik və təcrübi olmaqla dilöyrənənlərin maraq və ehtiyaclarına yönəldildiyini görmək mümkündür.
2. Dilöyrənənlər səriştənin relevant və faydalı olduğu haqqında mühakimə yürüdə bilirlər.
3. Öyrədiləcək və yoxlanılacaq səriştələr spesifik və tam olur ki, bununla da təhsilalanlar öyrənmə üçün ehtiyaclarının nədən ibarət olduğunu bilirlər.
4. Səriştələr zamanla öyrədilir ki, bu zaman dilöyrənənlər nəyi öyrəndiklərini və gələcəkdə nə öyrənəcəkləri haqqında məlumatlı olurlar [4, s. 146-147].

Beləliklə, səriştə əsaslı dil təlimi təhsilə dair təlimatların məhsuldarlığını yüksəldir.

Dilöyrənmədə populyar və qəbul edilmiş yanaşmalardan biri də səriştə əsaslı dil tədrisinin olduğunu artıq qeyd etdik. Bu yanaşma dilöyrənənlərə öyrənmə və öyrətmədə uğurlu olmanın yollarını öyrədir. Bu yanaşmanın transformasiyasının aplikasiyasını səriştə əsaslı tədrisdə tapmaq mümkündür. A.Rylatt və K.Lohana görə, yeni milleniuma daxil olduqca, öyrənmə səriştəsi ilə bağlı iş və bacarıqlar dünyanın ən sürətlə inkişaf edən sənaye məsələsi və prioriteti olaraq qalacaqdır [3, s.18].

Qeyd edək ki, səriştəni əsasən iki növ üzrə təsnif edirlər:

1. Ümumi səriştə

– Burada təcrübədə (empirik bilik) və daha çox təcrübə ilə yanaşı formal öyrənmədən (akademik bilik) yaranan bilik başa düşülür (CEFR : 2001:11).

Bunlar fundamental olaraq, konseptlərə aid edilməkdədir.

– Bacarıqlar və onları necə reallaşdırmaq məsələləri

Buraya isə prosedurları necə həyata keçirmək məsələsi daxildir. Bunlar isə proses və strategiyalara aid edilməkdədir.

Eksistensial səriştə

Bu fərdi xarakterlərin şəxsiyyətin aid olduğu səciyyəvi xüsusiyyətləri və münasibətlər toplusudur. Məsələn, öz imici və digər insanlar haqqında fikirlər, sosial interaksiyaya könüllü qoşulmaq. Bu qeyd etdiklərimiz adını çəkdiyimiz münasibətlər fonunda qurulur.

– Öyrənmə qabiliyyəti

Burada digər xalqların dili, mədəniyyəti, əhalisi, biliyin digər sahələrinə öyrənilməsinə yönəldilir. Bu müstəqil və ömür boyu öyrənməni təşviq edir.

Onu da xüsusilə vurğulamalıyıq ki, hər nə olursa olsun, müasir ali təhsildə səriştələrdə ən təsiredici taksonomiya layihələri vardır ki, bunlar da silsilə şəklində nəzərdən keçirilir.

Burada onlar özləri də iki yerə ayrılır:

– Cross curricula generic

Burada bütün dərəcələr tanınır ki, onlar da hamısı üçün keçərli hesab edilir.

– Subject specific

Burada isə öyrənmənin hər bir aid olduğu sahəsi diqqət mərkəzində olur [2, s.7-12].

"Generic competence" adlanan növ özü-özlüyündə 3 yerə ayrılır ki, onlar aşağıdakı kimi təsnif edilməkdədir:

İnstrumental

Bu səriştə zamanı əsas akademik inkişafın təminatçısı olan koqnitiv, metodoloji, texnoloji, linqvistik qabiliyyətlər işə düşür.

Məsələn,

– təhlil və sintez bacarığı;
– ikinci dil biliyi;
– əsas kompüter qabiliyyətləri;
– tədqiqatçılıq qabiliyyətləri və s.

Şəxsiyyətlərarası sərişdə

Burada isə əsas məsələ daha çox fərdi qabiliyyətlərə və sosial bacarıqlara yönəldilməkdədir. Məsələn,

– avtonom işləmə qabiliyyəti;
– rəhbərlik;
– komandada işləmək və s.

Sistemli sərişdə

Burada daha çox sistemə aid olan bacarıq və qabiliyyətlər, anlama, həssaslıq, biliyin kombinasiyası nəzərdə tutulur.

Məsələn,

– öyrənmə bacarığı;
– problem həlli;
– qərar qəbul etmə.

Spesifik sərişdə

Bu bilik və nəzəri məzmuna aid olub, spesifik tematik sahəyə tətbiq edilir. Məsələn,

– ingilis dilinin qrammatikasına dair bilik;
– ingilis dilindən ədəbiyyata dair bilik;
– dilçiliyə dair;
– nəzəri və metodoloji trendlərə aid və s.

Akademik sərişdə və qabiliyyətlər

Burada öyrənmənin konkret sahəsi üzrə qabiliyyətin, biliyin yerləşdirilməsi nəzərdə tutulmaqdadır. Buraya qəbul etmə bacarığı, öyrənilən dildə elmi məhsulların emalı, onları anlamaq, ötürmək, nəzəri perspektivlər içərisində biblioqrafiyanı tənqidi cəhətdən qiymətləndirmə, kontekstuallaşdırmaq bacarığı, problemləri araşdıraraq, mətnləri axtarış etmək, relevantlığını dəyərləndirmək və s. kimi məsələlər daxildir.

Profesional sərişdə və ya spesifik profesional sahədə bilmə keyfiyyəti

Burada isə ünsiyyətdə olmaq, mənimsənilən dili öyrətmək, müxtəlif janrda mətnləri tərcümə etmək, xülasə yazmaq bacarığı nəzərdə tutulur.

Əsasən sərişdə dedikdə üç anlayış diqqət mərkəzində saxlanılır ki, onlar aşağıdakılardır:

1. Kreativlik;
2. Əməkdaşlıq;
3. Ünsiyyət.

Yaradıcılıq dedikdə, buraya əsasən yaradıcı (Creative Thinking) düşüncəni aid edirlər.

Yaradıcı düşüncə isə özü-özlüyündə aşağıdakıları özündə ehtiva etməkdədir:

– yaradıcılıq keyfiyyətləri;
– təsəvvür;
– problem həlli.

İkinci isə əməkdaşlıqdır (Collaboration). Bu silsiləyə isə aşağıda qeyd etdiklərimizi şamil edə bilərik:

– emosional zəka;
– komanda işi;
– adaptasiya.

Üçüncü isə ünsiyyətdir (Communication). Buraya isə aid olanları aşağıdakı kimi təqdim edirik:

– ifadə tərzi;
– dil;
– empatiya.

Müəllimlərin tədris prosesində yerinə yetirdikləri əhəmiyyətli rol hamıya məlumdur.

Bu baxımdan aşağıdakı tədris, təlim səriştələrini özündə ehtiva edən bacarıqları qeyd edirik:

- ünsiyət və şəxsiyyətlərarası bacarıqlar;
- təşkil və planlaşdırma;
- auditoriyanın idarə olunması;
- fasilitasiya və dərsə sövqetmə;
- qiymətləndirmə və rəhbərlik;
- əməkdaşlıq və komanda işi;
- qayğı və inklüzivlik;
- çeviklik və adaptasiya.

Ümumiyyətlə, xarici dildə pedaqogikada profesional səviyyədə standartlar aşağıdakılara fokuslandırılır:

- ünsiyyət;
- mədəniyyət;
- əlaqə;
- müqayisə;
- cəmiyyət.

Bu, 5Cs freym olaraq istifadə edildikdə, müəlliflər təhsilalanların nailiyyətlərini bu standardları nəzərə almaqla "community service learning"(CSL) prizmasından nəzərdən keçirirlər.

Kompetensiya modelində 4 məsələyə fokuslanılır ki, onları təqdim edirik:

- münasibətlər;
- bilik;
- bacarıqlar;
- davranışlar.

Bunlar həm də kompetensiyanın elementləri hesab edilməkdədir.

Səriştə əsaslı dil tədrisində müəllimin rolu təhsilalanlarla pozitiv və səmərəli işlər aparmaqdır. Bu zaman məqsəd müvafiq bacarıqların əldə edilməsi ilə bağlı inkişafa nail olmaqdır. Belə olduqda təhsilverənlər tələbələrin ehtiyaclarından xəbərdar olmalıdırlar.

Bu münasibətlə Y.Ş.Kərimov yazır: "Pedaqoji fəaliyyətin nailiyyətləri hər addımda məqsədin necə qoyulmasından asılıdır. Yalnız aydın məqsəd qoya bilən adam yaxşı işləyə bilər. Fəaliyyətin məqsədinin müəyyənləşdirilməsi heç də asan məsələ deyil. Məqsəd hər cür fəaliyyətin qaydasını, xarakterini müəyyən edir. Məqsəd insanın şüurlu fəaliyyətinin əvvəlcədən düşünülmüş nəticəsini ifadə edən kateqoriyadır"[1, s.26].

Metodoloji ədəbiyyatlarda qeyd edilir ki, səriştə ən əsası 4 aspekti əhatə edir.

- icra (performance);
- mənalı kontekst (meaningful context);
- müstəqil öyrənmə (autonomous learning);
- problem həllinə yönəldilmiş bacarıqlar (problem-solving skills).

İcra, yerinə yetirmə tapşırığın tamamlanması ilə bağlı fəaliyyətdir. Bu zaman dilöyrənənlər bacarıq, fikir, düşüncə, biliklərini və s. məqsədyönlü şəkildə reallaşdırmalıdırlar. Burada əsas məsələ təhsilalanların geniş müstəvidə hər hansı bir mövzuda, eyni zamanda həmin mövzuya dair məzmunla bağlı geniş və əhatəli fikir irəli sürməsidir.

Mənalı kontekst barədə fikir yürüdərkən bu zaman təhsilverənlərin kontekst seçimləri burada əsas götürülməlidir. Belə ki, onlar zəngin lüğət ehtiyatı işlək olan fəaliyyətlər həyata keçirməlidirlər. Bu zaman dilöyrənənlər sözləri əzbər deyil, kommunikasiya prosesində öyrənməlidirlər.

Müstəqil öyrənmə zamanı isə dilöyrənənlər sərbəst şəkildə öz bilik və bacarıqlarını inkişaf etdirə bilirlər. Bu auditoriyada və auditoriyadan kənar fəaliyyətlərində onlara böyük dəstək olur.

Problem həllinə yönəldilmiş bacarıqlar isə daha geniş tənqidi təfəkkür, düşüncə, müqayisələr aparmaq qabiliyyətləri tələb edir. Bu zaman dilöyrənənlərdə ümumilikdə, situasiyanı dəyərləndirmək qabiliyyəti formalaşdırmaq lazımdır.

Məlumdur ki, sözügedən tədris metodu haqqında müxtəlif fikirlər vardır. Burada səriştə əsaslı dil təliminin öyrənmə modelləri də nəzərdən keçirilir.

Onlardan aşağıdakıları təqdim edirik:

– əməkdaşlıq əsaslı öyrənmə;
– layihə əsaslı öyrənmə;
– sorğu əsaslı öyrənmə.

Bunlar səriştənin inkişaf etdirilməsi strategiyaları olaraq təqdim edilir.

Bundan əlavə, diskursun təşkili bacarıqlarının mənimsənilməsi onlara uzun və genişləndirilmiş diskurs mətnləri hazırlamağa, emal etməyə yardım edir.

Diskursiv bacarıqların inkişaf etdirilməsində aşağıdakı fəaliyyətlər faydalı hesab edilir:

– təqdimatlar etmək;
– prosedurları izahlarla qeyd etmək;
– təsvirlər həyata keçirərək icra etmək;
– hekayə və ya hadisəni nəql etmək və s.

Bütün bunlar sözügedən səriştənin formalaşdırılmasında yardımçı olurlar.

Beləliklə, bu səriştə növü fəal öyrənmə və öyrətmə yanaşması olaraq, təhsilverənlərə dərslərin maraqlı keçirilməsi üçün çoxlu yol və üsullar təklif edir. Belə ki, müəllimlər tələbələrə ehtiyacları olan və öyrənəcəkləri məsələlər barədə fikirləşməyə vaxt verməlidirlər. Belə olduqda bütöv dərs yalnız danışmaqla deyil, müxtəlif müzakirələr, debatlar aparmaq, fikir mübadiləsi etmək, problem və anlaşılmazlıqları həll etməyə yönəldilməlidir. Bu zaman dərslərin planlaşdırılması və lazımi, tələb olunan qaydada təşkili vacib şərt olaraq qarşıya çıxır. Çünki dilöyrənənlərin həvəs, maraq və ehtiyacları nəzərə alınmaqla həyata keçirilən dərslər və bu fonda planlaşdırma uğurlu təlim nəticələrinin əldə edilməsinə bilavasitə yardımçı olmaqla yanaşı, həm də tədrisin keyfiyyət əmsalına əsaslı şəkildə təsirlə səciyyələnir.

Fikirlərimizi ümumiləşdirərək, qeyd edək ki, bu tədris növü aşağıdakı məsələləri hədəf olaraq müəyyənləşdirmişdir:

– ikinci dildə uğurlu ünsiyyətə nail olmaq;
– dörd bacarığın tətbiqini reallaşdıra bilmək;
– təhsilalanların dilöyrənmə bacarıqlarını genişləndirmək və təkmilləşdirmək;
– dilöyrənənlərin müstəqil öyrənmə bacarıqlarını formalaşdırmaq;
– İKT-nin nailiyyətlərindən auditoriyalarda effektiv şəkildə istifadəni gerçəkləşdirə bilmək bacarıqlarını nümayiş etdirmək;
– öyrənildən dildə vacib və lazımi mənbələrdən istifadəni bacarmaq;
– əldə edilən bilik və bacarıqların auditoriya mühitində, real həyati situasiyalarda tətbiqinə nail olmaq və s.

Onu da vurğulayaq ki, tapşırıqlar işin bir hissəsi hesab edilirlər ki, bu fonda dilöyrənənlər ikinci dildə düşünməyi, manipulyasiyanı, emal etməyi, interaksiyaya qoşulmağı öyrənirlər. Bu da onları növbəti mərhələlərdə səriştənin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atmağa sövq edir.

Ümumiyyətlə, səriştə əsaslı təlim metodunda öyrənmə və öyrətmə prosesi zamanı xeyli danışığa yönəldilmiş tapşırıqlar vardır ki, bunlar da öyrənilən dildə şifahi nitqin inkişafını dəstəkləməkdədir.

Nəticə etibarilə, kompetensiya xarici dillərin tədrisində aktuallıq kəsb edir.

Digər tədqiqatlarda yuxarıda da qeyd etdiyimiz kimi, kompetensiya modelində əsas dörd məsələyə diqqət edilir ki, buraya davranışı da əlavə edirlər.

Bunlar aşağıdakılardır:

– münasibətlər;

– bilik;
– bacarıqlar;
– davranışlar.

İşin elmi nəticəsi. Beləliklə, səriştə əsaslı dil tədrisinin istifadəsi istiqamətində təhsilverənlər və onların seçdikləri materiallar, kommunikativ fəaliyyətlərin xüsusiyyətləri, səmərəliliyi mühüm əhəmiyyətə malikdir. Burada ən effektiv yollardan biri, hətta buna ən birincisi də demək olar ki, bu da dilöyrənənləri düzgün istiqamətləndirmək, ingilis dilində danışanları məqsədyönlü şəkildə dinləmək və mənalı söhbətlərə qoşulmaqdır. Əgər tələbələr nə qədər çox söz eşidər və başa düşərlərsə bir o qədər də səriştəlilik tez formalaşar.

Nəticə etibarilə, səriştənin tətbiq edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

İşin elmi yeniliyi. Sözügedən məqalədə səriştə ilə bağlı indiyə qədər araşdırılan məsələlər təhlil edilir, elmi müddəalara nəzər salınır, əldə edilən nəticələr xülasələşdirilərək təqdim edilir.

İşin tətbiqi əhəmiyyəti. Araşdırılan mövzu həm orta, həm də ali məktəblərdə ingilis dilinin tədrisində səriştə əsaslı təlim metodunun istifadəsi və şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi baxımından faydalı ola bilər.

Ədəbiyyat

Azərbaycan dilində

5. Kərimov, Y.Ş. Təlim metodları / Y.Ş.Kərimov, – Bakı: RS Poliqraf MMC, –2009, – 279 s.

İngilis dilində

6. Maria Luiza Perez Canado. Competency- Based Language Teaching in Higher Education. Springer Science + Business Media Dordrecht, – 2013, – p.7-12.
7. Rylat, A. Creating training miracles / A.Rylat, K.Lohan. –Sidney: Prentice Hall. – 1997, – p.18.
8. Richards, J. Approaches and methods in Language Teaching / J.Richards, T.Rodgers, – Cambridge University Press, – 2001, – p. 146-147.
9. Richards, J. Approaches and methods in Language Teaching. 3rd edition / J.Richards, Theodore S. Rodgers. – Cambridge University Press, – 2014, – 409 p.

T.A.Najafova

The advantage of using Competency Based Language Teaching in English at high schools

Summary

This article deals with Competency Based Language Teaching that is one of the most important approach in Foreign Language Teaching. The named competency types focus on achievement of knowledge, skills and abilities. Shortly, this approach is considered to be an application of principles of Competency Based Education. At that time teachers provide positive feedback for improving learners language skills and knowledge.This approach is based upon the learners needs and interests. It is considered that the teachers should be aware of their interests and needs. This approach claims development of the defined skills and abilities. They are considered important points in real life.

So, the great advantage of this approach is the clarity. In Competency Based Language Teaching students should perform and demonstrate the language use for completing real world tasks.

Key words: *competence, communication, language, context, knowledge*

Т.А.Наджафова

Важность использования метода обучения, основанного на компетентности при преподавании английского языка в высших вузах

Резюме

В статье отмечается, что языковое обучение навыкам считается одним из важных подходов в обучении иностранным языкам. Этот тип навыков ориентирован на приобретение умений и знаний на втором языке.

Одним словом, этот подход считается применением принципов компетентностного образования. В это время преподаватели дают оптимистичную обратную связь для развития навыков и способностей учащихся.

Итак, учитель должен знать потребности и интересы учащихся. Этот подход способствует развитию конкретных языковых навыков и способностей, которые считаются важными в реальной жизни. Одним из самых больших преимуществ этого типа компетентности является ясность. Таким образом, в этом методе обучения, о котором мы упомянули, учащиеся должны продемонстрировать свои языковые навыки при выполнении реальных задач.

Ключевые слова: *компетенция, коммуникация, язык, контекст, знание*

Rəyçi: filol.f.d. N.Əliyeva

Redaksiyaya daxil olub: 11.03.2025

R.V.NƏSİBOVA
e-mail: reksanenesibova555@gmail.com
:https://orcid.org/0009-0003-0658-5505

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

10.62021/0026-0028.2025.2.380

FƏNLƏRARASI ƏLAQƏNİN MƏKTƏBLİ GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU

Xülasə. *Tədqiqat nəticəsində müəyyənləşdirildi ki, Azərbaycan milli hərbi-vətənpərvərliyi dövlət müstəqilliyi qazanıldıqdan sonra özünün yüksək inkişafı üçün ən əlverişli şərait qazandı. Azərbaycan milli hərbi-vətənpərvərliyinin başlıca şərtləri onun müstəqil olması, müstəqil ordusunun olması, milli liderinin olması, əzəmətli sərkərdəsinin olması, dünya azərbaycanlılarının vahid vətəninin olması, fənlərarası əlaqə prinsipi əsasında qurulan təliminin olması, azərbaycançılıq ideologiyası mentalitetindədir. Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının aliliyi, müasir döyüş texnikasını mükəmməl öyrənmək və onlardan məharətlə istifadəni bacarmaq da milli hərbi-vətənpərvərliyin tərkib hissəsi kimi qəbul olunmalıdır.*

Açar sözlər: *fənlərarasi əlaqə, hərbi-vətənpərvərlik tərbiyəsi, problemli şərh, axtarıcı müsahibə, tədqiqat metodu*

Gənclərin çağırışaqədərki hazırlığı dərslərində şagirdlərin ümumtəhsil fənləri üzrə biliklərindən istifadənin yüksək səviyyədə təşkili məqsədilə təlimin ayrı-ayrı metodlarından səmərəli şəkildə istifadə etmək lazımdır. Yeri gəldikcə təlimin şifahi, əyani və praktik metodlarına müraciət etmək, həm verilən biliklərin şüurlu və asan mənimsənilməsinə, yaddaşda uzun müddət qalmasına, həm dərsin praktik istiqamətini qüvvətləndirməyə, həm də təlim prosesini əyaniləşdirməyə imkan verir. Uzun illərin təcrübəsi göstərmişdir ki, ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hazırlığı (ibtidai hərbi hazırlıq) üzrə məşğələlərin fizika, riyaziyyat əmək təlim, astronomiya və s. fənləri ilə əlaqəli şəkildə keçilməsi tədrisin keyfiyyətini müstəsna dərəcədə yüksəldir, maksimum bilik, bacarıq və vərdişlər qazanmasına kömək göstərir.

Məktəb fənləri arasında qarşılıqlı əlaqə problemi daim didaktikanın aktual məsələlərindən biri olmuşdur. İndi də bu belədir.

Mütəxəssislərdən Ş.T.Tağıyev fənlərarası əlaqəni təlimin müstəqil prinsipi hesab edir [1, s.96]. Pedaqoqlardan İ.D.Zveryevin fikrincə, fənlərarası əlaqə təlimin sistematiklik və ardıcıllıq prinsipinin həyata keçirilməsinə kömək göstərən bir vasitədir [2, s.37]. Mütəxəssislərdən N.M.Çərkəzzadə, K.P.Korolyovanın, Y.V.Vasilyeva, K.A.Sorokin fənlərarası əlaqəni təlimin mühüm şərtlərindən biri hesab edirlər [3, s.74-131]. V.N.Fedorova və D.M.Kiryuşkinaya görə, [3, s.144], fənlərarası əlaqə anlayışını N.M.Çərkəzzadənin göstərdiyi kimi nəzərdən keçirmək daha doğru olar. Ona görə də həmin müəlliflər fənlərarası əlaqəni didaktik tələb kimi qəbul edirlər. Bizim fikrimizcə isə, gənclərin çağırışaqədərki hazırlığı kursunda fənlərarası əlaqənin nəzərə alınması həmin fənnin vahid strukturunun gözlənilməsi şərti ilə təlimin ümumi məsələlərinin həyata keçirilməsi üçün tətbiq olunan bir işdir, prinsipdən irəli gələn didaktik tələblərdən biridir. Bu tələb gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində şagirdlərin təbiət-riyaziyyat elmləri üzrə qazandıqları biliklərdən istifadə prosesinə də tamamilə aiddir. Belə əlaqə hərbi faktların və hərbi sahədə istifadə olunan bəzi düsturların mahiyyətini məktəblilərə daha asan öyrətmək və mənimsətmək üçün vacibdir. Başqa fənlərdə olduğu kimi, gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində də şagirdlərin fizikaya, riyaziyyata və s.

fənlərə aid biliklərindən əlverişli istifadə hərbi biliklərin mənimsənilmə keyfiyyətini yüksəltmək üçün mühüm şərt kimi qəbul oluna bilər. Bu zaman məktəblilər hərbi materialı daha dərindən başa düşür, onun öyrənilməsinə daha şüurlu yanaşır.

Gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində ümumtəhsil fənləri üzrə biliklərdən istifadə zamanı şagirdlərə həm də yaradıcı düşünməyi, məntiqi mühakimələr yürütməyi öyrətmək lazımdır. Bu proses şagirdlərin təsəvvürlərinin, diqqətinin, yaddaşının, təfəkküründün inkişaf etdirilməsi ilə yanaşı, onlarda fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərinin formalaşmasına şərait yaradır.

Təlim prosesində hərbi rəhbər fənlərarası əlaqənin göstərilən tələblərini yüksək səviyyədə yerinə yetirdikdə müsbət nəticələr əldə edir və məktəblilər hərbi biliklərə möhkəm yiyələnirlər. Hərbi anlayışlarla fizika, riyazi, coğrafi və s. anlayışlar arasında daxili bağlılığı aşkara çıxarıb onları əlaqəli şəkildə şagirdlərə çatdırmaq hərbi rəhbərin məharətindən də çox asılıdır. Bu zaman məktəblilərin diqqəti hərbi anlayışlar ilə fizika, riyazi və s. anlayışlar arasındakı əlaqəyə nə qədər tez-tez cəlb olunarsa, onlar fikri əməliyyata daha tez alışar və onlarda, adları qeyd olunan ümumtəhsil fənn anlayışları ilə hərbi anlayışlar arasında qarşılıqlı əlaqə yarada bilmək bacarığı müvəffəqiyyətlə inkişaf edər.

Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi prosesində ümumtəhsil fənnləri üzrə biliklərdən istifadə zamanı nəzərə alınmalı pedaqoji məsələlərdən biri də təlim prosesində problemli vəziyyətin yaradılmasıdır. Problemli təlim 1970-85-ci illərdə şagirdlərin fikri müstəqilliyini və fəallığını artırmaq üçün təlim prosesində tətbiq edilən metodik sistemlər arasında xüsusi yer tutmuş, geniş populyarlıq qazanmışdır. Başqa fənlərdə olduğu kimi, gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində də problemli yanaşmadan istifadənin mahiyyəti ondan ibarət olur ki, məktəblilər bir növ "tədqiqatçı", "ilk ixtiraçı" vəziyyətinə salınır, yeni biliklər onlara hazır şəkildə verilmir. Öyrənilməsi nəzərdə tutulan yeni hərbi biliklərin şərhi zamanı uyğun ümumtəhsil fənni üzrə (məsələn, fizika və riyaziyyat üzrə) biliklərindən istifadə şagirdlərin qarşısında problem (sual) şəklində qoyulur. Təfəkkür prosesi tələb edən belə bir vəziyyət isə M.M.Mahmudovun göstərdiyi kimi, problemli situasiya adlanır. Digər dərslərdə olduğu kimi hərbi hazırlıq məşğələlərində də problemli situasiya problemli təlimin əsasını təşkil etməlidir. Çünki psixoloqların müəyyənləşdirdiyi kimi, təfəkkür sualdan, problemli situasiyadan başlayır. Bu situasiyanın özü də çox vaxt böyük və mürəkkəb əqli iş tələb edən təfəkkür aktı ola bilər. Ona görə də ibtidai hərbi hazırlıq məşğələlərində şagirdlərin uyğun fizika, riyazi, coğrafi, rəsmxət, tarix və s. biliklərindən problemli şəkildə istifadə edərkən problemin məntiqi formasının sual olduğunu nəzərə almaq lazımdır. İstifadə olunacaq əsas fizika, riyazi və s. anlayışlar sualda öz əksini tapmalıdır. Əgər həmin sual şagirdləri çətinliyə salıb düşünməyə məcbur edirsə, həmin suala cavab vermək üçün onlarda fikri fəallıq əmələ gətirirsə, onda problemli situasiya yaranmış olur. Problemli situasiya təfəkkür prosesini meydana gətirir, inkişafı problemin həllinə, yəni istifadə olunacaq ümumtəhsil fənləri üzrə bilikləri müəyyənləşdirməyə və onların tətbiqinə doğru aparır.

Gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində digər ümumtəhsil fənləri üzrə biliklərin tətbiqi zamanı problemli vəziyyətin yaradılması məktəblilərin emosional gərginliyini artırmaq qaydası, onların dünyagörüşünün formalaşması vasitəsi olur. Tədqiqat göstərdi ki, fizika, riyaziyyat və s. ümumtəhsil fənləri üzrə biliklərdən problemli suallar qoymaqla istifadə etmək şagirdləri düşündürür, onların idrak fəaliyyətini qüvvətləndirir, başlıcası isə diqqətini fəallaşdırır. Gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində problemli situasiyaya yer verməyin mahiyyəti ondan ibarətdir ki, yeni hərbi mövzunun izahı giriş müsahibəsi ilə başlanır, şagird axtarış tələb edən suallarla və bu suallardan doğan yeni vəzifələrlə qarşılaşır, müvafiq yeni fənn biliklərindən istifadənin vacibliyini, bunsuz tələb olunan hərbi anlayışı mənimsəməyin qeyri-mümkünlüyünü başa düşür.

Məlumdur ki, təlim prosesində problem qəsdən, şüurlu şəkildə yaradılır, əvvəlcədən planlaşdırılır və məktəblilərin düşünmə qabiliyyətini inkişaf etdirmək məqsədi daşıyır. Problemli təlimin məqsədi şagirdlərin zehni axtarışına meydan verməkdir. Ona görə də bu metodu

gənclərin çağırışaqədərki hazırlığı üzrə müvafiq mövzuların tədrisi zamanı problemli təlimin köməyi ilə fizika, riyaziyyat, coğrafiya və s. anlayışlardan zəruri istifadə, hərbi rəhbərlə şagird arasındakı daim müstəqil və əks-əlaqə şəraitində keçən, öz aralarında ciddi məntiqi ardıcıllığa malik sistem kimi qəbul etmək mümkündür.

Gənclərin çağırışaqədərki hazırlığı dərslərində əlaqəli tədris məqsədilə problemli situasiya yaradılan zaman mövzu ilə bağlı konkret suallar qoyulmalı, cavablar alınmalı, şagirdlərin iştirakı ilə müqayisə və ümumiləşdirmələr aparılmalı, nəticələr çıxarılmalıdır. Lakin suallar məktəbliləri ciddi düşündürməli, əvvəlcədən qazanılmış uyğun ümumtəhsil fənləri üzrə biliklər öyrədilən şəkildə onların yadına salınmalı və bu biliklərdən istifadənin yolu qismən göstərilməlidir.

Məlumdur ki, problemli təlimin növlərindən biri problemli şərhdir. Gənclərin çağırışaqədərki hazırlığı dərslərində, yeri gəldikcə, fənlərarası əlaqəyə müraciət zamanı tətbiq olunan problemli şərh bir tərəfdən şagirdlərə "elmi axtarış" nümunəsi göstərməli, daha inandırıcı olmalı, müvafiq hərbi biliklərin daha şüurlu mənimsənilməsinə imkan verməlidir. Digər tərəfdən, problemli şərh zamanı hərbi rəhbər idrak fəaliyyəti prosesinin bütün mərhələlərindən özü keçir və şagirdlərin fikrini də həmin yolla aparır. Tədqiqat göstərdi ki, fizika, riyaziyyat və s. fənlərdən öyrənilən biliklərdən istifadə edərək hərbi mövzuların problemli şərhi zamanı hərbi rəhbər məktəbliləri idrak fəaliyyətinin aşağıdakı mərhələlərindən keçirməli olur:

a) problemli situasiyanın yaradılması, yəni hərbi biliklərin mənimsənilməsi zamanı şagirdlərin fizika, riyaziyyat, coğrafiya, əmək təlimi və s. fənlərdən öyrəndikləri anlayışlarla qarşılaşdırılması;

b) problemli situasiyanın təhlili, qarşıya çıxan çətinliyin mahiyyətinin araşdırılması və başa düşülməsi, problemin sualla ifadə edilməsi (problemin qoyuluşu);

c) problemin həlli üçün fərziyyələrin irəli sürülməsi və əsaslandırılması, yəni şagird hansı fizika və riyazi biliklərdən və necə istifadə ediləcəyini söyləyir, sonra nə üçün belə fikirləşdiyini bir neçə cümlə ilə aydınlaşdırır;

d) fərziyyənin yoxlanması. Bu mərhələdə məktəblilər uyğun ümumtəhsil fənni üzrə biliklərə əsaslanır, hərbi anlayışın mahiyyətini açır, fərziyyənin doğruluğunu sübut-isbat edir. Nəticədə problem həll olunur.

V.F.Farforovskinin fikrincə, gənclərin çağırışaqədərki hazırlığı dərslərində mövzuların əlaqəli tədrisi zamanı şagirdlərin idrak fəaliyyətini müstəqil də buraxmaq olar. Bu şərtlə ki, onlar bu mərhələlərin bir neçəsindən müstəqil keçməyi bacarsınlar. Çətinlik yaranan mərhələlərdə isə qismən kömək göstərmək lazımdır [4, s.64]. Axtarıcı müsahibənin tətbiqi zamanı hərbi rəhbər ümumtəhsil fənni üzrə biliklərdən istifadə məqsədilə problemi qoyduqdan sonra şagirdləri onun həllinə də cəlb edir. Fərziyyə və gümanların irəli sürülməsi, onların yoxlanılması məktəblilərin fəal iştirakı ilə aparılır. Burada hərbi rəhbər tez-tez öz şərhini saxlayır, sinfə suallar verir, ən başlıcası isə, şagirdlərin fizikaya (yaxud, riyaziyyata) aid bilik və bacarıqlarını tətbiq etmələrinə imkan yaradır. Bu mərhələdə hərbi biliyin mənimsədilməsi hərbi rəhbərin şərhi ilə şagirdlərin müstəqil işlərinin növbələşməsi şəraitində həyata keçirilir.

Bəzən məktəblilər hərbi rəhbər fizika və yaxud riyaziyyat kursu üzrə biliklərdən istifadə məqsədilə qoyduğu sualı (problemi) dərk etdikdən sonra müstəqil axtarışa qoşulur, fərziyyələr irəli sürür, onları yoxlamaq üçün yeni suallar fikirləşir və nəticələr çıxarmağa doğru gedirlər. Belə təlim metoduna isə didaktikada *tədqiqat metodu* adı verilmişdir. Bu metodla yeni hərbi bilik tamamilə şagirdlərin müstəqil fəaliyyətləri nəticəsində mənimsədilir.

Beləliklə, gənclərin çağırışaqədərki hazırlığı dərslərində məktəblilərin ümumtəhsil fənləri üzrə biliklərindən istifadəni təmin edən bu üç metod: *Problemli şərh, axtarıcı müsahibə və tədqiqat metodu* birlikdə gənclərin çağırışaqədərki hazırlığı məşğələlərində müvəffəqiyyətlə həyata keçirilə bilir.

İşin elmi nəticəsi. Xalqımızın tarixində milli oyanış məqamı kimi dəyərləndirən dövr hər birimizdə, xüsusən ibtidai sinif şagirdlərində özünə inamı, ölkənin taleyi üçün məsuliyyət hissini qat-qat gücləndirir.

İşin elmi yeniliyini ondan ibarətdir ki, ilk dəfə olaraq yeniyetmə məktəblilərlə aparılan hərbi-vətənpərvərlik tərbiyəsi işinin mahiyyəti, məzmunu və təşkili yolları işlənilmişdir. Bu yaş qrupuna daxil olan şagirdlərlə pedaqoji işin aparılmasının ümumi prinsipləri açıqlanmışdır.

Tədqiqatın praktik əhəmiyyəti. Aparılan tədqiqatın nəticələri məktəblilərlə aparılan pedaqoji işin sisteminin qurulmasına, şagirdlərə yönələn neqativ təsirlərin neytrallaşdırıb aradan qaldırılması üçün konkret yollar müəyyənləşdirilməsinə, tədbirlər zamanı şagirdlərin asudə vaxtının təşkili məsələlərini pedaqoji ölçülərlə sistemləşdirilməsinə böyük fayda verə bilər.

Ədəbiyyat

1. Tağıyev, Ş.T. Fənlərarası əlaqə və gənclərin çağırışaqədərki hərbi hazırlığı. Monoqrafiya / Ş.T.Tağıyev, – Bakı, –2013, – 280 s.
2. Зверев, И.Д. Взаимная связь учебных предметов / И.Д.Зверев, – М., Знание, – 2017, – 64 с.
3. Межпредметные связи в преподавании основ наук в школе. Тезисы Всесоюз. конф. 11-12 октября 2003, Вып.I, Челябинск, – 2013, – 183 с.
4. Фарфоровский, В.Ф. Военно-патриотическое воспитание школьников (во внеучебное время): Пособие для учителей / В.Ф.Фарфоровский, – М., Просвещение, – 1981, – 128 с.

R.V.Nasibova

The Role of Interductive Communication in Military-Patriotic Education of School Youth

Summary

As a result of the study, it was determined that after gaining state independence, Azerbaijani national military patriotism found the most favorable conditions for its high development. The main conditions of Azerbaijani national military patriotism are its independence, the presence of an independent army, a national leader, a great commander, a single homeland of Azerbaijanis of the world, as well as the presence of training based on the principle of interdisciplinary communication and the mentality of the ideology of Azerbaijanism. The supremacy of the territorial integrity and inviolability of the borders of Azerbaijan, the perfect study of modern military equipment and the ability to skillfully use it should also be considered an integral part of national military patriotism.

Key words: *interdisciplinary communication, military-patriotic education, problematic interpretation, search interview, research method*

Р.В.Насибова

Роль межпредметной связи в военно-патриотическом воспитании школьной молодежи

Резюме

В результате исследования было определено, что после обретения государственной независимости азербайджанский национальный военно-патриотизм обрел самые благоприятные условия для своего высокого развития. Главными условиями азербайджанского национального военного патриотизма являются его независимость, наличие независимой армии, общенационального лидера, великого полководца, единой родины азербайджанцев мира, а также наличие обучения, основанного на принципе межпредметной связи, и менталитета идеологии азербайджанства. Верховенство территориальной целостности и неприкосновенности границ Азербайджана, совершенное изучение современной боевой техники и умение умело ею пользоваться также следует считать неотъемлемой частью национального военного патриотизма.

Ключевые слова: *межпредметная связь, военно-патриотическое воспитание, проблемная интерпретация, поисковое интервью, метод исследования*

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub:13.05.2025

G.M.NƏZƏROVA
təlim-tərbiyə işləri üzrə direktor müavini
e-mail: gunaynazarova93@gmail.com
:https://orcid.org/0000-0001-6690-9805

Bakı şəhəri Q.Abbasov adına 284 №-li tam orta məktəb
(Bakı şəh., Nizami ray., Aşıq Molla Cümə küç.)

10.62021/0026-0028.2025.2.384

YENİ TƏHSİL PARADİQMASI KONTEKSTİNDƏ ALİ TƏHSİLİN SOSİAL FUNKSİYALARI

Xülasə. *Məqalədə yeni təhsil paradiqmasına keçid kontekstində təhsilin sosial funksiyaları və inkişaf meyilləri təhlil edilir.*
Tədris fəaliyyətinin müasirləşdirilməsinin gələcək aktual və radikal istiqamətlərinin mahiyyəti, onların həyata keçirilməsində prioritet addımlar müəyyən edilir. Həmçinin müasir həyatın tələblərinə cavab verən distant təhsil faktiki təhsil funksiyalarını yerinə yetirməklə yanaşı, tələbələrin müstəqil axtarış fəaliyyətinin inkişafına, təhsilin reproduktiv metodundan biliklərinin yaradıcı inkişafına keçidi göstərilir.

Açar sözlər: *ali təhsil, sosial funksiyalar, təhsil paradiqması, modernləşmə, informasiya cəmiyyəti, fasiləsiz təhsil*

Təhsil sosial-mədəni hadisə kimi mürəkkəb və çoxşaxəli bir hadisədir. Təhsil cəmiyyətin inkişaf amili kimi çıxış etməklə, eyni zamanda mədəniyyətin tərkib hissəsi olmaqla cəmiyyətin prioritetlərini əks etdirir və inkişafının müəyyən mərhələsində onun məqsəd və vəzifələri ilə müəyyən edilmiş funksiyaları yerinə yetirir.

Sosial institut kimi təhsil "toplanmış həyat təcrübəsinin gələcək nəsillərə ötürülməsinə cavabdeh olan, şəxsiyyətin formalaşması və sosial münasibətlərə uyğunlaşması prosesində böyük rol oynayan statuslar və rollar, normalar və dəyərlər, sosial təşkilatlar (məktəblər, universitetlər, akademiyalar) məcmusunu özündə birləşdirən sistemdir" [5, s.74].

Yeni təhsil paradiqmasının formalaşması ali təhsilin mahiyyəti və funksiyaları haqqında anlayışı kökündən dəyişir. İlk növbədə, bu onun cəmiyyətdəki yeri və rolunun müəyyənləşdirilməsi ilə bağlıdır, çünki təhsil institutu cəmiyyətdə baş verən bütün dəyişiklikləri qaçılmaz olaraq yaşayır.

Təhsil müəssisəsinin spesifik sosial statusu ilk növbədə cəmiyyətin intellektual, mənəvi fəaliyyətinin spesifik xüsusiyyətləri ilə bağlıdır. Ali təhsilin funksiyası onun ali təhsil müəssisələrində tədris prosesinin təşkili standartlarının və formalarının direktiv xarakterində əks olunan məqsədləri ilə bağlıdır.

Təhsilin ənənəvi funksiyaları arasında, bir qayda olaraq, ideoloji, mənəvi, intellektual, ictimai-siyasi, sosial nəzarət və seçim, sosial təcrübənin və tarixi davamlılığın bərpası və s. adlarını qeyd etmək olar. Bu gün ali təhsil sisteminin bütün bu funksiyaları yerinə yetirməsi ziddiyyətlidir ki, bu da sosial-iqtisadi şəraitin yaratdığı sosial istiqamətlərin və prioritetlərin dəyişməsi kimi qəbul edilir.

Təhsil cəmiyyətin sosial strukturu ilə bağlı bir sıra mühüm funksiyaları, məsələn, fərdlərin mütəşəkkil sosiallaşması yolu ilə cəmiyyətin homogenləşdirilməsi funksiyasını yerinə yetirir. Təhsil strategiyalarının formalaşması müxtəlif səviyyəli bütün subyektlərin təhsil proseslərinə praktiki cəlb edilməsi və təhsilə xüsusi dəyər münasibəti ilə bağlıdır. Ən barizindən biri həmişə fərdləri daha mürəkkəb iş növlərinə, daha yüksək gəlirlərə və nüfuza aparan, adətən yüksələn sosial hərəkətliliyin aktivləşdirilməsi funksiyası olmuşdur.

Təhsilin funksiyalarının məzmunu: təhsilin funksiyaları tərcümə (bilik və təcrübənin nəsildən-nəslə ötürülməsi), dəyər yönümlü, humanist, adaptivdir. Aşağıdakı təhsil funksiyaları fərqləndirilir: sosial (cəmiyyətin sosial strukturunun təkrar istehsalı), peşəkar (cəmiyyət üzvlərinin peşə vəzifələrini yerinə yetirməyə hazırlanması), humanist (bilik və mədəniyyətin yeni nəsillərə ötürülməsi), ideoloji (ideoloji oriyentasiyanın formalaşdırılması), əxlaq normalarının mənimsənilməsinə yönəlmiş əxlaqi və siyasi mədəniyyətin tərbiyəsindən ibarət olan siyasi olanı da ayırmaq olar.

Təhsilin əsas funksiyalarını sosial-mədəni, o cümlədən cəmiyyətin mənəviyyatının inkişafı, humanist, sosial nəzarət, mədəniyyətin cəmiyyətdə yayılması və inkişafı, mədəniyyət sahəsində innovasiyalar, təhsilin formalaşması və ya təkrar istehsalı, cəmiyyətin intellektual, elmi, texniki və insan potensialının formalaşması və davamlı inkişafını təmin edir.

Uzun müddət üstünlük təşkil edən klassik təhsil paradiqması, bildiyiniz kimi, çox konkret həcmli və müəyyən sərhədləri olan hazır biliklərin tədris subyektindən tədris olunan obyektə ötürülməsinə əsaslanır. Bu model cəmiyyətin sənaye inkişafı mərhələsində formalaşmış və onun ehtiyaclarını, prioritetlərini kifayət qədər tam əks etdirmişdir. Beləliklə, klassik paradiqmanın əsas funksiyası ciddi şəkildə müəyyən edilmiş funksiyaları yerinə yetirə bilən mütəxəssis hazırlamaq idi.

İnformasiya cəmiyyəti özünəməxsus dəyərləri ilə fərdin və insan sağlamlığının daxili dəyərini təsdiq edən, əl əməyindən azad olmaq üçün geniş imkanlar yaradan, keyfiyyətcə yeni – postindustrial inkişaf mərhələsinə keçdi. Əgər klassik (ənənəvi) təhsil modeli əməyin və kütləvi istehsalın konveyer təşkili prinsiplərini əks etdirirsə, o zaman yeni təhsil paradiqmasına keçmək zərurəti yaranır.

Əvvəla, təhsilin məqsədi dəyişir, bu, indi biliyin ötürülməsi və onun hazır formada istifadəsi deyil, fərdin inkişafı, təkmilləşməsi və özünü həyata keçirməsi üçün şəraitin təmin edilməsidir. İnsanın öz müqəddəratını təyin etmə şərtləri daimi və məlum sayıla bilməz, onlar getdikcə elmi-texniki tərəqqinin təsiri altında cəmiyyətdə baş verən sosial dəyişikliklər, eləcə də qloballaşma və informasiyalaşma proseslərinin təsiri ilə əlaqələndirilir. Təhsil getdikcə özünütəhsilə təhsilə çevriləcək. Təhsil müəssisələrinin əsas vəzifəsi fərdin özünütəhsil və özünü inkişaf etdirməsi, qarşılıqlı təhsil üçün ən əlverişli şərait yaratmaqdır.

Postindustrial cəmiyyətin formalaşması "yaradıcı şəxsiyyət" üçün yeni sosial nizam formalaşdırır. Bu kontekstdə yaradıcılıq düzgün məlumatı, problemlərin həlli üçün düzgün alqoritmləri tapmağı, düzgün qərarlar qəbul etməyi və s. keçmişə deyil, gələcəyə yönəlməli olan mürəkkəb sistem və bilik kimi insana münasibətin dəyişməsi yeni təhsil paradiqmasında təlim obyektindən (pedaqoji təsirdən) şagird idrak fəaliyyətinin subyektinə çevrilir, subyekt-obyekt münasibətlərindən təlim prosesi isə iki subyektin (müəllim və şagirdin) bərabərhüquqlu əməkdaşlığı kimi subyekt-subyekt qarşılıqlı əlaqəsinə çevrilir.

Müasir təhsil sisteminin xarakterik xüsusiyyətlərinə sosial funksiyalar humanistləşdirmə, informasiyalaşdırma, ekolojiləşdirmə və s.aiddir. Bu baxımdan fasiləsiz təhsilə, əlavə ali təhsildən istifadəyə, çevik təhsil formalarının, distant texnologiyaların inkişafına diqqətin yönəldilməsi, o cümlədən tələbələr üçün təhsil prosesinin planlaşdırılması, fərdi alqoritmlərin tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Demək olar ki, distant texnologiyalar getdikcə inkişaf edərək, öz imkanlarını genişləndirir və bu da onun təhsil sistemində necə əhəmiyyətli olduğunu göstərir. Distant təhsil fərdi təlim texnologiyası olmaqla həm də tələbələrin interaktiv texnotronik təlim mühitinə daxil olmasına öz töhfəsini verir ki, bu da öz növbəsində tələbə nəzarətini, tədris prosesinin fərdi planlaşdırılmasını və məsafədən sınaqdan keçirilməsini təmin edir.

Müasir həyatın tələblərinə cavab verən distant təhsil faktiki təhsil funksiyalarını yerinə yetirməklə yanaşı, tələbələrin müstəqil axtarış fəaliyyətinin inkişafına və təhsilin reproduktiv metodundan tələbələrin biliklərinin yaradıcı inkişafına keçidinə kömək edir. O həm də nəqliy-

yat xərclərini, tədris prosesinin təşkili xərclərini, həmçinin vaxta qənaət və digər fəaliyyətlərlə birləşdirmək imkanlarını nəzərə alaraq bir sıra sosial-iqtisadi funksiyaları yerinə yetirir.

Beləliklə, ali təhsil sisteminin müasirləşdirilməsi onun statusunun dəyişməsini nəzərdə tutur, işçi qüvvəsinin keyfiyyətinə, onun təhsil, peşə və ixtisas səviyyəsinə yeni tələblər qoyur. Təhsil istehlakçı və müvafiq xidmətlərin satıcısı arasında qarşılıqlı əlaqə sahəsinə çevrilir.

Təhsil daim zamanla inkişaf edir, müxtəlif temporal təbəqələri daxilən sintez edir, tarixi yaddaşı bu günlə əlaqələndirir, dəyişməz olaraq sabaha diqqət yetirir. Tərbiyə prosessualdır, o, "insan hadisəliliyinin xüsusiyyətlərini daşıyır, öz funksiyalarından birini – onun hər bir iştirakçısının varlığı və ümumi hadisəliliyin qurulması ilə xarakterizə olunan ümumi məkanda nəsillərin əlaqəsini həyata keçirir" [6, s.54].

Təhsilin yeni, alternativ formalarının axtarışı və iqtisadi ehtiyaclara yönəldilməsi, elmi-texniki və sosial tərəqqinin əldə edilməsi institusional funksiyaların qaçılmaz genişlənməsi ilə müşayiət olunur. Təhsil institutunun müasirləşməsinin və funksiyalarının genişlənməsinin ən parlaq təzahürü onun müxtəlifliyidir.

Sosial və mədəni dəyişikliklər gələcək ömür boyu təhsil üçün bilik bazası yaradır. Müasir təhsilin humanist, şəxsiyyətyönümlüyü onun çeviklik və dinamizm kimi xüsusiyyətlərini artırır.

Sosial sistem kimi təhsil diferensiallaşdırılmış və dəyişməyə açıq təhsil xidmətləri sferasına çevrilir, hər bir şəxsə təhsil ehtiyaclarına və qabiliyyətlərinə uyğun olaraq "fərdi təhsil trayektoriyası" təqdim edilir.

Müasir dünyada təhsil yüksək sosial dəyərə malik sosial əhəmiyyətli sahə kimi başa düşülür. Təhsil cəmiyyətin əxlaqi, intellektual, elmi, mənəvi, iqtisadi potensialının inkişafına kömək edən müəyyən mədəni mühit yaradır.

Öz mahiyyətində təhsil sahəsi mühafizəkardır, çünki onun əsas funksiyası toplanmış bilik və təcrübəni ötürməkdir. Eyni zamanda, bu tarixi inkişaf mərhələsinin tələbləri nəzərə alınmaqla, müvafiq dünyagörüşünün formalaşdırılması, şəxsiyyətin peşə fəaliyyətinə və həyata hazırlanması üçün təhsilin məqsədləri, metodları və məzmunu müasir elmi nailiyyətlərə əsaslanmalıdır.

Yeni düşüncə paradiqmasının formalaşması təhsildə dəyərlərin yenidən qiymətləndirilməsinə kömək edir, bunlar arasında məqsədlərinin dəyişdirilməsi, konkret insanların ehtiyaclarına yönəldilməsi var. Bu özünü daha çox ali təhsildə göstərir. Təhsil institutu cəmiyyətin dinamikasını izləyir və bu, prinsipial olaraq yeni problemlərin yaranmasına səbəb olur. Eyni zamanda, təhsil sahəsində onun məzmunu və metodları, mövcud ənənələr, günün tələbləri, ilk növbədə, universitet təhsilində ümumi mədəni xarakter daşıyır və onun dəyərlərinin, mənalarının və məqsədlərində özünü göstərir [7, s.68].

Yeni təhsil paradiqması davamlı təhsil və özünütəhsil üçün motivasiya yaratmağa yönəlib, istedadların aşkar edilməsi və inkişafı, məlumatların axtarışı və sistemləşdirilməsi bacarığı, qarşılıqlı anlaşma və kommunikativ bacarıqların öyrədilməsi, qeyri-müəyyənlik şəraitində hərəkət etmək bacarığı və s.. Müasir təhsil kəmiyyət və keyfiyyətcə təkmilləşmə qabiliyyəti, sosial çağırışlara, cəmiyyətin və fərdin ehtiyaclarına adekvat cavab vermək qabiliyyəti ilə xarakterizə edilməlidir.

Yeni paradiqmanın formalaşması tarixən uzun və mübahisəli prosesdir. Əsas ziddiyyətlər birbaşa vərəsəlik mexanizmi və keçmiş sosial təcrübənin sonrakı nəsillərə ötürülməsinin dominant ənənəvi yolu ilə bağlıdır. Xüsusi əhəmiyyət kəsb edən paradiqmanın dəyişməsinin sosial-mədəni mexanizmidir ki, bu da onu sosial təcrübələrin təkamülü əsasında həyata keçirməyə imkan verir.

Beləliklə, müasir ali təhsilin funksional mahiyyətini müxtəlif aspektlərdə başa düşmək olar: gənc nəslin sosiallaşması institutu kimi; ictimai xidmət sektoru kimi; cəmiyyətin inkişafı üçün resurs potensialı kimi; ictimai quruluşun təkrar istehsalı mexanizmi kimi və s.

Nəticə. Təhsildə modernləşmə prosesləri cəmiyyət tiplərinin dəyişməsi, elmi paradiqmaların, mədəni dəyərlərin və dəyər oriyentasiyalarının dəyişməsi ilə əlaqədardır. Müasir təhsilin mühüm istiqamətlərindən biri onun məqsədlərinin dəyişdirilməsi, fərdin ehtiyaclarını ödəmək üçün yenidən istiqamətləndirilməsidir. Əvvəldən təhsilə xas olan ənənəvi funksiyaların qorunub saxlanması ilə yanaşı, sürətlə baş verən sosial dəyişikliklər kontekstində şəxsiyyətin sosial-mədəni uyğunlaşması funksiyası prioritet istiqamətə çevrilir.

Müasir təhsil konsepsiyasında təhsilin dəyərləri xarici məqsədlərlə deyil, subyektin ehtiyacları ilə müəyyən edilir. Buna görə də təhsilin əsas funksiyası sosial intellektin bərpası funksiyası olmuşdur və qalır, onun formalaşması təlim vasitəsilə biliklərin yayılması və fərdlərə idrak bacarıqlarının aşılanması, inkişafın intellektual dəstəyi ilə şəxsiyyətin inkişafıdır.

Məqalənin elmi yeniliyi: Yeni təhsil paradiqmasının formalaşması kontekstində təhsilin sosial funksiyalarının xüsusiyyətləri müəyyən edilir.

Məqalənin nəzəri əhəmiyyəti: Gələcək tədqiqatların perspektivlərinə belə dəyişikliklərin dinamikasının tədqiqi, müasir ali təhsil sisteminin müəllimlər tərəfindən qiymətləndirilməsinin öyrənilməsi, sistemdəki disfunksiyaların səbəblərinin müəyyən edilməsi, rəqəmsal cəmiyyətdə təhsil prosesinin təşkilinin optimal yollarının tapılması daxildir.

Məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, təhsil müəssisələrində yeni təhsil paradiqmasının formalaşması və inkişafına yönəlmiş təcrübələrin ətraflı öyrənilməsi tətbiq olunan problemlərin həllinə kömək edə bilər.

Ədəbiyyat

1. Məmmədova, E.B. Sosial işin iqtisadi əsaslar. Dərs vəsaiti / E.B.Məmmədova, – Bakı, –2024, – 762s.
2. Məmmədzadə, R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi / R. Məmmədzadə, – Bakı: Müəllim, –2010. – 170 s.
3. Nəzərov, M.H. Təhsil fəlsəfəsi. Dərs vəsaiti / M.H.Nəzərov, – Bakı, – 2022. – 496 s.
4. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu (2009). – Bakı: Bakı Çap Evi, – 2012. – 64 s.
5. Агапов, П.В. Образование. Социологическая энциклопедия / П.В.Агапов, – М.: Мысль, – 2003. – Т.2. – 863 с.
6. Мухамед, Т.В. Основные функции образования в современной системе культуры / Т.В.Мухамед // Культура и образование: научно-информационный журнал вузов культуры и искусств. – 2015. – № 2 (17).
7. Козлов, И.И. Функции и дисфункции вузов в образовательной корпорации и ценности студентов / И.И.Козлов // Известия высших учебных заведений. – Поволжье: Общественные науки. – 2014, № 1 (29) – 352с.

G.M.Nazarova

Social Functions of Higher Education in the Context of a New Educational Paradigm

Summary

The article analyzes the social functions and development trends of education in the context of the transition to a new educational paradigm.

The essence of the future current and radical directions of modernization of educational activities and priority steps in their implementation are determined. Also, distance education, which meets the requirements of modern life, along with fulfilling the actual educational functions, shows the development of independent search activities of students and the transition from the reproductive method of education to the creative development of students' knowledge.

Keywords: *higher education, social functions, educational paradigm, modernization, information society, lifelong learning*

Г.М.Назарова

Социальные функции высшего образования в контексте новой образовательной парадигмы

Резюме

В статье анализируются социальные функции и тенденции развития образования в условиях перехода к новой образовательной парадигме.

Определена сущность будущих актуальных и радикальных направлений модернизации образовательной деятельности и первоочередные шаги по их реализации. Также дистанционное образование, отвечающее требованиям современной жизни, не только выполняет собственно образовательные функции, но и демонстрирует развитие самостоятельной поисковой деятельности обучающихся и переход от репродуктивного метода обучения к творческому развитию знаний обучающихся.

Ключевые слова: *высшее образование, социальные функции, образовательная парадигма, модернизация, информационное общество, непрерывное обучение*

Rəyçi: p.ü.f.d., prof. İ.N.İsayev

Redaksiyaya daxil olub: 24.04.2025

S.R.SƏLİMOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: sadagat.salimova70@gmail.com
:https://orcid.org/0000-0002-4792-1283

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

XARİCİ DİL DƏRSLƏRİNİN TURİZM ASPEKTİNDƏN TƏDRİSİ

Xülasə. *Məqalədə qloballaşan dünyada turizm baxımından xarici dillərin tədrisinin getdikcə daha da vacib olduğu göstərilir. Turizm fərqli mədəniyyətlər arasında effektiv ünsiyyət tələb edir, bu da xarici dil bacarıqlarını zəruri edir. Xarici dil dərsləri yalnız dil biliklərinə deyil, həm də turizm sektorunda praktik ünsiyyətə yönəldilməlidir. Keyfiyyətli turizm xidmətləri turistlərin ehtiyaclarını anlamaq və onlarla effektiv ünsiyyət qurmaq bacarığından asılıdır. Azərbaycanda turizm iqtisadiyyatın əsas sahələrindən birinə çevrilmişdir. Əsas problemlərdən biri turizm sahəsində çalışan əməkdaşların xarici dil biliklərinin kifayət qədər olmamasıdır. Turizm yönümlü xarici dil tədrisi bu problemin həllinə kömək edə bilər. Bu metod tələbələrin praktik ünsiyyət bacarıqlarını və peşəkar hazırlığını artırır. Bir çox xarici dil dərsliklərində tələbələrin öz ölkələri haqqında məlumat yer almır. Daha effektiv yanaşma yerli turizm məlumatlarının dilöyrənmə materiallarına inteqrasiyasıdır. Məsələn, Rusiyada universitetlər yerli turizm məzmunu daşıyan dil dərslikləri hazırlayırlar. Bu cür materiallar tələbələrə həm dil, həm də ölkələri haqqında faydalı mədəni məlumatları öyrənməyə kömək edir. Eyni üsulla Azərbaycan üzrə əsas turizm məkanları haqqında sadələşdirilmiş mətnlər dərsliklərə daxil edilə bilər. Bu məkanlardan biri maraqlı əfsanəsi və zəngin təbiəti ilə tanınan Göygöldür. Bu mövzu ilə bağlı tapşırıqlara oxuyub anlama, söz ehtiyatı məşqləri və müzakirə fəaliyyətləri daxil edilə bilər.*

Açar sözlər: *göl, balıq, xalça, əfsanə, təhsil, turist*

Qloballaşan dünyada xarici dillərin öyrənilməsi yalnız şəxsi inkişaf və akademik uğur üçün deyil, həm də turizm kimi sürətlə inkişaf edən sahələrdə peşəkar fəaliyyət üçün mühüm əhəmiyyət kəsb edir. Müasir turizm sənayesi müxtəlif mədəniyyətlər arasında ünsiyyətin effektiv qurulmasını tələb edir və bu ünsiyyətin əsas vasitəsi xarici dillərdir. Buna görə də xarici dil dərslərinin təkcə linqvistik bacarıqların inkişafına deyil, həm də turizm sektorunda tələb olunan praktik ünsiyyət vərdişlərinin formalaşdırılmasına yönəldilməsi günümüzdə xüsusi aktuallıq qazanmışdır.

Turizm, öz dinamikliyi və mədəni mübadiləni təşviq etmə qabiliyyəti ilə iqtisadiyyatın strateji sahələrindən biri hesab edilir. Xüsusilə, turizm xidmətlərinin keyfiyyətini artırmaq üçün turistlərin ehtiyaclarını anlamaq, onlarla düzgün və səmərəli ünsiyyət qurmaq əsas şərtlərdən biridir. Bu baxımdan, xarici dil dərslərinin məzmununun və tədris metodikasının turizm sahəsinin tələblərinə uyğun şəkildə qurulması, tələbələrin həm nəzəri biliklərə, həm də real ünsiyyət bacarıqlarına yiyələnməsinə kömək edə bilər.

Azərbaycanda turizm sektorunun inkiafı ölkə iqtisadiyyatının əsas istiqamətlərindən birinə çevrilib. Turizmin daha da gücləndirilməsi üçün peşəkar kadrların hazırlanması vacibdir. Bu sahədə əsas problemlərdən biri turizm sektorunda çalışan işçilərin xarici dil biliklərinin kifayət qədər olmamasıdır. Xarici dil dərslərinin turizm aspektindən tədrisi bu problemin həlli yollarından biri ola bilər.

Təqdim edəcəyimiz məqalə, xarici dil dərslərinin turizm aspektindən tədrisinin vacibliyini və bu yanaşmanın tələbələr üçün praktik əhəmiyyətini araşdırır. Eyni zamanda, bu metodikanın turizm sahəsində çalışan mütəxəssislərin peşəkar hazırlığında və onların qlobal əmək bazarında rəqabət qabliyyətinin artırılmasında oynadığı rola diqqət yetiriləcəkdir. Məqalədə xarici dillərin tədrisinin innovativ üsullarla zənginləşdirilməsi, turizm sahəsinə uyğunlaşdırıl-

mış materiallardan istifadə edilməsi və praktiki yanaşmaların tətbiqi kimi əsas məqamlar ətraflı şəkildə təhlil ediləcəkdir. Beləliklə, xarici dil dərslərinin turizm aspektindən tədrisi təkcə dil biliklərinin inkişafına deyil, həm də mədəni anlayışın dərinləşdirilməsinə, beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və turizm xidmətlərinin daha keyfiyyətli təqdim edilməsinə töhfə verən mühüm amil kimi qiymətləndirilə bilər.

Məqaləmizdə təqdim edəcəyimiz istiqamət başlıca olaraq tur bələçiləri ilə əlaqəli olduğu üçün turizmin digər sektorlarına toxunmayacağıq. Məlumdur ki, adı gedən sektorda həm tur bələdçiliyi üzrə təhsil almış şəxslər, həm də xarici dil bilgisi olanlar çalışa bilir. Lakin bu gün hər hansı xarici dili öyərənən şəxslərin istifadə etdikləri dərsliklərdə məlumatlar öz ölkələrinə, yəni onun tarixinə, coğrafiyasına, mədəniyyətinə və s. aid olurmu? Xeyr. Çox vaxt bu xarici mütəxəsislərin hazladığı sərbəst komunikasiyanı təmin edən danışıq kitablarıdır.

Mən hələ 2010-cu ildə Rusiya Federasiyasının Dilçilik universitetlərindən birində təkmilləşdirmə kurslarında olarkən diqqətimi çəkən əsas məqamlarından biri də ondan ibarət oldu ki, burada xarici dil üzrə təhsil alan tələbələrin dərslikləri universitetin təşəbüsü ilə müəllimlər tərəfindən hazırlanmış Rusiya Federasiyası və yerli turizm məlumatlarını əhatə edir. Məsələn, mən fransız dili üzrə mütəxəsis olduğum üçün əgər rus dili bilməsəydim, məmnuniyyətlə tələbələrin köməyi ilə olduğum şəhərin haqqında istəlinən məlumatı onlardan öyrənə bilirdim. Asudə vaxtımı daha maraqlı keçirmək üçün hansı müzeylərə gedə bilərəm, onlar arasında sıralama seçimini necə apara bilərəm və ya ekoturizmdən necə istifadə edə bilərəm? Seçməli olduğum marşurut üzrə hansı maraqlı məntəqələrlə tanış ola bilərəm? Yuxarıda sadaladığım suallar vasitəsilə mən tələbələrin dil bilgiləri ilə yaxından tanış olmaqla yanaşı bu bilgilərdən faydalanırdım. Elə isə "biz öz turizm bölgələrimizə dair məlumatlarımızı, qısmən də olsa, dil dərslərində necə bölüşə bilərik?" sualına belə cavab verə bilərik: ilk öncə, dərs materialı olaraq sadələşdirilmiş mətnlər tərtib etmək lazım olacaq. Daha sonra bu mətnlərin daha yadda qalımlı olması üçün yazlı və şifahi çalışmalar tərtib etməliyik. Çalışmalar əsasən suallara cavab vermə, lüğət və ifadələr, disskussiyalar şəkilində ola bilər. Məsələn, son zamanlar ekoturizmə maraq həddi çox artmışdır. Bu marağı nəzərə alaraq, biz ilk olaraq doğma vətənimizin dilbər güşələrindən bir olan Göygöl haqqında məlumat verəcəyik. Əvvəlcə göl haqqında əfsanəyə diqqət yetirək.

Une légende du lac Göygöl

Une légende célèbre est associée au lac Göygöl. Selon cette légende, dans les temps anciens, une fille d'un riche bey et un pauvre berger s'aimaient. Cependant, le père de la jeune fille s'opposait à cet amour et voulait la marier à un bey fortuné. Le jour du mariage, écoutant son cœur, la jeune fille tenta de s'enfuir avec le berger qu'elle aimait. Mais à ce moment-là, la terre se mit à trembler, un grand tremblement de terre eut lieu, et le village fut englouti sous l'eau, formant ainsi le lac Göygöl. Cette légende explique la création du lac Göygöl à travers une histoire d'amour romantique et tragique. On dit que la couleur bleu profond du lac est due aux larmes versées par la jeune fille[1].

Exercices

1. Vrai ou Faux

- Le lac Göygöl est un lac naturel.
- Le tremblement de terre a eu lieu en 1939.
- Le lac est à 2000 mètres d'altitude.
- Il y a des truites dans le lac.
- Selon la légende, une jeune fille et un berger s'aimaient.

2. **Complétez les phrases**

- Le lac Göygöl est situé à _____ mètres au-dessus du niveau de la mer.
- Il mesure _____ mètres de long.
- Les truites du lac Göygöl sont différentes des _____ de rivière.

- La couleur bleu profond du lac vient des _____ de la jeune fille.

3. **Discussion**

- Aimez-vous les lacs ? Pourquoi ?
- Quels sont les lacs célèbres dans votre pays ?
- Pourquoi est-il important de protéger les lacs ?
- Connaissez-vous d'autres légendes sur des lacs ou des rivières ?

Le lac Göygöl

En 1139, un grand tremblement de terre a eu lieu à Gandja. Ce tremblement de terre a créé de nouveaux lacs. L'un d'eux est le lac Göygöl.Le lac Göygöl s'est formé quand une partie de la montagne Kəpəz est tombée et a bloqué la rivière Aghsu.Le lac est situé à 1556 mètres au-dessus du niveau de la mer. Il mesure environ 2800 mètres de long et 1000 mètres de large. C'est le lac le plus profond d'Azerbaïdjan.Le lac Göygöl a une faune riche. Il y a des truites (forels) dans le lac. Ces poissons sont différents des truites de rivière. Ils se sont adaptés au lac pendant des siècles.Une partie de l'eau du lac Göygöl va sous terre et rejoint le lac Göytcha[2].

Exercices

1. **Vrai ou Faux**

- Le lac Göygöl est un lac naturel.
- Le tremblement de terre a eu lieu en 1939.
- Le lac est à 2000 mètres d'altitude.
- Il y a des truites dans le lac.

2. **Complétez les phrases**

- Le lac Göygöl est situé à _____ mètres au-dessus du niveau de la mer.
- Il mesure _____ mètres de long.
- Les truites du lac Göygöl sont différentes des _____ de rivière.

3. **Discussion**

- Aimez-vous les lacs ? Pourquoi ?
- Quels sont les lacs célèbres dans votre pays ?
- Pourquoi est-il important de protéger les lacs ?

Növbəti mətnlər B1 səviyyəsi üçün digər turizim regonuna və ya digər turizim sahəsinə aid edilə bilər. Məsələn balıqçılıq təsərrüfatlarının turizm potensialı haqqında təqdimatlar və qısa mətnlər təqdim etməklə.

L'industrie de la pêche et les élevages de poissons en Azerbaïdjan

L'Azerbaïdjan, situé à l'est du Caucase du Sud, sur la côte ouest de la mer Caspienne, est connu pour sa production de poissons. La mer Caspienne possède des ressources halieutiques abondantes, représentant 80% des esturgeons (Acipenseridae) du monde.

La préservation des ressources en poissons ne repose pas uniquement sur des méthodes naturelles, mais aussi sur des méthodes artificielles, notamment grâce aux élevages de poissons. L'une de ces installations est située dans le village de Yenikend, sur les rives de la rivière Koura, dans la région de Neftchala. L'histoire de cet élevage remonte à 1954. À cette époque, il est devenu le premier établissement au monde à réussir la reproduction artificielle des esturgeons (Acipenseridae), et les résultats ont été envoyés aux États-Unis.

Aujourd'hui, deux élevages de poissons fonctionnent dans cette région. L'élevage de Neftchala se distingue des autres établissements similaires par plusieurs caractéristiques. Chaque année, plus de cinq espèces d'esturgeons y sont élevées et des milliers de poissons sont relâchés dans la mer. De plus, l'emplacement de l'élevage sur les rives de la rivière Koura offre un environnement idéal pour la pisciculture. Cela permet notamment l'élevage de l'espèce "Tchoké", un type d'esturgeon qui ne peut survivre qu'en eau douce. Chaque année, environ 600 000 poissons de cette espèce sont relâchés dans la rivière Koura.

L'élevage accueille régulièrement des touristes nationaux et internationaux. Les visiteurs peuvent observer les activités de l'établissement et déguster divers plats à base de poissons dans les restaurants qui lui sont affiliés[3].

1. Exercices de vocabulaire

A) Associez les mots suivants à leur signification.

1. **Esturgeon**
2. **Élevage de poissons**
3. **Relâcher**
4. **Ressources halieutiques**
5. **Rivière**
6. **Préservation**

a) Une grande quantité de poissons dans la mer ou les rivières.
b) Un type de poisson que l'on trouve principalement dans la mer Caspienne.
c) Le fait de protéger ou de conserver quelque chose.
d) L'action de libérer des poissons dans leur milieu naturel.
e) Un endroit où l'on élève des poissons artificiellement.
f) Un cours d'eau naturel.

B) Complétez les phrases

Remplissez les espaces vides en utilisant les mots donnés: **(préservation, élevage, relâcher, espèces, ressources, rivière)**

1. La mer Caspienne possède d'importantes _____ halieutiques.
2. L'_____ des poissons permet d'augmenter leur nombre dans la nature.
3. En Azerbaïdjan, on essaye de garantir la _____ des esturgeons.
4. Chaque année, des milliers de poissons sont _____ dans la mer.
5. Il existe plusieurs _____ de poissons en Azerbaïdjan.
6. L'élevage de Neftchala est situé sur la _____ Koura.

2. Activité orale

A) Discussion

Les étudiants sont répartis en binômes et tentent de répondre aux questions suivantes:

1. Pourquoi est-il important de préserver les ressources halieutiques ?
2. Que pensez-vous de l'élevage de poissons ? Est-ce une bonne solution ?
3. Avez-vous déjà visité un élevage de poissons ? Si non, aimeriez-vous en visiter un ? Pourquoi ?
4. Quels sont les avantages et les inconvénients de la pêche et de l'aquaculture ?

B) Jeu de role

L`un des deux étudiants est un touriste et l`autre est employé dans une usine de pêche. Le touriste pose des questions sur l`usine et l`employé répond.Ils peuvent utiliser l`exemple suivant:

Exemple:

- **Touriste**: Bonjour, pouvez-vous me parler de l'élevage de Neftchala ?
- **Employé**: Bien sûr ! Ici, nous élevons plusieurs espèces d'esturgeons et chaque année nous relâchons des milliers de poissons dans la nature.
- **Touriste**: Pourquoi faites-vous cela ?
- **Employé**: Parce que nous voulons protéger les ressources halieutiques et éviter la disparition de certaines espèces.

Bu tapşırıqlar tələbələrin həm söz ehtiyatını genişləndirməsinə, həm də danışıq bacarıqlarını inkişaf etdirməsinə kömək edəcək.

Le Cheval du Karabakh – Fierté Nationale de l'Azerbaïdjan

Le cheval du Karabakh est l'une des races les plus anciennes et précieuses d'Azerbaïdjan. Ce cheval se distingue par sa rapidité, son endurance et sa beauté. Depuis des

siècles, il a été utilisé dans les batailles, la chasse et les courses équestres. Il est considéré comme un trésor national et un élément essentiel du patrimoine culturel du pays. Le cheval du Karabakh a une histoire ancienne. Il est originaire de la région du Karabakh et s'est développé principalement aux XVIIe et XVIIIe siècles. À l'époque du Khanat du Karabakh, ces chevaux étaient élevés avec soin et utilisés par les cavaliers du khan. Ils étaient également très appréciés dans les cours de l'Empire ottoman, de la Russie et de la Perse. Au XIXe siècle, les chevaux du Karabakh ont attiré l'attention de l'Empire russe. Ils ont été intégrés dans les élevages russes et ont participé à de nombreuses expositions internationales. En 1867, un cheval du Karabakh a remporté une médaille d'or lors d'une exposition à Paris. En 1956, un autre cheval de cette race a été présenté à la reine Élisabeth II d'Angleterre lors d'une exposition équestre. Le cheval du Karabakh est de taille moyenne avec une silhouette élégante et des muscles bien développés. Ses principales caractéristiques sont :

- **Hauteur**: Environ 148-154 cm
- **Robe**: Couleur dorée ou châtain clair, souvent brillante
- **Morphologie**: Corps léger et harmonieux
- **Pattes**: Fortes et résistantes, adaptées aux longues distances
- **Comportement**: Intelligent, docile et rapide

Ces chevaux ont une démarche souple et élastique, ce qui les rend très agréables à monter. Le cheval du Karabakh est un symbole de l'identité nationale et des traditions héroïques de l'Azerbaïdjan. Il est souvent mentionné dans la littérature, la poésie et la peinture du pays. Après le conflit du Karabakh, la renaissance de l'élevage des chevaux du Karabakh est devenue une priorité nationale. Ces dernières années, des efforts ont été faits pour protéger et augmenter leur population. Grâce au soutien de l'État, de nouveaux centres d'élevage ont été créés dans les régions d'Agdam et de Sheki. En 2021, lors d'un événement spécial à Choucha, les chevaux du Karabakh ont été présentés pour promouvoir le patrimoine culturel azerbaïdjanais. Le cheval du Karabakh est une fierté de l'Azerbaïdjan. Son histoire, ses caractéristiques physiques et son importance culturelle en font une race unique reconnue dans le monde entier. L'Azerbaïdjan continue à préserver et à promouvoir cette race exceptionnelle pour les générations futures [4, s. 62-63, 5.].

Exercices

1. Vocabulaire

Associez chaque mot à sa définition :

- **Endurance**
- **Élevage**
- **Morphologie**
- **Harmonieux**
- **Docile**

a) Qui a une belle structure équilibrée
b) Capacité à résister à l'effort
c) État d'un corps, sa forme
d) Qui obéit facilement
e) L'action d'élever des animaux

2. Compréhension écrite

Répondez aux questions:

1. Où est né le cheval du Karabakh ?
2. Pourquoi cette race était-elle appréciée dans d'autres pays ?
3. Quelles sont les caractéristiques principales de ce cheval ?
4. Comment l'Azerbaïdjan protège-t-il cette race aujourd'hui ?

3. Expression écrite

Écrivez un court texte (5-6 phrases) sur un autre animal emblématique de votre pays.

4. Expression orale

En petits groupes, discutez des rôles des chevaux dans l'histoire et la culture de différents pays. Présentez ensuite votre discussion à la classe.

Məqalənin elmi nəticəsi. Nəticə olaraq onu qeyd edə bilərik, xarici dil dərslərinin turizm aspektindən tədrisi müasir təhsil sistemində vacib bir mövzu olaraq ön plana çıxır. Turizm sənayesinin sürətlə inkişaf etdiyi və beynəlxalq əlaqələrin gücləndiyi bir dövrdə, turizm sahəsində fəaliyyət göstərən mütəxəssislərin effektiv ünsiyyət bacarıqları ilə yanaşı, mədəniyyətlərarası anlayışa da sahib olmaları mühüm əhəmiyyət kəsb edir. Xarici dillər, bu əlaqələrin təmin edilməsi üçün əsas vasitədir, çünki onlar fərqli mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın qurulmasında kritik rol oynayır. Xarici dil dərslərinin turizm aspektindən tədrisi, yalnız dil biliklərinin artırılması ilə kifayətlənməyib, həm də tələbələrin praktiki bacarıqlarını inkişaf etdirməyə xidmət edir. Bu, müasir turizm sektorunun tələblərinə uyğun olaraq peşəkar turizm işçilərinin yetişdirilməsi məqsədini güdür. Azərbaycanın turizm potensialı da bu kontekstdə böyük önəm daşıyır, çünki dil bilikləri ilə yanaşı, ölkənin mədəniyyətinin və turizm obyektlərinin tanıdılması da turistlərə xidmətin keyfiyyətini artırır.

Məqalənin elmi yeniliyi. Təqdim edilən məqalənin elmi yenliyi haqqında onu qeyd etməliyi ki, burada fransız dilinin tədrisi ilə bağlı təqdim olunan dərs nümunələri lokal-mədəni kontekstdə hazırlanmış və dil öyrənməni milli-mədəni dəyərlərin tanıdılması ilə birləşdirilmişdir. Bu zaman dərs yalnız dil öyrətmək məqsədi daşımır, eyni zamanda mədəni maarifləndirmə və milli irsin qorunması funksiyasını da yerinə yetirmiş olur.

Məqalənin tətbiqi əhəmiyyəti. Məqalədən turizm sahəsində çalışan və ya bu sahədə təhsil alan tələbələr üçün xüsusi hazırlıq vəsaiti kimi istifadə olunmaqla yanaşı, fransız dil müəllimləri üçün lokal mədəniyyətə əsaslanan resurs hazırlamaq nümunəsidir. Bu, xarici dilin, fransız dilinin tədrisində yerli identikliyi qoruyaraq dilin tədrisini daha maraqlı və mənalı edə bilər. Nəticədə dil öyrənmə prosesini effektiv etmiş olacaqdır.

Ədəbiyyat

1. AzərTAc, n.d. Güzgü göl əfsanəsi. Available Görülmə tarixi: 1 aprel 2025.at: https://portal.azertag.az/node/24478 [Accessed 3 Apr. 2025].
2. Wikipedia, n.d. Göygöl (lake). Available Görülmə tarixi: 1 aprel 2025.at: https://en.wikipedia.org/wiki/G%C3%B6yg%C3%B6l_%28lake%29 [Accessed 3 Apr. 2025].
3. Azərbaycan Fish Farm MMC balıqçılıq sənayesinin inkişafı üçün layihələr həyata keçirir https://www.marja.az › public Görülmə tarixi: 2 aprel 2025.
4. Muradova Z. 2022 Sağlamlıq və sənətkarlıq ocağı Şusa, Bakı, 71s.
5. *Qarabağ atı, Vikipediya, https://az.wikipedia.org/wiki/Qaraba%C4%9F_at%C4%B1, Görülmə tarixi: 1 aprel 2025.*

S.R.Salimova

Teaching Foreign Languages from a Tourism Perspective

Summary

In the article *"Teaching Foreign Languages from a Tourism Perspective"* by Sadagat Salimova, it is emphasized that in a globalizing world, teaching foreign languages from a tourism standpoint is becoming increasingly important. Tourism requires effective communication between different cultures, making foreign language skills essential. Foreign language lessons should focus not only on linguistic skills but also on practical communication in the tourism sector. High-quality tourism services depend on understanding tourists' needs and communicating with them effectively. In Azerbaijan, tourism has become a key sector of the economy. One major challenge is the insufficient foreign language proficiency of tourism industry employees. Teaching foreign languages with a

tourism-oriented approach can help address this issue. This method enhances students' practical communication skills and professional readiness. Many foreign language textbooks do not contain information about students' own countries. A more effective approach is to integrate local tourism information into language learning materials. For example, in Russia, universities develop language textbooks that include local tourism content. Such materials help students learn both the language and useful cultural information about their country. Simplified texts about major tourist destinations in Azerbaijan can be included using the same method. One of these places is Lake Göygöl, known for its interesting legend and rich nature.Tasks related to this topic can include reading comprehension, vocabulary exercises, and discussion activities.

Key words: *lake, fish, carpet, legend, education, tourist*

С.Р.Салимовой

Преподавание иностранных языков с туристической точки зрения

Резюме

В статье подчёркивается, что в глобализирующемся мире преподавание иностранных языков с точки зрения туризма становится всё более важным. Туризм требует эффективного общения между различными культурами, что делает знание иностранных языков необходимым. Уроки иностранных языков должны быть ориентированы не только на развитие языковых навыков, но и на практическое общение в сфере туризма. Качественные туристические услуги зависят от понимания потребностей туристов и эффективного общения с ними. В Азербайджане туризм стал одной из ключевых отраслей экономики. Одной из основных проблем является недостаточное владение иностранными языками среди работников туристической отрасли. Преподавание иностранных языков с туристической направленностью может помочь решить эту проблему. Такой метод повышает практические коммуникативные навыки студентов и их профессиональную готовность. Во многих учебниках по иностранным языкам отсутствует информация о родной стране студентов. Более эффективным подходом является интеграция местной туристической информации в учебные материалы. Например, в России университеты разрабатывают языковые учебники, включающие информацию о местном туризме. Такие материалы помогают студентам одновременно изучать язык и получать полезную культурную информацию о своей стране. По такому же принципу можно включать упрощённые тексты о главных туристических достопримечательностях Азербайджана. Одним из таких мест является озеро Гёйгёль, известное своей интересной легендой и богатой природой. Задания по этой теме могут включать в себя чтение с пониманием, упражнения на расширение словарного запаса и обсуждение.

Ключевые слова: *озеро, рыба, ковёр, легенда, образование, турист*

Rəyçi: filol.f.d., dos. İ.İ.Dadaşova

Redaksiyaya daxil olub: 30.04.2025

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, prof. əvəzi
e-mail: yadigar_semedov@mail.ru
:https://orcid.org/0009-0007-2287-5309

Azərbaycan İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski pr., 98)

10.62021/0026-0028.2025.2.396

METODLARIN TƏSNİFATINA DAİR MÜASİR BAXIŞLAR

Xülasə. *İdmançıların hazırlanması sisteminin təkmilləşdirilməsi və idman məşqinin nəzəriyyəsi və metodikası baxımından təlim metodların təsnifatına dair müasir baxışların tədqiqi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, məqalədə təklif olunan üç böyük təsnifat metodlar qrupundan: biliklərə yiyələnməyə yönəldilmiş, hərəki bacarıq və vərdişlərin mənimsənilməsinə yönəldilmiş, əsasən fiziki keyfiyyətlərin, qabiliyyətlərin inkişafına yönəldilmiş təsnifat metodlarından bəhs olunur. Bilik əldə etməyə yönəlmiş metodların fiziki tərbiyə sahəsində təhsilin məzmununun əsas aparıcı komponentlərindən olduğu xüsusi qeyd olunur. Burada konkret metodun seçilməsi və praktikada tətbiqi ilə bağlı bir sıra amillər və şərtlər də sadalanmışdır. Təqdim olunan məqalədə metodların təsnifatına dair müasir baxışlar idmançıların hazırlanması sisteminin təkmilləşdirilməsi baxımından izah olunub və bütün bunlar ön plana çıxarılaraq nəzəri təhlilə cəlb edilmişdir.*

Açar sözlər: *metodların təsnifatı, hərəki bacarıq, təlim prosesi, bilik*

Təlim prosesi yaranandan onunla paralel olaraq metodlar da mövcud olmuşdur.

Pedaqoji ədəbiyyatda təlim metodlarının təsnifatı ilə bağlı M.Muradxanov, N.Kazımov, Ə.Haşımov, H.Əhmədov, Y.Talıbov, Ə.Ağayev, A.Kərimov, P.Mustafayeva, Ə.Paşayev, F.Sadıxov, A.Abbasov, H.Əlizadə, F.Rüstəmov, İ.İsayev, A.Eminov, L.Qasımova və digər pedaqoq-tədqiqatçıların elmi fikirləri vardır.

Təlim metodlarının təsnifatı haqqında Y.Talıbov, Ə.Ağayev və digər müəlliflərin fikri belədir: "Təlim metodları təhsilin məzmununun tərkibində, onun müxtəlif elementlərinin mənimsənilməsi qaydalarından irəli gələrək, qarşıya qoyulan məqsəddən asılı olaraq müxtəlif qpuplara bölünür. Pedaqoji tədqiqatları ümumiləşdirməli olsaq, dərsdə əsasən 3 qrup metodlar daha işləkdir və bu, məktəb təcrübəsində özünü doğruldur" [4, s.142].

Təlim metodlarının təsnifatı ilə bağlı F.Rüstəmov və T.Dadaşovanın aşağıdakı fikri ilə razılaşmamaq mümkün deyil: "Təlim metodlarının müxtəlif təsnifatlarının hər birinin özünəməxsus üstünlükləri var. Etiraf etmək lazımdır ki, metod çoxölçülü və mürəkkəb proses olduğundan onun bütün funksiyalarını, xüsusiyyətləri və əlamətlərini özündə birləşdirən təsnifat vermək çox çətindir, bəlkə də heç mümkün deyil" [1, s.201].

Hal-hazırda bədən tərbiyəsi nəzəriyyəsində fərdin təlimi, tərbiyəsi və inkişaf üsullarının bir neçə təsnifatı mövcuddur. Burada fərdin fiziki mədəniyyətinin fərdi aspektlərinin formalaşması ilə bağlı konkret pedaqoji problemlərin həlli metodlarının istiqamətləndirilməsinə əsaslanan təsnifatı nəzərdən keçiririk. Ondan istifadə edərək, ümumi metodlar dəstindən müəyyən bir problemin həllinə ən çox kömək edənləri seçmək olar: təhsil, tərbiyə və ya fiziki inkişaf.


"Təsnifatın köməyi ilə müəllim, pedaqoq, məşqçi, bu və ya digər fiziki hərəkətlərin xarakterik xüsusiyyətlərini, onların tərbiyəvi potensialını müəyyən edə bilər və buna görə də, fiziki fəaliyyətin xarakteri, dərslərin keçirilməsi şəraitinə uyğun olaraq konkret pedaqoji problemlərin fərdi və yaş xüsusiyyətlərinin həlli üçün daha uyğun olan hərəkətləri daha məqsədyönlü və səmərəli seçə bilər" [2, s.328].

Məqsəd və vəzifələr

Yüksək dərəcəli idmançıların hazırlanması kimi mürəkkəb prosesdə məşqçi ilə onun yetirməsinin qarşılıqlı fəaliyyəti çox mühüm əhəmiyyət kəsb edir.

Bədən tərbiyəsi və idmanla bağlı metodiki ədəbiyyat mənbələrinin təhlili əsasında biz metodların təsnifatını öyrənməyə çalışdıq. Metodlar fiziki hərəkətləri öyrətmək və fiziki keyfiyyətləri inkişaf etdirmək baxımından təsnif olunur.

Prosesdə istifadə olunan metodlar



Qeyd 6.2. Cədvəldə fiziki hərəkətləri öyrətmək və fiziki keyfiyyətləri inkişaf etdirmək üçün istifadə olunan metodların təsnifatı

Təklif olunan təsnifat metodları üç böyük qrupa bölünür:

1. Biliklərə yiyələnməyə yönəldilmiş.
2. Hərəki bacarıq və vərdişlərin mənimsənilməsinə yönəldilmiş.
3. Əsasən fiziki keyfiyyətlərin, qabiliyyətlərin inkişafına yönəldilmiş.

Metodların hər bir qrupunda öz növbəsində müvafiq alt qrupları və növləri ayırd etmək mümkündür. Bu və ya digər üsula müxtəlif metodoloji texnikalar daxildir. Eyni zamanda, eyni metodoloji üsullar müxtəlif metodların bir hissəsi ola bilər. Təsnifatı qurarkən hər bir metod qrupunun bilik, hərəki bacarıq və ya fiziki keyfiyyətlərin inkişafına yönəldilmiş prosesinin əsasını təşkil edən nümunələr əsasında qurulmalı və istifadə edilməlidir. Fiziki hərəkətlərin öyrənilməsi, fiziki keyfiyyətlərin inkişaf nümunələri bir-birindən əhəmiyyətli dərəcədə fərqləndiyindən onu nəzəri və praktiki baxımdan əsaslandırılması prespektliyini qanuni hesab etmək olar. Təbii ki, bu üsulların çoxu eyni vaxtda bu və ya digər dərəcədə təhsil, tərbiyə və inkişaf funksiyalarını həyata keçirir. Lakin bütün bunlara baxmayaraq, onların hər biri özünün dominant funksiyalarına malikdir ki, bu da onun təsnifatda insanın fiziki mədəniyyətinin formalaşması üçün bu və ya digər qrup üsullarına aid edilməsinə əsas verir.

Konkret metodun seçilməsi və praktikada tətbiqi bir sıra amillərdən və şərtlərdən asılıdır. Xüsusilə onların seçimi aşağıdakılarla müəyyən edilir:

1. Hərəkət bacarıqlarının formalaşması və fiziki qabiliyyətlərin inkişafı nümunələri və onlardan irəli gələn metodoloji prinsiplər.

2. Təlim, təhsil və cəlb olunan şəxsiyyətin inkişafının qarşıya qoyduğu məqsəd və vəzifələri.

3. Tədris materialının məzmununun xarakteri, istifadə olunan vasitələr.

4. İştirak edən insanların yaşı, sağlamlıq vəziyyəti, cinsi, hazırlıq səviyyəsi, hərəkət qabiliyyəti, fiziki və əqli inkişafı, psixofizioloji xüsusiyyətləri və s.

5. Müəllimlərin öz imkanları, onların əvvəlki təcrübəsi, nəzəri və praktiki hazırlıq səviyyəsi, müəyyən metodları, vasitələri tətbiq etmək bacarığı, iş tərzi və şəxsi keyfiyyətləri.

6. Müəllimin malik olduğu vaxt: məsələn, söhbətin təsvirdən daha çox vaxt aparması.

7. Fiziki hərəkətlərin öyrənilmə mərhələləri, fiziki performansın inkişaf mərhələləri (fiziki keyfiyyətlərin inkişaf səviyyəsinin artırılması, onların sabitləşməsi və ya bərpası).

8. Ayrı-ayrı siniflərin strukturu, onların hissələri, mərhələləri və təlim dövrləri.

9. Dərslərin keçirildiyi iqlim şəraitinin xüsusiyyətləri (havanın temperaturu, rütubət, küləyin gücü).

Bilik əldə etməyə yönəlmiş metodlar. Bilik insanın fiziki tərbiyə sahəsində təhsil məzmununun əsas aparıcı komponentlərindən biridir.

Onlar adətən qavranılan, şüurlu və hər bir tələbənin yaddaşında sabitləşən məlumat kimi müəyyən edilir. Bilik müəyyən fəaliyyət prosesində mənimsənilir və şagirdin şüurunda ideyalar, faktlar, anlayışlar və nümunələr şəklində sabitləşir. Biliklər əsasında öyrənilən motor hərəkətinin tam və daha dəqiq təsviri yaradılır ki, bu da hərəkət texnikasının mənimsənilməsinin müvəffəqiyyətindən çox asılıdır.

Bilik əldə etməyə yönəlmiş metodların birinci qrupu informasiyanın şifahi ötürülməsini və mənimsənilməsini nəzərdə tutan üsullardır. Şifahi təqdimat hekayə, söhbət, izahat, təsvir və digər nitq formalarında həyata keçirilir.

Hadisələrin hekayə şəklində təqdim edilməsidir. Hekayədə bədən tərbiyəsi, idman növünün inkişafı, hərəkət texnikası, məşq üsulları və s. sahəsində elmi kəşflərdən bəhs edilir və oyun fəaliyyətinin təşkilində tez-tez istifadə olunur.

Söhbət tədris materialının mənimsənilməsinin sual-cavab formasıdır. Müəllimin sualından sonra tələbələrin cavabı və hər növbəti sual üçün belə davam edir. Söhbət zamanı şagirdlər başa düşmədiklərini müəllimdən soruşa bilərlər. Bu metodun əsas tələbi ciddi düşünülmüş suallar və tələbələrdən gözlənilən cavablar sistemidir. Söhbət bir şeyin müzakirəsi şəklində də aparıla bilər, yəni fikir mübadiləsi şəklində nəzərdə tutulur. Söhbətin bir növü hər hansı bir hadisənin, proseslərin, hadisələrin təhlilində geniş istifadə oluna bilər. Məsələn, buraxılmış səhvlərin təhlili və onların əsas səbəbləri, yarışlarda, oyunlarda iştirakın nəticələri və s. Yalnız müəllim tərəfindən aparıldıqda və ya tələbələrin iştirakı ilə kollektiv şəkildə təşkil edilə bilər.

Təsvir – bu, öyrənilən hərəkətin xüsusiyyətlərinin ətraflı görüntüsüdür və tətbiq olunduqda nə etmək olduğunu deyir, amma niyə belə etmək lazım olduğunu göstərmir.

Xüsusiyyət – bu, hərəkətin ən mühüm əlamətlərinin ümumiləşdirilmiş sadalanmasıdır. Öyrənilən hərəkətin tam və dəqiq təsvirin verilməsinin mənası olmadığı hallarda istifadə olunur. "Bunu necə etmək olar?" sualına cavab verir: məsələn, hərəkətləri rəvan, enerjili, yavaş, təbii və s. icra etmək.

İzahat yerinə yetirilən hərəkətlərin əsas nümunələrinin açıqlanmasını nəzərdə tutur. Bu metodun əsas xüsusiyyəti müzakirə olunan məsələnin nəzəri sübutudur (hərəkət probleminin həlli üçün təklif olunan metodun effektivliyi, təklif olunan təlim tapşırığı və s.). İzahat prosesində şagirdlər tərəfindən öyrənilən tədris materialının dərindən başa düşülməsi təmin edilir, onlar fəal zehni fəaliyyətə həvəsləndirilir və iki vacib suala cavab verir: "Niyə bu məhz belədir, başqa cür deyil?" və "Bunu niyə edirsiniz?"

İzahat növləri bunlardır:

Müşayiət edən izahatlar – qavrayışı istiqamətləndirmək və dərinləşdirmək, hərəkətlərin müəyyən tərəflərini düzəltmək və ya vurğulamaq üçün müəllimin məşq zamanı iştirak edən şəxslər tərəfindən istifadə etdiyi yığcam şərhlər və qeydlər;

Təlimatlandırma – öyrənilən hərəkətlərin texnikası, təlim tapşırıqları, hərəkətlərin, onların həyata keçirilməsi qaydalarının dəqiq icrası və s.

Tədris fəaliyyətinin nəticələrini qiymətləndirmək və stimullaşdırmaq üçün məlumatı ötürərkən, qəbul və təhlil edərkən şifahi qiymətləndirmənin müxtəlif formalarından geniş istifadə olunur: dəyər mühakimələri ("doğru", "yaxşı"), bal və ya ballarda şifahi qiymətləndirmə, həmçinin şifahi özünü hesabatlar, tələbələrin özünü qiymətləndirməsi, təsdiqləmə, tələbələrin müəllim tərəfindən tərifləmələri.

Qarşıdan gələn hərəkətverici fəaliyyətin və ya onların fərdi aspektlərinin ümumi mənzərəsini yaratmaq üçün özünüinandırmaq üsulundan geniş istifadə olunur. Bunun mahiyyəti ondan ibarətdir ki, gimnastikada tullanma və ya ağır atletikada birdən qaldırmanı etməzdən əvvəl şagird bu məşqləri yerinə yetirir. İcra edəcəyi hərəkətin texnikasını bilərəkdən zehni olaraq yenidən yaradır. Yerinə yetirilən elementləri, hərəkətləri ucadan tələffüz etməklə, "özündə" – daxili nitqin vacib xüsusiyyətlərini vurğulamaqla zehni icrasını müşayiət edir.

Hərəkətlərin zehni icrasına **ideomotor təlim** deyilir.

"İdeomotor məşq – şüurən, dəfələrlə düşünərək, hərəkət fəaliyyətinin (təqlid etmə, yerinə yetirmə) təsvirlərini tam izahları ilə, əzələ və zaman hissiyatı və məkanı dəqiqliklə təyin etməklə "ideal şəkildə" yaradılmasıdır" [3, s.313].

Müəyyən edilmişdir ki, bu üsul hərəkətlərin mənimsənilməsini sürətləndirir, təlimin keyfiyyətini artırır. Hərəkətləri praktiki olaraq yerinə yetirmək mümkün olmadıqda onlar uzaq səfər, xəstəlik, zədələnmə hallarında böyük əhəmiyyət kəsb edir. Bu şərtlərdə onların zehni həyata keçirilməsi hərəki bacarıqlarının sürətli bərpasına və hətta təkmilləşdirilməsinə kömək edir.

Hərəkətləri yerinə yetirərkən daxili nitqin istifadəsinə əsaslanan bütün üsullar adətən şifahi özünütənzimləmə üsulları adlanır. Onlar çox müxtəlifdir. Öyrənmə hərəkətləri zamanı hərəki fəaliyyətin tənzimlənməsi öz-özünə əmr, özünü inandırma, özünü təqlinetmə və s. köməyi ilə həyata keçirilə bilər. Məsələn, öz-özünə əmr metodu əmr sözlərini özünə tələffüz etməyi nəzərdə tutur, məsələn, "daha güclü", "daha yüksək", "daha enerjili" və s. Daxili nitqin hərəkətləri özünü tənzimləməsinə aid olan hərəkətlərin öyrədilməsi prosesinin intellektuallaşdırılmasına kömək edir.

Dərsliklər, kitablar, tədris kartları, proqramlaşdırılmış dərs vəsaitləri ilə işləmək yolu ilə çap məlumatlarının ötürülməsi və mənimsənilməsi ilə bağlı metodlar qrupu məşğul olanların idrak marağını və fəaliyyətini stimullaşdırmaq, onların idman avadanlığı və texniki təlim metodları sahəsində biliklərini dərinləşdirmək üçün istifadə olunur.

Bu metodlardan, əsasən, cəlb olunanların idrak marağının, fəallığının stimullaşdırılması, onların idman avadanlığı, texniki məşq üsulları sahəsində biliklərinin dərinləşdirilməsi üçün istifadə olunur. Onlar hansısa idman növündə hakimliyin qaydaları və xüsusiyyətləri, yarışların keçirilməsi şərtləri, bu şəraitdə bu və ya digər texnikadan səmərəli istifadə imkanları haqqında daha dolğun və etibarlı biliklər əldə etməyə imkan verir.

Biliklərin mənimsənilməsi və istifadəsi metodları, əsas orqanlar vasitəsilə informasiyanın qavranılması və qəbulu üzərində qurulur (birinci metod qrupu).

Burada görmə, kinestezik analizator, vestibulyar analizator, eşitmə və digər hiss orqanları mühüm rol oynayır. Hisslər və qavrayışlar – bu, hərəkətin duyulan obrazıdır. Onlar təsəvvür və ya ikincidərəcəli "hiss olunan" obrazlardan əvvəl gəlir. Təsəvvürlər şüurda yalnız artıq formalaşmış duyğuların əsasında yarana bilər. Duyğular birbaşa qıcıqlandırıcılardan və insanın praktik fəaliyyətindən daha əvvəl formalaşmış, çox vaxt avtomatlaşdırılmış hiss komplekslərinin köməyi ilə qavranılır. Məsələn, bir hərəkətin icrası zamanı hisslərin mürəkkəb kompleksləri yaranır: görmə, toxunma, əzələ-güc hissiyatı və s. Tətbiq edilən bu metodlar

məşğul olanların emosional hal vəziyyətini artırır, diqqəti aktivləşdirir, hərəkətlərinə tənqidi yanaşmanı, texniki xüsusiyyətlərin təhlilini, hərəkətin mənasını və quruluşunu anlamağa kömək edir.

Duyulan obrazı və onun struktur komponentləri (eşitmə, görmə, qavrayışlar və digər təsvir formaları) hərəkət bacarıqlarının formalaşması üçün əsas rol oynayır. Bu, iki amil qrupunun təsiri ilə formalaşa bilər. Birinci qrup öyrəniləcək informasiya mənbəyinin yerləşməsi ilə bağlıdır. Bu məlumat öyrənənə kənardan verilir və "kənar" icrayə aiddir. Bu yanaşma hərəkət barədə təsəvvürləri doğurur və buna ekzogen adı verilir, yəni xarici mənbədən gələn.

İkinci qrup faktor isə hərəkətin icrası ilə bağlı daxili hisslərin təsiri ilə əlaqəlidir.

Bu faktorlara endogen deyilir, yəni daxili mənşəlidir. Hərəkət hissiyatı bu zaman birbaşa hərəkətin özündə formalaşır. Ona görə də ekzogen və endogen metodlar seçilir.

Birinci halda tətbiq olunan ekzogen metodlara bunlar daxildir: təbii nümunə göstərmək, məşqin icrasını müşahiət etmək, film, video və şəkillərdən istifadə, şifahi təsvirlər, kino və diafilmlər, planlar, sxemlər, hərəkətin mərhələləri və istiqamətlərin göstərilməsi və s.

İkinci halda, hərəkətin hiss olunmasına yönəlmiş metodlardan istifadə olunur. Son zamanlar bu sahədə xüsusi texniki vasitələr yaradılır ki, bu da hərəkətin tələb olunan parametrlərini məcburi şəkildə hiss etdirməyə imkan verir.

İşin elmi nəticəsi. Yüksək dərəcəli idmançıların hazırlanmasında onların məşq sisteminin təkmilləşdirilməsində təlim metodları mühüm əhəmiyyət kəsb edir. Bilik, bacarıq və vərdişlər də məhz təlim prosesində yaranır. Bu isə təlim metodlarının əsas səciyyəvi xüsusiyyətlərini, konkret məzmunun mənimsənilməsi qanunauyğunluqlarını müəyyənləşdirir.

İşin elmi yeniliyi. Məqalədə qaldırılan problem bir çox tanınmış alimlər tərəfindən tədqiq olunsa da onun bizdə təlim-tədris prosesinin təkmilləşdirlməsi və idman məşqinin nəzəriyyəsi və metodikası baxımından tədqiqi ilk dəfədir ki, araşdırılır.

İşin tətbiqi əhəmiyyəti. Məqalədə tədqiq olunan mövzu, yəni idmançıların tədris fəaliyyətinin təşkilini təmin edən vasitələr sistemi olan təlim metodlarının mahiyyətini müəyyənləşdirir. Metodların seçilməsinə və səmərəli tətbiq edilməsinə məşqçinin özünün elmi-metodiki cəhətdən hazırlıq səviyyəsi də əhəmiyyətli dərəcədə təsir göstərir.

Ədəbiyyat

1. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası.Magistratura pilləsi üçün dərslik. – Bakı: Nurlan, – 2007, – 568 s.
2. Səmədov Y.B. Fiziki hərəkətlərin təsnifatı // Humanitar elmlərin öyrəniməsinin aktual poblemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. – Bakı: Mütərcim, – 2023. №1, – s. 328-331.
3. Səmədov Y.B., Qəhrəmanova Z.İ., Cəfərova A.K. Güllə atıcılığında ideomotor hazırlığın metodikasına dair // Humanitar elmlərin öyrəniməsinin aktual poblemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. – Bakı: Mütərcim, 2024, № 1 – s. 313-316
4. Talıbov Y.R., Ağayev Ə.A., İsayev İ.N., Eminov A.İ. Pedaqogika. Ali pedaqoji məktəblər üçün dərs vəsaiti. – Bakı: Maarif, – 1993, – 292 s.

Y.B.Samadov

Modern Views on the Classification of Methods

Summary

Improving the training system for athletes and the classification of training methods from the perspective of sports theory and methodology is of great importance.

In this regard, the article several major method classification: those aimed at accumulating knowledge, developing motor skills and mastering habits, and those aimed at improving physical qualities. The classification methods mainly focus on the development of physical abilities. The methods aimed at gaining knowledge are particularly important in terms of forming the content of physical abilities. The methods aimed at gaining knowledge are particularly important in terms of

forming the content of physical education as a subject in education. Here, the choice of a specific method and its practical application depend on a number of factors and conditions. The article presents modern views on the classification of methods within the context of improving the athlete training system and analyzes these from both theoretical and practical standpoints.

Key words: *classification of methods, motor skills, training, process, knowledge*

Я.Б.Самедов

Современные взгляды на классификацию методов

Резюме

Совершенствование системы подготовки спортсменов и классификация методов обучения с точки зрения теории и методики физического воспитания имеют важное значение.

В связи с этим в статье рассматриваются основные группы методов: направленные на накопление знаний, развитие двигательных навыков и усвоение умений, а также методы, ориентированные на развитие физических качеств. В частности, внимание уделяется классификационным методам, способствующим развитию физических способностей. Методы, направленные на получение знаний, особенно важны в формировании содержания физического воспитания. Выбор конкретного метода и его практическое применение зависят от ряда факторов и условий. В статье изложены современные взгляды на методы в контексте овершенствования системы подготовки спортсменов, а также представлены теоретический и практический анализ.

Ключевые слова: *классификация методов, двигательные навыки, учебный процесс, знания*

Rəyçi: prof. S.A.Əliyev

Redaksiyaya daxil olub: 25.05.2025

Z.S.SULTANOVA
baş müəllim
e-mail: zemfirasultanova52@mail.ru
:https://orcid.org/0009-0000-3964-9788

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

İŞ PROSESİNDƏ MUSİQİ ƏSƏRİ ÜZƏRİNDƏ İSTİFADƏ OLUNAN METODLAR

Xülasə. *Musiqi haqqında biliklərin sistemli şəkildə mənimsənilməsi, vərdiş və bacarıqların formalaşdırılması, ilk növbədə, uşaqların emosional həssaslığını və musiqiyə marağını inkişaf etdirməyə yönəldilməlidir. Musiqinin tədrisinə maraq problemi xüsusi əhəmiyyət kəsb edir ki, bu da ümumi pedaqogikanın əsas problemlərindən biridir.*

Açar sözlər: *mədəniyyət, musiqi, inkişaf, incəsənət, psixologiya*

Pedaqoji metod peşə fəaliyyəti üçün vacib olan, müəllimdən şagirdə bilik, bacarıq və vərdişlərin verilməsinə kömək edən üsullar kompleksidir.

Bu məqsədə nail olmaq üçün tələbəni geniş şəkildə ifaçılıq problemləri ilə: əsərin mənasını, obrazlı məzmununu, onların musiqi dramaturgiyasını dərk etməsinə aid olan ən ümumi problemlərdən konkret problemlərə qədər applikaturanın, səsçıxarmanın və s. lazımi üsulların tanılması ilə tanış etmək lazımdır.

Musiqi əsərinin üzərində işə başlamazdan əvvəl bəstəkarın fikrini, ideyasını, musiqinin inkişafı prosesini, ifaçılıq vəzifələrini dərk etmək lazımdır. Müəllim musiqinin mahiyyətinə, onun məzmununa düşünülmüş analitik yanaşma ilə əsaslandırılmamış ifanı rədd etməlidir.

Əsərin öyrənilməsi, onun ifasına yiyələnmələr mürəkkəb prosesdir. Bir çox musiqiçilərin fikrincə, bu proses bir neçə mərhələdən ibarətdir.

Yeni əsərin öyrənilməsinə başlayarkən, müəllim tələbəyə bu pyesdən ilk təsir almağa imkan yaratmalıdır.

Bu mərhələdə hər şeyi təfsilatı ilə göstərmək vacibdir. Çalma qəsdən qabarıq, hətta demək olar ki, "kobud" olur.

Tədricən tələbə əsərin mahiyyətini, onun mənasını, obraz quruluşunu daha dərindən hiss edir: qulaqlar və əllər materiala yiyələnir, çalğı dəqiqləşir. Lakin, bunların hamısı hələ eskizlərdir.

Sonra o biri mərhələ başlanır. Bu mərhələdə tələbə əsəri bütövlüklə qavramalı, formanın birliyini hiss etməlidir. Bundan sonra əsərin möhkəm yadda qalması üçün müəyyən vaxt tələb olunur.

Əsər üzərində işə başlayarkən, tələbəni sırf musiqi ünsürlərinin ətraflı təhlili vasitəsilə əsərin bədii məzmununu aşkar etməyə öyrətmək lazımdır.

Müəllif mətnini əlində tutub və onun bütün detallarını nəzərə alıb, müəllim tələbə ilə birlikdə xüsusi obrazlar qammasını yaradır. Lakin o, tələbəyə öz təsəvvürlərini zorla qəbul etdirməməli, hiss edilmədən tələbənin fikrini istiqamətləndirməli, onun yaradıcılıq xəyalını oyatmalı, "quru notları" canlandırmağa kömək etməlidir.

Əgər əsəri öyrənəndə tələbənin təsəvvüründə həyati situasiyalar, insanların siması yaranırsa, şerlər və incəsənətin digər növlərinin əsərləri onun yadına düşürsə, bu, çox yaxşıdır və bunlar bütün ifaya müəyyən emosional qüvvə verir [3, s. 35].

Pyes üzərində işin bu birinci mərhələsi əsərin düzgün qavranılmasında ən məsuliyyətli mərhələdir.

İntonasiya ilə əsəri oxuduqda musiqi materialının şərh etmə üsulunu, yəni onun fakturasını, öyrəndikdə bizdə həmin əsərin obrazı yaranır. Obraz səs məsələsini həll edir.

Hər müəllimin başlıca tələbi notlarda göstərilənlərin qüsursuz yerinə yetirilməsindən ibarət olmalıdır.

Musiqinin məğzinin dərindən öyrənilməsi əsərdə bütün hadisələr arasında olan dialektik vəhdəti araşdırmağa imkan verir.

Düzgün frazirovkaya, intonasiyaya, müvafiq artikulyasiyaya, dinamikaya və texniki üsullara əsaslanaraq, biz əsərin dramaturgiyasını açmaq imkanına malik oluruq.

Beləliklə, əsərin fakturasının öyrənilməsi əsər üzərində işin pedaqoji metodlarından biridir.

Tələbənin not mətninin üzərində alətsiz, yalnız daxili eşitmə qabiliyyəti vasitəsilə işləməyi öyrətmək çox vacibdir. Bu nə üçündür?

Məşğələlər bu üsulla keçirildikdə tələbə ideal, nümunəvi səslənmə eşidir, pis götürülmüş səslər isə onu yayındırmır. Buna görə də tələbədə onun daxili eşitmə qabiliyyətinin tərbiyəsi və inkişafı işinə çox yer verilməlidir. Tələbə hər şeyi eşitməlidir. İfaçının özü musiqidə nə qədər çox eşidirsə, onun ifası o qədər zəngin olar.

Öyrənilən əsəri əvvəlcə epizodlara bölmək olar. Bu epizodların ölçüsü musiqi məğzinin quruluşu xüsusiyyətləri ilə müəyyən olunur. Epizodlardan hər biri fikrin, hissin müəyyən halını ifadə etməlidir.

Bundan sonra ən çətin mərhələ başlanır – işlənilmiş epizodların hamısını birləşdirmək.

Yalnız asta tempdə müfəssəl öyrənmək olar və bu, işin bütün mərhələlərində çox faydalıdır. Tələbə asta tempdə intonasiyanı eşidə bilir. Hər səslənmənin qüvvəsi və tembrinə nəzarət edir. Ahəngdar və polifonik incəlikləri eşidir.

Hər bir musiqi materialının ifadəsinin mənasını dərk etməyə öyrənən, notlara baxıb və səslənməyə yaxşı qulaq asıb, onu açа bilən tələbə əsərin üslubunu mənimsəmək üçün açar tapır və gələcək işdə müstəqillik kimi çox qiymətli keyfiyyət əldə edir.

Əsərin düzgün oxunmasında ibarəetmə mühüm yer tutur. Müəllim tələbəni öyrənilən əsərdə dəqiq intonasiyaları, yəni inandırıcı səslənməni tapmağa öyrətməlidir.

Beləliklə, musiqi əsərinin dəqiq öyrənilməsi tələbənin təsəvvüründə həmin pyesin düzgün səslənməsini formalaşdırır.

Səs təsəvvürləri real səslənmədə təcəssüm olunmalıdır və məhz təsəvvürlər onların reallaşdırma yollarını göstərir.

Bu mərhələdə tələbə fortepyano səsi üzərində işləməlidir.

Səs üzərində iş adi proses deyildir. O, musiqiçidən böyük emosional və eşitmə gərginliyi tələb edir. Tələbələrə səsin davamını, ardını eşitmək vərdişini aşılamaq vacibdir. Dəfələrlə qeyd etmək lazım gəlir ki, səslənmənin keyfiyyəti əsərin üslubu və xarakterindən asılıdır. Məsələn, Çaykovski və Raxmaninovun üslubu geniş ahəngdarlıq və bir çox müxtəlif tədris üsullarını tələb edir.

Pianoçunun səs palitrasının zənginliyi onun müxtəlif səsçıxarma üsullarını mənimsəməsindən asılıdır. Burada səsin axtarışı texnika üzərində işlə bilavasitə bağlı olur. Biri o birisindən ayrılmazdır: müvafiq texniki üsuldan kənar axtarılan səslənmə əmələ gəlir, onu da demək lazımdır ki, səs vəzifələri ilə bağlı olmayan texniki məşqlərin faydası azdır [4, s. 65].

Spesifik fortepiano üsulu çalma hərəkətidir. Bunun vasitəsilə pianoçu ən asan, az əlverişli yolla faktura çətinliklərinin öhdəsindən gəlir və lazım olan bədii nəticələrə nail olur.

Tələbə ilə işləyərkən, ona şərait yaratmaq lazımdır ki, o, rahat çala bilsin. Əzələ sıxması olmasın deyə, oturuşda dayaq hiss etməyi öyrətmək lazımdır.

Pianoçuda düzgün səsləri axtarıb tapmaq həvəsini oyatmaq üçün müxtəlif faktura materialı üzərində dəqiq işləməyi öyrətmək lazımdır. Bu isə tələbələrdə musiqiyə xas olan daxili eşitmə qabiliyyəti, qulaqasma dalğınlığı, təhlil və özünə- nəzarət vərdişlərini inkişaf etdirmə sayəsində mümkündür.

Səsçıxarma üsullarının dəqiqliyi ştrixlərlə əlaqədar da böyük əhəmiyyət kəsb edir. Şagirdlər bunları qüsursuz yerinə yetirməlidirlər. Bu cəhətdən Vyana klassiklərinin əsərləri xüsusilə diqqətlə işlənilməlidir.

Liqa, nöqtə, cızıq, liqa altında nöqtə formal xarakter daşımamalı, bədii obrazın aşkar edilməsində bir məqam olmalıdır.

Əsər üzərində texniki işdə applikaturanın böyük əhəmiyyəti vardır.

Əgər tələbə yaxşı "applikatura duyğusu" göstərirsə, müəllim ona öz üsulunu zorla qəbul etdirməməlidir. Lakin bütün hallarda tələbələri applikaturaya ciddi yanaşmağı öyrətmək, onları inandırmaq lazımdır ki, çox vaxt əlverişli applikatura yox, ən məqsədəuyğun və bədii ideyanı daha dərindən açmağa kömək edən applikatura gərək olur.

Pedal haqqında bir neçə söz. Bu, səs üzərində işin mühüm tərkib hissəsidir.

Bir çox tələbələr yalnız ən asan, gecikən pedalı işləyə bilir. Lakin, bundan başqa, musiqinin ahəngdarlıq, melodik, ritmik qanunauyğunluqlarını aşkara çıxarmağa kömək edən bədii, yaradıcı pedal da mövcuddur. Pedal həmçinin bəstəkarın üslubundan asılıdır.

Tələbəyə romantik bəstəkarların musiqisində olan yarımpedal və müxtəlif pedal effektlərindən istifadə etməyi öyrətmək lazımdır.

Həmin vərdişlərə yiyələnmək üçün tələbə öz eşitmə qabiliyyətinin ahəngini inkişaf etdirməlidir.

Müəllim tələbənin müstəqil işləməsinə, onun məhsuldar çalışmasına böyük əhəmiyyət verməlidir. İfaçılıq fikrini müəyyən edərək, tələbənin diqqətini pyesin bütün detallarını vicdanla öyrənməyə cəlb etmək lazımdır [5, s. 15].

Ev işində melodik epizodları cəld, texniki cəhətdən mürəkkəb epizodlarla növbələşdirmək lazımdır. Bu, yorğunluğun qarşısını alır. Bəzi hallarda çalğının nə dərəcədə yaxşı alınması məsələsini aydınlaşdırmaq üçün əsər təbii hərəkətdə çalına bilər. Müvəffəqiyyət tələbənin evdə nə dərəcədə diqqətli işləməsindən asılıdır. Ev işi son dərəcə emosional, mənəvi gərginlik şəraitində keçməlidir. Obrazlı məzmunun gərgin axtarışları və buna uyğun olan musiqi məğzini bütün ünsürlərinin səslənməsi nəticəsində tələbə əsərə o qədər tam yiyələnir ki, texniki planda da çalma son dərəcədə möhkəm, inamlı olur və belə nəticələri heç bir mexaniki əzbərləmə verə bilməz.

Tələbələrdə musiqi təfəkküründü inkişaf etdirmək məsələsi də böyük əhəmiyyət kəsb edir. Müəllim həmişə bunun qayğısını çəkməlidir. Musiqi səslənmədən tələbə onu eşitməlidir. Tələbə iri planda düşünməli, bir neçə ən yüksək nöqtələrin (kulminasiyaların) qarşılıqlı əlaqəsini dəqiq nəzərə almalıdır. Bunsuz formanın tərtibi mümkün deyil.

Nəticədə müəllimlərə demək istərdik: tələbəni öz axtarışlarından azad etməyin, öz şərhinizi hazır şəkildə verməyə çalışmayın. Çalışın ki, tələbə əsəri ifa etdiyi məqamda müəyyən mənada özünü əsərin yaradıcısı kimi hiss etsin.

Bu həddindən artıq çətin pedaqoji vəzifə Q.M.Koqan tərəfindən şərh olunmuş A.Kortonun fikrinə uyğun gəlir: "Bədii ifaçılıq təkcə müəllifin şəxsiyyətini deyil, ifaçının da şəxsiyyətini, onun hisslərini, onun xəyalını əks etdirməlidir".

Estetik hissin inkişafında təbiətin də rolu böyükdür. O, gözəlliyi hiss etməyi fəallaşdırır və təəssüratı zənginləşdirir.

Estetik tərbiyə, musiqiyə məhəbbət hissinin inkişafı ilə sıx bağlıdır. Təbiidir ki, məhəbbət yaxşı musiqiyə, bədii dəyəri olan musiqiyə olmalıdır.

Məqalənin aktuallığı. Musiqi mədəniyyətinin mənimsənilmə prosesində musiqiyə tələbat şəxsiyyətin inkişafı səviyyəsini xarakterizə edir.

Məqalənin elmi yeniliyi. Musiqi müəllimi ixtisasını seçən hər bir kəs musiqi maraqları və yaradıcılıq xüsusiyyətlərini daima təkmilləşdirərək inkişaf etdirilməlidir. Bu sənət cəmiyyətlə, onun mədəniyyəti və ideologiyası ilə sıx bağlı olaraq dəyişir, yeniləşir.

Məqalənin praktik əhəmiyyət və tətbiqi. Musiqi təliminin məqsədinin psixoloji əsaslandırılması şagirdin musiqi təcrübəsinin inkişafına, incəsənətə münasibətin yaranmasına və bütövlükdə şagirdin musiqi aləminə münasibətinə öz müsbət təsirini göstərir.

Ədəbiyyat

1. Гаджибеков У. «Основы азербайджанской народной музыки». – Баку, – 1957, – стр.9
2. Программа по музыке для общеобразовательных школ 1-3 классы. Под редакцией Д.Кабалевского. – Москва, – 1977, – стр.28-29
3. Rəcəbov O., Miriyeva İ. Musiqi və mənəvi tərbiyə. – Bakı: Maarif, – 1995, – s.20
4. Rəcəbov O. Ümumtəhsil məktəblərində musiqi tədrisi metodikası. – Bakı: Şirvan-nəşr, – 2005, – s.80.
5. Артемьева И. Слушание музыки. – Москва, – 1965, – с.180

Z.S.Sultanova

Methods Used in the Process of Working on the Work

Summary

Systematic acquisition of knowledge about music, formation of skills and abilities should be aimed primarily at developing emotional sensitivity, children's interest in music. Of particular importance is the problem of interest in learning music, which is also one of the main problems of general pedagogy.

Key words: *culture, music, development, art, psyhology*

З.С.Султанова

Методы, использованные в процессе работы над произведением

Резюме

Систематическое получение знаний о музыке, формирование умений и навыков должны быть направлены прежде всего на развитие эмоциональной чувствительности, интереса детей к музыке. Особое значение имеет проблема заинтересованности в обучении музыке, которая также является одной из основных проблем общей педагогики.

Ключевые слова: *культура, музыка, развитие, искусство, психология*

Rəyçilər: dos. N.N.Abutidze,
dos. A.A.Hüseynova

Redaksiyaya daxil olub: 06.05.2025

Ə.B.SÜLEYMANOVA
müəllim
e-mail: afasulejmanova@gmail.com
:https://orcid.org/0009-0000-0575-0052

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

UOT kod: 78.06

MUSİQİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN MUSİQİ-ESTETİK ZÖVQÜNÜN İNKİŞAFI

Xülasə. *Məqalə musiqi dərslərində şagirdlərin musiqi-estetik zövqünün inkişafı yollarının göstərilməsinə həsr edilmişdir. Burada qeyd olunur ki, məktəblilərdə estetik zövqün formalaşdırılması şüurlu şəkildə musiqi əsərinin dəyərli tərəfləri və çatışmazlıqları barəsində öz qiymətləndirici fikirlərini əsaslandırmaqdan başlanmalıdır. Burada həmçinin göstərilir ki, musiqi zövqünün inkişafı emosiyalar, hisslər, maraqlar, tələbatlar və qiymətləndirmələr kimi musiqi şüurunun komponentləri ilə sıx bağlıdır.*

Açar sözlər: *estetik tərbiyə, musiqi zövqü, estetik dəyərləndirmə*

Gənc nəslin bədii zövqü, fəal həyat mövqeyi, vətənpərvərlik və vətəndaşlıq hisslərinin tərbiyəsi – bütövlükdə estetik tərbiyə sisteminin vəzifəsidir. Musiqi tərbiyəsi estetik tərbiyənin bir hissəsi olub hərtərəfli harmonik şəxsiyyətin yetişdirilməsi işində böyük rol oynayır. Bu barədə prof. T.Kəngərli belə yazır: "Musiqi tərbiyəsinin məqsədi şagirdlərdə musiqili-estetik şüurun, ... estetik zövqün, tələbatların, meyililiklərin və idealların yaradılmasıdır..." [1, s. 218]. Beləliklə, musiqi tərbiyəsinin qarşıya qoyduğu əsas məsələ – gənc nəslin musiqini estetik baxımdan mənimsəyə bilməsi və onda yüksək bədii musiqi-estetik zövqün aşılanmasıdır.

Müasir təlim-tərbiyə konsepsiyasında gənc nəslin musiqi-estetik zövqünün incəsənət vasitələri ilə tərbiyəsinə böyük əhəmiyyət verilir ki, bu da nəinki insanın estetik mədəniyyətini formalaşdırır, həm də bütövlükdə insan şəxsiyyətinə təsir göstərir. Buna görə də bu gün respublikamızda estetik tərbiyənin şəraitinin, forma və metodlarının səmərəli formalarının axtarışları aparılır.

Cəmiyyətmizin inkişafının müasir mərhələsində hərtərəfli harmonik inkişaf etmiş şəxsiyyətin yetişdirilməsi problemi ön plana çəkilmişdir. Tərbiyə işinə kompleks yanaşma mürəkkəb bir prosesdir ki, burada elmin əsaslarına maksimal yiyələnmə, biliklərin geniş diapazonu və onların tətbiqi, hər hansı bir sahədə yüksək ixtisaslaşma, şəxsi keyfiyyətlərin (məsələn, məqsədyönlülük, motivasiya, maraq və tələbat) inkişafı kimi məsələlərin həlli nəzərdə tutulur.

Məktəblilərin mənəvi tərbiyəsində musiqinin oynadığı rol aydın şəkildə hiss olunur. Musiqi uşaqların şüuruna dərindən nüfuz edərək, onun fəaliyyətinin xarakter və xüsusiyyətlərinə təsir etmək imkanına malikdir. Buna görə də uşaqların musiqi zövqünü korlamamaq üçün onları bayağı musiqidən qorumaq lazımdır. Gözəl, mənalı musiqi uşaqları həyəcandırmaq və şənləndirməklə bərabər onların qarşısında həyat hadisələrinin sosial mahiyyətini açmalı, onları ətraf aləmi ciddi şəkildə müşahidə etməyə vadar etməlidir.

İnsanın estetik zövqü şəxsiyyətin təşəkkülü dövründə uzun illər ərzində formalaşır. Uşağın estetik inkişafına təsir göstərən əsas amillər aşağıdakılardır:

1. Mühitin estetikası – bu problem bəşəriyyətin ən qlobal problemlərindən biri olan ətraf mühitin və təbiətin zənginliklərindən rasional istifadəsi məsələləri ilə bağlıdır.

2. Məişətin estetikası – bu əşyaların gözəlliyinin, harmoniyasının hissiyatıdır, onların məqsədəuyğun istifadəsi və məişətdə əndazalı yerləşdirilməsidir.

3. Davranışın və xarici görünüşün estetikası.

Musiqi müəlliminin işinin əsas və vacib hissəsini şagirdlərdə gözəl, incə estetik zövqün tərbiyəsi təşkil edir. Hər şeydən əvvəl müəllim özü yüksək estetik mədəniyyətə, artistizm, yumor hissinə malik olmalıdır. O öz mənəvi təcrübəsini şagirdlərinə ötürməyi bacarmalıdır və öz davranışında inandırıcı və əzmli olmalı, özünü əldə saxlamağı və gərginliyi aradan qaldırmağı bacarmalıdır.

Musiqi tərbiyəsinin qarşıya qoyduğu əsas məsələ – gənc nəslin musiqini estetik baxımdan mənimsəyə bilməsi və onda yüksək bədii musiqi-estetik zövqün aşılanmasıdır. Bəs musiqi-estetik zövq nə deməkdir?

Gözəlliyi qavraya bilən insanın formalaşdırılması problemləri həmişə müxtəlif elm məktəblərinin və istiqamətlərin diqqəti mərkəzində olmuşdur. Qədim alimlər öz traktatlarında estetik şüurun və zövqün rasional və cismani tərəflərinin mütənasibliyi barəsində danışırdılar. Onlar zövqün ilkin emosional, duyğulu reaksiyaları və sonradan əlavə olan rasional, məntiqi mülahizələrini ayırd edirdilər.

Estetika elminə dair lüğətlərdə biz "estetik zövq" kateqoriyasının tərifini görürük: estetik zövq – insanın həzz almaq və ya almamaq qabiliyyətidir ("xoşlanıram" və ya "xoşlanmıram"), müxtəlif estetik obyektləri diferensial qavramaq, gerçəklikdə və incəsənətdə "gözəlliyi" eybəcərlikdən fərqləndirmək, estetik və qeyri-estetik məhfumları ayırd etmək, hadisələrdə faciəvi və komik cəhətləri aşkar etmək bacarığıdır. Bu tərifdən görünür ki, zövqə həmişə xas olan dəyərləndirmənin aksioloji aspekti qnoseoloji aspekt ilə üst-üstə düşür.

Estetik zövq bizim simpatiyaların və antipatiyaların, meyilliklərimizin və rədd etdiklərimizin sistemi olaraq bizim dünyagörüşümüzü, mədəniyyət səviyyəmizi, dünyaya estetik yanaşmamızı əks etdirir. Buna görə də şəxsiyyətin zövqlərində onun şüurunun ideoloji istiqaməti və etiqadı aşkar görünür.

Qeyd etməliyik ki, həmçinin "musiqi zövqü" anlayışı da mövcuddur. Musiqi pedaqogikasında "zövq" anlayışı estetika elmindən çox-çox əvvəllər yaranmışdır. Musiqi sənəti idraki dəyərə malik olaraq və özündə ən yaxşını cəmləyərək, insanın zövqünün, şəxsi mədəniyyətinin və bütövlükdə cəmiyyətin mədəniyyətinin formalaşmasına təsir edir. Bundan əlavə, musiqi-estetik zövq musiqi əsərini əks etdirərək o əsərin yaradıcısının ideya istiqaməti ilə əlaqəyə girir və beləliklə, musiqi əsəri dolayısı yolla musiqi-estetik zövqün təşəkkülünə ideoloji təsir göstərir.

Müasir elmi ədəbiyyatda "musiqi-estetik zövq" kateqoriyasına fəlsəfi-sosioloji aspektdən ümuminin və fərdinin, obyektivliyin və subyektivliyin, rasionallığın və emosionallığın vəhdəti kimi baxılır. Pedaqoji və psixoloji baxımdan isə – dinləyicinin musiqi mədəniyyətinin əksi olduğu, formalaşdırıla bilən musiqinin gözəlliyini anlamaq, dəyərləndirmək və həzz almaq qabiliyyəti kimi.

Y.Əliyevin fikrincə, "musiqi zövqü altında musiqinin gözəlliyindən həzz alma, onun məzmunundan həyəcanlanma, musiqi sənətinin nümunələrini qiymətləndirmə, ən dəyərlilərə üstünlük vermə və eybəcərlərindən imtina etmə bacarığı başa düşülür" [2, s.12]. Başqa sözlə desək, musiqi zövqü estetik zövqün xüsusi bir komponentidir.

Beləliklə, musiqi-estetik zövqü altında biz insanların müxtəlif musiqi sənəti hadisələrinə diferensial və adekvat şəkildə reaksiya vermə qabiliyyətini başa düşürük. Bu aşağıdakı amillər vasitəsilə baş verir: sensor (emosiyalar, hiss və duyğular), aksioloji (intuitiv fərziyələr, estetik dəyərləndirmələr) və prioritet (üstün meyilliklər və tələbatlar).

İstənilən hadisənin estetik dəyərini müəyyənləşdirərkən subyekt bununla bir tərəfdən onu tam dəqiq-düzgün öyrənir, digər tərəfdən isə – özü və bütövlükdə cəmiyyət üçün onun əhəmiyyətini düzgün müəyyənləşdirir, bu hadisənin insanlara estetik həzz gətirməsini təstiq edir.

Estetik zövqün strukturunda üç başlanğıc mövcuddur: birincisi – estetik zövq öz mahiyyətinə görə estetik fəaliyyətin və dünyanın estetik şəkildə insan tərəfindən qavranılmasının özünəməxsus bir tənzimləyicisi kimi çıxış edir; ikincisi – zövq kamilliyin və qeyri-mükəm-

məlliyin kriterisi kimi çıxış edir; üçüncüsü – zövq estetik simpatiyalarının, meyilliklərin və antipatiyaların sistemi olaraq estetik tələbatları konkretləşdirir və müəyyənləşdirir. Lakin musiqi-estetik zövq eyni tərkibli anlayış deyil. Çünki musiqi zövqünün emosional və məntiqi tərəfləri bir-biri ilə sıx bağlı və qarşılıqlı əlaqəlidir.

Zövq meyillikləri sosial kontekstdən asılıdır: istənilən bir fərdin zövqü cəmiyyət tərəfindən qəbul edilmiş estetik qiymətləndirməni ifadə edir. Keçmişin bir çox görkəmli musiqişünasalimləri, musiqiçiləri, pedaqoqları və ictimai xadimləri xalqın daha geniş kütlələrini musiqi sənətinin şedevrlərinin mənimsənilməsinə, qavranılmasına cəlb etməyə cəhdlər göstərmişlər, bununla bərabər musiqidə keyfiyyətsiz və aşağı səviyyəli zövqün izharına qarşı çıxış edirdilər.

Musiqi-estetik zövq insanın gözəlliyi idrak etmək qabiliyyətində və incəsənət əsərlərinin dəyərləndirməsində təzahür edir. Özü də bu zaman insanların estetik meyilliklərinin əsası kimi abstrakt, sarsılmaz zövq normalarının mövcudluğu nəzərə alınır. Zövqə hər zaman emosional və rasional komponentlərin qarşılıqlı əlaqəsində baxılmışdır, özü də müxtəlif dövrlərdə bu və ya digər komponent növbə ilə əsas yeri tuturdu. Bir əşya özü-özlüyündə bəyənildikdə zövq estetik emosiyalarda və yaxud zövqün subyektiv və obyektiv mülahizələrində təzahür etməyə qadirdir.

Musiqi zövqünün əsasında uşağın ilkin musiqi meyillikləri durur ki, bunların təzahürü və inkişafı artıq körpəlik dövründə baş verir. Lakin məktəbəqədər dövrdə söhbət yalnız musiqi zövqünün ilkin zəmininin yaradılmasından gedə bilər. Belə ki, bu dövrdə uşaq musiqiyə qarşı emosional-qiymətləndirici münasibəti göstəməyə çalışır. Zövq meyilliklərin inkişafının göstəricisi kimi sevimli əsərlərin mövcud olması və onlar barəsində fikir söyləmə cəhdləri çıxış edir.

Musiqi zövqünün inkişafı musiqi şüurunun komponentləri ilə bağlıdır: emosiyalar, hisslər, maraqlar, tələbatlar və qiymətləndirmələr. Musiqi zövqünün inkişafı – musiqini dinlədikdə və onun qavranılmasından sonra musiqi barəsində emosional-duyğulu obrazların şüurda yaranması prosesidir. Həmçinin təsəvvürləri nəinki musiqinin səslənməsi anında və hətta bir qədər ondan sonrakı müddətdə də yaranan emosional qavrama kimi də adlandırmaq olar. Rasional idrak nöqteyi-nəzərindən musiqi zövqünün əsasında abstrakt təfəkkür durur ki, onu duyğu və hisslərin hüdudlarından kənara çıxarır.

Məktəblilərdə musiqi zövqünün formalaşdırılması şüurlu şəkildə musiqi əsərinin dəyərli tərəfləri və çatışmazlıqları barəsində öz qiymətləndirici fikirlərini əsaslandırmaqdan başlanmalıdır. Şagirdlərin musiqi əsərlərinə qarşı qiymətləndirici mövqeyi onların maraq səviyyələrindən, musiqini dinləmək istəyi və tələbatlarından çox asılıdır. Öz qiymətləndirici mövqeyində uşaq "qiymətləndirmə etalonları"na söykənə bilər: intonasiya təcrübəsindən irəli gələn etalon, emosionallıqla bağlı etalon, estetik mülahizələr etalonu, maddi etalon və s.

Özü də musiqininin qiymətləndirməsinin mövqeyi öz musiqi təəssüratlarının dərk edilməsi prosesində dəyişə bilər. Buna görə də musiqi dərslərində şagirdləri yüksək bədii səviyyəli əsərlərlə tanış etmək lazımdır ki, bununla onlarda yüksək bədii və musiqi zövqünü formalaşdırmış və inkişaf etdirmiş oluruq. Deməli "musiqi-estetik zövqü" anlayışı musiqili-qiymətləndirici münasibət ilə müəyyənləşdirilir ki, bu müxtəlif dövrlərin və üslubların musiqi əsərlərinə qarşı dayanıqlı şəxsi meyilliklərdə özünü büruzə verir.

Kiçik, orta və yuxarı sinif məktəblilərində musiqi zövqünün əsasını qiymətləndirici qavrama, musiqi bilikləri və intonasiya təcrübəsi, həmçinin musiqili-qiymətləndirici fəaliyyət təşkil edir. Həm kiçik, həm orta, həm də yuxarı sinif şagirdlərində musiqi zövqünün strukturunun əsasını aşağıda adları çəkilən komponentlər təşkil edir:

– emosional və intellektual qavramada özünü göstərən maraq;

– dinləmə təcrübəsindən irəli gələn və musiqi-estetik ideala istiqamətlənən bədii cəhətdən əsaslandırılmış seçim;

– zövq meyilliklərini müşayiət edən və həyəcan təcrübəsinin mövcudluğundan xəbər verən musiqi-estetik həzz;

– düşünülmüş mənəvi mövqe və estetik dəyərlərlə xarakterizə olunan zövq meyilliklərin mənəvi istiqamətləndirilməsi.

Zövq təzahürünün əsasını uşağın musiqi meyilliklərinin emosional-estetik və bədii cəhətdən doğruldulmuş ifadəsi təşkil edir. Şagirdlərdə musiqi-estetik idealları barəsində möhkəm və dayanıqlı təsəvvürlərin yaradılması böyüməkdə olan şəxsiyyətin mənəvi, bədii və mədəni inkişafına imkan verir. İnkişaf etmiş musiqi zövqü insanın mədəniyyət səviyyəsinin göstəricisi kimi çıxış edərək, gələcəkdə insanın "yaşam tərzini", onun mənəvi qiymətləndirici istiqaməti sistemini formalaşdırır. Musiqili-zövqlü meyilliklərin məzmunu kimi emosional-müsbət qavramanın və musiqi klassik nümunələrinin adekvat qiymətləndirilməsinin nəticələri çıxış edir ki, bunlar əsaslandırılmış estetik mülahizələrdə ifadə olunur.

Elmi nəticə. Beləliklə, musiqi tərbiyəsinin qarşıya qoyduğu əsas məsələ – gənclərin musiqini estetik cəhətdən mənimsəyə bilməsi və onlarda yüksək bədii zövqün formalaşdırılmasıdır. Uşaqlarda hələ nə həyat təcrübəsi, nə də estetik zövq mövcud olmadığına və onlar incəsənətin həyatla əlaqəsini daha bəsit, daha primitiv şəkildə qəbul etdiyinə görə onların düzgün şəkildə istiqamətləndiriməsi, yüksək ideallara yiyələnə bilməsi işi olduqca vacib sayılır. Halhazırda bu iş vacib sosial problem kimi dəyərləndirilir.

Elmi yenilik. Məqalədə qeyd olunur ki, ümumtəhsil məktəblərdə kütləvi musiqi tərbiyəsinin əsas məqsədi, təkcə musiqinin öyrənilməsi deyil, onun vasitəsilə dühalana bilməsi və ən başlıcası da mənəviyyata yiyələnmədən ibarətdir.

Tətbiqi əhəmiyyəti. Məqalədə verilən tövsiyələrdən istifadə edərək, qabaqcıl müəllimlər ənənəvi və innovasiyalı metodları birləşdirib yaxşı nailiyyətlər əldə edə bilərlər.

Ədəbiyyat

1. Кенгерлинская, Т. Интегративный принцип построения системы специальной педагогической и исполнительской подготовки студентов / Т.Кенгерлинская, – Баку, – 2007, – 307 с.
2. Алиев, Ю.Б. Настольная книга школьного учителя-музыканта / Ю.Б.Алиев, – Москва, – 2000, – 336 с.
2. Qədimova, J. Musiqinin tədrisi metodikası / J.Qədimova, – Bakı, –2007, –323 c.

A.B.Suleimanova

Development of Musical and Aesthetic Taste of Students in Music Lessons

Summary

The article is devoted to indicating the ways of developing the musical and aesthetic taste of students in music lessons. It is noted that the formation of aesthetic taste in schoolchildren should begin with a conscious justification of their evaluative judgments about the valuable aspects and shortcomings of a piece of music. This also shows that the development of musical taste is closely related to such components of musical consciousness as emotions, feelings, interests, needs and evaluations.

Key words: *aesthetic education, musical taste, aesthetic evaluation*

А.Б.Сулейманова

Развитие музыкально-эстетического вкуса учащихся на уроках музыки

Резюме

Статья посвящена указанию путей развития музыкально-эстетического вкуса учащихся на уроках музыки. При этом отмечается, что формирование эстетического вкуса у школьников должно начинаться с осознанного обоснования их оценочных суждений о ценных сторонах и недостатках музыкального произведения. Это также показывает, что развитие музыкального вкуса тесно связано с такими компонентами музыкального сознания, как эмоции, чувства, интересы, потребности и оценки.

Ключевые слова: *эстетическое воспитание, музыкальный вкус, эстетическое оценивание*

Rəyçi: ped.f.d., dos. M.Əliyeva

Redaksiyaya daxil olub: 27.04.2025

F.T.ŞÜKÜRLÜ
kiçik elmi işçi
e-mail:sh.farida92@yahoo.com
:https://orcid.org/0009-0007-5351-6544

AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
(Bakı şəh., H.Cavid pr., 115)

SOSİAL TƏSİRİN PSİXOLOGİYASI: İNSAN DAVRANIŞLARINA TƏSİR MEXANİZMLƏRİ

Xülasə. *Sosial təsir insanların davranış, düşüncə və emosiyalarını ünsiyyət, müşahidə, təzyiq və ya qrup normalarına uyğunlaşma yolu ilə formalaşdıran prosesdir. Bu təsir müxtəlif formalarda təzahür edir: müraciətlərə cavab olaraq "itaət etmə" (compliance), sosial normalara uyğunluq şəklində "konformizm" (conformity) və birbaşa əmrlərə tabe olma kimi "itaət" (obedience). Bu çərçivədə əsas diqqətimiz konformizmə və fərdləri qrup gözləntilərinə uyğunlaşmağa sövq edən sosial təzyiqlərə yönəlir.*

Açar sözlər: *Sosial təsir, uyğunlaşma, qrup təsiri, itaət, sosial normalar, konformizm, məcburi sosial normlar, təsviri sosial normlar*

Sosial təsir, insanların başqalarının davranışlarına, fikirlərinə və emosiyalarına təsir etməsi prosesidir. Bu təsir, insanlar arasında ünsiyyət, müşahidə, təzyiq və ya sosial qrupların normasına uyğunlaşması nəticəsində ortaya çıxır. Başqalarının aşkar davranışını dəyişdirmək məqsədilə edilən birbaşa cəhdlər adətən "riayət etmək" (və ya riayət etməyi istəmək) olaraq adlandırılır; bunlar, onlara cavab olaraq "Bəli", "Xeyr" və ya "Bəlkə" deyə bilən şəxslərə edilən konkret xahişlərdir. Çox vaxt, başqalarının davranışını dəyişdirmək cəhdləri, müəyyən bir vəziyyətdə hansı davranışın uyğun və ya tələb olunduğunu göstərən qaydaların və göstərişlərin təsirini əhatə edir. Bunlar rəsmi ola bilər, məsələn, sürət hədləri, oyunlar və ya idmanlar üçün qaydalar, geyim qaydaları (əgər hələ də mövcuddursa!); və ya qeyri-rəsmi ola bilər, məsələn, "ictimai yerlərdə yad adamlara baxma" kimi ümumi qayda. Bu cür təsirə "uyğunlaşma" deyilir və sosial həyatın mühüm bir hissəsidir. Nəhayət, dəyişiklik başqalarından verilən birbaşa əmrlər və ya göstərişlərlə itaətlə də həyata keçirilə bilər. Bu mövzuda biz bu sosial təsirin rolunu araşdıracağıq. Sosial təsirin təbiəti və gücü haqqında geniş bir ümumi baxış vermək üçün aşağıdakı addımlarla davam edək. İlk olaraq, sosial psixologiya tərəfindən araşdırılan ilk sosial təsir aspektlərindən biri olduğu üçün uyğunlaşmanı incələyirik, sonra bir qrup tərəfindən qəbul edilən və ya uyğun görülən şəkildə davranmaq üçün tətbiq olunan təzyiqlər [3,s. 57].

Ümumilikdə, biz riayət etməyə keçirik başqalarının davranışını konkret şəkildə dəyişdirmək üçün edilən birbaşa cəhdlər (Cialdini, 2006). Bundan sonra, sosial təsirin ən maraqlı formasını araşdırırıq başqa insanların bizim davranışımıza təsir etmək üçün heç bir birbaşa cəhd etmədikləri halda baş verən təsirlər (məsələn, Fitzsimons & Bargh, 2003). Biz belə təsirləri simvolik sosial təsir adlandırırıq, çünki bu təsir, başqalarının faktiki mövcudluğundan və ya aşkar hərəkətlərindən çox, onlara dair zehni təsəvvürlərimizdən yaranır. Sonra, başqa sosial təsiri: itaət bir şəxsin sadəcə olaraq digərlərinə istədiklərini etməyi əmr etməsi ilə baş verən sosial təsir formalarını açmağa çalışacağıq.

Uyğunlaşma: Fəaliyyətdə qrup təsiri

Uyğunlaşma, insanların sosial qrupların tələblərinə və gözləntilərinə uyğun davranmalarını təmin edən bir sosial təsir formasıdır. İnsanlar, başqalarının davranışlarına uyğunlaşmağa çalışır və bu davranışlar qrup tərəfindən müəyyən edilən "doğru" və "yanlış" normalara əsaslanır. Qrup daxilində fərdlərin, başqalarının gözləntilərinə uyğun davranmaq məqsədilə öz davranışlarını dəyişdirmələri və ya qrup dinamikaları və sosial təzyiqlər nəticəsində uyğunlaş-

maları bir çox vəziyyətlərdə baş verir. Məsələn, dərs zamanı telefonu zəng çalan tələbə dərhal telefonu söndürür və sinif yoldaşlarından üzr istəyir. Eyni şəkildə, yolda təcili yardım maşını səsini eşidəndə, sürücü maşını sağa çəkib yol verir. Bu cür hallarda, normaların daha aydın olduğu vəziyyətlərdə insanların uyğunlaşması daha çox müşahidə olunur. Sosial normalar həm rəsmi, həm də qeyri-rəsmi şəkildə mövcud ola bilər. Rəsmi normalar yazılı qanunlar, qaydalar və yönergələrlə müəyyən edilir. Məsələn, yol hərəkəti qaydaları, hökumət konstitusiyaları, idman oyunlarının qaydaları və ictimai yerlərdə tətbiq olunan davranış qaydaları (məsələn, "Sıra təşkil edin", "Avtomobil park etmək qadağandır") rəsmi normalara misaldır. Lakin qeyri-rəsmi qaydalar daha az aydın və daha çox sosial təcrübələrə əsaslanır, məsələn, konsert zamanı səs-küy salmamaq və ya restoranlarda xidmətçiyə bəxşiş qoymaq kimi. Bu qeyri-rəsmi qaydalar, insanların ümumi sosial təcrübələrinə və mədəniyyətə əsaslanaraq qəbul edilir. Məsələn, demək olar ki, hər kəs idman tədbirlərində milli himn çalındıqda ayağa qalxır və ya restoranlarda bəxşiş qoyur, çünki bu, güclü sosial normalar və gözləntilər tərəfindən təzyiqə çevrilir [7, s. 89]. Bu uyğunlaşma meyli, bir çox hallarda insanların şəxsi azadlıqlarını məhdudlaşdıra bilər. Lakin uyğunlaşmanın faydalı tərəfi də var: sosial qaydalara əməl etməmək sosial xaosa və nizam-intizamsızlığa səbəb ola bilər. Məsələn, əgər insanlar "növbəni gözləyin" normalarına əməl etməsələr, kinoteatrlar, stadionlar və supermarketlərdə böyük qarışıqlıqlar yaranar. Həmçinin, yol hərəkəti qaydalarının pozulması sürücülər və piyadalar üçün ciddi təhlükələr yarada bilər. Beləliklə, uyğunlaşma sosial nizamın qorunması və insanların təhlükəsizliyinin təmin edilməsi üçün mühüm rol oynayır.

Bundan başqa, insanların uyğunlaşmasının bir digər səbəbi də başqalarına yaxşı görünmək və müsbət təəssürat yaratmaqdır. Bu, xüsusilə iş mühitində özünü göstərir. Bir çox işçi, şirkətin dəyərlərinə tam uyğun olmasalar da, karyeralarını irəlilətmək və ya yaxşı tövsiyə almaq məqsədilə həmin dəyərlərə uyğun davranmağa çalışır. Bu halda insanlar öz şəxsi dəyərlərini gizlədərək və ya əslində inanmadıqları fikirləri ifadə edərək uyğunlaşa bilərlər. Məsələn, bir işçi şirkətin siyasi və sosial dəyərləri ilə razı olmadığı halda, özünü həmin dəyərlərlə uyğun göstərir ki, karyerasında irəliləyiş əldə etsin və ya rəhbərlik tərəfindən müsbət qiymətləndirilsin. Bu tip uyğunlaşma, özünü təqdim etmə taktikasının bir növüdür və işçilər öz şəxsi maraqlarını daha çox qorumağa çalışırlar [4,s.93]. Nəticədə, uyğunlaşma həm sosial qaydalara, həm də fərdi məqsədlərə uyğun davranmağımıza təsir edən güclü bir vasitədir. İnsanlar müxtəlif sosial təzyiqlər, qrup normativləri və şəxsi maraqlarına əsaslanaraq davranışlarını dəyişdirirlər. Bu həm sosial harmoniyanın qorunmasına, həm də fərdi maraqların və məqsədlərin əldə edilməsinə kömək edir.

Konformizm və introspeksiya illüziyası

Konformizm gündəlik sosial həyatın ayrılmaz hissəsidir. İnsanlar dostları və ailə üzvləri ilə oxşar geyim tərzini seçir, eyni musiqiləri dinləyir və bənzər mədəni məhsullara maraq göstərirlər. Sosial uyğunluq, fərdlərə qrup daxilində rahatlıq və qəbul hissi qazandırır. Bununla belə, insanlar adətən öz konform davranışlarını yetərincə qəbul etmirlər və başqaları ilə müqayisədə daha müstəqil olduqlarını düşünürlər. Bu illüziya konformizmin çox vaxt şüuraltı şəkildə baş verdiyini göstərir. Fərdlər davranışlarının motivasiyalarını introspektiv olaraq qiymətləndirərkən, sosial təsirin rolunu azaldır və daha çox müstəqil qərar verdiklərinə inanırlar. Lakin real vəziyyətlərdə, xüsusilə qeyri-müəyyənlik və ya qrup təzyiqi hallarında, insanlar çox zaman sosial uyğunlaşmaya meyillidirlər (Asch, 1951; Deutsch & Gerard, 1955). Bu o deməkdir ki, insanlar özlərini az təsirlənən kimi görsələr də, reallıqda sosial təsir onların davranışlarını ciddi şəkildə formalaşdırır. Pronin, Berger və Molouki (2007) bu fenomeni araşdıraraq müəyyən etmişlər ki, fərdlər sosial təsirin öz davranışlarına təsirini az qiymətləndirirlər. Bunun əsas səbəbi, insanların öz davranışlarını izah edərkən daxili motivasiyalara (məsələn, şəxsi zövq və inanclara), başqalarının davranışlarını isə xarici faktorlarla (məsələn, dəbə uymaq) əlaqələndirməyə meyilli olmalarıdır. Bu uyğunsuzluq "**introspeksiya illüziyası**" adlanır və konformizmin çox vaxt qeyri-şüuri baş verməsi ilə izah olunur. İnsanlar tez-tez başqaları-

nın təsirinə düşdüklərinin fərqində olmadan, bu təsirin yalnız digərlərinə aid olduğunu güman edirlər [2, s.68].

Muzafer Sherifin (1937) avtokinetik fenomenlə bağlı araşdırması:

Normalar necə yaranır?

Muzafer Sherif (1937) qeyri-müəyyən vəziyyətlərdə sosial normaların necə formalaşdığını və bu normaların davranışa təsirini araşdırmaq üçün avtokinetik effektdən istifadə etmişdir. Tək olduqda fərdlər işığın hərəkətini müxtəlif qiymətləndirsələr də, qrup halında ortaq bir razılığa gəlmiş və bu razılığı norma kimi qəbul etmişlər. Maraqlıdır ki, bu norma sonradan təklikdə belə davam etmişdir. Sherif-in araşdırması göstərir ki, insanlar qeyri-müəyyənlik şəraitində düzgün qərar vermək və sosial qəbul olunmaq üçün sosial normalara əsaslanırlar. Bu ideyanı Asch-in (1951) konformizm təcrübəsi də dəstəkləmişdir. O göstərmişdir ki, insanlar bəzən açıq-aşkar yanlış olan qrup fikrinə belə uyğunlaşırlar. Daha sonrakı tədqiqatlar (Crutchfield, Deutsch & Gerard, Baron və b.) uyğunlaşma davranışına təsir edən amilləri – şəxsi inam, qrupun ölçüsü, sosial dəstək və mədəni konteksti – müəyyən etmişdir. Nəticə olaraq, sosial təsir və uyğunlaşma həm informasiya ehtiyacından, həm də sosial qəbul arzusundan qaynaqlanaraq insan davranışında mühüm rol oynayır [1, s. 135].

Birlik və uyğunluq: bəyəndiyimizdən təsirlənmək.

Uyğunlaşma meyilimizə təsir edən əsas amillərdən biri qrup birliyidir yəni sosial qrupa nə dərəcədə mənsub olduğumuzu hiss etməyimiz. Qrupa bağlılıq nə qədər güclüdürsə, onun normalarına uyğunlaşma ehtimalımız da bir o qədər artır. İnsanlar qəbul olunmaq və dəyərli sayılmaq istədikləri üçün bu qruplardan fərqlənməməyə çalışırlar. Xüsusilə nüfuzlu və seçici qruplarda üzvlər daha çox uyğunlaşmağa meyillidirlər. Başqalarına bənzəmək də onların razılığını qazanmağın effektiv yoludur. Beləliklə, qrup birliyi və qəbul olunma arzusu uyğunlaşmanı gücləndirir [4,s. 79].

Uyğunluq və qrup ölçüsü: sosial təzyiq baxımından nə daha yaxşıdır.

Sosial təzyiq və uyğunlaşma arasındakı əlaqəni anlamaq üçün qrupun böyüklüyü vacibdir. Araşdırmalar göstərir ki, qrupun sayı artdıqca, uyğunlaşma meyli də artır. Bu, insanların qrupun normlarına uyğun davranma ehtiyacı və qəbul edilmə arzusundan irəli gəlir. Qrup böyüdükcə, fərdlərin sosial bağlarını qorumaq istəyilə uyğunlaşma təzyiqi güclənir. Qrup böyüdükcə, fərdlərin bir-birinə təsir etmə gücü də artır, lakin qrupun ölçüsü müəyyən bir həddə çatdıqda, uyğunlaşma təzyiqi artıq artmır. Asch (1956) və digər tədqiqatçılar qrupun ölçüsünün uyğunlaşmanı təsir etdiyini, lakin bu təsirin 3-4 üzvdən sonra sabitləşdiyini göstərmişdi. Lakin sonrakı tədqiqatlar qrup böyüdükcə uyğunlaşmanın daha da artdığını müəyyən edib. Qısacası, qrup nə qədər böyükdürsə, uyğunlaşma meylimiz də artır.

Təsviri və məcburi sosial normalar: normaların davranışa necə təsir etməsi

Sosial normalar, insanların müəyyən bir qrup və ya cəmiyyətdə necə davranmalı olduqlarını müəyyən edən qaydalardır. Bu normalar iki əsas kateqoriyaya bölünə bilər: **təsviri (descriptive)** və **məcburi (injunctive)** sosial normalar. Hər biri fərqli şəkildə insan davranışına təsir edir [6,s. 137].

Təsviri sosial normalar insanların başqalarının necə davrandığını müşahidə edərək onlara bənzəməyə meyil göstərdiyi davranış formalarıdır. Məsələn, bir qrupda əksəriyyət dostları ilə vaxt keçirirsə, bu, təsviri norma sayılır.

Məcburi sosial normalar isə insanların necə davranmalı olduqlarını göstərir və cəmiyyətin qəbul etdiyi qaydalara əsaslanır. Məsələn, nəzakətli olmaq və yüksək səslə danışmamaq belə normalara aiddir. Bu normalar sosial gözləntilərə uyğun davranışı tələb edir.

Normaların davranışa təsiri:

- **Təsviri normalar** insanların özləri üçün düzgün gördükləri davranışları müəyyən edir. İnsanlar, başqalarının necə davrandığını gördükdə, bu davranışları özləri də mənimsəyir.

• **Məcburi normalar** insanların sosial təzyiq nəticəsində doğru və ya yanlış hesab edilən davranışlara uyğunlaşmalarını təmin edir. İnsanlar, qrup tərəfindən təzyiq altında olduqda və ya cəmiyyətdə qəbul edilməməkdən qorxduqda, bu normalara əməl etməyə çalışırlar [5,s. 120].

Bu normaların hər biri insanları müəyyən sosial standartlara uyğun davranmağa təşviq edir və hər iki növ norma fərqli şəkildə insan davranışlarını idarə edir.

Uyğunluğun sosial əsasları: başqaları kimi olmağı niyə seçirik?

İnsanlar bəzən öz fikirlərini və seçimlərini başqalarının fikirləri ilə uyğunlaşdırmağa meyillidirlər, sosial təzyiqlərə cavab olaraq "başqaları kimi olurlar". Bu davranışda psixoloji, mədəni və sosial amillər rol oynayır. Uyğunluq sosial həyatın əsas bir gerçəyi olaraq qalır, çünki insanlar əksər hallarda qruplarının və cəmiyyətlərinin normalarına uyğunlaşırlar. Bu meylin əsas səbəbləri başqaları tərəfindən bəyənilmək və düzgün olmaq istəyidir. İnsanlar, sosial dünyanı doğru başa düşmək və uyğunlaşma baş verdikdən sonra bunu haqlı hesab etmək üçün koqnitiv proseslərə də əsaslanırlar [6,s. 138].

Sosial uyğunlaşma və onun motivləri: normativ və informativ sosial təsir

İnsanların başqaları tərəfindən bəyənilmək istəyi əsas sosial motivasiyalardan biridir və bu məqsədə çatmağın yollarından biri onlara bənzəməkdir. Bu uyğunlaşma, başqalarının gözləntilərinə cavab vermək ehtiyacından doğan **normativ sosial təsir** adlanır. Digər tərəfdən, insanlar doğru qərarlar vermək üçün də başqalarının davranışlarına uyğunlaşırlar; bu isə **informativ sosial təsir** kimi tanınır və xüsusilə qeyri-müəyyən vəziyyətlərdə təsirlidir. Tədqiqatlar göstərir ki, sosial təsir bəzi hallarda mənfi nəticələr doğura bilsə də, təcili vəziyyətlərdə həyati rol oynaya bilər. Ümumilikdə, sosial təsir insan davranışını formalaşdıran əsas mexanizmlərdəndir.

Elmi işin nəticəsi. Uyğunlaşma, riayət və itaət yalnız sosial normalara uyğun davranışı deyil, həm də qəbul olunmaq və haqlı görünmək kimi insan ehtiyaclarını əks etdirir. Sherif və Aschın təcrübələri göstərir ki, insanlar qeyri-müəyyən şəraitdə sosial təsirə əsaslanaraq qərar verirlər. Sosial normalar gündəlik davranışlarımızın formalaşmasında mühüm rol oynayır. Sosial təsir həm fərdi qərarların, həm də ictimai nizamın formalaşmasına təsir göstərir. Azadlıqlar məhdudlaşa bilsə də, uyğunlaşma sabitlik və birgəyaşayış üçün vacibdir. Gələcək araşdırmalar bu təsirin dərinliklərini daha ətraflı öyrənməyə imkan verəcək.

İşin elmi yeniliyi. Bu tədqiqat sosial təsirin fərdi davranışlara təsirini yalnız klassik modellərlə deyil, həm də qəbul olunmaq və haqlı görünmək kimi psixoloji ehtiyaclar kontekstində araşdıraraq mövcud yanaşmalara yeni baxış gətirir. Sherif və Aschın eksperimentləri ilə yanaşı, simvolik sosial təsirə də diqqət yetirilməsi sosial normaların real və qavranılan təsirini ön plana çıxarır. Bu yanaşma sosial uyğunlaşmanın həm davranışsal, həm də psixoloji aspectlərini əhatə etməklə gələcək tədqiqatlar üçün əsaslı istiqamətlər təqdim edir.

İşin tətbiqi əhəmiyyəti və effektivliyi. Bu tədqiqat sosial təsirin insan davranışlarına çoxşaxəli təsirini araşdıraraq psixoloji və sosial elmlər üçün həm nəzəri, həm də praktiki əhəmiyyət daşıyır. Klassik yanaşmalardan fərqli olaraq, burada fərdin qəbul olunmaq ehtiyacı və simvolik sosial təsir kimi psixoloji mexanizmlərə də diqqət yetirilir. Araşdırma sosial normaların gündəlik davranışlara və qərar qəbuletməyə təsirini açıqlayır və sosial nizamın qorunmasında uyğunlaşmanın rolunu göstərir. Eyni zamanda bu nəticələr psixologiya, təhsil, sosial siyasət və media sahələrində tətbiq oluna bilər. Tədqiqat gələcək elmi işlər üçün etibarlı baza yaradır.

Ədəbiyyat

1. Asch, S.E. Effects of Group Pressure upon the Modification and Distortion of Judgment. // *The Journal of Abnormal and Social Psychology*, 51(2), – 2001. – p.227-236.
2. Baron, R.A., & Byrne, D. Social Psychology: Understanding Human Interaction // –Pearson Education. –2008.
3. Cialdini, R.B. Influence: The Psychology of Persuasion / R.B.Cialdini, – Harper Business. – 2006.

4. Hewlin, P.F. Wearing the cloak: Antecedents and consequences of creating facades of conformity // *Journal of Applied Psychology, 94*(3), 727-741. – 2009. https://doi.org/10.1037/a0014772
5. Moscovici, S. Social Influence: A Study of Social Change. – *Blackwell Publishing*. – 2008.
6. Pronin, E., Berger, J., & Molouki, S. Alone in a crowd of sheep: Asymmetric perceptions of conformity and their roots in an introspection illusion. *Journal of Personality and Social Psychology, 92*(4), 585-595. – 2007. https://doi.org/10.1037/0022-3514.92.4.585
7. Stangor, C. Principles of Social Psychology / C.Stangor, – Wadsworth Publishing. – 2010.

F.T.Shukurlu

The Psychology of Social Influence:
Mechanisms of Impact on Human Behavior

Summary

Social influence is the process by which individuals shape the behavior, thoughts, and emotions of others, often through communication, observation, pressure, or adapting to group norms. Direct attempts to alter behavior are known as "compliance," where individuals respond to requests with a "Yes," "No," or "Maybe." Behavior change can also result from adherence to norms, called "conformity," or from following direct orders, known as "obedience." In this context, we explore conformity and the pressures that drive individuals to align with group expectations.

Key words: *Social influence, Adaptation, Group influence, Obedience, Social norms, Conformity Prescriptive social norms, Descriptive social norms*

Ф.Т.Шукурлу

Психология социального влияния:
Механизмы воздействия на поведение человека

Резюме

Социальное влияние – это процесс изменения поведения, мыслей и эмоций под воздействием других людей. Оно проявляется через общение, наблюдение, давление или подчинение нормам. Прямые попытки изменить поведение называют повиновением, а следование нормам конформизмом. Нормы могут быть как официальными, так и неофициальными, и они формируют представление о допустимом поведении. Конформизм играет важную роль в социальной жизни. Для понимания социального влияния важно сначала рассмотреть конформизм и те давления, которые побуждают людей следовать нормам.

Ключевые слова: *социальное влияние, адаптация, групповое влияние, послушание, социальные нормы, конформизм, обязательные социальные нормы, описательные социальные нормы*

Rəyçi: psixo.f.d. G.İsmayılova

Redaksiyaya daxil olub: 12.05.2025

A.Y.TƏHMƏZOVA
müəllim
aynur.tahmazova4@mail.ru
:https://orcid.org/0009-0008-1576-2389

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

XARİCİ DİL DƏRSLƏRİNDƏ İNNOVATİV METODLARIN ROLU VƏ İSTİFADƏSİ

Xülasə. *Xarici dil dərslərində istifadə olunan yeniliklər bu prosesdə daha səmərəli nəticələr əldə etmək üçün əsas vasitə hesab olunur. Bunun üçün aşağıdakı məsələlərə diqqət yetirilməlidir: 1) dil üçün 4 əsas bacarıqların (yazı, oxu, dinləmə və danışma) təkmilləşdirilməsi, onların ən əsas ünsiyyət vasitəsinə çevrilməsi; 2) dərs prosesində interaktivliyin qorunması, müxtəlif iş üsul və formalarından istifadə etməklə şagirdlərin aktiv fəaliyyətinin təmin edilməsi; 3) ənənəvi təlim modelindən fərqli olan şagirdyönümlü təlim modelinin üstünlük təşkil etməsi, 4) müasir texnologiyalardan istifadə etmək bacarığına malik olması diqqət mərkəzində olmalıdır.*

Açar sözlər: *interaktivlik, kurikulum, innovativ metodlar, təlim modelləri, iş üsulları*

Müasir dövr inkişaf dövrü olaraq qiymətləndirilir və bu inkişafı hər bir sahə kimi təhsil də tələb edir. Hazırda təhsil sahəsindəki irəliləyiş interaktiv təlim, müasir innovativ təlim metodlarından istifadə edilməsi ilə müşahidə olunur. Öyrənmə prosesinə bu cür yanaşma ənənəvi təlimdən istifadəni geridə qoyur. Yəni, bizim alışdığımız müəllimyönümlü təlim modeli öyrənənin aktiv fəaliyyətini əsas götürən tələbəyönümlü formaya keçir.

Azərbaycanın təhsil sahəsində baş verən yeniliklərə orta məktəblərdə konseptual sənəd olan kurikulum sisteminə keçirilməsini, virtual məktəb texnologiyalarından istifadə edilməsi, elektron kitabxanalarının yaradılması, formativ və summativ qiymətləndirilmənin həyata keçirilməsi və s. aid edilir. Ali məktəblərdə isə rəsmi şəkildə 2006-2007-ci illərdən Boloniya sisteminə keçid bu yeniliklərə bariz nümunədir. [1]

Xarici dil öyrənmə prosesi üçün interaktivliyin təmin olunması əsas şərtlərdən hesab olunur. Bildiyimiz kimi, xarici dilin ünsiyyət vasitəsi kimi rolu xeyli yüksəlmişdir. Dilin öyrənilməsi prosesində elmi əsaslara deyil, bacarıq və vərdişlərin düzgün şəkildə aşılanması və bunun üçün də kifayət qədər nitq təcrübəsinə yiyələnmək lazımdır. Xarici dil öyrənmə prosesinin əsas məqsədi hədəf dil sistemi ilə tanış etməklə yanaşı, dildən ünsiyyət vasitəsi kimi istifadə etməyi öyrətməkdir. Burada əsas tələb dərslərin bütün strukturu və istifadə olunan metodlar real ünsiyyət situasiyalarına uyğun olmalı və bu təlim dilöyrənənlərin qarşılıqlı əlaqəsinə əsaslanmasıdır.[3]

Respublikamızda xarici dil öyrənmə prosesinin keyfiyyətinin artırılması məqsədilə həyata keçirilən yenilik beynəlxalq standartlara uyğun olan dörd əsas dil bacarığının (dinləmə, oxu, yazı və danışma) əsas hədəfə çevrilməsidir. [1] Dilöyrənmə prosesində bu dörd bacarıqla yanaşı müasir dövrün ən çox tələb olunan bacarıqları hesab edilən informasiya və texnoloji savadlılıq, liderlik, çeviklik, təşəbbüskarlıq, sosiallıq, tənqidi təfəkkür, yaradıcı təfəkkür, ünsiyyət, əməkdaşlıq və s. kimi bacarıqlara yiyələnmək əsas amil olaraq xarici dilin tədrisində innovativlik interaktiv dərs prosesinin təşkil olunmasını şərtləndirir. İnteraktivlik dedikdə, şagirdlərin bir-birilə və ya müəllim ilə qarşılıqlı, aktiv fəaliyyəti nəzərdə tutulur. Bu, özünü müxtəlif interaktiv üsul və formalar olaraq biruzə verir. Dilöyrənmənin daha effektiv şəkildə həyata keçirilməsində istifadə olunan interaktiv üsullara aşağıdakıları aid etmək olar:

- ❖ Debat
- ❖ Sokrat dialoqu

- ❖ Beyin həmləsi
- ❖ BİBÖ (Bilirəm, İstəyirəm Biləm, Öyrəndim)
- ❖ Qızıl dairə (2W, 1H)
- ❖ Rollu oyunlar və s.

Debat üsulu – dil öyrənənlərin danışıq, dinləmə, yazı və oxu bacarıqlarının formalaşması və inkişaf etdirilməsində əvəzsiz rola malikdir. Bu bacarıqlarla yanaşı, onlar sual tərtibetmə, sualvermə, təhliletmə, nəticə çıxarma, ümümiləşdirmə, əsaslandırma, natiqlik məharəti, qərar qəbuletmə kimi bacarıqlara yiyələnmiş olurlar. Müəllimlər öyrənmə prosesini daha maraqlı etmək üçün debatın iki növündən (spontanvə hazırlıqlı debat) də istifadə edirlər.

Rollu oyunlar – daha çox azyaşlı dilöyrənənlər üçün çox əlverişlidir. Belə ki, şagirdlər rollar vasitəsilə ünsiyyət bacarıqlarına yiyələnə bilirlər. Rollar onları bu prosesə daxil olmalarına həvəs yaradır.

Təbii ki, bu interaktiv iş üsullarının uğurlu olmasında müəllimin rolu böyükdür. Ümumiyyətlə, innovativ dərs şəraitdə müəllimin peşəkarlığı əsas məsələ hesab olunur. Hər bir peşəkar müəllim həm dərs prosesinin strukturunu, həm də sinfin nizam-intizam qaydasını və təlim-tərbiyə işlərini mükəmməl şəkildə həyata keçirməyə nail ola bilər. Bunun üçün müəllim bir sıra funksiyaları yerinə yerinə yetirməyə hazır olmalıdır.

Bələdçi müəllim. Bu funksiya şagirdlərin birgə fəaliyyətinə nəzarət etməklə onlarda əməkdaşlıq şəraitində işləməyi və daha çox informasiya əldə etməyi hədəfləyir.

Fasilitator müəllim – dilöyrənənlərə qərar qəbul etmək, dərs prosesində istifadə olunan metodları tətbiq etmək yollarını mənimsətməyə çalışmalıdır. Xarici dil tədris edən müəllim dilöyrənənlərdə bu keyfiyyətləri aşılamazdan əvvəl innovativ metodlar haqqında hərtərəfli anlayışa malik olmalıdır.

Dilöyrənmə prosesində şagirdlər ən fəal tərəf kimi çıxış edirlər. Bu zaman müəllim dərsi yalnız izah etməklə deyil, onları öyrənmənin maraqlı olmasını kəşf etməyə təşviq etməlidir. Jim Scrivener müasir dövrdə ən məşhur və ən çox istifadə olunan üsulları təklif etdi: sözləri şəkillərlə uyğunlaşdırmaq; bu sözlərin mənasını lüğətdə uyğunlaşdırmaq; sözləri tərifllərlə uyğunlaşdırmaq; sözləri qruplara ayırmaq; cümlədə olan boşluqlara sözləri əlavə etmək; mövzunu müzakirə etmək və s. [7]

İnnovativ metodlarla dərsin təşkil edilməsində daha effektiv nəticələr almaq məqsədilə müxtəlif strategiyalardan istifadə edilməsi əsas götürülür. İnnovativ tədris strategiyaları dilöyrənənlərin mənalı şəkildə öyrənməsinə kömək etmək üçün texnologiyadan, praktiki fəaliyyətlərdən və digər materiallardan istifadəni əhatə edən tədris yanaşmalarıdır. Bu strategiyalar şagirdləri dərs prosesinə cəlb etməyə və onların öyrənilməsində fəal şəkildə iştirakına yönəltməyə əsaslanır. Yalnız mühazirələrə və dərsliklərə etibar etmək əvəzinə, bu strategiyalar dilöyrənənlərə təcrübə, müzakirə, tənqidi düşüncə və əməkdaşlıq vasitəsilə müxtəlif mövzuları araşdırmaq imkanı verir.

Strategiyalardan istifadə edilməsi həm müəllim, həm də şagirdlər üçün üstünlükləri özündə ehtiva edir. Fəal öyrənməyə təşviq edən cəlbedici mühit yaratmaqla innovativ tədris strategiyaları dilöyrənənlər üçün daha maraqlı və effektiv öyrənmə mühitində təcrübə qazanmağa kömək edir. Bu strategiyalar tənqidi düşüncəni inkişaf etdirməklə uzunmüddətli yaddaşı gücləndirir və artıq onlarda qarşıya çıxan hər bir problemin həlli yollarını tapmağa sövq edir. Yadda saxlama prosesini təkmilləşdirməklə yanaşı axtarış etmək, eyni zamanda əməkdaşlıq bacarığı vasitəsilə müəllimlər və şagirdlər arasında daha yaxşı əlaqələr qurmağa zəmin yaradır.

Xarici dilin tədrisi prosesində innovativliyə daha çox ehtiyac olmasına baxmayaraq, bu yenilik bir çox hallarda çətinliklər yarada bilir. Hazırda xarici dilin öyrədilməsi prosesi biristiqamətli formada aparılır. Təbii ki, dil öyrədilməsi əvvəlcə, səs və hərflərin, eyni zamanda qaydaların öyrədilməsilə başlayır. Lakin dilöyrənənlər sözləri yazmazdan əvvəl onlardan danışıqda isifadə etməyi və mənasını başa düşməyi bacarmalıdır. Biristiqamətli şəkildə yalnız qaydaların izah edilməsi dilöyrənənlər üçün cansıxıcı görünə və bu səbəbdən də motivasiya-

nın aşağı düşməsinə səbəb ola bilər. Digər tərəfdən, şagirdlərin yaş və bilik səviyyələrini nəzərə almamaqla onlara daha az və ya həddindən artıq yük verməklə dilöyrənmə prosesinə xələl gətirə və dərs keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər. Hazırda bəzi müəllimlər tərəfindən ənənəvi təlimin əsas olaraq istifadə edilməsi də problemlərin həllini ləngidir. Bu metodla tədris edən müəllimin şagirdlərinin interaktiv təlim mühitinə adaptasiyası çox çətin baş verir. Şagirdlərin öyrəndiyi müəllimmərkəzli təlim modelindən şagirdmərkəzli təlim modelinə keçid onlarda məyusluq yarada bilər və bu da təlim nəticələrinə mənfi təsir göstərə bilər.

İnnovativ dərs mühiti müasir texnologiyalardan istifadəni əsas götürür. Bu səbəbdən, xarici dili tədris edən müəllimin bu bilik və bacarıqlara yiyələnməsi, texnologiyalardan istifadə ediməsini bacarması vacib məsələlərdəndir. Daha bir məsələ isə, dilöyrədənin dərslə bağlı lazımi hazırlığının olmasıdır.

Qeyd edilən məsələləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

- şagirdlərin yaş xüsusiyyətləri;
- bilik və bacarıq səviyyələri;
- ənənəvi təhsilin prioritet olması;
- müasir texnologiyalardan istifadənin azlığı;
- müəllimlərin lazımi hazırlığının olmamasını əsas götürə bilərik.

Dilöyrənənlər üçün keyfiyyətli dərs mühitinin yaradılması proses ərzində onlara düzgün rəhbərlik etmək və dəstək verməkdə əsas məsələdir. Dərs zamanı şagirdlərin rəy bildirilməsi, problemin həll edilməsi üçün yol göstərilməsi və ya müəyyən təkliflərin verilməsi daha effektiv nəticələr əldə edilməsinə kömək edir.

Digər bir məsələ, dilöyrənənləri aktiv fəaliyyətə yönəldən, əməkdaşlığın və eksperimentin təşviq edildiyi bir mühit yaratmaqdır. Bu zaman onlar birlikdə fəaliyyət göstərərək yeni ideya və fikirlərlə yaradıcıllıqlarını daha yüksək səviyyəyə qaldırmağa müvəffəq olacaqlar. [6]

XXI əsrdə ingilis dilinin tədrisində istifadə olunan təlim modellərinə aşağıdakıları misal göstərmək olar:

- Blended learning (qarışıq öyrənmə)
- Flipped classroom (tərs sinif)
- Sinxron
- Asinxron

Blended learning (qarışıq öyrənmə) – bu təlim modeli ənənəvi təlim modeli zamanı istifadə olunan dərslik və materiallarla yanaşı müxtəlif internet resurslarından istifadəni əsas götürür. İngilis dilinin tədrisində daha çox effektiv təsirə malikdir. Belə ki, dərs prosesində müəllim şagirdlərə qaydanı izah etdikdən sonra müəyyən video vasitədən istifadə edərək bu bilikləri şagirdlərin qavraması üçün əlçatan edir. Digər bir situasiya, məsələn, ibtidai siniflər üçün hekayənin qavranılması tələb olunur. Bu zaman müəllim şagirdlərə müxtəlif audio və ya vizual materialları təqdim etməklə daha yaddaqalan və effektiv mühit yaratmış olacaqdır.

Flipped classroom (tərs sinif) – bu təlim modeli şagirdlərin öyrənmə prosesini dəyişir. Yəni, müəllim dərsi video olaraq şagirdlərə göndərir və şagirdlər yeni dərsi ev şəraitində öyrənirlər. Daha sonra, məktəbdə mövzu ilə əlaqəli tapşırıqlar yerinə yetirilir. Bu model vasitəsilə vaxta qənaət edilərək öyrənmə prosesini daha da əlçatan edir. İngilis dili dərslərində dil bacarıqlarını inkişaf etdirmək üçün müəllim şagirdlərə hər hansı bir film göndərə bilər və onlar filmlə tanış olduqdan sonra dərs günü bu film haqqında müzakirələr aparmaqla buna nail ola bilər.

İnnovativ dərs mühiti müasir təlim metodlarının istifadəsini zəruri edir. Hazırda xarici dil tədrisində ən çox ehtiyac olan metodlara müraciət edərək, tədris prosesində lazımi bilik və bacarıqlar qazanılır:

- ✓ Kommunikativ metod;
- ✓ Probleməsaslı metod;
- ✓ Layihəəsaslı metod;
- ✓ Oyunəsaslı təlim;

✓ Tapşırıqəsaslı metod və s. aid edilir.

Layihə metodu şagirdləri real həyat məsələləri ilə qarşılaşdıraraq onlarda idraki fəaliyyəti sürətləndirir.

Oyun əsaslı təlim şagirdləri öyrənmə prosesinə cəlb etməyə, onlarda motivasiyanı yüksəltməyə yönələn təlim modeli kimi geniş şəkildə istifadə olunur. Peşəkar müəllim tərəfindən keçirilən dərs zamanı oyunlar şagirdərin xarici dildə xəyal qurmaq, fikirlərini və düşüncələrini daha əyləncəli yollarla izah etməsinə şərait yaradan bir mühiti özündə ehtiva edir. Bu prosesdə şagirdlər sağlam rəqabət şəraitində fəaliyyət göstərməyi öyrənir və mükafatladırılırlar. Oyunəsaslı təlim modeli ardıcıl və davamlı öyrənməni stimullaşdırır, nailiyyət hissini təmin edir və dilöyrənmə mühitini daha maraqlı, məhsuldar və interaktiv edir.

Elmi nəticə. Xarici dilin tədrisində innovativlik dedikdə, hədəf dilin əsas ünsiyyət vasitəsinə çevrilməsi üçün lazım olan əsas üsullardan, metodlardan və strategiyalardan müasir tələblərə uyğun şəkildə istifadə edilməsi başa düşülür. Yuxarıda da qeyd edildiyi kimi, bu prosesdəki əsas məsələlər: 1)şagird fəaliyyətinin motivasiyası; 2) müəllimin peşəkarlığı; 3) lazımi şəraitin və resursların əlçatanlığı; 4) dilöyrənənlərin bilik və bacarıq səviyyələri və s. kimi xarakterizə olunur.

Elmi yenilik. Xarici dil dərslərində yeniliyin açarı müasir təlim modellərindən (kommunikativ, layihəəsaslı təlim, problemli öyrənmə, tapşırıq əsaslı təlim və s.) məqsədyönlü istifadədədir.

Məqalənin tətbiqi əhəmiyyəti. Müəllimlə yanaşı, dərs prosesində şagird və ya tələbələrin aktiv fəaliyyət göstərməsi ilə xarici dil öyrənmə prosesinin effektivliyi və keyfiyyətinin artırılması üçün metod və mexanizmlərə müraciət edilir ki, bu da səmərəli tədris üçün vacib hesab olunur.

Ədəbiyyat

1. Əliyev Y., Cəfərov S., " İnnovative Approaches and Methods in Azerbaijani Education". Dilkür akademiya, – 2022.
2. Həsənov İ., Rüstəmova A., Babayeva N."Metodika və Pedaqogika" yenilənmiş çərçivə sənədi əsasında vəsait ."Kurikulum" – 2022.
3. Tubchenko V.V., "innovations in Foreign Language Teaching". Colloquim- Journal, – 2022.
4. Baruah N.P., Baruah N., " İnnovative Practices in Teaching Learning Process and İts Challenges". Gotv. College of Teacher Education(CTE), Tezpur, – 2024.
5. https://ceinternational1892.org/
6. https://strobeleducation.com
7. https://cyberleninka.ru

A.Y.Tahmazova

The Role and Use of Innovative Methods in Foreign Language Lessons

Summary

Innovations in foreign language lessons are considered the main tool for achieving more effective results in this process. The following issues should be considered: 1) improving the 4 important skills for language – writing, reading, listening and speaking, turning them into the main means of communication; 2) maintaining interactivity in the lesson process. For this, ensuring the active activity of students by using various working methods and forms; 3) the dominance of a student – oriented learning model that is the different from the traditional learning model; 4) having the ability to use modern technologies should be in the center of attention. The key to innovation in the lesson process is the purposeful use of modern learning models (communicative, project-based learning, problem-based learning, task-based learning, etc.).

Key words: *interactivity, curriculum, innovative methods, training models, working methods*

А.Й.Тахмазова

Роль и использование инновационных методов на уроках иностранного языка

Резюме

Инновации на уроках иностранного языка считаются ключевым инструментом в достижении более эффективных результатов в этом процессе. Необходимо решить следующие вопросы: 1) совершенствование четырех основных языковых навыков – письма, чтения, аудирования и говорения и превращение их в основные средства общения; 2) поддержание интерактивности в процессе обучения. Для этого основное внимание следует уделять обеспечению активной деятельности студентов путем использования различных методов и форм работы; 3) доминированию личностно-ориентированной модели обучения; 4) умение использовать современные технологии и т.д. Целенаправленное использование современных моделей обучения (коммуникативное, проектное, проблемное, задачное и т.д.) для внедрения инноваций в процесс обучения.

Ключевые слова: *интерактивность, учебный план, инновационные методы, модели обучения, методы работы*

Rəyçi: ped.f.d., dos. əvəzi K.T.Fərəcbəyli

Redaksiyaya daxil olub: 02.05.2025

Х.А.АЛЯСКЕРОВА
старший преподаватель
:https://orcid.org/0009-0005-7733-6172

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 33)

СТРАТЕГИИ ОЦЕНИВАНИЯ ДЛЯ УЧИТЕЛЕЙ АНГЛИЙСКОГО ЯЗЫКА И РОЛЬ ФОРМАТИВНОГО ОЦЕНИВАНИЯ

вация внимания, памяти и когнитивной гибкости находится в фокусе нейродидактики, предлагающей инструменты их стимулирования – от многосенсорных методик до эмоционально насыщенных форматов обучения, что повышает общую результативность учебного процесса.Современные методы преподавания иностранного языка, основанные на принципах нейродидактики, стремятся активизировать когнитивные процессы, создать благоприятные условия для обучения и повысить вовлечённость студентов. Применение нейродидактических подходов в преподавании немецкого языка позволяет учитывать особенности работы мозга, а также индивидуальные потребности и возможности учащихся.

Устойчивое внимание обучающихся является ключевым фактором в освоении иностранного языка, напрямую влияющим на качество усвоения материала. Современные методики акцентируют его развитие через опору на познавательные интересы и применение приёмов, усиливающих когнитивную вовлечённость [7, с. 52-58]. Внимание можно активизировать с помощью следующих методов:

• Геймификация. Введение игровых элементов, таких как языковые викторины, настольные игры или квесты, помогает удерживать внимание учащихся, создавая атмосферу соревнования и интереса.

• Смена активности. Регулярное чередование видов деятельности (например, чтение, прослушивание, говорение, письмо) позволяет избежать утомляемости и сохранять внимание на высоком уровне.

• Элементы неожиданности. Использование нестандартных заданий, интригующих вопросов или неожиданных примеров стимулирует учащихся быть внимательными и вовлечёнными.

• Визуализация. Применение инфографики, схем и ярких иллюстраций помогает учащимся лучше сосредотачиваться на изучаемом материале.

Запоминание лексических и грамматических структур является важной задачей при изучении немецкого языка. Нейродидактика предлагает следующие эффективные подходы:

• Мнемотехники. Совокупность приемов и способов, облегчающих запоминание и увеличивающих объем памяти путем образования искусственных ассоциаций. [3, с. 398-400]. Например, можно связывать новые немецкие слова с визуальными образами или похожими звучаниями в родном языке.

• Контекстное обучение. Представление лексики и грамматики в реальных или смоделированных жизненных ситуациях (например, через ролевые игры, диалоги).

• Частотное повторение. Регулярная практика с новыми словами и грамматическими структурами, распределённая во времени, способствует их закреплению в долговременной памяти.

• Использование эмоций. Эмоционально окрашенные примеры или ситуации обучения (например, обсуждение личных интересов, увлекательных историй) активируют участки мозга, отвечающие за память.

Применение вышеупомянутых методов делает процесс запоминания более эффективным, снижает уровень стресса у учащихся и повышает их уверенность в изучении языка. Интерактивные методы обучения основаны на активном участии студентов в образовательном процессе. Эти техники включают:

• Ролевые игры. Сценарии общения, имитирующие реальные жизненные ситуации, например, покупки в магазине, заказ в ресторане или регистрация в отеле.

• Групповые проекты. Совместное выполнение заданий (например, создание презентаций, постеров или диалогов) стимулирует когнитивную активность и развивает коммуникативные навыки.

• Технологические ресурсы. Использование мобильных приложений, онлайн-платформ и интерактивных упражнений для изучения немецкого языка.

Для успешного применения нейродидактики в обучении немецкому языку преподавателю важно учитывать когнитивные особенности учащихся, использовать современные методы (геймификация, наглядность, повторение) и обеспечивать эмоционально поддерживающую среду. Эффективное обучение требует регулярного повышения квалификации, обратной связи и гибкой адаптации содержания к потребностям студентов.

Заключение. Применение нейродидактики в преподавании немецкого языка способствует повышению эффективности обучения за счёт учёта нейрофизиологических особенностей обучающихся. Активация внимания, мотивации, памяти и когнитивной гибкости достигается через многосенсорные методы, эмоционально окрашенные задания и активное вовлечение студентов. Индивидуализация обучения и создание позитивной образовательной среды усиливают усвоение материала и развитие самостоятельности. Перспективы исследований связаны с уточнением эффективных нейродидактических приёмов и внедрением цифровых решений, основанных на принципах работы мозга.

Научная новизна данной работы заключается в обосновании интеграции нейродидактических методов в обучение иностранным языкам с акцентом на активацию когнитивных процессов – внимания, памяти и когнитивной гибкости. В рамках нейродидактики впервые систематизированы приёмы, способствующие их стимуляции, включая геймификацию и контекстное обучение. Представлены возможности практического применения нейропедагогических технологий в образовательной среде.

Практическая значимость статьи заключается в расширении подходов к обучению иностранным языкам на основе нейродидактики и нейропсихологических механизмов. Работа предлагает рекомендации для преподавателей и исследователей, ориентированных на применение нейронаучных данных в образовательной практике.

Научным результатом работы является теоретическое обоснование потенциала нейродидактических подходов для повышения эффективности обучения иностранным языкам посредством целенаправленной активации когнитивных процессов – внимания, памяти и когнитивной гибкости. В работе обоснована необходимость интеграции нейропедагогических методов в образовательную практику и сформулированы рекомендации по их применению в контексте преподавания иностранных языков.

Литература

1. Громова, А.В. Нейродидактика как инновационный подход к обучению иностранным языкам // Язык и культура. – 2020. № 4 (52). – с. 53-58.
2. Гулая, Т.М., Романова, С.А. Нейродидактика и ее использование в преподавании иностранных языков // Филологические науки. Вопросы теории и практики. – 2017. № 10-1 (76).
3. Жирнова, Е.В. Эффективные способы изучения иностранных языков // Молодой ученый. – 2019. № 49 (287). – с. 398-400.
4. Железняк, А.В. Нейропедагогика и нейродидактика: современные образовательные технологии: учебное пособие. – Москва: Юрайт, – 2021. – 210 с.
5. Котова, Л.Н. Технологии нейродидактики в современной школе: учебно-методическое пособие / Л.Н. Котова, – Саратов: Саратовский гос. ун-т, – 2020. – 120 с.
6. Матвеева, Е.Е. Нейродидактика – новое слово в организации учебного процесса // Практика преподавания иностранных языков на факультете международных отношений БГУ: электрон. сб. / Белорус. гос. ун-т. – Минск, – 2012. – Вып. 2. – с. 93-95.
7. Митрофанова, И.И. Механизмы активизации внимания в преподавании русского языка как иностранного // Русистика. – 2011. № 2. – с. 55-58.
8. Goswami, U. Principles of Learning, Implications for Teaching: A Cognitive Neuroscience Perspective // Journal of Philosophy of Education. – 2008. – Vol. 42, Suppl. 1. – p. 381–399.

9. Hüther, G. Was wir sind und was wir sein könnten: Ein neurobiologischer Mutmacher. – Frankfurt am Main: Fischer Verlag, – 2013. – 240 s.
10. Immordino-Yang M.H. Emotions, Learning, and the Brain: Exploring the Educational Implications of Affective Neuroscience. – New York: W.W. Norton & Company, – 2016. – 208 p.
11. Immordino-Yang M.H., Damasio A. We Feel, Therefore We Learn: The Relevance of Affective and Social Neuroscience to Education // Mind, Brain, and Education. – 2007. – Vol. 1, No. 1. – P. 3-10.
12. Jensen, E. Brain-Based Learning: The New Paradigm of Teaching. – Thousand Oaks: Corwin Press, – 2008. – 192 p.
13. Medina, J. Brain Rules: 12 Principles for Surviving and Thriving at Work, Home, and School. – Seattle: Pear Press, – 2014. – 301 p.
14. Schacter, D.L. Psychology / D.L.Schacter, D.T.Gilbert, D.M.Wegner. – New York: Worth Publishers, – 2011. – 800 p.
15. Spitzer, M. Lernen: Gehirnforschung und die Schule des Lebens. – Heidelberg: Spektrum Akademischer Verlag, – 2018. – 368 s.

G.E.Səfərova

Dil öyrənməsində neyropsixoloji mexanizmlər:
neyrodidaktik yanaşmalar və onların əhəmiyyəti
Xülasə

Məqalə, neyrodidaktikanın xarici dillərin öyrədilməsi sahəsində tətbiqinə həsr olunub. Xarici dilin öyrənilməsi zamanı diqqət, yaddaş və koqnitiv çeviklik kimi koqnitiv proseslərin rolu vurğulanır, koqnitiv funksiyaların effektiv şəkildə işləməsi üçün istifadə olunan üsullar, o cümlədən oyun, yaddaş texnikaları və kontekstual öyrənmə metodlarının əhəmiyyətini araşdırır. Məqalədə, həmçinin koqnitiv çevikliyin dil öyrənənlərə yeni dil strukturlarına və qaydalara uyğunlaşmaqda kömək etməsi müzakirə edilir. Nəticə olaraq, neyrodidaktikanın dil öyrənmənin effektivliyini artırmağına təsirinin böyük olduğu qeyd olunur.

Açar sözlər: *neyrodidaktika, koqnitiv proseslər, diqqət, yaddaş, dillərin öyrənilməsi*

G.E.Safarova

Neuropsychological Mechanisms in Language Learning:
Approaches of Neurodidactics and Their Significance
Summary

The article focuses on the application of neurodidactics in teaching foreign languages, emphasizing the role of cognitive processes such as attention, memory, and cognitive flexibility. It examines effective strategies for activating these functions, including gamification, mnemonic techniques, and contextual learning. Special attention is given to how cognitive flexibility supports learners in adapting to new language structures and rules. The conclusion underscores the significant impact of neurodidactics on improving the efficiency of language acquisition.

Key words: *neurodidactics, cognitive processes, attention, memory, language learning*

Рецензент: д.ф. по пед., доц. М.Гарибова

Redaksiyaya daxil olub: 15.05.2025

İ.C.ƏMİRLİ
baş müəllim
e-mail: amirovisrail04@gmail.com
:https://orcid.org/0009-0003-3973-7501

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

BÖYÜK COĞRAFİ KƏŞFLƏR VƏ TÜRK XALQLARI

Xülasə. *Böyük Coğrafi kəşflər planetin siyasi və iqtisadi cəhətdən dəyişməsinə səbəb olan hadisələrə səbəb oldu. Dünya xəritəsində yeni materiklər kəşf olundu. Okean yollarının kəşfi nəticəsində İpək yolları sıradan çıxdı. Türk xalqları da Böyük Coğrafi kəşflərin nəticələri ilə üz-üzə qaldılar. Türk xalqlarına məxsus dövlətlər süqut etdi. Missionerlik fəaliyyətləri nəticəsində xristian dininin təriqətləri təbliğ və təşviq olunmağa başladı. Çuvaşlar və yakutlar da daxil olmaqla, bəzi türk xalqlarının bir hissəsi xristian dininin müxtəlif təriqətlərini qəbul etdilər.*

Açar sözlər: *Böyük Coğrafi kəşflər, İpək yolları, türk xalqları, missionerlik*

Giriş. Böyük Coğrafi kəşflər dövründə türk xalqları planetin müxtəlif istiqamətlərində bir sıra dövlətlərə malik idilər. Misal üçün, XVI əsrdə Yaxın və Orta Şərqdə cəmi iki dövlət var idi – Osmanlı və Səfəvilər. Qızıl Orda dövlətindən ayrılmış, Qazan xanlığı, Noğay xanlığı, Krım xanlığı, Sibir xanlığı və s dövlətlər mövcud idi. Hindistanda Böyük Moğol imperiyası mövcud idi. Şərq dövlətləri olan türk ölkələri iqtisadi baxımdan daha inkişaf etmiş ölkələr idi. Bu ölkələrin hamısı İpək yollarının üzərində yerləşirdi. Özlərinə məxsus milli və dini kimliyə sahib idilər. Lakin Böyük Coğrafi kəşflər türk dövlətlərinin də sonuna gətirib çıxartdı.

Böyük Coğrafi kəşflər, okean yolları və yeni materiklərin kəşfinin türk dövlətlərinə təsiri. Böyük Coğrafi kəşflər ilk olaraq, Avropa dövlətləri tərəfindən 1492-ci ildə Amerika materikinin kəşfi ilə başladı. Ardınca 1498-ci ildə Afrika materiki və 1498-ci ildə Hindistana gedən okean yolu, 1771-ci ildə Avstraliya və sonra Antarktida materikləri, o cümlədən Avrasiya materiki kəşf olundu. Bunun nəticəsində Amerika və Avstraliya materikləri məskunlaşdırıldı və dünyanın mənzərəsində yeni dövlətlər yarandı. Bu dövlətlər Böyük Coğrafi kəşflər nəticəsində kapitalizmə keçən ilk dövlətlər oldular. Burada onu qeyd etmək lazımdır ki, kapitalizm məhz Böyük Coğrafi kəşflərin nəticəsi olaraq yaranmışdır.

Böyük Coğrafi kəşflərdə Avropanın bütün dövlətləri və xalqları iştirak etdilər. Böyük Coğrafi kəşflər Hindistana gedən dəniz yolunu axtarmaq məqsədilə başlamışdı. Məhz Amerika materikləri də Hindistan adı altında kəşf olunmuş, yerli əhali hindular adlandırılmışdı.

Avropa səyyahları və tacirləri gələn zaman Hindistanda əsas dövlət türk mənşəli Dehli sultanlığı idi. Lakin çox tezliklə Dehli sultanlığı süqut etdi və onun yerində başqa bir türk dövləti, 1526-c ildə Baburun qurduğu Böyük Moğol dövləti yarandı. Mustafa Turşucu öz məqaləsində yazır ki, avropalıların yetişməyə çalışdığı Asiyanın baharat limanları ərəblərin və müsəlmanların əlində idi [2, s.294]. Hindistanda isə əsas dövlət Böyük Moğol imperiyası idi.

Digər tərəfdə isə Osmanlı dövləti var idi. Osmanlı dövləti I Səlimin dövründə Avropa dövlətlərinin Afrika və Hindistan istiqamətində fəaliyyətlərindən sonra, burada olan müsəlman dövlətlərini himayəyə almaq məqsədilə 1516-cı ildə Məmlükləri məğlub etmiş və özünə birləşdirmişdi. Yəni başqa şəkildə desək, türk dövləti olan Osmanlı dövləti də Böyük Coğrafi kəşflərdə müsəlman Afrikasını Avropa dövlətlərindən qorunması məqsədilə iştirak etmişdir. Məhz bunun nəticəsində Afrikanın müstəmləkələşdirilməsi bütün materiklərdən daha gec şəkildə baş vermişdir.

Ahmet Caner öz məqaləsində bununla əlaqədar yazır ki, Osmanlı dövlətinin Aralıq dənizində və Orta Avropada irəliləməsi, Qara dənizin daxili dənizə çevrilməsi Avropaya maliyyə axınını məhdulaşdırması kimi səbəblər avropalıları Hindistana gedən dəniz yolunu kəşf etmələrinə səbəb olmuşdur. Bununla birlikdə Avropa və hindli tacirlər tərəfindən Hindistandan gələn məhsullar öncə Qırmızı dəniz limanlarına, daha sonra Suriya və Misirin liman şəhərlərinə daşınmışdır. Buradan da Venesiya gəmiçiləri vasitəsilə Avropaya nəql edilmişdir. Dolayısı yolu ilə Avropanın ehtiyac duyduğu ticarət məhsulları Osmanlı dövlətinin nəzarəti altında olmuşdur [3, s. 4].

Bu zaman portuqaliyalılar Ədən tərəfləri ilə Bəsrə körfəzindəki Hörmüz boğazını tutmuş, şərq məhsullarının Aralıq dənizi limanlarına aparılmasına mane olmuşdur. Buna görə də Osmanlı dövləti 1531-ci ildə Diu bölgəsində Portuqaliya ilə mücadilə etmişdir. Osmanlı dövləti portuqaliyalılara qarşı Hind dənizi səfərləri başlatmışdı. İlk olaraq 1538-ci ildə Süleyman paşa rəhbərliyində Osmanlı donanması Diuya səfər etmiş, 1539-cu ildə bu səfərdən qalibiyyət əldə edə bilməmişdir. Portuqaliyalılara qarşı 1550-ci illərə qədər müxtəlif mücadilələr həyata keçirilmiş, ancaq yekun nəticə əldə olunmamışdır. 1557-ci ildə Hind okeanı səfərləri sona çatmışdır [4, s. 15].

Səfəvilər dövləti isə portuqaliyalılardan yeni silahlar almaq məqsədilə onlara qarşı mübarizə aparmamışdır. Burada bir məsələni qeyd etmək lazımdır ki, Səfəvilər dövlətinin karavella gəmilərinə yiyələnməmələri onların Böyük Coğrafi kəşflərdə iştirakına məhdudiyyət olmuşdur.

Böyük Coğrafi kəşflər nəticəsində dünya iqtisadi nöqteyi-nəzərdən yer dəyişdirmiş, İpək yolu sıradan çıxmışdır [1].

Belə ki, bu zaman Yaxın və Orta Şərqdə olan digər bir türk dövləti Səfəvilər də İpək yollarının üzərində yerləşirdi. Avropalılar tərəfindən yeni okean yollarının kəşfi, zamanla quru yolları olan İpək yollarının sıradan çıxmasına səbəb olmuşdur. Bunun nəticəsində Səfəvilər dövlətində iqtisadi böhran baş vermiş, Sultan Hüseynin dövründə bu böhran daha da dərinləşmişdir.

Burada bir məsələni qeyd etmək lazımdır ki, Böyük Coğrafi Kəşflər nəticəsində dünya təkcə iqtisadi baxımdan deyil, həm də siyasi nöqteyi-nəzərdən yön dəyişdirmişdir. Bu proses zamanla inkişaf etmiş Avropa dövlətlərinin iqtisadi gücünün üstünlükləri özü ilə siyasi gücü də gətirmişdir. Dünya ölkələri bu dövrdən başlayaraq beş yüz il müddətində Böyük Coğrafi kəşflərin nəticələri ilə yaşamışlar.

Böyük Coğrafi kəşflər və türk dövlətlərinin işğalı. Böyük Coğrafi kəşflərdə Avropa xalqlarından slavyanlar da iştirak etdilər. Lakin tarixi ədəbiyyatlarda bu məsələ işıqlandırılmamışdır. Ruslar 1480-ci ildə III İvanın dövründə Qızıl Ordu dövlətinə son qoyduqdan sonra türk torpaqlarının işğalına başladı [4].

Digər bir məqalədə məlumat verilir ki, 1549-1551-ci illərdə ruslar Qazan xanlığının sərhədlərinə hücum etdilər. 1552-ci il iyunun 16-da 150 minlik rus ordusu Moskvadan Qazan üzərinə yürüşə başladı. 1552-ci il oktyabrın 2-də Qazan şəhəri işğal olundu. Yedigar xan əsir alınıb, Moskvaya aparıldı və ona orada zorla xristian dinini qəbul etdirdilər. IV İvan 1556-cı ildə hücum edib Həştərxan xanlığını ələ keçirdi və onun müstəqilliyinə son qoyuldu [5].

Başqırdıstanın işğal olunması 1557-ci ildə başa çatdı. IV İvanın fərmanına əsasən, bu yerlərə rus kəndliləri köçürüldü.

1563-cü ildə Kuçum xan Sibir xanlığında hakimiyyətə gəldi və Rusiyadan vassal asılılığını qəbul etdi. 1571-ci ildə Rusiyanın vassalı olmasından imtina etdi. Ataman Yermak Stroqanovların pulu ilə 1581-ci ildə Sibir xanlığı üzərinə hücum etdi. Sibir xanlığının mərkəzi Kaşlık şəhərini tutdular, lakin Yermak İrtış çayını keçərkən çayda boğuldu. Ruslar işğalçılıq niyyətlərindən əl çəkmədi. 1586-1587-ci illərdə ruslar Sibirdə Tümen, Tobolsk, Tara şəhərlərini salmağa başladılar. 1598-ci ildə Ob çayı sahilində baş vermiş döyüşdə Kuçum xan məğlub oldu və kiçik qoşunla Sibirə çəkildi. Beləliklə, Qərbi Sibir də Rusiyanın tərkibinə qatıldı [5].

Bundan sonra, Kırım, Həştərxan, Noğay, Qaraçay, Çərkəz və digər türk xalqlarının əraziləri ruslar tərəfindən işğal olundu. Slavyanların Avropanının yeni silahlarına daha tez nail olmaları, türk dövlətlərinin qılınc, yay-ox və digər köhnə silahlarla döyüşməsi onların ərazilərinin işğal olunmasına səbəb olmuşdur.

Digər Avropa dövlətlərində olduğu kimi ruslar da türk xalqlarının yaşadığı ərazilərə əvvəlcə səyyahlar və tacirlər göndərmişlər. Bu dövlətlər haqqında məlumat topladıqdan sonra oraya ordu göndərməyə başladılar. Bunun nəticəsində Avrasiyada mövcud olan türk dövlətləri bir-birinin ardınca işğal olunmuşdur. Bu işğalçılıq siyasəti muşketlər, toplar və s. silahların üstünlüyü şəraitində baş vermişdir.

Bu prosesləri həm səlib müharibələrinin, həm də Şərq məsələsinin davamı kimi qiymətləndirmək olar.

Slavyanlar da olduğu kimi, Avropa dövlətlərinin bu işğalçılıq siyasəti beş əsr çəkdi.

Bundan sonra, Avropa dövlətləri Böyük Coğrafi kəşflərin davamı olaraq müstəmləkəçilik siyasətlərini həyata keçirmişlər.

Bunun ardınca 1857-1859-cu illərdə Hindistanı idarə edən Böyük Moğol dövlətinə son qoyulmuşdur. Hindistan İngiltərənin müstəmləkəsinə çevrilmişdir.

Böyük Coğrafi kəşflər nəticəsində okean yollarının kəşfi, ipək yolunun sıradan çıxması bir sıra türk dövlətlərində iqtisadi böhrana səbəb olmuş, gəlirlərin azalması, vergilərin artması, daxildə üsyanların baş verməsi, əfqanların hücumları, digər bir tərəfdən, rusların Qafqazlarda siyasətinin nəticəsi olaraq, Səfəvilər dövləti süqut etmişdir. Yerində Əfşarlar türk dövləti yaranmışdır.

Böyük Coğrafi kəşflərin ən böyük nəticəsi isə Birinci və İkinci Dünya müharibələri olmuşdur. Birinci Dünya müharibəsinin nəticəsi olaraq Osmanlı türk imperiyası süqut etdi. Digər bir türk ölkəsi – Qacarlar dövlətində ingilislərin və bolşeviklərin fəaliyyəti nəticəsində, daxildə üsyanlar başladı və XX əsrin 20-ci illərində bu dövlət də süqut etdi .

Böyük Coğrafi kəşflər və türk xalqlarına qarşı din siyasəti. Böyük Coğrafi kəşflər zamanı həyata keçirilən missionerlik fəaliyyəti xaçlı yürüşləri zamanı həyata keçirilən siyasətin davamı idi.

Ahmet Caner öz məqaləsində yazır ki, səlib yürüşləri zamanı, dinsiz ölkələrə xristianlığın öyrədilməsi şüarı ispanların ideyalarına dərindən təsir etmiş və Qranadada müsəlmanların hökmranlığı aradan qaldırılarkən, yəhudilər də İspaniyadan qovulmuşlar. Bundan əlavə, İnkvizisiya məhkəmələri yaradılmış və müsəlmanlara dinlərini dəyişmək üçün təzyiqlər edilmişdir. Bu vəziyyət orta əsrlərin mühafizəkar katolik mentalitetinin müasir dövrə əksini göstərdiyi üçün vacibdir. Avropalılar öz kəşflərində və İslama qarşı mübarizələrində bu şüardan istifadə edirdilər. Xüsusilə Aralıq dənizində Osmanlı İmperatorluğuna qarşı aparılan mübarizələrdə həmişə eyni arqumentə üstünlük verilmişdir. İspaniyanın kəşfiyyatçılarından biri olan Kolumb xristianlığı qeyri-dini ölkələrə öyrətməyi, yəni Avropadan kənarda yaymağı qarşısına məqsəd qoymuşdu. Bu onu göstərir ki, kəşflərin hərəkətverici qüvvələrindən biri dini əsaslı olmuşdur [3, s. 5].

XVII əsrin əvvəllərindən etibarən, Rusiyanın Sibir, Saxa ərazilərinə maraqları artmışdır. Bununla əlaqədar olaraq buraya kəşfiyyatçı səyyahlar göndərilmişdir. İlk başlarda şimaldan cənuba doğru olan işğal hərəkətinin istiqaməti zamanla Yakutiya bölgəsini əhatə edəcək şəkildə davam etmişdir. Bölgə rus-kazak dəstələri tərəfindən işğal edilmişdir. 1632-ci ildə Yakutiya qalasının inşa edilməsi ilə birlikdə zamanla xristian dinini yaymaq istiqamətində də addımlar atıl-

mışdır. 1641-ci ildə Yakutiya valiliyi qurulmuş, ilk valilər Qolovin və Qlebov olmuş, bununla birlikdə ortodoks din adamları da bölgəyə göndərilmişdir. İlk dini məbədlər isə əsgərlər tərəfindən inşa edilmişdir. İlk dini məbədlərin inşası ilə artıq bölgədə missionerlik fəaliyyətləri başlamışdır. Xüsusilə Saxa boyları arasında və ya yaxınlarında qurulan kilsələr və monastırlar, bölgənin ruslaşdırılmasına və xristianlaşdırılmasına təsir edən amillərdən olmuşdur [6].

Tatarıstanın işğalı ilə Çuvaşiya da ruslar tərəfindən 1556-cı ildə tutulmuşdur. Rus Ortodoks kilsəsi çuvaşlar arasında missionerlik fəaliyyətlərinə başlamışdır. 1875-ci ildə Çuvaşiyada inşa edilən ilk rus məktəbi missionerlik məqsədi daşıyırdı. [7, s. 80].

Çuvaş və yakut türkləri, kiçik bütpərəst bölmə istisna olmaqla, pravoslavlığı qəbul etdilər. Rus missionerləri İncili çuvaş dilinə tərcümə etmək və çuvaş dilinin qrammatikasını öyrətmək üçün 1769-cu ildə ilk çuvaş qrammatikasını hazırlamışdılar.

Durmuş Arık məqaləsində bildirir ki, Rus çarlığının 18-ci əsrdə Çuvaşistanda və Orta İdildə öz mövqeyini gücləndirmək və xalq arasındakı üsyanların qarşısını almaq üçün bir sıra tədbirlərə əl atması, xristianlaşdırma və ruslaştırma siyasətini həyata keçirdiyi bildirilməkdədir. Bunun nəticəsində çuvaşların bir qisminin xristian olduğu vurğulanmaqdadır [9, s. 169-170].

Çar administrasiyasının dəstəyini alan Rus Pravoslav kilsəsinin missionerlik fəaliyyətinin XVIII əsrdə əsas etibarilə üç ölçüyə malik olduğu vurğulanır. Bu ölçülər; inzibati-iqtisadi tədbirlərə, maarifçilik siyasətinə və islam dininə, xüsusən də çuvaşların bir hissəsinin ciddi şəkildə əməl etdiyi **çuvaş dininə** qarşı mübarizədir. İnzibati-iqtisadi tədbirlərə xristianlığı qəbul edənlərin mükafatlandırılması (pul, hərbi xidmət və vergidən azad olunma kimi) və bu dini rədd edənlərin cəzalandırılması (mülkiyyətin müsadirə edilməsi kimi) daxildir.

Çar Rusiyasında xristianlaşdırma fəaliyyətini daha planlı və sürətlə həyata keçirmək üçün müxtəlif qurumlar yaradıldı. Bu qurumlardan birincisi 1731-ci ildə yaradılmış "Yeni Vəftiz şöbəsi" idi. Bu prosesdə əsrin ortalarında çuvaş xalqının əsas kütləsi məcburi xristianlaşdırma fəaliyyətinə məruz qalmışdı və 1764-cü ildə bu qurum ləğv edilmiş və qeyri-rus xalqının xristianlaşdırılması vəzifəsi missioner təbliğçilərdən kömək alan yepiskoplara verilmişdir. Çar hökuməti özünün xristianlaşdırma siyasətinin növbəti mərhələsi olaraq dini qəbul etməyənləri mühacirətə məcbur etsə də, bu əməldə arzuladığı uğuru əldə edə bilmədi. 18-ci əsrdə missionerlər Volqa bölgəsində qeyri-rus elementləri üçün təhsil və təlim fəaliyyətlərinə diqqət yetirdilər və yeni monastırların, akademiyaların və məktəblərin açılmasına önəm verdilər. Burada böyüyən tələbələr qeyri-rus xalqlarının ilk xristian ruhanilərini təşkil edirdilər. Lakin təhsilin arzu olunan səviyyəyə və müvəffəqiyyətə çatmaması, mənzil şəraitinin və idarəetmənin zəif olması kimi səbəblərdən bu qurumlar əsrin sonlarında bağlanmışdı. Bundan əlavə, bu dövrdə missionerlik fəaliyyəti çərçivəsində İslam dininə və çuvaş xalqının ənənəvi dininə qarşı mübarizə aparılıb (məsələn, məscid və mədrəsələrin sökülməsi və onların yerinə monastır və kilsələrin tikilməsi, dini mərasimlərin keçirilməsinin qarşısının alınması) və bu dinləri qəbul edənlərə qarşı sərt cəza tədbirləri həyata keçirilmişdir [9, s. 169-170].

Böyük Coğrafi kəşflərin davamı olaraq xristian dini planetin müxtəlif istiqamətlərində yayıldı. Bunun nəticəsində həm Şərqdə, həm də Qərbdə bir çox xalqlar xristianlığı qəbul etdilər. Bir qism türk xalqları da xristian oldular.

İşin elmi nəticəsi. Böyük Coğrafi kəşflər dünyanın siyasi və iqtisadi qütbünü birdəfəlik dəyişdi. Belə ki, Böyük Coğrafi kəşflər nəticəsində yeni ərazilər kəşf olundu və məskunlaşdırıldı. Bununla yanaşı, okean yolları kəşf olundu və bu amil planetin iqtisadi qütbünü dəyişdirdi. Türk dövlətləri də İpək yollarının sıradan çıxması nəticəsində iqtisadi cəhətdən zəiflədilər. Bunun nəticəsində Səfəvilər, Qızıl Ordadan ayrılan türk dövlətləri işğal olundular və süqut etdilər.

Müstəmləkəçilik meydana gəldi. Bunun nəticəsində Avropa dövlətləri Şərq ölkələrini müstəmləkəyə çevirməyə başladılar. İran ərazisində mövcud olan türk dövlətləri və Osmanlı dövləti iqtisadi cəhətdən yarımmüstəmləkəyə çevrildilər. Bu amilin davamı olaraq, Qacarlar dövlətinə Pəhləvilər son qoydu. Osmanlı dövləti isə Böyük Coğrafi kəşflərin nəticəsi olan Birinci Dünya müharibəsinə görə işğal olundu.

Böyük Coğrafi kəşflərin tərkib hissəsi olan xristian dini türk xalqları arasında təbliğ və təşviq olunmağa başladı. Bunun nəticəsində yakutların və çuvaşların bir hissəsi və digər türk xalqları xristian dinini qəbul etdilər.

İşin elmi yeniliyi. Məqalədə Böyük Coğrafi kəşflərdə yeni materiklərin və okean yollarının tapılmasının və onların məskunlaşdırılmasının türk dövlətlərinə təsiri, Coğrafi kəşflər nəticəsində türk dövlətlərinin işğalı və Avropa xalqlarından slavyanların da bu kəşflərdə iştirakı müəyyən olundu.

İşin tətbiqi əhəmiyyəti. Məqalə Respublikamızın İpək yolları üzərində yerləşən türk xalqları ilə yeni siyasi, iqtisadi və mədəni əməkdaşlıq qurmalarında əhəmiyyətli ola bilər.

Ədəbiyyat

1. Əmirli, İ.C. Böyük Coğrafi kəşflər / İ.C.Əmirli, – Şərq və Qərb, – s.1, http://static.bsu.az
2. Turşucu, M. Coğrafi Keşifler Türk Dünyası Araştırmaları. Kasım-Aralık 2023 Cilt: 135 Sayı: 267 https:// dergipark.org.tr/tr/download/article-file/3346559
3. Çatal, A.C. Coğrafi keşifler, https://m.ataaof.edu.tr/
4. Yetişkin, M. Rusların türk torpaqları üzerinde yayılmasının sebepleri üzerine bazı düşünceler / https://dergipark.org.tr/en/download/article-file/1723834
5. Rusiya dövlətinin işğalçı müharibələri, https://melumatlar.az/blog
6. Kılıcaslan, Y., Topsakal, İ. Saha (Yakut) İlinde Rus işğalı ve misyonerliğin rölü, – s.1. https: //dergipark. org. tr/ en/ download/article-file/2781731
7. Anzeroğlu, Y. Geçmişden günümüze türk dünyasında hıristian türkler. https://dergipark.org.tr/tr/pub/karadearas/issue/10094/124502
8. www. ortodokslartoplulugu. com/makaleler/tarihte-hristiyan-turkler/
9. Durmuş, A. Hıristiyanlaştırılan Türkler Çuvaşlar / A.Durmuş, –Ankara: Berikan Yayınevi, – 2012, , https://dergipark.org.tr/tr/download/article-file/304476

I.C.Amirli

Great Geographical Discoveries and Turkic Peoples

Summary

The Great Geographical Discoveries led to events that changed the political and economic landscape of the planet. New continents were discovered on the world map. As a result of the discovery of ocean routes, the Silk Roads fell apart. The Turkic peoples also faced the consequences of the Great Geographical Discoveries. The states belonging to the Turkic peoples collapsed. As a result of missionary activities, sects of the Christian religion began to be propagated and promoted. Some of the peoples belonging to some Turkic peoples, including the Chuvash and Yakuts, adopted various sects of the Christian religion.

Key words: *Great Geographical Discoveries, Silk Roads, Turkic peoples, missionary work*

И.Дж.Амирли

Великие географические открытия и тюркские народы

Резюме

Великие географические открытия привели к событиям, изменившим планету в политическом и экономическом плане. На карте мира были открыты новые континенты. В результате открытия морских путей Шелковый путь пришел в упадок. Тюркские народы также столкнулись с последствиями Великих географических открытий. Государства тюркских народов распались. В результате миссионерской деятельности стали распространяться и поощряться христианские секты. Некоторые тюркские народы, в том числе чуваши и якуты, приняли различные течения христианской религии.

Ключевые слова*: Великие географические открытия, Шелковый путь, тюркские народы, миссионерство*

Rəyçi: dos. A.A.Məmmədli
Redaksiyaya daxil olub: 17.04.2025

X.A.HÜSEYNOV
tarix elmləri doktoru, professor
e-mail: xezerhuseynov@gmail.com
:https://orcid.org/0009-0009-9396-1903

Z.H.HÜSEYNOV
e-mail: huseynovzehmet382@gmail.com

Naxçıvan Dövlət Universiteti
(Naxçıvan şəh., Universitet şəhərciyi)

NAXÇIVAN ƏRAZİSİNDƏ SON TUNC VƏ ERKƏN DƏMİR DÖVRLƏRİNDƏ QƏDİM YAŞAYIŞ YERLƏRİ

Xülasə. *Naxçıvan ərazisi tarixin qədim dövrlərindən insan məskənlərindən biri olmuş və bu ərazidəki arxeoloji mədəniyyətlər həmin dövrdə yaşamış insanların bugünkü yadigarıdır. Naxçıvan ərazisinin insan yaşayışı üçün əlverişli sahələrində tarixi abidələrə daha sıx rast gəlinmiş və bu coğrafi mövqelərin əksəriyyətində yerləşən insan məskənləri tədqiq olunaraq dövrləri və arxeoloji materialları müəyyənləşdirilmişdir.*
Zəngəzur, Dərələyəz dağ silsilələri, eyni zamanda Arpaçay, Araz çayı, Əlincəçay, Naxçıvançay vadiləri hövzəsində əkinçilik, ərazilərdə maldarlıq, sənətkarlıq və ticarət üçün əlverişli şəraitə malik olan yaşayış məskənləri yaradan insanlar Son Tunc və İlk Dəmir dövrlərində daha da böyük və geniş sahələrə yayılmışdılar.

Açar sözlər: *Azərbaycan, Naxçıvan, yaşayış yeri, Son Tunc, Erkən Dəmir*

Giriş

Tədqiqat obyekti olan Naxçıvan ərazisində Son Tunc və Erkən Dəmir dövrü bir sıra xüsusiyyətlərinə görə vacib əhəmiyyət daşıyır. Məlum olduğu kimi, ermənilərin Azərbaycan torpaqlarına əsassız iddialarının bir hədəfi də Azərbaycanın əzəli torpağı olan Naxçıvan olmuş və bu təbliğat fəaliyyəti indi də aparılır. Yerli tayfaların kimliyinin müəyyənləşdirilməsi, onların yaşayış yerlərinin tədqiqi nəticəsində arxeoloji materialların əldə edilməsi bu iddialara tutarlı cavabdır. Eyni zamanda qədim mədəniyyətimizin üzə çıxarılması, tarixi hadisələrin aydınlaşdırılması nəticəsində tariximizin bu dövrləri işıqlandırılır.

Naxçıvanda Erkən Dəmir dövrü abidələrinin tədqiqi XX əsrin əvvəllərində başlasa da, bu dövrə aid sistemli tədqiqatlar son dövrlərdə genişləndirilmişdir. Naxçıvanda aparılan tədqiqatlar zamanı başlıca olaraq Eneolit va Tunc dövrü mədəniyyətlərinin öyrənilməsinə diqqət verilmişdir. Erkən Dəmir dövrünə aid tapıntılar ilk dəfə 1927-ci ildə İ.İ.Meşşaninov və A.A.Miller tərəfindən ortaya çıxarılmışdır. Bu dövrə aid maddi mədəniyyət qalıqları I Kültəpə, II Kültəpə, Şahtaxtı kimi yaşayış yerlərində aşkar edilsə də, əldə edilən materiallar tamamilə çap edilməmiş və elmi baxımdan yetərincə dəqiqləşdirilməmişdir. Digər tərəfdən, I Kültəpə və II Kültəpə kimi yaşayış yerlərində bu dövrə aid mədəni təbəqənin dağıntıya məruz qalması nəticəsində Erkən Dəmir dövrünə aid tarixi-mədəni prosesləri ardıcıllıqla izləmək mümkün olmamışdır. Şimali Azərbaycanda və Şimal-qərbi İranda boz rəngli, Naxçıvanda isə boz rənglilərlə bərabər boyalı keramikanın ortaya çıxması aydınlaşdırılmamışdır. Bu fərqli mədəniyyətlərin qarşılıqlı əlaqələrinin tədqiqinə uzun müddət ara verilsə də, son zamanlar Xocalı-Gədəbəy mədəniyyəti ilə bağlı Naxçıvanın maddi mədəniyyətində xüsusiyyətlərə önəm verilməsi bu məsələni irəli çıxarıb. Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitunun və Naxçıvan Regional Elmi Mərkəzinin V.B.Baxşəliyevin rəhbərliyi ilə apardığı arxeoloji tədqiqatlar zamanı Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti ilə bağlı bir neçə yaşayış yeri, daş qutu qəbirlərlə xarakterizə edilən nekropollar aşkar edilmişdir.

Son Tunc və Erkən Dəmir dövrü abidələrinin tədqiq edilməsi

Son Tunc və Erkən Dəmir dövrü abidələri coğrafi mövqeyi və mədəni xüsusiyətlərinə görə iki yerə bölünür [2, s.128].

1. Arazboyu arxeoloji abidələri (bu abidələrə xas olan əsas fərqlilik boyalı . keramikanın üstünlüyüdür.

2. Naxçıvanın dağlıq və dağətəyi zonası abidələri (boz rəngli keramikaya daha sıx rastlanılır.

Birinci qrupa daxil olan abidələrə misal olaraq I Kültəpə, Şahtaxtı, Qızılburun, Qarabağlar, Şərur rayonunun Zeyvə, Şortəpə, Aşağı Daşarx kəndlərində rast gəlinən arxeoloji materiallar, Qarabulaq nekropolu göstərilə bilər.

I Kültəpə yaşayış yeri bütünlüklə Naxçıvanın Arazboyu abidələri içərisində araşdırılması, bu dövrə xas olan bütün xüsusiyyətləri özündə əks etdirməsi və əhəmiyyətinə görə seçilir. Baxmayaraq ki, bu yaşayış yerinin Son Tunc və İlkin Dəmir dövrü materialları ən üst təbəqədə yerləşdiyinə görə tarixən erroziya, aşınmaya məruz qalaraq tədqiq olunmasında çətinliklər yaranmışdır, ancaq yenə də dövrün öyrənilməsində əhəmiyyətli olan müxtəlif maddi-mədəniyyət nümunələri, xüsusi ilə boyalı keramika və qismən də boz rəngli keramika, tikinti qalıqları indiyədək mövcudluğunu qoruyub saxlamışdır. Naxçıvan çayının sol sahilində, Naxçıvan şəhərinin 8 km-liyində yerləşən bu abidənin Son Tunc Erkən Dəmir dövrünə aid mədəni təbəqəsi ən son – yəni, 4-cü təbəqədə və 1.5-2.5 m qalınlığındadır. Erroziya, təbii fəlakətlər və s nətiəcəsində aşınmaya məruz qaldığından tikinti qalıqlarının düzgün forması üzə çıxarılmamışdır [4, s.124]. I Kültəpənin e.ə XI-VIII əsrlərə aid edilən IV təbəqəsi Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterik olan bütün xüsusiyyətləri özündə əks etdirir [2, s.128]. Bu yaşayış yerinin IV təbəqəsi ilə bənzər olan arxeoloji komplekslərə əlavə olaraq Qızılburun, Şahtaxtı və Culfada da rast gəlinmişdir. I Kültəpə yaşayış yeri O.Həbibullayev, V. Əliyev, V. Baxşəliyev və başqaları tərəfindən araşdırılmışdır. Yaşayış yeri üzəri tikinti qalıqları ilə örtüldüyündən burada qazıntı işləri zamanı bir sıra çətinliklər ortaya çıxmışdır. Çünki burada heç bir tikinti abidəsi bütöv olaraq qalmamış, keçən zamanla uçurulub dağıdılmışdır. Bu mədəni təbəqədən tapılan arxeoloji materiallara əsasən dövrün arxeoloji mədəniyyəti, ticarəti, mədəni əlaqələri və s. barədə fikir yürütmək olar. I Kültəpə Erkən Dəmir dövrünü əhatə etsə də, burada dəmir alətlər aşkar olunmamışdır [12, s.181]. Qazıntı zamanı xeyli miqdarda boyalı keramika aşkar olunmuşdur [6, s.179].

Bu dövrün öyrənilməsində əhəmiyyəti olan digər bir abidə olan II Kültəpənin də ən üst mədəni təbəqəsi Son Tunc və Erkən Dəmir dövrünə aiddir və bu dövrə aid yalnız bir tikinti qalığı qeydə alınmışdır. Həm I Kültəpədə, həm də II Kültəpə yaşayış yerində arxeoloji materiallarda Xocalı-Gədəbəy mədəniyyətinə məxsus olan gil qablara oxşar gil qablar da aşkar olunmuşdur.

Qədim yaşayış yerləri

Şaxtaxtı Govurqalası Şaxtaxtı kəndindən 200-250 m şimal-qərb tərəfdə, çox da hündür olmayan təbii təpənin üzərində yerləşir. Qədim yaşayış yeri yerli əhali arasında "Govurqala" adlanır [2, s.128]. Govurqala Orta Tuncdan Erkən Dəmir dövrünə qədər mədəni təbəqələri əhatə edir [5, s.31]. Yaşayış yerində ilk arxeoloji qazıntı işləri Ə.K.Ələkbərov tərəfindən aparılmışdır Govurqalanın mərkəzi hissəsi 2 hektara yaxın sahəni əhatə edir. Burada iki cərgə ilə möhkəmləndirilmiş müdafiə divarı olmuşdur. Divar bəzi yerlərdə iri ölçülü daşlardan tikilmişdir. 1979-1983-cü illərdə Naxçıvan arxeoloji ekspedisiyasının Şahtaxtı dəstəsi Q.M.Aslanovun rəhbərliyi altında Govurqalanın mərkəzi hissəsində qazıntı işləri apararaq qala divarının bir hissəsini təmizləmişdir. Məlum olmuşdur ki, orta tunc dövrünə aid qala divarının üzərində e.ə II minilliyin sonunda son tunc dövrünə aid qala divarı tikilmişdir. Bu divar ölçüləri 1.7 x 0.6 m-0.5 x 0.6 metr olan iri daşlardan hörülmüşdür. Şimal-qərb divarının hündürlüyü 2.45-dir. Qala divarının bünövrəsi müxtəlif ölçülü daşlardan tikilmiş, üzəri isə çiy kərpicdən inşa

edilmişdir. Özülü daşdan olub, üzəri çiy kərpicdən inşa edilmiş müdafiə divarına II Kültəpədə də rast gəlinir [5, s.10].

Şahtaxtı Govurqalasında bu dövrə aid mədəni təbəqədə boz rəngli keramika üstünlük təşkil edir [2, s.129]. Bəzi gil qabların üzərində Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan göbələkvari və qulpabənzər çıxıntılara rast gəlinir. Tikinti qalıqlarından görünür ki, binalar düzbucaqlı formada, daş təməl üzərindən çiy kərpiclə inşa edilmişdir. Ə.K.Ələkbərov Şahtaxtını şəhər tipli yaşayış yeri adlandırmışdır [3, s.57].

Qızılburun yaşayış yeri Araz çayının sol sahilində yerləşir. 1895-ci ildə təsədüfən bir rus hərbçisi tərəfindən buradakı daş qutu tipli qəbir abidələri aşkar edilmiş və 1927-ci ildə A.Miller adı çəkilən nekropolun yaxınlığında yaşayış yerini üzə çıxarmışdır [10, s.326]. İ.İ.Meşşaninov tərəfindən Erkən Dəmir dövrünə aid daş qutu qəbir tədqiq olunmuşdur [9, s.217-240]. Yaşayış yeri Orta Tunc və Erkən Dəmir dövrü materiallarını özündə əks etdirir. Yaşayış yerinin üzərindəki tikinti qalıqları əsaslı qazıntılara imkan vermir.

1969-cu ildə O.Həbibullayevin rəhbərliyi ilə aparılan qazıntılar Erkən Dəmir dövrü abidələrinin dağıldığını və aşındığını ortaya çıxardı. Aşkar edilmiş tikinti qalıqları Son Tunc və Erkən dəmir dövrünə aid deyil. Qəbir abidələri gil qablar, silah və bəzək əşyalarından ibarətdir [2, s.129]. Tapıntılar başlıca olaraq qırmızı, qismən də boz rəngli keramika ilə təmsil olunmuşdur. Narıncı, sarı rəngli keramikaya da təsadüf olunur.

Qalacıq yaşayış yeri Naxçıvan şəhərindən 30 km şimal-qərbdə, Şərur rayonunun Qarabağlar kəndi yaxınlığında yerləşir. Abidənin üst təbəqəsi Erkən Dəmir dövrünə aiddir [11, s.63-64]. Lakin bu dövrə aid tikinti qalıqları qalmamışdır. Abidə geniş sahəni əhatə edir [4, s. 46]. 1970-1980-ci illərdə burada V.H.Əliyev və M.M Seyidov tərəfindən kəşfiyyat xarakterli tədqiqat aparılmışdır. Yaşayış yerinin zirvəsində möhkəm müdafiə divarı ilə əhatə olunmuş dairəvi planlı "NARINQALA" yerləşir. Onun tutduğu sahə 2 hektara yaxındır. Abidənin Son Tunc və Erkən Dəmir dövrünə aid mədəni təbəqənin qalınlığı 1.5-2 metrdir. Yaşayış yerindən Erkən Dəmir dövrünə aid xeyli arxeoloji materiallar toplanmışdır [1, s.16-18]. Burada eyni zamanda orta tuncun boyalı qablarına da rast gəlinmişdir. Erkən Dəmir dövrünə xas boz rəngli keramika iki qrupa ayrılır. Burada ilk qazıntıları isə Meşşaninov və Miller aparmışlar. Daş qutu qəbirlər üçün kollektiv dəfnlər xarakterikdir. Aşkar olunmuş kasalar naxışlı və naxışsız olmaqla iki qrupa ayrılır. Tapıntılar e.ə. XI-IX əsrlərə aid edilir və Xocalı-Gədəbəy mədəniyyəti ilə də səsləşir.

Plovdağ yaşayış yeri Naxçıvan Ordubad avtomobil yolundan bir kilometr kənarda, eyni adlı dağın cənub ətəyində, Gilançayın sol sahilində yerləşir. Abidə 1977-ci ildə V.H.Əliyev və B.İ.İbrahimov tərəfindən qeydə alınmış və ilkin tədqiqatlar zamanı bu dövrə aid arxeoloji materiallar toplanmışdır [7, s.113].

1987-88-ci illərdə Q.M.Aslanovun rəhbərliyi altında Xaraba-Gilan arxeoloji ekspedisiyası abidədə geniş miqyaslı qazıntı işləri aparmışdır. Qazıntılar nəticəsində Plovdağ yaşayış kompleksi və müdafiə divarı, həmçinin 30-dan artıq kiçik kurqan tədqiq edilib öyrənilmişdir. Yaşayış yerinin tutduğu sahə 800 kv.m-dir. Burada dörd yaşayış evinin qalığı tamam və bir kompleksə aid dəhliz və üç yaşayış evinin qalığı isə qismən öyrənilmişdir. Birinci yaşayış evi abidənin cənub-qərb hissəsində aşkar olunmuşdur. Düzbucaqlı planlı tikilinin bir divarı qismən dağıdılmış, qalan 3 divarı isə salamat qalmışdır. Burada 60-70 sm qalınlığında mədəni təbəqə aşkar edilmişdir. İkinci yaşayış evi birincidən şərq tərəfdə yerləşir. Onun şimal hissəsində olan qapı yeri hörülüb bağlanmışdır. Binanın cənub tərəfindəki təsərrüfat quyusunun (d=70 sm) içərisində üyüdülmüş darı qalıqları tapılmışdır. Üçüncü yaşayış evi isə ikincidən şərqdə yerləşir. Evin içərisində təsərrüfat quyusuna və gil qab parçalarına rast gəlinmişdir. Yaşayış yerində həyat e.ə II minilliyin ortalarından e.ə XIII-XII əsrədək davam etmişdir [7, s.114].

Çalxan yaşayış yeri 2001-ci ilin tədqiqatları zamanı aşkar edilmişdir. Abidə Babək rayonunun Çalxanqala kəndi yaxınlığında, şərq-qərb istiqamətində uzanan təbii təpənin üzərində yerləşir. Onun üzəri yerüstü materiallarla zəngindir. Bəzi yerlərdə qala divarının qalıqları

aydın şəkildə izlənilir. Toplanan yerüstü material, başlıca olaraq, e.ə I minilliyin ilk əsrlərinə aiddir [13, s.160].

Qız qalası yaşayış yeri Naxçıvan şəhərindən 22-25 km şimalda, Payız kəndindən 4-5 km aralı, Çalxanqala ilə üz-üzə Cəhriçayının sol sahilində yerləşir. Abidədə tədqiqatlar 2001-ci ildə A.Q.Seyidov və V.H.Kərimov tərəfindən aparılmışdır. Onun yerləşdiyi sahə təbii qayalardan ibarətdir. Yaşayış yeri qayanın üzərini kəmər kimi dövrələyən ensiz bir zolaqda yerləşir. Abidənin üzərindən son tunc dövrünə boyalı qabların tənəzzül mərhələsinə aid keramika məmulatı toplandı [13, s, 161]. Burada rast gəlinən bəzi keramika nümunələrindən görünür ki, abidədə orta əsrlərdə yaşayış olmuşdur.

Payız yaşayış yeri Babək rayonunun eyni adlı kəndinin ərazisində, Cəhriçayın sol sahilində, Çalxanqala ilə üz-üzə, şimal-cənub istiqamətində uzanan təbii təpənin üzərində yerləşir. Onun tutduğu sahə təqribən 2 ha yaxındır. Abidə 2001-də A.Q. Seyidov və V.H. Kərimov tərəfindən qeydə alınmışdır. Burada tərəfimizdən (4.3x4.3 m sahədə) 18.5 m2 ərazidə kəşfiyyat qazıntısı aparıldı. Qazıntı işləri bir neçə metr dərinliyədək davam etdirildi və heç bir tikinti qalığına rast gəlinmədi. Abidədə mədəni təbəqə çox zəif izlənilir. Abidənin üzərindən 80 sm dərinlikdə bükülü vəziyətdə, sol böyrü üsdə uzadılmış skletə rast gəlindi. Sklet ilk orta əsrlər dövrünə aiddir. Bu dərinliyədək bir neçə orta əsr keramikasına rast gəlindi. Görünür, ilk orta əsrlər dövründə yaşayış yerinin üzərində qəbristanlıq olmuşdur. Abidənin üzərindən və qazıntı sahəsindən tapılmış əsas material çəhrayı və boz rəngli gil qab parçalarından ibarətdir. Yaşayış yerinin çox hissəsi müasir tikililərin altında qalmışdır. Keramika son tunc və erkən dəmir dövrünə e.ə II minilliyin sonu – e.ə I minilliyin əvvəllərinə aiddir [13, s.155-156]. Beləliklə, birinci qrupa aid etdiyimiz yaşayış yerinin əksəriyyətində tunc dövrünün əvvəlki mərhələlərində də əhali məskunlaşmışdır. (I, II Kültəpə, Şahtaxtı və s.). bu abidələrdə əhali oturaq həyat keçirdiyindən, kifayət qədər mədəni təbəqə yığılmış, son tunc dövrü üçün xarakterik olan boyalı qabların istehsalı davam etmişdir. Bəzi yaşayış yerində (Plovdağ) evlər planlı tikilmiş, ayrı-ayrı otaqlar müxtəlif təyinatlı olmaqla, onlardan biri təsərüfat məqsədi daşımışdır. B.İ.İbrahimov belə qənaətə gəlir ki, Plovdağ yaşayış yeri güclü yanğın və sonra sel suları nəticəsində dağılmışdır. Abidənin bir neçəsi yalnız kəşfiyyatla öyrənildiyindən (Qız qalası, Çalxan yaşayış yeri) onlar haqqında hələlik söz demək çətindir.

Naxçıvan ərazisində ikinci qrupa aid etdiyimiz yaşayış yerləri qala tiplidir. V.H.Kərimov qədim müdafiə istehkamlarını xarici görünüş və tikinti texnikasına görə iki yerə ayırır. O, birinciyə iri daşlardan iki cərgə hörülmüş qalaları (Naxçıvan ərazisində yerləşən Qazançı qalası, Vayxır qala, Çarxanqala, Qarabağlar, Govurqalası) daxil edir [8, s.36]. O, ikinci tip müdafiə istehkamları sırasına ətrafı bir cərgə 1-3 m böyüklüyündə olan iri daşlarla möhkəmləndirilmiş yaşayış yerini (Oğlanqala, Əznəbürd qalası) aid edir [8, s.36]. Bu abidələr içərisində Qazançı qalası xüsusi yer tutur.

Qazançı qalası Culfa rayonunun Qazançı kəndi yaxınlığında, hündür dağın üzərində yerləşir. Yaşayış yeri Əlincəçayın axdığı dərin dərə ilə iki yerə ayrılır. Burda inşa edilən su anbarının tikintisi ilə əlaqədar onun sağ sahil hissəsi tamamilə dağıdılmışdır. Abidənin bu hissəsində yarımdairəvi bürclərlə möhkəmləndirilmiş dairəvi planlı müdafiə divarının (d=120m) olduğu müəyyən edilmişdir [4, s.55-56]. 1998-99-cu illərdə burada yeni qazıntılar aparılmışdır. Narınqala və müdafiə divarı e.ə. I minilliyin əvvəllərinə aiddir [2, s.136]. Keramika məmulatına əsasən burada orta tuncdan erkən dəmir dövrünə qədər yaşayış olduğu güman edilir. Qalanın yerləşdiyi ərazi təbii cəhətdən müdafiə olunmaqla yanaşı, relyefə uyğun olaraq, qala divarları ilə əhatə olunmuşdur. Onun sahəsi 5.6 ha-dır. Qala divarlarının müxtəlif dövrlərdə inşa edilməsi nəzərə çarpır. Birinci dövrə aid tikintiləri təqribən e.ə II minilliyin ortalarına və ya ikinci yarısına aid etmək olar. Bu divarlar uzunsov formalı daş bloklardan inşa edilmişdir. Divarların xarici tərəfində bəzən birtəfli çıxıntılara rast rəlinir. Diş biçimli belə çıxıntılara Çalxanqalada rast gəlinir. Lakin onlardan fərqli olaraq burada çıxıntılar azdır və ümumi memarlıq ünsürü təşkil etmir. Qala divarlarından görünür ki, o dəfələrlə bərpa edilmişdir. Divar-

ların eni müxtəlif ölçüdədir. Şimal və şimal-qərbdən qalaya girmək nisbətən asan olduğu üçün, buradakı divarların eni 2.6-3 m çatır. Divarın salamat qalan hissəsinin hündürlüyü 1-2 m-dir [11, 1993, s.37]. Qalanın şərq tərəfindən eni iki metr olan qala qapısı, içəridə isə dördkünc planlı bina qalıqları vardır [4, s. 55].

Məqalənin elmi nəticəsi. Son Tunc və Erkən Dəmir dövrü maddi mədəniyyətinin qalıqlarına Naxçıvanın istər aran, istərsə də dağlıq bölgələrində yerləşən yaşayış məntəqələri və qəbir abidələrində kifayət qədər rast gəlinmişdir. Dövrün maddi mədəniyyətinin arxeoloji ədəbiyyatda Xocalı-Gədəbəy adlandırılan mədəniyyətlə bağlı və yaxın olması tədqiqatçılar tərəfindən də qeyd edilmişdir. Son Tunc dövründən əvvəl yaranmış boyalı keramikaya araşdırılan dövrün arxeoloji materiallarında sıx rast gəlinir. SonTunc və Erkən Dəmir dövrünün maddi mədəniyyət nümunələri bir-birinə yaxın olduğundan bu dövrlərin tədqiqatı birlikdə aparılmışdır. Tədqiqatlar nəticəsində aşkar edilmiş arxeoloji materiallar Naxçıvanda yaşayan tayfaların Yaxın Şərq ölkələri ilə geniş siyasi, iqtisadi və ticarət əlaqələri saxladığını, eləcə də qarşılıqlı mədəni təsirini əyani şəkildə göstərir. Dövrün arxeoloji materallarına diqqət versək, boyalı keramikanın boz rəngli keramikaya nisbətdə daha üstün olduğu ortaya çıxır.

Tədqiqatçıların gəldiyi nəticəyə əsasən, Xocalı-Gədəbəy və Naxçıvanın maddi mədəniyyətində yaxınlıqlar bu mədəniyyətin yaradıcılarının eyniliyi ilə bağlıdır. Belə ki, Xocalı-Gədəbəy mədəniyyətinin olan tayfalar Naxçıvan ərazisindən keçməklə cənuba doğru – Şimal Qərbi İran və Urmiya gölü hövzəsinə yerləşmişlər. Onların köç səbəbi e.ə.II minilliyin sonu – I minilliyin əvvəli olmuşdur. Bir hissəsi Naxçıvanda məskunlaşan bu tayfalar özləri ilə mənsub olduqları Xocalı-Gədəbəy mədəniyyətinin nümunələrini gətirmiş və bu tayfaların yerli tayfalarla assimilyasiyası yerli mədəniyyətə gəlmə elementlərinin daxil edilməsindən aydın olur.

Arxeoloji materiallar sübut edir ki, Azərbaycanın tarixi əraziləri olan, sonradan ermənilərin məqsədli şəkildə köçürülərək torpaqlarımıza yerləşdiriməsi ilə yaradılan indiki Ermənistan ərazisində mövcud olmuş mədəniyyət Azərbaycanın şimalı üçün xarakterik olan Xocalı-Gədəbəy mədəniyyətinin tərkib hissəsi olmuşdur. Ermənilərin Urartu mənşəli olmaları iddiaları və tarixi təhrif edərək özününkiləşdirmə siyasəti, yəni Naxçıvan və başqa ərazilərimizi erməni torpaqları kimi tanıtması arxeoloqlar tərəfindən elmi sübutlarla rədd edilir. A.A Martirosyan, A. Qevorkyan, K.X.Kuşnaryeva və başqa bu qəbildən olan erməni və ermənipərəstlər bu iddialara saxta və heç bir əsası olmayan tarixi, arxeoloji don geyindirməklə məqsədli şəkildə təbliğ olunur.

Xocalı-Gədəbəy mədəniyyətinin elementlərinin Naxçıvan maddi mədəniyyətində ortaya çıxması Xocalı-Gədəbəy ərazisindən tayfaların cənuba köçü ilə bağlıdır. Bu tayfalar I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun və başqa yaşayış yerlərində məskunlaşmışlar və bu məskunlaşma uzun müddət davam etmişdir.

Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, Naxçıvan ərazisində Son Tunc və İlk Dəmir dövrlərində olan yaşayış məskənləri kompleks şəkildə araşdırılmış və elmi dövriyyəyə daxil edilmişdir.

Məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, Naxçıvan ərazisindəki Son Tunc və İlk Dəmir dövrlərində olan yaşayış məskənləri ilə maraqlananlar buradakı məlumatlardan araşdırmalarında mənbə kimi istifadə edə bilərlər.

Ədəbiyyat

1. Baxşəliyev, V.B. Naxçıvanın erkən dəmir dövrü mədəniyyəti / V.B.Baxşəliyev. – Bakı: Elm, – 2002.
2. Baxşəliyev, V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti / V.B.Baxşəliyev. – Bakı: Elm, – 2004.
3. Ələkbərov, A.K. Исследования по археологии и этнографии Азербайджана / A.K.Ələkbərov. – Баку: Элм, – 1960.

4. Əliyev, V.Q. Культура эпохи средней бронзы Азербайджана / V.Q.Əliyev. – Баку: Элм, – 1991.
5. Əliyev, V.B. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti / V.B.Əliyev. – Bakı: Elm, – 1977.
6. Həbibullayev, O.A. Энеолит и бронза на территории Нахичеванской АССР / O.A.Həbibullayev. – Баку: Элм, – 1982.
7. İbrahimov, B.İ. Археология и этнография Кавказа / B.İ.İbrahimov. – Баку, – 2000.
8. Керимов, В.И. Оборонительные сооружения Азербайджана / В.И.Керимов. – Баку: Элм, – 1998.
9. Мешанинов, И.И. Краткие сведения о работах археологических экспедиций в Нагорном Карабахе и Нахичеванском крае. Сообщения ГАИМК / И.И.Мешанинов. – Л., – 1926.
10. Миллер А.А. Археологические исследования в Нахичеванской Республике летом 1926 года Сообщ. ГАИМК, Л., 1926.
11. Novruzlu, Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri / Ə.İ.Novruzlu, V.B.Baxşəliyev. – Bakı: Elm, – 1992.
12. Seyidov, A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə / A.Q.Seyidov. – Bakı: Elm, – 2003.
13. Seyidov, A.Q. Cəhriçay vadisinin arxeoloji abidələri / A.Q.Seyidov. – Bakı: Elm, – 2002.

Kh.A.Huseynov, Z.H.Huseynova

Ancient Settlements in the Territory of Nakhchivan During the Late Bronze and Early Iron Ages

Summary

The territory of Nakhchivan has been one of the human settlements since ancient times, and the archaeological cultures found in this region are the legacy of the people who once lived there. Historical monuments have been more frequently discovered in the areas of Nakhchivan that are favorable for human habitation. The settlements located in most of these geographical zones have been studied, and their chronological periods and archaeological materials have been identified. During the Late Bronze and Early Iron Ages, human communities that established settlements in the fertile valleys of the Zangezur and Daralayaz mountain ranges, as well as along the basins of the Arpachay, Araz, Alinjachay, and Nakhchivanchay rivers, expanded over larger and wider areas. These regions offered favorable conditions for agriculture, animal husbandry, craftsmanship, and trade.

Key words: *Azerbaijan, Nakhchivan, Settlement, Late Bronze Age, Early Iron Age*

Х.А.Гусейнов, З.Г.Гусейнова

Древние поселения в Нахчыване в эпоху позднего бронзового и раннего железного веков

Резюме

Территория Нахчывана с древнейших времён была одним из мест проживания людей. Археологические культуры, обнаруженные в этом регионе, являются наследием людей, живших здесь в те времена. На благоприятных для жизни участках территории Нахчывана археологические памятники встречаются более часто и большинство поселений, расположенных в этих географических районах, были исследованы, в результате чего были определены их хронологические периоды и археологические материалы.

Во времена позднего бронзового и раннего железного веков люди, создававшие поселения в районах с благоприятными условиями для земледелия, скотоводства, ремесла и торговли – в долинах рек Арпачай, Араз, Элинджачай, Нахчыванчай, а также в горных хребтах Зангезура и Дараляза, – расселились на ещё более обширных и широких территориях.

Ключевые слова: *Азербайджан, Нахчыван, поселение, Поздний бронзовый век, Ранний железный век*

Rəyçilər: tarix e.d., dos. S.Z.Abbasova
tarix ü.f.d. N.M.Hüseynbəyli

Redaksiyaya daxil olub:14.04.2025

X.A.HÜSEYNOV
tarix elmləri doktoru, professor
e-mail: xezerhuseynov@gmail.com
:https://orcid.org/0009-0009-9396-1903

N.N.PAŞAYEVA
e-mail: nubarpashayeva0208@gmail.com

Naxçıvan Dövlət Universiteti
(Naxçıvan şəh., Universitet şəhərciyi)

AZƏRBAYCAN TORPAQLARININ RUSİYA VƏ İRAN ARASINDA BÖLÜŞDÜRÜLMƏSİNİN BAŞA ÇATMASI, TÜRKMƏNÇAY MÜQAVİLƏSİNİN AĞIR NƏTİCƏLƏRİ

Xülasə. *XIX əsrin əvvəlləri Rusiya imperiyasının Qafqazda müstəmləkəçilik siyasətinin gücləndiyi bir dövr idi. Bu dövrdə çar hökuməti regionu tam nəzarət altına almaq məqsədilə iqtisadi, siyasi və sosial tədbirlər həyata keçirmişdir. 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanması Azərbaycan xalqı üçün ağır siyasi, iqtisadi və mədəni nəticələrə səbəb olmuşdur. Azərbaycanın Rusiya tərəfindən işğalı məqsədli şəkildə "könüllü birləşmə" kimi xarakterizə olunsa da, əslində bu könüllü deyil, silah gücü ilə həyata keçirilmişdi. Türkmənçay müqaviləsi Azərbaycan torpaqlarının işğal edilməsi prosesinin sonu olmuşdu.*

Açar sözlər: *Azərbaycan, Qacarlar, Türkmənçay müqaviləsi, işğalçılıq siyasəti*

Giriş

XIX əsrin əvvəlləri Rusiya imperiyasının Qafqazda müstəmləkəçilik siyasətinin gücləndirdiyi bir dövr idi. Bu dövrdə çar hökuməti regionu tam nəzarət altına almaq məqsədilə iqtisadi, siyasi və sosial tədbirlər həyata keçirmişdir. Bu siyasət yerli əhali arasında ciddi narazılığa səbəb olmuş, nəticədə bir sıra üsyan və çıxışlara gətirib çıxarmışdır. Azərbaycan torpaqlarında baş verən bu hərəkatlar həm sosial, həm də milli müstəqillik üçün mübarizə kimi dəyərləndirilir. XIX əsrin əvvəlləri Azərbaycan tarixi üçün olduqca çətin bir dövr olmuşdur. Bu zaman Rusiya və İran arasında gedən müharibələr Azərbaycan torpaqlarının bölüşdürülməsi ilə nəticələnmişdir. 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanması Azərbaycan xalqı üçün ağır siyasi, iqtisadi və mədəni nəticələrə səbəb olmuşdur. Bu müqavilə həm ərazi itkisi, həm də Azərbaycanın ikiyə bölünməsi ilə tarixə düşmüşdür.

Türkmənçay müqaviləsinin ağır nəticələri

1804-1813-cü illərdə baş verən Birinci Rusiya-İran müharibəsi Gülüstan müqaviləsi ilə nəticələndi. Bu müqavilə ilə Şimali Azərbaycanın bir hissəsi Rusiyanın nəzarətinə keçdi. 1826-1828-ci illərdəki İkinci Rusiya-İran müharibəsi isə Türkmənçay müqaviləsi ilə yekunlaşdı (şəkil 1). Türkmənçay müqaviləsi 1828-ci il fevralın 10-da imzalanıb. 16 maddədən ibarət olan müqavilənin 1-ci və 2-ci maddələrində Türkmənçay müqaviləsinin bundan sonra Rusiya çarı ilə onların taxt-tac varisləri olan Qacar şahı ilə bu iki dövlət arasında əbədi sülh, dostluq və əməkdaşlıq müqaviləsi olacağı qəbul edilsə də, əslində bu müqavilə Azərbaycanın tarixi, əzəli torpaqları iki dövlət arasında qəsdən bölüşdürüldü və bütöv Azərbaycan birliyi aradan qaldırıldı [6, s.99; 7, s.111-113].



Şəkil 1. Türkmənçay müqaviləsinin imzalanması

Bu müqavilənin 3-cü maddəsinə əsasən, Qacar şahı İrəvan və Naxçıvan xanlıqlarının bütün əmlakını özü və varisləri adından Rusiya imperiyasına buraxdı.

4-cü maddədə iki dövlət arasında sərhəd müəyyən edilmişdir.

5-ci maddədə Qafqaz dağları ilə Xəzər dənizi arasındakı torpaqların aşağıdakı kimi Rusiyaya aid olduğu qəbul edilir. "Qacar şahı Rusiya imperatoru ilə səmimi dostluğunun sübutu olaraq özü və varisləri adından qəbul edir ki, Qafqaz dağ silsiləsi ilə Xəzər dənizi arasında yerləşən torpaqlar və adalar, bu ərazidə yaşayan bütün köçəri və başqa xalqlar ölkələr əbədi olaraq Rusiya imperiyasına məxsusdur".

6-cı maddəyə görə, Qacarlar Rusiyaya təzminat ödəməyə razı olmalı idilər. "Qacar şahı iki dövlət arasındakı bu müharibənin Rusiyaya vurduğu böyük ziyanı təzminatla ödəməyi öhdəsinə götürdü."

7-ci maddəyə görə, Rusiya Qacar şahının oğlu Tac Abbas Mirzəni taxtın varisi və taxta çıxdıqdan sonra hökmdar kimi tanıyacaq.

8-ci maddəyə əsasən, Rusiya ticarət gəmilərinin əvvəlki kimi Xəzər dənizində və onun sahillərində sərbəst üzmək hüququ var idi. Bu maddəyə görə, Xəzərdə yalnız Rusiya hərbi gəmilərinə rast gəlmək olar. Xəzər dənizində Rusiyadan başqa heç bir ölkənin hərbi gəmiləri ola bilməz.

9-cu maddə iki dövlət arasında səfirlərin qarşılıqlı qəbulunu ehtiva edir.

10-cu maddəyə əsasən, hər iki dövlət arasında ticarət əlaqələri inkişaf etdirilirdi.

11-ci maddəyə görə, müharibədən sonra bütün yarımçıq qalan işlər ədalətli həll olunacaq.

12-ci maddəyə görə daşınmaz əmlakın sahibləri üç il ərzində onları dəyişdirməli və ya satmalıdırlar, lakin İrəvan Sərdarı Hüseyn xan və onun qardaşı Həsən xan, habelə Naxçıvanın keçmiş hakimi Kərim xan bu hüquqdan məhrum idilər.

13. Son və ya əvvəlki müharibədə hər iki tərəfdən əsir düşənlər azad ediləcək.

Müqavilənin 15-ci maddəsini xüsusi qeyd etmək lazımdır. Həmin maddəyə əsasən, Qacarlar dövlətində yaşayan insanların arzu etdikləri təqdirdə Rusiyaya köçə bildikləri və bu insanlar üçün münasib şəraitin yaradılacağı bildirilir. Bu maddə ermənilərin Qacar torpaqlarından Cənubi Qafqaza, o cümlədən Qarabağa kütləvi köçməsinə imkan verdi [5, s.136]. Nəti-

cədə Cənubi Qafqazda, xüsusilə İrəvan və Qarabağda çoxlu erməni ailələri yerləşdirildi. Bu müqavilənin ən faciəli nəticəsi Azərbaycanın iki yerə bölünməsi oldu. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən, Qacar hökuməti ermənilərin Rusiyanın işğal etdiyi bölgələrə köçürülməsinə icazə verdi və bununla da "Qacar torpaqlarında yaşayan ermənilərə Rusiyanın himayəsi altında sərbəst hərəkət etmək hüququ verildi". Məskunlaşma siyasəti 1828-ci il fevralın 26-da başlamış və həmin ilin iyunun 11-də əsasən başa çatdırılmışdır [10, s.27].

16-cı maddədə bu sülh müqaviləsinin imzalandıqdan sonra ən qısa zamanda hər yerdə elan edilməsi qərara alınmışdır. N.N. Şavrovun verdiyi məlumata görə, 1828-1830-cu illər müharibələri nəticəsində tarixdə çox az əhali ilə ermənilərin yaşadığı bir bölgədə 40 mindən çox Qacar və 84 mindən çox Osmanlı ermənisi yaşamışdır. Yelizavetapol və İrəvan quberniyaları (quberniyaları), Borçalı, Tiflis və s. rayonların ən münbit torpaqlarına köçürdülər. Onu da nəzərə almaq lazımdır ki, Qarabağın dağlıq hissəsinə rəsmi olaraq 124.000-dən çox, qeyri-rəsmi olaraq isə 200.000-dən çox erməni köçüb [8, s.141]. 1828-1829-cu illər Osmanlı-Rusiya müharibəsindən sonra erməni xalqının böyük bir hissəsi Osmanlı imperiyasından Cənubi Qafqaza deportasiya edildi. General Paskeviç 1829-cu il oktyabrın 10-da imperator I Nikolaya məruzəsində 10.000 ermənin Gürcüstana və qondarma "Erməni vilayəti"nə köçürülməsinə icazə verilməsini xahiş etdi [13, s.87]. General Paskeviç imperatorun dəstəyi ilə ermənilərin Osmanlı imperiyasından Cənubi Qafqaza köçürülməsi ilə bağlı xüsusi komitə yaratdı. Bölgənin Rusiya tərəfindən işğalından sonra yaradılmış qondarma "Erməni vilayəti"ndə 3682 erməni ailə yerləşdirilmişdir [2, s.123]. Rəsmi məlumatlara görə, 1828-1830-cu illər arasında Qacar və Osmanlı imperiyasından 90.000 erməni Azərbaycanın şimalındakı ən münbit torpaqlarda yerləşdirilmişdir [9, s.237]. Müqavilənin şərtlərini yerinə yetirmık üçün çar hökuməti ermənіləri Azərbaycan torpaqlarında məskunlaşdırmağa razı salmaq üçün ən məşhur məmurları bu işə cəlb etmişdir.

Ermənilərin deportasiya siyasətini həyata keçirmək üçün çarizmin atdığı ciddi addımlardan biri də Cənubi Qafqazda ermənilər üçün xüsusi "dövlət" yaratması idi. Belə ki, 1828-ci il martın 20-də Türkmənçay müqaviləsi təsdiq edildikdən bir gün sonra, martın 21-də çar I Nikolay "Erməni vilayəti"nin yaradılması haqqında fərman imzaladı [11, s.71].

Beləliklə, 16-cı maddədən ibarət olan bu müqavilənin şərtlərinə görə, Qacarlar bütün Şimali Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya birləşdirilməsini qəbul edəcəkdilər. Xəzər dənizində yalnız Rusiya donanmasına rast gəlmək mümkün idi. Müqaviləyə əsasən, Qacarlar Rusiyaya 20 milyon rubl təzminat verməyə razı oldular [12, s.323]. Türkmənçay müqaviləsi Azərbaycan üçün çox ağır nəticələr verdi. Bu müqavilənin ən faciəli nəticəsi Azərbaycan torpaqlarının iki yerə bölünməsi oldu və hökmdarları Azərbaycan türkləri olan Qacarlar imperiyası Araz axınının şimalındakı bütün torpaqlarını Rusiyaya itirdi. Bundan əlavə, Rusiya bu müqavilə nəticəsində ermənilərin Qacar imperiyası ərazisindən Cənubi Qafqaza köçməsi üçün zəmin hazırladı. Bu vəziyyət ermənilərin Cənubi Qafqaz torpaqlarında kök salması ilə nəticələndi. Beləliklə, Azərbaycan Türklərin vətəni iki yerə bölündü. İşğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının torpaqları "Erməni vilayəti" elan edildi [3, s.218]. Ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə yerləşdirilməsindən sonra bəzi tarixçilər onları "Türkmənçay uşaqları" adlandırmağa başladılar [1, s.51].

Xristian əhalinin Rusiyadan Azərbaycana köçürülməsinə cəhd edilsə də, ilk vaxtlar nəticə vermədi. Rusiya bir çarə olaraq qonşu ölkələrdə yaşayan ermənіləri Cənubi Qafqazda işğal etdiyi Azərbaycan torpaqlarına, xüsusilə Qarabağın dağlıq bölgələrinə, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının torpaqlarına dəvət yerləşdirdi. Beləliklə, Azərbaycan torpaqlarında qondarma Ermənistan dövlətinin əsası qoyuldu.

1828-1829-cu illərdə Qacar imperiyasından Azərbaycanın şimal torpaqlarına, əsasən Naxçıvan, Ordubad və Qarabağa 35560 erməni yerləşdirilmişdir. Həmin illərdə Qarabağ xanlığında ermənilərin sayı 18 min nəfər, 1843-cü ilə qədər isə bölgədəki erməni əhalisinin sayı 34606 nəfərə çatmışdı [14, s.71].

Çar hökuməti ermənilərі türklərin münbit torpaqlarında yerləşdirərək onlara xüsusi imtiyazlar vermişdi. Ermənilərin bu bölgədə məskunlaşması türk və müsəlman əhalinin demoqrafik vəziyyətinə mənfi təsir göstərmişdir. Azərbaycan türklərinin bölgədəki payı getdikcə azalmışdı, Azərbaycan türkləri tədricən öz tarixi torpaqlarını tərk etməyə başlamışlar. Rus yazıçısı V.Qriqoryev bu haqda qeyd etmişdir ki "1827-1829-cu illərdə Naxçıvan xanlığında 4600 ailə yaşayırdı. Onlardan 4170 nəfəri türk idi, Türkmənçay və Ədirnə müqavilələrindən sonra 1400 müsəlman türk ailəsi Naxçıvanı tərk etməli olmuşduu" [6, s.45].

Rusiyanın Xəzər sahillərini ilhaq etmək səyləri nəticəsində Rusiya-Ermənistan əlaqələri daha da genişləndi. Bu hadisələr zamanı ermənilərin Çar Rusiyasında məskunlaşması və burada erməni koloniyaları yaratması prosesi başlandı. Rusiya-erməni münasibətlərinin genişlənməsində I Pyotrun mühüm rolu olmuşdur. Pyotrun siyasəti onun varisləri tərəfindən davam etdirilmişdir.

Nəticə. XIX əsr Azərbaycan tarixinə aid bir sıra məsələlərə, xüsusilə XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalına nəzər salsaq, görərik ki, bu dövrdə Azərbaycanın Rusiya tərəfindən işğalı məqsədli şəkildə "könüllü birləşmə" kimi xarakterizə olunsa da, əslində bu birləşdirilmə könüllü olaraq deyil, silah gücü ilə həyata keçirilmişdi. Türkmənçay müqaviləsi Azərbaycan torpaqlarının işğal edilməsi prosesinin sonu olmuşdu. Azərbaycanın Qacarlarda qalan hissəsi üçün Cənubi Azərbaycan, Rusiyada qalan hissəsi üçün isə Şimali Azərbaycan terminləri işlənmişdi. Bu müqavilə nəticəsində məqsədli şəkildə ermənilərin İrandan (Qacar imperiyası ərazisindən) və Türkiyədən Azərbaycana köçürülməsi nəticəsində onlar tarixi, əzəli torpaqlarımızda kök salmışlar.

Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsindən ətraflı bəhs edilmiş, bu məsələlər kompleks şəkildə araşdırılmış və elmi dövriyyəyə daxil edilmişdir.

Məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, Türkmənçay müqaviləsinin bağlanması və həyata keçirilməsi ilə maraqlananlar araşdırmalarında ondan bir mənbə kimi istifadə edə bilərlər.

Ədəbiyyat

1. Babaşov, M. XIX əsrdə Çar Rusiyasının Azərbaycanda apardığı milli və dini seqreqasiya siyasətinin mahiyyəti / M.Babaşov. – Bakı: Qafqaz Universiteti, – 2005. – 198 s.
2. Əliyev, M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı tarixi / M.Əliyev. – Bakı: Adiloğlu, – 2001. – 216 s.
3. Mahmud, İ. Azərbaycan tarixi / İ.Mahmud. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1993. – 318 s.
4. Okan, Y. "Türkmençay anlaşması ve sonuçları" // Ankara üniversitesi Türkiyat Araştırmaları Enstitüsü dergisi, say: 36, 2008, – s.185-190.
5. Pakrəvan, Əminə Həsənxan qızı. Abbas Mirzə və Azərbaycan: monoqrafiya (fars dilindən tərc. G. A. Gəncalp ; red. İ. Ucaruh.) – Bakı: Qanun, –2010. –336 s.
6. Türkmen, Z. 19. Yüzyılın başlarında Rusya'nın Güney Kafkasya politikası, Sekizinci Askeri Tarih Semineri Bildirileri I, 2003, – 226 s.
7. Şükürov, K. Türkmənçay – 1828: Tarixi xronika (ixtisarla) / K.Şükürov. – Bakı: Elm, –2006. –188 s.
8. Базиленко, И. Россия и Иран (Страницы мифической и достоверной истории) / И.Базиленко. – СПб: Издательство Cank-Петербургского университета, – 2000. – 230 s.
9. Жигарев, С. Русская политика в Восточном вопросе / С.Жигарев. – Москва: Университетская типография, – 1896. – 257 s.
10. Киняпина, Н., Блиев, М. Дегоев В. Кавказ и Средняя Азия во внешней политике России / Н.Киняпина, М.Блиев. – Москва: Издательство МГУ, – 1984, – 136 s.
11. Красновский, А. История русской Армии / А.Красновский. – Москва: Голос, – 1993. – 129 s.
12. Мильман, А. Политическая история Азербайджана XIX – начала XX вв. / А.Мильман. – Баку: Азернешр, – 1966, – 330 s.
13. Сотавов, Н. Крах грозы Вселенной / Н.Сотавов. – Махачакала: Эпоха, – 2000. – 199 s.
14. Шавров, Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам / Н.Шавров. – С.-Петербург: Рус. собрание, – 1911. – 211 s.

Kh.A.Huseynov, N.N.Pashayeva

The Completion of the Division of Azerbaijani Lands and the Harsh Consequences of the Treaty of Turkmenchay

Summary

The early 19th century was a period during which the Russian Empire intensified its colonial policies in the Caucasus. During this time, the Tsarist government implemented various economic, political and social measures to establish full control over the region. The signing of the Treaty of Turkmenchay in 1828 had severe political, economic and cultural consequences for the Azerbaijani people. Although the annexation of Azerbaijan by Russia was officially characterized as a "voluntary union," in reality, it was achieved through military force. The Treaty of Turkmenchay marked the culmination of the process of occupying Azerbaijani lands.

Key words: *Azerbaijan, The Qajars, Turkmenchay treaty, occupation policy*

Х.А.Гусейнов, Н.Н.Пашаева

Завершение раздела азербайджанских территорий между Россией и Ираном, тяжёлые последствия Туркманчайского договора

Резюме

Начало XIX века было периодом усиления колониальной политики Российской империи на Кавказе. В этот период царское правительство осуществляло экономические, политические и социальные меры с целью установления полного контроля над регионом. Подписание Туркманчайского договора в 1828 году повлекло за собой тяжёлые политические, экономические и культурные последствия для азербайджанского народа. Хотя присоединение Азербайджана к России целенаправленно характеризовалось как «добровольное объединение», на самом деле оно было осуществлено не добровольно, а с применением военной силы. Туркманчайский договор ознаменовал окончание процесса захвата азербайджанских территорий.

Ключевые слова: *Азербайджан, Каджары, Туркманчайский договор, политика захвата*

Rəyçilər: tarix e.d., dos. S.Z.Abbasova,
tarix ü.f.d. Z.Q.Əliyev

Redaksiyaya daxil olub: 16.04.2025

A.Ə.MEHDİYEVA
tarix üzrə fəlsəfə doktoru, dosent
e-mail: ayten-69@mail.ru
:https://orcid.org/0000-0001-7819-3103


Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MARAQLI TARİXİ MƏNBƏ

Xülasə. *Azərbaycan tarixi maraqlı hadisələrlə zəngindir. Bu ölkənin XX əsrin 20-30-cu illər tarixi hələ də müxtəlif tarixçilər tərəfindən araşdırılmaqdadır. Tədqiqatçılar qeyd olunan mərhələdə Azərbaycan kəndində baş verən hadisələri fərqli dəyərləndirmişlər. Həmin hadisələrin tədqiqinə həsr olunmuş əsərlərdən C.Cəfərovun kitabını qeyd etmək lazımdır. Kitabda tədqiqatçı tərəfindən mövzu araşdırılmış, çoxsaylı mənbələr əsasında yeni fikirlər irəli sürülmüş, Azərbaycan kəndinin qurulması zamanı əldə edilmiş nailiyyətlər və buraxılmış səhvlər göstərilmişdir. Kənd təsərrüfatının kollektivləşdirilməsi və sonrakı illərin reallıqları Azərbaycanda kənd təsərrüfatının inkişafına maneə kimi dəyərləndirilmişdir. Bu tədbirlər ölkədə çıxış, müqavimət və qiyamlara səbəb olmuşdur. Ölkədə hökm sürən inzibati-amirlik sistemi bir qədər özünü doğrultsa da, sistemin formalaşması zamanı buraxılan səhvlər onun yanlış olduğunu göstərmişdir.*

Açar sözlər: *Azərbaycan, siyasət, kənd, kollektivləşmə, öhdəlik, tarixi təcrübə*

Tarixi hadisələrin dəyərləndirilməsi həmişə dəqiqlik, sərrastlıq və uzaqgörənlik tələb edir. Hadisələrin dərindən təhlili onların əsil mahiyyətini anlamaq üçün əlverişli mühit yaradır. Tarlanın düzgün və minillik təcrübəyə əsaslanaraq becərilməsi gələcək məhsulun əsasını təşkil etdiyi kimi, tarixi hadisələrə də müxtəlif aspektlərdən yanaşmaq düzgün nəticə çıxarmağa, diqqətdən kənarda qalan məsələləri işıqlandırmağa, əslində, proseslərin bu istiqamətdə inkişafına səbəb olan fiqurların adını üstünə qoymağa və real motivləri dəyərləndirməyə şərait yaratmışdır. Bunun üçün etibarlı mənbə və hadisələri düzgün müstəvidə dəyərləndirmək iqtidarında olan tarixi əsərlərə müraciət etmək zəruridir.



Şəkil 1. C.Cəfərov. Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu – 30-cu illər). Bakı, 2008

Azərbaycan tarixində XX əsrin 20-30-cu illəri mürəkkəb dövrlərdən biri hesab olunur. Dövrün xarakterik xüsusiyyətləri bütün sahələr, o cümlədən kənd təsərrüfatında da öz əksini tapmışdır. Bu dövrdə baş verən kompleks şəkildə hadisələrin öyrənilməsinə həsr olunmuş əsərlərdən biri prof. C.Cəfərovun "Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu – 30-cu illər)" adlı kitabıdır [Şəkil 1].

Müəllifin "ədalət naminə" qeyd etdiyi kimi, "sovet tarixşünaslığında tədqiq olunmuş çoxlu sayda sənəd və materialın hazırda da öz aktuallığını itirməməsinə rəğmən [1, s. 9]. Belə bir kitabın meydana gəlməsi "qoyulan problemin kompleks şəkildə yenidən tədqiqinə müasir dövrdə böyük ehtiyac" olması ilə bağlıdır [1, s. 5].

Kitabın giriş hissəsində müəllifin təqdim etdiyi tarixşünaslıq diqqəti cəlb edir. O, Azərbaycanda kollektivləşmə ilə bağlı sovet tarixçilərinin əsərlərini həm dövrlər, həm də problemlər üzrə sistemləşdirməyə çalışmışdır. Eyni zamanda xronologiya ilə bağlı tarixçi alimlərin əsərlərini araşdırmış, onların XX əsrin 20-30-cu illərində baş verən digər problemlərlə bağlı fikirlərinə münasibət bildirmişdir. C.Quliyevin milli siyasət, M.Mirhadıyevin proletar diktaturası dövlətinin yaranması, Z.Şıxlinskinin Azərbaycan kəndində sovet quruculuğu məsələsi, R.Rəcəbovun ictimai təşkilatların kütlələri dövlətin idarə olunmasına cəlb etməsi, İ.Məmmədovun komsomolun sosializm qurmaq uğrunda mübarizə aparması və s.-ə həsr olunmuş müxtəlif əsərlərə münasibət bildirilməsi əsəri oxunaqlı etmişdir [1, s. 7].

Azərbaycan tarixçiləri sovet hakimiyyəti ilə bağlı 1920-1930-cu illərə daha çox diqqət yetirmişlər. C.Cəfərov eyni vəziyyətin dissertasiya mövzularının götürülməsi prosesində də bir ənənə şəklini aldığını qeyd etmişdir. Fikrini faktiki materiallarla təsdiqləyən müəllif Z.V.Mustafayevanın tərtib etdiyi biblioqrafiyaya müraciət etmişdir. 1920-1975-ci illərdə konkret olaraq C.Cəfərovun tədqiq etdiyi dövr üzrə 15 doktorluq, 96 namizədlik dissertasiyası müdafiə edilmiş [3] və müəllifin götürdüyü mövzu Azərbaycan tarixinin digər mövzularına nisbətən daha çox işlənmişdir [1, s. 7].

Bu ənənə XX əsrin 90-cı illərindən sonra da davam etmişdir. Mövzu ilə bağlı çox sayda monoqrafiya, kitab, elmi məqalə, bir sözlə, müxtəlif tədqiqat işləri yazılmış və fərqli fikirlər irəli sürülmüşdür. 1990-cı ildə Azərbaycan tarixçilərinin iştirakı ilə keçirilən "Kollektivləşmə: "Yuxarıdan inqilab" və reallığın acılığı" mövzusunda dəyirmi masada qeyd olunan fikir ayrılığı xüsusilə diqqəti cəlb etmişdir. C.Cəfərov bu müzakirədə çıxış edən Cəmil Həsənlinin fikrini xüsusi vurğulamışdır: "... tarixi həqiqətdən uzaqlaşmaq, təhriflərin kitablardan kitablara köçürülməsi, nəticədə elə bir şərait yaratmışdır ki, kollektivləşmənin tarixi tamamilə yenidən yazılmalıdır" [5, s.2; 1, s. 63]. C.Cəfərovun yazdığı kitabda məhz bu ənənə izlənilmiş, qeyd olunan ideya əsas götürülərək fərqli tədqiqat əsəri meydana çıxmışdır.

Azərbaycan kəndində kollektivləşmə mövzusunu təhlil edən tarixçi alim C.Cəfərov bu prosesin səhvlərini vurğulamışdır. Bu baxımdan işin yeniliyi, prosesin gedişi, kəndin sosial inkişafı, texniki təchizat və mədəni səviyyənin əlaqələndirilməməsi, kollektivləşmə prosesində qarşıya çıxan çətinliklər və buraxılan səhvlər müəllifin diqqətini cəlb etmişdir [1, s. 62]. O, alternativ variant kimi Azərbaycan kəndinin əsas inkişaf xüsusiyyətləri, yerli sosial – iqtisadi şəraiti nəzərə alaraq, asta keçidin doğru variant olmasını göstərmişdir. C.Cəfərov qolçomaqlara münasibət məsələsini də açıqlamışdır. Onun fikrincə, qolçomaqlara münasibət "prinsipal məsələ"dir və bununla bağlı "dəqiq göstərişlər" olmamışdır [1, s. 63]. "Бакинский рабочий" qəzetinin 1929-cu ildə çıxan nömrələrində qolçomaqların kolxozlara qəbul edilməsi ilə bağlı aparılan müzakirələri dəyərləndirən müəllif qoyulan problemlə bağlı müxtəlif fikirlərin olduğunu göstərmişdir [1, s. 63]. Bu səbəbdən səhvlərə yol verilmiş, bu səhvlərin aradan qaldırılmasına müəyyən cəhdlər göstərilmiş, ölkə rəhbərliyi kollektivləşmə prosesində yol verilən qeyri-mütəşəkkilliyin yığışdırılması üçün proseslərə bilavasitə müdaxilə etməli olmuşdur [1, s.67].

C.Cəfərov dövlətin yürütdüyü siyasətə də öz münasibətini bildirmişdir. Onun fikrincə, XX əsrin 20-ci illərinin sonlarında Sovet dövlətinin sərt iqtisadi metodları kəndlilərin iqtisadi marağına mənfi təsir göstərmiş, məhsuldarlıq azalmış, istehsal zəifləmiş, SSRİ-də "çörək böhranı" təhlükəsi yaranmış, sənayeləşmə və azad ticarət siyasəti üçün təhlükə yaranmışdır [1, s. 80].

Tarixçi alim C.Cəfərovun fikrincə, XX əsrin 20-ci illərinin sonlarında Sovet hakimiyyətinin yeni siyasi xətti kənddə sinfi təbəqələşmə və düşmənçiliyin güclənməsinə səbəb olmuşdur [1, s. 81]. Belə ki, C.Cəfərov M.Ə.Rəsulzadənin İ.Stalinə ünvanladığı və sovet dövlətinin bu siyasətinin tənqid edildiyi məktubuna istinad etmişdir [4, s.77].

Müəllifin fikrincə, Yeni iqtisadi siyasətin tətbiq edilməsi, əməyi həvəsləndirən maddi stimulların rolunun azaldılması, inzibati amirlik metodlarına üstünlük verilməsi təsərrüfatlara ziyan vurmağa, eyni zamanda RK(b)P VIII qurultayının müəyyən etdiyi prinsiplərin kollektivləşmə zamanı unudulmasına səbəb olmuşdur [1, s. 82-83]. C.Cəfərov fikrini əsaslandırmaq üçün S.M.Əfəndiyevin məqaləsinə istinad etmişdir [2, s.229-230]. Dövrün xüsusiyyətlərini xarakterizə edən C.Cəfərov belə nəticəyə gəlmişdir ki, qolçomaqlara qarşı münasibət Sovet hakimiyyətinin mahiyyətindən irəli gəlir [1, s. 86]. Azərbaycanın inkişaf xüsusiyyətləri və milli adət-ənənələri kənddə sovetlərə siyasətin həyata keçirilməsinə əngəl olan amillərə çevrilmişdir [1, s. 90].

C.Cəfərov Bakı fəhlələrinin Azərbaycan kəndlilərinə köməyi ilə bağlı məsələni diqqətdən kənarda qoymamışdır. Bununla bağlı o, İ.Stalinin Azərbaycan haqqında dediyi fikri – "Bakını çıxmaq şərti ilə Azərbaycan feodal-patriarxal bir ölkə olmuşdur" qeyd etmişdir [1, s.107]. Bu fikir, əslində, mərkəzin Azərbaycan haqqında mövqeyi olmaqla yanaşı, eyni zamanda Azərbaycandakı real vəziyyəti əks etdirir, kollektivləşmə prosesində rastlanan çətinliklərin haradan və hansı mənbədən qaynaqlandığını göstərirdi. Bu baxımdan düzgün təsərrüfatçılıq yolunun seçilməməsi, əsrlərlə formalaşmış kənd təsərrüfatının dəyişilməsi və fərqli formaya keçirilməsini göstərmək mümkündür.

C.Cəfərovun fikrincə, kollektivləşmə dövründə Azərbaycan kəndi üçün xarakterik şərait və imkanlar nəzərə alınmadan atılan yanlış addımlar, buraxılan səhvlər təhlil edilmədən "kənd irəli aparılmış", nəticədə siyasi və iqtisadi böhran vəziyyəti "yaradılmışdır" [1, s. 207]. Müəllif apardığı tədqiqat nəticəsində əldə etdiyi nəticələri qruplaşdırmışdır. Tədqiqat nəticəsində gəlinən nəticələrdən biri ondan ibarətdir ki, SSRİ ərazisində olduğu kimi, Azərbaycanda da digər təsərrüfat formaları ilə yanaşı az miqdarda kolxoz yaradılmışdır. Lakin göstəriş əsasında yaradılan kolxozlar iqtisadi deyil, siyasi "dayaqlar"a malik olduğuna görə, rəqabətə tab gətirə bilmirdi [1, s. 207].

Ölkədə əsas diqqət sənayeləşməyə verildiyi, savadlı kadrlar olmadığı, kollektivləşmə üçün lazımi vəsait ayrılmadığı, ümumilikdə, kollektivləşmə üçün lazımi şərait yetişmədiyinə görə [1, s. 207-208] bu sahədə qazanılan "uğurlar" daha çox siyasi xarakter daşımışdır. Bu vəziyyət öz bariz nümunəsini "fövqəladə qanunların verilməsi"ndə tapmışdır [1, s. 208].

Müəllif Azərbaycan kəndində kollektivləşməyə marağın olmamasının tarixçəsini vurğulamışdır. Rus və Azərbaycan kəndlərini müqayisə edən C.Cəfərov bunun səbəbini icmaların varlığı ilə izah etmişdir [1, s. 208]. O göstərir ki, rus kəndində uzun müddət kəndli icması fəaliyyət göstərmişdir. Bunun əksinə olaraq, Azərbaycanda icma çox zəif olmuşdur [1, s. 208]. Fikrimizcə, əsasən, aqrar ölkə olan Azərbaycanda icmanın zəif olması fikri bir qədər fərqli səslənə bilər. Hətta müasir dövrdə icma strukturunun siyasi idarəçiliyə cəlb olunması aparıcı dövlətlərdə də müşahidə olunur. "Bakını çıxmaq şərti ilə ... feodal – patriarxal bir ölkə olan" Azərbaycanda icmanın zəif olması bir qədər yanlışdır.

Eyni zamanda C.Cəfərov Azərbaycanın sənaye mərkəzi olan Bakıda fəhlələrin tərkibinin çoxmillətli olması, çarizmin müstəmləkə siyasətinə uyğun milli ədavət mühiti formalaşdırması və çoxmillətli fəhlə sinfi ilə Azərbaycan kəndliləri arasında əlaqələrin zəif olması kimi real faktların ictimai proseslərə mənfi təsirini vurğulamışdır.

Bir tərəfdən, kollektivləşmə üçün zəmin olmadığı mühitdə partiya təşkilatlarının zəif olması, digər tərəfdən, kollektivləşmənin sərt qaydalarla aparılması xoşagəlməz hallara gətirib çıxarmışdır [1, s. 209]. Bu vəziyyət kolxozların fərdi təsərrüfatların hesabına yaradılması ilə müşayiət olunmuşdur. Bu faktlar dünya və ölkə ictimaiyyətindən gizlədilmiş, xaricdə nəşr olunan məlumatlar isə inkar edilmişdir [1, s. 212]. Əslində, qeyd olunan faktlar düzgün qiymətləndirilməli, doğru həll olunmalı və hadisələr bu səviyyəyə çatdırılmamalı idi. Müəllif göstərilən faktları müxtəlif tarixi mənbələr və ədəbi əsərlərdən gətirilən iqtibaslarla şərh etməyə çalışmışdır.

Elmi nəticə: Azərbaycan xalqı özünəməxsus tarix yaratmışdır. Burada müxtəlif sahələr, xüsusilə kənd təsərrüfatı sahəsində dəyişikliklər baş vermiş və onlar bu sahənin gələcək inkişaf istiqamətini müəyyən etmişdir. Azərbaycan kəndinin XX əsrin 20-30-cu illərində keçdiyi yol problemlərin yeni dövrün prizmasından araşdırılmasını zəruri edir. Yeni iqtisadi siyasət dövründə aqrar münasibətlər, sinfi mübarizə aqrar sahədə həyata keçirilən tədbirlərin nəticələri və s. məsələlərin öyrənilməsi düzgün olmalı, kompleks yanaşma əsas götürülməli, çatışmazlıqlara diqqət yetirilməlidir. Bu baxımdan C.Cəfərovun kitabı əhəmiyyətə malikdir. Müəllif özündən əvvəlki mənbələri kənara qoymamış, dəyərsizləşdirməmiş, əksinə qiymətli məxəz kimi öz dəyərlərini saxladığını qeyd etmişdir. Müəllif ondan sonra eyni mövzunu işləyən müəlliflərin əsərləri, müxtəlif fikirləri və elm adamlarının çıxışlarına elmi baxımdan yanaşmış, siyasi orientasiyasından asılı olmayaraq, yalnız dünyagörüşü, elmi biliklər və obyektivlik mövqeyini əsas götürmüşdür. Qeyd olunan məsələlər kitabın dəyərini artırmış və onun actuallığını şərtləndirmişdir.

İşin elmi yeniliyi: Azərbaycan tarixinin sovet dövründə kənd təsərrüfatının inkişafı ilə bağlı çox sayda tədqiqat mövcud olsa da, onlarla tanışlıq bu sahədə çatışmazlıqların olduğunu göstərir. Müasir dövrdə tədqiqatlara qoyulan tələblərin fərqli olması və ideoloji dəyişikliyi nəzərə almaq lazımdır. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, müasir dövr Azərbaycan tarixşünaslığında XX əsrin 20-30-cu illərində baş verən hadisələrin yeni dövrün tələbləri əsasında qiymətləndirilməsinə münasibət bildirilmişdir.

İşin tətbiqi əhəmiyyəti: Azərbaycan tarixinin mürəkkəb dövrü olan sovet kəndinin qurulması mərhələsi əksəriyyəti kənd əhalisi olan xalqın tarixində nəzərəçarpacaq rol oynamışdır. Azərbaycanda aqrar sahənin inkişaf qanunauyğunluqlarını düzgün başa düşmək və hadisələri müasir dövrün tələblərinə uyğunlaşdırmaq üçün məqalədə münasibət bildirilən əsərə müraciət edilməsi məqsədəuyğundur. Məqalə Azərbaycan tarixinin öyrənilməsi prosesində bakalavriat və magistratura pillələrində, həmçinin bu dövr üzrə mütəxəssislər və Azərbaycan tarixi ilə maraqlananlar tərəfindən istifadə oluna bilər.

Ədəbiyyat

1. Cəfərov, C. Azərbaycan kəndi kollektivləşmə illərində (1920-ci illərin sonu – 30-cu illər) / C.Cəfərov, – Bakı: Elm, – 2008. – 300 s.
2. Əfəndiyev, S.M. Yoxsul və ortabab kəndlilərə hökm etmək – partiya xəttinin kobud şəkildə təhrif edilməsi və proletar diktaturasına qarşı ən ağır cinayətdir // Seçilmiş əsərləri. – c. 2. Bakı: Azərnəşr, –1990. – 396 s.
3. Mustafayeva, Z.V. Azərbaycanda müdafiə olunmuş dissertasiyaların biblioqrafiyası (1920-1975). I hissə / Humanitar elmlər. – Bakı: Elm, – 1981. – 402 s.
4. Rəsulzadə, M.Ə. İ.V.Stalinlə ixtilal xatirələri / M.Ə.Rəsulzadə, – Bakı: Elm, – 1991. – 80 s.
5. Tariximizin açılmamış səhifələri. Kollektivləşmə: "Yuxarıdan inqilab" və reallığın acılığı // Kommunist qəzeti. – 1990, 25 iyul. – s .2.

A.A.Mehdiyeva

The Interesting Historical Source

Summary

The history of Azerbaijan is rich with interesting events. The history of this country in the 20s and 30s of the 20thcentury is still being studied by various historians. The researchers evaluated the events happened in Azerbaijani village at the mentioned stage differently. Among the works devoted to the study of those events, it is necessary to mention the book of J.Jafarov. In the book the topic was investigated by the researcher, new ideas based on numerous sources, were put forward the achievements and mistakes made during the construction of Azerbaijani village were shown. The collectivization of agriculture and the realities following years have been emphasized as an obstacle to the development of agriculture in Azerbaijan. These measures have caused protests, resistance and

rebellions in the country. Although the administrative – command system ruling in the country justified itself for a while, the mistakes made during the formation of the system eventually showed its incorrected one.

Key words: *Azerbaijan, politics, village, collectivization, obligation, historical experience*

А.А.Мехтиева

Интересный исторический источник

Резюме

История Азербайджана богата интересными событиями. История этой страны в 20-30-х годах XX века до сих пор является предметом изучения различными историками. Исследователи по-разному оценили события, произшедшие в азербайджанском селе на данном этапе. Среди работ, посвященных изучению тех событий, следует упомянуть книгу Дж.Джафарова. В книге исследователем изучена тема, выдвинуты новые идеи, на основе многочисленных источников показаны достижения и ошибки, допущенные при строительстве азербайджанского села. Коллективизация сельского хозяйства и вызванные и ее реалии в последующие годы были подчеркнуты как препятствие для развития сельского хозяйства в Азербайджане. Эти меры вызвали в стране протесты, сопротивление и беспорядки. Хотя правящая в стране административно – командная система какое – то время себя оправдывала, однако недостатки, допущенные при формировании системы, показали ее ошибочность.

Ключевые слова: *Азербайджан, политика, деревня, коллективизация, обязательство, исторический опыт*

Rəyçi: dos. Ə.X.Əhmədov

Redaksiyaya daxil olub: 01.04.2025

A.Ə.RƏCƏBOVA
siyasi elmlər üzrə fəlsəfə doktoru,dosent
e-mail: aide.recebovaa@gmail.com
:https://orcid.org/0009-0008-2819-8270

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA ƏSAS EHTİYATLAR VƏ VASİTƏLƏR

Xülasə. *Məqalədə Azərbaycanın milli təhlükəsizliyinin təmin olunması məsələsi müxtəlif aspektlərdən təhlil olunur. Tarixi kontekstdə ölkənin müstəqilliyini bərpa etdiyi 1991-ci ildən sonra qarşılaşdığı təhlükələr, xüsusilə də Qarabağ münaqişəsi fonunda milli təhlükəsizlik siyasətinin formalaşmasında mühüm rol oynamışdır. Ümummilli lider Heydər Əliyevin dövlətçiliyin əsaslarını möhkəmləndirməsi və sabitliyin təmin olunması sahəsindəki xidmətləri vurğulanır. Onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, beynəlxalq münasibətlər sistemində yerinin möhkəmləndirilməsi və 2020-ci ildə İkinci Qarabağ müharibəsində əldə edilən zəfər, Azərbaycanın milli təhlükəsizliyinin təmini baxımından mühüm dönüş nöqtəsi kimi qiymətləndirilir. Məqalədə həmçinin milli təhlükəsizlik konsepsiyasının yalnız hərbi sahə ilə məhdudlaşmadığı, iqtisadi, siyasi, informasiya və sosial sahələrlə də sıx bağlı olduğu qeyd olunur. Sonda vurğulanır ki, Azərbaycan bu gün öz təhlükəsizliyini təmin etmək üçün kifayət qədər ehtiyatlara və vasitələrə malikdir və gələcəkdə bu sistemin daha da təkmilləşdirilməsi əsas prioritetlərdən biri olmalıdır.*

Açar sözlər: *aspekt, strateji ehtiyatlar, hərbi güc, siyasi stabillik, təhlükəsizlik konsepsiyası, geosiyasi risklər*

"Milli təhlükəsizlik, yalnız dövlətin mövcudluğunu qorumağın deyil, həm də xalqın rifahını təmin etməyin, sabitlik və inkişaf yolunda irəliləməyin təməl daşını təşkil edən bir məsələ olaraq tarix boyu hər zaman əsas əhəmiyyət kəsb etmişdir" [2, s.134].

Azərbaycan Respublikasının milli təhlükəsizliyi ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və daxili sabitliyini qorumağa yönəlmiş mühüm strateji sahədir. Dövlətin təhlükəsizliyi təkcə hərbi güclə deyil, həm də siyasi, iqtisadi, informasiya və sosial sahələrdə dayanıqlı sistemlərə malik olmaqla təmin edilir.

Müasir dövrdə təhlükəsizlik anlayışı təkcə sərhədlərin qorunması ilə məhdudlaşmır. Bu həm də informasiya axınına nəzarət, vətəndaşların rifahı, siyasi sabitlik və iqtisadi inkişafla birbaşa əlaqəlidir. Azərbaycanın yerləşdiyi regionda mövcud olan geosiyasi risklər və Ermənistanla olan münasibətlər bu sahənin daim aktual qalmasına səbəb olur.

Ölkənin xarici siyasət strategiyası da təhlükəsizlik məsələlərinə birbaşa təsir göstərir. Dövlət həm regional, həm də beynəlxalq səviyyədə öz mövqeyini möhkəmləndirmək üçün müxtəlif diplomatik vasitələrdən istifadə edir. Xüsusilə, Azərbaycanın beynəlxalq tərəfdaşlarla qurduğu münasibətlər, xarici dövlətlərlə bağladığı hərbi və iqtisadi sazişlər bu sahədə əhəmiyyətli rol oynayır.

Eyni zamanda, daxildə ictimai sabitliyin qorunması və əhalinin dövlətə olan inamı da təhlükəsizliyin mühüm dayaqları sırasındadır. İnsanların dövlət institutlarına güvəni, hüquqmühafizə orqanlarının fəaliyyəti və vətəndaş cəmiyyətinin dəstəyi bu sistemin əsas sütunları sayılır.

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, milli təhlükəsizliyin qorunması ön plana çıxmağa başladı. Sovet İttifaqının dağılması ilə yaranan yeni siyasi şəraitdə Azərbaycanın qarşılaşdığı ən böyük çətinliklərdən biri ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qorumaq idi. Bu dövrün ən əhəmiyyətli hadisələrindən biri də Qarabağ münaqişəsinin başlanması oldu.

1988-ci ildən etibarən Dağlıq Qarabağda başlayan münaqişə, Azərbaycanın milli təhlükəsizliyi üçün ciddi təhdid yarada biləcək bir vəziyyətə gəlib çatdı. Münaqişə nəticəsində Azərbaycan əraziləri işğal olundu və yüz minlərlə insan evini tərk edərək qaçqın vəziyyətinə düşdü. Müharibə, həmçinin ölkənin daxili sabitliyinə ciddi təsir göstərdi və Azərbaycanın həm hərbi, həm də diplomatik sahələrdə möhkəm bir dayanacaq yaratmasını tələb etdi.

1994-cü ildə imzalanan atəşkəs razılaşması, münaqişənin dayandırılmasında mühüm addım olsa da, bu yalnız müvəqqəti bir həll idi və Qarabağ məsələsi hələ də tam həllini tapmamışdır. Atəşkəsin əldə edilməsi Azərbaycanın milli təhlükəsizliyini bir müddət qorusa da, ərazi bütövlüyünün bərpası hələ də böyük bir çağırış olaraq qalır.

Azərbaycanın müdafiə siyasəti, ölkənin ərazi bütövlüyünü təmin etmək və milli təhlükəsizliyi qorumaq məqsədilə həyata keçirilən bir sıra islahatları əhatə edir. 2000-ci illərin əvvəllərindən etibarən, Azərbaycan hərbi sahədə müasir texnologiyaların tətbiqinə və ordunun gücləndirilməsinə xüsusi diqqət yetirmişdir. Bu addımlar, Azərbaycanın milli təhlükəsizliyini təmin etmək və ölkənin müstəqilliyini qorumaq adına çox vacibdir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyi həm daxili, həm də xarici amillərin təsiri altında formalaşır. Xarici siyasət bu təsir edən amillər arasında mühüm yer tutur. Dövlətin apardığı diplomatik fəaliyyətlər, beynəlxalq münasibətlər sistemində tutduğu mövqe və xarici tərəfdaşlarla qurduğu əlaqələr təhlükəsizlik baxımından ciddi əhəmiyyət daşıyır.

Xüsusilə, Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionu həssas geosiyasi vəziyyətə malikdir. Ermənistanla olan münaqişə, regionda marağı olan böyük dövlətlərin fəallığı, enerji layihələri və nəqliyyat dəhlizləri bu ərazidə sabitliyi pozan və eyni zamanda təhlükəsizlik baxımından əlavə tədbirlər tələb edən əsas faktorlardır.

Azərbaycan bu çətinliklərə baxmayaraq, balanslaşdırılmış xarici siyasət yürüdür. Bir tərəfdən region dövlətləri ilə mehriban qonşuluq münasibətləri qurmağa çalışır, digər tərəfdən isə strateji tərəfdaşlıq etdiyi dövlətlərlə hərbi, iqtisadi və informasiya təhlükəsizliyi sahələrində əməkdaşlıq edir. Bu yanaşma dövlətin təhlükəsizlik ehtiyaclarını qarşılamada vacib vasitə kimi çıxış edir.

Təhlükəsizlik baxımından beynəlxalq təşkilatlarla əməkdaşlıq da xüsusi önəm daşıyır. BMT, ATƏT, NATO ilə qurulan əlaqələr, eyni zamanda ikitərəfli formatda aparılan danışıqlar, Azərbaycanın təhlükəsizlik sistemini gücləndirir və mümkün risklərin qarşısının alınmasında dövlətə əlavə dayaq verir.

Milli təhlükəsizliyin əsas sütunlarından biri də daxili sabitlikdir. Azərbaycanda ictimai asayişin qorunması, hüququn aliliyi, qanunvericiliyin tətbiqi və vətəndaşların hüquqlarının təmin edilməsi bu sahədə vacib addımlardır.

Daxili sabitliyin təmin olunmasında hüquq-mühafizə orqanlarının rolu böyükdür. Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və digər qurumlar təhlükəsizlik sisteminin əsas icraçılarındandır. Onların fəaliyyəti həm terrorizmə, həm də separatçılığa qarşı mübarizədə, informasiya təhlükəsizliyinin qorunmasında və ümumi ictimai sabitliyin təminində əsas rol oynayır.

Sosial ehtiyatlar da təhlükəsizliyin tərkib hissəsidir. Əhalinin rifah halı, iş yerlərinin olması, gənclərin təhsilə və məşğulluğa cəlb olunması daxildə narazılığın qarşısını alan mühüm faktorlardandır. Sosial siyasət nə qədər güclü olarsa, daxili təhlükəsizliyi pozmaq istəyən qüvvələrin təsir dairəsi bir o qədər zəifləyir.

Eyni zamanda, vətəndaş cəmiyyətinin inkişafı və azad medianın mövcudluğu da sabitlik üçün müsbət təsir yaradır. Dövlətin insan hüquqlarına hörmət etməsi, şəffaf idarəetmə sistemlərinin qurulması və ictimai rəyə diqqət yetirməsi daxili sabitliyin qorunmasına xidmət edir.

Milli təhlükəsizliyin təminatında ən önəmli vasitələrdən biri ordu və hərbi gücdür. Azərbaycan Respublikası uzun illər ərzində öz silahlı qüvvələrini müasir standartlara uyğun şəkildə yenidən qurmuş, hərbi-texniki təminatı gücləndirmiş və şəxsi heyətin peşəkarlığını artırmışdır.

Azərbaycanda təhlükəsizlik lazımi səviyyədə təmin edilir.

Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır.

Xüsusilə, indiki şəraitdə, – dünyada gedən prosesləri biz görürük, – bu, yüksək qiymətə layiq olmalıdır" [2, s.102].

Ölkəmizin ən böyük təhlükəsizlik problemi olan Qarabağ münaqişəsi, illərlə müdafiə sisteminin gücləndirilməsinə təkan vermişdir. 2020-ci ildə Vətən müharibəsində əldə olunan qələbə göstərdi ki, Azərbaycan hərbi sahəyə qoyduğu sərmayənin nəticəsini ala bilmişdir. Bu qələbə təkcə ərazi bütövlüyünü bərpa etməklə deyil, həm də regionda balansı dəyişməklə ölkənin təhlükəsizlik sahəsində yeni mərhələyə keçməsinə səbəb oldu.

Silahlı Qüvvələrin döyüş qabiliyyəti, hərbi təlimlərin mütəmadi keçirilməsi, müasir texnologiyaların tətbiqi və müxtəlif ölkələrlə hərbi əməkdaşlıqlar Azərbaycanın təhlükəsizlik potensialını artırır. Bu yalnız müharibə zamanı deyil, həm də sülh dövründə qarşıdurmaların qarşısının alınmasında mühüm vasitədir.

Azərbaycanın təhlükəsizlik sistemi təkcə silahla və ya hüquqla deyil, eyni zamanda iqtisadi dayanıqlılıqla da sıx bağlıdır. Ölkə iqtisadiyyatı nə qədər sabit və güclü olarsa, xarici və daxili təhdidlərə qarşı müqavimət də bir o qədər artır.

Azərbaycan neft və qaz ehtiyatları ilə tanınır. Bu ehtiyatlar təkcə iqtisadi inkişafın deyil, eyni zamanda milli təhlükəsizliyin təminatında da xüsusi rola malikdir. Enerji layihələri vasitəsilə ölkə beynəlxalq arenada strateji mövqeyə çıxmışdır. Bakı-Tbilisi-Ceyhan, TAP və TANAP kimi boru kəmərləri Azərbaycanın dünya enerji bazarındakı rolunu gücləndirməklə yanaşı, onu beynəlxalq təhlükəsizlik sisteminin ayrılmaz hissəsinə çevirir.

Eyni zamanda, iqtisadi sabitlik daxili sabitlik üçün də əsasdır. Dövlət büdcəsinin əsas hissəsini təşkil edən enerji gəlirləri ilə sosial layihələr, infrastruktur, ordu və təhlükəsizlik sahəsi maliyyələşdirilir. Bundan əlavə, qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatı və sənaye sahəsində atılan addımlar da təhlükəsizlik baxımından iqtisadi diversifikasiyanın vacibliyini göstərir.

Müasir dövrdə informasiya və kiberməkan da milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu gün dövlətlərin müharibələri yalnız silahla deyil, həm də məlumat üzərindən – dezinformasiya, kiberhücumlar və informasiya manipulyasiyası vasitəsilə aparılır.

Azərbaycan üçün informasiya təhlükəsizliyi, xüsusilə münaqişə dövrlərində prioritet mövzu olmuşdur. Xarici qüvvələrin ölkəyə qarşı apardığı informasiya müharibəsi, təxribat xarakterli xəbərlər və sosial media vasitəsilə təsir cəhdləri dövlətin bu sahədə dayanıqlı sistemlər qurmasını zəruri edib.

Dövlət bu istiqamətdə həm texniki, həm də hüquqi addımlar atır. İnformasiya resurslarının qorunması, internet üzərindən yayılan təxribatların qarşısının alınması və əhali arasında media savadlılığının artırılması üçün müxtəlif proqramlar həyata keçirilir. Kibertəhlükəsizlik üzrə milli strategiya hazırlanmış və müvafiq qurumlar bu sahədə ixtisaslaşdırılmışdır.

Bununla yanaşı, informasiya təhlükəsizliyi vətəndaşların şəxsi məlumatlarının qorunması, dövlət qurumlarının rəqəmsal sistemlərinin müdafiəsi və strateji sahələrin təhlükəsizliyini də əhatə edir. Çünki bu sahədəki zəifliklər bütövlükdə milli təhlükəsizliyə zərbə vura bilər. Azərbaycan Respublikasının milli təhlükəsizliyi təkcə hərbi və diplomatik səylərlə deyil, həm də cəmiyyətin müxtəlif təbəqələrinin, dövlət qurumlarının və vətəndaşların birgə iştirakı ilə qorunur. Bu baxımdan milli birliyə və sosial həmrəyliyə töhfə verən ictimai təşkilatlar, könüllü birliklər və qeyri-hökumət qurumları mühüm rol oynayır.

Milli təhlükəsizliyin təmin olunmasında ictimai birliklərin rolu az qala hər sahədə özünü göstərir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, milli maraqların müdafiəsi, informasiya savadlılığının artırılması və cəmiyyətin dövlət siyasətinə dəstəyi bu birliklərin fəaliyyət istiqamətləri arasındadır. Xüsusilə müharibə dövrlərində bu təşkilatların həm informasiya cəbhəsində, həm də humanitar dəstək sahəsində aktiv olmaları, onların təhlükəsizlik sistemindəki yerini göstərmişdir.

Bundan əlavə, Azərbaycanın mədəni-mənəvi irsi də təhlükəsizlik baxımından vacib ehtiyat sayılır. Bu yalnız tarixi abidələr və incəsənət nümunələri ilə məhdudlaşmır. Milli kimlik, dil, din, adət-ənənələr və ailə institutları cəmiyyətin dayaqlarındandır və onların qorunması eyni zamanda sosial sabitliyin təminatıdır. Xarici təsirlərə qarşı milli immunitet rolunu oynayan bu dəyərlər, ictimai parçalanma təhlükəsinə qarşı ən mühüm maneələrdən biridir.

Bu istiqamətdə dövlətin mədəniyyət siyasəti, təhsil proqramlarında milli dəyərlərin yer alması, ailə və gənclik məsələlərinə diqqət və media vasitəsilə maarifləndirmə fəaliyyəti də təhlükəsizliyin daxili sütunlarından birini təşkil edir. Həmçinin dinin cəmiyyətə müsbət təsiri, dini radikalizmdən qorunmaq üçün həyata keçirilən tədbirlər də bu sistemin vacib hissəsidir.

Gənclər isə dövlətin gələcəyi olmaqla yanaşı, bu günün də təhlükəsizliyində həlledici rola malikdirlər. Onların düzgün istiqamətləndirilməsi, təhsilə, idmana və ictimai fəaliyyətə cəlb olunması, eyni zamanda milli ideologiya ilə yetişdirilməsi sabahın sabit və güclü cəmiyyətinin əsasını qoyur. Gənclər siyasətində bu istiqamətlərə xüsusi önəm verilməsi, təhlükəsizliyin sosial dayaq nöqtəsini formalaşdırır.

Hazırda dünya çox sürətlə dəyişir. Geosiyasi dəyişikliklər, texnoloji inkişaf və informasiya müharibələri dövlətləri daim hazırlıqlı olmağa məcbur edir. Azərbaycan da bu dəyişikliklər fonunda öz milli təhlükəsizlik sistemini mütəmadi olaraq yeniləməli, strateji ehtiyatlarını qorumalı və yeni vasitələr hazırlamalıdır.

Gələcəkdə informasiya texnologiyaları, süni intellekt və kiberməkan daha geniş rol oynayacaq. Buna görə də milli təhlükəsizlik konsepsiyası da bu istiqamətdə inkişaf etdirilməlidir. Dövlətin informasiya siyasəti, vətəndaşların kiber savadlılığı və texnoloji müstəqillik kimi məsələlər yaxın illərin əsas prioritetləri olmalıdır.

Bütün bu amilləri nəzərə aldıqda demək olar ki, milli təhlükəsizlik sadəcə sərhədləri qorumaqdan ibarət deyil. O hər bir sahəyə toxunan geniş bir anlayışdır. Təhlükəsizlik məsələlərinə kompleks yanaşmaq, müxtəlif ehtiyat və vasitələri düzgün idarə etmək Azərbaycanın bu gününü və sabahını daha güvənli edir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması məqsədilə qəbul edilən strateji sənədlər bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir. "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası" bu sənədlər arasında mühüm yer tutur. Bu konsepsiyada milli maraqlar, təhdidlər, ehtiyatlar və tədbirlər açıq şəkildə müəyyən olunmuşdur.

Dövlət bu konsepsiyada qeyd olunan istiqamətlərə uyğun olaraq, təhlükəsizlik sahəsində sistemli fəaliyyət göstərir. Məsələn, ərazi bütövlüyünün qorunması, ictimai-siyasi sabitliyin saxlanılması, iqtisadi təhlükəsizliyin təmin olunması və xarici müdaxilələrin qarşısının alınması kimi məsələlər xüsusi diqqətdə saxlanılır.

Bundan əlavə, Azərbaycan Respublikasının "Hərbi Doktrinası", "Mülki Müdafiə Planı", "Kibertəhlükəsizlik Strategiyası" və digər sahələrə aid sənədlər də milli təhlükəsizlik sistemini gücləndirən normativ əsaslardır. Bu sənədlər dövlət orqanlarının koordinasiyasını təmin edir və fövqəladə hallarda necə davranmalı olduqları ilə bağlı aydın mexanizmlər təqdim edir.

